AZƏRBAYCAN

QƏZETİ

1918-1920-ci illərdə nəşr olunmuş
"Azərbaycan" qəzetinin tam külliyyatı

20 cilddə

IV CİLD

(Yanvar 1919)



UNİVERSİTET ◦ UNIVERSITY
ADA

AZƏRBAYCAN

QƏZETİ

1918-1920

IV CİLD

(Yanvar 1919)

TRANSLİTERASİYA EDƏNLƏR

Mehdi Gəncəli
Filologiya üzrə fəlsəfə doktoru

Azad Ağaoğlu
Filoloq, tərcüməçi

ELMİ REDAKTOR

Teymur Kərimli
Akademik

ADA Universitetinin
təşəbbüsü və dəstəyi ilə nəşr edilir.

MÜNDƏRİCAT

Ön söz

Oxucuların diqqətinə

Nömrə 76 (1 yanvar 1919) **1**
Nömrə 77 (2 yanvar 1919) **21**
Nömrə 78 (3 yanvar 1919) **41**
Nömrə 79 (5 yanvar 1919) **61**
Nömrə 80 (6 yanvar 1919) **81**
Nömrə 81 (7 yanvar 1919) **101**
Nömrə 82 (8 yanvar 1919) **121**
Nömrə 83 (9 yanvar 1919) **141**
Nömrə 84 (10 yanvar 1919) **159**
Nömrə 85 (12 yanvar 1919) **179**
Nömrə 86 (13 yanvar 1919) **199**
Nömrə 87 (14 yanvar 1919) **219**
Nömrə 88 (15 yanvar 1919) **239**
Nömrə 89 (16 yanvar 1919) **259**
Nömrə 90 (17 yanvar 1919) **279**
Nömrə 91 (19 yanvar 1919) **299**
Nömrə 92 (20 yanvar 1919) **319**
Nömrə 93 (21 yanvar 1919) **339**
Nömrə 94 (22 yanvar 1919) **359**
Nömrə 95 (23 yanvar 1919) **379**
Nömrə 96 (24 yanvar 1919) **399**
Nömrə 97 (26 yanvar 1919) **417**
Nömrə 98 (27 yanvar 1919) **437**
Nömrə 99 (28 yanvar 1919) **457**
Nömrə 100 (29 yanvar 1919) **477**
Nömrə 101 (30 yanvar 1919) **497**
Nömrə 102 (31 yanvar 1919) **517**
Adlar göstəricisi **535**

ÖN SÖZ

ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək, lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da (mərhum professor Şirməmməd Hüseynovun çalışmaları xüsusilə yada salınmalıdır), "Azərbaycan" qəzeti kimi mühüm bir nəşrin müasir oxucu üçün əlçatan olmasını təmin edəcək bu səviyyədə bir iş, 30 illik müstəqillik dövründə həyata keçirilməmişdir.

"Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də, Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və

Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir.

“Azərbaycan” qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır.

Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən ADA Universiteti qürur duyur.

Hafiz PAŞAYEV,
ADA Universitetinin Rektoru

OXUCULARIN DİQQƏTİNƏ

"Azərbaycan" qəzetini transliterasiya edərkən, mətnin orijinallığını qorumaqla birgə, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışdıq. Bu səbəbdən, bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəldi. Məsələn, "çox" yerinə qəzetdəki kimi "çoq", "yox" yerinə "yoq", "etməyi" yerinə "etməgi", "kimi" yerinə "kibi", "nömrə" yerinə "numero" və s. yazmaq, oxucunun işini çətinləşdirməkdən başqa bir şeyə yaramayacaqdı. Üstəlik, bu sözlərin fərqli yazılışları qəzetdə bəzən eyni səhifədə yanaşı istifadə edilmiş, yəni imla birliyi prinsipi nəzərə alınmamışdı. Bu qəbildən olan sözlərin müasir yazılışına üstünlük verməyin, daha doğru bir addım olacağına inandıq.

Eyni zamanda, "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunmadıq. Çünki əvvəla, bu sözlər qəzetdə həmişə eyni cür yazılmışdır; ikincisi də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Osmanlı türkcəsində və müasir Türkiyə türkcəsində indiki zaman şəkilçisi olan "-yor" qəzetdə qaydasız və pərakəndə bir şəkildə işləndiyi üçün (eyni cümlədə həm "-yor", həm "-ır, -ir, -ur, -ür" şəkilçisindən istifadə edildiyini görmək mümkündür) mətndən çıxarılmışdır. Şeir parçalarında vəznin pozulmasına yol verməmək üçün "-yor" şəkilçisinin saxlandığı istisnalar da var.

Yer adlarını, fərqli versiyaların işlənməsi baxımından (Bolqarıstan – Bolqariya, Lehistan – Polşa, Macarıstan – Venqriya və s.) qəzetdəki kimi saxladıq, fəqət yazılış baxımından müasirləşdirdik ("Bulqarıstan" yerinə "Bolqarıstan", "Kiyef" yerinə "Kiyev" və s.). Eləcə də, "Bakü" yerinə bugünkü kimi "Bakı" yazdıq. Soyadı sonluqlarını da ("-of", "-yef" və s.) müasirləşdirməyi ("-ov", "-yev" və s.) məqsədəuyğun hesab etdik.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etməyi münasib görmədik. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğunu mətnin içində kvadrat mötərizədə göstərdik. Bu halda, kvadrat mötərizədəki sözlər normal mətndən daha kiçik şriftlə verilmişdir. Məsələn: “...xəstəliklərin bittamam rəf’inə [tamamilə aradan qaldırılmasına] qədər...” Qəzetdəki mətndə səhvən buraxılan sözləri də kvadrat mötərizə içində əlavə etdik. Bu halda, kvadrat mötərizədəki sözlərlə normal mətnin şrifti eynidir. Məsələn: “...Xarici [İşlər] nazirinin...”

Hər nömrədən sonra əlavə edilən “Qeyd və şərhlər”də, oxucular üçün faydalı məlumatlar yer alır. Qəzetdəki mürəttib xətalarından bəziləri (xüsusilə əhəmiyyətli olanları) də burada göstərilmişdir. Əlbəttə, bütün xətaları göstərmək lazım və mümkün deyildi. Xüsusilə Birinci Dünya müharibəsində Qərb cəbhəsi xəbərlərində keçən toponimlər qəzetdə demək olar ki, həmişə səhv yazılmışdır. Bu toponimlər mümkün qədər bərpa edilmiş, eləcə də “Adlar göstəricisi”nə əlavə edilərkən, toponimin aid olduğu dildəki yazılışı da verilmişdir.

Şeir parçalarında rastlanan çətin anlaşılan söz və ifadələrin lüğəti də “Qeyd və şərhlər” bölməsində verilmişdir.

Cildin sonunda “Adlar göstəricisi” verilmişdir. Mətndəki bütün şəxs, yer, dövlət, xalq, qurum, idarə, təşkilat, şirkət və s. adları, hətta bəzi xüsusi terminlər “Adlar göstəricisi”nə daxil edilmişdir.

Mehdi Gəncəli **Azad Ağaoğlu**

یکشنبه ۸ دی‌الحجه ۱۳۳۶ — برابر ۸ دوازدهمی — صفحه ۱

آذربایجان

هفته‌نامه‌ایست ۲۰ دفعه‌ئی اولان سیاسی، علمی و اقتصادی کورکا طرفه‌مجبور.

محل ادارسی:
گنجه ۵ آذربایجان ۵ ادارسی
تلفن سحیسی ۱ رویه‌دیر

کورک و املاسه عید ادلاره
۵ آذربایجان ۵ محمدلارغه آ چیقیر.
درج اولونمیان کورکلی درج اولونمای.
آبونه شرائطی: بولوکریه‌دن گیچمه‌ده
۳۰ روبه، ۳ آیلی ۸ روبله:
باشقه یرلر ایچون:
۴۰ روبه، ۳ آیلی: ۱۰ روبله

اعلان

عسکرلیکه آلناجقلرده ۱۸۹۷ دوغوشلو مسلمان، باشقیرلر همینلکله عسکرلیکه آلینمیه‌جقلرینی و اوزلرینه عسکرلیکدن آزاده اولدقلرینی گوسترن بر بیانه سلاحیه جیورودو، یازیلرینه، بونه بر بیانه‌ای اولمیان شخصلر عسکرلیکدن بونون ایچرسنی حساب ولتاندق و بونلر پولوس طرفندن توقیف ایدیله‌جکلرندر.

داعیه دئری بیهوده جان جوشتیر

زیردنده سکدان بلی قوینشی شیارینک آلتنا توردیغ باشوه دلده بر صورقه بونه توقیعی اشخاص خو لیقری بلا تاخیر اقدو سه سطیارینک (۱۰) اونجی گیچ اولدیاری گنجه ولایتی برلی ادارسنه ویرمکه دعوت اولونیورلر . چونکه برلیر مذکور تاریخدن صوکرا تشکیلات پیچیده‌جه دلدرلنده، دلالت دئیلر غیر مشاره اولدیغی حالده تشریفی برلی ادارة عرفیه طرفندن ایدلمه جزاسه دوچار اولاجاقلری وسی اعلان اولونور .

داعیه دئری بیهوده جان جوشتیر.

قسم رسمی

حکومت امرلری

وزراء نظارتلرینه

— تورکی عمومیسی در بیچینی سنه یکی سه‌دوسی واحد رجیم اوصی محصولوندن اولانلر ۲۰ سنتی گنجه عمومیسنه ترسیم‌جه سنه شکل سه‌دوسنه تعیین اولنور.

— گنجه زمستوی شورای پرزیدنتی آلتمیشنجی دوره‌اعتیادی ۱۹۱۸ سی‌سه دوشن ۱۱ سنتی گنجه عمومیسنه آچیلی جه‌گه سیتکی سه‌دوسنه تعیین اولنور.

— آذربایجان جمهوریتی مو ادارسنک ۱۹۱۸ سی‌سه دوشن ۱۱ سنتی گنجه عمومیسنه آچیلی جه‌گه سیتکی سه‌دوسنه تعیین ایدیلدی

Çərşənbə, 1 yanvar 1919-cu il, nömrə 76

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 28 rəbiüləvvəl sənə 1337. 1 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

QİSMİ-RƏSMİ
[RƏSMİ HİSSƏ]

Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri

Nömrə 23

Şamaxı əhli tələbə Ağalar İskəndərli həmin 1334 sənəsi kanuni-əvvəlin [dekabrın] 23-ündən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat [məktub] xidmətçisi təyin edilir.

Nömrə 24

Tatyana Kazantseva həmin 1334 sənəsi kanuni-əvvəlin 22-sindən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində baş məzbətə mühərrirliyinə [protokol katibliyinə] (stenoqrafist) təyin edilir.

Nömrə 25

İslam oğlu Süleyman Nuri həmin 1334 sənəsi kanuni-əvvəlin 20-sindən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Nömrə 26

Şişə şəhəri əhli Səhra xanım Paşazadə həmin 1334 sənəsi kanuni-əvvəlin 23-ündən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Nömrə 27

Ağası Məhəmmədov həmin 1334 sənəsi kanuni-əvvəlin 18-indən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində xidmətkar (kuryer) təyin edilir.

Nömrə 28

Məhəmmədəli Səfərov həmin 1334 sənəsi təşrini-saninin [noyabrın] 16-sından etibarən Məclisi-Məbusanın cələsələrində [iclaslarında] məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 29

Xəlil İbrahimov həmin 1334 sənəsi təşrini-saninin 16-sından etibarən Məclisi-Məbusan İdarəsində məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 30

Hənəfi Zeynallı həmin 1334 sənəsi təşrini-saninin 19-undan etibarən Məclisi-Məbusan cələsələri məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 31

Əbdül Əbdülzadə həmin 1334 sənəsi kanuni-əvvəlin 7-sindən etibarən Məclisi-Məbusan cələsələri məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 32

Ələkbər Heydərzadə həmin 1334 sənəsi kanuni-əvvəlin 15-indən etiba-

rən Məclisi-Məbusan cələsələri məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 33

İzmail Dmitriyeviç Ostromenski həmin 1334 sənəsi kanuni-əvvəlin 26-sından etibarən Məclisi-Məbusanda rus məktubatı [rusca yazışmalar] müdiri təyin edilir.

Nömrə 34

Rübabə xanım Tağızadə həmin 1334 sənəsi kanuni-əvvəlin 29-undan etibarən Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Nömrə 35

Yefimya Yakurovna İvanova həmin 1334 sənəsi kanuni-əvvəlin 29-undan etibarən Məclisi-Məbusan İdarəsində makina yazan məmuru [makinaçı, maşinistka] təyin edilir.

BAKI, 1 KANUNİ-SANİ [YANVAR] 1919

Keçmiş fəlakətlər və gələcək ümidlər

Bu gün miladi-Məsihinin [İsanın doğumunun] 1919-cu sənəsinə qədəm qoyduq. Keçən 1918-ci il Azərbaycan türk və islamlarının tarixində ən rəngarəng, qarışıq və müğləq [dolaşıq] bir səhifə işğal edəcəkdir [tutacaqdır]. Zira, həmin ildə Azərbaycan türkləri bir müddət mütəmadi həyat ilə məmat [ölüm] arasında qalıb, axırda həyatdan naümid olarkən, birdən həyat günəşi onların üzünə güldü. Rəzil və əxlaqsız düşmənlərin təhti-təzyiqində [təzyiqi altında] paymal olduqları [əzildikləri] vaxt, azərbaycanlılar öz həmcinsləri olan Osmanlı türkləri tərəfindən böyük bir müavinət [yardım] görüb, onların fədakarlığı sayəsində sahili-nicata [xilas sahilinə] çatdılar və bununla elan etdikləri istiqlaliyyətlərini əldə saxlamağa müvəffəq oldular. Türklərin müavinəti olmasaydı, Azərbaycan və onunla bütün Qafqaz, bolşeviklər və daşnak təhlükəsi altında olub, buradakı türklər tamamən məhv olub gedərdilər. İrəvan, Bakı və Şamaxı hadisatı [hadisələri] bizə bunu aydınca göstərdi.

Azərbaycan türklərini bir çox fəlakətdən sonra sahili-nicata çıxaran 1919-cu il, aləmşümul [bütün dünyanı əhatə edən] qanlı Cahan müharibəsinə dəxi xitam verdi. Mütarikə hüsula gəldi [atəşkəs hasil oldu] və bunun sayəsində insanlar bir qədər dincəlməyə müvəffəq oldular. Cahangirlik [imperializm] iddiasında olub da “militarizm” əsasına istinad edən Almaniya dövləti məğlub olub, “ufaq millətlərin müqəddəratı üçün müharibəyə girişdik” kəlməsi şüarları olan Etilaf [Antanta] Dövlətləri qalib gəldilər. Həmin şüarın qövldən feilə [sözdən işə] gəlməsi üçün Etilaf Dövlətləri bizim məmləkətə dəxi gəlib, bolşevizm bəlası ilə çarpışan Rusiyanın im-dadına yetmək üçün buranı özlərinə üssülhərəkə ittixaz etdilər [baza seçdilər].

Azərbaycan türk və islamlarının düşməni olan ənasir [ünsürlər] Cahan müharibəsi ilə Rusiya İnqilabi-kəbiri [Böyük Rusiya inqilabı] ortalığa atdıqları şüara rəğmən Azərbaycanın istiqlaliyyətinə zidd gedib, bu barədə hər dürlü təşviq və təhrikatda [təhriklərdə] bulundularsa da, lakin hürriyyətpərvər Amerika, İngiltərə və Fransa millətləri nümayəndə-

ləri[nin] xətti-hərəkatı həmin ənasirin öz batil niyyətlərində nomid [ümidsiz] olduqlarını göstərdi və bir an "ixtilaflı məsələlər Cahan Sülh Konfransında həll olunacaq" deyə, o vaxtadək yalnız bir Azərbaycan Hökumətini etiraf [qəbul] edib, ona müavinətdə bulunmalarını vəd etdilər.

Türklərin müavinəti Azərbaycan islamlarını və onların istiqlaliyyətini **maddiyyən müvəqqəti olaraq** təmin etdi isə, Müttəfiqlərin böylə müavinət və hüsnrəğbətləri Azərbaycan istiqlaliyyətinin **mənəvi** cəhətini təmin edib, onun **daimi surətdə** paydar olması [yaşaması] üçün bizə ümid verir.

İştə, keçən 1918-ci ildə istiqlalımız kəndimiz tərəfindən elan edildisə, ümidvarız ki, yeni 1919-cu ildə istiqlalımız özgələr tərəfindən dəxi etiraf və təsdiq olunar.

LƏNKƏRAN FACİƏSİ

Bakı şəhəri İslam Ordusu tərəfindən alınmamış olsaydı və Bakı quberniyası şəhərlə bərabər, Allah göstərməsin, "Sovetlər" əlində qalsaydı, bilirsinizmi binəva müsəlmanların başına nələr gələrdi?! "Hürriyyətpərəst"lərin "idareyi-anarşiyyə"si [anarxiya idarəsi] altında həqarət, rəzalət, əziyyət, zülm və sitəm kimi məhz müsəlmanlara qarşı rəva görülən "mərhəmətlərin" bərəkətindən, zənn etmirəm ki, Bakıda müsəlman namına bir kəs qalmış olaydı. Bir tərəfdən "Sovetlər" başında olan "sosialist"lərin idarə işində göstərdikləri cəhaləti, digər tərəfdən həmin "sosialistlər"i əllərində oyuncaq və aləti-məsxərə etmiş olan hiyləkar və xunxar [qaniçən] daşnakların ibraz etdikləri [göstərdikləri] fitnə və şeytənəti [şeytanlığı] müsəlmanları bir halətə salmışdı ki, yaşamaq imkanı qalmamışdı. Şükürlər olsun bizi yaradan xaliqə ki, "hikməti-siyasiyyəsi" [siyasi müdrikliyi] qətl və qarətdən ibarət olan bu mənhus idarənin təhəmmülfərsa [dözülməz] ömrü ümum Bakı müsəl-manlarının bilkülliyə [tamamən] məhv və tələf olacağı müddət ərzincə uzun çəkməyib, qəhrəman İslam Ordusunun şanlı qılıncı ilə kəsildi və Bakı müsəlmanları azad edildi.

Bakı ilə bərabər, Bakı quberniyasında olan Quba, Göyçay, Salyan və "bə'dəz xərabiyi-Bəsrə" olsa da Şamaxı dəxi cahil, müstəbid "hürriyyətpərəstlər"in və erməni makiavellərinin pənceyi-zalimanələrindən [zülmkar pəncələrindən] xilas edilmək üzrə xoşvaxt və xoşbəxt oldular. Lakin minlərcə təəssüflər olsun ki, bu azadlıq səadəti bütün Bakı quberniyasına şamil olmayıb, hamını xoşbəxt edə bilmədi. Xoşbəxtlər arasında bədbəxt qalanlar dəxi oldu.

O bədbəxt qalanların birincisi, məlumunuz olduğu üzrə, Lənkərandır və Lənkəran uyezdidir.

Bu bədbəxt uyezd və onun bədbəxt müsəlmanları bu günə qədər biganələr [yadlar] əlində qalıb nizamsız, qanunsuz və zalımanə bir idarənin bütün ağırlıqlarını zəif boyunlarında çəkməyə məcburdurlar.

Salyan və Bakı alınandan bəri buranın binəva müsəlmanları nicat yaxınlığı ümidi ilə çırpınan qəlblərində bu ümidi bəsləməklə bərabər, səbirsizlik nəticəsi

olaraq hər dəm bir qəzetələrimiz sütunlarını və idarələrimiz qapılarını dəxi istimdad [yardım] fəryadı ilə doldurub, nicat tapmış olan qardaşlarının diqqətini fəlakətli hallarının şəraiti-təhəmmülfərsasına [dözülməz şəraitinə] doğru cəlb etməyə çalışırdılar. Lakin bunların fəryadları biyaban üzərində [səhrada] yol azmış olan bir yolçunun sədayi-istimdadı [imdad fəryadı] kimi cavabsız qalıb, səslərinə səs verən olmayırdı.

Lənkəran – Azərbaycanın bir hissəsidir. Taxıl, meşə, balıq və sairə kimi sərvətləri nəzərə alınmayıb, ümum Azərbaycan dövləti xəzinəsi üçün bir köpüklük mənfəəti olmasa da, burada yaşayan qardaşlarımızın himayəsi Azərbaycan dövlətinin boynunadır. Biz Lənkəran müsəlmanlarının biganələr və yadlar əlində cürbəcür zülüm və fəlakətlərə məruz qaldığına qeydsiz nəzərlə baxa bilmərik, indiyə qədər də baxmamışıq. Onların fəryadlarını eşitmişik, fəqət səslərinə səs verməк, tezliklə imdadlarına yetişmək və onları fəlakətdən qurtarmaq işində bir taqım mümaniətlər [maneələr] qarşısında məəttəl qalmağa [gözləməyə] məcbur olmuşuq. Bu işdə bizim bir səhlənkarlığımız olmuşsa, o da bu mühüm məsələ xüsusunda Parlamanımızda hələ indiyə qədər söz açılmamasıdır. Bunun günahı isə ümum Parlaman əzalarımızın [üzvlərimizin], baxüsus [xüsusilə] Lənkəran məbusunun [millət vəkilinin] boynunadır ki, sitəmdidə [zülm görmüş] vətəninin xilası xüsusunda bu günə qədər heç bir təşəbbüsdə bulunduğu müşahidə edilməmişdir...

İndi isə, zənn edirəm ki, daha qarşımızı kəsən “rəsmi” bir mümaniət qalmayan kimi, Lənkəranı biganələr əlindən qoşun gücü ilə xilas etmək məcburiyyəti də qalmadı. Bu məsələ, general Tomsonun bu axırkı intibahnaməsi [bəyanatı] ilə həll olunub getdi.

Hürriyyətpərəstlikdən əlavə bu qarqaşalıq [qarışıqlıq] içində səthi bir nəzərlə də olsa həman dəm doğrunu yalandan, düzü əyridən, pakı napakdan seçmək qabiliyyətinə dara [malik] olan bu ingilis generalı Azərbaycan türk və islamlarına qarşı həqiqi münasibatını tezliklə təyin edib, Azərbaycanı Azərbaycan Hökumətinə tapşırdı və tapşırdıqdan sonra köməyini də əlavə olaraq elan etdi.

Qoy, düşmənlərimizin içi od tutub yansın! Qəzetələrində bu xüsusda ağızlarına gələni deməklə büxl [paxıllıq] və həsəd atəşi içində qıvrılıb yandıqlarını bildirməklə, “hürriyyət və insaniyyət” şüarları altında istibdad və şeytənət amalı gizlətmiş olduqlarını təkrar-təkrar isbat etsinlər! Bunlarla işimiz yoxdur, yandıqlardan istər lap canları çıxsın. Biz general həzrətlərinin bu təsdiqnaməsindən istifadə etməliyik. Zatən generalın əmrini yerinə yetirməliyik. İngilis demokratiyası [xalqı] və ingilis hökuməti adından Azərbaycanın müqəddəratını azərbaycanlıların öz əllərinə verən general Tomsonun bizə dair bəşarət [müştuluq] və düşmənlərimizə qarşı ölüm xəbəri dərəcəsində olan bu əmri, bütün Azərbaycan torpağını, binaənileyh [deməli], Azərbaycanın hissəsi olan Lənkəranı dəxi öz hökumətimizin təhti-idarəsinə mühəvvəl edir [idarəsinə tapşırır].

Bundan sonra artıq fikir lazım de-

yildir. Tezliklə lənkəranlı qardaşlarımızın imdadına yetişib biganələr pəncəsindən xilas etməklə, canlarını azad və könüllərini şad edək. Lənkəran şəhəri və Lənkəran uyezdi idarələri başına öz məmurlarımızı tezliklə göndərək. Ancaq bunu tapşıraq ki, o məmurlar biganə və xudsər [özbaşına] xarici məmurları kimi rus, erməni və müsəlman arasına təfavüt qoymaqla bir milləti əzib digər milləti hakim vəziyyətdə qoymasınlar. Azərbaycanımızın hər yerində olduğu kimi, orada da hamıya bir nəzərlə baxsınlar. Kin və küdurətə məhəl [yer] verməsinlər. Qanla kəsiləcək bir işi general Tomson sözlə kəsdi və Azərbaycan Hökumətinə kömək vədə etməklə bu sözə razı olmayanların cəzaya veriləcəyini dəxi anlayanlara bildirdi.

Bəs tez olub məmurlarımızı göndərək. Lənkəran müsəlmanlarının bir bu qədər fəlakət çəkdikləri artıq kifayətdir.

Hacıbəyli Üzeyir

HƏR İŞƏ ÇARƏ VARDIR

Yeni Heyəti-Vüzəra Rəisi [Nazirlər Kabinetinin Sədri] Fətəli Xan həzrətləri nitqinin bir yerində dəmiryol məmurları barəsində bu aşağıdakı sözləri demişdir:

"Yollarda özümüzdən qulluqçumuz olmadığından, xaricilər dəxi bilirlər ki, onlar getsələr yol fəna olacaqdır. Ona görə də bildiklərini edirlər."

Filvaqe [həqiqətən də] dəmiryollarda əhalidən alınan rüşvətlərin həddü hesabı yoxdur. İş bir dərəcəyə gəlmişdir ki, hətta Parlamanın rus üzvləri bu xüsusda şikayət yapmışlar. Bu cür işlər Azərbaycan məxluquna [xalqına] böyük bir sədmə [zərbə] və hətta xəyanətdir. Böylə xəyanətləri təkcə dəmiryollarımızdan yox, bəlkə sair müəssisələrdən də bəkləməliyiz. Bunun səbəbi isə hazırsızlıq və adamsızlıqdır. Dünənki zabastovkalar bunu bizə sübut etdi ki, bəzi ünsürlər kefləri istədikləri zaman tamam məişətimizi belə dayandıra bilərlər. İş bu minval ilə davam edərsə, rüşvətlərin, xəyanətlərin qabağı alınmazsa, hökumət idarələri bir oyun-oyuncaq halını alar.

Əcəba, bu uçurumlara bir çarə yoxdurmu? Əlbəttə, vardır. Lakin gələcəkdə. Bu şərtlə ki, indidən işə şüru oluna [başlana].

Hamıya məlumdur ki, bu gün bir çox doktor, mühəndis, müəllim, texnik, teleqraf məmuru və bunlar kimi bir çox ərbabi-ixtisasa [mütəxəssislərə] ehtiyacımız vardır. Bu mütəxəssisləri yetişdirmək üçün aramızda heç bir məktəbimiz yoxdur və bu məktəbləri hüsula gətirmək üçün illər yox, bəlkə əsrlər lazımdır. Böylə olan surətdə çarəmiz nədir?

Bəzi mütəxəssisləri müvəqqəti kurslarda və bəzilərini əcnəbi darülfünunlarında [univeristetlərində] yetişdirmək mümkündür. İştə çarə! İndiyə qədər ürəfamız [ziyalılarımız] Rusiya darülfünunlarında təlim tapırdılar. Lakin bu gün inqilab pozğunluğu həman darülfünunların qapılarına böyükcə qıfıllar asdırmışdır. Böylə olan surətdə, Rusiya asayişi bərpa olunana qədər maarif ehtiyaclarımızı Yevropa darülfünunlarında rəf' etməyə [aradan qaldırmağa] məcburuz. Sülh Konfransına göndəriləcək

nümayəndələrimizin bir vəzifəsi də məşhur Yevropa darülfünunlarında Azərbaycan tələbələrinə təlim üçün yol açdırmaqdır. Buna dair bir proqram, bir düsturüləməl [təlimatnamə] tərtibi Maarif Vəzarətinin [Nazirliyinin] borcudur. İngilis, Firəngistan və Almaniya darülfünunlarının hər birinə ildə neçə tələbə və hangi şöbələrə qəbul olunması indidən gərək aşkar olsun, ta ki, nümayəndələrimiz də məsələyə dara olaraq [məsələdən xəbərdar olaraq], haqq və ixtiyar qazanılması üçün də Yevropada çalışsınlar.

Bundan əlavə, bir çox ehtiyacımız vardır ki, onların rəf’i [aradan qaldırılması] üçün kənara adam göndərməyə heç lüzum yoxdur. Məsələn, maşınçı, teleqrafçı, konduktor, icraçı, feldşer, memar, kimyaçı, texnik və mexanik kimi xidmətçiləri yetirmək üçün birər müvəqqəti kurslar açmaq lazım gəlir ki, bunu da yenə Maarif Nəzarəti öhdəsinə götürməlidir.

Əlhasil, hər xidmətçi, hər vəzifə daşıyan, müqabilində [qarşısında] amadə [hazır] bir namizəd görməlidir ki, vəzifəsini də kamali-sədaqətlə [tamamilə düzgün] ifa etsin. Yoxsa, meydanı rəqabətdən xali [boş] görmüş hərifl ərin xəyanətinə heç bir vəchlə sədd çəkmək mümkün deyil. Bu bir öylə əhəmiyyətli məsələdir ki, Heyəti-Vüzəranı [Nazirlər Kabinetini] gərək həmişə düşündürsün. Bu barədə qəflət olunarsa, şəksiz acı-acı səmərələrə [nəticələrə] rast gələcəyiz və övlad müqabilində də [övladlarımızın qarşısında da] məsuliyyət altında qalarız!

Bu məsələdə hökumət ricalı [hökumət adamları] ilə bərabər, əhali və ələlxüsus [xüsusilə] ürəfamız [ziyalılarımız] da çalışmalıdır. Lakin bunların vəzifəsi başqadır. Dünənki zavastovka ittihad [birlik] və ittifaqın səmərəsini bizə aşkar etdi. Zavastovkaçılara, hər yerdə olduğu kimi, fəhlə sinfi əsas və istinadgah olmuşdur. Bunların içində müsəlman fəhləsi də az deyildir. Lakin bu biçarələr mədəniyyətcə sairlərindən geri olduqlarına [görə], bir çox məsələlərdə aldanırlar, vəzifələrini anlamayırlar. Ürəfa qismindən adamlar lazımdır ki, fəhlələrimizi birləşdirsinlər, haqlarını anlatsınlar. Həmçinin əkinçilərə, tacirlərə, hökumət müəssisələrindəki xidmətçilərə, müəllimlərə, mühəndislərə, doktorlara və sair əsnafımıza [siniflərimizə, zümrələrimizə] birər ittifaq yapmaq lazımdır ki, haqlarını anlayıb özgələrinə alati-təzvir [fitnə-fəsad törətməkdə vasitə] olmasınlar.

Haydi, cavanlarımız! Siniflər arasına gediniz, fəaliyyətinizi də göstəriniz!

Şükürlər olsun ki, hələ aralıqda üç ittifaq görürüz:

1) Türk texnikləri;

2) Mərkəzi Mütəəllimlər [Tələbələr] Komitəsi və:

3) Müsəlman Tələbələri İttifaqı.

Bizi maraqlandıran, texniklərin ədəbiyyat və tarix kursları açmalarıdır. Hələ “Azərbaycan tarixi və ədəbiyyatı” mövzusunda referat [məruzə] da oxumuşlardır!

İttifaqın faydasını hələlik mütəəllimlərimiz anlamışlardır. Ümidvaram ki, sair əsnaflarımız da anlarlar. Ürəfamız üçün də böyük bir meydan açılar ki, nə ucu var, nə də bucağı!

Fərhad Ağazadə

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

6-cı iclas

Məclisi-Məbusanın 6-cı iclası dekabrın 30-da saat birdə doktor Ağayevin sədarəti [sədrliyi] və Əhməd Cövdətin katibliyi ilə vaqe oldu. Sədr iclası açaraq ruznameyi-müzakiratı [müzakirə gündəliyini] bu qərar ilə elam edir [bildirir]:

1 - Parlaman əzasından Mehdi bəy Hacıbababəyov ilə Hacı Kərim [Sanılı] əfəndilərə 10 gün məzuniyyət;

2 - Gürcüstan Parlamanının təbriki;

3 - "Əhrar" firqəsinin ərzihalı [ərizəsi];

4 - Son həbslər haqqında istizah [sorğu];

5 - Əfvi-ümumi [amnistiya] layihəsi.

Müzakirəyə başlamadan əvvəl, sədr bəyan edir ki, əfvi-ümumi layihəsinin müəllifləri layihəni yenidən nəzərdən keçirmək və tərtib vermək qəsdi ilə geri götürmüşlərdir.

Ağaoğlu Əhməd bəy - *(Növbətdən xaric səs alaraq)* Əfəndilər! Qəzetədə general Tomsonun bəyannaməsini oxudunuz və əhəmiyyətini təqdir etdiniz. Bu bəyannamə, həqiqətən şayani-qeyd və təqdirdir [qeyd edilməyə və bəyənilməyə layiqdir]. Onun məzmunu, millət və hökumətimiz üçün şayani-təbrik [təbrikə layiq] bir müvəffəqiyyətdir. Daha Ənzəlidə Müttəfiq dövlətlər nümayəndələrilə müzakirə olunarkən, Azərbaycan bəzi müşkülat çıxara bilərdi və öz paytaxtını müdafiəyə müqtədir bir halda idi. Fəqət Azərbaycan üç böyük dövlət ilə qovğa çıxarmaq fikrini hələ ibtidadan [lap əvvəldən] bərtərəf etmişdi [aradan qaldırmışdı]. Çünki, bu dövlətlər böyük müharibəyə girmədən əvvəl, ufaq millətlərin azadlığı və onların hüququnu müdafiə uğrunda müharibəyə girişdiklərini mütəmadiyyən [daimi olaraq] elan etməkdə idilər. Daha sonra məzkur [adı keçən] hökumətlər Amerika Cəmahiri-Müttəhidəsi [Amerika Birləşmiş Ştatları] rəisi-cümhuru [prezidenti] Vilsonun dünyaya atmış və bəşəriyyətə təbşir etmiş [muştuluq vermiş] olduğu 14 maddəni kəndilərinə bir şüar, bir bayraq qərar verərək meydana çıxdılar. Buna görədir ki, İngiltərə, Amerika və Fransa nümayəndələri ilə Ənzəlidə müzakiratda bulunan zaman biz bilirdik ki, onlar gəldikləri yerlərdə yaşayan millətləri əzmək üçün gəlməyib, o millətlərin haqq və mövcudiyyətlərini təmin edəcəklərdir. Biz buna əmin idik. Ona görə də azərbaycanlılar qovğanı bərtərəf edib də Müttəfiqlərin şərəf və namusuna inanaraq, vətənimizin geniş bucaqlarını onların üzərinə açdılar. Şimdi Müttəfiqlərin nümayəndələri burada bulunurlar. Mən bunu qeyd etmək istəyirəm ki, Müttəfiqlər qüvvəsinin rəisi Tomson, Ənzəlidə vermiş olduğu sözlərin heç birindən bu vaxtadək inhiraf etməmişdir [boyun qaçırmamışdır].

General Tomsonun son bəyannaməsi mənim bu sözlərimin doğruluğunu isbat edir. Parlaman əzasının [üzvlərinin] nəzəri-diqqətini bəyannamənin iki mühüm nöqtəsinə cəlblə, bu iki nöqtənin Parlaman və bütün millət tərəfindən də qeyd olunmasını təmənna edirəm. Tomson cənabları Azərbaycan dairəsində qanuni, məşru [leqal] bir hökumət olmaq üzrə yalnız Azərbaycan Hökumətini tanıdığını qeyd edir və ona müavinət və müza-

hirətdə bulunacağını [kömək edəcəyini və dəstək olacağını] bildirir.

Əfəndilər! Azərbaycan mövcudiyyətini mühafizə yolunda bu, birinci qədəmdir. İşbu qədəmi təbrik edirəm. *(Alqış)* Haqq heç vaxt paymal olmaz [tapdalanmaz]. Müttəfiqlər nümayəndələri hələ Ənzəliyə gələrkən bizim barəmizdəki həqiqətlər, böhtan və iftiralarla zəhərlənmişdi. Amma yanımıza gələrkən bizi başqa bir şəkildə gördülər, gəlib yaxından tanıdılar. Sülh və müsalimət [barışıq] tərəfdarı kimlər olduğunu anladılar; bizi tanıdılar. Şimdiki müvəffəqiyyət dəxi həman bunun nəticəsidir. Bizə qarşı çıxarılan süni xəbər və provakasyona biz cavab vermədik, çünki haqlı olduğumuza əmin idik. Şimdi nəticəsini də görürüz. Azərbaycanın istiqlaliyyəti yolunda köksümüzü gərərək daima eyni mətanət, eyni səbat, eyni əzmkarlığı göstərərək müstəqil yaşamağa layiq və müstəhəqq [haqqı çatan] olduğumuzu isbat edəcəyiz. *(Alqış)*

Məhəmməd Əmin Rəsulzadə - Möhtərəm Əhməd bəy həzrətləri tərəfindən şayani-qeyd [qeyd edilməyə layiq] görülən məsələ, həqiqətən calibi-diqqət [diqqəti cəlb edən] və Məclis tərəfindən qeyd olunacaq mühüm məsələlərdir. Hələ ingilis və sair Müttəfiqlər qoşunu paytaxtımıza daxil olan zaman, Azərbaycan paytaxtında yaşayıb da “Azərbaycan” fikrinə müariz [zidd, müxalif] və ancaq qüvvəyə tabe olaraq məqami-təslimdə bulunanlar [təslim olanlar], kənardan başqa qüvvə gələrkən ruhlanıb təərrüzə [hücuma] başladılar. Bir çox ünsürlər onların gəlmələrindən ruh alaraq, Azərbaycanın kökünü baltalamağa başladılar. Əhməd bəy buyurduğu kimi, azərbaycanlılar özlərinin haqlı olduqlarına və Müttəfiqlərin öz qövllərinə [sözlərinə] sadiq qalacaqlarına əmin olduqlarından, Azərbaycan paytaxtında baş qaldıran intriqa və fəsadlardan müztərib idilərsə də [əziyyət çəkirdilərsə də], naümid [ümidsiz] deyildilər. Lakin nə qədər ümidvarlıq hasil olsa da, bundan böylə Azərbaycanı tanıyanların bir daha iş görməyəcəklərinə inanmaq xətadır. Əvvəlinci günlərdə biz burada xof [qorxu] ilə rəca [ümid] arasında idik. Özümüzün haqlı olduğumuza görə ixtilal çıxarmağa qadir idiksə də, yenə ixtilal çıxarmadıq. Zira hüququmuza əl uzadılmayacağına inanırdıq. Lakin əhvalın böylə olduğunu yalnız iş başında duranlar və siyasilər bilirlər. Amma camaat kütləsi əhvaldan bixəbər olduğundan, Azərbaycan fikri əleyhində bulunanların hərəkətlərini görüb şübhədə idilər. Müttəfiqlərin vürudundan [gəlişindən] sonra birinci günlərdə vüqu bulan hərəkətlər şübhəni daha da artırdılar. Çünki burada baş qalxızmış ünsürlər Azərbaycanın istiqlaliyyəti əleyhinə iş görmək istəmişlərdi. İngilis və sair Müttəfiq nümayəndələri Ənzəlidə olduqları zaman bizimlə dost olmayan mənbələrdən başqa məlumat və fikirlər üzərinə bəyannamə nəşr etdilər. Tomsonun bəyannaməsi Müttəfiqlərin həqiqi əhvaldan bixəbər olduğunu göstərirdi. Fəqət sonradan həqiqəti-hala [həqiqi vəziyyətə] bələd olmaq nəticəsində çıxardığı və nəşr etdiyi [yaydığı] ikinci bəyannaməsi birincini rədd etdi. Bu bəyannamədə Qafqaziya məsələsinin Ümumi Sülh Konfransında həll olunacağı işar [qeyd] edildi. Bu bəyannamə, azərbaycanlıların sülh və

müsalimət [əmin-amanlıq] tərəfdarı olduqları yaxından öyrənilmiş və təcrübə nəticəsində atılmış bir qədəm idi. Bu qədəm atıldı və bu gün həqqi-məşruəyə [qanuni haqqa] layiq yeganə bir hökumət olmaq üzrə Azərbaycan Hökumətinin tanındığını, məəlməsarr [şadıq ki], eşidiriz. Bu gün ingilis və müttəfiqləri nümayəndəsinin böylə bəyanatı və bizə qarşı münasibətini böylə açıq təyin qılması, məmləkətimizdə mövcud olan anlaşılmazlığı rəf' edər [aradan qaldırar]. Bu gün burada qonaq şəklində olan ingilis və sair Müttəfiqlər bizə müzahirət [köməklik] göstərirlər və bizim istiqlaliyyətimizi istəməyənlər bu gündən etibarən aşkar görəcəklər ki, buradakı qüvvələr Azərbaycanı təsdiq etməyə meyli olan bir qüvvətdir. Xaricdən gələn bir qüvvəyə istinadla Azərbaycanı dağıtmaq istəyənlər gördülər ki, o qüvvə Azərbaycan əleyhində deyildir. Şimdi xarici qüvvələrdən müzahirət almaq xəyalı ilə Azərbaycanı yıxmaq istəyənlər artıq görəcəklər ki, o xəyal puçdur. Azərbaycan xalqı öz istiqlaliyyətini var qüvvəsilə müdafiə və mühafizə edəcəkdir və bu da ona qüvvətlər verərək bir dəfə cızmış olduğu istiqlaliyyətimizi, o sitareyi-əməlimizi [arzu ulduzumuzu] müdafiə etmək məsələsində bizə bir daha qüvvət verir, imanımızı artırır. General Tomson tərəfindən nəşr edilmiş bəyannamə bu yolda bizə daha böyük bir ümid verir ki, bu gün bir ingilis komandanı tərəfindən qəbul olunan yeganə məşru bir hökumət, Sülh Konfransında nümayəndələrimizin çalışmaları sayəsində o komandanlıqların hökumətləri tərəfindən də etiraf və təsdiq ediləcəkdir. *(Mərkəzdən və soldan alqışlar)*

Əhməd Cövdət - Əfəndilər! Əhməd bəy Ağayev cənabları ingilis komandanı general Tomson tərəfindən verilmiş bəyannamə haqqında danışdılar və bu bəyannaməni təqdirə bizi dəvət etdilər. Nə olmuş, əfəndim?

İngilis komandanı öz qoşunu ilə buraya gəlmiş, məhəlli [yerli] hökuməti tanıyır. Əcəba, bunu general öz rəyi iləmi etmiş və bizə qarşı səmimiyyət göstərmişmi, yaxud bunun dərin bir əsası vardır? İştə o dərin əsaslar barəsində burada bir neçə kəlmə söz söyləməliyəm.

Məlumdur ki, general Tomson İngiltərə Hökumətinin bir əsgəri [hərbi] nümayəndəsidir. Hərb zamanı bu qədər qanlar töküldü, Müttəfiqlər demokratiyası [xalqı] öz səsini ucaldıb xırda millətlərə hürriyyət və azadlıq istədi. Əlbəttə Müttəfiqlər nümayəndəsi olan general Tomson, "hər millət kəndi müqəddəratını həll etmək haqqına malikdir" - deyən demokratiyanın arzusunu da [qulaq ardına] verə bilməz və Azərbaycan istiqlaliyyətini qəbul etməyirəm, tanımıram deyə bilməzdi. Çünki general Tomsona bu əmri verən ingilis və bütün cahan demokratiyasıdır; bütün cahanın həqiqi demokratiyası ona əmr edir ki, xırda millətlərin hüququnu etiraf etsin, hökumət və istiqlaliyyətlərini tanısın. *(Soldan və mərkəzdən alqış)*

Əfəndilər! İngiltərə generalı bu gün bizim hüququmuzu tapdarsa, demokratiya səsini qaldırıb ingilis və ümumcahan demokratiyasına der ki, məgər millətlərin hürriyyət və hüququ haqqındakı sözlər tamamilə yalanmış? Əvət, əfəndilər, Tomson İngiltərə demokra-

tiyasının əmrini yerinə yetirməlidir. *(Alqışlar)*

Bir millət öz müqəddəratını öz əlinə alıb müstəqillən tərzi-idarə qurarsa, bu generallar dəxi o millətin hüquq və istiqlaliyyətini etiraf məcburiyyətindədirlər. Ona görədir ki, təqdir ediləcək bir şey varsa, o da xırda millətləri əsarətdən xilas edən İngiltərə və bütün cahan demokratiyasıdır. Buna binaən [buna görə], biz İngiltərə və ümumcahan demokratiyasına salam etməliyiz. *(Alqış)*

Sabah Avropaya azim olacaq [yola düşəcək] nümayəndələrimiz bizim bu salamımızı həman demokratiyaya yetirərək söyləməlidir ki, indi bu xırda millət dəxi öz müqəddəratını öz əlinə alıb müstəqillən öz həyatını qurmağa başlamışdır və bu təşəbbüsündə həman demokratiyanın müavinət və müzahirət göstərəcəyinə əmin olur.

Bundan sonra sədr cənabları Heyəti-Rüəsa [Rəyasət Heyəti] tərəfindən böylə bir formula təklif edir:

“Azərbaycan Məclisi-Məbusanı 29 kanuni-əvvəl [dekabr] tarixli iclasında general Tomsonun bəyannaməsini kamali-məmnuniyyətlə dinləyərək, növbədəki məsələlərin müzakirəsinə keçir.”

Təklif ittifaqi-ara ilə [yekdilliklə] qəbul olunur. Bədəhu [sonra] Mehdi bəy Hacıbababəyov və Hacı Kərim Sanıyevin ərizələri oxunaraq bunlara 10 gün məzuniyyət verilir.

Növbədə Gürcüstan Parlamanı tərəfindən alınmış təbrik teleqrafıdır. Teleqrafın məzmunu budur:

“Hələ dekabrın 10-da Gürcüstan Parlamanı Azərbaycan Parlamanının güşadını [açılışını] təbrik etməyi təhti-qərara almışdır. Fəqət teleqraf münasibatının [əlaqələrinin] hazırkı şəraitindən olmalıdır ki, bu teleqraf Azərbaycan Parlamanına vüsul olmamışdır [çatmamışdır]. Lazım bilirəm həman teleqrafın məzmununu təkrar edəyim: Gürcüstan Parlamanı səmimi şadlıq və dərin bir məmnuniyyət hissilə Azərbaycan Parlamanının güşadını təbrik və təhniyət [mübarəkbadlıq] edir. Azərbaycanın öz hüquqi-siyasiyyə və milliyyəsinə [milli və siyasi hüquqlarına] malik olmasında Gürcüstan Parlamanı hər iki millətin amal və arzusunun feilən hüsuluna və mehriban qonşuluq münasibatının möhkəmləşməsinə rəhn [əsas] görür.

Gürcüstan Parlamanı Rəisi: Çxeidze.”

(Şiddətli alqışlar)

Bundan sonra “Əhrar” firqəsi tərəfindən edilmiş olan təklif oxunur. Təklif bundan ibarətdir:

“Azərbaycan Parlamanı Rəyasətinə:

1917 sənəsi “Qafqaz təqvimi”ndən alınan rəqəmlərə görə Şəki şəhərində 52.343, qəzasında isə 133.505 nüfus [əhali] var ki, cümlətanı 185.848 nüfus olur. Bunlardan yalnız islam əhalisi 145.209 nəfərdir. Axırıncı ərzaq siyahısına baxılarsa, bütün əhali 200.000-i mütəcavizdir [keçir]. Qabaqkı seçkilərdə bu qəzanın haqqı nəzərə alınmadığı kimi, bu axırıncı dəfə də islam əhalisindən 3 əvəzinə 2 nümayəndə dəvət edilmişdir. Binaənileyh [ona görə] biz təklif ediriz ki, Şəki qəzasından təcili surətdə bir nümayəndə dəxi dəvət edilsin.”

Bu məsələ, Heyəti-Rüəsanın [Rəyasət Heyətinin] təklifinə görə Etibarnamə komissiyasına verilir.

Növbətdə: son həbslər haqqında

sosialistlər tərəfindən idxal [daxil] edilən istizahdır [sorğudur].

İstizahın məzmunu:

Bu günlərdə Bakı şəhərində bəzi siyasi firqələrin bir qaç [bir neçə] əzası [üzvü] təqsirnamə verilmədən həbs edilmişlərdir. Bu həbslər Azərbaycan polis məmurları vasitəsilə icra olunmuşdur. Bu əhvalat Hökumətə məlumdurmu və əgər məlum isə səbəbi nə olmuşdur?

[Məhəmməd] Məhərrəmov - Möhtərəm Parlaman əzaları! Necə ki məlumdur, neçə gün əvvəl bəzi firqələrin nümayəndələri həbs edilib Ənzəliyə göndərilmişdir. Demokratiyanın bu xüsusdakı təşəbbüsləri bir nəticə verməmiş və nəhayət, iş Bakıda böyük bir tətilə müncər olmuşdur [gəlib çıxmışdır]. Bu tətilin Bakı və Azərbaycan üçün zərərli olduğu məlumdur. Biz Sosialist firqəsi deklarasiyasında demişdik ki, müqəssirlərin təqsirnaməsi 24 saat zərfində [müddətində] özlərinə təqdim edilməlidir, yığıncaqlar açıq olmalıdır. Bu mühüm maddələr pozulmuşdur. Tətil şimdi qurtarmışsa da, gələcəkdə vüquu [baş tutması] ehtimal xaricində deyildir. Binaənileyh, biz təklif ediriz böylə işlərin qabağını almaq üçün Parlaman bu məsələni geniş surətdə müzakirə və öz fikrini bəyan etsin.

Bəzi natiqlər məhbusların azad edildiklərini, digərləri istizah vaxtının keçdiyini və sairləri göstərərək, nəticədə istizahın qəbulu məsələsi araya gəlir. Sədr məsələni iki qismə təqsim edir [ayırır]:

1 - İstizah qəbul edilsinmi, ya yox?

2 - İstizah təcilimi hesab olunsun, ya qeyri-təcili?

Səsə qonulduqda qeyri-təcili olmaq üzrə istizahın qəbulu əksəriyyəti-ara [səs çoxluğu] ilə qət olunur.

Ruznameyi-müzakirat [müzakirə gündəliyi] bununla qurtararaq, Sədr cənabları Heyəti-Rəyasət namından [adından] təklif edir ki, Məclisi-Məbusan nizamnaməsi tərtib və qəbul olu-nanadək Məclis özü üçün bir əksəriyyət (kvorum) qərar versin. Heyəti-Rəyasət əksəriyyət olmaq üzrə bir süls [üçdə bir] təklif edir. Bu məsələ uzun mübahisəyə bais olur. Nəhayət, ətraflı məlumat toplamaq və məsələni bir daha nəzərdən keçirmək üçün Heyəti-Rüəsa təklifi geri götürür.

İclas qapanmaq üzrə ikən Qara bəy [Qarabəyov] "Qruziya" qəzetəsini göstərərək bəyan edir ki, məzkur [adı çəkilən] qəzetə Parlamanımızın fövqəladə iclası haqqında verdiyi məlumatında böhtan və iftiralar yazmışdır. Qara bəy qəzetənin bir qismini oxuyur və deyir ki: "Mən burada böylə söz danışmamışam. Buna protesto edirəm. Qoy Parlamanımız da şəhadət versin ki, mən bu sözləri deməmişəm."

Sədr: Heyəti-Rüəsa təsdiq edir ki, bu qəzetəyə yazılan sözləri Qara bəy Parlamanda deməmişdir.

TELEQRAF XƏBƏRLƏRİ

Serbiya və Qaradağ

Qaradağ Parlamanı, Qaradağ ilə Serbiyanın birləşməsini rəsmi surətdə elan etmişdir.

Rusiyanın tələfatı

Petroqraddan Kopenhaqa verilən xə-

bərlərə görə, müharibə zamanında Rusiyanın tələfatı 9.150.000-dir. Bunlardan 1.700.000 nəfəri ölüb, 1.450.000 şikəst, 3.500.000 yaralı və 2.500.000 əsirdir.

Vilson Londonda

Vilson Londona varid olub [gəlib], təntənəli bir surətdə istiqbal edilmişdir [qarşılanmışdır].

Vilsonun səfər yoldaşları

“Corc Vaşinqton” paraxodunda Avropa və Asiyanın siyasi və iqtisadi əhvalından dürüst xəbərdar 23 nəfərdən ibarət münsif komitəsi vardır.

Yaponlar Cənubi Rusiyada

İstanbuldan xəbər verirlər ki, varid olan [gələn] yeddi yapon gəmisi Qara dənizə çıxıb Rusiya sahillərinə azim olmuşdur [yönəlmişdir]. Feodosiyada yapon əsgərləri gözlənməkdədir.

AZƏRBAYCAN GƏNCLƏRİNƏ

Bir bax! Nə gözəl boyanmış əlvan
Dörd guşəli ol nigari-tənnaz;
Baxdıqca lətif, pak, qurnaz
Göy, qırmızı, səbz, qəlbi rəxşan.

Parlaq günəşin şüayi-pakı
Düşdükcə ona olur münəvvər.
Qan içrə hilalı saf, ənvər,
Qəlbində nə qorxu var, nə bakı.

Azərlərin atəşin dilində
Baxdıqca ona səfası artar.
Türk millətinin hilalı parlar
Teymur ilə Mürtəza belində.

Türk oğluna evçilik yaraşmaz,
Türk yavrusu canla, qanla oynar.
Qurşun yesə ölməz, ölsə söynər
Qalxar, yürüyər, qoşar, yavaşmaz.

Türk oğlu vətən deyib qan ağlar,
Al bayrağını tutub usanmaz.
Türkün ucadır hilalı sonmaz,
Həq nuru qapanmayıb da parlar.

Qalx, ey vətən oğlu, gəl hizaya,
Durma, çabuq ol, silaha sarmaş.
Çıx avcı xətinə, haydi marş, marş
Qaldır uca bayrağın səmaya.

Aşurbəyli İsa (Həqqi)

GÜRCÜ-ERMƏNİ MÜHARİBƏSİ

(Gürcüstan ərkani-hərbindən [qərargahından])

Kanuni-əvvəlin [dekabrın] 25-ində müharibə etdikdən sonra əsgərlərimiz Daqet-Xaçın kəndini işğal etmişlərdir. Şüləver yanındakı müharibə davam edir. Cəbhənin qeyri yerlərində sakitlikdir.

Hökumətdən istizah [sorğu]

Gürcüstan Parlamanı üzvü Veşapeli Parlaman Sədri Çxeidzeyə müraciətlə, gələcək birinci iclasda Gürcüstan Hökumətinə böylə bir istizah verilməsini xahiş etmişdir:

“Gürcüstan Hökumətinə məlumdurmu ki, Ermənistan Hökumətinin siyasi nümayəndəsi Camalyan, müharibə elan edildiyi gündən indiyə qədər haqqı olmadığı halda Tiflisdə qalıb, Gürcüstanın mənafeyi əleyhinə olaraq,

əsgərlərimiz arxasında düşmənanə hərəkatda bulunmaqdadır? Hərgah bu əhvalat hökumətə məlumdur, bu barədə nə kimi tədbirlər ittixaz etmək [tədirlər görmək] niyyətindədir?"

Həbslər

Hökumət binagüzarlığı [sərəncamı] ilə Tiflisdə olan Rus Milli Şurası binasında axtarış olmuşdur. Axtarış əsnasında Milli Şura binasında müşavirəyə cəm olan 200 nəfər erməni həbs edilmişdir.

Axtarış

Kanuni-əvvəlin [dekabrın] 24-ündə Erməni Cəmiyyəti-Xeyriyyəsi binasında axtarış olmuşdur. Şəxsiyyətini isbat edici sənədə malik olmayan cavan adamlar həbsə alınmışlardır.

İngilis-fransız heyəti

Bu yaxınlarda İngiltərə-fransız heyətinin bir hissəsi İrəvana, digər hissəsi Batuma gedəcəkdir.

BİR MÜNASİBƏTLƏ

Sülh Konfransına göndərilən İran heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] şəhərimizə vürudunu [gəlişini] eşidib də, qəzetəmiz rəsmi hökumət qəzetəsi olmaq üzrə bəndeyi-acizi [aciz bir bəndə olan məni] mühərrir sifəti ilə heyəti-mürəxxəsə hüzuruna göndərdi ki, əvvəla mərasimi-xoşamədini yerinə yetirib [xoş gəldiniz deyib] və rəsmi hökumət qəzetəsinin bu heyət vüruduna əhəmiyyət və etina göstərdiyini bildirib, bə'd [sonra] bir para bizcə və zənn edirik ki, İran Hökumətincə də vacib ədd [hesab] edilən məsələlər xüsusunda məlumat alıb qəzetəmizdə dərc edək.

Lakin möhtərəm heyəti-mürəxxəsənin başında duran zəvat [şəxslər] bizimlə mülaqat [müsahibə] və söhbət etməyi, bilmirik kəsri-şan hesab etdilərmi [şanlarına layiq görmədilərmi] və ya nə isə, qədim bürokratlara məxsus bir əda ilə qəbul buyurmadılar. Konsul Səidülvüzəra cənablarının vəsatətinə [vasitəçiliyinə] rücu [müraciət] etdiksə də, yenə mülaqat şərəfindən məyus qaldıq.

İran vüzərası [vəzirləri] ilə mülaqatdan məqsəd, İranın övzayi-haliyəsindən [indiki vəziyyətindən] xəbər bilmək, İran dövlətinin Azərbaycan istiqlalı xüsusunda rəy və mülahizələrindən xəbərdar olmaq və İranın Sülh Konfransında nə kimi məsələləri irad və iltizam edəcəyini anlamaq idi. Bu kimi məsələlərin biz azərbaycanlılarca və Azərbaycanda yaşayan İran əhlincə nə dərəcədə haizi-əhəmiyyət [əhəmiyyətə malik] olduğu müsəlləmdir [aydındır]. Biz də bunu bilmək istəyirdik. Yoxsa vəzirlərlə qurudan-quruya söhbət etməyə nə vaxtımız vardır, nə də həvəsimiz.

Ayn

BAKI XƏBƏRLƏRİ

* Məlumdur ki, müvəqqəti olaraq Gəncədən Bakıya gətiriləcək ərzaq məmnu [qadağan] idi. Şimdi Azərbaycan dəmiryolları müdiriyyəti Ərzaq Nəzarətinə müraciətən rica etmişdir ki, işbu qanun ləğv edilsin. Zira Bakı və Gəncənin ərzaq işlərinin layiqli surətdə getmə-

məsini artırır.

* Bələdiyyə İdarəsi, vergi komitəsinə təklif etmişdir ki, Bakı dairəsindəki ictimai tamaşaxanalardan “hərbi naloq” miqdarında vergi alsın.

* Azərbaycan post və teleqraf müəssisələrində Ararat (Ermənistan) Cümhuriyyətinə məktubat qəbul edilir.

* Dün İran heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Parisə Sülh Konfransına azim olmuşdur [yola düşmüşdür].

Hərbi məhkəmədə

Kanuni-əvvəlin [dekabrın] 17-sində Hərbi məhkəmə atidə mündəric əşxasın [aşağıda dərc edilən şəxslərin] işlərinə baxıb, böylə qətnamə çıxarmışdır:

1) Yaqub Silikov Bakı küçələrində güllə atdığı üçün 1 il həbsə alınır. Qətnamə general Tomson tərəfindən təsdiq edilmişdir.

2) Nikolay İqnatyeviç Bakı küçələrində güllə atdığı üçün 5 il həbsə alınır. Qətnamə general Tomson tərəfindən yüngülləşdirilib 2 ilə təbdil edilmişdir [dəyişdirilmişdir].

3) İvan Samoylov piyan olub Bakı küçələrində güllə atdığına görə 2 il həbs cəzasına məhkum edilir. Qətnamə general Tomson tərəfindən təsdiq edilmişdir.

Erməni Milli Komitəsində

Azərbaycan Hökuməti-Cümhuriyyəsi Rəisi-Vükələsı [Baş Naziri] Fətəli Xan Xoyski həzrətləri, Erməni Milli Şurasına müraciət edib, yeni Kabinədə iştirak etməyi təklif etmişdir.

Erməni Milli Komitəsi işbu məsələni 25 kanuni-əvvəl [dekabr] iclasında müzakirə edib qət etmişdir ki, təklifi rədd etsin. İşbu rədd cavabının səbəbləri əvvəllərdə göstərilənlərdir.

Müttəfiq qoşunlarının vürudu [gəlişi]

Kanuni-əvvəlin [dekabrın] 30-unda səhər saat 7-də Ənzəlidən “Qırğız” vaporu varid olub [gəlib], Müttəfiq qoşunlarını gətirmişdir.

Azəbaycan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti]

Hökumətin Məclisi-Məbusan Heyəti-Rüəsası [Rəyasət Heyəti] ilə bərabər kanuni-əvvəlin [dekabrın] 27-dəki iclasında Ümumi Sülh Konfransında iştirak etmək üçün əsamisi atidə mündəric zəvatdan mürəkkəb [adları aşağıda yazılmış şəxslərdən təşkil olunmuş] bir heyəti-mürəxxəsə intixab edilmişdir [seçilmişdir]:

Məclisi-Məbusan Rəisi Əlimərdan bəy Topçubaşov, Hökumət üzvü Məhəmmədhəsən Hacınski, Məclisi-Məbusan əzası [üzvləri] Əhməd bəy Ağayev, Şeyxülislamov.

Müstəşarlığa [məsləhətçiliyə] [Məhəmməd] Məhərrəmov, [Miryaqub] Mehdiyev və Ceyhun bəy Hacıbəyov cənabları intixab edilmişlərdir. Heyəti-mürəxxəsə ən yaxın günlərdə azim olacaqdır [yola düşəcəkdir]. Heyət şimdilikdə lazım olacaq məlumatı cəm edir.

Cüməni bayram etməyə dair

Əcnəbi fəhlələri (beynəlmillətçilər) mister Valtona bir müraciətnamə verib, cümə gününü bayram etmək barəsində verilən qanunun ləğv edilməsini tələb etmişlər və mister Valton işbu qanunun ləğv ediləcəyinə çalışacağını xəbər ver-

mişdir. Bayram ediləcək günün təyini fəhlələrə mühəvvəl ediləcəkdir [tapşırılacaqdır].

Müsəlman tələbələrinə

Bu gün kanuni-saninin (yanvarın) 1-ində Bakı Birinci realnı məktəbi binasında, axşam saat 5-də Bakı müsəlman tələbələrinin iclası təyin edilmişdir. Yoldaşların vaxtında təşrif gətirmələri xahiş olunur.

ƏRZAQ İŞLƏRİ

Ətrafdakı kəndlərə düyü paylanacaqdır

Bakı Şəhər Ərzaq İdarəsi Əhmədli, Keşlə, Zığ, Biləcəri, Binəqədi, Digah, Şağan, Pirşağı, Məhəmmədi, Fatmayı, Türkan, Güzdək, Nardaran, Bilgəh, Xırdalan, Xocahəsən, Buzovna, Qobu, Zirə, Kürkənd, Qala, Şüvəlan, Goradil, Maştağa, Hövsan, Novxanı, Kürdəxanı, Hökməli, Mərdəkan, Bibiheybət və Binə kəndlərinə bu gələn yanvar ayının 2-sindən 8-inəcən Ərzaq Şöbəsinin anbarlarından camaata paylanmaq üçün hər adam başına üç girvənkə hesabı ilə düyü paylayacaqdır. Düyünün girvənkəsi 3 manat 30 qəpikdir.

Ona görə də lazımdır ki, camaatı siyahı edib hazırda nə qədər adam olduğunu adbəad və hər külfətdə neçə nəfər olduğunu iki vərəqdə, yəni iki ədəd siyahıda yazsınlar.

Siyahı vərəqəsinin biri vəkildə qalır, o biri vərəqi nə qədər düyünün pulu eyləyirsə, camaatdan yığılan pul ilə bərabər kəndin vəkili "Natsional" mehmanxanasındakı Ərzaq Şöbəsinə 12-ci otağa verib düyü almaqdan ötrü qəbz (order) almalıdır.

Kəndlərin vəkilləri kənd caamatından düyü almağa şəhadətnamələri olmalıdır. Camaatın siyahı vərəqəsi kənd kəndxudasının imzası və möhrü ilə təsdiq olunmalıdır. Kəndxuda, vəkil və qeyri adamlar, hansılar ki külfətdə olan adamları doğru göstərməyələr, düyünü paylayan vaxt doğruluqca bulmayalar, təftiş olandan sonra əvvəla onlara düyü verilməyəcək və ondan əlavə dava zamanında olan qanuna görə şiddətli cəzaya mübtəla olacaqlar.

Düyü kəndə gələndən sonra kəndxuda və vəkil düyünü siyahı üzü ilə camaatın hüzurunda elan olan qədər, yəni bir adam başına üç girvənkə hesabı ilə düyü paylamalıdır.

* Ərzaq Nəzarəti tərəfindən Əli bəy Zülqədərova icazə verilibdir ki, Gürcüstandan dörd vaqon qənd gətirib Azərbaycan Cümhuriyyətində sərbəst satışa qoysun.

* Ərzaq Nəzarətinə Sabunçu naibikonsulu Şabanzadə tərəfindən ərizə verilibdir ki, Sabunçu-Balaxanı polismeysterstvosunda [polis idarəsində] vəfat edən iranlılar üçün kəfənlik dörd tay bez buraxılsın.

* Dərbənd mövqifində [stansiyasında] vəsiqəsiz üç tay bez tutulubdur. Ərzaq Nəzarəti bu xüsusda həman bezi göndərən Qazıqumuq sakini Mirzə Ramazan oğlunun həbs olunmasına əmr etmişdir. Mirzə Ramazan oğlu hal-hazırda 5-ci polisdə həbsdədir.

* Ərzaq Nəzarəti Quba qəzası qaimməqamına yazıb bildirmişdir ki, Quba

mahalında türklər tərəfindən zəkat təriqi [yolu] ilə yığılan taxılın miqdarını və hansı anbarlarda olmasını xəbər verməklə bərabər, məzkur [deyilən] taxılı Bakıya Ərzaq Nəzarəti adına göndərsin.

* Bakıdan Tiflisə kilsə şamı aparmaqdan ötrü Ərzaq Nəzarəti tərəfindən Anatoli Yefimova icazə verilmişdir.

* Gürcüstandan Azərbaycana mal gətirib sərbəst satışa qoymaqdan ötrü Ərzaq Nəzarəti tərəfindən İsmayıl Məhəmməd oğluna müsaidə verilmişdir.

* Kanuni-əvvəlin [dekabrın] 30-unda Ərzaq Nəzarəti Əbdül Babayevə Tiflisə və Poti təriqi [yolu] ilə Odessaya silyotka [siyənək balığı] aparmağa icazə vermişdir.

AZƏRBAYCANDA

Gəncədən bizə yazırlar

Gəncə Şah Abbas məscidi həyətində, bazar ertəsi saat 10-da, “Mövludi-nəbi” münasibəti ilə təntənəli bir ictima [yığıncaq, tədbir] vaqe olmuşdur və ictimada başqa ruhanilərlə Molla Məhəmməd Axund Pişnamazzadə, Gəncə Bələdiyyə rəisi Ələsgər bəy Xasməhəmmədov, türk mücahidlərindən Mürsəl paşa, Gəncə müsəlman müəllimlərindən bir qaç nəfəri, Məktəbi-Hərbiyyə tələbələri, Mədrəseyi-Ruhaniyyə şagirdləri ilə başqa ibtidai məktəblərin çocuqları hazır idilər. Bunlardan başqa əsnafdan [xırda ticarətlə və sənətkarlıqla məşğul olan adamlardan] dəxi ictimaya təşrif gətirənlər də az deyildi.

Ən əvvəl Mədrəseyi-Ruhaniyyə şagirdlərindən hazırlanmış qayət müntəzəm bir xor dəstəsi milli şərqi söyləməyə başlayır. Əvvəlinci şərqi bitdikdə, mədrəsənin şəriət müəllimi Mir Nəsrulla Seyidzadə, Məhəmməd əleyhissəlamın “mövludu” xüsusunda bir qədər izahat verib, tərcümeyi-halı ilə əhalini aşina edir. Sonra ruhanilərimizdən Hacı Molla Yaqub Baratzadə cənabları hərbiyyə tələbələrini və islamiyyət naminə salamla qarşılayıb “Mövludi-nəbi” münasibətilə hazirunu [orada olanları] təbrik edir və yeni təşkil olunmuş Azərbaycan Hökumətinə sədaqətlə xidmət etmələrini tövsiyə edərək, “Hər kəs bu müqəddəs əsgərlik vəzifəsini buraxıb fərar edərsə, küfrünə hökm olunacaqdır [kafir elan ediləcəkdir]” buyurur.

Baratzadə həzrətlərini mütəaqib [ardınca], müəllim Əziz Musazadə, ictimada hazır bulunanları təbrikdən sonra qısa bir nitq irad edərək [söyləyərək]:

“Hangi bir millət olursa olsun, yaşayıb ideal və arzusuna varmaq üçün maddi və mənəvi qüvvəyə malik olması lazımdır. Həman millətin mənəvi qüvvəsi ziyalılarından ibarətdir ki, bu, elm və mərifət sayəsində meydana çıxacağı şübhəsizdir. Maddi qüvvəsi isə hər dürlü varidatından və birinci dərəcədə mövqe əxz edən [tutan] əsgəri qüvvəsindən ibarət idi.”

Bundan sonra Bələdiyyə Rəisi Xasməhəmmədov həzrətləri, haziruna xitabən ümum islam aləmi üçün bu günün müqəddəs bir gün olduğunu söyləyərək, türk qardaşlarımızın Qafqaziyaya gəlmələri və almış olduqları əmrnamə üzərinə ricət etmələri [qayıtmaları] barədə danışırlar.

Bundan sonra üzünü hərbiyyə tələbələrinə tutaraq: “Qardaşlar! Sizin

əsgərlik vəzifəniz ən mühümdür. Zira millətin irz [və] namusunu düşmənlərə qarşı müdafiə və mühafizə edən yalnız sizin süngüləriniz olacaqdır. Qafqaziyada hal-hazırda şanlı Azərbaycan milli bayrağının təməvvüc vurmasını [dalğalanmasını], maarif xüsusunda dövri-intibah [intibah dövrü] başlanmasını, əsgəri təşkilatın müvəffəqiyyətli bir surətdə gedişini gördüyümdən dolayı qəlbimin məsrur [sevincli] olduğunu qafqaziyalı qardaşlarıma elam edirəm [bildirirəm]" deməklə xətmi-kəlam edirlər [sözü bitirirlər].

Ən nəhayət, Axund Molla Məhəmməd Pişnamazzadə həzrətləri əhaliyə qarşı bu günün şərəfini zikr edərək dövri-istibdaddan Qafqaz müsəlmanlarının türk lisanı [dili] uğrunda çəkmiş olduqları cövrü cəfaları və kəndi ana dili üzərinə təlim və tərbiyə almaqdan binəsib olaraq bu xüsusda bir qəfəs içərisində həbs olunduqlarını təsvir edirlər.

Bədəhu [ondan sonra] lisan üstündə bir qədər danışdıqdan sonra hərbiyyə tələbələrinə xitabən:

"Yaşasın o cavanlar ki, rus lisanı üzrə təlim almağı qəti surətdə rədd edərək kəndi ana dillərində təlim almağı qəbul etdilər!" *(Alqış)*

Nəhayət, zati-aliləri xütbə [dini-əxlaqi məzmunlu nitq] oxuyaraq ictimada iştirak edənlərin cümləsi "amin" deyirlər. Xütbə bitdikdən sonra hərbiyyə tələbələrinə komanda edilir. Türk təlimi üzərinə nizam almış bu gənclər, milli şərqi oxuya-oxuya məscidi-camenin böyük qapısından dişarı fırlayaraq qayət müntəzəm bir surətdə yürüş edirdilər. Saat bir radələri idi. İşbu mənzərə tamaşaçılara başqa bir zövq, başqa bir ruh yüksəkliyi bəxş edirdi.

Mirzə Əziz Musazadə

* Cəbrayıl qəzasının 2-ci dairə müfəttişi xəbər verir ki, 30 nəfərədək müsəlləh [silahlı] erməni, Əfəndilər kəndi sakininin 12 baş qaramalını aparmışlar. Canilər erməni Sor kəndinə qaçıb gizlənmişlər.

* Gorazıllı kəndi sakinləri Həsən Hacı Qurban oğlu və Muxtar Qara oğlu Ağarı kəndindən qayıtdıqları əsnada Noraşen kəndi yanında 6 nəfər müsəlləh [silahlı] ermənilər tərəfindən qarət edilmişlər.

* Cəbrayıl qəzasının 2-ci dairə müfəttişi xəbər verir ki, Balyand kəndi sakinləri Cəfər Ələkbər oğlu və Nəsir Məhərrəm oğlu Vəng kəndinə buğda və duz satmağa getdikləri əsnada yolda ermənilər tərəfindən qarət edilib qətl edilmişlər.

Bu günlərdə müqtədir şairlərimizdən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin **"İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

b. 4 – 3

Doktor Rza bəy Sultanov
Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

2603

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

209

Qabil diş qayıran
Mirzə Xəlil Canıbəyzadə

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, “İslamiyyə”nin sağ tərəfində ev nömrə 55.

295

Doktor
Doktor Samuil İzrailoviç
Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Kanyak, çaxır butılkaları alıram

Səhmdarlar cəmiyyəti Qummel Qardaşları. Mariinski küçədə nömrə 5-15.

Telefon 3-45

2622 2-1

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi

Axşam saat 5-7-yə kimi.

Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-1

“Qənaət”

Bu yanvarın 3-ündə, cümə günü saat 10-da, Spasski və Çelyayevski küçələrin küncündə, “Qənaət” dükanında, “Qənaət” üzvlərinin iclasi-ümumisi olacaq və hərgah saat 10-adək qanuna müvafiq üzvlər gəlməsə, həmin gün ikinci iclasi-ümumi olacaq saat 12-də və nə qədər üzvlər olsa da qanuna müvafiq hesab olunub məclis açılacaqdır. Müzakirəyə qoyulan məsələlər:

1) İdarənin dokladı;

2) Dükanın bağlanması.

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri

səh. 1-2. "...1334 sənəsi kanuni-əvvəlin ... günündən...": Məclisi-Məbusan Rəisinin əmrlərində il rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-ci il dekabr ayının müvafiq gününə uyğundur.

səh. 1. "...1334 sənəsi təşrini-saninin ...-dan/-dən": Məclisi-Məbusan Rəisinin əmrlərində il rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-ci il noyabr ayının müvafiq gününə uyğundur.

Bakı, 1 kanuni-sani 1919

səh. 3. "Türklərin müavinəti Azərbaycan islamlarını və onların istiqlaliyyətini **maddiyyən müvəqqəti olaraq** təmin etdi isə, Müttəfiqlərin böylə müavinət və hüsn-rəğbətləri Azərbaycan istiqlaliyyətinin **mənəvi** cəhətini təmin edib, onun **daimi surətdə** paydar olması üçün bizə ümid verir.": Bu cümlədə "maddiyyən müvəqqəti olaraq" "mənəvi" və "daimi surətdə" sözlər qara verilmişdir.

Lənkəran faciəsi

səh. 3. "bə'd-əz xərabiyi-Bəsrə": hərfən: "Bəsrə viran olduqdan son"; bu ifadə "işdən keçdikdən sonra" mənasında işlədilir.

"...erməni makiavellərinin...": İtalyan filosof və yazıçısı Nikkolo Makiavellinin (1469-1527) adı ilə bağlı olan, psixologiyada duyğusuzluq və əxlaqi biganəlik, siyasətdə bütün mənəvi-əxlaqi normlardan kənar qəddarlıq şəklində təzahür edən makiavellizm tərəfdarı olmağı ifadə edir.

səh. 4. "...Lənkəran məbusunun boynunadır...": Azərbaycan Cümhuriyyəti Parlamentində, biri Lənkəran qəzasından (Qulamhüseyn bəy Kazımbəyov), digəri Lənkəran şəhərindən (Səməd bəy Mehmandarov) olmaqla iki millət vəkili var idi.

Hər işə çarə vardır

səh. 6. "Siniflər arasına gediniz...": qəzetdə "siniflər" yerinə "səflər" getmişdir.

Azərbaycan Məclisi-Məbusanında

səh. 9. "...demokratiyanın arzusunu da [qulaq ardına] verə bilməz...": qəzetdə "qulaq ardına" sözü getməmiş və cümlə anlaşılmaz qalmışdır; cümlənin mənasını əsas götürərək, belə bərpa etdik.

"Azərbaycan gənclərinə" (səh. 12) şeiri üçün lüğət:

ol: o
tənnaz: nazlı
qurnaz: zirək
səbz: yaşıl
rəxşan: işıqlı, parlaq
şüayi-pak: pak şüa
münəvvər: nurlu
ənvər: nurlu, işıqlı
bak: qorxu
dil: qəlb
söynər: sevinər
sonmaq: sönmək
hiza: səf, sıra

"Azərbaycan gənclərinə"

səh. 12. "Türk millətinin hilalı parlar / Teymur ilə Mürtəza belində": buradakı "Teymur" və "Mürtəza" güman ki, Azərbaycanda dağ zirvələrinin adlarıdır. Ehtimal ki, "Teymur beli" deyərkən Borçalı mahalındakı "Teymur dağı", "Mürtəza beli" deyərkən Göyçə mahalındakı "Mürtəza dağı" (yaxud "Murtuz dağı") nəzərdə tutulmuşdur.

"Türk oğluna evçilik yaraşmaz": "Türk oğluna evdə oturmaq yaraşmaz" kimi başa düşülməlidir; şeirin sonrakı misralarından da açıq başa düşülür ki, şair gəncləri vətən uğrunda hərbi xidmətə çağırmaqdadır.

"Çıx avcı xətinə, haydi, marş, marş": "Avcı xətti" (ovçu xətti) düşmənə doğru hərəkət edərkən ən ön cərgədə olan əsgərlərin

səfinə deyilir. Bu misrada “xəttinə” sözü vəznə uyğun gəlməsi üçün “xətinə” kimi oxunmalıdır.

Bir münasibətlə

səh. 13. “Ayn”: bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Azərbaycanda

səh. 16. “Gəncə Şah Abbas məscidi həyətində, bazar ertəsi saat 10-da, “Mövludi-nəbi” münasibəti ilə təntənəli bir ictima vaqe olmuşdur...”: Peyğəmbərin mövludu əsasən 12 rəbiüləvvəl günü qeyd olunur. Burada da çox güman ki, 12 rəbiüləvvəl, yəni 16 dekabr bazar ertəsi günü keçirilən tədbirdən danışılır.

“Mürsəl paşa”: Qafqaz İslam Ordusunun komandirlərindən Mürsəl Bakü nəzərdə tutulur.

“Qardaşlar! Sizin əsgərlik vəzifəniz...”: Mövlud mərasimində Qafqaz İslam Ordusu komandirlərindən Mürsəl paşa da iştirak etmişdir. Mürsəl paşanın bu tədbirdə çıxış etməməsi, yaxud onun sözlərinə qəzetdə yer verilməməsi ağlabatan görünmür. “Qardaşlar! Sizin əsgərlik vəzifəniz...”; “Qafqaziyalı qardaşlarıma” sözlərindən də görünür ki, bu nitqi çox güman ki, Mürsəl paşa söyləmişdir.

Cümə axşamı, 2 yanvar 1919-cu il, nömrə 77

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 29 rəbiüləvvəl sənə 1337. 2 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

TELEQRAF XƏBƏRLƏRİ

Müttəfiqlər Kubanda

Sevastopol təriqi [yolu] ilə Yekaterinodara xəbər verirlər ki, Kubanda olan Müttəfiq dövlət nümayəndələri Kuban əhvali-siyasiyyəsi [siyasi vəziyyəti] ilə dürüst aşina olmuşlardır. Qeyri-rəsmi adamlardan alınan xəbərlər Müttəfiqlərə böyük təsir bağışlamışdır. Müttəfiqlər Kuban Radasının siyasətindən və əhvalın həqiqətindən xəbərdar olduqda, Könüllü ordu nəzdindəki Ərkani-hərb müşavirəsi [Hərbi qərargah məclisi] üzvlərinə bir qədər soyuq nəzərlə baxmağa başlamışdır.

Bundan əlavə, ordu başında olan dairələrlə də ehtiyatkaranə davranmaqdadırlar. Müttəfiqlər Könüllü orduya texnika cəhətdən müavinət [köməklik] göstərəcəklərdir. Lakin Könüllü ordunun öz nüfuzu ilə siyasi təsiratının güclənməsindən saqınacaqlardır.

Lehistanda

Nauen teleqraf acentəliyi xəbər verir ki, Lvovda Leh (Polşa) Hökuməti təşkil edildikdən sonra Lehistanda dörd müxtəlif hökumət mövcuddur:

1 - Lvovda köhnə Lehistan Hökuməti;

2 - Pilsudski başda olmaq üzrə Varşava Hökuməti;

3 - Lyublində sosial-revolusioner hökuməti;

4 - Krakovda Polşa Təsviyyə Komitəsi.

Türkiyə Parlamanı

Vüzəra Şurası [Nazirlər Kabineti] hələliyə Türkiyə Parlamanının buraxılmasını qərara almışdır.

Amerika donanmasının artırılması

Bəhriyyə İşləri katibi Daniels öz illik hesabında donanmanın beynəlmiləl polisəsi vəzifəsini və dənziləri mühafizə etmək işlərini aparmaqdan ötrü artırılmasını məsləhət görür. Daniels İngiltərə donanmasının müvafiqətkarlığından [razılığından] bəhs edib deyir ki, Amerika Hökuməti ən dövlətli bir hökumət və müharibə zamanı hamıdan az mütəzərrir [zərər çəkmiş] olduğuna görə, sülhi-ümumini [ümumdünya sülhünü] mühafizə etməkdən ötrü donanma məxaricini [xərclərini] öz öhdəsinə almalıdır. Daniels İngiltərə donanmasının Amerika əsgərlərini nəql etməkdən ötrü hazır olduğunu tərif etmişdir.

SÜLH ƏTRAFINDA

* Parisdən verilən məlumata görə, Londrada Müttəfiqlər gələcək Sülh Konfransı məramnaməsini hazırlamaq üçün müşavirələr tərtib etməkdədirlər. Hələlik Etilaf düvəli-müəzzəməsi [Antanta blokunun böyük dövlətləri] iştirak edir. Ondan sonra başqa müttəfiqlər də konqredə iştiraka cəlb ediləcəklər. Qəti məsələdən ötrü Vilsonun vürudu [gəlişi] gözlənir.

* Sülh Konqresi möhtəməl [ehtimal edilən] vaxtdan əvvəl iniqad edəcəkdir [baş tutacaqdır]. İngiltərə heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] bütün xidmətçiləri ilə bərabər 450-500 nəfərədək olacaqdır.

* “Havas” acentəliyinin Parisdən verdiyi məlumata görə, Parlamanın Sosialistlər fraksiyası heyəti Fransa Rəisi-Vükəlası [Baş Naziri] Klemansoya müraciətən, Sülh Konqresində fəhlələrə xüsusi yer verilmək üçün lazımi tədabir ittixaz edilməsini [tədbirlər görülməsini] və Beynəlmiləl Sosialist Konqresi dəvətinə [çağırılmasına] izin verilməsini xahiş etmişdir. Klemanso cavab vermişdir ki, işbu məsələni başqa müttəfiqlərlə bərabər həll etməlidir.

* Kanuni-əvvəlin əvailində [dekabrın əvvəllərində] Braziliya sülh heyəti konqreyə gedəcəkdir.

Mütarikənin [atəşkəsin] uzadılması

Berlindən Amsterdama verilən xəbərlərə görə, Erzberqer izhar etmişdir [bildirmişdir] ki, fransızlar mütarikə müddətini uzatma məsələsini müzakirə etməkdən ötrü Almaniya komandanlığına müraciətlə vəkillər təyin edilməsi tələbində bulunmuşdur. Bu məsələ Trirdə bu ayın 12 və ya 13-ündə müzakirə ediləcəkdir.

KİM NƏYİN FİKRİNDƏ İMİŞ?

Bizi Rusiyaya “bitişdirmək” istəyən “Yedinaya Rossiya” qəzetəsi general Tomsonun bu axırkı intibahnaməsindən [bəyanatından] və generalın bilxassə özündən çox narazıdır. Şəhərimizdəki Rus Milli Komitəsinin naşiri-əfkarı [fikirlərini yayan orqan] və Azərbaycan azadlığının düşməni olan bu qəzetə, Rəisi-Vüzəra [Baş Nazir] Fətəli xanın deklarasiyasını və bu deklarasiya bəd’ində [ardınca] general Tomson tərəfindən sadir olan [elan edilən] intibahnaməni tənqid edərək deyir ki:

“Bu necə işdir? Fətəli xan deyir ki, Azərbaycan Hökuməti Azərbaycan dövlətinin istiqlalını gözünün bəbəyi kimi mühafizə və müdafiə edəcəkdir. General Tomson dəxi əmr verir ki, Azərbaycan daxilində Fətəli xan hökumətindən başqa ayrı hökumət ola bilməz və bu hökumətə ingilis komandası tərəfindən hər dürlü müzahirət [yardım] göstəriləcəkdir. Belə neyçün?

Deməli, ingilis komandası başında olan şəxs Azərbaycanın Rusiyadan ayrılıb da müstəqil bir hökumət olduğuna razımı olur? Bəs, ingilislər Rusiyanı təzədən diriltmək istəyirdilər?!” deyə şikayətdə bulunur.

“Yedinaya Rossiya”dan başqa “həqiqi eserler”lərin məşhur “Znamya truda”sı, fəhlə “tərəfdarlarının” “İskra”sı, Erməni Milli Komitəsinin “Naşe vremya”sı, “qəh-

rəman" daşnakların "Vperyod" adındakı küçə vərəqəsi, hətta müsəlman pulu ilə çıxan "Kaspi" qəzetəsi dəxi bu mətləb xüsusunda ağız-ağıza verib biri şikayət edir, biri söyür, biri ağlayır, biri ah-nalə çəkir, biri qarğış edir. Amma, axırda hamısı öz-özlərinə təsəlli verib deyirlər ki: inşallah ki, bu iş "недоразумение"dir [anlaşılmazlıq olmuşdur]! Yəni, ingilis komandası başında duran general Tomson səhv edibdir və səhvini başa salsaq, tez düzəldər!

Şübhəsizdir ki, insaniyyət və azadlıq düşməni olan bu qəzetələrin bu cürə danışıqları salamat bir ağlın kəraməti sayəsində hasil olmayıb da, büxl [paxıllıq] və həsəd hissiyati-zəmiməsinin [bədxah hisslərinin] daşıb-coşmasından nəşət edən [irəli gələn] sərsəri sözlərdir. Dilənçilərinə qədər mədəniyyət sahibi olan bir millətin generalı o qədər oldu ki, dediyi sözlərin haqq və səhv olduğunu anlamadımı? Və bu sözlərin vaxt və mövqeyini dərk etmədimi?

Boş və bica [puç, mənasız] təsəllidir!

General Tomson nə eylədiyinin və nə danışdığının mənasını, əlbəttə, çox gözəl bilir və əgər generalın hərəkatı [hərəkətləri] və buyurduğu sözlər azadlıq düşmənlərinin meyil və arzusuna təvafüq etməyirsə [uyğun gəlməyirsə], ondan aşkardır ki, general Tomson azadlıq düşmənlərinin meyil və arzularına şərik deyildir.

Hələ "Kaspi" qəzetəsinin xüsusi bir təsəllisi var. Deyir ki, general Tomsonun Azərbaycanı ancaq Azərbaycan Hökumətinə tapşırması və bu hökumətə kömək vəd etməsi Azərbaycan istiqlalının ingilislər tərəfindən təsdiqi əmrinə [faktına] dəlil deyildir.

Lakin, bizcə "Kaspi"nin bu xüsusi təsəllisi dəxi düşmənlərimiz üçün həqiqi təsəlli olacaq mahiyyətdə bir şey deyildir. Çünki əvvəla, şübhə yoxdur ki, general Tomsonun bu intibahnaməsinə Amerika və Fransadan ibarət olan sair Müttəfiqlər nümayəndələri dəxi şərikdirlər və saniyən [ikinci olaraq] ingilis generalının sözü, necə ki məbuslarımız [millətvəkillərimiz] dəxi təsdiq etdilər, ingilis camaatının sözüdür. Bundan ötrü ki, general Tomsonu Azərbaycana göndərən, ona məmuriyyət verən, ona etibar və etimad edən ingilis camaatı olubdur və bir də generalın eylədiklərini və dediklərini London bilib də təsvib [təsdiq] etməsə, onu burada saxlamaz, əvəz eylər. Nahaq yerə düşmənlərimiz general Tomsonu Londona şikayət edəcəklər, deyə təhdid edirlər! Hərçənd ki, şikayət etsələr heç yaman olmaz: özlərinin əbəs yerə qara-qışqırıq salan olduqlarını, qaraçılıqlarını və bununla belə düşməni-insaniyyət və ədüvvi-hürriyyət [insanlıq və azadlıq düşməni] olduqlarını general Tomsona bildirdikləri kimi, Londona dəxi bildirməklə, bəlkə birkərəlik canımızı qurtararlar.

General Tomsonun hərəkatı mübtədi [ibtidai] məktəb şagirdlərinin belə anlayacağı dərəcədə aşkar və aydın bir işdir.

General Qafqaza varid olub [gəlib] həqiqəti-haldan bizzat və bileyn [şəxsən və öz gözü ilə görərək] xəbərdar oldu. Gördü ki, Azərbaycan torpağı Azərbaycan türkləri ilə məskun bir yerdir. Bu türklərin nizamsevən, asayişə riayət edən, ülüvvi-cənab [alicənab] bir irq

olduğunu müşahidə etdi. Türk-Azərbaycan torpağında bir xeyli erməni ünsürlərinin də yaşadığını gördü. Şübhəsiz ermənilərin də nə gunə [nə cür] xasiyyət sahibi bir millət olduğunu da anladı. Ondan əlavə, burada sabiq Rusiya padşahlığından qalmış bir qədər də rus olduğunu gördü. Bu ruslardan da bir parasının çürük istibdad fikirli “millətpərəst” və bir paralarının da yalançı “hürriyyətpərəst” və “fəhlədost” olduqlarını sezdi. Bavücudi-in [bununla birgə], arada söz olmasın deyə, Hökumətimizə təklif etdi ki, hökumət içində ruslara və ermənilərə dəxi yer verilsin. Zatən, Hökumətimiz və Parlamanımız bu hökuməti-müctəmiə [birləşmiş hökumət] fikrini əvvəldən özü meydana atmışdı. Odur ki, Hökumətimiz heyətində ruslara da, ermənilərə də hərəsinə üç vəzirlik [nazirlik] yeri verildi. Ermənilər bu vəzirlik yerlərini “kamali-fəxr” [“böyük bir qürur”] ilə rədd etdilər. Ruslardan da “Yedinaya Rossiya” çadırına mənsub olmayanlardan iki nəfəri gəldi, amma Rus Milli Komitəsi təklifimizi qəbul etmədi. Biz də ki, daha yalvarmayacayıq. General Tomson dəxi rus və erməni millətçilərinin bu yersiz naz və qəmzələrindən və nalayiq hərəkətlərindən xoşnud olmadığını bildirib, yeni Hökumətimizi təsdiq etdi. Vəssalam!

“Yedinaya Rossiya” bizdən və general Tomsondan incidiyi kimi, Hökumətimiz içində vəzirliyi qəbul edən Protasov və Lizqar cənablarından daha artıq incikdir. Deyir, necə ola bilər ki, Azərbaycan Hökumətinin istiqlalına rus adamları razı olub da, hələ gedib vəzirlik də etsinlər?

Deməli, Rus Milli Komitəsi Hökumətimiz içinə vəzir göndərsəymiş, həman vəzir Azərbaycan əhalisinin ehtiyacat və məişət işlərini kənara atıb ancaq Azərbaycanı Rusiyaya “bitişdirmək” politikasına məşğul olacaqmış. Bundan belə görünür ki, erməni vəzirləri də Azərbaycanı Ermənistana bitişdirəcəklərmiş. Ancaq bu politikanın yeridilə bilməyəcəyini görüb də təklifimizi rədd edib, özümüzdən küsübdürlər.

Bəs elə isə yaxşı edibdirlər ki, küsübdürlər. Axıradək küsmüş qalsalar daha gözəl iş görmüş olarlar. Çünki Azərbaycan vəzirləri rus olsun, erməni olsun, yalnız Azərbaycana və Azərbaycanın ehtiyacatına qulluq etməlidirlər və illa “başqa fikirlər”lə gəlmiş olan vəzirləri biz bir gün də içimizdə saxlamarıq!

Hacıbəyli Üzeyir

PARLAMAN ƏTRAFINDA

İdarəyə məktub

-I-

Möhtərəm müdir!

“Azərbaycan”ın 76-cı nömrəsində “Lənkəran faciəsi” ünvanlı məqalənizdə Lənkərandakı vətəndaşlarımızın düçar olduqları fəlakətə haqqı ilə həmdərdlik etmiş, ifayi-vəzifeyi-həmiyyət olmaq [vətən və millət təəssübü çəkmək vəzifəsini yerinə yetirmək] üzrə Parlaman əzalarının [üzvlərinin] bu məsələ haqqında bu vaxta qədər səs çıxarmadıqları üçün günahkar olduqların[ı] məqami-müaxizədə [töhmət mənasında] söyləmiş, bilxassə [xüsusilə]

Lənkəran nümayəndəsin[i] günahlı çıxarmışsınız.

Kəndinizin də etiraf eylədiyinizə görə, bu vaxta qədər qarşımızı kəsən mümaniət [maneə], ancaq Tomsonun Azərbaycan Hökuməti haqqındakı bəyannaməsindən sonra qalxmışdır. Böylə ikən Parlaman əzaların[ın] ümumən və Lənkəran nümayəndəsinin də xüsusən bir söz söyləməmək günahkarlığı[nı] müaxizə üçün bir qaç gün möhlət vermək münasib olardı zənn edəriz.

Kəndi vətəninin deyil, Azərbaycan vətəni-ümumisinin bir cüzi-layenfəki [ayrılmaz parçası] olan Lənkəran məsələsi isə Lənkəran nümayəndəsi tərəfindən dəfələrlə Hökumət hüzurunda Parlaman rəyasəti ilə fraksiya daxilində mövzui-bəhs olunmuş [gündəmə gətirilmiş], bu xüsusda rəsmi və ələni [açıq-aşkar] bir təşəbbüsdə bulunmaq isə siyasətən daha münasib bir zamana qədər təcil edilmişdi [təxirə salınmışdı].

Lənkəran məbusu
Hacı Mirzə Səlim Axundzadə

İdarədən: Lənkəran məsələsinin və bu məsələ qarşısındakı mümaniətlərin [maneələrin] xüsusunda Tomsonun intibahnaməsindən qabaq Parlaman kürsüsündən ələnən [açıqca] danışılaydı, mənfəətdən başqa bir zərər olmazdı. Biz ki, bu məsələnin Parlamanda açılacağı intizarındayıq.

-II-

Müdiri-möhtərəm!

"Azərbaycan" qəzetəsinin 74-cü nömrəsində "Əhrar" fraksiyasının çıxışı xüsusunda verilən məlumat həqiqətə müğayirdir [ziddir]. Guya, mən demiş olam ki, "Əhrar" fraksiyası, bəyannaməsini öz vaxtında oxumaqdan qəflət edibdir və guya, bir qədər müzakirədən sonra, mənə bəyannaməni oxumaq izni verilibdir. Həqiqət isə böylədir: "Əhrar" fraksiyası Məclisi-Məbusan güşadından [açılışından] sonra təşkil olunubdur. Deməli, firqələr tərəfindən bəyannamələr oxunanda, fraksiyamız dünyaya gəlməmişdi və gəlmədiyi surətdə "qəflət" də edə bilməzdi.

Bəyannamə xüsusunda isə fraksiyamızın qərarı böylə idi ki, yeni təşkil olunmuş Kabinəyə izhari-etimad etmək [etimad göstərmək] münasibətilə bəyannamə də oxunsun. Çünki fraksiya, Cümhuriyyəti idarə etmək xüsusunda öz fikrini söyləməmiş, Hökumətə izhari-etimad edəmməzdi. Bu barədə mən çıxışımdan qabaq həm Sədr cənablarını və həm bir neçə firqələrin liderlərini görmüşdüm. Sədr əfəndi əvvəlcə riza verməyirdi. Mən də ona söylədim ki, bizim fraksiyamız da, başqa firqələr kimi, idarə xüsusunda öz nöqteyi-nəzərini bəyan etməzsə, etimadını da elan edəməyəcəkdir. Sədr cənabları mənə cavab verməyib, sükut ixtiyar etdi. Natiqlər sırasında növbət mənə gəlib yetişdi. Mən bəyannaməni oxumağa başladım. Sədr cənabları məni dayandırdısa da, məbuslar yerbəyerdən oxumaq təklifini etdi. Mən də bircə kəlmə söz belə deməyib, Sədr izni ilə bəyannaməni oxumağa davam etdim.

Abdulla bəy Əfəndizadə

GÜRCÜ-ERMƏNİ MÜHARİBƏSİ

Gürcüstan ərkani-hərbindən [hərbi qərargahından]

Şüləver dairəsində vaqe olan müsadimədə [toqquşmada] düşmənin iki pulemyotu bizim əlimizə keçmişdir.

Şüləverin alınması

Azərbaycan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsi, Tiflisdən böylə bir rəsmi teleqraf almışdır: Dekabrın 28-də bizim əsgərlərimiz Şüləveri işğal etmişlərdir. Bütün gün bizim əsgərlərimiz 4 top, bir neçə pulemyot qənimət alıb, yeddi zabit və 106 nəfər əsgər əsir tutmuşlardır. Məğlub olmuş düşmən qaçmağa üz qoyub əsgərlərimiz tərəfindən təqib edilməkdədir.

Sadaxlının alınması

Bakıda olan Gürcüstanın siyasi nümayəndəsinin aldığı xəbərlər görə, gürcü əsgərləri Sadaxlını işğal edib, müharibə ilə irəli hərəkət etməkdədirlər.

Təkzib

* Azərbaycan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsinin məlumat şöbəsi xəbər verir ki, gürcü-erməni müharibəsinin qurtarması haqqında dəvəran edən [gəzən] şayiələr və qəzetə xəbərləri əsilsizdir.

* Yenə həman məlumat şöbəsi Gürcüstan Hökumətinə verdiyi sualına cavab almışdır ki, “Znamya truda” qəzetəsinin erməni əsgərləri tərəfindən qənaimi-hərbiyyə [hərbi qənimət] almaları xüsusunda yazdığı xəbərlər əsilsizdir.

Dağıstan Hökumətinin Gürcüstan və Ermənistan hökumətlərinə notası

Dağıstan Hökumətinin Xariciyyə naziri vəzifəsini ifa edən Kotsev müharibənin dayandırılması haqqında Gürcüstan və Ermənistan hökumətlərinə böylə bir nota göndərmişdir:

“Bolşevizm mübarizəsində xunalud olan [qana batan] Qafqazyanın Dağıstan əhalisi Gürcüstan və Ermənistan hökumətləri arasında sərhəd məsələsindən ötrü başlanan qanlı müharibəni kamalitəəssüflə [böyük bir təəssüflə] eşitmişlər. Cahan müharibəsi dayandırılıb, aləmi-bəşəriyyət təzə həyata başladığı bir zamanda Dağıstan Hökuməti iki millət arasında başlanan müharibənin bir onlar üçün deyil, bəlkə qonşu hökumətlərin müqəddəratı üçün fəlakətli olduğunu görür. Qafqaziyanın iki mütəşəkkil və demokratik cümhuriyyətləri arasında daxili mübahisələrin silah gücü ilə həll edilməsi, Qafqaziyada müstəqil hökumətlər təşkilini bütün cahan və Avropa nəzərində ləkələyir. Gürcüstan və Ermənistan hökumətləri nəinki bir tək özlərinin, bəlkə bizim də istiqlalımız əleyhinə silah qaldırmış olurlar. Bütün Qafqaziya millətləri üçün mədəni müvəffəqiyyət, məhəbbət və xoşbəxtlik arzusunda olan Qafqaziya Dağıstan əhalisi öz hökumətləri dili ilə Gürcüstan və Ermənistan millətləri arasındakı qardaş öldürücü müharibənin dayandırılmasını təkidlə xahiş edir.

Müharibə hərəkatının tezliklə dayandırılmasını arzu edən Hökumətim tərəfindən mütarikə əqd edilməsi qəsdi [atəşkəs bağlanması məqsədi] ilə Gürcüstan və Ermənistan hökumətləri arasında

vasitəçilik vəzifəsini ifa etmək təklifini edirəm.

QƏZETƏLƏRDƏN

İsveç kralının taxtından əl çəkəcəyi ehtimalı

Stokholmdan verilən məlumata görə, ora siyasi əhvalı gərginləşmişdir. Dəvairi-siyasiyyədə [siyasi dairələrdə] danışılır ki, məsələ kral Qustavın taxtından əl çəkməsi ilə həll ediləcəkdir. İşbu günlərdə kral taxtından əl çəkəcək də cümhuriyyət elan ediləcəkdir.

* Libavaya dörd zirehli kreyser [sürətli hərb gəmisi], bir mina tutan gəmi və altı müxribdən [destroyerdən] ibarət bir ingilis donanması gəlmişdir. Ehtimal üzrə, vaporlarda qoşun vardır. Bu qoşunlar da bolşeviklərlə mübarizə etməkdən ötrü şimala tərəf gedəcəkdir.

* Qəzetələrin məlumatına görə, Hindistan muxtariyyəti-məşrutiyyəsi [konstitusiyalı muxtariyyəti] məsələsi ən yaxın zamanda həll ediləcəkdir. Bunu da əlavə etməlidir ki, Hindistanda bundan ötrü çoxdan bəri zəminə hazırlanmışdır. 18-85-ci sənədən sonra Hindistan, Milli Konqre iniqad [təşkil] etməyə başlamışdı. İşbu konqre rəsmi bir dairə ədd [hesab] edilmədiyinə baxmayaraq, böyük əhəmiyyəti haiz olmuşdur [daşımışdır]. Zira burası, gələcək muxtar Hindistanın idarəsində fəaliyyətdə bulunmaq üçün məlumatlı üzvlər hazırlayır. Böyləliklə, təşkil ediləcək İngiltərə müstəmləkatında [müstəmləkələrində] ehtimal edilən narazılıq bərtərəf edilmiş [aradan qaldırılmış] olacaqdır. İngiltərənin federasyon əsası üzərində təşkil edilməsi məsələsi sabiqdən [qabaqcadan] belə nəşət etmiş [meydana atılmış] idi. Böylə ki, hər muxtariyyətli ölkə öz mədəni təfəvvüqünə [inkişafına] çalışacaqdır. Ola bilsin ki, federasyon məqsədi qövldən feilə [sözdən işə] belə gəlsin və bütün İngiltərə müstəmləkatı muxtariyyətini alsın. Bundan sonra İngiltərə dövləti qüvvəsi artacağı təbiidir. Həqiqətən böylə olsa, İngiltərə bütün dünyada xüsusi bir qüvvəyə malik olacaqdır. Zira başqa xırda dövlətlər onun mehvərinə daxil olmağa çalışacaqlardır.

Ukraynada

"O. N." qəzetəsi mühərriri Xerson quberniya komissarı Lutsenko ilə müsahibə əsnasında xəbər almışdır [soruşmuşdur] ki, ukraynalılar federasiya və ya istiqlaliyyət istəyirlər? Lutsenko cavab vermişdir ki, ukraynalılar sağdan və soldan gələn bolşeviklərlə federasiya qura bilməyəcəklərdir. Buna görə də ukraynalılar istiqlaliyyət tərəfdarıdırlar. Sabiq Rusiyanın başqa hissələrinə olacaq münasibat məsələsini Ukrayna milləti özü həll edəcəkdir.

DAĞISTANLILAR CÜMHURİYYƏTİNDƏ

Azərbaycan Hökumətinə nota

Dağıstanlılar Cümhuriyyətinin siyasi nümayəndəsi Əlixan Kantemirov cənabları Azərbaycan Hökuməti Rəisi-Vükəlasına [Baş Nazirinə] nota təqdim etmişdir:

Alicənab Rəisi-Vükəla! Mənim höku-

mətimin Baş vəzirinin tapşırması ilə sizə məlum edirəm ki, işbu il 15 kanuni-əvvəlindən [dekabrından] etibarən Şimali Qafqaziya Cümhuriyyəti Müttəfiq Şurası (Parlaman) fəaliyyətə başlayıb, Çermoyev Kabinəsi istefasını qəbul etdikdən sonra, Müttəfiq Şura üzvü və sabiq Daxiliyyə naziri cənab Kotsevdən yeni müştərək kabinə təşkili rica etmişdi. Kabinə işbu zəvatdan [şəxslərdən] mürəkkəb [ibarət] olub, Müttəfiq Şura tərəfindən təsdiq edilmişdir:

Rəisi-vükəla (portfelsiz) P. Kotsev; Hərbiyyə naziri miralay [polkovnik] knyaz Tarkovski; Xariciyyə naziri Heydər Bammatov; Daxiliyyə naziri Rəşid xan Qaplanov, Maliyyə Cabaqiyev, Ticarət və Sənaye və Ərzaq Mallaçı-xan, Türüq və Məabir [Nəqliyyat və Rabitə] İbrahim Heydərov, Maarif Şahsüvarov, Ziraət naziri Butayev.

Ədliyyə, Məsai [Əmək] naziri, Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] və Dövlət Müfəttişi yerləri Tersk nahiyə kəndçiləri və kazaklarına verilmişdir. Fəqət bunlar bu vaxtadək gəlməmişlər. Bolşeviklərlə mübarizədən naşi [ötrü] əhvali-fövqəladəyə məbni [fövqəladə vəziyyətə görə] Şimali Qafqaziya Millətləri Cümhuriyyəti Parlamanı kanuni-saninin [yanvarın] 20-ə dək fəaliyyətini saxlayıb, öz hökumətinə ixtiyari-tam [tam səlahiyyət] vermişdir.

Fövqdə məzbur [yuxarıda adı keçən] hökumətim namindən sizə məlum etməklə inanıram ki, siz və hökumətiniz tərəfindən, təşkil edilmiş Kabinə hüsntəvəccöh və müvafiqət [həmrəylik] görəcəkdir. Zira, Azərbaycan və Şimali Qafqaziya qardaş millətləri miyanındakı [arasındakı] əlaqələr qeyri-mütəzəlzil bir ənənat [sarsılmaz bir ənənə] şəkli almışlar.

* Azərbaycan Cümhuriyyəti nəzdindəki Dağıstanlılar Cümhuriyyəti siyasi nümayəndəsi Əlixan Kantemirov Şimali Qafqaziya səfərindən övdət etmişdir [qayıtmışdır].

* Dağıstanlılar Cümhuriyyəti Hökuməti Müttəfiq Şura (Parlaman) tərəfindən qəbul olunmuş səfərbərlik elan etmişdir. Əvvəlcə 19-25 yaşınadək cavanlar könüllü olaraq orduya qəbul ediləcəklər, böyləliklə kafi dərəcədə qoşun çıxmaz isə mükəlləfiyyəti-əsgəriyyə [hərbi xidmət] qanunu mövcibincə [əsasında] həman 19-25 yaşınadək cavanlar əsgərliyə alınacaqlar. Əsgərliyə alınacaq cavanlar ərkani-hərbə [qərargaha] yazıldıqları gündən etibarən 300 rublə maaş alacaqlar. Müharibədə iştirak etdikləri gündən 500 rublə maaş alacaqlar. Müharibədə şəhid olan əsgərlərin külfətləri hökumət tərəfindən təmin ediləcəklər.

* Kanuni-əvvəlin [dekabrın] 18-də Bakıda Müttəfiqlər komandası heyəti-mürəxxəssəsi [nümayəndə heyəti], başda ingilis miralayı Roulendson olmaq üzrə Teymurxanşuraya azim olmuşdur [yola düşmüşdür]. Dərbənd və Petrovskda heyəti təntənəli surətdə istiqbal etmişlər [qarşılamışlar]. İstiqbalda müsəlman ruhaniləri nümayəndələri, rus və yəhudi milli komitələri nümayəndələri iştirak etmişlərdir. Teymurxanşurada heyəti təntənəli surətdə istiqbal etmişlər. Aldığımız məlumata görə, heyət məhəlli [yerli] əhvalı ziyadəsincə kafi və şafi tapdığından [kafi və qənaətbəxş gördüyün-

dən], Dağıstanlılar Hökuməti ilə əlbir çalışacaqdır.

* Kanuni-əvvəlin [dekabrın] 24-də, Quba qəza qaimməqamı [qəza rəisi] əmri mövcibincə [əmrinə əsasən] Müşkür dairəsi müfəttişi, müsəlləh [silahlı] nəfərlərlə Yalama mövqifinə [stansiyasına] gəlib mövqif komandanına təcili surətdə oradan çıxmağı təklif etmişdir. Əks-surətdə silah zoru ilə iş görəcəyini qeyd etmişdir. Dağıstanlılar Cümhuriyyəti mövqif komendantı Yalamadan getməyə məcbur olmuşdur. Dağıstanlılar Cümhuriyyəti Hökuməti öz siyasi nümayəndəsi Əlixan Kantemirov vasitəsilə Azərbaycan Xariciyyə Nəzarəti ilə işbu ixtilafı təhqiq etmək tapşırılmışdır.

Dağıstan Hökuməti ilə kazaklar arasında müahidənamə [müqavilə]

1918-ci il dekabrın 10-da Dağıstanlılar Hökuməti nümayəndəsi [Əbdül]məcid Çermoyev və P. Kotsev ilə Tersk Kazak və Kəndli Hökuməti nümayəndələri Sapranov və Gireyev arasında bu aşağıdakı maddələrdən ibarət bir müahidənamə əqd edilmişdir [bağlanmışdır]:

1 - Tersk əyalətinin kazak və kəndliləri Dağıstan əhalisi ilə siyasi, iqtisadi və hökumət təşkilatı mənafeyinin ümumi olduğunu etiraf edib, hüquqda müsavi [bərabər] üzv sifəti ilə bu millətlər ittifaqına daxil olurlar və mütənasib əsasla məzkur [adı çəkilən] İttifaq Cümhuriyyətinin hökumət və camaat idarələrində iştirak edirlər.

2 - Bu İttifaqa məxsus olan torpağın çox hissəsinin bolşeviklər tərəfindən zəbt edildiyini və bolşevik hərc-mərcliyi sayəsində əhalinin müflis bir hala düşməsini nəzərə alıb, müahidə əqd edən tərəflər bolşeviklərlə mübarizə və asayiş bərpası üçün öz qüvvələrini cəm etməklə birləşdirməlidirlər. Hər iki tərəf ixtiyarında olan texnika və sair, hərbiyyə idarəsinə verilməlidir.

3 - Bolşevik hökuməti əlindən alınan torpaqlar camaatın etibarını qazanmış hökumət ixtiyarına keçir.

4 - Hər iki tərəfin bütün müsəlləh [silahlı] qüvvələrinin baş komandan[lığ]ı bolşeviklər əleyhinə əməliyyatda bulunan müddətə qədər Müttəfiq dövlət nümayəndəsi ixtiyarına verilir.

5 - Hər iki tərəfin əsgəri qüvvəsi könüllülərdən olduğu kimi istehzari-əsgəriyyə [hərbi çağırış] vasitəsi ilə mütənasib bir surətdə cəm edilməlidir.

6 - Komanda heyətinin təyini və müttəhid qüvvələrin daxili təşkilatı, ittifaqın Hərbiyyə nazirinə məxsusdur.

Qeyd: Kazak və kəndli əsgəri dəstələrində bu ixtiyar kazak və kəndli idarəsi ixtiyarında qalır.

7 - Hər iki tərəfin ümdə məqsədi hər iki millət arasında möhkəm sülh bərpasından ibarətdir. Buna binaən [əsasən], bolşeviklərlə mübarizə qurtardıqdan sonra müştərək hökumət ədalətli bir surətdə dərhal torpaq məsələsinin həllinə şüru etməlidir [başlamalıdır].

8 - Hərgah, dağıstanlılar ilə kazaklar torpaq məsələsini özləri həll edə bilməzlərsə, bu məsələnin həlli Müttəfiq dövlət nümayəndələrindən ibarət həkəm [münsiflər] komissiyasına həvalə olunmalıdır.

9 - Müştərək hökumət, əhali arasında

həmişə müsadiməyə [toqquşmaya] bais olan yəğma [talan] və qarət əleyhinə ciddi tədbirlər ittixaz etməlidir [tədbirlər həyata keçirməlidir].

10 - Bu müahidənamə hər iki tərəfin imzasından və Müttəfiq dövlət nümayəndələrinin təsvibindən [təsdiqindən] sonra icraya qoyulmalıdır.

BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ
VII

Təəccüb burasıdır ki, Peterburqda Məclisi-Vüzəra [Nazirlər Kabineti] əl quyuçuluğuna əsla zidd getməyib, bu məsələni nizama salmaq üçün sabiq Qafqaz canişininə müraciət etmişdir ki, bu barədə Qafqazda layihə tərtib verilməndən sonra, təsdiq olunmaq üçün Məclisi-Vüzəraya və Dövlət Dumuna təqdim olunsun.

Məclisi-Vüzəradan əlavə, əl quyuçularının sair tərəfdarları da az deyildi; əzancümlə [o cümlədən] canişin dəftərxanası ilə Bakı Mühəndis (Texnik) Cəmiyyəti quyuların torpaqla basdırılmasına razı olmayıb, yeni qanunlar tərtibi ilə bunlardan istifadələnmək və idarə etmək qərarına gəlmişdir. Hətta, Mühəndis Cəmiyyəti rumın qanunlarına oxşar bir layihə də sonralardan yapmışdır. Bu layihə mövcibincə [layihəyə əsasən], quyular basdırılmayıb, neftləri mütləq çəkilsin, lakin quyuların başında öylə “ağızlıqlar” qurulsun ki, içəri adam daxil ola bilməsin.

Quyuçuları bundan daha artıq məsrur edən [sevindirən] yenə bir fəqərə [məsələ] vardır ki, o da elmülərz ülə-masından [geologiya alimlərindən] məşhur professor Qolubyatnikov cənabının quyuçuluq barəsində rəy və təsəvvürüdür. Sabiq Bakı qubernatoru təhti-sədarəti ilə [sədrliyi altında] vaqe olmuş bir məclisdə Qolubyatnikov demişdir:

“Əl quyularından neft hasil etməklə nə neft zəxirələri [ehtiyatları] tükənib qurtarar, nə yerlər qiymətdən düşər, nə də gələcəkdə dərin buruqlarla buralarda iş görməyə mane olar. Bu barədə heç bir söz ola bilməz. Çünki dərin buruqçular yuxarı təbəqələrdəki neft axıntılarından nəfbərdar olmayıb [istifadə etməyib], oradaca qoyub keçirlər. Əl quyuçuluğunun həm xəzinə varidatı üçün xeyri vardır, həm də böyük sərmayəyə malik olmayan əhli-kəsəbənin [kasıbların] kəsbkarlığına [işləyib pul qazanmasına] faydası vardır. Əlavə, əl quyuçuluğunun böyük bir mənfəəti də budur ki, elmülərz məsələlərinə köməkçidir. Böylə ki, neft asarı [əlaməti] olmayan yerlərdə quyu qazmaqla neftin varlığı ya yoxluğu bilinib, Abşeron torpaqlarının əhvali-jeolojiyası öyrənilər.”

İştə, nə Qolubyatnikov kimi əhli-elmin sözləri, nə də Heyəti-Vüzəranın təsəvvürü bizim Bakı “dağ” [mədən] və “torpaq” idarələrini təskin edə bildi. Əl quyuçularına da ən ağır zərbə həmin idarələrdən dəymişdir. Yuxarıda zikr olunan səkkiz maddəli qanun layihəsi bu idarələrdə tərtib verilib, canişin əli ilə də təsdiq olunmuşdur. Lakin bir il çəkmədi ki, bu qanunun böyük nöqsanları və xətaları aralığa çıxdı. Odur ki, təbdili [dəyişdirilməsi] üçün Mühəndis Cəmiyyətinə həvalə olundu. Mühəndislərin də

tərtibatı fayda vermədi. Yenə təbdilata ehtiyac göründü. Ta bu günə qədər həmin "qanun" yüz cürə təbədüllata [dəyişikliyə] uğramışdır; amma, istənilən nəticəni hasil edəmməmişdir. Zira böylə qanunlar, təbiətin və insaniyyətin bir sinfinə müxalifət göstərməyi üçün, heç vaxt qabili-icra olammayacaqlar.

Bakı Dağ [Dağ-Mədən] İdarəsinin rəisi Jak, – ki həman 8 maddənin tərtibçisi bu cənab olmuşdur – canişinə yazdığı bir məktubda böylə deyir:

"Xəzinə yerlərindəki əl quyuları neft işlərinə ziddiyyət göstərən bir şeydir. Çünki, bunlardan xəzinə çox az mədaxil hasil edir. Hərgah, bu yerlər dağ qanunlarına mütabiq [uyğun] dərin buruqlar üçün icarəyə verilərsə, xəzinə mədaxili hədsiz artar. Bu ədalətdən kənardır ki, buruqçular böyük pullar sərf edib az mədaxil götürsünlər. Amma, əl quyuçuları bərəks [əksinə] az məsariflə böyük mədaxillərə malik olurlar. Əl quyuçuluğu əmələlər [fəhlələr] üçün ən qorxulu işdir. Bu quyulara sərf olunmuş pullar çoxdan götürülmüşdür. Ona görə torpaqlanıb geri alınarsa, sahiblərinə bir ziyan verməz."

Fars demişkən: "Fəziləti-axund məlum şüd!"

Jak cənabının bir bu qədər cidd-cəhdi ondan ötrü imiş ki, bir çox füqəra və əhli-kəsəbənin dolanacağı üçün ruzi yolu və çörək ağacı mənzələsində [yerində] bulunan bu neft quyuları zorən əllərindən alınıb "millət qəmi çəkməkdən çöpə dönmüş" sərmayədarlara və Nobel kimi əjdahalara verilsin!

Bu da bizim köhnə hakimlərin əhli-kəsəbə ilə adilanə rəftarı!

Heç bir məmləkətdə, hətta vəhşi və bədəvilərin böylə bir qanunları yoxdur ki, əhli-kəsəbənin maaş yolunu bağlayıb, varlıların daha da artıq varlı olmağına hökumət tərəfindən kömək və müsaidə göstərilsin.

Hərgah, xəzinənin mənfəəti mülahizə olunursa [nəzərə alınırsa], heç olmasa əl quyularından az da olsa (amma az da deyil; bu barədə ayrıca bəhs olunacaq) bir qədər xəzinəyə varidat daxil olar. Bəs, nə səbəbə Nobellər əli ilə alınmış min desyatinlərcə ağzı günə qalmış neft yerləri jakların nəzəri-diqqətini cəlb etməyir? Ay ötür, il dolanır; amma bu yerlərə bir külüng də dəyməyir. Aya [görəsən], bu boş yerlərdən xəzinə üçün nə hasil olur? Bu yerləri əjdahaların çəngalində [caynağında] boş qoymaqdansa, yaxşısı bu deyilmi asudə və başına qalmış yerləri çalışqan quyuçularımız dəlik-deşik edib neft hasil etsinlər? Ta ki, həm özləri dolansın, həm də xəzinə, mədaxilindən məhrum qalmasın. İştə, jaklar böylə nöqtələri görmək istəməyib, əhəmiyyət verməmişlər.

Şimdi bir qədər də canişin təsdiq etdiyi qanunlardan bəhs edək. Əvvəl-bilaəvvəl [Hər şeydən əvvəl], heç yerdə təzə quyu qazılmağa izin verilməyir. Fərz edəlim ki, hazır quyuların hamısını torpaqlayıb sahiblərinin ixtiyarından aldılar və bu yerlər də böyük sərvətdarlara qismət oldu. Bu tədbirlərlə əl quyuçuluğunun yenidən zühur etməsinə sədd yapılmayır [maneə yaradılmır]. Çünki əkinçilərin əkin əsnasında təsadüfən dəfinəyə rast gəldiyi kimi, bir çox boş yerlər vardır ki, bizim çalışqan kəsbkarlarımız oraları arayıb, axtarıb axırda neft əla-

mətlərinə rast gəlirlər. Bu təzə yerlərdə tapılmış neftdən, tapanı istifadə edib quyu qazarsa, bu şəxs günahkarmı sayılacaq? Yaxud, xəzinəyə təzə mədaxil yolu açan böylə əşxasa [şəxslərə] mərhəmət və nəvaziş göstərmək lazım və vacib deyilmi? Quyuçunun yeri əlindən alınarsa, sabah sair bir yerdə quyu qazacaq, bu da əlindən çıxarsa, yenə yeni bir yer tapıb orada quyu qazacaqdır.

Xülasə, yasaq və qadağan ilə yox, ancaq müsaidələrlə böylə şəxsləri qarşılamaq lazımdır. Ələlxüsus, Abşeronda yaşayan dəhat [kənd] əhlinə artıcaq [daha artıq] diqqət gərək olsun. Çünki, bunların əllərində olan torpaqların ən çoxu şurəzar [şoran] (“Abşoran” kəlməsi bunu gözəlcə ifadə edir) və qüvveyi-inbatiyyəsi [bitki bitirmə qabiliyyəti] zəif olduğundan, ziraətdən lazım olan qədəri fayda götürməyib, bir çox sənələr Quba mahalından gətirilən azuqəyə möhtacdırlar. Öz yerlərindən bir illik yenəcəyi hasil edəmməyən kənd əhli, sair bir sənət tapıb, onun vasitəsi ilə əmri-maaşını [məişətini] təmin etməyə məcbur olur. Sənət axtaran kəndli, yəqin ki, öylə bir sənət axtarıb tapacaqdır ki, o sənət öz evindən çox uzaq bir yerdə olmasın; ta ki, axşamları evinə qayıda bilsin.

İştə dəhat əhli [kəndlilər] Abşoranı gəzib dolaşarkən, neft və qır yerlərinə bələd olub, evinin yaxınlığındakı yerlərdə quyuçuluq işlərinə mübaşir olur [girişir]. Torpağının ziraətindən [əkinindən] doymayan kəndli, həmin torpağın mədəniyyatından [mədənlərindən, yeraltı qaynaqlarından] doymaq istəyir, cinayət dalınca getməyib halal kəsbkarlıq edir. Aya [əcəba], bu təbii bir hal deyilmi?

Xəzinə mədaxilinə gəldikdə; varsın xəzinə də öz mədaxilini tələb etsin. Buna heç bir kəndli mümaniət göstərməmişdir. Yoxsa, bu neft quyuları kəndlilərdən alınarsa, onlar yəqin ki, oğru və quldurluq dalınca gedib camaat asayişinə xələl qatacaqlar.

Doğrudur, kəndlilərdən əlavə quyuçuluq işlərində şəhərlilərdən də az deyil. Lakin bu şəhərlilər də kəndlilərin dəlaləti ilə aralığa pul qoyub, kəndlilərlə müştərəkən [şərik] iş görməkdədirlər. Bundan əlavə, xəzinə mənfəətini mülahizə etmiş sabiq hakimlər heç bu nöqtəyə diqqət yetirməmişlər ki, nə qədər xali [boş] yerlər vardır ki, susuz və şurəzar [şoran] olduğundan əkinə, biçinə yaramayıb, illərcə başlı-başına qalır və xəzinəyə də buradan bir qara qəpik mədaxil hasil olmayır. Bu yerlər Hacıqabul mövqeyindən başlayaraq Kür qırağına qədər (Xan qışlağı, Qırx çıraq, Qırlı qışlaq və sairləri) və o biri tərəfdən də Haramı dağından Bakı ətrafına qədər əqəllən [ən azı] yarım milyon desyatin boşluqlardır ki, bir çox nöqtələrində qır qatları və neft əlamətləri aşkardır. Bu yerlərin başlı-başına qalmağından xəzinəyə nə hasil olur? Yaxud, biçarə kəndli aclığın qabağını almaq üçün bu yerlərdə külüng çalıb, neft və qır çıxardarsa nə günah etmiş olar?

Fars deyər ki:

“Abi-dər-kuzeyi-ma təşnə-ləban mi gərdanim.”

Filhəqiqə [doğrudan da], camaat ağır və məşəqqətlə dolandığı halda, hədsiz dövlət və sərvət torpaqlar altında yatıb qalmaqdadır. Bumu ədalət?!

Keçək qanunun ikinci maddəsinə ki, o da: "Köhnə quyulardan neft çəkməyə mane olub, az bir müddətdə bu quyular sahiblərinin xərcinə torpaqla doldurulsun"dan ibarətdir.

Siz tanrı, bir baxınız ki, sabiq hökumət nə qədər başını itirmişdir ki, südlü inəyinin başına bıçaq çəkir. Neft qıtlığından (azlığından) Rusiya fabrika və zavodları dayandırıldığı bir zamanda – ki hətta Zaqafqaz dəmiryolu amerikalı "Pirson"dan 50 min put neft Meksika vilayətindən gətirməyə məcbur olduğu halda – 40-50 milyon putluq məhsulatı olan quyuların basdırılmasına fərman verilir! Vətənin sərvəti böyləcə torpaqlansın, fabrikalar da işləməsin. Bu mədəniyyət asarımıdır [əlamətidirmi]?

Fərhad Ağazadə

NƏZARƏTLƏRDƏ

* Daxiliyyə Nəzarətində Erməni Milli Şurası cənbindəki [nəzdindəki] Qaçqınlar Komitəsi tərəfindən alınan bir sənəddən anlaşılır ki, kanuni-saninin [yanvarın] 3-ünədək vətənlərinə getmək istəyən erməni qaçqınlarını [aparmaq üçün] Yevlax istasyonunadək 180 adam üçün 6 və Ağstafaya gedəcək 60 adam üçün 2 vaqon veriləcəkmiş. Buna binaən [əsasən] Erməni Milli Şurası Daxiliyyə Nəzarətindən işbu 240 kişinin [nəfərin] məzkur mövqiflərə [adı çəkilən stansiyalara] getməsi üzrə onlara mühafizə verməklə, həman mövqiflərdəki idareyi-zəbtiyyələrə [asayiş idarələrinə] bu qaçqınlara hər bir barədə müavinət [köməklik] edilməsi haqqında binagüzarlıqda [sərəncamda] bulunmasını rica edir. Bu münasibətlə Daxiliyyə Nəzarətindən Azərbaycan Dəmiryolları müdiriyyətinə məzkur qaçqınları[n] məzkur istasyonlara getməsinə mühafizə verilməsi və yerlərinə gedənədək heç bir kimsə tərəfindən bunlara mümaniət [maneçilik] göstər[il]məməsi üçün binagüzarlıqda bulundu.

* Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Nəzarətin dəftərxanası kargüzarı Teymur bəy Vəkilov Qazax qəzasında qaçqınlar işlərini təftiş etmək və oralarda olan qaçqınların nə dərəcədə ehtiyacı olduğunu da təhqiq etmək üzrə ezam edilmişdir.

* Daxiliyyə Nəzarətinə Bələdiyyə İdarəsindən telefon şirkətinin Nasoslu mövqifi [stansiyası] ilə şəhər idarəsi arasında telefon xətti çəkmək istəmədiyinə şikayət edərək deyir ki: "Nasoslu mövqifinin Bakı ilə telefon müxabirə[si] [əlaqəsi] olmadığı [olmaması] şəhərin aşağı hissəsi üçün pək mühlikdir [çox təhlükəlidir]. Ola bilər ki, müxabirə olmaması üzündən oradan suyun buraxılması idarə edilməsin, şəhərin aşağı hissəsini su basmış olsun.

Bu nöqteyi-nəzərdən Bakının Nasoslu mövqifi ilə irtibatı [rabitəsi] olması ən vacib və acil [təcili] bir əməllərdən olduğu halda, "Bieriŋ" telefon şirkəti cürbəcür bəhanələrlə bu işi icra etmədiyinə binaən [görə], hökumət tərəfindən ona bu barədə əmr edilməsini təmənna edir. Buna binaən, Daxiliyyə Nəzarəti, Bələdiyyə İdarəsinin acil [təcili] bir surətdə tələbinə əməl edilməsi xüsusunda telefon şirkətinə fərman verilmişdir.

* Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Qarabağ mahalına, Ümuri-Xeyriyyə işləri müdirinə Zəngəzur qəzası namından [adından] verilmiş ərzihala [ərizəyə] görə əmr edilmişdir ki, oradakı qaçqınların dərəceyi-ehtiyacını təxfif etmək [ehtiyac dərəcəsini yüngülləşdirmək] üçün binagüzarlıqda bulunsun [təşəbbüs göstərsin]. Parlaman üzvü Cavad bəy Məlik-Yeqanov tərəfindən Parlaman sədri namına verilmiş müxtirəsi [xatırlatma qeydi] məzmunu ilə bərabər yenə işbu müdirə yazılmışdır ki, qaçqınlara müavinət [yardım] üçün bilatəvəqqüf [dərhal] binagüzarlıqda bulunsun.

BƏLƏDİYYƏ MƏCLİSİNDƏ

Kanuni-əvvəlin [dekabrın] 30-da Bələdiyyə Məclisinin adi iclası iniqad etmişdir [baş tutmuşdur].

Bələdiyyə rəisi İlyuşkin, Müvəqqəti Hökumət qanunu mövcibincə [qanununa əsasən] bələdiyyə əzasının [üzvlərinin] vaxtı qurtardığını elam edərək [bildirərək], bunun buraxılmalımı və yaxud sabiq qayda üzrə, dörd sənə fəaliyyətdə buluna biləcəyini qəbul etmək barəsində verilmiş Bələdiyyə İdarəsi istizahını [sorğusunu] oxuyur. Bələdiyyə İdarəsi bunu hüquqşünaslardan mürəkkəb [ibarət] bir komisyona verməyi təklif edir.

Perçixin Məclisə məlumat verir ki, bu barədə Daxiliyyə naziri müavini ilə müsahibədə bulunmuşdur. Müavin cənabları demişdir ki, Gəncə qubernatoru və Bələdiyyə Məclisi bu barədə çoxdan istizah vermişlərdir. Fəqət, Nəzarətdə [Nazirlikdə] bir layihə hazırlanmışdır ki, şimdiki Bələdiyyə Məclisi əzasını bir il də təsdiq etsin. İşbu qanuna görə, bütün Azərbaycan bələdiyyə məclisləri böylə etməlidirlər.

Bu barədə heç kəs söz söyləmək istəmədiyindən sonra səsə qoyulur və qət edilir məsələ Bələdiyyə Məclisi hüquq şöbəsinə verilsin. İşbu şöbə, bütün hüquqşünaslarla bərabər məsələni həll edib, Bələdiyyə Məclisinə pişnihad [təqdim] edəcəkdir.

Yeni müsri xəstəxana [yoluxucu xəstəliklər xəstəxanası] açmaq barəsində doktor Şərifov cənabları məruzə oxuyur. Məclis qət edir ki, Hökumətə müraciətən 2.200.000 borc pul istənilsin ki, xəstəxana təmiri [tikilməsi] mümkün olsun.

Mənzil komisyonu barəsində Bələdiyyə rəisi İlyuşkin məlumat verir. Məclis qət edir ki, işbu məsələni də İntixab [seçki] komisyonuna mühəvvəl edib [tapşırıb], Maliyyə komisyonu ilə bərabər həll etmək tapşırılsın.

Qənd və çay təqsimi [paylanılması] barəsində Smirnov məlumat verir. Qənd və çay təqsimi şəhər tərəfindən Mərkəzi Ev Komitəsinə mühəvvəl edilmişdi [tapşırılmışdı]. Böyləliklə, Mərkəzi Ev Komitəsinə 156.000 rubləlik mal ilə iki faiz də malın çıxması üçün verilmişdi. Məruzədən böylə məlum olur ki, qənd və çay, ümumən girvənkəsi 91 qəpiyə şəhərə tamam olmuşdur. Özləri isə bu ərzağı payladıqda 17 yarım qəpik xərclə tamam olur. Bir çox əza [üzv] göstərmişdir ki, xalq miyanında [arasında] bu ərzağı təqsim etdikdə, qiyməti-müəyyənədən ziyadə [təyin edilmiş qiymətdən artıq] satılmışdır. Leontiyeviç deyir ki, müqəs-

sirlər tapılmışdır, onlara cəza veriləcəkdir.

Yetimlər üçün maaş artırılması barəsində Şərifov məruzə oxuyur. Məclis qət edir ki, darüleytamdakı [yetimxanadakı] yetimlər üçün kafi [yetəri] qədərdə pul buraxılsın.

DEMOKRATLAR MÜŞAVİRƏSİNDƏ

Dekabrın 30-da "Fəhlə klubu" binasında demokratlar müşavirəsinin iclası olmuşdur. İclasda 23 nəfər üzv iştirak etmişdir.

Müşavirə sədri Yevanqulov tətil münasibəti ilə iqdamatı [təşəbbüsləri] və general Tomson ilə müzakiratda bulunması haqqında bəyanat vermişdir. Sonra Beynəlfiraq [partiyalar arası] komisyonu məsələsi müzakirə edilir. Bu barədə firqələrin qətnaməsi oxunur. Bu qətnamələr oxunduqca müşavirə sədri firqələr tərəfindən verilən təshihləri [düzəlişləri] qeyd edir. Firqələrin ixtilafi-rəyi [fikir ayrılığı] "vahid Rusiya məsələsi" haqqında söylənən söz olmuşdur. Azərbaycantürk firqələri bu sözü qəbul etmədiklərinə görə saziş hüsula gəlməmişdir [əldə olunmamışdır]. Bir qədər mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra qətnamələrin dübarə [yenidən] firqə komitələri tərəfindən müzakirə edilməsi təklifi qəbul olunur.

Sonra "Daşnaksutyun" firqəsinin mürəvvici-əfkarı olan [fikirlərini yayan] "Vperyod" qəzetəsində və bir para başqa qəzetələrdə qaragüruhlara məxsus qətlqarətə dəvət edici və demokratiyanın [xalqın] birləşməsinə mane olan məqalələr haqqında müzakirat başlanmışdır. Bu barədə "Azərbaycan" qəzetəsi müdiri Şəfi bəy Rüstəmbəyli ilə "İskra" qəzetəsi müdiri Roxlin arasında mübahisə çıxmışdır. Demokratlar müşavirəsi yuxarıda söylənən ruhda məqalələr dərc edən mətbuat əleyhinə protesto etmək nöqteyi-nəzərini qəbul edir. Bu münasibətlə Delitsın tərəfindən təklif edilən aşağıdakı qətnamə qəbul olunur:

"Milli məsələdə «Vperyod» qəzetəsinin məqalələri haqqındakı bəyanatı dinləyərək, demokratlar müşavirəsi, bu və bu kimi çıxışları müfəssəl surətdə müzakirə və tənqiddən vaz keçərək təkidlə xahiş edir ki, gələcəkdə milli məsələləri qəzetələrdə müzakirə və təhlil etdikdə, ehtirasati-millini [milli ehtirasları] alışdıran və demokratiyanın birgə işləyərək Zaqafqaziyada siyasi-milli etilaf [uzlaşma] hüsulu üçün ümumi proqram əmələ gətirilməsinə mane olan ədavət və təcavüzkaranə çıxışların önü alınsın və bu ruhda yazılar yazılmasın."

BAKI XƏBƏRLƏRİ

Azərbaycan İctimaiyyuni-inqilabiyyun [Sosialist-inqilabçılar] firqəsinin iclası

* Cümə günü kanuni-saninin [yanvarın] 3-də, saat 4 tamamda Persidski küçədə 93 nömrəli evdə İctimaiyyuni-inqilabiyyun firqəsinin bürosunda firqənin ümumi iclası vaqe olacaqdır [baş tutacaqdır].

* Bələdiyyə İdarəsi, Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir, dairə müfəttişlikləri (polis) məxaricatını [xərclərini] şəhər üzərindən götürmək barə-

sində lazımi binagüzarlıqda bulunulsun [addımlar atılsın]. Zira, dairə müfəttişlikləri üçün ev tutmaq və təmir etmək işləri şəhər kassası üçün ağırdır.

* Maliyyə Nəzarəti dəftərxanası müdiri Voyeykovun dövləti xidmətdə olanlara maaş verməklə barəsindəki məruzəsinə məbni [əsasən] Hökumət qət etmişdir ki, günü-gündən artan bahalığı nəzərə alaraq bütün dövlət xidmətində olanlara bərvəchi-ati [aşağıdakı şəkildə] maaş verilsin: 600 rubləyədək olanlara 1 ayın məvacibini, 600-dən 2100-ədək alanlara ¾ hissəsini, 2100-dən artıq alanlara yarım ayın məvacibi verilsin.

Vaporlar vürudu [Gəmilərin gəlişi]

* Kanuni-əvvəlin [yanvarın] 30-da Ənzəlidən “Oryol” nam vapor varid olub [gəlib], 418 nəfər sərnişin gətirmişdir.

* Həman gün Ənzəlidən “Kette” nam vapor 30 sərnişin ilə Bakıya varid olmuşdur.

Mal gətirilməsi

* Kanuni-əvvəlin [yanvarın] 30-unda Ənzəlidən gəlmiş “Oryol” vaporunda 116 cəbə [yeşik] portağal, “Kette” vaporunda 8 min cəbə səbzə [tərəvəz] gətirilmişdir.

* Ərzaq Nəzarətinin statistika məlumatına görə, kanuni-əvvəlin 30-u üçün Bakıya 3 min 21 put buğda, 1060 put un gətirilmişdir.

Hadisat

* Kanuni-əvvəlin [yanvarın] 29-da, gündüz saat iki radələrində, gömrükxana mülkündə, mətbəxdəki ehtiyatsızlıqdan naşi [ehtiyatsızlıq səbəbindən] yanğın əmələ gəlmişdir. Yanğın vaxtında söndürülmüşsə də, evin bir tərəfi yanmışdır.

* Kanuni-əvvəlin 18-də İçərişəhərdə, Minarə soqaqında [küçəsində] Hacı Əbdülbaqi Şabanov öz oğlu Hacıağa ilə keçdiyi vaxt iki nəfər cani onları daşla vurub əllərində olan 138 min 525 rubləni alıb qaçmışlar. Bunların səslərinə çıxan qonşular caniləri tanımışlar. Səhəri polis tədabiri [tədbirləri] sayəsində Bakı mövqifi [stansiyası] jandarmı Məhəmmədhənifə Hacıağa oğlu və Hüseyn Abbas oğlu dərdəst edilmişdir [tutulmuşdur]. Şahidlər bunların cani olduqlarını bildirmişlər. Məhəmmədhənifə 1914-cü sənədə suiqəsd etdiyi üçün təhərri [axtarış] polisində qeyd edilmişdir. Canilər birinci dairə müstəntiqinə verilmişlər. Pullar tapılmamışdır.

Bez

Necə ki məlumdur; Bakıda manufaktur [manufaktura, toxuculuq sənayesi məmulatı] işi, bu halda hamı zəruri şeylərdən ən mühümü və vacibi hesab olunur. Çünki kənardan Bakıya heç bir arşın da manufaktur gəlmədiyi halda, bəzi ərzaq idarələrinin skladlarında sabiqlərdən qalmış manufakturlar da nədənsə əhaliyə paylanmayıb, anbarlarda qalır. Bu səbəbdən də əhali manufaktur cəhətindən çox müşkülata düçar olub, gözünü ancaq Tağıyevin fabrikasından çıxan manufaktur malına dikmişdir.

Tağıyevin manufakturu əldən-ələ keçib alış-verişçilər arasında ehtikara [möhtəkirliyə] səbəb olmamaq üçün və bir də mal Bakıdan və ya ki, Azərbaycandan kənar yerə daşınmamaq üçün Sə-

naət və Ticarət Nəzarəti [Sənaye və Ticarət Nazirliyi] bu fabrikanı öz kontrolu altına alıbdır ki, fabrikanın bütün mallarını qayda ilə tamam əhaliyə paylasın. Buna görə də qərar verilibdir ki, Bakı şəhəri əhalisinə mövcud ev komitələri vasitəsilə və kəndlərdə də "upolnomoçenni" [səlahiyyətli] vəkillər vasitəsilə paylansın. Bu qayda ilə bir neçə həftə manufaktur paylandıqdan sonra, anlaşılmış ki, fabrikadan alınan manufakturun əksəri bazardakı alış-verişçilərin əllərinə keçib, genə də şiddətli ehtikar başlanmışdır. Bu iş hamıdan artıq Ərzaq Nəzarətinin nəzərini cəlb edib, burada kəndlərə camaat üçün göndərilən bezlərin əksərən bazarda satılmasını Nəzarət kəşf [aşkar] etmişdir.

Hələlikdə ittixaz edilmiş [görülmüş] tədbirlər nəticəsində bir neçə kəndin vəkillərinin bez satması mühəqqəq olunub [təsdiqlənib], müqəssirlər təhti-məsuliyyətə [məsuliyyət altına] çəkilmişlər və bəzən satılan bezlərin tayları zəbt edilmişdir.

Eşitdiyimizə görə, Nəzarət qərar qoymuş ki, fabrikaya zakaz verilən bir neçə partiya bez və köynək-tuman ağı hazırlanandan sonra hasil olan bez və sair malları şəhər əhalisinə də paylasınlar. Bu barədə "Sentrodom" da lazım olan sərəncamda bulunubdur.

AZƏRBAYCANDA

Gəncədən bizə yazırlar

Gəncədə üç il idi ki, qış, kəndindən qışa yaraşır bir əsər göstərməyirdi. Nə quş dimdiyi qarı düşürdü, nə də seli suya qatan yağmuru yağırdı. Bu 1918-ci ilin qışı isə biz gəncəlilərə kəndini göstərməyə başlayır. Noyabrdan bəri həftə başı yağmurları yağmağa başlamış, quş dimdiyi qarı da mövlud günündən bəri əhalini kəndi evlərinə soxub, odun və kömür qayğısına düşməyi məcbur edir.

Yandırılan şeylər isə odun olsun, kömür olsun, hər bir şey kimi, Avropa müharibəsinin bərəkətindən, bazarı çox rəvac olur. Növbə ilə yağan yağmur və quş dimdiyi düşən qar, küçələri keçilməz bir hala qoymuş, bunun nəticəsi olaraq faytonçular birə iki qazanır, çəkməsilənlər isə mayadan yeyir.

Qan qardaşlarımız türklər burada olduqda, şəhərdə və küçələrdə gediş-gəliş çox olaraq, şəhər hərbi mövqeyə bənzəyirdi. Lakin bunlar getdikdən sonra tərpəniş və avtomobillərin şəhəri hərəkətə gətirdiyi vaxtlar keçdi. Şəhər sükunət halı göstərir.

Bu yaxınlarda Gəncədə "Müəllimlər İttifaqı" qurularaq işə başlayacaqdır. Bu dərnəyin yaxın məqsədlərindən biri də keçmişlərdə Gəncədə olan cəmiyyətləri diriltməkdir.

Bundan əlavə, ermənilər türk müəllimlərinə böylə bir təklifdə bulunmuşlar ki, erməni və türk müəllimləri bir ittifaq təşkil edərək bir yerdə işləmələri üçün çalışılsın. Məqsəd, erməni və türk xalqını mədəniyyətcə birləşdirib aralarından, şimdi[ki] kimi hökm sürən mənhus düşmənçiliyi qaldırmaqdır.

Qənbər oğlu

Andranik haqqında Camalyan

Ermənistan Hökumətinin Gürcüs-

tandakı siyasi nümayəndəsi Camalyan 1918 sənənin 17 avqustunda 401 nömrəli Azərbaycan Cümhuriyyəti nümayəndəsinə verdiyi əlaqənin [məlumatın] surəti: Avqustun 15-i 1918 sənədə 461 nömrə ilə tərəfinizdən aldığım və hökumətimə irsal etdiyim [göndərdiyim] general Andranikin Azərbaycan hüduduna soxulması münasibətilə öz tərəfimdən məlum edirəm ki, Andranik və onun komandasındakı qoşun qitəatı [hissələri] Ermənistan Hökumətini tanımaq istəmədiyindən sonra erməni korpusuna verilən əmr mövcibincə [əmrə əsasən] erməni qoşunları siyahısından çıxarılmışdır. Böyləliklə, Andranik və onun qoşunları, erməni milli qoşunları və Ermənistan Hökuməti ilə heç bir əlaqəsi yoxdur. Binaənileyh [ona görə], Ermənistan Hökuməti Andranikin xudsəranə [özbaşına] fəaliyyətlərindən dolayı cavabdəhəndə [cavabdeh] olmayacaqdır.

Gürcüstan Hökuməti nəzdindəki
Ermənistan işləri müvəkkili:
Camalyan

Yeni güşad edilmiş [açılmış]
Dardanel lokantası

Hər gün təmiz və ləziz yeməklər hazırdır. Təbaxətdə [aşbazlıqda] fövqəladə ixtisas kəsb eyləmiş [qazanmış] olan aşçımızın təhtinəzarətində [nəzarəti altında] hər dürlü Asiya və Avropa yeməkləri mövcud bulunur. Lokantada piano və skripkaçılar tərəfindən əhviyeyi-lətifə tərənnümsaz olmaqdadır [lətif havalar çalınmaqdadır]. Qiymətlərin fiatı əhvəndir [aşağıdır, ucuzdur]. Vorontsovski caddədə, Parapet qarşısında. Telefon nömrə 59-40. Müdir: Balabəy Xəlilbəyli.

Kanyak, çaxır butılkaları alıram

Səhmdarlar cəmiyyəti Qummel Qardaşları. Mariinski küçədə nömrə 5-15.

Telefon 3-45

2622 2-1

Doktor
Doktor Samuil İzrailoviç
Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi

Axşam saat 5-7-yə kimi.

Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Mama M. K. Şerman

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qul-

luq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

Telefon 24-62

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

b-38 10-1

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri:
Amerika donanmasının artırılması

səh. 21. "Bəhriyyə İşləri katibi...": söhbət Hərbi-Dəniz Donanması nazirindən gedir.

Gürcü-erməni müharibəsi:
Şüləverin alınması

səh. 26. "Azərbaycan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsi...": Nikolay İotamoviç Kartsivadze nəzərdə tutulur.

Qəzetələrdən

səh. 27. "...kral Qustavın taxtından əl çəkməsi...": söhbət, 1907-1950-ci illərdə İsveç kralı olan V Qustavdan gedir.

"Libava": Latviyanın cənub-qərbində, indiki Liepaya şəhəri nəzərdə tutulur.

"O. N.": "Odesskiye novosti" qəzeti nəzərdə tutulur.

"...Xerson quberniya komissarı Lutsenko...": qəzetdə "Luçenko" kimi getmişdir; İvan Mitrofanoviç Lutsenko nəzərdə tutulur.

Dağıstanlılar Cümhuriyyətində

səh. 29. "...mütənasib əsasla...", "...mütənasib bir surətdə...": rəsmi və ictimai idarələrin işində iştirak edərkən, eləcə də hərbi çağırış əsnasında əhalinin sayına mütənasib hərəkət etmək prinsipi nəzərdə tutulur.

Bakı neft ticarəti və
onun müxtəsərcə tarixi

səh. 31. "Fəziləti-axund məlum şüd!": "Axundun fəziləti məlum oldu!"

səh. 32. "...Haramı dağından...": qəzetdə "Aramı dağından" kimi getmişdir; Hacıqabulla Şamaxı arasında, Udullu kəndi yaxınlığında yer alan dağ nəzərdə tutulur.

“Abi-dər-kuzeyi-ma təşnə-ləban mi gərdanim.”: “Su bizim kuzəmizdədir, özümüz dodağı qurumuş halda gəzirik.”

səh. 33. “...ki hətta Zaqafqaz dəmiryolu amerikalı “Pirson”dan 50 min put neft Meksika vilayətindən gətirməyə məcbur olduğu halda...”: Söhbət, birtaniyalı neft sənayeçisi Uitman Pirsonun Meksika körfəzindən neft daşıyan “İql Oyl ənd Şippinq Kompani” şirkətindən gedir.

Nəzarətlərdə

səh. 33. “...işbu 240 kişinin...”: “240” yerinə qəzetdə səhvən “140” getmişdir.

“Ola bilər ki, müxabirə olmaması üzündən oradan suyun buraxılması idarə edilməsin...”: Nasoslu stansiyasında, Şollar suyunu Bakıya ötürmək üçün nasoslar quraşdırılmışdı, stansiyanın adı da buradan gəlirdi.

Bələdiyyə Məclisində

səh. 34. “Müvəqqəti Hökumət”: Rusiyada 2 mart – 25 oktyabr (yeni təqvimlə 15 mart – 7 noyabr) 1917-ci il tarixlərində iş başında olan hökumət nəzərdə tutulur.

Bakı xəbərləri

səh. 36. “...600-dən 2100-ədək alanlara 3/4 hissəsini, 2100-dən artıq alanlara...”: Qəzetdə səhv getmişdir, belə olmalıdır: “...600-dən 1200-ədək alanlara 2/3 hissəsini, 1200-dən artıq alanlara...”

Cümə, 3 yanvar 1919-cu il, nömrə 78

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Cümə, 30 rəbiüləvvəl sənə 1337. 3 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

BAKI, 3 KANUNİ-SANİ
[YANVAR]

Ağır vəzifə qarşısında

Hökumət və Parlaman tərəfindən Ümumi Sülh Konfransında Azərbaycanın istiqlaliyyətini müdafiə etmək üçün intixab edilmiş [seçilmiş] heyəti-mürəxxəsə [nümayəndə heyəti] bu günlərdə yola düşür. Filhəqiqə [doğrudan da], heyətin öhdəsinə düşən təklif [iş] artıq dərəcədə ağır və müşküldür. Bununla belə, həmin təklif Azərbaycan türk-islamları istiqbalı [gələcəyi] nöqteyi-nəzərindən qayət mühüm və əlzəmdir [lazımlıdır]. Demək olar ki, azərbaycanlıların taleyi həmin heyətə tapşırılır. Onun istedad və qabiliyyətindən Azərbaycan türk və islamlarının gələcəyi asılıdır.

Ümumcahan Sülh Konfransında ufacıq Azərbaycan məmləkəti mürəxxəslərinin səsləri qəti olmayacaqsa da, lakin onun xətti-hərəkəti, öz məmləkətlərinin müdafiəsi yolunda göstərdikləri məharət və siyasətin Azərbaycan məsələsi həllinə böyük bir nüfuz və təsir göstərəcəyi bədihidir [açıqdır]. Böylə əzim [geniş] bir siyasət meydanında bizim heyət siyasətcə nə qədər püxtə [peşəkar, təcrübəli] olduqlarının imtahanını verəcəkdirlər.

Heyətin üzərinə düşən müqəddəs vəzifəni ağır və müşkül etdirici səbəblərin birisi də budur ki, həmin heyət öz müstəqim vəzifəsindən başqa, digər bir vəzifə dəxi öhdəsinə götürməyə məcbur olacaqdır. O vəzifə isə Azərbaycanı və burada yaşayan türk və islamları Avropaya və Amerikaya tanıtdırmaqdır.

İstiqlaliyyət iddiasında olan yeni təşəkkül etmiş ufaq məmləkətlər iki qisimdir:

1) Etilaf [Antanta] dövlətləri ilə müharibə edən dövlətlər torpağında yaşayanlar; 2) Bir də Etilaf dövlətlərinin öz torpağında yaşayan millətlər.

Birincilərin işlərinin asanlıqla keçəcəyi şübhəsizdir. Çünki, burada bir taqım siyasi nöqtələr vardır ki, hər kəsə məlumdur. İkincilərə qaldıqda, burada dəxi öylə millətlər vardır ki, onlar istiqlaliyyətləri üçün çoxdan bəri mübarizədə bulunmaqla özlərini ümum Avropa və Amerikaya tanıtmışdırlar. Öylələri dəxi vardır ki, onlara istiqlaliyyət yolunda mübarizəyə girişmək bu yaxınlardan mümkün olmuşdursa da, Müttəfiqlər elan etdiyi əsası dəlil və rəhbər görüb, bütün millətlərin müqəddəratı özlərinə həvalə olunması

şüarına müstənidən [istinad edərək], ümidvardırlar.

Biz azərbaycanlılar axırıncılar cümləsindənik. Azərbaycan ləfzi və orada yaşayan türk və islamların nə olduğu Avropanın bir çox məhafilində [dairələrində] bəlli deyildir. Bu söz ortalığa çıxmış təzə bir sözdür. Halbuki, Lehistan, Finland, Ermənistan, Gürcüstan bu kimi, çoxdan bəri Avropa siyasi məhafilində işlənilən kəlmələrdir. Buna görədir ki, bizim sülh heyəti-mürəxxəsəmizin öhdəsinə ağır təklif gəlir:

Bizi tanıtmaq və haqqımızı almaq.

Bu ağır vəzifənin nə tərzdə həll olunacağını heyəti-mürəxxəsəmiz pişəzvəqt [qabaqcadan] ətraflıca düşünüb həll etməlidir.

Ümumsülh Konfransı yanvarda şüru edəcəkdir [başlayacaqdır]. Lakin bu, ancaq Etilaf dövlətlərinin öz aralarında müzakirat məclisindən ibarət olacaqdır. Bütün millətlər nümayəndələri iştirakı ilə iniqada şüru edəcək [təşkil olunmağa başlayan] konfrans isə yalnız martda vaqe olacaq-dır.

İştə, bu konfransın güşadınadək [açılışınadək] bizim heyəti-mürəxxəsə öz vəzifəsinin ikinci qeyri-rəsmi qismini əda etməlidir [yerinə yetirməlidir]. Azərbaycan məsələsindən Avropa, Amerika ricali-dövlətini [dövlət adamlarını] vaqif etmək üçün lazımi tədbirlərdə bulunmalıdır. Təşviqat icrası üçün icab edəcək [lazım olacaq] vasitələri və lüzumiyyəti görünən materialları və sənədləri və ya qüvvələri indidən əldə etməlidir. Sonradan bu ləvazimatın sövq edilməsi yolsuzluq cəhətincə qeyri-mümkün olacaqdır. Təşviqata dair icab ediləcək mənbələrdən istifadə edib, lazımi tədbirləri görməklə heyəti-mürəxxəsə öz müqəddəs vəzifəsini kafi bir surətdə ifa edə bilib, məmləkətin və millətin hüquq və şərəfini müdafiə etməyə müvəffəq olacaq deyə ümid bəsləmək üzrəyiz.

ƏSGƏRLİK HAQQINDA

“Azərbaycan” qəzetəsinin 75-ci nömrəsinin birinci sütununda dərcən [dərc edilmiş] tələbə suallarına cavab olaraq möhtərəm Maarif naziri həzrətlərinin kəlamlarını mütaliə etdikcə, insana bir başqa məsərrət [sevinc] və fərəh üz verir. O cənabın sözlərini təqviyə [sözünün qüvvəti] olaraq ərz olunur: İslam aləmində əsgərlikdən əfzəl [daha üstün] bir şey varmı? Əlbəttə, yoxdur. Qurani-şərifdə “fəzzələllahul-mücahidinə ələl-qaidinə dərəcətən” buyurmuş. Yəni, mücahidlər qeyri-mücahiddən çox dərəcə əfzəldirlər [üstündürlər].

İnsanın təbiəti ülvitələbdir [ülviliyi tələb edir]; artıqlıq və yüksəklik sevəndir. Əsgərlik dünya və axirət fəzilətini camidir [özündə ehtiva edir]. Dünyada əsgərin hüququna bir kimsə təcavüz edəmməz. Əsgərə şücaət kimi yaxşı sifət ariz [məxsus] olub, qorxaqlıq kimi xəbis sifətlərdən ari [uzaq] olur. Əsgərin gözü açıq, qəlbi saf olur. Çünki vilayətləri seyr edir. Hər bir vilayətdən və o vilayətin adamlarından çox şeylər dərk edir, ibrət götürür, səyahət edir, səyahətdən hasil olan ülum [elmlər], məkatibdə [məktəblərdə] təhsil edilmiş ülumdan daha mənfəətlidir.

Əsgərlikdə səfərbərlik və müsafirət [səfər, yürüş] olur. Həzrəti Əli əleyhissəlam, "səfərdə çox fayda vardır" buyurmuşdur. Təfərrüc [səfər, gəzinti], həm iktisabi-məişətə [dolanacağını qazanmağa], elm, adab [ədəb-ərkan], nəcib insanların müsahibəti [söhbəti] və qeyrə... Amma, axirət mənfəəti isə apaşkardır: əsgər dünyada ağa olan kimi, axirətdə dəxi ağadır. Allahu-təala hüzurunda daimi olaraq övliyayi-üzzam [böyük övliyalar] ilə müsahibdirlər [həmsöhbətdirlər]. Başqalar onların məqamlarına [mövqeyinə, mərtəbəsinə] qibtə edərlər.

Əsgər üçün həyati-əbədiyyə [əbədi həyat] vardır. Onların mövtü [ölümü] həyatdır. "Qurani-məcidimiz" [şanı uca "Quran"ımız] onların meyitinə [ölüsünə] və məqtuluna [qətl ediləninə] "meyit" deməyi nəhy buyurmuşdur [qadağan etmişdir]: "Və lə təhsəbənnəlləzinə qutilu fi-səbilillahi əmvatən bəl əhyaun ində rəbbihim yurzəqun." Yəni, Allah yolunda ölənləri meyit hesab etməyəsiniz. Onlar diri və heyydirlər [canlıdırlar]. Allahu-təala hüzurunda şad və xəndan [şən] ruzi yeyirlər.

Müsəlmanlar! Səy ediniz, əsgərliyə çalışınız! Övladınızı vəsvəseyi-şeytaniyyələr [şeytani vəsvəsələr] ilə əsgərlikdən qaçırtmayınız! Əsgərlikdən qaçan cihaddan qaçmışdır. O dəxi fasiq [dinsiz] və xəbis bir kimsədir. Sizləri əsgərliyə dəvət edən, zahirdə Əxzi-əsgər dairəsidir [Hərbi xidmətə çağırış idarəsidir], amma batində öz peyğəmbərinizdir. Əxzi-əsgər dairəsi, peyğəmbərin nümayəndələridir. Peyğəmbər zamanında əxzi-əsgərdən məqsud [məqsəd] islam baydağını ucaltmaq idi. İndi də məqsud həmandır. Bəlkə bu zamanın əhəmiyyəti daha artıqdır. Səbəbi məlumdur: Üqəla kəlamı [müdriklər sözü]: Məmləkət cismdir, əsgər can; əsgərsiz məmləkət, cansız bədəndir. Binaənileyh [ona görə], məmləkətimizə can vermək hamımızın müqəddəs vəzifəsidir.

Bakı qazısı
Axund Əbdürrəhim
Hadizadə

BİR İLTİMAS MÜNASİBƏTİLƏ

Rus Milli Komitəsi Azərbaycan Xariciyyə Vüzəratına [Xarici İşlər Nazirliyinə] müraciət edib ölkəmizdən qaçmış və Şimali Qafqaz hüdudunda qalmış olan əlli min nəfər rus kəndlilərinin təkrar torpağımıza qayıtmağı və qaytarılmağı xüsusunda iltimasda [ricada] bulunur. Komitə deyir ki, "Azərbaycan Hökumətinin rus kəndçilərinə qarşı hüsn-təvəccöhünü bildiyimizə görə, təvəqqe edirik ki, həman kəndlilərə Azərbaycan torpağında yer verilsin, onlardan əlavə, Qafqazın sair yerlərindən gələn ruslara dəxi Azərbaycanda məskən salmaq imkanı rəva görülsün."

Təəccüb işdir! Rus Milli Komitəsi bir tərəfdən bizi və bizim hökumətimizi tanımağı əsla qəbul etməyir, naşiri-əfkarı olan [fikirlərini yayan] "Yedinaya Rossiya" qəzetəsinin hər nömrəsində hökumətimizi ilan kimi çalır, azadlığımızın düşmənləri cərgəsində durub onlarla həmavaz olub, Azərbaycan istiqlalına qarşı bədguluq [qeybət] edir, Rəisi-Vüzəramız [Baş Nazirimiz] tərəfindən təklif olunan vəzirlik [nazirlik] yerini qeyri-qabili-qəbul [qəbul edilməsi mümkün olmayan] bilib "atkaz"

[rədd] edir, bir tərəfdən də bu tanımadığı və qəbul etmədiyi hökumətə müraciət edib, əlaqə bağlayır və dürlü-dürlü iltimaslarda bulunur. Bir tərəfdən bizdən küsür, bir tərəfdən əlaqə bağlayır. Daha açığı, rəsmiyyət məqamında bizi rədd edir, amma qeyri-rəsmi halda xeyrimizdən istifadə etmək istəyir.

Bu nədir? İkiüzlülükdür, yoxsa bizi safdərun [sadəlövh] hesab edib ələ salmaqdır? Və bu nə sənətdir ki, həman milli komitə genə bir tərəfdən Azərbaycan Hökumətinin “rus kəndlilərinə qarşı hüsn-təvəccöh göstərmək”də olduğunu guya iqrar [təsdiq] və etiraf edir, digər tərəfdən hökumətimizin həman rus kəndliləri xüsusunda “zülm və sitəm[in]dən” müfəttinanə [fitnəkar] bir surətdə qəzetələrində “danos”lar yazıb, əlavə general Tomsona bizlərdən və hökumətimizdən şikayətlər edir ki, guya biz azərbaycanlılar zalım olub “məzlum” rusların kənd və kəsəklərini dağıdırıq... Böylə olan surətdə, Rus Milli Komitəsinin təvəqqe və iltimaslarına bizim hökumətimiz nə əsasla məhəlgüzar olsun [məhəl qoysun]?

Əgər Rus Milli Komitəsi vaqedə [doğrudan da] Azərbaycan ruslarının qeydkeş [qayğısını çəkən] və dərdinə qalan isə, bəs nə üçün Kabinəmizdə vəzirlik yerini qəbul etmədilər? Halbuki bu vəzirliklə Azərbaycan ruslarına daha artıq kömək yetirə bilərdi və ehtiyacını daha tezliklə rəf’ə [aradan qaldırmağa] çalışardı.

Aşkar deyilmi ki, Rus Milli Komitəsinin amal və arzusu, Azərbaycanda yaşayan rusların mənafeyini gözləmək olmayıb, bəlkə politikaçılıqdır ki, o politika sayəsində bizləri təkrar Rusiyaya bitişdirib istiqlalımızın məhvinə səbəb ola və əlli min nəfər rusu Şimali Qafqaz hüdudundan qaytarıb da toprağımızda yerləşdirməkdə məqsəd genə də politika yeritməkdir ki, onun təfsiri uzundur, amma zənn edirəm ki, bunu anlamaq üçün təfsirə möhtac olacaq dərəcə kəmağıl deyilik.

Məsələnin özünə gəldikdə, əvvəla bunu unutmamalıdır ki, rus kəndlilərinin bilümum [ümumən] Qafqazda və bilxüsus [xüsusilə] Azərbaycanda yer və mülk sahibləri olması sabiq müstəbid rus hökumətinin “kolonizatsiya” və daha doğrusu, Qafqazı “ruslaşdırmaq” və Qafqazı ruslarla doldurmaqla, əhalisinin ehyanən [vaxt-vaxt] “üsyan” və inqilab törətməsinə mane olmaq politikasından nəticə verən bir işdir. Vəilla [yoxsa] Qafqazda və baxüsus [xüsusilə] Azərbaycanımızda bir o qədər yer və torpaq yoxdur ki, yerli əhalinin ehtiyacatını rəf’ edəcək [ehtiyaclarını aradan qaldıracaq] dərəcə kafi olub, hələ artıq da qala ki, o artığını Rusiyadan gəlmiş rus kəndlilərinə verələr. Deməli, vətənimizdə rusların və rus kəndlilərinin mülk-məaşı [mülk və dolanacaq sahibi olmaları], yer və topraq sahibi olmaları, yerli əhali üzərinə rəva görülmüş zülm və cəbr [zorakılıq] nəticəsidir. Vaxtilə bu xüsusda, yəni Qafqazı rus “pereseleniye”sindən [köçündən] azad etmək haqqında başbilənlərimiz və iş görənlərimiz çox çalışdılar. Lakin səy və kuşişləri [çalışmaları] rus “bürokratiya”sının inadı müqabilində hədər gedib bir nəticə hasil olmadı. İndi isə yerimiz və toprağımızın sahibi özümüz olduğumuz halda, zənn etmirəm ki, hökumətimiz içində bir adam tapılsın ki, rus müstəbidlərinin politikasına tabe olub da fəlakətzədə [fəlakətə məruz qalmış] kəndçiləri-

mizin üzərinə təkrar fəlakətlər yükləsin.

Hökumətimizin, Parlamanın alqışla qəbul etdiyi yer və torpaq proqramından məlumdur ki, vətənimizdə hər nə yer və torpaq varsa biəvəz [qarşılıqsız] olaraq kəndlilərimizə veriləcəkdir. Bu kənd[li]lərdən məqsud, şübhəsizdir ki, yerli əhalinin kəndçi sinfidir. Rus mühacirlərinin kəndçilərimizin yer və yurduna şərik çıxmağa heç bir haqqı yoxdur, çünki onların yeri öz doğma vətənləri olan Rusiyadır. O Rusiya ki, bütün aləmdə yer və torpağının çoxluğu ilə məşhurdur. Heç insaf deyil ki, Rusiyanın öz yeri, öz torpağı boş-boşuna qalsın da, rus kəndliləri gəlib də özgə yerinə şərik olmaqla həm özlərini və həm də yerliləri sıxıntı və əziyyətə düçar etsinlər. Zatən rus mühacirlərinin vətənlərindən fariq [ayrı] olub da, abuhavasına alışmamış və şəraiti-məhəlliyəsinə [yerli şəraitinə] öyrənməmiş yad yerlərdə sükunət etmələri [yaşamaları], özlərinə qabili-əhəmiyyət [əhəmiyyətli] bir mənfəət verməyib, çəkdikləri cəfanın gördükləri səfaya dəyməz olduğunu özləri də iqrar [təsdiq] etməkdədirlər. Halhazırda isə torpağımızda yaşayan və yaşamaq istəyən rusların üzərinə bir də Azərbaycan təbəəliyini qəbul etmək, binaənileyh [bu səbəbdən] Azərbaycan təbəəsi üzərinə gələn hər bir vəzifə və mükəlləfiyyəti [məsuliyyəti] qəbula məcbur olmaq təklifi gəlir. Bu da ki, məlumumuz olduğu üzrə, bir çox rusların və baxüsus bu ruslar haqqında "çalışmaq" vəzifəsində olan Rus Milli Komitəsinin xoşuna gələn və qəbulu mümkün görünən əhvallardan deyildir.

Böylə olan halda, rus mühacirlərinin vətənimizdə yerli əhalinin mülk və malına, yer və torpağına şərik olub da, özümüzü və hökumətimizi tanımaya-tanımaya istirahətə məşğul və ya cəfaya düçar olmalarından nə məna? Vətənimizdə rus mühacirləri iki şərtlə yaşaya bilərlər: ya gərək Azərbaycan təbəəliyini tamamilə qəbul etsinlər və ya əcnəbi, yəni özgə dövlət təbəəsi sifətilə dolansınlar. Halbuki Rus Milli Komitəsinin bizim istiqlalımızı və hökumətimizi rəsmən tanımaq istəmədiyi, bu şərtlərin heç birinə imkan yolu vermir. Rus Milli Komitəsi Azərbaycanımıza "Rusiyanın bir parçası" nəzərilə baxır. Biz də ki, bu işə razı olmadığımızı, elani-istiqlal [müstəqilliyimizi elan] edib, bilfeil [əməli olaraq] müstəqil bir cümhuriyyət şəklində yaşamağımızla ruslara da və bütün aləmə də ələni [açıq] surətdə bildirməkdəyik. Bu məsələ isə artıq siyasət aləmində beynəlmiləl bir məsələ olduğu üçün Rus Milli Komitəsinin "iradəsi"lə deyil, Cahan Sülh Konfransının təyini ilə qəti surətdə həll və fəsl ediləcəkdir [başa çatacaqdır]. Cahan Sülh Konfransının da hər bir müzakiratı "millətlərin əsirlikdən azad edilməsi" şüarı əsasına müstənid olacağını [istinad edəcəyini] bildiyimiz üçün, biz dəxi əsirlikdən azad edilməyə layiq bir millət olduğumuzu bu məclisi-kübra [böyük məclis] təsdiq edəcək deyə qəviyyən etiqad etdiyimizdən dolayı [möhkəm inandığımız üçün] istiqlalımızı kamal ilə yeritmək işində davam edirik...

Və bir də əlli min nəfər rus qaçqınlarının vətənimizə gətirilməsi – bu vaxtda ki, hər yerdə cürbəcür naxoşluqlar və mərəzlər əmələ gəlir – hifzüssihhə [gigiyena] cəhətincə çox qorxuludur. Azar və naxoşluqların əvvəl-əvvəl qaçqınlar içində tö-

rədiyi və o qaçqınlardan da keçib yerli əhaliyə sirayət etməsi [yoluxması] hər kəsin məlumudur. Ondan əlavə, arada aclıq məsələsi də vardır ki, o nöqteyi-nəzərdən dəxi bu işə baxılarsa, onda da bir çox əndişələr meydana çıxar.

Bizim rus millətinə qarşı düşmənçiliyimiz yoxdur, lakin zamanə “başlı başın saxlasın” zamanəsidir. Onsuz da Milli Komitənin və hər bir rusun məlumudur ki, qonşu cümhuriyyətlərdə[n] köçməyə məcbur olub da bizim cümhuriyyətə pənah gətirən rusları biz kamali-mehmannəvazi [əsl qonaqpərvərlik] ilə qəbul edib, hər bir idarəmizdə qulluq vermişik və bu yolda o dərəcə “irəli getmişik” ki, idarələrimizin ən məsul vəzifələrini də onlara tapşırmışıq. Halbuki, mehmanlarımızın “ev yiyəsi”nə qarşı göstərməkdə olduqları müamilə [rəftar], ümumiyyət etibarı ilə bir o qədər də qədirşünasanə [qədirbilənliyə müvafiq] deyildir.

Məqsədi-batinisi [əsl məqsədi] məhz istiqlalımıza qarşı bir nümayişi-təhdidkaranə olduğu şübhədən ari [şübhəsiz] olan keçən zabastovka haqqında Rus Milli Komitəsinin münasibatı və bu komitənin naşiri-əfkarı olan “Yedinaya Rossiya”nın sözləri hələ yadımızdadır ki, kamali-fəxr ilə deyirdi: “Bu zabastovka, rus hissiyyatı-milliyyəsinin [milli hisslərinin] oyanmağına dəlalət edən bir vəq’ədir.”

Bu “rus hissiyyati-milliyyəsinin” vətənimizdə oyanmasına qüvvət vermək üzrə bir də kənardan gəlmə əlli min nəfərlik bir rus kütləsinin hissiyyatını da əlavə etsək, qabaqda başımıza nələr gələ biləcəyini indidən mülahizə etmək olar.

Hacıbəyli Üzeyir

TELEQRAF XƏBƏRLƏRİ

Öz müxbirimizdən

- Teymurxanşuradan teleqraf edirlər ki, bolşeviklərin Terek çayından o tərəfə atılmaları doğrudur. Cəbhə Arqun xəttindədir. Qroznıya 8.000 (?) ölü və yaralı gətirilmişdir. Bolşeviklər təcili surətdə Qroznını boşaldırlar.

- Konfransa gedəcək Dağıstan nümayəndələri Çermoyev, Heydərov və Bammatov bu gün Bakı təriqi [yolu] ilə azim olmuşlardır [yola düşmüşlər].

“Royter” agentəliyindən, 1 kanuni-sani [yanvar]

İngiltərədə parlaman intixabatı [seçkiləri] böylə nəticə vermişdir: Məbuslardan müştərək ittihadçılar 334, müştərək liberallar 133, müştərək zəhmetkəşlər firqəsi 10 olmaq üzrə koalisiya tərəfdarları 477 yer qazanmışlardır. Bundan əlavə, ittihadçılar 50, liberallar 28, zəhmətkeşlər 62, müstəqillər 9, millətçilər 7, sinfeynerlər 73 yer qazanmışlardır. Fransa qəzetələri intixabatın nəticəsindən razıdırlar.

“Royter” acentəliyindən, 30 kanuni-əvvəl [dekabr]

- Berlində vəziyyət qəti surətdə müəyyən deyilsə də, möhkəm də deyildir. Hökumət qəti tədabir ittixazından [tədbirlər görməkdən] qorxmuş olmalıdır ki, hadisatın [hadisələrin] qanlı müsadiməyə [toqquşmaya] müncər olmasına [gəlib çıxmasına] imkan vermişdir.

- “Royter” agentəliyi vəkalətən xəbər verir ki, Bukinqem Sarayında və Xariciyyə Nəzarətində Vilson ilə icra olunan müşavirə hər iki tərəf üçün əlverişli bir surətdə

cərəyan etmişdir. Müşavirədə qayət geniş məsələlər, əzcümlə [o cümlədən] Vilsonun 14 maddəsi müzakirə edilmişdir. İştirak edən ricali-dövlət [dövlət adamları] müzakiratın nəticəsindən məmnundurlar.

"Royter", 31 kanuni-əvvəl [dekabr]

- İngiltərədə intixabat [seçkilər] təntənəsiz keçmişdir. Çünki, bir çoxları gözləyirmiş ki, koalisiya tərəfdarlarının siyahısı keçəcəkdir. Yenə də bəzi nagəhani [gözlənilməz] şeylər olmuşdur. Məsələn, Askvit məğlub olmuşdur. Bundan əlavə, Parlaman əzasından [üzvlərindən] Makdonald, Qalland, Hobhaus, Samuel, Henderson, Makkenna, Satton dəxi məğlub olmuşlardır.

- Berlindən alınan teleqraflarda denilir ki, əski hökumətin iş başından düşürüləcəyi və Ledebur ilə Libknext başda olmaq üzrə yeni hökumət təşəkkül edəcəyinə ehtimal var.

(Böylə olarsa, deməli Almaniyada hökumət bolşeviklər əlinə keçər. - İdarə.)

- Vilson şərəfinə verilmiş olan ziyafətdə İngiltərə kralı bir nitq söyləyərək demişdir ki, İngiltərə və Amerika ümidvar olurlar ki, müharibəni bir daha təkərrür etməyəcək [təkrarlanmayacaq] bir surətdə qurtarıb, millətlər omuzundan təslihat [silahlandırma] yükünün götürülməsi üçün ümumi bir tərzi-hərəkət bulacaqlardır. Vilson cavabi nitqində bəyan etmişdir ki, heç bir məsələ onu Amerikadan gəlməyə vadar edə bilməzdi, məgər qarşısında bulunduğu məsələ, yəni dünyanın mənəvi qüvvəsini öylə təşkil etmək ki, bəşəriyyətin qüvvələrini mühafizə edəcək etilafları [uzlaşmaları] saxlamaq [təmin etmək] və hüquq və ədaləti cahanın ümdə kontrolu [hakim gücü] qılmaq.

Vilson təkid etmişdir ki, "Cəmiyyəti-Əqvam" [Millətlər Cəmiyyəti] əməlini [arzusunu] sözdən işə keçirmək lazımdır.

("Royter" acentəliyindən)

Almaniyada inqilab

Berlindən Kopenhaqa verilən teleqrafda deyilir ki, hökumət Berlin komendantı və polisə rəisi ilə müşavirədə bulunduqdan sonra, ixtilaf çıxmasın deyə, əsgəri məmurların küçələrə çıxmaması və özlərini mühafizə etməkdən ötrü silah işlətmələri əmrini vermişdir. "Spartak" firqəsi "Parizer platz"da bir neçə pulemyot qoymuşdurlar. Məzkur [adı keçən] firqə üzvləri qırmızı bayraqlar və pulemyotlarla avtomobildə gəzib, intibahnamə [təbliğat vərəqəsi] nəşr etmişlərdir [yaymışlar]. İntibahnamədə deyilir ki:

"İnqilab təhlükədədir. Əks-inqilabçılar öz saldatlarının qanını tökməkdədirlər."

Bundan əlavə, davam edən üsuli-idarəyə protesto etməkdən ötrü saldatlar və fəhlələr mitinqə dəvət edilirlər.

İngiltərənin maliyyə işləri

Çörçill öz nitqində İngiltərənin maliyyə işlərinin kəskinləşməsindən bəhs edib, bunların hamısının zail olacağına [keçib gedəcəyinə] ümidvar olur. Bizim borcumuzun 7-dən 6-sı məmləkətin borcudur. Biz Amerikaya 400 milyon lirəlik qızıl, 1 milyon Amerika ziqiymət şeyləri [qiymətli şeylər] göndərmişik. Bu məbləğin çox hissəsi bizim müttəfiqlərimiz Rusiya üçün verilmişdir. Biz bu təminatda zərərli ol-

mayıb, hətta aldığımız borcların faizini dəxi verməliyiz. Müttəfiq dövlət komissiyası bütün məxaricləri verilməsi məsələsini aşkar etməkdən ötrü Almaniyanın etibari-nəqdiyyəsini [pul kreditini] hər tərəfli mülahizəyə alacaqdır.

Lloyd Corcun nitqi

Lloyd Corc Bristolda söylədiyi nitqində demişdir ki, İngiltərə donanması zülm etmək deyil, müdafiə aləti olmuşdur. Buna görə, İngiltərə donanmasının haqqı gözlənməlidir. Sonra Lloyd Corc təkrar etmişdir ki, Almaniya bütün müharibə dəyərini axırıncı cəriməsinə qədər verməlidir. Müttəfiqlərin müharibə məxarici 24 milyon İngiltərə lirəsidir. Məğlub olanların qalib gələnlərdən az vermələri təəccüb dür. Lloyd Corc İngiltərənin müharibə məxaricinin Almaniyadan artıq olduğunu göstərmişdir. Avropa müttəfiqləri müttəhidülqövl [sözü bir yerə qoyub] qərara almışlar ki, Kayzer və onun yoldaşları müharibə zamanında etdikləri təcavüzat və xəyanətə görə məsuliyyətə cəlb olunmalıdırlar. Vilsonun da buna razı olacağına ümid edilir. Almaniya təbəələri İngiltərədə çox qalmayacaqlardır. Onlar İngiltərədən köçürülüb bir daha övdət etməyəcəklərdir [qayıtmayacaqlar].

İngiltərə əsgərlərinin vürudu [gəlişi]

Kölndən Amsterdama xəbər verirlər ki, 32 min İngiltərə əsgəri oraya varid olmuşdur [gəlmişdir].

Yaponiya zirehlisi İstanbulda

İstanbuldan Parisə xəbər verirlər ki, Yaponiya zirehlisi “Şikisima” və iki sualtı qayığı İstanbula varid olmuşdur.

Müttəfiqlər donanması

Müttəfiqlər donanması Sevastopol şəhərini bolşeviklərlə bir yerdə hərəkət edən almanlardan xilas edəcəklərdir. Müttəfiqlər donanması Odessadan gələn heyətin xahişinə görə hərəkət edəcəkdir.

Almaniyada

Kopenhaqdan teleqraf edirlər ki, övdət edən Almaniya əsgərləri Berlinə varid olanda “Döyçland über alles” marşı və qeyri marşlar çalınıb və bir dənə də olsun inqilab marşı çalınmamışdır. Əhali, zabitləri və saldatları qalib gələn bir surətdə təbrik etmişdir. Ebert demişdir ki, Almaniya əsgəri başı uca və qalib bir surətdə övdət etmişdir [qayıtmışdır]. Qüvvətli və təzə Almaniyanın binası ancaq əsgərlərlə mümkündür.

Praqada üsyan

Praqadan verilən teleqrafda deyilir ki, qaragüruh dəstəsi polisin mümaniətinə [maneçiliyinə] baxmayaraq dükanları dağıdıb, mallarını qarət etmişdir. Nəticədə pulemyot və tüfəng atışması olmuşdur. Tələfat çoxdur.

Metsdə talan

Metsdən xəbər verirlər ki, iğtişaş əsnasında alman mağazalarının şüşələri sındırılıb, bir çox mal qarət edilmişdir. Fransız məmurları qarətgərlər əleyhinə ciddi hərəkatda bulunmuşlardır. Gecə saat 10-dan sonra alman dilində danışmaq qadağan edilmişdir.

Vilsonu dəvət

Berndən teleqraf edirlər ki, federalnı şura [Federal Şura] Vilsonu İsveçrəyə də-

vət etmişdir.

Norveç və Rusiya

Xristianiyadan [Oslodan] xəbər verirlər ki, Norveç səfarəti [səfirliyi] Petroqraddan çıxmışdır. Ola bilər ki, bolşevik hökumət nümayəndəsinə də Norveçdən çıxmaq təklifi edilsin. Həmçinin Danimarka ilə bolşevik hökuməti arasında münasibati-siyasiyyənin qət ediləcəyi xəbər verilir.

SÜLH ƏTRAFINDA

Belçika tələbatı

Belçika Xariciyyə naziri Himans demişdir ki, Sülh Konfransında Belçika Hökuməti 1879-cu ilin müahidənaməsinə [sazişinə] təzədən baxılmağı tələb edəcəkdir. Bu müahidənamə ilə Belçika Hökuməti Limburq və Lüksemburq əyalətlərindən məhrum edilmişdi. Himansın fikrincə Hollandiya, Antverpen limanını qapayan Şelda[nın] istifadəsindən imtina etməlidir.

Yaponiya heyəti

Teleqrafların verdiyi xəbərə görə, dekabrın 10-da Yaponiya nümayəndələri Sülh Konfransına azim olmuşlardır [yola düşmüşlər].

Kürdüstan heyəti-müəxxəsəsi

"Yedinaya Rossiya"nın yazdığına görə, ən mövsuq [etibarlı] mənbələrdən xəbər alınmışdır ki, kürdlərin başçıları, başda məşhur Kamal bəy olmaq üzrə, Müttəfiq dövlətlər heyətinə gələcək Kürdüstan üsuli-idarəsi barəsində məlumat vermək üçün iqdamatda [təşəbbüsdə] bulunmuşlar. "Yedinaya Rossiya" qəzetəsinin məlumatına görə, xüsusi heyət göndərməyi hamı kürd başçıları istəyirlər, fəqət Musa bəy Moxbubanski (Mutki qövmü şeyxi), Əli bəy (Sinanlı qövmü şeyxi) və başqa xırda əqvam [qövmlərin] şeyxləri riza göstərməyirlər.

QƏZETƏLƏRDƏN

Lloyd Corc

Lloyd Corc Kuins-hollda söylədiyi nitqində demişdir ki, sülh, ədalətkaranə [ədalətli] bir surətdə əqd edilməlidir [bağlanmalıdır]. Yeni müharibə ehtimalını belə bərtərəf etməlidir ki, bir daha qeyri-mümkün olsun. Lloyd Corc, Cəmiyyəti-əqvama [Millətlər Cəmiyyətinə] inanır. Sülh konqresi, orduları yox etməlidir. Zira, ordu varlığı müharibənin baş qalxızmasına səbəbiyyət verir.

İran heyəti-müəxxəsəsi

Bir neçə gün bundan əqdəm [qabaq] "Yedinaya Rossiya" qəzetəsində İran heyəti-müəxxəsəsi [nümayəndə heyəti] barəsində məlumat verilmişdi. Orada filcümlə [o cümlədən] İranın Azərbaycanı özünə mülhəq etmək [qatmaq] arzusunda olduğu da sərahətən [açıq surətdə] yazılmışdı. Şimdi qəzetə böylə məlumat verir:

"İran heyəti-müəxxəsəsinin Avropaya gedib orada əfkari-ictimaiyyəni [ictimai fikri] İranın qayə və amalı ilə tanış etdikdən sonra Sülh Konqresində 8 maddədən ibarət tələbatı [tələbləri] müdafiə edəcəyini xəbər vermişdik! Axırıncı maddə İran sərhədini düzəltmək. Öylə düşünülməsin

ki, İran fəqət [sadəcə] bir Azərbaycanı istəyir. Xeyr, ixtarnamənin birinci surətində, axırıncı maddədə 20-dən ziyadə maddələr var idi. Onların cümləsindən, məsələn, Türkiyə Kürdüstanını da İran istəyirdi. İxtarnaməni müzakirə edib, yenidən tərtib verdikdə, sərhəd barəsində olan maddələrin hesabı oradan çıxarılmışdır, fəqət İran heyəti ola bilsin ki, Türkiyə Kürdüstanını da tələb etsin.”

Bolşeviklərin məğlubiyyəti

Omskdan Kopenhaqda olan rus səfarəti bürosuna xəbər verirlər ki, bolşeviklər Yekaterinburq cəbhəsində məğlub olub Perm tərəfə geri çəkilirlər.

DAĞISTANLILAR CÜMHURİYYƏTİNDƏ

İmam Şamil qitəsi [dəstəsi]

Məşhur hürriyyət və istiqlal qəhrəmanı Şeyx Şamilin yadigarı üçün Dağıstanın ovçu-əsgər [atıcı] qitələrindən [dəstələrindən] birini onun ismi-paki [pak adı] ilə adlandırırlar. Şeyx Şamil qitəsinə qeyd edilmək və burada xidmət etmək, şimali qafqazyalılarca böyük şərəf ədd [hesab] olunduğundan, hər kəs bu qitə əsgərləri sırasında bulunmağa çalışır.

Şimali Qafqaziya Cümhuriyyəti və Müttəfiqlər

Eşitdiyimizə görə, Şimali Qafqaziya Cümhuriyyəti ordusunun komandanlığını bolşeviklərlə mübarizə müddətincə Müttəfiqlər və İngiltərə ordusu nümayəndəsi miralay [polkovnik] Roulendson öz öhdəsinə götürmüşdür.

Şimali Qafqaziya mürəxxəsləri əziməti

Bizə xəbər verirlər ki, srağagün, kanuni-saninin [yanvarın] 1-ci günü Parisdə Sülhi-Ümumi Konqresinə getmək üzrə Teymurxanşuradan Şimali Qafqaziya Cümhuriyyəti heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] əzimət etmişdir [yola düşmüşdür]. Bu heyət içində Şimali Qafqaziyalılar İttifaqı Parlamanının sədri və Cümhuriyyətin Xariciyyə naziri Bammatov olacaqlardır. Keçərkən bu heyət Bakıya uğrayıb, bir gün burada qalacaqdır.

LƏNKƏRAN NÜMAYƏNDƏLƏRİNİN TƏŞƏBBÜSATI

Lənkəran heyəti-mürəxxəsəsi general Tomson hüzurunda

Dekabrın 28-də Lənkəran uyezdinin müsəlman işləri vəkili Teymur bəy Bayraməlibəyov başda olmaq üzrə, yanmış və dağılmış müsəlman kəndlərinin 50 nəfər nümayəndəsi general Tomson tərəfindən qəbul olunmuşlardır. Bayraməlibəyov Tomson cənablarına böylə bir müraciətdə bulunmuşdur:

“Müsəlmanlar aramsız gözləyirdilər və ümidvar idilər ki, təhti-komandanızda olan Müttəfiqlər ordusu Lənkərana hərəkət edib, Lənkəranı hərc-mərclikdən və bolşeviklərdən xilas edər. Lakin bu ümidlər bərhəva [puç] oldu və Lənkəran məsələsindən mühüm məsələlər sizi Bakıda dayandırdı. Buna görə hüzurunuza gəlib burasını sizə xəbər veririk ki, biz Lənkəran müsəlmanları, istər şəhərdə və uyezddə, fəna bir halda yaşayırıq. Saldatlar, aşkara bir surətdə müsəlmanlara olmazın əziy-

yətlər verirlər. Müsəlmanların azuqəsini zəbt edirlər. Birinci zəruri şeylərin azad satışı qadağan edilmişdir. Odur ki, əhali aclığa düçar olmuşdur. Müsavatçılar və qeyri camaat xadimləri əks-inqilabçılıqda müttəhim edilib, bolşevik hökuməti tərəfindən təqib olunmaqdadırlar. Bunlardan bir paraları aprel ayından həbsxanada yatıb, bəziləri də gizlənməkdədirlər. Qaçıb gizlənənlərin malı saldatlar tərəfindən qarət edilib, evləri xaraba halına salınmışdır. Bunların əhli-əyalı [ailəsi] küçələrdə ac və üryan qalmışlardır. Məhəlli [yerli] həbsxana öz təqsirlərini bilməyən müsəlmanlarla doludur. Bunlar aclıqdan və naxoşluqdan tələf olmaqdadırlar. Müsəlmanlar dövlətlər arasında sülh əqd edilməsini eşidib şad olmaqla bərabər, özlərini fəlakətdən qurtaracaqlarına ümidvar oldular. Lakin onların bu ümidi də müvəffəqiyyətsiz oldu. Çünki, müharibə hərəkatı hər yerdə dayandırıldığı gündən köməksiz qalan müsəlman əhalisinin halı gəldikcə müşkülata uğramaqdadır. Saldatlar iğtişaş salıb, qətl-qarətə məşğuldurlar. Yüzdən artıq müsəlman kəndi Muğan cəza dəstəsi saldatları tərəfindən yandırılıb dağıdılmışdır. Bu kəndlərin əhalisinə öz kəndlərinə qayıdıb evlərini təmir etmək qadağan edilmişdir. Dağılan kəndlilərin xüsusi torpaqları rus mühacirlərinə verilmişdir. Bu qərar üzrə müsəlman əkinçiləri öz torpaqlarından məhrum olmuşlardır. Dağılmış kəndlərdən saldatlar 50 nəfərə qədər müsəlman arvad və qızlarını tutub aparıb namuslarına təcavüz etmişlərdir. Top gücü ilə müsəlman əhalisinin silahı əlindən alınıb, rus əhalisi silahlanmışdır. Odur ki, müsəlman əhalisi quldurların hücumundan özünü mühafizə edə bilməyib, qarətə məruz olmuşdur. Amerika və Avropa dövlətləri tərəfindən hər millətə hürriyyət ixtiyarı vagüzar edilmişsə [verilmişsə] də, lakin Lənkəran uyezdinin 300 min nəfər əhalisi bu səadətdən məhrum olmuşdur. Zira, Lənkəran uyezdində hökmfərma [hakim] olan bolşevik hökuməti Azərbaycan Parlamanına nümayəndə intixab etməyi [seçməyi] nəinki qadağan edir, hətta cəzaya düçar edib, bizləri qılınc və atəş qorxusu altında saxlayır.

Təfsilatdan sərf-nəzər sizdən xahiş edirik, Muğanda olan bolşevik əsgəri dəstəsinin silahını əlindən alıb, bu əsgərləri Azərbaycan və ya ingilis əsgərlərilə əvəz edəsiniz. Lənkəran həbsxanasında olan müsavatçıları və qeyri camaat xadimlərini həbsdən azad etdirib, onların öz külfətləri yanına qayıtmaları üçün həyatlarını məhəlli saldatlardan təmin edəsiniz. Lənkəran uyezdi müsəlmanlarına Azərbaycan Hökumətini etirafla Azərbaycan Parlamanına nümayəndə intixab etmək haqqı vagüzar edəsiniz. Lənkəran şəhərində hökmfərma olan bolşevik hökuməti qovulsun, məhəlli rus və müsəlman əhalisinin silahı əlindən alınsın. Çünki, silahla kotan bir ələ sığmaz. Lənkəran şəhəri və kəndlərinin mühafizəsi ancaq ingilis əsgərləri ixtiyarına və ya Azərbaycan Hökumətinə tabe şəxslərə tapşırılsın. Lənkəran uyezdi Azərbaycanın ayrılmaz bir parçası olduğuna görə, Azərbaycan Hökumətinin təhti-idarəsinə keçirilsin. Şəhərə ətraf kəndlərdən azad bir surətdə mal gətirilməsinə icazə verilsin. Bunu da əlavə edirik ki, İngiltərə ordusu Lənkərana yürüş etdikdə, öz azadlıqlarını və istiqlaliyyətlərini mühafizə etməkdən ötrü məhəlli

müsəlman əhalisi kamali-məmnuniyyətlə İngiltərə ordusu səflərinə daxil olacaqdır."

General Tomson Lənkəran uyezdi nümayəndələrinin bu bəyanatını dinlədikdən sonra demişdir ki, sizin bu xahişləriniz bu yaxın zamanda əmələ gətiriləcəkdir. Ona görə də bir qədər səbr etməyiniz lazımdır.

Rəisi-vükəlaya ərizə

Lənkəran müsəlmanları müvəkkili Teymur bəy Bayraməlibəyov tərəfindən kanuni-saninin [yanvarın] 2-də Rəisi-vükəla [Baş nazir] həzrətlərinə bir böylə ərzihal verilmişdir:

"Hal-hazırda Lənkəranda bir dəstə vardır ki, adını "Müttəfiq Qafqaziya-Kaspi Hökuməti" qoyaraq müsəlmanları təqib edirlər. Lənkəran müsəlmanları bunların böylə fəaliyyətindən naşi [ötrü] bir çox əziyyətlər çəkərək, qətl və qarətə məruz qalmışlar. Bunlar açıqdan-açığa müsəlmanları zorlayırlar. Binaənileyh [ona görə], həzrətlərinizdən rica edirəm ki, Müttəfiq komanda nəzdində Lənkəranın Azərbaycana mülhəq olunanadək [birləşdirilənədək] bir ingilis dəstəsi göndərilməsi barəsində lazımi təşəbbüsatda bulunasınız. İşbu dəstə, məsələn 3 zabit və 30 əsgərdən mürəkkəb [ibarət] olaraq, fövqəlzikr [yuxarıda adı keçən] hökumətin fəaliyyətini kontrol edə biləcəkdir. Böyləliklə "xudsər" [özbaşına] hökumətin müsəlmanları zorlamağı[nın] önünü ala biləcəkdir, zənn ediriz.

Sizə – Rəisi-vükəla həzrətlərinə, müraciətən rica ediriz ki, qətl və qarətə məruz qalmış müsəlmanlar üçün öz səsinizi ucaldasınız. Bunların həyatları və malları təmini üçün lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunmaqla, vətənlərini sinələri ilə müdafiə və mühafizə edən "Müsavat" firqəsi əzası [üzvü] və başqa millət xadimlərinin də evlərinə qayıtmaları üçün lazımi binagüzarlıqda bulunmanız mütəmmənadır [xahiş olunur]. Zira, bunların ailələri Lənkəranda pərəstarsız [himayəsiz] qaldıqlarından, aclığa məruzdurlar. Bununla bərabər, həzrətlərinizə məlum edirəm ki, Lənkəranda asayişi-ümumini təmin etmək və ticarət-sənayeni tərəqqi yoluna qoymaqdan ötrü lazım və əlzəmdir ki, oradakı bolşevik hökumətini qovub, ümumiyyətlə bolşeviklərdən mürəkkəb Muğan qoşunlarını tərk-silah etməlidir. Əks halda isə müsəlmanlar üçün rahatlıq və ticarət-sənaye üçün tərəqqi yoluna daxil olmaq mümkün olmayacaqdır. Oraya ingilis və yaxud Azərbaycan qoşunları göndərilməsi mütəmmənadır.

Teymur bəy Bayraməlibəyov"

İKİ ZIYA
[İTKİ]

Asudə olum dersən əgər, gəlmə cahana,
Meydana düşən qurtulamaz səngi-qəzadan.
Hər aqilə bir dərd bu aləmdə müqərrər,
Rahat yaşamış varmı güruhi-üqələdan?

Ziya Paşa

Azərbaycan şüərasının [şairlərinin] babası mərhum şeyx Nizami, Gəncə ətrafında 700 illəri təkcə yatmaqdan öylə bil ki, təngə gəlib, vətənimizin müqtədir [qüdrətli] üdəba və şüərasını yanına toplayır. Hələ 1912-ci ildə Abdulla Suru, o müqtədir ədibi, o "İrşad" qəzetəsini fel-

yetonları ilə zinətləndirmiş cavan mühərriri əlimizdən aldı. Buna kifayət etməyərək, bu il iki məşhur mürəbbilərimizi [tərbiyəçimizi] ətrafına cəlb etmişdir ki, bunlardan biri Ələddin Əfəndizadə və o biri də Mirzə Abbas Mehdizadədir. Hər ikisi bu il mart faciəsindən sonra qaçqınlar arasında Gəncəyə qaçmışlar və oradaca yatalaq naxoşluğundan vəfat etmişlərdir.

Ələddin əfəndi Tiflis vilayəti Azğur nahiyəsində anadan olub təlim üçün İslambula getmişdir. Burada təlimi bitirdikdən sonra Qafqaza müraciətlə [qayıdaraq] müəllimlik həvəsinə düşür. Bir müddət Tağıyevin Fabrika məktəbində türk lisanı müəllimi və sonra da həman vəzifə ilə Bakı Ticarət məktəbində bərqərar olur ki, ömrünün axırına qədər böylə ağır bir vəzifəylə uğraşmışdır. Türkcənin şərq və qərb ləhcələrinə dara [bələd] olduğundan "İkinci il" adlı təlim kitabının müəlliflərindən biri olaraq həman kitabda elmi-əşyaya dair bəzi müfid [faydalı] və sadə hekayələr dərc etmişdir. Xülasə, mərhum Ələddin əfəndinin müəllimliyi həm əməli və həm də nəzəri olduğundan, Azərbaycan türklərinin təlim və tərbiyəsinə az da olsa bir dərəcəyə qədər xidmət göstərmişdir.

Mirzə Abbas Mehdizadə isə təxminən həştadıncı illərdə Şamaxı şəhərində anadan olub, bir müddət mədrəsələrdə ruhanilərdən təlim taparaq, sonra Tehrandakı Tibb darülfünununa [univeristetinə] daxil olur. Burada təbabətlə bahəm fransız lisanını gözəlcə öyrənmişdir. Odur ki, həman lisan vasitəsilə Yevropa ədəbiyyatına bələd olaraq, bəzi şeyləri və ələlxüsus, məşhur Lafontenin əfsanələrindən bir neçəsini türkcəyə tərcümə etmişdir. Darülfünunu bitirdikdən sonra bir il Şiraz hakiminin xüsusi göz həkimi olur. Sonra vətəninə övdətlə [qayıdaraq] burada həm təbabətlə məşğul olur, yazdığı nüsxələr [reseptlər] isə etibari-tam ilə əczaxanalarda qəbul olunurdu.

Mərhum Mirzə Abbas, tibbi şüğllərdən [məşğələdən] azad olarkən, asudə vaxtlarını camaat işlərinə [ictimai işlərə] və ələlxüsus ədəbiyyata sərf etmişdir. Şirazdan Şamaxıya qayıdarkən, az bir vaxtda rus lisanını öyrənib, məşhur rus şüərasının [şairlərinin] abruları [abrı, üzünün suyu] Puşkin və Lermontovdan nəzmən bir çox şeylər tərcümə etmişdir ki, ümdələri "Qafqaz", "Terekin ərməğanı" və "Mtsıri"dir. Bu tərcümələr əslləri ilə o qədər yaxın, o qədər mütabiqdir [uyğundur] ki, hər iki dilə vüqufu [bələdliyi] olan zəvat [şəxs], əsərlərin ruscaları ilə bərabər türkcələrini də rus şüərası yazmışdır, deyə iddia və hökm vermiş olarlar. Həqiqətən indiyə qədər türk şüərası arasında Mirzə Abbasın tərcüməsi kimi düzgün bir tərcüməyə rast gəlmədik. Odur ki, mərhuma "türklərin Lermontovu" ləqəbi verilərsə, bihəqqin səzadır [haqqıyla layiqdir].

10 il vardır ki, Şamaxıda Realnı məktəbi açılmışdır və açıldığı gündən də oranın türk lisanı müəllimliyinə mərhum Mirzə Abbas dəvət olunmuşdur. İştə, tərcümələrin bir çoxunu müəllimlik əsnasında və bəlkə də öz məktəb şagirdləri üçün yazmışdır. O vaxta qədər təlim kitablarında düzgün və şagird zehninə uyğun bir nəzmə rast gəlmədiyindən, burası mərhumun diqqətini cəlb etmişdir. Bu yolda çox çalışmışdır. Yeddi yaşlılara məxsus sadəcə nəzmlərlə bərabər yuxarı siniflərin şagirdlərinə də az şey yazmamışdır. Bu gün təlim kitablarımızın bir çoxu,

əzancümlə [o cümlədən] “Türk əlifbası”, “İkinci il”, “Yeni məktəb” və “Ədəbiyyat məcmuəsi” mərhum Mirzə Abbasın səlis və rəvan nəzmləri ilə müzəyyəndir [bəzənmişdir].

Bundan əlavə, Qafqaz cəridələrinin [qəzetlərinin] bir çoxunda “Abbas Səhhət” imzası ilə və “Molla Nəsrəddin” jurnalında ənva [müxtəlif] təxəllüslərlə bir çox şeylər yazmışdır. “Sınıq saz”, “Məğrib və məşriq günəşləri” adlı məcmuələri təb [çap] olunmuşdur. Lakin çox heyf olsun ki, “İdil boyu səyahəti” [adı] ilə bir romanı, bir çox əl yazıları ilə bərabər, Şamaxı talanı əsnasında yanıb tələf olmuşdur. Yalnız “Türkcə əruz” adlı bir əsəri əllərdə qala bilmişdir. Bu gün həvəslilərimiz mərhumun əsərlərini cəm etmək fikrinə düşərlərsə yəqin ki, mükəmməl bir məcmuə əmələ gələr.

Şamaxı şəhəri talan olunduğu əsnada biçarə Mirzə Abbas da ailəsi ilə bərabər Gəncəyə fərar edərək, bu da ailəsi ilə bərabər yatalaqdan tələf olmuşdur.

Bu iki mürəbbinin vəfatı tamam müəllim və müdərrislərimizi mükəddər [kədərləndirmiş] və məyus qılmışdır. Səd [yüz] heyif ki, bu gün müəllimlərə əşəddi-ehtiyacımız [şiddətli ehtiyacımız] olduğu halda, böylə dürri-giranbəhalardan [qiymətli incilərdən] əlimiz çıxmışdır.

Heyif olsun!

Fərhad Ağazadə

ƏTRAFDAKI KƏNDLƏRƏ ƏRZAQ PAYLAMAQ BARƏSİNDƏ

8-9 ay fasilədən sonra, bu aydan bəri Bakı ətrafındakı kənd camaatına da hərdənbir ərzaq və ya sair əşya paylamağa başlanıbdır. Bakı Bələdiyyəsi Şurasında Bakı şəhəri əhalisinə qənd, çay paylanmaq məsələsi müzakirə edildikdə, Əsədulla Əhmədov Dumaya dedi ki: “Tutalım ki, bizim kəndçilərimiz avamdırlar və öz dərdlərini deyib-danışmaqda qüdrətləri yoxdur və genə də tutalım ki, ağlamayan uşağa süd verməzlər. Bəs, siz qlasnıların və daha doğrusu ərzaq işlərinə baxan adamların insafı necə rəva görür ki, 9 ay tamam hər ay şəhər əhlinə qənd, çayını və hərdən bir də manufaktura və sair ehtiyacatını paylayıb biçarə kənd əhalisini yaddan çıxarmışsınız?”

Qlasnılar bir daha başqa bir Əsədulla kiminin “nahəmvar” [kobud] sözlərini eşitməmək üçün dərhal əllərini qaldırmaqla razılıq verdilər ki, kənd camaatına da qənd, çay və manufaktur paylansın. Bizim kəndistan camaatı az qalmışdılar ki, qənd, çayın adını da yadlarından çıxartsınlar. Ancaq burada bir məsələ var ki, o məsələ nə Əsədulla Əhmədovun yadına düşür və nə də Ərzaq İdarəsi bu məsələyə lazımınca etina edir. Amma, həqiqətihalda isə o məsələyə gərək çox ciddi surətdə etina edilsin. O məsələ budur: Necə ki məlumdur, qənd, çay, manufaktur və sair bunlar kimi monopolnı şeylər adam başına müəyyən miqdarda verilmək münasibətilə şəhər camaatının statistikasını, hər külfətin adamlarının hesabını bilmək üçün şəhərdə 100 minlərcə xərclər qoyulub gah kartoçkalar, gah qraj-danski komitələr və bu axırda ev komitə-ləri idarələri təşkil edirlər və bu idarələrin əli ilə də əhaliyə ərzaq paylayırlar. Bu idarələr yaxşımı işləyirlər, ya yox? Və yainki bu idarələrin vücuduyla

xəyanətlərin qabağı alınırmı, ya yox? Hələ bu məsələ ilə işim yoxdur, lakin bunu demək istəyirəm ki, genə də hər necə olsa şəhər camaatının statistikini bilmək üçün bir neçə vasitə var ki, ərzaq idarəsi o vasitələrlə istifadə edir.

O ki qaldı kəndistana, oralarda böylə şeylər yoxdur və ona görə də kəndistanın statistikasını bilmək də mümkün deyildir. Bəlkə deyən oldu ki, kənd mollalarının nüfus [əhali] dəftərləri vardır və ya ki, kameralnı siyahıları vardır, statistikini də oralardan almaq olar. Amma, xeyr. Nə nüfuslardan və nə də kameralnılardan heç vaxt həqiqətə müvafiq məlumat yığmaq olmayır. Bu səbəbdən də Ərzaq idarəsi həmişə kənd camaatı adına qənd, çay və ya ki, qeyri bir şey buraxdıqda, həmişə təyin edir ki, əvvəla skladdan buraxılan ərzağın hamısı gedib kənd camaatına çatmayır və saniyən [ikincisi], kənd camaatının tamamı öz paylarını alammayırlar. O zamandan ki, Bakı şəhərində ərzaq idarələri təşkil edilmişdir və kəndlərə də ərzaq və ya ki qeyrə əşya paylamağa başlayırlar, yüzlərlə ittifaq [hadisə] olub ki, ərzaq idarələri kənd camaatı tərəfindən vəkil olub gələn adamların oğurluqlarını və xəyanətlərini bilib və görüblər və çox vaxt da olub ki, bu xəyanətçilərin əlindən protokollar bağlanıb, hökumətə təqdim ediliblər. Amma əfsus ki, nəticədə yenə də heç bir məram hasil olmamışdır. Kənd camaatının ixtiyaratı genə də həman xəyanətçi vəkillərin əllərində qalıbdır. Əlbət ki, bu da bizim camaatımızın avamlığından, sadəliyindən nəşət edən [irəli gələn] bir halətdir.

Bu axır günlərdə kəndlərə qənd, çay, bez və düyü paylanmaqdadır. Ərzaq Nəzarəti bu vaxta kimi bir neçə kəndin vəkillərinin xəyanətini tutubdur. İş böylə olan surətdə, kənd camaatına ərzaq paylayan adamlara lazımdır ki, ərzaq paylama qaydasını dəyişdirsin, kəndçilərə veriləcək əşyanı vəkillərə, upolnomoçennilərə verməyib, bəlkə öz əliylə aparıb hər kəsin öz payını öz əlinə versin. Doğrudur, bu iş bir qədər zəhmətli işdir. Kəndlərlə şəhərin arası çoxdur. Yol xərci bahadır. Kəndlərdə qalıb əşya paylamaq çətindir. Amma bu artıq məsarifin və artıq zəhmətlərin maddi və mənəvi cəhətcə nəticələrinə də fikir verəndə aşkara görülür ki, insaf, vicdan, insaniyyət və bəlkə ticarət nöqteyi-nəzərləri bunu tələb edir.

İndi bu saat ərzaq şöbəsinin statistik şöbəsində dörd cürə məlumat var ki, hamısı bir-birlərinə müğayir [zidd] olduqları halda, hamısı da həman kənd vəkillərinin pişnihad [təqdim] etdikləri sənədlərdən cəm edilmişdir. 1917 və 1918-ci illərdə iki dəfə kənd camaatının statistiki tutulmuşdur. Burada da həmçinin camaatın hesabı barəsində doğru məlumat alınmamışdır. Bəs, böylə olan surətdə həm kənd camaatına kömək edib onları cürbəcür xəyanətkar vəkillərin əlindən qurtarmaq və həm də ərzağın hədər yerə, əmdən [bilə-bilə] bir neçə nəfər oğruların əlinə verib ciblərini doldurmamaq qəsdi ilə mən ərzaq işlərinə mübaşir [məşğul] olan idarələrə bu təklifi edirəm:

1) Kənd camaatına paylanması lazım gələn ərzaq, həmişə Nəzarət [Nazirlik] və ya ki şöbənin öz adamları tərəfindən paylanılsın. Belə ki, vəkil və ya upolnomoçenni göndərmək üsulu gərək fəsx [ləğv] edilsin.

2) Ərzağı kəndlərdə paylamaq işi kənd

camaatının və baxüsus [xüsusilə] müsəlman camaatının əhvali-ruhiyyəsinə bələd olan adamlara tapşırılsın.

3) Kəndlərdə ərzaq paylanması üçün uyezddə xüsusi skladlar açılsın. Belə ki, kəndlərə veriləcək ərzaq şəhər skladlarına yığılmayıb, məxsusi kənd skladlarına yığılsın. Burası aşkardır ki, kəndlərin arasında böylə skladlar açıldıqda, kənd camaatı da ərzaq idarələrinə kömək edib özlərinə ehtiyat hazırlamaq istənildiyi zaman qabaqca lazımi qədər də sərmayə də verərlər.

4) Kəndlərə ərzaq paylamaq politikası, ümumi ərzaq politikasından ayrılsın. Çox vaxt olur ki, kənd camaatının tələbləri, ehtiyacları şəhər camaatı ilə bir olmayır. Ona görə də kəndistan işlərinə baxmaq üçün gərək xüsusi şöbə açılsın.

Ümid edirəm ki, bizim təzə intixab edilmiş [seçilmiş] Ərzaq nazirimiz mətləblərə bir qədər etina edib, kənd camaatımızın da əhvalını yaxşılaşdırmağa hümmət edəcəkdir.

Məhəmməd Sadiq

BAKI XƏBƏRLƏRİ

Sənaye kursları

Bakı Politexnik məktəbində oxuyan Türk Texnikləri Cəmiyyətinin təşəbbüsü ilə açılmış sənaye kursları bazar, seşənbə [çərşənbə axşamı] və pəncşənbə [cümə axşamı] günləri axşam saat 4-7 kimi Üçüncü Ali-ibtidai məktəbində davam edir. Həndəsədən Nəsrulla Novruzzadə, əlcəbrdən Əjdər Əlizadə, fizika və kimyadan Məhəmmədzadə Mirzəbala dərs verir. Türkcə ədəbiyyat və tarix kursları da orada olub, başqa günlərdə oxunacaqdır.

Ədəbi mühakimə

Bu günlərdə həmin cəmiyyət tərəfindən Əbdürrəhim bəy Haqverdiyev tərəfindən yazılmış məşhur tarixi pyesa “Ağaməhəmməd şah Qacar”ın qəhrəmanı Ağaməhəmməd şah, ədəbi mühakiməyə qoyulacaqdır. Başqa məktəblərdə oxuyan yoldaşlarımızdan da rica olunur ki, iştirak etmək üçün adlarını qabaqca yazdırsınlar.

* Şənbə günü kanuni-saninin [yanvarın] 4-də, saat 4-də, Bakı Realnı məktəbində, Bakı şəhəri və ətrafı mütəəllimlərinin [tələbələrinin] ümumi iclası vaqe olacaqdır. Müəyyən vaxtda lazımınca üzvlər gəlməzsə, iclas bir saatdan sonra qanuni hesab ediləcəkdir.

AZƏRBAYCANDA

Müsəlmanların qətl-qarətə məruz qalması

Kanuni-əvvəlin [dekabrın] 28-də Daxiliyyə Nəzarəti Cəbrayıldan işbu məzmunda bir teleqraf almışdır:

“25 minlik erməni qüvvəsi İrəvandan çıxıb, Sadar kəndindən keçərək 8 müsəlman kəndini əhatə etmişdir. Bunları tərki-silah etdikdən sonra özlərinə tabe et-mişlər. Şəril [Şərur] və Naxçıvan əhalisi İrana fərar etməyə hazırlaşmışlar. Aras nəhrini keçdikdə 200-dən ziyadə insan ölmüşdür. Zəngəzur ermənileri üzərimizə təərrüz [hücum] yapmışlar. Hal-hazırda atışma davam edir. Heç yerdən kömək gəlməmişdir. İrəvan quberniyasına kö-

mək göndərməzsəniz ermənilər oranı xaraba qoyacaqlar."

TEATRO VƏ MUSİQİ

Bu gün yanvarın 3-də, bu mövsümdə birinci dəfə olaraq Hacıbəyov Qardaşları müdiriyyəti tərəfindən Hökumət Teatrosunda (sabiq Mailov) "Aşıq Qərib" operası təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır. Aşıq Qəribin rolunu Sarablı və Şahsənəmin rolunu Ağdamlı ifa edəcəkdir. Paşa məclisində 6 nəfərdən ibarət qız və oğlanlar tərəfindən böyük rəqs (balet) icra ediləcəkdir. Biletlər teatrın kassasında satılmaqdadır.

Mehmanxaneyi-"Məhəmmədiyyə"

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan ötrü təmiz otaqlar hazırdır.

Kamali-ehtiramla İbrahimov

Mama M. K. Şerman

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

Telefon 24-62

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209

Qabil diş qayıran
Mirzə Xəlil Canıbəyzadə

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

295

Doktor Rza bəy Sultanov
Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

2603

Doktor
Doktor Samuil İzrailoviç
Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi
Axşam saat 5-7-yə kimi.
Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-1

Təqvimi-islam [müsəlman təqvimi]
Türkcə-rusca divar təqvimi

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur.

Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında “Novruz” mətbəəsi.

2625 3-1

Elan

Gəncə Bələdiyyə İdarəsi aşağıda isimləri dərc olunan və şəhər xəstəxanalarında vəfat edən nəfərlərin [əsgərlərin] şər’i [şəriətə uyğun] və qanuni vərəsələrini dəvət edir ki, həmin nəfərlərin vəfatından sonra qalan paraları gəlib Bələdiyyə İdarəsindən alsınlar. Vərəsələrin əllərində polis dairəsindən vəsiqələri olmalıdır. Vəfat edənlərin əsamisi [adları]:

1) Gəncə vilayəti, Ağdaş qəzası, Qarağan qəryəsi [kəndi] - Zülfüqar oğlu Baxşəli;

2) Ləzgi Süvari Alayından Zaqatal nahiyəsi Şibil ovası- Molla Məhəmməd oğlu İsmayıl;

3) Bakı vilayəti, Mərdəkan qəryəsi - Qurban oğlu Əsəd;

4) Gəncə vilayəti, Şirvan qəryəsi - Bəyəli oğlu İsgəndər;

5) Gəncə vilayəti, Xınalı qəryəsi- Məhəmməd oğlu Qurban;

6) Kürdəmir qəryəsindən - Səfər oğlu İsmayıl;

7) Bakıya tabe Nərəgən qəryəsindən Xınalı qəryəsi- Əkbər oğlu Yəhya;

8) Ləzgi Süvari Alayının 3-cü taboru 2-ci bölüyü, Zaqatal nahiyəsi, Muxax qəryəsi - Əhməd oğlu İsa;

9) Ə-38, T-2 Bakı vilayətinin Kərədən qəryəsi- Cavad oğlu İbrahim;

10) Cavad qəzası, Qaralar qəryəsi - Nurməhəmməd oğlu Rəhim;

11) Gəncənin Rəhimli Rza oğlanlarından- Əsgər oğlu Mustafa;

12) Ağdaş qəzası, Cardam qəryəsi- Rəşid oğlu Məhəmməd;

13) Gəncə qəzası, Dəllər qəryəsi, nümunə taboru nəfəri [əsgəri]- Aslan oğlu Abbas;

14) Qarabağın Ankavir qəryəsindən- Vəli oğlu Əli;

15) Gədəbəy mədən nahiyəsi, Miskinli qəryəsi- Cəfər oğlu Abbas;

16) Gəncə qəzası, Dəllər qəryəsi- Mirsəid oğlu Seyidhəsən;

17) Gəncə qəzası, Zəyəm nahiyəsi, Yuxarı Ayıblı qəryəsi- Vəli oğlu Nağı;

18) Gəncə qəzası, Qaramurad qəryəsindən- Həsən oğlu Abbas.

Bələdiyyə rəisi
Ələsgər bəy Xasməmmədov

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Əsgərlik haqqında

səh. 42. "...Maarif naziri həzrətlərinin kəlamlarını mütaliə etdikcə...": söhbət "Azərbaycan" qəzetinin 75-ci nömrəsində Nəsib bəy Yusifbəylinin "Müsəlman tələbələrinə" adlı müraciətindən gedir. Bu müraciətin transliterasiyası üçün "Azərbaycan" qəzeti külliyyatının III cildinin 469-470-ci səhifələrinə baxın.

"fəzzələllahul-mücahidinə ələl-qaidinə dərəcətən": "Quran"ın Nisa surəsinin 95-ci ayəsindən bir parça. Mənası: "Allah cihad edənləri (mücahidləri) oturanlardan dərəcə etibarilə üstün tutdu. 95-ci ayə bütöv olaraq belədir: "Lə yəstəvil-qaidunə minəl-möminin qeyru ulizzərəri vəl-mücahidunə fi-səbilallahi biəmvalihim və ənfüsihim fəzzələllahul-mücahidinə biəmvalihim və ənfüsihim ələl-qaidinə dərəcətən və küllən vəədəllahul-hüsna və fəzzələllahul-mücahidinə ələl-qaidinə əcrən əzimən." Mənası: "Zərər çəkmədən oturan möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən kimsələr bir olmazlar. Allah malları və canları ilə cihad edənləri oturanlardan dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına vəd etmişdir. Allah mücahdilərə oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir."

səh. 43. "Və lə təhsəbənnəlləzinə qutilu fi-səbilillahi əmvatən bəl əhyaun ində rəbbihim yurzəqun.": "Quran"ın Ali-İmran surəsinin 169-cu ayəsi. Mənası: "Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi verilir."

Teleqraf xəbərləri

səh. 46. "Qroznıya 8 000 (?) ölü və yaralı gətirilmişdir.": sual işarəsi qəzetdə getmişdir.

"Məbuslardan müştərək ittihadçılar 334, müştərək liberallar 133, müştərək zəhmətkəşlər firqəsi 10 olmaq üzrə koalisiya tərəfdarları 477 yer qazanmışlardır.": Buradakı "müştərək" sözü, hansı partiyaya mənsub olmasından asılı olmayaraq koalisiya iqtidarını dəstəkləyən Parlament üzvlərini ifadə edir. Bunlar müvafiq olaraq: Mühafizəkarlar və Birlikçilər Partiyası (ittihadçılar), Milliyyətçi-Liberal Partiya (liberallar), Leyboristlər Partiyası (zəhmətkeşlər) üzvləridir.

"Bundan əlavə, ittihadçılar 50, liberallar 28, zəhmətkeşlər 62, müstəqillər 9, millətçilər 7, sinfeynerlər 73 yer qazanmışlardır.": Burada, koalisiya iqtidarını dəstəkləməyən Parlament üzvlərindən söhbət gedir. "Müstəqillər" bitərəfləri, "millətçilər" Millətçi Partiya üzvlərini, "sinfeynerlər" İrlandiyanın müstəqilliyi uğrunda mübarizə aparan Sinn Feyn Partiyası üzvlərini ifadə edir.

səh. 47. "Parizer platz": Berlin şəhərinin mərkəzində yerləşən Paris meydanı [Pariser Platz] nəzərdə tutulur.

səh. 48. "...federalnı şura...": burada söhbət İsveçrə Konfederasiyasının milli hökuməti – İsveçrə Federal Şurasından [Schweizerischer Bundesrat] gedir.

Dağıstanlılar Cümhuriyyətində

səh. 50. "Şimali Qafqaziyalılar İttifaqı Parlamanının sədri": söhbət Çermoyevdən gedir.

İki zıya

səh. 52. "Asudə olum dersən əgər...": "Asudə olum deyirsənsə, dünyaya gəlmə, / Meydana düşən, qəza daşından qurtula bilməz. / Bu aləmdə hər aqilə bir dərd hazırdır, / Aqillər güruhundan rahat yaşamış olan varmı?"

Ətrafdakı kəndlərə ərzaq paylamaq barəsində

səh. 56. "...təzə intixab edilmiş Ərzaq nazirimiz...": söhbət Konstantin Lizqardan gedir.

Elan

səh. 58. “Qarağan”: Ağdaş rayonunun kəndidir; qəzetdə “Qaraxan” kimi getmişdir.

“Ə-38, T-2”: sıravi əsgər, 38-ci alay, 2-ci tabor.

Təqvimi-islam

səh. 58. “Böyük Rus kəlisası”: Aleksandro-Nevski kilsəsi nəzərdə tutulur.

Bazar, 5 yanvar 1919-cu il, nömrə 79

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 2 rəbiülaxir sənə 1337. 5 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

Daxiliyyə Naziri

Müstədini [ərizəçini] qəbul edir, düşənbə [bazar ertəsi], caharşənbə [çərçənbə] və yekşənbə [bazar] günləri səhər saat 11-dən.

T-1 3-1

BAKI, 5 KANUNİ-SANİ [YANVAR]

Müstəqil mətbuat lüzumiyyəti

Azərbaycanın paytaxtı olan Bakı şəhərində bu axır vaxtlarda dürlü-dürlü qəzetələr intişara [nəşrə] başlamışlardır. Halhazırda şəhərimizdə türk və rus "Azərbaycan" qəzetələrindən başqa mövcud qəzetələr bunlardır: "Yedinaya Rossiya"- Bakı Rus Milli Komitəsinin naşiri-əfkarı [orqanı]; "Znamya truda"- Rus İctimaiyyuni-İnqilabiyyun [Sosialist İnqilabçılar] firqəsinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı]; "İskra"- İctimaiyyuni-Amiyyun [Sosial-Demokrat] firqəsinin qəzetəsi; "Naşe vremya"- erməni "mötədil" məhafilinin [dairələrinin] orqanı; "Vperyod" – "Daşnaksutyun" firqəsinin naşiri-əfkarı. Dün [dünən] "Mer orer" namında erməni dilində dəxi bir qəzetə çıxmağa başladı.

Şəhərimizdə çıxan məzkur [adı çəkilən] qəzetələr, ümumən Azərbaycan Cümhuriyyərinə zidd olub, hər gün öz səhifələrini istiqlal və istiqbalımıza [gələcəyimizə] müxalif olan məqalat [məqalələr] və əxbarat [xəbərlər] ilə doldururlar. Bu müxasim [düşmən] qəzetələr müqabilində Azərbaycan türk və islamlarının əlində yalnız üç qəzetə var idi ki, türkcə "Azərbaycan"dan masiva [başqa], rusca "Azərbaycan" və "Kaspi"dən ibarət idi. Lakin Azərbaycan türk və islamları mənafeyini pək qızğın və ciddi surətdə müdafiəyə çalışan "Kaspi" qəzetəsi rusların və ruspərəstlərin xoşuna gəlmədiyindən dolayı, naşirləri tərəfindən yenə də əcnəbilər əlinə verilmişdir. Bu isə həmin qəzetənin məslək və vəziyyətini zahirən bir qədər "qeyri-müəyyən" buraxmışsa da, lakin dürüst fikir etdikdə qəzetədən, yenə də həman "Vahid Rusiya" qoxusu gəlməsi aşkardır.

Deməli, türki və rusi [türk dilində və rus dilində] "Azərbaycan" qəzetələri indilikdə yeddi müxasim qəzetələr müqabilində [qarşısında] durub, onların yazdıqları böhtanlara cavab verib, yürütdükləri batil və naqis fikirləri faş və rədd etməlidirlər. Lakin burasında da dəxi bir qədər müşkülata uğraşırız.

Əvvəla, türkcə “Azərbaycan” Bakıda istemal olunan [işlənən] ümumi və hətta bir paralarınca “rəsmi” ədd [hesab] edilən bir dildə yazılmadığına binaən [görə], düşmənlərin təərrüzləri [hücumları] müqabilində etdiyi əks-təərrüz nə düşmənlərin və nə də əcnəbi məhafilinin [dairələrin] qulaqlarına yetişməyir.

Saniyən [ikincisi], hər iki qəzetələr rəsmi olduqlarına görə, həm nəzakət, həm də siyasət nöqteyi-nəzərincə bir qədər ehtiyatla dolanmağa məcburdurlar. Buna görə də hər bir məsələdən burada bəhs etmək bəzən namünasib görünür, böylə olduğu surətdə bizim düşmənlərimizin səslərinə müqabilən zəif çıxır. Mətbuatın əfkar və arayi-ümuma [ictimai fikrə və ictimai rəyə] nə dərəcə təsir və nüfuzu olduğu da hər kəsin məlumudur. Bu halət isə, əfkari-amməni [ictimai fikri] birtərəfli təşviqat nəticəsində əleyhimizə qaldıracağı bədihidir [açıq-aydındır]. Böylə olduqda, Azərbaycan türk və islamları mənafeyi nöqteyi-nəzərindən lazım gəlir ki, bizim səsimiz düşmənlərimizə müqabil zəif çıxmasın. Bu isə mətbuatımızın çoxalması ilə ola bilər.

Hal-hazırda rus dilində olmaq üzrə milli mənafeyimizi müdafiə edəcək bir neçə qeyri-rəsmi qəzetəyə əşəddi-ehtiyacımız [şiddətli ehtiyacımız] vardır. Heç olmasa, bir dənə olsa da, yenə də bunun böyük əhəmiyyəti vardır.

Şəhərimizdə, Allaha şükür, zəngin adamlar az deyildir. Bunların öz istiqbalları yolunda bir qədər paradan keçə biləcəkləri dəxi mümkündür. İştə ziyalılarımızın nəzərlərini bu mühüm nöqtəyə cəlb edib də, ümidvar oluruz ki, onlar məmləkətimizin rifah və səadəti üçün bu fikri qövldən feilə [sözdən işə] gətirməklə və düşmənlərimizin ağızlarını yummaqla ümumu minnətdar edərlər. Bu iş bir azacıq hümmət və fəaliyyətə bağlıdır.

TELEQRAF XƏBƏRLƏRİ

(Royter, 4 kanuni-sani [yanvar])

* Klemanso Məclisi-Məbusanda bəyan etmişdir ki, fransız qoşunları müharibəsiz Odessaya girmişlərdir.

* Anlaşılır ki, lehlər [polyaklar] Poznan vilayətini təzədən Lehistana [Polşaya] bitişdirməyə qərar vermişlərdir. Onlar müvəqqət olaraq Poznanı işğal etmişlərdir. Lakin, Almanlar yenə üstün gələrək idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət rejimi] elan etmişlərdir.

* İngiltərə Hökuməti, Müttəfiqlər qoşununu Almaniyadan geri aparmaq üçün Şelda çayından istifadə etmək istəyirdi. Şimdi Hollandiya Hökuməti İngiltərənin bu arzusuna əməl edərək Şeldanı güzəşt etməyə razı olmuşdur.

Bolşeviklərlə müharibə

(İngiltərə rəsmi xəbəri)

Dekabrın 29-unda dörd dənə müsəlləh [silahlı] [gəmi] İngiltərə komandası altında şimal-şərqi Qafqaziyada əməliyyatda bulunan bolşevik qüvvələrinin ümdə ərzaq üssülhərəkəsi [bazası] olan Staro Tereçniyə yaxınlaşıb, orada olan bolşevik qoşunlarının təslimini tələb etmişlərdir. Bolşeviklər təslim olmaqdan imtina etdiklərinə görə gəmilər atəş açıb qışlaları [kazarmaları], anbarları dağıtmaqla bərabər bir neçə barj dəxi qərq etmişlərdir. Gəmilər bir dənə bolşevik gəmisini də tu-

tub özləri ilə aparmışlardır.

Amerikanın rəyi

Amerika Hökumətinin Bəhriyyə naziri [Donanma naziri] Daniels, Bəhriyyə Komitəsinə üç illik məramnamə qəbulunu təklif etmişdir. Bu şərtlə ki, hərgah, təslihatın [silahlanmanın] ixtisar edilməsi haqqında beynəlmiləl saziş hüsula gəldikdə, Vilson başlanmış işləri dayandırma ixtiyarına malik olacaqdır. Bu münasibətlə aşkar olmuşdur ki, Vilsonla İngiltərə nümayəndələri arasında davam edən müzakiratda Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsində əsasi saziş vardır. Müttəfiq dövlətlər Cəmiyyəti-Əqvam məsələsini[n] sülh müqavilənaməsinin ümdə nəticəsi kimi vücuda gətiriləcəyinə ümidvardır.

GÜRCÜ-ERMƏNİ MÜHARİBƏSİ

(*Gürcüstan Ərkani-hərbindən)*

* Dekabrın 28-ində, səhər, bizim əsgərlərimiz Sadaxlını işğal etmişdir. Geri çəkilməkdə olan düşmən təqib edilir. Yekaterinenfeld dəstəmiz hücuma keçib, əməliyyatın genişlənməsinə əlverişli olan bir neçə sövqülceyş [stratejik] məntəqələri zəbt etmişdir. Şüləverdə bizim əsgərlərimiz düşməndən dörd top və on pulemyot almışlardır.

* Dekabrın 31-ində Tiflisdən xəbər verirlər ki, dünən Yekaterinenfeld cənubunda müharibədən sonra iki mühüm hündürlük bizim əlimizə keçmişdir. Bu gün müharibə davam edir. Səhər düşmənin az bir hissəsi Axıska sərhədini keçmək istəmişsə də, tüfəng atışı ilə geri qaytarılmışdır. Cəbhənin qeyri yerlərində təbəddülat [dəyişiklik] yoxdur. Dünən saat 11-də Sadaxlı mövqeyi əsgərlərimiz tərəfindən işğal edilmişdir.

Könüllü müsəlmanlar

Tiflisdə yaşayan müsəlmanlardan təşkil edilmiş könüllü dəstəsi Gürcüstan milli bayrağı ilə Baryatinski küçədə Hərbiyyə Nəzarəti binası qarşısında səf bağlayıb dayanmışlardır. Yaxşı geyinmiş cavan könüllülər, gözəl təsir bağışlayırdılar. Ərkani-hərb [Baş qərargah] zabitləri ilə bərabər Hərbiyyə naziri Giorqadze könüllü dəstəsi nəzdinə gəlmişdir. Könüllü dəstəsinin komandanı Hərbiyyə nazirinə xitabən söylədiyi nitqində Gürcüstanda yaşayan müsəlmanlarla gürcülər arasında olan məhəbbət və mehribançılığı qeydlə demişdir ki, doğma məmləkətin mühafizəsi üçün başlarından keçməyə hazır olan könüllü dəstəsinin təşkil edilməsi həman mehribançılığı isbat etməkdədir. Giorqadze öz cavab nitqində könüllülərin gözəl təşəbbüsatını təbrik edib, müsəlmanların məmləkət mənafeyi üçün özlərini qurban vermələrini qeyd etmişdir. Axırda könüllü dəstəsi, musiqi marşı altında rəsmi-keçid mərasimini icra etmişdir. Hərbiyyə Nəzarəti qarşısına cəm olan əhali şadlığından milli nəğmə ilə könüllü dəstəsini müşayiət etmişdir.

Gürcü mətbuatı və ingilislər

Gürcü sosial-demokrat qəzetəsi "Saxalxo sakme", "Gürcüstan və İngiltərə" ünvanlı məqaləsində deyir ki, biz sabah nə olacağını və gələcəyi bilmirik. Lakin biz bir bunu demək istəyirik ki, biz qalib də olsaq, məğlub da olsaq hər halda insandan bir gözəl xatirə qalacaqdır ki, o da

millətin şan-şərəfi, sədaqəti və alicənablığıdır. Hal-hazırda biz İngiltərə əsgərlərinin Gürcüstana daxil olmaları haqqında müəyyən bir şey söyləyə bilmirik; biz ancaq bunu deyə bilirik: burada olmaq istəyən hər bir qüvvə gürcü millətinin mədəniyyətinə, hissiyyatına və təşkilatına hörmət göstərib öz işlərini bizim xüsusi işlərimizə müvafiq görməlidir.

Ermənilərin xidmətdən kənar edilmələri

Ermənistan ilə Gürcüstan arasında müharibə hərəkatı başlandığından, bir para müəssisə müdirləri məsuliyyətli erməni xidmətçilərini kənar etdiklərinə görə erməni fəhlələri ilə də bu tövr müamilədə [rəftarda] bulunacağı nəzərə alınıb, Məsai [Əmək] naziri müavini Eradze dövləti müəssisə müdirlərinə göndərdiyi təmimnaməsində [sərəncamında] deyir ki, Ermənistan[la] müharibə başlanmasına görə ermənilər xidmətdən kənar etməməlidir. Çünki erməni fəhlələri gürcü fəhlələri ilə bərabərcə mübarizədə bulunmuşlardır. Bundan əlavə, erməni fəhlələri Ermənistan Hökumətinin bu tövr siyasət aparması əleyhindədirlər. Erməni fəhlələrini ancaq Məsai Nəzarətinin xəbərdarlığı ilə kənar etmək olar. Bu təmimnamə Hökumət Rəisi tərəfindən də təsdiq edilmişdir.

SÜLH ƏTRAFINDA

Sülh Konfransında Rusiya nümayəndəsi

Yassıdan xəbər verirlər ki, Rusiyanın Sülh Konfransında nümayəndəliyi məsələsi uzun-uzadı mübahisəyə bais olmuşdur. Axırda hamı Sazonov ilə Neratovun namizədliyinə razı olmuşlardır. Milyukov, general Denikin ordusunda məşhur olmadığına görə, onun namizdəliyi rədd edilmişdir. Nekrasov ilə Tereşenkonun da namizədliyi rədd edilmişdir. Çünkü, onlar da Kerenski ilə bərabər Kornilov üsyanının yatırılmasında iştirak etmişlərdir. Yassı Konfransı Könüllü ordunun top gülləsi və qeyri [ləvazimati-]hərbiyyə [hərbi sursat] ilə təhciz edilməsi üçün təcili tədbirlər ittixazını [tədbir görülməsini] lazım görmüşdür.

Yəhudilər Sülh Konfransında

Yekaterinoslavda çıxan “S.” qəzetəsi mövsuq [etibarlı] mənbələrdən xəbər verir ki, Vilson Müttəfiq dövlət nümayəndələri namindən Könüllü ordu Baş komandanına müraciət edib yəhudi millətindən Sülh Konfransına xüsusi nümayəndələr dəvət edilməsi əleyhinə Rusiyanın etiraz edib-etməməsini xəbər almışdır. Vilson bunu ondan ötrü xəbər almışdır ki, Müttəfiq dövlətlər İngiltərənin təşəbbüsatı ilə müəzzəm [böyük] dövlətlərin təhtihimayəsində [himayəsi altında] olmaq üzrə Fələstində Yəhudi Hökuməti təşkil edilməsini qərara almışlardır. Sazonov cavab vermişdir ki, Rusiya yəhudilərin Sülh Konfransında nümayəndələri olmasına etiraz edə bilməz. Zira, hələ Rusiya vahid olarkən, Yəhudi Hökuməti məsələsi müsbət bir surətdə həll edilmişdir. Hal-hazırda da bu məsələyə etiraz ola bilməz.

TÜRKİYƏDƏ

Kabinə böhranı

İstanbuldan xəbər verirlər ki, şəhərdə dəvəran edən [gəzən] şayiata [şayiələrə]

görə [əhməd] Tofiq paşa kabinəsi istefa verəcəkdir. Onun yerinə Əhməd Rza bəyi namizəd adlandırırlar. Hər halda Tofiq paşa kabinəsi təzələnəcəkdir. İndiki kabinə heyətindən dörd vəzir [nazir] istefa verəcəkdir. Əfv edilmiş olan Prins Səbahaddinin təzə kabinəyə daxil olub, Xariciyyə vəzir[i] mənsəbini tutacağı şübhəsizdir.

İstanbulun türklərdə qalması

İstanbulda çıxan "Tərcüman" qəzetəsi xəbər verir ki, nüfuzlu adamların Parisdən və Londandan aldıqları məlumata görə, İstanbulun müqəddəratı Sülh Konfransında müzakirə edilməyəcəkdir. Türkiyə vəzirlərindən bir neçəsi Müttəfiq dövlətlər kontrolu altındadırlar. İstanbul Türkiyə üçün qalacaqdır. Millətlərin hüququ müdafiə və mühafizə ediləcəkdir. İstanbulun beynəlmiləlləşdirilməsi gələcəkdə ixtilafa bais ola biləcəyinə görə, İstanbulun Türkiyə üçün qalması qərara alınmışdır.

Müttəfiq qoşunları komandanı

Məlum olmuşdur ki, Cənubi Rusiyada olan Müttəfiq qoşunları komandanı general D'Esperi öhdəsinə verilmişdir. Generalın Baş ərkani-hərbi [Baş hərbi qərargahı] İstanbulda olacaqdır.

Müttəfiqlərin təzə heyəti

12 nəfər zabitdən ibarət Müttəfiqlərin təzə bir heyəti İstanbula varid olmuşdur [gəlmişdir].

İstanbulda Fransa nümayəndəsi

Bosforda olan Fransa nümayəndəsi komandanı Amet, İstanbula daimi bir səfir təyin edilənə qədər Fransa Hökumətinin nümayəndəsi təyin edilmişdir.

İngiltərə səfirinin vürudu [gəlişi]

İngiltərə təzə səfiri Adam Blok İstanbula varid olmuşdur. İki gün əvvəl Türkiyədə olan İngiltərə müvəqqət nümayəndəsi amiral Giltori, "Tunerb" drednotunda Sevastopola əzimət etmişdir [getmişdir].

Müttəfiq amiralları Baş vəzir hüzurunda

İngiltərə amiralı Semmerst, Fransa amiralı Amet və İtaliya amiralı Mortola Baş vəzir [əhməd] Tofiq paşanı ziyarət etmişlərdir. Bu yaxın günlərdə İstanbul ilə İngiltərə arasında teleqraf münasibatı başlanacaqdır. Xüsusi Fransa minonosu [torpedo gəmisi] İstanbul poçtasını Parisə aparıb Parisdən də İstanbula qayıdacaqdır. İstanbulda olan İngiltərə teleqraf acentəliyi işə başlamışdır. "Havas" acentəliyi də bu günlərdə işə başlayacaqdır.

Ermənilərin və yunanlıların İstanbula övdəti [qayıtması]

Türkiyə Hökuməti, Ənvər paşa hökuməti tərəfindən İstanbuldan nəfy [sürgün] edilmiş ermənilərin və yunanlıların övdətinə icazə vermişdir.

Türkiyə heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] övdəti

İndiyə qədər Odessada, Sevastopolda və Köstəncədə olan Türkiyə heyəti-mürəxxəsələri İstanbula varid olmuşlardır.

Müttəfiqlər və Romaniya

"Loms" qəzetəsinin verdiyi xəbərə görə, Yassıda olan Müttəfiq dövlət nüma-

yəndələri izhar [bəyan] etmişlər ki, onların hökumətləri Transilvaniya və Bukovinada olan Romaniya milli şuralarının Romaniyaya mülhəq edilmələri [birləşdirilmələri] arzularını rəsmi surətdə etiraf etmişlərdir.

Krım səfiri

İstanbulda olan Krım səfiri Həsən Səbri Ayvazov İstanbulu tərk etmişdir. Krım mənafeyinin mühafizəsi İstanbulda olan Krım Həmtorpaqlıları sədri Məhəmməd Əkrəm bəyə həvalə edilmişdir.

QƏZETƏLƏRDƏN

Moskvada hərc-mərclik

Moskvada anarşi çıxışları davam etməkdədir. Anarxistlər bir neçə evdə olan Bolşevik Hökuməti müəssisələrini qovub, evləri yandırmışlardır.

Finlandiya ilə müharibə

İngiltərə simsiz teleqrafı xəbər verir ki, axırıncı alınan xəbərlərə görə, bolşeviklər qurudan və sudan Finlandiyaya hücum etmişlərsə də, Finlandiya əsgərlərinin top atışı ilə dəf edilib böyük tələfatla geri çəkilmişlərdir. Bu qərar üzrə Finlandiya Hökuməti Şura Hökuməti ilə müharibə halındadır.

Bolşevik aeroplanları Vıborq şəhərinə yandırıcı bombalar saldıqlarına görə, yanğınlar başlamışdır. Finlandiya üzərinə ümumi hücum başlamaqdan ötrü külli miqdarda bolşevik qüvvəsi Fildandiya sərhədinə cəm edilməkdədir. Əhval artıq dərəcədə ciddidir.

İsveç ilə müharibə

Yenə İngiltərə simsiz teleqrafı xəbər verir ki, Finlandiya əleyhinə çıxış başladığı zamandan Rusiya hərbi donanması Stokholma hərəkət edib, İsveç Hökuməti əleyhinə də əməliyyata başlamışdır. Stokholm, Revel və Helsinqfors arasında vapor münasibatı qət edilmişdir [gəmi əlaqəsi kəsilmişdir]. Şayiata görə İsveç donanması dənizə çıxıb naməlum bir tərəfə hərəkət etmişdir. Lahey yanında top səsləri eşidilməkdədir.

İngiltərə qatarları

Dekabrın 26-sında Tiflisdən Bakıya gedən İngiltərə heyətinin sürət qatarı dekabrın 30-da, səhər saat 8-də Tiflisə varid olmuşdur [çatmışdır]. Həman gün qatar Batuma yola düşmüşdür. İngiltərə heyətinin qatarı 31 yük vaqonu ilə Batumdan Tiflisə varid olmuşdur.

Könüllü ordunun Kubandan getməsi

Yekaterinodardan xəbər verirlər ki, Könüllü orduya yaxın dairələrdən alınan doğru məlumata görə, Könüllü ordu Kuban əyalətini tərk edəcəkdir. Ordunun mərkəzi idarələri Sevastopola nəql ediləcəkdir. Əsgəri dəstələr isə Stavropol ilə Qara dəniz sahilinə aparılacaqdır. Rusiyanı bərpa edici mərkəz Xarkov olacaqdır. Moskvaya hücum etməkdən ötrü Xarkov şəhəri təchizat üssül-hərəkəsi [bazası] qərar veriləcəkdir.

Ukraynada

Kiyevdən xəbər verirlər ki, Vinniçenko imzası ilə hamı Ukrayna müəssisələrinə əmr göndərilmişdir ki, Ukrayna dairəsində hökumət möhkəmləşib asayiş bərpa

edildiyinə görə, alman əsgərlərinin burada qalmalarına ehtiyac görünməyir. Buna binaən [buna görə], Ukraynada olan alman nümayəndələrinə təklif edilir ki, Ukraynanı alman əsgərlərindən təmizləməkdən ötrü tezliklə tədbirlər ittixazına [tədbirlər görməyə] girişsinlər. Almanların Ukraynadan getmələri üçün tədbirlər görülməkdədir.

Gürcüstan haqqında general Draqomirov

Krım Hökuməti Yekaterinodardan general Draqomirovdan bir teleqram almışdır. Teleqramda Kiyevdən Xariciyyə Nəzarəti tərəfindən "Vahid Rusiya" düzəltmək barəsində məlumat verilmişdir və həman məsələ barəsində olacaq müşavirədə iştirak üçün Draqomirov da dəvət edilir. General Draqomirov cavab vermişdir ki, Baş komandan general Denikin müşavirənin lüzumunu bilir, fəqət Kiyev deyil, Yekaterinodar və yaxud Ağməsciddə (Simferopolda) iniqad etməsi [təşkil edilməsi] tərəfdarıdır. Əlavə, Könüllü ordu Gürcüstanın müşavirədə iştirakına etiraz edir. Zira Gürcüstan Hökuməti istiqlaliyyət tərəfdarı olduğu üçün "Vahid Rusiya" əleyhinə siyasət yürütməkdədir. Krım Hökuməti general Draqomirova cavab vermişdir ki, onun nəzəriyyatı ilə şərik olaraq Ağməsciddə müşavirə olmasını təbrik edir.

Müttəfiqlərin müavinəti [köməyi]

Yassıda olan siyasi korpus rəisi Sent-Oler hamı Müttəfiq dövlət nümayəndələri namından [adından] Müttəfiq dövlətlərə böylə bir teleqraf göndərmişdir ki: Lazım bilirik xəbər verək ki, baş qaldırmış olan Ukrayna şovinistlərinə ədədcə az olan millət ünsürlərindən başqa anarxist və bolşevik dəstələri də yapışmışlardır. Biz lazım bilirik ki, tezliklə Müttəfiq dövlət əsgərləri Odessaya gətirilsin və Kiyev ilə Xarkovun zəbt edilməsinə başlansın. Bir məruzə nəşr edilsin və bu məruzədə Müttəfiqlərin Rusiyada asayiş tərəfdarı olan siniflərə müavinət göstərəcəkləri qeyd olunsun.

Admiral Neklyudovun bəyanatı

"P. N." qəzetəsinin verdiyi xəbərə görə, Könüllü ordunun Odessa nümayəndəsi admiral Neklyudov izhar etmişdir ki, Könüllü ordunun birinci qəsdi bolşevikləri Rusiyadan qovub asayiş bərpa etməkdən ibarət olacaqdır, tainki Rusiya nümayəndələri gələcək üsuli-idarəni bərpa etməkdən ötrü bir yerə cəm ola bilsinlər.

Fransız-yunan müahidənaməsi [sazişi]

Əqd edilən müahidə mövcibincə [imzalanan sazişə əsasən] Yunanıstan Hökuməti 25 il müddətində Fransanın şərqdəki mənafeyini gözləməyi öhdəsinə almışdır. Fransa Hökuməti də bu işdən ötrü Yunanıstana maliyyə və texnika cəhətdən müavinət [kömək] edib, Yunanıstan donanmasını qaydaya salacaqdır.

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Vükəla Şurasında [Nazirlər Kabinetində]

- Vükəla Şurasının iclasında başqa məsələlər sırasında Daxiliyyə nazirinin mə-

ruzəsinə görə Səhhəti-Ümumiyyə Nəzarəti [Səhiyyə Nazirliyi] hökumət əzasının [üzvlərinin] birinə mühəvvəl [həvalə] edilməsi barəsində müzakirə olmuş və qət edilmişdir ki, müvəqqəti olaraq işbu vəzifə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyi] verilsin.

- Türuq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin fəhlələrin əhvalını yaxşılaşdırmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir ki, Məsai Nəzarəti [Əmək Nazirliyi] gələcək iclas üçün fəhlələrin əhvalını yaxşılaşdırmaq üçün görülməli tədabir [tədbirlər] barəsində məlumat versin.

- Post və Teleqraf naziri Aslan bəy Səfikürdlü həzrətlərinin təşəbbüsatları ilə Məsai Nəzarəti təşkilinə şüru edilmişdir [başlanılmışdır]. Müşavirəyə mədən sahibləri və Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] nümayəndələri dəvət ediləcəklər. Əvvəlinci məsələlər bunlar olacaqdır: yeni məvacib, fabrika-zavod komitələri.

MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞINA DAİR

İşbu yığıncağın 8-inci iclasında dərs kitablarının intixabı [seçilməsi] məhəlli-müzakirəyə qoyularaq, vaxtın qeyri-müsaid olmağı cəhəti ilə hələlik hazırda bulunan kitablara qənaət edilir. Bununla bərabər, Məclis xahiş və arzu edir ki, tədris kitabları gələcəkdə mütəxəssislər vasitəsi ilə Maarif Nəzarəti tərəfindən tərtib və təmin olunsun.

Bu qətnamədən görünür ki, əldə bulunan kitabların halətindən müfəttiş əfəndilərin xəbərdarlığı yoxdur. İki ildən çoxdur ki, bahalıq və inqilab cəhətinə müəlliflərdən bəzisi təliflərinin [əsərlərinin] yeni təb’ [çap] və nəşrinə cəsarət etmədilər. Bildirki Milli Komitənin Nəşriyyat Şöbəsi bu barədə çarpışdı, vuruşdu, bir iş də görə bilmədi. Kitabların miqdarı azaldıqca, qiymətləri də gün-gündən kəsbi-şiddət etdi [artdı]. Hətta, bəzi kitablardan (məsələn: “Ədəbiyyat məcmuəsi”) kitabfüruşlarda [kitab satanlarda] bir dənəsi də qalmadığı üçün bu gün köhnə nüsxələri, parça-parçaları da 20-25 rubləyə qədər satılmaqdadır. Hələ bu il bu minval ilə keçdi, sabah bu köhnə nüsxələr də tapılmadığı halda, biçarə müəllim və mütəəllimlər [şagirdlər] nə çarə yapacaqlar?

İştə “bu kitab aclığı” Maarif Nəzarətini çoxdan düşündürməli idi. Hələ bahalıq bəlası kənarda dursun, kağız ehtiyacını da bir növ rəf’ etmək [aradan qaldırmaq] olar, lakin mətbəə süstlüyünə [ətalətinə] nə çarə olacaqdır? Asayiş zamanlarında bir kitabı səkkiz-doqquz aya tamam etmiş mürəttiblər, bu gün 8 saatlıq işlə neçə aya tamam edə biləcəklər? Burasını Nəzarətimiz nəzərə alarsa, nəşriyyat iqdamatına [işinə] sabahdan girişməlidir, yoxsa 8 aydan sonra yenidən məktəblər açıldığı əsnada mütəəllimlərimiz laşəkküşübhə [şəksiz-şübhəsiz] kitabsız qalacaqlardır. Bu, birinci məsələ.

İkinci məsələ – gələcəkdə kitab təlifatını [yazmağı] mütəxəssislərə həvalə etməkdir. İndiyə qədər meydanda bulunan tədris kitablarının hamısını az-çox təcrübələri ilə məşhur təlim və tərbiyə mütəxəssisləri yazmışlardır. Lakin bu əsərlərin heç biri təbiən [çap baxımından] eyibdən xali [qüsursuz] deyildir. Atalar demişkən: “Eyibsiz gözəl olmaz”. Amma çifayda bu eyibləri təlifat sahiblərinə ərbabi-fünun-

dan [alimlərdən] heç kəs hələ göstərmədi. İllərcə bu kitablar üzündən məşğul olmuş həzəratın ağızdan-ağıza bəzi iradlarını eşitmiş olduğumuz halda, mətbuat aləmində heç birinin mükəmməl bir tənqidinə rast gələ bilmədik. Dəfəatla [dəfələrlə] gərək bu kitablar tənqid olunaydı və hər dəfədəki tənqiddən sonra yeni təb'inə şüru etməksizin [girişmədən], göstərilən dəyərli nöqsanları da islah olunaydı. Heyfa ki, böylə olmamışdır! Nə isə...

Tənqidə rəğbətimiz azdır. Tənqid fəqərəsində [mövzusu üzərində] bir bu qədər dayandığım üçün zənn olunmasın ki, köhnə tərəfdarı olaraq təzə tədris kitablarının zühuruna [meydana çıxmasına] ziddəm. Bərəks [əksinə], kitablarımız nə qədər artarsa, bir o qədər də mənfəətli və faydalısı aralığa çıxar. Bu barədə rəqabət meydanı gərək hamı üçün açıq olsun. Heç kəsə "təkbazarlıq" imtiyazatı verilməz! Bainhəmə [bununla bərabər], istər köhnə olsun, istər təzə, hamısının tənqidə zəruri ehtiyacı vardır. Lakin hazırda mövcud kitablarla gələcəkdə yazıla biləcək kitabların təfavütü buradadır ki, əldəki kitablar təcrübədən çıxmış olduğu üçün fəzilət və nöqsanları ərbabi-fənnin nəzərində aşkardır. Tənqid vasitəsi ilə bu nöqsanlar qeyd olunarsa, islahı da tez və asan vəchlə hüsula gələr.

Qaldı ki, təzə kitablar, hələ onlar anadan doğulmadığı cəhətinə, tənqidlərinə də hələ yol yoxdur. Burada bir məsələ tövlid edir [ortaya çıxır]: tənqidə kimlər mübaşir olacaqlar [girişəcəklər] və hangi mətbuatla? Məqaləmizin əsl-əsası da həmin bu fəqərədir.

Söz yoxdur ki, tədris kitablarına artıq bələdiyyət yetirmiş əşxas [şəxslər] bizim müəllimlərimizdir. Bunlar əsnayi-təlimdə rast gəldikləri iradları xüsusi dəftərçələrə yazsınlar və hər ilin axırında da müfəttiş əfəndilərə təqdim etsinlər. Bundan daha gözəli müfəttişlər təhti-sədarəti ilə [sədrliyi altında] tərtib veriləcək məhəlli [yerli] müəllimlər ictimalarında [yığıncaqlarında] həmin irad müzakirə olunsun, zübdələnsin [seçilsin], ümumən qəbul oluna biləcək iradların da xülasəsi müfəttişlər vasitəsi ilə Maarif Nəzarətinə təqdim olunsun. İştə bu xülasələr ən dəyərli tənqidlərdir ki, müəllim, müəllif və mütəxəssislərin qisməti gərək olsun.

Vüzəratın [Nazirliyin] təlim və tərbiyəyə dair xüsusi aylıq bir jurnalı da nəşrə başlarsa, həman xülasələr də o jurnalda təb' və nəşr olunaraq [çap edilib yayılaraq] bir çox əhli-xibrəni [mütəxəssisi] istifadələndirər.

Yenə təkrar edirəm, aclara çörək lazım olan kimi mütəəllimlərə [şagirdlərə] də kitab lazımdır. Kitabsız mütəəllim, mütəəllimsiz ərbabi-fünun [alim] və bunlarsız da mədəni bir millət olammaz. Bu gün bir çox vəzifədarlara [vəzifə tutanlara, iş görənlərə] ehtiyacımız vardır, bu ehtiyacı rəf' etmək [aradan qaldırmaq] üçün kitab, kitab və yenə kitab tədarükünə girişməliyiz.

Fərhad Ağazadə

KƏNDLƏRİMİZ VƏ MƏKTƏBSİZLİK BƏLASI

Əhalimizin əksəri köylərdə məskun olub da cahan vüquat və hadisatından bilmərrə xəbərsizdirlər. Həm də bu halda vətənlərində və paytaxtlarında cərəyan

edən siyasi əhvallardan biittila [xəbərsiz] qalmaqdadırlar. Əgər köydəki qardaşlarımız rus hakimiyyəti zamanında zülümatda [qaranlıqda] və cəhalətdə qalmasaydılar, yaxud onları və övladlarını maarifə və məktəbə tərğib [rəğbətləndirənlər] və təşviq edənlər olsaydı, bu gün onlar da başqaları kimi millətlərinə mövcudiyyətləri xüsusunda böyük fədakarlıqlar izhar edərdilər. Məəttəəssüf [təəssüf ki], vaxtında məktəb və maarif üzü görmədikləri üçün bu gün üzərlərinə və millətlərinə yağdırılan siyasi hiylə və təzvirlərdən [oyunlardan] və hüquqlarını paymal etmək [tapdalamaq] qəsdində olanların müqabilində bilümum mübarizədən və fədakarlıqdan qalmışlardır. Tərəqqi və təməddün [mədənilik] cəhətincə onlar sair millətlərə nisbətən çox geridə qaldılar. Məkatib [məktəblər] və maarif məhrumiyyəti onları bu gün böyük fəlakətlərə və məşəqqətlərə giriftar edir.

Məktəbsizlik xüsusunda çox şeylər yazılmış, söylənmiş, fəqət axırda yenə zülümat, cəhalət qalmışdır. Bu gün Şamaxı qəzasındakı malakan köylüləri ufacıq bir xəsarət tədiyəsi [ziyanlarının ödənməsi] üçün Bakıya gələrək mövqeyinə [lazımi yerə] xəbər verməklə, sair qardaşlarına da izhar edib, mövzui-bəhs [mübahisə mövzusu] edirlər. Lakin həmin qəzanın böyük kütləsinə, əhalisinə toxunan milyard xəsarət və ziyanlar köylülərimiz tərəfindən göstərilməyir. Çünki beş-on evdən ibarət malakan köyündə daha vaxtında hökumət və maarif müdiriyyəti tərəfindən lazimi məktəb açılmışdır, lakin 200-300 evə malik müsəlman köyündə bu vaxtadək məktəb güşadı [açılışı] olmamışdır. Malakan köylüsü zəminin [torpağın] saxlanmağını və rəncbərliyi bildiyi bir halda, müsəlman köylüsü zəmin saxlamaq nə deməkdir xatirinə gətirməz.

Zatən bu halda Bakı vilayətində bir xeyli böyük müsəlman köyləri vardır ki, orada məktəb güşad olunmamışdır. Halbuki bu köylərin nüfusu və böyüklüyü malakan köylərindən on dərəcə çox və böyükdür.

Məktəbsiz köylərdən qeyri bir xeyli qəsəbələr, kəndlər vardır ki, onlar çox sənələrdən bəri ancaq və ancaq bir ədəd bir klaslı ibtidai məktəbə malikdirlər. Məsələn, Lahıc kimi böyük bir qəsəbə ki, təklikdə 8-10 min nüfusa baliğdir [çatmışdır], bu vaxtadək bir bab [ədəd] bir klaslı məktəbi vardır. Bu məktəb 30 sənədən artıqdır ki davam edir. Davamı müddətində verdiyi məhsul heç dərəcəsindədir. Çünki, əvvəla, məktəbdəki tədris rus lisanında olmuşdur. İkinci isə, ondan daha ali bir məktəbin yoxluğu səbəb olur. Səkkiz yaşında olan bir çocuq bu cürə bir klaslı bir məktəbə daxil olub, 12 yaşında olduğu halda məktəbi bitirir. Ondan sonra bu sinnində [yaşında] ikən nerəyə gedəcəyi və nə yapacağı böyük və düşüncəli bir məsələdir. Çünki kənddə heç bir valideyn 12 yaşındakı bir çocuğunu sərbəstcə sair uzaq bir yerə təhsilə göndərməz. Bu cəhətdən dolayı bir klaslı ibtidai məktəbi bitirmiş bir çocuq təhsilə davam etməyib, başqa bir işlə məşğul olub, bildiyini də unudar. Aşkara, bir klaslı məktəbdən alınan məlumatın nə qədər faydasız və az olduğunu da kimsə inkar etməz. Doğrudur, camaatın cəhaləti sayəsindən məktəbsizlikdə qalmışdırlar, fəqət onları təşviq və təhrik edən tapılardısa, məncə rizaməndilik göstərərdilər [razılıq verərdi-

lər].

Sabiq Maarif müdiriyyətinin Lahıc xüsusundakı etinasızlığı zirdə [aşağıda] yazılan əhvaldan daha aşkardır. Keçən sənə hürriyyətin bidayəti [başlanğıcı] münasibətilə Lahıcın 8-ci məhəlləsi olan Ərəkitdə daha ikinci bir məktəbin güşadı və bu məktəbi doğruca 4 və 6 klaslı etmək qəsdi ilə camaatda və ziyalı cavanlarında böyük hümmət görünürdü. Maarif müdiriyyəti nəzdində camaat priqavoru [qərarı] ilə istidada [xahişdə] bulunub, məktəbin tövsisi [genişləndirilməsi] və əldə olan müəllimlərin təyini üçün lüzum görülən ərzihallarda bulundular. Məktəbdə böyük şadlıqla bir xeyli bir klaslı ibtidai məktəbi bitirmiş çocuqlar cəm olundu. Oğlan çocuqlardan başqa qız xanımlar da təhsilə davam edirdilər. Sənə axırınadək vilayət Maarif müdirinə yazdılar, söylədilər, fəqət istidaları etinasızlıqla və əhəmiyyətsizliyə çıxmaqla arada məyusiyyət hasil oldu. Məktəb dağıldı, çocuqlar çəkildilər. Bu sənədə isə həman təntənəli məktəb beş-on çocuğa və bir müəllimə şayəstə [layiq] oldu.

Demək, köylərimizin məktəbsiz qalmasına əhalisi bais olmamışdır. İndi soruşulur, məgər Lahıc kimi böyük bir qəsəbə on min nüfusu ilə və ətrafındakı 20 para böyük kəndlər ilə bərabər 4 klaslı yaxud 6 klaslı bir məktəbə səza [layiq] deyilmidir? Nə üçün bu böyüklükdə bir qəsəbə əsri-təməddün və tərəqqidə [mədəniyyət və tərəqqi əsrində] gərək zülümat və cəhalət içində qalsın? Lahıclılar kimi çalışqan, zəhmətkeş və mütəhəmmil [dözümlü], yaxud bütün Qafqaziyada mis qabları ilə məşhur və daim ticarət və sənətlə əlləşən bir [camaatda] maarif və təməddün lüzumu görülməyirmi? Doğrudan-doğruya əgər onlara vaxtınca sənətlərinə mütənasib məktəb açılsaydı, bu gün biz bazarda artıq yüz sənələrdən bəri o biçimsiz, o hədsiz zəhmətlərə baliğ [əmələ gələn] bilümum [bütün] evlərimizdə müstəməl [istifadə olunan] mis qablarını o formda, o şəkildə və o vəzndə [çəkidə] görməyib, daha sadə, daha gözəl görərdik. Bu gün çəkdikləri zəhmət təqdir olammayır və qayırdıqları qablar tərvic [rəvac] tapmayır. Səbəb də həman əskilik və biçimsizlikdir.

Bu gün maarifə və təməddünə xidmət edici vəsait büsbütün şəhərlərdə və böyük məhəllərdə [yerlərdə] toplanıbdır. Məhsulları da ancaq şəhərdə müstəməldir [istifadə olunur]. Köylər isə maarifdən uzaq və cəhalətdə qalmışdır. Bu səbəbdən bu sənədəki müsri [yoluxucu] xəstəlikdən, çox köylərimiz demək olar təbabətsizlikdən, məncə, maarifsizlikdən ziruh [canlı] dediyimiz insandan məhrum qalmışdır. Tək bir Lahıcdan, müsri xəstəlikdən bu sənə ən azı dörd min can tələf olmuşdur. Şəhərdə isə, doğrudur, müsri xəstəlik olub, fəqət daim şəhərdə sükunət tapan [yaşayan] və heç vaxt xatirinə köydəki qardaşı gəlməyən mahir doktorların müavinəti [köməyi] ilə tezliklə xəsarətsiz rəf' olmuşdur [aradan qaldırılmışdır]. Biçarə köylü sənə bidayətindən nihayəsinə [ilin başından sonuna] qədər zəhmət və məşəqqət çəkib şəhərdəki qardaşlarına həyat və müsaliməti [salamatlıq] verdiyi zamanda, şəhərdə məskun doktor qardaşı ona mübtəla olduğu zəhərli xəstəlikdən nicat vermək qəsdində deyildir.

Bilaxirə, keçmişlərə artıq əhəmiyyət verməyərək və kimsəni bunu yazmaqla

müttəhim etmək niyyətində olmadığım üçün ancaq mənim qəsdim köylərimizin məktəbsizliyindən bu gün siyasi məsələlər haqqındakı rəyləri və sədaları batmış olduğu üçün gələcək və istiqbalımızın nuri-səadəti [səadət işığı] indidən onların aralarında lazımi məktəblərin güşadındadır [açılmasındadır]. Vətənimizin şan və şərəfi, ancaq köylülərimizin tərəqqi və təalisi [ucalması] ilədir. Bu gün ən vacib və ən zəruri məsələlərin birincisi məktəb məsələsi və xalq maarifidir.

R. R.

ŞƏHİDƏ

Şühədayi-millətdən [millət şəhidlərindən] Məhəmməd ağa Cancanbəyzadə ismində bir oxumuş cavanın başdaşında yazılan şeirlərindən:

Ey cavan, ey ənisi-xoşsima!
Ey cəsur, [ey] qəyuri-bihəmta!
Qönçeyi-güldən almayan kamın
Gömdürən qəbrə eşqi-nakamın!
Ağlasınmı səni doğan madər?
Qara geysinmi əyninə xahər?
Yox, oğul, sən şəhadətə yetdin,
Millət eşqində can nisar etdin!

Ayn. Əlif.-zadə

ƏSGƏR

Silahına sarılaraq gedərkən
Dağlar-daşlar həpsi sənə baş əyər.
Vətən üçün canla dava edərkən
Göydən sənə min mərhabalar enər.

Günəş önündə qararmış o üzün
Haq yanında hər bir şeydən təmizdir.
Toz-torpaqdan qıpqırmızı o gözün
Desəm inan ulduzlardan əzizdir.

Davud

BAKI XƏBƏRLƏRİ

“Znamya truda” xəbər vermişdi ki, guya, general Tomson Gəncə quberniyasının bəzi hissələrinin mühafizəsini Andranikə mühəvvəl edibmiş [tapşırıbmış]. General Tomson Rəisi-Vükəla [Baş Nazir] Fətəli xan Xoyski həzrətlərinə bir məktub yazıb “Znamya truda” qəzetəsində dərc edilmiş məlumatı qəti surətdə təkzib edir.

Ərzaq Nəzarətində

Ərzaq naziri görüşmək istəyən zəvatı [şəxsləri] Nəzarətdə [Nazirlikdə] (“Natsional” oteli) düşənbə [bazar ertəsi], caharşənbə [çərşənbə] günləri saat 11-dən 1-dək qəbul edir. Naziri[n] kabinəsi telefon nömrəsi 40-00-dır.

Bəzzaziyə təqsiminə dair

Ticarət və Sənaye Nəzarəti əhali arasında ən yaxın zamanda sabit qiymətlə bəzzaziyə malı [arşın malı, parça] təqsiminə [paylanmasına] başlayacaqdır. Mallar Bakı bəzzaziyə mağazaları vasitəsilə təqsim ediləcəkdir. Qiymətdən 8 faiz mənfəət alınacaqdır ki, 6 faiz mağazalar nəfinə [xeyrinə], 2 faiz isə Mərkəzi Ev Komitəsi nəfinə gedəcəkdir. Mərkəzi Ev Komitəsi təqsim üzərində kontrol qoyacaqdır.

Ümumi iclasın qətnaməsinə görə, Mərkəzi Ev Komitəsi Nəzarət indində [Nazirliyin nəzdində] təşəbbüsatda bulunmuşdur ki, bəzzaziyə malı rayon ev komitələri və ev komitələri vasitəsilə verilsin.

Böyləliklə qiymətdən 6 faiz mənfəət alınacaqdır. Mərkəzi Ev Komitəsi öz təşəbbüsatını işbu maddələrlə təqviyyə edir [dəstəkləyir]:

1) İki faiz azalacaq mənfəət 1 ½ mil-

yon arşın bəzzaziyədə arşını təxminən 5 rubla götürülərsə 150 min rubla təfavüt verəcəkdir.

2) Təqsim məxarici [paylama xərcləri] 6 faizlə 450 min rublə edir, halbuki təqsim məxaricatı azdır.

Mərkəzi Ev Komitəsinin məruzəsini istima etdikdən [dinlədikdən] sonra Nəzarət qət etmişdir ki, Tağıyev fabrikasında toxunmuş 200 min arşın bəzzaziyə malını bəzzazlar miyanında [arşınmalçılar arasında] Mərkəzi Ev Komitəsi kontrolu təhtində [nəzarəti altında] təqsim etsin. Təqsim ən yaxın günlərdə olacaqdır.

* 6-ncı dairə komitəsindən kontrol komitəsinə 2422 ərizə verilmişdir ki, zərəri 72 milyon 842 min rublə edir. Məntəqə ev komitəsindən bixəbər verilmiş ərizələr də nəzərə alınarsa, bir dairənin zərəri 100 milyon rublə edir.

* Bakıda bir ticarət palatası təşkil edilir ki, Azərbaycanla Rusiya və başqa Avropa dövlətləri miyanında [arasında] mal mübadiləsi məsələsinə müavinətdə bulu-nacaqdır [kömək edəcəkdir].

Azərbaycan Ordusu

Daxiliyyə Nəzarəti bütün Azərbaycan qubernatorlarına bir əmr göndərib tələb edir ki, təcili surətdə hökumət və polis xidmətlərində olanların siyahısına baxılsın və mürur ilə [tədriclə] əsgərliyə düşənləri başqa əsgərliyə düşməyənlərlə dəyişilsin. Böyləliyə, əsgərliyə düşəcək xidmətçiləri əxzi-əsgər [hərbi çağırış] dairələrinə, olmazsa, yaxındakı əxzi-əsgər müdiri yanına göndərməlidir ki, hərbi qulluğa götürüləcəyi barəsində müayinə yapılsın. İşbu əmr, qəza qaimməqamları [qəza rəisləri], polismeystrlərə, polis müfəttişləri və onların müavinlərinə şamil deyildir. Zira Azərbaycan Hökumətinin müvəqqəti Mükəlləfiyyəti-əsgəriyyə [Hərbi mükəlləfiyyət] qanununun 9-uncu maddəsi mövcibincə [maddəsinə əsasən], bunlar azad edilir. Xidmətdə sayılıb həqiqətdə isə fəaliyyətdə bulunmayan əşxası da [şəxsləri də] yaxındakı əxzi-əsgəri dairələrinə göndərməlidir.

* Azərbaycan ilə Gürcüstan miyanındakı [arasındakı] tranzit şəraiti mövcibincə [şərtlərinə əsasən] Azərbaycan dəmiryolları ilə başqa yerlərdən Gürcüstana aparılacaq mallar və Gürcüstan dəmiryolları ilə başqa yerlərdən Azərbaycana gətiriləcək mallara azad tranzit, yəni vergisiz tranzit təyin edilir.

Xüsusi adamlara məxsus olub Gürcüstana gedəcək neft, benzin və başqa neft məhsulatı, ki işbu müqavilənamədən kənardır, Gürcüstan Hökuməti 25%-indən fəzlə [artıq] həcz [müsadirə] edə bilməz.

* Qarabağ və Qazaxa xüsusi məmuriyyətlə [tapşırıqla] Parlaman əzasından [üzvlərindən] mürəkkəb [ibarət] bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] azim olmuşdur [yola düşmüşdür].

* Vükəla Şurasının, fraksiyalar nümayəndələri ilə bərabər Azərbaycan sülh heyəti-mürəxxəsəsi üçün düsturüləməli [təlimatnaməsi] barəsində müştərək iclası vaqe olmuşdur.

İclas

Azərbaycan İctimaiyyuni-inqilabiyyun

[Sosialist İnqilabçılar] firqəsinin müvəqqəti Bakı komitəsi ümum yoldaşlara elam edir [bildirir] ki, yekşənbə [bazar] günü axşam saat 4-də komitənin müvəqqəti bürosunda (Persidski və Şaxski pereulokun [döngəsinin] küncündə) ümumi iclas təyin edilmişdir. İclas ikinci dəfə olduğu üçün qanuni hesab ediləcəkdir.

İrəvan quberniyası nümayəndələrinin iclası

Bu axır günlərdə İrəvan quberniyasında müsəlmanlara zülmlər edilməsi münasibətilə Bakıda yaşayan İrəvan quberniyası nümayəndələri bu məsələləri müzakirə üçün bu gün axşam saat 6-da Azərbaycan Parlamanı binasında fövqəladə iclas təyin etmişlərdir. Bunun üçün Bakıda yaşayan İrəvan quberniyası müsəlman əhalisinin həmin iclasa gəlmələri mətlubdur [tələb edilir]. Hər halda ehmal olunmasın.

Azərbaycan dəmiryollarında

Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Gürcüstandakı Azərbaycan siyasi nümayəndəsi M. Y. Cəfərova bir böylə teleqram göndərmişdir:

“Gürcüstan Türüq və Məabir Nəzarətinə Batuma getmiş Azərbaycan trenlərinin [qatarlarının] qayıtması barəsində mükərrərən [təkrarən] etdiyimiz müraciətimiz açıq qalmışdır. Bundan naşi [ona görə] də bu yönlərdə hərəkat dayandırılması ehtimalı hiss edilməkdədir. Rica edirəm bu barədə təşəbbüsatda bulunasınız.

Türüq və Məabir naziri:
[Xudadad bəy] Məlikaslanov”

AZƏRBAYCANDA

Zaqatallıların istidası [xahişi]

Zaqatal quberniyasında çay, qənd, bəzzaziyə mallarının [arşın malının, parçanın] yoxluğu və Bakıdan gətirilməsinin baha qiymətə olmasından dolayı əhali qubernatora müraciətən Tiflis ilə Zaqatal miyanında [arasında] mal mübadiləsi təşkil edilmək üçün istidada bulunmuşlar. Zaqatal quberniyasından buğda, un aparılıb oradan fövqdə məzkur [yuxarıda adı çəkilən] mallar gətirəcəkdir.

İrəvandan gələn fəryadlar

Qəmərlidən bizə yazırlar:

İrəvan vilayəti islamları sakin olan yerlər əhaliyi-islamiyyənin qanı ilə boyandı. Dörd sənədən bəri Cahan hərbinin fəlakətinə məruz qalan Qafqaziya islamlarından ən bədbəxti bizlər olduq. Çar zamanı həbslər, sürgünlər... İnqilabdan sonra rahat olacağımıza əmin ikən, qonşularımızın təşviqatı nəticəsində kəndiləri və rus əsgərləri tərəfindən maddi və mənəvi zərərlərə rast gəldik. Rus əsgərləri ölkəmizi tərk edib getdikdən sonra buraxdıqları ləvazimati-hərbiyyə və ərzağa sahib çıxan qonşularımızın daşnakçıları nəinki özlərini bizə ağa tanıtmaq, bəlkə təşkil etdikləri müstəqil Ermənistan hüdudu daxilində proyektləri mövcibincə [planlarına əsasən] bir nəfər olsun da ata-baba yurduna malik islam buraxmamağa əzm etdilər. Fitnələr törədib, böhtanlar atıb, terrorizmə girişib, qarqaşalıq [qarışıqlıq] saldıqdan sonra məqsədlərinə xainanə nail oldular. Nitəkim, Aram paşaların, Droların, Silikovların, Dəli Qazar, Arzumanov Mişa və general Areşevlerin təhti-

komandasında [komandanlığı altında] qoşunlar yığıb Sürməli, İrəvan, Eçmiyədzin, Naxçıvan, Novo-Bayəzid, Axalkələk uyezdlərində, Qars oblastında 350-dən ziyadə zəngin islam köylərini dağıdıb, yandırıb, əhalisinin qismini qətl, qismini fərara məcbur etdilər. Binəvalar ac, çılpaq qarlı dağlar, dərələrdə Maku və Şərin həvalilərinə [tərəflərinə] pənah apardılar. Hətta sipah [ordu, qoşun] qabağından qaçan yüzlərcə ana-bacılarımız Araz nəhrinə qərq oldular; milyonlara baliğ mal-qaralarını, ev əşyalarını göz qabağında qarət edib İrəvan, Novo-Bayəzid və Üçkilsəyə götürdülər. Adamlarımıza yüz milyonlarca zərər verdilər; əvvəlcə dövlət və sərvət sahibi adamlarımız qapı-qapı düşdü, yeddi-səkkiz övlad sahibi olan atababalarımız sonsuz qaldı. Hərgah insaniyyət tarixi bu vəhşilərin yapdıqlarını yazarsa, on cildlərlə kitablar təşəkkül edər. Yapdıqları zülmlərdən utanmayıb onların mürəvvici-əfkarı [fikirlərini yayan orqan] olan "Orizon", "Aşxatavor" və bunların əmsalı olan qəzetələri olmazın böhtanlarla Azərbaycan Hökumətinə, millətinə və onun istiqlaliyyətinə hücumlarda bulunurlar.

Türkiyə Hökuməti Azərbaycanın bu hissəsindən əsgərlərini geri götürdü. Bunu görən erməni şovinistləri – ki gözləri müsəlman qanı ilə tutulmuşdur – genə də ölkəmizə soxulmaq istəyirlər, genə də təxribat, genə də qanla oynamaq xəyalındadırlar.

Ey Azərbaycan paytaxtı olan Bakıda yığılan Azərbaycan Parlaman əzaları! Danışdığınız minbərdən bir dəfə də İrəvan vilayətindəki qardaşlarınızın halına baxın, dərdlərimizə bir dərman bulun! Səsimizi səsinizə qatıb mədəniyyət dünyasının qulağına yetirin!

Ey Qafqaziyamıza yeni qonaq gəlmiş Müttəfiq Hökumət nümayəndələri – ki şüarınız millətlər azadəliyinə, istiqlaliyyətinə riayət etməkdir – bizim halımıza qalın! Sizin insaflı olan kişiləriniz tezliklə aramıza gəlsin, görsün vəziyyətimizi və bizə yapılmış və yapılan haqsızlıqları, bəlkə bizlərin səsi qulaqlara gələr. Çünki, quyu dibində qalmışlar halındayız. Onda bi-lərsiniz daşnakların hiyləsini!

Ey erməni, müsəlman demokratiyası [xalqı] tərəfdarı olan erməni, müsəlman ziyalıları! Yenidən töküləcək bu nahaq qanların önünü alın, bəsdir bu qanlar!

Millət oğlu Hatəmzadə Əbdülhəmid

TEATRO VƏ MUSİQİ

"Aşıq Qərib"

Cümə günü Hökumət teatrında Hacıbəyli Qardaşları müdiriyyətinin artistləri tərəfindən Zülfüqar bəy Hacıbəylinin məşhur "Aşıq Qərib" operası mövqeyitamaşaya qoyuldu. Təbrizli Aşıq Qərib ilə Tiflisli Şahsənəmin müaşiqeyi-əflatuniyyəsini [platonik eşqini] təsvir edən bu opera çox gözəl tərtib edilibdir. Səhnə gözəlliklərini göstərməkdən əlavə, içində ruhəfza [ruh oxşayan] havaları və nəğmələri çoxdur. Baxüsus [xüsusilə] xorun: "Ey əfəndim, sən", Şahvələdin: "Aşiqəm mən" və sairləri.

Heyflər olsun ki, kişi xoru qızlar xoruna nisbətən çox intizamsız olub, ahəngi-musiqiyyədən çox uzaq idi. O idi ki, rus qızları müsəlman havalarını müsəlman

kişilərindən yaxşı oxuyurdular. Müdiriyyət üçün xüsusi bir xor dəstəsi lazımdır.

“Aşıq Qərib” rolunu oynayan Sarabski əfəndinin səsi bu axşam həmişəki qüvvət və lətafətində deyildi. Bainhəmə [bununla belə], “deyişmə” vaxtında “Osmanlı” dəstgahında “Aşıq Səlim” rolunu oynayan Məhəmmədbağır əfəndiyə qalib gəldi. Sarabskinin böyük nöqsanı budur ki, rolunun dramatizm tərəfinə heç əhəmiyyət verməyir. Ona görə, tamaşaçılarda təsirat hasil edə bilmir. Hər nə təsirat verirsə də səsi ilə verir. Məhəmmədbağır əfəndinin də məlahətli zil səsi var, amma dəstgaha layiqincə bələd deyildir.

“Şahsənəm”i genə arvad paltarı geyməyə məcbur olan Ağdamski əfəndi həmişəkindən yaxşı oynadı. Həm gözəl səsi və həm də dəstgaha kamalınca bələdiyyəti və həm də yaxşı oyunu ilə məşhur olan Ağdamskinin bir böyük nöqsanı budur ki, gözəl surətdə başladığı havanın axırını zəif gətirir. Ona görə də əvvəlki gözəlliyin də təsiri axırda itir. Halbuki müstəmeində [dinləyicilərdə] hər nə təsir qalırsa, havanın axırı “ağzında” qalır.

“Şahvələd” rolunu ifa edən Şərifov əfəndi həm tenor səsinin yumuşaqlığı və həm də oyunun dramatizmi ilə əksərən hərəkətsiz oynayan yoldaşlarından seçilib, gözəl oynadı. Bu artistin şöhrətli gələcəyi vardır.

Darablinski və Anaplinskilərin “duzlu” komik olduqları, teatro tamaşaçıları içində məşhurdur. Xırda rollarda çıxan Məğfurə, Yeva və Tamara xanımlar yaxşı idilər. Ancaq Qəribin anası, Məğfurə xanımın rolu deyildir.

İki oğlan və dörd qızdan mürəkkəb balet xoşumuza gəldi; ancaq hərəkat az və yekahəng idi.

Pərdə hər dəfə yuxarı qalxdıqda, səhnənin tamaşaçılar könlünü açar gözəl və zövqavər mənzərəsi, baxüsus birinci və axırıncı pərdələrdə rejissor Ərəblinski əfəndinin ciddi və üstadkaranə surətdə [ustalıqla] çalışmasına böyük dəlil idi. Ərəblinski əfəndi səhnənin gözəl üstadıdır və bu üstadlığını səhnə tərtibatından başqa, artistlərin dramatizm hərakatında dəxi göstərərsə, vəzifəsini haqqı ilə ifa etmiş olar.

Mizrab

İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir, “Kaspi” qəzetəsinin 122-ci nömrəsində “Şeyxülislamın istefası münasibətilə” ünvanında Gəncədən vurulmuş iki teleqraf dərc olunmuş. Bu iki teleqrafın ikisində də onları imza edənlər şeyxülislamın əski məmuriyyətində qalmasını xahiş və tələb edirlər. İmzaların içində mən – Gəncəli Məhəmmədrza Atayevin dəxi imzası dərc olunub. Bununla elan edirəm ki, mən Gəncədən Bakıya nə bir teleqrafa qol çəkmişəm, nə bir kəsi əvəzimdə qol çəkməyə vəkil etmişəm.

13 dekabr 1918
Gəncəli Məhəmmədrza Atayev

HƏFTƏ POSTASI

Yoldaş əfəndiyə: Məqalələrinizi ciddi surətdə yazarsanız daha gözəl olar.

Nadi əfəndiyə: şeirləriniz dərc edilmədi.

Zal Məhəmmədli əfəndiyə: şeirləriniz dərc edilmədi; lakin bir az da fikir versəniz yaxşı şeirlər yaza bilərsiniz.

Qənbər oğlu əfəndiyə: Zal Məhəmmədli əfəndiyə yazdıqlarımız sizə də aiddir.

H. R. əfəndiyə: Dəmiryol işlərini mürur ilə [tədriclə] düzəltmək üçün Vəzarət [Nazirli] tərəfindən ciddi tədbirlər görülməkdədir.

İskəndərzadə əfəndiyə: qəzetəmizin Salyan müxbiri olmaq və Salyan ilə ətrafının əhvali-ictimaiyyə [vü] iqtisadiyyəsindən [ictimai və iqtisadi vəziyyətindən], həvadisatından [hadisələrindən] xəbər vermək zəhmətini qəbul etsəniz, bizi məmnun edərsiniz.

Mürəttib: M. İslamov əfəndiyə: Əsgər və qoşun tərtib və tənzimatı [nizama salınması] işinə Hökumət tərəfindən ciddi surətdə əhəmiyyət verilməkdədir. Zənginlərimiz də, siz demişkən əcnəbi ziynətlərinə sərf edilən paralarını müdafieyi-milliyyə işlərinə sərfə çalışsalar, şübhəsizdir ki, daha gözəl olardı.

Məhəmməd Həmdi Lələzadə əfəndiyə: İstanbul Darülfünununun [Universitetinin] Tibb fakültəsindən məzun doktor Əliabbas əfəndi Qədimovun, sizi, yazdığınız kimi bir "xəbis illətdən" qurtarmağı və doktorun ümum Şəki şəhəri mərizləri [xəstələri] haqqında göstərmiş olduğu mərhəmət və şəfqət, son dərəcə şayanitəhsin və təbrikdir [bəyənilməyə və təbrik edilməyə layiqdir]. Şəkidə müsəlman diş həkimi olmadığından şikayət etməniz dəxi haqlıdır.

Gəncəli Məşədi Mikayıl əfəndi ilə kağıza qol qoyan sair əfəndilərə: Yuxarıda H. R. əfəndiyə yazdığımız cavabı oxuyarsınız.

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209

Qabil diş qayıran
Mirzə Xəlil Canıbəyzadə

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

295

Doktor Rza bəy Sultanov
Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

2603

Doktor
Doktor Samuil İzrailoviç
Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası,

Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi

Axşam saat 5-7-yə kimi.

Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır.

Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi.

Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

Hacı Seyid Əzim Şirvaninin əsərlərini və Sabirin “Hophopnamə”sini alıram. Adres: “Azərbaycan” qəzetəsi kantorunda (Parapet).

2630

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-1

Təqvimi-islam [müsəlman təqvimi]
Türkcə-rusca divar təqvimi

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur.

Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında “Novruz” mətbəəsi.

2625 3-1

Düşənbə [bazar ertəsi] günü, kanuni-sanının [yanvarın] 6-sında, səhər saat 10-da Binəqədi Cəmiyyətinin kantorunda Bakı mədənlərindəki neft quyusu sahiblərinin ümumi iclası vaqe olacaqdır. Bu iclasda Binəqədi Cəmiyyəti və Nobel nefteprovodlarına [neft kəmərlərinə] aid məsələ müzakirə ediləcəkdir.

2628

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Sülh ətrafında:
Yəhudilər Sülh Konfransında

səh. 64. "Könüllü ordu Baş komandanı": 1919-cu ilin 8 yanvarına kimi bu vəzifəni Denikin tutmuşdur.

Kəndlərimiz və məktəbsizlik bəlası

səh. 72 "...müttəhim etmək niyyətində...": qəzetdə "...müttəhim etməmək niyyətində..." getmişdir.

"Şəhidə"

səh. 72. Bu şeirin adı qəzetdə "Şəkidə" kimi getmişdir.

"Şəhidə" şeiri (səh. 72) üçün üğət:

ənis: munis; dost

qəyuri-bihəmta: tayı-bərabəri olmayan qeyrət sahibi

madər: ana

xahər: bacı

nisar etmək: vermək, qurban etmək

Azərbaycanda:
İrəvandan gələn fəryadlar

səh. 74. "Aram paşaların": Aram Manukyan nəzərdə tutulur.

Teatro və musiqi

səh. 76. "Məhəmmədbağır əfəndi": böyük ehtimalla Məhəmmədbağır Əliyev (səhnə təxəllüsü Əlinski) nəzərdə tutulmuşdur.

"Mizrab": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.



“Azərbaycan” qəzetinin 80-ci nömrəsinin 1-ci səhifəsi

Bazar ertəsi, 6 yanvar 1919-cu il, nömrə 80

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 3 rəbiülaxir sənə 1337. 6 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

BAKI, 6 KANUNİ-SANİ [YANVAR]

Məhv və nabud [yox] olmamıza razımı olacağız?

Qəzetəmizin bugünkü nüsxəsində dərc edilən İrəvan və Qarabağ müsəlmanlarının fəryadları, yəqinən [şübhəsiz] ki, bütün müsəlmanların qəlbini od kimi yandıracaq. Böylə xəbərləri, müsəlman əhalisinə rəva görülən bu qədər cövr və sitəmi oxuyub bildikdə, qəlbində insanlıq və islamlıq hissiyatı olan bir zat [şəxs] tapılmaz ki, soyuqqanlılıq saxlayıb halitəb'dən [özündən] çıxmasın. Buna görə də rəsmi bir qəzetə mühərriri üçün bu məsələdən bəhs etdikdə "rəsmiyyət" yolunu təqib etmək lüzumiyyəti qarşısında olması can sıxındırıcı bir haldır.

Əvət, İrəvan müsəlmanlarının əsəfəngiz [acınacaqlı] halı bizə çoxdan məlumdur. "Daşnaksutyun" adlı erməni quldurlar firqəsinin "qəhrəmanı" Drolar, iki yüz ədəd islam köylərini top-tüfənglə xak ilə [yerlə] yeksan etdiyi hamımızın yadındadır.

"Zaqafqaz Seym[i]" namını daşıyan ölkə hökuməti ol vəqt quru "təsəlli"dən başqa bir şey edə bilmədi. Xatisovlar Gegeçkoriyə açıq-açığa dedilər: əgər gücünüz varsa, buyurun meydana!

İrəvan müsəlmanlarının bilmərrə [tamamilə] məhv olub gedəcəyinə şəkk-şübhə ola bilməzdi. Yalnız osmanlıların vürudu [gəlişi] onların canını qurtardı. İndi isə Müttəfiqlərin vürudundan sonra Osmanlı qitəatı [birlikləri] Qafqazyanı boşaltdı və Müttəfiqlər öz bəyannamələrində söyləmişlər ki, Qafqazın mühafizə məsələsini bundan sonra onlar öz öhdələrinə götürürlər. Lakin türkləri tələsik Qafqazyanı boşaltmağa məcbur edən Müttəfiqlər, orada yaşayan millətlərin mühafizəsini təmin etmək məsələsində bir qədər yanlışlıqlara uğradılar. Onlar öylə güman etdilər ki, Ermənistan Cümhuriyyəti denilən məhəl [yer] yəqinən Azərbaycan və Gürcüstan cümhuriyyətləri kimi bir məmləkət olub, orada "demokratik" əsası ilə bir qayda və nizam vardır. Orada yaşayan millətlər Azərbaycan və Gürcüstandakı kimi müsaviyyülhüquq [bərabərhüquqlu] olub bir-biri ilə ülfətlə dolanırlar.

Lakin, heyhat! Onlar bunu bilmədilər ki, Ermənistan denilən məhəl, insan və islam qanına yerikləyən yırtıcılar əlinə keçmişdir ki, qarşılarında qüvvə gördükdə tülkü kimi nəvaziş göstərirlər. Lakin bir qədər özlərini güclü hiss etdikdə, binəva

islam əhalisinin qanını su yerinə içirlər. Çox təəssüflər olsun, bunu onlar düşünmədilər. Əgər düşünmüş olsaydılar, ehtimal ki, həmin quldurlar yurdunda qayda və nizam saxlayan Osmanlı qoşununu ol vəqt çıxartmağa məcbur edərdilər ki, özləri onların yerini tutaydılar. Öylə olmadı. Osmanlı qoşunu getdi və onun dalınca islam qanına həris olan yırtıcı quldurlar dəstəsi gedib islam qanı ilə əlvan [boyanmış] bayraqlarını türklər boşaltdığı yerlərdə və məhəllərdə səbt etdilər [asdılar] və öz yollarını minlərcə islam balalarının meyitləri ilə təfriş etdilər [döşədilər].

Kəza [eləcə də] Zəngəzur cəhətində... Nə qədər ki, türklər Qarabağda idilər, erməni yırtıcıları müsəlmanlarla “pişiyim-pişiyim” edirdilər və öz "ixlas [səmimiyyət] və sədaqətlərini" bəyan edirdilər. Elə ki türklər getdi, həman "müxlislər" [səmimilər] qurd kimi qonşu müsəlmanların üstünə düşüb onların qanlarını axıtmağa şüru etdilər [başladılar].

Bakı cəhətində bir nəfər ermənin burnu qanayanda özlərini yırtan və Müttəfiqləri bizim əleyhimizə təşviq edən erməni və rus qəzetələri nə üçün bu minlərcə tələf olan məsum islam əhalisindən bir ləfz [kəlmə] belə söyləməyirlər?

Və nə üçün Ermənistanda və Qarabağda islam əhalisinə edilən məzalim [zülüm], bir nəfər ermənin qarət edildiyindən və ya bir nəfər rus kəndçisinin bir girvənkə arpası alındığından naşi [ötrü] edilən bağırtı və çığırtıdan xəfif çıxır?

Və nə üçün indiyə kimi bu məzalimə bir nəhayət qoyulmamışdır? Nə üçün Azərbaycan türk və islamları erməni quldurlarının əlində qırılıb məhv olan qardaşlarının və namuslarına təcavüz olunan bacılarının dadü fəryadına ciddi surətdə yetib, uca səslə həm ermənilərə, həm Müttəfiqlərə və həm də bütün aləmə deməyirlər:

– Biz qonşularımızla və bütün millətlərlə – istər kiçik, istər böyük olsun – sülh və müsalimət [əmin-amanlıq] üzrə dolanmaq istəriz. Lakin bununla belə, məhv və nabud [yox] olmamıza bir an razı ola bilmərik. Müdafiə haqqı bütün dövlətlərin qanunlarında mövcuddur. Siz bu fəlakətlərə, bizə olunan bu məzalimə ciddi surətdə bir nəhayət qoysanız, bizi özünüzə minnətdar etmiş olarsınız. Əks surətdə isə biz özümüz öz namusumuzu, canımızı və malımızı var qüvvəmizlə müdafiə etməyə məcbur olacağız.

Nə üçün böylə bir qəti və ümumi çıxış indiyə kimi icra olunmayır?

MƏHV OLAN MİLLƏT KÜTLƏSİNİN NALƏSİ QARABAĞ VƏ İRƏVAN MÜSƏLMANLARININ ƏHVALİ-FƏCİANƏSİ

Andranik əşqiyasının məzalimi [Andranik quldurlarının zülümləri]

Kanuni-saninin [yanvarın] 4-üncü günü Ordubad müsəlmanlarından bir nəfər nümayəndə sifətilə əlində Zəngəzur və Ordubad müsəlmanlarının əhvali-məlaləngizi [hüzün verən halları] müxatirələrilə [xatirələrilə] bir qaç [bir neçə] sənədlər gətirib gəlmişdir.

Məktubların birindən anlaşıldığına görə, yollar çox xətərli olduğu üçün nümayəndələr gəlməyə çox qorxurlar. Bu bir nəfəri də Allaha pənah göndərmişlər,

ya öləsi, ya qalası.

Oranın əhvalından nümayəndənin verdigi məlumat, artıq dərəcədə acınacaqlı və qəmfəzadır [kədərlidir]. Andranikin əşqiya dəstələri, qarşılarına düşən müsəlman kəndlərini, müqavimətsiz olursa, əzəlcə yəğma və qarət edirlər. Sonra isə xalqını qılınc və güllədən keçirirlər. Müqavimət göstərirlərsə, kəndləri odlar ağzında napədid [yox] edirlər. O, ətrafı dağıdarkən, ona bu barədə ingilislərdən əmr ver[il]diyini bildirir. (?!) Zəngəzur və İrəvan mahalında olan müsəlmanların bu tezliklə imdadına gedən olmazsa, bu vəhşi ermənilər oradakı müsəlmanları yox etməkdən heç də çəkinməyəcəklər.

İmdad diləyi

İşbu nümayəndənin gətirdigi bir məktubda, Ordubad müsəlmanlarının halı bir az da aydın təsvir edilir. Biz də bu məktubun lisanına toxunmadan dərc ediriz:

"Bəradər! İşlər günü-gündən şuluxlaşır. Böylə ki, şəqi [yolkəsən, quldur] ermənilər İrəvan tərəfindən başlayıb müsəlman köylərini dağıdıb qətl və qarət edirlər. Bir tərəfdən Qarabağ ermənilərı Qarabağ köylərini dağıdıblar və dağıtmağa məşğuldurlar.

Həmin ki, Lehvaz çayı, Aldərə, Nüvədi, Əli Oxçu, Şabadin, Mə'dən, Qaragöl, Qaraçiman, Şahidli və Burunlu, Əsgərlər kəndi, Tey, Vartanəzir, Tuğut, Mərzigit tamamən məhv və tarmar olublar. Bəzisi salamat qaçıb İran və Ordubada gəliblər. İndi isə küçələr, məscidlər yetim uşaqlar və bisahib övrətlər ilə doludur. Bu məzlumlar acından və soyuqdan gündə on beş nəfərə qədər ölürlər. Bizlərin halı çox fəna, özümüz də səfərbərlik halında yaşayırız. Gecə-gündüz bilaaram səngərlərdə və pusquda olub əsgəri təlim yapmaqdayız.

Qərəz, bilməyirəm səbəbi nə isə Allah bizlərdən nəzərini götürüb ki, ölümə müstəhəqik [layiq olmuşuq]. Yenə Rəbbi-cəlildən [cəlal sahibi, uca Allahdan] əlimizi üzməyirik və axırımcı nəfəsimizədək müdafiə etməyə hazırıq. Görək Allahi-zişan [şanı uca Allah] nə yapacaqdır. Ölümdən qorxmuruz, lakin heyf olsun ki, bizim islam hökuməti bu anadək bu tərəflərin halını nəzərə almır. Məgər bizlər məhv olandan sonra bizim halımıza qalacaqlar? Məgər millәti-islam şəqi [quldur] ermənilərin ayaqları altında əzilib gedəndən sonra ayılacaqlar? Axır ki, bu kağız sizə vüsul olan [çatan] kimi hökumətə, əhaliyə və bəlkə cəmi şəhərlərə, qəzetələrə, əcnəbi dövlətlərə, gürcü qonşumuza qışqırıq salıb dünyaya bizlərin halını xəbərdar ediniz. Belə olmaz ki, bir ucu İrəvan, bir ucu Şuşa, bir milyon islam hamısı ermənilər əlində məhv və nabud olsun. Əcəba nə yazım? Bisahib qalmağımızımı söyləyim, dağılmağımızımı söyləyim, yainki dağılan köylərin əhalisinin səhralarda acından və soyuqdan sızıltısınımı şərh edim? Və yainki millәti-islamın ölüm yuxusuna getməyini yazım?

Xülasətülkəlam, yazmaqla başa gəlməz. Görək bəlkə Xudavəndi-əhədiyyət [bir olan Allah] bir səbəb sala, bizləri də bu bəladan və bu fəlakətlərdən qurtara. Əlbəttə, bizim bu halımızı qəzetələr vasitəsilə bu gün cahana bildirməlisiniz ki, bəlkə bizlərə bir yerdən bir sərəncam çəkilə. Ümidimiz haqqadır. Ayrılıq əlimizi sizə uzadırıq, bəlkə görüşə bilmədik.

Əqəll: Hüseyn Hüseynov"

Yenə imdad istəyirlər

Yenə imdad üçün Təbriz şəhbəndərinə [konsuluna] böylə bir teleqraf çəkilmişdir:

(Surət)

Səvadi eyni telegraf ki əz-Naxçıvan vükəlayi-səkəneyi-Naxçıvan, Ordubad, Şərur və rəisi-hökuməti-məhəlliyyə Əmirzadə dər-Təbriz bə-şəhbəndəri-xaneyi-dövləti-cümhuriyyəti-müslimini-Qafqas müxabirə minümayənd.

Xidməti-cənabi-konsuli-hükuməti-Azərbaycan Rauf bəg: quvvayi-müsəlləhi-Əramənə Qəmərlu, Sədərək, Dəmirçi və xeyli qəryə-hara qətliam nümudə bəsərma əz hər-tərəf həmlə vü hücum minümayənd. Dər-Şərur zən beçə-ha dərbeyaban-ha firar nümudə vü tələfat mişəvənd. Dər in-barə bə-hüzuri həzrəti-əqdəsü bala vəliəhdi-ərvahinafəda ərz. Nümudim əz-cənabi-ali rica vü isteda minəmayəm bə zənanü ətfal yek milyon ki dər xari-nehri-Aras sakin-əst rəhm-nümudə-cülu in bəla-ra bəgirid. Konsul-xayi-düvəli-müəzzəmə xassə konsuli-dövləti-ingilis və Amerika-ra ittila bəd hid ki bəzudi cülu hərəkati-vəhşiyaneyi-Əraminə-ra giriftə mara xilasi-nümayənd. Bə-əlavə isteda minümayəm ki əhvali mara telegrafa bə-hökuməti-Azərbaycan dövləti-ingilis ki dər-Tiflis və Baku həstənd ittila bədhid.

Əhaliyi-islam səkəneyi-Naxçıvan, Şərur və Ordubad, rəisi-hökuməti-məhəlliyyə Əmirzadə.

Böylə bir teleqrafın alındığını verdiyi surət zirində [altında] müvəqqəti şəhbəndər [konsul] Rauf bəy təsdiq edir və möhürünü səbt edir [möhürünü qoyur].

Qafqaziya müsəlmanları cümhurinin Təbriz şəhbədərxanası.
(Möhür)

Zəngəzur əhaliyi-islamiyyəsinin [müsəlmanlarının] fəryadı

Eynən:

Bir ay bundan əqdəm [qabaq] təkrar erməni çeteləri [quldur dəstələri] əsakirimənsurənin təxliyyəsindən kəsbi-cəsarət edərək [Osmanlı ordusunun çıxmasından cəsarət alaraq], yüz para köylərimiz qarət və yəğmaya mübtəla olub da, aralıqda minlərcə əhalimiz kəsilib, qanlar seylabi-bəla [bəla seli] kimi torpaqlarımızı qızartdı. Tamam xak ilə yeksan olub da bayquşlar yatalqası [yatağı] oldu. Namus və şərəfi-milliyyəmiz ayaqlar altına alınıb əzildi. Haraya gedərsən islam qaçqınları, hangi tərəfə baxarsan zavallı qız və qadınlarımızın sızıldamaları…

Əcəba nə vaxta kimi bu məntəqədə islam və türk qardaşlarınızın əzilib, məhv olub getməsinə millət qardaşlarımız kənardan biganələr kimi tamaşaçı olacaqdır?

Nə vaxta kimi ermənilərin zavallı millətimizə qarşı olan əşqiyalığı [quldurluğu] davam edəcəkdir?

Nə vaxt Yevropa, Amerika milliyyətpərvərləri bizim də məntəqəmizə girib, millətimizin hüququnu kəndi əlinə alcaqdır?

Yaxud nə vaxt Gəncə, Badkubə millət qardaşlarımız məntəqəmizdəki qardaşlarını arayacaqlar?

Millətimiz bu məntəqədən təmizlənib, torpaqlarımız erməni əşqiyalarına məskən, heysiyyəti-milliyyətimiz qırılıb amal və arzularımız məhv və nabud edildikdən sonramı? Düşmənlərimiz fürsəti fövt etməyib var qüvvələri ilə bir gün əvvəl [mümkün olan ən qısa müddətdə] amali-milliyyələrinə [milli məqsədlərinə] nail ol-

mağa çalışıb müvəffəq olmaqdan sonramı?

Daima məntəqəmizin bir an əvvəl Ermənistana qoşulmasına sərfi-hümmət edirlər [çalışırlar]. Daima Ararat Cümhuriyyətinin Türkiyə hüdudundan başlayıb Şişə istiqamətinə qədər istifadə edirlər. Ümum millət və dövlətlər çarpışmasını bir anda bir sükuti-ümumiyyətə təbdil edən [ümumi sakitliyə çevirən] mütarikə [atəşkəs], erməni hökumətinə əsla təsir etməyib daima əşqiyalar naminə kəndi məsləki və kəndi niyyəti yolunda belə çalışırlar. Bu qədər əşqiyalıq qarşısında millətimiz tərəfindən heç bir tədabir ittixaz edilməsi [tədbir görülməsi] müşahidə olunmayır və millətimizdəki ədəmi-fəaliyyət [hərəkətsizlik, tənbəllik], idarələrimizdə olan süstlük, əhalimizin qüvvəti-mənəviyyəsini erməni hücumundan daha artıq və daha əsəfnak [təəssüflü] bir halda qoymayırmı?

Gəncə və Bakı qardaşlarımız tərəfindən yaxın bir zamanda bizim üçün bir iqdamat olunmazsa [addımlar atılmazsa], bu tərəflərin əhvalına vaqif olmaqdan ötrü bir heyət göndərilməzsə, təşkilat təqviyəsi [gücləndirilməsi] və əhalinin ruhunu yüksəltmək üçün lazımi miqdarda əsgəri məmurlar ezam edilməzsə, az bir zamanda məntəqəmizin alt-üst olub dağılmasına və milliyyət əsası üzrə yapılan sülh zamanında, millətimizin bu yerlər[ə] əbədilik bir əlvida deməsi üçün heç bir şəkk və şübhə olmadığı məlumdur.

Fövqəlzikr [yuxarıda yazılan] məlumatı millətimizin nümayəndəsi ədd [hesab] olunan Gəncə türk müəssisələrinə tövdi edib [tapşırıb], bir an əvvəl məntəqəmizdə türklərin və islamların sülhi-ümumiyyətə kimi məhv olub dağılmaması üçün ciddi və qəti tədabirin ittixazı və lazımi miqdarda əsgəri, siyasi və mülki məmurların təşkilatımızın təqviyəsi [gücləndirilməsi] üçün rica və hali-əsəfnakımızın [acınacaqlı halımızın] cəridələrimiz [qəzetlərimiz] vasitəsilə ümum düvəli-müəzzəmələrə [bütün böyük dövlətlərə] məlum edilməsi istirham [xahiş] olunur.

Milli Məclis sədrinin müavini:
Cavad Cavanşir
Üzvi-Məclis [məclis üzvü]:
Molla Haşim Səidzadə

İrəvan müsəlmanlarının təşəbbüsü

Srağagün yanvarın 4-də İrəvan quberniyasının Bakıda yaşayan əhalisi nümayəndələri, 2 yanvar tarixli iclasın qərardadına əməl olmaq üzrə İrəvan quberniyasında müsəlmanların düçar olduqları həlakət [ölümcül hadisələrə] və fəlakətlərə xitam verilməsi üçün aşağıda yazılan təşəbbüslərə iqdam etmişlərdir [addım atmışlar]:

T. b. Makinski, Paşa bəy Bayrambəyov, Rəşid bəy İsmayılov və Əziz bəy Sultanov iclasın qərardadına görə general Tomson hüzuruna gedib, İrəvan quberniyasına İngiltərə qüvvəsi göndərilməsini xahiş etmişlərdir. İngiltərə qüvvəsi göndərmək mümkün olmazsa, Ararat Hökumətini, erməni quldur dəstələrinin vəhşiyanə hərəkatı əleyhinə ciddi tədbirlər görməyə məcbur etməlidir. Bundan əlavə, İrəvan quberniyasının erməni və müsəlman əhalisinə dəyən zərəri aşkar edib, müqəssir tərəfindən almaqdan ötrü müştərək bir komissiya göndərməlidir.

General Tomson nümayəndələrə demişdir ki: İrəvan quberniyasına göndər-

məyə qüvvə yoxdur. Lakin İrəvan quberniyasında olan İngiltərə zabitlərinə yazıb xəbər veririk ki, İrəvan quberniyası müsəlmanlarının mənafeyini mühafizə etsinlər.

Bunlardan əlavə, [Məhəmməd] Məhərrəmovla Makinskiyə həvalə olunmuşdur ki, İrəvan quberniyası müsəlmanları əhvalı haqqında Azərbaycan Parlamanına bəyannamə ilə müraciət etsinlər. Azərbaycan Parlamanının İrəvan quberniyası üzvlərindən xahiş edilmişdir ki, İrəvan quberniyası müsəlmanları haqqında Azərbaycan Hökumətinə istizah [sorğu] versinlər. İrəvan quberniyasında müsəlmanlar əleyhinə olan erməni dəstələrinin hərəkəti haqqında Şurayi-Vükəla Rəisinə [Baş Nazirə] müraciət edilməsi dəxi qərara alınmışdır.

İrəvan quberniyasında olan erməni quldur dəstələri əleyhinə ciddi tədbirlər görülməsi Azərbaycan Hökumətindən xahiş edilmişdir. Əziz bəy Sultanov ilə Yusif bəy Tahirova həvalə olunmuşdur ki, həmvilayətlər cəmiyyəti təşkil etməkdən ötrü bu yaxın günlərdə Bakıda yaşayan İrəvan quberniyası əhalisini dəvət etsin.

SÜLH ƏTRAFINDA

London – Gələcək Sülh Konfransının rəisliyinə (prezident) Klemansonun intixab ediləcəyi [seçiləcəyi] zənn olunur. Baş və ən mühüm məsələlər bütün dövlətlərin sülh nümayəndələrinin iştirakı ilə müzakirə ediləcəkdirlər. Bundan əlavə, əvvəlcə məsələləri hazırlamaq üçün iki böyük komisyon təşkil ediləcəkdir. Bu komisyonlara hər iki müharib [savaşan] dövlətlərin nümayəndələri seçiləcəkdir. Amerka senatoru Lodja, Vilsonun sülh maddələri hazırlığı vagüzar ediləcəkdir [tapşırılacaqdır] ki, onlar Millətlər İttifaqına, dənizlərin azadlığına, məxfi diplomatiyaya və təslihin [silahlandırmanın] artırılmasına dairdir. Lodj bəyan edir ki, bu əsasları yeritmək üçün böyük qədəmlər götürmək, bütün sülh danışıqlarını xələdar edə bilər.

Sülh Konfransı heyəti

İstanbul – Dekabrın 24-ündə Londondan çəkilən simsiz teleqrafla xəbər verilir:

“Deyli nyus” qəzetəsinin məlumatına nəzərən [görə], Almaniya ittifaqı nümayəndələri ilə olacaq Sülh Konfransı yanvarda, Versalda dəvət ediləcəkdir.

Fransa tərəfindən Klemanso, Brian, Tardyö və Burjua göndəriləcəklərdir.

İngiltərə nümayəndələri isə Lloyd Corc, Balfur, Redinq; müstəmləkələrdən və əmələlərdən [fəhlələrdən] də bir neçə nümayəndə olacaqdır.

Amerika tərəfindən isə Rəisi-cümhur [prezident] Vilson, sabiq Xariciyyə vəziri Rut, Lansinq və polkovnik Hauz iştirak edəcəklərdir.

GÜRCÜ-ERMƏNİ TOQQUŞMASI

Mütarikə [atəşkəs]

Erməni Lori dəstəsi komandanı general Silikovun teleqramı.

“Qarakilsədən erməni qoşunları Ərkani-hərbindən [Baş qərargahından], 2 yanvar 1919.

Bir neçə müharibədən sonra biz Şüləverdən Sadaxlıya çəkildik (axrıncı

xəbərlərə nəzərən Sadaxlı da gürcülər tərəfindən işğal edilmişdir). Müttəfiqlərin təklifi üzərinə Sadaxlı-Dmanisi xəttində Gürcüstanla Ermənistan arasında mütarikə əqd edilmişdir [atəşkəs imzalanmışdır]. Bizim nümayəndələrimiz general [Qavriil Qriqoryeviç] Karqanov, Martirosov, Artunyans Tiflisdədirlər.

Silikov"

Gürcüstan qoşunlarının ştabı xəbər verir: Gürcüstan Hökuməti binagüzarlığı [sərəncamı] ilə dekabrın 31-i saat 24-də bütün xətti-hərbdə [cəbhə xəttində] müharibələrin dayandırılmasına əmr verilmişdir. Belə ki, ermənilər müharibə başladıqları yerə çəkilməli, gürcülər isə işğal etdikləri yerləri əllərində saxlamalıdırlar.

QƏZETƏLƏRDƏN

Bolşeviklərin vəziyyəti

Xarkov qəzetələrinin məlumatına nəzərən, Müttəfiqlər tərəfindən Kronştadt işğal edilmişdir. Kronştadt matrosları Müttəfiqlərin tərəfinə keçmişlərdir.

Petroqradın halı

Petroqradın süqutu gözlənir. Petroqrad ətrafına külli surətdə qoşun cəm edilmişdir. Müttəfiqlərin hücumu münasibətilə bolşeviklər arasında şiddətli həyəcan vardır. Bolşeviklərin başçıları əcnəbi məmləkətlərinə getmək üçün pasport hazırlayırlar.

* Liflandiyada başlanmış olan bolşevik hərəkətləri şimdi qətiyyən tərk edilmişdir.

Bolşeviklər və əhali

Pyatiqorsk, Həsəntuki və Kislovodsk şəhərləri büsbütün bir xəstəxanaya dönmüşdür. Minlərlə Qırmızı ordu (krasnıarmeyes) nəfəratı [əsgərləri] tibbi müavinət [yardım] olmadığından ölürlər. Əhali aclıq və bolşeviklərin qarətindən artıq əziyyət çəkir. Bolşevik komissarları camaat şeylərini müsadirə edərək, onlardan təzminati-hərbiyyə [hərbi təzminat] alırlar və sonra bunların kaffəsi [hamısı] qarət edilən şeylərlə bərabər gizlənirlər.

Kubanda

Nikolayev təriqi [yolu] ilə Yekaterinodardan xəbər verilir:

Bu gün Fövqəladə Kuban Radası tərəfindən qoşun atamanlığına Filimonov intixab edilmişdir [seçilmişdir]. Atamanlığa namizədliyini qoymuş olan hökumət rəisi Bıç qaralanmışdır. Rada Filimonovu qayət səmimiyyətlə alqışlamışdır. Filiminovun atamanığa intixabı Müttəfiqlərin heyəti və Könüllü ordu komandasını artıq məmnun buraxmışdır. Rada tərəfindən yeni intixab edilmiş olan Filimonov, ən ciddi cümhuriyyətçi, azadiyi-millət [müstəqillik] tərəfdarıdır.

Polkovnik Filimonov, Kubanda ən nüfuzlu bir zatdır. Mümaileyh [adı çəkilən şəxs], ələddavam [davamlı surətdə] irad etdiyi [söylədiyi] nitqlərində Rusiyanın ancaq federasyon əsası ilə cümhuri bir dövlət ola biləcəyini iddia edir. Kuban da Rusiya Federasyon cümləsinə daxil olmalıdır. Ancaq bu şüar ilə Kuban kazakları könüllü dəstələr cərgələrində mübarizədə davam edə bilərlər. Kuban qoşun atamanı, Kuban məmləkətinin və Kuban əsgərlərinin başçısı hesab olunur. Divan-

da [məhkəmədə] tənbehə [cəzaya] düçar olanların cəzalarını bu ataman bağışlaya bilər və əskildər. Qoşunlar atamanı, mülki və hərbi məmurlar təyin edər və onlara rütbə verər. Qanun tərtib edən Radanın qərarlarını ataman iki həftə müddətlə təsdiq eylər və sonra onları ümumara [ictimaiyyətə] elan eylər.

* Sevastopol – Kuban Radası sədri Filimonov qəzetəçilərlərlə müsahibə edərkən demişdir ki, Kuban Radası, federasyon əsası ilə ancaq Rusiyanın ehya ediləcəyini [dirildiləcəyini] zənn edir. Nəhayət, Kuban Hökuməti diktaturanın qətiyyən əleyhindədir.

Ukrayna inqilabiyyun [inqilabçı] firqələrinin əsası

Kiyev – “Trudavaya qazeta” yazır: Bütün Ukrayna sosialistlərinin ümumi bir xətti-hərəkət əsası təşkili üçün müttəhidən [birgə] iclasları vaqe olmuşdur. Firqələrin əksəri işbu əsaslarda bu rəyə gəlmişlərdir: Ukraynanın istiqlaliyyəti, Qaliçya ilə birləşmək, bütün dövlətlərə qarşı bitərəf olmaq, daxili işlərdə isə Zəhmət Konqresi, yerlərin və bəzi ticarətxanaların ümumiləşdirilməsi və ticarət üzərində kontrol təyini.

Lehistan Demokratik Cümhuriyyəti

Berlin – Simsiz teleqrafla xəbər verilir: Varşavadan verilən əlavə məlumata nəzərən, Lehistanda demokratik üsulu təşkil edilir. Regent Şurası, məmləkətin bütün ümuri-idarəsini [idarəetmə işlərini] hərbi diktator Pilsudski ixtiyarına vermişdir. Pilsudski demokratik firqələri nümayəndələri ilə danışıqda bulunduqdan sonra Lublin[dəki] milli hökumət başçılarından olan Daşinskinin təhti-sədarətində [sədrliyi altında] yeni bir hökumət təşkilinə qərar vermişdir.

Lehistan sərhədi

Varşava – “Qolos naroda” qəzetəsinə Polşadan yazırlar: Etilaf [Antanta] dövlətlərinin Lehistan barəsində olan təklifləri Vilson təklifindən o yana keçir. Etilaf dövlətləri təklif edirlər ki, nəinki yalnız polyak yerləri, hətta əksəriyyəti polyak təşkil edilən yerlər də Polşaya verilməlidir. Böyləliklə bütün Yuxarı Sileziya polyaklara keçir. Bundan əlavə, bütün müharibədən gördüyü xəsarəti Polşa, Almaniyadan almalıdır.

Prens Salarüddövlənin həbsi

“İskra”nın yazdığına görə, dekabrın 28-də Hacı Pirus kəndi yanında “Konkum” paraxodundan ingilis dəstəsi enib, orada olan İran şahzadəsi Salarüddövləni həbs edib, Tazəşəhərə gətirmişlər imiş.

Hindistan nümayəndələri

Hindistan sülh müraxxəslərindən [nümayəndələrindən] 15 nəfəri Londona varid olmuşdur [getmişdir].

* Berndən verilən məlumata nəzərən, Almaniya qəzetələri xəbər verirlər ki, fransız əsgərləri Visbadeni işğal etmişlərdir.

TÜRKÜSTAN HEYƏTİ-MÜRƏXXƏSƏSİ İLƏ MÜSAHİBƏ

Qəzetəmiz mühərrirlərindən [müxbirlərindən, yazıçılarından] birisi ilə İstanbuldan şəhərimizə təşrif gətirmiş Türküstan

heyəti-mürəxxəsəsi[nin] [nümayəndə heyətinin] görüş[ü] əsnasında aşağıda bəyan edilən məlumat alınmışdır:

"İstanbula çoxdan bəri getmişdik. Azərbaycan mürəxxəsləri [nümayəndələri] orada ikən, onlarla görüşərdik. Vətəndən çıxandan bəri, orası nasıl yaşadığından müsəddəq [təsdiq edilmiş] məlumatımız yoxdur. Təəssüflər ki, bütün Türküstan üçün (Türküstan dedikdə mən təkcə Zakaspi ölkəsini götürməyirəm; siz də, biz də türk, vətənimiz də Türküstandır, əfəndim), iştə söylədiyim ölkəmizin ümumuna göz mənzələsində [göz yerində, dərəcəsində] olmuş Azərbaycan, mavərayi-Xəzərdə [Xəzərin digər tərəfində] yaşayan qardaşları həyatından müxbir [xəbərdar] deyil. Bu gün hazırda və yeni paydar [bərqərar] olmuş hökumətlərin, dövlətlərin həpsinin gözü fəqət [yalnız] buradadır, fəqət [yalnız] buradan imdad istəyəcəklər. Sizin öhdənizə qardaşlıq haqqı olaraq, digər dövlətlər üçün də çalışmaq vəzifəsi düşəcəyi təbiidir. Zənnimizcə, müştərək hökumətiniz təşəkkül etdikdən sonra, digər qonşularınızla, xüsusən qardaşlarınız Şimali Qafqaziya və mavərayi-bəhri-Xəzərlə bərabərlikdə çalışmağa Azərbaycan cəhd edəcəkdir.

İstanbul həyatı bir çox cəhətdən fəna deyildir. Həyat orada yarı-adi bir tərzdə keçir. Yenə də cəmiyyətlər, konfranslar, məktəblər, digər ictimai idarə və müəssisələr, həpsi öz qaydası ilə gedirlər. Həyati-ictimaiyyədə [ictimai həyatda] bircə dəyişiklik görülürsə, o da müharibə bitdikdən sonra kabinələrin [hökumətlərin] çox az ömür sürmələridir. Onun da səbəbi ildırım sürəti ilə biri-birini təqib edən həvadis [hadisələr] olsa gərək. Görürsünüz, Tələt Kabinəsi müharibə yapdı, onun kabinəsi düşdükdə İzzət paşa Kabinəsi gəldi. O da mütarikə şəraitini [atəşkəs şərtlərini] qəbul etdi və zaman iqtizasınca [zəmanənin şərtlərinə görə] bu, Məclisi-Məbusanın ədəmi-etimadınca [etimadını qazanmadığı üçün] iki tərəfdən istefaya məcbur oldu. Onun əvəzində Tofiq paşa Kabinəsi gəldi. Tofiq paşa Kabinəsi etilafçılardandır, Məclisi-Məbusan isə "İttihad və Tərəqqi" firqəsi əli ilə çağrılmış, onun üçün də Kabinəni pək qatı tənqid edəndir. Şimdi bu səbəblə etilafçılar, yeni Məcsili-Məbusan dəvətini qəzetələr vasitəsilə meydana atdılar.

Qalib paşa rəyasəti [başçılığı] altında müsalihə [barışıq] üçün hazırlaşan heyət çox ciddiyyətlə gələcək Sülh Konfransına məvadd [maddələr] hazırlayır. Bu heyətdə Müttəfiqlər nümayəndəsi də vardır. Qəzetələr də son zamanlarda əllərindən gəldikcə Tələt Kabinəsini tənqid edir, hətta məsuliyyətə almaq məsələsini də araya atmışlar. Etilafçılar bu gün üçün vətəni toplamaq, onun həp canlı qüvvələrilə bərabər işləmək əvəzində, var qüvvələri ilə ittihadçıları töhmətləməklə iştiğal edir [məşğul olur]. İttihadçılar isə bunlara heç alı verməzlər [aldırış etməzlər]. Bu yaxınlarda firqənin mərkəz komitələri əzası [üzvləri] toplandı, yeni komitə seçildi. Artıq bir "Təcəddüd" firqəsi də meydana çıxdı.

Türk əfkari-ümumiyyəsi [ictimai fikri] pək nazik [incə], pək həssasdır. Həqiqətən, nə qədər mətbuat firqəçilik nöqteyinəzərindən ifrata qalxışsa da, vətənə bir xətrə [təhlükə] gəldiyini ta uzaqlardan anlayacaqdır. Müttəfiqlər əsgəri qüvvəsini bir az artıran kimi, türk əfkari-ümumiy-

yəsi qələyana gəldi [coşdu], protestolar verdi. Müttəfiqlər o zaman İstanbulda çoxlanmış əsgərlərin Rusiyaya doğru gedəcəyini elam etdi [bildirdi] və bunların heç bir zaman türklər üçün bir təhlükəni haiz [təhlükə daşıyan] qüvvə olmayacağını andırdılar. İstanbul Rusiyaya atılacaq əsgəri qüvvə üçün bir üssülhərəkə [baza] kəsiləcəkmiş. Həqiqətən də o qüvvə sonradan bir hissə Odessaya göndərildiyini bildik.

İman edirəm ki, bu millət, vətənini heç bir zaman bəlaya uğratmayacaq və bu Cahan müharibəsindən aldıqları dərsləri kölgəsində daha nazik [diqqətli], daha ciddi siyasətçi olacaqlar. Lakin bir şey var ki, qəzetələr də, əfkari-ümumiyyə də bir çox şeylərdən müxbir deyildir. Mütarikə şəraitini bilməzlər. Bakıdan hənüz türk-islam orudusunun getdiyindən qəzetələrdə bir şey göründüyü yoxdur. Bunların məchul buraxılmasında müqəssir kimdir və müqəssirdirlərmi, orasını söyləməyəcəyəm.

Kabinələr gələr, kəndi işini yapar, vəzifəsini ifa edər, gedər. Məclisi-Məbusan bir çox yanlışları təshihə [düzəltməyə] çalışar. Bunlar həpsi öz yerində olması ilə bərabər, bugünkü Türkiyədə ən böyük iradə, Sultan həzrətlərinin kəndi əlindədir. Sultan isə dedikcə müstəid [bacarıqlı] və zəki bir zatdır. Millət də sultanı pək sevir. Hamıdan artıq ona etimad göstərir.

Qadınlara gəldikdə, həyati-ictimaiyyədə [ictimai həyatda] bunları erkəklərdən ayrı tutmaq imkan xaricindədir. Çünki bunlar da onlarla bərabər işlər, bəlkə onlara təvəffüq edər [üstün gələr]. Gənclərə gəldikdə, həpsində bir vətənpərvərlik, həpsində kultura, mədəniyyətə doğru yürümək kimi uca ideallar görülür.

Ümumiyyətlə bugünkü İstanbul, beş sənə demirəm, böylə iki sənə bundan ilərikі İstanbul deyildir. Gündən-günə incələşmiş, həyat get-gedə təbii yolunu bulmağı bizlərə böyük ümidlər verməkdədir.”

Bə’d [sonra] söhbət Bakıdakı tətilə varıb, general Tomson tərəfindən fəhlələrə verdiyi vədələrdən bəhslə, müsahibimiz fikirlərini böylə bəyan etdilər:

“Bəzi hürriyyətlərin təmini ilə mətbuat da zənciri-qeyddən [əlini-qolunu bağlayan zəncirdən] azad olan kimi olmuşdur. Mətbuatın azadlığı arzu edilən bir şey olsa da, bu azadlıqdan bizimkilər deyil, müxaliflərimiz istifadə edəcəklər. Yazacaqlarını Avropa qulaqları pərdəsinədək yetişdirəcəklər. Bu növlə də Avropada kəndilərinə daha artıq mühibblər [dostlar], tərəfdarlar qazanacaqları aşkar işdir. Bizdə isə burada fəqət bircə türkcə qəzetəmiz var. Ondan keçdikdə, bizim qəzetələrin Avropaya getməsinə təşəbbüs edilməz. Onlar isə kəndi təşkilatları köməyi ilə hər birini Avropanın gözünə tıxar, diləyini ona andırar, kəndilərinə propaqandalar yapar. Ümum türk-islam dövlətləri, bilxassə Azərbaycan, satqın propaqandanın Avropa məhafili [dairələri] üçün əlzəm olduğunu nəzərə almayır. Bu isə ən vacib və ən mühüm bir şeydir. Siz söyləyirsiniz ki, bu barədə məsələ qaldırılmışdır. Arzu eylərdim ki, böylə xeyir işlər tez əmələ gələydi. Güman edirəm ki, qardaşlıq xatirəsinə, türklük şərəfinə Azərbaycan kəndisi üçün çalışarkən Avropa və yaxud başqa yerdə bizim Türküstanı da unutmaz. Bu gün hamısının gözü bircə buraya tikilmişdir.”

- Gələcəkdə Türküstan üsuli-idarəsini nasıl düşünürsünüz?

"Türküstanın gələcəyi bizi pək çox düşündürür, səbəbi də odur ki, Türküstanın bugünkü halı bizim üçün çox da aydın deyildir. Bir ay bundan əqdəm [qabaq] yenə də Türküstanda bolşeviklər tərəfindən yəğma və qarətlər olduğu xəbəri eşidildi. Hələ orada bolşeviklərlə menşeviklər miyanında [arasında] mübarizə gedirmiş. Orada hind və ingilis ordusu da bolşeviklərlə döyüşürmüş. Fəqət yenə də həqiqəti-hal məhəllində [yerində] bəlli olacaqdır. Buradan bir qəti şey söyləmək olmaz.

Biz buradan Azərbaycan Hökumətinin gündən-günə Müttəfiqlər yanında kəsbi-hörmət etməsi [hörmət qazanması], Azərbaycan istiqlaliyyətinin möhkəmləşməsinə böyük bir dəlil olduğunu görməklə qəlbən şad oluruz. Bizi məsrur edən [sevindirən] yenə bir şey varsa, o da Azərbaycanın hökumət təşəkkülü üçün oxu-muş adamlarının be-qədri-imkan [imkan daxilində] var olduğudur. Bizdə isə bu yoxdur."

- Sizlərin bir neçəsi Avropa Sülh konfransına gedəcəkmi?

"Bəli, gedəcəkdir. Lakin əzəlcə vətənə gedib orada millət tərəfindən nümayəndələr seçmək lazımdır. Bizi İstanbula getmək üçün seçmişlərdi, Avropanın böyük sülh məhkəməsinə seçməmişlərdi. İştə onun üçün biz buradan vətənə gedəriz. Orada bizi seçsələr, gəlib Avropaya gedəriz. Lakin bizi qəmgin edən bir şey vardır ki, bizdə Azərbaycanda olan kimi müstəid [istedadlı] oxumuşlar yoxdur. Rusiya istibdadı bu neçə illərdə Türküstanı bir sağmal inək kimi daima sağmış, mədəniyyət nuru ilə oranı parlatmamışdı."

- Atidə [gələcəkdə] Türküstanda nasıl bir idarə arzu edərdiniz? Madam ki, fəal və dəyərli kişilər [insanlar] yoxdur, o zaman Türküstan idarəsi kimə həvalə ediləcəkdir?

"Bu isə Türküstan üçün ən qorxulu halətdir. Çünki burada çalışan var, Türküstanda isə biz gedib kimlərlə işləyə biləcəyik? Bolşeviklərləmi biz müttəhid [birgə] və müttəfiq işləyəcəyik? Türküstanda bolşevizm tamam mənası ilə bir quldurluq şəklinə girmişdir. Bu isə bütün əhalini və bizi bolşevizmdən ikrah edəcəyi [nifrət etdirəcəyi] aşkar işdir. Əhali Rusiyadan büsbütün üz çevirmişdir. Çünki, biz müstəbid Nikolaydan birdəfəlik döndüyümüz kimi, bolşevizmdən də döndük. Kerenski zamanı bizi əzəldə çox sevindirdi, fəqət sonradan Kerenskinin adi bir rus olması, bizcə, aşkar oldu. O[nun] da Türküstana bir müstəmləkəyə baxan kimi baxdığı görüldü. Onun üçün biz hər bir idarə altına girməyə hazır olmaqla bərabər, Rusiyanın təhti-idarəsinə [idarəsi altına] keçməmiz-dən çox narazıyıq. Türküstan üçün ən sağlam, atimiz [gələcəyimiz] üçün ən məntiqi yol varsa, o da Azərbaycan ilə Türküstanın birləşməsidir. Əhalinin də buna artıq rəğbəti vardır. Türküstanın hər nasıl olsa, Rusiya idarəsi altından çıxmasına bizdən başqa qeyrilərinin dəxi çalışacağı təbiidir. Çünki, Hindistanı və başqa ingilis müstəmləkələrini fəqət [yalnız] müstəqil Türküstan mühafizə edəcəkdir. Bu nöqteyi-nəzərdən, Rusiyanı əski qüvvəsinə olmasa da, onun yarısı halına gətirmək ümumi siyasət nöqteyi-nəzərincə pək namünasib olacaqdır. Xüda nəxastə [Allah göstərməsin] Türküstan Rusiya ida-

rəsi altında qalarsa, o zaman irtica mübəşşirləri [xəbərçiləri] qudurmuş qurd kimi Türküstan üzərinə atılacaqlardır. Və bütün var-yoxumuzu daşıyıb iç Rusiyaya aparacaqlarına şübhə yoxdur. Bizi Rusiyaya vermək istəsələr, Türküstan əhalisi başqa idarəni Rusiya hakimiyyətinə tərcih görəcəkdir. Hər halda indidən Türküstan haqqında qəti bir söz demək erkəndir. İnşallah Azərbaycanın çalışması ilə biz də bir gün səadətə nail olacağımıza şübhə etməyiriz.”

M. H.

HƏQQ-TƏALA RƏHMƏT BUYURSUN

* Keçən gün, Keşlə camaati-müslimin [müsəlman camaatı] köylülər miyanında [arasında] meydana çıxardığı birinci el xadimi olan Kərbəlayi Hacı Mirzə Quluzadə həzrətləri ilə axırıncı dəfə olaraq vidalaşıb, onu kədərli torpaqlar altına göndərdi. Şu möhtərəm əfəndi, bütün ömrünü el xidəmatına sərf edərək, axırıncı nəfəsinədək ümumiyyət rahatlığı mərhumun virdi-zəbanı [dilinin əzbəri] olmuşdu. Kərbəlayi Hacı Mirzə kəndisinin bisavadlığına baxmayaraq, camaatının mədəniyyəti və məktəbi uğrunda ağır zəhəmata mütəhəmmil olarak [zəhmətlərə dözərək], ümumun məhbubülqülubu [qəlbinin sevimlisi] olmuşdu. Həyatının son günlərini aclıq ölümünə məhkum edilən camaatına təqdim edərək: “Həqir vücudum nəyə qabil, hangi qism fəaliyyətə layiq isə sərf ediniz, mən müzayiqə edəmməm [əsirgəmərəm]” dediyi üçün camaat yekdil olaraq müşarünileyhi [adı çəkilən şəxsi] yeni təsis edilən “İrşad” müstəhlik [istehlak] cəmiyyətinə sədr intixab edərək [seçərək], cəmiyyətin bütün ağır məşəqqətlərini o vücudi-möhtərəmin öhdəsinə həvalə edir. Bir sənə tam idarə etdiyi “İrşad”ın həm sədri, həm prikazçiki, həm alıcısı, həm satıcısı vəzifəsini ifa edərək, sənə tamında [ilin sonunda] kəmali-mətanətlə əhaliyə, bir min rublə ilə bina edilən cəmiyyəti 40 min rublə nəqdiyyə ilə təhvil verib, bistəri-mərəzə [xəstəliq döşəyinə] çəkilmişdi. Şu qədər ağır məşəqqətlərə təkcə Quluzadə kimi möhtərəm el və insaniyyət xadimləri mütəhəmmil ola bilərdi.

İştə bunun üçün müşarünileyhin “İrşad”da çalışqan baqi-mandə [geridə qalan] zəhmət yoldaşlarına, aileyi-kədərdidəsinə [kədərli ailəsinə] və bilümum Keşlə camaati-müsliminə [müsəlman camaatına] bəyani-təziyət edərək [baş sağlığı verərək], Allahu-təala həzrətlərindən onlara səbri-cəmil əta olunmasını istirham və təmənna edəriz.

* Genə 28 kanuni-əvvəldə [dekabrda] Seyidzadə Bədrəddin əfəndinin pədəri-möhtərəmi [möhtərəm atası] Ağa Mirkazım Seyidzadə həzrətləri dari-bəqaya rəhlət edərək [əbədiyyət evinə köçərək, vəfat edərək], xaki-qüfrani-əbədiyyətə [əbədi mərhəmət torpağına] çəkildi. Şu möhtərəm babanın əbədi olaraq camaat miyanından [arasından] çəkilməsi, bütün Keşlə caamatı üçün bir müsibət, yas təşkil etdiyi mühəqqəqdir [qətidir]. Yetmiş beş sinninə [yaşına] varmış şu qoca seyid, el maarifi və tərəqqisi uğrunda olmazın zəhəmata [zəhmətlərə] qatlanaraq, irs qoyub getdiyi xidəmatı şayani-heyrət və təqdirdir [heyrətə və təqdirə layiqdir]. Xüsusən, yeni fikirli cavan fəallarımızla qo-

calarımız miyanında, kəndi nüfuzu sayəsində bir vasiteyi-irtibat [əlaqə vasitəsi] idi. Cavanlarımızın yeni fikrinə qocalar ziddiyyət göstərdikdə, əks-rəftara başladıqda, Mirkazım ağa kəndi müdaxiləsi ilə cavanlara təqviyyət [güc] verərək, hər zaman yeni fikirlərə tərəfdar, tərəqqi və təalimiz [ucalmağımız] yolunda artıq səy etmədən müzayiqə etməzdi. Bu sayədə bir çox acı sərzənişlərə qatlanıb, kinayələrə səbr edirdi. Şunca sətirə kifayə edərək ümid bəsləyiriz ki, gələcəyimizi Mirkazım ağanın həmsinnləri [yaşıdları], mərhumun yürütdüyü fikir və məsləkinə rəvac verərək, onun ruhunu şad və biz səfillərə rəhbər olaraq sərgərdan buraxmazlar.

Allahu-təala həzrətlərindən mərhumun aileyi-kədərdidəsinə, xüsusən Seyidzadə Bədrəddin əfəndiyə səbri-cəmil kəramət etməsini niyaz və istirham eyləriz.

Ağababa Yusifzadə

BAKI XƏBƏRLƏRİ

* Həzrəti Məsih bayramı münasibətilə bələdiyyə idarələrində kanuni-əvvəlin [dekabrın] 24-ü (köhnə qayda üzrə) saat 12-dən etibarən işlər qət edilib [dayandırılıb], bütün 25, 26 və 27-sinədək iş olmayacaqdır.

* Bakı qubernatoru mənzil kameralarına [sahələrinə] dair Bələdiyyə İdarəsinə bir istihzah [sorğu] vermişdi. Bələdiyyə İdarəsi qubernatora cavab vermişdir ki, ən yaxın zamanda işbu məsələ Bələdiyyə Məclisinə veriləcəkdir.

* Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] kiçik komitənin iclasında doktor Bron, şəhərin hifzüssihhəyə [sanitariya-gigiyena qaydalarına] müğayir [uyğun olmayan] əhvalı barəsində bir məruzə oxumuşdur. Kiçik komitə qət etmişdir ki, məruzənin birər surətini general Tomson və Biçeraxova pişnihad [təqdim] edib, onların nəzərlərini buraya cəlb etməli, bu barədə "Kooperatsiya"ya da müraciət etməlidir. Qət edilmişdir ki, Mərkəzi Ev Komitəsi, Səhiyyə şöbəsinə 50 min rublə təxsis etsin [ayırsın].

* Dünən Mərkəzi Ev Komitəsi ilə kiçik komitənin müttəhid [birgə] iclası vaqe olmuşdur. İclasda əzadan [üzvlərdən] bir neçəsi üç dairədə intixabat [seçki] edilib, Mərkəzi Ev Komitəsi ilə mülhəq edildiyi [birləşdirildiyi] barəsində izahat verib, istefa vermək təklif etmişlər. Bu təklif hələlik qəbul edilməmişdir. Zira yekşənbə [bazar] günü yeni intixab olunacaqdır.

* Fəhlə muzdunun baha olduğu üçün dəmiryolu qiymətləri 1919 sənədə ucuzlaşdırılmayacaqdır.

* Ticarət və Sənaye Nəzarəti məhəlli [yerli] və gürcü müəssisədarları ilə bir çox müqavilə əqd etmişdir [bağlamışdır] ki, buradan cövhər aparıb əvəzində qənd gətirsinlər. Qəndin qiyməti 175 rublə-[dən] 200 rubləyədək olmalıdır.

Bakıdan ötrü ayaqqabı

Şəhərdə dəvəran edən [gəzən] şayiata məbni [şayiələrə görə], ən yaxın zamanda Bakı üçün ayaqqabı gətiriləcəkdir. Aldığımız məlumata görə, həqiqətən xüsusi Bakıdan ötrü Batuma 125-150 minədək ayaqqabı gətirilmişdir. Ehtimal ki, bunlar ev komitələri vasitəsilə əhali arasında təqsim ediləcəkdir [paylanacaqdır]. Şimdi-

likdə işbu şayiatdan naşi [ötrü] bazarda ayaqqabının qiyməti 500-dən 300 rubləyədək azalmışdır.

* İkinci uçastok ev komitələrinin ümumi iclasında Mərkəzi Ev Komitəsi tərəfindən adambaşına 30 qəpik alınması məsələsi müzakirə edilmişdir. Ev komitələri təşkilatının 20-ci maddəsinə əməl olunması qərara alınmışdır. Ev Komitəsinin məxaricini [xərclərini] örtməkdən ötrü ev kirayəsinin 10%-i kifayət etmədikdə, uçastok idarələri vasitəsilə Mərkəzi Ev Komitəsinə müraciət etməlidir. Ev Komitəsi sədrinin məsuliyyəti məsələsi şikayət edildikdə uçastok komitəsində baxılmalıdır.

* Düşənbə [bazar ertəsi] günü, yanvarın 6-dan başlamış ikinci uçastok ev komitəsi tərəfindən Bolşoy krepostnoy küçədə 47 nömrəli və Sadovı küçədə 34 nömrəli bürolarda girvənkəsi 3 manatdan çörək satılacaqdır. Bundan əlavə, girvənkəsi 3 manat 30 qəpiyə düyü, 5 manat yarıma səbzə, 1 manata burakı [qırmızı çuğundur] və 1 manat 20 qəpiyə soğan buraxılacaqdır. Ev komitələri ancaq düyü aldıqları zaman həyətdə yaşayan nüfusu [əhalini] yazıb göstərməlidirlər.

* Ticarət və Sənaət Nəzarətində [Ticarət və Sənaye Nazirliyində] mübadileyi-əmval [mal mübadiləsi] komisyonu təşkil edilmişdir. Mal dəyişdirilməsi haqqında oraya müraciət edilməkdədir.

ƏRZAQ İŞLƏRİ

* Ərzaq naziri, Ticarət və Sənaye Nəzarətindən təvəqqe edir ki, Azərbaycan ilə Gürcüstan arasında ticarət xüsusunda bağlanmış olan əhdnamənin surətini Ərzaq Nəzarətinə göndərsin.

* Ərzaq Nəzarəti Çxeidzeyə icazə vermişdir ki, Gürcüstandan beş vaqon qənd gətirib, Azərbaycanda azadə surətdə satsın.

* Ərzaq naziri tərəfindən Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] xəbər verilir ki, cəmi dəmiryol istasyon naçalniklərinə məlum etməlidir, bundan sonra Azərbaycan sərhədindən keçən və Azərbaycana göndərilən bəzzaziyə mallarını [arşın malını, parçanı], Ərzaq Nəzarətindən icazə olmasa buraxmasınlar.

* Qroznı mahalına 500 arşın bez aparmaqdan ötrü Məhəmməd Şərifova Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir.

* Ərzaq Nəzarəti Gəncə vəkilinə müraciət edib, Şamaxı uyezdi Mərəzə anbarlarında cəm olmuş taxılın Bakıya göndərilməsini istəmişdir.

* Ərzaq Nəzarəti Şamaxı qaçqınları üçün qət olunmuş min put buğdanın Şamaxı anbarlarından alınıb, Şamaxı vəkilinə verilməsini Gəncə vəkilindən xahiş etmişdir.

* Ərzaq Nəzarətinə xəbər verilmişdir ki, Bakı tamojnusunda [gömrüyündə] 24 min put tütün vardır.

* Ərzaq Nəzarəti Gəncəyə xəbər vermişdir ki, hökumət əmri ilə Ticarət və Sənaət Nəzarəti nəzdində mal dəyişdirmə şöbəsi açılmışdır. Bundan belə mal dəyişdirmə məsələsi haqqında həman şöbəyə müraciət olunmalıdır.

* Cəfər Rəcəbova Tiflisdən bir vaqon qənd gətirib Azərbaycan dairəsində azad satışa qoyulmasına icazə verilmişdir.

* Ərzaq Nəzarəti Mixail Kuçnayevə

Bakıdan Tiflisə 6 vaqon balıq aparmasına icazə vermişdir.

BİNƏQƏDİDƏN

1919-cu ilin yanvarın 3-də Binəqədi xalq evində biz Binəqədi müsəlman fəhlələri ictima [yığıncaq] quraraq məclisə əksəriyyəti-ara [səs çoxluğu] ilə Pirqulu Axnazarov sədr və Molla Həsən Qurban oğlu katib seçilir. Sədr axşam saat 6 tamamda məclisi açır. Bir natiq mart hadisatiəliməsini [kədərli mart hadisələrini] təsvir və mart hadisəsindən sonra müsəlmanların hali-dəhşətəngizini zikr edir. Sonra 8 aylıq siyasi övzanı [vəziyyəti] təsvirlə natiq, hürriyyət və təmini-hüquq məmləkəti olan İngiltərə dövlətinin, bütün dünyaya kəndi inqilabi-kəbiri [böyük inqilabı] ilə intibah səhifələri açmış olan Fransa dövlətinin və Vaşinqtonlar kimi əhrar [azad adamlar] vətəni olan Amerika cəmahiri-müttəhidəsinin [Birləşmiş Cümhuriyyətlərinin] tərəfindən paytaxtımıza iki aydan bəri gəlmiş olan general Tomson[un] bizə qarşı adilanə, şayani-təhsin və təqdir [bəyənilməyə və qiymətləndirilməyə layiq] rəftar və siyasətini, bütün hüququmuzu kəndimizə istirdad edən [geri verən] bəyənnamələrini, nəhayət hökumətimizi rəsmən Azərbaycanda qanuni külli-ixtiyar hökumət sandığını söyləyərək İngiltərə dövlətindən, Fransa, Amerika və İtaliya dövlətlərindən, şu dövlətlərin füqərayi-kasibəsindən [proletariatından] nəhayət dərəcədə razılıq izhar edir [razılığını bildirir]. *(Gurultulu, sürəkli alqışlar)*

Nəhayət Sülh Konfransının, yeni nəşət etmiş [meydana çıxmış] dövlətlərə birər yer verdiyini və hökumətimizin əsasını təhkim [möhkəmləndirmək] üçün bu yaxında Sülh Konfransına və ulu [böyük] dövlətlər paytaxtlarına nümayəndələr göndərəcəyini söyləyir. Nəticədə Azərbaycan türklərinin artıq əsarət altında yaşamayacaqlarını qeyd edir.

Sonra sədr cənabları bir çox danışıqdan sonra zeyldəki [aşağıdakı] qətnamələri təklif edir:

1) Azərbaycan Parlamanını təbrik və ona etimad.

2) "Znamya truda", "Naşe vremya" və "Vperyod" qəzetələrinə və bu kimi müfəttin [fitnəkar, şarlatan] qəzetələrə ciddi etiraz.

3) İngiltərə, Fransa və Amerika, İtaliya ümumcahan demokratiyasına teleqraf üzrə rizaməndlik [razılıq etmək] və onların tərəfindən Sülh Konfransına gələn nümayəndələrdən teleqraf üzrə 3 milyonluq azəri türklərinin hüququnu müdafiə etmələrini rica etmək.

4) Qəzetələrdə yazılır ki, Kəsbkarlar [Həmkarlar] İttifaqı iclasında, müsəlman fəhlələri tətil komitəsinə izhari-etimad etmişlərdir [etimad göstərmişdilər]. Bu mütləq yanlışdır. Müsəlman fəhlələri iqtisadi cəmiyyətlərdə ümum fəhlələrlə müttəfiq və müttəhiddirlərsə [birlikdədirlərsə] də, siyasi işlərdə yalnız Azərbaycan Cümhuriyyətinə etimad edirlər.

5) Parlaman, Kəsbkarlar İttifaqına üç yer vermişdir. Fəqət Kəsbkarlar buna razı olmayaraq, ümum Bakı fəhlələri tərəfindən Parlamana etiraz etmişlər. İctima, Kəsbkarlar İttifaqının şu xudsəranə [özbaşına] etirazına etiraz edərək o üç yerin ikisini müsəlman fəhlələrinə verməyi xahiş edir.

6) Bu yaxında müsəlman fəhlələri ictiması çağırılacaqdır.

Sədr: Pirqulu Axnazarov
Katib: Həsən Qurban oğlu

AZƏRBAYCANDA

Göyçaydan bizə yazırlar:

İstibdad zamanı öz balalarını rus ruhu ilə ruhlandırmaq və rus məktəbinə rəğbət etmək istəməyən müsəlman camaatı, məktəblərin milliləşmək xəbərini eşitcək, özlərini pərvanə kimi maarif işığına tullamağa hazır oldular. Millət balalarının bu vaxta kimi mal güdməkdən başqa bir işə məşğul olmayıb, avara və sərgərdan gəzməklərini nəzərdə tutan, daha yatmaq vaxtı deyil deyib qalxışan Göyçay uyezdinin bəzi kənd camaatları, xalq məktəbləri müfəttişinin Göyçaya gəlməyini bilib, öz tərəflərindən vəkilləri vasitəsilə məsləhətnamələr pişnihad [təqdim] ilə təveqqe etmişlər ki, onlar üçün kəndlərində məktəb açılsın. Lakin müfəttiş cənabları, kənd vəkillərinə müəyyən bir cavab verməliyindən, qara camaat arasında təzə parlamış maarif həvəsi sönmüşdür. Çünki vəkillər kəndlərinə qayıtdığı zaman camaat bir yerə cəm olub öz vəkillərindən kənddə məktəb açılacaq şad xəbəri əvəzində məyus gəldiklərini görüb onlardan betər məyus oldu. Ləkçılpaq, Kürdəmiş, Yalman, Qarabaqqal kimi kəndlərdə bu vaxta kimi məktəb yoxdur. Qaramadyan, İnçə, Müsüslü, Zərdab, Kəndəbil, Müskürlü və bunlar kimi bir çox böyük kəndlərdə məktəblər naməlum səbəblərə görə qapadıldı və ənqərib [yaxın] zamanda Göyçay uyezdində qalan xalq məktəbləri də qapadılması gözlənir. Bu da müəllimlər vaxtında məvacib almadığından və haqları tapdalanmağından nəşət edir [irəli gəlir]. Üç aydır ki, müəllimlər məvacib almayırlar.

Xülasə, məktəb barəsində Göyçay uyezdindən məlumat verib Maarif naziri həzrətlərindən rica edirik ki, vaxt keçməmiş, bu kəndlərdə məktəblərimiz olsun, ta ki, camaat məyus olmayıb, mənfəət görsünlər.

Əlif. Əlif.

Gəncədən bizə yazırlar:

Mövlud günü ibtidai məktəblərin müəllim və müəllimələri, mütəəllim və mütəəllimələri [oğlan və qız şagirdləri] hazır olduqları halda “Tavuqçu” ibtidaisinin mütəəllimlərinin və Adıgözəlov məktəbinin mütəəllimlərinin iştirakı ilə gündüz “Zarya-Şəfəq” teatrosunun salonunda Mövludi-nəbiyə dair şeirlər və milli şərqilər oxunduqdan sonra, həmin “Tavuqçu” məktəbinin mütəəllimləri tərəfindən “Çalışqan mütəəllim” nam [adlı] teatro, ümum Gəncə mütəəllim və mütəəllimələri üçün gündüz pulsuz mövqeyi-tamaşaya qoyuldu. Həmin günün axşamı müəllimələrdən Xuraman xanım, Fəramuş xanım, Səriyyə xanım mütəəllimələri ilə iştirak etdilər.

Bə’dəhu [sonra] varid olmuş [gəlmiş] möhtərəm artistlər iştirak edərək axşamına “Elan bəlası yaxud vaxtın var” və “Pulsuzluq” əsərləri “Tavuqçu” məktəbinin “Elmə doğru” cəmiyyətinin nəfinə [xeyrinə] oynanıldı və cəmiyyətlərinə 800 manat daxil oldu. Və əlavə Gəncə qəzasının maarif müfəttişi Cavad bəy Cuvarlinski cənablarından “Tavuqçu” məktəbi-

nin yetim mütəəllimlərinə 200 manat ianə verildi. Həmin gün sair ibtidai məktəblərin müəllim və mütəəllimləri tərəfindən 81 manat ianə olaraq gəlmişdir. Dübarə, Qafar Kərbəlayi Qurban oğlu 25 manat, Yusif çəkməçi 20 manat və Yaqub Mənsur oğlu 25 manat, Qara Məşhədi Hüseyn oğlu 15 manat, İsmayıl Hüseynqulu oğlu 15 manat ianə olaraq həmin cəmiyyətin nəfinə verdilər. Bu yuxarıda zikr olunandan anlaşılır ki, camaatımızla bərabər ibtidai məktəblərin mütəəllim və mütəəllimələrində də işləmək, milləti sevmək və maarifə çalışmaq hissi oyanmışdır. Və həm də demək olar ki, bu onların mütəəllimlik həyatında ancaq birinci addımlarıdır. Bu xüsusda Allahu-təaladan tofiq [kömək] diləyib deyirəm ki, yaşasın bu yolda çalışan möhtərəm müəllim və müəllimələr və kəndi tərəfimdən yuxarıda mövludi-nəbi münasibətilə ianə ilə və ya işlə iştirak edən cənablara qarşı təşəkkürümü izhar və bəyan edirəm.

"Tavuqçu" məktəbinin müdiri:
Paşa Hüseynzadə

İANƏ

Artist Mirzə Muxtar Məhəmmədov nəfinə [xeyrinə] olaraq idarəmizə aşağıda göstərilən zəvatdan [şəxslərdən] ianə gəlmişdir.

Şəfi bəy Rüstəmbəyov- 30 manat
Ceyhun bəy Hacıbəyli - 25 manat
Əliabbas Rzazadə- 25 manat
Hacı bəy Axundov- 25 manat
Cəmi 105 manat

Yeni güşad edilmiş [açılmış]
Dardanel lokantası

Hər gün təmiz və ləziz yeməklər hazırdır. Təbaxətdə [aşbazlıqda] fövqəladə ixtisas kəsb eyləmiş [qazanmış] olan aşçımızın təhti-nəzarətində [nəzarəti altında] hər dürlü Asiya və Avropa yeməkləri mövcud bulunur. Lokantada piano və skripkaçılar tərəfindən əhviyeyilətifə tərənnümsaz olmaqdadır [lətif havalar çalınmaqdadır]. Qiymətlərin fiatı əhvəndir [aşağıdır, ucuzdur]. Vorontsovski caddədə, Parapet qarşısında. Telefon nömrə 59-40. Müdir: Balabəy Xəlilbəyli.

* * *

Bu günlərdə müqtədir şairlərimizdən **Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin** "İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah" adlı mənzum əsərinin birinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

b. 4 – 3

Doktor
Doktor Samuil İzrailoviç
Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır.

Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi.

Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-1

AXŞAM TAMAŞASI

Hökumət Teatrosunda (sabiq Mailov) düşənbə [bazar ertəsi] günü, yanvar ayının 6-sında 1919-cu ildə Hacıbəyov Qardaşlarının müdiriyyəti artistləri iştirakı ilə bu mövsümdə əvvəlinci dəfə olaraq təntənəli və qayət gözəl surətdə Osmanlı tarixindən götürülmüş, mövqeyi-tamaşaya qoyulacaqdır:

Sultan Əbdülhəmidin
xəl’i [taxtdan salınması] və yaxud
zülm və istibdadın axırı

Faciə 5 pərdədə

Əsəri-Rza Zaki

Bu faciədə Ənvər və Niyazi bəylərin Əbdülhəmidi taxtdan endirib və onun yerinə Sultan Məhəmmədi-xamis [V Məhəmməd] həzrətlərinin əyləşməsi göstəriləcəkdir.

Səhnədə məşhur artistimiz Mirzəağa Əliyev millətə dair şeirlər oxuyacaqdır.

İştirak edir cəmi artistlər.

Tamaşa başlanacaq axşam saat 7-də.

Bu oyuna məxsus libaslar hazırlanmışdır.

Biletlər indidən satılır.

Rejissor: Rza Darablı

Müavin: Xəlil Hüseynov

Səhnəni tərtibə salan müdir: Hüseyn Rəhimov

2633

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Məhv olan millət kütləsinin naləsi: İmdad diləyi

səh. 83. "Tuğut": qəzetdə "Tuvut" kimi getmişdir.

"Əqəll: Hüseyn Hüseynov": "ən kiçik; ən az" kimi mənalara gələn "əqəll" sözü imzadan əvvəl işlədildiyində "aciz qulunuz; kiçiyiniz" kimi təvazökarlıq ifadə edirdi.

Məhv olan millət kütləsinin naləsi: Yenə imdad istəyirlər

səh. 84. "*Səvadi eyni telegraf ki...":* Farsca. Mənası: *"Naxçıvan, Ordubad, Şərur sakinləri vəkillərindən və Təbrizdə yerli hökumət rəisi Əmirzadədən Qafqaz Müsəlmanları Cümhuriyyəti dövlətinin konsulxanasına çəkilən teleqrafın mətni.*

Azərbaycan hökumətinin konsulu cənab Rauf bəyin xidmətinə: Ermənistan silahlı qüvvələri Qəmərli, Sədərək, Dəmirçi və bir çox kəndləri qətliam edərək hər tərəfdən üstümüzə hücum edirlər. Şərurda arvad-uşaqlar çöllərə qaçaraq tələf olurlar. Bu barədə vəliəhd həzrətlərinin hüzuruna ərz etmişik. O alicənabdan xahiş edir və yalvarırıq ki, Araz çayı sahillərində olan bir milyon arvad-uşağa rəhm edərək bu bəlanın qarşısını alsınlar. Böyük dövltətlərin konsullarını, xüsusən ingilis və Amerika dövlətlərinin konsullarını xəbərdar edin ki, tez bir zamanda ermənilərin vəhşicəsinə hərəkatının qarşısını alıb bizi xilas etsinlər. Əlavə olaraq xahiş edirik ki, bizim halımızı teleqrafla Azərbaycan hökumətinə, Tiflis və Bakıda olan ingilis dövləti [nümayəndələrinə] xəbər verəsiniz.

Naxçıvan, Şərur və Ordubad islam əhalisi sakinləri, yerli hökumət rəisi Əmirzadə."

"Qafqaziya müsəlmanları cümhuri": Azərbaycan Cümhuriyyəti nəzərdə tutulur.

Məhv olan millət kütləsinin naləsi: Zəngəzur əhaliyi-islamiyyəsinin fəryadı

səh. 84. "əsakiri-mənsurə": XIX əsrin əvvəllərində Osmanlı sultanı II Mahmud, bir neçə əsrdən etibarən Osmanlı hərbi təşkilatının əsas gücünü təşkil edən yeniçəri ocağını ləğv edərək, onun yerində "Əsakiri-mənsureyi-Məhəmmədiyyə" ("müzəffər islam əsgərləri") adlı təşkilatı qurdu. "Müzəffər əsgərlər" mənasına gələn "əsakiri-mənsurə" termini bu tarixdən etibarən Osmanlı ordusunu ifadə etmək məqsədi ilə işlədilmişdir.

səh. 85. "Milli Məclis": Zəngəzur müsəlmanlarının Milli Məclisi nəzərdə tutulur.

Sülh ətrafında: Sülh konfransı heyəti

səh. 86. "Rediną": I Rediną markizi Rufus Ayzeks nəzərdə tutulur.

Qəzetələrdən: Ukrayna inqilabiyyun firqələrinin əsası

səh. 88. "Zəhmət Konqresi": Ukrayna Xalq Respublikası Direktoriyasının hakimiyyəti dövründə ali qanunvericilik orqanı olan Ukrayna Zəhmətkeşlərinin Konqresi nəzərdə tutulur.

Qəzetələrdən: Lehistan Demokratik Cümhuriyyəti

səh. 88. Regent Şurası [Rada Regencyjna]: 1917-ci ilin noyabrından 1918-ci ilin noyabrına qədər Polşa Krallığının hökuməti.

"...Lublin[dəki] milli hökumət...": 1918-1939-cu illərdə mövcud olmuş Polşa Respublikası hökuməti nəzərdə tutulur.

Türküstan heyəti-müəxxəsəsi ilə müsahibə

səh. 89. "Tələt Kabinəsi": Tələt paşa Hökuməti 4 fevral 1917 – 8 oktyabr 1918-ci il tarixlərində hakimiyyətdə olmuşdur.

"İzzət paşa Kabinəsi": İzzət paşa Hökuməti 14 oktyabr – 8 noyabr 1918-ci il tarix-

lərində hakimiyyətdə olmuşdur.

“Tofiq paşa Kabinəsi”: Tofiq paşa Hökuməti 11 noyabr 1918 – 3 mart 1919-cu il tarixlərində hakimiyyətdə olmuşdur. Əhməd Tofiq paşa bundan əvvəl (1909-cu ildə) və sonra (1920-1922-ci illərdə) da Baş Nazir olmuşdur.

“Tofiq paşa Kabinəsi etilafçılardandır...”: “Etilafçı” deyərkən, Hürriyyət və Etilaf Partiyası nəzərdə tutulur.

səh. 90. “Sultan həzrətləri”: söhbət Osmanlı sultanı VI Məhməddən gedir.

səh. 92. “M. H.”: bu imza Hənəfi Zeynallıya məxsusdur.

Bakı xəbərləri

səh. 93. “...dair Bələdiyyə İdarəsinə...”: qəzetdə səhvən “...daireyi-Bələdiyyə İdarəsinə...” getmişdir.

Azərbaycanda:
Göyçaydan bizə yazırlar

səh. 96. “...ta ki camaat məyus olmayıb...”: “ta ki” yerinə qəzetdə səhvən “təzə” getmişdir.

Azərbaycanda:
Gəncədən bizə yazırlar

səh. 96. “Tavuqçu”: Gəncədə “Toyuqçu” küçəsi və məhəlləsi nəzərdə tutulur.

“Səriyyə xanım”: güman ki, Sürəyya Axundzadə olmalıdır.

(Elan)

səh. 97. “Bu günlərdə müqtədir şairlərimizdən...”: bu elanın əvvəli qəzetdə əskik çıxmışdır.

Çərşənbə axşamı, 7 yanvar 1919-cu il, nömrə 81

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Seşənbə, 4 rəbiülaxir sənə 1337. 7 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

ELAN

Caharşənbə günü, yanvarın 8-i saat 12-də Azərbaycan Məclisi-Məbusanının iclası təyin edildiyi məbuslara elam olunur [bildirilir].

2-1

DÜŞMƏNLƏRİMİZİN FƏALİYYƏTİ

Cavan Cümhuriyyətimizin, xaricən hal və övzasının [vəziyyətinin] necəliyi get-gedə aydınlaşıb, bu gün müəyyən bir şəkil almışdır. Bugünkü dostlarımızın, bugünkü düşmənlərimizin kimlərdən ibarət olduğu artıq bizim üçün aydın və aşkar olan bir həqiqətdir. Bu isə bizdən ötrü yaxşıdır. Çünki, düşmənin özü bir o qədər qorxulu deyildir. Qorxulu şey, düşmənin kim olduğunu və nerəmizə zərbə endirəcəyini bilməməzlikdir.

Hal-hazırda istiqlalımızın və bizzat [şəxsən] özümüzün nə növ düşmənlər təcavüzatına məruz qaldığımızı görməkdə və bu düşmənlərin nerələrimizi təhdid altına aldığını da aşkara sezməkdəyik.

Bugünkü düşmənimiz üçdür: ermənilərin “Daşnaksaqan” partiyası, rusların “Vahid Rusiya” tərəfdarları və bir də bunların “sosialist” namını daşıyan müxtəlif firqələri.

Daşnaksaqanların bizə qarşı ibraz etdikləri [göstərdikləri] düşmənçilik, əksərən cismani bir düşmənçilikdir. Onların fəaliyyəti, hududumuza soxulmaqda, əhalimizi qırmaqda və başlarına ənvai [müxtəlif] müsibətlər gətirib yer və yurdlarından fariq olmaq məcburiyyəti qarşısında qoymaqda ibraz olunur.

“Sosialist” namını daşıyan firqələr isə, bizimlə hələlik mənəvi bir mübarizə başlayıb, bu mübarizədə əksərən fəhlə orqanizatsiyalarına və müxtəlif sayuzlar təşkilatına istinad edir. Bunların fəaliyyəti nəticəsini, keçən günlərdəki zabastovkalardan gördük.

“Vahid Rusiya” tərəfdarları isə, Bakı Rus Milli Komitəsindən ibarət olub, “rus kəndləri mənafeyini müdafiə etmək” şüarı altında sabiq rus hökumətinin politikasını yeritməklə, bizə və istiqlalımıza qarşı politiki bir mübarizə açmaq fəaliyyətini göstərirlər. Rus kəndlilərinin guya Azərbaycan məmurları tərəfindən “zülümlərə” düçar olduğu haqqında qəzetələrdə qışqırıq salmaq, Müttəfiqlərə bizdən haq-nahaq şikayətlər etmək, Azərbaycanı rus mühacirləri ilə doldurmaq

və hər bir şəhərimizdə, hər qəsəbəmizdə rus milli ittifaqı təşkili ilə hökumət içində bir hökumət olmaq işləri bunların fəaliyyəti nümunələrindəndir. Hətta özlərinə məxsus bir qoşun qüvvəsi əldə etmək niyyəti dəxi bunların fikrini ciddi surətdə işğal etməkdədir. Bu yolda büyük ümidləri Biçeraxova və sabiq rus qoşununun bir para zabitanı [zabitləri] qisminədir.

Bunlardan əlavə, Rus Milli Komitəsi bu axır günlərdə başqa bir politika yeritmək işinə dəxi girişmişdir.

“Yedinaya Rossiya” adlı qəzetələrinin keçən günlərdəki bir nömrəsinin baş məqaləsində yazırlar ki, Azərbaycan isitiqlalı məsələsini “həll etmək” üçün “referendum” kimi bir şey yapmalıdır. Yəni ümum Azərbaycan əhalisinə müraciət edib cavab istəməlidir ki, görək aya Azərbaycanın müstəqil bir hökumət şəklində yaşamalarını istəyirlər, yoxsa Rusiyaya mülhəq olmaq [birləşmək] arzusundadırlar? Qəzetə əmindir ki, bu cürə müraciətin nəticəsində Azərbaycan məsələsi[ndə] Rusiyaya mülhəq olmaq qərarı hasil edilər. Çünki, qəzetənin zə’mincə [gümanına görə], Azərbaycanda yaşayan rusların Rusiyaya mülhəq olmaq arzuları mühəqqəq bir əmr [qəti bir iş] imiş. Azərbaycandakı ermənilər dəxi Azərbaycanın Rusiyaya mülhəq olmalarını istəyəcəklərmiş. Azərbaycan müsəlmanları isə genə əksəriyyətlə ilhaq tərəfdarı olacaqlarmış. Ondan ötrü ki, Azərbaycan torpağında Azərbaycan Hökumətindən və Azərbaycan istiqlalından narazı olan müsəlmanlar çox imiş. Bu cürə bir politika yeritmək niyyətiylədir ki, həman qəzetənin srağagünkü nömrəsində böylə bir xəbər oxuduq ki, guya Muğan çölündə yüz nəfər müsəlman və həştad nəfər ruslar kəndlilərindən mürəkkəb [ibarət] bir ictima [yığıncaq] vaqe olub, Muğan torpağı haqqında müzakirədən sonra bu qərara gəlibdirlər ki: *“Muğan çölü vahid Rusiyanın ayrılmaz bir hissəsidir.”*

Əlbəttə, hələlik Azərbaycan dövləti daxilinə keçməmiş olan Lənkəran uyezdi və Muğan çölündə ağalıq edən ruslar, buraların müsəlmanlarını və baxüsus [xüsusilə] işdən xəbərdar olmayan kənd əhlini qandırmaq [aldatmaq], cəbr etmək və aldatmaq kimi müxtəlif vasitələrlə istədikləri “qərarlar” ittixazına [qərar alınmasına] məcbur edə bilər. Vəilla [yoxsa], yüz ildən artıq bir müddət ərzində rus istibdadının olmazın məşəqqətlərinə məruz qalan müsəlman, öz xoşuna qalsa, təkrar bu məşəqqətlərə təhəmmül etməyi [dözməyi, qatlaşmağı] azad və asudə yaşamağa tərcih verərmi? Buna kim inanar? Heyvan heyvanlığı ilə cəbr və zülümdən qaçmağı özünə borç bildiyi halda, Muğan çölünün müsəlman kəndliləri bilməzlərmi? Halbuki orada bu gün ağalıq edən qoşun hissələrinin vurub dağıtmaq, kəsib qırmaq kimi zülümlərinin acılığından şikayət edən Lənkəran və Muğan müsəlmanlarının fəryadları qulaqlarımızı dəng etməkdədir!

Bəs, düşmənlərimiz və onların fəaliyyəti gözümüz önündədir; vəzifəmiz, düşmənin fəaliyyətinə qarşı əks-fəaliyyət göstərmək və bu növlə onların fəaliyyətini atil [nəticəsiz] etmək və əsərsiz [təsirsiz] buraxmaqdan ibarət olmalıdır. Bu yolda hökumətimizlə bərabər camaatımız dəxi kamali-ciddiyətlə işləyib, hər kəs və hər bir partiya bu mübarizə işində əlindən gələn köməyi Hökumətimizdən

müzayiqə etməməlidir [əsirgəməməlidir]. O köməyin nədən ibarət olması xüsusunda fikir və mülahizeyi-acizanəmizi xüsusi bir məqalə surətində gələcək nömrəmizdə ənzari-qareinə [oxucuların nəzərinə] təqdimini vəzifəmiz cümləsindən ədd [hesab] edirik.

Hacıbəyli Üzeyir

AZƏRBAYCAN HÖKUMƏTİNİN NOTASI

Kanuni-saninin 5-ində Azərbaycan Hökuməti Xariciyyə Nəzarəti, erməni hökumətinə böylə bir nota teleqrafı çəkmişdir:

"İrəvan Erməni Cümhuriyyəti Xariciyyə nazirinə.

Aldığımız məlumata görə, İrəvan quberniyası müsəlmanları külli miqdar müsəlləh [silahlı] erməni qüvvələrinin təcavüzlərinə uğrayırlar. Müsəlləh ermənilər, şəhərlərdə və kəndlərdə müsəlmanları qarət edir, öldürür, silahlarını əllərindən alır və cəbrən özlərinə tabe edirlər. Ermənilərin hücumuna qarşı bizdən kömək istəyirlər. Varid olan [gəlib çatan] məlumata nəzərən, ermənilərin təqibindən qaçıb Araz çayından keçən müsəmanların yalnız çayda qərq olanlarının miqdarı 300-ü mütəcavizdir [keçir]. Bundan əlavə bizə xəbər verirlər ki, son zamanlar Qazax yaxınındakı erməni kəndlərinə külli miqdarda nizami erməni əsgəri toplanır. Bu hərəkətlər Azərbaycanın həqqi-hakimiyyətini xələldar etməkdir. Hökumətin fövqdə məzkur vəq'ələri [yuxarıda deyilən hadisələri] Erməni Cümhuriyyəti hökuməti nümayəndələrinə yetirərək əvvəla erməni qoşunlarının İrəvan quberniyasındakı müsəlmanlara etdikləri təcavüz və təərrüzlər müqabilinə [hücumlar qarşısında] və saniyən [ikinci olaraq] həman qoşunların İrəvan quberniyasında Azərbaycan Cümhuriyyətinin ayrılmaz hissəsini və müsəlmanlarla məskun olan yerləri işğal etmələri müqabilinə protesto edir. Hökumətim əmindir ki, təcavüz və təərrüzlərin və iki dost qonşu cümhuriyyətin münasibatında [münasibətlərində] küdurət çıxara biləcək hərəkətlərin dayandırılması haqqında tədbirlər görüləcəkdir.

Xariciyyə naziri əvəzinə
Adil xan Ziyadxanov"

İRƏVAN: ERMƏNİ-MÜSƏLMAN MƏSƏLƏSİ

Açıq görünür ki, qədimdə, ya hazırda, daha doğrusu hər vaxtda beynəlmiləl zühur edən siyasi-ictimai əlaqələrə ən sadiq qalan və ona bihəqqin riayət edən bir camaat varsa, o da müsəlman camaatıdır.

Bu hal, müsəlmanların qüvvətli zamanlarında da, qüvvətsiz vaxtlarında da görünmüşdür.

Böyləliklə, indiki bu bolşevizm, demokratizm əsaslarının böyük rollar oynadığı dövrədə genə bu şüarların mahiyyətinə ən sadiq qalan və riayət edən yeganə bir ünsür müsəlmanlardır.

Necə ki, Azərbaycanda müstəqil hökumət təşkil etdiyimiz halda, məmləkətimiz daxilində yaşayan qeyri-müsəlman

tabelərimizlə ictimai və siyasi əlaqəmizi öylə bir halda yürüdürüz ki, bizim bu əlaqəmiz bolşevizm və demokratizm şüarlarının bəlkə bir dərəcə fövqündə bulunmaqdadır.

Tabeiyyətimizdə bulunan qeyri-müsəlmanların həyatı, məişətlərinə, dini, milli işlərinə, mədəni fəaliyyətlərinə müdaxilə etmədiyimiz kimi, məmləkətimizi idarə edən hökumət dairələrinin aşağıdan yuxarıya qədər hər təbəqəsində müsəlmanlardan artıq qeyri-müsəlmanlara məmuriyyətlər verməklə də, hökumətimiz işlərində iştirak etdirməkdəyiz.

Daxildə bu növ əlaqə ilə bulunduğumuz kimi, xaricən qonşularımızla da bu demokratiya üsuluna ən sadiqanə riayət edən biziz. Qonşuluğumuzda təşəkkül edən gürcü və erməni demokratik hökumətləri ilə hüsn-münasibət saxlamağa və sadiqanə əlaqə idamə etməyə [davam etdirməyə] ən artıq biz müsəlmanlar mail və arzukeşiz. Qonşularımızın həqiqi tarixi, etnoqrafi sərhədlərinə təcavüz, heç bir vaxt, “məcbur olmazsaq” xatirimizdən belə keçməz. Nalayiq təcavüzlərlə qonşu demokratlarının narahatlığını arzu etməyiz. Bu hallarımız eyni ilə göz önündədir. Bu hal isə – indiki vaxtda – bacarmadığımızdan deyil, bəlkə sadiqanə və demoktarik hərəkatımızdan irəli gəlməkdədir.

Demokratiya hüququnu riayətən, hüsn-münasibat ilə keçindiyimiz halda, biz heç bir yerdə qışqırıqlarla, intriqalı reklamlarla özümüzü aləmlərə elam [elan] etməməkdəyiz və bu hallı reklamları da şərəfimizə layiq görməməkdəyiz.

Lakin yanı başımızda yer tutmuş olan erməni qonşularımız isə ardı-arası kəsilməyən qışqırıqlarla və min dürlü intriqalarla donanmış reklamlarla özlərinin ən birinci demokrat ünsürlərindən olduqlarını hər an elam etməkdə bulunduqları halda, demokratiya hüququnun da ən birinci rəhmsiz və insafsız düşmənləri genə özləri olduqlarını hər gün müşahidə etdiyimiz feil və hərəkətləri ilə görməkdəyiz. Erməni millətinin zimamiidarəsini [idarə cilovunu] ələ almış olan pək çox simalar vardır ki, pəncələrindən məsumlar, məzlumlar, daha doğrusu fəqirlər, kəndçilər, fəhlələr, əkinçilər qanı axdığı halda özlərini genə demokrat namı ilə onun-bunun qucağına atmaqdadırlar. Bir tərəfdən demokratiyanı yıxıb, dağıdıb məhv edirlər, digər tərəfdən də özlərini hər süfrənin başında demokrat adlandırırlar.

Tühaf burasıdır ki, özgə millətlərin safdərun [sadəlövh], yaxud haldan bixəbər bəzi demokratları da bunların qanla müləmmə’ [boyanmış] əllərini görə-görə demokratlıqlarına bir zaman inanmışlardı. Fəqət məəlşükran [şükür olsun] ki, bu avanturist kütləsi feil və hərəkətləri ilə özlərinin demokrat ünsürü olmayıb, bəlkə demokrat aləminə müzirr [zərərli] bir mikrob olduqlarını həqiqətşünaslara bildirdilər, göstərdilər və göstərməkdədilər. İştə həqiqətpərəst vicdan lazımdır ki, erməni zimamdarlarının [cilov tutanlarının, idarəçilərinin] demokrat aləminə nə dürlü müzirr mikrob olduqlarını hər zaman bilsin, görsün…

İndi isə biz burada ancaq İrəvan müsəlman kəndçi və əkinçilərinin başlarına bunların nələr gətirdiklərindən bir qədər bəhs etmək istəyiriz. Erməni avantüristləri Nikolay taxtından düşürüldüyü

vaxtdan etibarən genə əvvəlki padişahlıq zümzümələrini təkrar etməyə başladılar və bu fikrin sövqü ilə də rus qoşunları dava xəttini boşlayıb getdikləri zaman rusların abqonu [rusları ötüb keçdilər], yaxud Nikolayın varisi oldular. Qafqaz xəttində ruslardan qalma cəbbəxanaları və dava ləvazimatını sahibləndilər. Yiyələndikləri bu silahları isə götürüb silahsız müsəlmanların üstünə düşdülər. Fəqət əcəba bunların top, tüfəng, pulemyot və qılıncları qabağında çapalayan insanlar burjualarmı idi, yaxud proletarlar və demokratlarmı idi?

Əvət, bu vicdansız qışqırıqçların top, tüfəng və qılıncı altında can çəkişdirənlər demək olar ki, demokratiyanın ən məsum və məzlum ünsürü olan İrəvan quberniyasının müsəlman kəndçisi və əkinçiləri olmuşdur.

Qışqırıqları ilə demokrat aləmini bizar edən erməni zimamdarları, başda Drolar, Pirumovlar olduğu halda, müsəlləh və müntəzəm erməni qoşunları ilə 1918 sənəsi fevral, mart, aprel ayları ərzində Novo-Bayezid, İrəvan, Sürməli, Eçmiyədzin və Aleksandropol mahallarında müsəlman kəndçi və əkinçiləri ilə məskun 230 para kəndi dağıdıb, yandırıb, talayıb və camaatları ilə belə məhv etmişlərdir.

Bu 230 kəndin fəqir əhalisini, demokratiyanın bünövrəsini təşkil edən minlərcə kəndçiləri və əkinçiləri rəhmsizcə və insanlıqdan kənar bir surətdə qırıb və bir çoxlarını arvadlı, uşaqlı, qocalı evlərə qapayıb, diri ikən yandırmışlardır. Genə bu ilin fevral-mart aylarında erməni general və afserlərinin komandası ilə müntəzəm erməni qoşunları Naxçıvan tərəfinə təcavüz edib, Şərur və Naxçıvan mahallarında bir çox mütəəddid [çox sayda] müsəlman kəndçilərinin damlarını, daxmalarını dağıdıb, əhalisini qırmışlar və mallarını talamışlardır.

Bu vəq'ələr, erməni hökuməti təşəkkül etməzdən əvvəl, Seym zamanında, müsəlman demokratiyası üstünə ermənilər tərəfindən edilmiş təcavüzlərdir.

1918 sənəsi may axırlarında, türklərin sazişi ilə və aralarında qərarlaşmış sərhədlər mövcibincə [əsasında] təşəkkül edən Erməni Cümhuriyyət Hökuməti vaxtından bəri isə İrəvan quberniyasında Basarkeçər, Talın, Milli dərəsi və Çığın dərəsi mahallarından ibarət 80 parəyə qədər müsəlman kəndləri erməni nizami qoşunlarının təcavüzləri ilə məhv və xarab edilmişdir.

Erməni fəsadçılarının təcavüzündən qaça bilən bir çox müsəlman kəndçi aileləri də qaçqınlıq bəlası ilə səhralarda, dağlarda aclıqlar, xəstəliklər içində məhv və tələf olmuşlardır. Erməni müsəlləh dəstələri silahsız və qüvvəsiz bu binəva kəndçilərin haqqında rəva gördükləri zülümlər və təcavüzlər əsnasında insanlığın və demokratlığın heç bir hüququna riayət etməmişlərdir və indi də etməməkdədirlər.

Mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə Osmanlılar İrəvan quberniyasından çəkildikdən sonra, İrəvan quberniyası müsəlmanlarının halı (qüvvəsiz və topsuz, pulemyotsuz olduqları üçün) daha da fənalaşmışdır. Ermənilərin özlərinə paytaxt etdikləri İrəvan şəhərindəki yerli müsəlmanlar, ermənilərin istilasından sonra evlərini, mallarını, dükanlarını, bağlarını buraxıb getməyə məcbur ol-

muşlardır. İndi bunların evlərinə, dükanlarına, bağlarına büsbütün ermənilər sahiblənmişlərdir. Böyləcə 23 minə yaxın İrəvanın şəhər müsəlmanları, dinc əhali ailələri evsiz-eşiksiz qalıb, bir çoxları İrana, Türkiyəyə, Gəncəyə, Tiflisə, Bakıya dağılıb, ətraflarda sərsəri bir halda yaşamaqdadırlar.

Osmanlılar çəkildikdən sonra İrəvan quberniyasının sırf müsəlman əkinçi və kəndçilərindən ibarət Şərur, Naxçıvan, Sürməli, Eçmiyədzin mahalları toplu bir camaati-vahidə [vahid bir icma] olduqları münasibətilə, millətlərin hüququna riayət ediləcək məşhur şüarına etimadən siyasi, mədəni və milli işlərini dolandırmaq üçün özlərinə camaat arasından bilintixab [seçki ilə] “Araz Türk Cümhuriyyəti” adı ilə bir hökumət qurmuşlardı və məhəlli [yerli] hökumətləri də müvəqqətən İrəvan yaxınlığında Qəmərli qəsəbəsini mərkəz ittixaz [qəbul] etmişlərdi.

Kəndçi və əkinçilərin intixabından mütəşəkkil müsəlmanların bu demokrat hökuməti, dərhal qonşuları erməni hökumətinə ucuz qiymətlərlə taxıl və ərzaq verməklə hüsn-müamilə göstərməkdə bulunmuşdur. Fəqət müsəlman kəndçilərinin yeni təşkil etdikləri bu demokratik hökumət, Erməni Cümhuriyyət Hökuməti demokratlığına xoş getməmiş, liha-za [buna görə] Erməni Cümhuriyyəti Hökuməti tərəfindən bu günlərdə Qəmərli qəsəbəsi üstünə topla, pulemyotla müsəlləh erməni qoşunları göndərilmişdir. Böyük və müntəzəm qüvvə qarşısında aciz qalmış müsəlman kəndçiləri özlərini şaşırmışlardır. Bu hal üzərinə erməni sərkərdələri də müsəlmanların malına, canına toxunmayacaqlarını elan edərək, əhalini inandırmışlardır. Camaat isə yarı aldanaraq, yarı cəbrən [zorla] silahlarını ermənilərə verərək təslim olmuşlardır. Lakin ermənilərin cümhur hökuməti təslim barəsində müsəlman kəndçilərinə verdiyi sözə sadiq qalmamış, erməni qoşunları qəsəbəyə girdikləri vaxt camaatdan bir neçə dil bilənləri öldürmüş və qalanlarına da evlərini, mallarını halı ilə buraxıb qəsəbədən çıxıb getmələrinə əmr vermişlərdir. Bu vəchlə İrəvan müsəlman demokratlarının mərkəzi Erməni Cümhuriyyəti idarəsinə daxil olmuş və kəndçidən, əkinçidən, kəsəbədən [yoxsullardan] ibarət bir çox ailələr də böyləcə qışın soyuq günlərində yerlərindən, yurdlarından çıxarılıb, ətraf mahallara qovulmuşlardır.

Qəmərli demokratları üstünə böylə hüquqşikənanə [qanunsuz] eylədikləri təcavüzdən sonra Erməni cümhur hökuməti indi də İrəvan quberniyası müsəlmanlarının yeganə bir ümid və sığınacaq yerləri qalmış olan müsəlman torpağı Naxçıvan və Şərur mahalları üstünə toplarla, pulemyotlarla mücəhhəz erməni qoşunları göndərmişdir. Topdan, pulemyotdan əliboş və erməni müntəzəm qoşunlarının rəhmsiz təcavüzləri qabağında aciz İrəvan quberniyası müsəlman kəndçi və əkinçilərinin nə hala düşəcəkləri və nə yaman günlərə qalacaqları, haldan məlumdur.

İştə bu hallarla ermənilər Qafqaziya demokratlarının istiqlaliyyət arzularına nərəva [rəva olmayan, haqsız] bir mane təşkil edirlər və bu kimi nalayıq hərəkətlərlə də Qafqaz demikratiyasının həyatını zəhərləyirlər.

Fəqət Qafqaziyanın ən sadiq və dinc

demokratlarını təşkil edən müsəlmanlar və müsəlmanların bütün kəndçiləri, əkinçiləri, fəhlələri, kəsbkarları öz gələcək müqəddəratlarının eyiləşəcəyini Parlamanımıza, Hökumətimizə və Qafqaziyamıza Müttəfiqlər ordusu namı ilə təşrif gətirmiş anqlosakson irqinin nəcib və həqiqətbin [həqiqəti görən] nümayəndələrinə mühəvvəl edib [tapşırıb], təsəlliyab olurlar [təsəlli tapırlar].

M[ir] A[bbas] Mirbağırzadə

TELEQRAF XƏBƏRLƏRİ

(Gürcü Teleqraf Acentəliyindən)

Yassı müşavirəsi

Odessadan xəbər verirlər ki, Yassı müşavirəsinin bir komissiyası Milyukov başda olmaq üzrə hal-hazırda İstanbuldadır. Müttəfiq dövlət nümayəndələri ilə mühüm müzakirat davam edir. Bu günlərdə Şerbaşev başda olmaq üzrə Rusiya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] oraya azim olacaqdır [yola düşəcəkdir].

Gürcüstan istiqlaliyyəti

Polkovnik Jordaniyaya.

Hərbiyyə nazirindən aldığımız teleqrafı Gürcüstan Baş naziri Jordaniyaya yetirməyi xahiş edirik:

"Hüsn-təvəccöhlə qəbul olunduq. Gürcüstan istiqlaliyyətinin etiraf [qəbul] ediləcəyinə ümid çoxdur. Rusiyanın bərpa edilməsi məsələsinin Gürcüstana dəxli yoxdur. Çünki Gürcüstan istiqlaliyyətinin təsdiq ediləcəyi həqiqətdən ibarətdir.

Avalişvili və Qambaşidze"

İngiltərə qatarı

Yanvarın 2-sində Batumdan Tiflisə 57 vaqondan ibarət İngiltərə heyətinin qatarı varid olmuşdur [gəlmişdir]. Bu qatarda səhiyyə xidmətçiləri, dəvacat [davadərman] və ərzaq şeyləri gətirilmişdir. Andreyevski küçədə olan üç mərtəbə ev, xəstəxana üçün vagüzar edilmişdir [ayrılmışdır].

Polkovnik Şmaqaylovun işi

Dzeqvin körpüsünü patlatmaq işində polkovnik Şmaqaylov edam cəzasına məhkum edilmişdi. Şmaqaylovun vəkili təzədən şikayətə başlamışdır.

İstidanın rəddi

Azərbaycan Hökuməti, Tiflis müəssisələrində Zaqatal nahiyəsinə dəxli olan sənədləri Gürcüstan Hökumətindən istəmişdi. Gürcüstan Hökuməti isə Azərbaycan Hökumətinin bu istidasını [xahişini] rədd etmişdir.

BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ
VI

Təəccüb burasıdır ki, quyuçuluğu əhli-kəsəbəyə [kasıblara] haram edən hökumət, həman quyuçuluğu böyük firmalara halal etmişdir. Bu firmalar buruq quyularının qonşuluğunda kamali-asudəliklə əl quyularını da işlətməkdədirlər.

Əl quyuçuluğu ilə məşğul olan firmalardan bir neçələrini burada zikr edirəm. Məsələn: Benkendorf və Kompaniya (уч. 5 Б и 16 Б), rus şirkəti "Neft" (уч. 221, Б), "Bruno" (VII гр. Бл.), "Bəradərani-

Nobel” şirkəti (уч. 27, Бн. и 24 Бл.), “Bakı Neft Cəmiyyəti” (IV, V, VI, VII, VIII въ Бл.) və sairləri.

Bundan əlavə, bir neçə il bundan əqdəm [qabaq], “Kazbek” və “Şimal” şirkətləri Balaxanı yerlərində (уч. 18, 19, 20) dərin buruqlardan bir şey hasil edəməyib, müflis çıxdılar və yerlərini də atdılar. Bu yerləri Torpaq İdarəsi təhvilə alıb, xəzinə mənfəəti mülahizəsi ilə əl quyuçularına icarəyə verdi ki, onlar da yuxarı qatların neftini çəkib istifadə etsinlər. İştə bundan görünür ki:

1) sabiq hökumət buruqçular (firmalar) ilə quyuçulara bir gözlə baxmamışdır və

2) hamı yerlər dərin buruqlara qabiliyyəti olmayıb, bir çoxu əl quyuları üçün əlverişlidir.

Bəs [deməli], əl quyularından heç bir vəchlə əl çəkmək olmaz.

“Quyuları torpaqlamaq” əmri sadir olduğu [meydana çıxdığı] əsnada, rəsmi məlumata görə, Abşeron ətrafında 11176 neft quyuları olmuşdur. (Balaxanıda 4949, Binəqədidə 1548, Sabunçu-Ramanıda 472, Xırdalanda 1999, Şubanıda 2208.) Bu quyulardan 3 ayın ərzində 1284-ü torpaqlanıb, 2600-ü də təzə ildən torpaqlanması üçün siyahı tərtib verilmişdir. Bu macəra, quyuçuları öylə bir həyəcana saldı ki, biçarələr kimdən və haradan imdad istəməyi çaşdılar. Bir çox ərizələr verildi, şikayətlər olundu. Nəticə də bu oldu ki, quyulara ağızlıq qayırmaq fərmanı verildi.

Fərz edəlim ki, quyuların hamısını torpaqla basdırdılar. Bundan nə fayda hasil olar? Məsələyə diqqət olunarsa, bu aşağıdakı ağır nəticələr hasil olar:

1) Quyuçuluq işi ilə məşğul olanların içində öylələri vardır ki, var-yoxlarını, hətta arvadların zinətini belə satıb quyuçuluğa sərf etmişlər. Müflis olanları da az deyil. Bu gün quyular bunların əllərindən alınarsa, çarəsizlikdən beş min sahibkar aclıq bəlasına məhkum olarlar.

2) Sahibkarlardan başqa 30 min fəhlə və əmələcat [işçilər] işdən məhrum qalıb cinayətə əl qatmağa məcbur olacaqlar. Keçmiş illərin polis bəratülqövllərinə [protokollarına] baxılarsa, bir çoxunda: *“Bu gün şəhər və mədənlərdə heç bir cinayət üz verməmişdir”* – yazılmışdır. Buna səbəb o olmuşdur ki, cinayət əhlindən bir çoxunun quyuçuluğa başı qarışıb, mərdimazarlıqdan da əl götürmüşlər. Quyular hərgah bağlanarsa, köhnə canilər yenə köhnə sənətlərinə qayıdıb camaatın asayişinə də xələl qatacaqlar. Bu qədər fəhlə və əmələcatın 2%-i rus, 1%-i erməni, 1%-i gürcü və 96%-i də müsəlmandır. (Baxınız nə qədər müsəlman işsiz qalıb cinayətlə məğul olacaqdır.)

3) Hər gah hər quyunun məsarifinə azı bircə min manat pul xərclənibsə, 11 min quyuya əqəllən [ən az] 11 milyon manat pul xərclənmiş olur. Quyular torpaqlanarsa, camaatın bir bu qədər qəpik-quruşu torpaq altında batıb gedəcəkdir. Məsarif pullarının 6%-i ermənіyə, 3%-i ruslara, 1-%-i gürcülərə, 90%-i müsəlmanlara mütəəlliqdir [məxsusdur]. Yəni müsəlman əhli-kəsəbəsinin [kasıblarının] 10 milyona qədər pulu batıb gedəcəkdir.

4) Quyular basdırılarsa, illik neft məhsulatının miqdarı 40-50 milyon put azalar. Bu isə, neftin daha artıq bahalaşmasına bais olacaqdır. Bu barədə höku-

mət özü çox cidd-cəhd edir ki, neft artıq bahalaşmasın. Zira dəmir yollarından əlavə, bir çox dövlət fabrika və zavodları məhz neftlə işləyirlər. Əlavə, neft bahalığının bir çox fabrika məhsulatına da sirayəti [təsiri] vardır.

5) Söz yox ki, neft azaldıqca xəzinə varidatı da – ki ibarət olsun yerlərin icarə haqqından və yaxud put hesabı gəlirdən (попудный сбор) – bunlar da azalacaqdır.

6) Quyuların bağlanması yüzlərcə neft mənqulələrinin [boru kəmərlərinin] (нефтепроводы) qapanmasına bais olacaqdır.

7) Quyuçulara daha artıq təsir edən nöqtə, həman quyuların, sahibləri məxarici ilə doldurulmasıdır. Həm mədaxildən [gəlirdən] məhrum, həm də quyuları torpaqlamaq məxaricini [xərcini] verməyə məcburdurlar.

Qanunun bir maddəsi də quyulara adam sallanılması qadağanlığıdır. Bu maddə, guya insaniyyətpərvərlik nöqteyi-nəzərindən qoyulmuşdur ki, kənkanlar quyuların içərisində qaz və sair bəlayi-nagəhandan [gözlənilməz qəzadan] həlak olmasınlar.

Əlbəttə, insan ömrünə qiymət qoymaq lazımdır. Lakin sənətlər arasında və ələlxüsus mə'dəniyyat [mədənçilik] işlərindən heç biri fədakarlıqsız olmayıb. Doğrudur, bu gün gərək cürbəcür çarə və tədbirlər ittixaz olunsun [tətbiq edilsin], ta ki, bu insan həlakəti ildən-ilə az ittifaq düşsün [təsadüf edilsin]. Amerika və rumın mə'dənlərində həman çarələr ittixaz olunmuşdur. Bizim mə'dənlərdə də o çarələrdən, o qanunlardan dəb salmaq lazımdır.

O gündən ki, quyuya adam sallamaq məsələsi qadağan olmuşdur, işləri yarımçıq qalmış quyuçular naəlaclıqdan xəlvətcə iş görməyə şüru etmişlər [başlamışlar]. Böylə ki, hökumət məmurlarını bəkləmək üçün ətrafa gözətçiləri düzüb, kamali-əmniyyətlə quyularda iş görürlər. Hətta gündüzləri mümkün olmadığı halda, gecələr fənər işığına quyuları qazırlar. Məlumdur ki, böylə xəlvət və gizlicə quyu qazmağın xətası da çox olar. Yaxşısı bu deyilmi, rumın qanunlarını burada da icra edəydilər. Ta ki, gecələr qaranlıq quyularda işləyən kənkanlar boğulub həlak olmayaydılar.

Mə'dənlərdə tərtib verilmiş həlakət cədvəllərinə baxılarsa, bu məlumatdan anlaşılar ki, quyularda həlak olanların ədədi böyük mədənlərdə həlak olmuşlardan iki-üç dəfə azdır. Məsələn: 1915-ci ildə əl quyularında 17 nəfər adam tələf olmuşdur ki, bu da ümum fəhlə ədədinə nisbət 0,13 faizdir. Halbuki, böyük mə'dənlərdə onların qədəri 2,7 faiz olur. (Yəni böyük mə'dənlərdə 20 dəfə artıq ittifaq düşür.) Bəs əl quyularında o qədər can tələf olmayıb ki, ondan ötrü quyulara adam sallamağı qadağan etsinlər.

Fərhad Ağazadə

QƏZETƏLƏRDƏN

Hindistan üzərinə hücum

Moskvadan Xarkov qəzetələrinə xəbər verilir: Moskvada təşkil edilmiş birinci mitinqlərdə Şura qoşunlarının Hindistan üzərinə hücum etməsi məsələsi müzakirə edilmişdir və bununla Şura Höku-

məti İngiltərəyə böyük zərbə vurmaq istəyir. Sameinlər [dinləyicilər] bu fəqərəni [hadisəni] eşitdikdən sonra bu rəyə gəlmişlər ki, imperator Petri-əvvəl [Birinci Pyotr] və Pavelə müyəssər olmayan bu iş, Şura qoşunlarına müyəssər olacaqmış. Zira Şura qoşunlarının məqsədi, məzlum millətləri zülümdən azad etmək imiş.

Berlində matrosların xürucu [iğtişaşı]

Berlindən simsiz teleqrafla xəbər verilir: Berlin komandanlığı imarəti qarşısına külli matrosların gələrək komendant Velsə bir tələbnamə təqdimi ilə məvaciblərinin bilatəxir [gecikdirmədən] vaxtında verilməsini israr etmişlərdir. Komendant Vels bu əhvaldan həyəcana düşərək dərhal pulemyotlarla qarovulda duran nəfəratı [əsgərləri] tələb eylər, fəqət bunlar gəlməmişdən matroslar komendantı, onun acudanı [adyutantı] Fişeri və digər bir nəfəri saray tövlələrinə apararlar. Nəhayət bu xüsusda matroslarla hökumət ricalı [adamları] arasında olan danışıq komendantın qulluqdan çıxarılması və məhbusların azad edilməsi ilə nəticələnir. Atışma zamanı bir matros qətl [edilmiş], iki nəfəri isə yaralanmışdır.

Berlin – (Yenə simsiz teleqrafla xəbər verilir.) Dekabrın 21-də sübh zamanı qvardiya hissələri matrosların sakin olduqları [qaldıqları] imarəti əhatə edirlər. Matroslara silahlarını təslim təklifi edilir. Fəqət matroslar bu təklifi rədd etdiklərindən, qvardiya hissəsi imarətə hücum edir. Bunların arasında müsadimə [toqquşma] davam edərkən, qvardiya hissələrindən bəzi nəfərlər matrosların tərəfinə keçirlər. Top qumbaralarından imarət artıq dərəcədə mütəzərrir olmuşdur [ziyan çəkmişdir]. Səhər saat 10 radələrində imarətə qarşı açılmış olan atəş dayandırılır. Nəhayət, şiddətli top atəşinə məruz qalan matroslar güzəştə məcbur olurlar. Saat 11-də bunların arasında razılıq əmələ gəlir. Matroslar təslim olub ibtida birər-birər, sonra dəstələrlə imarətdən çıxıb gedirlər. Matroslar tərəfindən təslim edilən silahları qvardiya qışlalarına [kazarmalarına] göndərirlər. Matrosların tələfatı 63 nəfər göstərilsə də, fəqət hərbi dairələrdə yalnız qətl olunan matrosların ədədi həştadadək təxmin edilir. Hökumət qoşunlarının da tələfatı olmuş, fəqət qədəri hənüz bəlli deyildir. Sübh vaxtı matrosların olduğu imarət yanında külli əhali var imiş və bunlar birdən-birə imarət həyətinə soxulmuşlarsa da, qoşunlar tərəfindən dərhal puskürdülmüşlər.

Berlin – “Forverts” qəzetəsinin bu hadisət barəsində verdiyi son məlumat böylədir: Matroslar və onların həmfikirləri tələb edirlər ki, Ebert və Haaze hökuməti istefa verib və yerlərini Ledebur-Libknextə versinlər. Firqələrin əlaqəsi kəskin halda davam edir. Dəmiryol tərəddüdatı [gediş-gəlişi] adi halında olmadığı üçün Məclisi-Müəssisandan qabağa təyin edilmiş olan müstəqil demokratların iclası baş tutmayır.

İngilislərin hazırlığı

Qara dəniz iskələlərinə ingilislərin külli nəqliyyat gəmiləri varid olmuşdur [gəlmişdir]. Bunların yükü tank, zirehli avtomobil, pulemyot, tüfəng, patron və sair ləvazimi-hərbidən ibarətdir ki, bun-

larla ingilislər bolşeviklərlə mübarizə edəcəkdir.

Ukraynada

Petlyuraçılar Kiyev, Xarkov və Yekaterinoslavı işğal etmişlərdir. Yekaterinoslavı işğal üçün edilən müharibə tam üç gün davam etmişdir. Petlyura qoşunları könüllüsü və getman dəstələri ilə müharibə edirmişlər. Petlyura dəstəsinə sərvətli siniflər (burjuaziya) və tərəqqipərvərlər [proqressistlər] də mülhəq olmuşlardır [birləşmişlər].

Moskvada böyük yanğın

Moskvada Kursk vağzalında düşmüş olan yanğından dörd böyük anbar yanmışdır. Bu yanğının xəsarəti bir neçə milyon manatdır.

İngilislərin bolşeviklərlə müharibəsi

Riqa xəlicində [körfəzində] ingilislər bolşeviklərə böyük zərbə endirmişlər. Dəniz müharibəsində bolşeviklərin bir paraxodları qərq olub, bir paraxodları isə komandası ilə bərabər Müttəfiqlərin tərəfinə keçmişdir.

İngilislər Kronştadtda

Müxtəsər bir müsadimədən [qısa bir toqquşmadan] sonra ingilislər Kronştadtı işğal edib orada olan bütün bolşevikləri çıxarmışlardır. Bolşeviklərin burada külli qüvvələri var imiş.

Odessada

Hal-hazırda Odessa şəhəri Müttəfiqlərin və Könüllü qoşunların əlindədir. Petlyuraçılar Odessanı işğal etmək istəsələr də, lakin yenə özləri bu işdən vaz keçib demişlər ki, onlar Könüllü qoşunların əleyhinə iş görsələr də, hər halda Mütəffiq qoşunların qarşısına çıxmayacaqlardır.

Rusiya məsələsi

London – (Simsiz teleqraf xəbəri) "Voskresnaya qazeta" xəbər verir: Mövsuq [etibarlı] mənbələrdən verilən məlumata görə, Rusiya məsələsi Etilaf [Antanta] dövlətləri ricali-hökumətləri [hökumət adamları] arasında ciddi surətdə mövqeyi-müzakirəyə qoyulmaqdadır. Bu barədə qəti qərar qəbul edilməmişdir. Fəqət hamısı buraya gəlmişlər ki, Rusiya məsələsi həlli təxir qəbul etməz bir haldadır və təcilən onun həll edilməsi lazımdır. Amerika rəisi-cümhurisinin [prezidentinin] Londona vürudu [gəlişi] ilə Mütəffiqlərin Rusiya xüsusunda lazım gələn iqdamatda [təşəbbüsdə] bulunması gözlənilir. Neçə vaxt bundan əvvəl bolşevik qüvvəsinin qədəri barəsində qəmgin xəbərlər yetişirdi və bu xəbərlər məhafili-siyasiyyəni [siyasi dairələri] düşündürürdü, amma indi anlaşılır ki, bu xəbərlər mübaliğəli imiş. Bolşeviklərin qüvvəsi üç yüz min müharibəyə yarar saldatlardan artıq deyildir. Bolşevik qoşunları ilə Kubanda təşkil edilmiş olan qoşunların miqdarı yüz min birinci sinif əsgərlərdən ibarətdir ki, Müttəfiqlərin müavinətinə məzhər [köməyinə nail] olurlar.

VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Ərazi və Dövləti Əmlak [Dövlət Əmlakı] nazirinin Azərbaycan balıq vətəgələ-

rinin icarəyə verilməsi haqqındakı məruzəsini istema etdikdən [dinlədikdən] sonra Şura qərar vermişdir ki:

1) Kanuni-əvvəlin [dekabrın] 28 və 29-da vüqu bulmuş Azərbaycan balıq vətəgələrinin müsabiqə ilə icarəyə verilməsini təsdiq etməli;

2) Müsabiqə ilə icarəyə verilməmiş vətəgələri təsərrüfat qaydası ilə icarəyə verilməyi Ərazi və Dövləti Əmlak nazirinə tapşırmalı;

- Maliyyə naziri Azərbaycandan əcnəbiyyəyə aparılacaq balığa (seld) [siyənək balığı] vergi təyin olunmasını təklif etmişdir. Azərbaycandan aparılacaq seldin putundan bir rublə gömrük alınacaqdır.

İngilis komandanlığının təşəbbüsatı

İngiltərə komandanlığı Şurayi-Vükəlaya müraciətən Dadaşovun dəniz kənarındakı evi və ticarət məktəbi evini məzkur [adı çəkilən] komandanlıq ehtiyacatı üçün verilməsi haqqında təşəbbüsatda bulunmuşdur.

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Fəhlə və material baha olduğuna görə, 1919 sənəsi dəmiryol tə’rifələri [tarifləri, qiymətləri] həman qərar üzrə qalacaqdır.

- Hal-hazırda Maliyyə Nəzarətində hökumət idarələrinin yuriskonsullarından [hüquq məsləhətçilərindən] ibarət bir komissiya işləməkdədir. Bu komissiyanın qəsdi, neft firmalarının etibarnamələri məsələsini həll etməkdir. Bunların vaxtı qurtardığına görə təzədən təcdid [bərpa] edilməsi lazım görülmüşdür. Neft mə’dənlərinə lazım gələn mallar üçün para buraxılması məsələsi də bununla əlaqədardır. Etibarnamələrini təzələyən firmalar bilamümaniət [maneəsiz] təxsisat [pul, vəsait] alacaqlardır.

- Ticarət və Sənaət [Sənaye] Nəzarəti məhəlli [yerli] və gürcü müəssisələri ilə müqavilənamə əqd etmişdir [bağlamışdır] ki, neftə əvəz olaraq putu 175 manatdan 200 manata qədər qənd gətirsinlər.

ORDAN-BURDAN

Sülh Konfransında
-1-

Hamı yığılıbdır. Dünyanın hər tərəfindən adamlar vardır. Aşnalarımızdan daşnaklar, Rus Milli Komitəsinin adamları və Bakı “sosialistləri” dəxi burada hazırdırlar. Bizimkilər də yığılıb kənarda bir küncə qısılıbdırlar. Daşnaklar, Amerika və Fransa adamları ilə nə barədə isə məhrəmanə danışıb bizimkilərə tərəf işarələr edirlər. Bunun nəticəsində Amerika və Fransa adamları “larnet”lərini gözlərinə tutub bizimkilərə diqqətlə tamaşa edirlər. Və öylə tamaşa edirlər ki, guya “dəvə, nalbəndə baxır.”

Zəng çalınır, hər kəs öz yerini tutur. Sədr, məclisin açıldığını elan edir. Ruznameyi-müzakirat [müzakirə gündəliyi] oxunur. Məclis əhlinə söz verilir. Əvvəl-əvvəl daşnaklardan biri söz alıb kürsiyi-xitabətə çıxır və deyir:

Daşnak: Həzərat! Sizdən sual edirəm, mədəniyyət aləminin mədəni nümayəndələrindən təşəkkül etmiş olan bu mədəni məclisdə əcəba quldurların, baş kəsənlərin və qarın yırtanların nə işi vardır və onlara kim izin veribdir ki, buraya gəlib bu pak məclisi qanlı əlləri ilə napak edirlər?! Mədəniyyət naminə rica edirəm ki, quldurlar bu məclisdən qovulsun. Zira onların yeri bura deyildir, bəlkə həbsxanadır!

RMK (Yəni Rus Milli Komitəsi): Daşnakların təklifinə biz də şərikik.

BAKUS (Yəni Bakı "sosialistləri"): Biz də daşnakların təklifində şərikik.

Sədr: Quldurlardan məqsud kimdir?

Daşnak: Bax, o küncdə əyləşənlər! – deyib bizimkilərə işarə edir.

Sədr (bizimkilərə): Əfəndilər, deyirlər ki, siz quldursunuz!

Bizimkilər: Yalan deyirlər. Biz quldur deyilik.

Sədr: Öylə isə, daşnakların təklifini səsə qoyuram. Hər kəs bu adamların quldur olduğu və quldur olduqlarına görə də məclisdən çıxarılması tərəfdarı isə, əlin qaldırasın.

İngilislər, firənglər, amerikanlar və sair Yevropa və Amerika millətləri nümayəndələri məsələdən xəbərdar olmadıqlarına görə bitərəf qalıb, səsdə iştirak etməyirlər. El qalxızanlar bunlar olur: daşnaklar (iki əlləri ilə), RMK-lər və BAKUS-lar.

Sədr: İndi də hər kəs bu adamların quldur olmadıqlarını və ona görə də məclisdə qalmaqlarını iltizam edirsə [lazım bilirsə], əlin qalxızsın.

Gürcülər, dağıstanlılar, Osmanlı türkləri, hindlilər, əfqanlılar, türkmənlər, Volqa boyu müsəlmanları, qərəz, ərəb əmirləri ilə iran vəzirlərindən başqa hamı islam nümayəndələri əl qalxızırlar.

Əksəriyyət bu tərəfdə olduğuna görə, bizimkilər məclisdə qalır. Daşnaklardan biri təkrar izin alıb kürsüyə tərəf yüyürür və üzünü ümum yevropalılara tutub mütəğəyyir və mütəhəyyic [təbdən çıxmış və həyəcanlı] bir surətdə, baş-qol oynada-oynada, dişlərini qıca-qıca və çığıra-çığıra deyir:

Daşnak: Ermənistani-kəbir [böyük Ermənistan] mənə qənim olsun, Ararat dağı üstümə yıxılsın, Andranikin qəzəbinə gəlim, daşnaksaqan olmayım hər gah yalan deyirəmsə, siz yevropalılar çox məzəli adamlarsınız!!! Nəinki məzəli, hətta açıq-açığına deyə bilərəm ki, sizin işiniz "xata-bala"dır! Siz getdikcə bizim ümidlərimizi puç edirsiniz. Biz ümid edirdik – ümid nədir ki – lap yəqinimiz idi ki, biz sizə bu quldurları nişan verən kimi, siz həman saat onları qovacaqsınız! Amma siz bizim sözümümə etibar etmədiniz. Deməli, bu əlli ilin ərzindəki zəhmətlərimiz hədər getdi! Deməli, siz bizim bu qədər şikayətimizlərə əlli ilin ərzində "hə, hə" deməklə məhz öz politikalarınızı yeritmək istəyirmişsiniz! (Üzünü BAKUS-lara tutur:) Ey Rusiyanın sosialistləri! Görürsünüzmü burada oturan yevropalılar həqiqi demokrat deyildirlər. Bəlkə hamısı imperialistdirlər! Bəs niyə durubsunuz, niyə qışqırmayırsınız ki, daloy [məhv olsun]! Niyə bolşevikləri çağırmayırsınız?! Ey Rus Milli Komitəsi! Rusiyanı dağıdan həmin bu yevropalılar oldu! Qafqazı tatarlara və gürcülərə verən bunların Tomsonları oldu. Samasud! Samasud! [Linç edilsinlər!]

Sədr: Cənab natiq, təvəqqe edirəm ki, provokatorluq etməyəsiniz, vəilla [yoxsa], sizi kürsüdüən düşürtməyə məcbur olaram.

Daşnak: (Daha yanıqlı) Bəs görünür siz bizləri ələ salırmışsınız, – deyib qabağındakı stola bir yumruq vurur.

Sədr: Cənab natiq, stolu sındırsanız, qiymətini verməyə məcbur olacaqsınız.

Daşnak: Cəhənnəmə sınsın! – deyib bir-iki yumruq da vurarkən yevropalıların acığı tutub: – Bu nə vəhşi şeydir, bunun özü quldura oxşayır, – deyib tələb edirlər ki, natiq kürsünü boşaltsın. Daşnaklar, RMK-lər və BAKUS-lar səs-küy salıb çığır-bağır edirlər və öz aralarında məsləhətləşirlər. Daşnaklar həmfikirlərini qızışdırıb təhrik edirlər ki, bizimkilərin qolundan tutub zorla bayıra çıxartsınlar. RMK-lər məsləhət görürlər ki, Biçeraxovun qoşunlarını köməyə çağırsınlar. BAKUS-lar deyirlər ki: Hələ qan tökmək yeri deyildir. Statitçnı kamitet əmələ gəlib zabastovka elan edilsin.

Sədr, zəngi çalıb qışqırıq salanları sakit olmağa məcbur edir.

Filankəs

BAKI XƏBƏRLƏRİ

Kanuni-əvvəlin [dekabrın] 26-sında (köhnə qayda ilə) Realnı məktəbin axırıncı sinfinin mütəəllimləri [şagirdləri] həman sinfin fəqir və biçiz [yoxsul] şagirdləri nəfinə [xeyrinə] müsamirə tərtib verəcəklərdir.

Arakelyanın vəfatı

Bakıda ingilislər tərəfindən həbs edilib, Ənzəliyə göndərilmişlərdən olan sabiq Bakıdakı diktatura üzvü Arakelyan səpmə yatalaq xəstəliyinə düçar olub, Ənzəli xəstəxanasında yatmışdı. Aldığımız məlumata görə, Arakelyan 5 kanunisanidə [yanvarda] vəfat etmişdir.

Bakıdan ötrü odun

Ərzaq Nəzarəti Xudat mövqifindəki [stansiyasındakı] Rılski mülkü müdirinə Bakı şəhərinin ehtiyacatı üçün 9 vaqon odun gətirməyə izin vermişdir.

Mal mübadiləsinə dair

Ticarət və Sənaye Nəzarəti cənbində [nəzdində] Azərbaycan Hökuməti qətnaməsi mövcibincə [əsasında] bir komisyon təşkil edilmişdir ki, Azərbaycandan əcnəbiyə mal və ərzaq aparmaq üçün vəsiqə verir. Gömrük idarəsi də Azərbaycandan azad surətdə əcnəbiyə balıq aparmaq üçün vəsiqə verir.

Bakıya ərzaq vürudu [gəlməsi]

Ərzaq Nəzarətinin statistika məlumatına görə, kanuni-saninin [yanvarın] 5-ində 5971 put buğda, 180 put un, 204 put kartof, 583 put arpa, 660 put saman, 4500 put odun gətirilmişdir.

* Kanuni-saninin 5-ində Ənzəlidən varid olmuş “Dağıstan” vaporunda ingilis ordusu ehtiyacatı üçün 7 min put növbənöv mal gətirilmişdir.

* Mərkəzi Ev Komitəsinin iaşə məntəqəsi xəbər verir ki, biçiz [yoxsul] müsəlman əhalisi üçün ərzaq şeyləri buraxmaqdan ötrü şöbə tərəfindən bir məntəqə açılmışdır. Adambaşına girvənkəsi

iki manatdan un, düyü, noxud və lobya buraxılır. Ehtiyacı artıq olan kasıblara Ev Komistəsinin şəhadətnaməsi ilə məzkur [adı çəkilən] şeylər pulsuz buraxılacaqdır. Ev komitələrinin şəhadətnamələri uçastok komitə[si] tərəfindən təsdiq edilirlər. Ərzaq şeyləri buraxan şöbə, uçastok komitələrindən xahiş etmişdir ki, ev komitələri vasitəsi ilə müsəlman əhalisini xəbərdar etsin. Məntəqə müvəqqətən Kamenisti və Armyanski küçələrin küncündə, 144 nömrəli evdə vaqedir. Səhər saat 9-dan 3-ə qədər açıqdır. Həman yerdə hamıdan ötrü çayçı dükanı açılmışdır. Qəndlə çayın stəkanı 20 qəpik, çörək ilə 50 qəpikdir.

MƏRKƏZİ EV KOMİTƏSİNDƏ

* Mərkəzi Ev Komitəsi cənbindəki hifzüssihhə [gigiyena] şöbəsi ev komitələri səhiyyə şöbələrinə müraciətən rica etmişdir ki, şəhərdə gün-gündən artmaqda olan müsri [yoluxucu] xəstəliklərin önünü almaq üçün lazımi tədabiri ittixaz etsinlər [tədbirləri görsünlər].

* Həman hifzüssəhhə şöbəsi kanunisaninin 7-si axşam saat 7-də bütün ev komitələrinin sihhiyyələrinin iclasını dəvət etmişdir. İclasa gələcək zəvat [şəxslər] öz dairələri barəsində məlumat gətirməlidirlər.

Azərbaycan Parlamanında

Azərbaycan Parlamanının "Müsavat" fraksiyası iki təqrir [qanun təklifi] vermişdir. Birisi Lənkəran hadisatı barəsində hökumətə, digərisi Bakı ətrafındakı fəhlələrin əhvalı haqqında Məsai Nəzarətinə [Əmək Nazirliyinə].

FƏHLƏLƏRİMİZ HƏYATINDA

Ramana fəhlələrinin iclası

Caharşənbə [çərşənbə] günü kanunisaninin [yanvarın] 1-də, Ramana "Nəşri-maarif" məktəbinin binasında, Ramana müsəlman fəhlələrinin iclası vaqe olaraq, məclis açılır. Saat 4 tamamda ittihadi-ara [yekdillik] ilə sədrliyə Mirdaməd Məhəmmədzadə, katibliyə Mirfəttah Mirəhədzadə intixab edildilər [seçildilər].

İclas[d]a 500-dən ziyadə fəhlə və kəndli iştirak edirdi. Parlaman Fəhlə komissiyası əzasından [üzvlərindən] Cavad Məlik-Yeqanov və tələbələrimizdən Cəfər Cabbarzadə ümumi vəziyyət, fəhlələrin halı və hökumətin fəaliyyəti haqqında nitqlər irad edib [çıxış edib], məlumat verirlər. Sonra kəndli və fəhlə yoldaşlar böylə bir qətnamə çıxarırlar:

1) Biz, Ramana dairəsində yaşayan kəndli və fəhlə yoldaşlar, dəruni-qəlbdən [səmimi-qəlbdən] Azərbaycan Parlamanını təbrik və ona etimadımızı izhar ediriz.

2) "Znamya truda", "Naşe vremya", "Vperyod" qəzetələrinin, millətlərin ziddinə çalışan müfəttinanə [fitnəkarcasına] mündəricat və məqalatına [məqalələrinə] etiraz ediriz.

3) İngiltərə, Amerika, Fransa və ümumcahan demokratlarına teleqrafən rica ediriz ki, üç milyonluq müsəlman və azəri türklərinin azadlığı və Azərbaycan Hökumətinin təsdiqi üçün Konfransa göndərilən nümayəndələrinə yardım göstərsinlər.

4) Keçən yekşənbə [bazar] günü Fəhlələr Konfransında təklif olunmuş tətil komitəsinə təşəkkür məsələsinə qarşı komitə tərəfindən təşəkkür əvəzinə yalnız fəhlələrin izhari-etimad etmələri [etimad bildirmələri] təklif olunmuşdu. Sonradan qəzetələrdə bir səslə müsəlman əmələlərinin [fəhlələrinin] belə iclasa etimad etmələrini oxuduq. Bu doğru deyildir. Zira müsəlman fəhlələri iqtisadi məsələlərdə ümum fəhlələrlə əlbəəl getməklə bərabər, siyasi məsələlərdə kəndi hökumətinin arxasında dayanıb, o hökuməti kəndinə düşmən ədd [hesab] edən komitəyə etimad izhar edəmməzdi, etmədi də. Binaənileyh [ona görə də] bitərəf qalmışdılar.

5) Azərbaycan Parlamanında Kəsbkarlar [Həmkarlar] İttifaqına verilmiş üç yeri İttifaq qəbul etməyib, Parlamana ümum demokratiya namından etiraz etmişdi. Biz müsəlman fəhlələri İttifaqın bizim adımızdan xudsəranə [özbaşına] etiraz etməsinə etiraz etməklə, həmin üç yerin ikisi[nin] müsəlman fəhlələrinə verilməsini rica ediriz.

6) Nəhayət qət olunur ki, yaxında ümum müsəlman fəhlələri ictiması [yığıncağı] çağrılsın.

Sədr: Mirdaməd Məhəmmədzadə
Katib: Mirfəttah Əhədzadə

Suraxanı fəhlələrinin iclası

Yenə kanuni-saninin [yanvarın] 1-ində Suraxanı müsəlman fəhlələri, “Xalq Yurdu” binasında Məhəmmədhüseyn Babayevin sədarəti [sədrliyi] ilə bir iclas tərtib vermişlərdir. Bir neçə natiq fəhlələrin həyatından, vəziyyətindən, azərbaycanlıların istiqlal arzusundan və bu uğurda vermiş olduğu qurbanlar və axıdılmış olan qanlardan bəhslə, o gün istiqlala doğru birinci qədəm qoyulmuş və amalımıza da yaxınlaşmış olduğumuzu, bundan sonra da istiqlalımızın baqi [əbədi] qalması, möhkəmləşməsi uğrunda nə qədər fədakarlıq lazım gəlsə, bir an geri durmayacağımızı təsvir edirlər.

Nəhayət iclas qərar verir ki:

1) Ən yaxın zamanda ümummüsəlman fəhlələri qurultayı dəvət edilsin.

2) Müsəlman demokratiyası namından [adından] ümumcahan demokratiyasına teleqraflar çəkilərək, Azərbaycan türklərinin istiqlalı və Cümhuriyyətimizin təsdiqi məsələlərində dünya füqarəyi-kasibəsi [proletariatı] və cahan yoldaşlarımızdan müavinət və müzahirət [yardım] gözlədiyimizi və onlara əmin olduğumuzu bildirilərək kömək istənilsin.

3) Parlaman tərəfindən Kəsbkarlar İttifaqına verilən üç yerdən ikisinin müsəlman fəhlələrinə verilməsi xahiş edilsin.

4) Millətlər arasına ədavət saçan qəzetələrin, əzcümlə [o cümlədən] “Vperyod”, “Naşe vremya”, “Yedinaya Rossiya” və sairə kimi qəzetələrin hərəkatı müqabilinə protesto edilsin.

5) Şəhərdəki Fəhlə Konfransına nümayəndələr göndərilsin.

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209

Qabil diş qayıran
Mirzə Xəlil Canıbəyzadə

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

295

Doktor Rza bəy Sultanov
Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

2603

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

b-38 10-1

Təqvimi-islam [müsəlman təqvimi]
Türkcə-rusca divar təqvimi

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur. Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında "Novruz" mətbəəsi.

2625 3-1

Bakı Şəhər İstiqraz Cəmiyyətinin

210 min manatlıq obliqatsiyası [istiqrazı] satılır bank müdiri Kamil bəy Səfərəlibəyovun yanında.

2634

Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] Bakı qradonaçalnikliyinin [Şəhər İdarəsinin] nahiyəsində sakin olan [yaşayan] möhtac əhaliyə köməklik edən komissəsinin tərəfindən ümum Bakı qradonaçalnikliyinin kəndlərinin idarələrinə və Bakı uyezdlərinin Masazır, Saray, Corat və Pirəkəşkül kəndlərinin idarələrinə təklif olunur ki, bilatəxir [gecikmədən] öz kəndlərinin dövlətli və kasıb camaatının siyahısını tezliklə hazırlayıb Ümuri-Xeyriyyə nazirinin Bakı nahiyəsindən ötrü təyin etdiyi müdiri Həbib bəy Mahmudbəyova, Bakı Dumunun [Bələdiyyə Məclisinin] əvvəlinci mərtəbəsində olan idarəsinə pişnihad [təqdim] etsinlər, düyü və qeyri ərzaq almaqdan ötrü.

Komissiya katibi:
Məhəmmədəli Veysov
T-5

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

İrəvan: erməni-müsəlman məsələsi

səh. 104. “Nikolay”: 1894-1917-ci illərdə hakimiyyətdə olan Rusiya imperatoru II Nikolay nəzərdə tutulur.

Teleqraf xəbərləri:
Gürcüstan istiqlaliyyəti

səh. 107. “Hərbiyyə nazirindən…”: o dövrdə Gürcüstanın Hərbi naziri Qriqol Giorqadze idi.

Bakı neft ticarəti və
onun müxtəsərcə tarixi

səh. 107. “…rus şirkəti «Neft»…”: “Bakı Rus Nef Kompaniyası” nəzərdə tutulur.

“…(уч. 5 Б и 16 Б)…” və s.: mötərizə içindəki rusca ixtisarlardan “уч.” sahə (uçastok), “гр.” qrup (qruppa) deməkdir, “Бл.” Balaxanı, “Бн.” Binəqədi mədənləri mənasına gəlir.

Qəzetələrdən:
Hindistan üzərinə hücum

səh. 110. “Petri-əvvəl”: 1682-1725-ci illərdə hakimiyyətdə olmuş Rusiya hökmdarı nəzərdə tutulur.

“Pavel”: 1796-1801-ci illərdə hakimiyyətdə olan Rusiya imperatoru I Pavel nəzərdə tutulur.

Qəzetələrdən:
Berlində matrosların xürucu

səh. 110. “…saray tövlələrinə apararlar…”: söhbət, saraya məxsus atların, fayton və ekipajların saxlanması üçün imperator II Vilhelm dövründə Berlində tikilən binadan gedir. Bu binada hal-hazırda Berlin Musiqi Akademiyası, Berlin Şəhər Kitabxanası və Berlin Tarix Cəmiyyəti yerləşir.

Qəzetələrdən:
Ukraynada

səh. 111. "Petlyuraçılar": Ukrayna Direktoriyasının rəhbərlərindən olan Simon Petlyuranın tərəfdarları nəzərdə tutulur. Qəzetdə "Petlyurovçular" kimi getmişdir.

"Petlyura": Ukrayna Direktoriyasının rəhbərlərindən olan Simon Petlyura nəzərdə tutulur. Qəzetdə "Petlyurov" kimi getmişdir.

Qəzetələrdən:
Odessada

səh. 111. "Petlyuraçılar": Ukrayna Direktoriyasının rəhbərlərindən olan Simon Petlyuranın tərəfdarları nəzərdə tutulur. Qəzetdə "Petlyurovçular" kimi getmişdir.

Qəzetələrdən:
Rusiya məsələsi

səh. 111. "Voskresnaya qazeta": Londonda nəşr olunan "Observer" [The Observer] qəzeti nəzərdə tutulur.

Ordan-burdan

səh. 112. "larnet" (lornet): tutacağı olan, qatlanan gözlük növü.

səh. 114. "Filankəs": "Azərbaycan" qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Mərkəzi Ev Komitəsində

səh. 115. "Sihhiyyə" yaxud "sihhiyyəçi": ibtidai tibbi biliklərə malik olan şəxs.

Fəhlələrimiz həyatında
Ramana fəhlələrinin iclası

səh. 115. "...Konfransa göndərilən nümayəndələrinə...": Paris Sülh Konfransı nəzərdə tutulur.

Fəhlələrimiz həyatında
Suraxanı fəhlələrinin iclası

səh. 116. "Yenə kanuni-saninin 1-ində...": Qəzetdə "kanuni-saninin" yerinə səhvən "kanuni-əvvəlin" getmişdir.



چهارشنبه ۵ ربیع‌الاخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیمی — ۸ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۸۲

آذربایجان

تورك و اسلامانه مفید مقاله‌لره صحیفه ترمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالاتك مکافاتی اداره تعین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کراتله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ » ۳۲ »
۳ » ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ » ۳۵ »
۳ » ۵۰ »

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ایوده

«آذربایجان» اداره‌سی،
تلفون نمر. ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

گونده‌لك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

اعلان

چهارشنبه گونی یانوارك ۸ ی ساعت ۱۲ ده آذربایجان مجلس مبعوثانی‌نك اجلاسی تعیین ایدیلدیگی مبعوثلاره اعلام اولنور.

2—1

داخلیه ناظری

مستدعینی قبول ایدیور دو شنبه، چهارشنبه و یکشنبه گونلری سحر ساعت ۱۱ دن.

3-1 T—1

جماعت کومك‌لگی

یوز ایل، قصله‌سیله، اوستمزده دوام ایدن روس تحکمی یزم هر بر ترقی‌مزه مانع اولان کیمی دولت و وطن یولنده ایشله‌مك، منفعتلی اجتماعی تشبثاتمی بولتمق و بو نوع ایشلره عادت ایتمك هوسمزی دخی قلبمزدن بالکلیه سیلوب محو ایتمشدی.

روسیه‌ملتلری ایچنده اوگه‌می اوغول مقامنده دوتولان و بو اوگه‌سی‌لگنك یتون یوتونه آجیلیقلرنه تحمل ایدن بر ملته دولتی و اجتماعی ایشلره فداکارلغی هوسی اولاردیمی ؟ روس حکومتندن علاوه روس جماعتك اوزیمده بزلره اویله بر حسادت کوزیله باخمه‌سه ایدی گه یزم اولرله برابر عمور وطن منافعی یولنده ایشله‌مگه هیچ بر میلمز اولایله‌زدی؛ دوغریدیر، اوزرمزه‌لطفاه حواله ایدیلن آلچاق مأموریتلری ، صادق تبعه اولدیغمزه گوره ، گناز صداقت ایله ایفا ایدردیك؛ اما قالان اجتماعی و دولتی ایشلره گنادوه. دوروب بو یولده ایشلدیمن روسلره و سایرلرینه بی‌گانه‌لر گیبی گنادن تماشاجی صورتنده قالوردیق.

یونگ نتیجه‌سی ایدی که بز آذربایجان اسلامیری وطن یولنده ایشله‌مك ، جماعت ایشنه گیریشمك، دولتی ایشلره اشتراك ایتمك گیبی تشبثاتمن گناز دوردوپ بو یولده لازم اولان تربیه ، ترقی و تجربه‌دن محروم قالدیق.

اما بوگون، بز بو جوره دولتی و اجتماعی ایشلره گیریشمگه مجبوریوز ؛ بو جوره ایشلره گنادوردن باخمغه و بی‌گانه قالمغه حقمز یوقدر، چونکه بز دها اوزگه وطنلك او گه‌ی اوغلی دگیلك؛ اوز وطنمزلك دوغما اوغلی‌یز؛ وطن‌ده یزمزه حکومتده یزدمز، جماعتده یزمدر ؛ بو گوندن یله هر بر امری محض حکومتك یوتونه آتمالی، حکومت اوزی یاپه دیمك ، حکومتی‌لك دیمك دگیلدر. حکومته اعتماد کلی اوسه‌لگی ایچه‌سنده منافع ملیه و استقلالیه‌مزلك و حمده شان و شرفمزلك تامین و تأیدی یولنده ایشله‌مه‌مك ـ مستقل یاشامق ادعاسنده اولان بر ملت ایچون گناده، یله گنه که اونلك جزاسی، استقلالدن و استقبالدن محروم اولمق درجه‌سنده آغیر و آغیرلغی قدمده شایان پاس و گدردر.

بو اساسی اونوتمامالیدیر که حکومتمزجه‌دلمز، سیاسیات جهانیه‌سی دگلدر، دولت اداره‌سی ایشلریمه تجربه‌سی آزدره یوگنله یله، اوزرینه حواله ایدیلن اولان دولتی یوگی ـ بالخصوص یو زمانده، دشمنلر هجومی قارشیسنده دیدیگیمز گیبی آغیردر. بو آغیر یوگی، جوان حکومتمز دگل تجربه قومسیله، بلکه ملیتمزه مخصوص اولان واولو تورك یاپالرمزدن یزه "اوتوقالان حاکمیت وسلطنت حسمزلك رهبرلگی‌ایله چکه‌بیله‌جکدر.

دوغریدیر، بو یولده حکومتمزلك دها معین گرمگی واردر گه‌اوده، ایچمزدن سه‌چدیگمز پارلمانلردر؛ لکن پارلمانمزلك "کومك‌لکی دلیل وباد اولمامق، حکومته یول گوستر‌مگدن عبارت اولایلیر؛ یعنی آغیر یوگه یوکلنمش اولان حکومتی داغه. داشه. دره‌یه، تپه‌یه صالیوپو راست وراست یریوگ‌ایله آپارا بیلر؛ بو ایسه، حکومتك یوکنی راحلاندیرارسه‌ده یوکدن یوکلگنه تفاوت ایتمز؛ بو یوگی آنچاق و آنچاق جماعت کومگی، حلق همتی بردرجه‌یه‌قدر یوکلگه‌دیرمیلر، بو، اولان صورتده بو کومگی حکومتدن مضایقه ایتمه‌سزمی بی‌انصافلقدر.

جماعت کومگی نه‌دن عبارت اولایلیر ؟ بو سؤاله ویریلن جوابی آیدینلاشدیرمامق ایچون ، حکومتمزلك اوزرینه حواله ایدیلمش بو گی تحلیل ایدهلم؛ بویوك، یتون دولتی ایشلری اداره ایدن نظارت یاخود وزارتلردن عبارتدر ، داخلی ایشلر، خارجی ایشلر، حربی ایشلر، مالیه‌ایشلری، یول و گیدیش گلیش ایشلری،معارف ایشلری، اوزاق، یوسته تلغراف و سائره و سائره؛ دیمك جماعت بو ایشلرده حکومته کومك ایتمه‌لیدر. مثلا حربی ایشلرمزده: عسکرلرمزلك اگیتیمی لایقیله گیدیرن، عسکری ایشلره مخصوص بر قوناق عمله گتورن، فراری‌لك کیمی، زذالت‌لرلگه‌قاغی آلان، وطن مدافعه‌سی یولنده بر چوق ایشلر گوره‌یلن «مدافعهٔ ملیه» کیمی بر جمعیت‌مز اولارسه؛ معارف وزارتمزه ان یتورمك: دیمكدر اصلاحنه چالیشان، کتابلار دوزلدن، ادبیات و صنایع نفیسه‌مزی آرتران ، قابل معلمار حاضرلیان و الگ کوچیك کتبلر مزده یله مکتب آچیلمه‌سنه همت ایدن معارف» آدنده بر تشکیلاتمز جدی صورتده ایشارسه؛ مالیه و تجارت وزارتلرنه مدد ویرمگده ؛ خزینه‌مزه فزل و گومیش پول دولماسنه ، مالیه و تجارت ایشلرنك رواجنه و بو ایشلرده بالخصوص مسلمان عنصرنك علاقه‌دار اولماسنه خدمت ایدن بر «تجارت و مالیه قومسیونی» اولارسه ، داخلی ایشلرده : پولیس آدملرنك اگری ، اوغری ، رشوتخور دوله دوزار دن تصفیه ایدیلمه‌سنه یولرك قاچاق قولدوراردن آزاد ایدیلمه‌سنه و هر پرده ساگنلك و راحتلك بر یه‌سنه جهد ایدن «امن و آسایش» جمعیت‌مز اولارسه؛ خلاصه، هر بر زمانده، دشمنلر هجومی قارشیسنده دیدیگیمز گیبی آغیردر. بو آغیر یوگی، جوان حکومتمز دگل تجربه قومسیله، بلکه ملیتمزه مخصوص اولان واولو تورك یاپالرمزدن یزه "اوتوقالان حاکمیت وسلطنت حسمزلك رهبرلگی‌ایله چکه‌بیله‌جکدر.

دوغریدیر، بو یولده حکومتمزلك دها معین گرمگی واردر گه‌اوده، ایچمزدن سه‌چدیگمز پارلمانلردر؛ لکن پارلمانمزلك "کومك‌لکی دلیل وباد اولمامق، حکومته یول گوستر‌مگدن عبارت اولایلیر؛ یعنی آغیر یوگه یوکلنمش اولان حکومتی داغه. داشه. دره‌یه، تپه‌یه صالیوپو راست وراست یریوگ‌ایله آپارا بیلر؛ بو ایسه، حکومتك یوکنی راحلاندیرارسه‌ده یوکدن یوکلگنه تفاوت ایتمز؛ بو یوگی آنچاق و آنچاق جماعت کومگی، حلق همتی بردرجه‌یه‌قدر یوکلگه‌دیرمیلر، بو، اولان صورتده بو کومگی حکومتدن مضایقه ایتمه‌سزمی بی‌انصافلقدر.

جماعت کومگی نه‌دن عبارت اولایلیر ؟ بو سؤاله ویریلن جوابی آیدینلاشدیرمامق ایچون ، حکومتمزلك اوزرینه حواله ایدیلمش بو گی تحلیل ایدهلم؛ بویوك، یتون دولتی ایشلری اداره ایدن نظارت یاخود وزارتلردن عبارتدر ، داخلی ایشلر، خارجی ایشلر، حربی ایشلر، مالیه‌ایشلری، یول و گیدیش گلیش ایشلری،معارف ایشلری، اوزاق، یوسته تلغراف و سائره و سائره؛ دیمك جماعت بو ایشلرده حکومته کومك ایتمه‌لیدر. مثلا حربی ایشلرمزده: عسکرلرمزلك اگیتیمی لایقیله گیدیرن، عسکری ایشلره مخصوص بر قوناق عمله گتورن، فراری‌لك کیمی، زذالت‌لرلگه‌قاغی آلان، وطن مدافعه‌سی یولنده بر چوق ایشلر گوره‌یلن «مدافعهٔ ملیه» کیمی بر جمعیت‌مز اولارسه؛ معارف وزارتمزه ان یتورمك: دیمكدر اصلاحنه چالیشان، کتابلار دوزلدن، ادبیات و صنایع نفیسه‌مزی آرتران ، قابل معلمار حاضرلیان و الگ کوچیك کتبلر مزده یله مکتب آچیلمه‌سنه همت ایدن معارف» آدنده بر تشکیلاتمز جدی صورتده ایشارسه؛ مالیه و تجارت وزارتلرنه مدد ویرمگده ؛ خزینه‌مزه فزل و گومیش پول دولماسنه ، مالیه و تجارت ایشلرنك رواجنه و بو ایشلرده بالخصوص مسلمان عنصرنك علاقه‌دار اولماسنه خدمت ایدن بر «تجارت و مالیه قومسیونی» اولارسه ، داخلی ایشلرده : پولیس آدملرنك اگری ، اوغری ، رشوتخور دولە دوزار دن تصفیه ایدیلمه‌سنه یولرك قاچاق قولدوراردن آزاد ایدیلمه‌سنه و هر پرده ساگنلك و راحتلك بر یه‌سنه جهد ایدن «امن و آسایش» جمعیت‌مز اولارسه؛ خلاصه، هر بر

مجلس رئیسی کوچله باشه سالا بیلدی که هنگی دیلمه‌ایسه دانشق حقنه هر کس مالکدور. وعلاوه ایتدی که «بوحال‌ایسه الفت ایتمه‌لیدر » «وقدمز» ده مسلمانلر اونلق فکریتی قوتلندیرمه‌لیدر.

روسچه دانشمالی‌ایمش. چونکه اونلرجه بورالسی روسچه‌در. چونکه بووقه‌قدر روسچه‌یی، روسلغی حاکم کورمشدرد . چونکه بالگز روسیه‌نك حاکم صنفلریتی و اونلرك مقصدلریتی ترویج ایدن بارچالر دگل، محکوم صنفلریتك امل و مقصدلریتی ترویج ایدن یادیگارلری‌ده بوفکری ایلری سورمش روس ایمپریالیزمنی باشقه بر قالیده، باشقه برشکلده ترویج ایله‌مشلردر.

نه‌صورتله ترویج ایله‌مشلردر؟

بونی اومجلسده تورك سوسیالیستلرنن و تور کچی کنجلردن احمدیك جه‌پنیوف جنابلری گوزل صورتده تشریح ایله‌دیلر.

دیدیلر که: بز آذربایجان سوسیالیستلری سز، روسیه سوسیالیستلریله برابر بولندن بر پیل اول برلکده چالیشیوردق، برلکده دیوردیك که دمه‌وقراتیانك مقصدی بردر، یولمزده بردر. او زمان بز باشمیوکلرك خارجنده اولارق دوشتو ـ ثیوردیك که روسیه انقلابی سیاسی بر انقلابدر . بوسیاسی انقلاب حریتلری تامین ایله‌ه‌دی. بالگز روسیه‌ده متکل بر مسئله دخی واردی، بو ملیت مسئله‌سی‌ایدی. ملیت مسئله‌سنی روسیه سوسیالیست لری آغر سوروندیریمه حل‌ایدیوردیلر. برطرفدن دیوردیلر که ملتلرك حقی وار اوز مقدراتلرینی حل ایتمکه، اما اوبری‌طرفدن کرمنسکی کیبوب فلاندسه‌یمنك آغزینی باغلایوردی. بز بو کا اعتراض ایدیوردیك. باشمیوکلر بومسئله‌ی بر آز حل‌ایدن کبی اولدیلر. حتی هرمان ایسترسه روسیه‌دن آیرلاده‌یارمدیدیلر. فقط صوگره اولرده بوفکر لرینی چاشدیردیلر. روسیه‌ده باشمیوزیم چقدقدن صوگره اوکراینا ، گورجستان و سائر ملتلرکبی آذربایجان‌ده اعلان استقلال ایله‌دی. آذربایجانده بربارتیا بوقدر که اعلان استقلال‌ه‌طرفدار اولمامیشدر. بز آذربایجان سوسیالیستلری بو استقلالنی قبول ایله‌میشدیك، چونکه بز روسیه سوسیالیستلری ایله برلکده ایشله‌یدیه بروفکرلرمزك بر مادده‌سی‌ده ملت لرك اوزه‌قدراتلرینی قورمه‌حققی اولدیغلری‌ایدی. ایمدی‌ایسه نه کوبوروز، روسیه‌سوسیالیستلرینك قبول ایتمه‌یورلر. دیمك که بوداده آیرلان یالگز ملتلر وملیتچیلر دگل، بز اوزمز دخی آیریلیوروز. سز یارسگزر که حال حاضرده گورجستان حکومتك باشنده دوران آدملری بریللول یزهامومز تقدیس ایدیردیك، اوتلری‌ده‌مه‌وقراتیانك مرشدلری صایردیق. اما بوگون اونلره عکس انقلابچی دیوردلر. نیچون، چونکه یوسئله‌ده روسیه سوسیالیستلرندن آیرلمشلردر. ایشته بزی بری برندن آییران، بنی رسول‌زاده‌ایله یوخلیچه‌ده‌مه‌نلره و بیچه‌راخوفله برابر، یکدیگرمزله ایسه عنصر اولارق چالشماغه‌واداراییدن جهتدر.بودر. قوی‌روسیه سوسیالیستلری داعی انکلرندن توگه‌لدر. ایمدی‌ده گندی مقدراتی قورمه‌ه حقلی اولدیغلی قبول ایله‌میلر؛ نیچه‌که بریله اول بز اونلرله برلکده روسیه ایشلرینی اصلاحه چالشیردق، ایمدی‌ده اونلر بزمله برلکده آذربایجان ایشلرینی اصلاحه وزارتلره لازمنجه کومك یتون جمعیت ترمز، قومیه‌لرمز، قومیسیونلرمز و نوع به‌نوع تشکیلاتلرمز اولارسه، یلورسگز نجه بر سرعتله ایله هر کسی حیران ایده‌جك درجه‌ده ترقی ایدوب معمور و منتظم بر دولت، مدنی و آسوده بر جمهوریت اولدیغنی، قوتشولر دزدن علاوه، یورویا اهلنك دخی یزه احترام ایده‌یله‌جکی بر وضعیت آلاریق ؛ بو ایسه، استقلال و استقبالمزلك اولاسه یلسون که دائمی برصورتده تأمینی موجب اولوب، وطنمزی و کله‌جك نسلمزی اسیرلك و بیچارلك ظلمندن بر گره‌لك مصون و آزاد ایدوب بز گوردیگمز ظلملری ، چکدیگمز رذالتلری، گیجوردیگمز فلاکتلری‌دها اولارده دایرز میرماز و گوز آچدیده مستقل یاشایان بر ملت اولدیغنی گوریرز. پس بو یولده جماعتمزلك کومگی و همتی پیوك شرطدر.

لکن بر شیئی اونوتمامالیدر که ، جماعتمزلك مختلف جمعیتلر واسطه‌سیله دولتی ایشلره اشتراکی حکومتمز ایچون آنچاق و آنچاق کومك و مدد ماهیتده اولوب حتا و تعوذ بالله خلل یتورمك و انگلرار تورتملر اولماسون ؛ یله اولماسون که حکومت: «مرا یه خیر آوامید نیست، شرمرسان» دیمگه مجبور قالوب آغر یوکنك ضعیف بدننده دهاده آغرلاشه‌مسی حس ایتسون؛ بالعکس، یوکنك یوتکللشه‌یگنی و قوتلگ آرتدیغنی گورسون که سرعتله ایرملیوب وطن و ملت‌مزی ترقی ایله منزل مقصوده یتوره یلسون .

حاجی بکلی عزیز

روسچه دانشمالی‌ایمش .

گیچن یکشنبه گونی «رابوچی کاوبه» زاده‌نك عمله قوتفرانسی واردیدی. بوراده غریبه برحال مشاهده اولونیوردی. مسئله‌ار ایکی نقطهٔ نظردن گوروله‌یوردی. برنقطهٔ نظر آذربایجان استقلالی وحکومتك قبولی، اوبری نقطهٔ نظر ایسه آذربایجانی طاتیه‌یوب یکی برحکومت آرامق ینی‌ایدی.

عمله مجلسلرندن اوتوری طبیعی کوروله‌مین برحالدها دها مشاهده اولونیوردی. آذربایجانی قبول روحی‌ایله تکلیف اولونان قطعه‌لرله مسلمانلر، بولنك ندی برروحده اولان قطعه‌لرله ایسه علی العموم روسلرله ارمنیلر رای ویریورلردی. »

بوحال، مسلمان عمله‌لرینی قزدیرسون . مجلسده آز اولدقلرینی تودیرك هاخشی، کوتر یزده بولدقه چوق کار، سیزه کوسته‌ریدیك که نجه آذربایجانی طاتیه‌یورسگزیه دیه سویله‌یورلردی. اوبری طرفدن ده‌مزآذربایجانی طاتیه‌یورز سسی ایشیدیلیور عوضنده «بولرباخ» برسز کادی برلی قاچ مسئله‌سی چقاریورلره لسانسی جواب ویرلیوردی.

بیوروحك نه‌درجه‌ده حکمدرما اولدیغنی بالخاصه محمدامین رسول‌زاده جنابلرینك تور کچه نطقه باشلاماسی اوزرینه کوروله‌یوردی. روس عمله‌لرینی طلب ایدیوبولردی که روسچه ـ ویا سوی؛ سویله‌مجك سوزلرك سوگره روسچه‌یه ترجمه‌سی اولاجق اخطارنامه‌ایسه «اول روسچه سویله‌نسین» خطابی ایشیدیلردی.

“Azərbaycan” qəzetinin 82-ci nömrəsinin 1-ci səhifəsi

Çərşənbə, 8 yanvar 1919-cu il, nömrə 82

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 5 rəbiülaxir sənə 1337. 8 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

ELAN

Çaharşənbə [çərşənbə] günü, yanvarın 8-i saat 12-də Azərbaycan Məclisi-Məbusanının iclası təyin edildiyi məbuslara elam olunur [bildirilir].

2-1

DAXİLİYYƏ NAZİRİ

Müstədini [ərizəçini] qəbul edir, düşənbə [bazar ertəsi], caharşənbə [çərçənbə] və yekşənbə [bazar] günləri səhər saat 11-dən.

T-1 3-1

CAMAAT KÖMƏKLİYİ

Yüz il, fəzləsi ilə [artıqlaması ilə], üstümüzdə davam edən rus təhəkkümü [hakimiyyəti] bizim hər bir tərəqqimizə mane olan kimi, dövlət və vətən yolunda işləmək, mənfəətli ictimai təşəbbüsatda bulunmaq və bu növ işlərə adət etmək həvəsimizi dəxi qəlbimizdən bilkülliyyə [tamamilə] silib məhv etmişdi.

Rusiya millətləri içində ögey oğul məqamında tutulan və bu ögeyliyin bütün-bütünə acılıqlarına təhəmmül edən [qatlaşan] bir millətdə dövləti və ictimai işlərə qarışmaq həvəsi olardımı? Rus hökumətindən əlavə, rus camaatının özü də bizlərə öylə bir həqarət gözüylə baxmaqda idi ki, bizim onlarla bərabər ümumvətən mənafeyi yolunda işləməyə heç bir meylimiz ola bilməzdi. Doğrudur, üzərimizə "lütfən" həvalə edilən alçaq məmuriyyətləri, sadiq təbəə olduğumuza görə, kamali-sədaqətlə ifa edirdik, amma qalan ictimai və dövləti işlərdə kənarda durub, bu yolda işləyən ruslara və sairlərinə biganələr kimi kənardan tamaşaçı surətində qalırdıq.

Bunun nəticəsi idi ki, biz Azərbaycan islamları vətən yolunda işləmək, camaat işinə girişmək, dövləti işlərdə iştirak etmək kimi təşəbbüsatdan kənar durub, bu yolda lazım olan tərbiyə, tərəqqi və təcrübədən məhrum qaldıq.

Amma bu gün, biz bu cürə dövləti və ictimai işlərə girişməyə məcburuq. Bu cürə işlərə kənardan baxmağa və biganə qalmağa haqqımız yoxdur, çünki biz daha özgə vətənin ögey oğlu deyilik, öz vətənimizin doğma oğluyuq. Vətən də bizimdir, hökumət də bizimdir, camaat da bizimdir. Bu gündən belə hər bir əmri [işi] məhz hökumətin boynuna atmaq, "hökumət özü bilər" demək, hökuməti

təkbaşına buraxmaq, hökumətə əldən gələn köməyi etməmək, mənafeyi-milliyyə və istiqlaliyyəmizin [milli-müstəqillik maraqlarımızın] və həm də şan və şərəfimizin təmin və təyidi [təsdiqi] yolunda işləməmək, müstəqil yaşamaq id-diasında olan bir millət üçün günahdır. Belə günah ki, onun cəzası, istiqlal və istiqbaldan məhrum olmaq dərəcəsində ağır və ağırlığı qədər də şayani-yə’s və kədərdir [matəm və kədərə layiqdir].

Burasını unutmamalıdır ki, hökumətimiz cavandır, siyasiyyat cahandidəsi [siyasətdə dünyagörmüş, təcrübəli] deyildir, dövlət idarəsi işlərində təcrübəsi azdır. Bununla belə, üzərinə həvalə edilmiş olan dövlət yükü, baxüsus [xüsusilə] bu zəmanədə düşmənlər hücumu qarşısında, dedikcə ağırdır. Bu ağır yükü, cavan hökumətimiz deyil təcrübə qüvvəsi ilə, bəlkə milliyyətimizə məxsus olan və ulu türk babalarımızdan bizə irs qalan hakimiyyət və səltənət hissimizin rəhbərliyi ilə çəkə biləcəkdir.

Doğrudur, bu yolda hökumətimizin daha müəyyən köməyi vardır ki, o da içimizdən seçdiyimiz Parlamandır. Lakin Parlamanımızın köməkliyi, dəlil [yol göstərən] və bələd[çi] olmaq, hökumətə yol göstərməkdən ibarət ola bilər. Yəni ağır yüklə yüklənmiş olan hökuməti dağa, daşa, dərəyə, təpəyə salmayıb, rast [düz] və rahat bir yol ilə apara bilər. Bu isə hökumətin yolunu rahlandırarsa da, yükünün yüngüllüyünə təfavüt etməz. Bu yükü ancaq və ancaq camaat köməyi, xalq hümməti bir dərəcəyə qədər yüngülləşdirə bilər. Böylə olan surətdə bu köməyi hökumətdən müzayiqə etmək [əsirgəmək], zəhi biinsaflıqdır [necə də böyük insafsızlıqdır].

Camaat köməyi nədən ibarət ola bilər? Bu suala verilən cavabı aydınlaşdırmaq üçün hökumətimizin üzərinə həvalə edilmiş yükü təhlil edək. Bu yük, bütün dövləti işləri idarə edən nəzarət, yaxud vəzarətlərdən [nazirliklərdən] ibarətdir. Daxili işlər, xarici işlər, hərbi işlər, maliyyə işləri, yol və gediş-gəliş işləri, maarif işləri, ərzaq, poçta-teleqraf və sairə və sairə... Deməli, camaat bu işlərdə hökumətə kömək etməlidir. Məsələn, hərbi işlərimizdə: əsgərlərimizin əynini layiqincə geydirən, əsgəri işlərə məxsus bir fond əmələ gətirən, fərarilik kimi rəzalətlərin qabağını alan, vətən müdafiəsi yolunda bir çox işlər görə bilən “müdafieyi-milliyyə” [milli müdafiə] kimi bir cəmiyyətimiz olarsa; Maarif Vəzarətimizə əl yetirmək, dilimizin islahına çalışan, kitablar düzəldən, ədəbiyyat və sənayeyi-nəfisəmizi [incəsənətimizi] artıran, qabil müəllimlər hazırlayan və ən kiçik kəndlərimizdə belə məktəb açılmasına hümmət edən “maarif” adında bir təşkilatımız ciddi surətdə işlərsə; Maliyyə və Ticarət vəzarətlərinə mədəd verməkdə: xəzinəmizə qızıl və gümüş pul dolmasına, maliyyə və ticarət işlərinin rəvacına və bu işlərdə baxüsus [xüsusilə] müsəlman ünsürünün əlaqədar olmasına xidmət edən bir “ticarət və maliyyə komisyonumuz” olarsa; daxili işlərdə: polis adamlarının əyri, oğru, rüşvətxor, dələduzlardan təsfiyə edilməsinə [təmizlənməsinə], yolların qaçaq-quldurlardan azad edilməsinə və hər yerdə sakitlik və rahatlıq bərpasına cəhd edən “əmnü-asayiş” [əmin-amanlıq və asayiş]

cəmiyyətimiz olarsa; xülasə, hər bir vəzarətin idarəsinə mütabiq [uyğun] və münasib olan və bu yolda vəzarətlərə lazımınca kömək yetirən cəmiyyətlərimiz, komitələrimiz, komisyonlarımız və növbənöv təşkilatlarımız olarsa, bilirsiniz necə bir sürətlə hər kəsi heyran edəcək dərəcədə tərəqqi edib, məmur [abad] və müntəzəm bir dövlət, mədəni və asudə bir cümhuriyyət olmaqla qonşularımızdan əlavə, Yevropa əhlinin dəxi bizə ehtiram edə biləcəyi bir vəziyyət alarıq. Bu isə istiqlal və istiqbalımızın [gələcəyimizin] ola bilsin ki, daimi bir surətdə təminini mövcib olub [təminini şərtləndirərək], vətənimizi və gələcək nəslimizi əsirlik və yesirlik zülmündən birkərəlik məsun [xilas] və azad edib, biz gördüyümüz zülümləri, çəkdiyimiz rəzalətləri, keçirdiyimiz fəlakətləri daha onlara dadızdırmaz və göz açıb da müstəqil yaşayan bir millət olduğunu gördürər. Bəs, bu yolda camaatımızın köməyi və hümməti böyük şərtdir.

Lakin bir şeyi unutmamalıdır ki, camaatımızın müxtəlif cəmiyyətlər vasitəsilə dövləti işlərdə iştirakı hökumətimiz üçün ancaq və ancaq kömək və mədəd mahiyyətində olub, haşa və nəuzübillah [Allah eləməsin], xələl yetirmək və əngəllər törətmək olmasın. Belə olmasın ki, hökumət: "Məra bexeyre to omid nist, şər mərsan" deməyə məcbur qa-lıb, ağır yükünün zəif bədənində daha da ağırlaşmasını hiss etsin. Biləks [əksinə], yükünün yüngülləşdiyini və qüvvətinin artdığını görsün ki, sürətlə irəliləyib vətən və millətimizi tezliklə mənzili-məqsuda [hədəfə, məqsədə] yetirə bilsin.

Hacıbəyli Üzeyir

RUSCA DANIŞMALI İMİŞ

Keçən yekşənbə [bazar] günü "Raboçi klub" zalında əmələ [fəhlə] konfransı var idi. Burada qəribə bir hal müşahidə olunurdu. Məsələlər iki nöqteyi-nəzərdən görülürdü. Bir nöqteyi-nəzər Azərbaycan istiqlalı və hökumətinin qəbulu, o biri nöqteyi-nəzər isə Azərbaycanı tanımayıb, yeni bir hökumət aramaq niyyəti idi.

Əmələ məclislərindən ötrü təbii görünməyən bir hal da daha müşahidə olunurdu. Azərbaycanı qəbul ruhu ilə təklif olunan qətnamələrə müsəlmanlar, bunun ziddi bir ruhda olan qətnamələrə isə ələlümum ruslarla ermənilər rəy verirlərdi. Bu hal, müsəlman əmələlərini qızdırır [əsəbiləşdirir], məclisdə az olduqlarını görərək "Yaxşı, görünüz biz də bu dəfə çox gələr, sizə göstərərik ki, necə Azərbaycanı tanımayırsınız" deyə söylənirlərdi. O biri tərəfdən də "Biz Azərbaycanı tanımayırız" səsi eşidilir, əvəzində "Bunlara bax, yersiz gəldi, yerli qaç məsələsi çıxarırlar" nidası [ilə] cavab verilirdi.

Bu ruhun nə dərəcədə hökmfərma [hakim] olduğu bilxassə Məhəmməd Əmin Rəsulzadə cənablarının türkcə nitqə başlaması üzərinə görünürdü. Rus əmələləri tələb edirlərdi ki, rusca söyləsin. "Söyləyəcək sözlərin sonra ruscaya tərcüməsi olacaq" ixtarına [xəbərdarlığına] isə "Əvvəl rusca söylənsin" xitabı eşidilirdi.

Məclis rəisi güclə başa sala bildi ki, hansı dildə isə danışmaq haqqına hər kəs malikdir və əlavə etdi ki, "bu hal ilə ülfət etməlidir [barışmalıdır]". "Vaxtdır" deyə müsəlmanlar onun fikrini qüvvətləndirdilər.

Rusca danışmalı imiş. Çünki, onlarca [onlara görə], burası Rusiyadır. Çünki, bu vaxta qədər ruscanı, rusluğu hakim görmüşlərdir. Çünki, yalnız Rusiyanın hakim siniflərini və onların məqsədlərini tərvic edən [rəvac verən, onları önə keçirən] partiyalar deyil, məhkum siniflərinin əməl [arzu] və məqsədlərini tərvic edən partiyaları da bu fikri irəli sürmüş, rus imperializmini başqa bir qəlibdə, başqa bir şəkildə tərvic eyləmişlərdir.

Nə surətlə tərvic eyləmişlərdir?

Bunu o məclisdə türk sosialistlərindən və türkçü gənclərdən Əhməd bəy Pepinov cənabları gözəl surətdə təşrih [şərh] eylədilər.

Dedilər ki:

“Biz Azərbaycan sosialistləri, siz Rusiya sosialistləri ilə bərabər bundan bir il əvvəl birlikdə çalışırdıq. Birlikdə deyirdik ki, demokratiyanın məqsədi birdir, yolu da birdir. O zaman biz, bolşeviklərin xaricində olaraq düşünürdük ki, Rusiya inqilabı siyasi bir inqilabdır. Bu siyasi inqilab hürriyyətləri təmin eylədi. Yalnız Rusiyada müşkül bir məsələ dəxi vardı. Bu, milliyyət məsələsi idi. Milliyyət məsələsini Rusiya sosialistləri ağız sürütdürmə həll edirdilər. Bir tərəfdən deyirdilər ki, millətlərin haqqı var öz müqəddəratlarını həll etməyə, amma o biri tərəfdən Kerenski gedib Finland Seyminin ağzını bağlayırdı. Biz buna etiraz edirdik. Bolşeviklər bu məsələni bir az həll edən kimi oldular. Hətta, hər millət istərsə, Rusiyadan ayrıla da bilər, dedilər. Fəqət sonra onlar da bu fikirlərini çaşdırdılar. Rusiyada bolşevizm çıxdıqdan sonra Ukrayna, Gürcüstan və sair millətlər kimi Azərbaycan da elani-istiqlal eylədi. Azərbaycanda bir partiya yoxdur ki, elani-istiqlala tərəfdar olmasın. Biz Azərbaycan sosialistləri bu istiqlalı qəbul eyləmişik. Çünki biz, Rusiya sosialistləri ilə birlikdə işləyəndə, proqramımızın bir maddəsi də millətlərin öz müqəddəratını qurmağa haqlı olduqları idi. İndi isə nə görürüz? Rusiya sosialistləri bunu qəbul etməyirlər. Demək ki, burada ayrılan yalnız millətlər və millətçilər deyil, biz özümüz dəxi ayrılırız.

Siz bilirsiniz ki, hal-hazırda Gürcüstan hökumətinin başında duran adamları bir il əvvəl biz hamımız təqdis edirdik [müqəddəsləşdirir, ucaldırdıq], onları demokratiyanın mürşidləri sayırdıq. Amma bu gün onlara əks-inqilabçı deyirlər. Neyçün? Çünki bu məsələdə Rusiya sosialistlərindən ayrılmışlardır. İştə, bizi biri-birindən ayıran, məni Rəsulzadə ilə, Roxlini də kadetlərlə və Biçeraxovla bərabər, yekdigərimizlə isə zidd olaraq çalışmağa vadar edən cəhət budur.

Qoy Rusiya sosialistləri daşı ətəklərindən töksünlər, millətin kəndi müqəddəratını qurmağa haqlı olduğunu qəbul eyləsinlər. Necə ki, bir il əvvəl biz onlarla birlikdə Rusiya işlərini islaha çalışırdıq, indi də onlar bizimlə birlikdə Azərbaycan işlərini islaha çalışsınlar. O zaman bu ixtilaflar, çəkişmələr, milli nizalara [qovğalara] yer qalmaz. Yoxsa kiçik millətlərin haqqını qəbul etməməkdə israr və başqa bir hökumət müəssisəsi vücuda gətirib də Azərbaycan fikri ilə Azərbaycan Parlamanı xaricində mübarizə edərlərsə, o zaman su yenə körpünün o tayında qalar, fəsad çıxar, yenə mart, yenə sentyabr hadisələri təkərrür edər [təkrarlanar].”

Natiqin rusca söylənən bu məntiqli nitqi kamali-diqqətlə, fəqət sükutla, alqışsız olaraq eşidilmişdi. Türkcəyə tərcüməsi başlanınca, rus əmələləri səbirsizliklə məclisi tərk etdilər. Ortada isə birisi "O özü bildiyi kimi burada söylənib də təşviqat yapır" - deyə sosialisti şübhə altına aldı. "Rusca söylədi, bəsdir" - deyə səslər eşidildi. Türklər isə "Sağ ol" - deyə alqışladılar.

"Rusca söyləməli imiş!"

İştə, təzahür edən bir ruh!

Bunu bilib də "Yedinaya Rossiya" adındakı "kadet" qəzetəsi sevinəcək, "rus milli ruhu dirilir" deyəcək; "Znamya truda" rus mədəniyyətinin əzəmətindən və bu əzəmətin kəndi işini görəcəyindən bəhs eyləyəcək, "İskra" isə Bakı demokratiyasının həyəcanından, bilxassə [xüsusilə] "Kaspi dənizindəki matrosların hissiyyatından" ilham alıb bolşevikvari söylənəcək; menşevik bu gün, eser yarın, kadet də o biri gün bolşevik olacaq, daha o biri gün bunların hamısı bir yerdə təkrar bir millət təşkil edərək Hindistan səfərinə çıxacaqlar. Yol üzərində ikən fürsəti qaçırmayaraq burada bir duracaqlar:

"Rusca danışmalıdır" - deyə hökm edəcəklərdir.

Hürriyyətini sevər, izzətini güdər, milliyyətini idrak edər bir xalq, bir camaat, bir millət lazımdır ki:

"Yox, dillər azaddır!" - desin, türklüyünü yüksək tutaraq böylə bir komandaya qarşı:

"Yox, türkcə danışmalıdır!" - əmrini versin, dediyini yeritsin.

M. Ə.

BAKIMIZDA DAŞNAKSAQAN QƏZETƏSİ

"Daşnaksaqan" firqəsinə məxsus "Vperyod" qəzetəsi 18-ci nömrəsində yazdığı baş məqalədə Müttəfiqlər komandasının üsuli-idarəsi kəndiləri üçün namüvafiq olduğunu bəyan edir və Qafqazda əmn və asayişi bərpa etmək üzrə buraya vürud edən [gələn] Müttəfiqlər komandasından erməni millətinə qarşı böylə bir rəftar şayəstə [rəva] olmadığını "sübutla" böylə yazır:

"Aləmşümul [bütün dünyanı əhatə edən] müharibə ibtidasından [başlanğıcından] ümum mütarikə [atəşkəs] elanınadək Müttəfiqlər ordusu ilə bərabər müharibədə Müttəfiqlər nəfi [mənfəəti] yolunda sadiq bulunmaq üzrə məzkur [adı çəkilən] müharibədə ermənilər tərəfindən verilən qədər qurbanları əzim [böyük] müharib [savaşan] dövlətlərdən heç birisi verməmişdir. Kəndi müqəddəratını Mütəffiqlər müqəddəratına rəbt edən [bağlayan] ermənilərin bu yolda yapdıqları xidmətlərinin əhəmiyyəti Müttəfiqlər tərəfindən lazımi qədər dərk edilibdir və Müttəfiqlər ermənləri kiçik müttəfiq deyə təsmiyə etdikləri [adlandırdıqları] və Sülh Konfransında ermənilərə layiqli yer verəcəkləri haqqında etdikləri və'də əbəs deyildir..."

Bunun üzərinə, Müttəfiqlər komandasının şimdi guya "adilanə bir hərəkətdə bulunmadığından" şəkva [şikayət] edərək "on minlərlə ermənilərin qətlini, milyonlarla erməni sərvətinin qəsb və qarət edildiyini" bəyanla, bunların cümləsinə bais erməni demokratiyasının [xalqının] ingilis və ruslarla birlikdə Bakı

cəbhəsində müharibə etdiklərini göstərir. İngilislərin böylə “bir səhvdə” bulunmalarına səbəb, guya onların halhazırda bulunduqları məhəl [yer] əhalisinin üsul, adatından [adətlərindən] və əhalinin lisan və xasiyyətlərindən məlumatları olmadığı imiş.

Aləmşümul müharibədə ermənilərin Müttəfiqlərə sədaqəti xüsusunda biz bir şey eşitmədik və bir şey görə bilmədik. Müharibədə bulunan rus əsgəri və zabitanından ermənilərin əksəri əsgərlikdən fərar edərək, dövlət tərəfindən müsəlləh olduqları [silahlandırıldıqları] tüfəngləri qaçırdıqlarını və orduda qalanlar müharibə məqamında gizlənib, bir köy ya şəhərin rus əsgəri tərəfindən istila edildiyi əsnada, erməni əsgərlərinin rus əsgəri önünə atılıb da islam əhalisini qətlü-qarətdə olmazın zülüm və cəlladlıq izhar etdiklərini müdam [həmişə] eşidirdik. Buna qarşı Qafqaz millətindən gürcülərin rus ordusunda müdam rus əsgərləriylə çiyin-çiyinə duraraq göstərdikləri rəşadəti ermənilərdən başqa kimsə inkar edəməz və yenə də islam əhalisinin təşkil etmiş olduğu “Dikaya diviziya”nın Müttəfiqlər ordusunda bulunduğu əsnada qaç dəfə sədaqətlə qırıldıqları və yenidən təkmil edildikdə, böylə bir tələfata zərrə qədəri də nəzər etməyərək yapdıqları rəşadət yalnız Avropa deyil, ümum kürreyi-ərzə aşkar olduğunu daşnaksaqanlar belə, insafa və mürüvvətə az da olsa riayət edərlərsə, inkar edəməzlər, zənnindəyiz.

Müharibə bitdikdə, mütarikə [atəşkəs] əsnasında, müharibə gedişinə görünməmiş zərbə endirən və Rusiyanın can damarına balta çalan bolşevizmaya uyaraq Qafqazda, xüsusən Bakıda bolşevizma bayrağı altında kəndilərinə düşmən tutduqları islam əhalisinə ermənilərin yapdıqları fəlakəti heç bir kəs unutmamış və unuda bilməz. Bunları da ingilislər gözəl bilirlər.

Müttəfiqlər komandası hal-hazırda buradadır, Qafqaz da onların gözləri önündə... Onlar azərbaycanlıların nə gunə [necə] əxlaq sahibi xalq olduğunu eyi görürlər. Bunların rəftarı, erməni demokratiyası adını daşıyan daşnaksaqanlara müvafiqi-hal görünməyirsə, o başqa məsələdir.

Müttəfiqlər komandası “Buraya əmn və asayişi bərpa etmək üçün təşrif gətirdiklərini” daşnaksaqan qəzetəsi iqrar [təsdiq] etdikdə, məzkur [adı çəkilən] qəzetənin ən müqəddəs vəzifəsi böylə olmalı idi ki:

“Erməni qarındaşlar [qardaşlar]! Şimdiyədək kötü bir məram üzrə atılmadığımız bir yer, yapmadığımız bir rəzalət qalmadı. Etdiklərimiz dünyaya faş, kəndimiz rəzil olduq. Artıq yetər. Bundan böylə şeytan yolunu tərk edib, Allah qoyduğu doğru yolu tutub, bir az da burası ilə gedəlim. Bəlkə də burası bizimçün daha da gəlişli ola. Yoxsa ixtiyarlıqdan idrak fürsətini qeyb etmiş Vorontsovlar dövrü keçdi. Yapdıqlarımızdan millətə zərərdən başqa bir eyilik hasil olmadı. Əstəğfirüllah deyəlim, dünya və milləti fəlakətə düçar etmədən çəkinəlim, artıq yetər!” deyib ermənləri şeytənətdən [biclikdən] əl çəkməyə dəvət etsin. Halbuki, bu sözlərin əvəzində gör nə müfəttinanə [fitnəkarca] şeylər yazır.

Parlamanda Andranikin məzalimi [etdiyi zülümlər] haqqında verilmiş sual ba-

rəsində deyir ki:

"İşbu sualın həm siyasətcə və həm də «praktik» yolu ilə bir əhəmiyyəti yox olduğundan, fəqət [sadəcə] millətlər miyanında [arasında] olan münasibatı [münasibətləri] kəskinləşdirir və xələldar edir. Bu iqdamatda [addımda] heç bir doğru əhval yox və bunların cümləsi iftira, yalan və artırmalardan ibarətdir və yaxud heç yoxdan uydurmadır. Qarabağda və Zəngəzur mahallarında bandalar deyil, oralarda müntəzəm və mütəşəkkil məşhur general Andranik ordusudur ki, şu ordu Türk Ordusu ilə müqabilədə bulunmuşdur [Türk Ordusunun qarşısına çıxmışdır]."

Zəngəzur və Şuşa mahallarında Andranikin yapdıqlarını inkar etmək, gözlü olub da dünya işığını görməm demək kimi bir şeydir. Burasını Andranik kəndi belə inkar etməyir. Andranik bandasının banda və Andranikin erməni generalı deyil, Türkiyədən fərar etmiş bir erməni olduğunu biz yox, kəndi erməni Ararat Hökuməti rəsmi bir təliqəsində [məktubunda] iqrar [etiraf] etmişdir. Bu cürə qəzetə yazdıqlarına qarşı vaxt sərf edərək cavab yazılması lüzumsuz bir şey olduğu aşkardır. Fəqət daşnaksaqanların böylə hərəkətlərdə bulunub sərf etdikləri iftiranın nə yolla yazıldığını kəndi millətimiz əfradına [fərdlərinə] göstərib, bunların bihəyalıqlarını sübut etmək istəyirik. Vəilla [yoxsa], biz daşnaksaqanların yenidən insan yoluna dönüb bu yolda yürümələrinə ümid etməyirik. Daşnaksaqanlar, Andranik və onun bandasının nə yolda bulunduqlarını və əsgər qarşısından qaçıb bigünah, bisilah əhaliyə, ixtiyar [qoca] kişilərə, bikəs arvaduşaqlara yapdıqları zülüm və sitəmi gözəl bilir və bəlkə kəndiləri də Andranikin arxadaşları olduğunu Bakı Mart faciəsində sübut etmişlərdir. Böylə bir kimsələrin Azərbaycan ordusunu banda təsmiyə etmələri [adlandırmaları] və Andranik bandasına müntəzəm ordu deməsi də özlərinin həyasızlığını sübut edir.

Məhəmməd

SİYASİ MÜSAHİBƏLƏR

IV

Türkiyə

Bir yandan əhvali-daxiliyyəmizin [daxili vəziyyətimizin] bütün zehinləri işğal [məşğul] etməsi, o biri tərəfdən post-teleqraf münasibatının [rabitəsinin] qeyri-müntəzəmliyi, üçüncü tərəfdən ümumiyyətlə vəziyyəti-hazirə [hazırkı vəziyyət] bizləri öylə bir şərait altında bulundurur ki, ən artıq maraqlandığımız və ən artıq əlaqəmiz olan bir çox məsələlərin belə surəti-həllindən xəbərimiz olmayır. Ətrafımızda vaqe olan və adi zamanlarda bütün cahanın nəzəri-diqqətini cəlb edə biləcək hadisələrdən belə bixəbər qalırız. Böylə məsələlərdən birisi Türkiydə vüqu bulan hadisələrdir, digəri də Rusiya işləri.

Ara-sıra varid olan [gələn] teleqraflardan bilirdik ki, müharibə Tələt paşa Kabinəsinin, yəni Cahan müharibəsinə girən Türk Hökumətinin istefası ilə xitampəzir olmuşdu [nəticələnmişdi]. Tələt paşa Kabinəsi "İttihad və tərəqqi" firqəsinin mücəssəməsi idi. Qarelərimizin

[oxucularımızın] xatirində olsun gərək ki, Balkan müharibəsi türklərin böyük məğlubiyyəti ilə qurtarmaq üzrə olan zaman, yəni o vaxt ki, düşmən ordusu Çatalcaya gələrək bilavasitə İstanbulu təhdid altına almışdı, həman o zaman iş başında duran hökumət Midya-Enez xətti şərti ilə sülh əqd etmək [bağlamaq] istərkən “İttihad və tərəqqi” firqəsi “Ya ölüm, ya Ədirnə” deyərək sülh əqdinə mane olmağa çalışdı və şərəfsiz sülhdənsə, şərəfli ölüm istəyən qismi-əhalini [əhalinin bir qismini] və ordunun bir hissəsini öz tərəfinə çəkərək, İstanbulda yeni bir inqilab törətdi. Kabinəni istefaya məcbur edərək hökuməti öz əlinə aldı. O vaxt hökumət başında “Etilaf və hürriyyət” firqəsi müməssili [nümayəndəsi] olan Kamil paşa kabinəsi idi. Bu surətlə, Balkan məğlubiyyəti Türkiyədə siyasi bir dəyişiklik, “Etilaf və hürriyyət” firqəsinin xaricən və daxilən məğlubiyyəti və “İttihad və tərəqqi” firqəsinin iş başına keçməsinə bais oldu.

Sədrəzəm [Baş nazir] Kamil paşa bütün kabinəsi ilə istefa verərək Qıbrısa çəkildi və orada da vəfat etdi. “İttihad və tərəqqi” firqəsi isə Balkan davasının məğlubiyyət ləkəsini Ədirnənin geri alınması ilə yuyaraq, izzəti-nəfsi mühəqqər olan [təhqir olunan, alçaldılan] türkləri bir qədər qane etməklə sülh bağladı.

Nəhayət, Cahan müharibəsi başlandı və dörd ildən ziyadə davam edərək axırda Almaniya, Avstriya, Türkiyə, Bolqariya ittifaqının məğlubiyyəti ilə qurtardı. Qarelərə [oxuculara] məlumdur ki, meydanihərbdəki məğlubiyyət, basılmış hökumətlər üçün daxildə daha böyük məğlubiyyətlə qurtardı. Məğlub məmləkətlərdə böyük inqilablar vaqe oldu. İbtida [əvvəlcə] Bolqariyada inqilab başlanaraq, əsgərlər demək olar ki, tamamilə silahlarını ataraq evlərinə qayıtdılar. Bolqariya Kabinəsi iş başında qala bilməyib, camaatın həyəcanına istefa ilə cavab verdi və hökumət başından çəkildi. Ondan sonra Avstriyada inqilab başlanaraq Avstriya-Macaristan parçalandı. Avstriya-Macaristanda yaşayan bütün millətlər; çex, slovak, rusin, rumın, polyak, ukraynalılar, italyanlar və macarlar, hər kəs milli şüarla meydana atılaraq Avstriyanı öylə dartan-vartana saldılar ki, hətta Avstriyanın zahirən əsasını təşkil edən almanlar belə ümumi cərəyana tabe olaraq, onlar da sabiq Avstriya daxilində qalmaq istəməyərək, Avstriyanın almanlarla məskun olan qisminin imperiyadan ayrılaraq Almaniya ilə birləşməsini tələb etdilər.

Almaniyada cəbhə məğlubiyyəti daxili inqilabla nəticəpəzir olaraq “qadirimütləq” [hər şeyə qadir] kimi görülən Vilhelmin Almaniyadan qaçması, kansler Mixaelis hökumətinin istefası, bir çox alman kral və vəliəhdlərinin xəl’i [hakimiyyətdən uzaqlaşdırılması] və səltənətdən əl çəkmələri ilə qurtarıb, hökumət sosialistlər əlinə keçdi. Hazırda Almaniyada hökumət başında Haaze ilə Ebert olmaq üzrə müstəqil sosialistlər (təxminən Rusiya menşevikləri kimi) əlindədir, fəqət son günlər, teleqraflar bu hökumətin də iş başında dura bilməyəcəyini göstərməkdədirlər.

Hələ keçən nömrələrimizdən birisində Berlində hökumətin bolşeviklər əlinə keçəcəyi ehtimal olduğunu bildirən bir teleqraf dərc edilmişdi. Dünkü nöm-

rəmizdə dəxi "Berlində məllahlar [dənizçilər] xürucu [iğtişaşı]" sərlöhvəsi ilə qismi-məxsusumuzda dərc olunan xəbərlər Almaniyada bolşeviklərin müsəlləh [silahlı] xürucunu təsvir edir və göstərir ki, məllahlar müstəqil sosialistlərin iş başından çəkilərək hökumətin Ledebur-Libknext başda olmaq üzrə "Spartak", yəni bolşevik firqəsi əlinə tapşırılmasını tələb edirlər.

Bu surətlə, hazırda Almaniya və bəlkə bütün Avropa təzədən bolşevizm təhdidi altında bulunur.

Fəqət Türkiyədə nə olur?

Ərz etdiyimiz üzrə, Cahan müharibəsi Türkiyədə Tələt paşa kabinəsinin istefası ilə qurtarmış oldu. Tələt paşa kabinəsi iş başından çəkilərək, zimami-hökumət [hökumətin cilovu, idarəsi] İzzət paşa Kabinəsinə keçdi.

Lakin Türkiyənin həqiqət əhvali-siyasiyyəsinə aşna olanlar hələ o zaman gözləyirlərdi ki, iş bununla da xitampəzir olmayacaqdır. Zira, o vaxt Türkiyə Hökumətində ancaq şəxslər dəyişmişdi. Halbuki övzayi-siyasiyyə [siyasi vəziyyət] bütün siyasətin, siyasət ruhunun dəyişməsini tələb edirdi. Bu isə başqa bir şey istəyirdi ki, son xəbərlər onun vüquunu [baş verdiyini] anlatmaqdadır.

Söz burasındadır ki, Tələt paşa kabinəsi istefaya məcbur olan zaman Türkiyənin hökuməti də, Parlamanı da demək olar ki, bütün siyasəti və hətta mövcudiyyəti də "İttihad və tərəqqi" firqəsi əlində idi. Buna görədir ki, orada kabinə böhranı vaxtı, doğrudur, Parlamanda da cuzi bir böhran vaqe olmuşdu. Lakin Parlamanda "İttihad və tərəqqi" firqəsi ilə mübarizə edəcək öylə böyük bir firqə ya cərəyan bulunmadığından, yenə həman firqə sol cinahı "Hürriyyətpərvəran" adı ilə bir firqə əmələ gətirib hökuməti öz əlinə almış və bu surətlə də kabinə təşkili və mütarikə müzakiratı İzzət paşaya mühəvvəl edilmişdi [tapşırılmışdı]. Amma iş bununla qurtarmayıb, vaxt və övza [şərait] öz tələbində israr etdi və bir dəfə başlanmış dəyişiklik, əhvali-siyasiyyənin tələb etdiyi məntiqi nəhayətinədək getmişdir. Böylə ki, son alınan xəbərlərdə, sədrəzəm olmaq üzrə artıq İzzət paşanın deyil, Tofiq paşanın adı çəkilməkdədir.

Tofiq paşa "Etilaf və hürriyyət" firqəsinə mənsub olduğundan, bu gün hökumət başına onun kabinəsi keçməsi göstərir ki, Türkiyədə yalnız müharibə başlayan hökumət, yəni ayrı-ayrı zəvat [şəxslər] deyil, bütün "İttihad və tərəqqi" firqəsi səhneyi-siyasətdən [siyasət səhnəsindən] çəkilmişdir. Bu isə Türkiyə həyati-daxiliyyəsində böyük təbəddülat [çalxalanma, dəyişiklik] çıxararaq, siyasətdə mühüm rollar oynayacaqdır. Zira, təhəmmülkar [tolerant] olmaması ilə şöhrət tapmış "Etilaf və hürriyyət" firqəsi, şübhəsizdir ki, məmləkət daxilində bütün "İttihad və tərəqqi" firqəsini ümumiyyətlə, və o firqənin hər üzvünü ayrı-ayrılıqda çəkməyərək, Türkiyədə böyük təqibat [təqiblər] başlanacaqdır. Son xəbərlər miyanında [arasında] Tələt və Ənvər paşaların müharibə məğlubiyyətindən dolayı məsuliyyətə cəlb edilmələri və Tələt paşanın ehya etdirmiş [diriltmiş] olduğu bir Parlamanın artıq yaşaya bilməyəcəyini qeydlə, Türk Məclisi-Məbusanının buraxılması xəbərləri bu sözlərimizi təyid [təsdiq] edir.

Bu surətlə xarici davanın bitməsi ilə ümum [bütün] məğlub məmləkətlər kimi Türkiyədə dəxi daxili təbəddülat və inqilab başlanaraq, get-gedə kəsbi-şiddət və əhəmiyyət etməkdədir [şiddətlənməkdə və əhəmiyyət qazanmaqdadır]. Doğrudur, sair məmləkətlərdə inqilab məmləkətin, üsuli-idarənin, tərzi-siyasətin əsrimizin tələb etdiyi yeni ruhda, yeni yol ilə getməsini istədiyi halda, Türkiyədə işlər başqa bir ruhda, başqa yol ilə getməkdədir. Lakin yenə ümidvar olmalıdır və Türkiyə həyatında müşahidə olunan təcəddüd [yeniləşmə] və yeni cərəyanlar bunu göstərir ki, Cahan müharibəsi nəticəsi olan cahan iğtişaşından türklər dəxi yeniləşmiş, qüvvələnmiş, möhkəmləşmiş və parlaq istiqbal [gələcək] ruhu ilə ruhlanmış bir surətdə çıxacaqlardır.

X. İ.

TELEQRAF XƏBƏRLƏRİ

Avstriyanın Avropa müharibəsində rolu

Avstriyanın sabiq Xariciyyə vəziri [naziri] qraf Çernin ilə Nyu-york qəzetəsinin müxbiri müsahibədə bulunmuşdur. Çernin müxbirə demişdir ki, Avstriya hələ 1917-ci ildə belə bu aləmşümul [bütün dünyanı əhatə edən] müharibənin qurtarmasına var qüvvəsi ilə çalışırmış. Hətta, Çernin qayət zəngin neft və kömür mədəni olan Qaliçyanı Almaniyaya güzəşt edirmiş. Bu şərtlə ki, Almaniya Elzas-Loreni Fransaya versin. Fəqət Almaniya bu təklifi rədd edib, Lüdendorf isə təklikdə sülh əqd edəcəyi [bağlayacağı] təqdirdə, Avstriyaya qarşı müharibə açacağını əlavə eyləmişdir.

Vilson Parisdə

Paris - Vilson Parisə varid olub [gedib], Yelisey sarayına nahara dəvət edilmişdir. Vilsonun birinci nitqi bütün aləmi-mədəniyyətin bəklədiyi sülh xüsusunda imiş. Vilson nitqində demişdir: “Mən bu müharibənin bu cür qəti həll edilməsinə böyük əhəmiyyət verirəm. Müharibənin bu cür qurtarması nəinki təxribat və hər cür tədhişi [terroru] tərk edir, ki bəlkə hər kəs inanır ki, bu qədər tədhiş və təxribata səbəb olanlar cəzaya düçar olacaqlardır.”

Sualtı qayıqların qərqi

Stokholm - Danimarkanın bir sualtı qayığı minaya isabət edərək [toxunaraq] qərq olmuş. Nəfəratından [ekipajından] yeddi nəfər ölüb, dörd nəfəri isə yaralanmışdır.

İngiltərənin təhdidi

Kildən verilən məlumata görə Brauninq məlum etmişdir ki, hərgah Almaniya dəniz haqqındakı mütarikə şəraitinə [atəşkəs şərtlərinə] əməl eyləməsə, İngiltərə Helqolandı işğal edəcəkdir.

London – Amerika rəisi-cümhuru [prezidenti] Vilson, Fransa rəisi-cümhuru Puankare tərəfindən nahara dəvət edildiyi zaman, Puankare[nin] nitqinə cavabən söyləmiş ki:

“Müharibə ibtidasından [başlanğıcından] bəri Amerika əhalisi düşmənlərin üzərinə qələbə çalmaqdan artıq, bütün hüquq əsaslarının ədalətlə həll edilməsini istəyirdilər. Müharibədə qazanmaqla iş bitməyir. Şimdi lazımdır bu müharibə nəticəsi olaraq qalxmış məsə-

lələr öylə həll edilsin ki, gələcəkdə sülhü təmin eyləsin. Azadlıq və səadətə bir özül olsun. Tarixi-bəşəriyyətdə şimdiki müharibə dəhşətləri görünməmişdir və heç bir zaman müharibə, təkəbbürlüyün bu dərəcə rəzil olduğunu isbat etməmişdi. Mərkəzi Avropa dövlətlərinin bu aləmşümul müharibədə yapdığı təxribat [dağıntı], törətdiyi fəlakət hər bir fransız və belçikalının qəlbini dağdar etdiyi [yaraladağı] kimi, mənim də qəlbimi dağdar eyləyirdi. Mən müharibənin bu cür həll edilməsinə artıq məna verirəm. Zira, müharibənin bu şəkildə qurtarması gələcəkdə bu kimi dəhşət və fəlakətlərin təkrarına müsaidə [icazə] verməyəcəyindən maəda [əlavə], hər kəsi əmin edəcəkdir ki, bu fəlakətlərin səbəbləri cəzasız qalmayacaqdırlar. Amerika silahları və saldatlarının bu yolda nə dərəcədə çalışdıqlarını mən heç unutmam. Onlar bütün Amerika millətinin arzusunu ibraz etdilər [nümayiş etdirdilər]. Onlar inanırlar ki, özlərinin amalı azad millətlər tərəfindən qəbul ediləcəkdir. Müttəfiq ordu cərgəsində mübarizə etməklə bu amalın qövldən feilə [sözdən işə] gələcəyinə Amerika əsgərləri şaddırlar.

Biz müharibədə oynadığımız rollara iftixar və Müttəfiq ordularla birgə çalışmamızla özümüzü bəxtiyar hesab ediriz. Fransa və Müttəfiqlər ricali-hökumətləri [hökumət adamları] ilə bərabər dünyanı xətrədən əmin [təhlükəsizliyini təmin] edə biləcək və Müttəfiqlərin rabitəsini artıra biləcək sülh şərtləri hazırlamaqdan mən pək məmnun olaram. Bu da ancaq ələddavam [daimi olaraq] dostların fəaliyyəti, bahəm çalışmaları ilə əmələ gələ bilər."

Vilson və sosialistlər

Paris - Sosialist nümayəndələrinə müraciətən Vilson işbu sözləri söyləmişdir:

"Həzərat! Tərəfinizdən qiraət edilən ünvanı [təbriknaməni] mən kamali-məmnuniyyətlə dinlədim. Bizim şimdi itmama [tamama] yetirdiyimiz müharibə öylə bir qeyri-adi ədalətsizliyi göstərdi ki, onu ancaq qeyri-məhdud və məsuliyyətsiz qüvvə icra edə bilərdi. Millətlərin nikbəxtliyi [xoşbəxtliyi] və azadlığı və daimi sülh o zamanadək təmin edilməz ki, bir də bu mərəkələrin təkrar etməsi qətiyyən bərtərəf edilməyə [aradan qaldırılmaya]. Bu müharibə həqiqətən millətlər müharibəsi idi. Bu müharibə cahangirlik [imperializm] və istibdad qarşısına açılmış bir müharibə idi. Azadlığın düşmənləri bir dəxi böylə qəbahətdə bulunmaq ehtimalından kənar edilməlidirlər. Mənim zənnimə görə, əsasları göstərmək kifayət etməz. Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] müəyyən qanunlar üzərinə bütün millətlər tərəfindən bu əsaslara riayət edilməlidir. Mən ümüdvaram ki, bu sözlərlə böyük vətənimin arzusunu ifadə edirəm. Mən həmişəlik sülh və müsalimət [əmin-amanlıq] işlərinə müavinət [yardım] edəcəyimdən çox şadam. Zira bu həmişəlik sülh, bu vaxta qədər axıdılan qanlara əvəz ola biləcəkdir."

QƏZETƏLƏRDƏN

Kubanda

Kuban qanunverici Radasının heyəti-rəyasətinə [rəyasət heyətinə] sabiq hökumət rəisi L. L. Bıç sədr, müavinliyə isə

Sultan Şahim-Girey və Skobtsov, katibliyə Natırbov və Trotsenko intixab edilmişlərdir [seçilmişlər].

Sazonovun Sülh Konfransına göndərilməsi

Kuban Hökuməti Şurasının iclasında Könüllü ordu Baş komandanının teleqrafı oxunmuşdur. Bu teleqrafda deyilir ki, əlahiddə hökumət təşkilatları Beynəlmiləl Sülh Konfransında nümayəndələri olmasını lazım gördüklərindən, sabiq Rusiya Xariciyyə vəziri Sazonovun Sülh Konfransına göndərilməsinə razı olmuşlardır. Kuban Hökuməti üzvləri bu teleqraf haqqında mübadileyi-əfkardan [fikir mübadiləsindən] sonra Don ilə Könüllü ordu arasında olan saziş əsası ilə Sazonovun Sülh Konfransına göndərilməsinə razı olmağı təhti-qərara almışlardır.

Ukraynada

“R. J.” qəzetəsinin verdiyi məlumata görə, Ukrayna Xalq Cümhuriyyətinin Direktoriyası Fastovdan Kiyevə köçmüşdür.

Ukraynanın Müttəfiq dövlətlərə notası

Kiyevdən xəbər verirlər. Ukrayna Hökuməti, Müttəfiq dövlətlərə böylə bir nota vermişdir: Ukrayna Xalq Cümhuriyyətinin Direktoriyası Ukraynada Almaniyanın əski üsuli-idarəsi ilə qurulmuş olan monarxiya tərzi-hərəkəti ilə mübarizə və xalq hüququnu bərpa etdikdən sonra, qanuni olaraq inanır ki, Ukrayna milləti özü öz torpağında asayiş və qanun bərpa edəcəkdir. Buna binaən [əsasən] Direktoriya bu fikirdədir ki, halhazırda Ukrayna, Getman hökuməti xahiş etdiyi Müttəfiq dövlətlərin əsgəri qüvvəsinə möhtac deyildir. Direktoriya Müttəfiq dövlətlərdən xahiş edir ki, Ukraynanın halını nəzərə alıb, Müttəfiq qüvvələrinin Ukrayna Cümhuriyyətinə daxil olmaları haqqında tədbirlər ittixaz etsinlər [görsünlər]. Direktoriya Müttəfiq dövlət qoşunlarının Ukraynaya gəlmələri haqqında Müttəfiqlərin nə məqsəddə olduqlarından dürüst xəbərdar olmadığına görə, Ukrayna millətinə bu barədə lazımi məlumat verməkdən aciz qalmışdır. Ukrayna milləti, Müttəfiq dövlət qoşununun Ukraynaya gəlməsi səbəbini bilmək istəyib narahat olmaqdadır. Bu narahatlıq Ukrayna asayişinin xələldar ediləcəyinə bais ola bilər.

Ukrayna Cümhuriyyətinin rəisi: V. K. Vinniçenko, Hökumət üzvləri: S. Petlyura, Andriyevski, professor Şvets və A[ndriy] Makarenko.

* Ukrayna Mərkəzi Radanın sabiq rəisi professor Qruşevski öz siyasi fəaliyyətinə başlamışdır. (Professor məşhur ədəmi-mərkəziyyətçilərdəndir.)

Cəzayir əsgərlərinin vürudu [gəlişi]

Odessaya gələn fransız nəqliyyat gəmisində Sələnikdən iki tabor Cəzayir əsgəri gəlmişlər. Bu əsgərlər fransız hökuməti tərəfindən təşkil edilmişdir. Kiçik zabitlərdən başqa bu əsgərlər arasında olan məmurlar fransızlardır. Nəqliyyat gəmisində bir çox yük, silah və mühimmati-hərbiyyə gətirilmişdir.

Kronprins qətlinin təfsili

Almaniya acentəliyinin Lahey müxabiri alman kronprinsinin fəcianə [faciəvi]

qətl edilməsini böylə yazır: "Hollandiyaya getməkdən ötrü kronprins ixtiyarına xüsusi qatar verilmişdi. Kronprins Flemenk sərhədinə qədər bir dəstə şəxslər tərəfindən müşayiət edilmişdir. Yolun ortasında kronprins həman adamlar tərəfindən güllə ilə qətl edilmişdir."

Gürcüstan və erməni qaçqınları

"Borba" qəzetəsi yazır ki, Gürcüstan Hökuməti, Bələdiyyə İdarəsi nəzdində olan Qaçqınlar şöbəsini ləğv etmişdir. Tiflisdə və Tiflisin 300 verstliyində olan qaçqınlar Gürcüstan dairəsindən kənar ediləcəklərdir.

Sülh Konfransında Türkiyə nümayəndəsi

İstanbuldan verilən xəbərlərə görə, hazırkı Baş vəzir [Əhməd] Tofiq paşa Sülh Konfransında Türkiyə nümayəndəsi olacaqdır.

* * *

İstanbuldan xəbər verirlər ki, bolşeviklər əleyhinə əməliyyati-hərbiyyədə bulunmağa Müttəfiq dövlətlər Müttəfiq ordu Baş ərkanının [Baş qərargahının] Sələnikdən İstanbula köçürülməsini qərara almışlardır. 84 nömrəli xəstəxana vaporu İstanbul limanına daxil olmuşdur. İngilislər alman xəstəxanasını, fransızlar Avstriya xəstəxanasını zəbt etmişlərdir.

VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

26 kanuni-əvvəl 1918 sənədə

Rəisi-vükəlanın [Baş nazirin] Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] ilə Məsai Nəzarəti [Əmək Nazirliyi] barəsindəki məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir:

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti vəzaifi [vəzifələri] müvəqqəti olaraq Dövləti Kontrol [Dövlət Müfəttişi] Məhəmmədhəsən Hacınski cənablarına mühəvvəl edilsin [tapşırılsın].

Məsai Nəzarəti vəzaifi, müvəqqəti olaraq Posta və Teleqraf naziri Aslan bəy Səfikürdlü cənablarına mühəvvəl edilsin.

4 kanuni-sani [yanvar] 1919 sənədə

Rəisi-vükəla həzrətlərinin İranla mal mübadiləsi barəsindəki məruzəsi istima edildikdən sonra qət edilmişdir:

Ticarət və Sənaye Nəzarətinə tapşırılsın ki, Maliyyə və Ərzaq nəzarətləri ilə bərabər Azərbaycandan çıxarılmağı mən' [qadağan] edilən malların siyahılarına baxılsın və hangi malların İrana aparıla biləcəyi üçün gələn iclasa öz rəylərini müəyyən buyursunlar.

Hökumətin fəaliyyəti

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti ilə Ərzaq Nəzarəti miyanında [arasında] əmələ gəlmiş etilafa məbni [razılığa əsasən], Gəncədəki dövləti anbarlardan ayda 50 put qənd dövləti Ümuri-Xeyriyyəsinin nahiyə müfəttişliyinə buraxılacaqdır ki, qaçqınlar miyanında təqsim edilsin [paylansın]. Qənd, mayasına buraxılacaqdır.

ÜMURİ-XEYRİYYƏ NƏZARƏTİ MÜFƏTTİŞLİYİ

Azərbaycan Cümhuriyyəti Ümuri-Xeyriyyə Nəzarətinin Gəncə nahiyəsi

müfəttişi Həsən bəy Fəttahovu bazarda, küçədə, hətta klubda belə, harada görən olarsa, qaçqınlara sərf etmək üçün pul yaxud ərzaq istəyən, bu da olmasa, cümlə sair məqulələrini [sözlərini] mütləqa qaçqınlar əhvalına həsr edən görər.

Bunun bu qədər fəaliyyəti, bu qədər əsəbi çırpınıb çapalaması heyrətimi cəlb etdi. Müfəttişlik İdarəsinə gedərək məlumat almağa əzm etdim. Məlum oldu ki:

Müfəttişliyin təşrini-saninin (noyabrın) əvvəlindən təşkil edilmiş hələlik bir xəstəxanası var; 50 nəfər xəstə müalicə olunmaqdadır. Həmin xəstəxana 75 qaryolaya [yatağa] iblağ ediləcəkdir [çatdırılacaqdır]. Üç mövqedə yüngül xəstələri müayinə və əlac vermək üçün odaları vardır. Leyli [gecə şöbəsi; gecə qalınan] və nəhari [gündüz şöbəsi] olmaq üzrə üç mövqedə darüləcəzələri [əlillər evi; qocalar evi] vardır ki, oraya götürülənlər hər bir cəhətdən təmin edilmişlər. Üç darüləcəzəyə hələlik 1000 nəfərdən ziyadə qaçqın qəbul edilmişdir. Bunların əksəri İran təbəəsidirsə də, konsulxanadan heç bir yardım və müavinət görülməyir.

Bir dənə dəxi darüleytamları [yetimxanaları] vardır ki, otuz beşə baliğ [çatan] çocuqlar qəbul edilmişdir. Bunların bəzisi Şamaxıya göndəriləcək imiş. Lakin türüq və məabirin müsaid olmamasından naşi [yollar və gediş-gəlişin əlverişli olmadığına görə] mümkün olmayırmış.

Qazax qəzasında mövcud olan qaçqınlar üçün buğda paylanacaqdır. Buğda verilmişdir, lakin qaçqınları siyahı etmək buğda paylamağı təxirə buraxmışdır. Gəncə Ərzaq İdarəsi vəkili Dəliməmmədli mövqifindən [stansiyasından] buğda verilməsinə əmr vermişsə də, buğda dəftərlərdə və siyahıda mövcud isə də, təslim edilməyir. Goran istasyonundan gələcəyi söylənilir. Bu da bir müəmmadır. Dəftərdə var, anbarda yox!!!

Ümumən erməni milləti cəmiyyəti-xeyriyyəsi və ziyalıları böyük müavinət və yardımda bulunaraq öz qaçqınlarının təmininə çalışdıqları halda, bizimkilərdən səs çıxmayır. Lakin Cəmiyyəti-xeyriyyə idarəsi 20 min rublə verməyi vəd edibmiş.

Məsacid həvalilərində [məscidlərin ətrafında] vəfat edən İran təbəələrinin cənazələri 10 günlərlə açıqda qalaraq konsul vəkilə, o da ağsaqqala, axırıncı da vəkilə mühəvvəl etməkdə [tapşırmaqda] imişlər.

Ətraf köylərdə mövcud olan İrəvan qaçqınlarının halları pək fəna, həyatları pək acınacaq bir haldadır. Çoxları ispanka təbir edilən xəstəlikdən tələf olmuş, indi də aralarında tif denilən yatalaq xəstəliyi görünməkdədir. Ümumən müaliceyi-tibbiyyəyə gəldikdə, Gəncə qəzası daxili pək fəna bir haldadır. Ələlümum köylərin hamısında ənvai [cürbəcür] xəstəliklər şiddət etməkdə, zavallı kəndçilər mur-məlax kimi [qarışqa-çəyirtkə kimi, külli miqdarda] fövt olmaqda [qırılmaqda], hər bir köyə gedilərsə, onlarca evlərin bütün ailələri bitərək qapıları kilidlənmiş, təbibdən, sarıcıdan, əcza, əlacdan və müalicədən əsər belə yox. Zavallı kəndçilər ah və ənlərini [nalələrini], istida [xahiş] və şikayətlərini, əcz və ilhahlarını [möhtaclıqlarını və təkidlərini] kimsəyə eşitdirə bilməyirlər.

S.

BAKI XƏBƏRLƏRİ

Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsindən

Çaharşənbə [çərşənbə] günü yanvarın 8-də (yeni üsul ilə) Ələsgərovun evində (Çadrovı küçə 215) Qafqaziya Müsəlman Mütəəllimləri [Tələbələri] Mərkəzi Komitəsinin iclası vüqu bulacaqdır. Hamı yoldaşların gəlməsi rica olunur.

* Dördüncü sinifdən başlayaraq Birinci gimnaziya müsəlman mütəəllimlərindən rica olunur yanvarın 8-də (yeni üsul ilə) saat 4-də Sisyanovski küçədə 25 nömrəli evdə (ikinci mərtəbə sağdan) vüqu bulacaq iclasa gəlsinlər.

* Səhhəti-Ümumiyyə Nəzarəti, Bələdiyyə İdarəsinə bir milyon rublə pul buraxmışdır ki, müsri [yoluxucu] xəstəxana təmirinə sərf edilsin. İşbu para Bələdiyyə İdarəsi tərəfindən istənilmiş 2200200 rublənin hesabına verilmişdir. Bütün məbləğin təxsisi [ayrılması] haqqında məsələ Parlamana veriləcəkdir.

* Bələdiyyə İdarəsinin Dövləti Bankında hesabi-cariyyədə 1.345.153 rublə, 21 qəpik pulu vardır. İşbu pulu Bələdiyyə İdarəsi hesabının düzəlməsindən naşi [ötrü] ala bilməyir. Şimdi ciddi bir halda ki, Bələdiyyə İdarəsi xidmətçilərə Məsih Bayramı münasibətilə pul verməkdən acizdir, İngiltərə komandanlığına müraciətən rica etmişdir ki, bankdan bir milyon buraxılması barəsində lazımi tədabiri ittixaz etsin. Bələdiyyə İdarəsi, Maliyyə Nəzarəti indində də böylə təşəbbüsatda bulunmuşdur. Nəzarət istidanı [ərizəni] qəbul etmişdir.

AZƏRBAYCANDA

Gəncədən bizə yazırlar:

Rusiya inqilabi-kəbirinin [Böyük inqilabının] nəticəsi olaraq başqa millətlər və cəmiyyətlər kimi Gəncə türk müəllimləri də bir ittifaq təşkil etmişdilər. Əvvəl zamanlarda bu ittifaq ciddi surətdə çalışırdı. İttifaqın məqsədlərindən şayani-diqqət [diqqətəlayiq] olaraq "türkləşmək" məsələsi idi. Məqsədə nail olmaq üçün Gəncə türk müəllimləri mühazirələr yapıb, "leksiyalar" oxutdururdular və həpsi artıq dərəcədə şövq [və] zövqlə gəlib qulaq asırdılar. Leksiya oxuyanlardan nəzəri-diqqətimizi cəlb edən şimdiki Maarif nazirinin müavini möhtərəm Həmid bəy Şahtaxtinski cənabları idi. Həmid bəy əfəndi o zaman Gəncədə maarif müfəttişi idi və maarif uğrunda göstərdiyi fəaliyyəti ilə və müəllimliyi artıq dərəcədə sevdiyindən dolayı bütün Gəncə müəllimlərinin hüsn-rəğbətini qazanmışdı.

Fəqət sonralar siyasi vəziyyətlər dəyişildiyindən, "Gəncə türk müəllimləri"nin də ittifaqı təğyir və təbəddülə [dəyişikliyə] uğradı. Hətta son zamanlarda heyəti-idarə [idarə heyəti] başında duran əşxaslar [şəxslər] başqa qulluqlara istixdam olduqlarından [işə götürüldüyündən] "ittifaq" yox dərəcəsinə gəlmişdi. Lakin bu il Gəncədə olan müəllimlərin bir çoxu təzə təyin olduqlarından və yaxud özgə şəhərlərdən gəldiklərindən, bunu bilməyirlərdi. Fəqət yavaş-yavaş əhvalatı öyrəndikdən sonra və "ittifaq"ın nə dərəcədə əhəmiyyəti olduğunu iyicə düşünərək, hər nə tövrlə olursa olsun, "ittifaq"ı diriltmək fikrinə düşdülər. Ona

görə bir neçə dəfə “dərdləşmə”, “anlaşma” yığıncaqları yapdıqdan sonra, cümə günü saat 10-da, kanuni-əvvəlin [dekabrın] 27-də ümumi Gəncə türk müəllimlərinin yığıncağını dəvət etdilər. Yığıncaqda bir çox müəllimələr və müəllimlər iştirak edirdilər. Burasını da əlavə etməliyəm ki, Gəncədə müəllimələrimiz az deyil və kəndiləri də müəllimlərlə bərabər işləməyə artıq dərəcədə qeyrət və hümmət göstərirlər. Hətta təzə heyəti-idarəyə xanım əfəndilərdən ikisi intixab olundular [seçildilər].

Təzə heyətə yeddi kişi [nəfər] intixab olundular: İdris əfəndi Axundzadə (sədr), İbrahim bəy Eminbəyli (müavini-sədr) [sədr müavini], Mirzə Cəfər Əsgərzadə (xəzinədar), Davud Ziya əfəndi (katib), Xuraman xanım Ağazadə, Sürəyya xanım Axundzadə və Xalid əfəndi Əfəndizadə (heyəti-idarə üzvləri). Bunlara namizəd olaraq Vəli əfəndi Qasımzadə və Rüstəm əfəndi Əhmədzadə intixab olundular. Təftiş komissiyasına İsmayıl bəy Qayıbzadə, Zəhra xanım Xanbudaqzadə və Mirzə Abbas Abbaszadə intixab olundular.

İttifaqın məqsədi, tutduğu yol budur: Məktəbi islah etmək, məktəb çocuqlarında “türklük” ruhunu oyatmaq və müəllimlərin və müəllimələrin məişətini təmin və hüququnu müdafiə etmək. Müfəssəl məramnaməmizi inşallah gələcək nömrələrdə bəyan edəriz. Haydi müəllim və müəllimə qardaşlar! Çalışın gənc cümhuriyyətimizi işıqlandıraq. Çünki səadətimiz və iqbalımız yalnız “məktəb” və “müəllim” sayəsindədir. Vətən və vətənin yavruları bizdən imdad bəkləyir. Yenə də təkrar deyirəm ki, vətəni və milləti irəli aparan yalnız “məktəb” və “müəllim” olacaqdır.

Allahu Təala həzrətləri işimizə tofiq buyursun [kömək olsun]!

İbrahim bəy Eminbəyli

LƏNKƏRAN VƏ MUĞAN

Muğanda sakin olan [yaşayan] biçarə əkinçilərin halları fəna bir surətdədir. Çox kəndlərdəki ev və anbarlar, ermənilər və ruslar tərəfindən yandırılıbdır. Biçarə əhali yer tapa bilmədiyi üçün genə də yanmış evlərin içində otururlar. Muğan malakanları buna razı olmayıb güclə müsəlmanları evlərindən xaric edirlər. Müsəlmanların əkin yerləri tamamən Muğan malakan və xaxollarının əllərindədir. Gələn ilə əbədən [əsla] müsəlmanlarda buğda, arpa tapılmaz. Məhəmmədxanlı kəndi biltamam [tamamilə] zaye və paymaldır [məhv edilmiş və zəlil olmuşdur]. Biçarə Hüseyn Adinəqulu oğlu Ramazanül-mübarək ayından bu vaxtacan Lənkəran həbsxanasında çürüyür. Bundan ötrü ki, Toplikovun oğlunu quldurlardan xilas edə bilməyibdir. Lənkəranda issledovatel [müstəntiq] 2000 rublə aldı ki, Hüseyn Adinəqulu oğlunu xilas eləsin. Nədənsə hələ genə də həbsdədir.

İdarədən: *Halbuki “Yedinaya Rossiya” bizi inandırır ki, Muğan müsəlmanları Rusiyaya bitişmək istəyirlərmiş...*

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

Bir ay bundan əqdəm [qabaq] Allahverdi Nəbi oğlu 12 yaşında evdən çıxıb, bu günə kimi qayıtmamışdır. Çocuğun əynində şineldən tikilmiş bluz [köynək] və başında darayı papaq vardır. Məzkurun [deyilən şəxsin] yerini bilənlərdən [xahiş olunur] bazarda Kərbəlayi Yaftuməlinin baqqal dükanına xəbər versinlər.

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

b-38 10-1

Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] Bakı qradonaçalnikliyinin [Şəhər İdarəsinin] nahiyəsində sakin olan [yaşayan] möhtac əhaliyə köməklik edən komissəsinin tərəfindən ümum Bakı qradonaçalnikliyinin kəndlərinin idarələrinə və Bakı uyezdlərinin Masazır, Saray, Corat və Pirəkəşkül kəndlərinin idarələrinə təklif olunur ki, bilatəxir [gecikmədən] öz kəndlərinin dövlətli və kasıb camaatının siyahısını tezliklə hazırlayıb Ümuri-Xeyriyyə nazirinin Bakı nahiyəsindən ötrü təyin etdiyi müdiri Həbib bəy Mahmudbəyova, Bakı Dumunun [Bələdiyyə Məclisinin] əvvəlinci mərtəbəsində olan idarəsinə pişnihad [təqdim] etsinlər, düyü və qeyri ərzaq almaqdan ötrü.

Komissiya katibi:
Məhəmmədəli Veysov
T-5

Təqvimi-islam [müsəlman təqvimi]
Türkcə-rusca divar təqvimi

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur. Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında "Novruz" mətbəəsi.

2637 3-1

Cümə günü bu yanvarın onunda saat 11-də “Qənaət”in dükanında “Qənaət” üzvlərinin ikinci islasi-ümumisi təyin olunur. Nə qədər üzvlər gəlsə, iclas qanuna müvafiq hesab olunub məsələlər həll olunacaq.

2638

“İttihad” firqəsinin idarəsi Məclisi-Məbusan binasında birinci qatda [mərtəbədə] olur. Səhər saat 10-dan 1-ə kimi açıqdır. Məzkur [deyilən] vaxt Mərkəzi Komitənin üzvlərindən biri idarədə hazır bulunur.

2636

İran Dövləti-aliyyəsi
saray əkkasi [fotoqrafı]
D. Rostomyan tərəfindən elan

Sentyabr hadisələri zamanında mənim əksxanam [fotoqraf studiyam] dağıdılıb, mənzili də qeyri şəxslərə lokanta üçün verilmiş. Həmin 1919 ilin kanuni-saninin [yanvarın] 1-indən Mariinski və Tarqovı küçələrin tinində 9-25 nömrəli evdə (sabiq “Jorj” fotoqrafı) yeni əksxana açmışam. Burada hər cür fotoqrafi sifarişlər qəbul edirəm. Ümid edirəm ki, Bakı əhalisi yenə sabiqdəki kimi mənim fotoqrafimdə sifarişlər verəcəklər. Sifarişin nəzifliyini [təmizliyini, keyfiyyətini] öhdəmə götürürəm. Telefon: 6-68. Saray fotoqrafı D. Rostomyan.

Əksxanam dağıldığı zaman aşağıdakı kupçi krepost [daşınmaz əmlakın mülkiyyət sənədi], doqovor [müqavilə], attestat, nişan və qeyrə sənədlər qeyb olmuşdur:

1) Əlahəzrət İran şahı tərəfindən saray fotoqraflığına verilmiş fərman; 2) yenə o zat tərəfindən verilmiş 4-üncü dərəcə “Şirü xurşid” nişanı fərmanı; 3) yenə 3-üncü dərəcə “Şirü xurşid” nişanı fərmanı; 4) yenə bahalı üzük almaq üçün fərman; 5) yenə firuzə üzük üçün verilmiş fərman; 6) sabiq rus çarı Nikolayi-sani [İkinci Nikolay] tərəfindən qızıl zəncir və dövlət nişanı ilə qızıl saat almağa şəhadətnamə; 7) sabiq vəliəhd Mixail Aleksandroviç tərəfindən bahalı üzük almaq üçün şəhadətnamə; 8) əlihəzrət əmiri-Buxara [Buxara əmiri] tərəfindən verilmiş 3-cü dərəcə Ulduz nişanı Fərmanı; 9) Stanislav lentasında gümüş nişan almaq üçün şəhadətnamə; 10) beynəlmiləl vıstavkada [sərgidə] verilmiş böyük qızıl medal və fəxri səlib [fəxri xaç] şəhadətnaməsi; 11) Xrimyan ermәniləri tərəfindən verilmiş təşəkkürnamə.

Yuxarıda sayılan medal və nişanlar etibardan saqitdir [etibarsızdır]. Tapıb mənə qaytaranlara mükafat veriləcəkdir. Bunlardan başqa aşağıdakı kupçi krepostlar itmişdir:

1) Qala xırşadında 775 nömrəli 3 desyatin yer; 2) Korgözdə 1 desyatin; 3) Qaradağda 1 desyatin; 4) Pirəkəşküldə 1 desyatin; 5) yenə Pirəkəşküldə 2 desyatin; 6) Keçəllərdə 10 desyatin; 7) Qasıməlidə 1 desyatin; 8) Şubanıda 2 desyatin; 9) Güzdəkdə 1 desyatin, çox veksellər, ispolnitelni listlər [icra sənədləri] və qeyri sənədlər.

Bu sənədlər etibardan saqitdir. Bunları tapıb mənə qaytaranlara gözəl mükafat veriləcəkdir. O vaxtda Müzəffərəddin şahın bütün boy əksi dəxi oğurlanmışdır.

Ümidvaram ki, mənim 24 illik Bakı və ətrafındakı müsəlman dostlarım məni yaddan çıxarmayıb yenə sabiqdəki kimi öz sifarişləri ilə məni minnətdar edərlər.

Saray fotoqrafı: D. Rostomyan
2635

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Camaat köməkliyi

səh. 123. "Məra bexeyre...": Farsca. Mənası: "Səndə xeyir ümidi yoxdur, mənə şər göndər."

Rusca danışmalı imiş

səh. 125. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

Bakımızda daşnaksaqan qəzetəsi

səh. 126. "Vorontsovlar": 1905-1915-ci illərdə Qafqaz canişini olan və ermənilərə xüsusi rəğbətilə seçilən İ. İ. Vorontsov-Daşkov nəzərdə tutulur.

Siyasi müsahibələr

səh. 127. "Tələt paşa Kabinəsi": Tələt paşa Kabinəsi 4 fevral 1917 – 8 oktyabr 1918-ci il tarixlərində hakimiyyətdə olmuşdur.

səh. 128. "Çatalca": İstanbulun qərb rayonlarından biri.

"Midya-Enez xətti": Midya, hal-hazırda Türkiyənin Qırxlareli vilayətində yer alan Qıyıköy qəsəbəsinin bolqar mənbələrindəki adı; Enez isə Ədirnə vilayətində yerləşən qəsəbədir. Birinci Balkan müharibəsinin sonunda Osmanlı dövləti ilə Bolqarıstan arasında sərhəd xətti bu iki yaşayış məntəqəsindən keçirdi.

"Kamil paşa Kabinəsi": Qıbrıslı Məhməd Kamil paşa nəzərdə tutulur. Qıbrıslı Kamil paşa Kabinəsi 29 oktyabr 1912 – 23 yanvar 1913-cü il tarixlərində hakimiyyətdə olmuşdur.

"Bolqariya Kabinəsi iş başında qala bilməyib...": Vasil Radoslavovun sədrliyi ilə 1913-cü ildən 1918-ci ilin iyun ayına qədər hakimiyyətdə olan hökumət nəzərdə tutulur.

"Mixaelis hökumətinin…": Georq Mixaelisin sədrliyi ilə 1917-ci ilin iyul-noyabr aylarında Almaniyada hakimiyyətdə olan hökumət nəzərdə tutulur.

"Haaze": qəzetdə rusca tələffüzə uyğun olaraq "Qaaze" yazılmışdır.

"Dünkü nömrəmizdə dəxi «Berlində məllahlar xürucu» sərlöhvəsi ilə...": "Azərbaycan" qəzetinin 7 yanvar 1919-cu il tarixli 81-ci nömrəsində "Berlində matrosların xürucu" adı altında çap edilən xəbərlər nəzərdə tutulur.

səh.129. "İzzət paşa Kabinəsi": İzzət paşa Hökuməti 14 oktyabr – 8 noyabr 1918-ci il tarixlərində hakimiyyətdə olmuşdur.

səh. 130. "X. İ.": bu imza Xəlil İbrahimə məxsusdur.

İran Dövləti-aliyyəsi saray əkkası…

səh. 138. "Ulduz nişanı": "Buxarayi-şərif" ordeni nəzərdə tutulur. Bu ordenə "Buxara Qızıl ulduzu" da deyilirdi.

"Stanislav lentası": Rusiya imperiyasının dövlət mükafatı olan "Müqəddəs Stanislav" ordenini taxmaq üçün xüsusi lent.

پنجشنبه ٦ ربیع‌الاخر سنه ۱۳۳۷ | Qutusu | ایکنجی سنه دوامیسی | ۹ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۸۳

آذربایجان

گوندلیکلی سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

تورك و اسلامله‌ متعلق مقاله‌لر، صحیفه‌ لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. مکافاتی اداره تعیین ایدیر.

اعلان فیاتی: سطری ۳ دوبله کرانله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرائطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ » ۳۲ »
۳ » ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ » ۳۵ »
۳ » ۵۰ »

محل اداره:
باکو، وورونسوفسکی وغورنسکی کوچه‌لرك کسیشنده ۳ نومرولی اویده

«آذربایجان»ك اداره‌سی.
تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

داخلیه ناظری

مسئله‌مزك قبول ایدیلیور دو شنبه، چهارشنبه و یکشنبه گونلری سحر ساعت ۱۱ دن. 3--8 T--1

محترم قارداشلرمزه

وطن و ملت یولنده المدن گلن خدمتی و عهده‌مه دوشن وظیفه‌می غزته‌مزك مدیری صفتیله ایفایه مشغول ایکن، وطن اولادلرینك خواهش و امریله مطبع اولاری جهان صلح فوقرانسه گوندر یلمکله عهده‌مه دها آغر و مسئولیتلی، لکن مقدس بروظیفه دوشدی.

بو یولك خدمتی محترم آقاقارداشلریمله برابر ایفا ایچون آووپایه گیتمك لازم اولدیغندن گوره غزته اداره‌سی ایچندن موقت اولاری آیریلوب عزیز وطنمزك استقلال مسئله‌سنك ایسه دیگر یولده گچی حالی، حسن ایفاسندن آسیلی اولان مسئول وظیفه‌مزله حضور واوقوجیلرمزه کمال صدق و صمیمیت ایله خدا حافظ دیمکی اوزیمه فرض بیلدیم.

د آذربایجان» غزته‌سی مدیری:
جیحون بك حاجی بکلی

ایروان ارمنی ـ مسلمان مسئله‌سی

ـ ۲ ـ

۱۹۰۴ نجی و ۵ نجی ایللرده‌دیر. قافقاسیاده ارمنیلرله مسلمانلرك آراسی گرگین‌لشمشدی. بو گرگین‌لشمه‌نك الك چوق صدمه‌سی مسلمانلاره دگمشدر. وبو صدمه‌نك الك آغیر‌ی‌ده بالخاصه ایروان غوبرنیاسنده یاشیان مسلمانلرك اوسته دوشمشدر.

نیچه که، معلومدر؛ ارمنیلر، حوقه‌نیری اوزاری ایچون پادشاهلق قورمق آرزو ایدیوب دیلر. بو آرزولرینه چالمق اوغروندده‌در هر جهتدن حاضرلانیورلر. ارمنیلرك بو آرزو، و بو حاضرلقلری سوقیله ایدی که، وقت فرصتده قافقازیه مسلمانلار طرفندن اتکلیلك چیخه‌جه‌سین دیه، مذکور ایللرده قافقاسیاده سیمیسز و آب آسیز مسلمانلار اوستنه قالقیوب بوروشمالار آچمشلردر. بو واسطه ایله، ارمنیلر، مسلمانلاری قورخودوب، کوزلرینك اوندن آیروب، حرکاتلری وقتنده اونلاری سوء‌سیرمای ایسته‌میشلردر.

حادثه‌لرك سیمی، بوروشمالرك باشلیانی، قافقاسك هر یرنده هر وقت ارمنیلر اولدقلاری حالده، همان حاضرلقلارندن بری اولدقلی اوزره، خصوصی آگنتلر و غزتلر واسطه‌سیله، هجوم ایتمش اولانلرینه مظلوم، وهجومه‌لا یرنده‌وجوار اولمش مسلمانلاری ظلم کوستره‌مکه باشلمشلردر.

ارمنیلره بو تشویق‌لرینی ایچون براوستقلله باشلادیلر که، اوزلرینی کویا، مسلمانلرك الندن قورتارمق، مظالم و ناجار اولدقلرینی گوسترمك ایچون، حتی آووپا رجالندن و حکومتلرندن کومك بکلیکلر ایسته‌دیلر. بونلرك سس‌لری، آووپایه، حتی آمریقایه‌دك گیدوب چالدی.

ارمنیلرك بو برده اولان ایشلك آدملری‌ده بوش دورمادیلار. ارمنی و ارمنی‌لك عالمینی هر کمك دهشه‌م پرلشدیردیلر.

او، زمانکی ظالملیك و مظلومك آدمی هاضی طرفك اوستنده قالدیغنده ایشمز یوقه. آنجاق بونی دیه بیلیرم که، نه حکومتلر یانده و نه غزته‌لرده، ارمنی حاضرلق قوه ـ لرینك آللنده تابعالانمش بر مسلمانلار طرفندن بر تشبث و بر سس گورونه‌مدی. چونکه، هیچ بر مقصدیمز واو مقصد ایچون‌ده هیچ بر حاضرلغمز یوق ایدی.

ارمنیلرك، مسلمانلار حقنده اولان پولیتقه لری، همان حالی ایله دوام ایدیور. آنجاق او وقتکی پولیتقه‌لرینك رنگی یاشقه ایدی. ایندیکی ده یاشقه..

فقط پولیتقه؛ همان مسلمانلاری ظلم‌زوب سوء‌مدیریه‌لی پولیتقه‌سیدر؛ و ده‌ها ظالم مظلومانی کلمه‌لریله اوینامیوب، ایمدی هر کمك یاشی فابریقیق اولدیغی بر زمانده، داغیرق حکومتلرینی گنیشلتمك ایچون، ایروان غوبرنیاسی مسلمانلاری دینی قیروب قورتارمقدن عبارتدر.

ایمدی، بر کره‌ده‌وشونه‌لم؛ بو آخرنجی بر ایملك ایچنده، ایروانك بتون غوبرنیاسنده ارمنی ظلم کارلقیله اوجیوزدن آرتیق مسلمان کندلرینك یاندیریلوب داغیدیلماسی، ایولرینك آگین‌لرینك‌مال قارالارینك تالانماسی، جماعتلرینك قیریلماسی، حتی دیری ایکن یاندیریلمالاری، و قالانلارینك سحراگاه داغلاره قاچماسی، قاچقالارك‌ده چوقلارینك آچلقدن خسته‌لیگدن تلف اولماسی، شوخلق دگل.

بونلار، انسانلاردر. انسان اولادلریدر. دیانتك، تحمل‌کش مسلمان کندچی‌لریدولر. آگین چیلریدولر.

بو حالار، انسانلار دگل، حیوانلار یله دایاناماز، گوگدرك گوندیگی آغیلار دخی بو قدر کندچیلرك اوجغینی بردن سوندیرمز. بناء علیه؛ انسانلق وظیفه مزدر که، حق اولان سیمزی هر یرده اوجالدق، و ایمدیکی عصرده ایمدیکی دیموقراتیزم وقتنده، ارمنی جمهوریتی حکومتی‌نك امریله؛ ایروان غوبرنیاسنده قمللی‌دن باشلیوب، سووه‌ملی، شاروا، نخجوان محاللارنده‌م مسلمان کندچی لرینك، آگین چیلرینك، مسلح متلم ارمنی قوه لری قیاغنده ازیلوب محو ایدیلدکدن، و سس لری آنجاق اوز طرفلریه قابشمقده اولان، جماعتك فریادلاریله سس ویرمدك.

ایروان غوبرنیاسنده قوجاقلارینده یاراـ لانمش سود امر بالاکاری اولان آنالرك ارمنی گولدلرینك، سونکولرینك قیاغنده، چوللره قارلار اوستنه قاچماغه اولدقلاری دنیا میسوـ قراتلرینه بیلدیرملك.

ایروان غوبرنیاسنده کنجیلرك، آگینچی ـ لرك قانلاریله قیرمیزیلانمش ارمنی الربنی، حقك طرفداری اولان انسانلره، حقوق اتام ك حامیسی بولنان انگلیس‌لره، آمریقالاره، فرانسز لره گوسترمك.

جماعتی؛ صرف مسلمانلردن، مملکتی ایسه صرف مسلمان کندچی و آگینچیلرله مسکون تورباق‌لاردن عبارت، آراس ـ تورك مسلمانلرك حق اولان حقوقلنه، ارمنی جمهوریتی طرفندن حقسزلاراق پامال ایدیلدیکنی اعلان ایلمك.

نهوسه؛ یاریم میلیون مسلمان کندچی و آگینچیلرینن عبارت اولان آراس ـ تورك حوا لیسنك اوچ طبیعی؛ تاریخی، واتنوغرافی مملکتنده حق حکومته مالك اولدیغنی دیپلوماسی دائره لره اعتراف ایتدیرملك.

ایروان غوبرنیاسنده یمك دفعه آنالـ‌خیر لردن گورونورکه؛ ۱۹۰۴ و ۵ نجی ایللرده، ارمنی قولدور دسته‌لرینك مسلمانلار علیهنه اویناداقلاری تجاوزکارانه رول‌لاری، ایمدی‌ده ارمنستان جمهوریتی تکرارلامغه باشلامش. آراس ـ تورك سرحدلرینه منتظم و مسلح ارمنی قوشونلاری گوندرمش. بو صلح صلاح ایله پاشا مغه محتاج اولان قوه‌سز بر ملتك مملکتنه آب آسنرین هجوملار ایتمشدر. وایتمکده‌در.

بوندان آگلاشیلیر که، ارمنی جمهوریت حکومتی، گورجستان ایله پاشلادیغی محاربه‌ده بر شئی قازاناماغه‌رغم عثمنی آراس مسلمان لرندن قازاناق ایستیور.

بیر طرفدن‌ده؛ قارا باغی، زنگه‌زوری، اوز خوتخوار و قولدورلغی ایله خرابه حاله سالان آنمرانیك و همباری، ایمدی‌ده ایروان غوبرنیاسنه گتیشلرده، ارمنی جمهوریتی ایله بان یانه وروب بورا مسلمانلارینی آرانه آلمشلردر.

بوگا گوره؛ آذربایجان جمهوریتی‌نك تشئیله، و قافقاسیاده یولان متفقلر قوماندانلقنك سریع اقداماتیله، هرنه واسطه ایله اولورسه اولسون، بو ارمنی تجاوزاری، ایران غوبرنیا سنده دایانمیرلماسی ـ آراس ـ تورك حوا لیسنده اولان یاریم میلیون تورلق کندچیلر و آگینچیلر هیتی؛ سلاحسزلق‌لاری مناسبتیله، داغلرك قارلی قیالارینه و آراس‌ك بوزلو سو لارینه پناه آیارمغه مجبور اولاجاقلردر.

بونکله‌ده یاریم میلیونلق دیموقرات کتله‌سینك حق اولان حقوق‌لاری پامال ایدیلدیکدر..

م. ع. میر باقر زاده

ظلمله‌ر قارشی دوامعز.

یوز ایللدن چوق‌در که روس عساکری قافقاز قطعه‌سنی استیلا ایتمش‌در. سایر قافقازلیلر ایله‌بابم آذربایجانلیلرده روس تبعیتی قبول ایده‌رك، کمال صدق و اخلاص قلبله داورانوب یری دوشمگه‌چه اوزینك حامیسی دوغرو وصادق برتبعه اولماسینی قولا و قطع قوی دلیللر ایله ثبوت ایتمش‌در.

روسیه‌نی اوزینه حقیقی بر وطن بیلوب داخلی و خارجی دشمنلری مقابله‌ده سینه‌سنی سپر ایتمش‌در. اوغلارینی یوز بیلرجه قربان ویرمش‌ده، داها بر چوق قدا کارلقلرده سوگرمه بولنرده عوض اوزینه بر نوازش، بر مرحمت گورمه‌مش‌در. حله بو مرحمتلر بر کناره قالسون ـ سایرلرینه ویریلمش حقوق و اختیارك یوزده بریله راست گلمه‌مش‌در. آذربایجانلیلرك یوز ایللك بو صداقتی هیچ بر حکمدارلق، حتی هیچ بر قافقاز والیسنك‌یوه گتمی یومشاتمادی. روس ـ ایران و روس ـ عثمانلی محاربه‌لرینده دفعاتیله اوز همدین وهم مذهب قارداشلرینك اوزرینه قیلیچ‌کمش آذربایجانلیلره «مالا دیس» کامه‌سندن باشقه هیچ بر حقوق ویریلمه‌دی. قومشولریمز گورجی و ارمنی ملتلری سلاح آلتیه آلدقری هرمسئله مخصوص‌ده تشکیل و بولوکلر ترتیب ویریلدی. مسلمانلره کلمه‌گلمه‌دی بونلر خائلر جرگه‌سنه قویولدقری اخذ عسکر طلبلرنده‌ده آزاده اولدیلر. بو گا باقمایه‌رق، آذربایجانلق گوگللی دسته‌لری ۱۹۰۴ نجی ایلده مانچوریا سحرالریند دشمن قورشولرندن میتلرجه ثولوم شربتی دادمشلردر. «بقایا دیویزیه» آدیله همان گوگللر اون ایکی ایل سوگره، روس قوشونلری سرحدی قویوب فاجعه‌یقری بر حالده تعجب آمیز شجاعتلریله وطنی دشمنك تجاوزاتدن بر مدت مدافعه ایدیلمشلردر. داخی گوگللر نه یومیاقلامش، نه مروته کلمه‌مش‌دیر!

ایشته هم‌دین وهم‌قان اولان ایران وعثمانلیلر اولسون، ایستر یکانه پاپونیا و آلمانیا اولسون، آذربایجان جفتچیلری و زحمتکشلری بونلرك هیئه قیلیچ چکمکله وطنه اوزینك صادق براولاد قالماسنه چالیشیرلردی. قارداشلر و بیرلرلری که بلکه بونلری‌ده وطنه دوغمه اولاد یاپوب، تاپسونلر، سوسیز و توپراقسیز یاشایان بر چوق دهات اهلینه امداد ایتسونلر. اما هیهات!!

بر عصر تمام کیچدی حد وسنور (memnuniyet) مسئله‌سی قورقارمادی و بلکه بر چوق پرلرده هیچ یاشلانمادی. بونك انتظاریمی چکمش‌اعالی، آتا ـ بابادن قالمش پرلرك سرحد و تباسلرینی اونوتدیلر؛ مأمورلر تحریکی ایله تفرقه یازیله قوروشانوب براوبا دیگر بر اوباشك یاخود ملکدارلك پرلرینك خزینه به تعلقی ادعاسی ایله محکمه‌لرده شهاده قالقشدیلر.

(مأمورلر بو شاهدلری اینانه‌رق‌مشدیلر که هرکاه بو پرلره خزینه صاحب اولورسه، صوگره‌ده خزینه همان برلری دهات اهلینه قایتاره‌جق در.) حیله‌لره آلدانمدیلر، سو و توپراق محرومیتی اولکه‌نده‌ده آرتیق درجه‌ده شدت ایتدی: بویله که بر چوق برلر محکملر واسطه‌سیله حقوق شناس طایفه‌لرك الینه کیچدی (بلاد قره‌باغده ـ آتاباغك پرلری و باغچرقان میشه‌لری ارمنیلر الینه کیچمش در.) خزینه اودیغی برلر ایسه، آذربایجان دهاتینه دگل، روسیه‌دن کوچریلمش زوس‌مهاجر لرینه بایلانمش در. یوز ایللردن بری ایکی نسل یتیشن سولی برلر روسلره ویریلدیکی ایتاده کمنه صاحبلری بر دفعه کندلرینی یاقیرق، اللری قولتوغنده زار ـ زار آغلاره‌یلار و یچیچه‌یه بیچارلر اعلامات سوئکر که گوزلرینك قاباغنده اولاد بالارینك کندیگی

Cümə axşamı, 9 yanvar 1919-cu il, nömrə 83

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 6 rəbiülaxir sənə 1337. 9 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

DAXİLİYYƏ NAZİRİ

Müstədini [ərizəçini] qəbul edir, düşənbə [bazar ertəsi], caharşənbə [çərçənbə] və yekşənbə [bazar] günləri səhər saat 11-dən.

T-1 3-3

MÖHTƏRƏM QARELƏRİMİZƏ
[OXUCULARIMIZA]

Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetəmizin müdiri sifəti ilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq Cahan Sülh Konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.

Böyük xidməti möhtərəm arxadaşlarımla bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə, qəzetə idarəsi işindən müvəqqət olaraq ayrılıb, əziz vətənimizin istiqlal məsələsinin istədiyimiz yoldakı həlli, hüsn-ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidqü səmimiyyətlə xüdahafiz deməyi özümə fərz bildim.

"Azərbaycan" qəzetəsi müdiri:
Ceyhun bəy Hacıbəyli

İRƏVAN
ERMƏNİ-MÜSƏLMAN MƏSƏLƏSİ

II

1904-cü və 5-ci illərdən bəridir ki, Qafqaziyada ermənilərlə müsəlmanların arası gərginləşmişdir. Bu gərginləşmənin ən çox sədəməsi [zərbəsi] müsəlmanlara dəymişdir və bu sədəmənin ən ağırı da bilxassə İrəvan quberniyasında yaşayan müsəlmanların üstünə düşmüşdür.

Necə ki məlumdur, ermənilər çoxdan bəri özləri üçün padşahlıq qurmaq arzu edirdilər. Bu arzularına çatmaq uğrunda da hər cəhətdən hazırlanırdılar. Ermənilərin bu arzu və bu hazırlıqları sövqü ilə idi ki, vəqti-fürsətdə [fürsət ələ düşəndə] qabaqlarına müsəlmanlar tərəfindən əngəllik çıxmasın deyə məzkur [deyilən] illərdə, Qafqaziyada səbəbsiz və apansız müsəlmanlar üstünə qanlı vuruşmalar açdılar. Bu vasitə ilə ermənilər müsəlmanları qorxudub, gözlərinin odunu alıb, hərəkatları vaxtında onları susdurmaq istədilər.

Hadisələrin səbəbi, vuruşmaların başlayanı Qafqazın hər yerində, hər vaxt ermənilər olduqları halda, həman hazır-

lıqlardan biri olmaq üzrə xüsusi agentlər və qəzetələr vasitəsi ilə hücum etmiş olan özlərini məzlum və hücumlarına düçar olmuş müsəlmanları zalım göstərməyə çalışdılar. Ermənilər bu qışqırıqlarını öylə bir ustalıqla başladılar ki, özlərini guya müsəlmanların əlindən qurtarmaq, məzlum və naçar olduqlarını göstərmək üçün hətta Avropa ricalından [dövlət adamlarından] və hökumətlərindən köməkliklər istədilər. Bunların səsləri Avropaya, hətta Amerikayadək gedib çatdı.

Ermənilərin hər yerdə olan işlək adamları da boş durmadılar. Erməni və ermənilik aləmini hər kəsin zehnində yerləşdirdilər.

O zamankı zalımlıq və məzlumluq adı hansı tərəfin üstündə qaldığında işimiz yox, ancaq bunu deyə bilərəm ki, nə hökumətlər yanında və nə qəzetələrdə erməni hazırlıq qüvvələrinin altında tapdalanmış biz müsəlmanlar tərəfindən bir təşəbbüs və bir səs görünmədi. Çünki, heç bir məqsədimiz və o məqsəd üçün də heç bir hazırlığımız yox idi. Ermənilərin müsəlmanlar haqqında olan politikaları həman halı ilə davam edir. Ancaq o vaxtkı politikalarının rəngi başqa idi, indiki daha başqa. Fəqət politika həman müsəlmanları əzib susdurmaq politikasıdır və daha zalım-məzlumluq kəlmələri ilə oynamayıb, indi hər kəsin başı qarışıq olduğu zamanda daireyi-hökumətlərini genişlətmək üçün İrəvan quberniyası müsəlmanlarını qırıb qurtarmaqdan ibarətdir.

İndi bir kərə düşünməli. Bu axırıncı bir ilin içində İrəvanın bütün quberniyasında erməni zülümkarlığı ilə 300-dən artıq müsəlman kəndlərinin yandırılıb dağıdılması, evlərinin, əkinlərinin, malqaralarının talanması, camaatlarının qırılması, hətta diri ikən yandırılmaları və qalanlarının səhralara, dağlara qaçması, qaçanların da çoxlarının aclıqdan, xəstəlikdən tələf olması şuxluq [zarafat] deyil. Bunlar insanlardır, insan övladlarıdır. Dünyanın zəhmətkeş müsəlman kəndçiləridirlər, əkinçiləridirlər. Bu hallara insanlar deyil, heyvanlar belə dayanammaz. Göylərin göndərdiyi afətlər [bəlalar] dəxi bu qədər kəndçilərin ocağını birdən söndürəmməz.

Binaileyh [ona görə], insanlıq vəzifəmizdir ki, haqq olan səsimizi hər yerə ucaldaq və indiki əsrdə, indiki demokratizm vaxtında Erməni Cümhuriyyət Hökumətinin əmri ilə İrəvan quberniyasında Qəmərlidən başlayıb, Sürməli, Şərur, Naxçıvan mahallarında müsəlman kəndçilərinin, əkinçilərinin müsəlləh [silahlı] müntəzəm [nizami] erməni qüvvələri qabağında əzilib, məhv edilməkdə və səsləri ancaq öz tərəflərinə qayıtmaqda olan camaatın fəryadlarına səs verək.

İrəvan quberniyasında qucaqlarında paralanmış südəmər balaları, anaların erməni güllələrinin, süngülərinin qabağından çöllərə qarlar üstünə qaçmaqda olduqlarını dünya demokratlarına bildirək.

İrəvan quberniyasında kəndçilərin, əkinçilərin qanları ilə qırmızılanmış erməni əllərini haqqın tərəfdarı olan insanlara, hüquqi-ənamın [insan hüquqlarının] hamisi bulunan ingilislərə, amerkalılara, fransızlara göstərək.

Camaatı sırf müsəlmanlardan, məmləkəti isə sırf müsəlman kəndçi və əkinçi-

ləri ilə məskun torpaqlardan ibarət Araz Türk müsəlmanların[ın] haqq olan hüququnun Erməni Cümhuriyyəti tərəfindən haqsız olaraq paymal edildiyini [tapdalandığını] elan edək.

Nüfusu [əhalisi] yarım milyon müsəlman kəndçi və əkinçilərindən ibarət olan Araz Türk həvalisinin [bölgəsinin] öz təbii tarixi və etnoqrafi məmləkətində həqqi-hökumətə [hakimiyyət haqqına] malik olduğunu diplomasi dairələrə etiraf etdirək.

İrəvan quberniyasından son dəfə alınan xəbərlərdən görünür ki, 1904 və 1905-ci illərdə erməni quldur dəstələrinin müsəlmanlar əleyhinə oynadıqları təcavüzkaranə rolları indi də Ermənistan Cümhuriyyəti təkrarlamağa başlamış, Araz Türk sərhədlərinə müntəzəm və müsəlləh erməni qoşunları göndərmiş, bu sülh-salah ilə [əmin-amanlıqla] yaşamağa möhtac olan qüvvəsiz bir millətin məmləkətinə apansızın hücumlar etmişdir və etməkdədir. Bundan anlaşılır ki, Erməni Cümhuriyyət Hökuməti Gürcüstanla başladığı müharibədə bir şey qazanmmadığının əvəzini Araz müsəlmanlarından qazanmaq istəyir.

Bir tərəfdən də Qarabağı, Zəngəzuru öz xunxar [qaniçənliyi] və quldurluğu ilə xaraba hala salan Andranik və həmpaları [yoldaşları] indi də İrəvan quberniyasına getmişlər də, Erməni Cümhuriyyəti ilə yan-yana verib bura müsəlmanlarını aralığa almışlardır.

Buna görə, Azərbaycan Cümhuriyyətinin təşəbbüsü ilə və Qafqaziyada bulunan Müttəfiqlər Komandanlığının səri iqdamatı [təcili addımları] ilə, hər nə vasitə ilə olursa olsun bu erməni təcavüzləri İrəvan quberniyasında dayandırılmazsa, Araz Türk həvalisində olan yarım milyon nüfusluq kəndçilər və əkinçilər heyəti silahsızlıqları münasibətilə dağların qarlı qayalarına və Arazın buzlu sularına pənah aparmağa məcbur olacaqlardır.

Bununla da yarım milyonluq demokrat [xalq] kütləsinin haqq olan hüquqları paymal ediləcəkdir.

M. A. Mirbağırzadə

ZÜLÜMLƏRƏ QARŞI DAVAMIMIZ

Yüz ildən çoxdur ki, rus əsakiri [əsgərləri, ordusu] Qafqaz qitəsini istila etmişdir. Sair qafqazlılarla bahəm Azərbaycanlılar da rus təb'iyyətini qəbul edərək kamali-sidq və ixlasi-qəlblə [böyük bir sədaqət və təmiz ürəkliliklə] davranıb, yeri düşdükcə özünün hamıdan doğru və sadiq bir təbəə olmasını qövlən və feilən [sözdə və işdə] qəvi [qüvvətli] dəlillərlə sübut etmişdir. Rusiyanı özünə həqiqi bir vətən bilib, daxili və xarici düşmənləri müqabilində sinəsini sipər etmişdir. Oğullarını yüz minlərcə qurban vermişdir. Daha bir çox fədakarlıqlardan sonra bunlara əvəz özünə bir nəvaziş, bir mərhəmət görməmişdir. Hələ bu mərhəmətlər bir kənarda qalsın, sairlərinə verilmiş hüquq və ixtiyarın yüzdə birinə rast gəlməmişdir. Azərbaycanlıların yüz illik bu sədaqəti heç bir hökmdarın, hətta heç bir Qafqaz valisinin ürəyini yumuşaltmadı. Rus-İran və Rus-Osmanlı müharibələrində dəfəatla [dəfələrlə] öz həmdin və həmməzhəb qardaşlarının üzərinə qılınc çəkmiş azərbaycanlılara "malades"

kəlməsindən başqa heç bir hüquq verilmədi. Qonşularımız gürcü və erməni millətləri silah altına alınaraq hərəsinə məxsus müntəzəm [nizami] fövc [dəstə] və bölüklər tərtib verildi. Müsəlmanlara gəldikdə, bunlar xainlər cərgəsinə qoyularaq, əxzi-əsgər [hərbi çağırış] tələbatından da azad olunurlar. Buna baxmayaraq, Azərbaycanın könüllü dəstələri 1904-cü ildə Mançuriya səhralarında düşmən qurşunundan minlərcə ölüm şərbətini dadmışlardır. “Dikaya divizya” adı ilə həman könüllülər 12 il sonra rus qoşunları sərhədi qoyub qaçdıqları bir halda təəccübamiz [təəccüb doğuran] şücaətlərlə vətəni düşmənin təcavüzatından bir müddət müdafiə edə bilmişlərdir. Daş könüllər yenə yumuşalmamış, yenə mürvətə gəlməmişdir!

İstər həmdin, həmlisan [dini bir, dili bir] İran və osmanlılar olsun, istər biganə [yad] Yaponiya və Almaniya olsun, Azərbaycan ciftciləri [cütcüləri, əkinçiləri] və zəhmətkeşləri bunların həpsinə qılınc çəkməklə, vətənə özünün sadiq bir övlad qalmasına çalışırlardı, qurbanlar verirlərdi ki, bəlkə bunları da vətənə doğma övlad bilib tanısınlar. Susuz və torpaqsız yaşayan bir çox dəhat [kənd] əhlinə imdad etsinlər, amma heyhat!

Bir əsr tamam keçdi. Hədd və sinur (межевение) [yer ölçmə və sərhəd çəkmə, delimitasiya və demarkasiya] məsələsi qurtarmadı və bəlkə, bir çox yerlərdə heç başlanmadı. Bunun intizarını çəkmiş əhali, ata-babadan qalmış yerlərin sərhəd və nişanələrini unutdular. Məmurlar təhriki ilə təfriqəbazlığa [nifaqa] qurşanıb bir oba digər bir obanın yaxud mülkədarın yerlərinin xəzinəyə təəllüqü [məxsusluğu] iddiası ilə məhkəmələrdə şəhadətə [şahid olmağa] qalxışdılar. (Məmurlar bu şahidləri inandırmışdılar ki, hərgah bu yerlərə xəzinə sahib olarsa, sonra da xəzinə həmin yerləri dəhat əhlinə qaytaracaqdır.) Hiylələrə aldandılar. Su və torpaq məhrumiyyəti əvvəlkindən də artıq dərəcədə şiddət etdi. Belə ki, bir çox yerlər məhkəmələr vasitəsilə hüquqşünas [hüquqdan başı çıxan] tayfaların əlinə keçdi. (Məsələn, Qarabağda Ataxanın yerləri və Bağırqan meşələri ermənilər əlinə keçmişdir.) Xəzinə udduğu yerlər isə Azərbaycan dəhatına deyil, Rusiyadan köçürülmüş rus mühacirlərinə paylanmışdır. Yüz illərdən bəri əkilən-biçilən sulu yerlər ruslara verildiyi əsnada, köhnə sahibləri bu dəfə kənardan baxaraq əlləri qoltuğunda zar-zar ağlardılar və necə də biçarələr ağlamasınlar ki, gözlərinin qabağında ulu babaları əkdiyi hündür və cəsamətli qoz ağaclarını rus mühacirləri para-para doğradılar. Cayi-təəccüb [təəccüblü] burasıdır ki, mühacirləri gürcü və erməni kəndliləri arasında deyil, məhz müsəlman torpaqlarında yerləşdirmişdilər. (O da İran və Osmanlı sərhədlərinə yavuq yerlərdə.)

Bu gün rus mühacirləri İrəvan, Gəncə və Bakı quberniyalarının müsəlman dəhatına mütəəlliq yerlərində bulunurlar. 40-ıncı illərdə cəzalandırmaq bəhanəsi ilə malakanları müsəlman arasına köçürdülər və sonra da Rusiyada ciftcilər arasında torpaq iğtişaşı (аграрное движение) başlandığı halda, onları oradan qalxızıb Qafqaz müsəlmanları arasına köçürdülər, ta ki sərhədlərdə törəyə biləcək müsəlman “xəyanətinə” bunlar mane olsunlar. Odur ki, hökumət məhafilin-

dən [dairələrindən] bunlara yüz cürə mərhəmət və nəvazişlər göstərilirdi. Müsəlman dəhatının əkini susuzluqdan yandığı bir halda, mühacirlərin hökumət məsarifi [xərcləri] ilə açılmış arxlarında su aşıb-daşırdı. İllərcə bunlardan vergi və tövcü almayan xəzinə, əkin mayehtacı [alətləri], əmlaki-mütəhərrikə [daşınan əmlak], meşələrdən dam dirəkləri, cəbbəxanalardan da tüfənglər məccanən [pulsuz] payladırdı. Hökumət əli ilə silahlanmış mühacirlər karastısız [alətsiz] qonşu müsəlmanlara olmazın cövr və əziyyətlər yetirirdilər. Cavanlarını damlayıb, adamlarını da cüzi bir bəhanə ilə tüfəng oduna tuturdular. Zatən bunların böylə narəva hərəkətləri bəzi qubernatorların andırma və işarələri ilə meydana çıxmışdır. Yoxsa hər iki camaat qansız və qadasız bir növlə yaşaya bilərdilər.

Bundan daha təəccübü burasıdır ki, Aşqabad və türkmən səfərbərliklərində iştirak etmiş Qafqaz müsəlmanlarına iş bitdikdən sonra oralarda yer və mülk almaq tamamən qadağan olur. Halbuki, gürcü və erməni kimi sair millətlərə və ələlxüsus ruslara bu barədə bəzi mülatifələr [təltiflər] də verilir!

Hər işdə səbirli və mətanətli azərbaycanlılar bu su və yer məhrumiyyətlərinə də və bundan törəyən cövr və əzaya qatlaşaraq sairlər kimi üsyana qalxmadılar. (Halbuki, buna haqlı idilər.) Yevropa qapılarını biri-birinə çırpmadılar... Vətənin sair nemətlərinə ümidvar olub dayandılar. Rus camaatını xoşlandırmaq üçün məscidlərini, qəbristanlarını kilsə təmiri [tikintisi] üçün əta etdilər. Hətta, məscid və ziyarətgahlar mövqüfatını [vəqf olunmuş mal və əmlakını] da qubernatorlar əllərinə tapşırmağa razı qaldılar.

Bunun müqabilində məscid damları uçulurdu, minarələri xarab olurdu. Bunları təzələmək üçün mövqüfat nəqdiyyəsindən [vəqf olunmuş mal və əmlakdan əldə edilən nəğd puldan] az bir məbləğin sərfinə heç bir izin sadir [hasil] olmayırdı. Ermənilərin Üçkilsə sandıqçalarına hökumət əli uzanıldığı halda, nə fitnə və fəsadlar törətdilər, bu da hamıya məlumdur.

Hər şeydən məhrum qalmış azərbaycanlılar bu dəfə maarif işlərinə ümid bağladılarsa da, burada da oxları daşa dəydi. Gürcülər üçün Kutais ətrafında və ermənilər üçün də İrəvan şəhərində birər seminariya açmış hökumət, əvvəlcə bu neməti müsəlmanlara lazım görmədi. Sonradan xala xətrin qalmasın deyə gürcü vilayəti Qori şəhərində müsəlmanlara məxsus bir seminariya şöbəsi açdı. Özgələrinə akademiyaya qədər izin vermiş hökumət, müsəlmanların ruhani məktəblərinə əsla məhəlgüzar olmadı [məhəl qoymadı]. Bundan naşi [bu səbəbdən] ruhani sinfi get-gedə qısaldı, azaldı, metrik dəftərlərini [metirkaları, doğum şəhadətnamələrini] saxlamağa molla tapılmadı. Uşaqlarımızın yaşları dəftərə vaxtında qeyd olmadığı üçün təvəllüdnamələr də vaxtında verilmədi. Binabərin [bu səbəbdən] yaşları çox çıxmış yaxud təvəllüdnaməyə malik olmayan biçarə uşaqlarımız işkollara qəbul olunmayıb, maarif vəsilələrindən də məhrum buraxılmışlardır. Təvəllüdnamə bəlasından bisavad qalmış cavanlarımızın həddi-hesabı yoxdur. Bu müsibətin rəf'i [aradan qaldırılması] üçün azərbaycanlılar çalışdılar, vuruşdular, hökumət müavinətindən [köməyin-

dən] məyus olaraq 1907-ci illərdə Gəncədə “Ruhani” və Bakıda da “Səadət” adlı birər məktəb açdılar. Qafqazda təlim kitabları tapılmadığı üçün bunları İstanbuldan gətirməyə məcbur oldular. İştə bu fəqərə [hadisə] həman məktəblərin hökumət tərəfindən yapıldığı təftişatına bais oldu. Tarix, coğrafiya və ədəbiyyat kitabları –ki İstanbul təb’ləri [çapları] idi – gizlədildi. İran təbəəsindən məhsub [İran vətəndaşı sayılan] müəllimlər qovuldu, şagirdlər kitabsız qalaraq proqram öhdəsindən gələ bilmədilər. Müəllimlər həvəsdən düşdülər, dağıldılar və binaileyh [ona görə] də üçüncü sinifdən yuxarıkıları açılmadı. Rəsmən hökumət bu məktəbləri qapamadısa da, sair sıxıntılarla öylə hallara gətirdi ki, daha onların səhhətinə ümid yoxdur.

Bir vaxt ermənilərin məktəb işlərinə müdaxilə olundu. Bunu ermənilər üsyan və qiyamla qarşıladılar. Lakin azərbaycanlılar maarif işində də sükut ixtiyar edib, yenə səbr və təhəmmüllə [qatlaşmaqla] gələcəkdə sairlər kimi sahibihaqq və imtiyaz olacaqlarına böyük ümidlər bağlayırdılar. Azərbaycan ürəfası [ziyalıları] isə hökuməti-müstəbidənin [zalım hökumətin] işlərindən xoşlanmayıb, rus camaatına, böyük bir rus kütləsinə ümidvar olaraq, həman kütlənin yetirdiyi Vladimir Solovyovu, Tolstoyları, Dostoyevskiləri, Puşkinləri, Lermontovları və sairlərini səcdəgah ittixaz [qəbul] etmişlər. Onların məsləkləri ilə məsləklənmişlər. Rus ürəfası ilə qəm şəriki olmuşlar.

Rus İnqilabi-kəbiri [Böyük Rus inqilabı] başlandı. Sairlər kimi azərbaycanlılar da buna iştirak etdi. Qonşularla həmhüquq olmaq istədi. Amma heyhat. Yüzlərcə sairlərə hüquq qazandırmış bu inqilabikəbir, müsəlmanları görmək istəmədi. Nə Kerenski və nə də Ulyanov idarələri, müsəlmanları[n] sairlərlə müsavi [bərabər] olmalarına əsla məhəl qoymadılar. Buna mane olmaq üçün Şaumyanlar əli ilə hətta qırğınlar da düzəltdilər.

Qonşularımıza gəldikdə, bunlar da rus orduları buraxdığı milyonluq cəbbəxanaları öz aralarında bölüşərək, müsəlmanlara da buyurdular ki, rus əsgərlərinin dəmiryollarda tüfənglərini alıb buraxsınlar. Bunun nəticəsi olaraq Azərbaycan yolları tarumar oldu. Cəbbəxanalar əğyara [düşmənə] qismət olduğu üçün üzərimizə yapılan mütəcavizlərə [hücumlara, zorakılıqlara] qarşı dayanammadıq. Andranik kimi quldurlar cürətləndilər, kəndlərimizi oda yaxdılar. İrəvan və Qarabağ müsəlmanları erməni əşqiyası [quldurları] əli ilə tarumar olub getməkdədir.

Əcəba gürcü ilə ermənilər neyçün döyüşürlər? Borçalı və Axalsıx müsəlmanlarının yerləri üstə. Hər birisi bu yerləri özlərinə mal etmək istəyirlər. Təəccüb burasıdır ki, Zaqatal okruquna [dairəsinə] dair sənədatı [sənədləri] Gürcü Hökuməti Azərbaycana hələ verməmişdir. Buna səbəb nədir? Tiflis şəhəri canişin qərargahı olduğu üçün Qafqaz sənədləri və nişangahları [rəmzləri] oradaca saxlanırdı. Bu gün bu saxlanışlara daha ehtiyac qalmadığından köhnə xanlıqlara aid bayraqlar, açarlar, sənədlər Tiflis dəftərxanaları və müzələrindən [muzeylərindən] götürülüb Azərbaycana qaytarılmalıdır.

Andraniklərdən əlavə, Azərbaycanın

Lənkəran cəhətini üçüncü qonşumuz ruslar xarabaya döndərmişlər. Hələ Bakıdakı bəzi rusların da bizə qarşı rəftarı nagüvara [pis, xoşagəlməz] görünür. Burası təəccüb deyilmi? Azərbaycan ətrafında rus ünsürünə göstərilmiş nəvazişləri biz heç yerdə görməyirik. Gürcülər rus məmurlarını tamamən məzul edib [işdən çıxarıb] yerlərinə öz gürcülərini qoydular. Ermənilər də İrəvan ətrafından rus mühacirlərini qovaraq daha yerlərinə qayıtmasına bu gün izin verməyirlər, cürbəcür bəhanələr ittixaz edirlər [tapırlar]. Bu nalayiq hərəkətlərdən bizdə hangisinə rast gəlmişlərdir? Məmurlarımızın yüzdə doxsanı rus əhlindən olduğu halda rus lisanı da hələ idarələrimizdən qovulmamışdır. Bəs rusların bəd rəftarına səbəb nədir?

- İstibdad dövründən bizə irs olaraq olmazın zülm və nərəva hərəkətlərə səbr etməyimizdir, vəssalam.

Fərhad Ağazadə

QƏZETƏLƏRDƏN

General Boldırev və general Denikin

Ufadan xəbər verirlər ki, general Boldırev general Denikinə bir məktub yazıb, Ufa Hökumətinin nə tövr təşkil edilməsi təfsilatını və Müttəfiqlərin münasibatını [münasibətlərini] göstərib, artıq mümaniət [maneçilik] və mübahisə vücuda gətirilməməsini xahiş etmişdir. General Boldırev məktubunda deyir ki, şəxsi mülahizatla deyil, vətənin xeyri üçün Uralda və şərqdə böylə bir hökumət təşkil edilmişdir. Orada hökumət demokratik əsası ilə qurulmuşdur və özgə cürə ola bilməzdi. Başqa bir bayraq altında bolşevizm üzərinə hücumu xəyala gətirmək ağılsızlıqdır. Böylə hücum etmək mümkün olmayan şeylərdəndir. Müttəfiq dövlət nümayəndələri də bunu inkar etməyirlər.

Puankare ilə müsahibə

Londonda nəşr olunan "Deyli xronikl" qəzetəsi öz müxbirinin Puankare ilə müsahibəsini elan edir. Puankare qəzetə müxbirinə demişdir:

"Biz sülh barəsində qayət xətrəli [təhlükəli] məsləhətlərə başlayırız. Mən indidən bu iclasların xoş nəticələr verəcəyini görməyirəm. Amerika rəisi-cümhuru Vilson tərəfindən qeyd edilən 14 maddəyə bizim hər iki millətimiz razıdırlar. Biz ancaq arzu edərdik ki, dənizlərin azad edilməsi xüsusunda əllərimiz açılaydı. Mən ümidvaram ki, Lloyd Corc və Klemanso hamı məsələlərdə öz aralarında etilafa [razılığa] gələrlər.

Biz nemesləri qayət ciddi surətdə təqib etməliyik. Nemeslər İngiltərəyə bir o qədər xəsarət verməmişlərdir. Fəqət, Fransaya verdikləri xəsarətin həddihesabı yoxdur. Nemeslər yanlız pul ilə deyil, cinsən [natura ilə] zərərlərimizi ödəməlidirlər."

Müxbir nəhayət Puankaredən Fransaya bolşevizm sirayət edib-etməyəcəyini sual etdikdə, böylə cavab vermişdir: *"Fransaya bolşevizm keçməz, bolşevizm mikrobu ancaq məğlub millətlər arasına keçə bilər."*

Dənizdə qəza

Məzuniyyətə çıxmış bəhriyyunları [matrosları] aparmaqda olan paraxod Lüis cəzirəsi [adası] yanında su altında olan

bir daşa toxunub qərq olmuşdur [batmışdır]. Paraxoddakılardan 50 nəfər kənara çıxıb, qalan matroslar qərq olmuşlardır.

Amerikanın “Nortern Pasifik” nam [adlı] paraxodu 2480 nəfər Amerika saldatı apararkən Fayn cəzirəsi yanında saya əyləşmişdir. Bu paraxoda müavinət etmək imkan xaricindədir və bu vaxta qədər heç kimi xilas eyləmək mümkün olmamışdır.

Sülh Konfransı

Sülh Konfransında iştirak edəcək ingilis nümayəndələri cümləsində [arasında] Rəisi-vükəla [Baş nazir] Balfur, Bonar Lou, Hardinq dəxi olacaqdır. Nümayəndələrin əksəri yanvarın 4-ündə Fransaya əzimət edəcəkdirlər [yola düşəcəklər]. Sülh Konfransının yanvarın 3-ündə açılacağı gözlənirmiş.

Şuralar ictimasının [yığıncağının] qurtarması

Belindən xəbər verirlər ki, Şuralar Konfransı dekabrın 20-də qurtarmışdır. Leynert axırıncı nitqində demişdir ki: *“Düşmənlərimizin imperializmi Almaniya imperalizminə qalib gəldi. Biz İngiltərə, Fransa və Amerika imperializminin bizim fütuhatımızı [nailiyyətlərimizi] tələf etməməsinə çalışmalıyız. Bizim ümdə məqsədimiz, var qüvvəmizlə çalışıb alman millətini və Almaniyanı mədəniyyətə və səadətə çıxarmaq olacaqdır. Buna da ancaq öz zəhmətimizi sərmayədarlar nəfinə [xeyrinə] deyil, özümüzə sərf etməklə nail olmaq olar.”*

Vilson sansür [senzura] əleyhinə

Stokholmdan Bern şəhərinə verilən simsiz teleqraf xəbərlərinə görə, Vilson Müttəfiq dövlət nümayəndələrinə izhar etmişdir [bildirmişdir] ki, sülh şəraiti [şərtləri] məsələləri haqqında azad bir surətdə bəyani-əfkar etməkdən [fikir bildirməkdən] ötrü hamı sülh müahidənamələri [sazişləri] açıq-aşkar elan edilməklə bərabər, tezliklə sansür ləğv edilməlidir.

Vilson İsveçrədə

Yenə Berndən xəbər verirlər ki, Vilson İtaliyaya getdikdə, İsveçrəyə də gələcəyini İsveçrə Müttəfiq Şurasına xəbər vermişdir.

Lehistanda böhran

Kiyev lehləri dairələrində alınmış olan xəbərlərə nəzərən, Lehistanda yenidən hökumət böhranı müşahidə edilir. Sosialist başçılarından olan Moraçevskinin kabinesi istefa vermişdir. Yeni hökuməti Almaniya Reyxstaqı məbusu [deputatı], məşhur Polşa demokrat başçılarından Korqati təşkil edir. Yeni kabinə, müştərək bir kabinə olaraq oraya sosialistlərlə bərabər Lehistan sərvətdarları [kapitalistləri] nümayəndələri də daxil ediləcəklərdir.

“Tisadan Dnestrədək”

Kral Ferdinand Macarıstan rumınlarının nümayəndələrini hüzuruna qəbul edib, onları Böyük Romaniya məmləkətinə mülhəq olmaları [birləşmələri] ilə təbrik eyləmişdir. *“Gələcək Romaniya sərhədi Tisadan Dinestrədək olacaqdır”* demişdir.

Şeydeman Almaniya barəsində

Danimarka qəzetə müxabiri [müxbiri]

ilə söhbət əsnasında məşhur alman sosialistlərindən Şeydeman demişdir ki: *"Bir neçə həftədən sonra Almaniyanın daxili işləri artıq surətdə yaxşılaşmışdır."* Şeydemanın ifadəsinə nəzərən: *"Almaniyadakı bolşevik firqəsini 50 nəfər «Spartak» üzvlərinin həbsi ilə zəifləndirmək olardı. Fəqət hökumət böylə iqdamata [tədbirə] girişmək istəməyir. O ki qaldı sülh şəraitinə [şərtlərinə], Etilaf [Antanta] dövlətləri hələlik onları tərtib eyləməmişdirlər. Fəqət biz özümüz tərki-silah eylədik və bunun nəticəsi də təbii bəllidir. Mən zənn edirəm ki, Amerika, İngiltərə və Fransa ilməyi çox da dar boğmazlar."* Müsahibəsinin axırında Şeydeman düşmən ablukasının [mühasirəsinin] Almaniya üçün nə dərəcədə fəna nəticələr verdiyini söyləmişdir.

Müttəfiqlər Odessada

Romaniya və Cənubi Rusiyada olan Müttəfiq qoşunların baş komandanı general Bertlo Cənubi Rusiya əhalisinə bu məzmunda bir intibahnamə [bəyannamə] nəşr eyləmişdir:

Cənub Rusiya əhalisi! Tam iki ildir ki, sizin sərvətli olan məmləkətiniz ucu-bucağı olmayan vətəndaş müharibəsi ilə parçalanmaqdadır. Bədəfkarlar [canilər] məhəlli [yerli] hökuməti işğal edib, dinclikla yaşayan bütün əhalinin canını, malını təhdid altına almışlardır. Onlar qanunu dost tutan şəxsləri məhv edib, böyləliklə, vətəninizi hərc-mərc halına salmışlardır. Biz – sizin müttəfiqləriniz heç bir vaxt müharibə ibtidasında [əvvəlində] ümumi işdən ötrü sizin göstərmiş olduğunuz cidd-cəhdi unutmarız. Biz istəyiriz ki, sizin vətəninizi yenə tərəqqidə görək və onun üçün də qoşunlarımızı Rusiyaya çıxarırız ki, vətəninizdə qanun bərpa edək. Onlara siz müavinət [kömək] ediniz. Zira onlar yanınıza dost sifəti ilə gəlirlər.

Etilaf [Antanta] dövlətlərin[in] həpsi sizin ehtiyacınız olan şeyləri sizə yetirməyə çalışırlar. Deməli, qoşunlarımız ancaq sizə qanun, azadlıq və salamatlıq yetirmək üçün gəlirlər. Sizinlə Müttəfiqlər arasına küdurət [düşmənçilik] salmaq istəyən müzirr [zərərli] məsləhətçilərə şiddətli cavab verib, Müttəfiqləri etibar və etimadla qəbul ediniz.

General Bertlo

ORDAN-BURDAN

Muğanda

Pristav ya komissar ya nəmənə əmr alır ki, Muğan müsəlman kəndlilərini filan yerə toplasınlar. Tapşırırlar ki, müsəlmanlar mümkün qədər çox yığılsın.

Komissar əməl edir. Müsəlman kəndlilərini qoyun sürüsü kimi yığıb "İsxodka" [toplanış yeri, "sxodka"] deyilən bir yerə cəm edirlər. Müsəlmanların canını qorxu alıbdır. Çünki belə-belə yığıncaqların nəticəsində başlarına "ölüm-zülüm" açıldığını dəfələrlə "təcrübə" edib bilirlər.

Həman "İsxodka" denilən yerə müsəlmanların yarısı qədər də rus mujikləri gəlir. Müsəlmanlar qorxa-qorxa gah komissara, gah ruslara və gah da bir-birlərinə baxıb, işin nəticəsini kamali-vahimə ilə gözləyirlər.

Baş komissar gəlir. Ruslara müraciətən:

- İzdrasti tovarişşi! - deyir.

- İzdrasti tovariş! - deyib mujiklər cavab verirlər.

Müsəlmanlar da kamali-ədəb və übudiyyətlə [qul kimi] əl bağlayıb baş əyirlər.

Baş komissar təkrar ruslara müraciətən:

- Yoldaşlar! Muğan səhrası, Muğan kənd və kəsəkləri, Muğan taxılı kimin olsun? Əziz vətənimiz Rusiyanın, yoxsa zəhləmiz gedən Azərbaycan tatarlarının?

Mujiklər bir yerdə:

- Əlbəttə əziz vətənimiz Rusiyanın! - deyib tatarlara da hələ bir rus söyüşü göndərirlər və yanlarındakı müsəlman kəndçiləri də bu tatarlardan olduğuna görə onlara da qəzəbnak bir nəzər yetirib yumruq göstərirlər.

Dil bilməyən, danışılan sözlərdən bir kəlmə anlamayan müsəlman kəndliləri rusların qəzəbnak nəzərlərini və göstərilən yumruqlarını müşahidə edib başlarına təzə bəlalar gələcəyini yəqin edirlər və "Allah bilən yaxşıdır" - deyib tən qəzaya verirlər [işi olacağına buraxırlar].

Baş komissar yanındakı kiçik komissarlara:

- Şahidsinizmi?

Komissarlar:

- Şahidik!

- İznaçit konçeno? (Yəni, vəssalam.) İndi dağılın evlərinizə! Tovariş Vasili, tatarları qav [qov] evlərinə!

Vasili müsəlmanlara:

- Hayda damoy! - deyib işarə edir ki, evlərinə getsinlər. Müsəlmanlar mat və məəttəl qalıb bilmirlər ki, bu nə işdir, neyçün bunları yığdılar, neyçün indi dağıdırlar? Nə danışdılar, nə qərar qoydular, təqsirləri nədir, tənbehləri nə olacaqdır? Qərəz, heyran və seyran evlərinə tərəf gedirlər...

Əri gedəndən bəri doqqaz ağzında əli qoynunda, başı boynunda durub ərinin intizarını kamali-təşvişlə çəkən Fatı xala, Kərbəlayi Həsəni sağ və salamat qayıdan görüb tez yanına yüyürür və arvadlara məxsus olan xüsusi bir maraqla soruşur ki:

- Bir tez de görüm, sizi nə üçün yığmışdılar?

Kərbəlayi Həsən deyir:

- Vallah, billah, özüm də məəttələm! Heç bir şey başa düşmədik. Elə onu gördük "qəmsər" ağa rusca "işto-mişto" elədi. Ruslar da ona cavab verib, bizə yumruq göstərdilər. Sonra dedilər ki, gedin evlərinizə. Biz də gəldik. Allah axırından saxlasın. Peyğəmbər dadımıza yetsin!

- Amin, ya rəbbülaləmin! - deyib ər və arvad doqqazdan keçib damxalarına [daxmalarına] girirlər.

Bir neçə gündən sonra "Yedinaya Rossiya" qəzetəsində Muğandan böylə bir əhvalat oxuyuruq: "Yüz nəfər müsəlman və həştad nəfər rus kəndlilərindən ibarət olan Muğan Kəndlilər Şurasında Muğan məsələsi həll olunub, böylə bir qərara gəldilər ki, Muğan səhrası Rusiyanın ayrılmaz bir hissəsidir."

. . . . . .

Filankəs

NAHAQ QURBANLAR

Az zaman bundan əqdəm [qabaq] xitam bulan [sona çatan] Yevropa müharibəsindən aləmi-insaniyyətə əlsiz-ayaqsız insanlar, gözəl binalar, məbədlər uçuru-

mu, xüsusən ənva və əqsam sari mərəzlər [müxtəlif yoluxucu xəstəliklər] yadigar qaldı. Həmin mərəzlərin ən dəhşətlisi, ən rəvaclısı bütün Yevropanı bürümüş "ispanski qrip" ilə təsmiyə olunan [adlandırılan] bir naxoşluqdur. Bu mərəzin nə sifətlərlə mövsuf olması [təyin olunması], nerədən neşət etməsi [meydana çıxması] və nə məkanlarda intişar tapması [yayılması] barəsində vaxtilə məhəlli [yerli] qəzetələr sütununda müfəssələn məlumat verildi.

Həmçinin Azərbaycan məmləkətinin dairəsində bu mərəzin hökmfərma olub [hökm sürüb], külli miqdarda olan mübtəlalar barəsində də uzun-uzadı ittilalar [xəbərlər] həm dərc olundu. Həməvəqt [həmişə] mərəzin şiddətindən şikayət edən kəndlilər və qəsəbələrin camaatı, bələdiyyələrə və ya hökumət dairəsinə göndərdikləri istimdad [imdad diləmə] kağızlarının əvvəlinci sətirlətində dəvacatın [dava-dərmanın] və təbiblərin tezliklə göndərilməsinə ilhah [təkid, israr] edirdilər. Onların ilticasına [xahişlərinə] ətfinəzər olunması [nəzər salınması] və ya dəraceyi-qəbula keçməsi barədə tabəhal [indiyə qədər] qəzetələrdə heç bir asar [əsər-əlamət] görsənilmədi. Bainhəmə [bununla belə], "ispanka" mərəzinin qara camaat yaşayan bucaqlarda özünə möhkəm bir aşiyan bina etməsi [yuva salması] xüsusunda, həddən ziyadə nahaq qurbanlar aparması barəsində, əfsus ki, indi də heyrətəngiz xəbərlər alınmaqdadır və dərdəst edilən [əldə edilən] məlumata görə çox yerlərdə yenə də dəvacatın və təbiblərin yoxluğu səbəbə mərizlər [xəstələr] qara camaatın nəzərində təbibi-haziq [bilikli həkim] hesab olunan "türkəçarəçilər" tərəfindən tədavi [müalicə] olunurlar. Həmin "tibbiyyunların" [təbiblərin] da elmi-təbabətdən bixəbər olduqlarından və əksər övqat [çox vaxt] mərəzin daha da şiddətlənməsinə bais olmalarından bəhs açmağa zənnimizcə ehtiyac yoxdur.

Bu mərəzin böylə intişar tapmasının ümdə səbəblərindən biri də, əqidəmizcə, onun zükam [zökəm] naxoşluğuna olan şəbahətidir [oxşarlığıdır] ki, camaat nəzərində ona bir o qədər əhəmiyyət verilməyib, tez bir zamanda rəf' edib [aradan qalxıb] getməsinə bel bağlanıb, lazimeyi-hifzüssihhə şəraiti [lazımi gigiyena şərtləri] icra olunmayır. Amma get-gedə bu mərəz dəhşətli bir mühit, məhabətli [əzəmətli] bir meydan təsxir etməkdə [zəbt etməkdə] qayət məharət göstərir. Cürbəcür vərtələrdən [təhlükələrdən] yaxa qurtarmış, külli miqdarda nahaq qurbanlar vermiş camaatımızın indi də məhv və tələf olmasına riza verməməli, səhiyyə idarələrimiz, təbiblərimiz bu bəlayi-nagəhana [gözlənilməz bəlaya] bir əlac arayıb lazımeyi-təşəbbüsatda bulunub sürətlə tədbirlər ittixaz etməlidir [tədbirlər görməlidir]. Mühüm mərkəzlərimizin təmini-həyatına çalışan və onların rükni-əzəmi [ən böyük ünsürü] olan kəndlilərimizi sahili-nicata çatdırmağa, aşağıdakı təklifin təqdiminə cəsarət ediriz. "İspanka" hökmfərma olan məhəllərə [yerlərə] əcələ ilə [təcili] sihhiyyə fövcləri [səhiyyə və gigiyena xidməti dəstələri] və lazım miqdarda dəvacat [dava-dərman] göndərməlidir. Göndərilən sihhiyyə fövclərinə təkid olmalı ki, xütbələr (leksiyalar) tərtibi ilə "ispanka" mərəzinin sifətləri və nişanələri xü-

susunda camaata tərəfli məlumat verilsin və bu mərəzə mübtəla olanları nə təriq ilə [nə yolla] ölümdən qurtarmaq şəraiti onlara təlim olunsun.

Sihhiyyə fövclərini təşkil etmək barəsində də onu deyə biləriz ki, əlan [indi] Azərbaycan baydağının altında yaşayan tibb darülfünunlarının tələbələrini, sarıcıları (feldşerləri), şəfqət bacılarını iş başına çağırıb, onları məzkur [deyilən] sihhiyyə fövclərinə qeyd edib, hər fövcü diplomlu, təcrübəli bir təbibin təhti-idarəsinə [idarəsi altına] verməli ki, onun tədabirini [tədbirlərini] həyata tətbiq etsinlər.

Hərçənd bir zamanda yaşayırıq ki, ehtiyacımız çox böyük, alati-tədavi [müalicə vasitələri] isə çox kəmyabdır [aztapılandır]. Amma bunların heç birisi nahaq qurbanlar verməyə dəstaviz [bəhanə] olammaz və təfrit [ifrat] dərəcəsinə kimi dəvacatın bahalanması, insan qan bahasına dəyişirilməz ümidindəyiz.

Tələbə: Həbib Babazadə

SƏHLƏNKARLIQ BƏLASI

Bəzi işlər, hərəkətlər var ki, heç vəchlə onlara məna vermək olmayır və səbəbini də anlamaq çox çətin görünür.

O zamandan ki, şəhərimizdə hökumətimiz bərqərar olub və hər bir işimiz qanun təhtinə [altına] giribdir, hər bir hökuməti və ictimai idarələrdə hərə öz işinə şüru edib [başlayıb] bir sayaq ilə vəzifəsini ifa etməkdədir, amma iş necə olubsa ki, bircə bu Şəhər İdarəsinin işindən heç kəs baş çıxarda bilməyir. Hər bir idarə özünə görə işləyib, öz varlığını, mövcudiyyətini ya öylə, ya böylə göstərdiyi halda, təkcə bu Şəhər İdarəsi “məclisi-xamuşan” [susqunlar məclisi] olub, nə öz işlərində ciddiyyətini və nə də özünə aid vəzifələrində ləyaqətini isbat edib.

Nümunə üçün Şəhər İdarəsinin öhdəsinə verilmiş vəzifələrdən bir neçəsini göstərmək istəyirəm. Birincisi, Şəhər İdarəsinin vəzifəsi budur ki, şəhərimizin təmizliyinə, hifzüssihhə [gigiyena] cəhətinə, salaməti-ümumi işlərinə sərkəşlik [başçılıq] etsin. İndi baxaq görək ki, halhazırda şəhərimizin halı necədir və Şəhər İdarəsi hangi tədabiri ittixaz etmişdir [tədbirləri görmüşdür]?

Şəhərdə heç bir küçə yoxdur, zibil ilə dolu olmasın. Səkilər ilə evlərin qabağından keçmək mümkün deyil, çünki, həyətlərdən öylə üfunət gəlir ki, insanın beynini çalxaladır. Bəzi küçələrdə zibil o qədər yığılıbdır ki, at fayton dəxi oralardan keçə bilməyirlər. Ev sahibləri də zibilləri anbarlayıb yandırırlar.

O ki, qaldı bazarlara və şəhərin bəzi hissələrinə, bu yerlərin tərifini yazmaqdan qələm də acizdir. Ancaq burası bilinsin ki, oralardan keçəndə hər bir insan gərək burnunu tutub keçsin.

Güman edilməsin ki, bu tərif etdiyim vəqələrə [hadisələrə] ancaq şəhərin kənar küçələrində rast gəlmək olur. Xeyr, şəhərin mərkəzi hesab olunan Kamenisti və Mariinski küçələrdə at meyitinin bir həftə sərasər qalmasını bu sətirləri yazan öz gözü ilə gördüyünü şəhadət edir.

Şəhərin indiki vəziyyətinə baxalım. Allahın bərəkətindən bu il payız fəsli o qədər yağınlıq olub, hər həftə başı öylə güclü yağmurlar yağır, küçələrdən çaylar

axıb şəhərin gediş-gəlişini tamamilə kəsir. Həmin bu yağmurların, sellərin nəticəsi bu olub ki, şəhərin küçələrinin əksəri dağılıb, səkiləri sökülüb, bəziləri də tamamilə yerə batmışdır. Bu ittifaqların [hadisələrin], bu təbii nagəhan [gözlənilməz] bəlaların qabağına Şəhər İdarəsi nə etmişdir və hangi təcili çarələri görmüşdür? - deyə sual verən olarsa, cavabında - "Heç nə!" - deməkdən başqa bir söz tapılmayır.

Bəli, doğrudur ki, uprava [idarə] şəhərin dağılmış küçələrini təmirdən ötrü yarım milyon manata kimi istiqraz layihəsini Dumaya [Şəhər Şurasına] təqdim etmişdir və küçələrini təmizləməkdən ötrü də şəhərin bir neçə yerlərində zibil yandıran sobalar tikilməyi elan etmişdir. Lakin həqiqəti-halda bu söz, bu vədə və proyektlər hələ kağız üzərindən feilə keçirilməmişdir. Bu səbəbdən küçələrin üfunəti getdikcə artır və üfunət artdıqca da yatalaq azarı hər gün yüz nəfərdən aşağı olmamaq üzrə öz qurbanlarını aparır və hər dəfə yağış yağan kimi salamat qalmış küçələr də dağılmağa başlayır. Uprava isə öz ali mülkündə, isti otaqlarda oturub dalbadal proyektlər hazırlayır. Amma məncə o proyektlərin əvəzində uprava gərək tezlikcə bir dəstə fəhlə tutub şəhərin yuxarı tərəfindən, yəni sallaqxana qabağından qibləyə tərəf üzü dənizə bir xəndək atdırsın. Sonra şəhərin içində, o küçələrdən ki güclü sel gedir, Verxni Naqornı küçədən həman küçələrin qabaqlarını bağlayıb, sellərin axacağını dəryaya tərəf çevirib, kiçikcə bir xəndəklə suları dəryaya tökdürsün. O vaxt nə şəhərin içinə o qədər güclü sellər tökülüb küçələri darmadağın edər və nə də əhalinin evlərini, divarlarını dağıdıb milyonca zərərlər verər. Bəs görünür ki, bunlar hamısı səhlənkarlıq nəticəsidir ki, işlər "zavtra-zavtra"ya [sabah-sabaha] salınıb ancaq kağız qaralamaqla məşğul olurlar.

İkincisi, Şəhər İdarəsinin vəzifələrindən biri də budur ki, camaatın azuqə işlərinə nəzər yetirib, onlar üçün ehtiyacati-zəruriyyə [zəruri ehtiyaclar] hazırlasın və qıtlıq olan zamanda azuqəni camaata paylasın, ticarətə fikir versin, sairə. Bu işlərə fikir verəndə baxıb görəcəyik ki, bir neçə nəfər kənar adamların ciddiyyəti və səyi sayəsində təşkil edilmiş Sentrodom Şəhər Dumasına aid olan bütün işləri öz əlinə keçirmişdir. Sentrodom ikinci və bəlkə də birinci şəhər idarəsi mövqeyini tutaraq, özü-özündən şəhər camaatının külli-ixtiyarı olub hamı işləri öz ixtiyarına keçirmişdir. Ticarət onun əlində, hifzüssihhə işi onun əlində, qərardadi-məcburilər yazmaq onun əlində, mal almaq, ehtiyat saxlamaq onun əlində, küçələrin təmizliyinə, evlərin, həyətlərin təmiz saxlanmasına baxmaq onun əlində, azarxanalar və sair şəhər idarəsinin xüsusi idarələrinə ehtiycati-zəruriyyə buraxmaq onun əlində. Bu biri tərəfdən də, özünü ictimai bir idarə şəklində camaata nişan verdiyi halda, lap ciddi surətdə siyasi işlərə qarışıb Rus Milli Komitəsinin siyasətini aparmaq da onun əlindədir.

Bunlar nədəndir? Bunlar hamısı bizim Şəhər Dumasının öz işlərinə səhlənkarlıqla baxmağının acı və mənhus nəticələrindəndir.

Neçə zaman olar ki, biz şəhər upravasına təzə üzvlər seçib işlərini onlara

tapşırmışıq. Qoy bu uprava üzvlərinin birisi barmağını yumub göstərsin ki, bu ne-çə zamanda o hangi işi və hangi vəzifə- sini qövldən feilə [sözdən işə] çıxarmışdır.

İsti otaqlarda oturub proyekt yazmağı hər kəs bilir, ancaq iş görüb, baş işlədib böylə təhlükəli günlərdə rəqib qarşısına çıxmaq çox çətindir və hər kəsin də əlindən gəlməz.

Bəsdir səhlənkarlıq olundu. Gərək iş görülsün.

Məhəmməd Sadiq

MÜƏLLİM QARDAŞLARIMA, MÜƏLLİMƏ BACILARIMA

Bu gün xalqa doğru getmək, onların arasına girmək, onları sevmək, özünü onlara sevdirmək, onların ruhunu əsasından yırğalamaq, diriltmək, yüksəltmək lazımdır. Bu gün doqqazlarda, toylarda, vaylarda, yığıncaqlarda, məscidlərdə, düzlərdə onlara həyatı öyrətmək, yeni həyata hazırlamaq gərəkdir. Bu gün hər vətəndaşdan ziyadə müəllim və müəllimələrin çalışması, çabalaması, əlləşməsi, vuruşması, yazması, oxuması, sözləri, gapları [söhbətləri], öyüdləri, nitqləri, mühazirələri türk xalqı üçün vacibdir.

Azərbaycanı yaşadacaq, onu təmir [quracaq] və abad edəcək, mədəniyyətə ərdirəcək, xalqını hazırlayacaq, elm və ürfanı nəşr edəcək [yayacaq], vətənə oğul-qız, əsgər, təbib, mühəndis, müxtəri [ixtiraçı], tacir, əkinçi, müəllim və insan edəcək, insaniyyətə xidmət etdirəcək, əski parlaq tariximizi təkmil etdirəcək, nurlandıracaq, vəlhasil gələcək üçün millət, vətən və mədəniyyət hazırlayacaq müəllim, müəllim və yenə müəllimdir! Müəllimə, müəllimə və yenə müəllimədir!

İştə, bu qədər xidmətləri, yaxşılıqları və yararlığı hasil etmək üçün bu gündən çalışmalı və həman müəllim və müəllimə əfəndilər özləri hazırlanmalı və başqalarını hazırlatmalıdırlar.

Şimdiyə qədər çox qüsurlarımız, nöqsanlarımız oldu. Asudə və qiymətli vaxtlarımızı bir çox yerlərdə dolaşdıq, keçirdik, tələf etdik. Bu gün cəzasını özümüz çəkiriz. Şimdi dəyişinməli, ayılmalı və ayıltmalıyız. Şu dəqiqədən etibarən camaat arasına dağılmalı, minbərlərə çıxmalı, masa başlarına keçməliyiz. Şimdi o zaman deyildir ki, ağzımıza qıfıl vurulsun, əllərimiz zəncirlə bağlansın, ayaqlarımız buxovlansın.

Ey həyatı millətimizə təlim edicilər!

Şimdi hər sözünüz bir nur, hər yazınız bir hidayət, hər addımınız bir müvəffəqiyyət olmalıdır. İndi də bütün varlığımızı sevgili türk milləti və Azərbaycan vətəni uğrunda fəda etməyib nə vaxt edəcəyiz?

B. Ələkbər

ƏSGƏRLƏRİMİZ HAQQINDA

(Məktub)

Müdiri-möhtərəm!

Neçə gün bundan irəli bizim fərari əsgərlərimizdən sual edirdim: fərar etmənizin səbəbi nədir; nədən ötrü vətənə, millətə xidmətdən imtina edirsiniz?

Sualımın cavabını böylə verməklə sözə başlayırdılar: *"Bizi ac-yalavac saxlayıb nə bilim, böylə, şöylə sözlərlə bizi rəncidə edirdilər [incidirdilər]."*

Həqiqət, bu sözləri eşitdikdə çox mütəfəkkir [fikrə gedir] və məyus olurdum ki, əcəba bir əsgər ki, millət və vətən uğrunda əziz canından, istirahətindən keçib əsgərliyi qəbul edə, nə üçün ona yaxşı baxmayıb, diqqətsizlik və nəzakətsizliklə onları bu müqəddəs vəzifədən rugərdan [üz döndərən] və peşman eyləyələr?

Sonra Gəncədə əsgərlik edən Baloğlan Daşdəmir oğlu adında qaynımdan bir məktub aldım. Məktubda müşarünileyhin [adı keçən şəxsin] xəstə olmağı mənə məlum olub, Gəncəyə getdim. Onların sakin olan yerlərin [yaşadıqları yerləri] xəbər alıb, məzkur [deyilən] yerə yetişdim. Qapıda bir nəfər əsgərlə bir onbaşını kamali-ədəb və nizamla dayanmış görüb, onlardan içəri daxil olmağa icazə alıb, məzkur qaynımla müsahibədə bulundum və ondan sual etdim ki, necəsən və sizə necə baxırlar? Mənə dedi ki: *"Doğrudan da kəndi evimizdən artıq burada rahat yaşayırız, nizam və təlimimiz gözəldir. Böylə ki, yaxşı yiyəcək, əlbisə, yatacağımız layiqincə mövcuddur. Zabitlərimiz bizə mehribandırlar. Polkovniklərimiz bizə mehriban ata kimi baxırlar."*

Sonra xəstəxananın nə halda olduğunu ondan sual etdim. Cavabında dedi *ki: "Təbibi-mehribanımız Kazımov cənablarıdır. Məzkur isə bizə artıq dərəcədə mehribandır və layiqincə nəzarət edir. Xidmətçilərimiz vaxtlı-vaxtında bizə xidmət edirlər."*

Bu danışıqda ikən əsgərləri təlimə dəvət etdilər. Mən isə onların təlim və tərbiyələrinə tamaşa etdikcə məsrur [şad] olmaqda idim. Şimdi üzümü fərar edən əsgərlərə və vətən və millət mühafizəsindən oğlanların[ı] qaçıran, yəni bu feyzi-üzmadan [böyük zövqdən] balaların[ı] məhrum edən ata və babalarımıza tutub cəsarətlə ərz edirəm:

Ey atalar! Sizi sinəsi üstündə bəsləyib anadan artıq mehriban olan vətənə imdad etməyirsiniz. Vətənin məhəbbəti, millətin mühafizəsi, vəzifeyi-milliyyəmiz və fərizeyi-diniyyəmiz [dini fərz, mütləq yerinə yetirilməli borc] olmağa binaən [olduğundan] o vəzifəni, o fərizəni əda etmək [yerinə yetirmək] borcumuzdur. Əgər o borcu əda etməzsək, vətənə düşmən, millətə xain olarız.

Ona binaən [ona görə], bu gündən böylə bu təhlükəli zamanda millətin mehriban atalarından rica edirəm ki, oğlanlarının əlindən tutub əsgərliyə məhəbbətlə təslim etsinlər.

Mirhəsən "Münsif"

BAKI XƏBƏRLƏRİ

Nazirin övdəti [qayıtması]

Azərbaycan Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Xudadad bəy Məlikaslanov həzrətləri qulluq işlərindən ötrü Gəncəyə etmiş olduqları səfərdən qayıdıb vəzifələrinin ifasına şüru etmişlərdir [başlamışdır].

Müsəlman mətbəə əmələləri [işçiləri] iclası

Cümə günü kanuni-saninin [yanvarın]

10-u axşam saat 4-də Vorontsovski küçə “Azərbaycan” qəzetəsi idarəsində bütün Bakı və ətrafında işləyən müsəlman mürəttib, cildçi, maşınçı və mətbəə xidmətçilərinin ümumi iclası təyin edilmişdir. Bu iclasda mətbəə xidmətçilərinə aid mühüm məsələlər müzakirə ediləcəkdir. Hamı mətbəəçi yoldaşların bu iclasa gəlməsi rica olunur.

Heyəti-mütəşəbbisə
[Təşəbbüs heyəti]

Yeni qəzetələr

Eşitdiyimizə görə, bu yaxınlarda Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsi biri rusca və digəri türkcə olmaq üzrə iki qəzetə nəşr etdirəcəkdir.

“Arşın mal alan”

Cümə günü kanuni-saninin [yanvarın] 10-da, Hökumət Teatrosunda Hacıbəyli Qardaşları müdiriyyətinin artistləri tərəfindən Üzeyir bəyin məşhur “Arşın mal alan” nam [adlı] operettası mövqeyi-tamaşaya qoyulacaqdır.

TEATROLARIMIZDA

Teatromuz haqqında bu bir neçə sətiri yazmaqla qareini-kirama [möhtərəm oxuculara] bir qədər dərdi-sər [baş ağrısı] verəcəyəm. Necə ki məlumdur, Azərbaycan Hökumətinin Teatrosunda həftənin beş günü rus operası və iki günü müsəlman faciələri göstərilir. Rus operasına getdikdə tamaşaçılarda başqa bir nizam, başqa bir hiss görürsən. Lakin müsəlman teatrosuna gəldikdə bərəks [əksinə] acındıracaq bir şey görürsən. Məsələn, bəzi cənabların biletləri 10-15-ci cərgə olduğu halda 1-2-ci cərgələrdə oturmuş, pərdə bir dəqiqə gec açıldıqda ayaqları ilə yeri təpikləyib fit çalmaq, səhnədə artist əfəndilər bir təsnif oxuduqda və ya musiqi bir şərqi çaldıqda çırtma çalmaq, teatro daxilində papiros çəkmək və sairə.

Arxadaşlar! Əvvala bunu bilməlisiniz ki, insan həmişə özünü nə yerdə nə cür saxlamağı gərək bilsin. Əza məclisində gülmək ayıb olduğu kimi, teatroda da şuluqluq salmaq öyləcə ayıbdır. Türk aləminin böyük ədibi mərhum Namiq Kamal bəy deyir ki: “Bir millətin qüvveyi-natiqəsi [nitq qabiliyyətinin gücü] ədəbiyyat isə, timsali-ədəbin natiqeyi-zihəyatı [canlı natiqlik qabiliyyəti] da teatrodur.” Türk Şekspirinin bu pürməna [mənalı] sözünü diqqətlə mülahizə buyursanız, özünüz təsdiq edərsiniz ki, həqiqət böylədir. Teatro kimi bir ayineyi-cahannümada [dünyanı özündə əks etdirən güzgüdə] insan özünün hər ayıbını və nöqsanını görür, qədrini bilməmək dəxi biinsaflıqdır. Teatro dəstgahına bələd olanlar bilirlər ki, bu işin qövldən feilə [sözdən işə] çıxardılması nə qədər müşküldür. Bu yolda neçə-neçə ədiblərimiz və ən köhnə artistlərimizdən mərhum Kərbəlayi Cahangir Zeynalov böyük zəhmətlər çəkmişlər. Şimdi isə Hacıbəyov qardaşlarının artist əfəndiləri ilə bahəm çəkdiyi zəhmətlər şayani-təhsindir [tərifəlayiqdir]. Belə ki, ayda bir dəfə başa gəlmiş işi həftədə iki dəfəyə çıxartmışlardır. Bundan sonra daha tərəqqi etməklərinə əminiz, lakin tək müdiriyyət və artistlər təşəbbüsü ilə iş getməz, camaatımızın da köməkliyi lazımdır. Kömək nə ilə olar?

Teatroya gəlməklə, gəlib də, ədəblə oturub artistlərin sözlərini diqqətlə eşitməklə.

Teatro aləmi Avropa arasında o qədər tərəqqi, o qədər əhəmiyyət qazanıb ki, ona "xram iskusstva", yəni elm və fənn məbədgahı deyirlər, amma bizimkilər teatro kimi bir ali məkanı olmazın bir oyuncağa bənzədib, cürbəcür hərəkətlər göstərirlər. Bunların hamısını nəzərə aluban üzümü həman cənablara tutub deyirəm: Yazıqdır səhnəyə, ona heyfiniz gəlsin! Səhnə əfradi-millət [millətin fərdləri] üçün böyük bir məktəbdir. Ehtiramını saxlamaq hamımıza vacibdir. Ümidvaram ki, bundan sonra ərz etdiyim nöqsanlar dəf olar və hər kəs teatroya gəldikdə öz aldığı biletin yerində oturub papiros çəkməyi və çırtma çalmağı kənar edib, huş-guşla [diqqətlə] qulaq asarlar və teatrodan hüsn-təsirlə gedərlər.

Fürsətdən istifadə edib Hacıbəyov Qardaşları müdiriyyətinə "dram" faciələrini unutmamağı dərxatir edirik [yada salırıq]. Çünki camaatımız çoxdan bəri "drama" görmədiklərinə görə, drama tamaşaları dəxi arzu edirlər.

Səhnə həvəskarlarından:
M. B. Əliyev

Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin

"İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah" adlı mənzum əsərinin birinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

b. 4 – 3

Xanrza Yusif oğluna Lənkəran uyezdi Veri kəndi kəndxudasından aldığım 448 nömrəli pasportum itibdir. Etibardan saqitdir [etibarsızdır].

2640

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Qabil diş qayıran
Mirzə Xəlil Canıbəyzadə

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

295

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

Qoldqor-Fradkinin
Diş müalicəxanası

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

2607

Həkimlərin xüsusi
gecə və gündüz növbələri

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır. Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-7

Təqvimi-islam [müsəlman təqvimi]
Türkcə-rusca divar təqvimi

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur. Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında “Novruz” mətbəəsi.

2625 3-2

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Qəzetələrdən

səh. 148. “Yeni hökuməti Almaniya Reyxstaqı məbusu, məşhur Polşa demokrat başçılarından Korqati təşkil edir.”: Moraçevski 1919-cu ilin yanvarında Polşanın Baş naziri vəzifəsindən istefa verdikdən sonra, yeni Polşa hökumətini İqnatsi Yan Paderevski qurmuşdur. Qəzetdə adı çəkilən Korqatinin kimliyini müəyyənləşdirmək mümkün olmadı.

“Kral Ferdinand”: 1914-1927-ci illərdə taxtda olan Rumıniya kralı I Ferdinand nəzərdə tutulur.

Ordan-burdan

səh. 150. “Filankəs”: bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Müəllim qardaşlarıma,
müəllimə bacılarıma

səh. 154. “B. Ələkbər”: bu imza Ələkbər Babazadəyə məxsusdur.

Əsgərlərimiz haqqında

səh. 155. “Onbaşı”: kiçik zabit heyətinə məxsus hərbi rütbə; kapral.

“Mir Həsən Münsif”: bu imza Mirhəsən Seyid Yusifzadəyə məxsusdur.

Teatrolarımızda

səh. 156. “...bu işin qövldən feilə çıxardılması...”: qəzetdə “qövldən feilə” yerinə “feildən qövlə” getmişdir.

Cümə, 10 yanvar 1919-cu il, nömrə 84

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Cümə, 7 rəbiülaxir sənə 1337. 10 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

QİSMİ-RƏSMİ
[RƏSMİ HİSSƏ]

Azərbaycan Məclisi-Məbusan [Parlament] sədri həzrətlərinin əmrləri:

Əmrnamə nömrə 36

Abdulla bəy Novruzbəyov, həmin 1334 sənəsi kanuni-əvvəlin [dekabrın] 24-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində xidmətkar (kuryer) təyin edilir.

Əmrnamə nömrə 37

Polina Yusibovna Qoldman, həmin 1918 sənəsi dekabrın 23-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində rus məzbətə mühərrirliyinə [protokol katibliyinə] təyin edilir.

Əmirnamə nömrə 38

Lidiya İosifovna Kozlovskaya, həmin 1918 sənəsi dekabrın 23-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində rus məzbətə mühərrirliyinə təyin edilir.

Əmrnamə nömrə 39

Leonid İvanoviç Şumski, həmin 1918 sənəsi dekabrın 23-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində rus məzbətə mühərrirliyinə təyin edilir.

Əmrnamə nömrə 40

Türküstan əhli Teymurxan Abbasi, həmin 1919 sənəsi yanvarın 2-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat [yazı, məktub] xidmətçisi təyin edilir.

Əmrnamə nömrə 41

Azərbaycan Məclisi-Məbusan İdarə xidmətkarı (kuryer) Möhsün Məşhədi Qafar oğlu, həmin 1919 sənəsi yanvarın 1-dən qulluqdan kənar edilir.

Əmrnamə nömrə 42

Azərbaycan Məclisi-Məbusan İdarəsinin məzbətə mühərriri Əbdül Əbdülzadə, həmin 1919 sənəsi yanvarın 1-dən qulluqdan əzl [kənar] olunur.

Əmrnamə nömrə 43

Azərbaycan Məclisi-Məbusan İdarəsinin təhrirat xidmətçisi İslam oğlu Süleyman Nuri, həmin 1919 sənəsi yanvarın 1-dən etibarən həman idarədə məzbətə mühərrirliyinə təyin edilir.

Əmrnamə nömrə 44

Zeynalabdin Gözəlzadə, həmin 1919 sənəsi yanvarın 1-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Əmrnamə nömrə 45

Azərbaycan Məclisi-Məbusan İdarəsində türk dili müdiri Əmir Ağazadə, həmin 1919 sənəsi yanvarın 4-dən etibarən 10 günlük məzuniyyətə buraxılır.

Əmrnamə nömrə 46

Azərbaycan Məclisi-Məbusan İdarəsinin kargüzarı Mirhüseyn oğlu Mirməcid, ərizəsinə mütabiq [uyğun olaraq] həmin 1919 sənəsi yanvarın 8-dən etibarən qulluqdan əzl olunur [kənarlaşdırılır].

Məclisi-Məbusan rəisi naminə
Həsən bəy Ağayev

MÜSƏLMAN FƏHLƏLƏRİNƏ!

Fəhlə qardaşlar!

Neçə zamandan bəridir ki, şəhərdə hər bazar günü əmələ [fəhlə] konfransı toplanır. Bu konfranslar əmələlərin məvacibi, maaşı barəsində müzakirələr edir. Siz də lazımdır ki, orada hazır olasınız. Başqa əmələlərdən geri qalmayasınız.

Bu konfranslarda məvacib və maaş məsələlərindən başqa bəzi hökumət və siyasət məsələləri də qoyulur. Məsələn, təzədən “Raboçi deputat” [fəhlə deputatları] hökuməti qurmaq məsələsi, Azərbaycan Hökumətini tanıyıb-tanımamaq məsələsi kimi məsələlərə bu məclislərdə baxılır, onlar haqqında qərarlar çıxarılır. Lazımdır ki, bu konfranslara gələsiniz. Həm maaş, məvacib və güzəranınız haqqında fikirləşib dərdləşəsiniz, həm də yüksək səslə deyəsiniz ki, biz Azərbaycan milləti müstəqilik, hökumətimiz var və bütün demokratiyadan istəyəsiniz ki, necə siz bu vaxta qədər onlarla siyasi məsələlərdə bərabər getmiş, Rusiyanı islah üçün bərabər çalışmışsınız, qoy indi də onlar bizdən ayrılmayıb Azərbaycanı tanısınlar, Azərbaycana kömək edib nöqsanı varsa, birlikdə o nöqsanı düzəltməyə çalışalım.

Əmələ yoldaşlar, biz deməyiriz ki, siz qeyri-müsəlman yoldaşlarınızdan ayrılınız. Yalnız konfranslara gəliniz, orada gözüaçıq olunuz. Çox ikən az olmayınız. Qoy bəzi siyasət çevirən adamlar sizin adınızla, siz Azərbaycan əmələsinin etibarı ilə öz partiyalarının, öz politikalarının işlərini aparmasınlar. Qoy hər kəs hər yerdə görsün, eşitsin ki, Azərbaycan demokratiyası, Azərbaycan əmələsi də istiqlal tərəfdarıdır. Özü-özünə hakim olmaq istəyir, vəsi [əvəzedici] və qəyyuma ehtiyacı yoxdur.

Bunun üçün, yoldaşlar, fürsəti qaçırmayınız. Biliniz ki, bu gün vətənimizin asayişi, istiqlaliyyət və hürriyətimizin əlimizdə qalması, Azərbaycanımızın yaşaması sizdən asılıdır. Çünki siz millətin əksəriyyəti, çünki siz millətin ruhu və qüvvətisiniz. Qəflət etməyin. Hər əlli nəfərdən bir nümayəndə seçib mandatla bərabər üzümüzə gələn bazar günü şəhərə göndərin və diri bir qüvvə kimi qalxıb kəndi ehtiyaclarınızı müdafiə ilə bərabər deyiniz ki, Azərbaycan Parlamanından, Azərbaycan Hökumətindən

başqa bir hökumət bizə lazım deyildir. Ta ki, bu sayədə yaşasın Azərbaycan...

Türk Ədəmi-Mərkəziyyət firqəsi
"Müsavat" Bakı firqəsinin
Təbliğat və təşviqat şöbəsi

SÜLH KONQRESİNƏ GEDƏN HEYƏTİ-MÜRƏXXƏSƏNİN [NÜMAYƏNDƏ HEYƏTİNİN] ƏZİMƏTİ [YOLA DÜŞMƏSİ]

Azərbaycan Parlamanı tərəfindən Yevropaya və Azərbaycan tərəfindən ümumi Sülh Konfransına göndərilən heyəti-mürəxxəsə caharşənbə [çərşənbə] günü saat 7-də dəmiryolu təriqi ilə [yoluyla] əzimət etdi. Heyət: dövlət müfəttişi "Müsavat" pişrovu [lideri] Məhəmməd Həsən Hacınski, Parlaman məbusu və məşhur camaat xadimi və mühərrir Əhməd bəy Ağayev, məşhur camaat xadimi Əlimərdan bəy Topşubaşov, Parlaman üzvü və sosialist "Hümmət" firqəsi rəisi Əkbər ağa Şeyxülislamov, qəzetəmizin müdir və baş mühərriri Ceyhun bəy Hacıbəyli, [Məhəmməd] Məhərrəmov (sosialist) və Miryaqub Mirmehdiyev ("İttihad") cənablarından ibarətdir.

Heyəti-mürəxxəsəni təşyi [yola salmaq] üçün, başda Fətəli xan Xoyski həzrətləri olmaq üzrə, ümum nazirlər, Məclisi-Məbusan əzasının [üzvlərinin] bir çoxu, xüsusən fraksiya və firqə rəisləri və bir çox sair həzərat mövqifə [dəmiryolu stansiyasına] getmişlərdi. İstasyona fəxri qaraqol dəstəsi qonulmuşdu. Heyət yola düşmədən əvvəl "Müsavat" firqəsi rəisi Rəsulzadə Məhəmməd Əmin bəy cənabları müxtəsər bir nitq irad edərək [söyləyərək] Yevropaya gedən məşhur, çalışqan rəislərimizə vəzifələri haqqında bir söz söyləməyi artıq hesab edib də ancaq vəkillərimizin millət hüzuruna istiqlal təmini kimi mübarək bəşarətlə [muştuluqla] ağ üz, açıq alınla qayıdacaqlarına əmin olduğunu bildirir.

Bə'd [sonra] Sosialistlər İttifaqı namından [adından] Əhməd Cövdət cənabları bir nitq deyərək, Azərbaycan demokratiyası [xalqı] tərəfindən bütün Yevropa və cahan demokratiyasına salam yetirmələrini və dünya füqərayi-kasibəsindən [proletariatından] bizə amal və arzumuzun hüsulu [hasil olması] bəşarəti gətirmələrini arzu edir.

Heyəti-mürəxxəsə tərəfindən Ağaoğlu Əhməd bəy həzrətləri cavabi nitq irad edərək, bu gün vətəndə gördüyü hallar, hərəkətlərin heyəti-mürəxəsə öhdəsinə düşən ağır vəzifənin hüsn-ifasına və istiqlala layiq olan bir millətin istiqlaliyyətini təmin edə biləcəklərinə olan iman və etiqadlarını bir daha qüvvələndirdiyini və binaənileyh [buna görə] heyət[in] var qüvvəsi ilə millətin arzusuna nail olmağa çalışacağını, bu yolda da müvəffəq olacaqlarına inandığını bəyan edir.

Sürəkli "Ura" sədası içində qatar yola düşür.

X. İ.

SÜLHİ-ÜMUMİ YOLUNDA

Bəşəriyyət həyati-ictimaiyə keçirdiyi dövrdən bəri tarixini qanlı izlərlə ləkələməyə aludə olmuşdur. Hər zaman bir

məsələnin həlli bir az geciksə, dərhal qılıncın zərbəsi o məsələni, nə qədər layənhəll [həlledilməz] bir məsələ də olsa, İskəndəranə [İskəndər kimi] həll edir. Lakin tarixə bir kərə nəzər edilsə, bütün əsrlərdə əfkari-ümumiyyə [ictimai rəy] müharibənin, qan tökmənin əksində olduğu görünür. Hətta müharibə edənlər kəndiləri belə qovğa və cidalın əbəs olduğunu hər an etiraf edə gəlirlər. Fəqət tərəqqi və təkamülün son dərəcəyə vardığına, fəlsəfeyi-hazirənin bir çox qaranlıq məsaili [məsələləri] aydınlaşdırdığına baxmayaraq, bu vaxta qədər müharibə üsulunu başqa, bəşəriyyətə yaraşan bir vasitə ilə dəyişmənin yolu tapılmamışdır. Bu yolda çoxlar çalışmışlar, beyinlərini yormuşlar. “Ümumi bir cahan cümhuriyyəti” yaxud “cahan mütləqiyyəti” yapmaq kimi həqiqətdən uzaq xəyallarda olanlar da olmuşdur. Məsələnin həyata tətbiqində isə yenə qılınclar qınlarından çıxmış, yenə insan qanı hədər yerə axmağa başlamışdır. Müharibəni mövcib olan [şərtləndirən] məsələləri sülhcu [sülhpərvər] bir mühakimə ilə həll etmək xülyası bir çox mütəfəkkirlər tərəfindən tərvic edilmişsə [üstün tutulmuş, önə çıxarılmışsa] də, bunları başlıca iki qismə ayırmaq olar ki, bəziləri sülhi-ümumi üçün müsavat və ədaləti-tammə [mütləq ədalət] əsasları üzərində qurulmuş nəzəriyyələr təklif edirlər; bəziləri də müharibəni əbədiyyən qaldırmaq üçün bütün dünyanı bir hakimi-mütləqin təhti-idarəsinə [hakimiyyəti altına] tabe etməklə beynəddüvəl [dövlətlərarası] müharibələrin bitməsinə qaildirlər [inanırlar].

On yeddinci əsrin axırlarında Fransa dövləti qayət qüvvətləşdiyi üçün qonşu millətlər qorxuya düşüb onun əleyhinə İngiltərə, Germaniya imperatorluğu, Prussiya və Portəgiz [Portuqaliya] dövlətlərindən ibarət bir ittifaq təşkil etdilər. Müharibə nəticəsində Fransa zəif düşüb Utrext Sülh Konfransının qoyduğu şərtlərə boyun əyməli idi. 1713 sənəsində ittifaq düşən bu konfransa Sen-Pyer adlı bir keşiş tərəfindən bir əbədi sülh projesi [layihəsi] təqdim edildi. Bu layihəyə görə, ümum Avropa dövlətləri, qədim Germaniya imperatorluğu səbkində *[tərzində]* bir ittifaq qurmalı idilər ki, bu dövlətlərin mütəsavi [bərabər, bir-birinə tay] nümayəndələrindən ibarət ümumi Məclisi-Məbusan [Parlament] həm qüvveyi-təşriiyyəyə *[qanunverici hakimiyyətə]*, ədliyyəyə [məhkəmə hakimiyyətinə] malik olacaq, həm də qoyduğu qanunları cəbrən [zorla] yürüdəcəkdi. Sen-Pyerin projesi keçmədi. Çünki, ümumi Məclisi-Məbusan demək, millətlərin şəxsi hüququnu məhdud etmək demək idi və onun qoyduğu qanunları icbari olduğu üçün millətlərin istiqlalına zərər yetirəcəyi də şübhəsizdi. Məşhur fransız ədibi Jan-Jak Russo da bu fikrin tərəfdarlarından ədd [hesab] olunur. Dördüncü Henrix müharibələrə bir xitam [son] vermək üçün ümumi bir xristian cümhuriyyəti binasının tərəfdarı idi. Daha bir çox mütəffəkirlər, siyasilər yüzlərlə layihələr yapmaq, ümum dövlətləri bir şuraya tabe etmək kimi xülyaların arxasınca qoşur, nəticədə yenə məsələ qan və dəmirlə həll olunurdu. Bütün dünyanı bir mütləqiyyətə tabe etmək və böyləliklə müharibələrə xitam vermək fikrinin Qərbdə mürəvvicləri [bu fikri inkişaf etdirənlər] Beşinci Karl, On dördüncü Lui, Napolyon,

papalardan bir neçəsi göstərilə bilər. Şərqdə isə cahangirlik siyasəti bir çox İran şahlarının əsası olduğu kimi, Osmanlılarda da Səlimi-əvvəl [I Səlim] kimi:

"Əlində məş'əleyi-mənəviyyeyi-töv-hid
Edərdi Şərq ilə Qərbi ziyasına dəvət" (Ə. H.)

beytinə masədəq [mütabiq, uyğun] olanlar vardır. Hələ bütün aləmi-islamda əsrlərcə icrayi-nüfuz edən və indi də etməkdə olan ittihadi-islam [islam birliyi] fikri belə buna bir məsəl göstərilə bilər.

Müharibələrə xitam vermək üsulunun projeləri pək çoxdur. Son dövrdə qəbul edilmiş üsul isə "siyasi müvazinə [tarazlıq]" üsulu idi. Bütün Avropa, bəlkə bütün cahan bir tərəzi şəklində təsəvvür olunaraq, onun kasələrinin bir tərzdə qalması üçün diplomatlar əllərindən gəldiyi qədər səy edirlərdi. Təcrübədə isə bu tərəzinin şaxəsi [qolu] Balkan dağlarından və boğazlardan ibarət idi. Tərəzinin bir kasəsi o biri kasəyə rəğmən bir az yuxarıda olması lazım gələrsə, dərhal Balkan şaxəsinə müraciət olunurdu. Bu müvazinə tərəzisinin başında isə düvəli-müəzzəmə [böyük dövlətlər] əyləşmişdi. Lakin sonra məlum oldu ki, "siyasi müvazinə" üsulu ilə əbədiyyən müharibələrin önünü almaq qabil deyil və əgər olsa belə, yenə bu sülh saxta bir şey olub min dürlü ədalətsizliklərin vüquuna [ortaya çıxmasına] səbəbiyyət verir. Odur ki, yenə qılınclara sarıldıq, yenə beyinlərin həll edəmmədiyini dəmirlər həll etməyə məcbur oldu.

Tam beş sənə vurduq, yıxdıq, indi yenə bıqdıq, yenə məsələləri sülhlə, kompromislər, güzəştlərlə həll etmənin növbəsi gəldi. Bu dəfə meydanda Sen-Pyerin əbədi sülh projesi deyil, prezident Vilsonun "Cəmiyyəti-əqvam" [Millətlər Cəmiyyəti] projesi və 14 fəslidir. Bu projenin qabaqkılara nisbətən bir təfavütü var ki, qabaqkılar "cahan müharibəsini" görmədikləri üçün "cahan sülhünü" də yapammadılar. Nəsli-hazır [indiki nəsil] isə ümumi müharibənin bütün dəhşət və fəlakətini görüb, həqiqi ehtiyacların nə olduğunu düşündüyü üçün onun qoyacağı, daha doğrusu yaradacağı "ümumi sülh" də daimülhəyat olacağına [əbədi yaşayacağına] ümid edəlim.

Cəmiyyəti-əqvam, ittifaqi-miləl [millətlər ittifaqı] bəşəriyyətin yeni doğurduğu bir idealdır. Bu idealın qarşısında hər sinif, hər təbəqə, hər millət səcdə edir və gələcəyini ondan bəkləyir. Ümid edəlim ki, bu fikir yalnız proje halında qalmayıb, yaxın bir istiqbalda [gələcəkdə] təcəssüm edəcək və həyatını ondan bəkləyən millətlərin məsuniyyəti-siyasiyyələrini [siyasi toxunulmazlıqlarını], istiqlallarını təmin etməklə bərabər müharibəni, qan tökməni insanların xatirindən belə çıxaracaqdır.

Əli Yusif

İdarədən: Doğrudur; amma hələlik: "Hazır ol cəngə, əgər istər isən sülhü-səlah!"

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

Yeddinci iclas

Caharşənbə [çərşənbə] günü kanunisaninin [yanvarın] 8-də Azərbaycan Məclisi-Məbusanının iclası təyin edilmişdi.

İclas saat 2-dən 20 dəqiqə işləmiş doktor Ağayev həzrətlərinin sədarəti ilə açılır. Katib Əhməd Cövdət cənablarıdır.

Diplomatlar lojasında Dağıstanlılar Cümhuriyyətinin Azərbaycan nümayəndəsi və Dağıstan Hökuməti nazirlərindən müsafirətən [qonaq olaraq] şəhərimizdə bulunan İbrahim bəy Heydərov həzrətləri və qeyriləri əyləşmişlərdir.

Rəisi-vükəla [Baş nazir] Fətəli Xan Xoyski həzrətləri başda olmaq üzrə nazirlər dəxi ümumiyyətlə isbati-vücud [iştirak] edirlər. Tamaşaçılar üçün təyin edilmiş yerlər doludur. Xanımlar üçün ayrılmış lojalar dəxi tamaşaçı xanımlarla dolu idilər.

Doktor Ağayev iclası açaraq ruznameyi-müzakiratı [müzakirə gündəliyini] elan edir.

Növbədəki məsələlər:

1 - Varid olan [gələn, daxil olan] teleqraflar və kağızlar;

2 - İki məbusun ərzihalı [ərizəsi] ;

3 - Etibarnamə komissiyasının məruzəsi;

4 - İrəvan quberniyası müsəlmanlarının əhvalı haqqında bir ərzihal;

5 - Əfvi-ümumi [amnistiya] haqqında qanun layihəsi;

6 - Fəhlələr məsələsi haqqında Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Məsai [Əmək] nazirinə xitabən istizahı [sorğusu];

7 - Lənkəran və Muğan məsələsi haqqında Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Hökumətə xitabən istizahı;

8 - Hacıqabul mövqifindəki [stansiyasındakı] hadisə xəbəri münasibətilə Parlamanın Sosialistlər fraksiyonu tərəfindən Hökumətə xitabən verilmiş istizah.

Sonra Ermənistan Cümhuriyyəti və Erməni Milli Şurası tərəfindən və Ağdamdan alınmış teleqraflar oxunur.

Azərbaycan Məclisi-Məbusanı açılan zaman ümum parlamanlara və əzcümlə [o cümlədən] Ermənistan Parlamanına çəkmiş olduğu teleqrafa şimdi Ermənistan Milli Şurası tərəfindən böylə cavab alınmışdır:

"Azərbaycan Məclisi-Məbusanı sədri həzrətlərinin hüzuri-alilərinə.

Azərbaycan Cümhuriyyət idarəsi, vilayətin hakimi olan Məclisi-Məbusanın təhti-idarəsinə [idarəsi altına] keçməsi münasibətilə Ermənistan Milli Şurası səmimi-qəlbdən şad və məsrur [sevincli] olmuşdur.

Parlamanın güşadını [açılışını] zatialiləri tərəfindən çəkilib də yanvarın birində bizə vüsul olmuş [çatmış] teleqrafdan öyrəndik. Əsrlərdən bəri iki həmsayə [qonşu] arasındakı dostluğu bir feyzi-ziqiymət [dəyərli bir nemət] ədd [hesab] edərək Ermənistan Milli Şurası həmin dostluğun davam və bəqası [əbədiliyi] məsləkini təqib edəcək və iki dost hökumətin dövləti mənafeyini birləşdirmək üçün daha müəssir [təsirli] vəsilələr aramaqda qüsur göstərməyərək bunları yekdigərilə yaxlaşdıracaqdır [birbirinə yaxınlaşdıracaqdır].

Ermənistan Şurayi-Millisi rəisi Saakyan”

Bədəhu [sonra] Ağdamdan alınmış zeyldə [aşağıda] yazılan təbrik teleqrafı oxunur:

“Azərbaycan Məclisi-Məbusanı sədri həzrətlərinə.

Əziz vətənimiz Azərbaycan[ın] təşəkkülünün böylə mühüm və müşkül bir

dövründə biz Ağdam mahalının nümayəndələri; müstəqil Azərbaycanımızın mənafeyini və onun Parlamanını müdafiə və mühafizə üçün səmimi-qəlblə hazır olduğumuzu öz Parlamanımıza izhar etməklə [bildirməklə] bərabər, əmin oluruz ki, ən yaxın bir zamanda Məclisi-Müəssisan dəvəti ilə müstəqil yaşamağımız üçün demokratik əsaslar həmişəlik bərpa olacaq; hər şeydən ziyadə, daxildə asayiş və əmniyyət üçün və xaricdən olan təarrüzlərin [hücumların] dəfi üçün əsgəri bir qüvvə lazım olduğundan, həmin qüvvənin əcələ ilə [təcili] təşkil tapmasını arzu ediriz.

İldırım xan, Hidayət, Həmid, Muxtar, Zeynal və başqaları..."

Bu teleqraflardan sonra Cavanşir qəzası məbusu doktor Cəmil bəy Lənbəranski və Salyan məbusu Baxış bəy Rüstəmbəyov cənabları tərəfindən verilmiş ərzihallara baxılır. Bu məbuslar 10 gün məzuniyyət istəyirlər.

Sosialistlər fraksiyası tərəfindən [əliheydər] Qarayev təklif edir ki, məbuslardan bir çoxu məzuniyyətə gedib, bəziləri də Hökumət və Parlaman tərəfindən Yevropaya və sair işlərə göndərilmiş olduqlarından, müvəqqət olaraq heç kəsə məzuniyyət verilməsin və məzkur [adı keçən] iki məbusun ərzihalı qəbul edilməsin.

Səsə qonulduqda əksəriyyəti-ara [səs çoxluğu] ilə bu təklif qəbula keçir.

Bədəhu [sonra] Etibarnamə komissiyası tərəfindən **Rüstəmbəyli Şəfi bəy** məruzə verərək bəyan edir ki, komissiyaya yenidən bir neçə qanun üzərinə tərtib verilmiş etibarnamə varid olmuşdur ki, onların qəbul və təsdiq edilməsini Parlamana təklif edir. Bu cümlədən olmaq üzrə Cavanşir qəzasından seçilmiş doktor Cəmil bəy Lənbəranski, Qubadan seçilmiş Əli bəy Zizikski, Rus Milli Şurası tərəfindən seçilmiş 5 məbusun etibarnaməsi Şurayi-Milli qanununa müvafiqdir.

Əlavə, Salyandan iki məbus seçilmişdir: Rəşid bəy Axundzadə və Baxış bəy Rüstəmbəyov. Bunlardan birisini qəza Milli Şurası, digərini Bələdiyyə İdarəsi intixab etməli idi. Halbuki, ikisi də Milli Şura tərəfindən seçilmişdir. Ona görə, etibarnamə komissiyası Baxış bəy məsələsini açıq buraxaraq, qəzadan seçilmiş olan Rəşid bəy Axundzadənin təsdiqini təklif edir. Bir də Şamaxı əhalisindən bir ərzihal varid olaraq Bələdiyyə İdarəsinə bir məbus seçmək üçün izin verilməsini istida [xahiş] edirlər. Bu istida, Şurayi-Milli qanununa ziddir. Zira, Milli Şura Parlaman qanunu verən zaman, Şamaxı şəhərinin xüsusi şərait altında bulunduğunu nəzərə alaraq məbus intixabını [seçkisini] ancaq Milli Şuraya mühəvvəl etmişdir [tapşırmışdır]. Binaənileyh [ona görə], Etibarnamə komissiyası şamaxılıların istidasını qəbul etməyəcəkdir.

Bundan maəda [başqa], Şəki qəzası müsəlmanları və yəhudilər Parlamana ərzihal verərək, məbuslarının miqdarının artırılmasını və Azərbaycanda sükunət edən [yaşayan] ukraynalılar Məclisi-Məbusanda kəndilərinə iki yer verilməsini istida etmişlərdir. Ukraynalıların ərzihalı Milli Şura tərəfindən deyil, konsul tərəfindən verilmiş olduğundan, rəsmi cəhətdən qeyri-məqbul ədd olunaraq rəsmiyyət ifasınadək məsələ açıq buraxılır. Şəki müsəlmanları ilə yəhudilərin

istidası isə rədd edilir. Çünki, əvvəla Parlamanımız çalışmalıdır və çalışır ki, ən yaxın bir zamanda Məclisi-Müəssisan çağırılsın. Digər tərəfdən də Şurayi-Milli qanununa görə Parlaman məbuslarının miqdarı 120 olmalıdır. Şimdi bunların ərzihalına əməl edildikdə və böylə olarsa gələcəkdə sair əyalətlərdən də böylə istidalar varid olacağı nəzərə alındıqda, anlaşılır ki, biz Şurayi-Milli qanununun miqdar haqqındakı maddəsini tez-tez dəyişməli olacağız. Bu isə mümkün və məmul [arzuedilən] deyildir.

Qara bəy Qarabəyli Bakı qəzası tərəfindən verilən istidanın cavabını sorur [soruşur].

[Şəfi bəy] Rüstəmbəyli cavab verir ki, bu dəxi ümumi məsələdən olduğundan, üzvlərin miqdarı qanununa görə qəbul ediləmməz. Lazım gələrsə, bunu Məclisi-Məbusan ancaq qanun təriqi [yolu] ilə keçirə bilər.

Qarabəyli Qara bəy müxtəsər bir nitq irad edərək [söyləyərək] deyir ki, əlbəttə Parlaman əzasının 120 olması bir qanundur və biz də bu qanunun xilafına iş görmək istəməriz, fəqət 24 para kənddən ibarət və 84.000 nüfusa malik olub da heç bir intixabatda [seçkidə] iştirak etməmiş olan əhalinin ixtiyarı var özünə yer tələb etsin. Bakı qəzası, sairləri kimi nümayəndəsinin çoxa[l]dılmasını deyil, ancaq yer verilməsini istəyir. Zənnimcə Məclisi-Məbusan bu məsələdə Bakı qəzasının xahişini nəzərə alaraq, qanundan müstəsna olmaq üzrə qəzaya istədiyi yeri verə bilər. Mən "İttihad" firqəsi tərəfindən təklif edirəm ki, Parlaman onlara yer versin. Bilxassə ki, onlar məbuslarını seçmişlərdir də. Nümayəndələri hazırdır.

Bundan sonra da bir neçə natiq danışaraq istidalara əməl olunmasını istəyirlər. Əzcümlə [o cümlədən] Abdulla bəy Əfəndiyev Şəki müsəlmanlarının istidasını müdafiə edir və Əhməd Cövdət həm mandat komitəsi məruzəsində bəzi anlaşılmaz cəhətlər olduğunu və sabiq natiqləri tənqid edir. Çox mübahisədən sonra qərar verilir ki, Etibarnamə komissiyasının təklif etdiyi etibarnamələr təsdiq və açıq buraxılan məsələlər isə fraksiyalarda danışılmaq üzrə gələn iclasda qəti surətdə həll edilsin.

Növbətdə İrəvan müsəlmanları nümayəndələrinin ərzihalıdır. Sədrin təklifi üzərinə katib ərzihalı oxuyur:

"Azərbaycan Parlamanı rəisinin hüzuruna İrəvan quberniyası müsəlmanlarının zeyldə [aşağıda] imzaları mündəric [dərc edilmiş] nümayəndələrindən ərzihal

1917 sənəsi dekabrdan 1918 sənəsi iyuna qədər İrəvan quberniyası dairəsində erməni qoşunları tərəfindən iki yüzdən ziyadə müsəlman kəndləri atəşə tutulub və tarmar olub, bunların əhalisi isə qismən qətl, qismən də dağlara qaçıb buralarda soyuq və aclıqdan tələf olmuşlar.

İrəvan quberniyasının müsəlmanlarla tamamən məskun qəzaları, ki ibarət ola bütün Sürməlidən, İrəvan, Eçmiyədzin, Şərur və Naxçıvan qəzalarının bəzi hissələrindən, Osmanlı ordusu tərəfindən işğal olduqdan sonra burasında yaşayan ermənilər yeni təşkil olunmuş erməni cümhuriyyətinin dairəsinə hicrət etmişlər [köçmüşlər]. Digər tərəfdən, Osmanlılar[ın] işğal etdikləri mahallara da yüz minə qədər müsəlman, İrəvan

quberniyasının başqa yerlərindən köçmüşlər. Bunları da hicrətə, həştaddan ziyadə müsəlman kəndlərini atəşə tutub talan edən ermənilər məcbur etmişlər. Bu minval ilə burasında sırf müsəlmanlarla məskun, 500 min əhalini havi [əhatə edən] bir mahal törəmiş, müstəqil bir hala düşdükdən sonra bu müsəlmanlar burada kəndilərinə bir hökumət təşkil etməyə də müvəffəq olmuşlarsa da, kəndilərini həmişə Azərbaycanın ayrılmaz bir parçası əd[d] [hesab] edilməklə bərabər və bunu ancaq arzu edirlər ki, gələcəkləri və taleləri Ümum Sülh Konfransında həll oluncaya qədər təhti-asayişdə [asayiş altında] yaşamalarına mane olmasınlar.

Əlyövm [bu gün] erməni qoşunları Sürməli qəzasını tamamən, İrəvan, Şərur və Eçmiyədzin qəzalarının müsəlmanlarla məskun mahallarını işğal edib, Naxçıvan tərəfə yürüş etməkdədirlər. Yürüşlə də bərabər yerli müsəlmanları qismən kəsib, qismən köylərindən çıxarıb İrana hicrət etmək məcburiyyətinə salırlar. Böylə sui rəftardan müsəlmanların tamamən tələf və məhv olması şübhə xaricində müsəddəq [qəti, təsdiqlənmiş] bir şeydir. Məcburiyyətlə müsəlmanlardan təmizlənmiş mahallara Osmanlı Ermənistanından fərar etmiş ermənilər köçürürlər.

İrəvan quberniyasının bəzi mahallarının tamamən müsəlmanlarla məskun olduğu və bu mahalların tarixi və başqa şərait üzrə Azərbaycanın ayrılmaz bir hissəsi əd[d] olunmasını nəzərə alıb və məcburiyyətlə bu mahalları müsəlmanlardan təmizləyib onların yerinə erməni mühacirlərini oturtmağı xilafi-vicdan və qanun [qanun və vicdana zidd] *hesab edərək, bu mahallar məsələsinin qəti surətdə həllini Sülh Konfransına buraxaraq, biz imzaları zeyldə mündəric İrəvan müsəlmanları nümayəndələri Cənabi-Rəis zati-alilərinizdən İrəvan müsəlmanlarının mövcudiyyətinin mühafizəsi üçün lazım gələn tədabiri ittixaz etmənizi [tədbirləri görmənizi] rica ediriz.*

4 yanvar 1919

İmzalar:

Parlaman üzvü: Teymur bəy Makinski;

Parlaman üzvü: M[əhəmməd] Məhərrəmov;

Parlaman üzvü: Əkbər ağa Şeyxülislamov;

Rəşid bəy İsmayılov, A[bbasəli] Makinski, Yusif bəy Tahirov, [Əziz bəy] Sultanov, Paşa bəy [Bayrambəyov]."

Vinoqradov, millətlərin bu surətlə yekdigərinə düşmən kəsilərək biri-birinə bu qədər zülüm və əziyyət etmələri münasibətilə bəyani-təəssüf və ermənilərin bu hərəkəti müqabilinə protesto edir.

(bitmədi)

TƏƏSSÜRAT

Parlamanımızın keçən günkü iclasından hasil etdiyim təəssürat, keçənlərdəki kimi zövq aldığım xoş təəssüratımın yerini verə bilmədi.

Parlaman mənə:

– Keşiş həmişə kətə yeməz!

dedirtdi.

Qərəz, hissiyyati-milliyyəm tətmin edilmədi. Qəlbimdə bir acılıq qaldı. Bir kəlmə: sındım!

. . . . . .

Rusca danışmalı imiş!

“Raboçi klub”da [Fəhlə Klubunda] rus fəhlələri müsəlman natiqlərindən rusca danışmağı tələb edirmişlər. Parlamanda dəxi hər dəm bunu tələb edənlər olmayır deyil, fəqət tələb edənlər ruslar deyildir.

“Rusca, rusca!” - deyə hər dəm yerlərindən əmr verən məbus əfəndilərimizi mən başa düşürəm. İstəyirlər ki, qeyri-müsəlman məbuslarımız haqqında əvvəla adi “nəzakət” rəsmiyyəti icra edilsin və saniyən [ikincisi] danışılan məsələlərdən, təklif olunan qərarlardan onlar da müxbir [xəbərdar] olub işə iştirak etsinlər.

Buna heç bir sözümüz yox! Hələlik bu dilə möhtacıq və istemalına [istifadəsinə] da məcburuq. Lakin rusca danışılmasın, rusca ancaq tərcümə edilsin. Baxüsus [xüsusilə] Lənkəran, Muğan, İrəvan, Qarabağ və sair erməni məzaliminə [zülmünə] məruz qalan yerlərdən alınan kağızlar, sənədlər hər dəfə mütləq rus dilinə tərcümə edilib qeyri-müsəlman məbuslarımız üçün oxunsun! Lakin adi söhbətimizi, baxüsus məbuslarla rəis əfəndi arasında və ya məbuslarımızın öz aralarında təati edilən [qarşılıqlı deyilən] sözləri rusca söyləməyə heç bir ehtiyac yoxdur.

– Позвольте мнѣ два слова!

– Вы о чемъ?

– Я на счетъ заявленія члена...

Bunun kimi mükaliməni [söhbəti] Parlamanda rusca keçirtməyə nə hacət? Bir halda ki, danışan da türkdür, danışdırılan da!

. . . . . .

İrəvan hadisatı [hadisələri] xüsusunda hökumətə “zapros” [sorğu] verildi.

(Mən də rusca danışmağa başladım, lakin qərəzsiz degildir. Bu “zapros” sözü, Parlamanımızda ümumiyyət etibarilə “istizah” və “izahat” kimi başqa mənaları ifadə edən ərəbcə kəlmələrlə tərcümə edilir. Dünən məbusumuz və bu gün vəzirimiz [nazirimiz] olan sosialist Səfikürdski cənablarından bu “zapros” sözünün “sorğu” sözü ilə ifadəsini dəfələrlə eşitmişəm və çox da xoşuma gəlibdir. Məbuslarımızın da xoşuna gəlsəydi, bu sözü qəbul edərdik. Zatən bu sözü Səfikürdski cənabları özündən çıxartmayıbdır. Dilimizin mənbeyi-sərvəti [sərvət mənbəyi] olan və rus dili qələbəsindən bir dərəcəyə qədər kənarda qalan kəndlərimizdə yazıçılarımızdan bir çoxunun – zənn edirəm səhv və xəta olaraq – “soq-sual” surətində yazdığı “sorğu-sual” sözü vardır. Bu söz, kəndlilərimiz ağzında çox işlənir:

– Məhəmmədhəsəni tutub sorğu-sualsız dama saldılar.

Zənn edirəm, bu “sorğu” sözünü “zapros” yerinə Səfikürdski ilə bərabər hamımız dəxi işlətsək, uduzmarıq ki, udarıq. Türkiyə Məclisi-Məbusanında “zapros” sözünə “təqrir” denildiyi qəzetələrdən anlaşılmaqdadır.)

Xülasə, İrəvan hadisatı xüsusunda Hökumətə sorğu verildi. Sorğu verən əfəndinin ifadatında [ifadələrində], həm də o tərəfin zavallı müsəlmanlarından gəlmiş istimdad [yardım] fəryadı ilə dolu olan məktublarında İrəvan hadisatiəliməsi [acı hadisələri] təsvir olunurdu.

Bu təzə xəbərləri dinləyən Parlaman əzalarında [üzvlərindən] nə bir təəssürat, nə bir ruh incikliyi, nə bir yas, nə bir kədər, nə bir nifrət, nə bir etiraz əlaməti

müşahidə edilmədi!

Danışılan ruhsuz sözlərdən də çıxan nəticə bu oldu ki:

– İngilislərə müraciət edəlim...

Genə ingilislərə!

Günü bir gün bu ingilislərin bizə qaya ağırlığında bir söz deyəcəyindən mən çox qorxuram!

Müntəziri və arzusunda olduğumuz qızğın bir nitqi əvəzində beş-on kəlmə "xala-xətrin qalmasın"la bizi qənaətləndirmək istəmiş olan Məhəmməd Əmin Rəsulzadə cənabları istisna olmaq üzrə, firqə "lider"lərimizin bir qardaş fəlakəti xüsusunda ixtiyari-sükut etmələri [susmaları] bizcə anlaşılmaz bir sətr [sirr], açılmaz bir müəmma hökmündə qaldı...

İrəvan, Lənkəran, Qarabağ və bu kimi hadisələr haqqındakı məsələlər nə "firqəvi" məsələdir ki, deyək o firqə tərəfindən verilən sorğuya bu firqənin dəxli yoxdur, nə bir "diplomatik" məsələdir ki, bunun üçün "pişəzvəqt" [qabaqcadan] evdə hazırlaşmaq lazım gəlsin. Bədbəxt qardaşlarımızın daşnaklar təhəkkümü və təzəllümü [zülmü] altında taqətfərsa [dözülməz] fəlakətlər çəkdiyindən mütəəssir olub da acınmaq, yanmaq, qızmaq [hirslənmək] və əhvali-ruhiyyələrini münasib sözlə ifadə etmək və bu işə Hökumətimizin də, camaatımızın da, müttəfiqlərimizin də, rusların da, yəhudilərin də, hər insaf və insaniyyət sahibinin diqqətini cəlb etmək çətin bir əmrmi [işmi] idi?!

. . . . . .

Əfvi-ümumi [amnistiya] məsələsi araya gəldi.

Parlamanımızın birinci iclasında "İttihad" firqəsi tərəfindən irad edilmiş olan bu məsələ, bu səfər həll olundu. Əfvi-ümumi, daha doğrusu, siyasi mücrimlərin [cinayətkarların] əfv edilmələri xüsusunda Hökumət tərəfindən tərtib edilmiş qanun layihəsi Parlamanca qəbula keçdi.

Sonradan bu məsələni qurdalayıb da vəziri [naziri] bir taqım lüzumsuz bəyanata məcbur etmək yersiz idi. Zira, vəzir Səfikürdski cənabları siyasi mücrimlərin kimdən ibarət olduğunu öylə bir şəkildə bəyan etdi ki, siyasi mücrim ilə adi caninin təfavütünü seçmək çətin oldu.

Səfikürdski cənabları bunu unutmasın ki, Hökumətə qarşı silahla qiyam etmənin, bomba və dinamit gizlətmənin, meşə qırmağın nə dərəcədə siyasi cürüm və nə dərəcədə adi bir cinayət olduğunu əhalimiz içində başa düşməyənlər hələ çoxdur.

. . . . . .

Sosialistlərdən sağ və fəhlə məsələsində də onlardan bir az uzaq olan "Müsavat" firqəsinin sosialist vəzirə fəhlələr məişətinin çətinliyi haqqında sorğu verməsi məzəli bir keyfiyyət idi.

Bu xüsusda "Müsavat"çılar ilə sosialistlərimiz arasında bir bala "atışma" vaqe olduysa da, nəticəsi "salamatlıqla" keçdi. Müsavatçı [Abbasqulu] Kazımzadənin fəhlə həyatının üsrəti [çətinliyi] haqqındakı qızğın nitqinə cavab verən Məsai vəziri sosialist Səfikürdski cənabları özünü sındırmadı, dedi:

"Sizə fəhlə məişəti haqqında öylə həqiqətlər söylərəm ki, "başınızın tükü ayağa (?) durar!"

Filvaqe [doğrudan], Səfirkürdski cənabları bu surət xüsusunda nitq irad edərkən öylə sözlər söylədi ki, özgələri

bilmirəm, amma mənim başımın tükü ayağa durdu. Məsələn, fəhlələr həyatının, ümumiyyətlə, hər bir yerdə, ağır bir surətdə keçməsini nəql ilə sözünü bolşevik fəhlələri məişətinə ətf edərək [yönəldərək] dedi ki, bolşevik fəhlələr hamıdan yaxşı dolanırlar. Və bu sözü mənidar bir surətdə [mənalı, xüsusilə vurğulayaraq] təkrar etdi.

- Bolşevik fəhlələr yaxşı dolanırlar.

- Bizim fəhlələrə də yaxşı dolanmaq lazımdır.

Erqo! (Ona görə) yaxşı dolanmaq üçün:

- Bolşevik olmaq lazım gəlir!

Elmi-məntiqdə [məntiq elmində] böylə çıxır. Təcrübədə də feilən böylə çıxarsa, onda nəinki bir mənim, bəlkə bir çoxlarının başının tükü ayağa durar!

Hər halda “Müsavat”çıların fəhlələrimiz haqqındakı ciddiyyətlə çarpışması fəhlə ehtiyacatının, fəhlə təşkilatlarının dalınca olmaları son dərəcə şayani-sürur və təsəlli [sevindirici və təsəlli edici] bir fəaliyyətdir.

Gəldi Lənkəran faciəsi məsələsi.

Lənkəran məbusu Hacı Mirzə Səlim Axundzadə cənabları ürəyinin dərdini, vətəninin ağlar halını, Lənkəran müsəlmanlarının biganələr [yadlar] əlindən çəkdigi zülüm və sitəmi Parlaman əzalarının hüzurunda açıb deməyə axır ki, fürsət tapdı.

Hacı Mirzə Səlim cənabları nitqinin “müqəddəməsinin müqəddəməsini” böylə başladı:

Nalera hərçənd mixahəm ke pünhan bekonəm

Sinə miquyəd ke, mən be təng amədəm, fəryad kon.

Bundan əlavə məbus əfəndi nitqini ərəb şeirlərilə dəxi təzyin edir [bəzəyir]. Böylə ki:

Və kullu yədəmun visalə Leyli
Va Leyli lə tuqarru ləhum bizakə.
İzə əthət dumu min uyun
Təbəyyən mən büka əv mən təbakə.

Sonra Lənkəran müsəlmanlarının rus “demokrat”ları əlindən çəkdiyi əza və cəfaları yanıqlı bir dil ilə söyləməyə başladı. “Lənkəranlılara azadlıq və kömək lazımdır” deyə hər kəsi köməyə dəvət edərkən, “ruznamələri” [qəzetləri] dəxi bu köməyə cəlb arzusuyla “Qəzetə yalnız bir firqənin naşiri [təbliğatçısı] olmayıb da bitərəfanə surətdə hər kəsə danışmaq imkanı verməlidir” dedi. Məbus əfəndinin bu işarə və kinayəsi hansı “ruznaməyə” aid olduğunu bir dürlü anlamadıq.

Əlbəttə, bizim qəzetəyə ola bilməz! Çünki, qəzetəmizin firqə və partiya xaricində rəsmi bir “orqan” olduğu hər kəscə məlumdur. Hər günkü möhtəviyyatından məlum olduğu üzrə vətən abadlığı, millət salamatlığı, camaat tərəqqisi, dövlət intizamı ilə bərabər, istiqlal və genə də istiqlal şüarlarını virdi-zəban [dilinin əzbəri] edib də, bunun hüsulunda əlindən gələn qədər çalışmaqda olan qəzetəmiz bu dairədə yazılmaqda olan məqalələrə sütunlarını – bir ananın balasına qarşı açdığı qucağı kimi – kamali-meyl və məhəbbətlə açıbdır, vəssalam!

Əlqərəz, Hacı Mirzə Səlim əfəndi Lənkəran faciəsindən bir şəmmə [cüzi bir hissə] açıb nəql elədi.

Bu dilsuz [ürək yandıran, təsirli] həqiqətləri dəxi Parlaman əzalarımız İrəvan

hadisəsi kimi hissiyati-milliyyədən ari [milli duyğulardan uzaq], qeydsiz [laqeyd] bir tərzlə qarşıladılar: genə nə bir nitq, nə bir hərəkət...

Mən güman edirdim ki, bu gün havanın soyuqluğu Parlaman əzalarımıza o dərəcədə əsərbəxş olubdır [təsir edibdir] ki, bu soyuqluq deyil yalnız bir bədənlərinə, bəlkə ruhlarına da keçibdir. Ona görə bugünkü iclas, axırına kimi "soyuq" keçəcəkdir. Lakin cavan və fəal məbuslarımızdan Əhməd Cövdət əfəndinin bir saatlıq əsl "parlamani" bir nitqi gümanımı səhvə mübəddəl etdi [çevirdi]. Çünki, natiq əfəndinin istər nitqində, istər bədənində, istər ruhunda "üşümək" əsəri yox idi. Biləks [əksinə], qızğınlıq var idi.

Əhməd Cövdət əfəndinin bu hərarətli nitqi nəyə dair idi? Nəyi və kimi bu hərarət və səlasətlə [səlisliklə] müdafiə edirdi?

Stansiyalarda soyulmuş bir nəfər Sarkisyanı və dəmiryol mövqiflərinin [stansiyalarının] birində guya öldürülmüş olan üç nəfər ermənini!

Qışın bu soyuq günlərində buzlu dağlara pənah aparmış, Araz çayının qara sellərinə qurban olmuş, yer və yurdlarından, mülk və mallarından, can və başlarından top və pulemyot güllələri zoru ilə məhrum edilmiş, əsir və yesir günündə dağlara, daşlara, dərələrə, təpələrə səpilmiş olan, məzlum və məzlumlardan da məzlum olan bədbəxt qardaşlarımızın, ana və bacılarımızın müdafiəsi haqqında bir söz belə dilinə almağı özünə "layiq" görməmiş olan məbus əfəndimizin, daşnaklar mənbəyindən xüsusi bir qərəzlə nəşət edən [meydana gələn] yalan və acı bir yalan olduğu Rəisi-vüzəra Fətəli xanın bəyanatından bəlli olan xəbərlər haqqında kamali-səlasətlə hərraflıq [boşboğazlıq] etməyi mənə o qədər əlim bir təəssür [kədərli bir hiss] və yanıqlı bir acıq verdi ki, nitqi axırınadək dinləmək taqətim qalmadı...

Türk ürəkli və sosialist fikirli Əhməd Çövdət əfəndinin fəal və çalışqan bir zat olduğu məlumumuzdur. Və hər kəsə bilafərqi-millət [millət fərqi qoymadan], insaniyyət nəzəri ilə baxmaq fikrinin aliliyinə də mötərifik [aliliyini qəbul edirik]. Lakin iki nəfər insandan, iki nəfər adəm övladından birinin məzlum və məfluk [bədbəxt] olduğunu dünya işığına baxan gözümüz və aləmi-batinisini [daxili aləmini] də dərk edən bəsirətmizlə gördüyümüz halda və o birinin də məzluma nisbətən qeyri-məzlum bir vəziyyətində bulunduğunu dərk etdiyimiz təqdirdə, məzlumu qoyub da qeyri-məzlum haqqında çalışmağımız, insaniyyət fikrinə mütabiq və elmi-məntiqə müvafiq olmadığı surətdə, böylə eyləməyin mənası nədir, əcəba?

Üzeyir

TELEQRAF XƏBƏRLƏRİ

Fransa xəsarətinin ödənilməsi

Fransaya dava xəsarətinin verilməsi barəsində olan Fransanın nöqteyi-nəzəri böylədir: Birinci növbətdə Fransanın zərərləri əda edilməlidir [ödənməlidir]. Zira, Fransa baş meydani-hərb olduğundan onun təxribatı da çox olmuşdur.

Poznanın işğalı

Berlindən çəkilən teleqramda Poznanın lehlər [polyaklar] tərəfindən işğal edildiyi işar [qeyd] olunur. Lehlər Almaniya milli nişangahlarını [rəmzlərini] yıxıb, almanların evlərində təftiş etmişlərdir. Qızğın müharibədən sonra bütün milli fondu öz əllərinə keçirmişlərdir. Lehlər bir intibahnamə [bəyannamə] buraxaraq Poznanın Polşaya ilhaqını [birləşdirilməsini] elam [elan] etmişlərdir.

Bolşeviklərlə mübarizə

Rus mənbəyindən “Royter” ajansına verilən teleqraf xəbərlərinə nəzərən, bolşevikləri yıxmaq üçün görülən hazırlıq, müvəffəqiyyətli surətdə irəliləyir. Bu yaxınlarda iki böyük bolşevik əleyhinə olan qüvvələrin ümumi mübarizədən ötrü birləşəcəyinə ümid yoxdur.

Sülh şərtlərinin müzakirəsi

Parisdə zənn edilir ki, yanvarın 13-də Xariciyyə Nəzarətində İngiltərə, Fransa, İtaliya və Amerika nümayəndələrinin sülh şəraiti [şərtləri] əsasları barəsində müzakirələri olacaqdır və bu sülh şəraiti düşmənlərə təklif ediləcəkdir. Müttəfiq dövlətlər nümayəndələri Parisdə ikinci Sülh Konfransında iştirak edəcəklər. Şərait qəti surətdə tərtib edilib, sonra Versal Sülh Konfransında düşmənlərə veriləcəkdir.

* İstanbuldan gəlmiş olan şəxslər xəbər verirlər: Bu şərq cəbhəsində olan Müttəfiq qoşunlarının baş komandanlığına təyin edilmiş Fransa generalı D’Esperi bu günlərdə İstanbula varid olmuşdur [gəlmişdir]. Bu yaxınlarda mümaileyh [adı keçən şəxs] Sevastapola əzimət edəcəkdir [gedəcəkdir].

* Dənizlər məsələsində Vilson Fransa və İngiltərəyə güzəştdə bulunur. Digər tərəfdən isə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsində Müttəfiqlər Vilsona güzəşt edirlər. Burası sülh əqdini [müqaviləsini] tezləşdirir.

Gələcəkdə donanma

Vaşinqtondan verilən teleqrafa nəzərən, Daniels hərbi komitəyə xəbər vermişdir ki, bundan sonra hərbi paraxodların əksəri elektrik qüvvəsi ilə hərəkət edəcəklərdir. “Yeni Meksika” nam drednot birinci olaraq elektriklə hərəkət edəcəkdir. Bu paraxod, dünyada ən birinci böyük paraxoddur ki, 31 min at gücü vardır.

* Yunanıstan sədrəzəmi [Baş naziri] Venizelos Xariciyyə vəzirinin müşayiəti ilə Parisə konqreyə əzimət eyləmişdir [yola düşmüşdür].

* Paris və Roma qəzetələri tələb edirlər ki, imperator Vilhem, Napolyon kimi Sant Helen cəzirəsinə [adasına] göndərilsin. Bəzi İstanbul qəzetələri isə Vilhemin güllələnməsini tələb edirlərmiş.

* Türklər istiqbala [gələcəyə] çox nikbinliklə baxırlar. Onlar ümüd edirlər ki, Batum, Qars, Ərdahan və Ərəbistan özlərinin əlində qalacaqdır. Türklərin rəyinə görə, Ermənistana Türkiyə daxilində olmaq üzrə muxtariyyət veriləcəkdir.

QƏZETƏLƏRDƏN

Gürcüstan istiqlaliyyəti

Londondan Gürcüstan nümayəndələri təzə bir teleqraf göndərmişlərdir.

Teleqrafda deyilir ki:

"Parisə göndərilmiş olan nümayəndələrin adlarını və onların nə vaxt Parisə varid olacaqlarını [çatacaqlarını], həmçinin Gürcüstan haqqındakı təzə xəbərləri bizə məlum ediniz. Burada bizim müzakiratımız [müzakirələrimiz] davam edir. Gürcüstan xeyrinə təzə və'dələr almağa müvəffəq olduq.

Gürcüstan nümayəndələri: Avalişvili, Qambaşidze."

İngiltərə qatarları

Yanvarın 3-də İngiltərə generalı Vulk başda olmaq üzrə İngiltərə heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Batumdan Tiflisə varid olmuşdur. Samtredi ilə Tiflis arasında iki qatar dəxi vardır. Digər bir qatar Samtredidən Potiyə azim olmuşdur.

Böyük ianə

Məşhur tacirlərdən Xoştariya və Rus-İran neft şirkəti Gürcüstan müharibəsi nəfinə [xeyrinə] 550.000 rublə ianə vermişlərdir.

Tabut içrə pulemyotlar

Gürcü Parlamanı üzvü A. Axmetelaşvilinin oğlu dəmiryol kənarında erməni seminariyası yanından keçdikdə dörd nəfər hammalın [hambalın] bir tabut aparmasını görmüşdür. Hammallar həman yerdə tabutu yerə qoymuşlardır. Tabut yerə qoyulduğu zaman tabutdan gələn şübhəli səs uşağın diqqətini cəlb etmişdir. Hammallardan tabutda nə olduğunu xəbər aldıqda, hammallar tabutu götürüb cəbbəxanaya (arsenala) tərəf getməyə tələsmişlərdir. Məzkur [deyilən] uşaq cəbbəxanaya tərəf qaçıb saldatlara xəbər eyləmişdir. Saldatlar hammalları tabutla bir yerdə tutmuşlar. Tabut içrə meyit əvəzində pulemyot və patron var imiş.

Bolşeviklərin hücumu

Qomeldən xəbər verirlər ki, bolşeviklərin şəhəri zəbt etmək təşəbbüsatı bərtərəf edilmişdir. Bolşeviklər şəhərin bir neçə məhəlləsini zəbt edib, bu yaxınlarda dəvət edilmiş olan Qomel Demokratik Dumasını qovmuşlarsa da, alman əsgərləri Kiyevdən düsturüləməl [göstəriş] alıb polkovnik Xarçenkonun ultimatum təklifindən sonra bolşeviklər əleyhinə çıxmışlardır. Bir neçə saatdan sonra alman əsgərləri bolşevikləri şəhərdən çıxarıb bir çoxlarını əsir etmişlərdir.

Şimali Qafqazda bolşeviklərin məğlubiyyəti

Şimali Qafqaziyada bolşeviklər böyük məğlubiyyətə düçar olmuşlardır. Müttəfiq ordu və kazaklar, bolşeviklərin 60 mindən ibarət olan qüvvələrini sındırıb, onların yarısından ziyadəsini [çoxunu] əsir almışlardır. Bolşeviklərdən 12 zirehli avtomobil, 17 top, 128 pulemyot, bir neçə min tüfəng və bir milyon güllə və sairə qənimət almışlardır. Bolşeviklərin komandanı dəxi əsir düşmüş. Məğlub olmuş bolşevik ordusu həyəcanla qaçaraq Müttəfiqlər tərəfindən təqib olunmaqdadır.

Bolşeviklər Bakı haqqında

Bakının müqəddəratı bolşevikləri artıq həyəcana salır. Şura cələsələrində [iclaslarında] Lenin demişdir ki, Bakı, Müt-

təfiq ordular tərəfindən işğal edilmişdir. Onun Rusiyaya, yəni bolşeviklərə qaytarılmasına ümid yoxdur. Bu isə neft cəhətindən Rusiyanı çox müşkülata uğradır.

Hindistan bolşevikləri

Hindistan bolşeviklərinin nümayəndələri Mərkəzi İcraiyyə Komitəsini təbrik üçün Moskvaya gəlmişlərdir. Nümayəndələr demişlər ki, 70 milyon Hindistan əhalisi bolşevizm ruhu ilə ruhlanıb, İngiltərə imperializmi ilə mübarizə etməkdən ötrü Şura Hökuməti ilə birləşmək arzusundadırlar.

BAKI XƏBƏRLƏRİ

Cavad uyezdində Bakı üçün taxıl almaq

Ərzaq Nəzarəti tərəfindən Cavad uyezdinə taxıl almaq üçün göndərilmiş nümayəndə Kalantadze bu günlərdə Bakıya gəlib, özünün Cavad uyezdində taxıl almaq barəsində gördüyü işləri xüsusunda layihəsini Nəzarətə təqdim etmişdir.

Məlum olur ki, Cavad uyezdində külli miqdarda taxıl almaq ümidi, bir o qədər də həqiqətə müvafiq deyildir. Bu uyezdin özündə taxıl bir o qədər yoxdursa da, lakin bu uyezd vasitəsi ilə Lənkərandan taxıl və sair məhsulatı daşıyıb çəkmək mümkünatdandır. Nümunə üçün Salyanda Kalantadze bir qədər taxıl alıbdır. Görünür ki, əhali bundan qabaqkı hökumətlərin əsrlərində [dövründə] gördükləri zülüm və haqsızlıqların qorxusundan öz var-yox taxılını quyularda gizlədib və heç vəchlə alış-verişə gələn nümayəndələrə inanmaq istəməyirlər.

Cavad uyezdindən külli miqdarda ancaq çəltik almaq mümkün olacaqdır. Lakin bu çəltiyin də qiyməti hələlikdə oralarda çox yuxarıdır. Çünki Bakıya ingilislər tərəfindən külli miqdarda İrandan gətirilən və hal-hazırda da gətirilməkdə olan düyü, Bakı bazarında düyünün və çəltiyin qiymətini çox aşağı salmışdır. Bu səbəbdən də nümayəndə hələlik orada çəltik almaqdan çəkinir.

Nəzarətin qərarına görə, Cavad uyezdində taxıl alış-verişi qismən mal mübadiləsi ilə olacaqdır. Bu səbəbdən də skladlardan çit, bez və sair əşya hazırlanıb Salyana göndəriləcəkdir.

Kalantadze bu günlərdə genə Salyana yola düşəcəkdir.

Odun məsələsi

Bakı Ərzaq şöbəsi, Quba uyezdində Yalama mövqifində [stansiyasında] Bakı üçün külli miqdarda odun hazırlamışdır ki, yavaş-yavaş bu odunları Bakıya daşıtdırsın.

Dünən Yalamada olan nümayəndədən teleqraf gəldi ki, guya Kislovodskdan gəlmiş alıcılar buraya gəlib şiddətlə odun aparmaq istəyirlər və hətta məhəlli [yerli] polis nəfəratı [nəfərləri] da onlara kömək edirlər. Bu alıcılar Kislovodsk şəhəri idarəsi ilə müqavilənaməsini göstərib güclülük edirlər. Ona görə də Ərzaq şöbəsinin vəkili xahiş edir ki, Yalama naçalniki adına qubernatordan bir hökmnamə alınıb göndərilsin.

Qubernator cənabı isə ümum uyezd naçalnikləri adına bir sirkulyar göndərib hər bir yerdə Ərzaq Nəzarəti nümayən-

dələrinə kömək edilməsi təklif olunmuşdur.

* Balaxanı, Sabunçu qalabəyisi [komendantı] qubernatora müraciətlə təklif edir ki, Neftçilər syezdi keçən illər kimi qalabəyi məmurlarının olduqları mənzil üçün işıq və odun verməyə məcbur edilsin. Daxiliyyə vəzirinin binagüzarlığına [sərəncamına] görə fövqdəki [yuxarıdakı] şeylər üçün 219 min manat pul buraxılması Sovet Syezdə təklif edilmişdir.

* Neftçilərin axırıncı ümumi iclaslarında mart və sentyabr hadisələrindən sonra Bakıdan getmiş olan müsəlman və erməni əmələlərinin [fəhlələrinin] məvaciblərinin verilməsi məsələsi müsbət bir surətdə həll edilmişdir.

Mal tapılmışdır

Nəzirulla Rəsul oğlu bizdən təvəqqe edir xəbər verək ki, srağagün gecə saat 8 radələrində Balaxanıda bir hammal [hambal] omuzunda bir qədər baqqaliyyə malı olaraq bəzi xırsızlar [oğrular] tərəfindən "mal bizimdir" deyə aparıldığını görərək, həman adamları tanıdığından, məzkur [deyilən] malın onların olmasından şübhələnib, malı əllərindən alıb yuxarı məhəllə məscidi yanındakı baqqal dükanına aparmışdır. Mal sahibi gəlib şeylərini həman dükandan apara bilər.

"Əlvahi-intibah"

Dəyərli şairimiz Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndi tərəfindən qələmə alınmış olan "İnsanların tarixi faciəsi yaxud əlvahi-intibah" nam [adlı] mənzum əsərin 3-cü cildi təbdən [çapdan] çıxıb satışa qonulmuşdur. Qareə və qarelərimizə [qadın və kişi oxucularımıza] bu əsəri oxumağı tövsiyə ediriz.

TEATRO VƏ MUSİQİ

Bu gün, cümə günü Hökumət teatrında Hacıbəyli Qardaşlarının müdiriyyəti artistləri tərəfindən Üzeyir bəy Hacıbəylinin məşhur "Arşın mal alan" operettası mövqeyi tamaşaya qoyulacaqdır. Oyunun həmişəki kimi gözəl bir surətdə çıxacağına müdiriyyət tərəfindən lazımi diqqət verilibdir. Dirijor Üzeyir bəyin özüdür. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır.

Elan

"Açıq söz" qəzetəsinin mətbəə və idarəsi mart hadisələri əsnasında yandırıldığından, "Açıq söz" kolleksiyonları dəxi tələf olmuşdur. Məzkur [adı keçən] qəzetənin baş mühərriri Rəsulzadə Məhəmməd Əmin bununla elan edir ki, kimdə məzkur qəzetənin kolleksiyonu varsa və satmaq istərsə ya "Azərbaycan" idarəsinə və yaxud 55-10 nömrəli telefonla kəndilərinə bildirsin.

Mehmanxaneyi-"Məhəmmədiyyə"

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

Kamali-ehtiramla İbrahimov

Kömür

Satılır Karantinni və Sisyanovski küçələrin küncündə Kərimovun 20 nömrəli mülkündə Hacı Məhəmmədin dükanında putu 25 rublə. Çox alanlara güzəşt edilir.

2641

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91.

Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Mama M. K. Şerman

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

Telefon 24-62.

Türk təqvimi
Yeni və əski üsul ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır. Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-7

Təqvimi-islam [müsəlman təqvimi]
Türkcə-rusca divar təqvimi

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur. Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında “Novruz” mətbəəsi.

2637 3-2

Təbliğat və təşkilat

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat” Bakı və ətrafında Balaxanı, Binəqədi, Ramana, Zabrat, Sabunçu, Suraxanı, Bibiheybət, Çornı-qorod, Fabrika və qeyri bu kimi mədən dairələrində çalışmaqda olan müsavatçı və qeyri-müsavatçı müsəlman fəhlə qardaşlardan rica edir ki, üzümüzə gələn bazar günü şəhərin “Raboçi klub”unda vaqe olacaq fəhlə konfransına hər 50 nəfərdən bir nümayəndə seçib etibarnaməsi ilə şəhərə göndərsinlər. Konfransda mühüm məsələlər həll olunacaqdır.

T/6

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

"Azərbaycan"

səh. 159. Qəzetin nömrəsi 1-ci səhifədə "74", digərlərində "84" getmişdir.

Azərbaycan Məclisi-Məbusan sədrinin əmrləri

səh. 159. "…1334 sənəsi kanuni-əvvəlin 24-dən...": Burada il, rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 24 yanvar 1919-cu ilə uyğundur. "1334" yerinə qəzetdə səhvən 1324 getmişdir.

"Əmrnamə nömrə 38": qəzetdə səhvən "Əmrnamə nömrə 37" kimi getmişdir.

Sülh Konqresinə gedən…

səh. 161. "X. İ.": bu imza Xəlil İbrahimə (İbrahimov Xəlil) məxsusdur.

Sülhi-ümumi yolunda

səh. 162. "…İskəndəranə həll edir": açılması demək olar ki, mümkünsüz hesab olunan Qordi düyününü Makedoniyalı İskəndərin qılıncla kəsib atması hadisəsinə işarə edilir. Bu hadisə, çətin və yorucu bir problemin qılınc gücünə qısa yoldan həll edilməsinə misal olaraq göstərilir.

"…qədim Germaniya imperatorluğu…": Müqəddəs Roma German imperiyası nəzərdə tutulur.

"Dördüncü Henrix": 1589-1610-cu illərdə hakimiyyətdə olan Fransa kralı IV Henrix nəzərdə tutulur.

"Beşinci Karl": 1519-1556-cı illərdə Müqəddəs Roma İmperiyasının imperatoru olan V Karl nəzərdə tutulur.

"On dördüncü Lui": 1643-1715-ci illərdə Fransa kralı olan XIV Lüdovik nəzərdə tutulur.

səh. 163. "Əlində məş'əleyi-mənəviyyeyi-tövhid / Edərdi Şərq ilə Qərbi ziyasına dəvət": "Əlində tövhidin mənəvi məşəli; Şərq ilə Qərbi işığına dəvət edirdi." Beyt, Türk şairi Əbdülhaq Hamidin Osmanlı sultanı I Səlimə həsr etdiyi "Qəbri-Səlimi-əvvəli ziyarət" adlı şeirindəndir.

"Ə. H.": Türk şairi Əbdülhaq Hamid (Tarhan) nəzərdə tutulur.

"Hazır ol cəngə, əgər istər isən sülhüsəlah!": "Sülh və əmin-amanlıq istəyirsənsə, müharibəyə hazır olmalısan."

Azərbaycan Məclisi-Məbusanında

səh. 167. "…Osmanlı Ermənistanından fərar etmiş ermənilər…": qəzetdə "fərar" yerinə "zar" getmişdir.

"Ə[ziz bəy] Sultanov": qəzetdə adı səhvən "əlif" hərfi ilə göstərilmişdir; "ayn" olmalıdır.

Təəssürat

səh. 168. "– Позвольте мнѣ два слова! / – Вы о чемъ? / – Я на счетъ заявленія члена...": "– İcazə verin iki kəlmə deyim! / – Nə barədə? / – Deputatın bəyanatı barəsində..." (rusca)

səh. 170. "Erqo!": "deməli, elədirsə, ona görə" (latınca). Fransız filosofu Rene Dekartın fəlsəfəsinin əsasını təşkil edən məşhur "Düşünürəm, deməli varam" (Cogito, ergo sum) prinsipində işlənmişdir. Ü. Hacıbəyli mötərizə içindəki (ona görə) sözləri ilə "erqo"nun izahını vermişdir.

"Nalera...": Farsca. Mənası:

"Naləmi gizli saxlamaq istəsəm də, / Sinə deyir ki, mən darıxdım, çığır!"

"Və kullu...": Ərəbcə. Mənası:

"Hər kəs Leylinin vüsala qovuşmağını istəyir, / Leyli isə bununla razılaşmır. / Əgər gözlərdən yaş axırsa, / Bu ya kiminsə ağlamasına, ya da kiminsə özünü ağlamağa vurmasına dəlalət edir."

Teleqraf xəbərləri

səh. 172. “Drednot”: hərbi dəniz donanmalarında XX əsrin əvvəllərindən etibarən istifadə edilməyə başlanan, güclü artilleriya silahlarına malik zirehli gəmi (drednout).

“…Xariciyyə vəzirinin…”: o dövrdə Yunanıstanın Xarici İşlər naziri Aleksandros Diomidis olmuşdur.

“…imperator Vilhelm…”: Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

Qəzetələrdən

səh. 173. “A. Axmetelaşvili”: “Svimon Axmetelaşvili” olmalıdır.

Bakı xəbərləri

səh. 175. “Neftçilər syezdi”: Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

Bazar, 12 yanvar 1919-cu il, nömrə 85

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 9 rəbiülaxir sənə 1337. 12 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

MİLYUKOV ZEHNİYYƏTİ

İstanbuldan qayıtmış arxadaşımız, Türkiyə həyatının son səhifələri haqqındakı təsirlərini anladarkən, söz arasında, əzcümlə [o cümlədən] Milyukovun İstanbula gəlişindən də bir neçə kəlmə danışdı.

Milyukov, İstanbul qəzetələrinə bəyanat vermiş; bəyanında demiş ki:

"Rusiyada, əzcümlə Qafqaziyada vücuda gələn yeni cümhuriyyətlər, bolşeviklərin hərəkətləri nəticəsində məcburiyyət və zərurətlə hasilə gəlmiş hökumətlərdir. Onların başqa cürə rəftar etməyə çarələri də yox idi. Başlarını saxlamalıdırlar. Hələ [nə vaxt] ki, işlər yoluna düşdü, Rusiyada bolşeviklik qurtardı, təbiidir ki, bu hökumətlər yenə Rusiyaya qovuşacaqlar. Nəhayət, olsa-olsa onlara daxili bir muxtariyyət (avtonomi) veriləcəkdir. Bunun şəklini də Rusiya Məclisi-Müəssisanı təyin eyləyəcəkdir."

Dağılmış Rusiyanın təkrar yığılması haqqındakı mülahizəsini öyrəndikdən sonra türk mühərriri rus siyasisinin Türkiyə haqqında baxışını öyrənmək istəmişdir. Bu xüsusda Milyukov nə desə yaxşıdır? Milyukov demişdir ki:

"Türkiyənin səadəti, xalis bir türk hökuməti əmələ gətirməkdədir. Ərəbistan, Ermənistan və sair türk olmayan yerləri cəbrən [zorla] əlində saxlayıb da bu qədər müxtəlif millətlərin ayrı-ayrı arzu və hərəkətləri içində boğulub qalmaqdansa, Türkiyəyə yekparə milli bir hökumət olmaq daha əsləhdir [yaxşıdır]. Bundan türk milləti fayda görər. Türk səltənətinin bəqası [daimiliyi] da bu əsas üzərinə quruludur."

Milyukovun türk səltənəti və türk millətinin faydası haqqında söylədiyi bu mütaliə, bizim də tamamilə şərik olduğumuz bir məsələdir. Bu, bu gün bütün cahani-bəşəriyyət üzərinə hakim olan bir fikirdir. Bu fikir, Milyukovun vətəni olan Rusiyada, bəyənmədiyi bolşeviklər tərəfindən bütün dünya hüzurunda bəşəriyyətin müqəddəs bir məqsədi kimi elan edildi. Gərçi elan olunduqdan sonra bolşeviklərin qanlı çizmələri [çəkmələri] altında da paymal oldu [tapdalandı]. Bolşeviklərin saflığını saxlaya bilmədikləri bu müqəddəs şüarı Amerika demokratiyasının ruhiyyatına tərcüman olan böyük rəisi-cümhur [prezident] Vilson Dünya müharibəsinin insanlıq aləminə qazandıracağı ilahi düsturların başlıcası olmaq

üzrə hürriyyət və salaha [asayişə] təşnə olan [susayan] millətlərə bildirdi, bəşəriyyət[in] üzünü güldürdü.

Bundan sonra Rusiyada, Türkiyədə, Avstriyada, qismən də Almaniyada cabbar [despot, müstəbid] və hakim olmaq istəyən bir məslək yerinə, istiqlal davası ilə ortaya bir çox millətlər çıxdı. İnqilab məşiməsindən [bətnindən] doğmuş olan yeniyetmə millətlər, səslərini Hərbi-ümumi [Dünya müharibəsi] əsnasında, cahangir [imperialist] dövlətlərin toqquşması zamanında ayaq altında əzilən kiçik millətlərin səslərinə verdilər.

Hərb dəhşətləri altında məhv olan insanlara sülh bəşarəti [muştuluğu], cahangirlik altında paymal olan millətlərə istiqlal müjdəsi, istibdad çəngalında [caynağında] can çəkişən zəhmətkeşlərə hürriyyət nəvidi [vədəsi] verən İngiltərə, Fransa, Amerika və müttəfiqlərinin camaatları dəxi müxtəlif cinslərdən, millətlərdən; verilən bəşarət, müjdə və o nəvidlərə müstəhəq [layiq] təbəqə və cəmiyyətlərdən ibarətdirlər.

Verilən vədlərin vəfa və səfa ilə ifası onların kəndilərindən ötrü də mənasız deyildir.

Zənn edirmisiniz ki, Böyük Britaniya məhkum etdiyi düşmən məmləkətlərdəki əhalinin hüquqi-milliyyəsini təmin eyləsin də, bu müzəffəriyyətin hüsulunda [əmələ gəlməsində] kəndisi ilə silah arxadaşlığı edən hindlinin ehtiyacını nəzərə almasın? Yaxud irland homrulu nəticəsiz qalsın?.. Qətiyyən deyil.

Hərbi-ümumi bir şeyi isbat etdi. Bunu hər şeydən ziyadə isbat edən İngiltərə, Amerika, Fransa ittifaqı isbat etmiş oldu: Bir millətdən təşəkkül edən dövlətlər, yaxud milləyyətləri təzyiqlə deyil, ülfətlə birləşdirmiş olan dövlətlər müzəffər çıxdılar. Müqabilə [müqavimət] qüvvətləri çox oldu. Ağır zərbələrə dayandılar. Hətta bu gün məğlub kimi görülən Almaniya belə bu xüsusda bir istisna təşkil etməmişdir.

Kimsədən ötrü gizlin deyildir ki, bu Hərbi-ümumi əsnasında ən çox sarsılan, ən çox daxili təşvişlərə tutulan və axırda bəxyələnmiş [bir-birinə tikilmiş, yamanmış] olduğu parçalara dağılan hökumətlər – Rusiya, Avstriya və Türkiyə hökumətləri olmuşdur. Çünki bu üç hökumət dünyada mövcud müxtəlif millətlərdən ibarət olan dövlətlərin ən məxlutu [qarışığı], ən azarlıları idi. Bunların azarı milli dövlət olmamaqdan, ayrı-ayrı meylləri, mənfəətləri təbii bir surətdə deyil, zor və güclə bir məqsədə çevirtdirməkdən ibarətdi.

Türkiyənin nicatı Osmanlı imperatorluğu deyil, türk hökuməti olmaqdadır. Amənna [inandıq, doğrudur]. Buna Milyukov deyil, bütün türkçülər, milliyyətin ən qüvvətli birlik camiəsini xalqımızın “dili dilimdən, dini dinimdən” dediyi camiəsində görən müasir müsəlmanlar dəxi etiqad edirlər. Fəqət əcəba, bu düstur neyçün yalnız Türkiyəyə münhəsir [aid] olsun?! Neyçün Rusiyanın səadəti tamamilə rus kütləsindən mütəşəkkil milli bir dövlət şəklinə girməkdə olmasın?! Neyçün dini türkün dinindən, tarixi türklə birlikdə islam yolunda cihad etməkdən ibarət ola gələn və əsrlərdən bəri türk sultanını xəlifəyi-ruyi-zəmin [yer üzünün xəlifəsi] deyə tələqqi [qəbul] edən ərəbin Türkiyədən ayrılıb da bir Ərəbistan vücuda gətirməsi Türkiyə üçün

bir səadət, bir yüngüllük ədd [hesab] edilsin də, məsələn, Gürcüstan, Ermənistan, daha ziyadə tamamilə başqa bir dil, özgə bir din, adat və ənənata [adət-ənənələrə] malik olan Azərbaycan və Türküstan kimi vilayətlərin istiqlalı təsəvvür olunmasın?!...

Bu bir zehniyyətdir.

Zehniyyət demək, insanın beynində yer tutmuş bəzi sabit fikirlərdir ki, onu oradan çıxarmaq çətin bir işdir. Bu xəstə zehniyyət yalnız bu gün müsafir kimi bulunduğu İstanbula bir fateh və bir sahib kimi girmək azarı ilə xəstə olan Milyukovun qafasına məxsus deyil, kamalitəəssüflə görürüz ki, bütün rus partiyalarında vardır.

Yalnız Milyukovun şagirdləri olan "Yedinaya Rossiya" qəzetəçiləri deyil, biz görürüz ki, rus partiyalarından heç biri, ən soldan tutub ən sağına qədər, bizim haqqi-istiqlalımızı qəbul etmək istəməyirlər. Biz görürüz onlar "xilaskar" və "naci" ["nicat verən"] deyə buraya gətirdikləri və gəldikləri günə "xilas günü" dedikləri ingilisləri, Azərbaycan istiqlalını tanımaya mail görüncə nə intriqalar çevirməyə, nə böhtanlar söyləməyə başladılar! Onlar hətta o dərəcəyə gəlir ki, adəta Azərbaycan türklərinin neyçün durub da ingilislərlə ədavət eyləmədiklərinə acıqlanırlar.

Bu xüsusda heç bir zaman barışmayan bolşeviklə kadet belə kəndi aralarında ümumi bir dil bulurlar. Menşevik eserlə anlaşır. Əmələ [fəhlə] burjuyla birləşir. Arşın ikiləşir. Tibqi [eynilə] Milyukovun arşını kimi. "Vahid Rusiya" denilir. Bu, bütün demokratiyanın səsidir, deyə iddia olunur.

"Azərbaycan", denilir, bu, "Müsavat"ın intriqası, xan, bəy və ağaların kələyidir, sayılır.

"Azərbaycan istiqlalını bütün Azərbaycan sosialistləri də müdafiə edir", denilir. Buna qarşı, "Onlar müsavatçı sosialistdir", deyirlər. Fəqət unudurlar ki, bu məntiqə [görə] kəndiləri də "kadet"çi sosialistlərdir.

Bu bir zehniyyətdir, fəqət xəstə zehniyyətdir. Bu zehniyyətə bilxassə hökumət eyləməyə, hakim olmağa öyrənmiş olan millətlərin firqələri tutulmuşdur. Tutulmaları bir dərəcəyə qədər təbiidir də. Milyukovun və milyukovçu sosialistlərin düçar olduqları xəstəliyə mən bəzi Türkiyə firqələrinin də giriftar olduqlarını görmüşdüm.

Fəqət bu xəstəlik, firqə partizanlığı edən bəzi politika adamlarında olsa da, əmin olmalıdır ki, məsələyə daha saf və daha aydın nəzərlə baxan və hadisələri sağlam bir hisslə duyan xalq, avamfrib [demaqoq] və zəhərli siyasətlərlə xarab edilməmiş olan camaat, hər zaman doğrunu sezər. Bir kərə bu doğrunu sezdimi, həqiqi rəhbərlərini görər, həqiqət yolunu tapar.

Ümid edəlim ki, tarixin bir mislini daha qeyd edəmmədiyi Cahan müharibəsinin verdigi dərslər nəticəsində müqəddərati-aləmə [dünyanın taleyinə] icrayi-təsir etmək vəzifəsilə vəzifədar olan böyük millətlərin böyük demokratiyası [xalqı] bu böyük həqiqəti sezəcək dərəcədə həssas olsun. Bu olarsa, o zaman arşınlar birləşər, Türkiyə üçün istənilən Rusiya üçün də istənilər. "Demokratiya" denildiği zaman mənası dəyişilib də "rus milləti" anlaşılmaz. "Azərbaycan milləti"ni dəxi bəy, xan, deyə təfsir edəmməzlər!

M. Ə. Rəsulzadə

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

(Keçən nömrədən mabəd)

İrəvan quberniyası müsəlmanları haqqında

İrəvan quberniyası müsəlmanlarının nümayəndələri tərəfindən verilmiş ərzihal oxunduqdan sonra məbus Vinoqradov söz alır.

Vinoqradov - Qardaş müharibəsi hələ tamamilə qurtarmamış yenə qardaş qanı axıdılır. Əhalinin bir qismi digər qismini öz xarabazarından qovur. Biz ruslar böylə hərəkətləri, böylə tədhiş [terror] və təcavüzləri protesto edərək hər dövlətin xətti-hüdudunu [sərhədini] təyin etmək ixtiyarına malik olan Ümumcahan Konfransının qərarınadək hər kəsin öz yerində qalmasını tələb ediriz.

Rəsulzadə M. Əmin bəy - Burada yenə imdad naləsi eşidiriz. Məlumdur ki, millətlərin haqq və hüququ gözlənilsin gərək. Hər kəs nerədə yaşayırsa, o yerə malik olmaq haqqına haizdir [sahibdir]. Təbii, millətdaş, dindaş və irqdaşımız olan İrəvan quberniyası müsəlmanlarının, bunca müsibətə, millət mənafeyi naminə təhəmmül edən [qatlaşan] qardaşlarımızın çəkdikləri bəlalara biz biganə qalammayız. Onlar ümummillət mənafeyi yolunda bunca əza və cəfalar çəkirlər. Binaileyh [buna görə], millət dəxi onları müdafiə etməlidir. Azərbaycan Hökuməti onlara feilən müavinət [kömək] göstərə bilməz; lakin mənəvi, siyasi və bəlkə qismən də maddi yardım edə bilər. Binaileyh, Azərbaycan Hökuməti, məsələnin Sülh Konfransı tərəfindən həllinə və Qafqaziya millətləri bir yerə yığışıb ixtilafı bitirməsinədək millətdaşımız və irqdaşımızın düçar olduqları əələmlərini yüngülləşdirməlidir. Yalnız ora deyil, Lənkəran müsəlmanları da bu haldadırlar. Etiqad ediriz ki, bu xüsusda hökumət ciddi tədabir [tədbirlər] görmüşdür. Görmüşsə, şimdi bizə məlumat versin. Məlumat verməyə hazır deyilsə, bu yaxın iclaslardan birisində bəyanat verər. Azərbaycan Parlamanı bu dərəcə zülüm və qədrlərə [rəhmsizliyə] düçar olan qardaşlarımıza müavinətini diriğ etməz [köməyini əsirgəməz].

Sultanməcid [Qənizadə] - İrəvan quberniyası müsəlmanlarının faciəsi məlum oldu. Rusların nümayəndəsi də burada protesto etdilər. Əlbəttə, onlar böylə faciələrin oynanmasına razı olammazlar. Ancaq bu bizim yaramızı sağaltmaz. Bu gün biz yalnız protesto və nifrətlər izharı ilə qənaət edə bilmərik. Zira bununla müsəlman qardaş və bacılarımızın dərdinə əlac olmaz, bundan müsibətzədələrə təsəlli olmaz. Bu saat onların ismətləri, namusları paymal olur [tapdalanır]. Quru protestodan bir şey çıxmaz. Qonşularımız Gürcüstan və Ermənistanda külli miqdarda islam əhalisi olub, öz hökumətlərinə tabedirlər. Gürcüstan və Ermənistanda müsəlman olduğu kimi, bizim də məmləkətimizdə əhalinin həpsi türk-islam olmayıb, bir çox erməni, gürcü, rus və sairə var. Biz onların həpsiylə ədalətlə rəftar ediriz. Qonşu hökumətlər də böylə etməlidirlər. Ermənilər bunu anlamayırsalar, biz onlara icrayi-təsir edə bilərik. Ermənistandakı müsəlmanlar haqqında rəva görülən zülümlər barəsindəki təkliflərimizi qanmayırlarsa, güclə

qandıra biləriz. Güclə icrayi-təsir etmək bu deyil ki, onlar kimi atəş açaq, qan tökək, xeyr! Bizə atəş saçmaq, qan tökmək lazım deyildir. Şimdi İngiltərə, Fransa və Amerika nümayəndələri yaxınımızdadırlar. Bunlar millətlər hüququnun və əmnasayişin təminini dəröhdə etmişlərdir. Əvvəl onlara müraciətən təklif, rica və hətta tələb edəlim ki, bilatəxir [dərhal] bu fəcailərə [faciələrə], bu məzalimlərə [zülümlərə] mane olsunlar, qardaşlarımızı bu fəlakətdən qurtarmaq üçün tədbir görsünlər. Əgər onlar tədbir görməzsələr, aşkardır ki, o vaxt biz də öz hüququmuzu nə yol ilə müdafiə edəcəyimizi sonra danışarız. Hərgah biz fəryad etsək, bir tədbir görərlər. Hökumətimizin borcudur bu barədə təşəbbüslər etsin.

[Əliheydər] Qarayev - Biz təklif edərdik hökumətə tapşırılsın ki, gələn iclasadək lazımi tədbirlər görsün və bu xüsusda gələn iclasda məlumat versin.

Əhməd Cövdət - "Müsavat" tərəfindən böylə bir təklif varid olmuşdur [gəlmişdir]:

"İrəvan nümayəndələrinin İrəvan quberniyasında müsəlmanların düçar olduqları məzalim haqqındakı ərzihal və istimdadlarını [yalvarışlarını] dinləyərək Azərbaycan Məclisi-Məbusanı bu xüsusda hökumətin hər növ tədabirə [tədbirlərə] müraciətlə bu müsibətlərin dayandırılması üçün təşəbbüsati-lazimədə bulunması təklifi ilə növbədəki məsələlərin müzakirəsinə keçir."

Təklif səsə qoyularaq ittifaqi-ara [yekdillik] ilə qəbul olunur.

Əfvi-ümumi [amnistiya]

Növbədə siyasi məhbuslar haqqında Parlaman komisyonu tərəfindən tərtib edilmiş əfv-ümumi qanun layihəsidir. Layihə budur:

Qardaşov, [Abdulla bəy] Əfəndizadə, Ağazeynal Tağıyev, Aslan bəy Səfikürdlü və [Səməd ağa] Ağamalov cənablarından təşəkkül edən "Əfvi-ümumi" komisyonu Azərbaycan Məclisi-Məbusanının 7 dekabr 1918 sənəsi qərarına binaən [əsasən] komisyona verilən siyasi "Əfvi-ümumi" qanun layihəsini dekabrın iclaslarında müzakirə edərək, aşağıdakı qərarı aldı:

Azərbaycan Məclisi-Məbusanının açılması münasibətilə siyasi əfvi-ümumi elan olunur. Buna binaən Məclisi-Məbusan qərar verir ki:

I. a) Cəza qanunnaməsinin 129-133 maddələri (Məcəlleyi-qəvanin [qanunlar məcəlləsi], 15-ci cild, 1909 sənəsi nəşri);

b) Cinayət və tədibi-cəzası [cəzasının verilməsi] qərarnaməsinin 262-272, 2731, 275, 276, 280, 281, 2811, 2861 maddəsinin 2-ci qeydi, 318-328, 987, 9871, 1358, 13581, 13582, 13593, 135910 maddələri (Məcəlleyi-qəvanin, 15-ci cild, 1885 sənəsi nəşri və müəxirəsi [sonrakılar]);

c) Sülh hakimlərinin tətbiq edəcəkləri cəzalar haqqındakı nizamnamənin (xüsusi ev sahibinə dəyən xəsarətin tədiyəsi [ödənməsi] istisna olmaq üzrə) 292, 33, 394, 395, 481, 485, 512, 513, 514, 572, 578, 58-59, 591, 61-63 (I və II hissələr), 143, 155-168 (Məcəlleyi-qəvanın, cild 15, 1885 və 1914 sənələri nəşri) maddələri mövcibincə [maddələrinə əsasən] vaqe olan əf'allarından [feillərindən] dolayı məhkum olan şəxsləri məsuliyyət və cəzadan və bunun hər növ nəticələrindən

azad etməlidir.

Bu qərarın hökmü şu fəsildə göstərilən əf’alın icrası əsnasında cinayət qanunlarının mən’ [yasaq] eylədiyi digər əf’alın ümumisinə dəxi şamildir.

II. Baxılmamış və yaxud hali-tədqiqdə bulunmuş 1918 sənəsi dekabrın 7-dən əvvəl icra edilmiş birinci fəsildə göstərilən əf’al haqqındakı işlər təvəqqüf edilməli [durdurulmalı] və əbədiyyən unudulmalıdır.

III. Əgər qərarlar verilməmiş, yaxud qanun gücünə girməmiş və yaxud tətbiq edilməmişsə, bu qanunun 1-ci və 2-ci fəsillərində göstərilən tədbirlərin icrası aid olan ədliyyə məhkəmələrinə və sair bilcümlə xüsuslarda müddəiyi-ümumi [prokuror] dairəsinə həvalə olunur.

IV. 1918 sənəsi dekabr 7-sindən əvvəl siyasi və dini amillər üzərinə bu qanunun birinci fəslində bulunmayan digər cinayət qanunlarının mən’ eylədiyi əf’ala mürtəkib olan [qadağan olunan feillərə dəxli olan] şəxslərə aid olan ədliyyə məhkəmələri hüzurunda bu qanunun 1 və 2-ci fəslində olan tədbirlərin kəndlilərinə dəxi təşmil [şamil] edilməsi üçün istidada [müraciətdə] bulunmaq haqqı verilir. Bu istidalar, tərtibat iclaslarında həll olunur. Bu iclaslarda təhriri [yazılı] və şifahi bizzat [şəxsən] və yaxud vəkil vasitəsilə istida edənlər bəyanatda buluna bilərlər. Bu qəbil işlər haqqında verilən ədliyyə məhkəmələrinin qərarları mühakimati-cinaiyyə [cinayət məhkəməsi] nizamnaməsinin 893-899 maddələri mövcibincə şikayət edilə bilər.

V. Cəhəti-mülkiyyə və əsgəriyyənin qərarlarınca ədliyyə məhkəmələri xaricində bu qanun[da] məlhuz olan [nəzərdə tutulan] və öylə də siyasi məznunluğa [şübhəliliyinə] görə 1918 sənəsi dekabrın 7-dən əvvəl vəz olunan [qoyulan] cəzalar ləğv edilir. Bu qərar aid olduğuna görə Daxiliyyə və Hərbiyyə nazirləri tərəfindən icra olunur.

Bəzi məbusların xahişinə görə, Səfi-kürdski həzrətləri əfvi-ümumi qanununun maddələrini şərh edir və qabaqca xəbər verir ki, Hökumət qanunu qəbul edir. Qanun bir səslə qəbul olunur.

Fəhlə məsələsi

Bundan sonra “Müsavat” şöbəsi tərəfindən Məsai [Əmək] nazirinə xitabən böylə bir sorğu verilir:

Azərbaycan Məclisi-Məbusan Rəyasəti-alisinə.

“Müsavat” şöbəsi aşağıdakı sualın Məsai Nəzarətinə verilməsini təklif edir:

Azərbaycan Məsai naziri bəy əfəndi həzrətlərinə!

Məsai naziri yəqin bilirlər ki, Bakı əmələlərinin [fəhlələrinin] halı olduqca müşkül vəziyyətdədir; ki əvvəlcə “Sovet syezd” tərəfindən təsis olunmuş xəstəxanalar indi xarab bir haldadırlar; əmələlər dava-dərman tapa bilmirlər; əmələ mənzilləri hifzüssihhə [gigiyena] nöqteyinəzərindən fəna bir haldadır; zavod komissiyaları ilğa [ləğv] edilmiş, bu üzdən ərzaq paylamaq və sair bu kimi xüsuslarda fəhlələr bir çox təshilatdan [asanlıqdan] məhrum qalmışlardır; “kollektivnı doqovor” [müştərək müqavilə] yoxluğu üzündən əmələnin məvacibini azaltmışlar, verilən gündəlik maaş zamanəmizdəki bahalığa nisbətlə məsarifin [xərclərin] yarısını belə ödəmir. Bundan əlavə, ümumi işsizlik üzündən əmələlər ac qa-

lır, tədricən ölür, min cürə xəstəliklərə düçar olurlar.

Əmələnin maddətən halı böylə pərişan ikən, mənəvi halı da qaranlıqdır. Gecə kursları, məktəblər, xalq yurdları yoxdur. Əmələ mühiti qaranlıq bir aləm təşkil edir. Bu zülmətdən istiqlalımıza, hürriyyətimizə düşmən olanlar istifadə edirlər.

Əcəba, Məsai Nəzarəti əmələnin maddi və mənəvi ehtiyacını rəf eyləmək [aradan qaldırmaq], eyni zamanda da maaşını yoluna qoymaq və məsainin [əməyin] mənafeyini qanunən mühafizə eyləmək üçün nə kimi planlar və tədbirlər düşünməkdədir?

"Müsavat" şöbəsinin rəisi:
Məhəmməd Əmin Rəsulzadə.

(axırı var)

TELEQRAF XƏBƏRLƏRİ

Avstriyada monarxistlər

Vyanadan Kopenhaqa teleqrafla xəbər verirlər ki, orada monarxistlərin mitinqi vaqe olmuşdur. Bu mitinqdə bir para Avstriya generalları, sabiq imperatorun qardaşı hersoq Maksı Karlın vəliəhdi intixab etmişlərdir [seçmişlər].

Almaniyada

Tiflisdən xəbər verirlər ki, Almaniya mətbuatının verdiyi məlumata görə, Berlində vaqe olan nümayişlər əsnasında "Forverts" qəzetəsi idarəsi təcavüzkaranə bir surətdə zəbt edilmişdir. Bundan əlavə, burjuaznı qəzetə idarələri və "Volf" teleqraf acentəliyi dəxi zəbt edilmişlərdir. Hökumət bu işi özü üçün düşmənanə bir hərəkət ədd [hesab] etdiyindən, bu cür tədhişlər [terrorlar] əleyhinə nümayişlər yapmağı öz tərəfdarlarına xəbər vermişdir. Sabahı günü böyük nümayişlər yapılmışdır. Kansler yaşadığı bina qarşısına böyük dəstə əhali cəm olub "spartakların" xudsəranə [özbaşına] hərəkətləri əleyhinə öz narazılıqlarını izhar etmişlərdir. Hökumət tərəfdarı olan nümayişçilərin silahı əllərindən alınmışdır. Buna baxmayaraq Potsdam meydanında atışma başlanıb, tələfat dəxi olmuşdur. "Spartak" əsgərləri nümayəndələri ağ bayraq əllərində hökumət əsgərləri qarşısına gəlib hökumət dəftərxanasının mühasirə edilməsinə görə təslim olmalarını tələb etmişlərdir. Hökumət əsgərləri bu xəbəri öz komandanlarına xəbər vermək istədikdə "Spartak" əsgərləri xainanə bir surətdə hökumət əsgərlərini atəşə tutub böyük tələfata bais olmuşlardır. Hökumət əsgərləri komandanı əhvalatı böylə gördükdə müdafiəyə məcbur olduğu üçün pulemyot atəşi başlanması əmrini vermişdir. Pulemyot atəşindən sonra küçələr "Spartak" əsgərlərindən xali edilmişdir.

Rodzyankonun planları

Novorossiyskdən alınan məlumata görə, Dördüncü padişahlıq Duma sədri Rodzyanko, Dövlət Duması üzvlərindən, zemstvo və sabiq demokratlar müşavirəsi nümayəndələrindən ibarət təzə bir demokratlar müşavirəsi dəvət edilməsi məsələsini qaldırmışdır. Rodzyankonun bu fikri Kuban məhafili-siyasiyyəsində [siyasi dairələrində], həmçinin general De-

nikin tərəfindən hüsn-təvəccöhlə qarşılanmışdır. Rodzyankounun bu fikrinin vücuda gələcəyinə inanırlar.

TÜRKİYƏDƏ

Türkiyə Məclisi-Məbusanında “İttihad və Tərəqqi” fraksiyasının hökumətə xitabən siyasət kursunu dəyişmək barəsindəki istizahına [sorğusuna] cavabən Maarif nazirinin “Türkiyə məğlubdur, Müttəfiqlər nə istəsələr yaparlar” deyə cavab verməsindən acınaraq İstanbul xanımları, əzcümlə [o cümlədən] Kadıköy xanımları bəzi qəzetələrə atidəki [aşağıdakı] teleqrafnaməni çəkmişlərdir:

“Tarixi-cahana [dünya tarixinə] Çanaqqala müdafiəsi kimi bir şah əsər ehda [hədiyyə] edən qəhrəmanların ana, zövcə, həmşirə və qızları olan bizlər, Çanaqqalanın müqəddəs torpaqları altında yatan şəhidlərimizin ruhi-müəzzəzləri [əziz ruhları] qarşısında türk qadınlığına və aləmi-mədəniyyətə xitab ediriz. Limanımızda görülən ahənin [dəmir] qalaları məğlub edən və qaraya çıxarılan yarım milyon əsgərini dənizə tökən millətimizi məğlubədd [hesab] etməyiriz. Dün Məclisi-Məbusan kürsüsündən hökumət naminə söz söyləyən Maarif nazirinin “məğlubuz, istədiklərini yaparlar” sözlərini şiddətlə protesto ediriz. Peçələrimizi [niqablarımız] yırtan və sonra hürriyyəticahan [dünyanın azadlığı] naminə deyə hərb etdiklərini elan edənlərə təəssüf ediriz. Hüquqi-milliyyə və ismətimizi mühafizə edəcək hökumət və erkək yoxsa, biz varız.”

CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

Bolşeviklərin bəyanatı

Yanvarın 6-da Moskvadan xəbər verirlər ki, hamı Müttəfiq dövlət sosialistləri Rusiyaya əsgər daxil edilməsinə ziddirlər. Fransada nəşr olan rəsmi hökumət qəzetələri əfkari-ammәni [ictimaiyyəti] Müttəfiqlərin Şimali Rusiyadan əsgərlərini[n] geri dəvət edilməsinə hazırlayırlar. Pişon bəyan edir ki, Müttəfiqlər Rusiya Şura Hökuməti əleyhinə hərəkati-hərbiyyə qəsdində olmayıb, Rusiyada bolşeviklər əleyhinə iş görən hökumətlərə müavinət göstərməklə iktifa [kifayət] edəcəklərdir. Müttəfiqlərin bu qərarı Rusiyadan Müttəfiq qoşunlarının bilkülliyə [tamamən] geri çağırılmasını tələb edən sosialistləri məmnun etməmişdir.

* İrticapərəstlər Rusiya işlərinə müdaxilə etməmək məsələsindən narazı olub, bu məsələdə Müttəfiqlər arasına küdurət [ədavət] düşəcəyini zənn edirlər.

“Exo de Pari” qəzetəsi yazır ki, sülh məsələsində Müttəfiqlər arasında birlik yoxdur.

“Forverts” qəzetəsinin xəbərinə görə, Vilson demişdir ki, Amerika En nehrinin sol tərəfinin Müttəfiqlərə ilhaq edilməsinə [birləşdirilməsinə] müsaidə etməyəcəkdir.

İtaliya qəzetələri yazırlar ki, Avstriyanı İtaliya qoşunları məğlub etmişlərdir. Ona görə də Xorvatiya və Dalmaçiya, İtaliyaya keçməlidir. İtaliya imperialistləri deyirlər, hərgah Müttəfiqlər Fiume, Triest və Dalmaçiyanı italyanlara verməsələr, Sülh Konfransını əmri-vaqe [fakt] qar-

şısında qoymalıdır. Yəni, İtaliya zorla bu yerləri əlinə keçirməlidir. Dalmaçiyaya İtaliya qoşunları çıxarılmışdır.

* Parisdən bildirilir: Klemanso Milyukovu hüzuruna qəbul etməmişdir. Fransa Hökuməti Milyukovu Fransadan təbid etməyə [uzaqlaşdırmağa] qərar vermişdir.

"Royter" ajansından

Nyu-Yorkdan verilən teleqramda sabiq Amerika rəisi-cümhuru Ruzveltin vəfat etdiyi işar [qeyd] olunur. Ruzvelt təzə ilin ibtidasından [əvvəlindən] xəstə yatırmış.

* Vilson və ailəsi Milana varid olmuşlardır [getmişlər]. Vilson papanı ziyarət eyləmişdir. Sülh Konqresində papanın iştirak etməyəcəyi anlaşılmışdır.

Tsaritsının işğalı

Mövsuq [etibarlı] mənbədən verilən xəbərlərə nəzərən [görə], Tsaritsin şəhəri Don kazakları tərəfindən işğal edilmişdir.

Qara dənizdə

Qara dənizə gəlmiş olan ingilis flotu, bütün Gürcüstan iskələlərinə [limanlarına] nəzarət etmişdir. Paroxodların bir hissəsi Batuma getmişdir. Dekabrın 30-da Batum [və] Potiyə 4 ingilis paroxodu gəlmişdir.

* Parisdə Sülh Konfransında böyük dövlətlərin 3-dən 5-ə dək nümayəndələri olacaqdır. Xırda müttəfiq dövlətlərin isə iki vəkili, təzə təsis edilmiş dövlətlərin bir vəkili olacaqdır.

* Yanvarın 5-də Tiflisdə yenidən ermənilər təftiş və həbs edirlər. Ermənilərdən 5 min nəfər həbs edilmişsə də, gürcü təbəəsi olan ermənilər azad edilmişlərdir.

* Erməni Parlamanı üzvlərindən Ter-Xaçaturyan, Xondkaryan, Xaçaturyan və Mamikonyan Tiflisə varid olmuşlardır [getmişlər].

Bolşeviklərin məğlubiyyəti

Omskdan Rusiya teleqraf ajansına xəbər verilir ki, Perm cəbhəsində bizim qoşunların müvəffəqiyyəti artır. Bizim qoşunlar Kama çayından keçib düşmənləri təqib edirlər. Biz bolşeviklərdən 37 min əsir almışıq. Bolşeviklərdən 10 alay qoşun məhv edilmişdir.

* Londonda Almaniyadan alınmış son qəzetələr göstərir ki, ziyalı nemes ünsürləri Almaniyanın məğlub olduğuna şübhə etməyirlər. Bu münasibətlə "Frans zeytunq" qəzetində xarici siyasət barəsində professor Xetiçin yazdığı məqaləsi calibi-diqqətdir [diqqət çəkicidir]. Mümaileyh [adı çəkilən şəxs] deyir ki, siyasi mərkəz tədricən Vaşinqtondan Londona keçir. Professor ittifaqın möhkəmləşməsi məsələsinə keçərək deyir ki, çox mümkündür Yaponiya ilə Amerika arasında Xita [Çin] məsələsindən ötrü ixtilaf çıxa. Ona görə də Yaponiya İngiltərənin müavinətinə məzhər [köməyinə nail] olacaq. Yaponiya da İngiltərə ilə əlaqəsini yaxşılaşdırmalıdır. Digər tərəfdən, İngiltərənin müavinəti Amerika üçün də böyük rol oynayacaq. Zira Amerika ilə Yaponiya bir-birləri ilə rəqibdirlər.

Xetiç zənn edir ki, Amerikanın maddi və mənəvi cəhətdən müavinətinə baxmayaraq, Mərkəzi dövlətlərin məğlub edilməsinə İngiltərənin ciddiyyəti səbəb olmuşdur. Almaniya flotu, Almaniya ticarəti və Almaniyanın müstəmləkə iqtidarı indi xələldar edilmişdir. İrlanda, Hindistan və Cənubi Amerikada millətlərin müqəddəratı özlərinə tapşırılmalıdır deyə qəbul ediləcək. Vilson tələbatına baxmayaraq, İngiltərənin cahan iqtidarı həmişəkindən möhkəmdir. İngiltərə Şərqi Afrikada, Ərəbistanda və Beynənnehreyndə qalib gəlmişdir. İngiltərənin Hindistan və Misir ilə olan əlaqəsi Bəhri-səfidin [Aralıq dənizinin] şərq hissəsini İngiltərəyə müsaid [sərbəst] buraxır. Deməli, İngiltərə Dardanel boğazına, Qara dənizə çıxa biləcək, Rusiya və Qafqaziyaya yaxınlaşacaqdır. İran ilə olan əlaqəsi, Bəhri-səfidin hissəsində olan halı möhkəm qalır. Belçikada olan qələbəsi sayəsində İngiltərənin kanalda dəxi hökmranlığı olacaqdır. Kil kanalının köməkliyi ilə Daniya [Danimarka] və Norveçyada [Norveçdə] olan nüfuzu ilə Baltik dənizi ilə rabitə peyda edib, böyləliklə Cənubi Rusiyada da özünə nüfuz qazanacaqdır.

Stokholm - Petroqraddan gəlmiş olan Danimarka komissiya üzvlərinin rəvayətinə görə, Petroqradın halı gündən-günə fənalaşır. Müttəfiqlərin fəaliyyətinə müqabil, bolşeviklər Petroqradı təxliyə [etmək] və Qırmızı qoşun nəfəratını [əsgərlərini] 3 milyonadək artırmaq istəyirlər.

Lizbon [Lissabon] - Bəhriyyə vəziri amiral [admiral] Kantu, Portəgiz rəisicümhurluğuna intixab edilmişdir [seçilmişdir].

Paris - Mütarikənin [atəşkəsin] uzadılması münasibətilə Tverdə Müttəfiqlərlə Almaniya arasında bağlanmış əhdnaməyə görə, Almaniya xaricdə olan nəqdiyyəsi [pulları] və qiymətli kağızlarından Müttəfiqlərin rizası ilə istifadə edə biləcəkdir.

* İngiltərə kralı şərifi-Məkkə [Məkkə şərifi] Feyzullahı hüzuruna qəbul edərkən, Şərq cəbhəsində ingilis qoşunlarına müavinət [köməк] etmiş olan ərəblərə səmimi təşəkkürünü izhar eyləmişdir.

Amsterdam - Sülh şərtnaməsi mövcibincə [şərtnaməsinə əsasən], Müttəfiqlərin tələb etdiyi 3 milyon frank qızıl pulun bir hissəsini Almaniya ədaya [ödəməyə] başlamışdır. Bu pullar sülh əqdinədək [bağlananadək] xüsusi bir yerdə saxlanacaqdır.

Zəhərli qaz

Don ordusu komandanı general Denisov teleqrafla okrujnoy atamana [hərbi dairə atamanına] təklif eyləyir Taqanroq əhalisinə elan edilsin ki, o Taqanroq dairəsinə ximiklər [kimyaçılar] dəstəsi göndərir. Əhali ricali-hökumətə [hökumət adamlarına] zidd gedəcəyi təqdirdə, asilərin əleyhinə zəhərli qaz istemal [istifadə] ediləcəkdir və heç kimə rəhm edilməyəcəkdir.

İngilis komandanlığının Batum əhalisinə müraciəti

Türkiyə ilə bağlanan mütarikə [atəşkəs] şərtnaməsi üzərinə ingilis qoşunları mənim komandanlığım təhtində [altında] Batum şəhərini işğal etdilər və bu işğal

şəhərinizdə asudəliyi bərpa edəcəyimizdən nəşət eyləmişdir [irəli gəlmişdir]. İngilis hökuməti həmişəlik burasını işğal etmək fikrində deyildir. Nə qədər ki, siz bizim əleyhimizə iqdamatda [təşəbbüsdə] bulunmayırsınız və nə qədər ki, bizə qarşı ədavət bəsləməyirsiniz, ingilis qoşunları sizin azadəliyinizə toxunmayacaq və həyatınıza müdaxilə etməyəcəkdir. Fəqət, bizə qarşı iqdamatda bulunsanız, o zaman cəzaya düçar olacaqsınız.

ERMƏNİ-GÜRCÜ DAVASI ƏTRAFINDA

Yanvarın 3-də Gegeçkori Gürcü Parlamanında söylədiyi nitqində demişdir ki, Gürcüstan Hökuməti tərəfindən Ermənistan Hökuməti rəisi naminə böylə bir teleqraf göndərilmişdir:

Hal-hazırda Tiflisdə olan İngiltərə generalı Raykroft və Fransa heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] başında olan polkovnik Şardini, Gürcüstan Hökumət rəisi Jordanya ilə bir yerdə vaqe olan konfransında Camalyan olduğu halda tezliklə hərəkati-hərbiyyənin dayandırılmasını qərara almışlardır. Camalyanın protestosuna baxmayaraq İngiltərə generalı, Fransa polkovniki və Gürcüstan Hökumət rəisi Jordanya qət etdilər ki, İngiltərə, Fransa, gürcü və erməni nümayəndələrindən ibarət müştərək komissiya bu aşağıda yazılan şəraiti [şərtləri] həyata tətbiq eyləməkdən ötrü tezliklə cəbhəyə getsin. Bu komissiya Borçalı uyezdinin şimal hissəsində gürcü və cənub tərəfində duracaq erməni qarnizonları ilə həmçinin Axıska uyezdində qalacaq gürcü əsgərlərinin miqdarını təyin etməlidir. Qarnizonların miqdarı az olmalıdır.

Gürcü əsgərləri hal-hazırda dayandıqları xətdə qalmalıdırlar. Erməni əsgərləri isə türklər dayandığı Cəlaloğlu xəttinə çəkilməlidirlər. İngiltərə qaraqol əsgərləri erməni-gürcü əsgərləri arasında olan dəmiryol xəttində olacaqlardır. Buranın inzibat məmurları müştərək olmalıdır. Axıska uyezdindəki Gürcüstan məmurları Müttəfiqlərin kontrol komissiyası altında olacaqdır. Bu komissiyaya məhəlli [yerli] müsəlman və erməni əhalisindən də daxil olacaqdır. Hamı [bütün] sərhəd məsələlərinin böyük dövlətlər tərəfindən həll edilməsi üçün bu yaxınlarda gürcü və erməni nümayəndələri Avropaya göndəriləcəklərdir.

Buna cavab olaraq dekabrın 30-da bu məzmunda teleqram alınmışdır:

"Simsiz teleqraf;

Tiflis, ingilis heyətinə, Şurayi-vüzəra rəisinə [Baş nazirə], Hərbi və Xarici vəzirlərə.

Erməni Hökuməti, general Raykroftun qətinə görə, müharibənin tərk edilməsinə və qoşunların geri çəkilməsinə razıdır. Müharib [savaşan] tərəflər nümayəndələrinin iştirakı ilə əməliyyati-hərbiyyə 31 dekabr 24 saatda dayandırılmalıdır. Erməni qoşunlarının təzə xəttə çəkilmək məsələsi Tiflisdə həll edilməlidir. Erməni Hökumətincə general Raykroftun sülh maddələrinin bəzisi aydın deyildir, amma bununla bərabər, əsasən general tərəfindən təklif edilən sülh maddələri qəbul edilmişdir. Ermənistan Hökuməti bu maddələr barəsində təfsilli məlumat almaq istəyir. Ona görə də bir

mülki və bir hərbi nümayəndə vəkil edilmiş və bunlar mənimlə bərabər Tiflisə gəlirlər və Müttəfiqlərlə bu məsələlər barəsində qəti surətdə danışıb qurtarmalıyıq. Mən bu məsələləri təhlil edib erməni hökuməti ilə mən həmrəyəm. Sülh maddələri aydınlaşmalıdır. Erməni Hökuməti sülhculuğu [sülhpərvərliyi] barəsində səmimiyyət göstərdi.

Müttəfiq dövlətlərin komissiyası Qarakilsə komitə sədri Duqlas Vitseyn”

MƏTBUAT

Sosial-demokrat menşevik “Hümmət” firqəsi tərəfindən şəhərimizdə “Al bayraq” adı ilə bir qəzetə nəşrinə şüru edilmişdir [başlanmışdır]. Qəzetə baş məqaləsində Azərbaycanın elan və davamına şərik olduğu kimi, yeni Azərbaycan tikməyə də şərik olmaq istədiyi halda, sabiq hökumətin fəaliyyətindən və təhəmmülsüzlüyündən [dözümsüzlüyündən] şikayət edərək, şimdi artıq yeni hökumət dövründə Məclisi-Məbusan kürsüsündən açıq, azad danışmaq və qəzetə səhifələrində azad yazmağa imkan bulduğunu qeydlə, məqaləsini bu sözlərlə bitirir:

“*«Al bayrağımızı» genə açırıq. Yolumuz genə əvvəlki yoldur. Fikrimiz əvvəlki fikirdir. Vətənimizin, zəhmətkeş camaatımızın səadəti, onların haqlarının müdafiəsidir.*

Ümidimiz var ki, açdığımız «Al bayrağın» altına haqlarını müdafiə etdiyimiz Azərbaycan əmələ [fəhlə] və kəndliləri toplanalar.

İstiqlaliyyətimizi elan etməklə boynumuza düşən ağır və məsuliyyətli işlərdə – yeni hökumət qurmaq, yeni qanun və qayda qoymaq, yeni dirilik tikməkdə bizə kömək etsinlər. Ancaq təşkilatla, ancaq bir-birimizə yardım etməklə bu ağır işləri yeridə biləcəyiz.”

———

“Sosialistlər və Azərbaycan istiqlaliyyəti” [adlı] ikinci məqaləsində yenə həman qəzetə sosialistlərin proqram əsaslarından birisi də bütün millətlərin hürriyyəti və hər millətin öz müqəddəratını (diriliyini) təyin etmək haqqına malik olması olduğunu qeyd və Rusiya inqilabı nəticəsində bir tərəfdən bolşevik, digər tərəfdən də dargöz millətçilərin fəaliyyəti sayəsində çıxan fəlakətləri bəyanla deyir ki:

“Bütün bu fəlakətlər içərisində inqilab nemətləri bir-birinin dalısınca əldən gedərkən, Zaqafqaziya demokratiyası, xüsusən bizim demokratiyamız bir böyük neməti əldə saxlaya bildilər ki, o da Azərbaycanın istiqlaliyyətidir. Öz-özümüzə hakim olmaq, əfəndi [ağa] olmaqdır...

Azərbaycan istiqlalı da sosialistlərin ümumi prinsiplərindən doğma bir keyfiyyətdir. Buna görə biz öz proqramımıza sadiq qalaraq, Azərbaycan istiqlalını elan və onu var qüvvəmizlə müdafiə etdik...

Biz isək bu gün bir tərəfdən Azərbaycan istiqlalının qəviləşməsi [güclənməsi], möhkəmləşməsi yolunda çalışmaqla, o biri tərəfdən isə bu istiqlalımızı öz sinif intiresləri yolunda işlətmək və öz ağa-

lıqlarını və istibdadını bizim kəndli və əmələnin boynuna taxmaq istəyən xozeyinlərlə mübarizə etməkdə olacağız.

Azərbaycan kəndlisi və əmələsi tam mənası ilə müstəqil olmalı, həm xaricilərin boyunduruğundan, həm daxildəki xozeyinlərin əzasından [zülmündən] qurtulmalıdır. Daxildən də, xaricdən də azadlıq."

Əziz Azərbaycanımızın həmişəkindən ziyadə şimdi və hər şeydən ziyadə bütün qüvvələrimizin ağız birliyinə möhtac olduğu bir zamanda millətimiz arasındakı ittihadi-əfkar [fikir birliyi] və ağız birliyinə ürəkdən şad olaraq, yeni rəfiqimizi təbrik, davam və bəqasını [əbədi olmasını] arzu ediriz.

BAKI XƏBƏRLƏRİ

Dağıstandan buğda gətirmək barəsində

Dağıstan Hökuməti ilə bizim hökumətin arasında bir ticarət müqavilənaməsi bağlanıbdır. Bu müqavilənamə üzrə, Dağıstan hökuməti 4 ayın müddətində Azərbaycana 50 vaqon (50 min put) buğda təhvil verəcəkdir. Buğdanın qiyməti 60 manatdan hesab olunub, özü də Petrovsk mövqifində [stansiyasında] təhvil veriləsidir. Müqavilənamədə buğdanın torpaqsız, sulufsuz [darısız] və yanmamış olması şəraiti [şərtləri] də zikr edilmişdir. Buğdanın qiyməti Bakı pulları "bon"la veriləcəkdir. Müqaviləni Dağıstan Cümhuriyyəti Hökuməti tərəfindən vəkalətən hökumət nümayəndəsi Kantemirov və Azərbaycan Hökuməti tərəfindən də Ərzaq naziri Lizqar imza etmişlərdir.

Şimali Qafqaziyaya nümayəndə göndərilir

Ərzaq Vəzarətinin [Nazirliyinin] təşəbbüsatı ilə Şimali Qafqaziyada ərzaq və sair ehtiyacati-zəruriyyə almaq üçün Vəzarətin qulluqçusu Levin dünən yola düşmüşdür. Levinə müavinət [kömək] göstərmək üçün Xariciyyə Nəzarəti, müttəfiq Dağıstan Cümhuriyyəti Hökuməti namına [adına] bir xüsusi məktub yazıb Levinə vermişdir.

Kəndlilər üçün bez alan vəkillərin xəyanəti

Kənd camaatı üçün bez almağa vəkil olub gələn nümayəndələrin xəyanətləri, yəni bezi kənd üçün [alıb] şəhərdə birə iki qiymətə satmaqla məşğul olmaları o dərəcəyə çatıb ki, hətta polis müdirinin hökmünə görə xəfiyyə polisəsi xüsusi acentələr təyin edib vəkillərin bez aldıqları zaman onları təqib etməkdə məcbur olmuşlar.

Yaxşı olardı ki, Nəzarət [nazirlik] özü bu işdə bir qədər ciddiyyət göstərib, kənd camaatına bez və ya ki qeyri əşya paylamaq istədikdə, öz qulluqçuları və kontrolları vasitəsilə həman şeyləri kənd camaatına bilavasitə paylayaydı.

Bu iş həmi kəndçilərə mənfəət və həmi də ehtikarçılığa [möhtəkirliyə] mümaniət [maneçilik] vəzifələrini görmüş olardı.

Müsəlman mətbəə əmələlərinin iclası

Srağagün "Heyəti-mütəşəbbisə" [tə-

şəbbüs heyəti] tərəfindən dəvət edilən bütün Bakı mətbəələrində işləyən müsəlman mürəttib, cildçi, çapçılarının iclası vaqe olmuşdur.

İclası “Heyəti-mütəşəbbisə” tərəfindən baş mürəttib Aslan bəy Abdullabəyzadə cənabları açaraq, iclasın məqsədindən hazirunu [orada olanları] müxtəsər söylədiyi nitqlə aşina və bugünkü iclasa bir sədrlə bir katibin intixab edilməsini [seçilməsini] təklif etdi. İclas Seyid Hüseyn Sadiq əfəndini sədrliyə, Qədir Heydərzadə cənablarını katibliyə intixab etdi.

Mətbəə əmələlərinin [işçilərinin] bugünkü iclasından məqsəd və onları buraya cəm etməyə vadar edən, özlərinin iqtisadi mənafeyini müzakirə etməkdir. Bu xüsusda bir neçə natiqlər nitq söyləyib mətbəə əmələlərinin, ələlxüsus mürəttiblərin siyasət aləmində böyük rollar oynadıqlarını və əzcümlə [o cümlədən] natiqlərdən birisi, mürəttiblərin 1909-cu ildə rütubətli padvallarda işləyib, intibahnamələr [vərəqələr] tərtib verməklə məşğul olub, özlərinin bədənlərini böylə rütubətli ziri-zəminlərdə [zirzəmilərdə, yer altında] şam kimi əritdiklərini və böyləliklə onların böyük-böyük işlər yapdığını və bu işlərin müəssisləri [təsisçiləri] olduqlarını izharla fəxr edir və mürəttibləri müqəddəs xidmətkarlar cərgəsində tutur.

Gələcək iclasda həm iqtisadi və həm siyasi məsələləri müzakirə etməkdən ötrü 4 nəfərdən ibarət bir komissiya intixab edilir ki, bu komissiya gələcək iclas üçün bütün mətbəələrdə işləyən müsəlman əmələlərini siyahı edib, gələcək iclasa təqdim etsin. Komissiyaya Seyid Hüseyn Sadiq, Ruhulla Axundzadə, Aslan bəy Abdullazadə və Usta Əlabbas intixab edilirlər. İclas saat 7 tamam[da] qapanır.

QAFQAZİYA MÜSƏLMAN MÜTƏƏLLİMLƏRİNİN [TƏLƏBƏLƏRİNİN] MƏRKƏZİ KOMİTƏSİ TƏRƏFİNDƏN

Müttəəllim və mütəəllimə arxadaşlar!

Bakıda bütün milli fəaliyyətimizi boğmuş, öldürmüş Mart hadisatı [hadisələri], Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsinin fəaliyyətini dəxi müvəqqətən saxladı. Fəqət haqq və ədalət öz yerini tutdu. Qara günlərin sonunda sübhi-feyz [rifah və nemət səhəri] doğdu. Martdan qabaqkı yarımçıq əsarətimiz istiqlala mübəddəl oldu [çevrildi]. Qurbanlar verdiksə, əziyyətlər çəkdiksə, istiqlala nail olduq. Təbiətin müstəqim, dəyişməz qanunudur:

Əzilməzsə bəşər, bulmaz səadət rahini [yolunu] mütləq.

Milli fəaliyyətimiz istiqlal sifəti ilə yenidən cərəyana başladı. Mərkəzi Komitə dəxi işə başladı.

Vəzifə başına, arxadaşlar! Bir kərə ittixaz [qəbul] etdiyimiz nizamnaməni sonuna kimi təqib edəlim. İstibdad dövründə belə böyük şövq, həvəs, mətanət, istiqamətlə [yolundan dönməməklə] gizli surətdə təqib etdiyimiz ali, müqəddəs məqsədləri milli istiqlalımız dövründə buraxmayalım. Hər bir barədə o məqsədlərimizi icra etməyə bizim üçün böyük imkan, geniş meydan açılmışdır. Məqsədlərimizin xülasəsi isə gənclərimizi millətin sadiq oğulları olaraq fəaliyyət ərsəsinə [meydanına] çıxarmaq!

Qoş ittihada, tərəqqiyə, sə'yə, iqbala,
Fəqət unutma ki, yol intizami-məşyətlə
Yaxınlaşır, qısalır; doğru at adımlarını!
Düşün, bugünkü adımlar hazırlayır yarını!

Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsi

TEATRO VƏ MUSİQİ

"Arşın mal alan"

I

Əsbabi-tərəqqimizin [tərəqqi səbəbimizin] bir növünü təşkil edən sənayeyi-nəfisə [incəsənət] və bilxassə [xüsusilə] teatro və musiqi işlərimizə dair kamalınca məlumat və mülahizat [mülahizələr] yazmağa, təəssüflər olsun ki, qəzetəmizin həcmi müsaid deyildir. Buna görə də, bu xüsusda hər nə yazılsa, mümkün qədər müxtəsər olmaq məcburiyyəti vardır. Məsələn, keçən cümə günü Hacıbəyli Qardaşları müdiriyyəti tərəfindən oynanılan "Arşın mal alan"da "Əsgər" rolunu ifa edən Şərifov cənablarının hərəkati-artistikisi [bədii hərəkətləri] "alafranqa" [avropasayağı] bir tərzdə olması bu artistin əsl artist olmaq ciddü cəhdinə dəlildirsə də, ciddü cəhdi yanlış bir tərzdə gedir. Çünki, Yevropa artistlərinin hərəkatı bir başqa, Şərq artistlərininki də bir başqa olmalıdır. Bu məsələ xüsusunda çox danışmaq istərdik. Halbuki ancaq bir-iki söz deməklə iktifa etməliyik [kifayətlənməliyik].

Yevropa artisti təmsil etdiyi bir şəxsin qəm və kədərini göstərmək üçün iki əli ilə başından yapışır. Halbuki Şərq adamlarına, baxüsus [xüsusilə] müsəlman əfradından [fərdlərindən, adamlarından] birisinə bir kədər ariz olarsa [üz verərsə], əllərini qoynuna qoyur. Nədən ötrü? Ona görə ki, yevropalılarda hər bir dərdə və hər bir qəmə müqavimət etmək, rəf'i [aradan qaldırılması] üçün çalışmaq təbii olduğuna görə, başından yapışmaqla bu qəm və küdurətin əlacını axtarır. Amma Şərq adamı həmişə zülmdidə olub [zülüm çəkib] da, bu zülmə taqətdə adət etdiyinə görə, əllərini qoynuna qoyub məzlum olduğunu göstərməklə iktifa edir.

İranda olarkən mərsiyəxanlar və dərvişlər gördüm ki, oxuduqları və hekayə etdikləri sözləri əsl Şərqə məxsus əda və hərəkat ilə, yəni baş, bədən, əl və üz hərəkatı ilə öylə bir məharət göstərirdilər ki, gözün qabağında sanki bir artist görürdünüz.

Yevropa həyatına aid pyesələrdə Şərq hərəkatı və Şərq məişətindən götürülmüş pyesalarda Yevropa hərəkatı, artistlik sənətində fahiş bir qələtdir.

Şərifov ikinci pərdədə "Axtarıb tapdım səni" havasını yaxşı oxudusa da, Sarabskinin "segah"ının yerini və təsirini verə bilmədi. "Əsgər" rolunun ən çətin yeri, qızlara arşın mal satdığı yerdir. İndiyə qədər bir artist görmədim ki, bu yeri üstadlıqla keçirə bilsin! Burasına rejissor əfəndinin diqqətini cəlb edirik.

Artistdə iki fəzilətdən [üstünlükdən] biri olmalıdır: ya xüdadadilik [Allah vergisi], ya da üstadlıq. Xüdadadilik – Allah vergisidir. Bu hər kəsdə olmaz və hər kəsdən tələb etmək də caiz [doğru, uyğun] deyildir. Amma üstadlıq belə şeydir

ki, səy və kuşiş [çalışma] və bir də qabiliyyət sayəsində hasil edilə bilər. Bunu da bir artist olmaq istəyəndən tələb etməyə tamaşaçıların böyük haqqı vardır.

Xəlil əfəndi, üstadlıq dərəcəsinə çatmış bir artist olduğunu keçən oyunda “Süleyman” rolunda göstərdi. Zahirdə həmişə şad, hər dərdin dərmanını bilən və batində də nikbin olan Süleymanı Xəlil əfəndi tamamilə və layiqilə göstərdi. Mərhəba olsun [əhsən]!

Hələlik bu qədər. O biri oyunçular haqqında gələn səfər yazmağa məcburuq.

Mizrab

HƏFTƏ POSTASI [POÇTU]

Nəcimi əfəndiyə: Məktəblərimizin milliləşməsi və buna görə də müəllimlər hazırlamaq, kitablar düzəltmək xüsusunda Maarif Nəzarəti tərəfindən lazımi işlər görülməkdədir. Keçənlərdə şəhərimizdə vaqe olan xalq məktəbləri müfəttişlərinin qəzetəmiz nömrələrində yazılmış olan qərardadlarını və bu xüsusda mühərrirlərimizdən Fərhad Ağazadə əfəndinin yazmaqda olduğu məqalələrini oxumağı tövsiyə edirik.

Məhəmməd əfəndiyə: Məqalələrinizi kağızın ancaq bir üzündə yazınız, vəilla [yoxsa] təkrar yazdırmaq müşkülatı məcburiyyətində oluruq.

S. əfəndi: Əsgərlərimizin yeni Hərbiyyə naziri həzrətlərinin fəaliyyəti-mərdanəsi ilə böyük bir nizama salınmasını kamali-məmnuniyyət və sürur [sevinc] ilə məqalənizdən oxuduq. Dil məsələsinə gəlincə, hər bir Nəzarətimizdə hələlik rus dili istemalı [işlədilməsi] məcburi olduğu qeyri-məmul [arzuedilməz] bir həqiqət isə də, milliləşmək və hər bir şeyi milliləşdirmək əmri [işi] tədriclə mövqeyi-icraya qoyulduğundan, bir az zamandan sonra rus dili istemalına ehtiyac qalmayacağı şübhəsizdir. Bu gün bizi artıq sevindirən əsgərlərimizin intizamı, gücü, rahatlığı və vəzifələri haqqında göstərməkdə olduqları sədaqətdir.

Bayram Niyazi Kiçikxanov əfəndiyə: Zaqatala islam qardaşlarımızın qoşun və nizami əsgərlik haqqında göstərmiş olduqları hümmət və səmimiyyəti böyük xoşnudluqla oxuduq. Azərbaycanın qismi-layənfəki [ayrılmaz hissəsi] olan Zaqatala haqqında hökumətimizin lazımi dərəcədə diqqət və qeydkeşliyi [qayğıkeşliyi] əlbəttə hökumət başında duranlarımızın doğrudan doğruya vəzifələri olmalıdır. Bu yoldakı vəzifə, şübhəsizdir ki, layiqincə ifa ediləcəkdir. Hər halda, zatınız da etiraf etməlisiniz ki, İrəvan həvalisi [tərəfləri], Araz ətrafı, Qarabağ və Lənkəran müsəlmanlarının hal və övzaları [vəziyyətləri] Zaqataladakı qardaşlarımıza nisbətən dedikcə [olduqca] ağır və məşəqqətlidir. Bunların bu məşəqqətlərini azaltmaq və rəf’ etməyə [aradan qaldırmağa] məşğul olan hökumətimizin Zaqatala və sair Azərbaycan hissələri xüsusunda da lazım olan işlərə mübaşir olacağı [girişəcəyi] təbii bir əmrdir [işdir]. Bununla belə, Zaqatala müsəlmanlarının əhval və övzayi-haliyyəsindən [indiki vəziyyətindən], ehtiyacati-zəruriyyəsindən qəzetəmiz vasitəsilə məlumat verərsənizsə, böyük mənfəət gətirmiş olarsınız.

Qabil diş qayıran
Mirzə Xəlil Canıbəyzadə

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

295

Müqtədir şairlərimizdən **Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin "İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

b. 4 – 3

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209

Mehmanxaneyi-"Məhəmmədiyyə"

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

Kamali-ehtiramla İbrahimov

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi

Axşam saat 5-7-yə kimi.

Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Rza bəy Sultanov
Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

2603

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Elan

"Açıq söz" qəzetəsinin mətbəə və idarəsi Mart hadisələri əsnasında yandırıldığından, "Açıq söz" kolleksiyonları dəxi tələf olmuş-

dur. Məzkur qəzetənin baş mühərriri Rəsulzadə Məhəmməd Əmin bununla elan edir ki, kimdə məzkur qəzetənin koleksiyonu varsa və satmaq istərsə ya “Azərbaycan” idarəsinə və yaxud 55-10 nömrəli telefon ilə kəndilərinə bildirsin.

Arvad diş həkimi M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Bakı Obşestvennı Sobraniyasının [İctimai Yığıncağının] müvəkkil şurası

Kluba gələn zəvata [şəxslərə] məlum edir ki, cəmiyyətin 21-ci maddəsi mövcibincə [maddəsinə əsasən] bu ayın 10-undan şəhərin əbədi [daimi] əhalisi cəmiyyətə qonaq sifəti ilə buraxılmayacaqdır.

Düşənbə [bazar ertəsi] günü 1919-uncu ilin yanvar ayının 13-də Bakı Obşestvenni Sobraniyasına namizəd verilənlərin intixabı [seçkisi] olacaqdır.

Qeyd: 14-cü maddə mövcibincə bu gün namizədlərin cəmiyyətə düxulu [girişi] mən [qadağan] olunur.

T-7

Türk təqvimi
Yeni və əski üsullar ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır. Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-9

Sovet Syezd

Ümum neftçilərə elan edir ki, keçən il kanuni-əvvəlin [dekabrın] 31-də, bu il kanunisaninin [yanvarın] 5-ində vaqe olmuş Neftçilər ümumi iclasının qətnaməsinə görə, onlar aşağıdakı qərardadları riayət etməlidirlər:

1) Sentyabr hadisələri zamanı Bakıdan çıxıb getmiş və dekabrın 8-inə kimi qayıtmamış qulluqçular və fəhlələr qulluqlarına qəbul edilməyiblərsə, axırıncı dəfə işə gəldiyi gündən onları qulluğundan xaric edilmiş ədd [hesab] edib, qərar qoyulmuş çıxacaq pulları verilməlidir. Bunlardan dekabrın 8-dən sonra qayıdıb da qulluğa qayıtmayanları axırıncı işə gəldiyi gündən öz xahişi ilə qulluqdan çıxmış ədd edərək, qulluğundan öz rizası ilə çıxanlar üçün qərar qoyulmuş çıxacaq pulu verməli.

2) Sentyabr hadisələri zamanı Bakıda qalıb da qulluğa gəlməyən, 17 noyabr 1918-ə kimi qulluğa qəbul edilmiş qulluqçu və fəhlələri 1-nci maddəyə görə qulluqdan xaric ədd etməli. Bunlardan noyabrın 17-nə kimi işə qəbul edilənlərə işləmədiyi günlərin, yəni sentyabrın 15-ndən işə başladığı günə kimi maaş surəti ilə əsas məvacibinin yarısını, mənzil və mənzil məxaricini [xərclərini] verməli.

3) Mart hadisələri zamanı Bakıdan qaçıb da təzə qayda ilə iyun ayının 1-nə kimi qulluğa qəbul edilməyən qulluqçu və fəhlələri 1-inci maddə mövcibincə [əsasında] qulluqdan xaric ədd etməli. Bunlardan iyunun 1-ndən sonra qayıdıb qulluğa qəbul edilməyənləri 1-nci maddəyə görə öz rizası ilə qulluqdan çıxmış ədd etməli.

4) Mart hadisələrindən sonra Bakıda qalan vaxtda və öz işinə mübaşirətə [başlamağa] qadir olmayan, 1918[-ci] ilin təzə qaydası iyunun 1-nə kimi yenidən qulluğa qəbul edilməyən qulluqçu və fəhlələri 1-nci maddəyə görə qulluqdan xaric edilmiş ədd etməli. Bunlardan iyunun 1-nə kimi yenidən qulluğa qəbul edilənlərə işləmədiyi müddət zamanı maaş surəti ilə əsas məvacibinin yarısını, mənzil və mənzil məxaricini verməli.

2643

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Milyukov zehniyyəti

səh. 180. Homrul [Home Rule]: "özünüidarə". XIX əsrin sonu – XX əsrin əvvəllərində İrlandiyanın muxtariyyəti uğrunda hərəkat.

Azərbaycan Məclisi-Məbusanında

səh. 183. "a) Cəza qanunnaməsinin…": Bu qanunun hərflərlə göstərilən maddələri qəzetdə ərəb əlifbasına uyğun olaraq (əlif, bə, tə kimi) sıralanmışdır.

səh. 184. "…Məsai nazirinə xitabən…": o dövrdə Azərbaycanın Məsai [Əmək] naziri Aslan bəy Səfikürdski idi.

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

Teleqraf xəbərləri

səh. 185. "…hersoq Maksı Karlın vəliəhdi intixab etmişlərdir.": Söhbət Avstriya-Macarıstan imperatoru I Karldan və onun qardaşı, Avstriya ershersoqu Maksimiliandan gedir.

Türkiyədə

səh. 186. "Maarif naziri": o dövrdə Osmanlı Dövlətinin Maarif naziri Rza Tofiq (Bölükbaşı) olmuşdur.

Kadıköy: İstanbulun Anadolu (Asiya) hissəsində yer alan rayonlarından biri.

Cümə günkü mühüm xəbərlər

səh. 187. "Vilson papanı ziyarət eyləmişdir.": O dövrdə Roma papası XV Benedikt idi.

səh. 188. "İngiltərə kralı": 1910-1936-cı illərdə Böyük Britaniya kralı olan V Corc nəzərdə tutulur.

"Məkkə şərifi": Məkkə və Mədinə şəhərlərini əhatə edən Hicaz bölgəsində X əsrin ortalarından XX əsrin əvvəllərinə qədər mövcud olmuş Məkkə şərifliyinin hakimi.

Qafqaziya Müsəlman Mütəəllimlərinin Mərkəzi Komitəsi tərəfindən

səh. 193. "Qoş ittihada, tərəqqiyə, sə'yə, iqbala…": Bu misralar türk şairi Tofiq Firkətin "Rücu" şeirindən götürülmüşdür. Mənası:

"Birliyə, tərəqqiyə, zəhmətə, gələcəyə qoş,

Fəqət unutma ki, yol nizam-intizamlı bir şəkildə gedilərsə

Yaxınlaşar, qısalar; doğru at addımlarını!

Düşün, bugünkü addımlar sabahı hazırlayır!"

Teatro və musiqi

səh. 193. Şərifov: söhbət teatr aktyoru və rejissor Hacıbaba Şərifovdan gedir.

səh. 194. "Xəlil əfəndi": teatr aktyoru Xəlil Hüseynzadə (Hüseynov) nəzərdə tutulur.

"Mizrab": "Azərbaycan" qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Həftə postası

səh. 194. "…Hərbiyyə naziri həzrətlərinin…": Səməd bəy Mehmandarov nəzərdə tutulur.

Sovet Syezd

səh. 196. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

"…mənzil və mənzil məxaricini…": burada mənzilin kirayəsi və aylıq məişət xərcləri ayrı-ayrılıqda nəzərdə tutulur.



آذربایجان

گونده‌لیك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

دوشنبه ۱۰ ربیع‌الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۱۳ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۸۶

تورك و اسلامانه مفید مقاله‌لر صحیفه لرمز آچیقدر. درج اولنیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالاتك مکافاتی اداره تعیین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله گرا‌تله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ » ۳۲ »
۳ » ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ » ۳۵ »
۳ » ۵۰ »

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی
گوجه‌لرك کنجنده ۴ نومرولی ایوده

«آذربایجان» اداره‌سی،
تلفون نمره. ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

قسم رسمی

آذربایجان جمهوریتی مجلس مبعوثان صدرلیك امر نامه‌لری.

امر نامه نومرو ۴۷

باکو اهلی اسماعیل حسن اوف ۱۹۱۹ سنه‌سی دیقمبرك (۳۰)ندن اعتبارا مجلس مبعوثان اداره‌سی خدمه‌کاری تعیین ایدیلدیر.

امر نامه نومرو ۴۸

مجلس مبعوثان اداره‌سی دفترداری جمال پاشا زاده همین ۱۹۱۹ سنه‌سی یانوار آیینك ۸ ندن اعتبارا کارگذار تعیین ایدیلدیر.

امر نامه نومرو ۴۹

باکو شهری «کشله» قریه‌سی ساکنی میر بدالدین سید زاده همین ۱۹۱۹ سنه‌سی یانوارك ۱۱ ندن آذربایجان مجلس مبعوثانی اداره‌سنده دفترداراق وظیفه‌سنه تعیین ایدیلدیر.

مجلس مبعوثان رئیسی ثامنه
رئیس معاونی
حسن‌بك آغایف.

آذربایجان مجلس مبعوثانده

فعله مسئله‌سی

(کیچن نومرونك آخری)

سوزگو اوقونمقدن صوگره عباسقلی کاظم زاده‌یه سوز ویریلیور.

عباسقلی کاظم زاده — فیزیکن وجدانس بر نطق سویله‌رك، فعله لرك جهان حادثه‌لرینه کی موقعی، دیمه‌قراطیا نماینده‌سی اولان متفکر نماینده لریمك آذربایجانی قبول و پارلمانی محافظه ایتمه‌لری، خرده مالتر و یکی حکومتلرك بوگون آنجاق دیمه‌قراطیا فکر حاکمیتی‌نیجه‌سی‌اولاراق صلح قونفرانسنده بر آلماغه موفق اولدقلرینی، بوگون جهان عمله و زحمتکشلرینك «ایسته‌سلر بیقاولر» درجه‌سنده متین بر وضعیت آلدیقلرینی قیدله آذربایجان فعله لرینه نقل کلام ایدرك دیدور کە:

فعله آذربایجانده‌ده آز دکادر. مس معدن لرنده، باقو وتفکه‌لرنده، باکو نفت معدنلرنده، شکی ابریشم زاوودلرنده، تیفاکو فابریقالرنده و سایر برلرده ایشله‌ین اون یکیلرله فعله‌لرك حالی آذربایجان حکومتی دوشونه‌بیله‌جك درجه‌ده سکزر که بولار حکومتك ستونی، استقلالیتمزك عسکر مقامنه خادملری در. حکومت اولارك استراحت و احتیاجاتینی تأمین ایدرسه همان او فعله‌لر استقبالده‌حکومته‌ظهیراولوراولار. (مر کزدن آلقیش) مادامکه‌بویله برقوه‌یه محتاجز، شیمه‌دین او قوه‌نك باشایشی، حیاتی تنظیم ایچون یاقشی اساسلار حاضرلامایی دوشونه‌ملیدر. محترم مبعوثلار بوآنا دقت ایدیلرسه بو مسئله‌یه حوق اهمیت ویره، و بو قومیه یاسیان اولارسکز، قورتولوقیه‌ملیدرکه اولارك حقوقه تجاوز ایدیله‌مسین؛ بوگون جهانده‌عدالت، اخوت، مساوات شعاری آتان اولاردر؛ اولار دیمه‌دیکی دنیایه چیقاسا، اوز گه‌یه یاشامنه مساعده ویره دیورلر. سوروزمزده بوگون بز اولارك فنا حالنی آنجاق مخضراً یازمشدق. ایشاوروزکه مساعی ناظری بو یازده‌کشانی ایتمش، دوشونمشدر. بو مسئله‌یه عجله باقیلمیر. بز دیمورکه فعله‌لرك وضعیتی‌غذا وبدن مکتبلر، خلق بولوداری فابیلدولر، گیجه قوروملری یوقدر، بیمك ایچه‌یکه بویوك‌عسرت چکیورلر، اوجوز خوراك، مع‌التأسف، ویریلمیور؛ یاشایشلاری یراز حفظ‌الصحیه مقابر در؛ استاد اپشیکلر او قوه یه بوگون محو اولوب گیدیور. صفات و آحاق بلامیه دوچار اولور؛ اولوقاداری مختلین خسته‌لری مریضخانه سزدر. حتی اوشاق لاری مکتبه، خسته‌لری خسته‌خانه‌یه آپارمای‌ایچون آرابا وبریلیور دی. ایمدی بوده یوقدر. خسته خانه‌لرك یوخی‌ایشله‌میور. فعله حجره‌لرنده‌توبلور. کومك ایدیلمیور. آلدیغمز معلومات‌گوره خرده معدنلرده ۵۱، ۱۶، ۲۴ نچی‌اوجاستوقاللرده فعله لری ایشدن چیقارییور و بعض معدنلرده ۸ ساعت عوضنه ۱۴ ساعت ایشله‌دیبورلر. بولارك هپسی‌نی بره طولایلدیقده گوریبورکه، فعله محو اولوب گیدیبور. اوگا گوره جدی چالشمالی لازمدر. مساعی ناظری بولار حقده‌ده قطعی وجدی‌تدبیرلر گورملیدر.

قارایف — بو مسئله‌دن تعجبله‌یورم؛ چونکه بو مسئله‌یی «مساوات» فرقه‌سی قالدیروب مساوات جلادر فعله‌لرك دردینه قالیورلار. اما بونکله برابر ناطق مسئله‌نك مغزینی آختاردیغی‌ایچون بوفکری اوده مدافعه ایدییور. زاوده، فابریقا قومیته‌لرینك داغیلماسندن شکایته مساعی نظارتی یوقلندیغی فعله‌لرك دردلرینی دیمکله برتابعه‌دیکلرینی بیانه بولدن بویله مساعی نظارتك تشکیلی‌ایله فعله‌لرك دردلرینه یاقیلاجغنی گوستریرور ورجا ایدییور که «هرحالده مساوات بویله مسئله‌لری تیز — تیز قالدیرسین.»

رحیم وکیلوف — قارایفه جوابله فعله‌لرك حرکتنی و مساواتك فعالیتنی دلیل گتیرمرك دیمور که: «همیشه مساوات فعله‌ایله، فعله‌ده مساوات‌ایله‌در» فعله هرزمان کندی حقوقینی هر پرده هردفعه مدافعه ایدن مساوات ایله برابردر. بزم فرقه‌مز فعله‌لرده صنف حسدنن یاشمقه برده ملی حس اولیادمجدر. اولارآرتق قوییمیزجلادلر بین‌الملیت آدمله کندیلرینی آلداتمیورلار. گوزی آچیق، اوراکان فعله‌مز همیشه کندی منافعی ایله برابر ملتك‌ده منافعینی گوزلیور. اوکا گوره‌ده هانکی فرقه اطرافنه توپلاناجاغنی بیلیورلر.

کوچك خانوف — مساوات فراقسیاسینك فکرینه تمامیله شریك اولارق خواهش ایدییور که آذربایجانك هرپرنده فعله‌لرك‌درد‌ینه چاره‌ایله‌یلوب احتیاجلاری نظره آلنسین.

صفی‌کوردسکی — وارد اولان سوروقیه مساعی ناظرینی عوض ایدن صفی کوردسکی حضرتلری جواب ویره‌رك بویله بیانات ویریور دیمور کە:

محترم مبعوثلار! سز بیلیورسکز کیچن حکومت زمانتده مساعی نظارتی یوقایدی؛ آنجاق یکی حکومت فعله مسئله‌سینه دقت ویره‌رك مساعی نظارتی تشکیل ایتمکه قرار ویردی. اوز گوریورسکز که شمدی حکومت فعله‌مسئله‌سینه نه‌قدر معنا و اهمیت ویریور. موقت اولارق بو وظیفه ۵ — ۱۰ گوندرکه بنگا تابشیر یلمشدر. بوایسه بنم‌ایچون زحمت اولمیوب شوق ایله قبول ایتدیگم بروظیفه‌در. یاقین وقتده تشکل ایتمش اولدیغندن مساعی نظارتی‌حقده‌ن بو مفصل‌معلومات ویره بیلمه‌جگم چونکه تازه کلمیشم. نظقلرده سویله‌نلر تعامیله دوغرودر. حتی اوایه شیراوار که‌یایسه گزیاشگزلانو کی‌ایاغه‌دوراز. دوغرودن فعله‌لرك حالی دیدیکجه هیچ زحمتگ آغیری فعله اوزرینه دوشمشدر. اوگا گوره‌در که آخر زمانلار فعله‌مسئله‌سینه چوق آرتق اهمیت ویریبورز گوندم اورتایه بر مسئله چیقوب بزی اشغال ایدییور. علاوه یوراده فعله قونفرانسی واردر: اوراده فعله طرفندن‌کلن نماینده هرنه دانشیور — لارسه آنجاق آذربایجان استقلالنی آذربایجان حکومتی ضرر‌یه‌در، بولاردان آذربایجان‌استقلالینی مدافعه نقطهٔ نظرنده یولان یوقدر. ایچلرنده مسلمان‌فعله‌سی‌ده وار اما آز‌در. بزتشبث ایدییورز که قونفرانسده مسلمان فعله‌سی نمایندەلرینك مقداری آرتق اولسون. قونفرانسده مسلمان فعله سینك مقداری چوق اولارسه، اوسوزلر که پارلمانده استقلالمزه توقویور، مسلمان نمایندەلری اوراده مدافعه ایده بیلرلر.

بعض معدنلرده قونفرانسه گیدن فعله‌یه آزیری نظرله باقارق حتی اونلارك قولاوقدن چیقاریبور لار. بوخبر یتیجك بی‌امر ایتدیم تحقیق‌اولونسون معلوم اولدیکه فعله‌یی آنجاق سیاسی ملاحظه ایله چیقاریبورمشلار.

بناء علیه قوغولان فعله‌لرك گیری قبول‌ایدیلمه لری حقده‌ده امر ویردیم. اگرعمل ایدیلمه‌مه‌جدی تدبیر گورمه‌جگم. چونکه‌بن‌دیرم بیلور وایتاپورم که حکومتی وپارلمانی آنجاق فعله‌لك کومکله ساقلیا بیلرز. بونی یالن بر حکومت ایله فعله‌یی نظردن اوزاق دوتمازز. اوگا گوره‌در که بتون ناظرلرك هپرای اولدیقلاری حالده یاجاردیغی‌قدر فعله‌لرك‌منزل، خسته‌خانه‌مواجب ومکتب‌مسئله‌لری اوغرونده چالیشور. بونی نظره دوتگز که یالگز آذربایجان فعله‌سی‌دگل سایر مملکت‌فعله لری‌ده بوندن یاقینی حالده دگلدرلر. دوغرودور بوساعت آنجاق بولەوبك فعله‌لرك حالی یاقینی در. اما اولارلرده یاقینی حالی چوق چکه یلمز بر آی، ایکی آی. سوگره اولارك حالی سایر لار کندن بدتر اولاجقدر. بن هرشیدن زیاده‌فعله تشکیلاته اهمیت ویرمرك امر ایتدیم یاریسی فعله یاریسی ایش صاحبی نمایندەلرندن اولماق‌اوزره ۱۰ نفردن عبارت برقومیسیه سه‌جلسین. بوقومیسیه فعله ایشلرینه یاقارق مساعی نظارته تقدیم‌اینه‌لیدر. قومسیونك سده‌ی‌ده مساعی ناظری اولاجقدر. قومسیونك قراری نه اولسه بن اونی برپامه‌جگم. بوندن علاوه قارشوزده بعض‌بویوك مسئله‌لرواردر؛ ازجمله مشترك مقاوله (قوله کتیف)، که حاضرده فعله قونفرانسنده‌ده مذاکره ایدیلمکده‌در. پارلمان بوپارده فکرینی دیمکله بویوك خدمت گوسترمش اولاجقدر.

ناظرلك‌یاناتندن‌صوگره‌صدرجنابلری «مساوات» طرفندن ویریلمش اولان تکلیفی اوقویور:

«مساوات» فراقیتوی طرفندن‌یا کوعملاریتك احوالی‌حقده‌مساعی ناظرینه ویریلن‌سوروقیه‌ناظرتی مساعی ناظرینك ویرمش اولدیغی یاناتی کافی گورمکله و تقدیر اینکله برابر مجلس مبعوثان ناظرلك عمومی سورتنده سویله‌دیگی اساسلارك تیزلك ایله قومه‌دن فعله گنربله‌سنی تکلیف ایله نوبه‌ده کی مسئله‌لرك مذاکره‌سنه کچیور.

تکلیف اتفاق آرا ایله قبول اولنور.

لنکران ومغان مسئله‌سی

بوندن‌صوگره، تورك‌عدم‌مرکزیت «مساوات» فرقه‌سی طرفندن لنکران‌ومغان حقنده‌رئیس‌وکلا حضرتلرینه خطابا ویریلمش‌اولان تلغرامی‌سورقو اوقونیور:

آذربایجان مجلس مبعوثان رئیسی حضرتلرینه

«مساوات» شعبه‌سی آتاغیدا کی استیضاحك حکومت رئیسه ویریلمه‌سنی تکلیف ایدیور:

آذربایجان هیئت نظار رئیسی فتحعلی خان خویسکی حضرتلرینه

وطنك آیرلماز برجزئی تشکیل ایدن‌ولایتی تحتنفلتیو کرتمه‌بولوتان لنکران اویزدینك برطاقم اوتوریشاته شقیرالدمه‌مرتوع ظلم‌وجورلرمعروض قالمیغی، بورا مسلمان اهالیسنك یك دورلوتجاوز لره، اشکنجه‌لره، حقسزلقلره کرفتار اولدقلری، مغان جمهوریتی آدیله طلیان ایدن تشقیرلك کندی لرینی مغان حکومتی طاپشاغه اجبار ایله‌دکاری حکومته معلوم اولمایایلمز. حکومتك بو زواللی اویزدی، بوغدار شقیر تسلطندن قورتارمق‌ایچون نه کبی تدبیرلره مراجعت ایله‌دیکنی یلمك ایسته‌رز.

«مساوات» شعبه‌سنك رئیسی
محمد امین رسول‌زاده
حاجی‌میرزاسلیم آخوندزاده (لنکران نمایندەسی) سوروقیی مدافعه ایدرك چوق فیزیکن وصمیمی برنطق سویله‌رك لنکران و مغان مسلمانلارینك حالینی تصویر، سابق حکومتی تقید ایدییور واهالی اسلامیه‌نك احوال اسفا کنه‌سی‌تصویر ایچون بویله برمعروضه اوقویور:

لنکران‌ده اولان احوالات

لنکران‌شهرینده خرابه وپایمال اولمیان بر ایو موجود دکل، لنکرانك وضعیتی‌نی ملاحظه ایدن انسانك یوره کی یاکرك ارمنی‌یوره کی و یاخاخول یوره کی یا اینکه کرك داش اولسون، شهرك اوزینده یالمره خرابه اولوب اثر قالمیان ایو جوخدر. بیچاره یوسف‌بك پاریامملی یکوف که مکتب ابتدائیسی عالسی معلمی‌در «مساوات» فرقه‌سینه منسوب اولدیغ جهتله ایوی خرابه‌وجمیع مالی پایمال وغارت‌ایدیلوب اهل‌وعیال اوشاقلاری اوتاق یوتاق قاپولارینده کندلرده مقیل‌سز کردان آچ‌بالاواج‌دولانیر. دفعه‌لره‌ایسته‌یوب‌شهره‌کلسون اونلك‌ایچون ممکن دکل‌در.

شهرمزك اولو زنگین‌لرینه‌دن عسکرخان طالبزین اسکی کیمی شخص ایران کوشه‌لرینده قالوب‌تولدی. ایوی‌وحیاطی وعمارتلری تماماً غارت اولوب حتی ایوك پنجره‌لری قاپولاری پول و

“Azərbaycan” qəzetinin 86-cı nömrəsinin 1-ci səhifəsi

Bazar ertəsi, 13 yanvar 1919-cu il, nömrə 86

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 10 rəbiülaxir sənə 1337. 13 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

QİSMİ-RƏSMİ

Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusan Sədrinin əmrnamələri

Əmrnamə nömrə 47

Bakı əhli İsmayıl Həsənov, 1918 sənəsi dekabrın 30-dan etibarən Məclisi-Məbusan İdarəsi xidmətkarı təyin edilir.

Əmrnamə nömrə 48

Məclisi-Məbusan İdarəsi dəftərdarı Camal Paşazadə, həmin 1919 sənəsi yanvar ayının 8-dən etibarən kargüzar təyin edilir.

Əmrnamə nömrə 49

Bakı şəhəri Keşlə qəryəsi [kəndi] sakini Mir Bədrəddin Seyidzadə, həmin 1919 sənəsi yanvarın 11-indən Azərbaycan Məclisi-Məbusanı İdarəsində dəftərdarlıq vəzifəsinə təyin edilir.

Məclisi-Məbusan Rəisi namına rəis müavini Həsən bəy Ağayev

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

(keçən nömrənin axırı)

Fəhlə məsələsi

Sorğu oxunduqdan sonra Abbasqulu Kazımzadəyə söz verilir.

Abbasqulu Kazımzadə qızğın və həssas bir nitq söyləyərək, fəhlələrin cahan hadisatındakı [hadisələrindəki] mövqeyi, demokratiya nümayəndəsi olan Müttəfiqlər nümayəndələrinin Azərbaycanı qəbul və Parlamanı mühafizə etmələri, xırda millətlər və yeni hökumətlərin bu gün ancaq demokratiya[nın] fikir hakimliyi nəticəsi olaraq Sülh Konfransında yer almağa müvəffəq olduqlarını, bu gün cahan əmələ [fəhlə] və zəhmətkeşlərinin "istəsələr yaparlar, istəsələr yıxarlar" dərəcəsində mətin bir vəziyyət aldıqlarını qeydlə, Azərbaycan fəhlələrinə nəqli-kəlam edərək [sözü gətirərək] deyir ki:

Fəhlə, Azərbaycanda da az deyildir. Mis mədənlərində, balıq vətəgələrində, Bakı neft mədənlərində, Şəki ipək zavodlarında, tənbəki fabrikalarında və sair yerlərdə işləyən on minlərlə fəhlələrin halı Azərbaycan Hökumətini düşündürməlidir. Görürsünüz ki, bunlar hökumətin sütunu, istiqlaliyyətimizin əsgər məqamında xadimləridir. Hökumət onların istirahət və ehtiyaclarını təmin edərsə, həman o fəhlələr istiqbalda [gələcəkdə] hökumətə zəhir [dəstək] olarlar. (Mərkəzdən alqış) Madam ki, böylə bir qüv-

vəyə möhtacız, şimdidən bu qüvvənin yaşayışını, həyatını tənzim üçün yaxşı əsaslar hazırlamağı düşünməlidir.

Möhtərəm məbuslar! Buna diqqət edilərsə, bu məsələyə çox əhəmiyyət verər və bu qüvvəyə pasiban [himayəçi] olarsanız, kontrol qoymalıdır ki, onların hüququna təcavüz edilməsin; bu gün cahana ədalət, üxüvvət [qardaşlıq], müsavat [bərabərlik] şüarı atan onlardır; onlar cəmi dünyaya "Yaşa, özgəyə də yaşamağa müsaidə ver" deyirlər. Sorğumuzda bu gün biz onların fəna halını ancaq müxtəsərən yazmışıq. İnanırız ki, Məsai [Əmək] naziri bu barədə təşəbbüslər etmiş, düşünmüşdür. Bu məsələyə əcələ [təcili] baxmalıdır. Biz deyiriz ki, fəhlənin ruhuna qida verən məktəblər, xalq yurdları qapalıdırlar, gecə kursları yoxdur. Yemək-içməkdən böyük üsrət [çətinlik] çəkirlər. Ucuz xörək, məəttəssüf [təəssüf ki], verilmir, yaşadıqları yerlər hifzüssihhəyə [gigiyenaya] müğayirdir [uyğun deyil]. İstinad etdiyimiz o qüvvə bu gün məhv olub gedir, səfalət və aclıq bəlasına düçar olur; uşaqları məktəbsiz, xəstələri mərizxanasızdır [xəstəxanasızdır]. Hətta uşaqları məktəbə, xəstələri xəstəxanaya aparmaq üçün araba verilirdi. İndi bu da yoxdur. Xəstəxanaların çoxu işləmir. Fəhlə hücrələrdə ölür, kömək edilmir. Aldığımız məlumata görə xırda mədənlərdə 51, 16, 24-cü uçastoklarda fəhlələri işdən çıxarır və bəzi mədənlərdə 8 saat əvəzinə 14 saat işlədirlər. Bunların həpsi bir yerə toplandıqda görürüz ki, fəhlə məhv olub gedir. Ona görə, ciddi çalışmaq lazımdır. Məsai naziri bunlar haqqında qəti və ciddi tədbirlər görməlidir.

Qarayev bu məsələdən təəccüblənir, çünki bu məsələni "Müsavat" firqəsi qaldırıb, müsavatçılar fəhlənin dərdinə qalırlar. Amma bununla bərabər, natiq məsələnin məğzini axtardığı üçün bu fikri o da müdafiə edir. Zavod, fabrika komitələrinin dağılmasından şikayətlə, Məsai Nəzarəti yoxluğunda fəhlələrin dərdlərini deməyə yer tapmadıqlarını bəyanla, bundan böylə Məsai Nəzarətinin təşkili ilə fəhlələrin dərdlərinə baxılacağını göstərir və rica edir ki: *“Hər halda “Müsavat” böylə məsələləri tez-tez qaldırsın.”*

Rəhim Vəkilov Qarayevə cavabla fəhlələrin hərəkəti və “Müsavat”ın fəaliyyətini dəlil gətirərək deyir ki: *“Həmişə “Müsavat” fəhlə ilə, fəhlə də “Müsavat” ilədir. Fəhlə hər zaman kəndi hüququnu hər yerdə, hər dəqiqə müdafiə edən “Müsavat” ilə bərabərdir. Bizim firqəmiz fəhlələrdə sinif hissindən başqa, bir də milli hiss oyadacaqdır. Onlar artıq qoymayacaqlar beynəlmiləliyyət adı ilə kəndilərini aldatsınlar. Gözüaçıq ora gələn fəhləmiz həmişə kəndi mənafeyi ilə bərabər, millətin də mənafeyini gözləyir. Ona görə də hangi firqə ətrafına toplanmağı bilirlər.”*

Kiçikxanov “Müsavat” fraksiyasının fikrinə tamamilə şərik olaraq xahiş edir ki, Azərbaycanın hər yerində fəhlələrin dərdinə çarə edilib, ehtiyacları nəzərə alınsın.

Səfikürdski - Varid olan [gələn] sorğuya Məsai nazirini əvəz edən Səfikürdski həzrətləri cavab verərək böylə bəyanat verir, deyir ki:

“Möhtərəm məbuslar!

Siz bilirsiniz, keçən hökumət zamanında Məsai Nəzarəti yox idi. Ancaq yeni Hökumət fəhlə məsələsinə diqqət verə-

rək, Məsai Nəzarəti təşkil etməyə qərar verdi. Özünüz görürsünüz ki, şimdi Hökumət fəhlə məsələsinə nə qədər məna və əhəmiyyət verir. Müvəqqət olaraq bu vəzifə 5-10 gündür ki, mənə tapşırılmışdır. Bu isə mənim üçün zəhmət olmayıb, şövqlə qəbul etdiyim bir vəzifədir. Yaxın vaxtda təşəkkül etmiş olduğundan, Məsai Nəzarəti haqqında mən müfəssəl məlumat verə bilməyəcəyəm. Çünki təzə gəlmişəm. Nitqlərdə söylənilənlər tamamilə doğrudur. Hətta öylə şeylər var ki, bilsəniz başınızın tükü ayağa durar. Doğrudan fəhlənin halı dedikcə [ağırdır], həmişə zəhmətin ağırı fəhlənin üzərinə düşmüşdür. Ona görədir ki, axır zamanlar fəhlə məsələsinə çox artıq əhəmiyyət veririz. Gündə ortaya bir məsələ çıxıb bizi işğal [məşğul] edir. Əlavə, burada fəhlə konfransı vardır. Orada fəhlə tərəfindən gələn nümayəndə hər nə danışırlarsa, ancaq Azərbaycan istiqlalı, Azərbaycan Hökuməti zərərinədir. Bunlardan Azərbaycan istiqlalını müdafiə nöqteyi-nəzərində bulunan yoxdur. İçlərində müsəlman fəhləsi də var, amma azdır. Biz təşəbbüs ediriz ki, konfransda müsəlman fəhləsi nümayəndələrinin miqdarı artıq olsun. Konfransda müsəlman fəhləsinin miqdarı çox olarsa, o sözləri ki, Parlamana, istiqlalımıza toxunur, müsəlman nümayəndələri orada müdafiə edə bilərlər.

Bəzi mədənlərdə konfransa gedən fəhləyə ayrı nəzərlə baxaraq, hətta onları qulluqdan çıxarırlar. Bu xəbər yetişcək, mən əmr etdim təhqiq olunsun. Məlum oldu ki, fəhləni ancaq siyasi mülahizə ilə çıxarırmışlar. Binaənileyh [ona görə], qovulan fəhlələrin geri qəbul edilmələri haqqında əmr verdim. Əgər əməl edilməsə, ciddi tədbir görəcəyəm. Çünki mən deyirəm, bilir və inanıram ki, Hökuməti və Parlamanı ancaq fəhlənin köməyi ilə saxlaya bilərik. Bunu bilən bir Hökumət əlbəttə fəhləni nəzərdən uzaq tutmaz. Ona görədir ki, bütün nazirlərin həmrəy olduqları halda bacardığı qədər fəhlələrə mənzil, xəstəxana, məvacib və məktəb məsələləri uğrunda çalışır. Bunu nəzərdə tutunuz ki, yalnız Azərbaycan fəhləsi deyil, sair məmləkət fəhlələri də bundan yaxşı halda deyildirlər. Doğrudur, bu saat ancaq bolşevik fəhlələrin halı yaxşıdır. Amma onların da yaxşı halı çox çəkə bilməz; bir ay, iki ay. Sonra onların halı sairlərinkindən betər olacaqdır. Mən hər şeydən ziyadə fəhlə təşkilatına əhəmiyyət verərək əmr etdim yarısı fəhlə, yarısı iş sahibləri nümayəndələrindən olmaq üzrə 10 nəfərdən ibarət komissiya seçilsin. Bu komissiya fəhlə işlərinə baxaraq, Məsai Nəzarətinə təqdim etməlidir. Komisyonun sədri də Məsai naziri olacaqdır. Komisyonun qərarı nə olsa, mən onu yeridəcəyəm. Bundan əlavə, qarşımızda bəzi böyük məsələlər var; əzcümlə [o cümlədən] müştərək müqavilə (kollektiv) ki, hazırda fəhlə konfransında da müzakirə edilməkdədir. Parlaman bu barədə fikrini deməklə böyük xidmət göstərmiş olacaqdır."

Nazirin bəyanatından sonra sədr cənabları "Müsavat" tərəfindən verilmiş olan təklifi oxuyur:

"Müsavat" fraksiyonu tərəfindən Bakı əmələlərinin [fəhlələrinin] əhvalı haqqında Məsai nazirinə verilən sorğuya qarşı Məsai nazirinin vermiş olduğu bəyanatı kafi görməklə və təqdir etməklə bərabər, Məclisi-Məbusan, nazirin ümu-

mi surətdə söylədiyi əsasların tezliklə qövldən feilə [sözdən işə] gətirilməsini təkliflə, növbədəki məsələlərin müzakirəsinə keçir.

Təklif ittifaqı-ara [yekdillik] ilə qəbul olunur.

Lənkəran və Muğan məsələsi

Bundan sonra, Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsi tərəfindən Lənkəran və Muğan haqqında Rəisi-vükəla [Baş nazir] həzrətlərinə xitabən verilmiş olan zeyldəki [aşağıdakı] sorğu oxunur:

Azərbaycan Məclisi-Məbusan Rəisi həzrətlərinə.

“Müsavat” şöbəsi aşağıdakı istizahın [sorğunun] Hökumət Rəisinə verilməsini təklif edir:

Azərbaycan Heyəti-Nüzzar [Nazirlər Kabineti] Rəisi Fətəli xan Xoyski həzrətlərinə.

Vətənin ayrılmaz bir cüz’ünü [hissəsini] təşkil edən və paytaxtımızın böyründə bulunan Lənkəran uyezdinin bir taqım özübaşına şəqilər [yolkəsənlər, quldurlar] əlində hər növ zülüm və cəbrlərə [zorbalığa] məruz qaldığı, bura müsəlman əhalisinin min dürlü təcavüzlərə, işgəncələrə, haqsızlıqlara giriftar olduqları, Muğan Cümhuriyyəti adı ilə tüğyan edən şəqilərin kəndilərini Muğan Hökumətini tanımağa icbar [məcbur] eylədikləri, Hökumətə məlum olmaya bilməz. Hökumətin bu zavallı uyezdi, bu qəddar şəqilər təsəllütündən [zülmündən] qurtarmaq üçün nə kimi tədbirlərə müraciət eylədiyini bilmək istəriz.

“Müsavat” şöbəsinin rəisi
Məhəmməd Əmin Rəsulzadə

Hacı Mirzə Səlim Axundzadə (Lənkəran nümayəndəsi) sorğunu müdafiə edərək, çox qızğın və səmimi bir nitq söyləyərək, Lənkəran və Muğan müsəlmanlarının halını təsvir, sabiq hökuməti tənqid edir və əhaliyi-islamiyyənin [müsəlmanların] əhvali-əsəfnakını [acınacaqlı halını] təsvir üçün böylə bir məruzə oxuyur:

Lənkəranda olan əhvalat

Lənkəran şəhərində xarabə və paymal olmayan [dağılmayan] bir ev mövcud deyil. Lənkəranın vəziyyətini mülahizə edən insanın ürəyi ya gərək erməni ürəyi və ya xaxol ürəyi, yainki gərək daş olsun. Şəhərin özündə bilmərrə [tamamən] xaraba olub əsər qalmayan ev yoxdur. Biçarə Yusif bəy Bayraməlibəyov ki, məktəbi-ibtidai-ali [ibtidai-ali məktəb] müəllimidir, “Müsavat” firqəsinə mənsub olmaq cəhətinə evi xaraba və cəmi malı paymal və qarət edilib, əhli-əyalı [ailəsi], uşaqları onun-bunun qapılarında, kəndlərdə səfil-sərgərdan, ac-yalavac dolanır. Dəfələrlə istəyib şəhərə gəlsin, onun üçün mümkün deyildir.

Şəhərimizin ulu zənginlərindən Əsgər xan Talışinski kimi şəxs İran guşələrində qalıb öldü. Evi və həyəti və imarətləri tamamən qarət olub, hətta evin pəncərələri, qapıları, pol [döşəmə] və tamasası [taxtaları] da bilmərrə yanıb kül oldu. Buna da iktifa etməyib [qane olmayıb] əvvəllərdə ermənilər, sonralar da xaxollar o gözəl imarətləri at və heyvan yatağı qərar verdilər. Habelə İsa bəy Əlibəyovun da evi bilmərrə zirü zəbərdir [alt-üst edilmişdir]. Əgər bu təriqə [yol, qayda] ilə adbaad Lənkəran şəhərinin xarabalarını siyahı eyləsəm, lazımdır ki, hamı əhalinin

adlarını bir-bir zikr edəm.

Lənkəran deməli ikinci Şirvandır. Amma bu qədər deyə bilərəm ki, Qalada Tuğra xanımın imarətindən başqa cəmi erməni, rus, cuhud evləri abad və avadanlıqları salamatdır. Lənkəranda məşhur Əkbərovların cəmi mülkləri, evləri xaraba və yainki erməni və xaxol mənzilidir. Qalada saldat mənzili, yəni əsgərə lazım olan mənzillər mövcud ola-ola, genə də şəhərin içində Əkbərovların öz arvad-uşağına məxsus olan mənzildə xaxollar əyləşib, bu qışın şiddət vaxtında onların əhli-əyalları [ailələri] bunun-onun qapısındadırlar.

Şəhərimizin fəqir, yetim və dul arvadlar, əlsiz-ayaqsızların xəzinəsi və söykənəcəyi və pənahgahı [pənah yeri] olan Abdullayevlər, Kərimovlar, Kazımovlar, Ağayevlər, Nəsirovlar, Qurbanovlar, Daşdəmirovlar bilmərrə talan və qarət olub, fəlakət və üsrətlə [çətinliklə] qürbətdə, kəndlərdə gün keçirirlər. Lənkəranın füqəra və məsakin [biçarələr] və əlsiz-ayaqsızlarının da cangüdaz [ürək yandıran, qəmli] və ciyər yandıran olan aclıqda və susuzluqda ahu vaveylası [ahı, fəryadı] şəhərin fəlakətdə olan tüccar və əyan və əşrafi [nüfuzlu adamları] üçün daha bir artıq ciyər parçalayan müsibətdir.

Şəhərin xaxol hökuməti gündə bir bəhanə gətirib, şəhərin zənginlərini cürbəcür əziyyət və möhnətlərlə incidib, qismbəqism [hissə-hissə] vergilər adlandıraraq növbənöv xərclər alırlar.

Xaxollar buna da iktifa [qənaət] etməyib, gecələr hər bir şəxsi ki, qədimdə varlı idi, onun evinə gedib təhdid və təxviflərlə [qorxutmaqla] hər şey istəyirlər, olmazın bəlaları ev sahibinin başına gətirirlər. Hətta namuslara təcavüz edirlər.

Xaxollar əvvəl özlərini Muğanski Respublika [Muğan Respublikası] adı ilə adlandırıb, sonra bilmirəm hansı tək səbr gəlibsə, Muğanski Respublikanı məsləhət görməyib, özlərini Rusiya hissəsi sayıb Ufa Hökumətinə tabe edirlər. Xaxollar aşkara deyirlər ki, biz Azərbaycan Hökumətini bilmək istəməyiriz və ingilisi də tanımayırız.

Keçən həftə Muğan xaxolları, şura əzası [üzvləri] və hökumət icrası düzəltmək üçün syezd [qurultay] tərtib vermişdilər. Bu ünvan ilə ki, hər beş min beş yüz nəfər müsəlman bir nəfər nümayəndə və hər əlli nəfər xaxol da bir nəfər nümayəndə təyin edib 120 ədəd üzv dürüst olandan sonra hökumət təşkil etsinlər. Bu hökumətlə bərabər, yanvarın 4-cü gecəsi xaxollar Məhəmmədağa qəssabın evinə tökülüb, Məhəmmədağanın gəlinini iki nəfər balaca uşaqları ilə bərabər qoyun kimi başlarını kəsib evlərində olan nəqdiyyə [nağd] on min manatdan başqa, lazım olan şeylərini də qarət ediblər. Yenə həman gecə Dəriğli Məşhədi İsmayıl uşaqlarının evlərini də bittamam [tamamən] oğurlayıblar. Lakin bura şəhərin bir miqdar içərisi olduğu üçün adam öldürməyə fürsət tapmamışlardır.

Lənkəranın hadisatı [hadisələri] saya gəlməz. Salyan sərhədindən tutmuş Xaxol təkləsindən, Yüzüncü yaşından tutub Perimbeləcən ki, iki böyük pristav mahalı – biri Sibdaşt, birisi də Ərkivan uçastkasıdır, nə qədər müsəlman kəndləri var isə bittamam xarabazar, evlər və köylər hamı yanıb və yerlərinə də xaxollar malik olub əkiblər. Məgər Qızılağac kəndi ki, həqiqətdə Qızılağac camaatı

namuslu camaat olduğu üçün, xaxollarla əlbir olub sair müsəlmanları qətl və qarət etməkdən xaxollarla bərabər heç bir zərrə qədəri olsa da müzayiqə etməyiblər [çəkinməyiblər]. *(Səslər: ayıb olsun)*

Axundzadənin nitqindən sonra sorğu səsə qoyularaq qəbul edilir.

Ermənilərin qətli məsələsi

Bədəhu [sonra] sosialistlər tərəfindən idxal edilmiş zeyldəki [aşağıdakı] sorğu oxunur:

Azərbaycan Məclisi-Məbusan Rəisi cənablarına!

Hökumət naminə Sosialistlər fraksiyonu tərəfindən işbu sorğunu (istizah) Məclisi-Məbusanın əvvəlinci cələsəsində [iclasında] qoymanızı rica edirəm.

“Qəzetələrdə dərc olunan xəbərlərə görə, Azərbaycan dəmir yolu Hacıqabul stasyonunda vaqondan Sarkisyan namında [adında] bir erməni, əsgərlər tərəfindən çıxarılmış və nerəyə göndərildiyi məlum deyildir. Həqiqətdə böylə bir hadisənin vaqe olduğu Hökumətə məlumdurmu və əgər məlum isə, böylə təhəmmül olunmaz [dözülməz] hadisələrin bir daha təkrar etməməsi və günahkarın qəti tənbehi [cəzalandırılması] üçün nə yolda tədbirlər görmüşdür?

Sosialistlər fraksiyonu katibi
Abbas Atamalıyev.”

Əhməd Cövdət (Sosialistlər fraksiyonu tərəfindən) sorğunu müdafiə edərək, çox hərarətli bir nitq söyləyərək, böylə hərəkətlər sağdan hücum edən bolşeviklərin, vətəni, Azərbaycanı, Azərbaycan istiqlalını baltalayan qaragüruhların əməli olduğunu qeydlə, cahan mühakiməsində böylə əməllərin ancaq 3-5 müqəssirlərə deyil, bütün millət öhdəsinə atılacağını, millət hesabına yazılacağını, millətimiz, hökumətimiz və istiqlalımızı qaralayacağını, ləkədar edəcəyini [ləkələyəcəyini] qeydlə, soldan gələn qırmızı bolşevik kimi, sağdakı bolşeviklərlə də mübarizə edilməsini tələb edir, deyir ki:

Azərbaycan məmləkətində, millətlər arasına nifaq salan bu cür hərəkətlərə yer veriləmməz. Millətlər münasibatı [münasibətləri] gərgin olan böylə bir zamanda ermənin vaqondan çıxarılmasına laqeyd baxmaq olmaz. Hökumətimiz böylə hərəkətlər müqabilinə qəti tədbirlər görüb, müqəssirlərə şiddətli cəzalar verməlidir.

Fətəli xan Xoyski - Sorğuya Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətləri cavab verərək bəyan edirlər ki:

“Guya Sarkisyan nam [adlı] bir şəxsin vaqondan çıxarılıb aparılması haqqında verilən bəyanat əsassızdır. Qəzetələr yazırdılar ki, guya Sarkisyanın aparılmasında Azərbaycan əsgərləri də iştirak etmişlərdir. Bu xəbəri eşitcək, mən Hacıqabulda duran əsgərlərimizin komandanına teleqraf çəkərək istizah etdim [izahat istədim], cavab aldım ki, əsgərlər tərəfindən heç vaxt böylə iş görülməmişdir. Hətta Hacıqabulda böylə iş olduğu ona məlum deyildir. Sonra bizə xəbər verdilər ki, Sarkisyan adlı bu erməni zabiti rakı [araq] aparırmış. Özünü də, malını da vaqondan düşürmüşlər, bəratülqövl [protokol] yazıb rakını saxlamışlar, Sarkisyan isə o biri qatarla yola düşmüşdür.

Son zamanlar, bəzi bədxahlar Hökuməti ləkələməyə çalışdıqlarından, mən bu işə ciddən baxdım. Qəzetələrdə bir xəbər də var idi ki, Hacıqabulda 13 ermənini vaqondan çıxarıb güllələmişlər, ancaq Qriqoryan adlı birisi qaçıb qurtarmışdır və Qriqoryan həman güllələyən adamları tanıyırmış. General Tomson da bunu mənə yazmışdı. Dərhal Daxiliyyə naziri qubernatoru, Erməni Milli Şurası nümayəndəsi və həman Qriqoryanla bərabər təhqiqat üçün Hacıqabula göndərdi. Orada bütün əsgərləri, zabitləri və sair şəxsləri Qriqoryana göstərmişlər, amma qatil dediyi adamları tanıya bilməmişdir. Bununla bərabər, qubernator təhqiqat icra edib bütün dəmiryol qulluqçularını, xüsusən müsəlman olmayanları danışdırmışdır. Məlum olmuşdur, bu şayiə qətiyyən yalan imiş. Hacıqabulda böylə bir şey olsaydı, əmin olunuz ki, qatilləri tapıb cəzalandırardıq. Bu xəbərləri bədxahlar Azərbaycan Hökumətini ləkələndirmək üçün buraxırlar. Hökumətimiz bütün caniləri təqib edir və Hökumət nəzərində hamı millət, hamı Azərbaycan vətəndaşı bərabərdir."

Rəisi-vükəlanın nitqindən sonra sosialistlər tərəfindən verilmiş zeyldəki formula oxunur:

Sosialistlər fraksiyonu tərəfindən Hökumətə Hacıqabul stasyonunda Sarkisyan adlı bir şəxsin vaqondan çıxarılması haqqında Hökumətə verdiyi sorğu xüsusunda Hökumət rəisinin verdiyi bəyanatı dinləyib və Hökumətin gördüyü tədbirləri təqdir edib, növbədəki məsələlərin müzakirəsinə keçir.

* * *

HÖKUMƏT ƏZALARININ FƏALİYYƏTİ

Yeni Vüzəra Kabinəsi [Nazirlər Kabineti] təşkil olundu. Adətə görə, Kabinə ricalının [Hökumət adamlarının] hər biri gələcək fəaliyyətinə dair bir proqram yapıb Parlaman, mətbuat və ya sair bir vəsilə [vasitə] ilə əhalini aşina qılar [məlumatlandırar]. İndiyə qədər Maliyyə, Ərzaq və Posta-Teleqraf və Türüq və Məabir vəzirlərinin [nazirlərinin] proqramlarına dara [məlumata malik] olduq. Bunların bəzi təsəvvüratını burada zikr etməyi mənfəətdən xali [mənfəətsiz, boş] bilmədik.

1) Maliyyə vəziri [naziri] Protasov cənabları qəzetə mühərririni proqramı ilə aşina qıldığı əsnada, sair mülahizatı arasında bunu da qeyd etmişdir ki: *"Nəqdiyyə məsələsini nizama salmaq, Vüzaratın [Nazirliyin] birinci vəzifələrindəndir. Kağız pulun davamı əhalini müflis edir. Buna məqami-zərurətdə ehtiyac bulunduğu halda, asayiş illərində kağızı filiz pullar ilə (mis, gümüş, qızıl) dəyişməliyiz. Əhalinin banklara rəğbət və etibarını qazanmağa çalışmalıyız ki, sandıqlarında hifz etdikləri 300 milyondan 500 milyona qədər bikar pulları banklara təhvil versinlər, ta ki, ticarət və sənaət [sənaye] ehtiyacları da həman pullarla rəf' ola [aradan qaldırıla] bilsin. Mənim ümdə məqsədim xərac [vergi] üsulunu öylə bir hala və nizama salmaqdır ki, dövlətin mədaxili məxaricini ödəyə bilsin."*

Hərgah Protasov cənabları dediyi kimi olarsa, bu bir xoşbəxtlikdir.

2) Ərzaq vəziri Lizqar cənabları məmurlarına yazdığı bir xitabnamədə deyir ki: *"Möhtəkirlərə və rüşvətxorlara aman verilməyəcəkdir. Məmurlar da mənim bu*

məsləkimə iştirak etməzlərsə, qulluqdan kənar olacaqlar."

Bəli, bu birinci dəfədir ki, əshabi-vüzara [nazirlər] möhtəkir və rüşvətçiləri mücazat altına almaq [cəzalandırmaq] fikrinə düşmüşlərdir. Çox gözəl niyyətdir. Allah tövfiq versin [kömək olsun].

3) Posta-Teleqraf vəziri Aslan bəy Səfikürdski cənabları özünün iş başına keçməsini məmurlarına xəbər verdiyi bir hökmdə böylə deyir: *"Etiqad edirəm ki, məmurlarımız kamali-sidqi-dil [tam bir səmimiyyət] ilə çalışarlarsa, vəzifə bitirməkdə kəhalət [saxtakarlıq, göz boyama] göstərməzlərsə Azərbaycan posta-teleqrafı da müntəzəm bir üsul və şəkli qəbul edəcəkdir. Məmurlarımız iştirak və müavinət [kömək] göstərərlərsə, posta-teleqraf təşkilatı da mürur ilə [vaxt keçdikcə] artar..."*

Posta-Teleqraf müəssisatı [müəssisələri] insanların damarları, ağacların rişələri [kökləri] mənzələsində [kimi] olub, məmləkətin zənginliyinə və mədəniləşməsinə böyük bir vəsilədir [vasitədir]. Posta və teleqraf müəssisatı ilə dəmiryollar arasında böyük bir rabitə vardır ki, axırkılar nizama düşməzlərsə, əvvəlkilər də pozuq bir hal ilə yaşamağa məcburdur. Böylə olan surətdə, qabaqca dəmiryollarımızın nizamına çalışmalıyız. Posta-Teleqraf Vüzəratı [Nazirliyi] şəhərlərdə və bəzi qəsəbələrdə köhnədən açılmış postaxanaları diriltməklə bərabər, bir neçə yeni xətlərin açılmasına çalışırsa, hələlik əhalimiz də buna kifayət edəcəkdir. Bizim də arzu və təmənnamız bir bu qədərdir."

Dəmiryolların halına gəldikdə, bunun pozğunluğu sair pozğunluqlarımızdan daha əşəddir [çoxdur]. Bunu Türüq və Məabir [Nəqliyyat və Rabitə] vəziri Xudadad bəy Məlikaslanov həzrətləri qəzetə mühərriri ilə yapdığı bir müsahibədə özü iqrar [etiraf] eyləyir. Böylə ki:

4) Türüq və Məabir vəziri dəmiryolların qüsuratına [qüsurlarına] dair xüsusi zənn və mülahizələrini təsvir edərkən, mühərririn nəzərini bir çox dəyərli qeydlərə cəlb etmişdir. O cənabın dediyinə görə: *"Dəmiryolun pərişanlığı müharibə əsnasından başlanmışdır. Ələlxüsus rus əsgərləri Qafqaz qitəsini tərk etdikləri əsnada yollar talan və yağmaya düçar olmuşdur. Böylə ki, Poylu mövqifindən [stansiyasından] başlayaraq Bakıya qədər bir çox istasyonlar, su anbarları və körpülər tarmar olunmuşdur. 5000 yük vaqonundan 300-ü və 250 lokomotivdən ancaq 20-30 dənəsi qala bilmişdir. Bundan əlavə, türklər Azərbaycandan çıxarkən vaqonlarımız da birbaş Batuma gedib, hələ indiyədək özümüzə qaytar[ıl]mamışlar və məlum da deyil ki, nə vədə bu vaqonlar qaytarılacaqdır. Bir çox mayəhtacın [ehtiyac maddəsinin] Azərbaycanda tapılmadığı cəhətinə həftələr, bəlkə aylarca məəttəlçilik olur."*

Rüşvətxorluğa gəldikdə, buna dair vəzirin özünəməxsus bir təsəvvürü vardır. O da bundan ibarətdir: *"Madam ki alatinəqliyyəmiz [nəqliyyat vasitələrimiz] sərnişin və yüklərin ehtiyacını rəf' etməkdə [aradan qaldırmaqda] aciz qalıb dururlar, rüşvətçilik də o vaxta qədər davam edəcəkdir. Hamı səfərindən qalmamaq, hamı yükünü yola salmaq istəyir. Yol şəraiti müsaidət göstərmədiyi halda, rüşvət məsələsi də məcburən meydana atılacaqdır. Bununla belə, rüşvətxorlara im-*

kan verilməyib hər yerdə təhti-mühakiməyə [mühakimə altına] alınacaqlar. Bu işdə əhalinin mənə köməyini vacib bilib istasyonlarda elannamələr asdırtdım ki, bəlkə rüşvətxorlardan şikayətlə mənə müraciət edələr, amma çifayda, indiyə qədər heç bir şikayət də olmamışdır. Bundan əlavə, rüşvətxorluqda hamı dəmiryol məmurlarını müttəhim etmək insafdan kənar bir işdir. Zira bunların ancaq bir zümrəsi rüşvətxorluqla mürtəkibdir [əlaqədardır], qalanı isə az bir məvaciblə qəyuranə [qeyrətlə] çalışır, vuruşur. Bunların təmini-məişəti üçün Vüzarət [Nazirlik] var qüvvəti ilə çalışacaqdır."

Vəzirin bu iradını oxuduqca, ürəkdən qara qanlar axıb gedir. Görünür ki, təzədən dəmiryol xətləri çəkməyə hələ heç bir ümid bağlamamalıyız. Zira köhnə dəmiryolunun məxrubələrini [xarab yerlərini] düzəltmək üçün sadə və xırdaca mayehtacı belə dərdəst edə [əldə edə] bilməyiriz. Əhalinin ehtiyacı çox, dəmiryolu isə azdır. Qarabağ, Şirvan, Zaqatal və Culfa dəmiryollarının lahiyəsi – ki sabiq rus hökumətinin vaxtındandır – görünür ki, yenə bir müddət, bəlkə xeyli müddət təxirə düşəcəkdir. Vətənin dəmiryolları artmazsa, əhalinin maarif işləri də ona nisbət artmayacaqdır. Zira bunların arasında sıxı bir rabitə vardır. Ticarət də həmçinin, tərəqqi tapmaz.

Əlhasil, Azərbaycan mədəniyyəti onun dəmiryollarına bağlıdır ki, bu məsələ gərək hamını düşündürsün, maraqlandırsın. Dəmiryolların xarabəliyinə çalışan şəxslər ümumən bəşərin, xüsusən də Azərbaycanın düşmənləridir. Bunu hamı bilsin.

Fərhad Ağazadə

TELEQRAF XƏBƏRLƏRİ

Bağdad dəmiryolu

London - Bağdad Dəmiryolunun İstanbulda bulunan baş mühəndisi Huqenin "Verdem-preys" qəzetəsinin müxabiri [müxbiri] ilə müsahibə edərkən demiş:

"Noyabr ayında dəmiryolu Tavr dağlığından keçirmişik. Mosulun şərq cəhətinin yüz ağaclığında vaqe Nisbin mövqeyinədək qatarlar gedə bilir. Dəmiryolu yaxşı halda isə də, fəqət iqtizayi-hərbiyyəyə [hərbi zərurətə] görə qatarlar fənalaşmışdır. Yük vaqonlarının əksəri işə yarayır, amma parovozların üçdən iki hissəsi büsbütün işdən kənar edilməlidir. Bu məhdudata baxmayaraq, hər gah kömür qıtlığı olmasaydı, İstanbul ilə Nisbin arasında dəmiryol tərəddüdatını [gediş-gəlişini] davam etdirmək olardı. Bu dəmiryolunda çalışan alman mühəndislərinin əksərinin xüsusi bir hazırlıqları vardır. Onlarsız dəmiryol işləyə bilməz. Hər gah Müttəfiqlər alman mühəndisləri əvəzinə öz mühəndislərini qoyacaq olsalar, onlar iki ay alman mühəndislərinin əli altında çalışmalıdırlar. Ancaq iki ay çalışdığından sonra Müttəfiqlərin mühəndisləri məsuliyyəti öz öhdələrinə ala bilərlər."

Xəlici-farsadək [Fars körfəzinədək] dəmiryolunun çəkilməsi vaxtından bəhs edən Huqenin demişdir ki: *"Bu məsələ Beynənnəhreyndə İngiltərənin gördüyü işdən asılıdır. Nisbindən şərqə tərəf türklər tərəfindən çəkilmiş olan dəmiryol xətti təzədən təmir edilməlidir. Zira bu dəmiryolunu təcilən çəkdiklərindən, malın pisi işləndiyindən, xətt yenidən təmirə möhtacdır. Hər gah hər iki tərəfdən yolun təmirinə başlanarsa və kifayət edə-*

cək qədər dəmiryol ləvazimatı və əmələ [fəhlə] olarsa, o zaman iki ildən sonra dəmiryol qatarı Xəlici-farsadək işləyə biləcəkdirlər."

TÜRKİYƏDƏ

İzzət Paşa kabinəsinin səbəbi-istefası

Məlum olduğu üzrə Tələt paşa kabinəsinin istefası üzərinə Əhməd İzzət paşa kabinəsi iş başına gəlmiş və Müttəfiqlərlə mütarikə əqd eyləmişdi [atəşkəs imzalamışdı]. Mütarikənin əqəbində [atəşkəsdən sonra] Əhməd İzzət paşa kabinəsində olub, sabiqən [keçmişdə] hərb Kabinələrində [müharibə dövründəki Kabinetlərdə] dəxi iştirak etmiş olan Maliyyə naziri Cavid bəylə Ədliyyə naziri Xeyri bəylərin İzzət paşa Kabinəsində qalmalarına təhəmmül olunmaz [dözülməz], deyə əfkari-ümumiyyədə [ictimaiyyətdə] hökumət əleyhinə bir cərəyan başlayır. Sonra Əyan rəisi Əhməd Rza bəy Zati-şahanə naminə [padşah adından] Kabinə rəisinə təbliğ edir ki, Sultan dəxi bu zəvatın [şəxslərin] Kabinədə olmamalarını arzu edir və bu arzusunun bir an əvvəl cari olmasını [gerçəkləşməsini] diləyir. Bunun üzərinə Əhməd İzzət paşa padşahın Kabinənin işinə qarışması mənasını çıxa[ra]raq istefanaməsini yazır və istefanamədə *"Riayətinə and içdiyimiz Qanuni-əsasi [Konstitusiya] ilə Kabinə əzasının [üzvlərinin] təşkili Sədrəzəmə [Baş nazirə] aid olduğundan, bu xüsusa müdaxilə olunammaz"* məalında [mənasına gələn] bir cümlə işlədir. Sultan istefanı qəbul edirsə də, Qanuni-əsasiyə müxalifət babındakı fəqərəni [qeydi] qəbul etməyərək, bu cəhətin təfsirini [qiymətləndirilməsini] Əyan məclisinə həvalə edir. Əyan məclisi qapalı surətdə əqd eylədiyi [keçirdiyi] iclasında Əhməd İzzət paşanın izahatını dinləyərək və bu izahı ilə "sözünü" geri aldığını nəzərə alaraq maddənin təfsirinə ehtiyac görmədən məsələni qapamış olur.

Əhməd Rəfiq bəyin təltifi

Türklük naminə fövqəladə fəxr və ibdihacımızı mövcib olan [sevincimizə səbəb olan] bir xəbər aldıq. Müvərrix [tarixçi] Əhməd Rəfiq bəy "Dəmirbaş Şarl" namı ilə təlif etdiyi [yazdığı] əsərdən dolayı İsveç hökuməti tərəfindən "Vaza" nişanı ilə təltif edilmişdir. Bundan başqa, bu əsəri İsveç lisanına tərcümə edən "Karolin" cəmiyyəti də müvərriximizə 10 min frank mükafat göndərmişdir. Biz bunu millətimizin məasəri-mədəniyyəsi [nəhəng mədəniyyət əsərləri] naminə böyük bir məzhəriyyət [nailiyyət] ədd [hesab] ediriz. Elm sahəsində bir mütəxəssisimizin əsəri İsveç lisanına tərcümə olunsun, müəllif təqdir edilərək nişan və mükafati-nəqdiyyə [pul mükafatı] ilə təltif edilsin. Zənn ediriz ki, bu hal ilk dəfə olaraq vaqe olmuşdur. Bu səbəblə, vəq'ə [hadisə] bir qat daha qiymət və əhəmiyyət kəsb etmiş [qazanmış] olur. Türk mədəniyyət və ürfanı naminə ehraz etmiş [qazanmış] olduğu bu müvəffəqiyyətdən dolayı Əhməd Rəfiq bəyə ən-səmim [ürəkdən] bəyani-təbrikat edəriz [təbriklərimizi bildiririk].

Müvərrix Əhməd Rəfiq bəy "Lalə dövrü", "Qabaqçı Mustafa", "Qadınlar səltənəti", 6 cildi nəşr olunan "Böyük

tarixi-ümumi" ilaxır kimi asari-tarixiyyəsi [tarixi əsərləri] ilə kütübxaneyi-ürfanımıza pək qiymətli kitablar əlavə eyləmiş, tarixi-mədəniyyəmizin [mədəniyyət tariximizin] bir çox müzlim [qaranlıq] nöqtələrini tənvir eyləmişdir [işıqlandırmışdır]. Məktəbi-hərbiyyədən 1314 sənəsində nəşət edərək [məzun olaraq] məkatibi-əsgəriyyədə [hərbi məktəblərdə] 12 sənə müəllimlik etmiş və mütəaqibən [onun ardınca] Ərkani-Hərbiyyeyi-Ümumiyyə dairəsi [Baş Hərbi Qərargah] Cəridə qisminə [Mətbuat Şöbəsində] təyin edilmiş olan Tarixi-Osmani Əncüməni əzasından [üzvlərindən] Əhməd Rəfiq Bəy, silki-əsgəridən [hərbçilər təbəqəsindən] istefa edərək, bütün zəka və fəaliyyətini Osmanlı tarixinə vəqf [həsr] eyləmişdi. Şayani-təəsüf [təəssüfə layiq] olan cəhət, böylə müqtədir [qüdrətli] bir müvərriximizin kəndi məmləkətimizdə hənüz məzhəri-mükafat və təltif [mükafata və təltifə nail] olmamış olmasıdır. Bu kimi işlərdə əcanibin [əcnəbilərin] qədirşünaslığına baxaraq, düçari-hicab olmamaq [utanmamaq] əldən gəlmir. İsveç hökumətinin məzhəritəqdir və təltifi olan müvərriximizi təbrik edərkən, bizdə şimdiyə qədər göstərilən laqeydiyə təəssüfxan oluruz [təəssüf deyirik].

"Yeni gün"

Səlaməti-ammə [ictimai asayiş] heyəti

Müsaliheyi-ümumiyyə qarşısında bulunduğumuz şu əyyami-nazikə və mühimmədə əfkar və hissiyyati-məmləkəti vəsaiti-iqnaiyyə ilə cahani-mədəniyyətə iblağ və mövcudiyyəti-milliyyəni surəti-asayiş-pərvəranədə ibraz və müsaliheyi-ümumiyyədə Osmanlıların hüquqi-təbiiyyə və müktəsəbəsini müdafiə və elaya əlbirliyi ilə çalışmaq məqsədi və "Səlaməti-ammə heyəti" ünvanı ilə İstanbulda bir cəmiyyət təşkil etdiyini istixbar etdik. [Ümumi sülh qarşısında olduğumuz bu həssas və mühüm günlərdə ölkəmizin fikir və hisslərini qaneedici vasitələrlə mədəni dünyaya çatdırmaq və milli varlığı asayişsevər bir surətdə nümayiş etdirmək və ümumi sülhdə Osmanlıların təbii və qazanılmış haqqlarını müdafiə etmək və ucaltmaq işində birgə çalışmaq məqsədi ilə İstanbulda "İctimai asayiş heyəti" adlı bir cəmiyyət təşkil edildiyi xəbərini aldıq.]

Cəmiyyətin heyəti-idarəsi şu zəvatdan mürəkkəbdir [Cəmiyyətin idarə heyəti bu şəxslərdən ibarətdir]: Beyrut valiyisabiqi [keçmiş Beyrut valisi] Ədhəm bəy, mühərririni-Osmaniyyədən [Osmanlı yazıçılarından] Asəf Müəmmər bəy, Şurayi-Dövlət əzayi-sabiqəsindən [Dövlət Şurasının keçmiş üzvlərindən] Rəşad Fuad bəy, Darülfünun müdərrislərindən [Universitet müəllimlərindən] Fatin əfəndi, mühərririni-Osmaniyyədən Mahmud Sadiq bəy, Qırxkilsə [Kırklareli] məbusi-sabiqi [keçmiş millətvəkili] Mustafa Arif bəy, minbaşı [mayor] Nahid bəy, mühərririni-Osmaniyyədən Nüzhət Sabit bəy.

Cəmiyyətin proqramı şundan ibarətdir:

Maddə 1.

Bütün firqələrin xüsusi qayələri fövqündə bir "Səlaməti-ammə heyəti" təşəkkül etmişdir.

Maddə 2.

Heyətin məqsədi, xarici və daxili təzyiqat [təzyiqlər] təsiri ilə şimdiyə qədər mükni olan [üstü örtülən, inkişaf etməsinə imkan verilməyən] əfkar və hissiyyatiməmləkəti cahani-mədəniyyətə iblağ və

mövcudiyyəti-milliyyəni surəti-asayişpərvəranədə izhar və müsaliheyi-ümumiyyədə Osmanlıların hüquqi-təbiiyyə və müktəsəbəsini bihəqqin [layiqli şəkildə] müdafiə etməkdir.

Maddə 3.

“Səlaməti-ammə heyəti” əfkar və hissiyati-məmləkəti təmsil edən Zatişövkət-simati-Həzrəti-xilafət-pənahinin səlaməti-mülkü millətə mətuf amali-mülükanələri [ölkənin və millətin salamatlığını nəzərdə tutan şahlara layiq arzuları] ətrafında toplanmağı bir vəcibə [məcburiyyət] ədd [hesab] edir.

“Vakit”

Suriya və Havran istiqlalı

İngiltərə hökuməti 3 təşrini-əvvəl [dekabr] tarixi ilə nəşr etdiyi [yaydığı] rəsmi bir təbliğdə Fərat ilə Suriya arasında sakin [yaşayan] bədəvilərlə Suriya və Havran ərəblərinin istiqlalını təsdiq etmişdir. Məlum olduğu üzrə, Hicazın istiqlalı Fransa, İngiltərə və İtaliya tərəfindən 1916 sənəsindən bəri təsdiq edilmiş bulunur.

“Vakit”

İstanbuldan alınan xəbərlərə görə “Sabah” qəzetəsi yazır ki, biz Cəmiyyəti-əqvama [Millətlər Cəmiyyətinə] daxil olub-olmamağımızı bilməyirik.

Cəmiyyəti-əqvam nə məqsəd təqib edir? Cəmiyyəti-əqvam bir hökumətin digər hökumət haqqında hər cür ədalətsizlik və təcavüzlərinə mümaniət [maneçilik] göstərəcəkdir. Keçmişdə bizim haqqımızda bir çox ədalətsizlik olmuşdur. Mümkündür ki, gələcəkdə də bu cür olsun. Cəmiyyəti-əqvam bizi müdafiə edə bilər. Ona görə də biz Cəmiyyəti-əqvama daxil olmağa çalışmalıyız.

Türkiyə limanları arasında münasibat [rabitə]

“İstanbul” qəzetəsinin verdiyi məlumata görə, bu yaxın vaxtlarda Türkiyə gəmiləri ilə İstanbul Qara dəniz və Adalar [Egey] dənizi limanları arasında münasibat [əlaqə] başlanacaqdır.

QƏZETƏLƏRDƏN

Rusiyada

Moskvadan xəbər verirlər ki, bolşevik əsgərləri Volmar [Valmiera] şəhərinə daxil olmuşlardır. Yuryev [Tartu] şəhəri də bolşeviklər əlinə keçmişdir.

* Bolşeviklər almanlar tərəfindən təxliyə edilməkdə olan Belorusiyanı tədriclə zəbt etməkdədirlər. Şəhərlər və kəndlər bolşevik əsgərləri tərəfindən işğal olunmaqdadır.

Müttəfiqlər Batumda

Batumda olan hamı müəssisələr Müttəfiqlər tərəfindən təhvil alınmışdır. General-qubernator nəzdində bir şura təşkil edilmişdir ki, bu şuraya gürcülərdən və ruslardan iki nümayəndə, qalan millətlərdən isə birər nümayəndə dəvət edilmişdir. Gürcü müsəlmanları bir nəfər nümayəndəyə razı olmadıqlarından, mitinq dəvət edib, gürcü müsəlmanları nümayəndələrinin ədədinin artmasını tələb etməyi qərara almışlardır. Şəhər idarəsi məzkur [adı keçən] şura üzvlərinin təyin edilməyib milli şuralar tərəfindən intixab olunmasını [seçilməsini] general-

qubernatordan xahiş etmişdir.

Batuma gəlmək və Batumdan çıxmaq şəraiti [şərtləri] yüngülləşdirilmişdir. Tiflis ilə Batum arasında dəmiryol münasibatı [rabitəsi] başlanmışdır. Poçta və gömrükxana dəxi fəaliyyətə başlamışdır. General-qubernator nəzdində olan şuradan müşahidə olunan narazılıq gəldikcə artmaqdadır. Şura tərəfindən Batum oblastında təyin edilən məmurları acaralılar [acarlar] qəbul etməyib, həman yerlərə acaralılardan təyin edilməsini tələb edirlər.

Gürcü heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] Yevropaya əziməti [yola düşməsi]

Gürcüstan Hökuməti tərəfindən işbu nümayəndələr Parisə azim olmuşdur [yola düşmüşdür]: Heyəti-mürəxxəsə sədri [N. S.] Çxeidze, üzvlər [İ. G.] Sereteli, [N. Y.] Nikoladze, [İ. P.] Qobeçiya, Q. Rtsxiladze; müşavirlər isə professor Cavaxov, general Odişelidze, doktor [V.] Qambaşidze və Qeabe, heyəti-mürəxxəsə işləri müdiri [İ. İ.] Zurabov, onun müavinləri [Y.] Demolon-Sereteli və [Q. A.] Qoqelaşvili.

Rus gəmilərinin Müttəfiqlər tərəfindən zəbti

Sevastopoldan xəbər verirlər ki, hamı rus hərbi gəmiləri ingilis-fransızlar tərəfindən zəbt edilmişdir. Müttəfiq gəmiləri komandanının binagüzarlığına [sərəncamına] görə rus gəmilərində olan bayraq, Müttəfiq dövlət bayraqlarına təbdil edilmişdir [dəyişdirilmişdir].

Petroqradın halı

Petroqradın halı çox fənadır. Hər gün küçələrdə acından ölənlərə təsadüf etmək olar. Şəhərin əhalisi 800.000-dək əskilmişdir. Mağazaların dörddən üç hissəsi bağlıdır. Tramvay işləmir. Gecə-gündüz də ancaq 2 saat elektrik işlətmək olur.

Şeyx Feyzullah və İngiltərə

Bu gün Qlazqoda Şeyx Feyzullaha məxsus təntənəli bir məclis açılmış, şəhər rəisi Hicaz kralını Müttəfiqlərə qoşulması ilə artıq tərif eyləyir, lord-mer [Bələdiyyə sədri] sözünə davamla deyir:

"Şeyx Feyzullah layiqli atanın layiqli oğludur və nəcib ərəb millətinə layiq bir nümayəndədir. (Alqış) O, ərəblərin köməyini Müttəfiqlərdən müzayiqə etməmişdir [əsirgəməmişdir]. Müttəfiqlər ümid olurlar ki, ərəb milləti haqlarına malik və beynəlmiləl müavinətə məzhər [köməyə nail] olarlar."

Feyzullah nitqə cavab olaraq demiş:

"Ərəblərin İngiltərəyə olan səmimiyyəti bundan bəllidir ki, özünü ingilis adlandıran hər bir şəxs bütün Ərəbistanda asudə yaşamışdır."

Mal gətirilməsi

Fransadan rəsmi surətdə Sevastopola verilən xəbərlərə görə, bu axırıncı həftə müddətində məmaliki-əcnəbiyədən [xarici ölkələrdən] bir çox mal, ələlümdə [ən əsası] manufaktura malı gətiriləcəkdir. Buna binaən [buna görə], bir çox şeylərin qiyməti aşağı düşməkdədir. Alış-verişçilər təzə mal gözlədiklərinə görə mal almayırlar.

Dövlətlərin tərk-silahı

Londondan teleqraf edirlər ki, İngil-

tərə Kabinəsi Sülh Konfransında hamı Avropa dövlətlərinin tərk-silah edilmələri təklifini etməyi qərara almışdır. İngiltərənin bu təklifi gözlənilməyən bir surətdə aşkar olmuşdur. Hamı hökumət nümayəndələri bu maddə haqqında xeyli ehtiyatla danışmışlardır. Axırıncı alınan xəbərlərə görə, Avropadaki əhval münasibəti ilə əsgərlərin çox hissəsinin silah altında saxlanması fikri meydana çıxmışdır.

Trabzon imperiyası

İstanbulda rumlar tərəfindən bir komitə təşkil edilmişdir. Bu komitə, yunanlılara məxsus Trabzon imperiyası təşkil edəcəklərmiş.

Vilson İspaniyada

Son məlumata görə, Vilson hal-hazırda İspaniyadadır.

* Fransa ilə İngiltərə müntəzəm qoşunları əvəzinə Rusiyaya könüllü dəstələri göndərmək üçün layihə hazırlamışlardır.

* İngiltərə hökuməti bolşeviklərlə mübarizədən ötrü Polşadan istifadə etmək istəyir.

* Bolşeviklərin məlumati-rəsmiyyələrinə nəzərən [rəsmi məlumatlarına görə], bolşeviklər Riqanı işğal etmişlərdir.

BAKI XƏBƏRLƏRİ

Parlaman üzvü və Dövlət Müfəttişi müavini Əliağa Həsənov, vəzirin [nazirin] getdiyinə görə, onun vəzifəsini ifaya başlamışdır.

* Erməni Milli Şurası sədri Yakov Qukasov vəfat eyləmişdir. Mütəvvəfa [mərhum] ermənilər arasında qayət nüfuzlu bir şəxs idi. Özü də “Daşnak” firqəsinə mənsub idi.

* Parlaman tərəfindən Qarabağa göndərilmiş olan heyət, başda X[osrov] b. Sultanov olmaq üzrə Bakıya övdət eylədi [qayıtdı]. Mümaileyh [adı keçən şəxs] Andranikin Qarabağda etdiyi məzaliməsi [zülümləri] barəsində qayət dəyərli sənədlər gətirmişdir ki, bu günlərdə qəzetələrdə çap ediləcəkdir.

* Gəncə Müsəlman Cəmiyyəti-xeyriyyəsi sədrinə Ərzaq Nəzarəti tərəfindən 200 tay bez buraxılmışdır.

Məktəblilər məcmuəsi

Eşitdiyimizə görə, bu günlərdə şəhərimizdə türkcə olaraq oğlan və qız məktəblilərindən ötrü iki həftəlik “Çocuq” adlı müsəvvər [şəkilli] bir məcmuə [jurnal] çıxarılacaqdır.

Quba uyezdindən taxıl çıxartmaq barəsində

Bir neçə gün bundan əqdəm [qabaq] Xariciyyə Nəzarəti bilavasitə teleqrafla Dağıstan Cəmahiri-Müttəfiqə [Birləşmiş Respublikaları] Hökuməti nümayəndəsindən xəbər almış ki, guya Quba uyezdinin polis nəfəratı [nəfərləri] Dağıstan üçün taxıl alınmağa mümaniət [maneçilik] göstərirlər. Bu barədə Xariciyyə Nəzarəti Ərzaq nazirindən istədiyi məlumata Ərzaq Nəzarəti cavab verib deyir ki, Quba uyezdindən ərzaq və sair ehtiyacati-zəruriyyə almaq ixtiyarı yalnız Ərzaq Nəzarətinin ixtiyarındadır. Çünki qoşun üçün, əhali üçün ərzaq ehtiyatı ancaq bu uyezddən

yığılacaqdır. Buna görə də kənar adamların bu uyezddə taxıl alması Hökumət tərəfindən qadağan edilmişdir.

* Dağıstan Cəmahiri-Müttəfiqəsi dairəsində ərzaq almaq üçün Ərzaq Nəzarəti tərəfindən Yurvin Qalinovski təyin edilmişdir. Məzkur vəkilə 1 milyon yarım miqdarında pul verilmiş ki, ticarət işində əlində sərmayə etsin.

QAFQAZİYA MÜSƏLMAN MÜTƏƏLLİMLƏRİNİN [TƏLƏBƏLƏRİNİN] MƏRKƏZİ KOMİTƏSİ TƏRƏFİNDƏN

Ümum mütəəllimin [bütün tələbələrin] və vətəndaşların nəzər-diqqətinə.

Ümum Bakı mütəəllimlərinə xəbər verilir ki, bir çox arxadaşlar hələ bu vaxtadək "Gənclər sədası" qəzetələrinin satışından hasil olan para haqqında hesab verməyibdirlər. Məzkur [deyilən] arxadaşları hələ Mart hadisatından [hadisələrindən] əqdəm [əvvəl] dəfəatla [dəfələrlə] dəvət etmişiz və əlahiddə olaraq hər birinin ünvanlarını bilmədiyimiz cəhətdən onları rəsmən müxbir [xəbərdar] etmək bu tərzlə kafi görüldü. Rica ediriz fevral ayının 1-dək hesab verilsin. Bu vaxtadək hesab verilməzsə, məəttəəssüf [təəssüf ki], hesab verməyən arxadaşların familyalarını qazetədə elan etməyə məcbur olacağız.

Arxadaşlardan çox rica olunardı ki, bizi bu növ əlaqədə bulunmağa məcbur etməyəydilər. Həmçinin, Mart hadisatından əqdəm Mərkəzi Komitənin nəfinə [xeyrinə] ianə toplamaq üçün imza vərəqələri alan möhtərəm əşxasa [şəxslərə] xəbər veririz ki, məzkur vərəqələrin qəbuluna yanvarın 1-dən şüru olunmuşdur [başlanmışdır].

Mərkəzi Komitənin sədri:
Həmid Məhəmmədzadə
Katib: Əbdülvahab Məhəmmədzadə
Ünvan: Persidski 121. Əliyusif Cəfərzadənin evində, saat 3-dən 6-dək.

ƏRZAQ İŞLƏRİ

- Ərzaq Nəzarəti Azərbaycan Hökumətinin Şurayi-Vükəla Rəisi [Baş naziri] namına [adına] yazmış olduğu məktubda deyir ki: Ticarət və Sənaət Nəzarəti [Ticarət və Sənaye Nazirliyi] Bakıdan mal çıxarmaq üçün Ərzaq Nəzarətindən verilmiş olan icazə vəsiqələrini təsdiq etmək əvəzinə, vəsiqə sahiblərinin vəsiqələrini əllərindən alıb Ərzaq Nəzarətinə qaytarmaqdadır. Sənaət və Ticarət Nəzarətinin bu hərəkəti Ərzaq Nəzarətini nəzəri-etinaya [diqqətə] almamazlıq deməkdir. Buna görə xahiş olunur Sənaət və Ticarət Nəzarətinə binagüzarlıq [sərəncam] verəsiniz ki, bundan belə böylə müamilədə [rəftarda] bulunmayıb, Ərzaq Nəzarəti tərəfindən verilmiş olan icazə vəsiqəsini təsdiqlə növbədənxaric sahibinə qaytarsın.

- Mərkəzi Ev Komitəsinin Ərzaq şöbəsi, Ərzaq Nəzarətinə müraciətlə Gürcüstandan Bakıya lazımi şeylər gətirməkdən ötrü Bakıdan Gürcüstana 10 min put düyü aparılmasına icazə verilməsini xahiş etmişdir. Ərzaq Nəzarəti Mərkəzi Ev Komitəsinin bu xahişini rədd ilə cavab vermişdir ki, mal dəyişdirmək işində hal-hazırda ehtiyatla davranmağa məcburuq.

Çünki mal dəyişdirmək əməliyyatı başlandıqda, mal alıcısı artdığından, biz aldığımız malın qiyməti məhəllində [yerində] artıb, biz təklif etdiyimiz malın isə qiyməti aşağı düşür. Bundan ötrü bu tövr mənfəəti olmayan bir işi bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü zənnimizcə bu və ya digər rayonda vahid mal alıcı təşkilatı vücuda gətirilməlidir. Bu təşkilata da hamı dövləti və ictimai müəssisə nümayəndələri daxil olmalıdır. Bununla bərabər, bu barədə də öz rəyinizi bildirməyi xahiş edirəm.

- Balıqçılar İttifaqı Komitəsi, Ərzaq Nəzarətinə ərizə verib balıqçılar ehtiyacatı üçün 100 put qənd və 4 put çay istəmişdir. Ərzaq Nəzarəti, Balıqçılar İttifaqı Komitəsi ixtiyarına 30 put qənd və 2 put çay buraxılmasına icazə vermişdir. Bu şərtlə ki, bu qənd və çay ancaq balıqlarını Bakı bazarına gətirən balıqçılara verilsin. Qəndin girvənkəsi 7 manatdan və çay isə 40 manatdan balıqçılara buraxılmalıdır. Balıqçılar İttifaqına isə qənd 6 manatdan, çay 35 manatdan buraxılacaqdır. Bundan əlavə, qəndin və çayın balıqçılar arasında təqsim olunması [paylanması] haqqında hesab təqdim etməlidir.

- Ərzaq Nəzarəti, Maliyyə nazirinə müraciət edib Hökümət qərardadına görə Şurayi-Vükəla Rəisinə [Baş nazirə] məxarici-cariyyə [cari xərclər] üçün milyon yarım və Quba uyezdi ilə Dağıstan oblastında ərzaq şeyləri almaqda olan vəkil Yurvin Qalinovskiyə yetirməkdən ötrü, Ərzaq Nəzarəti xəzinədarı Koroçkinə bir milyon manat buraxılması üçün binagüzarlıqda bulunmasını [sərəncam verməsini] xahiş etmişdir.

- Ərzaq Nəzarəti, Maliyyə nazirinə müraciətlə Hökumət qərardadına görə Bakıya taxıl gətirməkdən ötrü müahidənamə əqd etmiş [müqavilə bağlamış] olan Dağıstan Hökumətinin siyasi nümayəndəsi Ə. Kantemirov ixtiyarına bir milyon manat buraxılması binagüzarlığında bulunulmasını xahiş etmişdir.

- Ərzaq Nəzarəti, Azərbaycan Hökuməti vəkili ilə Dağıstan Hökuməti vəkili arasında əqd edilən müahidənamə mövcibincə [əsasında] Yurvin Qalinovskini Ərzaq Nəzarətinin agenti sifəti ilə Dağıstan oblastının cənubi hissəsinə göndərir ki, ərzaq şeyləri alıb ancaq Bakıya Ərzaq Nəzarəti adına göndərsin. Hələlik məzkur [adı çəkilən] acentə ixtiyarına milyon yarım para buraxılır. Lazımi təqdirdə yenə də para buraxılacağı vəd edilmişdir. Bu barədə Ərzaq Nəzarəti məzkur acentəyə xüsusi bir düsturüləməl [protokol] dəxi vermişdir. Həmin acentə iki həftədə bir dəfə aldığı mallar və xərc etdiyi paralar haqqında Ərzaq Nəzarətinə hesab göndərməlidir.

ALLAH TƏALA RƏHMƏT BUYURSUN

Şamaxı əalisindən [böyük adamlarından], qaçqınlar zümrəsindən, sizin sabiq müxbiriniz, mühərririniz, şairiniz Əhməd bəy Atamalıbəyov “Nafiz Şirvani” təxəllüs, bu gün rəbiülaxirin 2-də, dari-fənadan dari-bəqaya rəhlət buyurdu [müvəqqəti aləmdən əbədi aləmə köçdü]. Naxoşluğu isə yatalaq olub əlac-pəzir olammadı [əlacı tapılmadı].

Gəncə gimnaziya müəlliməsi:
Gövhər xanım Cəfərzadə

İdarədən: "İrşad" və "Tərəqqi" qəzetələrinin Şamaxı şəhərindən xüsusi müxbiri olan və bir az bundan əvvəl "Azərbaycan"da da yazmağa başlamış olan mərhum Əhməd bəyin millətpərəst və insaniyyətdost bir zat olduğu, əsərləri olan məqalələrindən, xəbərlərindən və şeirlərindən məlum idi. Mərhumun vəfatı böyük bir yə'simizə [matəmimizə] səbəb oldu. Görünür ki, Şamaxı fəlakəti, əhlini nerədə olsalar da təqibdə hələ davam edir və millət yolunda çalışanlarımızı da əlimizdən alır. Haqq-təala mərhumu qəriqi-rəhmət buyurub [rəhmətə qərq edib], qövm-əqraba və dost-aşnasına səbri-cəmil əta buyursun [gözəl səbir bəxş eləsin]. Amin.

BİZƏ YAZIRLAR

Gəncədən:

Gəncədə qabaqda, yəni rus dövründə, Gəncə Bələdiyyə dairəsinin şəhər kitabxana[sı] ilə onun yanında qiraətxanası var idi. Əhalinin münəvvər [ziyalı] qismi bu kitabxanadan müstəfid olurdular [istifadə edirdilər]. O vaxtlar həmin kitabxanaya Rusiyadan və ayrı yerlərdən çox qəzetə və jurnallar gəlirdi.

Kitabxana, qabaqları, müharibədən əvvəl məxsus Gəncə Bələdiyyə dairəsi üçün tikilmiş binanın bir odasında [otağında] yerləşdirilmişdi. Qafqaz cəbhəsində müharibə başlandıqda, bu bina xəstəxana altına alınaraq yaralılara yer oldu. Kitabxana ayrı bir evə köçərək, Bələdiyyə dairəsi də özgə bir binada yerləşdirildi. Gəncədə anarşidən biraz qabağa kimi kitabxana üç il idi ki, həmin evdə idi. Bu vaxtlar ev sahibi, evini kəndinə lazım olduğundan dolayı kitabxanadan boşaltdırdı. Buna görə kitabxananı Bələdiyyə dairəsinin olduğu tikiliyə köçürərək orada həbs etdilər. Kitabxananın qiraətxanası isə hələ noyabrın soyuqlarına baxmayaraq şəhər bağındakı yay binasında Tiflis və Bakı qəzetələrini, qəzetə maraqlılarına üşütdürərək oxudurdu. Anarşi yavaş-yavaş baş qaldırıb kəndini göstərməyə başladıqda, Tiflis və Bakı qəzetələri də qiraətxanadan yoxa çıxdı. Çıxmasaydı da, heç kəs dekabrın soyuğunda, bağın bir küncündə qəzetə üçün donmağı istəməyəcəkdi və bir rublə verib kəndi ocağı yanında oxumağı tərcih edəcəkdi.

Xülasə, Gəncə kitabxanasının kəndisi, Gəncə Bələdiyyə dairəsinin bir odasına həbs olunduysa da, qiraətxanası təbii ölümlə canını tapşırdı. Anarşi getdi, həyat adi axıntısına düşdü. Hələ Gəncə Bələdiyyə dairəsi heyətinin və rəisinin böylə mühüm məsələni unutmağına və ya unutmayıb da əhəmiyyət verməməsinə təəccüblərlə bu məsələyə diqqət verilməsini arzu edirik.

Gəncədə ayrı məktəb və klub kitabxanaları da var. Məktəb kitabxanalarından şayani-diqqət [diqqətəlayiq olan] mədrəsə kitabxanasıdır. Bu kitabxana həmin mədrəsə açıldıqda çalışqan müdir və müəllimlər tərəfindən tərtib olunaraq, türk dilində bir çox elmi və fənni [texniki] kitabları vardır. Mədrəsə, vicdansızların danosları ilə tənəzzülə düşdükdə, tənbəl və uzun əllər kitabxananı da tənəzzülə saldılar. Kitabxananın lüğət və üsuli-tədris kitabları çalınaraq [oğurlanaraq], yerdə qalanlarını kitabxanada tozlar basıb qurtardı.

Şayani-diqqət burasıdır ki, çalınan kitablardan bazarda satıldığı vaxt görülüb, para ilə alınıb yenə mədrəsəyə gətirilmişdir.

Qənbər oğlu Qasım

Məhəmməd Əmin Rəsulzadə cənablarına telefonla “Açıq söz” kolleksiyonu təklif edən zatdan [şəxsdən] rica olunur ki, mümkünsə şəxsən görüşsün və yaxud adresini bildirsin.

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Mama M. K. Şerman

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə. Telefon 24-62.

Türk təqvimi

Yeni və əski üsullar ilə türk təqvimi

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır. Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

b-38 10-9

Bakı Obşestvennı Sobraniyasının [İctimai Yığıncağının] müvəkkil şurası

Kluba gələn zəvata [şəxslərə] məlum edir ki, cəmiyyətin 21-ci maddəsi mövcibincə [maddəsinə əsasən] bu ayın 10-undan şəhərin əbədi [daimi] əhalisi cəmiyyətə qonaq sifəti ilə buraxılmayacaqdır.

Düşənbə [bazar ertəsi] günü 1919-uncu ilin yanvar ayının 13-də Bakı Obşestvenni Sobraniyasına namizəd verilənlərin intixabı [seçkisi] olacaqdır.

Qeyd: 14-cü maddə mövcibincə bu gün namizədlərin cəmiyyətə düxulu [girişi] mən [qadağan] olunur.

T-7

Elan

Düyü

Bakı Şəhər İdarəsi bununla aşağıdakı kəndlərin vəkillərinə elan edir ki: Əhmədli, Keşlə, Zığ, Biləcəri, Binəqədi, Digah, Şağan, Pirşağı, Məhəmmədi, Fatmayı, Türkan, Güzdək, Nardaran, Bilgəh, Xırdalan, Xocahəsən, Buzovna, Qobu, Zirə, Kürkənd, Qala, Şüvəlan, Goradil, Maştağa, Hövsan, Novxanı, Kürdəxanı, Hökməli, Mərdəkan və Binə kəndlərinə bu gələn yanvar ayının 2-sindən 8-inəcən Ərzaq şöbəsinin anbarlarından düyü veriləcək ki, camaata paylansın. Hər adam başına 3 (üç) girvənkə hesabı ilə

düyünün girvənkəsi 3 manat 30 qəpikdən.

Ona binaən [ona görə], yuxarıda yazılan kəndlərin vəkillərinə təklif olunur ki, imdi kənddə olan camaatı siyahı edib hazırda nə qədər adam olduğun[u] adbəad və hər külfətdə neçə nəfər olduğun[u] iki vərəqdə, yəni iki ədəd siyahıda yazsınlar. Siyahı vərəqəsinin biri vəkildə qalır, o biri vərəqi nə qədər düyünün pulu eyləyirsə camaatdan yığıb yığılan pul ilə bərabər kəndin vəkili "Natsional" qəstinsəsindəki [mehmanxanasındakı] Ərzaq şöbəsinə 12-ci otağa verib, düyü almaqdan ötrü qəbz (order) almalıdır.

Kəndlərin vəkilləri kənd camaatından düyü almağa şəhadətnamələri olmalıdır. Camaatın siyahı vərəqəsi kənd kəndxudasının imzası və möhürü ilə təsdiq olunmalıdır. Kəndxuda, vəkil və qeyri adamlar, hansılar ki, külfətdə olan adamları doğru göstərməyələr, düyünü paylayan vaxt doğruluqca bulmayalar, təftiş olandan sonra əvvəla onlara düyü verilməyəcək və ondan əlavə, dava zamanında olan qanuna görə şiddətli cəzaya mübtəla olacaqlar.

Düyü kəndə gələndən sonra kəndxuda və vəkil düyünü siyahı üzü ilə camaatın hüzurunda elan olan qədər, yəni bir adam başına 3 girvənkə hesabı ilə düyü paylamalıdır.

Bakı, 30 dekabr 1918
Ərzaq şöbəsi
T/8

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Qismi-rəsmi

səh. 199. "…1918 sənəsi dekabrın 30-dan…": "1918" yerinə qəzetdə səhvən "1919" getmişdir.

Azərbaycan Məclisi-Məbusanında

səh.202. "…qövldən feilə…": qəzetdə səhvən "qüvvədən feilə" getmişdir.

"Habelə İsa bəy Əlibəyovun da evi bilmərrə zirü zəbərdir.": İsa bəy Əlibəyovun 1908-ci ildə tikilən evi Lənkəranın ilk çoxmərtəbəli tikililərindən olub, hal-hazırda yerli əhəmiyyətli tarixi abidə kimi dövlət qeydiyyatındadır və burada Lənkəran Dövlət Universitetinin əsas korpusu yerləşir.

səh. 203. "Qala": Lənkəran şəhərinin Lənkəran qalası daxilindəki hissəsi nəzərdə tutulur.

"Tuğra xanım": Tuğra xanım Talışinskaya nəzərdə tutulur.

"Dəriğli": Dəriğ, Talış xanlığının tarixi mahallarından biri olmuşdur. Bu mahalın ərazisi indiki Lerik rayonunu əhatə edirdi.

"Yüzüncü yaşından": qəzetdə belə getmişdir.

"Sibdaşt": qəzetdə belə getmişdir; güman ki, Səfidəşt olmalıdır.

səh. 205. "2) Ərzaq vəziri Lizqar cənabları…": qəzetdə bu bəndin nömrəsi düşmüşdür.

Teleqraf xəbərləri

səh. 207. "Mosulun şərq cəhətinin yüz ağaclığında vaqe Nisbin mövqeyinədək...": Görünür ki, "şərq" yerinə "qərb", "Nisbin" yerinə də "Nusaybin" olmalıdır; "ağac" sözü burada "mil" əvəzində işlədilmişdir.

Fars körfəzi (İran körfəzi; Ərəb körfəzi; Bəsrə körfəzi): İranla Ərəbistan yarımadası arasında yerləşən körfəz.

Türkiyədə

səh. 208. “Əyan”: Osmanlı dövlətində konstitusiyalı monarxiya rejimində Məclisi-Ümuminin yuxarı palatası olan Məclisi-Əyan nəzərdə tutulur.

“Dəmirbaş Şarl”: Türk tarixçisi Əhməd Rəfiq Altınayın İsveç kralı XII Karl haqqında yazdığı və ilk dəfə 1916-cı ildə çap edilən “Məmaliki-Osmaniyyədə Dəmirbaş Şarl” adlı əsəri nəzərdə tutulur.

“Vaza nişanı”: İsveçdə mülki vətəndaşlara verilən, XVIII əsrdə təsis edilmiş orden.

səh. 209. “…1314 sənəsində…”: burada il, rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1898-ci ilə uyğundur.

səh. 209. “Darülfünun”: daha sonra İstanbul Universitetinə çevrilən Darülfünuni-Şahanə nəzərdə tutulur.

səh. 210. “Zati-şövkət-simati-Həzrəti-xilafət-pənahi”: “Xilafətin pənah yeri olan həzrətin şövkətli, ehtişamlı şəxsiyyəti”; eyni zamanda bütün müsəlmanların xəlifəsi hesab olunan Osmanlı padşahı nəzərdə tutulur.

“…səlaməti-mülkü millətə...”: qəzetdə səhvən “səlamətü mülki-millətə” getmişdir.

Qəzetələrdən

səh. 211. “Qambaşidze”: qəzetdə səhvən “Vambaşidze” getmişdir.

Allah təala rəhmət buyursun

səh. 214. “…rəbiülaxirin 2-də…”: hicri tarixlə 2 rəbiülaxir 1337, miladi tarixlə 5 yanvar 1919.

Elan

səh. 217. “30 dekabr 1918”: qəzetdə səhvən “30 dekabr 1919” kimi getmişdir.

Çərşənbə axşamı, 14 yanvar 1919-cu il, nömrə 87

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 11 rəbiülaxir sənə 1337. 14 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

ZAQATAL MƏSƏLƏSİ

Zaqatal okruqu Zaqafqaziyanın xalis müsəlman əhali ilə məskun vilayətlərindən biridir. Buradakı yüz min əhalidən, ən mübaliğəli hesabla, ancaq 5 min miqdarı “inqlo” adı ilə məşhur gürcümanənd [gürcülərə bənzər] bir cinsdən olub, mabaqisi [qalanı] qismən türk, qismən də ləzgi, həp müsəlmandır. Türkcə bütün müsəlmanlar arasında danışılır ümumi bir dildir. Bura əhalisi əskidən İlisu sultanlığı adı ilə muxtar və müstəqil bir həyati-siyasi ilə yaşayaraq, daima müsəlman məmləkəti olmuş, Rusiya tabeiyyətinə [tabeliyinə] keçdikdən sonra dəxi bir idareyi-müstəqilə [müstəqil idarə] halında bulunmuşdur.

Zaqatal okruqu Zaqafqaziyada təşəkkül edən cümhuriyyətlərin hangisi daxilində olmalıdır? Bu məsələ ortaya atılınca, yuxarıda söylənən əlamətlərə bir də bu vilayətin sıldırım Qafqaz silsiləsi ətəyində olduğunu əlavə etməlidir. Vilayətin Şimali Qafqaziya ilə olan rabitəsi aylarla bağlanır. Coğrafiya nöqteyi-nəzərindən Zaqatal, Nuxu qəzasının mabədidir [davamıdır]. Bunlar nəzərə alındığı zaman yuxarıdakı sualın cavabı kəndiliyindən verilmiş olur.

Zaqatal əhaliyi-islamiyyəsi bu xüsusda məntiqin, milli, dini, ictimai və coğrafi məntiqin icab etdirdiyi cavabı zatən vermişdir. Daha Cənubi Qafqaz müsəlmanlarının mərkəzi komitəsi təşkil olunduğu zaman zaqatallı qardaşlarımız kəndi nümayəndələrini göndərməklə, bizimlə mərbut [bizə bağlı] olduqlarını göstərmişlərdi. Azərbaycan Hökuməti ilk dəfə olaraq Gəncədə təşəkkül eylədiyi zaman, Zaqatal vilayəti dəxi bu hökuməti tanıdı. Onun göndərmiş olduğu məmurları qəbul eylədi. Zaqatal Milli Komitəsi vilayətin Azərbaycan daxilində olduğunu rəsmən elan eylədi. Şimdiki halda dəxi Zaqatal nümayəndələri Azərbaycan Parlamanında isbati-vücud [iştirak] edirlər.

Meydanda bu qədər bariz sübutlar, cərh edilməz [rəddedilməz] dəlillər, söz götürməz bürhanlar [sübutlar] var ikən, Gürcüstan-Azərbaycan ittihadının daisi olan [birliyini müdafiə edən] “Qruziya” qəzetəsinin Azərbaycanın Zaqatal üzərindəki haqqi-hakimiyyətini [hakimiyyət haqqını] inkar edəcək bir tərzdə nəşriyyatda bulunmasına təəssüf etməmək qabil deyildir.

Azərbaycan Hökuməti hər bir nöq-

teyi-nəzərdən ixtilaf götürməz bir qitəsi [hissəsi] olan Zaqatala aid olan övraq [sənəd] və vəsiqələrin kəndisinə təslimi üçün Gürcüstan Hökumətinə müraciət eyləmişdi. Gürcüstan Hökuməti isə bu vilayətin kəndisinə aid olduğunu iddia ilə, məsələ həll olunmayana qədər istənilən övraq və vəsiqələrin Azərbaycan Hökumətinə verilməyəcəyini bildirmişdir. Gürcüstan Hökumətinin bu hər növ heyrət və təəccübə şayan [layiq] olan cavabını “Qruziya” qəzetəsi iki əllə imza edir. Həm də Gürcüstanla Azərbaycan münasibatına [münasibətlərinə] sui-təsir hasil edəcək [pis təsir göstərəcək] bu məsələdə Azərbaycan Hökumətinin bu kimi bir təkliflə Gürcüstana müraciət eyləməsini səlah [doğru] görməyir.

“Qruziya” qəzetəsi hüdud [sərhəd] məsələlərinin həllində yalnız “milliyyət” prinsipindən nəşət [çıxış] edib də, məsələni hangi yerdə hangi millət oturur, deyə həll etməyi müvafiq görməyir. Zaqatal okruqu tarixən bir Gürcüstan vilayətidir, deyir.

Biz bu məsələni şu sırada mövzuyi-bəhs etmək istəməzdik. İstəməzdik ki, arada feilən bir məsələ yox ikən, Zaqafqaziya cümhuriyyətləri bədxahlarına artıq söz danışmaq üçün fəzlə [artıq, əlavə] material verək.

“Qruziya” qəzetəsi torpaq üzərində yaşayan xalqın arzuyi-ümumisi, rə’yi-qatesi [qəti qərarı], nüfusun cinsiyyəti, dili, adat [adətləri] və əxlaqı və bütün bunlar üzərinə cəbrən [zorla] deyil, yerli xalqın kəndi teyyib-xatiri [könül xoşluğu] ilə vaqe olan olmuş bir işi (əmri-vaqeni) [faktı] deyil, xatiri sayılır əsas olmaq üzərə yalnız “Gürcüstanın hüquqi-tarixiyyəsini” etibara alır və ancaq bu düsturu təqdis edib [müqəddəsləşdirib] də iddialarını yalnız bu nöqtədə iqamə edərsə [meydana qoyarsa], o zaman əmin olsun ki, tək qalar, kəndisinə dost bulammaz. Gürcüstan böylə bir iştəha ilə yaşarsa, o zaman Qazax qəzası ilə Gəncə qəzasını dəxi təhlükəyə məruz görmək qorxusunu bəsləməyə haqlı olmazmıyız?

Bu kimi iddialar nəyə yarar əcəba? Demokrat Gürcüstan kəndisinə bir növlə isinəmməyən Axısxanı alar, cəbrlə olsa da Borçalını tutar, yerli əhalinin ruhuna, arzusuna, cinsiyyətinə və əzminə rəğmən, fərz edəlim, Zaqatal ilə Qazax və sairəyə malik olarsa, nə qazanar? Kəndisinə müxalif vilayətlər, kəndisinə darğın qonşular.

Biz Gürcüstan Hökumətini etidala [mötədilliyə], dostunu tanımağa dəvət ediriz. Azərbaycanla Gürcüstanın dostluq və anlaşmaqdan hasil edəcəkləri böyük mənfəətlər yanında bu kimi könül bulandırıcı hərəkətlərə məhəl [yer] qalmamalıdır. Təyini-hüdud [sərhədlərin müəyyənləşdirilməsi] kimi məsələlərdəki əsrimizin ruhuna uyan əsasların milliyyət və rə’yi-amm [camaatın rəyi] (referendum) olduğu hər kəsdən ziyadə Gürcistan Hökuməti başında duran sosial-demokratlara bəlli olsa gərək. Milli tələbləri demokratlıq cildinə geydirmək məharətində Sereteli kimi natiqəpərdazlar [nitq söyləməkdə məharəti olanlar] hər nə qədər mahir olsalar da, təsirləri yalnız Azərbaycan hüdudunu Neftlikdən bir az uzaqlaşdırmaq, Tiflisə nəfəs verdirmək üzərinə aid ola bilər. Yoxsa, qatı imperialist məsləki olan “hüdudi-tarixiyyə” [tarixi sərhədlər] əfsanəsini Sereteli cənabları belə söyləsə, kimsə onu bir həqiqət

olaraq qəbul edəmməz.

Zaqatal müsəlmanları isə heç bir vəchlə Gürcü Hökumətini qəbul edəmməzlər, onların böylə bir əzmdə olduqları gürcü məhafilinə [dairələrinə] məlum olsa gərəkdir.

Zaqatal okruqu Azərbaycanın zəngin, hasili-xübz [çörək qazanan; bərəkətli], qəyur [qeyrətli] və həmiyyətmənd [işgüzar] bir qitəsidir. Bu vilayət, Şərqi Qafqaziyanı anarxiya seli silib-süpürməkdə olduğu bir zamanda kəndi arasından kafi miqdarda könüllü çıxarmış, kəndisini müdafiə eyləmişdir. Azərbaycan Hökuməti əxzi-əsgərə [əsgər yığmağa] başladığı zaman, bu vilayət böyük bir sürur [sevinc] və şövqlə əsgərliyi qəbul eyləmiş, bütün gənclərini silah altına almışdır. Nasıl olur da böylə bir vilayətə bu qədər şövq, zövq və hissiyyatla mərbut [bağlı] olduğu məmləkətdən ayrılmaq, istəmədiyi bir məmləkətə qoşulmaq təklif olunar? Bir məmləkətin bir dövlət tabeiyyətində [tabeliyində] bulunması üçün müasirinin [müasirlərimizin, əsrimizin] qanacağına görə, hər şeydən əvvəl, o məmləkət əhalisinin könlü əldə olmalıdır.

Gürcüstan Hökumətinin Zaqatal okruqu üzərinə iddiayi-təməllük etmək [sahiblik iddia etmək] üçün əlində nəyi var? Azərbaycana vermək istəmədiyi övraqmı?

İştə, o qədər.

Varsın, bir tərəfdə əhalinin milliyyəti, dini, meyli, arzusu və güc istemal etmədən [zor işlətmədən] hasil olan bir əmrivaqe, digər tərəfdən də təsadüfən əldə qalan köhnə idarələrə aid bir taqım övraq və vəsaiq [vəsiqələr] olsun. Bitərəf bir məhkəmə hüzurunda bunlardan hangisinin daha qüvvətli bir höccət [sübut] olduğu bir taqım rəsmi mülahizələr və "hikməti-hökumət" [höküm sürməyin hikməti] kimi "nazik nüktələrlə" [incə mətləblərlə] bağlı olan Gürcüstan hökumətincə "məchul" olsa da, gürcü-türk dostluğunun mürəvvici [carçısı] bulunan "Qruziya" qəzetəsindən ötrü heç olmasa məlum olmalı idi.

Təəssüf olunur ki, gürcü qonşularımız "tarixi hüdud" prinsipini sui-təvilə uğradırlar [səhv yozurlar]; fəqət, ümid edəlim ki, vaxtın əhəmiyyətini dərk eylər də bu təvili fəna bir surətdə istemal etməyə [bu yozumdan arzuedilməz surətdə istifadə etməyə] qədər getməzlər.

M. Ə. Rəsulzadə

ƏSGƏRLİK VƏZİFƏMİZDİR!

Bu vəzifə, bugünkü gündə biz azəri türklərinin ən vacib vəzifələrimizdən birisidir. Bu vaciblik həm o dərəcə mühümdür ki, bunun əhəmiyyətini son sənələrin sədəmatına [zərbələrinə, fəlakətlərinə] düçar olmuş biz azəri türkləri heç bir cəhətlə yüngül ədd [hesab] edəmməyiz. Zira, əsgərsizliyin, əsgər olmamaqlığın acılığını son hadisələr bizə layiqincə daddırdı. Zəhərli acılarını daddığımız bu hadisələrdən əlavə, indiki halda başqa millətlər kimi biz azəri türkləri də müstəqil cümhuriyyət qurmuşuz, müstəqil məmləkət təşkil etmişiz.

Cümhuriyyətimizin mühafizəsini öhdəmizə almazsaq, məmləkətimizin qarovulunu çəkməzsək, bu necə istiqlal

olar? Bu nasıl məmləkətdarlıq [ölkə saxlamaq] olar? Əsgər olmadığımız və əsgərsiz olduğumuz üçün idi ki, Tiflisin Seymi tərəfindən hər kəsə silah paylandı da, biz silahsız qaldıq. Bundan dolayı öz qüvvəmizlə silah ələ gətirmək üçün nə qədər fəlakətlərə uğradıq.

Əsgərsiz olduğumuz və əsgər olmadığımız üçün idi ki, Bakıda, Şamaxıda, İrəvanda, Qubada bir taqım nizami, yəni əsgərlik görmüş quldurların saldırışları qabağında dayanammayıb dağlara, səhralara qaçdıq. Hamımızın məlumu olan fəlakətlərə, müsibətlərə düçar olduq. Genə, əsgərsizlik və əsgər olmamaq nəticəsidir ki, qışın indiki soyuq günlərində İrəvan quberniyasının müsəlman camaatı erməni əsgərlərinin hücumuna uğrayıb, isti yataqlarından çıxıb, qucaqlarında uşaqları, yanlarında xanımları açıq səhralara, qarlı dağlara qaçmaqdadırlar. Halbuki, əsgərimiz olsaydı və biz də əsgər təlimi görmüş olsaydıq, başqalarına hücum etmək istəmədiyimiz halda, öz yerlərimizdə əldə silah olaraq sabit dayanıb qalardıq və saymadıqlarımızın qabağından çox rəzil sifətlərlə qaçıb məhv və pərişan olmazdıq.

Özlərimizi Qafqaziyanın ən birinci igidləri sırasında və tərəfi-müqabilimizi [qarşımızdakı tərəfi] də heçə saydığımız halda, əsgəri təlim görmədiyimiz üçün düçar olduğumuz bu fəlakətli hallar bizi büsbütün rüsvay və namusumuzu bərbad etdi. Namusumuza toxunan bu rüsvaylı fəlakətlərdən sonra mənə qalarsa yalnız cavanlarımız deyil, qocalarımıza varıncaya qədər könüllü sifəti ilə əsgəri təlim almağa məcburuz. Zira əsgəri təlim almaqladır ki, namusumuzu, məmləkətimizi, hökumətimizi, hasili bütün var-yoxumuzu müdafiə və mühafizə edə biləcəyiz. Yoxsa, bir hadisə üz verdiyi zaman başqalarına ümidli olmaqla, onların köməkliyinə göz tikməklə və hallardan ibrət almayıb, yalnız baqqalığa, restorançılığa məşğul olunmaqla namus saxlamaq olmaz, məmləkət müdafiə ediləmməz, hökumət olmaz, istiqlal paydar [daimi] qalmaz. Əsgərsiz hökumətin sözü heç yerdə keçməz.

Əsgərlik; hazırlanıb da, quldurcasına o qonşunun, bu hökumətinin məmləkətinə hücum etmək, başqaların[ın] hüququna təcavüz etməkdən ibarət deyil. Əsgərlik də şərəfli bir vəzifədir ki, o vəzifə də ancaq camaatının namusunu, məmləkətinin hüdudunu, hökumətinin heysiyyətini mühafizə və müdafiə etməkdən ibarətdir. Bu vəzifələr dürüst düşünülərsə, ərz etdiyim kimi, yalnız cavanlarımız deyil, qocalarımıza varıncaya qədər mümkünlük hasil edib, özlərimizi bu vəzifənin altına girməyə məcbur görəriz.

Binaənileyh [ona görə], hökumətimizin əsgərlik dəvətini mümkünü olan bütün cavanlar canla-başla qəbul etməliyiz və şərəfli olan bu vəzifəni öhdəyə götürmək üçün hər kəs onun tərəfinə artıq bir sevinclə qoşaraq getməliyiz. Atalar, analar dəxi bu yolda öz köməkliklərini göstərməklə vəzifədardırlar [borcludurlar]. Namuslarını, məmləkətlərini, mal-dövlətlərini, yer-yurdlarını, izzətlərini, hökumətlərini, istiqlallarını müdafiə [və] mühafizə etmək üçün oğullarını sevinclərlə, məhəbbətlərlə, şadlıqla, vətənə və millətə xeyir-dualarla əsgərliyə göndərməlidirlər. İştə, ataların, anaların şərəfli, namuslu vəzifəsi də budur.

M. A. Mirbağırzadə

TELEQRAF XƏBƏRLƏRİ

(Royter ajansından)

Varşavadan "Tayms" qəzetəsinə yazılır: Qrajdanski milissiya [mülki milis], hökuməti iş başından düşürərək Kabinə üzvlərini həbs etmişlərsə də, fəqət yenə onlar həbsdən xilas ola bilmişlərdir.

Berlində müharibə

Berlindən gəlmiş olan yekdigərinə zidd xəbərlər orada zühur edən hadisələr xüsusunda dürüst məlumat verməyə müsaidə verməyir. Yanvarın 7-də gəlmiş xəbərlərdən, Berlində qanlı müharibədən bir neçə yüz əhalinin qətl edildiyi anlaşılır. Vilhelmştrassedə xüsusi müharibədə spartaklar (bolşevik) Xariciyyə Nəzarətinə həmlə etmişlərdir. Görünür ki, axşam zamanı Hökumət onlara faiq [üstün] gəlmişdir.

Yenə, son gələn xəbərlər "Spartak" firqəsi tərəfindən Şpandauda cəbbəxana işğal edildiyini bildirirlər. Bütün gecə Berlində küçə müsadiməsi [toqquşması] vaqe olurmuş. Libknext irad etdiyi [söylədiyi] nitqində əmələləri [fəhlələri] hökumət istefa verməyincə işə başlamamağa dəvət edirmiş. Spartaklar Düsseldorf, Manheym və Oberhauzendə hökuməti əllərinə almışlardır.

* Belçika Senatında Van der Ol da bəyan eyləmişdir ki, nemeslər ümumiyyətlə Belçikadan qovulmalıdırlar.

* Polşa Ərkani-hərbinin [Baş qərargahının] məlumatına nəzərən, Lvovda polyaklarla ukraynalılar arasında qırğın müsadimə [toqquşma] gedir.

* Libknext (bolşevik) firqəsi Berlində qalib gəlmişdir. Libknext, imperator sarayını işğal eyləmişdir.

İndi alınmış olan xəbərlərdən anlaşılır ki, inqilab hərəkəti getdikcə qüvvətlənir. Libknext ilə düşmənləri arasında əlaqə fənalaşır. Burjuaznı dəstələr bütün qüvvələrini cəmləşdirirlər. Böylə xəbər verirlər ki, Libknextin müvəffəqiyyəti, Almaniya irticaiyyunlarının [irticaçıların] dəhşətli həyəcanlarına səbəb olmuşdur. Bütün mötədil firqələr Berlinin Müttəfiqlər tərəfindən işğal edilməsini məqul [mümkün, ağlabatan] sanırlar. Bu münasibətlə də ingilis və fransızlara olan münasibat [baxış] bəzi məhafillərdə [dairələrdə] dəyişir.

* Parisdən xəbər verildiyinə görə, imperator Vilhelm, guya qətl edilmiş imiş.

* Qaliş dairəsində polyak və nemes dəstələri arasında müsadimə [toqquşma] davam edir.

* Kiyevdə idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan və divani-hərb [hərbi məhkəmə] təsis edilmişdir. Direktoriya əleyhinə gedənlər divani-hərbə təslim ediləcəkdir.

* Sevastopoldan bildirildiyinə görə, ingilis qarovullarına müsəlləh [silahlı] surətdə hücum edilir.

* Peşt - Bolqariyanın böyük şəhərlərində, o cümlədən Sofiyada müdhiş iğtişaşlar vaqe olduğu xəbər verilir. İxtilalı

[üsyanı] yatırmaq üçün fransız qoşunları dəvət edilmişdir.

* Berlin - Şeydeman Hökuməti nəşr etdiyi bir intibahnamədə [vərəqədə] camaatı spartakları əzməyə dəvət edir.

* Lion - Berlində əhvalın mükəmmələn müəyyən bir halda olduğu xəbər verilir. Səşənbə [bazar ertəsi] günü küçələrdə hökumət tərəfdarları ilə Spartak tərəfdarları arasında qızğın müsadimə vaqe olmuşdur [toqquşma baş vermişdir].

* Berlin - İtaliyada böhrani-vüzəra [hökumət böhranı] qurtarmışdır. Milli Sosialist firqə, xilafgirlər [müxalifət] tərəfinə keçmişdir. İtaliya sosialistləri Rusiya əleyhinə olan iqdamatdan [təşəbbüsdən] İtaliyanın ictinab etməsini [çəkinməsini] tələb edirlər və əlavə edirlər ki, bu məqsədlə Rusiya əleyhinə nemeslər göndərilsinlər.

* Berlin- Vilson bir məclisdə demişdir ki, Avropanın sabiq müvazinəsi əvəzinə bundan sonra fövqəladə qüvvə təşkil edən dövlətlər dəstəsi olmalıdır.

Gürcü teleqraf ajansından

Poti- Qara dənizə varid olmuş [gəlmiş] ingilis hərbi gəmiləri bütün Gürcüstan sahillərini seyr etmişlərdir. Paroxodların bir hissəsi Batuma əzimət etmişdir [getmişdir]. Dekabrın 30-da Batuma İngiltərənin 4 hərbi gəmisi varid olmuş, onlar iskələ [liman] rəisi Qlaviadan Poti iskələsində duran paroxodlara baxmağa icazə xahiş edirlər. İngilis nümayəndəsi sifəti ilə paroxod komandiri iskələdə olan minanosun [torpedo gəmisinin] özünün ixtiyarına verilməsini xahiş eylər. Qlavia buna cavabən, Gürcüstan Hökumətindən icazə olmadıqca bu xahişinə əməl edə bilməyəcəyini bəyan etmişlərdir. Bu barədə Tiflisdən cavab istənilmiş, Gürcüstan Hökuməti icazə verdikdən sonra paroxod ingilislərə təslim edilmişdir.

QƏZETƏLƏRDƏN

Müttəfiqlərin Hacı-Tərxana hərəkəti

“Borba” qəzetəsi yazır ki, alınan məlumata görə, Müttəfiq dövlətlər Batuma böyük qüvvələr çıxarıb, bolşeviklərin arxasında əməliyyatda bulunmaqdan ötrü Bakı ilə münasibatı [rabitəni] qaydaya salırlar. Müttəfiqlərin qəsdi Hacı-Tərxanı zəbt etməkdir. Quruya əsgər çıxarmaqdan ötrü hal-hazırda bütün bəhri-Xəzər [Xəzər dənizi] donanması Müttəfiqlərin əlindədir. İdil nəhri donduğuna görə, boleşviklərin Müttəfiqlər əməliyyatı əleyhinə bir iş görmələri müşkülləşir.

İngilis manufakturası

İngiltərə maryaklarının [dənizçilərinin] dediyinə görə, İngiltərə bazarı manufaktur malları ilə doludur. Uzun müddət İngiltərədən əcnəbi məmləkətlərə mal çıxarılmadığından, malın miqdarı daha da artmışdır. Manufaktura mallarının qiyməti müharibədən əvvəlki qiymətdən aşağı düşmüşdür. Bu qərar üzrə bu yaxın zamanda Rusiyadakı alış-verişçilərin dimağına düşməyən [ağlına gəlməyən] qiymətlə İngiltərə malları gətiriləcəkdir.

Gürcüstanda

Gürcüstanda həbs edilən ermənilərin

işlərinə baxmaqdan ötrü general-qubernator Maqlakelidzenin sədarəti [sədrliyi] altında bir komissiya təşkil edilmişdir. Tiflis qubernatoru Gürcüstan, Azərbaycan və İran təbəəsi [vətəndaşı] olan məhbus ermənilərin azad edilməsi haqqında bir əmr vermişdir. Qubernatorun bu əmri, müharibədə əsir düşənlərə şamil deyildir.

Soçi nahiyəsində

"Borba" qəzetəsi yazır ki, bu axır vaxt Soçi nahiyəsi haqqında bir çox sözlər danışılır, hətta, Soçi nahiyəsinin Könüllü ordu əlinə keçməsi də rəvayət olunurdu. Hal-hazırda mühəqqəq olmuşdur [dəqiqləşmişdir] ki, Soçi heç bir kəs tərəfindən alınmayıb, Gürcüstan dairəsində qalmaqdadır. Könüllü ordu tərəfindən heç bir hərəkat olmamışdır. Gürcü əsgərləri Soçi nahiyəsində qalmaqdadırlar. Qara dəniz sahili cəbhəsinin komandanı böylə bir əmrnamə nəşr etmişdir: "Təhti-idarəmdə [idarəm altında] olan bütün nahiyə əhalisinə xəbər verirəm ki, hökumətimin əmrinə görə mən əsgərləri cəbhədən götürməyib, hətta bir tərəfdə bir çıxış olduğu zaman zərbəni həman tərəfə döndərəcəyəm." Axırıncı alınan xəbərlərə görə, Soçi nahiyəsi məsələsi Sülh Konfransında həll ediləcəkdir.

Gümrü mövqifinin patlaması

Tiflis qəzetələrinin yazdığına görə, yanvarın 4-də Gümrü (Aleksandropol) möviqifi [stansiyası] patladılmışdır. Bu barədə hələ təfsilat alınmamışdır.

Qara dənizdə

Potidən verilən xəbərlərə görə, indiyə qədər Qara dənizə Müttəfiqlərin 300 ədəd hərbi və nəqliyyat gəmiləri daxil olmuşdur. Bu gəmilərin çox hissəsi halhazırda Ukrayna və Romaniya limanlarında dayanmaqdadır.

Hindistan heyəti-müraxxəsəsi

15 nəfərdən ibarət Hindistan heyəti-müraxxəsəsi [nümayəndə heyəti] Sülh Konfransında iştirak etməkdən ötrü Londona varid olmuşdur [getmişdir].

Petroqradın işğalı

"Bakinets" qəzetəsinin yazdığına görə, Kronştadt üç həftə bundan irəli ingilislər tərəfindən zəbt edilmişdir. İngilis gəmiləri birinci top gülləsi buraxdıqdan sonra matroslar Kronştadtın təslim olunmasını ingilislərə xəbər verməkdən ötrü elçi göndərmişlərdir. Bir həftə keçdikdən sonra Müttəfiqlər bilamümaniət [maneəsiz] Petroqradı işğal etmişlərdir. Şəhər alınmadan əvvəl, fəhlələr öz təşəbbüsləri ilə şəhərdən bolşevik hökumətini çıxarıb qovmuşlardır.

Almaniyada

Berlində olan Libknext (bolşevik) firqəsi qalib gəlmişdir. Libknext imperator sarayını zəbt etmişdir. Axırıncı xəbərlərə görə, hərəkat şiddətlənməkdədir. Libknext ilə rəqibləri arasında münasibat kəskinləşməkdədir. Burjuaziya təşkilatları bütün qüvvələrini cəm etməkdədirlər.

Berlindən xəbər verirlər ki, Şverin ətrafında torpaq məsələsi üstündə böyük iğtişaşlar vaqe olmuşdur. Cəbhədən övdət edən [qayıdan] saldatlar da bu iğtişaşlarda iştirak etmişlərdir. Bir çox mülkədar evləri xarab edilmişdir.

Şimali Qafqaziyada

Şimali Qafqaziyada Padin istiqamətində general Kolosovski, Aleksandrovsk kəndi yanında bolşeviklərə qalib gəlmişdir. Bolşeviklərin 6 piyada və 4 süvari alayı pərakəndə edilmişdir [dağıdılmışdır].

* Könüllü ordu əsgərləri Krımda, Berdyansk, Melitopol və Yuxarı Tokmaq tərəfdə əməliyyatda bulunurlar.

* Rəsmi verilən xəbərlərə görə, Könüllü ordu əsgərləri Xarkova daxil olmuşlardır.

BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ

VII

Bir vaxt 15 sajından artıq qazılmağa izin verməyən hökumət, bu gün 40 sajın dərinliyə izin verir. Səbəb də odur ki, qabaqlarda neft çox dayazdan çıxırdı, Amma bu gün bəzi yerlərdə 40 sajınlıq icazə də kifayət edəmməyir. Hətta bir çox quyuların dərinliyi bu gün 70-80 sajına çatmışdır.

Dərinliyi 40 sajına çatmış quyunun gər [əgər] neft məhsulatı yoxdursa, varyoxunu bu quyuya sərf etmiş bədbəxt quyuçu aya [görəsən] nə çarə eyləsin? Bunu atıb yeni bir quyu qazılmasınamı şüru etsin [başlasın]? Yaxud, köhnə quyunu dərinləşdirib aşağı qatlaramı getsin?

Aşağı qatları keçməyə hökumət izin verməyir. Təzə quyunun qazılması da beyhudə və bicadır [boşunadır]. Zira, təzə quyu da köhnə quyu kimi 40 sajınadək neft asarını [əlamətini] göstərməyəcəkdir. Bəs quyuçunun təklifi nədir? Bunun təklifi ancaq 5-6 min manat sərf etdiyi quyunu, xəlvət də olsa, qazıb gizlicə 40 sajından aşağı getməkdir. Odur ki, hökumətin ziddinə olaraq gizli quyu qazmaq adəti bu gün bir çox mədənləri tutmuşdur.

Bəs [deməli], bu 40 sajinlıq məhdudat gərək aralıqdan götürülsün.

Dərinlik məhdudatından əlavə, hökumətin bir də ağır bir məhdudatı vardır ki, o da neftli quyulara borular (обсадные трубы) sallanıb ətrafi torpaqla doldurmaqdan ibarətdir. Borular motor və vışka [buruq] əvəzinə əl ilə gərək sallanılsın. Ancaq bundan sonra məhz borulu quyulardan neft çəkilməsinə ixtiyar [icazə] verilir.

Əvvəla, 40 sajınlıq bir quyuya əl ilə boru sallamaq nə qədər çətindir və bəlkə heç mümkün deyil. Bu barədə ərbabi-fənn [elm adamları, mühəndislər] vaxtında bəhs açmışdır. Lakin burada nazik [həssas] bir mətləb vardır ki, ona hökumət kişiləri [adamları] məna verməmişlərdir. O da bundan ibarətdir ki, əl quyularının dibindən bir qədər neft qalxıb durulursa, yenə neftin ən böyük məhsulatı quyunun yuxarı qatlarından ənvai [müxtəlif] çeşmələrdən üzü aşağı axıb dibində cəmləşir. İştə, hərgah quyulara borular salınıb dalları torpaqlanarsa, divarlarda bir çox çeşmələrin gözlərini tutub neft axıntılarını bağlayacaqdır. Dib neftinin ümidinə qalarsa, bu da əmələcatın məxaricini [işçilərin xərcini] ödəmədiyi üçün böylə borulu quyuların həm sahibinə və həm də xəzinəyə heç bir mənfəəti olmayacaqdır.

Bundan əlavə, əhli-xibrənin [mütəxəs-

sislərin] məlumu olduğu üzrə, quyuların nefti çəkildikcə, çeşmələrin gözləri qum ilə dolub tutulur. Ona görə heç olmazsa, ildə bir kərə bu qumu təmizləmək üçün gərək quyulara kənkan sallanılsın. Lakin quyular borulu olarsa, quyulara adam sallamaq mümkün olmadığı üçün müruri-zaman ilə [vaxt keçdikcə] çeşmələr tamamən tutulub, neftin məhsulatı da axırda kəsiləcəkdir.

Amerikan karastıları [alətləri] ilə quyuları təmizləmək istəmişlərsə də, bir şey hasil olmamışdır. Zira, ağır karastılar quyunun dövrə taxtalarına dəyib onları parçalayır, qırır və bu zərər-ziyandan əlavə, nəticəsi də faydasız və çox baha tamam olur. Hərgah quyuların başına ağızlıq qayırılarsa, bunlar da yuxarıda zikr olunan bəlaya məhkum olacaqlar.

Sabiq Qafqaz canişini təsdiq etdiyi qanunların bir maddəsi də, quyular torpaqlanandan sonra yenidən əl buruğu ilə quyu qazmaq üçün bir ilin müddətinə sair xahişməndlərə [istəyənlərə] icarəyə, yaxud razvedkaya [kəşfiyyata] verilsin. Təcrübə bunu göstərir ki, əl buruğu ilə bir ildə 20 sajından artıq qazmaq olmayır. Böylə olan surətdə icarə müddəti tamam olarkən icaraçi məramına nail olammayıb, hətta bir çox əbəs məsariflə [xərclə] qoyub qaçasıdır. Köhnə icaraçi qoyub qaçarkən, quyuya sərf etdiyi boruları da belə çıxarammayıb hər şeydən məyus olur. Qaçmadığı halda həman şərtlərlə yenə iş görə bilməyib, ikinci il də aciz qalır. Axirüləmr [axırda] məsələ razvedka ilə kəşf olunub pərdə salınır ki, tamam qanunların məğzi və arzusu həman razvedkadır.

Qabaqkı məqalələrdən aşkar oldu ki, Jak cənabının düzəltdiyi qanunlar nə insaniyyət nöqteyi-nəzərindən və nə də xəzinə mənfəəti mülahizəsi ilə olmayıb, min məşəqqətlə əhalinin hazırladığı mədənləri böyük firmaçılara yedirtmək idi. Qurd quzunu yemək istədiyi halda yüz cürə bəhanələr icad etdiyi kimi, bizim qanunçuların da məqsədi bu qanunlar məhdudatı ilə işi razvedkaya müncər etmək [gətirmək] idi. Razvedka (yəni bələdləmək) qanunu bundan ibarətdir ki, razvedkaçıya yaxud bələdçiyə 37 desyatin yer verilir, bu şərtlə ki üç ilin ərzində yerin hansı cəhətində olur olsun 200 sajınlıq dərinliyində bir buruq quyusu qazsın. Bu quyudan hər nə qədər neft hasil olarsa, hamısı məccanən [pulsuz] bələdçinin mənfəətinə qalır. Hərgah bu quyuda güclü neft çeşmələri və axıntıları tapılarsa, əvvəl vaxt yerin bəyənildiyi tərəfindən 5 desyatin 30 ilə, ildə desyatini 100 rublə icarə şərti ilə həman bələdçiyə verilir ki, bu 5 desyatin yerdə quyular qazdırıb özü üçün mədən saldırsın. Qalan 32 desyatin yer bu fəqərədən [hadisədən] sonra firmaçılar arasında böyük şöhrət qazanıb, xəzinə tərəfindən torq [tender] vasitəsilə artıq qiymətlərə satılır.

İştə, bələdçilər neft əlaməti aşkar olmayan yerlərə məhəl qoymayıb, sabiq hökumətin müsaidəsi [icazəsi] ilə o yerə soxulurlar ki, orada biçarə əl quyuçuları çoxdan iş görməkdədirlər.

Halbuki, bələdçilərə və razvedkaçılara izin verirlər ki, nefti o yerlərdə axtarsınlar, harada ki, neft əlaməti hələ məlum deyil! Bir şey ki, quyuçular əli ilə çoxdan tapılmışdır daha neftli yerlərdə bu nə razvedkaçılıq?

Fərhad Ağazadə

ŞƏHƏRİMİZDƏ XƏSTƏLİK

Rus[ca] “Azərbaycan” qəzetəsinin Bakı xəstəliyinin statiska qismində səpmə yatalağa mübtəla olanların qədəri qeyri naxoşlardan çoxdur. Deməli, şəhərimizdə yatalaq xəstəliyi davam edir.

Məlumdur ki, səpmə yatalaq köçəridir [yoluxucudur]. Məlumdur ki, hər bir xəstəliyin artması, sirayət etməsinin [yoluxmasının] ən mühim səbəblərinin biri natəmizlikdir. Bu saatda hansı bir küçə ilə keçərsən, orada zibil koması görməmək qeyri-qabildir və ya hansı bir həyətə nəzər yetirsən zibil qutuları dolub daşmaqları ilə bərabər, qoxusu da hər yeri tutubdur. Nə üçün şəhər təmzilənmir və nə üçün bu barədə bir sərəncam edilmir?

Şəhəri təmiz etmək üçün Bələdiyyə İdarəsinin “Aboz” adlı böyük bir müəssisəsi vardır. Necə ki, məlumdur həman “Aboz”un axırıncı, yəni 1918 sənə smetasına məbni [əsasən] şəhəri təmiz etmək üçün lap azı 220 atı, 175 arabaçısı, 250 küçə süpürənləri, şəhər ətrafında 20-yə qədər qarovul və zibil yandıranları, gözətçiləri və qeyrə, cəmi gərək 500-ə qədər fəhlə şəhəri təmiz edəydilər. Hətta şəhərin Sihhiyyə [Sanitar] komisyonu bu smeta barəsində bir çox iclaslar qurub, şəhəri təmiz etməyə bu miqdarı kafi görmədi. Ya ştatın, ya qeyri makinə alatı (avtomobil kimi) artması barəsində həmin komissiya bir neçə layihənamə düzəldib Bələdiyyə İdarəsinə təqdim etdisə də, hələ ki, nəticəsini görməyirik.

“Aboz”da isə lap azı dediyimiz 220 atdan 45-i qalmış və ondan da neçəsi işləyir, Allah bilir. 500 fəhlədən isə 300 də qalmamışdır. Bu azalmanın əvəzində isə, deyəsən 2 avtomobil artırılmışdır. O[n]lar da ki, yağmur nəticəsindən dağıdılmış küçələrdə bir iş görə bilməyirlər. Xəstəlik hər gün tərəqqi etməkdədir və tərəqqi nəticəsi çox fəna və ağırdır. Biz isə heç bir fikir çəkməyib, əli qoynunda oturub gözləyirik ki, nə vaxt “aboz” gəlib küçəhəyəti təmiz edəcəkdir.

Təəccüb ediləsi hal burasıdır ki, şəhərdə ən böyük Bələdiyyə İdarəsi, Səhiyyə Nəzarəti, Sihhiyyə komissiyaları, çoxlu avtomobil, çoxlu at, qatır və qeyrə ola ola, bir tədbir çəkilməyib ya bir sərəncam edilməyir. Onlardan əlavə isə öz tərəfimizdən də bir fəaliyyət görsənilmir.

Xəstəlik tərəqqi etməkdədir. Ümidlə yaraya dərman etmək olmaz. Sərəncam çəkməli, tədbir etməli, özümüz işə girişməliyiz. Özümüz təmizliyə bir çarə aramalıyız.

C. P.

ERMƏNİ XANIMLARINA MÜRACİƏT

İrəvan, Qarabağ və Lənkəranda olan təqsirsiz qurbanlar barəsində hər gün ah, zar, nalə və fəqanlardır ki, yetişir. Hər gün müavinət [yardım] barəsində israr edilir, kömək istənilir. Minlərlə arvadlar, uşaqlar kəsilir, minlərlə müsəlmanlar aclıqdan və soyuqdan həlak olurlar. Kəndlər yanır, camaatın müqəddəsatı təhqir edilir, əsrlərdən bəri cəm edilmiş olan camaat sərvəti məhv olur. Fəqət, dəhşət bunlarla qurtarmır, bəlkə bu halların ucu-bucağı, intəhası olmadığındadır.

Axıdılan qardaş qanı ilə müdhiş ədavət toxumu səpilir, ədavət ağacları əkilir

ki, onun bəhəri [meyvəsi, nəticəsi] də çox yaman olacaqdır. Kor olmuş bir dəstə mütəəssibləri [fanatikləri] saxlamaq olmayır. Halbuki, çoxdan və çoxdan bəri bu qanların qabağı alınmalı idi. İndi də olsa düşünməlidir ki, bütün bir milləti kəsib məhv etmək qabil deyildir.

Neçə vaxt bundan əvvəl müqəddəs iş üçün sülh və müsalimət [əmin-amanlıq] paydar etmək niyyəti ilə bizi dəvət edən erməni bacılarımız, indi nerədə qalmısınız? Hərgah sizin o zamanki dəvətiniz rəqiq [həssas] xanımlar qəlbindən çıxan səmimi bir dəvət idi, indi onu isbat ediniz. İndi qövldən feilə [sözdən işə] keçiniz. Yetər bu qədər qanlar!

Siz bizə deyirdiniz ki:

"O zaman ki, hər bir yerdə sülh sözü danışılır, böylə bir əhəmiyyətli zamanda bizim səsimizin eşidilməməsi cinayətdir."

Böylə isə səsinizi qaldırınız, çəkilmiş olan qılıncları saxladınız.

Bir dəstə müsəlman xanımları naminə Ziba xanım Qayıbov və Sara xanım Vəlibəyov

QARABAĞ ƏHVALI

Qarabağa göndərilmiş və ifayi-vəzifə bə'dində [vəzifəsini yerinə yetirdikdən sonra] bugünlərdə qayıtmış olan komissiya əzasından [üzvlərindən] Parlaman məbusu Qara bəy Əliverdibəyov cənabları ilə vaqe olan müsahibəmizdən böylə anlaşılır ki, Qarabağ uyezdlərindən hamısından artıq ağır hal keçirməkdə olanı əvvəla Zəngəzur və saniyən [ikincisi] Şuşa uyezdləridir.

Zəngəzurdan gələn mürəxxəslərin [nümayəndələrin] – ki, onlardan biri Baxış bəy Sultanov, digəri Xudabaxış Sultanov və biri də Bəhlul Əfəndizadə cənablarıdır – sözlərindən anlaşıldığı üzrə, Zəngəzurda ermənilər tərəfindən dağıdılan və xarab edilən kəndlərin ədədi 119 parədir ki, bunların 40 mindən artıq olan əhalisi qırıldıqdan sonra, yerdə qalanları yer və yurdlarından qaçıb Qarabağın sair yerlərinə səpələnibdirlər. Bu qaçqınların halı o dərəcədə fəlakətlidir ki, yazılmaqla qurtarmaz.

Türklər Zəngəzur tərəflərində olarkən taxıl yığıb dörd-beş anbar doldurubdurlar ki, əqəllən [ən az] otuz-qırx min put taxıl edir. Məbus əfəndi məzkur [adı keçən] mürəxxəslərin dəxi istidasına [xahişinə] görə hökumət yanında təvəssüt [vasitəçilik] edir ki, bu buğdanın heç olmasa bir qədəri Zəngəzurdan gətirilib Şuşa uyezdinə dağılmış olan, ac qalan qaçqınlara verilsin.

Şuşa uyezdinin özündə də aclıq, xəstəlik davam etməkdədir. Yaxşı ki, Ağdamda Ağdamın öz əhlindən olan iki nəfər doktor olub, naxoşlara və xəstəliyə qarşı böyük bir hümmətlə [qeyrətlə] iş görməkdədirlər. Bunlar biduni-təmənna [təmənnasız] öz xərcləri ilə naxoşları tədavi [müalicə] edən kimi, əhaliyə dəxi kamali-rəğbət ilə kömək edib lazım olan ev, mənzil və sair köməkləri müzayiqə etməyirlər [əsirgəmirlər]. Bu doktorlardan birisi Bahadır bəy Əliverdibəyov və o biri də Fərrux bəy Ağakişibəyovdurlar. Təəccüb burasıdır ki, buraya "divizionnı vraç" [diviziya həkimi] sifəti ilə bir nəfər cavan doktor gətirilib, bu iki nəfər doktorların

üzərində hakim yerində təyin edilibdir. Halbuki, həman vraç [həkim] Abdulla Həmid Qənizadə yeni kursu qurtarmış və ola bilsin ki, heç qurtarmamış olub, bilik və təcrübə işlərində nə Bahadır bəyin yerini verə bilər, nə də Fərrux bəyin.

Şuşa uyezdində [qəzasında] ermənilər quldurluqlarında davam etməkdədirlər. Hələ məbus əfəndi orada olarkən uyezd qaimməqamı [qəza rəisi] Abuş bəy Qalabəyov namına [adına] Şuşa pristavından raporlar gəlirdi. Bunlar, raporlardan anlaşıldığı üzrə, 6 nəfər erməni qulduru Xəlfəli yoluna tökülüb Alpoutlu Hüseyn Məşədi İbad oğlu nam [adlı] bir nəfəri soyub var-yoxunu əlindən alıbdırlar. Bədəhu [sonra], həman ermənilər Kəhrat yoluna keçib, Malıbəyli arabalarını soyub, əzcümlə [o cümlədən] Məşədi Səlim Quliyevin bir çox şeylərini aparıbdırlar. Xoramord ermənilər dəxi Ağdama gedən Kolanı müsəlmanlarını soyub, 6 yük şeylərini alıbdır ki, 10 min manat ziyan eyləyir. Bu gün quldurluq ermənilər arasında bir sənət yerinə giribdir. Bunlarla müntəzəm mübarizə lazımdır.

Ağdam camaatı, məbus əfəndinin sözünə görə, hökumətdən bunu da istida [xahiş] edirlər ki, Ağdamın özündə xəzinə şöbəsi açılsın ki, bu xüsusda sair yerlərə müraciət etmək məcburiyyəti aradan götürülsün.

Bilümum [bütün] Qarabağ əhalisi ərzaq və xəstəlikdən üsrət [çətinlik] çəkdikləri kimi, manufaktur mallarının yoxluğundan dəxi əziyyət çəkməkdədirlər. Hökumətimizdən təvəqqe olunur ki, oraya ağ bez və bu kimi arşın malı göndərilsin ki, xalq özünə tuman-köynək hazırlaya bilsinlər.

Posta-teleqraf işləri dəxi arzu edilməyən fəna bir haldadır. Məktublar və teleqramlar vaxtlı-vaxtında çatmır. Bir çox yerlərdə teleqraf işləmir. Yollar dəxi pis gündədir. Yevlax-Şuşa yolu bir çox yerlərdə yağış və sel nəticəsi olaraq dağılıb, araba keçməz olubdur.

Şübhəsizdir ki, lazımi diqqət yetirilib ciddiyyətlə işə girilərsə, bu fənalıqların qabağı alınıb, xalq dəxi rahat yaşamaqla, şikayət yeri qalmaz.

MÜXTƏLİF XƏBƏRLƏR

Noyabr ayı axırlarında Bakıda tif azarından mərhum olmuş naxçıvanlı Hüseyn Musayevin cənazəsini Bakıda olan naxçıvanlılar Naxçıvana göndərməkdən ötrü Tiflisə aparmışdılar. Tiflisdən gələn bir nəfər Naxçıvan əhlinin rəvayətinə görə, mərhumun cənazəsi gürcü-erməni toqquşmasından bir neçə gün əvvəl 14 nəfər Naxçıvan müsəlmanları ilə Tiflisdən yola salınmışdır. Qarakilsədə ermənilər həman müsəlmanları və onlarla bərabər 4 nəfər İran təbəəsini [vətəndaşını] tutub öldürmüşlər. Həman adamlardan Məhəmmədəli nam [adlı] [bir şəxs] ilə cənazənin hara aparılmasından bir xəbər yoxdur.

- Ermənistanda olan gürcü siyasi nümayəndəsi Mdivani erməni-gürcü toqquşması zamanında Tiflisə qayıdarkən, onunla bərabər bir nəfər Ordubad əhli gəlib Tiflisə çıxmışdır. Lakin 6 nəfər iranlının Qarakilsədə başlarına nə gəldiyi məlum deyildir.

BAKI XƏBƏRLƏRİ

Lənkəraна uyezdni naçalnik göndərilməsi

Lənkəran uyezdində Azərbaycan Hökumətinin qanununu bərpa etməkdən ötrü keçən gün Lənkəran şəhərinə uyezdni naçalnik [qəza rəisi] göndərilmişdir.

Böyük təhlükə qarşısında

Şəhərdə hökmfərma olan yatalaq azarı ilə mübarizə etməyə ciddi çarələr düşünməkdən ötrü keçən gün Bələdiyyə salonunda şəhər həkimlərinin təcili iclası dəvət edilmişdi. Şəhərin sihhiyyə əhvalı [sanitar vəziyyəti] haqqında doktor Lurye müfəssəl məruzədə bulunduqdan sonra, gəldikcə şiddətlənməkdə olan xəstəlik haqqında müzakirat başlanmışdır. Hesaba görə, hər gün 300 nəfər azarlanmaqdadır. Azarlılardan 100-ə 30 nəfəri ölür.

Müzakirat qurtardıqdan sonra bir çox tədbir maddələri qəbul olmuşdur. Bu maddələrdən ümdələri bunlardır:

1- Həkimlər cəmiyyəti bütün hökumət və ictimai təşkilatlara müraciət edib, xəstəliklə mübarizə üçün maddi müavinət [köməklik] göstərməyə dəvət edir.

2- Həkimlər xəstəliklə mübarizə edən cəmiyyətə hamı təşkilat nümayəndələrinin cəlb olunmalarını lazım görürlər.

3- Cəmiyyət, hamı [bütün] xəstəxanaların müsri xəstəxanaya [yoluxucu xəstəliklər xəstəxanasına] təbdil edilməsini [çevrilməsini] lazım bilirlər.

4- Biçiz [yoxsul] əhali üçün pulsuz hamam açmalıdır.

5- Məhəllələrin təmziliyinə baxmaqdan ötrü kontrol təyin edilməlidir.

6- Petrovsk, Ənzəli və qeyri yerlərdən azarlıların gətirilməsi qadağan edilməlidir.

7- Bu tədbirləri həyata tətbiq etməkdən ötrü nəqliyyat vəsilələri [vasitələri] lazımdır. Buna görə də Bələdiyyə İdarəsinə və Parlamana müraciət etməlidir.

İngiltərə komandanlığı xəstəliklə mübarizə edən cəmiyyətə izhar etmişdir [bildirmişdir] ki, 50 qatır ilə 25 araba, cəmiyyət ixtiyarına vagüzar edə [verə] bilər.

* Ticarət və Sənaət Nəzarətinin smeta layihəsi təsdiq üçün nazirə təqdim edilmişdir. İşbu smetada 335 min rublə məxaric göstərilmişdir.

* Yanvarın 2-dən təzə əmr verilənə qədər Ticarət və Sənaət Nəzarəti ilə ticarət müqavilənamələrinin əqd edilməsi [bağlanması] dayandırılmışdır.

* Müvəqqəti olaraq təzə binagüzarlıq edilənədək [sərəncam verilənədək] Azərbaycan dairəsinə bu aşağıda yazılan şeylərin gətirilməsinə icazə verilmişdir: taxıl yükləri, qənd, tənbəki, yağ və qeyrə, dərman, xərəzi malı [xırdavat], hər cür manufaktura, mə'dəni şeylər, dəri, kağız, kənd və fəllahət [kənd təsərrüfatı] və qeyri maşinalar.

Dəmiryolunda

* Azərbaycan Dəmiryollarında olan Ərzaq şöbəsinin Təftiş komissiyası xahiş edir ki, hər kəs Ərzaq şöbəsində olan xəyanətkarlıqları aşkar etməkdən ötrü bir əhvalat bilirsə, həmin komissiyaya xəbər versin.

* Dəmiryollar naçalniki dəmiryol xətlərinə böylə bir teleqraf göndərmişdir: "Dəmiryollarında sərnişinlərə edilən təcavüzlər haqqında alınan təzə xəbərlərə görə, böylə hadisələrin qarşısını almaq-

dan ötrü ciddi tədbirlər görülməlidir. Sərnişinləri incidənlər və təhqir edənlər dərhal həbsə alınaraq əsgəri məhkəməyə verilməlidirlər. Hamı naçalniklər öz qulluqçularının hərəkatı [hərəkətləri] haqqında məsul olacaqlardır.”

* Bugünlərdə Amerika Maarif Nəzarəti nümayəndələri Tiflisə və Bakıya varid olub [gəlib], Amerikada təhsilə getmək arzusunda olanlara böylə şərait [şərtlər] təklif edirlər: Təhsilə getmək istəyənlər Amerikaya getməkdən təmin olunaraq, təhsili itmam [tamam] edənədək Amerika Hökumətinin hesabına yaşayacaqlardır. Amerikaya gedənlər heç bir məxaric etməyib, ancaq təhsilindən qurtardıqdan sonra 5 il Amerikada qalıb hökumətə pulsuz xidmət etməlidirlər. Bu şəraitlə Tiflis şəhərindən 800 nəfər Amerikaya getmək istəmişdir.

* Asayiş bərpa edildiyinə görə, dəmiryollar ilə əmval [mallar] aparılması məhdudatı [məhdudiyyətləri] ləğv edilmişdir. Bu qərar üzrə dəmiryol ilə getmək istəyənlər şeylərinin siyahısını tutmadan apara bilərlər.

Xəyanət

Zaqatalada mövcud kooperativ dükanlarına taxıl gətirib bez, sabun və başqa şeylər aparmaq üçün Zaqataladan Bakıya gələn 4 müsəlman və bir rus vəkilləri Ərzaq Nəzarətindən aldıqları 50 min arşın bezin 20 mini müsəlman vəkillərində qalıb, qalan 200 min manatlıq əşyanı da Similt familiyasındakı rus vəkili Bakıda satmaqla böylə bir xəyanət etmişdir. Rusun yeri məlum deyildir.

Üçüncü Ali ünas [qızlar] məktəbində

Bələdiyyə tərəfindən açılmış Üçüncü Ali ünas məktəbində təlim üçün gələn müsəlman qızları bu il sabiq illərdən çox artıq qələbəlik edirlər. Təlim ilinin yarısı keçmişsə də, müsəlmanlar genə öz qızlarını, çox vaxt təlim yaşına çatmamış övladlarını da məktəb rəisəsinin hüzuruna gətirib, min cür xahişlərlə qızlarını məktəbə almağı tələb edirlər. İş bir dərəcəyə çatmış ki, məktəbin ibtiadi sinfi üç müsavi [bərabər, eyni dərəcəli] şöbə açmağa məcbur olmuşdur. Axırıncı “T” şöbəsində bu gün 50-dən ziyadə mütəəllimə [qız şagird] yığılmışdır. Bu iş qanuni-təlimə [təhsil qanununa] nə qədər müğayir [zidd] görülərsə də, məktəb rəisəsi 4-cü, yəni “S” şöbəsi açmaqdan dəxi aciz olduğu üçün valideynin təmənnalarına qarşı bu ağır vəzifəni öhdəsinə almaq məcburiyyətində olmuşdur.

Bir tərəfdən müsəlman valideynlərin elm və tərbiyəyə birdən-birə artıq həvəs və şövq göstərmələri, digər tərəfdən də çocuqların tərbiyəyə və elmə əşəddi-ehtiyaclarını [şiddətli ehtiyaclarını] qəlbən təqdir etməklə, rəisə xanım bunları geri qaytarammır.

Hamıdan artıq çocuqların müsavi cəhətdən ehtiyacları, çoxusunun cındır və natəmiz libaslarla getdikləri və çox vaxt təlim və tədrisə lazım olan kitab və dəftərləri pul ilə almağa möhtac olmaları, ümumən müəllimə xanımları çox acındırır. Bu əhvala valideyn şuralarının və baxüsus [xüsusilə] Ünas cəmiyyəti-xeyriyyə heyəti-idarəsinin nəzərini cəlb etməyi məsaili-cariyyədən [cari məsələlərdən] ədd [hesab] ediriz.

ƏRZAQ İŞLƏRİ

* "Pobeda" giliz [papiros] fabrikasının vəkili Abram İsayeviç Qrjebinə Ticarət və Sənaət Nəzarəti ilə əqd olunan müahidəyə [bağlanan müqaviləyə] əməl etdiyinə görə, Bakıdan Tiflisə 1064 put munştuçnı [müştük] yabin və 800 put kardon aparmasına Ərzaq Nəzarəti icazə vermişdir.

* Ərzaq Nəzarəti, Ticarət və Sənaət Nəzarətinə təcili bir məktub göndərib Azərbaycan Hökuməti dairəsindən çıxarılması qadağan edilən şeylərin siyahısını istəmişdir.

* Ərzaq Nəzarəti, Daxiliyyə Nəzarətinə bir məktub göndərib xəbər verir ki, dekabrın 14, 23 və 31-ində Quba qəza qaimməqamına [qəza rəisinə] Ərzaq Nəzarəti tərəfindən yazılan məktublara cavab alınmamışdır. Xüsusi alınan xəbərlərə görə, Quba uyezdində türklərin zəkat təriqi ilə [zəkat olaraq] yığdıqları taxıl, türklər getdikdən sonra qəza qaimməqamı tərəfindən satılmışdır. Buna binaən [buna görə], xahiş olunur Quba qaimməqamına təklif edəsiniz ki, həmin məsələ haqqında məlumat versin.

"Sentrodom" və Ərzaq Nəzarəti

Necə ki məlumdur, "Sentrodom" Bakıda müxtəlif məhəllələrdə xüsusi çörəkçi dükanları açıb əhaliyə ucuz çörək satmaq fikrinə düşmüşdür.

Çün "Tsentrodom"un heç bir sərmayəsi yoxdur, bütün məsarif və məxaricatı da Ərzaq Nəzarətindən alıb əhaliyə payladığı ehtiyacati-zəruriyyə [zəruri ehtiyaclar] və ərzaq (rasion) paylarının üstünə gələn faizlərdən ibarətdir. Ona görə də "Sentrodom", Maliyyə Nəzarətinə müraciətlə həmin çörəkçi dükanları üçün külli miqdarda nəqdi müavinət [nağd pul yardımı] istəmişdir. Maliyyə Nəzarəti isə şu məsələ Hökumətin ərzaq politikasına dair olduğu üçün "Sentrodom"un ərizəsini Ərzaq nazirinə göndərib, onun rəyini bilmək istəmişdir.

Keçən gün Ərzaq naziri Lizqar cənabları "Sentrodom"un ərizəsinə görə şu mülahizatını xüsusi məktubla Nəqdiyyə Nəzarətinə [Maliyyə Nazirliyinə] bəyan etmişdir:

1) Şəhərdə çörək bişirib əhaliyə ucuz qiymətlə satmaq işini Mərkəzi Ərzaq Bürosu dəröhdə etmişdir [öhdəsinə götürmüşdür] və bu büronun baş heyəti-idarəsi Müttəfiq hökumətlər nümayəndələrindən ibarətdir.

2) Həman Müttəfiq komandan nümayəndələrinə Ərzaq Nəzarəti bu məqsəd üçün bir neçə milyonluq nəqdi müavinətdə bulunmuşdur.

3) "Sentrodom" bir üzv olmaq şərti ilə həman Mərkəzi Ərzaq Bürosuna daxildir və bu münasibətlə də "Sentrodom" gərək müavinət üçün Mərkəzi Büroya rücu [müraciət] etsin.

4) "Sentrodom"un təhti-idarəsində [idarəsi altında] bir o qədər əmlaki-qeyri-mənqulə [daşınmaz əmlak] və ya ki, malüttiçarə [ticarət malı] yoxdur ki, onun istədiyi miqdarda nəqdi müavinəti ona vermək olsun. Bu səbəblərdəndir ki, "Sentrodom"un xahişi gərək rədd edilsin.

İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm "Azərbaycan" qəzetəsi müdiri cənabları.

Cənabınızdan acizanə rica edirəm ki, mənim qaç [bir neçə] sətirdən ibarət zirdəki [aşağıdakı] təşəkkürat sözlərimi təhti-müdiriyyətinizdə mətbu cəridənizin [idarəniz altında çap olunan qəzetinizin] bir sütun[un]da dərc etdirəsiniz.

Bu sənə rəbiülmövludun eyd günündə [rəbiüləvvəl ayında, Peyğəmbərin mövlud bayramı günündə] müdiriyyətim altında bulunan Ərəkit ibtidai məktəbinin biçiz [yoxsul] şagirdləri nəfinə [xeyrinə] olmaq üzrə həmin kəndin hümmətli və zatən daha ilərilərdən maarifpərvərlikdə şöhrət qazanmış vətəndaşları olan Kərbəlayi Nəsrulla Süleymanzadədən 100 manat və Kərbəlayi Əbdüləli Məşədi Əşrəf oğlundan 25 manat müavinəti-nəqdiyyə [pul köməkliyi] olmaqla ianə edilmişdir. Bundan dolayı böylə maarif-mənd və tərəqqini sevən, mədəniyyətə maddi cəhətdən müavinətdə bulunan bu zəvatdan [şəxslərdən] möhtərəm cəridəniz [qəzetiniz] vasitəsilə izhari-təşəkkür edirəm, əfəndim.

Ərəkit ibtidai məktəbi müdiri
Həsən Rəhimzadə

İDARƏYƏ MƏKTUB

“Bəsirət”in son nömrəsinin “Bakı xəbərləri” qismində bugünlərdə Bakıda “Al bayraq” namında bir qəzetənin “Müsavat” firqəsi tərəfindən çıxarılacağı bildirilirdi. Bu xəbər yanlış dərc edilmişdir. Böylə ki, “Al bayraq” müsəlman sosialistləri tərəfindən nəşr edilir. Bu babda təshihi-keyfiyyət [düzəliş] ediriz.

“Bəsirət” idarəsi

İDARƏDƏN CAVABLAR

Məhəmmədzadə Abbasəli əfəndiyə: Ağır günlərimizdə böyük fədakarlığı ilə məşhur olan Ağdaşın arşın malı, şəkər, çay və sairədən, sair yerlər kimi hissəbərdar olmaması [payına düşəni almaması] xüsusunda Ərzaq Nəzarətinə və məbussuz qaldığı barədə də Parlaman rəyasətinə doğrudan doğruya müraciət etməniz daha mənfəətli olar.

R. Rəhimli əfəndiyə: Lahıc qəsəbəsindəki camaat məktəbinin indiyə qədər qapalı qalmasından mütəəssir olaraq, bu xüsusda həman məktəbin müəllimlərini müqəssir görürsünüz. Halbuki, əldə dəliliniz yoxdur. Məktəbin filhəqiqə [həqiqətən də] nə səbəbdən bağlı olduğu xüsusunda səhih [doğru] məlumat əxz [əldə] etsəniz yaxşı olar.

Zal əfəndiyə: Yazmış olduğunuz “Yaxşı yol” sərlövhəli beş bəndi-mürəbbe [dörd misralıq] şeirlərinizdən xoşumuza gələni bu qədər oldu:

“Gedin, geri gülər üzlə qayıdanda
İsmayıl qurbanı olar muştuluq.”

Bu da fəna deyildir:

“Uçun, vətən ürəyinin quşları
Parlaq Qərbə bizdən salam söyləyin.”

Bu şərtlə ki, Qərbin tərifi olan “parlaq” sözünün əvəzinə daha münasib bir söz olaydı.

Bakı Sənaye məktəbinin şagirdi Yusif Əlizadə əfəndiyə: Sizin də “Hilala” sərlövhəli şeirinizdən bunu bəyəndik:

“Ey göy üzündə seyr edərək parlayan hilal!
Ey millətim ümidi, müqəddəs, gözəl camal!”

Şeirinizdə, şairi-şəhirimiz [məşhur,

tanınmış şairimiz] Məhəmməd Hadi Əbdülsəlimzadə cənablarının əsəri-xamələrinin [qələmindən çıxmış əsərlərin] təsiri görünür.

İANƏ

Artist Mirzə Muxtar Məhəmmədov nəfinə [xeyrinə] Ağakərim Axundovdan 100 manat ianə vüsul olub [çatıb], idarəmiz tərəfindən Mirzə Muxtar əfəndiyə təslim edilmişdir.

İtibdir

3 gün bundan əqdəm [qabaq] Əziz Məhəmmədəli oğlu 14 yaşında evdən çıxıb, bu vaxta kimi qayıtmamışdır. Əynində ağ pencək, ayağında çarıq və başında da təsək [papaq, araqçın] vardır. Bundan xəbəri olanlardan rica olunur 10-cu uçastokda pristava xəbər versinlər.

Petroqraddan gəlmiş diş həkimi M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Arvad diş həkimi M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209

Doktor Rza bəy Sultanov Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

2603

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Bakı Obşestvenni Sobraniyasının [Bakı İctimai Yığıncağının] Müvəkkilər Şurası, Obşestvenni Sobraniya işlərini idarə etmək arzusunda olan zəvatdan [şəxslərdən] bu barədə Müvəkkillər Şurasına ərizə vermək təklif olu-

nur. Ərizələr Sobraniya kantorasında bu ilin kanuni-sani [yanvar] 20-sinə kimi qəbul olunur.

T-9

Elan

Bakı Tacirlər Bankası, Azovsko-Donskoy, Voljsko-Kamski, Beynəlmiləl, Qafqaz, Rus-Asiya, Rus Xariciyyə Ticarəti, Müttəfiq, İran İstiqraz və Tiflis Tacirlər bankalarının Bakı şöbələri, 1-ci və 2-ci Müttəhid İstiqraz cəmiyyətləri ümuma elan edirlər ki, bu bankaların xəzinə və cari hesabatına daxil olan nəqdiyyə məbləğlər yenə də qeyriməhdud əndazədə nağd pul ilə taliblərə [tələb edənlərə] qaytarılır.

2644

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

QEYD VƏ ŞƏRHLƏR

Zaqatal məsələsi

səh. 219. “İnqlo”: ingiloylar nəzərdə tutulur.

səh. 220. “Sereteli”: Gürcüstan Demokratik Respublikasının və Gürcüstan Sosial-Demokrat Partiyasının liderlərindən biri olan İrakli Georgiyeviç Sereteli nəzərdə tutulur.

“Neftlik”: Şərqi Gürcüstanda mühüm dəmiryolu qovşağı olan Naftluqi stansiyası nəzərdə tutulur.

Əsgərlik vəzifəmizdir!

səh. 211. “...müstəqil cümhuriyyət qurmuşuz...”: qəzetdə “müstəqil cümhuriyyətlər qurmuşuz” kimi getmişdir.

səh. 222. “...və biz də əsgər təlimi görmüş olsaydıq...”: qəzetdə “və bir də əsgər təlimi görmüş olsaydıq” kimi getmişdir.

Teleqraf xəbərləri

səh. 223. “Qaliş”: Şərqi Avropada (Polşa və Ukrayna ərazisində) yerləşən tarixi Qalisiya vilayəti nəzərdə tutulur.

Bakı neft ticarəti və onun müxtəsərcə tarixi

səh. 226. “...quyunun gər neft məhsulatı...”: qəzetdə “gər” yerinə “hər” getmişdir.

“...neftli quyulara borular (обсадные трубы) sallanıb...”: çox dözümlü materialdan hazırlanan geniş diametrli belə “oturtma boruları” quyu divarlarının möhkəmləndirilməsi məqsədi ilə quyunun içinə yerləşdirilirdi.

Şəhərimizdə xəstəlik

səh. 228. “Aboz” (rusca “обоз”): Bakı şəhərində zibillərin daşınması ilə məşğul olmuş təşkilat.

Qarabağ əhvalı

səh. 230. "Abdulla Həmid Qənizadə": çox güman ki, "Əbdülhəmid Qənizadə" olmalıdır.

Bakı xəbərləri

səh. 231. "Dəmiryollar naçalniki": Azərbaycan Dəmiryolu İdarəsinin rəisi Teymur bəy Məlikaslanov idi.

səh. 232. "Axırıncı 'T' şöbəsində... yəni 'S' şöbəsi açmaqdan...": Belə başa düşülür ki, şöbələr əlifba sırasına görə hərflərlə adlandırılmışdır; "T" ərəb əlifbasının 3-cü, "S" isə 4-cü hərfidir.

Elan

səh. 236. "Beynəlmiləl": Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankı nəzərdə tutulur.

"Müttəfiq Bank": "Birləşmiş Bank" [Соединённый банк] nəzərdə tutulur.

"İran İstiqraz Bankı": İran Mühasibat və Kredit Bankı nəzərdə tutulur.

"Tiflis Tacirlər Bankı": Tiflis Kommersiya Bankı nəzərdə tutulur.

"1-ci və 2-ci Müttəhid İstiqraz cəmiyyətləri": "Qarşılıqlı Kredit Cəmiyyəti" nəzərdə tutulur. Bu cəmiyyətin Bakıda iki şöbəsi olmuşdur.



چهارشنبه ۱۲ ربیع‌الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۱۵ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۸۸

آذربایجان

گونده‌لیک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزته‌سیدر.

تورک و اسلامله مفید مقاله‌لرله صحیفه‌ارمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالاتك مکافاتی اداره تعیین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کراله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
» ۳۲ » ۲
» ۴۵ » ۳

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
» ۳۵ » ۲
» ۵۰ » ۳

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجه‌سنده ۴ نومرولی ایوده

«آذربایجان»ایداره‌سی.
تلفون نمره. ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

احتیاط لازمدر.

بزی ایسته‌ینلر، آزادلق واستقلالمزه قارشو حشمتانه بر وضعیت آلانلر. طبیعی‌در که بز ایله اوزلری آراسنده بر دیوار چکیله‌مسنه و یا دین بر دوره فازیله‌مسنه سبب اولدیلر که او دیوارلق و او دره‌لك آدنه اعتبارسزلق دیواری ویا اعتمادسزلق دره‌سی دیمك جائزدر.

طبیعی بر امردر: استقبالیمزی، آزادمزه لقمزی ایسته‌ینلره بز اعتبار و اعتماد کوزیله باخا بیلمه‌ریك؛ یالمکس اولانلر بزیم کوزمیزده همیشه شبهه و سوء ظن ایچینده اولاجقدرلر. بونلق نتیجه‌سی اولاراق، بز یوآدملرك یاپاجقلرینه‌ظن یا آدرباپجانمزلك باشقه برارلرنده هر بر سیاسی، اجتماعی، حتی اقتصادی ایشلرده اشتراك ایتمه‌لرینه یان‌یان باخمه‌و احتیاطلی اولمالرینه مجبور قالاجیق.

حقدمز اولاجقدر.

کیم ایناتا بیلر که، وطنمزلك استقلالنی تاتیماق ایسته‌میز بر شخص ویا بر جمعیت، کوردیکی ایش لرنده و دوتدیغی عملرلرده وطنمزلك منافعنی ملاحظه ایتمیه‌جکمی؟ ویا حکومتمزه کومك قیلمق نقطهٔ نظرایله ایشه مباشر اولسون؟

و کیم بوتا ایناتماز که یوآدملرك بو جمعیت‌لرك هر بر تشبثاتلرنده، هر بر فعالیت‌لرنده، قصدلری یالکز برشیدر: بزی دوشورمك، استقلالیتمزی یوق ایتمك، اوزلرینی تکرار آغا و بزلری گنه‌دقول حاله سالمق؟!

اگر بونلرك بعض بعض ایشارنده هردم بر منفعت عامه ملاحظه‌سی درك ایدیلورسه، وبوایش لرینك نتیجه‌سنده وطنمز ایچون مخصوصی بر منفعت اولاجغی شهه‌سز گورولورسه، بز گنه‌ده بونلری شاذلاتوب سویله‌یه‌جیك، چونکه بو سورتده‌ده گنه اولانرك مقصدی همان مقصددر: حکومتمزلك شانی گسر ایتمك و نفوذنی نظر عامه‌ده قرمق وازرسز قلمق.

بس، بونلری دولایی در که بزی تاتیمیان‌ارلق بزم برارده‌اخلی ایشارمزه قاشماسی بزی نه‌اینکه سوندیره‌میور، بلکه بر طاقم شبهه و اندیشه‌لره صالیور.

روس ملی قومیته‌سنلك، ماجرا‌جی و وطنمزده یرلشه‌یرمك بهانه‌سیله هردم حکومتمزی تعجیز ایتمه‌سی، و بو کبی ایشارده اکثرا خودسرانه تشبثاتده‌بولنمه‌سی نه کبی یزدن اوتری آرزو اولنمیان نتیجه‌لر ویره‌مه‌سی مقان صحراسی «کنداپارا اجتماعی» سنك «مشوره» قرارلرن آکلاملی اولارك که بو قرار یوگون کافذ و غزته اوزرنده اولدقله بزی براو قدر اینجیتمیورسه، صباح فعلا اجرا ایدیلرسه، استقلالمزه وویرلیان ضربه‌لرك آغرلغی بزی اینجیدر و بلکه اولدیرمق یدنده ساغلماز بر یارا اولوب قالار.

ایشته‌بیلگزده گوره، اولیه بر «کنداپارا اجتماعی» یوارلرده‌ده جاغیرلماقی فکری وار و بلکه بو یولده لازمه‌لی تشبثاتده بولنمق اوزره‌دیر. لیکین زاپاتوفکه قارشو سنده آذربایجان مسلمان عله و عمله‌لری وطن پرور و استقلال پرستلك امتحانلرینی یارلاق بر صورتده ویرمکله

قلمزه بویوك بر تسکین‌لك ویردیلر؛ و زراعت جیارمزلك دخی بو کبی امتحانلرده فعله و عمله لرمزدن گیری قالمیاجقلرنه کامل اطمینان ایله ایناتماقده‌ایدك؛ اما بونگله بیله، امتحانه‌حاضرلاشدق بویوك بر شرطدر؛ بناء علیه حاضرلاندق ایچون‌ده استادلر لازمدر؛ امید ایدیریك که فعله لرمز تشکیلاتی یولنده جدیت ایله ایشله‌ین یارتیالرمز، کندلی‌لرمزی دخی حاضرلاشدیرمق ایشنده‌ماهرانه بررِ استادلق گوسترمکله اوز بویوك وظیفه‌لرینی لایقنجه ایفا ایده‌جك‌دولر.

بزی ایسته‌مین‌لرك، هر بر ایش‌لرندن و هر بر تشبثاتلرندن مقصدلری منفعت عامه اولمیوبده، یالکز بزی دوشورمك واستقلالمزی بوژماق اولدیغنی آیدین و آشکارا بر صورتده بیلوبده بو باره‌ده یقینلك حاصل ایتمك ایچون شهرمزده ۱۲ یانواره‌ده تعیین ایدیلمش «فعله‌لر قونفرانسی» مجلسنك اوگونی «نامعلوم سیاره» گوره تاخیر ایمیدیگی گیفیته دقت‌ایدیلسون؛ همان گونی مجلسه کلن مسلمان فعله‌لرنك عددی‌ایکی یوز نفرلك‌اولور.

بوندن قاباغی اون بش نفرلك وجودیله اکثنالیوده مجلسی قانونی حسابی ایدن (چورایف)لر، بو سفر ایکی یوز نفر مسلمان فعله‌سنك یفاماسنی گوردیلر. بر نی قدر جماعتك پول و پول کرایه‌سی خصوصنده چکمش اولدقلری زحمت مقابلنده نه ایدیورلر؟

اجلاسی « آتمیتنت » ایله مجلسی‌بوژماق کبی قاباودرتت برلترا کت‌سزلك گوسترمکی مسلمان فعله‌لری حقدنده روا گوریرلر...

بو کبی حرکتلری گوردکدن‌صگره مذکور (چورایف)لرك : « فعله قرداشلار ، بز سزلك‌نه‌قنگزایچون الله‌شریك» کبی‌ریاکارانه سوزلرله حاسی مسلمان‌فعله‌سی ایتاباپلر؟ واوللرك اقتصادی‌ده اولسه، زاپاستوفکه‌لر دعوته‌هاسی آذربایجان عمله‌سی فولاق آسابلر؟ و بونلرن صوگره بزم‌فعله وعمله‌لرمز (چورایف) اردن اوزاقی دورماغی قبول ایتمه‌لر ــ که ایتمیه‌یلدرلر ــ عموم فعله‌صنفنی آیرمق کناهی کیمك‌بویننه دوشر؟ و کنه بونلدن صوگره، نجه‌اولاز که بز اوکره شبهه وسوء ظن‌ایله باخمیاریق؟

همان شبهه وسوء ظنمزی موجب اولان ایشارون برده‌ده دمیرپول ایشارینی تفتیش‌ایتمك مسئله‌سیدر.

بوکونکره‌ده یگیدن میدانه جیخان و هیچ اولدنده مسلکی خوشمزه کلمه‌ین «یا کیش» غزته‌سنده اوخویوریق که: آذربایجان دمیر یول ارزاق شعبه‌سی ایشارینی تفتیش‌ایدن قومیسیه اهالیه مراجعت ایدوب التماسه ایولنور که بو ارزاق شعبه‌سنده هربر سوء استعمالات اولمیغنی کوروب بیلدر وارسه همان قومیسیه‌یه خبر ویرسونلر.

ایشته‌بیلگزده گوره، بو قومیسه‌نك ایچنده اولیه آدملر وارکه، آذربایجان دمیر یولنده سوء استعمالات دگل، دمیر یول لاپ برلی دیبلی برباد اولمه‌ده ویجلرله کلن و یورکاری یانان دگلدرلر؛ پس قومیسه گوروب «تفتیش» قلملدن مقصد، گنه همان مقصددر.

جوق ایستردیك بیلك که آیا بو قومیسه دمیر یول نظارتنك اذنیله‌می قورولوبدر، و برده دولتمزك تفتیش نظارتی دورا دورا بو جوره قومیسه‌لر «کومکنه» احتیاج وارمی؟ احتیاج وارسه، بو قومیسه‌نك اعضالرنی کیم سه‌چوبدر، کیم تعیین ایدوبدر؟ بو قومیسه ده، یاشمزه زاپاستوفکه اوبونی آچان دمیر یول خدمتچیلری «اویونجا» بوقومیسه‌نك اوز ایشلرینه اوز حرکتلرینه نظارت طرفندن بر گوز بتورن‌وارمی؟

تفتیش‌دن مراد، سوء استعمالاتی تحقیق ایتمك‌دن باشقه اوزگه برمقصد یوریله‌میگنه حکومت طرفندن لایقنجه دقت اولنورمی؟

غرض، بوجوره مسئلهٔ بزی چوق مراق لاندیریر، امید واریق که نظارتمزدن باشقه پارلمان اعضالرندن دخی بوایشه بالاجده اولسه براهمیت یتوروب ایشك نجه‌لکندن خبردار اولمغی وظیفه لری جمله‌سندن عد ایدرلر.

حاجی بکی عزیز

آذربایجان مجلس مبعوثانده

«احرار» فراقیسمی بیاناتمه‌سی.

فراقیسه‌لك عضوی عبدالله بك اقدی زاده اوغلویور:

۱۹۱۴ نجی سنه‌ده آلولانمش و گیت گیده بوتون بر بوزیغی احاطه ایتمش ملتلر محاربه‌سی هنوز تمامیله قوتارمیوبسه‌ده، فقط قورتارماغه یوز قویوبدر. بوعالمشمول محاربه تاریخ بشریتده‌مثلی گورولمین وتولجویه جکبه یرلشمین جان، مال و پول تلفاتنه سبب اولمشدهه، دیگر طرفدن منجوس استبدادلك و قان ایچیجی میلیتاریزمك اساسلارینی داغیتدی، اصول ادارهٔ ارلك ماهیتی دکشدی، یوز سنه‌لرجه دیموقراتیزم کلمه‌سندن قورقان وهمیشه اونلك علیهنه قالقشان جماعت صنفلریتی بوگون‌ایسترز ایسته‌مز دیموقراتیزم طرفداری ایتدی، «هر ملت اوز مقدراتنی تامین ایتمه‌گه حقلی‌در» کبی‌مقدس وعالی فکرلر دوغوروب میدانه گتوردی، حیات بشریه‌ده‌ی اساسرت زنجیرلرندن قوتاروب طبیعی یولنه صوقدی. دها بو گوندن صوگرا ملتلرك تکامل اولارك دیریلکلرندن وفداکارلقلرندن آسیلمه‌دن، دها خردا ملتلر استقلالیت تامه‌یله کندیلری کیچنه‌ریمك سنه‌لرجه‌ملك اولاجقدرلار. بوخصوصده فراقیسمزك ایمانی کاملدر؛ لکن فراقیسه بوراسینده یقین یاپور که «حقوق آنلار، وریلمزه، حقوق بشریه» آنجق لیاقتی اولانلر اولان، اونك یولنده قورتالاروبرن وهوا، سو کبی اونك قدر قیمتنی بیلن ملتلرمالك اولاجقلاردر. عکس صورتده، یعنی آزادلق یولنده هیچ برفدا کارلقدمه بولونمین ملتلر یگی‌دن قویم آلتنده یاشامایه مجبور اولاجقلاردر. حقوق بشریه‌دن محروم قالاجقلاردر. پجهیدن دها شدتلو براساراته کرفتار اولاجقلاردر. خوش‌اوملتلرك حالته که معظم و مدنی ملتلره همحقوق اولمق شرطیله اولانرك صراسنده مقام دوتماغه موفق اولاجقلاردر. وای او ملتلرك حالته که بوسعادتدن، بوخوشبختلقدن محروم قالاجقلاردر.

تاریخ بشریته یارلاق آه قازانمش تورك ملت نجیبهٔ عظیمه‌سنك بر کتله‌سی تشکیل ایدن آذربایجانلی‌تورکلری بوآخرنجی وقوعات تاریخیه‌ده آزادچیلق اوله کندی دیریلکنی، و دیریلکی یاشه‌یه‌بیلمه هرحقوقه مالك اولایله‌جکنی گوراتیله اثبات ایتمشدر. دیمك یوملت هرپرچمدن مستقل یاشاماپا لایق ملتلردندر. بناء برین ملت بیشروی‌لری وملت ضیالیلری‌ملتك احوال‌روحیه‌سنی‌اوگرمغه‌ر سه، اونك آینه‌سی ایچون هیچ بر فداکارلقدن گیرو دورماز‌مه، اونلك خدمتلرنی تدقیق و معاینه ایدوب معالجه‌سنه صمیمیتله‌چالیشارسه وهمین‌صمیمیت قارشوسنده اهالیلك اعتمادینی قازاناجاقدر، اوصورتده

Çərşənbə, 15 yanvar 1919-cu il, nömrə 88

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 12 rəbiülaxir sənə 1337. 15 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

EHTİYAT LAZIMDIR

Bizi istəməyənlər, azadlıq və istiqlalımıza qarşı düşmənanə bir vəziyyət alanlar, təbiidir ki, bizlə özləri arasında bir divar çəkilməsinə və ya dərin bir dərə qazılmasına səbəb oldular ki, o divarın və o dərənin adına etibarsızlıq divarı və ya etimadsızlıq dərəsi demək caizdir.

Təbii bir əmrdir [işdir]: istiqbalımızı, azadlığımızı istəməyənlərə biz etibar və etimad gözüylə baxa bilmərik. Biləks [əksinə], onlar bizim gözümüzdə həmişə şübhə və sui-zənn [mənfi düşüncə] içində olacaqdırlar. Bunun nəticəsi olaraq, biz bu adamların ya paytaxtımızda, ya Azərbaycanımızın başqa yerlərində hər bir siyasi, ictimai, hətta iqtisadi işlərdə iştirak etmələrinə yan-yan baxmağa və ehtiyatlı olmağa məcbur qalacağıq. Haqqımız da olacaqdır.

Kim inana bilər ki, vətənimizin istiqlalını tanımaq istəməyən bir şəxs və ya bir cəmiyyət, gördüyü işlərində və tutduğu əməllərində vətənimizin mənafeyini mülahizə etsin? Və ya hökumətimizə kömək qılmaq nöqteyi-nəzəri ilə işə mübaşir olsun [işə girişsin]? Və kim buna inanmaz ki, bu adamların, bu cəmiyyətlərin hər bir təşəbbüsatlarında, hər bir fəaliyyətlərində məqsədləri yalnız bir şeydir: bizi düşürmək [yıxmaq], istiqlaliyyətimizi puç etmək, özlərini təkrar ağa və bizləri genə də qul halına salmaq?!

Əgər bunların bəzi-bəzi işlərində hər dəm bir mənfəəti-ammə [ictimai fayda] mülahizəsi dərk edilərsə və bu işlərinin nəticəsində vətənimiz üçün məxsusi bir mənfəət olacağı şübhəsiz görünərsə, biz genə də bundan şadlanıb sevinə bilməyəcəyik, çünki bu surətdə də genə onların məqsədi həman məqsəddir: Hökumətimizin şanını kəsr etmək [azaltmaq] və nüfuzunu nəzəri-ammədə [icti-maiyyətin gözündə] qırmaq və əsərsiz qılmaq.

Pəs bundan dolayıdır ki, bizi tanımayanların, bizim bir para daxili işlərimizə qatışması bizi nəinki sevindirmir, bəlkə bir taqım şübhə və əndişələrə salır.

Rus Milli Komitəsinin, mühacirləri vətənimizdə yerləşdirmək bəhanəsiylə hər dəm hökumətimizi təciz etməsi [narahat etməsi, təzyiqə məruz qoyması] və bu kimi işlərdə əksərən xudsəranə [özbaşına] təşəbbüsatda bulunması[nın] nə kimi bizdən ötrü arzu olunmayan nəticələr verməsini Muğan səhrası "Kəndlilər ictiması"nın [yığıncağının] "məşhur" qərarından anlamaq olar ki, bu qərar bu gün

kağız və qəzetə üzərində olmaqla bizi bir o qədər incitməyirsə, sabah feilən icra edilərsə, istiqlalımıza vurulan zərbənin ağırlığı bizi incidər və bəlkə dövlətimizin bədənində sağalmaz bir yara olub qalar.

Eşitdiyimizə görə, öylə bir “kəndlilər ictiması”nın buralarda da çağrılmaq fikri var və bəlkə bu yolda lazımi təşəbbüsatda bulunmaq üzrədirlər.

Keçən zabastovka fəqərəsində [hadisəsində] Azərbaycan müsəlman fəhlə və əmələləri [işçiləri] vətənpərvər və istiqlalpərəstlik imtahanlarını parlaq bir surətdə verməklə qəlbimizə böyük bir təskinlik verdilər və ziraətçilərimizin dəxi bu kimi imtahanlarda fəhlə və əmələlərimizdən geri qalmayacaqlarına kamali-itminan [tam əminlik] ilə inanmaqdayıq, amma bununla belə, imtahana hazırlaşmaq böyük bir şərtdir. Binaənileyh [ona görə], hazırlatmaq üçün də üstadlar lazımdır. Ümid edirik ki, fəhlələrimiz təşkilatı yolunda ciddiyyətlə işləyən partiyalarımız, kəndlilərimizi dəxi hazırlaşdırmaq işində mahiranə birər üstadlıq göstərməklə, öz böyük vəzifələrini layiqincə ifa edəcəkdirlər.

Bizi istəməyənlərin hər bir işlərindən və hər bir təşəbbüsatlarından məqsədləri mənfəəti-ammə olmayıb da yalnız bizi düşürmək və istiqlalımızı pozmaq olduğunu aydın və aşkara bir surətdə bilib də bu barədə yəqinlik hasil etmək üçün şəhərimizdə 12 yanvarda təyin edilmiş “Fəhlələr konfransı” məclisinin o günü “naməlum səbəblərə” görə təxir edildiyi keyfiyyətinə diqqət edilsin!

Həman günu məclisə gələn müsəlman fəhlələrinin ədədi iki yüz nəfərlik olur.

Bundan qabaq on beş nəfərin vücudu ilə iktifalanıb [kifayətlənib] da məclisi qanuni hesab edən Çurayevlər, bu səfər iki yüz nəfər müsəlman fəhləsinin yığılmasını görüb də bir bu qədər camaatın pul və yol kirayəsi xüsusunda çəkmiş olduqları zəhmət müqabilində nə edirlər?

İclası “atminit” ilə [ləğv etməklə] məclisi pozmaq kimi qaba və dürüşt [kobud] bir nəzakətsizlik göstərməyi müsəlman fəhlələri haqqında rəva görürlər...

Bu kimi hərəkətləri gördükdən sonra məzkur [adı çəkilən] Çurayevlərin “Fəhlə qardaşlar, biz sizin mənfəətiniz üçün əlləşirik!” kimi riyakaranə sözlərinə hansı müsəlman fəhləsi inana bilər? Və onların, iqtisadi də olsa, zabastovkalar dəvətinə hansı Azərbaycan əmələsi qulaq asa bilər? Və bundan sonra bizim fəhlə və əmələlərimiz Çurayevlərdən uzaq durmağı qəbul etsələr – ki etməyə bilməzlər – ümumfəhlə sinfini ayırmaq günahı kimin boynuna düşər? Və genə bundan sonra necə olar ki, biz onlara şübhə və sui-zənnlə baxmayarıq?

Həman şübhə və sui-zənnimizi mövcib olan [şərtləndirən] işlərdən biri də dəmiryol işlərini təftiş etmək məsələsidir.

Bugünlərdə yenidən meydana çıxan və heç əvvəldən də məsləki xoşumuza gəlməyən “Bakinets” qəzetəsində oxuyuruq ki, Azərbaycan Dəmiryol Ərzaq şöbəsi işlərini təftiş edən komissiya əhaliyə müraciət edib iltimasda [xahişdə] bulunur ki, bu Ərzaq şöbəsində hər bir sui-istemalat [sui-istifadə] olduğunu görüb bilənlər varsa, həman komissiyaya xəbər versinlər.

Eşitdigimizə görə, bu komissiyanın içində öylə adamlar var ki, Azərbaycan

dəmiryolunda sui-istemalat deyil, dəmiryol lap yerli-dibli bərbad olsa da veclərinə gələn və ürəkləri yanan deyildirlər. Bəs komissiya qurub "təftiş" qılmaqdan məqsəd, genə həman məqsəddir.

Çox istərdik bilək ki, aya [görəsən] bu komissiya Dəmiryol Nəzarətinin izniyləmi qurulubdur və bir də dövlətmizin Təftiş Nəzarəti dura-dura bu cürə komissiyalar "köməyinə" ehtiyac varmı? Ehtiyac varsa, bu komissiyanın əzalarını [üzvlərini] kim seçibdir, kim təyin edibdir? Bu komissiyada, başımıza zabastovka oyunu açan dəmiryol xidmətçiləri "rol" oynayırlar? Bu komissiyanın öz işlərinə, öz hərəkətlərinə Nəzarət tərəfindən bir göz yetirən varmı? Təftişdən murad, sui-istemalatı təhqiq etməkdən başqa özgə bir məqsəd yürüdülmədiyinə Hökumət tərəfindən layiqincə diqqət olunurmu?

Qərəz, bu cürə məsələlər bizi çox maraqlandırır. Ümidvarıq ki, Nəzarətimizdən başqa Parlaman əzalarımız [üzvlərimiz] dəxi bu işə balaca da olsa, bir əhəmiyyət yetirib, işin necəliyindən xəbərdar olmağı vəzifələri cümləsindən ədd [hesab] edərlər.

Hacıbəyli Üzeyir

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

"Əhrar" fraksiyası bəyannaməsi

Fraksiyanın üzvü Abdulla bəy Əfəndizadə oxuyur:

1914-üncü sənədə alovlanmış və getgedə bütün yer üzünü əhatə etmiş millətlər müharibəsi hənuz tamamilə qurtarmayıbsa da, fəqət qurtarmağa üz qoyubdur. Bu aləmşümul [bütün dünyanı əhatə edən] müharibə tarixi-bəşəriyyətdə misli görülməyən və ölçüyə, çəkiyə yerləşməyən can, mal və pul tələfatına səbəb olmuşsa da, digər tərəfdən mənhus istibdadın və qaniçici millitarizmin əsaslarını dağıtdı, üsuli-idarələrin mahiyyətini dəyişdi, yüz sənələrcə demokratizm kəlməsindən qorxan və həmişə onun əleyhinə qalxışan camaat siniflərini bu gün istər-istəməz demokratizm tərəfdarı etdi. "Hər millət öz müqəddəratını təmin etməyə haqlıdır" kimi müqəddəs və ali fikirlər doğurub meydana gətirdi. Həyati-bəşəriyyəni əsarət zəncirindən qurtarıb təbii yoluna qoydu. Daha bu gündən sonra millətlərin təkamülü onların diriliyindən və fədakarlığından asılıdır. Daha xırda millətlər istiqlaliyyəti-tammə ilə [tam müstəqil olmaqla] kəndini keçindirmək imkanına malik olacaqdırlar. Bu xüsusda fraksiyamızın imanı kamildir. Lakin fraksiya burasını da yəqin bilir ki, "Hüquq alınar, verilməz", hüquqi-bəşəriyyəyə ancaq ləyaqəti olan, onun yolunda qurbanlar verən və hava, su kimi onun qədr-qiymətini bilən millətlər malik olacaqlar. Əks surətdə, yəni azadlıq yolunda heç bir fədakarlıqda bulunmayan millətlər yenidən qəyyum altında yaşamağa məcbur olacaqlar, hüquqi-bəşəriyyədən məhrum qalacaqlar, keçmişdən daha şiddətli bir əsarətə giriftar olacaqlar. Xoş o millətlərin halına ki, müəzzəm [böyük] və mədəni millətlərlə həmhüquq olmaq şərti ilə onların sırasında məqam tutmağa müvəffəq olacaqlar. Vay o millətlərin halına ki, bu səadətdən, bu xoşbəxtlikdən məhrum qalacaqlar.

Tarixi-bəşəriyyətdə parlaq ad qazan-

mış türk milləti-nəcibeyi-əziməsinin [böyük və nəcib türk millətinin] bir kütləsini təşkil edən Azərbaycan türkləri, bu axırıncı vüquati-tarixiyyədə [tarixi hadisələrdə] azacıq olsa kəndi diriliyini və diriliyi sayəsində hər hüquqa malik ola biləcəyini kərratla [dəfələrlə] isbat etmişdir. Deməli, bu millət hər bir cəhətdən müstəqil yaşamağa layiq millətlərdəndir. Binabərin [bu səbəbdən] millət pişrovları [qabaqda gedənləri] və millət ziyalıları, millətin əhvali-ruhiyyəsini öyrənərsə, onun ayəndəsi [gələcəyi] üçün heç fədakarlıqdan geri durmazsa, onun xəstəliyini tədqiq və müayinə edib, müalicəsinə səmimiyyətlə çalışarsa və həmin səmimiyyət qarşısında əhalinin etimadını qazanarsa, o surətdə demək olar ki, bizlər də yaşarız; mədəni millətlər sırasında məqam tutmağa bizim də haqqımız vardır. Buna binaən [buna görə], başqa millətlərdə olduğu kimi, bizim də ricali-hökumətimiz [hökumət adamlarımız] böylə adamlardan mütəşəkkil olmalı idi. Heyfa [təəssüf] ki, altı-yeddi aylıq tərcübə azacıq olsa da bizlərə əmniyyət verəmmədi. Təəssüflər olsun ki, millətimizdə gördüyümüz diriliyi, fədakarlığı bu ana kimi Hökumətimizdə görəmmədik. Fəqət, nə etməli, keçən keçibdir. Hal-hazırımızın siyasəti böyük əhəmiyyət kəsb etməklə bərabər, öylə nazik [həssas], öylə bir incə məqamlara varıb ki, həm Parlaman və həm Hökumət tərəfindən böyük çalışqanlıq və həkimanə [müdrik] bir taktika istər. Daha bu gündən belə yuxulamaq qəbul edilməz bir xəyanət və cinayətdir. Əgər millət fəaliyyətsizlik ucundan bir bədbəxtliyə uğrarsa, əmin olun ki, bütün məsuliyyət Parlaman əksəriyyətinin və əksəriyyət[in] təşkil etdiyi Hökumətin üzərinə gələcəkdir.

Parlamanımıza baxılarsa, buna məmlekətimizdə mövcud camaat təbəqələrinin nümayəndələri; ictimai, müəyyən seçki qanunu mövcibincə [əsasında] və ədaləti-tammə ilə intixab edilmiş [seçilmiş] millət məbusları palatası deyiləmməyəcəyi ümum Parlaman fraksiyalarının diqqətini cəlb etmişdir. Binabərin, şimdiki Parlamanımıza biz fəqət [sadəcə] vaxtın təqazası mövcibincə [tələbləri əsasında] və inqilab surətilə təşkil olunmuş Parlaman önü deyə bilərik. Böylə bir Parlamanın ümdə vəzifələri müvəqqəti, mötəbər və möhkəm bir hökumət təşkil etməkdir. Cümhuriyyətin həqiqi sahibi olan Məclisi-Müəssisanı [Müəssislər Məclisini] intixab üçün ədalətli bir seçki qanunu tərtib etməkdir və həmin qanun üzrə Məclisi-Müəssisan toplanıb vətənə sahib oluncaya qədər davam edib durmaqdır. Ancaq bu təriqlə [üsulla] toplanmış Məclis, vətənin ağır vəzifələrini daşımağa haqlıdır, ancaq böylə bir Məclis ümum vətənin havadarı, hər sinif, hər millət və hər təbəqənin mürəvvici-əfkarı [fikirlərinin carçısı] və ayineyi-həyatı [həyatının güzgüsü] ola bilər. Əvət, Parlamanımızın ümdə vəzifələri bunlardan ibarətdir.

Hökumətimizə gəldikdə, bu təşkilatın sağlamlığının əhəmiyyətini bu gün bilməyənlər yoxdur. Hökumət, Parlaman indində [qarşısında] məsul olmalı və Parlaman göstərdiyi yollarla getməli isə də müstəqil, müttəhid [birləşmiş], möhkəm, mötəbər və mükəmməl bir qüvveyi-icraiyyə təşkil etməsi də onun birinci vəzifələrindəndir. Hökumət borcludur sarsılmaz bir xətti-hərəkət götürüb vətəni

adilanə və aqilanə bir surətdə idarə etsin, daxili və xarici siyasəti-vətəniyyəni sağlam bir fikir sayəsində yürüdüb, hər daim millət və vətəninin namusunu mühafizə etsin. Ancaq böylə bir hökumət, arxasında Parlamanı və onun vasitəsilə bütün vətən övladını görə biləcəkdir. Böylə olmayan hökumət vətən xaini və millət düşməni namını daşımağa müstəhəqq [layiq] olacaqdır.

Cümhuriyyətimizi diri bir vücud kimi fikrimizdə mücəssəm edərsək, o vücudun başı Məclisi-Məbusan, həvassi-zahirə və batinəsi [xarici və daxili duyğuları] və başqa əhəmiyyəti haiz əzası [digər əhəmiyyətli orqanları] isə hökumətdir. Necə ki, göz görmək, qulaq eşitmək, əl işləmək, dil danışmaq üçündür, bu üzvlərdən və ya başqalarından hər biri öz işlərində mütəxəssisdirlər və ancaq öz işlərinə məşğuldurlar, fəqət ümum üzvlərin yeganə məqsədləri yalnız bir bədənə və bir ruha xidmət etməkdir; həmçinin hökumət üzvləri də özlərinə vagüzar edilmiş [tapşırılmış] vəzifələri və hər kəs öz vəzifəsini daşımağa borcludur. Və necə ki, bədən üzvləri öz vəzifələrindən imtina etdikdə bədənin həlakətinə [həlakına] səbəb ola bilər, həmçinin ricali-hökumət [hökumət adamları] öz vəzifələrini daşımazlarsa, vətəni və milləti böyük-böyük fəlakətlərə düçar edə bilərlər. Buna binaən, əvvəla, nazirlərdən hər biri təhti-idarəsinə [idarəsi altına] verilmiş şöbənin mütəxəssisi olmalıdır. Saniyən [ikincisi], hər nazir kəndi müəyyən vəzifəsini vətənin hal[ına] və övzayi-siyasiyyəyə [siyasi vəziyyətə] müvafiq yürütməyə borcludur. Salisən [üçüncüsü], nazirlər öz fəaliyyətsizliyini "əhvali-siyasiyyədən naşidir [siyasi vəziyyətdən irəli gəlir]" – deyə doğrultmaqdan qəti surətdə vaz keçməlidirlər. Daxili işlərə məşğul olmayan nazirin Daxiliyyə naziri namını [adını] daşımağa haqqı yoxdur. Maarif işlərinə məşğul olmayan nazir, Maarif naziri namını daşıyammaz və hakəza [eləcə də], bunlar sabiq hökumət tərəfindən bizə verilən bəyanatın ziddinə olaraq hərəkət etməlidirlər, yəni siyasət incəldikcə, hər nazir ixtisası dairəsində fəaliyyətini çoxaltmalıdır. Rabiən [dördüncüsü], ayrı-ayrı nazirlərin yürütdüyü siyasət ümumvətən siyasətinə zidd olmamaq şərti ilə onların bütün heyəti, yəni Heyəti-Vükəla [Nazirlər Kabineti] ümum işlərdə bir vücud kimi hərəkət etməlidirlər. Belə olmazsa övzayi-vətən [vətənin vəziyyəti] şimdiki halın-dan dəxi fəna hallara düşəcəkdir.

Bir baxın görün ki, biçarə vətən bu saat bir məzaristana bənzəyir. Yollarımız xarabazara dönübdür. Posta-teleqrafımız hənuz intizama düşməyibdir. Əhalinin əlindən malı-qarası çıxıbdır. Taxıl güngündən bahalanır. Odun, kömür, neft, qənd, çay kimi ləvazimati-mühümmə bu gün dövlətlilərə məxsus olubdur. Soyğunçuluq, rüşvətxorluq, ədalətsizlik və özbəyilik saatbasaat kəsbi-şiddət edir [şiddətlənir]. Türklər yerlərinə çəkildikcə, ümumi pozğunluq yavaş-yavaş baş qaldırmaqdadır. Əsgərlik üsulu, əhalini bu müqəddəs vəzifədən nifrətləndirdi. Varlı-lar rüşvət və tərəfgirlik sayəsində əsgərlikdən qaçdılar, hər yerdə bu ağır vəzifə yalnız füqəranın üzərinə atıldı. Bununla bərabər, həmin füqəra üçün yeməyə çörək yox, qənd, çay və libas yox, öləndə də bürünməyə kəfən yox. Müsri [yoluxucu] xəstəliklər əhalini ot biçən kimi qırıb

tökür. Ölənlərin sayı yüz minləri təcavüz etdi [keçdi]. Dünkü on, on beş candan ibarət ailənin qapısına bu gün qıfıl vuruldu. Əhalisi minləri mütəcaviz [keçən] kəndlər bu gün başdan-başa bayquşlar cövlangahı olubdur. Həkim yox, dərman yox, xəstələrə yemək yox, həkim olan yerlərdə də ona rücu [müraciət] etməkdənsə, xəstə üçün ölüb qurtarmaq daha ucuz oturur. Möhtəkirlərin tamahına və fəaliyyəti-xainanəsinə [xaincə fəaliyyətlərinə] heç bir yerdə nə sərhəd var, nə əleyhinə tədbir... Hökumətimiz daxili işlərin bu cəhətlərinə böyük əhəmiyyət verməlidir. Hər şeyi nizam-intizam təhtinə [altına] alıb şimdidən ümum fəlakətin və tarixi bədbəxtliyin önünü almalıdır.

İşbu mülahizələri nəzərdə tutub fraksiyamızın verdiyi qərar, vətəni məsul, mötəməd [etimad bəslənən] və mükəmməl bir hökumətə təslim üçün yardım etməkdir. Vətənin istiqlalını və cümhuriyyəti-ənam [xalq cümhuriyyəti] əsaslı surəti-idarəsini [idarə şəklini] var qüvvəsi ilə müdafiə etməkdir. Əqəliyyətin [azlığın] haqqını təmin edici və məhəllərdə [yerlərdə] məskun əhalinin nüfusuna mütənasib seçki qanunu tərtib edib vətənin həqiqi sahibi olan Məclisi-Müəssisanı ən yavuq zamanda iş başına dəvət etməkdir.

Bununla bərabər, bu gün biz inqilab surətilə elan edilmiş Azərbaycan istiqlalını bütün aləm qarşısında uca bir səslə alqışlayırız və səmimi-qəlb ilə elan ediriz ki, vətənimiz övladının ədaləti-tammə ilə bilafərqi-dinü-millət [din və millət fərqi qoyulmadan] hər hüquqa malik olması qayeyi-amalımızdandır. Millətimizin şərəf [və] namusunu bir an unutmayaraq, qonşu millətlər və dövlətlərlə əlaqeyi-dostanəni möhkəmləşdirməyi hökumətimizin vəzaifi-aliyyəsindən [ali vəzifələrindən] ədd [hesab] ediriz. Vətən və millətimizin nümayəndələrini qonşu cümhuriyyətlər nümayəndələri ilə müttəfiqən Sülh Konfransına iştirak etdirməyə və istiqlaliyyətimizi təsdiq etdirməyə var qüvvəmizlə çalışacağız. Başqa hüquqi-miliyyəyə qarşı [digər milli hüquqlar barədə] qərarımız belədir ki:

Hürriyyətlər qanunən başdan-başa təmin edilməlidir. Əmakin və heysiyyəti-şəxsiyyə təərrüzdən məsun olmalıdır. [Şəxsi mülkiyyət və ləyaqət toxunulmaz olmalıdır.] Əkinçilərin və fəhlələrin halı lazımi dərəcələrdə yüngülləşdirilməlidir. Qanun üzrə təhti-qərara alınmış xırda mülklərdə haqqi-təməllük [sahiblik haqqı] olmalıdır. Miri topraqları [dövlət əraziləri], sabiq padşaha və onun nəslinə mənsub, böyük mülkədarlara və xüsusi maliklərə mütəəlliq [məxsus] topraqları xəzinəyə götürüb, əkinçilərə ailələrinin nüfusuna mütənasib məccanən [pulsuz] paylanmalıdır. Xüsusi topraqları əvəzində onlara xəzinədən bədəl vermək məsələsini Məclisi-Müəssisana həvalə etməlidir. Topraqlar sərvətdarlar əlinə keçməsin de-yə, əkinçilər aldıqları topraq paylarını satmaq ixtiyarına malik olmamalıdırlar. Fəhlə sinfinin yömiyyə [günlük] zəhmətinin müddəti 8 saatdan ziyadə olmamalıdır. Onların keçinəcəyi, hifzüssihhələri [sağlamlıqları], maarif işləri, kassaları [fondları, pensiya fondları] və başqa tələbatı adilanə bir surətdə qanunən təmin edilməlidir.

Füqərayi-kasibə [proletar] sinfini bir çox xəracdan azad etmək üçün vergilərin küllisi [hamısı] gəlirə görə vergi ilə əvəz

edilməlidir.

Tədrisi-ibtidai [ibtidai tədris] ümumi, məccani [pulsuz] və məcburi olmalıdır. Azərbaycan Cümhuriyyətinin maarifə olan ehtiyacatı başqa ehtiyacatının fövqündədir. Ümum fəlakətlərin birinci səbəbi maarif yoxluğudur. Buna görə müəllimlərin məişətini təmin etməklə, onları dilənçilik halından xilas etməlidir. Müəllimlər güruhuna [kütləsinə] bacarıqlı qüvvələr soxmalıdır. İbtidai məktəblərdən başqa darülmüəlliminlər [seminariyalar], rüşdi, edadi və hərbi məktəblər, sənaye, ticarət və ziraət [kənd təsərrüfatı] məktəbləri açmalıdır. Şimdiki məktəbləri mümkün olduqca tez bir zamanda milliləşdirməlidir. Camaat anlayacaq şivədə də siyasi, elmi və fənni risalələr [kitabçalar], jurnallar, üsuli-təlim və tərbiyəyə dair əsərlər tədbir edib [hazırlayıb] əhvən [ən aşağı] qiymətlə və geniş bir miqyasda intişar [çap] etdirməlidir. Bunlardan əlavə, Cümhuriyyət daxilində bu sənədən etibarən darülfünün [univeristet] təsis etməlidir. Hökumət idarələrini keçindirmək üçün xüsusi kurslar açıb, bütün hökumət idarələrində və şöbələrində işləməyə xidmətçilər hazırlamalıdır və həmin idarələri tez bir zamanda milliləşdirməli və bütün mürasilatı [yazışmaları] türk dilində aparmalıdır. Məhkəmeyi-ədliyyələr [ədliyyə məhkəmələri] demokratik bir üsul üzrə təsis edilib, hər bir fərd bilafərqi-dinü-millət ancaq Cümhuriyyət qanunu müqabilində [qarşısında] məsul tutulmalıdır.

Təcili surətdə məhəllərə [yerlərə] təftiş komissiyaları göndərib, rüşvətxor və xain xidmətçiləri məqamlarından kənar etdirməli və divani-ədalətə [ədalət divanına] verdirməlidir.

Ərzaq məsələsi, möhtəkirlər və müstəbidlər əlindən xilas edilməlidir. Taxıl, çit, ağ, qənd, çay, sabun və başqa ləvazimati-həyatiyyənin indidən tədbirinə düşməlidir.

Əski şose yolları lazımınca təmir edilməli və hər yerdə yeni yollar açılmağa sərfi-hümmət etməlidir [çalışılmalıdır]. "Orta Qafqaz" dəmiryolu namında hazırlanmış əski projeni qövldən feilə [sözdən işə] gətirməlidir. Ucuz fiatla dava-dərman gətirdib məhəllərə göndərməlidir. Məhəllərdə parasız müalicəxanalar açmalı və hər yerə həkimlər göndərməlidir və bu yollarla külliyyətli [kütləvi] el qırğınının önünü almalıdır.

İstiqlaliyyəti-milliyyənin birinci sütunu ədd [hesab] olunan sağlam və müdhiş bir orduya malik olmalıdır. Ümumumuzun məlumudur ki, yeni doğulmuş əsgəri təşkilatımız adilanə bir surətdə icra edilməklə bərabər, bir çox təbii və arizi [süni, sonradan əmələ gələn] fəlakətlərə uğrayıbdır. Buna görə, camaatımız bu işdən mütənəffir olubdur [nifrət edibdir]. Əsgərlik vəzifəsi vətənin ən müqəddəs vəzifələrindən olduğunu nəzərdə tutub, yeni təşkilati-əsgəriyyəni mükəmməl bir əsgəri qanununa müvafiq düzüb-qoşmalıdır. Əsgərlərin yeyəcəyinə, yatacağına, libasına və həkim-dərmanına boyük diqqət etməlidir. Dövlətliyə, fəqirə, böyüyə, kiçiyə təvafüt qoymamalıdır. Bu qədər bilməlidir ki, bizləri Azərbaycana sahib edəcək qüvvə, bizim milli ordumuz olacaqdır. Ordu sağlam və möhkəm bir qüvvə təşkil edərsə, hökumət də ona istinadən iş görə bilər, millət də onun sayəsində tərəqqiyə üz qoyub mədəni millətlər sırasına keçər.

Nəhayət, yeni Hökumətin bugünkü bəyanatının qarşısında fraksiyamızın cavabı budur ki, millətin və vətənin mənafeyinə işləmək, quru sözlərdən və boş vədlərdən ibarət olub qalmamalıdır. Əgər Hökumət ciddi fəaliyyət və fədakarlıq etməyə doğrudan-doğruya hazır isə, arxasında “Əhrar” fraksiyasını görəcək və onun müavinətini [köməyini] qazanacaqdır. Ancaq bu şərti əsas ittixaz edərək [əsas qəbul edərək] vaxtın əhəmiyyətini, siyasətin nazikliyini [həssaslığını] nəzərdə tutub, yeni Hökumətə fraksiyamız izharietimad edir [etimadını bildirir].”

“Müsavat”ın Parlaman fraksiyasında

Yekşənbə [bazar] günü yanvarın 12-sində Məhəmməd Əmin Rəsulzadə cənablarının təhti-sədarətində [sədrliyi altında] “Müsavat”ın Parlaman fraksiyasının iclası vaqe olmuşdur [baş tutmuşdur]. Parlaman üzvlərinin qulluqlar qəbul etmələrinin qeyri-mümkün olduğu barəsində Parlamana daxil etmək üçün bir layihə qəbul edilmişdir. Bu layihəyə görə, Parlaman üzvləri dövlət qulluğunda ola bilməzlər, fəqət vəzir [nazir] ola bilərlər. Sonra şəhər qanunu və şəhər intixabı [seçkisi] barəsində qanun tərtibi xüsusi bir komissiyaya mühəvvəl edilmişdir [tapşırılmışdır]. Nəhayət Parlaman kvorumu məsələsi müzakirə edilmişdir. Müntəxəb [seçilmiş] üzvlərin yarısı kvorum hesab olunması təsvib [təsdiq] edilmişdir.

Məclisin axırında sədr “Əhrar” firqəsinin “Müsavat”la birlikdə ittifaq təşkili haqqındakı təklifini bildirmiş, iclas üzvləri bu təklifi təqdir edərək bu məsələnin Parlaman “Əhrar” və “Müsavat” fraksiyaları müttəhid [birgə] iclasında müzakirə olunmasını lazım görüb, böylə bir iclas çağırılmasını istəmişlərdir.

TELEQRAF XƏBƏRLƏRİ

İngiltərədə yeni hökumət

İngiltərədə Vüzəra [Nazirlər] Kabinəsi təzələnib, yeni Kabinə əksəriyyən əski nazirlərdən təşəkkül edərək, ser Sinha Hindistan işlərinə baxan vəzir müavini olmaq üzrə ilk dəfə olaraq İngiltərə Kabinəsinə hindulardan da nazir təyini nagəhani [gözlənilməz] olmuşdur. Çünki, heç böylə şey gözlənməyirmiş, ser Sinhaya İngiltərə peri ləqəbi veriləcəyi gözlənir.

Yeni kabinə, Lloyd Corc Rəisi-vükəla [Baş nazir] olmaq üzrə 30 ittihadçı (unionist), 25 liberal, 5 fəhlə firqəsi nümayəsindən ibarət olaraq 60 nəfərdən mütəşəkkildir.

Sülh Konqresində

İngiltərə Hərbi Komitəsi tərəfindən Sülh Konqresinə Lloyd Corc, Balfur, Bonar Lui, Corc Barns intixab edilmişdirlər [seçilmişlər]. İngiltərə müstəmləkə məsələləri müzakirə edildiyi vaxt, müstəmləkə vəkilləri danışacaqlardır. Sabah səhər vəkillər Parisə əzimət edəcəkdirlər [yola düşəcəklər]. Konqre düşənbə [bazar ertəsi] günü açılacaqdır.

* Ərəbistanda türklər bir dərəcə inad göstərib mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə təslim olmaq istəməmişlərdir. Fikri paşanın təhti-komandasında [komandanlığı altında] olan böyük bir dəstə Mədinə ətrafında təslim olmayıb, şimdi də müqabilədə bulunur [müqavimət gös-

tərir]. Müttəfiqlər Türkiyə Hökumətinə xəbərdarlıq etmişlər ki, hərgah türk qoşunları Ərəbistanda təslim olmazlarsa, Dardanel tabyaları [istehkamları] dalbadal patladılacaqdır.

İngiltərədə

Rəsmi surətdə İngiltərə mənabeyindən [mənbələrindən] verilən xəbərlərdən anlaşılır ki, dörd il müharibə zamanında almanlar 52 dəfə İngiltərəyə hava gəmiləri ilə hücum etmişlərdir, 497 nəfər şəhər əhalisindən və 88 nəfər hərbiyyunlardan [hərbçilərdən] qətl olub, 1236 nəfər şəhər əhalisindən, 121 nəfər hərbiyyunlardan yaralanmışlardır.

Aeroplanlarla almanlar 61 dəfə hücum edib, 619 nəfər şəhər əhalisindən və 400 nəfər hərbiyyunlardan həlak etmişlərdir. 12 dəfə də almanlar paraxodlarla bombardıman etmişlər ki, bunda da min nəfərədək tələfat verilmiş imiş.

Dobrucanın işğalı

Bükreş sülh müahidiəsi [sazişi] ilə Bolqariyaya verilmiş olan Dobruca şəhərini Müttəfiqlər işğal etmişlərdir. Müttəfiqlər Sülh Konqresinədək məsələni açıq buraxmışlardır.

Almaniyada

(Teleqraflardan)

* Berlində bugünlərdə bir dərəcə sakitlik əmələ gəlmişdir. Spartaklar məğlub olmuşlardır. Hökumət qoşunları ümumi müəssisələri işğal etmişlərdir. Minlərlə hökumət qoşunları Berlinə varid olmuşlardır [gəlmişlər]. Çaharşənbə [çərşənbə] günü əməliyyati-hərbiyyə əvvəlki günlərdən şiddətli olub, tələfat o gün çox imiş. Dəmiryol vağzallarını işğal etmək üçün qızğın müharibə olmuşdur. Nəhayət, hökumət vağzalı işğal eyləmişdir.

* Berlində küçə müharibələrində iştirak edənlərin miqdarı qeyri-müəyyən olduğundan, spartakların hökuməti əllərinə almaqdan ötrü nə miqdar qoşunla müharibəyə girişdikləri anlaşılmayır.

Son məlumatdan anlaşılan budur ki, yanvarın 9-da səhər bir dərəcə sakitlik əmələ gəlmişdir. Gecəsi hökumət qoşunları bir neçə ictimai müəssisələri əllərinə keçirmişlərdi. Şimdi isə ixtiyar hökumət əlinə keçir. Hökumət üçün hər gün qüvvə gəlir ki, onların arasında Kilə gəlmiş matroslar da vardır. Berlin qoşunlarının hamı afserləri [zabitləri] hökumətə müavinət [yardım] edəcəklərinə yəmin etmişlərdir.

* Yanvarın 9-da sübh vaxtı yenə müsadimələr [toqquşmalar] başlanmış və bu müsadimələr nəticəsi olaraq hökumət qoşunları faiq [üstün] gəlmişlərdir. Hökumət mətbəəsi və hərbi ərzaq skladı [anbarı] təzədən hökumət əlinə keçmişdir. Berlinin böyük qəzetələri spartakların əlindədir.

* Yanvarın 9-da olan əhvallar [vəziyyət]. Qət edilən ciddi tədbirlər sayəsində hökumətin gücü artır. Hökumət əleyhinə iştirak edənlərin ədədi gündən-günə əksilir. Qəzetə idarələrini, dəmiryol mövqiflərini [stansiyalarını] və sair mühüm nöqtələri əldə etmək üçün indi ciddi müsadimə gedir. Heç şübhə yoxdur ki, camaatın hökumətə olan etibarı artır və bunlar nəhayət hökumət əlinə keçəcəkdir. Şimdi anlaşılır ki, spartakların 8 yanvar tarixli iclaslarında spartakların təbliğə müvəffəq olmadıqları təhəqqüq etmişdir [dəqiqləşmişdir].

* Vestermark və Dobritsdən spartaklar getdikdən sonra komandan açıq səhrada bütün bomba skladını [anbarını] bərhəva eyləmişdir [havaya sovurmuşdur.]. Şpandau yaxınlığında hökumət qoşunları spartaklardan top emalatxanasını almışlardır. Hər bir yerdən xəbər verilir ki, spartaklar qəzetələri əllərinə almaq və o yol ilə camaatı iğfal etmək [yoldan çıxarmaq] niyyətində olmuşdur.

* Yanvarın 9-cu gecəsi Almaniya spartakları Berlində Mərkəzi mövqifə [stansiyaya] hücum etmişlərsə də, dəf edilmişdir. Hökumət qərar qoymuşdur ki, birdəfəlik spartakları əzib həqiqi milli iclasa yol açsın.

* Camaat vəkili olan Şeydeman Prussiya nümayəndələrinə bildirmişdir ki: “Hərçənd hökumət məşğulatı hər gün asudəliklə keçir, bununla bərabər, bolşevik xətrəsini [təhlükəsini] fəramuş etməyir [yaddan çıxarmır]. Ona görə də bolşeviklərin təcavüzkaranə hərəkətlərinə qarşı mübarizədə bulunacaqdır.” Şeydeman əlavə edir ki: “Özünün birinci vəzifəsi hökumətə müavinətdir [kömək etməkdir]. Çünki, dünyanı ən böyük xətrəyə salan bolşeviklərdir. Onlarla mübarizə etmək dünyada sülh və səlamətliyi təmin etmək deməkdir. Bu indiki alman hökumətinin məramnaməsidir ki, bu məramnaməni yeritmək üçün hökumət böyük mərdanəliklə çalışaraq, heç bir iqtidamatdan [addımdan] geri durmayacaqdır.”

Polyaklarla müharibə

Yanvarın 8-də polyaklarla nemeslərin arasında qızğın müharibə vaqe olmuşdur. Çirmakau alman qoşunlarının hücumu ilə alınmışdır. Lakin tərəfi-müqabilin [qarşı tərəfin] qüvvəti ilə yenə almanlar oranı buraxmışlardır. Almanlar Kolmarı da buraxmağa məcbur olmuşlardır. Vissek tepələrini və Visseki işğal üçün edilən müharibə alman qoşunlarının nəfi ilə [xeyrinə] nəticələnmişdir.

ORDAN-BURDAN

Azərbaycan Hökuməti təşkil edildikdən bəri, məndə iki adət əmələ gəlibdir. Bu adətin birini qəzetə oxuyanda ibraz edirəm [büruzə verirəm, göstərirəm], birini də küçə ilə gedəndə.

Adətlərimin ikisi də bir “sort”dur: özü də – axtarmaq adətidir.

Qəzetə oxuyanda da axtarıram, küçə ilə gedəndə də.

Nə axtarıram?

Qəzetəni, baxüsus [xüsusilə] rus qəzetələrini əlimə alan kimi əvvəl-əvvəl axtarıram görüm Azərbaycan Hökumətinin əmrləri, hökmləri, binagüzarlıqları varmı ki, tez oxuyum mənim üçün ləzzət versin! (Gülməyindən görürəm ki, sən də bu adətə giriftarsan!)

Məsələn, axtarıb, tapıb, oxuyuram ki, söz məsəli, Anna İvanovna Yermakova yanvar ayının birindən filan Nəzarətin [Nazirliyin] filan idarəsində filan qulluğa təyin edilibdir.

O saat keyfim durur: öz-özümə Anna İvanovnaya deyirəm ki, bax Anna İvanovna! Görürsən, Azərbaycan Hökuməti nə yaxşı, mehriban hökumətdir. Səni qulluğa qoyur, sənə məvacib verir, amma sizin Rus Milli Komitəniz hökumətimizi pisləyir, deyir ki, ruslara guya zülüm edir. Bax,

o cürə yalan sözlərə qulaq asma, onlar yalançıdırlar, xaindirlər!

Ya oxuyuram ki, sözgəlişi, Vladimir Vasilyeviç Palaumov neçə vaxtır qulluğuna gəlmədiyinə görə filan gündən, filan saatdan etibarən öz vəzifəsindən, hətta lap qulluğından bilkülliyyə [tamamən] kənar edilir.

Bunu da oxuyub, ləzzət aparıb genə öz-özümə Vladimir Vasilyeviçə deyirəm ki, bax, görürsən, adamı böylə qovarlar ha?! Elə bilmə ki, səni qovmağa Hökumətimizin gücü yoxdur, elə qovar ki, lap Məskoya kimi qaçarsan! Get kimə istəsən şikayət eylə! Hökumətimizin kefi belə istəyir. Hökumətlə hökumətlik eyləməyəcəksən ki!!!

Amma bəzi vəxt olur qəzetədə elə hökmlü və şiddətli "prikaz"lar [əmrlər] görürəm ki, başdan bir-iki sətir oxuyan kimi ürəyim təşvişə düşüb deyirəm ki, nə lazım, Hökumətimiz bu cürə şiddətli və qəti əmrnamələrlə özgələri incidib söylənməyə vadar edəcəkdir, onsuz da donqulduya-donqulduya baş-beynimizi aparıbdırlar.

Cəld prikazın imzasına baxıram, ürəyimin təşvişi sakit olur:

– General Tomson.

. . . . . .

Hay istəyirəm ki, bu adəti tərk eyləyəm, olmur ki, olmur. Görünür, alimlər doğru deyibdirlər ki:

Və əl-adətike əltəbiyyətə's-saniyə!

* * *

Yuxarıda ərz eylədiyim üzrə, ikinci adətim dəxi əvvəlinci adətimin qardaşıdır:

O da axtarmaqdır, ancaq küçədə.

Küçə ilə gedərkən, elə gözüm oradaburadadır ki, görüm, aya, bir nəfər Azərbaycan zabiti, ya bir nəfər, iki nəfər Azərbaycan əsgəri görə bilərəmmi ki, tamaşası mənim üçün ləzzət versin!

Əhyanən [hərdənbir] bir nəfər "zabit balası" görəndə elə bilirəm ki, dünya aləm bizim qoşunumuzdur!

Zabit və əsgər görməyəndə də təsəllimi qırmızı paqonlu qaradavoylarımızdan alıram.

Amma birdən olur ki, görürəm, Şamaxı yolu ilə üzü aşağı və ya üzü yuxarı bir dəstə atlı çapır, genə ürəyim təşvişə düşür: deyirəm yəqin bizim qoşunlarımızdır, amma nahaq yerə şəhərin küçəsində bu cürə at çapırlar. Allah göstərməsin, birdən adam basdalarlar, onda genə xaricilərin ağzı çuval kimi açılıb deyərlər ki, Azərbaycan qoşunu küçədə adam basdalayır.

Atlılar çapa-çapa yanımdan şıdırğı ilə keçərkən tez sifətlərinə baxıram; ürəyimin təşvişi sakit olur:

– Biçeraxovun kazakları.

. . . . . .

Özümə güc gəlirəm ki, bu adətimi də tərk edim, görürəm ki, olmur, keyfimə korluq çəkdirirəm. Görünür, hükəmalər [müdriklər] yalan deməyibdirlər ki:

Tərki adət be mövcibi-mərəz əst!

Filankəs

ƏRZAQ VƏ MƏKULAT [AZUQƏ] HAQQINDA

Aləmşümul [bütün dünyanı əhatə edən] müharibənin nəticəsi olaraq əhali aclıq, üsrət [çətinlik] və bunlardan tövlid edən

[yaranan] dürlü-dürlü müsri [yoluxucu] xəstəliklər şiddəti altında boğulur, əzilir, məhv olub gedir. Təbii, bolşevik sərsərilərlə daşnak ermənilərinin xeyirsizcəsinə edilən qiyam və hərəkətləri toxtasaydı, heç şübhəsiz, yalnız Bakıda deyil, hər bir yerdə ərzaq bol, əmnü asayiş [əmin-amanlıq və asayiş] bərpa olardı. Dəmiryolları müntəzəm surətdə işlərdi. Tərəddüd [gediş-gəliş] çoxalardı. Ticarət rəqabəti yenə meydana çıxıb, ehtiyacatı dəf edəcək ənvai [növbənöv], əqsam [müxtəlif] yeyiləcəklər, geyiləcəklər və sair bunlar kimi ləvazimat bazarlara çıxarılardı. Bütün maneələr rədd edilərdi. Əhali təkrar yaşayış üsuluna təbəiyyət edərək [tabe olaraq] keçinməyə başlardı.

Lakin haqsız təcavüzlər, yersiz hücumlar, şiddətli işkəncələr, dəhşətli çıxışlar, fəci [faciəli] və olduqca vəhşətkaranə edilən canavarlıqlar, sülh və asayişi, məmləkətin emar və islahatını rəxnədar etdiyi [pozduğu] kimi, tacirlərin dəxi ticarətinə, ötəyə-bəriyə ediləcək tərəddüdatına [gediş-gəlişinə] öylə maneələr çəkir ki, qanlar tökülüb adəm övladı tələf olmayınca dəf olunması qeyri-mümkündür.

Varsın nə qədər təcavüz və çıxışlar olursa olsun, Nikolay heykəli-istibdadını sərnigun edən [devirən] qüvvə, mütəcasir [cürətkarların] və mütəcavizlərin [təcavüzkarların] də cəzasını verəcəyinə əminiz.

Bu maneələr xaricdə düşmən əli ilə vücuda gətirildiyindən, bir növ çarələr aramaqla nəticəsinə müntəzir olaraq [nəticəsini gözləyərək] mütəsəlli olarız [təsəlli taparıq]. Lakin daxildə kökləşən canavarlıqlar, məzlum və məğdur [haqsızlığa məruz qalmış] əhalini hamıdan ziyadə acındırır və başlarına olmazın fəlakətlər törədir. Bu isə alverçilərimizin insafsızcasına müamilə namı ilə etdikləri hədsiz tamahkarlıqlarından ibarətdir.

Böylə ki, üç sənədən bəri ərzaq və məkulat yoxsuzluğu təzyiqatına mübtəla ola gələn əhali bıqmış, vardan-yoxdan tükənmiş, həyat, məişət sıxıntısından əsəbiyyətin timsali-mücəssəməsi kəsilmişdir [canlı timsalı olmuşdur]. Böylə olduğu halda, alverçilərin də iştəha şiddəti həddən aşmış, tamah dişləri düşmən qılıncından kəskin bir vəziyyət almışdır.

Əvət, hər tərəfə baxılarsa un, buğda, arpa və sair məkulat bol görülür. Bundan iləri iki-üç küçədə bir dükan var idisə də, indi hər küçədə beş-altı dükan vardır. Hamısı un, buğda və sair bunlar kimi yeyiləcək şeylərlə doludurlar. Heç bir şey üçün məəttəlçilik olmayır. Bununla bərabər, əhalinin 8 faizi doyunca çörək yeyə bilməyir, ac qalır. 15 faizi isə kamali-rahat və rəfahiyyət [firavanlıq] ilə yaşayır və çoxlu para toplayır.

Burada, “neyçün?” sualı varidi-xatir olur [xatirə gəlir].

Bu suala da kəndimiz cavab verməliyiz:

Bundan əqdəm [qabaq], yəni sülh və asayiş zamanında alverçilər manata bir qəpik, yarım qəpik mənfəətlə mal satırdılar və gündəlik xərclərini hasil etmək üçün rəqabətə keçərək daha əhvən [ən aşağı] fiyatla, fəqət bollu mal sərf edirdilər ki, bu rəqabət həmi fabrikadan çıxan əmvalı [malları], həmi sair məhsulatı külli surətdə məmləkətdə yayılmağa və əhalini ehtiyac şiddətindən xilasla rahat yaşamağa nail edirdi.

Şimdi alver məsələsi başqa dürlü olmuşdur. Rəqabət ayrı bir şəkil almışdır.

Alverin bütün əsas və etiyadatı [vərdişləri] ümumiyyət etibarilə məkus bir örf [tərsinə bir ənənə] üzrə qonulmuşdur. Ehtikar sevən alverçilər unun yaxud buğdanın putunda 10-15 manata qənaət edərlərsə, nə əhali ehtiyac içində qalar, nə də un, buğda anbarlarda üst-üstə vurulub yığılar. Bu insafsızlar 10-20 deyil, putda 30-40 manat mənfəətə belə razı olmayırlar. Rəqabətləri isə əhalinin qanını içməkdən, ərzaq və məkulatı möhtəkirlik vəz'ilə [möhtəkirlik edərək] anbara vurmaqdan ibarət olub qalmışdır.

Təbii, böylə ağır zamanda ən ufaq, ən fəqir ailə 60-70 manat məxariclə keçinir. Ağır ailə sahibi olanlar isə 100-150 manatla keçinəmməyirlər. Alverçilər bu ağırlıqda gündəlik məxarici yalnız bir put, ya put yarım buğda, un satmaqdan çıxarmağa çalışırlar. Daha əhalisinin ehtiyac sıxıntısı altında əzildiyini nəzərə almayırlar. Halbuki məxaricləri ödəmək üçün putda on manata qane olub hər dükançı gündə 30-40 put satarlarsa, qətiyyən həmi əhali ucuz və bollu çörək yeyər, həmi də məmləkətdə sızıltıya meydan verilməz. Biləks [əksinə], məmləkət aclıq ahü ənini [ah-naləsi] ilə dolmuş, evlərdə satılmamış yorğan-döşək və sair əmval [mal] qalmamışdır. Hətta müsəlmanlarca ən böyük ayıb hesab olunan qadın tumanları belə bazara çıxarılıb satışa qoyulmuşdur. Bir çox namuslu ailələr, dilənçiliyə təvəssül etmişlər [əl atmışlar].

Buna mübaqilə, çox ortaqlar un və buğda satmaqdan hər ayda 15 min, 20 min mənfəət bulurlar.

Yetər, artıq yetər, bu qədər fəlakət, bu rəzalət! Şimdi ricali-hökumətə [hökumət adamlarına] iltica [xahiş, yalvarış] üzünü çevirib, böylə cinayətlərin önünü almalarını rica, dəfəatla yırtıcı düşmən əlləri ilə parçalanan bir milləti, qətliam olub çoluq-çocuqların qan düşməni, can düşməni əlinə əsir düşməsindən mütəəssir olmayan bir əhalini mülayimət, məsləhət ilə deyil, silinməz bir qanun şiddəti ilə islah buyurmalarını acizanə təmənna ediriz.

Ə. Müznib

İRƏVAN HADİSƏLƏRİ

İrəvan quberniyasının müsəlman nümayəndələri Azərbaycan Hökumətinin Vüzəra Şurası [Nazirlər Kabineti] sədrinə böylə bir ərzihal [ərizə] vermişlərdir:

"Doğru məlumata görə, Andranik erməni qaçqınlarını müşayiət etmək bəhanəsi ilə öz dəstəsi ilə bərabər İrəvan quberniyasına, müsəlmanlarla müharibə edən erməni əsgərlərinin köməyinə gəlməkdədir. Bu iş, İrəvan quberniyasında olan müsəlmanlar üçün xeyli təhlükəlidir. Hamı qaçqınlar türk təbəəsidirlər [vətəndaşıdır]. Bunları müsəlmanlarla məskun olan yerlərə yerləşdirmək istəyirlər. Bu həqiqət bunu isbat edir ki, halhazırda Ermənistan hökumətindən ermənilər müsəlmanlar yaşadıqları yerlərə köçürürlər. Müsəlmanlar mümaniət [maneçilik] göstərirlərsə də, ermənilər silah gücü ilə iş görürlər. Odur ki, bu qərar üzrə ermənilərlə müsəlmanlar arasında müharibə davam edir. Ermənilər inadlı müharibədən sonra, müharibə etmək müşkül olduğundan, müvəqqəti olaraq hərəkati-hərbiyyəni dayandırmışlarsa da, lakin gürcü-erməni müharibəsi qurtardı-

ğına görə, ermənilərin yenə də yürüş başlayacaqları şübhəsizdir. İrəvan quberniyası müsəlmanları ermənilərin təzədən hücuma başlayacaqlarını yəqin edib, möhkəmləşdirdikləri mövqeləri mühafizə edirlər. Andranikin müsəlmanlar arxasına keçməsi çox müşküldür. Məsələ xeyli mühüm olduğundan, xahiş edirik ki, general Tomsonla xüsusi bir saziş hazırlayasınız. Tainki bu saziş əsası ilə müsəlmanlarla məskun olan yerlərə soxulmuş ermənilər öz yerlərinə çəkilib, qaçqın ermənilər də ya Türkiyəyə və Ermənistana göndərilsinlər. Andranikin dəstəsini də hissə-hissə buraxsınlar. Bu tövr bir saziş İrəvan quberniyası müsəlmanları üçün xeyli əlverişlidir. İrəvan quberniyası müsəlmanlarını ermənilər[lə] təzə toqquşma olmasın deyə, aşina və razı etmək olar.”

BAKI XƏBƏRLƏRİ

* Ərzaq Nəzarəti öz avtomobilləri üçün Malakanski və Tramvaynı küçələrin küncündə Hacıyevin mülkündə bir xüsusi mənzil tutubmuş. İki gün əvvəl bir dəstə hindular gəlib zorla otaqların qıfıllarını sındırıb, otaqlardakı əşyanı küçəyə tullayıb, mənzilləri zorla öz əllərinə keçirmişlər. Bu xüsusda Ərzaq naziri Bakı müvəqqət general-qubernatoru Tomsona müraciət edib hinduların bu qeyri-qanuni hərəkətlərini göstərib və həman mənzillərdən onların ixrac edilmələrini ciddiyyən xahiş etmişdir.

* Sabiq Bələdiyyə İdarəsi Ərzaq şöbəsinin skladlarında [anbarlarında] 600 vedrəyə kimi şərab var imiş. Ərzaq şöbəsi, Ərzaq Nəzarətinə keçən kimi qərar qoyulmuş ki, bu şərab satılsın. Nəticədə məlum olmuş ki, bu şərabı Berkatov, Partnov, İvaşin və Hacıyev cənabları bu şərabı vedrəsi 90 manatdan olmaq üzrə alıb bey’anə [beh] olmaq üzrə 50 min manat vermişlər. Böylə danışırlar ki, şərabı alanların arasında sabiq şöbənin mallarını Nəzarət üçün qəbul edən komissiya üzvlərinin yavuq qohumları da iştirak etmişlər.

* Şəhər İdarəsinin Hifzüssihhə [Gigiyena] şöbəsi Ərzaq Nəzarətinə xəstəxanalar və xəstələr xüsusunda statistik məlumatını göndərmədiyi üçün Nəzarət tərəfindən xəbərdar olunur ki, hərgah bu yavuqlarda lazım olan məlumat göndərilməzsə, o vaxt xəstəxanalara verilən zəruri şeylər buraxılmayacaqdır.

* Bakı Şəhər İdarəsinin Ərzaq şöbəsi Hökumət qərardadına görə Ərzaq Nəzarəti ixtiyarına keçdiyi münasibətlə, keçən gün Ərzaq naziri ümum Bakıdakı bank idarələrinə məktub yazıb məlum etmiş ki, banklarda Ərzaq şöbəsi adına olan məbləğlər və hesabati-cariyyələr [cari hesablar] tamamilə Ərzaq Nəzarətinin ixtiyarına keçmişlər. Və buna görə də çeklərdə və sair pul sənədlərində gərək bu zeyldəki əşxasın [aşağıdakı şəxslərin] imzaları olsun:

Ərzaq naziri K. Lizqarın və ya onun nümayəndəsi V. V. Simirnovun, Nəqdiyyə [Maliyyə] şöbəsi naziri [müfəttişi] Matseyevskinin və bir də idarə müdiri [Abbasəli bəy] Makinski imzaları bulunmalıdır.

* Srağagün gecə yarısı əsgəri libas geyinmiş bir nəfər polkovnik, dalısınca da bir mühafizəçisi olduğu halda Ərzaq Nəzarətinin idarəxanasına gəlib, qapını

döyüb xadimləri yuxudan ayıldıb, idarənin odalarını gəzməyə başlamışdır. Bir neçə odanı gəzəndən sonra xidmətçilərə "hökm" etmişlər ki, sabah saat 12-yə kimi bu odaları təmizləsinlər! Əsgər libasında olan şəxs özünü Bakı qalabəyisi [komendantı] adlandırmışdır. Təftişatdan [yoxlamalardan] məlum olur ki, nə qalabəyi və nə də onun idarəsinin adamları bu hərəkətdə bulunmamışdır.

* Yanvarın 12-də, gündüz saat 12-də general Tomson xüsusi qatarla Petrovska azim olmuşdur [yola düşmüşdür].

* Yanvarın 10-da Tiflisdən Bakıya xüsusi qatarla İngiltərə heyəti yola düşmüşdür. Böyük tacirlər dəstəsi Azərbaycanla Gürcüstan arasında mal dəyişdirmək işini genişləndirmək və bir para sənaye müəssisələrinə maddi kömək etmək qəsdi ilə təzə bir bank vücuda gətirilməsi layihəsini hazırlayırlar. Bu işin mütəşəbbisləri arasında Xoştariyanın da iştirak etdiyini söyləyirlər.

* Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] aldığı xəbərə görə, Qarabağ rayonuna 40 min qaçqın cəm olmuşdur. Ümuri-Xeyriyyə Nəzarəti bu qaçqınalara çörək, un və qeyri şeylər verməkdən ötrü təcili tədabir ittixazına [tədbirlər görməyə] girişmişdir.

* Ümuri-Xeyriyyə Nəzarəti, Ərzaq nazirinə müraciət edib Zəngəzur uyezdi qaçqınları ehtiyacından ötrü Gəncə qubernatoru ixtiyarına min put buğda buraxılmasını xahiş etmişdir.

* Nazirlər Şurası, Fövqəladə Təftiş Şurası ehtiyacından ötrü Ədliyyə naziri ixtiyarına 25 min rubl buraxılmasını qərara almışdır.

* Müsri azarlar [yoluxucu xəstəliklər] ilə mübarizə etməkdən ötrü Nazirlər Şurası, Bakı Bələdiyyəsi İdarəsinə 2 milyon 200 min rubl və Gəncə bələdiyyəsinə 450 min rubl faizsiz təxsisat [vəsait] verilməsinə icazə vermişdir. Məzkur [adı çəkilən] bələdiyyə idarələri bu pulu üç ilin müddətinə qaytarmalıdırlar. Bu qətnamə təsdiq edilməkdən ötrü Parlamana verilmişdir.

* Ləki, Yevlax mövqiflərində [stansiyalarında] bir çox taxıl yükü vardır. Taxıl yüklərinin miqdarı o qədər artıqdır ki, bunları aparmaq üçün vaqonlar kifayət etməyir.

Əxzi-əsgər [hərbi qulluğa çağırış] məsələsi

Vətənimizi və milli istiqlaliyyətimizi müdafiə üçün çağırılan vətən övladı əsgər arasında hərdənbir bəzi şikayətlər və çox vaxt əsgərlikdən boyun qaçırmaq və ya ki, şəhərdən və ya kəndlərdən qaçıb gizlənmək kimi hərəkətlər barəsində qəzetələrdə məlumat oxunur. Danışılan əhvalatlardan anlaşılır ki, məhəllərdə [yerlərdə] əxzi-əsgər üçün tərtib verilmiş hərbi komitələrdə və bilxassə [xüsusilə] kəndlərdə tərtib verilmiş əxzi-əsgər komitələrində bir çox səhlənkarlıq və sui-istifadə vəqələr ittifaqı [hadisələrin olması] baş göstərməkdədir.

Bu xüsusda idarəmizə gələn xəbərlərdən birisini göstərmək olar ki, guya Novxanı kəndinin əxzi-əsgər komitəsi, Novxanı kəndinin dəftəri üzrə təzə əsgərlərin siyahısını tərtib verdikdə, bir neçə nəfər əsgərliyə çağırılması lazım olan uşaqları qələmdən salıb da bir neçə nəfər yaşları əsgərlik ölçüsünə çatmamış uşaqların adlarını yazmışlar. Nümunə

üçün bunu göstərmək olar ki, Məhəmmədhüseyn Hacı Molla Ruhulla oğlu Molla Məhəmmədzadənin əlində olan Zaqafqaz şeyxülislamı tərəfindən verilmiş metrik şəhadətnamasi [doğum haqqında şəhadətnaməsi] ilə yaşı 16 olduğu halda əxzi-əsgər siyahısına salınmışdır və halonki [halbuki] kənd komitəsinin üzvlərinə məlum və aydın olan bir çox 19-24 yaşlı cavanların adları nədən ötrü isə siyahıya salınıb əsgərliyə dəvət edilməmişlər. Yaxşı olar ki, müdafieyi-vətən və millət yolunda böylə ittifaqları [hadisələri] bilənlər siyahı yazıb məqami-aidinə [aidiyyətli quruma] bildirsinlər.

ƏRZAQ İŞLƏRİ

* Ərzaq Nəzarəti, Sədullayevə icazə vermişdir ki, Dağıstan Hökuməti dairəsindən gətirib Azərbaycan təriqi [yolu] ilə Gürcüstana 30 vaqon buğda, 50 vaqon qarğıdalı (peyğəmbəri), 25 vaqon arpa, 10 vaqon un, min put kərə yağı, beş milyon yumurta, iki yüz vaqon odun və otuz vaqon qarğıdalı unu aparsın. Həmçinin bu mallardan Azərbaycan dairəsində azad satışa qoyulması üçün də Ərzaq Nəzarəti tərəfindən mümaniət [maneçilik] yoxdur.

* Azərbaycan Hökumətinin Ümuri-Xeyriyyə [Sosial Təminat] naziri, Ərzaq Nəzarətinə müraciət edib Qarabağda 40 mindən ziyadə möhtac olan qaçqınlara paylamaqdan ötrü on min arşın bomazı [pamazı, xovlu pambıq parça] və on min arşın bez buraxılmasını xahiş etmişdir. Bu malları, bu günlərdə Parlaman üzvlərindən Ləmbəranski və Klenevski başda olmaq üzrə, Qarabağa azim olan [yola düşən] komissiya aparacaqdır. Ərzaq Nəzarəti məzkur [deyilən] qaçqınlara göndərilməkdən ötrü istənilən miqdarda bomazı və bez buraxılmasına icazə verildiyini Ticarət və Sənaət [Sənaye] Nəzarətinə, həmçinin Ümuri-Xeyriyyə nazirinə xəbər vermişdir.

* Ərzaq Nəzarəti, Mərkəzi Ərzaq Bürosunun vəkili Yaqub bəy Vəzirova icazə vermişdir ki, Bakıdan Dağıstan oblastına 300 put düyü, min put səbzə və 10 put çay aparsın.

FƏHLƏ HƏYATINDAN

Müsəlman fəhlə nümayəndələrinin şurası

Bazar günü yanvarın 12-sində Bakı ətrafında olan müxtəlif mədənlərdən 200-dən ziyadə müsəlman fəhlələri fəhlə konqresinə gəlmişdilər. Fəhlə konfransı naməlum səbəblərə görə baş tutmadığından, müsəlman fəhlələri Səfdər bəyin sədarəti altında xüsusi müşavirə qurub qərar qoymuşlar ki, fəhlə konfransı sədri Çurayevə müraciət edib, fəhlə konfransının nə səbəbə təxirə salındığını xəbər alsınlar. Bir halda ki, müsəlman fəhlələri yolların müşkülatına və xərcinə baxmayaraq uzaq rayonlardan yoldaş konfransına gəlmiş olduqları zaman fəhlə konfransı baş tutmamışdır.

Parlaman üzvü Məhəmməd Əmin Rəsulzadə cənabları bu müşavirədə müsəlman fəhlələrini məmləkətin əhvali-siyasiyyəsindən xəbərdar edib, Azərbaycan istiqlalının nə kimi şərait altında elan edilməsini söyləmişdir. Rəsulzadə cənabları, fəhlələri ittihad [və] ittifaqa [birlik və

həmrəyliyə], fəhlə təşkilatları düzəltməyə, cahan hadisatını [hadisələrini] təqib edib siyasətdən xəbərdar olmağa dəvət etməklə bərabər, fəhlənin mübarizə və amalından geri qalmamağı ayrıca qeyd etmişdir.

Qarabağdan təzəcə gəlmiş olan Parlaman üzvü Məlik-Yeqanov Qarabağ əhvalı haqqında və Andranik hərəkatı barəsində müxtəsər məlumat vermişdir. Məlik-Yeqanov demişdir ki, hal-hazırda Qarabağda olan 46 mindən ziyadə müsəlman qaçqınları Bakıya gəlməkdədirlər. Onlara burada yer və iş vermək lazım gələcəkdir.

Zülfüqar nam [adlı] fəhlə, fəhlələrdən ötrü Zəhmət (Məsai) nazirinin təşəbbüsatı ilə vücuda gətirilməsi təsəvvür olunan gələcək fəhlə təşkilatı haqqında məlumat vermişdir. Natiq, fəhlə yoldaşlara mehriban işləməyi və fəhlə konfransı işlərində iştirak etməyi təklif etmişdir.

AZƏRBAYCANDA

Teleqraf xətti

Bakı qubernatoru Gəncədən böylə bir teleqraf almışdır:

"Ağdamın 18 verstliyində Qaryaginə tərəf teleqraf xətti xarab olmuş idi. Teleqraf xəttini düzəltməkdən ötrü göndərilən məmurlar xəbər verirlər ki, erməni quldur dəstələri xidmətçiləri gülləyə basıb işləməyə mane olurlar. Xahiş olunur, Ağdam poçta-teleqraf naçalnikinin ixtiyarına qüvvə göndərilməkdən ötrü binagüzarlıqda bulunasınız [sərəncam verəsiniz], vəilla [yoxsa] işləmək mümkün deyildir."

Teleqraf xəttinin Qaryaginə tərəf düzəlməsinə hökumət artıq diqqət verməkdədir.

Qarabağ qaçqınları

Qarabağ qaçqınlarının əhvalını öyrənib müavinət [yardım] etməkdən ötrü Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Müdafiə Nazirliyinin] Qaçqınlar şöbəsi müdiri Klenevski başda olmaq üzrə, xüsusi bir komissiya Qarabağa azim olmaqdadır [yola düşməkdədir]. Ümuri-Xeyriyyə naziri, Nazirlər Şurası müdirinin ixtiyarına lazımi qədər un buraxılması üçün (borc təriqi ilə [borc şəklində] olmuş olsa da) binagüzarlıqda bulunmasını [sərəncam verməsini], bundan əlavə, ginə-ginə [kinə] və qeyri dərmanlar buraxılmasını xahiş etmişdir.

Qarabağda

Yanvarın 10-da Zəngəzur uyezdi naçalniki Ağdamdan Nazirlər Şurasına bu məzmunda bir teleqraf göndərmişdir:

"Əbdüllərdə mayor Gibbon başda olmaq üzrə İngiltərə heyəti ilə görüşdüm. Burada müsəlman və erməni nümayəndələrinin iştirakı ilə Müttəfiq dövlət qoşunlarının komandanı general Tomsonun əmrinə müvafiq, müsəlmanlarla ermənilər arasında olan hər cür düşmənanə hərəkatın qət olub [kəsilib], adi həyat bərpa edilməsi qərara alınmışdır. Bu qətnamə, əhaliyə dəxi xəbər verilmişdir. Bu əhvalatdan sonra ermənilər dəstə-dəstə rahatca Şuşa yolu ilə Şuşaya və Gorusa getməyə başlamışlardır. Bunu heyət dəxi təsdiq edər. Ermənilər Andranik dəstəsi başında olmaq üzrə verdiyi vədələrinə vəfa etməyib, 30 qədər müsəlman kəndlərini dağıdıb əşyasını

qarət etmişlərdir. Qaçıb canını qurtarammayanlar vəhşiyanə bir surətdə qırılmışlar. Bu barədə hər dəfə xəbər verilmişdir. Üç gün bundan irəli mayor Gibbonu görüb müşaiyət etdikdən sonra pristavdan xəbər aldım ki, dördüncü uçastokda ermənilər Razdərə kəndini yerlə yeksan edib əhalinin bir hissəsini qırıb tələf etmişlərdir. Müttəfiq dövlət nümayəndələri burada isbati-vücud etdiyi halda [burada olduğu halda] müsəlmanların bu cür vəhşiyanə tələf olmaları cəzasız keçir. Ermənilər bu işlərin hamısını Türkiyə qaçqınlarından ibarət olan Andranik dəstəsi boynuna atırlar.

Əhalinin xahişinə görə, bu əhvalatı sizə xəbər verib, Andranikin öz dəstəsi ilə bərabər Zəngəzur uyezdindən çıxıb getməsi üçün təşəbbüsatda bulunmağınızı xahiş edirəm. Bundan əlavə, adi həyat bərpa edilməsi üçün müqəssirlərin cəzaya giriftar olmaları haqqında tədbirlər ittixazını [tədbirlər görülməsini] rica edirəm. Müsəlmanlar həyəcana gəlirlərsə də, məhəlli [yerli] hökumət onlara da mane olur.

Zəngəzur uyezdni naçalniki
Məliknamazəliyev”

Gəncə qubernatorundan böylə bir teleqraf alınmışdır:

“Cəbrayıl uyezdni naçalniki teleqrafla xəbər verir ki, ermənilər müsəlmanlara hər cür təcavüzdə bulunmaqda davam edirlər. Üç gün irəli Qarakənd ermənіləri, Ağdam-Qaryagin yolunda gedən müsəlmanları təqsirləri olmadığı halda qarət edib öldürmüşlərdir. Yol bağlanıbdır, kömək yoxdur. Lazımi binagüzarlıqlarda bulunmağınızı [sərəncamlar verməyinizi] xahiş edirəm.”

* * *

Bir ay bundan əqdəm [qabaq] Quba əhli İmaməli Bayraməli oğlu 35 yaşında Dəvəçi mahalının Çeyni kəndindən Bakı şəhərinə gəlib, bu vaxta kimi evə qayıtmamışdır. Məzkurun [adı çəkilən şəxsin] boyu uca, əynində həna rəngi çıxası, ayağında uzunboğaz çəkməsi vardır. Bunun nerədə olduğunu bilənlərdən rica olunur Zabrat kəndində Molla Abidin Axundzadəyə xəbər versinlər.

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli.

QEYD VƏ ŞƏRHLƏR

Ehtiyat lazımdır

səh. 240. "Çurayevlər": Andrey Yemelyanoviç Çurayev nəzərdə tutulur.

səh. 241. "Təftiş Nəzarəti": Dövlət Müfəttişliyi nəzərdə tutulur.

Azərbaycan Məclisi-Məbusanında

səh. 245. "...rüşdi, edadi...": rüşdi məktəb, yaxud rüşdiyyə – ibtidai siniflərdən sonrakı mərhələni; edadi məktəb, yaxud edadiyyə isə – rüşdiyyədən sonrakı, universitetdən əvvəlki mərhələni ifadə edir.

Teleqraf xəbərləri

səh. 246. "...ser Sinhaya İngiltərə peri ləqəbi veriləcəyi gözlənir...": per sistemi Böyük Britaniyada zadəgan titulları sistemidir. Bu sistemdə hersoq, markiz, qraf, vikont və baron kimi beş dərəcə var. Sinhaya baron titulu verilmişdi.

"Fikri paşanın təhti-komandasında...": qəzetdə səhv getmişdir; Fəxri paşa (Fəxrəddin paşa) olmalıdır.

səh. 247. "Aeroplanlarla almanlar 61 dəfə hücum edib...": qəzetdə "61" yerinə "6" getmişdir.

Ordan-burdan

səh. 249. "Və əl-adətike əltəbiyyətə's-saniyə!": Ərəbcə. Mənası: "Adət ikinci təbiətdir (xarakterdir)."

"Tərki adət be mövcibi-mərəz əst!": Farsca. Mənası: "Adəti tərgitmək xəstəliyə səbəb olar."

"Filankəs": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Ərzaq və məkulat haqqında

səh. 250. "...əhalinin 8 faizi...": güman ki, "85 faizi" olmalıdır.

Azərbaycanda

səh. 255. "Ümuri-Müdafiə naziri...": bu dövrdə Sosial Müdafiə naziri Rüstəm xan Xoyski idi.

"Əbdüllər": güman ki, indiki Laçın şəhərinin köhnə adı olan "Abdallar" nəzərdə tutulur.



پنجشنبه ۱۳ ربیع‌الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۱۶ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۸۹

آذربایجان

گوندەلگ سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزتەسیدر.

تورک و اسلاملغه مفید مقالەلرە صحیفه ارمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالەلرك مکافاتی اداره تعیین ایدیور.

اعلان قیاتی:
سطری ۳ روبله گرالله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:
باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
« ۳۲ » ۲
« ۴۵ » ۳

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
« ۳۵ » ۲
« ۵۰ » ۳

محل اداره:
باکو، وورو نسوفسکی و غوبرنسکی کوچه‌لرك کنجلنده ۳ نومرولی اویده

«آذربایجان» اداره‌سی،
تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

اعلان

پنجشنبه گونی ۱۹۱۹ سنه‌سی یانوار آینك ۱۶ سنده گوندوز ساعت ۱۲ده آذربایجان مجلس مبعوثانی اولاجاغی اعلان ایدیلیر.

T-10

تلغراف خبرلری

(رویتر آجنتەلەرندن)

صلح قونفرانسی

— صلح قونفرانسك برنجی اجلاسی یانوارك ۲۴نده آچیلاجقدر. بازار گونی بین‌الملغه‌دورا سی‌نك یاپدیغه واقع اولان اجلاسنده (عرض) طرفندن مقارەلك برلوا ایدیلمه‌سی مسئله‌سی و صلح قونفرانسی‌ایله علاقه‌دار اولان ایشلر مذاکره ایدیلەجکدر.

◉ ویلسون خبر ویرمیشلرکه تا معلوم بر شخص لمعان باش ناظری (نماینده‌لگی) لك اوطاغنه داخل اولوب گولەلەیله بونگولی یاپدالا مشغول بو مناسبتله بر چوق جسارر اولمشدر. بو ایشك بالتعه‌وقلر طرفندن اولدیغی ظن ایدیلیر.

آمریقاده تعطیل

◉ آمریقاده کومور اولمایه‌ندن تعطیل بر حواجور. بو تعطیل اطراف‌ایله مناسباتك قطع اولماماسنی تهدید ایدیر. ارزاق مسئله‌سی کسکین اولمشدر. حکومت مأمورلری تدبیرلر گوروب عدالتی مواجب و ایش شرائطی دوزلتمگی فعله‌لره وعد ایدیرلر.

◉ آخرینجی خبرلره گوره نیویورق‌ده اولان تیلمان فعله‌لری فعله اداره‌سی طرفندن ایشه باشلامامق حقنده نشر ایدیلن دعوتنامه‌یه قولاق آصمه‌لردر.

برازیلیاده تعطیل

جنوبی آمریقاده بوینوس — آیرس ایالتنده تعطیل ایدن فعله‌لره ۱۵۰۰۰۰ فعله قوشولمشدر. تعطیل ایدنلر برلیچه ایوپاندروب جبه‌خانه‌لی آلدیقدن صوکره بر چوق مهمات حربیه اله گیتمشلردر. عسکرلر بوتون گیچه تعطیل ایدنلر ایله محاربه ایتمشلردر. بو تعطیلك آلمانلر ایشی اولدیغی سویلنیور. مشاهده ایدیلدیگنه گوره بوینوس — آیرس آنار حیستریك ایلنمه‌در. قتل غارت دوام ایدیر.

بولشەویقلرك غالبیتی

(برمن)ده سوسیالیست جمهوریتی اعلان ایدیلمشدر. قومونیستلر فعله دوراسنده‌کی سوسیالیستلرك برینی ضبط ایدوب (نه‌وت) حکومتنه تلغراف گوندروب استعفاسنی طلب ایدیرلر.

(گورجی تلغراف آجنتەلغندن)

تورکمانلر آراسنده بویوك نفوذه مالك اولان و عسکری دائره‌ده مشهور جنرال (دروزدوفسکی) تورکستانده تورباق اغتشاشی زمانتده تولدیرلمشدر.

◉ جنرال زیقوف حال حاضرده اوزبکی تراقیسی حکومتی طرفداری آدلاندیروب تور کستانده بولشەویکلر علیهنه موفقیتلی بر سو رتده عملیاتده بولنمقده‌در.

◉ داشکندده ۶۰۰ ضابط واردر گه بولشەویکلرك تلغرافنی قوشولمافدن اوتری انگلیزلرك گوردکلرنه بولشەویکلر علیهنه عملیاته باشلا-

مافلاریله صبرسزلك ایله گوزلیورلر. داشکنده شهری بولشەویکلر النده اولدیغندن شایعلرك حالی خیلی فنادر.

◉ بولشەویکلرك ضعیفلقی آلتنده قزاق اوردوسنك هیچبر تشبثیله اولامدن سوچی ناحیه‌سی سرحدینده اشغال ایتمیگی یردن جنوب طرفه چکیلمشلردر. بو چکلمه گورجی قوماندانلاری طرفندن شروع ایدیلمشدر. زیرا اولاد ایتانمش ارکه ناحیه سرحدینك مصونیتی خصوصی اتلافی ایله تأمین ایدیلمشدر.

لکن گوگللی اوردو افرادینك بعضیاری بو اتلافه ایله حسابلاشمق ایستمیورلر. گورجیلر چکلەدیکن صوکره اولاد سوچی ناحیه‌سنه ایرەلیلەمشلردر. اوگی تورەده گورجی قوشولار نك چکلەمه‌سی و گوگللی اوردوسنك ایلری جرکسی دایانمدیرلمشدر.

برلیندە

برلیندن چکلمش اولان صولح تلغرامار خبر ویریلر که حکومتك وضعیتی گوندن گونه‌محکم لشیور. هر بر طرفدن گوگللی دسته‌لری برلینه عزیمت ایدیورلر.

◉ «ورلوفسکی غولوس» غزته‌سی خبر ویریور: بو گونارده (دیه‌نقو) نام برنفر پتروغرادده (اورپولو) قائمشدر. مذکور بو یاقلرده منتقلر طرفندن پتروغرادك اشغال ایدیله‌جکی تهدیدی اولدیغنی یلدیرمشدر. فیلاندیادن پتروغراد اوزرینه بر گونارده منتقلرك ۴۰ بیك نفرلك اوردوسی حرکت ایدەجکدر. (رمول) ده یاشاته برلره منتقلر فوشونی گلمشدر. اولارده پتروغراد اوزرینه حرکت ایدەجکدرلر. بولشەویکلرك النده اولان پرلرك هیسنده هر گون عصیان قالقر. (قزاقستده) گوچلی عصیان عمله گلمشدر. عصیان اینمش اولان دوقوز بیك نفر گنجلی شهری اشغال ایدەرك بولشەویك مأمورلرینی قولدیرمشلر. گولنر جمله‌سنه بولشەویکلرك صدری (سمولیاقوف) ده داخلدر.

افرادی و اونك یاتده اولان موقفلری اشغال ایتمکدەن صوگره گنجلر قطارلری ساقلایوب قطار ایله گیچن قرمزی اوردولری ترك سلاح ایتدیرمرك یو سلاحلرندن بالاستفاده ۸۲ ویرستدن اولان موقعلریی محکملشدیرمشلردر. گنجلر مجلس مؤسسان ایچون مبارزه شعاریله گیدیورمشلر.

(قزاقستده) اولاد اون گون دایانوب صوگره موسقوادن ایکی آلای قوشون گلدیکده گنجلر بولاردك کلمه‌سی‌ایله شهرك جنوب طرفه چکیلمکه مجبور اولمشلردر.

عین زمانده (مورخانه‌ده) گنجلر ایله ماتروسلاو انقلاب جیقارمشلر در. ۲۴ نوبارده بولشەویکلرك انعقاد اینمش اجلاسنده فوق‌العاده قومیسیه‌لك معلوماتنه گوره آلکساپلور که بولشەویکلرك النده اولان روسیه تمامیله بر وولقان حکمی آلمشدر. فوق‌العاده قومیسیه‌لك جلب ایله ایشه باشلیورلر. جنرال غوبرناطور شوراسندن نارال ضباق گنجدیکجه آرتیر. باطوم شوراسی طرفندن تعیین ایدیلن مأمورلری آجاریلر قبول ایتمیوب لر و دیسورلر که آجارستان قولوقچیلاری آجارلیلرندن تعیین ایدیلمه‌لیدرلر.

سوچی ناحیه‌سنده

◉ یاریاه غزته‌سنك موثوق مندن آلدیغی خبرلره گوره سوچی ناحیه‌سنده حال حاضرده احوال بویله‌در:

گورجی قطعاتی محاربه ایتمه‌ده‌ن و گوگللی اوردوسنك هیچبر تشبثیله اولامدن سوچی ناحیه‌سی سرحدینده اشغال ایتمیگی یردن جنوب طرفه چکیلمشلردر. بو چکلمه گورجی قوماندانلاری طرفندن شروع ایدیلمشدر. زیرا اولاد ایتانمش ارکه ناحیه سرحدینك مصونیتی خصوصی اتلافی ایله تأمین ایدیلمشدر.

لکن گوگللی اوردو افرادینك بعضیاری بو اتلافه ایله حسابلاشمق ایستمیورلر. گورجیلر چکلەدیکن صوگره اولاد سوچی ناحیه‌سنده ایرەلیلەمشلردر. اوگی تورەده گورجی قوشولار نك چکلەمه‌سی و گوگللی اوردوسنك ایلری جرکسی دایانمدیرلمشدر.

برلیندە

برلیندن چکلمش اولان صولح تلغرامار خبر ویریلر که حکومتك وضعیتی گوندن گونه‌محکم لشیور. هر بر طرفدن گوگللی دسته‌لری برلینه عزیمت ایدیورلر.

◉ «ورلوفسکی غولوس» غزته‌سی خبر ویریور: بو گونارده (دیه‌نقو) نام برنفر پتروغرادده (اورپولو) قائمشدر. مذکور بو یاقلرده منتقلر طرفندن پتروغرادك اشغال ایدیلمه‌سی مسئله‌سی و گوگللی اوردوسنك هیچبر تشبثیله اولامدن سوچی ناحیه‌سنده ایرەلیلەمشلردر. اوگی تورەده گورجی قوشولار نك چکلەمه‌سی و گوگللی اوردوسنك ایلری جرکسی دایانمدیرلمشدر.

بولشەویکلر علیهنه منتقلر عملیاتی

رومانیاده نشر اولنان نیم رسمی لیرال غزته‌سی منتقلرك بولشەویکلر علیهنه اولان عملیاتنی تندن بحثله یازیور که منتقلر طرفندن اوقرایانده وجوده گتیریلەجك تازه جبهه‌ده بالگان دولتلرینك عسکرلری اشتراك ایدەجکلردر. غزته گوستریر که رومانیا جماعتی محاربه‌نك هر بر زحمتنه و لذتنه منتقلر ایله برابر شریك اولدیغلاری گیبی بولشەویکلر علیهنه منتقلر طرفندن آچیلمش مبارزه‌ده‌نده اوز وظیفه‌لرینی ایفا ایدەجکلردر.

ارمنی ایشلری

تورکیه‌ده جیقان ارمنی غزته‌لری خبر ویریلر که ارمنی قومیسیاری مصرده وآورو پاده بر تشکیلات دوزه‌لتمکه باشلامشلاردر. بو تشکیلاتك قصدی ارمنی منافعنی بویوك دولتلر قارشوسنده مدافعه ایتمك و محاربه‌ده‌ن متضرر ارمنیلر نفعنه اعانه یمافدن عبارت اولاجقدر.

گورجستانده

بوگونکی اخباراً باطوم ایاله تفلیس آرا سنده دمیر یول جرگاهی باشلانیور. تلغراف مخابره‌سی هنوز دوزلیور. بوجهله و گومرولی خانه دخی متصلیه باشلامشدر. دیگر دولتی ارمنلر اولکی قولوقچیلرینی جلب ایله ایشه

“Azərbaycan” qəzetinin 89-cu nömrəsinin 1-ci səhifəsi

Cümə axşamı, 16 yanvar 1919-cu il, nömrə 89

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 13 rəbiülaxir sənə 1337. 16 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

ELAN

Pəncşənbə [cümə axşamı] günü 1919 sənəsi yanvar ayının 16-da gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusanı olacağı elan edilir.

T-10

TELEQRAF XƏBƏRLƏRİ

(Royter acentəliyindən)

Sülh Konfransı

* Sülh Konfransının birinci iclası yanvarın 24-də açılacaqdır. Bazar günü Beynəlmüttəfiq Şurasının [Müttəfiqlərarası Şuranın] Parisdə vaqe olan [baş tutan] iclasında Foş tərəfindən mütarikənin [atəşkəsin] bərpa edilməsi məsələsi və Sülh Konfransı ilə əlaqədar olan işlər müzakirə edilmişdir.

* Vyanadan xəbər verirlər ki, naməlum bir şəxs Lehistan Baş naziri Paderevskinin otağına daxil olub, güllə ilə yüngül yaralamışdır. Bu münasibətlə bir çox həbslər olmuşdur. Bu işin bolşeviklər tərəfindən olduğu zənn edilir.

Amerikada tətil

* Amerikada kömür olmadığından, tətil bərdavamdır [davam edir]. Bu tətil, ətrafla münasibatın [əlaqənin] qət olunmasını [kəsilməsini] təhdid edir. Ərzaq məsələsi kəskinləşmişdir. Hökumət məmurları tədbirlər görüb ədalətli məvacib və iş şəraitini düzəltməyi fəhlələrə vəd edirlər.

* Axırıncı xəbərlərə görə, Nyu-Yorkda olan liman fəhlələri Fəhlə İdarəsi tərəfindən işə başlamaq haqqında nəşr edilən dəvətnaməyə qulaq asmamışlardır.

Braziliyada tətil

Cənubi Amerikada Buenos-Ayres limanında tətil edən fəhlələrə 150 min fəhlə qoşulmuşdur. Tətil edənlər bir neçə ev yandırıb cəbbəxananı aldıqdan sonra, bir çox mühimmati-hərbiyyə [hərbi sursat] ələ gətirmişlərdir. Əsgərlər bütün gecə tətil edənlərlə müharibə etmişlərdir. Bu tətilin almanlar işi olduğu söylənir. Müşahidə edildiyinə görə, Buenos-Ayres anarxistlərin əlindədir. Qətl-qarət davam edir.

Bolşeviklərin qalibiyyəti

Bremendə Sosialist Cümhuriyyəti elan edilmişdir. Kommunistlər Fəhlə Şurasındakı sosialistlərin yerini zəbt edib, Ebert Hökumətinə teleqraf göndərib istefasını tələb edirlər.

(Gürcü Teleqraf Acentəliyindən)

* Türkmənlər arasında böyük nüfuza malik olan və əsgəri dairələrdə məşhur general Drozdovski Türküstanda torpaq iğtişaşı zamanında öldürülmüşdür.

* General Zıkov hal-hazırda özünü Zakaspi Hökuməti tərəfdarı adlandırıb, Türküstanda bolşeviklər əleyhinə müvəffəqiyyətli bir surətdə əməliyyatda bulunmaqdadır.

* Daşkənddə 600 zabit vardır ki, bunlar ingilislərə qoşulmaqdan ötrü ingilislərin Türküstanda bolşeviklər əleyhinə əməliyyata başlamaqlarını səbirsizliklə gözləyirlər. Daşkənd şəhəri bolşeviklər əlində olduğundan zabitlərin halı xeyli fənadır.

* Bolşeviklərin təzyiqatı [təzyiqləri] altında Kazak-Kəndli Hökuməti Tersk nahiyəsindən çıxıb getdiyinə görə, Vladiqafqaz Bələdiyyə rəisi və üzvləri Tersk nahiyəsini tərk edib Petrovsk-Bakı təriqi [yolu] ilə Tiflisə getmişlərdir.

* Brükseldən teleqrafla xəbər verirlər ki, Belçika Sosialistləri Konqresi, sosialistlərin hökumət heyətinə daxil olmasını qeyri-mümkün əddi [hesab] edib Beynəlmüttəfiq [Müttəfiqlərarası] Sosialist Konfransı dəvət edilməsini arzu etmişdir.

QƏZETƏLƏRDƏN

Sülh ətrafında

Londondan xəbər verirlər ki, Amerika sülh heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] sualtı qayıqlarının məhv edilməsi təkidatında bulunmağı qərara almışdır. İngiltərə Fəhlə firqəsi nəşr etdiyi manifestdə gizlin siyasətin məhv edilməsini Sülh Konfransından tələb edib, iqtisadi müharibə əleyhinə olduğunu bildirmişdir. Fəhlə firqəsi, Beynəlmiləl Fəhlə Cəmiyyəti təşkilini dəxi tələb etməkdədir.

Krımda

* Simferepoldan xəbər verirlər ki, bolşeviklərdən qaçmış olan sabiq maliyyə naziri Bark, Krımda Maliyyə naziri təyin edilib, Krım üçün təzə pullar buraxacaqdır. Moskvanın sabiq Bələdiyyə rəisi Rudnev Məsai vəziri [Əmək naziri] təyin edilir.

Bolşeviklər əleyhinə Müttəfiqlər əməliyyatı

Romaniyada nəşr olunan nim-rəsmi [yarı-rəsmi] liberal qəzetəsi Müttəfiqlərin bolşeviklər əleyhinə olan əməliyyatından bəhslə yazır ki, Müttəfiqlər tərəfindən Ukraynada vücuda gətiriləcək təzə cəbhədə Balkan dövlətlərinin əsgərləri iştirak edəcəklərdir. Qəzetə göstərir ki, Romaniya camaatı müharibənin hər bir zəhmətinə və ləzzətinə Müttəfiqlərlə bərabər şərik olduqları kimi, bolşeviklər əleyhinə Müttəfiqlər tərəfindən açılmış mübarizədə də öz vəzifələrini ifa edəcəklərdir.

Erməni işləri

Türkiyədə çıxan erməni qəzetələri xəbər verirlər ki, erməni komissiyaları Misirdə və Avropada bir təşkilat düzəltməyə başlamışlardır. Bu təşkilatın qəsdi, erməni mənafeyini böyük dövlətlər qarşısında müdafiə etmək və müharibədən mütəzərrir [zərər çəkmiş] ermənilər nəfinə [xeyrinə] ianə yığmaqdan ibarət olacaqdır.

Gürcüstanda

Bu gündən etibarən Batum ilə Tiflis arasında dəmiryol hərəkatı başlanır. Teleqraf müxabirəsi [əlaqəsi] hakəza [habelə] düzəlir. Poçta və gömrükxana dəxi məşğələyə [işə] başlamışdır. Digər dövləti idarələr əvvəlki qulluqçularını cəlb ilə işə başlayırlar. General-qubernator şurasından narazılıq getdikcə artır. Batum Şurası tərəfindən təyin edilən məmurları acarlılar qəbul etməyiblər və deyirlər ki, Acarıstan qulluqçuları acarlılardan təyin edilməlidirlər.

Soçi nahiyəsində

"Borba" qəzetəsinin mövsuq [etibarlı] mənbədən aldığı xəbərlərə görə, Soçi nahiyəsində hal-hazırda əhval böylədir:

Gürcü qitəatı [hərbi hissələri] müharibə etmədən və Könüllü ordusunun heç bir təzyiqi olmadan Soçi nahiyəsi sərhədində işğal etdiyi yerdən cənub tərəfə çəkilmişlərdir. Bu çəkilişə gürcü komandanları tərəfindən şüru edilmişdir [başlanmışdır]. Zira onlar inanmışlar ki, nahiyə sərhədinin məsuniyyəti [toxunulmazlığı] xüsusu etilafla [razılaşmayla] təmin edilmişdir. Lakin Könüllü ordu əfradından [əsgərlərindən] bəziləri bu etilafla hesablaşmaq istəməyirlər. Gürcülər çəkildikdən sonra onlar Soçi nahiyəsində irəliləmişlərdir. Ona görə də gürcü qoşunlarının çəkilməsi və Könüllü ordunun irəli hərəkəti dayandırılmışdır.

Berlində

Berlindən çəkilmiş olan son teleqramlar xəbər verirlər ki, hökumətin vəziyyəti gündən-günə möhkəmləşir. Hər bir tərəfdən könüllü dəstələri Berlinə əzimət edirlər [yola düşürlər].

* "Orlovski qolos" qəzetəsi xəbər verir: Bu günlərdə Dıbenko nam [adlı] bir nəfər Petroqraddan Oryola qayıtmışdır. Məzkur [adı keçən şəxs] bu yaxınlarda Müttəfiqlər tərəfindən Petroqradın işğal ediləcəyi təhdidi olduğunu bildirmişdir. Finlandiyadan Petroqrad üzərinə bu günlərdə Müttəfiqlərin qırx min nəfərlik ordusu hərəkət edəcəkdir. Revelə və başqa yerlərə Müttəfiqlər qoşunu gəlmişdir. Onlar da Petroqrad üzərinə hərəkət edəcəkdirlər. Bolşeviklərin əlində olan yerlərin həpsində hər gün üsyan qalxır. Qjatskda güclü üsyan əmələ gəlmişdir. Üsyan etmiş olan doqquz min nəfər kəndli, şəhəri işğal edərək bolşevik məmurlarını öldürmüşlər. Ölənlər cümləsinə [arasına] bolşeviklərin sədri Smolyakov da daxildir.

Vağzalı və onun yanında olan mövqifləri [stansiyaları] işğal etdikdən sonra kəndlilər qatarları saxlayıb, qatarla keçən Qırmızı orduları tərk-silah etdirərək bu silahlardan bilistifadə [istifadə etməklə] 82[-ci] verstdə olan mövqelərini möhkəmləşdirmişlərdir. Kəndçilər Məclisi-Müəssisan üçün mübarizə şüarı ilə gedirmişlər. Qjatskda onlar on gün dayanıb sonra Moskvadan iki alay qoşun gəldikdə kəndçilər bunların gəlməsi ilə şəhərin cənub tərəfinə çəkilməyə məcbur olmuşlardır.

Eyni zamanda, Morşanskda kəndçilərlə matroslar inqilab çıxarmışlardır. 24 noyabrda bolşeviklərin iniqad etmiş [baş tutmuş] iclasında Fövqəladə Komissiyanın məlumatından anlaşılır ki, bolşeviklərin əlində olan Rusiya tamamilə bir vulkan

hökmü almışdır. Fövqəladə Komissiyanın ifadatına nəzərən [sözlərinə görə], kəndçilər üsyan edərək şura üzvlərini və digər şura müəssisələri üzvlərini öldürürlər.

Oktyabr və noyabr ayında 48 yerdə üsyan əmələ gəlib, o cümlədən on bir Qırmızı alayda üsyan vaqe olmuşdur. Bu üsyanlarda 840 adam güllələnib, 2300 nəfər də rəhn [girov] sifəti ilə tövqif [həbs] edilmişdir.

* Berlin şəhərinin Baş komandanı yanvarın 9-da Berlin əhalisinə zeyldəki [aşağıdakı] xitabnamə ilə müraciət eyləmişdir:

“Berlin vətəndaşları! Hökumət Berlinin Baş komandanlığını mənə mühəvvəl edərək [tapşıraraq], Berlində asayış bərpasını mənim öhdəmə qoymuşdur. Mənə bu yolda müavinət [köməklik] ediniz. Siz zeyldəki maddələrə əməl etmədikcə, mən öhdəmə verilən vəzifəni ifa edə bilməyəcəyəm:

1) Hökumət qoşunlarının əmrinə hər kəs itaət etməlidir.

2) Küçələrdə gediş-gəliş əksilməlidir, arvad-uşaqlar evdə əyləşməlidir, çünki həmişə müsadimə [toqquşma] gözləndiyi üçün kimsə həyatından əmin ola bilməz.

3) Ancaq hökumətdən icazəsi olan adamlar və qoşun nəfəratı [əsgərlər] silah gəzdirə biləcəkdir.

Hər kəs bu maddələrə xilaf hərəkət edərsə, tövqif [saxlanıldıqdan] və tərk-silahdan sonra həbsə atılacaqdır.”

ZAQATALA HAQQINDA

Rusiya inqilabi-əzimini mütəaqib [Böyük Rusiya inqilabının ardınca], Rusiyada yaşayan hamı xırda millətlər kəndi müqəddəratını kəndi əllərinə almaq fikirlərini faş etdilər. “Xırda millətlərin azadlığı” şüarını özlərinə əsas tutdular. Qonşumuz gürcülər də bu cümlədə olanların ən ileri gedənlərindən idi. Gürcü mətbuatı, təşkil etmək istədikləri Gürcü Cümhuriyyətinin hüdudları xüsusunda yazıb, sərhədlərini, Qafqaz silsileyi-cibalın[ın] [dağ silsiləsinin] Şəkiyə 10-15 çağırım [verst] məsafədə olan Salavat dağını, Salavat keçidini, oradan xətti-müstəqim [düz xətt] üzrə cənuba tərəf Babaratma keçidini, Səbətli kəndini, Səbətlidən şərqə burularaq Çorğat dağlarından aşaraq Acınohur düzünü, Acınohurun cənubundakı təpədən Dəvəbuynuzundan qərbə doğru Qanıq (Alazan) nəhrinin Mübarək girməsindən [keçidindən] göstərirlərdi. Demək, Zaqatala nahiyəsini bütün özlərinə istəməkdən başqa, Şəki qəzasının da bir hissəsini xəyallarından keçirirlərdi.

Bu yolda, mətbuatla kifayət etməyərək, feilən dəxi iş görməkdə idilər.

Zaqafqaz Komissariyyatı [Komissarlığı] Zaqafqaziya Cümhuriyyətinə təbdil edildiyi [çevrildiyi] vaxt gürcü mətbuatı kiridi. Çünki artıq Gürcüstan, Azərbaycan və Ermənistanları ayırmağa məhəl [yer] qalmamışdı. Lakin yenə gürcü millətçiləri əvvəlki xəyallarından vaz keçmədilər. Bu dəfə müstəqil bir okruq [dairə] halında yaşamaqda olan Zaqatala nahiyəsini Tiflis vilayətinə daxil etməklə xəyallarını sərbəstanə yürütmək istədilər. Bunun üçün Zaqafqaziya Hökuməti tərəfindən gürcü əsilzadələrindən Çavçavadze cənabları zahirən Zaqatala işlərini təftiş etməyə göndərilmişsə də, batinən [daxildə; əslində] gürcü millətçilərinin düsturuləməli

[təlimatı] ilə gəlmişdi.

Çavçavadze cənabları Zaqatala işlərini hər kənddən gələn camaat vəkilləri məclisində öyrənmək və bilmək istəməyib, bizzat [şəxsən] hər kəndə getmək xahişində bulundu. Biz o vaxt İcraiyyə Komitəsinin sədri olduğumuzdan, Çavçavadze kəndlərə bizimlə birlikdə getməli idisə də, nədənsə təkcə getdi. Kəndlərə gedib də camaatlardan nə istəmiş? Demiş ki, kim Tiflisi istəyirsə mənim bu yazdığım qətnaməyə qol qoysun. Halbuki, qətnamədə Zaqatalanın Tiflis vilayətinə qoşulub Tiflis vilayətindən bir qəza məqamında olması bildirilirmiş. Bu işdən agah və xəbərdar olan əhali, Çavçavadzeyə qarşı protesto edib, kənar edilməsinə səbəb oldular.

Nəticədə kredit kəsildi. Tiflisdən gələn tacirlərimizi Zinor yolunda "bədəfkarlar" [cinayətkarlar] soymağa başladılar. Bunların hamısına dözdük, davam gətirdik. Əvvəlkindən daha gözəl, daha nizamlı davranmağa başladıq.

Batum Sülh Məclisi əsnasında siyasət iqtizası [tələbi] olaraq Cənubi Qafqaz millətləri ayrıldılar. Azərbaycan, gürcü və erməni ayrı-ayrı cümhuriyyətlər təşkil etdilər. Bir neçə aydan bəri Zaqatala haqqında heç bir şey yazmayan gürcü mətbuatı bu günlərdə yenə yazmağa başladılar.

Azərbaycan Hökuməti, gürcü hökumətindən Zaqatalaya mütəəlliq [aid] bütün övraqi-rəsmiyyə və sənədati-tarixiyyənin [rəsmi və tarixi sənədlərin] verilməsini tələb etməsi və hökumətimizin bu tələbini gürcü hökuməti rədd etməsi bu günlərdə qəzetələrdə yazılmışdı. "Qruziya" qəzetəsi bu münasibətlə əzcümlə [o cümlədən] yazır ki, Zaqatala okruqu, Tiflis vilayətinin ayrılmaz bir qəzası hökmündə imiş və guya Zaqatala, Gürcüstana tarixi, iqtisadi və ictimai cəhətlərdən o qədər möhkəm və mərbut [bağlı] imiş ki, Gürcüstanın bir cüzi-layenfəkidir [ayrılmaz hissəsidir]. "O şəxslər ki, işə etnoqrafi cəhətdən baxırlar, onların mülahizələri birtərəfli olduğundan mühakimələri etibara alınmamalıdır." – deyir və "Biz böyük güzəştdə bulunmuşuq ki, yeni hökumət edən millətlərin hüdudlarını təyin edəcək "həkəm"lər [münsiflər, arbitrlər] işi qət [həll] edincəyə qədər Zaqatalanı kən-di başına tərk etmişik" sözlərini əlavə edir.

Bəli, biz ta inqilabın ibtidasından [başlanğıcından] bu ana qədər Zaqatala haqqında gürcülər tərəfindən yapılmış işi, söylənmiş sözləri, bir neçə millətçi[nin] və millətçi qəzetələrin fikirləri olduğuna həml edirdik [onların boynuna qoyurduq]. Halbuki, Gürcüstan Hökumətinin Zaqatala övraqi-rəsmiyyəsi haqqındakı hökumətimizin tələbini rədd etməsindən və bu münasibətlə "Qruziya" qəzetəsinin kəndi hökumətinin bu rəftarını təqdirindən anlaşılır ki, gürcü hökuməti ilə gürcü mətbuatı da müttəfiqülrəy [həmfikir olaraq] Zaqatalanı bir gürcü vilayəti hesab edirlərmiş.

Nə qədər səthi bir fikir! Əhalisinin 99 faizi islamdan ibarət olan və neçə əsrlərdən bəri tamamən hürr [azad] yaşayan zaqatalalıları "xırda millətlərin azadlığı" şüarı bütün dünya demokratikləri tərəfindən əsas ittixaz [qəbul] edilən bir zamanda, gürcü qonşularımızın ədalətə riayət etməyən böylə bir fikirdə inad göstərmələri olduqca təəccüb ediləcək bir işdir.

“Qruziya” qəzetəsi: “Zaqatala Gürcüstanın ayrılmaz bir cüzü olması tarixlə müsbit [isbatlanmış] bir həqiqətdir.” - deyir. Mən isə: “Zaqatala ilə Gürcüstan həmhüdud olmaqdan başqa tarixi, etnoqrafi və ictimai nöqteyi-nəzərlərdən əsla münasibətləri olmaması, tarixlə müsbit bir həqiqətdir.” - deyirəm və gələcək məqalələrimdə bunu tarixlə də isbat edəcəyəm. Bu gün yalnız “Qruziya” qəzetəsinin bəzi cümlələrini təşrih [şərh] və tənqid etməklə kifayət edəcəyəm.

“Qruziya”: “İşə etnoqrafi cəhətdən baxmaq olmaz.” - deyir. Əcəba 99 faizi islam əhd [hesab] edilən bir yerin bir bu qədər camaatının mövcudiyyətini və mövcudiyyəti ilə bərabər meyil və arzularını nəzərə al[ma]maq hansı demokratik əsasla mümkün olan şeydir ki, “bu cəhətə baxmaq olmaz” deyirlər?

Biz bu sözləri gürcü demokratiyasının ağzından mı eşidirik?

“Qruziya”: “Biz böyük güzəştdə bulunmuşuq ki, yeni hökumət edən millətlərin hüdudlarını təyin edəcək həkəmlər işi qət edincəyə qədər Zaqatalanı kəndi başına tərk etmişik.”- deyir.

Əcəba, biz də Balakən və Qovaqçöl camaatlarının hava və su kimi zəruriyyatından əhd olunan Laqodex[i] rayonunu müvəqqəti olaraq sizə güzəşt etmədikmi? Qovaqçöl keçidindən başlanıb Haçaqaya qəsəbəsindən keçərək Qavırrı çayında nəhayət bulan və qərbi hüdudu təşkil edən xətti-müstəqimlə [düz xətlə] cənubən Qavırrı çay, şərqən və şimalən Qanıq (Alazan) nəhri arasında olan 80-90 min desyatin mürəbbeindən [kvadrat desyatindən] ibarət gözəl məralarımızı [otlaqlarımızı] ancaq sülh və müsalimət [asayiş] xatirinə yenə müvəqqəti olaraq sizə tərk etmədik mi?

İnsafla iltifat ediniz: hangimizinki qiymətli güzəştdir?

Bu gün Rusiyada təşkil edilmiş “Vahid Rusiya” firqəsinin başında duranlardan Milyukov kimilərin sözləri, fikirləri siz gürcü millətinin xoşuna gəlirmi? – sualına “əsla!” cavabını verəcəksiniz, deyilmi?

Həmçinin, sizin də Zaqatalanı Gürcüstana ilhaq etmək [birləşdirmək] xəyalında bulunmanız biz zaqatalalılara daha artıq fəna təsir etdiyini bir kərə düşünməlisiniz. Zira, Zaqatalada yaşayanlar Çingizin əhfadı [nəvələri], Şeyx Şamilin təvabeyidir [təbəələri, vətəndaşlarıdır]. Hər ikisi islam, fövqəladə həssas, hürriyyətlərini müdafiə yolunda əsrlərcə qan tökənlər, şanlı tarixə malik qəhrəman babalarının söz götürməz qəhrəman əhfadıdırlar.

Bunları Azərbaycandan ayırmaq və Gürcüstana ilhaq etmək hirsi [tamahı], zənn etmirəm ki, müvəffəq olsalar da, gürcülərə zərərdən başqa bir mənfəət versin!

Kiçikxanov

İCTİMAİYYAT
[İCTİMAİ HƏYAT]

Vətənimizdə başlanmış olan bu qədər qiyamətlərdən murad nə olduğunu bu gün hər bir kəsdən xəbər alacaq olsanız, təbii, füqarayi-kasibənin [kasıbların; proletariatın] rifah və səadəti üçün, camaatın əksəriyyətini təşkil edən fəhlə və kəndlinin azad və rifahi-hal ilə yaşaması üçün bu qədər qanlar töküldüyünü iddiaya qalxışacaqdır. Amma məsələyə bir qədər

dərindən baxdıqda, bu nəzəriyyənin bir dərəcə yanlış olduğu meydana çıxacaqdır. Bu nəzəriyyənin yanlış olduğu bildirki Mart hadisəsində bizə isbat edildi. Qırmızı bayraqla meydana atılıb da fəhlələrin səadəti üçün çalışan "sosialistlər" – ki, onların da əksəri ermənilər idi – müsəlman fəhlələrinin başına min cürə bəla və əziyyətlər gətirdilər və guya bu canavarlıqları ilə "müqəddəs" sosializma bayrağını ucaldırlardı.

Şəhərimizdə hal-hazırda bu qədər qəzetələr çıxır. Hər biri bir bayraq altında səhneyi-mətbuata qədəm qoymuş və hamısının da başında "Cahan füqarayi-kasibəsi birləşiniz, zira səadətiniz bu birlikdədir" cümləsi qeyd edilmişdir.

İştə bu şüarla meydana atılan sosialist qəzetələrinin çoxu cahan füqərasını özləri yekdigərindən [bir-birindən] ayırırlar. Müsəlman fəhlələrinə ögey, xristianlara isə doğma nəzəri ilə baxırlar. Ümdə məqsədi füqarayi-kasibənin səadəti üçün əlləşməkdən ibarət olan bu qəzetələrin əksəri həqiqətdə isə yaman milli politika yeridib, sosializmanın müqəddəs şüarına rəxnə [zərər] vurub, yenə fəhlələri, kəndçiləri (əlbəttə müsəlmanlarını) istibdad zənciri altında boğmaq istəyirlər və o təriqlə [o surətlə] Nikolayın vəzifəsini özləri ifa etmək istəyirlər.

Bu qədər müqəddimə ilə bunu demək istəriz ki, kasıba can-can deyən çox, amma pəpə verən yox. Başı qapazlı, üzü tüpürcəkli kimdir? Füqəra! Acından həlak olan, dərmansız qalan kimdir? Füqəra! Deməli, hələ heç bir yerdən bu zavallıların halını islah etmək yolunda kafi bir iqdamat [təşəbbüs] görünməyir. Biləks [əksinə], bu zavallılara hər kəs rəxnə vurur. Müsəlman füqərası ilə əcnəbilərin rəftarı böylə. İndi keçəlim özümüzün füqaramız ilə etdiyimiz rəftara.

Müsəlman kəndçiləri tərəfindən vəkil "göndərilir", əllərində olan vəkalətnamə ilə bez istənilir yaxud başqa ərzaq şeyləri tələb edilir. Vəzarət [Nazirlik] onların halını nəzərə alıb, arzu edilən malları əhvən [münasib] qiymətlə buraxır. Amma nəticədə nə olur? Alınan bezin 10 arşını kəndliyə verilirsə, 100 arşını həman kənd dəllallarının cibinə gedir. Camaat üçün təsis edilən müsəlman kooperativlərinin əksəri mənfəət politikasını yürüdürdülər. Camaat interesindən artıq öz intereslərini gözləyirdilər. Vəlhasil, hər kəs füqarayi-kasibəni əldə bəhanə edərək öz mənfəətinə çalışır, hər kəs onlardan istifadə edir. Hətta böyük neft firmaları belə məəttəəssüf [təəssüf ki], fəhlələri naminə aldıqları manufakturanı öz nəflərinə [öz xeyirlərinə] satmışlardır. Əlbəttə bunlar rəva görülən işlərdən deyildir.

Şəhərimizin kasıb sinfinə gəldikdə, onların halı dəxi də betərdir. Məlumdur ki, şəhərimizin əhalisinin orta hesabla yüzdə 20-si sərvətlidir. Yerdə qalanının yarısı başını bir növ girləyirsə də, digər yarısı böyük bir üsrət [çətinlik] içində yaşayırlar. Zira Mart hadisəsindən bu anadək bunlar bütün ev əşyalarını satıb dolananlardır ki, indi son dərəcə ağır vaxtlar keçirirlər. Bu kimi ağır vaxtlarda bari onlara bir müavinət [kömək] edən cəmiyyətimiz olsaydı, yenə dərd yarı idi. Lakin adi vaxtlarda millət dərdinə qalanlarımız bu kimi ağır zamanda ağızlarına su alıb hərəkətsiz dayanmışlardır. Halbuki millət üçün, füqəra üçün bundan artıq sıxıntılı vaxt və millətpərəstlər üçün işləməyə

bundan artıq müsaid bir zaman olammaz. Böylə bir vaxtda çalışmamaq, böylə bir vaxtda fəqirlərin, acizlərin hallarına soyuq nəzərlə baxmağa heç bir millətpərəstin haqqı yoxdur.

Keçən gün idarəmizə bir nəfər gəlib cəmiyyəti-xeyriyyənin olmadığından şikayətlə deyirdi ki, bugünlərdə yuxarı məhəllədə bir nəfər Şamaxı qaçqını müsəlman vəfat eyləmişdir. Bir nəfər müsəlman arvadı rizayi-Allah [Allah rizası üçün] onu yudurdub qəbristana göndərir. Fəqət qəbristan naziri [müdiri] Molla Haşım bu meyitin kasıblığını nəzərə alaraq dəfn etməz və dəfn üçün haqq istər. Pul olmadığından meyiti qəbristan məscidinə qoydurar. Kim bilə, indi də meyit orada qalmaqdadır. Əlbəttə bu gün cəmiyyəti-xeyriyyəmiz olsaydı, böylə işlər də olmazdı.

Biz zənn ediriz ki, bu vaxta qədər siyasət işləri ilə əlləşməkdə olan şəxslər bir qədər də camaat, füqərayi-kasibə dərdinə qalmalıdır.

Biz zənn ediriz ki, bu vaxta qədər “millət, millət” deyənlərimizin bir bu qədər istirahəti kifayət edər. İndi də olsa onlar biçarə camaatın ehtiyacını rəf etmək [aradan qaldırmaq] üçün cəmiyyəti-xeyriyyəni diriltməlidirlər. Ümidvarıq ki, Məsai Vəzarətmiz [Əmək Nazirliyimiz], Xeyriyyə Vəzarətmiz [Sosial Müdafiə Nazirliyimiz] dəxi bundan sonra kamali-ciddiyətlə işə girişib, füqərayi-kasibəmizin salamatlarına bu ağır günlərdə mədəd yetirmək və əlsiz-ayaqsızlarına da pərəstar olmaqda [xidmət etməkdə] böyük bir fəaliyyət göstərməklə, ümumvətən istirahəti yolunda böyük bir hümmət göstərmiş olarlar.

Hacı İbrahim Qasımov

VÜKƏLA ŞURASINDA
[NAZİRLƏR KABİNETİNDƏ]

10 kanuni-sanidəki [yanvardakı] Hökumət qətnamələri

Rəisi-Vükəlanın [Baş nazirin] 1918-ci sənəsinin 8 dekabr qanunu mövcibincə [qanununa əsasən] hökumət qulluqçularına maaş vermək barəsindəki məruzəsini dinlədikdən sonra qət edilmişdir:

A) 1918-ci sənənin 8 dekabr qanunu, ki hökumət qulluqçularına maaş verməkdən ibarətdir, nazirlər və nazir müavinləri və 2500-dən artıq məvacib alan zəvata [şəxslərə] şamil deyildir.

B) İşbu qanun, 1918-ci sənənin dekabrınadək hökumət qulluqlarına daxil olmuşlara aiddir; əlavə, şəhər ərzaq müəssisələrinin Ərzaq Nəzarətinə keçən xidmətçiləri də buraya daxildir.

C) İşbu qanun, hərbiyyə xidmətçilərinə də şamildir.

13 kanuni-sani

Poçt və Teleqraf nazirinin Blajevskini öz dəftərxanasına dəftərxana müdiri təyin etməsi barəsindəki məruzəsindən sonra qət edilmişdir: İşbu təyin qəbul və təsdiq edilir.

Maliyyə nazirinin 1918-ci sənə istiqrazı barəsindəki məruzəsindən sonra qət edilmişdir ki, Maliyyə Nəzarətinə işbu istiqrazın vaxtını 1919-cu sənənin fevralı əvaxirinədək [axırlarınadək] uzadılması tapşırılsın.

Amma Maliyyə nazirinin məhbusları idarə etmək üçün para təxsisi [ayrılması] haqqında məruzəsini dinləyərək qət edilmişdir ki, Azərbaycandakı məhbuslara yüz min rublə təxsis edilsin.

UNUTMAYALIM

Şəhərimizdə 13-cü xəstəxanada bir neçə ağır surətdə yaralanmış xəstə var. Bunlardan birisi zabitdir: mülazimi-sani [leytenant] Məhəmməd Rüfət. Yerdə qalanları əsgərlərdir.

Bunlar kimlərdir əcəba?

Bakıdan minlərcə verst uzaqda, cənubda evləri, isti ocaqları, rahat bucaqları, sevimli ana-bacıları, körpə çocuqları, özlərinin istirahətləri vardı; vardır da.

Fəqət burada nə gəzirlər?

Neçə il əvvəl bu qeyrətli cavanlar vətən və millətin onları vəzifə başına, müdafiə xidmətinə çağırdığını bilər-bilməz evlərini, yurdlarını, arvad-uşaqlarını, ana və bacılarını ataraq vətən və millət ağuşuna atılmışlardır. Sonra millət hissi, islamlıq qeyrəti bunları diyarımıza atmışdır.

Məzkur [adı çəkilən] cavanlar Azərbaycanda və ümum Qafqaziyada türk-islam qardaşlarının hərc-mərc alovu içində yandıqlarını, hüquqi-milliyyə və mülkiyyələrinin [milli və vətəndaşlıq hüquqlarının] ayaqlar altında əzildiyini eşidib dərhal imdada qoşmuş, köməyə yüyürmüşlərdir.

Bu cavanlar canlarını Azərbaycan mehrabına qurban verib bizləri düşmən zülmündən xilas etməyə gəlmiş, səngərlərdə, qazmalar, yayın isti günəşi, payızın şiddətli yağmuru altında ac-susuz, gecə-gündüz güllə və mərmi altında əzrail ilə əlləşərək "Millətimi xilas etmədən can vermərəm" deyə son nəfəslərinədək vuruşmuş, Azərbaycan türklərini zülüm və sitəmdən qurtarmışlardır.

Lakin özləri ağır surətdə yaralanaraq xəstəxana bucağına atılmışlardır!

Xəstəxanada bunların əhvalı necə keçir? Uzun müddətdən bəri türk əsirlərinin və nəhayət türk xəstələrinin ehtiyacını ödəmək uğrunda çox çalışmış olan Ağaməhəmməd İbrahimzadə əfəndinin verdiyi məlumata görə, xəstəxanada yaralı türklərin halı çox fəna keçir.

Onlara qulaq asan yox, dərdlərinə qalan yox, müsibətlərini yüngülləşdirməyə çalışan yoxdur.

Qürbət ellərdə, uzaq yerlərdə cəlayi-vətən olmuş [vətənlərindən uzaq düşmüş] bu qəhrəmanların ələminə şərik olan yoxdur. Kimsə bunlara kömək etməyir.

Məzkur yaralıların əhvali-əsəfnakını [kədərli halını] Səhhəti-Ümumiyyə Nəzarətinə [Səhiyyə Nazirliyinə] xəbər vermiş, kömək istəmişlərdir. Nəzarət kömək vəd etmişdir. Lakin bu vaxtadək bir şey görüldüyü yoxmuş.

Bir vaxt "Malımız ilə, canımız ilə xidmət edəriz" deyənlər, bu gün sanki bunları görməyirlər, yaxud köhnə işlər unudulmuşdur.

Xülasə, 12-ci xəstəxanada yatan yaralı zabit və əsgərlər çox üsrət [sıxıntı, çətinlik] çəkirlər. Ümidvarız ki, Səhhəti-Ümumiyyə Nəzarəti bu işə diqqət verər və camaatımız buna laqeyd qalmazlar. Çünki bizim bugünkü laqeydliyimiz böyük qədrnaşünaslıq [qədir-qiymət bilməməzlik], böyük biməfalıqdır.

Yuxarıda adı zikr olunan Ağaməhəmməd İbrahimzadə əfəndi vasitəsi ilə məzkur yaralılar nəfinə [xeyrinə] İsa Bəy Aşurbəyov 100, Ağaməhəmməd Dadaşov 100, Həsən Dadaşov 110, Ağaməhəmməd İbrahimzadə 50, Abbasqulu Kazımzadə 25, Qulamrza Şərifov 25, İsmayıl Rəhimov 50, Əliheydər Şərifov 20 manat

olmaq üzrə 470 manat verilmişdir.

Əlbəttə qəhrəmanlara kömək edib ianə yığmaq millət əfradının [fərdlərinin] qədrdanlıq [qədirbilənlik] ibraz etmələrini [göstərmələrini] isbat edəcəkdir. Ona görə, qədrdanlığını göstərmək istəyən olsa, idarəmizdə qeyd dəftəri açıqdır.

Türklərin dərdinə qalıb çox çalışmış olan Ağaməhəmməd İbrahimzadə əfəndiyə çalışması və bu xüsusda idarəmizə bildirməsindən naşi [ötrü] ayrıca təşəkkür ediriz.

BAKI XƏBƏRLƏRİ

* İvan İvest nam [adlı] bir zat [şəxs], Ticarət və Sənaye Nəzarətinə müraciətən [müraciət edərək] Gürcüstan ilə Azərbaycan miyanında [arasında] əqd edilən [bağlanan] ticarət müqavilənaməsinə istinadən rica etmişdir ki, Ənzəli və yaxud başqa yerdən Tiflisə aparmaq niyyəti ilə 3000 pud səbzə, 1000 pud xüşkbar [quru meyvə] almaq üçün izin verilsin.

* Xorazan Neft Cəmiyyəti, Ticarət və Sənaye Nəzarətinə müraciətən rica etmişdir ki, Dövlət Bankında cəmiyyətin namına [adına] hesabati-cariyyə [cari hesab] səhifələri açılsın.

* Xırda Neftçilər Cəmiyyəti, Ticarət və Sənaye Nəzarətinə işbu məlumatı pişnihad [təqdim] etmişdir:

1917[-inci] sənədə Xırda Neftçilər tərəfindən çıxarılan neftin miqdarı Balaxanı dairəsində 14 milyon pud, Şubanı dairəsində 7 milyon pud.

1918[-inci] sənədə isə Mart hadisatınadək neft ticarət və sənaye istehsalatı qayda üzrə getmişdir. Fəqət sonra bilmərrə kəsilib fəaliyyətsiz qalmışdır. Xırda neftçiliklə bu vaxtadək 20 min nəfər adam imrari-həyat edirmiş [dolanırmış]. İş zamanı işləyən fəhlələrin miqdarı 8 minədək olmuşdur.

* Azov-Don Ticarət Bankı tərəfindən sərmayədar olan bir dəstə məşhur tacir, Ərzaq Nəzarətinə rücu [müraciət] edərək Azərbaycan üçün İrandan külli miqdarda ehtiyacati-zəruri gətirmək işini öhdələrinə almalarını izhar etmişdir [bildirmişdir]. Lakin ümdə şərt olmaq üzrə, bunu göstərmişlər ki, gərək təhvil verilən malların qiyməti İran pulu verilsin. Bu təklifi Nəzarət, ümumi surətdə qəbul edib də, Maliyyə nazirinə müraciətlə xahiş edir ki, həmin ticarət müahidəsi [müqaviləsi] üçün indidən 3 milyon tümən İran pulu hazırlansın.

* Məşhur çay satan “Vısotski” idarəsinin nümayəndəsi ilə Ərzaq Nəzarəti arasında böyük partiya çay gətirmək üçün müqavilənamə bağlanmaqdadır. Hələlikdə Ərzaq Nəzarəti 40 min pud çay gətirməyi sifariş etmişdir.

* Gəncə qəzasının ərzaq vəkili, nazirə teleqrafla xəbər vermiş ki, Gəncə dəmiryol mövqifində [stansiyasında] vaqon olmadığı üçün bir çox ərzaq yükləri yığılıb qalıbdır. Bu teleqraf Türüq və Məabir vəzirinə [Nəqliyyat və Rabitə nazirinə] xəbər verilib, xahiş olunur ki, Gəncə vəkilinə lazımi miqdarda vaqon verilmək üçün təcili tədbirlər ittixaz edilsin [tədbirlər görülsün].

* Srağagün əsgərlikdən qaçan cavanlardan bir neçəsini tutub Bakı qalabəyisinə [komendantına] göndərmişdilər. Çün həman gündə əsgərləri göndərmək üçün məxsusi vaqon yox idi və həman əsgər-

ləri saxlamaq üçün də qalabəyi divanxanasında ayrıca məxsusi oda [otaq] yox idi, qalabəyinin qətnaməsinə görə, həman əsgərlər müvəqqət olaraq birinci nömrə həbsxanaya göndərilmişlərdir.

* Möhtəkirlərlə mübarizə etmək barəsində Ərzaq Nəzarəti yavaş-yavaş lazımi tədabir ittixaz etməyə [tədbirlər görməyə] başlamışdır. Məlum olduğu üzrə, bəzi tacirlər Bakıya ərzaq yükləri gətirib, çox vaxt yüklərini dəmiryol skladlarına [anbarlarına] yığıb oralarda saxlayırlar ki, bazarlarda mal az olub, qiymətlər artdığı zaman bazara çıxardıb baha qiymətlərə satsınlar. Ərzaq naziri bu barədə Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə müfəssəl bir məktub yazıb xahiş edir ki, bundan sonra dəmiryol skladlarında ərzaq yüklərini saxlamaq üçün çox qısa bir vaxt təyin edilsin. O vaxt keçəndən sonra hərgah mal sahibi gəlib malını çıxartmasa, həman mal gərək zəbt edilib Ərzaq Nəzarəti tərəfindən təyin olunan qiymətlə Nəzarət hesabına alınsın.

"Kooperatsiya" 3 milyondan izafə [artıq] borcunu vermək istəməyir

Bələdiyyə İdarəsi nəzdindəki sabiq Ərzaq şöbəsinə külli miqdarda borcu olanlardan birisi də "Kooperatsiya" idarəsidir. Bu idarənin borcu 3.013.817 manatdır. Bir neçə gün bundan əvvəl Ərzaq şöbəsi "Kooperatsiya"ya məktub yazaraq 10 ayın ərzində öz borcunu verib qurtarmağı təklif etmiş imiş. Lakin bunun cavabında "Kooperatsiya" idarəsi demiş ki, çün bu axırkı hadisələrdə "Kooperatsiya"nın skladlarını qarət etmişlər və qarət edilən malların zərərləri də Müttəfiq komanda tərəfindən hələ verilməmişdir, buna görə "Kooperatsiya" idarəsi öz borcunu verməkdən acizdir.

"Kooperatsiya"nın bu cavabına cavab olaraq srağagün Ərzaq naziri bir məktub yazıb idarəyə xəbər etmiş ki, yuxarıda miqdarı göstərilmiş borc gərək əlbəttə verilsin, istər Müttəfiqlər komandanı zərərləri versinlər və ya ki verməsinlər, heç bir təfavütü yoxdur. Lakin borcu vermək üçün ancaq 12 ay vaxt vermək olar. Bu zamanda hər ayda müəyyən miqdar gərək həman borcun hesabından Nəzarətə verilsin.

* Bu axır günlərdə axşam qaranlığı düşən kimi şəhərin bəzi hissələrində, baxüsus [xüsusilə] 6, 7, 8 və 9-cu uçastokların məhəllələrində mütəəddid [çox sayıda] tüfəng və tapança atışmaları vaqe olur. Şübhə yox ki, bu atışmaları açan bəzi müfəttin [fitnəkar] və xuliqanlardır ki, şəhərdə həyəcan salmaq və əhalini nigaran qoymaq üçün bu hərəkətlərə rücu [müraciət] edirlər. Bu atışmalar, baxüsus əhalisi qarışıq millətlərdən ibarət olan məhəllələrin əhalisini çox artıq qorxu və nigarançılığa salır. Buna görə də yaxşı olardı ki, polis nəfəratı [nəfərləri] böylə bisəbəb atəş açanları tutub, şiddətli cəzalara düçar edib və bu barədə bir xüsusi əmrnamə də nəşr edəydi, vəilla [yoxsa] əhalinin istirahəti bu axır günlərdə tamamilə xələldar olmuşdur [pozulmuşdur].

Bələdiyyə İdarəsində

* Bələdiyyə İdarəsi, Daxiliyyə Nəzarətinə bir ərzihal verib, Bələdiyyə mülkü həyətindəki bir fligelin [əlavə tikilinin] Azərbaycan ordusuna mənsub bir qoşun

qitəsi [hissəsi] tərəfindən tutulmasını xəbər vermişdir. Həman fligel şəhər kitabxanasına verilmişdi. Bələdiyyə mühəndisi qoşun naçalnikinə müraciətən oranın boşaldılmasını təklif edərsə də, rədd cavabı almışdır. Əlavə olaraq, evə məxsus meblo [mebel] da qoşun əfradı [əsgərlər] tərəfindən sındırılıb xarab edilmişdir. Bununla Bələdiyyə idarəsi onun təcili surətdə boşa[l]dılması barəsində lazımi binagüzarlıqda bulunmağı [sərəncam verməyi] Daxiliyyə Nəzarətindən istida [xahiş] etmişdir.

* Bələdiyyə idarəsi Səhhəti-Ümumiyyə Nəzarətinin [Səhiyyə Nazirliyinin] Səhiyyə və statistika şöbəsinə bir böylə məlumat vermişdir. Bakı şəhərinin əhalisinin miqdarı bərvəchi-ati [aşağıdakı kimi] olmuşdur:

1916-cı sənədə 225490 nəfər, 1917-ci sənədə 229638 nəfər, 1918-ci sənədə 233864 nəfər. 1918-ci sənə üçün dini və milli statistika tərtib edilməmişdir.

1917-ci sənənin 22 oktyabrınadək statistikaya daxil olmuş nüfusu [əhalisi] böylə təqsim edilirdi [bölünürdü]: rus 77123 nəfər, erməni 52184 nəfər, gürcü 4073 nəfər, nemes 2777 nəfər, yəhudi 12427, müsəlman 67190 nəfər, Kazan müsəlmanları 1203, iranlı 11904 nəfər, başqa Qafqaziya millətlərindən 299 nəfər, ləzgi 700 nəfər və başqa millətlərdən 2315 nəfər, cümlətanı 234177 nəfər. 1919-cu sənənin 1 yanvarınadək şəhərdəki nüfusun miqdarı 235996 nəfər zükur və ünasdır [kişi və qadındır].

Təzə qəzetələr

Müsəlman sosialistləri tərəfindən bu günlərdə rus dilində “Mayak Azərbaycan” adlı gündəlik böyük bir qəzetə nəşr edilməyə başlayacaqdır. Bu qəzetədə Əhməd Cövdət Pepinov, Ağamalıoğlu, A. A. Şərifov, A. Atamalıbəyov, Camo Hacınski, Quryev və rus yazıçılarından Pyotr Sibirtsev iştirak edəcəklərdir. Məzkur [adı çəkilən] qəzetə fəhlə, kəndçi və ümum [bütün] zəhmətkeşlərin mənafeyini müdafiə və mühafizə edəcəkdir.

* Azərbaycan Müsəlman İctimaiyuni-İnqilabiyyun firqəsi [Sosialist İnqilabçılar partiyası] tərəfindən bu günlərdə “Kəndçi və fəhlə” adında türk lisanında həftəlik bir qəzetə nəşr ediləcəkdir.

Bolşeviklərlə mübarizə

Bakı əsgəri dairələrində dövran edən şayiata görə, hal-hazırda Bakıda olan general Prjevalski, Qafqaziyada olan rus əsgərləri baş komandanı təyin edilmişdir. Bu münasibətlə bu yaxınlarda bolşeviklər əleyhinə işləməkdən ötrü tədarükat başlanacaqdır. Birinci növbədə zabitlərin dəvət edilmələri gözlənir.

Müsəlman İctimaiyyuni-İnqilabiyyun firqəsinin iclası

Sabah, cümə günü yanvarın 16-sı, Parlaman mülkü “Hümmət” firqəsi odasında saat 4-də Azərbaycan Müsəlman İctimaiyyuni-İnqilabiyyun firqəsi [Sosialist İnqilabçılar partiyası] komitəsinin iclası təyin edilir. Balaxanı firqəsinin üzvləri dəvət olunurlar.

Müsəlman mütəəllimləri [tələbələri] iclası

Cümə günü kanuni-saninin [yanvarın] 17-də Bakı Birinci Realnı məktəbinin bi-

nasında saat 10-da Bakı Müsəlman mütəəllimlərinin ümumi iclası vaqe olacaqdır. İclas ikinci dəfə təyin edildiyindən, nə qədər üzv gəlsə də qanuni hesab olunacaqdır.

Hadisat [Hadisələr]

* Binəqədidə Seyid Hüseynov mədəninin makinaçısı Abdulla Quliyev idarəmizə müraciətən işbu məlumatı vermişdir: Binəqədi polis müfəttişliyi məmurundan Məhəmməd nam [adlı] birisi yanvarın 8-i gecə saat 2-də həman Abdullanın 196 nömrəli mədəndəki evinə gəlib, özünü döydükdən sonra 600 manatadək nəğd pulunu və qardaşı Yədullanın arvadını zorla götürüb aparmışdır. Abdullanın döyülməsi barəsində doktor vəsiqələr vermişdir ki, idarəmizə pişnihad [təqdim] edilmişdir.

* İkinci uçastok komitəsinin üç bürosunda:

1- Bolşoy Krepostnoy, nömrə 47;

2- Voyenni küçədə, nömrə 5;

3- Sadovı küçədə, nömrə 34

dördüncü dəfə olaraq adam başına iki girvənkə düyü verilir. İndiyə qədər düyü almamış olan ev komitələri, gəlib yuxarıdakı bürolardan düyülərini ala bilərlər.

* Ayın 13-cü gecəsində postda dayanmış qaradavoy görür ki, Tarqovı küçədə olan aksioner cəmiyyəti "Məftul"un skladından [anbarından] bir arabaya üç min manatlıq məftul [məftil] yığıb aparırlar. Arabaçını tutandan sonra məlum olub ki, arabaçı Sarkis Ayrapetovdur və məftul oğurlayanlar da Biçeraxov dəstəsinin saldatlarıdır. Həman oğruların birisi tutulub, məlum olub ki, Qriqori Manukovdur. Oğru da həbsə alınıbdır.

* Genə həman gecə Birjevoy küçə ilə keçən Məşədi Rza Məşədi Hüseyn oğlunun üstünə düşüb bir [neçə] nəfər erməni 600 manat pulunu almışlar. Qarətçilərin birisi tutulub məlum olub ki, Qaik Musaelovdur. Qarətçi həbsə alınıbdır.

* İki gecə bundan əqdəm [qabaq] axşam saat 7 radələrində, yeddi nəfər tapança ilə müsəlləh [silahlanmış] naməlum şəxslər Qubernski və Vorontsov küçələrin küncündə 14 nömrəli evdə İran rəiyyəti Ağa Mirmahmud Məhəmmədovun evinin üstünə tökülüb, əvvəlcə telefonun məftillərini kəsib, sonra da tapança hədəsi ilə pulların yerini göstərməyi tələb ediblər. Axırda həman evdə olan Məşədi Məcid Hacı Məhəmmədrəhim oğlundan, Kərbəlayi Hacı Salahovdan 40 min manat nəğd pul, qızıl saat və sair şeyləri güclə alıb qaçıblar. Tədabiri-lazimə polis tərəfindən ittixaz edilmişdir. [Lazımi tədbirlər polis tərəfindən görülmüşdür.]

* Ayın 14-cü gecəsində Azərbaycan dəmiryolunun ərzaq skladlarından [anbarlarından] 32 min manatlıq ərzaq və sair şeylər oğurlanmışdır.

ƏRZAQ İŞLƏRİ

- İranın Gilan telefon xəttinin müdiri Həbibulla Kərimova Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir ki, İrandan 300 put düyü gətirib Azərbaycan təriqi [yolu] ilə Gürcüstana aparsın.

- Gəncə əhli İsgəndər Abbasova Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir ki, Bakıdan Gürcüstana 1500 put neft aparıb, əvəzində Gürcüstandan Azərbaycana 1000 put qənd gətirsin.

AZƏRBAYCANDA

Cəbrayıl uyezdindən teleqraf

Qubernator müavini, Xariciyyə nazirinə böylə bir teleqraf göndərmişdir:

“Hal-hazırda Cəbrayıl uyezdindəyəm. Zəngəzur uyezdni naçalnikindən böylə bir teleqraf aldım:

Dördüncü uçastokda olan Razdərə kəndinin ermənilər tərəfindən dağıdılması haqqında göndərdiyim teleqrafa əlavə olaraq, Müttəfiq komandanına təqdim etməkdən ötrü xəbər verirəm ki, Zəngəzurda ermənilərlə müsəlmanlar arasında adi həyat bərpa etməkdən ötrü mayor Gibbon başda olmaq üzrə, İngiltərə heyətinin dəvətinə görə camaat vəkilləri yanvarın 7-də üçüncü uçastokda Teymur Müskənli kəndinə cəm olduqları zaman Ucan camaatının kəndxudası süvari olub, Andranik qoşunlarının böyük bir dəstə[si]nin Fərcan kəndinə hücum edib bu saat orada atışma davam etdiyini xəbər vermişdir. Bunu da əlavə edirəm ki, İngiltərə heyəti bura varid olandan [gələndən] indiyə qədər 30-dan ziyadə müsəlman kəndi ermənilər tərəfindən dağıdılıb, əhalisinin çox hissəsi öldürülmüşdür. İngiltərə heyəti təftişat olacağını vəd edib ermənilərin qabağını almaqdan ötrü heç bir tədbir görməyir.

TEATRO VƏ MUSİQİ

II

“Arşın mal alan”da Soltan bəyin rolunu çox vaxt Ələkbər Hüseynzadə, bəzi vaxt dəxi Mirzəağa Əliyev cənabları oynarlar. Bu səfər Mirzəağa oynadı. Bunu deməliyəm ki, bu rolu nə Ələkbər düz oynayır, nə də Mirzəağa. Görünür ki, Soltan bəyin nə kimi bir “tip” olduğuna nə o diqqət yetiribdir, nə də bu. Bu xüsusda mənə etirazlar edib deyə bilərsiniz sən “küfr” danışırsan, “səbb” eyləyirsən [söyüş söyürsən]; “əstəğfirüllah” eylə, “tövbə” qıl! Lakin, Gülçöhrə demişkən: sözüm sözdür; düz oynamayırlar. Bəs camaatın alqışları və tamaşaçıların gülmələri, şadlığı, teatro həvəslilərinin aldığı həzz və zövq, xalqın vəcdə gəlməyi?

Bunlar hamısı doğrudur. Mən özüm də Mirzəağa ilə Ələkbər Hüseynzadə cənablarının səhnə oyunlarından, hələ sair tamaşaçılardan da artıq həzz aparıb, zövq alıb, canü dildən gülürəm və özüm də şad oluram. Ancaq nədən? Məzhəkəlikdə, əksərən duzlu hərəkətlərində, xudadadi [Allah vergisi] bir istedad sahibi olmalarından!

Bunlarda; sözləri danışanda, söz danışarkən sifətlərində əmələ gələn mimika hərəkətlərində və bu hərəkətlərin dedikcə təbii olmaqla bərabər, ağızdakı sözün məzmununa tamamilə müvafiq gəlməsində, danışılan kəlamın kəlmeyi-məğzisini [məğzini, əsasını təşkil edən sözünü] ədayi-məxsusi [xüsusi bir tərz] ilə ifadə etmələrində yalnız özlərinə məxsus bir “duzluluq” var ki, hər artistdə ola bilməz. Bu isə əsl xudadadilikdir, Allah vergisidir və bizi də tamaşaçılarla bir yerdə şövq və zövqə gətirən, güldürən, fərəhləndirən budur, nəinki Soltan bəyin rolunun düz oynanılması.

Soltan bəyin rolunun nəyini düz oynamayırlar?

“Tip”ini.

Soltan bəy, qədim tərbiyə almış, "patriarxi" bir tipdir ki, lovğalıq, özünü sındırmamaq, ehtiram sevməklik, itaət tələb etməklik, "ağır olub batman gəlməklik", bığları yağa batmamaq üçün xanla plov yeməməklik dərəcəsində xudpəsəndlik [eqoistlik], bəylərə bir o qədər etina etməyən incinar-mincinarı [mühəndisi], doktor-moktoru, vəkil-məkili sevməməzlik, bəylərə həmişə etina, hörmət və təzim edən tacirləri dost tutmaqlıq Soltan bəyin əsas xasiyyət və məziyyətlərindəndir. İrişə-irişə gülmək, məhz pərəstar [qulluqçu] tapmaq və "savab" olmaq niyyətilə almaq istədiyi bir "dəllal-məllal" arvadına "Sənə qurban olum" demək, namus yerində hesab etdiyi papağını başından götürüb yerə vurmaq və sairə və sairə "əzginiş" [düşük] hərəkətlər çıxartmaq əsla və əsla Soltan bəy kimi birinə yaraşmaz, vəilla [yoxsa] "tip" itər, azar; bəlkə başqa bir tip əmələ gələr, amma müsənnifin [müəllifin] təsvir etmiş olduğu "bəy" meydana çıxmaz.

Müsənnifin təsvir etmiş olduğu "tip"i səhnədə eynilə yaratmaq üstadlığına ümum artistlərimizin diqqətini cəlb edib, vəzifeyi-nəfasətkaranələrinin [sənətkarlıq borclarının] ən böyüyü bu olduğunu yadlarına salıram.

Mirzəağa əfəndidə – Əliəkbərdə də olan kimi – xüdadadi istedaddan başqa artistliyin birinci şərtlərindən olan "ağız" dəxi vardır. Kamil bir diksiyaya malik olduğuna görə, danışdığı sözün birisi də itib batmayır. Əlavə, danışıq səsinin növbəti də layiqi olan yerindədir. Mirzəağa özünə bir az da diqqət yetirsə, universal bir artsit ola bilər ki, nəinki tək müsəlman publikasını, bəlkə başqa millətlərin də teatro və tamaşaçılarının calibi-zövqü ola bilər [zövqünü cəlb edə bilər]. Odur ki, onun oyununa biz də bir bu qədər diqqət yetirib, çox sözlər söylədik. Hələ ki, kifayətdir.

"Mizrab"

* * *

Cümə günü yanvarın 17-də gündüz saat 1-in yarısında Hacıbəyov Qardaşları tərəfindən Hökumət Teatrosunda "Pəri cadu" pyesası mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər gündüz teatrosu olmaq üzrə ucuz qiymətlə teatrın kassasında satılmaqdadır.

İZHARİ-TƏŞƏKKÜR

Azərbaycan Məclisi-Məbusan üzvü möhtərəm Həmdulla əfəndi Əfəndiyev cənablarına Bakı erməni yeparxialni naçalniki [yeparxiya idarəsi sədri] yepiskop Baqrat tərəfindən göndərilən təşəkkürnamənin eyni:

"Möhtərəm Həmdulla əfəndi!

Quba mahalında vaqe Gilvar adlı erməni kəndinin əhalisi və o kəndin keşişi mənə məktubən bəyan edirlər ki, siz öz bəradəriniz [qardaşınız] və əqvamınız [qohumlarınız] ilə Gilvar ermənilərini hər dürlü təsadüfi balalardan xilas edib, daima onlara xeyirxah olmusunuz. Neçə gün bundan əvvəl həman erməni kəndi Gilvardan mənim yanıma bir heyət gəlib, bizzat [şəxsən] sizin insaniyyətpərvər xidəmatınızı [xidmətlərinizi] təsdiq etdilər.

Binaileyh [ona görə], Bakı erməni yeparxiya naçalniki olmaq həsəbi [səbəbi] ilə özümə mənəvi vəzifə bilirəm, möhtərəm Həmdulla əfəndi, sizin Gilvar əhalisi-

nə olan böylə rəftarınıza qarşı səmimi təşəkkürümü izhar edim.

Cənabi-Haqq sizə və sizin ailənizə müin [köməkçi] olsun.

Kamali-ehtiram ilə Bakı erməni yeparxiyalni naçalniki Baqrat"

İDARƏYƏ MƏKTUB

Müdiri möhtərəm!

Təvəqqeyi-acizanə edirəm ki, bu bir neçə kəlmə sözlərimə qəzetənizin bir guşəsində yer verəsiniz.

Neft mədənlərində yaşayan, 25 illər zəhmət çəkmiş buruq ustalarımızın halı 25-30 ilin zamanında çox zəhmətlərlə, tənəli sözlərə təhəmmül etməklə [qatlaşmaqla] keçib, genə öz sənətlərinin üstündə möhkəm dayanıblar. Bununla belə, əcnəbilər bizim sənətkarlarımızı bir bəhanə ilə üstünə bir ad qoyub ki, sən təqsirkarsan, öz işlərindən, öz sənətlərindən kənar edirlər. Şübhəsiz ki, onlar öz həmcinslərini bizim ustalarımızın yerində sənətə qoymaq istəyirlər. Çıxarılmış sənətkarlarımız isə halları, günləri pis keçib, dallarında yük[l]ə hammal [hambal] əvəzində küçələrdə gəzməklə və bir gündə 15 verst piyada yol gedib şey-mey götürüb satmaqla özlərini itirib böylə zəhmətlə 8-9 nəfər külfət saxlayırlar. Amma əcnəbilər özləri qulluq etməyə kifayət eyləməyib öz arvadlarını və çocuqlarını kantorlarda işə qoyub, onlardan ötrü hər birinə beş yüz, altı yüzlərlə məvacib alıb, neçə qat bizlərdən yaxşı güzəran edirlər. Amma bizim uşaqlarımız sərgərdan, evlərdə, küçələrdə sənətsiz dolaşırlar və heç yerlərdə və karxanalarda və idarələrdə və mədənlərdə onlara yer vermə-yirlər.

Mantaşevlər, Mirzəyevlər, Trikiyev, Aramazlar, Kaspiyskilər və bunlardan başqa mülkədarlar, sabiq hökumətin qüvveyi-cəbriyyəsi [zor gücü] ilə və tapança gücü və pul gücü ilə yerlərimizi, atababadan qalma xalis mülklərimizi əlimizdən alıb özləri üçün mülk qərar veriblər. Özümüzü də fəhləlik və qarovulçuluğa da qəbul etməyirlər. İndi biz nə etməliyik? Əkin torpağımız yox, axar sularımız yox, mənfəət gətirən bağımız yox. Çox çətinliklə halımız keçir. İndi şükür olsun Allaha, çox illərlə islamın baydağını gördük. İndi bizim pişrovlarımızdan [başçılarımızdan] rica olunur, bizim sənətkarlarımıza, uşaqlarımıza zavodlarda, mədənlərdə, masterskoylarda [emalatxanalarda] yer versinlər və bu dərdlərimizə çarə etsinlər.

Əmirhacıyanlı buravoy master [qazma ustası] Sumbatəli Fətəliyev

İDARƏDƏN CAVABLAR

Sami əfəndiyə: "Əsrimizin siyasətindən bir nəbzə"niz zəifdir. Zatınızdan ciddi məqalələr gözləyirik.

Tamaşaçı əfəndiyə: Ehtiyat və əndişəniz əbəsdir. Şükür olsun, bu gün camaatımızın gözü artıq o qədər açıqdır ki, hər bir əfsanəyə qulaq verməzlər.

Rai əfəndiyə: "Qarabağ" şeirinizdə zəif yerlər vardır. Şeiriniz bundan gözəlliyini itirir. Zəif yerlərini bizzat [şəxsən] özünüzə göstərmək istərdik.

Bir Çəmbərəkəndli əfəndiyə: Şikayə-

tinizi öz imzanızla yazmağa razı-sınızsa bizə bildiriniz. Ya ki bu barədə bir balaca söhbət üçün idarəmizə təşrif gəti-rin.

Mikayıl Rəfizadə əfəndiyə. "Həyat"ınız çox gözəldir, lakin sosialist qəzetələrinə yaxışar yazılardır. Razı olsanız "Al bayraq" rəfiqimizə ötürərik.

Müqtədir şairlərimizdən **Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin "İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

b. 4 – 3

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Doktor Rza bəy Sultanov
Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

2603

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209

Bakı Obşestvenni Sobraniyasının [Bakı İctimai Yığıncağının] Müvəkkilər Şurası, Obşestvenni Sobraniya işlərini idarə etmək arzu-

sunda olan zəvatdan [şəxslərdən] bu barədə Müvəkkillər Şurasına ərizə vermək təklif olunur. Ərizələr Sobraniya kantorasında bu ilin kanuni-sani [yanvar] 20-sinə kimi qəbul olunur.

T-9

Bakı külli [topdan] alış-veriş cəmiyyəti “Baqqallar İttifaqı”

İdarəsi üzvlərini cümə günü kanuni-saninin 17-sində səhər saat 11-də Lalayevin pasajında, ittifaqın idarəsində vaqe olacaq ümumi iclasa dəvət edir.

Baxılacaq məsələlər:

1) İllik hesabatın müzakirəsi;
2) Mənafenin təqsimi [gəlirin paylanması];
3) 1919-cu il smetasının təsdiqi;
4) Məramnamənin təğyiri [dəyişdirilməsi];
5) İdarə və şura seçkisi;
6) Cari məsələlər.

Qeyd: Saat 11-də iclas qanuna müvafiq olmazsa, ikinci ümumi iclas o gün həman idarədə saat 1-də açılacaqdır.

İdarə müdiri: Həsənov
3647

Doktor Larionovun qadın və cərrahiyyə azarxanası

(Bazarnı küçədə Krasilnikovun evində, telefon nömrəsi 10-43) Əbədi naxoşları həmişə vaxt, müvəqqəti naxoşları isə saat 9-dan 4-ə kimi qəbul etməyə başlamışdır. Azarxananın məşvərətçiləri: Qadın naxoşluqlarına doktor V. Q. Mitrofanov; cərrahiyyə: doktor A. İ. Okinşeviç.

8648

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri

səh. 259. “Bremendə Sosialist Cümhuriyyəti elan edilmişdir.”: Almaniyanın Bremen və Bremerhafen şəhərlərində 10 yanvar – 9 fevral 1919-cu il tarixlərində mövcud olmuş Bremen Sovet Respublikası nəzərdə tutulur.

səh. 260. “Kazak-Kəndli Hökuməti”: Terek Kazak-Kəndli Soveti tərəfindən seçilən Terek Respublikası Müvəqqəti Xalq Hökuməti nəzərdə tutulur.

Qəzetələrdən

səh. 260. “İngiltərə Fəhlə firqəsi”: Leyboristlər Partiyası nəzərdə tutulur.

səh. 261. “Revel”: indiki Tallin şəhəri.

səh. 262. “Berlin şəhərinin Baş komandanı…”: söhbət 1919-cu ildə Berlinin hərbi komendantı olan Albert Klavundedən gedir.

Zaqatala haqqında

səh. 262. “Zaqafqaziya Cümhuriyyəti”: Zaqafqaziya Demokratik Federativ Respublikası nəzərdə tutulur.

səh. 263. “Biz o vaxt İcraiyyə Komitəsinin sədri olduğumuzdan…”: 1917-ci ilin martında Zaqatala qəzasında təsis edilən Zaqatala qəza İcraiyyə Komitəsi nəzərdə tutulur.

Vükəla Şurasında

səh. 266. “…qət edilmişdir”: qəzetdə bu qətnamənin maddələri ərəb əlifbasında hərflərin ardıcıllığına uyğun olaraq “a”, “b”, “t” kimi işarələnmişdir.

Bakı xəbərləri

səh. 269. “…bir qoşun qitəsi…”: qəzetdə “bir qoşun qalası” getmişdir.

Teatro və musiqi

səh. 273. “Mizrab”: “Azərbaycan” qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

İdarəyə məktub

səh. 274. “Mantaşevlər, Mirzəyevlər, Terikiyev, Aramazlar, Kaspiyskilər...”: Bakıda və Abşeronda fəaliyyət göstərən neft şirkətləri – “A. İ. Mantaşev və Ko”, “Mirzəyev Qardaşları və Ko”, “Aramazd neft sənayesi və ticarəti cəmiyyəti”, “Kaspi ortaqlığı” nəzərdə tutulur. Bunların hamısı ermənilərə məxsus şirkətlər idi. “Terikiyev” deyərkən hansı şirkətin nəzərdə tutulduğunu müəyyənləşdirmək mümkün olmadı. Məktubda bir çox imla səhvləri olduğu nəzərə alınsa, güman etmək olar ki, “Ter-Akopov” (İ. N. Ter-Akopovun neft sənayesi və ticarəti cəmiyyəti) nəzərdə tutulmuşdur.



جمعه ۱۹ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۱۷ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۹۰

آذربایجان

تورك و اسلامله مفید مقاله‌لره صحیفه‌مزك آچیقدیر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالەلرك مکافاتی اداره تعین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کراته گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:
باکو ایچون:
۱/۲ آیلغی ۱۸ روبله
۳ « ۳۲ «
۶ « ۴۵ «
غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۳ « ۳۵ «
۶ « ۵۰ «

محل اداره:
باکو، وورو نسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ایوده
«آذربایجان» اداره‌سی.
تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

گونده‌لك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

انا لله و انا الیه راجعون

عباسعلی محمداوف کمال یأس و تحسرله اوز سوگیلی قرداشی اولان کربلایی **محمدعلی حاجی محمداوغلی محمداوف**ك ٦ولوم خبرینی قوم اقربا و دوست آشنالریته خبر ویریریور.

تشییع جنازه بوگون صبح ساعت ۱۰ ده اوز ایوینـدن (تویرسقایا نمرو ۳۵) جمعه مسجدینه آپاریلاجقدر.

2650

آ ذربایجان جمهوریتنك مشیخت اسلامیسی طرفدن آذربایجان مسلمان ٦رینه خطابا وعظ و نصیحتدر. آخوندلر، افندیلردن، ملالردن و اماملردن وارباب کمالدن رجا اولنورکه بووعظ و نصیحتی وقت بوقت جماعتله اوقیوب اولارواوز وظیفه‌دینیه‌لرینی قاندیرسونلر.

—

الله تعالی یوریور: واعدوالهم ماأستطعتم من قوة ومن رباط الخیل ترهبون به عدو الله وعدو کم الایه یعنی دین دشمنلرینی دفع ایتمك ایچون یاخا ردیگر مقداوده ولازم کلن قدرده هرنوع محاربه قوه‌لرینی و دعوا ایچون بسلنمش آتلاری آماده ایدك که تا بونیله الله‌ك دشمنلرینی واوز دشمنلرگزی قورقوداسگز دخی سزلره تعدی ایتمك خیاله دوشمیه‌لر.

وینه‌ده یوریور: و ان جنحو الللسم فاجنح لها وتوکل علی‌الله‌انه‌هو السمیع العلیم یعنی ای پیغمبر! اگر سنگله قتال ایدنلر صلح و سازش ایتمگه میل گوستره‌لر، سن دخی صلح و سازشه میل ایدیوب اونلار ایله مصالحه ایله وبوصورتده اسلا تکران اولمایوب واضطراب ایتمیوب اللهه‌تو کل ایله که الله تعالی سوزلر گزی ایشیدن و قلبلره عالمدر.

ایشته مسلمانلر دفاع ایتمگه تدارك گورملی و هر حالده دشمنلر ایله صلح ایتمگه دخی راضی اولمالیدرلر.

آزقداراشلار! سزه معلومدرکه بر یوزنده نه‌قدر ملتلر وارایسه هامولاری اوزلرینی حمایت ایتمکده نوع بنوع تدبیرلر وچاره‌لر آرایوب دشمنلردن اوزلرینی مدافعه ایچون حاضر و آماده بولوریلار؛ اسلام اهلی‌ایسه بوقدر گذشته بریشان برحال ایله یاشامقدن، ظالملر طرفندن هرنوع اذیت ودجاورلاحق‌وعدالتی اسیر و نهایت‌سواقله پایمال اولدیلار.

قارداشلار! الله تعالی‌یه حمدلر اولسون‌که بزلره فضللی و مرحمتی شامل اولوب آذربایجان حکومتی یرلی تاسیس اولندی و ایش باشنه ملتی دینی سودن ذاتلر تجویب آذربایجان دائره‌سنده اولان جماعتی ظالملردن حمایت ایدیر. لکن بوشونمك گرکدرکه حکومت جماعتك وجودی ایچون ایله باشامقدن، ظالملر طرفندن هرنوع اذیت که مرجی اولان بدننه روح فعالیت‌ایدیمز، ملاقی یوزدن اولان جماعتی دخی حکومت داره ایتمکه قدرتی اولماز؛ پس بز جماعته لزمدرکه حکومتك امرلرینی اجرا ایتمکده

کوتاه‌لق ومسامحه ایتمه‌یك، اوانی فوتلی‌وشوکتلی برحاله ساخلامقده وار قومه‌زی فعلیله کتوروب صداقت واخلاصی گوسترمك.

قارداشلار! انصاف ایدك، منظم عسکری اولمایان حکومت جماعتی نه‌نوعله حمایت‌ایده بیلور؟ سز هاچانه‌دك غفلت اویقوسنده قالوب عبرت گوتورمیه‌جکسگز؟ مگر بر نیچه آی بوندن اقدم حادث اولان فضیه‌لری ایشیتمه گزمی و گورمه گزمی؟ سز آتالرك وباجیلارلاوخورده جه اوشاقلرك یایمال اولمقلرینی نه ترجمه یادداون چیقارتدگز؟! هایدی قارداشلار! عسکر گینمکله حکومته کومك ایدك! تاکه دنیاده سربلند و سرافراز و آخرنده اجر وثوابه نائل اولوب نجات تاپاسگز.

قارداشلار! پیغمبر علیه‌السلام زمانتده جان تاتارلق ایده‌ن مسلمانلری وصحابهٔ کرامی برباده گتوروك واونلاره بیروی اولوب اسلام‌حکومتنی بارلاق وطنتله‌لی حال ایله ساخلامقده همت‌ایدك! قرآن کریمده الله یولنده جدوجهد ایدوب جاندن ومالدن گذشت ایدنلره وعده وبریلن کرامتلره ایتانوب صداقت و ارادتله دین یولنده خدمت ایدك!

یاده گتوروك الله‌تعالی‌نك کلامنی که‌بیوریور: ان الله اشتری من المؤمنین انفسهم و اموالهم بان لهم الجنته الایه یعنی الله تعالی مؤمنلردن جانلرینی ومالرینی بیشت مقابلنده آلوبدر عوضنده اولارم بهشت کرامت بیوراجقدر.

پس الله تعالی یولنده جاندن ومالدن کچمك عبادتلرك افضلی وبیوك شان وشرافت وسعادتدر و بویوله مقتول اولان شهید منزله‌سنده‌در، شهید ایسه بهشتك اك اعلا درجه‌سنده قرار دوتاجقدر.

افسوسلر اولسون‌که بز بووعده‌لری سهل‌سانوب دین یولنده‌همت وغرض وناموس‌ساخلامقده‌غیرت ایتمیوب ملتلر آراسنده خوار وذلیل اولدق، حال بوکه حدیث شریفده بیوریلر: الاسلام یعلو و لایعلی علیه یعنی الته اسلام اهلی هاموندن اوجا و عزتلی اولمایدرلر.

قارداشلار! اوبایگز غفلت یدر اویقو کفایتدر نه‌وقته کینی کسالت و بطالتله یاشایاجق سگز؟ نه‌وقته کینی نفاق وعداوتی اوزگزه‌شعار ایدوب اتحاد واخوتك ودین یولنده مردانه‌لك ایتمگك لازم اولدیغنی دوشونمیه‌جکسگز؟!

مسلمانلقك نشانه‌لرندن بریسی‌ده دینی وملتی سومکدر الته دینی وملتی وغرض و ناموسی سومن جوانلر عسکرلگه گینمکدن قاچمامه‌لرلر.

جوانلرمز نجه‌دوا گورلرلر که گوزلرینك برابرنده اهل وعیالنك ظالملر الندہ اسیر دوشوب‌وسفه و یانه کلمین رسوالقه دوچار اولسونلار!

مسلمانلار! دینگزی ملتگزی‌وغرض، ناموس گزی ساخلامقده‌همت‌وغیرت ایدك! بیچاره‌جماعتی حمایت ایتمك ایچون عسکرلگه گینمکله‌حکومته کومك اولوب اخلاص گوسترمك!

قارداشلار! آیلك و اطراف عالمه یاقوب عبرت ایدك، هاچانه‌دك روحسز قالب اولوب‌وعظ ونصیحتلر و روا گورونمین فاجعه‌لر سزلره تاثیر ایتمیه‌جکدر. گوزلرگز یاقاجق قلبلرگز اویا نماجقدر؟

ای دولتلی‌لر، ای تاجرلر! سزلر هاچانه‌دك مال جمع ایتمك قیدینه قالوب دینی وملتی یاددن چیقارا جقسگز؟ اللهك عذابندن قورقمك‌مالگزدن اللهك حقنی ویرك، یاده سالك گه‌نیچه آی بوندن اقدم دشمنلر گزه مالگز گزه مالك اولوب سزلری جلاء وطن اولمقه مجبور ایتدیلر اگر بویله‌غفلتله یاشایوب حکومته کومك ایتمیه‌مگز یندەواگون لرك مثله دوچار اولارسگز! مگر انسان نه‌وقته کیمی سهو ایدر، مگر انسان نه‌وقته کیمی اوز قباحتی یاشامه‌دوشمز؟ اسلام حکومتك تحت حمایه سنده یاشامغك نه‌وجهده بیوك نعمت و سعادت اولمقنی دوشونیورسگزمی! اگر بوحکومتك‌الهاذ بالله‌ضغط وخللی‌توشه سزلر گیملره پناه‌آپاراجق سگز بیلورمیسگز اوصورتده حالگز نیچه‌کچر ونجه فنا وبربشان اولار.

قارداشلار! ملتفت اولك، حکومتی فقط آرزو ودعا ایله ساخلامق اولماز، حکومته‌عسکر گر کدر! عسکری نظام اوزره ساخلامق‌ایچون پاره لازمدر بر اصناف ایدك گورحی و ارمنی قومشولرمزك مات یولنده همت و غیرتلریله یاقك تاکه اسلام حکومتنك سزلره نه‌درجه‌ده فائده‌مند اولدیغنی دوشونوب اوز وظیفه‌گزی عمله گتوره‌سگز.

قارداشلار! الله تعالی سزلره امر ایدیرکه رحملی، مروتلی، انصافلی وعدالتلی اولاسگز وهیچ کمك مالنه وجانته وعرض وناموسنه تعدی ایتمیوب بلافرق ملت ومذهب تمام جماعته‌انسانیت حقوقنی مراعات ایدوب هامولارینه مهربان وخیر خواه‌اولاسگز لکن کیم که سزلره‌دینگزه‌ملتگزه‌یا عرض وناموسگزه تعدی ایده، اونگله‌ده دفاع ایتمك سزه فرض ولازم کلور یوقه اولسون‌که ظالملر سزلره تعدی ایتمکله محسو و نابود اولاسگز.

پس عسکرلکه شوق ورغبتله گیدك،وظنلملی قوشولدلر تدارك ایدوب الله‌تعالی‌یه و پیغمبره و حکومته اخلاص وصداقت گوسترمك تاکه لازم اولان وقته ملتی و پیچاره‌لری حمایت ایتمکه اقتدار گز اولسون، بوقه‌ده‌قدر جوقه‌اولمه گز یاشقه‌لرك نظاملی قوشونلری سزلری‌موروملچگی یرا کنده قیلوب مال ومالگزه و اهل وعیالگزه ظالملر سزلره تعدی ایتمکله محسو و نابود اولاسگز.

ای عسکرلکه شوق ورغبتله گیدك،وظنلملی قوشولدلر تدارك ایدوب الله‌تعالی‌یه و پیغمبره و حکومته اخلاص وصداقت گوسترمك تاکه لازم اولان وقته ملتی و پیچاره‌لری حمایت ایتمکه اقتدار گز اولسون، بوقه‌ده‌قدر جوقه‌اولمه گز یاشقه‌لرك نظاملی قوشونلری سزلری‌موروملچگی یرا کنده قیلوب مال ومالگزه و اهل وعیالگزه ظالملر سزلره تعدی ایتمکله محسو و نابود اولاسگز.

ای آتالار، وای آنالر! پیغمبر علیه‌السلامك زمانتی یاده گتوروب اولاد گزی اونك دینی یولنده اسلام حکومته عسکر ویرك، بوقه‌قامتده الله تعالی عندنده جواب‌دهنده ویپغمر علیه السلام حضورنده شرمنده اولوب عذاب الیمه گرفتار اولارسگز.

قارداشلار! اگر صمیم قلبله اسلام حکومته محبت وارادت گوسترسگز الته‌تعالی سزه کومك اولور نجه‌که یوریور: ان‌تنصروالله ینصر کم ونثبت اقدامکم یعنی اگر سز الله تعالی نك دینه یاردم ایتسگز الله تعالی بویاره‌ده سزه‌امداد ایدوب قدملر گزی محکم و ثابت قیلار.

الله تعالی آذربایجان حکومتنه اخلاص و ارادت گوسترمکله اجر جزیل کرامت بیورسین. آمین!

مشیخت اداره‌سنك صدری
شیخ‌الاسلام آخوند آقا آقا علی‌زاده
مفتی **مصطفی افندی افندی‌زاده.**
عضو مشیخت **علاءالدین افندی سیحان قلی زاده**
عضو اداره **آخوند زاده**

تورکیه مغلوبمی‌در؟

متارکه عقد اولونمش، تورکیه امان ایسته‌مجبك بر درجه‌یه‌کلمش. متقللر استانبولده اوطوروبورلر.

دیمك تورکیه مغلوب اولمش.

ظاهری دوشونولورسه بویله‌در. مغلوبلق واقعدر.

بو ملاحظه‌دن باقیلرسه، جوق آدملر تورکیه‌نك مغلوب اولدیغنه حکم ایدرلر. هم سوزك جماعت آراسنده معتاد اولان مناسبله ده ایش بویله‌در.

تورکیه متفق دولتلره فارشی مغلوب‌در. منسوب اولدیغی محاربه دولتلر زمره‌سی سیندی، اوده اونلره برابر باسیلدی. مغلوب اولدی.

بو خصوصده ایکی سوز اولاماز. بویله ظاهری بر محاکمه‌نك تاثیری جوق بویوك کدر. یالگز، ظاهر بین آمار دگل. بو گونکی حالده تورکیه‌نك معارف ناظری مقامنده بولونان فیلسوف رضا توفیق بك جنابلری دخی، حکومته واقع اولان بر سورغویه جواب ویررکن «نه یاپالم، اونلر غالب‌در بز مغلوب. حکم عالیگه‌در» دیمش‌در.

معارف ناظریتك بویله فیلسوفانه بر وضاده بولونماسی، میعوثلردن بعضنك اوتهری تقیداتله معروض قالمشه‌ده الا شدتلی تازیانه‌یی استانبول قاضیلرندن ییمشدر.

اوقوجیلر یقین حس ایدیورلرکه «قاضی کوی» خانملرینك غزتلر واسعاسیله نشر ایلدیکی اولدقاری پروتستو نامه‌دن بحث ایدیوروز. غزته‌یی دقله اوقویانلرك عمرلری‌اوتونی اونتیماجاقلری لازم‌کلن بو فقره‌یی، هر احتمالله قارشی، بر دها بورایه نقل ایدیوروز. بالکه اوقوه‌مامیان اولانلر واردر.

استانبول قاضی کوی خانملری مذکور پروتستولرندہ دیورلرکه:

«تاریخ‌جهانه جاقلقده مدافعه‌سی کبی بر شاه اثر اهدا ایدن قهرمانلرك آنا، زوجه، همشیره

“Azərbaycan” qəzetinin 90-cı nömrəsinin 1-ci səhifəsi

Cümə, 17 yanvar 1919-cu il, nömrə 90

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Cümə, 14 rəbiülaxir sənə 1337. 17 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Abbasəli Məhəmmədov kamali-yəs və təhəssürlə [böyük bir matəm və kədərlə] öz sevgili qardaşı olan Kərbəlayi Məhəmmədəli Hacı Məhəmməd oğlu Məhəmmədovun ölüm xəbərini qövm-əqrəba və dost-aşnalarına xəbər verir. Təşyiyi-cənazə [cənazənin yola salınması] bu gün sübh saat 10-da öz evindən (Tverskaya, nömrə 35) Cümə məscidinə aparılacaqdır.

2650

AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN MƏŞİXƏTİ-İSLAMİYYƏSİ TƏRƏFİNDƏN AZƏRBAYCAN MÜSƏLMANLARINA XİTABƏN VƏZ [MOİZƏ] VƏ NƏSİHƏTDİR. AXUNDLARDAN, ƏFƏNDİLƏRDƏN, MOLLALARDAN VƏ İMAMLARDAN VƏ ƏRBABİ-KAMALDAN [KAMAL SAHİBLƏRİNDƏN] RİCA OLUNUR Kİ, BU VƏZ VƏ NƏSİHƏTİ VAXTBAVAXT CAMAATA OXUYUB, ONLARA ÖZ VƏZİFEYİ-DİNİYYƏLƏRİNİ QANDIRSINLAR.

Allah-taala buyurur: “Və əiddü ləhüm məstəta’tüm min-qüvvətin və min-ribatil-xeyli türhibunə bihi əduvvallahi və əduvvəküm…” Əl-ayə [ayə]. Yəni din düşmənlərini dəf etmək üçün bacardığınız miqdarda və lazım gələn qədərdə hər növ müharibə qüvvələrini və dava üçün bəslənmiş atları amadə [hazır] edin ki, ta bunuyla Allahın düşmənlərini və öz düşmənlərinizi qorxudasınız, dəxi sizlərə təəddi [zülüm] etmək xəyalına düşməyələr.

Və yenə də buyurur: “Və in cənəhu lissəlmi fəcnəh ləha vətəvəkkəl əla-llahi innəhu hüvə-ssəmiul-alim.” Yəni, ey peyğəmbər, əgər sənlə qital [savaş] edənlər sülh və saziş etməyə meyl göstərsələr, sən dəxi sülh və sazişə meyl edib onlarla müsalihə [barışıq] eylə və bu surətlə əsla nigaran olmayıb və iztirab etməyib, Allaha təvəkkül eylə ki, Allahtaala sözlərinizi eşidən və qəlblərə alimdir [qəlbləri biləndir].

İştə, müsəlmanlar difa [müdafiə] etməyə tədarük görməli və hər halda düşmənlərlə sülh etməyə dəxi razı olmalıdırlar.

Arxadaşlar! Sizə məlumdur ki, yer üzündə nə qədər millətlər varsa, hamıları özlərini himayət etməkdə növbənöv tədbirlər və çarələr arayıb, düşmənlərdən özlərini müdafiə üçün hazır və

amadə durublar. İslam əhli isə bu qədər kəsrətlə [çoxluqla], pərişan bir hal ilə yaşamaqdan, zalımlar tərəfindən hər növ rəzalətə düçar və əhli-əyalları [ailəsi] əsir və nəhayət rüsvalıqla paymal oldular.

Qardaşlar! Allah-taalaya həmdlər olsun ki, bizlərə təfəzzülü [lütfü] və mərhəməti şamil olub, Azərbaycan Hökuməti bərpa və təsis olundu və iş başına milləti və dini sevən zatlar keçib, Azərbaycan dairəsində olan camaatı zalımlardan himayət edir. Lakin düşünmək gərəkdir ki, hökumət camaatın ruhudur, necə ki məriz [xəstə] olan bədəndə ruh fəaliyyət edəmməz, əxlaqı pozğun olan camaatı dəxi hökumət idarə etməyə qüdrəti olmaz. Pəs [deməli], biz camaata əlzəmdir ki, hökumətin əmrlərini icra etməkdə kütahlıq [qüsur] və müsamihə [başısoyuqluq] etməyək və onu qüvvətli və şövkətli bir halda saxlamaqda var qüvvəmizi fəaliyyətə gətirib, sədaqət və ixlas [səmimiyyət] göstərək.

Qardaşlar! İnsaf edin. Müntəzəm əsgəri olmayan hökumət, camaatı nə növlə himayət edə bilər? Siz haçanadək qəflət uyqusunda qalıb ibrət götürməyəcəksiniz? Məgər bir neçə ay bundan əqdəm [qabaq] hadis olan [baş verən] qəziyyələri eşitmədinizmi və görmədinizmi? Siz anaların və bacıların və xırdaca uşaqların paymal olmaqlarını nə tezcə yaddan çıxartdınız? Haydi, qardaşlar, əsgər getməklə hökumətə kömək edin! Ta ki, dünyada sərbüləND və sərəfraz [başıuca, başıyuxarı] və axirətdə əcr və savaba nail olub [əvəzini alıb və savab qazanıb] nicat tapasınız.

Qardaşlar! Peyğəmbər əleyhissəlam zamanında cannisarlıq edən [canını fəda edən] müsəlmanları və səhabeyi-kiramı [şərəfli, uca səhabələri] bir yada gətirin və onlara peyrəv olub [onların ardınca gedib], islam hökumətini parlaq və təntənəli hal ilə saxlamaqda hümmət edin. “Quranikərim”də Allah yolunda ciddü-cəhd edib candan və maldan güzəşt edənlərə vədə verilən kəramətlərə [lütfkarlıqlara, nemətlərə] inanıb, sədaqət və iradətlə [ürəkdən] din yolunda xidmət edin.

Yada gətirin Allah-taalanın kəlamını ki buyurur: “İnnəllahə-ştəra min-əlmüminina ənfüsəhum və əmvaləhum bi-ənnə ləhümül-cənnətə...” Əl-ayə. Yəni Allah-taala möminlərdən canlarını və mallarını behişt müqabilində alıbdır, əvəzində onlara behişt kəramət buyuracaqdır.

Pəs, Allah-taala yolunda candan və maldan keçmək ibadətlərin əfzəli [ən fəzilətlisi] və böyük şan və şərafət və səadətdir və bu yolda məqtul olan [öldürülən] şəhid mənzələsindədir [dərəcəsindədir]. Şəhid isə behiştin ən əla dərəcəsində qərar tutacaqdır. Əfsuslar olsun ki, biz bu vədələri səhl [asan] sanıb, din yolunda hümmət və irz və namus saxlamaqda qeyrət etməyib, millətlər arasında xar və zəlil olduq. Halbuki hədisi-şərifdə buyurulur: “Əl-islamu ya’lu və la-ya’lu əleyh”. Yəni, əlbəttə, İslam əhli hamıdan uca və izzətli olmalıdırlar.

Qardaşlar! Oyanınınız. Qəflət bəsdir, uyqu kifayətdir. Nə vaxta kimi kəsalət və bətalətlə [süstlük və tənbəlliklə] yaşayacaqsınız? Nə vaxta kimi nifaq və ədavəti özünüzə şüar edib, ittihad və üxüvvətin [birlik və qardaşlığın] və din yolunda mərdanəlik etməyin lazım olduğunu

düşünməyəcəksiniz?

Müsəlmanlığın nişanələrindən birisi də dini və milləti sevməkdir. Əlbəttə, dini və milləti və irz və namusu sevən cavanlar əsgərliyə getməkdən qaçmasınlar. Cavanlarımız necə rəva görərlər ki, gözlərinin bərabərində əhli-əyalları zalımlar əlində əsir düşüb vəsfə və bəyana gəlməyən rüsvalığa düçar olsunlar!

Müsəlmanlar! Dininizi, millətinizi və irz-namusunuzu saxlamaqda hümmət və qeyrət edin. Biçarə camaatı himayət etmək üçün əsgərliyə getməklə hökumətə kömək olub ixlas göstərin!

Qardaşlar! Ayılın və ətraf aləmə baxıb ibrət edin. Haçanadək ruhsuz qəlib olub vəz və nəsihətlər və rəva görülməyən faciələr sizlərə təsir etməyəcəkdir, gözləriniz baxacaq, qəlbləriniz oyanmayacaqdır?!

Ey dövlətlilər, ey tacirlər! Sizlər haçanadək mal cəm etmək qeydinə qalıb, dini və milləti yaddan çıxaracaqsınız? Allahın əzabından qorxun. Malınızdan Allahın haqqını verin. Yada salın ki, neçə ay bundan əqdəm düşmənləriniz mallarınıza malik olub sizləri cəlayi-vətən [vətəndən didərgin] olmağa məcbur etdilər. Əgər böylə qəflətlə yaşayıb hökumətə kömək etməyəsiniz, yenə də o günlərin məsəlinə düçar olarsınız. Məgər insan nə vaxta kimi səhv edər, məgər insan nə vaxta kimi öz qəbahətini başa düşməz? İslam hökumətinin təhti-himayəsində [himayəsi altında] yaşamağın nə dərəcədə böyük nemət və səadət olmağını düşünürsünüzmü? Əgər bu hökumətə, əl-iyazübillah [Allah eləməsin], zə'f [zəiflik] və xələl yetişsə, sizlər kimlərə pənah aparacaqsınız? Bilirmisiniz o surətdə halınız necə keçər və necə fəna və pərişan olar?

Qardaşlar! Mültəfit olun [diqqət yetirin, qulaq asın], hökuməti fəqət [sadəcə] arzu və dua ilə saxlamaq olmaz. Hökumətə əsgər gərəkdir. Əsgəri nizam üzrə saxlamaq üçün para lazımdır. Bir insaf edin. Gürcü və erməni qonşularımızın millət yolunda hümmət və qeyrətlərinə baxın. Ta ki, islam hökumətinin sizlərə nə dərəcədə faidəmənd [faydalı] olduğunu düşünüb öz vəzifənizi əmələ gətirəsiniz.

Qardaşlar! Allah-taala sizlərə əmr edir ki, rəhmli, mürüvvətli, insaflı və ədalətli olasınız və heç kəsin malına və canına və irz və namusuna təəddi etməyib [toxunmayıb], bila-fərqi-millətü-məzhəb [millət və məzhəb fərqi qoymadan] tamam camaatla insaniyyət hüququnu müraat edib [gözləyib, riayət edib], hamılarına mehriban və xeyirxah olasınız. Lakin kim ki, sizin dininizə, millətinizə və ya irz və namusunuza təəddi edə, onunla da difa etmək [özünü qorumaq] sizə fərz və lazım gəlir. Yoxsa olsun ki, zalımlar sizlərə təəddi etməklə məhv və nabud [yox] olasınız.

Pəs, əsgərliyə şövq və rəğbətlə gedin və nizamlı qoşunlar tədarük edib Allahtaalaya və peyğəmbərə və hökumətə ixlas və sədaqət göstərin. Ta ki, lazım olan vaxtda milləti və biçarələri himayət etməyə iqtidarınız olsun. Yoxsa, nə qədər çox da olsanız, başqaların[ın] nizamlı qoşunları sizləri murü mələx [qarışqa və çəyirtkə] kimi pərakəndə qılıb, malü mənalınıza [mal-dövlətinizə] və əhli-əyalınıza malik və sizləri xar və sərnigun [başıaşağı] edərlər.

Ey atalar və ey analar! Peyğəmbər

əleyhissəlamın zamanını yada gətirib, övladınızı onun dini yolunda islam hökumətinə əsgər verin. Yoxsa, qiyamətdə Allah-taala indində [hüzurunda] cavabdəhəndə [cavabdeh] və peyğəmbər əleyhissəlam hüzurunda şərməndə [üzüqara] olub əzabi-əlimə [çox əziyyət verən bir əzaba] giriftar olarsınız.

Qardaşlar! Əgər səmimi-qəlblə islam hökumətinə məhəbbət və iradət göstərsəniz, əlbəttə, Allah-taala sizə kömək olar. Necə ki buyurur: “İn tənsuru-llahə yənsurküm və yusəbbit əqdaməküm.” Yəni siz Allah-taalanın dininə yardım etsəniz, Allah-taala bu barədə sizə imdad edib, qədəmlərinizi möhkəm və sabit qılar.

Allah-taala Azərbaycan Hökumətinə ixlas və iradət göstərənlərə əcri-cəzil kəramət buyursun [bol mükafat, əvəz versin]. Amin!

Məşixət [Şeyxülislamlıq] İdarəsinin
sədri: Şeyxülislam Axund Ağa
Ağaəlizadə
Müftü : Mustafa əfəndi Əfəndizadə
Üzvi-məşixət: Ələddin əfəndi
Sübhanquluzadə
Üzvi-idarə: Axundzadə

TÜRKİYƏ MƏĞLUBMUDUR?

Mütarikə əqd olunmuş [atəşkəs imzalanmış], Türkiyə aman istəyəcək bir dərəcəyə gəlmiş. Müttəfiqlər İstanbulda otururlar.

Demək, Türkiyə məğlub olmuş.

Zahiri düşünülərsə böylədir. Məğlubluq vaqedir [baş vermişdir].

Bu mülahizədən baxılarsa, çox adamlar Türkiyənin məğlub olduğuna hökm edərlər. Həm sözün camaat arasında mötad olan [adət edilmiş, öyrəşilmiş] mənası ilə də iş böylədir.

Türkiyə Müttəfiq dövlətlərə qarşı məğlubdur. Mənsub olduğu müharib [savaşan] dövlətlər zümrəsi sındı, o da onlarla bərabər basıldı, məğlub oldu.

Bu xüsusda iki söz olammaz. Böylə zahiri bir mühakimənin təsiri çox böyükdür. Yalnız zahirbin [zahiri görən] adamlar deyil, bugünkü halda Türkiyənin Maarif naziri məqamında bulunan filosof Rza Tofiq bəy cənabları dəxi, hökumətə vaqe olan bir sorğuya cavab verərkən “Nə yapalım, onlar qalibdir, biz məğlub; hökm qalibindir” – demişdir.

Maarif nazirinin böylə filosofanə bir rizada bulunması, məbuslardan bəzinin ötəri tənqidatına məruz qalmışsa da, ən şiddətli taziyanəni [qamçını] İstanbul qadınlarından yemişdir.

Oxucular yəqin hiss edirlər ki, Kadıköy xanımlarının qəzetələr vasitəsilə nəşr eyləmiş olduqları protestonamədən bəhs ediriz. Qəzetəni diqqətlə oxuyanların ömürləri uzunu unutmayacaqları lazım gələn bu fəqərəni [hadisəni], hər ehtimala qarşı, bir daha buraya nəql ediriz. Bəlkə oxumamış olanlar vardır.

İstanbul Kadıköy xanımları məzkur [deyilən] protestolarında deyirlər ki:

“Tarixi-cahana [dünya tarixinə] Çanaqqala müdafiəsi kimi bir şahəsər ehda [hədiyyə] edən qəhrəmanların ana, zövcə, həmşirə və qızları olan bizlər, Çanaq-

qalanın müqəddəs torpaqları altında yatan şəhidlərimizin ruhi-müəzzəzləri [əziz ruhları] qarşısında türk qadınlığına və aləmi-mədəniyyətə xitab ediriz: Limanımızda görülən ahənin [dəmir] qalaları məğlub edən və qaraya çıxarılan yarım milyon əsgərini dənizə tökən millətimizi məğlub ədd [hesab] etməyiriz. Dün Məclisi-Məbusan kürsüsündən hökumət naminə söz söyləyən Maarif nazirinin "məğlubuz, istədiklərini yaparlar" sözlərini şiddətlə protesto ediriz. Peçələrimizi [niqablarımız] yırtan və sonra hürriyyəticahan [dünyanın azadlığı] naminə deyə hərb etdiklərini elan edənlərə təəssüf ediriz. Hüquqi-milliyyə və ismətimizi mühafizə edəcək hökumət və erkək yoxsa, biz varız."

Kadıköy türk xanımlarının bu protestonaməsi müşkül zamanlarda gücü ancaq dilinə çatanların qüvvət və əhəmiyyətdən ari [uzaq] sözü kimi görüləmməz.

Bu sətirlərdə böyük bir qüvvət, bir iman qüvvəti görülür. Çanaqqala müdafiəsi kimi "şahəsər"in istişhadı [şahidliyi] ilə qəhrəman millətlərini məğlub ədd [hesab] etməyən analar, zövcələr və bacıların yerdən göyə qədər haqları vardır.

Çanaqqala əsrimizin ağılları heyran buraxan möcüznüma [möcüzəli] sənəti, texnikası, böyük mənzilli topları, bilməm hangi cəhənnəmasa [cəhənnəmi andıran] ixtiraları vasitəsilə müdafiə edilməmişdi. Burası vətənini xilas etmək, hürriyyətini saxlamaq, paytaxtını qorumaq niyyətilə canını verən qəhrəman bir millətin köksü ilə, ölümü istehqarı [ölümə meydan oxuması, ölümü saymaması] ilə müdafiə edilmişdir. Bu müdafiə yüz minlərlə nüfusa mal olmuş [yüz minlərlə insan bahasına başa gəlmiş], Türkiyə əməlpərvər [idealist] gəncliyi, türk millətinin çiçəkləri burada tələf olmuş, canını cananına vermişdir.

Müharibənin mənfur, nəngin [bədnam] səhifələri arasında öylə şanlı parçaları vardır ki, qarşısında təzim üçün əyilməlidir.

Məsələn, kiçik Belçikanın o ölür, fəqət dönmək bilməz əzmi, Serbiyanın hər növ məhrumiyyətlərə, məhviyyətlərə qarşı ta dəmi-vapəsinə [son ana] qədər duruşu Hərbi-ümuminin təqdirlərlə yad edəcək hadisələrdəndir.

Çanaqqala hadiseyi-kübrası [böyük hadisəsi] dəxi tarixin sitayişlərlə yad edəcəyi şanlı bir cilveyi-hərb [müharibənin şanlı bir təzahürü], şahkar [şahəsər; nadir] bir müdafiədir.

Çanaqqaladakı türklük Verdendəki fransızlıq kimi yalnız maddətən deyil, mənən də qalib idi. Türklər Çanaqqala müdafiəsini təfaxürlərlə [iftixarla] yad edərkən "Bu müdafiə ilə biz yalnız İstanbulu deyil, İstanbuldan daha qiymətdar bir şeyi qazandıq" - deyə tərif edirdilər. O şey nədir?

Etimadi-nəfs!

Çanaqqala müdafiəsində müzəffər çıxan türklər, bir az əvvəl Balkan müharibəsində itirdikləri etimadi-nəfslərini qazanmışdılar. Yaşaya biləcəyiz - deyə inanmışdılar.

Etimadi-nəfsin türkcəsi "özünə güvənmək"dir.

Özünə güvənən türk, Çanaqqala müdafiəsində yalnız maddətən deyil, mənən də qalib idi. Bunu artıq nə məndən, nə də İstanbul qəzetələrindən deyil, türklərin böyük dostu, fransız ədibi-

möhtərəmi Pyer Loti həzrətlərindən öyrənəlim.

Fəqət Pyer Lotinin mütarikədən sonra Türkiyə haqqında yazmış olduğu bir məqaləsinin mövzumuza aid olan bəzi parçalarını buraya nəql etməkdən əvvəl, bu böyük mühərririn [yazıçının] kəndisi haqqında bir qaç sətir yazmadan keçəmməyəcəyəm.

Türkiyə müharibəyə girər-girməz, Pyer Lotinin türklərdən üz çevirdiyini, bir bəhriyyə [dənizçi] zabiti sifətilə İstanbula qarşı müharib [hərbçi] olaraq getdiyini və türk dostluğundan hüzuri-nasda [xalqın qarşısında] tövbə eylədiyini rusca qəzetələr nəşr eyləmişlərdi.

Şərq aşiqi səmimi bir Qərb mühərririnin nə olduğunu təsəvvür edəmməyən adamlar bittəb’ [təbii olaraq] bu xəbərə inanmışlardı. Bilxassə ki, müharibənin ilk günlərində vətən qeyrəti və millət təəssübünün məntiqinə uyan hər bir xəbərə inanmamaq əldə deyildi. Dünya “internasionalı” uçduqdan, sosialistlərin belə qarşı-qarşıya gəlib də vətən və millət naminə biri-birinə qılınc çəkdikdən sonra bir fransız ədibinin təğyiri-məslək etməsində [əqidəsini dəyişdirməsində] nə bə’s [qüsur; zərər] ola bilərdi?

Fəqət həqiqət böylə deyilmiş. Pyer Lotinin türklərə qarşı olan məhəbbətini “müəzzəz [əziz] və şimdi hər zamandan ziyadə şayani-pərəstiş [pərəstiə layiq]” Fransası ilə Türkiyə arasındakı hali-hərb belə dəyişməmiş, dəyişəmməmişdir.

Pyer Lotinin türklər haqqındakı bu məqaləsini ayrıca dərc edəcəyiz. Burada isə Çanaqqalada türklərin mənən dəxi qələbə çaldıqlarını isbat edən bir yerini nəql ediriz.

Fransa mühərriri:

“Deyirəm ki və bütün müddəti-həyatımda [həyatım boyu] dedim ki, türklər Şərqin ən namuskar, ən salim [sağlam] ünsürünü, bilxassə ən səbur [səbirli] və ən mütəhəmmil [dözümlü] olanını təşkil edirlər” - deyir və əlavə edir ki: “Bu iddia həqiqətə naməhrəm olanları diksindirə bilər, inanmaq istəməzlər.”

Fəqət bu kimilərin ən inadçı olanlarını belə iqna [qane] etmək üçün müharibəyə gedərkən, kəndisini türklər haqqındakı fikirlərindən dolayı “təhlükəli bir xəyalçı” təsəvvür edən bir çox general, zabit və nəfər [əsgər] dostlarından aldığı bir kitablıq minlərcə məktubdan bir parasını nəşr edir. Əzcümlə [o cümlədən] kəndisinə oradan (Çanaqqaladan) yazırlar ki: “Ox, bunları, bu nəcib və qəhrəman adamları siz nə qədər eyi tanıyırmışsınız. Bu adamları ki, əsirlərə, məcruhlara [yaralılara] qarşı o qədər müşfiqdirlər və onları birər qardaşa baxırlarmış kimi tədavi [müalicə] edirlər. Bizə etimad ediniz, vətənə dönüncə sizin hissiyyat və etiqadatınıza biz də bizimkilərini komalarla əlavə edəcəyiz!”.

* * *

Kadıköy xanımlarının filosof Rza Tofiq bəy əfəndiyə eyi bir fəlsəfeyi-siyasət dərsi verdiklərində nə dərəcədə haqlı olub-olmadıqlarını daha aydın bir surətdə həll edə bilmək üçün Türkiyənin nə üçün hərb eylədiyini bilməlidir.

Həqiqətən Türkiyə nə üçün hərb edirdi? Üzərinə mütaliə [fikir] yürütdüyümüz mövzu ilə bu sualın böyük bir

əlaqəsi vardır. Çünki Türkiyənin hərbdən gözlədiyi məqsədi hasil olmuşsa qalib, olmamışsa məğlubdur.

Hərbi-ümumini doğuran amillərdən ən müəssir [təsirli] olanı məşhur Şərq məsələsidir. Bu məsələdən dolayı qarşı-qarşıya gələn iki müharib [savaşan] zümrə arasında Türkiyə bitərəf qala bilməyəcəkdi. Bir tərəfə qoşulmalıydı. Türkiyə Almaniya zümrəsinə qoşuldu. Fəqət bununla o, Fransa ilə İngiltərəyə deyil, Rusiya çarlığına elani-hərb etdi. Rusiya İstanbulu istəyirdi. Rusiya Türkiyəyə qəsd etmişdi.

Pyer Loti "Türklər bizə degil, ruslara elani-hərb etdilər" - deyir və "Onların yerində kim başqa tərzdə hərəkət edə bilərdi?" - deyə kəndilərinə haqq verir.

Türklərin bu müharibədəki məqsədləri rusların qalib gəlməməsi idi.

"Xəstə adam", malına göz dikmiş və bunun üçün canına qıymış "sağlam" qonşusu ilə son dəfə olaraq pəncələşməyə qərar vermişdi.

Türkiyə, əsrimizdə icra olunan müharibə nöqteyi-nəzərindən müvəffəqiyyətlə çəkişməyə müsaid bir məmləkət deyil ikən, daha Trablusqərb, Balkan hərbləri, Yəmən, Havran, Arnavud ixtilalları ilə siyasi inqilablar keçirmiş, yorğun və bitab düşmüş ikən hərbə girdi.

Bu qələbə deyilmi ki, tam mənası ilə sağlam və 15 milyonluqla əsgər çıxarmış Rusiya kimi əzim [böyük] bir dövlətin davam gətirəmmədiyi bu badireyi-üzmada [böyük müsibətdə] xəstə təsəvvür olunan Türkiyə daha ziyadə qabiliyyəti-həyat [həyatda qalmaq bacarığı] göstərdi?...

Türkiyənin bu nöqteyi-nəzərdən məqsədi hasil oldu. Canına qıymış, İstanbula göz dikmiş Rusiya bu gün yoxdur. Demokratizm və sosializm fikirləri ilə pürcuş [cuşa gəlmiş] bir qazan kimi qaynar bir qitə üzərində bir çox hökumətlər, istiqlallarını təminə çalışan xırda millətlər vardır. Əsl rus milləti isə Sazonov-Milyukov məsləkini təqiblə Ayasofiyanın başına xaç taxmaq qəsdində deyil, kəndisinə təhəmmül olunar [qatlaşmaq mümkün olan] bir insan həyatı təmin eyləməklə məşğuldur.

Bu, Türkiyənin qələbəsidir. Məclisi-Məbusan rəisi Xəlil bəy bu qələbəyə aləmşümul bir məna vermişdi. O, Çanaqqala müdafiə edilməsə, bu günün hakimi Vilson deyil, İkinci Nikolay olacaqdı - deyir. Bəlkə bir dərəcəyə qədər də haqq söyləyir.

Tələt paşa kabinəsinin ən böyük xətası hərbə girməsində deyil, hərbdən çıxmamasındadır. Türkiyəni təhdid edən bir Rusiya ortadan çıxdıqdan sonra, türklər üçün artıq heç bir məqsədi-hərb qalmamışdı.

Məğlub olan Türkiyə Brest-Litovskdan sonrakı Türkiyədir.

* * *

Ərəbistanın istiqlalını, Ermənistanın muxtariyyət alacağını, Suriyanın ayrıldığını, xülasə Osmanlı imperatorluğunun parçalandığını, Türkiyənin olsa-olsa türklərlə məskun Anadoluya inhisar edəcəyi [sığacağı; həbs olacağı] mühəqqəq [qəti] olduğunu nəzərə alaraq, nasıl olur da Türkiyə qalib olur, deyə heyrət edə bilərlər.

Osmanlı Məclisi-Məbusanında Rza

Tofiqin mövzuyi-bəhsimiz olan nitqi irad olunan [söylənən] iclasda məbuslardan birisi “Bu millət ölməz, çünki islamiyyətə istinad edir və müsəlmanlıq və osmanlılıq layəmutdur [ölümsüzdür]” - demişdir.

Fəqət mən cəsarət edib demək istəyirəm ki, bu müharibədə məğlub olan bir şey varsa, o da müsəlmanlıq və osmanlılıqdır.

Türklər elani-cihad etdilər, bütün müsəlmanları kəndiləri ilə bərabər hərb etməyə çağırdılar. Fəqət fitvayi-cihad, [cihad fitvası] ərəb üsyanı ilə Hicaz, Suriya və İraq istiqlallarından başqa bir nəticə vermədi.

Osmanlılıq fikri dəxi iflas etdi. Türklər kəndilərindən başqa kəndilərinə sadiq bir ünsür bulammadılar. Hər millət kəndi kökü üzərində bitmək istədi. Bununla mübarizə edərkən, türklər erməni müqatilatı [toqquşmaları] kimi maddi və mənəvi böyük zərərlərə, həqiqi məğlubiyyətlərə uğradılar.

Rus imperializmi kimi türk mərkəziyyətçiliyi də aləmşümul müharibənin təzyiqinə dayanammadı. Avstriya xəlitəsi kimi Osmanlı xəşili də qaynayıb qarışmadı.

Süleyman Qanuni zamanındakı “müsəlmanlıq iksiri” iqtizayi-zamana [zamanın ehtiyaclarına] pək yabançı bir tədbir olaraq “milliyyət kimyası” qarşısında kargər olammadı [işə yaramadı].

Osmanlı imperatorluğu ilə müsəlman xəlifəliyi məğlub oldu.

Bu məna ilə filosof Rza Tofiq bəyin bütün mənası ilə “məğlub olduq” deməyə haqqı vardır.

Fəqət bununla bərabər, Türkiyədə əməlpərvər [idealist] bir gənclik var. Bu gənclik xalqa doğru getmək yolu ilə azim [əzimli], demokrat və milliyyətpərvər bir qafilədir. Əməlpərvərlər qafiləsi! Bu qafilə Anadolunun dərdlərini çəkir, türkün qəlbi [həqiqi, ürəkdən gələn] ehtiyaclarını dərk edir. Çanaqqala xariqələrini göstərən bir millətin müasir bir həyati-milliyyə yoluna düşdükdən sonra qabil deyil, dünya üzündən silinməyəcəyinə, kəndi hürriyyətilə, düha və ürfanı ilə xarab olmuş mədəniyyət dünyasının təmir ediləcək bağında rəngin və rəna [gözəl] bir bağça yapacağına əmindir.

Bu əmniyyəti, bu imanı ilə o çalışır. Əvvəla kəndisinə, sonra da dünya demokratiyasının əzminə, məzlum bəşəriyyətin adil vicdanına inanır. “Cəmiyyəti-əqvam” [Millətlər Cəmiyyəti] daxilində türk millətinin də möhtərəm və azad bir mövqe tutacağı üçün çalışır, çırpışır. Bu səylər məşkur [təşəkkürə layiq] olmaya bilməz. Bu ümidlər əlbəttə ölməz.

Bu nöqteyi-nəzərdən Kadıköy xanımlarının “Millətimiz məğlub deyildir!” - deyə bağırmaya haqları vardır.

Türkiyə məğlub deyildir!

M. Ə. Rəsulzadə

KNYAZ TUMANOV İLƏ MÜSAHİBƏ

Erməni intiriqaları əleyhinə yazmaqda olduğu ciddi məqalələri ilə məşhur olan gürcü mütəfəkkirlərindən, "Qruziya" qəzetəsinin mühərriri knyaz Tumanov cənabları ilə bir para məsələlər haqqında müsahibədə bulunduq. Knyaz

cənabları bir neçə gündür ki, Tiflisdən şəhərimizə varid olubdur [gəlibdir].

Əvvəl-əvvəl bizi maraqlandıran erməni-gürcü müharibəsi oldu. Knyaz cənablarının bu xüsusdaki ifadatından [ifadələrindən] böylə məlum oldu ki, davanın əvvəllərində ermənilər gürcülərə böyük güc gəlibdirlər və bir çox tələfat veribdirlər. Gürcülər müharibəyə hazır deyilmişlər. Bu işdə əhali hökumət ricalını [adamlarını] müqəssir görür, çünki hökumət ricalı hər dəfə camaatı inandırırmış ki, ermənilər tərəfindən qardaş qardaşı qırmaq kimi təşəbbüs baş verə bilməz. Lakin görünür hökumət əhli erməni başçılarının intriqalarından qafil imiş. Bizim hökumətin qəflәti müqabilində erməni hökuməti, hökumət olaraq səfərbərlik elan edib qoşunlarını davaya hazırlayırmış. O idi ki, müharibə ibtidasında [əvvəlində] qəflətən üzərimizə tökülüb bizi bərk sıxdılar. Hökumətimizin əcalətən [təcili] sövq etdiyi əsgəri isə, cavan və təcrübəsiz olduğundan davam gətirə bilməyirdi. O idi ki, camaat özü tez imdada yetişib dava görmüş, müharibə etmiş könüllülərimizi yığıb dəstə-dəstə meydana, müharibəyə göndərməklə bizi erməni hücumundan qurtardı. Könüllülərimiz, əsgərlərimizlə bərabər ermәniləri böyük bir qəhrəmanlıqla bizim yerlərimizdən çıxardıb öz sərhədlərinədək qovdular və qovduqdan sonra erməni qoşununu çevirmə üsuli ilə əhatə edib tamam və kamal ya qırıb və ya əsir edəcəklərdi ki, bu halda sülh teleqramı yetişib, qoşunumuzu dayandırmağa məcbur etdi. Lakin qoşun sülhə razı deyildi.

Sülh işini araya salan Müttəfiqlər nümayəndələri oldu. Əsnayi-müzakirədə [müzakirə əsnasında] sülh şəraiti [şərtləri] danışılarkən erməni vəkillərinin sözündən bu çıxdı ki, ermənilər qoşunlarını hələ tərxis etmək istəməyirlər və əlavə genə də səfərbərlik xəyalındadırlar. Bunların bu cürə sözləri gürcü vəkillərini həyəcanlandırıb etirazlarına səbəb olmuşdur. Öylə olsa biz də səfərbərlik halında qalacayıq, deyə müqabilə etmişdir. Lakin ermənilər, bu növ tədbirlərinin səbəbi gürcülərdən ehtiyat etmək olmayıb da, başqa bir yerdən qorxu var deyə izahat vermişdirlər. Bunun üzərinə ingilis nümayəndəsi mütəğəyyir olaraq [əsəbləşərək] ermənilərin bu ifadatını [sözlərini] "biməzmun" [məzmunsuz, mənasız] deyə adlandırmaqla ermәniləri utandırmışdır.

Zaqatala haqqındakı bizimlə Gürcüstan arasında olan balaca mübahisə haqqında knyaz Tumanov cənabları bu rəyədir ki, bu cürə məsələlər heç vaxt Gürcüstanla Azərbaycan arasında təzad törədə bilməz. Gürcüstan Hökumətinin Zaqatalanın hamısını mənimsəmək fikri yoxdur. Mübahisə Zaqatalanın cüzi bir hissəsi üstündə ola bilər ki, o da müzakirə və müsalihə [barışıq] ilə həll olunub gedər. Gürcülərin "tarixi" dəlillərindən və azərbaycanlıların "etnoqrafi" sübutlarından daha gözəli əhalinin öz meyil və xahişidir ki, məsələ həllində bunu nəzərə almalıdır. Knyaz əmindir ki, Gürcüstanla Azərbaycan arasında hər nə mübahisəli məsələlər varsa, hər iki tərəfin rizalığı ilə həll olunub, heç bir vaxt xüsumətə [düşmənçiliyə] məhəl [yer] qalmaz.

Ayn

BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ

VIII

Hərgah təzə razvedka [kəşfiyyat] xəritələrinə baxılarsa, bir çoxunun köhnə əl quyuçularının yerlərində bərqərar olması zahir olar. Bu aşağıdakı razvedka qitələrinə [sahələrinə] diqqət olunarsa, hər birində köhnə quyuçular tərəfindən nə qədər neftli quyu əllərindən alınmış olduğu məlum olar:

1) Şubanıda 26 nömrəli Səfərəliyev xüttəsi [ərazisi] - 266 quyu;

2) Şubanıda 25 nömrəli Məlikov xüttəsi - 154 quyu;

3) Şubanıda 18 nömrəli Fayvişeviç xüttəsi - 472 quyu;

4) Xırdalanda ? nömrəli Qolubov xüttəsi - 912 quyu;

5) Şorda 17 nömrəli Şahnəzərov xüttəsi - 234 quyu.

Cümlətan - 2038 quyu.

Fərz edəlim ki, bu quyuların hər birindən gündə beş put neft hasil olarsa, hamısından yövmiyyə [günlük] 10190 put və ildə də 3668400 put eyləyir.

Qanuna görə, bu məhsulatın hamısı bələdçilərin (razvedkaçıların) mənfəətinə qalır. Hərgah bu məhsulatdan xəzinə 12 % cizyə [vergi] (долевое отчисление) tələb etsəydi, putu bir manat qiyməti ilə üç ilin müddətində xəzinəyə 1300000 manatdan artıq varidat daxil olardı...

Bir bu qədər mədaxildən xəzinə boyun qaçırır. Minlərcə quyu sahibləri qovulub yerləri və neftli quyuları əllərindən alınır və qoyduqları pullar, çəkdikləri zəhmət də hədər gedir. Bələdçi cənab isə kamali-istirahətlə özgə pulu və əli ilə qazılmış quyulardan müftə neftləri çəkib böyük pullar qazanır, yaxud qəsb etdiyi quyuları özgəsinə kirayəyə verir. Söz yox ki, bu qədər müftə qazanclarla bələdçi çox asan vəchlə 200 sajınlıq buruğu qazıb beş desyatinə də havadan malik olur. Buna deyərlər: “Nə yoğurdu, nə yapdı, hazırca kökə tapdı.”

İştə, “razvedka” qanunu ki, hamı qurbanlar bunun üçün kəsilmişdir.

Neft yerlərini böyük qiymətə mindirmək üçün, yəni buralardan xəzinəyə güclü mədaxillər qazandırmaq üçün, “razvedka” üsulu gözəl bir üsuldur. Amma bir şərtlə ki, əl quyuçularının hazır quyuları, mədənləri, qışlaları (казармы) və sair mayehtacı [alətləri, vasitələri] əllərindən alınmasın. Bu bələdçilik gərək o yerlərdə olsun ki, orada hələ bu çağadək külünk səsi eşidilməmişdir.

Hərgah əl quyuları mövcud olan yerləri də “razvedka”ya vermək lüzumiyyəti görünərsə, nə eybi var, buralar da verilsin; lakin kimə verilsin? Əlbəttə, kə-nardan gələn cibi yoğun firmaçılara yox, quyu sahiblərinin mütləq özlərinə verməlidir. Zira bunların həm maddi və həm də mənəvi ixtiyarları vardır. Bunu heç sahibi-əql [ağlı olan] inkar edə bilməz.

Məntiq də, insaf və mürüvvət də bunu tələb eyləyir ki, quyulu yerlərin “razvedka”sı quyu sahiblərinə verilsin və bu məramı əncama gətirmək üçün, təşəbbüs etmək lazımdır ki, quyuçular birləşib öz aralarında ticarət cəmiyyətləri və şirkətlər yapsınlar. Bu da çətin bir iş deyil. Lakin bunlara dəlil və rəhbər lazımdır ki, hökumət tərəfindən gərək

olsun.

Tutalım ki, hökumət tərəfindən bu quyuçulara bir rəhbər yaxud xüsusi bir müsaidə də verildi. Bununla iş tamam olmayır. Quyuçuların özləri də səy və kuşiş gərək etsinlər [çalışsınlar], həmiyyət və qeyrət göstərsinlər.

Beş min nəfər quyu sahibləri birləşib bir "ittifaq" yapsalar, hangi məqsədlərinə nail olammazlar? Bugün öylə bir ittifaqın ortalığa gəlməsinə böyük bir ehtiyac vardır ki, onun vasitəsilə quyuçular həm maddi və həm də mənəvi işlərini sazlaşdıra bilərlər. Ələlxüsus, bu ittifaqın ətraflıca bir məramnaməsi gərək olsun ki, üzvlərinə quyuçuluğa dair maddiyyat yardımı ilə bərabər, məişətdə ehtiyacı bulunan zəxirə [ərzaq], libas və sair mayehtac ilə də kömək olunsun. Anbarlar gərək açılsın ki, oradan quyuçulara şalman, taxta, dövreyi-məftul [məftil təkəri], vedrə və sairləri quyuçulara ucuz qiymətlə tamam olsun. Banklar gərək açılsın ki, buradan az faizlə quyuçular ehtiyacına pullar götürülsün.

İttifaqın özünə məxsus gərək klubu olsun ki, oraya faydalı vaxt keçirmək üçün quyuçular cəmləşsinlər, təqazayi-zəmanəni andıran [dövrün ehtiyaclarını başa salan] elmi və fənni [texniki] müsahibə və xitabələr dinləsinlər. Daha nələr mümkün deyil?

Xülasə, yeni icad olası "ittifaq" müruri-dühurla [vaxt keçdikcə] fəaliyyətini artırıb, axırda öylə bir güclü və sərbəst təşəbbüsat əmələ gətirər ki, vaxtilə məramını, sözünü "Sovet Syezd" kimi hökumət kişilərinə dinlətdirər. Bu gün neft mənqulələri [kəmərləri] böyük firmaların əllərində olduğu üçün quyuçular neftlərini bu firmalara aşağı qiymətlə satmağa məcburdurlar. Yəni mal sahibi olaraq birjada mətalarını satmağa qadir deyillər. Bunların ittifaqı əmələ gələrsə, özləri mənqulələr yapıb, firmaların da çəngalından [caynağından] qurtararlar. Daha bu fəqərədən [hadisədən] sonra quyuçular böyük sərmayədarlardan qorxmayıb asudə yaşamağa başlarlar və gündən günə işləri böyüdüb axırda böyük sərmayədarlarla qabaq-qarşı duraraq rəqabət barına [yükünə] mütəhəmmil ola [dözə, güc yetirə] bilərlər.

Beş min nəfər üzv hər biri 100 rublə verməklə 500 min manatlıq bir sərmayəyə malik olarlar ki, həman sərmayə ilə birinci ildən başlayaraq bir çox ehtiyaclarını rəf edə [aradan qaldıra] biləcəklər.

Eşitdiyimizə görə, böylə bir ittifaqın məramnaməsi təsdiq olunmuşdur. Olsun ki, bu aydan işə şüru olunsun [başlansın]. İştə neçə ildən bəri avara qalmış quyuçular varsınlar da qeyrət və şücaətlərini göstərsinlər.

Sözü nəticələndirəlim. Sabiq hökumət əli ilə təsdiq olunmuş qanunlar gərək fəsx [ləğv] olunsun.

1) Quyular əl ilə qazılsın, lakin həştad sajınlıq dərinliyə çatdıqdan sonra motor və buruq ilə də qazılmağa izin verilsin.

2) Razvedka və bələdçilik işləri həman yerlərdə quyuçuluqla məşğul olan quyu sahiblərinə tapşırılsın.

3) Müqavilənamələr bir ilə olmayıb əqəllən [ən az] səkkiz ilə bağlanılsın.

4) Xəzinənin mədaxili cizyə (долевое отчисление) üsulu ilə alınsın və ondan ötrü hər quyuçunun rəsmi örtülmüş və möhürlənmiş qazanları gərək olsun. Vəssalam.

İşbu məqaləmizə lazım məlumatı bu aşağıdakı mənbələrdən kəsb etmişəm [əldə etmişəm]:

1) “Иностранные капиталы въ русской нефтяной промышленности” – Зевъ. [Ziv, “Rus neft sənayesində xarici sərmayələr”.]

2) “Добыча нефти” – Глушкова. [Qluşkov, “Neft hasilatı”.]

3) “25 лѣтие Т-ва Бр. Нобель.” [“Nobel Qardaşları Şirkətinin 25 illiyi”.]

4) “Современное положеніе нефтяной промышленности въ связи с кустарной добычею нефти” – Деминскаго. [Deminski, “Kustar üsulla neft hasilatıyla əlaqədar olaraq, neft sənayesinin müasir vəziyyəti.”]

5) “О кустарной добычѣ нефти и способахъ ея урегулированія” – А. Н. Гаговы и др. [Qaqov və başqaları, “Kustar üsulla neft hasilati və onun tənzimlənməsi haqqında”.]

Fərhad Ağazadə

TELEQRAF XƏBƏRLƏRİ

İspaniyanın arzuları

Paris - Srağagün İspaniyanın Baş vəziri knyaz Romanones Xariciyyə Vəzarətinə [Xarici İşlər Nazirliyinə] ziyafətə dəvət edilmişdir. Baş vəzir demiş: İspaniya dəxi Sülh Konfransında iştirak etmək istəyir. Zira, İspaniya Bəhri-səfidin [Aralıq dənizinin] gələcəyindən maraqlandığı kimi, Fransa ilə İspaniya rizası ilə Mərakeş məsələsinin həll edilməsini də arzu edir.

Almaniyada

Berlində Şuralar Konqresi bu qərara gəlmişdir:

1) Bütün əks-inqilabçılar tərk-silah edilsinlər.

2) Bütün bəylik imtiyazatı [imtiyazları] ləğv edilsin.

Bu iki qətnamələr andırır ki, bolşevik nüfuzu Almaniyada güclüdür. Bunlara baxmayaraq, zənn edirlər ki, Şeydeman sosialistləri Məclisi-Müəssisan dəvəti məsələsini gözəlcəsinə keçirəcəkdirlər.

Kopenhagen - Berlindən xəbər verilir. Ebert və Daxiliyyə vəziri doktor Preysin prezidentliyə namizədliyi qoyulmuşdur. Əsgərlər tezliklə intixabları [seçkiləri] qurtarmaq fikrindədirlər, tainki Almaniya tərəfindən hökumət başçısı Sülh Konfransında iştirak edə bilsin.

Nemeslər və hindlilər

Sinqapurdan “Tayms” qəzetəsinə böylə bir teleqram çəkilmişdir: Burada ingilis təbəəsi olan hindlilərin böyük mitinqləri vaqe olmuş [baş tutmuş]. Onlar qərar qoymuşlar hökumətdən tələb edilsin ki, 10 il müddətlə heç bir alman təbəəsinə Hindistanla ticarət etməyə müsaidə verilməsin.

“Havas” ajansı xəbər verir

Senatın məlumatına görə, Almaniya təxribatından Şimali Fransaya 75 milyard zərər dəymişdir.

İngiltərədə tətilin tərki

İplik malı fabrikaçıları ilə əmələlər [işçilər] arasında olan müttəhid [birgə] iclasda tətili tərk etməyə qərar verilmişdir. Binaənileyh [ona görə], bu gün bütün fabrikalarda əmələlər işə başlamışlardır.

SÜLH ƏTRAFINDA

Sülh Konqresi

Londondan Parisə verilən xəbərlərə görə, ümumi sülh əqd edilənə [bağlanana] qədər üç konqre vaqe olacaqdır. Birinci konqre Versalda açılıb, dekabrın axırında qurtaracaqdır. İkincisi Müttəfiqlərin sülh konfransıdır ki, mart və ya aprel aylarının axırlarında başlanacaqdır. Bundan sonra da Müttəfiq və düşmən dövlətlərin axırıncı konqresi olacaqdır.

Amerika donanmasının övdəti [qayıdışı]

Londondan verilən xəbərlərə görə, Amerika donanması Amerikaya qayıtmaqdan ötrü İngiltərə sularından çıxmışdır. Bu axırıncı 12 ay müddətində Amerika donanması İngiltərə donanmasına ciddi müavinətdə [yardımda] bulunmuşdur.

Türkiyə mətbuatı Vilson haqqında

"İqdam" qəzetəsi Vilsonun Avropaya gəlməsi haqqında yazır ki:

"Biz Sülh Konfransının ərəfəsindəyiz. Millətlərin müqəddəratı həll edilən böylə bir tarixi və mühüm zamanda biz öz mənafeyimizin keşiyində olmalıyız. Şübhəsiz ki, Vilson Sülh Konfransı rəisi olub, onun 14 maddəsi hamı millətlərə şamil olacaqdır. Əks surətdə Amerika bu müharibədə olmayan bir məğlubiyyətə düçar və Vilson da ancaq böyük bir xülyapərəst hesab edilər. Burasını da nəzərdə tutmalıdır ki, Vilson müharibəyə başladıqda, əvvəlcədən öz 14 maddəsinin Müttəfiqlər tərəfindən qəbul olunmasını şərt qoymuş idi. Vilsonun maddələrinin birində deyilir ki, türklərlə məskun olan yerlər türklər əlində qalmalıdır. Fəqət buna baxmayaraq, ermənilər və yunanlar öz mətbuatlarında Türkiyə torpağının bir para yerlərini, o cümlədən Aydını yunanlar və Adananı ermənilər özlərinin olduğunu isbat etməyə çalışırlar. Hətta bu yerlərin tarixi-qədimi üzrə onlara mütəəlliq [aid] olmasını belə söyləyirlər. Bu nöqteyi-nəzərlə yer üzündə bir elə millət tapılmaz ki, əvvəlcədən qeyri bir millətə mütəəlliq olan torpağı zəbt etməmiş olsun. Ümidvar olmalıdır ki, Sülh Konfransı bu yaxın vaxtda mübahisəli torpaqlar məsələsini ədalətli bir surətdə həll edər."

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Daxiliyyə Nəzarətində

Qarabağ dairəsindəki qaçqınlara müavinət [yardım] etmək və onların halını bilmək niyyəti ilə oraya Məclisi-Məbusan üzvləri təhti-idarəsində [başçılığı altında] bir heyəti-məxsus [xüsusi bir heyət] gedir. Buna görə, dünən Daxiliyyə naziri əvəzində olaraq onun müavini general Sadiq bəy Ağabəyov, Gəncə valisi və Şişə-Cavanşir uyezd naçalniklərinə bu məzmunda bir teleqraf çəkmişdir:

"Qarabağ dairəsində yaşayan qaçqınların halını bilib, onlara müavinət etmək üçün Məclisi-Məbusan əzası təhti-idarəsində gedən heyəti-məxsusəyə lazım görülən müzahirət [kömək] göstərmək və onlara lazım gəldikdə qaraqol [keşikçi] verməyi sizə təklif edirəm."

* Dünən Daxiliyyə naziri həzrətləri Gəncə qubernatoru namına bir böylə teleqram göndərmişdir: “Qarabağ fərarilərinin [qaçqınlarının] əhvalını məhəllində [yerində] təhqiq edərək müavinətdə bulunmaq qəsdilə buradan, başda Parlaman əzası olmaq üzrə, xüsusi bir komisyon oraya azim olmuşdur [yola düşmüşdür]. Mən teleqrafən onlara hər halda müavinətdə bulunmağı xəbər vermişəm.”

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Müdafiə Nazirliyi], Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişlər ki, Bakıdan Yevlax mövqifinə [stansiyasına] Qarabağ fərarilərinə paylanmaqdan ötrü 10 min arşın bez göndərilsin.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti, Daxiliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, müfəttişliklər məmurini [məmurları] küçələrdə qalmış evsiz və pərəstarsız [kimsəsiz] çocuqları darüleytama [yetimxanaya] göndərmək barəsində lazımi binagüzarlıqlarda [rəsmi təşəbbüsdə] bulunsun. Bununla bərabər xəbər vermişdir ki, şəhərdə müsri [yoluxucu] yatalaq xəstəliyi hökmfərma olduğu [hökm sürdüyü] üçün, Bakıya qaçqınlar və işsizlərin gəlməsi məmnu [qadağan] edilməlidir.

* Bu gün saat 12-də Ümuri-Xeyriyə və Nafiə naziri kabinəsində sabiq Bakı qradonaçalstvası kəndlilərin füqəra [kasıb] hissələrinə müavinət edəcək xüsusi komisyonun iclası vaqe olacaqdır.

* İşbu günlərdə tacir və Ticarət və Sənaye Nəzarəti acentəsi [agenti] Alley Aleksandroviç, Krım və Ukraynaya azim olacaqdır [yola düşəcəkdir]. Məqsəd Azərbaycan daxilinə gətirmək üçün növbənöv mal almaqdır. Alley Aleksandroviç böyük bir təşkilat nümayəndəsidir ki, həman təşkilatın 200 milyon rubləyədək əsasi kapitalı vardır.

“HACIQABUL VAQEATI” [HADİSƏLƏRİ]

Qriqoryan adında bir erməni Bakıda Erməni Milli Şurasına gəlib bir ərzihal verir ki, keçən il dekabr ayının 24-cü gecəsində Gəncədən Bakıya gələrkən, onu Hacıqabul mövqifində [stansiyasında] tıutub həbs etmişlər. Belə ki, azərbaycanlı bir zabit üç nəfər əsgərlə vaqona daxil olub sormuşlar ki, burada erməni var, ya yoxdur? Bir nəfər Qriqoryanı göstərmiş. Məzkur [deyilən] əsgərlər onu tutub bayıra çıxarmışlar. Qriqoryan bayıra çıxdıqda görür ki, 13 nəfər ermənini dəxi tutub həbs etmişlər. Bunlara bir qədərdən sonra gəlib bəyan etmişlər ki, sabah bunlara getmək icazəsini verəcəklər. Nə isə, saat yarımdan sonra 14 nəfəri aparıb vağzalın yaxınlığında güllələmişlər, amma Qriqoryan qaçıb qurtarmışdır. Qriqoryanın dediyinə görə, dörd zabit əfəndi müqəssirdirlər. Onların ikisi məlumdur. Biri İsfəndiyar əfəndi, biri də Süleyman əfəndi. Və əgər lazım olsa, məzkur Qriqoryan, müqəssirləri tanıyıb göstərə bilər və habelə ölülərin qəbirlərini dəxi göstərə bilər.

Qriqoryanın bu şikayətini Bakıdakı Erməni Milli Şurası tamamilə general Tomsona təqdim edir və mumaileyh [deyilən] general bu işi Azərbaycan Hökumətinə göndərib təhqiqat icrasını rica edir. Bu

xəbər Hökumətə yetişən kimi Daxiliyyə naziri Bakı qubernatoruna əmr verir ki, təcili bir halda bu əhvalatı təhqiq eyləsin. İş aydın və aşkar olmaqdan ötrü Bakı qubernatoru yanvar ayının 5-ində Erməni Milli Şurası tərəfindən vəkil olaraq dava [məhkəmə] vəkili Paronyanı və mərqum [adı çəkilən] Qriqoryanı götürüb Hacıqabul mövqifinə rəvanə olur [yola düşür]. Orada işi təhqiq eylədikdə, nəticəsi məlum olur.

Qubernator Daxiliyyə nazirinə verdiyi ərzihalda deyir ki:

"Mən Hacıqabula gələn kimi bütün orada olan hökumət məmurlarını dəvət eylədim. Buraya bizim gəlməyimiz öylə bir gizli oldu ki, kimsə səbəbini bilməzdi. Səbəbi o idi ki, görüm bu erməni doğru deyir, yainki böhtan eyləyir. Ən əvvəl mən Hacıqabulda olan qoşun komandanı polkovnik Məhəmmədovu dəvət eyləyib bu əhvalatı soruşdum. Komandan bu işə öylə bir halda təəccüb eylədi ki, məbhut [çaşmış] olaraq soruşdu:

– Bu Qriqoryanın ağlı başındadır, yainki divanədir? 13 adamın ölümünü gizləmək olarmı?

Ondan sonra mövqif naçalniki Çiçinadzeni çağırdım, bundan əhvalatı sordum. Cavab verdi ki, əgər böylə iş olmuş olsa, ən əvvəl mən bilərəm. Çünki mənim məmurlarım gecə-gündüz işdədirlər. Bunun cavabı böylə. Halbuki Qriqoryan Erməni Milli Şurasında demişdir ki, mövqif naçalniki bu əhvalatı yaxşı bilir. Ondan sonra bütün Hacıqabulda olan dəmiryol əmələlərindən [işçilərindən] sordum. Hər kəsdən işi sordumsa, deyirdi ki, başdan ayağa yalan və böhtandır. Sonra Qriqoryan Kreyev adında bir məmuru nişan vermişdi ki, o, əhvalatı bilir."

Qubetnator yazır ki:

"Mən Kreyevi çağırıb sordum. Mənim cavabımda dedi ki, dün gecəni növbətçi idim. Nəinki adam öldürmək, hətta güllə səsi də eşitmədim."

Qubernator ərzihalında yazır ki:

"Qriqoryan xəbər vermiş yerə getdik. Bu da mövqifdən beş addım fasilədədir. Oranı gəzdik, bir əsər görünmədi. Ondan sonra buranın yaxınlığında olan daxmalar var, burada müsəlmanlar olurlar. Burada dəxi bir övrəti çağırıb sual eylədim. O dəxi cavab verdi ki, burada adam öldürmək yalandır. Bununla da iktifa [kifayət] etməyib mövqifin yaxınlığında olan yerləri gəzdik. Genə bir əsər görünmədi. Bunu da ərz edirəm ki, bu işi təhqiq edən zaman Cavad uyezd naçalniki Yusifov, xüsusi məmurum Nəcəfbəyov, Erməni Milli Şurası vəkili Paronyan, mərqum Qriqoryan hazır idilər. Ondan sonra bütün Hacıqabulda olan zabitləri Qriqoryana göstərdim. Genə birisini də müqəssir bilmədi və tanıya bilmədi. Tamam günü əsgərlər məşqə gedərkən hamısını Qriqoryana göstərdim ki, bəlkə bir adamı tanısın, amma bir kimsəni göstərə bilmədi. Bununla da iktifa etməyib, dəmiryol xidmətində olan polis nəfərlərini göstərdim. Genə Qriqoryan bir kəsi nişan verə bilmədi. Nəticə olaraq məlum oldu ki, şaki [şikayətçi] Qriqoryan müsəlmanlara böhtan bağlamaqla onları ləkələmək istəyir. Bu dərəcədə rəzalət! Əcəba Qriqoryan kimi müfəttinlərin [fitnəkarların] şikayətinə erməni Şurayi-Millisi necə etibar edir? Rəvadırmı Azərbaycanın təmiz əsgər-

lərinə və zabitlərinə şura böylə bir ləkə vurmaq istəyir? Genə köhnə adətləri tərk etməyib bütün dünyaya çığırmaq istəyirlər ki, müsəlmanlar onlara zülüm edirlər. Halbuki öz vəkillərinin hüzurunda deyil biz müsəlmanlar, ruslar, gürcülər təsdiq eylədirlər ki, böylə bir əhvalat olmamışdır. Baştan-başa yalan, böhtan və iftiradır. Ar olsun vicdanı şəxsiyyətə [şəxsi mənfəətə] verən ərbabi-qərəzlərə [pis niyyətli adamlara]!

Sad.

BAKI XƏBƏRLƏRİ

Biçeraxovun getməsi ətrafında

Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, general Biçeraxovun Baş komandan mənsəbini tərk etməsi xəbəri Bəhri-Xəzər donanmasını və Bakı demokratiyasını təşvişə salmışdır. Biçeraxovun getməsi Müttəfiq komandanlığının xahişi ilə əlaqədar tutulur. General Biçeraxov yaxın zamanlarda Hacı-Tərxan müqabilinə və Tersk üzərinə hücum etmək fikrində imiş. Ona görə də demokratiya onun getməsini qeyri-mümkün ədd [hesab] edir. Bu münasibətlə Sentrokaspinin iclası vaqe olmuşdur. Təfsilatı gələn nömrədə.

Bakıya çəkmə və sair qalanteri malı gətirmək üçün

* Qilsker adlı bir şəxsə Odessadan Bakıya çəkmə, dəri və qalanteri malları gətimək üçün Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir. Məzkur Qilsker aldığı şeyləri Ərzaq Nəzarəti adına göndərəcəkdir.

* Ərzaq Nəzarətinin Gəncə qəzası vəkili teleqafla xəbər verir ki, onun mal dəyişdirmək üçün xaricə gedən adamlarla müqavilənamə bağlamasına Ticarət və Sənaye Nəzarəti mümaniət [maneçilik] edir. Bu barədə Ərzaq Nəzarəti Ticarət və Sənaye nazirinə xəbər verir ki, hərgah bu xüsusda hər iki Vəzarət [Nazirlik] arasında birlik olmasa, ərzaq işləri irəli gedə bilməyəcəkdir.

Bələdiyyə İdarəsində

Bələdiyyə İdarəsi Daxiliyə Nəzarətinə bir ərzihal göndərib xəbər vermişdir ki, Bakı Kazyonnaya Palatası [Xəzinə Palatası] 30 dekabrda verilən qanun mövcibincə [əsasında] 1919-cu sənə üçün veriləcək mədən şəhadətnamələrinin qiymətlərinin üç dəfə artırılmasını bildirmişdir. Bunu Bələdiyyə İdarəsi təcili surətdə qövldən feilə [sözdən işə] gətirməli imiş.

Müvəqqəti hökumət tərəfindən verilmiş qanunun 64-cü maddəsinə görə, bələdiyyə vergisi mədən şəhadətnamələrindən alınır. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsinin qətnaməsinə məbni [əsasən] şəhər nəfinə [xeyrinə] alınacaq vergi yeni qiymətlərdən hesab olmaq üzrə 10-15 faiz qədər alınacaqdır.

Bunu məlum etdikdən sonra Bələdiyyə İdarəsi rica edir ki, yeni vergi təyin etdikdə şəhər nəfinə alınacaq vergini Bələdiyyə İdarəsi tərəfindən qəbul olunmuş miqdarda təyin etməlidir. Zira onsuz da rublənin ucuz olması şəhər kassasına təsirbəxş olmuşdur [öz təsirini göstərmişdir].

ƏRZAQ İŞLƏRİ

* Ərzaq naziri Dəmiryollar nazirinə xəbər verir ki, Ərzaq Nəzarəti Gəncə vilayət nümayəndəsinin yazdığına görə, Kürdəmir mövqifində [stansiyasında] tərəzi olmadığından, Şamaxıdan gətirilməkdə olan taxılın miqdarını bilmək xeyli müşkül olmuşdur. Buna binaən [buna görə] həman mövqifdə tərəzi qoyulması xahiş olunur.

* Ərzaq naziri Ticarət və Sənaət [Ticarət və Sənaye] nazirinə yazır ki: Bir çox adamlar Ərzaq Nəzarətinin Gəncə vilayəti nümayəndəsinə müraciət edib, mal dəyişdirmək şərtilə Azərbaycan dairəsindən kənara mal aparmaq üçün icazə verilməsini xahiş edirlər. Gəncə vilayəti nümayəndəsi hər dəfə Ərzaq Nəzarətinə müraciət edib icazə istəyir. Ərzaq Nəzarətindən razılıq verildiyi zaman, lazımı müqavilənamə əqd edilib [bağlanıb], mal aparmaq xahişində olanlara icazə verilir. Hal-hazırda Gəncə vilayəti nümayəndəsi xəbər verir ki, Ticarət və Sənaət Nəzarəti teleqraf göndərib mal dəyişdirmək işlərinə müdaxilə etməmək təklifində bulunmuşdur. Ticarət və Sənaət Nəzarətinin bu teleqrafına görə, Gəncə nümayəndəsi fəaliyyətsiz qalıb bundan böylə nə tövr müamilədə bulunmağı [necə rəftar etməyi] sual etmişdir. Ticarət və Sənaət Nəzarətinin bu teleqrafı göndərməkdə məqsədi nə olduğu Ərzaq Nəzarətinə məlum olmadığından, bunun səbəbini məlum etməyi xahiş edirəm. Bundan əlavə, hökumət mənafeyi Ərzaq Nəzarəti ilə Ticarət və Sənaət Nəzarətinin ərzaq işlərində müttəhid [birgə] işləmələrini iqtiza [tələb] etdiyindən, bundan belə Ərzaq Nəzarətindən bixəbər Ərzaq Nəzarəti nümayəndələrinə binagüzarlıq [sərəncam] verilməməsi dəxi xahiş olunur.

* Ərzaq Nəzarəti Gəncə vilayəti nümayəndəsinə xəbər vermişdir ki, hökumət qərardadına görə, Ticarət və Sənaət Nəzarəti nəzdində xüsusi bir mal dəyişdirmək işlərinə baxan komissiya vücuda gətirilmişdir. Buna görə, bundan böylə mal dəyişdirmək işləri ilə əlaqədar olan məsələlərin Nəzarət vasitəsi ilə məzkur [deyilən] komissiyaya verilməsi lazımdır.

* Şuşa şəhəri əhli Əli Bəhramov Ərzaq nazirinə müraciət edib dörd ay bundan əqdəm [qabaq] aldığı 1000 put arpa və buğdanın Ağdamdan çıxarılıb Bakıya gətirilməsi üçün icazə verilməsini xahiş etmişdir. Ərzaq naziri bu münasibətlə Ağdam pristavına yazır ki: Keçən sənə noyabrın 28-ində Ərzaq Nəzarəti tərəfindən verilən əmrnaməyə görə hər cür ərzaq şeylərinin Bakıya gətirilməsinə icazə verilmişdir. Alınan xəbərlərə görə, sizin rayondan mal çıxarmağa mümaniət [maneçilik] göstərilir. Buna binaən, Ərzaq Nəzarətinin yuxarıdakı əmrinə görə Əli Behbudova aldığı arpa və buğdasını çıxarmağa icazə verilməsini və bundan böylə kimsəyə mümaniət göstərməməyi təklif edirəm.

* Ərzaq Nəzarəti, Hökumət Kontrolu [Müfəttişi] İdarəsinə xəbər vermişdir ki, Dağıstan oblastında ərzaq şeyləri almaq üçün Ərzaq Nəzarəti acentəsinə verilməkdən ötrü yarım milyon və həcz edilmiş çaydan ötrü Vısotski və Kirjebin firmaları müdirinə yarım milyon manat Bakı xəzinəsindən pul buraxılmasını təsdiq etsin.

* Ərzaq Nəzarəti Tağıyev fabrikasına məktub göndərib 15566 və 1720 nömrədə iki tay ağın və 5539, 10038, 10035, 5542, 1016, 9317, 10182, 10165 və 10061 nömrəli 9 tay bezin kimə buraxılmasını xəbər almışdır.

* Gəncə Bələdiyyə İdarəsi üzvü Ter-İsrailyana icazə verilmişdir ki, Bakıdan Gəncəyə iki min arşın bez aparsın.

Mehmanxaneyi-“Məhəmmədiyyə”

Qubernski küçədə “Azərbaycan” mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

Kamali-ehtiramla İbrahimov

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Bakı külli [topdan] alış-veriş cəmiyyəti “Baqqallar İttifaqı”

İdarəsi üzvlərini cümə günü kanunisaninin 17-sində səhər saat 11-də Lalayevin pasajında, ittifaqın idarəsində vaqe olacaq ümumi iclasa dəvət edir. Baxılacaq məsələlər:

1) İllik hesabatın müzakirəsi; 2) Mənafenin təqsimi [gəlirin paylanması]; 3) 1919-cu il smetasının təsdiqi; 4) Məramnamənin təğyiri [dəyişdirilməsi]; 5) İdarə və şura seçkisi; 6) Cari məsələlər.

Qeyd: Saat 11-də iclas qanuna müvafiq olmazsa, ikinci ümumi iclas o gün həman idarədə saat 1-də açılacaqdır.

İdarə müdiri: Həsənov

3647

Elan

Bakı Bələdiyyə İdarəsi ümum ev sahiblərinin yaxud onları əvəz edən icarədar və müdirlərin, böylələri olmasa da ev komitələri sədrlərinin yadına salır ki: mənzil vergisi haqqında məlumat vermək vaxtı yanvarın 7-sində qurtarmışdır. Ona görə təklif olunur ki, üç günədək Bələdiyyə İdarəsi Maliyyə şöbəsinə bu xüsusda məlumat versinlər.

Yanvarın 21-indən etibarən Bələdiyyə İdarəsi vaxtlı-vaxtında məlumat verməyənlərdən 29 sentyabr 1917-də Müvəqqət Hökumət tərəfindən təsdiq və “Müvəqqət Hökumət Əxbarı”nın 176-cı nömrəsində 222-13/26 oktyabr 1917-də dərc edilmiş Bələdiyyə mədaxil qanununun 52-ci maddəsi mövcibincə 100 manat cərimə etməyə başlayacaqdır.

Bələdiyyə rəisi: İlyuşkin
Bölədiyyə üzvü: Pleskaçevski

T-11

1000 rublə mükafat

Mazut aparmaqdan ötrü verilmiş dörd qəbz və Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri tərəfindən neft buraxmaq üçün dəmiryolu müdirinə yazılmış əmrnamə Bazarnı

küçədə düşüb itmişdir. Bunları tapıb "Qafqaz" mehmanxanasında 8 nömrəli odada Məhəmmədtağı Əhmədova verənlərə min rublə mükafat veriləcəkdir.

2649

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Azərbaycan Cümhuriyyətinin Məşixəti-İslamiyyəsi tərəfindən…

səh. 279. "Və əiddü ləhüm məstəta'tüm min-qüvvətin və min-ribatil-xeyli türhibunə bihi əduvvallahi və əduvvəküm…": "Quran"-ın Ənfal surəsinin 60-cı ayəsindən bir hissə. Mənası: "Onlara qarşı bacardağınız qədər qüvvə və bağlanmış atları hazırlayın. Bunlarla Allahın düşmənini və sizin düşmənlərinizi qorxudarsınız."

"Və in cənəhu lissəlmi fəcnəh ləha vətəvəkkəl əla-llahi innəhu hüvə-ssəmiul-alim.": "Quran"ın Ənfal surəsinin 61-ci ayəsi. Mənası: "Əgər onlar sülhə meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən O, eşidəndir, biləndir!"

səh. 280. "İnnəllahə-ştəra min-əl-müminina ənfüsəhum və əmvaləhum bi-ənnə ləhümül-cənnətə...": "Quran"ın Tövbə surəsinin 111-ci ayəsindən bir hissə. Mənası: "Allah, şübhəsiz ki, möminlərdən canlarını və mallarını cənnət müqabilində satın almışdır..."

"Əl-islamu ya'lu və la-ya'lu əleyh": Hədis. Mənası: "İslam (müsəlmanlar) üstündür, heç bir şey ondan üstün ola bilməz."

səh. 282. "İn tənsuru-llahə yənsurküm və yusəbbit əqdaməküm.": "Quran"ın Məhəmməd surəsinin 7-ci ayəsindən bir hissə. Mənası: "Əgər siz Allaha (Allahın dininə) yardım etsəniz, O da sizə yardım edər və sizi sabitqədəm edər."

Türkiyə məğlubmudur?

səh. 282. "İstanbul Kadıköy xanımları məzkur protestolarında deyirlər ki:": Bu müraciət, daha əvvəl "Azərbaycan" qəzetinin 12 yanvar 1919-cu il tarixli 85-ci nömrəsində çap edilmişdi.

səh. 283. “…Verdendəki fransızlıq kimi…”: Birinci Koalisiya müharibəsi əsnasında Verden yaxınlığında Prussiya və Fransa orduları arasında baş verən döyüş və Verdenin mühasirəsi (29 avqust – 2 sentyabr 1792) nəzərdə tutulur. Prussiya ordusu Verdeni ələ keçirməyə müvəqqət olmuş, ancaq 14 oktyabrda fransızlar şəhəri geri almışdı.

səh. 285. “Xəstə adam”: XIX əsrin ortalarından Birinci Dünya müharibəsinə qədər Qərbdə Osmanlı imperiyası barəsində işlədilən ifadə. İlk dəfə Rusiya imperatoru I Nikolay tərəfindən işlədildiyi qəbul edilir.

“…Trablusqərb, Balkan hərbləri, Yəmən, Havran, Arnavud ixtilalları…”: 1911-1912-ci illərdə cərəyan edən İtaliya-Osmanlı müharibəsi, 1912-1913-cü illərdə cərəyan edən Birinci və İkinci Balkan müharibələri, Yəməndə, Suriyanın cənubundakı Havranda və Albaniyada Osmanlı idarəsinə qarşı baş qaldıran üsyanlar nəzərdə tutulur.

“Məclisi-Məbusan rəisi Xəlil bəy”: Xəlil Məntəşə nəzərdə tutulur.

Xəlil bəy (Məntəşə): bax. Məntəşə, Xəlil.

Knyaz Tumanov ilə müsahibə

səh. 287. “Ayn”: bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Bakı neft ticarəti və onun müxtəsərcə tarixi

səh. 288. “Xırdalanda ? nömrəli…”: qəzetdə belə getmişdir.

Teleqraf xəbərləri

səh. 290. “knyaz Romanones”: söhbət 1912-1919-cu illərdə bir neçə dəfə İspaniyanın Baş naziri olan Romanones qrafı Alvaro de Fiqeroa-i-Torresdən gedir; qəzetdə “knyaz Romanos” yazılmışdır.

Sülh ətrafında

səh. 291. “Aydını”: qəzetdə “Adanı” kimi getmişdir.

Nəzarətlərdə

səh. 291. “Dünən Daxiliyyə naziri həzrətləri Gəncə qubernatoru namına…”: o dövrdə Daxili İşlər naziri Xəlil bəy Xasməmmədov, Gəncənin qubernatoru isə İbrahim ağa Vəkilov idi.

Hacıqabul vaqeatı

səh. 293. “Daxiliyyə naziri Bakı qubernatoruna əmr verir ki…”: o dövrdə Daxili İşlər naziri Xəlil bəy Xasməmmədov, Bakı qubernatoru isə Müseyib bəy Axıcanov idi.

Bazar, 19 yanvar 1919-cu il, nömrə 91

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 16 rəbiülaxir sənə 1337. 19 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

8-inci iclas

Cümə axşamı kanuni-saninin [yanvarın] 12-sində Azərbaycan Məclisi-Məbusanının 8-inci iclası təyin edilmişdi.

İclas 12 saat 40 dəqiqədə açılır.

Sədr - doktor Həsən bəy Ağayev; katib - Əhməd Cövdət.

Ruznameyi-müzakirat [müzakirə gündəliyi] elan edildikdən sonra, **[Əliheydər] Qarayev** növbədən xaric səs alaraq Sosialistlərin fraksiyası tərəfindən bəyan edir ki, bir neçə müddətdir ki, Tağıyev fabrikasının bəzi fəhlələri müdiriyyət tərəfindən [işdən] çıxarılmışlardır. Məsai [Əmək] naziri burada bəyan etmişdir ki, məzkur [deyilən] fəhlələrin 7 günədək geri qəbul edilmələri barəsində binagüzarlıq etmişdir [sərəncam vermişdir]. Şimdi 7 gün qurtarmış, amma fəhlələr geri qəbul olunmamışlardır. Topladığımız məlumatdan anlaşılır ki, bu fəhlələr sırf siyasi məsələdən dolayı xaric edilmişlərdir. Böylə işlər fəhlə məsələsində bizə böyük zərbə vura bilər. Biz razı olmarız ki, fəhlə nahaq yerə mütəzərrir olsun [zərər çəksin]. Sizə məlumdur ki, fəhlələrin halı haqqında keçən iclasda Məsai nazirinə xitabən istizah [sorğu] verilmişdi ("Müsavat" tərəfindən). Fəhlə işsiz qalmışdır. Çalışmalıdır ki, tətil olmasın. Əgər tezliklə ciddi tədbirlər görülməsə, biz sosialistlər məsuliyyəti öz öhdəmizdən atırız.

Etibarnamə komisyonu məruzəsi

Bundan sonra Etibarnamə komisyonu sədri **Şəfi bəy Rüstəmbəyli** bəzi məbuslar [Parlament üzvləri] haqqında məlumat verir. Deyir ki:

Məlum olduğu üzrə, Parlamanın keçən iclaslarından birisində məbusların etibarnaməsi məsələsi müzakirə edilərkən, bəzi məbuslara möhlət verilmişdi ki, bir ay zərfində düzgün etibarnamə təqdim etməyə çalışsınlar. Şimdi bir ay bitmiş, fəqət bu xüsusda komisyona məlumat varid olmamışdır [gəlməmişdir]. Ona görə Etibarnamə komisyonu təvəqqe edir ki, bu məbuslara təzədən üç həftə möhlət verilsin. Bundan əlavə, Şuşa qəzasından seçilmiş olan Zeynal bəy Vəzirov ilə Əhməd bəy Ağayevin etibarnamələri düzgün və qanuna müvafiq olduğundan, komisyon bunların təsdiqini təklif edir. Əhməd bəy imtina etmişdir.

Qalır Vəzirov cənabları. Həmçinin Zaqatala nahiyəsindən seçilmiş Bayram Niyazi Kiçikxanov və [Abdulla əfəndi] Qəbulov cənablarının etibarnamələrini təsdiq etməlidir.

Səsə qonularaq Etibarnamə komisyonunun məruzəsi ittifaqi-ara [yekdillik] ilə təsdiq olunur.

Kvorum

Sədr bəyan edir ki, Nizamnamə komisyonu tərəfindən bu vaxtadək kvorum haqqında bir qanun verilməmiş olduğundan, Heyəti-Rüəsa [Rəyasət Heyəti] təklif edir bu gün kvorum təyin olunsun.

Cəmo bəy Hacınski (sosialist) - Məlum olduğu üzrə, Parlaman məbuslarının bir qismi Hökumətə daxil olub, bir qismi də Avropaya getmişdir. Ona görə də Sosialistlər fraksiyonu təklif edir, kvorum hazır məbusların yarısı, yəni 33 təyin olunsun.

M. Ə. Rəsulzadə (“Müsavat”) - yerindən təklif edir ki, Parlamana nə qədər məbus seçilmiş və hazır olduğu göstərilsin.

Sədr - bəyan edir ki, bu vaxtadək 82 məbus seçilmişdir.

Rəsulzadə - təklif edir ki, bu surətdə kvorum seçilmiş əzanın yarısı (yəni 41) qərar qəbul olunur.

Səsə qonulduqda əksəriyyəti-ara ilə ikinci təklif qəbul olunur.

Cəmo bəy - Bu surətdə çünki şimdi kvorum yoxdur, ona görə də iclas davam edəmməz.

(Səs-küy qalxır. Məbusları sayırlar. Məlum olur ki, kvorum varmış. İclas davam edir.)

Parlamanda hazır olmayan məbuslar haqqında qanun layihəsi

Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsi tərəfindən Parlamana idxal edilmiş olan zeyldəki [aşağıdakı] qanun layihəsini katib oxuyur:

1) 1918 sənəsi dekabr ayının 7-dən, yəni Parlaman açılan gündən etibarən bir ay yarım zərfində Parlamana gəlməyib də səbəbini də bildirməyən məbuslar Parlamandan xaric edilirlər.

2) Parlamandan gedib də bir ay zərfində Heyəti-Rüəsaya bu xüsusda məlumat verməyən məbuslar Parlamandan çıxmış hesab edilirlər.

3) Bu surətlə Parlamandan kənar olan məbusların yerinə onu seçmiş olan firqə yaxud təşkilat tərəfindən yeni məbus intixab ediləcəkdir [seçiləcəkdir].

M. Ə. Rəsulzadə - Layiheyi-qanuniyyəni [qanun layihəsini] müdafiə edərək deyir ki:

Mən elə bilirəm layiheyi-qanuniyyənin məqsədi möhtərəm məbuslara aydındır və bu xüsusda öylə ciddi və müfəssəl bəyanata ehtiyac yoxdur. Məbuslardan bir qismi firqə siyahıları üzərinə sabiq Məclisi-Müəssisana, digər qismi də yenə siyahı üzərinə Zaqafqaziya Seyminə daha sonra seçilərək, sonra Azərbaycan Məclisi-Məbusanına daxil olmuşlardır. Bunlardan bir çoxları Bakıya gələ bilmirlər. Görürsünüz, imdi az qalmışdı kvorum düzəlməyib iclas qapansın. Madam ki, onlar siyahı üzərinə seçki üsulu ilə məbus seçilmişlərdir, yəqindir ki, siyahını verən firqə, kənar olan məbusinin [məbusların] yerinə başqa namizəd göstərə bilər. Siyahı ilə keçən məbusların bəziləri əsla Bakıya gələ bilmirlər. Binai-

leyh [ona görə] də, siyahı məbussuz qalır. Ona görə mən bu qanunun qəbul olunmasını təklif edirəm.

Qarabəyli (İttihad) - Məlumdur ki, böylə bir qanuna ehtiyac vardır. Çünki biz gözləyə bilmərik, məbus nə vaxt gələcəkdir. Bəlkə heç imkanı yoxdur gəlməyə, fəqət ikinci maddəni bir qədər təshih etməlidir [düzəltmək lazımdır]. Zira gedən əzanı [üzvləri] bir ay gözləmək olmaz. Bu çox uzun müddət və böyük möhlətdir. Binaənileyh mən təklif edirəm möhlət az olsun, 15 gün.

Kiçikxanov (Əhrar) - Layiheyi-qanuniyyənin bəzi maddələri aydın deyildir. Ona görə xahiş edərdim, bundan böylə qanun yazılanda maddələri aydın olsun.

Rəsulzadə - "Parlaman açılan gündən" denildikdə, yəqin ki, bu maddə əsas siyahı ilə Parlamana seçilib də bu vaxtadək Bakıya gəlməyə imkanı olmayan məbuslara aiddir. Bir ay Parlamana gəlməyib də bu xüsusda məlumat verməyən məbusların xaric hesab olunmaları haqqındakı ikinci maddəyə gəlincə, biz bunu nəzərdə tutmuşduq ki, bir məbus Bakıdan gedir, lakin ola bilər ki, iki həftə müddətində məlumat verə bilməsin. Yolların, post və teleqrafın halı özünüzə məlumdur. Birdən öylə olur ki, bir adam teleqraf çəkir, lakin özü teleqrafdan tez gəlir. Bu mülahizə ilədir ki, biz bir ay möhlət təyin elədik. Təshih məsələsinə gəlincə, məlumdur ki, həmin komissiya bunu icra edəcəkdir.

Cəmo bəy - Biz təklif ediriz bu layihəyə böylə bir maddə də əlavə edilsin: Bakıda olub da Parlaman iclasına gəlməyən məbuslara o günün maaşı verilməsin.

Qarabəyli - Bir çox yerlərdən hələ məbus gəlməmişdir. Biz bilmiriz o yerlər məbus seçməmişlərdir, yoxsa seçmişlərdir. Ona görə təklif ediriz Daxiliyyə Nəzarətinin əli ilə bir komisyon təşkil olunsun ki, o yerlərdən məbusların nə üçün gəlmədikləri barəsində təhqiqat icra edilsin. Böylə təhqiqat icra edilmədən idxal olunan qanun layihəsi qəbula keçərsə, bəzi yerləri nümayəndəlikdən məhrum qılmış olarız. Bu cəhətə, böylə qanun vermək hələ tezdir.

Rəsulzadə - göstərir ki, bu məsələ ilə qanun maddəsi arasında heç bir əlaqə yoxdur. Bu, müstəqil bir məsələdir. Ona görə də müstəqillən müzakirə edilə bilər.

Qanun layihəsi maddəbəmaddə oxunur. Əksəriyyəti-ara [səs çoxluğu] ilə layihə qəbul olunur. İkinci maddə bir ay əvəzinə iki həftə möhlət verilmək üzrə təshih edilir.

Cəmo bəy - sosialistlər tərəfindən təklif olunan 4-cü maddənin qəbulunu israrla tələb edir.

Rəsulzadə - Məclisi-Məbusan üçün daxili nizamnamə tərtib vermək, iclasları nizama salmaq, gəlməyən məbuslar haqqında qanun vermək və sairə üçün Parlamanın Nizamnamə komissiyası var. Bu komissiya daxili nizam haqqında müfəssəl qanun verəcəkdir. Şimdi isə böylə təfərrüatı qanuna əlavə etmək münasib deyildir.

Cəmo bəy - Nizamnamə komisyonu bu vaxtadək hələ qanun verməmişdir, bəlkə bir ay, iki ay da bir iş görməyəcəkdir.

Rəsulzadə (yerindən) - Öylə isə komisyona cəza verməlidir ki, işləsin.

Səsə qoyulduqda, sosialistlərin əlavə etdiyi 4-cü maddə əksəriyyəti-ara ilə rədd edilir.

Ədəmi-ictima

Bundan sonra katib cənabları “Müsavat” fraksiyonu tərəfindən idxal edilmiş olan “Ədəmi-ictima” [eyni zamanda bir neçə vəzifə tutmağın yolverilməzliyi] layiheyi-qanuniyyəsini oxuyur. Bu qanuna görə, Məclisi-Məbusan əzası [üzvləri] heç vaxt hökumət məmuriyyətində ola bilməzlər. Ancaq Parlaman məbusları nazir ola bilərlər.

Vonsoviç - Fransa, Amerika və İngiltərə məşrutələrindən [konstitusiyalı quruluşlarından] misal gətirərək, bu məmləkətlərdə qüvveyi-təşriiyyə [qanunverici hakimiyyət] və qüvveyi-icraiyyənin [icraedici hakimiyyətin] aydın və qəti bir surətdə təyin edilmiş olduqlarını göstərərək deyir ki, ədəmi-ictima məsələsinə Azərbaycanda böylə baxmaq olmaz. Məsələn dövlət xidmətində öylə məbuslar var ki, qanun vəz’inə [qanunvericilik funksiyasına] heç xələl vermədən məmur ola bilərlər. Ona görə natiq təklif edir ki, bu layihə, Qanun vəz’ edici [qanunverici] komisyona verilsin.

Vinoqradov - Sabiq natiqin rəyinə şərik olaraq [deyir ki,] böylə bir qanun cavan Azərbaycana zərər verər. Hazırda Azərbaycanda işləyən pək azdır. Şimdi onların da hüququ təhdid edilərsə [məhdudlaşdırılarsa], məmləkət quruluşuna sui-təsir edər.

[Abdulla bəy] Əfəndizadə - Əvvəlki natiqlər layihənin komisyona verilməsini istədilər. Məncə bu doğrudur. Məbusları təhdid edərsək [məhdudlaşdırarsaq], böyük müşkülat çıxar. Məsələn müəllimlər var ki, 30 il xalq içində qulluq edib nüfuz və etibar qazanmışlardır. Onları təhdid etsəniz, bu qanuna görə məbus olub Parlamanda işləyə bilməzlər. Məncə komisyon bəzi istisnalar etməlidir.

Rəsulzadə - Sabiq natiqlərə cavab verərək, İngiltərə məşrutəsində qüvveyi-təşriiyyənin qüvveyi-icraiyyədən tamamilə ayrılmış olduğunu göstərərək, layihənin komisyona verilməsinə razı olmaqla bərabər deyir ki:

Fəqət əvvəlki natiqlərin dediklərindən anlaşıldı ki, onlar layihəni basdırmaq üçün komisyona vermək istəyirlər, mən isə komisyona verilməsinə razıyam bu şərtlə ki, müəyyən bir vaxt qoyulsun. O vaxtadək layihə basdırılmayıb baxılsın və Parlamana qaytarılsın. Məsələnin əsas cəhətinə gəlincə deyə bilərəm ki, Azərbaycanda qanuni-əsasi [konstitusiya] hələ tərtib verilməmişsə də, biz parlamentarizmi qəbul etmişik və qanuni-əsasimizin baş xəttini parlamentarizm təşkil edəcəkdir. Madam ki, böylədir, biz bu üsulun məntiqi tələblərinə əməl etməliyiz. Bu üzdən sair təfərrüatda da biz parlamentarizm qəbul etmiş olan məmləkətlərin, əzcümlə [o cümlədən] İngiltərənin qanunlarından qolaylıqla istifadə edə biləriz. Parlaman məbusu milləti təmsil edir, binaənileyh [ona görə], o həmişə azad olmalıdır. Bir məbus eyni zamanda hökumət məmuru olarsa, heç vaxt azad danışa bilməz. Bəziləri deyirlər ki, bu xüsusda Azərbaycan müstəsna bir mövqe tutmalıdır, çünki mədəni qüvvəmiz azdır. Mən zənn etməm Azərbaycan mədəni qüvvədən o qədər məhrum olsun ki, Parlamana 60 məbus göndərdikdə, artıq hökumət məmurluğuna mədəni qüvvəsi qalmasın. Əgər bunca qüvvəsiz isək, onda heç bizə Parlaman lazım deyil. *(Soldan və mərkəzdən alqış)* Parlamansız məm-

ləkətdə istibdad olar. Halbuki biz parlaman və cümhuriyyət əsası ilə yaşamalı və məmləkətimizi bu əsas ilə idarə etməliyiz. Ancaq natiqlərdən birisinə cavab olaraq deyə bilərəm ki, bəzi istisnalar ola bilər. Məsələn, hökumət xidmətində olan yurist-konsult [hüquq məsləhətçiləri] və təbiblər. Heç vaxt hökumət onlara icrayi-təsir və təzyiq edə bilməz. Biləks [əksinə], böylə adamlar hökumət məmuriyyətində azad işləməklə bərabər, qanun vəz'i işlərində səlahiyyətdar mülahizələrini bəyanla qüvveyi-təşriiyyəyə müzahirət [köməklik] edə bilərlər. Fəqət mən digər bir natiqi anlayammam. Əgər bir öylə müəllim varsa – ki xalqın etibar və etimadını qazanıb Parlamana seçilməli olsun – böylə müəllim heç vaxt müəllimliyə geri qəbul olunmamasından qorxmaz, çünki bu kimi zəvata [şəxslərə] böyük ehtiyacımız var. Millət həmişə böylələrinə: "Gözümüz üstündə yerin var!" deyir. *(Alqış)* Təkrar deyirəm, layihənin komisyona verilməsinə mən də razıyam, amma müəyyən möhlət şərti ilə.

Təklif olunur ki, komisyon layihəyə tez baxıb gələn iclasadək qaytarsın Parlamana. Sair səslər bir həftə və 10 gün təklif edirlər.

Səsə qoyulduqda, 10 gün qəbul olunur. Bundan sonra Qanunverici komisyon intixab edilir [seçilir].

Seçilən üzvlər bunlardır:

Məhəmməd Əmin bəy Rəsulzadə ("Müsavat"), Vinoqradov (Rus-Slav), Aslan bəy Qardaşov ("Əhrar"), Vonsoviç (azlıqda qalan millətlərdən), Qarabəyli Qarabəy ("İttihad"), Əhməd Cövdət (Sosialistlər İttifaqı), Əliheydər Qarayev ("Hümmət"), Xosrov bəy Sultanov (bitərəflər).

TELEQRAF XƏBƏRLƏRİ

Almaniyada

Ali Hərbi Komitə bəyan eyləyir ki, Almaniyaya ərzaq gətirməkdən ötrü Almaniya bütün ticarət gəmilərini ərzaq daşımaqdan ötrü Müttəfiqlərin ixtiyarına verməlidir.

Yanvarın 13-ü tarixi ilə Berlindən çəkilən teleqrafda deyilir ki, spartakların hücumundan əmələ gələn həyəcan bir dərəcə yatmışdır. Yanvarın 12-də şəhər içində olan müsadimə [toqquşma] dayandırılıb, yalnız qəzetə idarələri dairələrində xırda atışmalar olurmuş.

Almaniyada bolşeviklər əleyhinə olan mübarizə milli bir rəng almışdır. Almaniyanın ətraf şəhərlərindən gələn teleqramda deyilir ki, spartakların hərəkəti hər yerdə zəifləşir.

Saldatların üsyanı

Amsterdam - Konqre Şurasında Bart ilə Ebert arasında olan mübahisə zamanı Berlin qarnizonundan 30 nəfər saldat, Şura salonuna girərək bilatəxir [dərhal] Saldat Nümayəndələri Ali Şurası məsələsinin müzakirə edilməsini tələb etmişlərdir. Bütün qoşunlar bu Ali Şuraya itaət etməlidir.

Şura sədri, bu məsələnin əcələ ilə müzakirə edilməsi mümkün deyil dedikdə, müxtəsər bir üsyan əmələ gəlmiş, Lideberq də saldatların tərəfini saxlayıb, bilatəxir məsələnin müzakirə edilməsini tələb etmişdir. Fəqət sosialistlər buna

protesto edərək, Şuradan çıxmaqla hədələmişlərdir. Bu isə bir qədər də həyəcanın artmasına səbəb olmuşdur. Haaze iclası sakitliyə dəvət edib, məclisi bir neçə gün təxirə salmışdır.

* Müharibənin ibtidasından [başlanğıcından] bəri Hamburqda saxlanmış olan 15 ədəd ingilis ticarət gəmisi Almaniya komandası altında Tayna varid olmuşdur.

Nemeslər Çində

Çindəki gömrükxana rəisləri qərar qoymuşlar ki, Çin gömrükxanalarında çalışmaqda olan nemeslər qulluqlarından kənar edilsinlər. Buna da səbəb, Müttəfiqlər təbəələrinin nemeslərlə bir yerdə çalışmaqdan imtina etdikləridir.

Lehistanda [Polşada]

Kopenhaq – Berlindən xəbər verilir: Lehistan hökuməti yanvarın 23-də Məclisi-Müəssisan dəvətinə qərar vermişdir. Məclisi-Müəssisan heyətinə Almaniyanın şərqi cəhətləri nümayəndələri də daxildirlər. Almaniya mətbuatı polyakların bu iqdamatına [təşəbbüsünə] protesto edərək, böyləliklə, Almaniya torpağının Lehistana ilhaq edildiyini [birləşdirildiyini] göstərirlər.

İngilislər bolşeviklər haqqında

“Deyli xronikl” qəzetəsinin xüsusi müxbiri yazır:

“Ərzaq işləri bolşeviklərin əlində olduğundan, aclıqdan xilas olmağa yeganə əlac, onlara mülhəq olmaqdır [onlarla birləşməkdir]. Ona görə də minlərlə afserlərin [zabitlərin] bolşeviklərə qulluq etmələri, aclıqdan ölməmək üçündür.”

Bolşeviklərin 3 milyonluq bir qüvvəsi var deyə şaye olan [yayılan] xəbərləri müxbir təkzib edib deyir ki:

“Bütün Rusiyada bolşeviklərin 180 mindən artıq qoşunları yoxdur. Təbii, onlar bu qüvvələrini artırmaq istəyəcəklərdir. Tainki böyük bir qüvvə ilə Avropaya hücum edib bolşevizmi Avropada intişar etsinlər [yaysınlar].”

Roma – Sabiq Rusiya Xariciyyə naziri Milyukov hazırda İtaliya paytaxtı Romadadır. Milyukov deyir ki:

“Rusiyanı tarixdə misli görülməmiş təhlükə təhdid edir. Müttəfiqlərin Rusiya işlərinə müdaxilə etmələri, şübhəsiz, lazımdır. Bir il bundan əvvəl Rusiyanı müxtəsər qüvvə ilə xilas etmək mümkün idi. Amma indi bunun üçün böyük bir ordu lazımdır.”

Müttəfiq məmləkətlərdəki əmələ [fəhlə] və sosialistlərin Rusiya işlərinə müdaxilə etmələrinə protesto etmələri, Milyukovun rəyincə, səhvdir:

“Əmələlər zənn edirlər ki, guya bolşevizm iqtisadi cəhətdən mənfəət verir. Amma mənfəət əvəzinə zərər verir. Rusiya əhalisinin 99 faizi Müttəfiqlərin Rusiya işlərinə müdaxilə etmələrinə razıdır.”

Moskvada idareyi-örfiyyeyi-əsgəriyyə

Stokholmdan “Tayms” qəzetəsinə xəbər verilir: Şura hökuməti əks-inqilabçılarla mübarizədən ötrü Moskvada idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] elan eyləmişlər. Petroqrad ilə Moskvada bolşeviklər əleyhinə olan təbliğat artır. Bu günlərdə Petroqradda 200

professor, doktor və sair alim həbs edilmişdir.

Amiral Kolçak hökuməti

Yekaterinodar diplomasiya dairəsinə verilən xəbərlərə nəzərən, amiral [admiral] Kolçak hökuməti[ni] Müttəfiqlər təsdiq edirlər. Bu hökumət nəzdinə Müttəfiqlər tərəfindən 5 nümayəndə göndərilmişdir. Şayiata görə, amiral Kolçakın təhti-idarəsində [idarəsi altında] 300 min qoşun vardır.

"Priazovski kray" qəzetəsinin xüsusi müxbiri yazır ki, sabiq Xariciyyə vəziri [naziri] Sazonova London vasitəsilə amiral Kolçak hökumətində Xariciyyə nazirliyi təklif edilmiş, Sazonov bu təklifi qəbul eyləmişdir.

SÜLH KONFRANSI

Londondan İstanbula xəbər verirlər ki, "Deyli nyus" qəzetəsinin verdiyi məlumata görə, Sülh Konfransı yanvar ayında Versalda yığılacaqdır. Fransa hökuməti tərəfindən Klemanso, Brian, Tardyö və Burjuva iştirak edəcəklərdir. İngiltərə tərəfindən Lloyd Corc, Balfur, Lord Eden, fəhlə firqəsi nümayəndələri və bir neçə nəfər də müstəmləkat nümayəndələri [müstəmləkələrin nümayəndələri] olacaqdır. Amerika hökuməti tərəfindən Vilson, sabiq Xariciyyə vəziri Rut, Lansinq və polkovnik Hauz isbati-vücud [iştirak] edəcəklərdir. İtaliya tərəfdən Sonnino və Orlando, Belçikadan isə hələliyə ancaq Vanderveldenin nümayəndə olacağı məlum olmuşdur. Yaponiya hökumətindən London və Parisdə olan Yaponiya səfirləri Çinda və Matsui iştirak edəcəklərdir. Rumıniyadan Take İonesku, Yunanıstandan Venizelos, Serbiyadan Paşiç, çex-slavlardan Masarik, Avstriya cənubi slavlar[ın]dan Deniç nümayəndə olacaqlardır. Rusiyadan Sülh Konfransında nümayəndə kim olacağı hələ məlum deyildir.

Mütarikə komissiyası

Mütarikə şəraitini [atəşkəs şərtlərini] əmələ gətirməkdən ötrü yanvarın 14 və ya 15-ində Qrevdə mütarikə komissiyası dəvət ediləcəkdir. Çünki almanlar hamı [bütün] mütarikə şəraitinə əməl etməmişlərdir.

* Şura böylə qət eyləmişdir: Beş böyük Avropa dövlətlərinin hər birinin Sülh Konfransında beş nümayəndəsi, Braziliyanın üç, Belçika, Serbiya, Polşa, Çex-slovak, Rumıniya və Çinin ikişər nümayəndələri, Almaniya ilə tərki-əlaqə etmiş [əlaqəsini kəsmiş] olan dövlətlərin birər nümayəndələri olacaq. Nümayəndələrin çoxluğuna baxmayaraq, hər dövlətin konqredə bir səsi olacaqdır.

QƏZETƏLƏRDƏN

Bolşeviklər və Ufa hökuməti

(Bolşevik teleqraf acentəliyindən)

Moskva – Yanvar ayının əvvəllərində Məclisi-Müəssisan üzvlərinin komitəsi tərəfindən düşmənanə hərəkatın qət edilməsi [kəsilməsi] haqqında müzakirat başlanmasını Ufa hərbi inqilab komitəsinə təklif etmişdir. Məclisi-Müəssisan tərəfdarları öz nümayəndələrinin məsun [toxunulmaz] qalmalarına təminat tələb

etmişlər. Ufa hərbi inqilab komitəsi bu təklifi xalq komissarları şurasına xəbər verib müzakirat başlanmasına icazə almışdır. Məclisi-Müəssisan tərəfdarlarından Volski, Svyasnitski və Şmelyov nümayəndə gəlmişlərdir. Məclisi-Müəssisan üzvləri komitəsi Məclisi-Müəssisan tərəfdarı əsgərləri ilə bolşevik ordusu arasında hərbi hərəkatın dayandırılması və Kolçakla Müttəfiqlər əleyhinə müttəhidən [birgə] hərəkat başlamağı təklif etmişlərdir. Bundan əlavə, hamı sosialist firqələri nümayəndələrindən ibarət Ümumrusiya Hökuməti təşkili ilə təzə Məclisi-Müəssisan dəvət edilməsi təklifində bulunmuşlardır. Bu təklifə cavab olaraq qəti surətdə izhar edilmişdir ki, Məclisi-Müəssisan dəvət edilməsi haqqında bir söz danışmaq olmaz. Bundan əlavə, Rusiyada olan bolşevik hökumətində heç bir təbədüllata [dəyişikliyə] yol vermək mümkün deyildir. Şura hökuməti ancaq Məclisi-Müəssisan tərəfdarlarının öz qüvvələrini Kolçakla Müttəfiqlər əleyhinə verilmələri arzusunun ciddi olduğuna inanması şərti ilə sağ eser firqəsini üzə çıxarmağa [leqallaşdırmağa] razı ola bilər. Buna cavab olaraq Məclisi-Müəssisan tərəfdarlarının nümayəndələri komitə tərəfdarlarının hamısına xitabən bolşeviklərlə müharibəni qət edib, Kolçakla Müttəfiq imperialistlər əleyhinə iş görməyə başlamaq haqqındakı dəvətnaməsini pişnihad [təqdim] etmişdir. Müzakirat davam etməkdədir.

Rus pulları

Fransa Məclisi-Məbusan və Məclisi-Əyanında Fransanın təzə istiqrazı müzakirə edildikdə rus dövlət iltizamnamələrinin ədası məsələsi müzakirə edilmişdir. Hökumət təklifinə görə 1918-ci ildə vaxtı qurtaran rus kağız pullarının kuponu yarı qiymətlə əda edilməlidir. Ciddi mübahisə əsnasında, rus hökumətini bakrot (bərşikəst [müflis]) hesab etməlidir, səsləri eşidilmişdir. Müzakiratdan sonra hökumətin təklifi palatada 482 səslə (6 səs əleyhinə) və Məclisi-Əyanda bir səs əleyhinə 220 səslə qəbul edilmişdir. Bu qərar üzrə Fransa Parlamanının hökumət təklifinə əksəriyyətlə səs verməsi bunu göstərir ki, bolşeviklərin istiqrazları ləğv etmək əmrinə Fransada heç bir əhəmiyyət verilmir.

Türkiyədə

Bu günlərdə Ukrayna səfiri Sultan həzrətlərinin hüzuruna qəbul edilib, müşarünileyhə [ona] etibarnaməsini təqdim eyləmişdir.

* İstanbuldakı Müttəfiq komandanın tələbi üzərinə Babi-ali, Bolqariya ilə diplomasi əlaqəsini kəsməyə razı olmuşdur. Bolqariya səfiri İstanbuldan çıxır, Türkiyənin Bolqariyada olan səfiri hakəza [eləcə də] geri çağırılır.

* Türkiyə mətbuatında yazıldığına görə, “velikiy knyaz” [böyük knyaz] Nikolay Nikolayeviç, Rusiyaya diktator təyin edilir. Məclisi-Müəssisan dəvətinədək bütün ümuri-idarə [idarə işləri] ona tapşırılır.

GÜRCÜ-ERMƏNİ MÜTARİKƏSİ ƏTRAFINDA

* Gürcüstan və Ermənistan hökumətləri arasında olan bir para mübahisəli

məsələləri müzakirə etməkdən ötrü Gürcüstan Xariciyyə Nəzarəti nəzdində İngiltərə heyəti ilə gürcü və erməni nümayəndələrinin müşavirəsi başlanmışdır.

* Tiflisdən yazırlar ki, gürcü və erməni müzakiratı İngiltərə polkovnikinin sədarəti altında vaqe olur. Məzkur polkovnik özünü bitərəf tutur. Birinci məsələ gürcü və erməni əsgərlərinin tərxis edilməsi haqqında olmuşdur. Gürcü nümayəndələri əsgərlərin tərxis edilib sülh zamanındakı miqdara salınması təklifində bulunmuşlardır. Erməni nümayəndələri İrəvanla teleqraf münasibatı [əlaqəsi] olmadığından, bu məsələnin bir qədər təxirə salınmasını xahiş etmişlərdir. Axırda aşkar olmuşdur ki, erməni nümayəndələri əsgərlərin tərxisini yanvarın 25-nə təyin etməyi mümkün görmüşdür. Nə miqdarda əsgər saxlanılması məsələsi mübahisəyə bais olmuşdur. Erməni nümayəndələri əsgərlərin miqdarını müharibə hərəkatı başlandığı zamandakı miqdarda saxlamağı təklif etmişlərdir. Gürcü nümayəndələri buna razı olmayıb demişlər ki, ermənilər müharibə hərəkatından iki ay qabaq əsgər cəm etməkdə ikən gürcülər isə müharibə hərəkatı başlandıqdan sonra əsgər cəm etməyə məcbur olmuşlardır. Erməni nümayəndələri özləri üçün əsgər saxlamağı lazım görüb demişlər ki, bu əsgərləri saxlamaqdan Gürcüstan əleyhinə hərəkati-hərbiyyədə bulunmaq qəsdi yoxdur. Gürcü nümayəndələri isə buna razı olmayıb Ermənistanın saxlayacağı miqdarda əsgər saxlamaqdan ötrü əvvəlcədən nə miqdarda əsgər saxlanılmasını aşkar etməyi tələb etmişlərdir. Bundan sonra bitərəf torpaqdan keçməkdə olan dəmiryol xəttinin kimin əlində olması məsələsi uzun mübahisə və münaqişəyə bais olmuşdur. Bu məsələ hələ qəti surətdə həll edilməmişdir.

Müzakiratdan hasil olan təəssürat budur ki, erməni nümayəndələri müzakiratı uzatmağa və yatırmağa çalışırlar. Gürcü nümayəndələri iclaslardan birində tezliklə tərxisi-əsgər lazım olduğunu təkid edərək demişlər ki, alınan xəbərələrə görə, ermənilər mütarikədən istifadə edib mütarikə şəraitinə [atəşkəs şərtlərinə] zidd olaraq əsgər cəm etməkdədirlər. Erməni nümayəndələri cavab vermişlər ki, onlar iki həftə bundan irəli İrəvandan çıxdıqlarına görə bu əhvalatdan xəbərləri yoxdur və zənnlərincə bu xəbər əsilsizdir.

Erməni nümayəndləri bu müzakiratda özlərini xeyli inadkaranə apardıqlarından, müşavirə sədri (İngiltərə polkovniki) tərəfindən neçə dəfə şiddətli məzəmmətə düçar olmuşlardır. Bu iş, müşavirədə iştirak edənlər üçün gözlənilməyən bir surətdə olduğundan, erməni nümayəndələri bir qədər yumuşalmışlardır. İngiltərə nümayəndələri Gürcüstanda və Azərbaycanda həqiqəti-əhvala aşina olduqdan sonra gəldikcə gürcülərə hüsntəvəccöh göstərməkdədirlər. Hər iki hökumət haqqında Müttəfiqlərə verilmiş olan məlumatın həqiqət olmadığı meydana çıxmaqdadır.

CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

Petroqrad əhvalı

* Petroqraddan Helsinqforsa gələnlərin rəvayətinə görə, Petroqrad əhvalı

xeyli fənadır. Əhali ac və soyuqda qalmışdır. O qədər adam qırılır ki, tabut kifayət etməyir.

* Finlandiya təriqi [yolu] ilə xəbər verirlər ki, Petroqrad qarnizonunda bolşeviklər əleyhinə şiddətli üsyan vardır.

Mitavanın işğalı

Riqadan xəbər verirlər ki, səhər, Qırmızı ordu əsgərləri Mitava şəhərinə daxil olmuşlardır.

Lüksemburqda

Lüksemburq hökuməti nəşr etdiyi [yaydığı] intibahnamədə [təbliğat vərəqələrində] cümhuriyyət nəfinə [xeyrinə] olan inqilab hərəkatı əleyhinə protesto ilə izhar edir ki, hökumət Müttəfiq dövlətlərlə, xüsusən Fransa və Belçika ilə iqtisadi ittifaqa girişməyi qərara almışdır. Lüksemburq kinyaqinyası taxtı-səltənətindən əl çəkməyə razı olduğunu bildirmişsə də, hökumət milli cümhuriyyəti mühafizə etməkdən ötrü xanədanı saxlamağı lazım görmüşdür. Bu məsələ camaatın arzusuna müvafiq bir surətdə həll ediləcəkdir.

Müttəfiqlər və Almaniya

Müttəfiq dövlətlərin əsgəri və bəhri [donanma] müttəfiqlər müşavirəsi bu məsələləri müzakirə etmişdir: polyaklara qüvvə göndərilməsi, sualtı qayıqları tərəfindən qərq edilən gəmilər əvəzində Almaniya ticarət gəmilərini Müttəfiq dövlətlərin işlətməsi, mütarikə şəraitini təmin etməkdən ötrü Almaniya limanlarının işğalı və qızıl mövcudu ilə Almaniyanı uzaqdan təmin etmək məsələsi.

Transilvaniyanın ilhaqı

Romaniyada nəşr edilən rəsmi qəzetə, Translivaniyanın qəti surətdə Romaniyaya ilhaq edilməsi haqqında bir əmrnamə elan etmişdir.

Polşada

* Minskdən xəbər verirlər ki, Varşavadan gələnlərin rəvayətinə görə, Varşava küçələrində qanlı müsadimələr [toqquşmalar] vaqe olmaqdadır. Hökumət əleyhinə nümayişlər olmuşdur. İnqilabı yatırdıqdan sonra asayiş başlanmışdır. Qoşun və əhali arasında hökumət əleyhinə narazılıq davam edir. Əhval yenə də kəskinləşməkdədir.

* Varşavadan xəbər verirlər ki, Volinada və Şərqi Qaliçyada ukraynalılar ilə polyaklar arasında müharibə davam edir. Qalibiyyət, ukraynalılar tərəfindədir.

* Minskdən teleqraf edirlər ki, polyak qəzetələrinin verdiyi məlumata görə, ukraynalılar Lvov şəhərinə bomba atmaqdadırlar. Şəhərdə işıq, su və ərzaq yoxdur. Şərqi Qaliçyada olan polyak baş komandanlığı elan etmişdir ki, ukraynalıların vəhşiliyinə görə hərbi əsirlərə şiddətli cəzalar verməyə məcbur olmuşdur.

ADLARIMIZ

Sabiq rus hökuməti Qafqazın qeyri-müsəlman millətlərinə azadə məktəb, müstəqil kilsə, müntəzəm qoşun, milyonluq cəbhəxanalar, müzəxanalar [muzeylər], saraylar, daha nələr buraxdığı halda, biz müsəlmanlara da bir çox pozğunluqlar kəramət etmişdir. Bu pozğunluqların, bu mirasların arasında bizə bir

"metrik" [metrika, doğum haqqında şəhadətnamə] dərd-bəlası çatmışdır ki, bundan nə qədər mütəəllimlərimiz [şagirdlərimiz] məktəb üzünə həsrət qalaraq elm təhsilindən məhrum olmuşlardır və indi də əxzi-əsgər [əsgərliyə çağırış] cəhəti tərəfdən bir taqım müşkülata məruz qalırıq.

Ermənidən və gürcüdən qoşun tələbi məqsədilə rus hökuməti qabaqca bu millətlərin metrik yaxud təvəllüdnamə idarələrini nizam və tərtibə saldı. Zatən bu məsələdə rus hökumətinə xristian kilsəsi böyük bir müavinət [köməklik] göstərdi. Böylə ki, xristian etiqadına görə hər anadan olan uşağı məhəllə keşişi suya çimizdirib ona bir ad qoymalıdır. Odur ki, otuz ildən bəri Qafqaz xristianları arasında bir nəfəri, bir zinəfəsi [nəfəs alanı, canlısı], istər oğlan olsun istər qız, heç biri qələmdən düşməyərək hamısının metrik dəftərlərində adları, təvəllüd günü, ayı və ili əsla saxta olmayıb, düzgüncə bir hal ilə yazılmışdır. Binaənileyh [ona görə] bunlardan heç biri müsəlmanlar kimi təvəllüdnamə hasil etməkdə bir bu qədər cəfa və əziyyətə rast gəlməmişlərdir.

Müsəlmandan qoşun yığmaq istəməyən hökumət, onun mitrik işlərinə də bir o qədər məhəlgüzar olmadı [məhəl qoymadı] və nə üçün də olaydı?! Müsəlmandan qoşun yığmayacaqmış. İşqola, vərəsə və başburt kimi işlərə də lazım olacaq təvəllüdnamələri müsəlmanların canları çıxsın, nə tövr düzəldəcəklər düzəltsinlər. Bir tərəfdən idareyi-ruhaniyyələrimizə metrik dəftərlərini saxlatmaq ixtiyarını vermiş hökumət, o biri tərəfdən bu dəftərləri saxlayan prixod mollalarına heç bir mükafat qərar verməyərək Allah xatirəsi üçün məccanən [pulsuz] bu zəhmətə qatlaşmağı mollara tövsiyə edir. Hökumətin tələbatına görə, metrik dəftərlərini ancaq müsəddəq [təsdiqlənmiş] mollalara tapşırmalı idi. Ruhani yetişdirəcək məktəbimiz olmadığı cəhətinə, mollaların da ədədi gün-gündən azalırdı. Böylə ki, bir çox prixodların müsəddəq mollaları vəfat etdiyi əsnada yerlərinə təyin etmək üçün sair mollalar tapılmadı. Odur ki, böylə bisahib prixodların metrik dəftərləri illərcə qəzavətxanalarda [qazıxanalarda, dini məhkəmələrdə] bikarca yatıb qalmaqdadır.

Mollalı prixodlara gəldikdə, bunların da metrik dəftərlərindəki təvəllüd səhifələri yenə bomboşca qalırdı. Bunun da səbəbi, necə ki yuxarıda zikr olundu, dini-islamda ruhani vasitəsilə uşağa ad qoymaq məsələsi zərurati-diniyyədən [dini zərurətlərdən] olmadığı cəhətinə, heç kəs də prixod mollasını bu işə dəvət etməzdi. Hələ dəvət orada qalsın, bu barədə mollalara xəbərdarlıq verən də az olurdu. Bəzi valideyn bir ildən sonra yolu mollanın xanəsinə təsadüfən düşdüyü əsnada uşağının anadan olmasını xəbər verirdi ki, molla da metrik dəftərinə qeyd etsin. Dərhal metrik dəftəri aralığa gəlməzdisə, sonralardan mollanın da yadından çıxıb biçarə uşağın təvəllüd və-q'əsi [hadisəsi] tamamən itib gedərdi.

Bundan daha maraqlısı, fərz edəlim ki, Məhəmməd adlı bir uşağın təvəllüd xəbəri vaxtında metrik dəftərinə yazılmışdır, sonra uşaq vəfat edər. Vəfat xəbəri də dəftərə qeyd olunmaz. Beş ildən sonra həman valideynin yenə bir çocuğu olar. Vəfat etmiş Məhəmmədin adını yeni qardaşına qoyarlar və bu yeni təvəllüd

xəbəri də vaxtında dəftərə yazılmaz. İkinci Məhəmmədin məktəb vaxtı gəlib çatar. Prixod mollasından təvəllüdnamə tələb olunduğu halda 10 yaşlı biçarə Məhəmmədin tamam 15 yaşı çıxar. Məktəbə də götürülməz, yəni vəfat etmiş Məhəmmədin yaşına hali-həyatdakı Məhəmməd varis olmuşdur.

İştə bu metrik pozğunluğundan müsəlman əhalisinə yüzlərcə, minlərcə bəla və sədmələr toxunmuşdur ki, acısı hələ damaqlardan getməmişdir.

Azərbaycan Hökuməti bu metrik pozğunluğuna bir çarə tapacaqdırmı?

Zənnimcə, bunun çarəsi üçün nə qədər tez tədbirlər ittixaz olunarsa [tədbirlər görülərsə], bir o qədər də peşmanlıq üz verməz. Əxzi-əsgər niyyəti ilə hökumətimiz metrik dəftərlərinə müraciət etdi. Məəttəəssüf [təəssüf ki], istifadələnmədi. Axırda naçar qalaraq cavanlarımızın üzlərinə baxmaqla onların yaşları təyin edildi. Doğrudur, atın dişlərinə baxmaqla onun yaşını bilmək olar, amma insanın surəti-simasına istinadən onun yaşına hökm vermək çətin bir əmrdir [işdir]. İmdi bir az mülahizə olunsun ki, sabiq rus hökuməti azərbaycanlıları necə ağır hallara salmışdır ki, bu gün hətta vəhşilərin belə işlətmədiyi bir qaba üsuluna möhtac qalmışlardır!

Ərzaq məsələlərində sairlərin müntəzəm təhriri-nüfusları [əhalinin qeydiyyatı], siyahıyi-ümumiləri, metrikləri aralığa çıxdığı halda, müsəlmanların heç bir kəndindən, hətta heç bir şəhərindən böylə siyahılar düzəltmək mümkün olmayır. Bunun nəticəsi olaraq sairləri çay, qənd, bəyaz [ağ] kimi bir şeyləri vaxtında asanca aldıqları halda müsəlman kəndliləri bu nemətlərdən ayrıca məhrum olmaqdadırlar. Yenə səbəbi həman metrik pozğunluğudur.

Keçən keçmişdir. Gələcəkdə övladımızın lənətinə giriftar olmaq istəməyiriksə, buna indidən çarə tapmalıyız. Madam ki, Heyəti-Vüzəra [Nazirlər Kabineti] arasında xüsusi bir Ədyan Nəzarəti [Dini Etiqad Nazirliyi] də mövcuddur, metrik məsələsinin rəvac və həlli də həman Nəzarətin öhdəsinə düşür. Qabaqca bir “Adlar məcmuəsi” tərtibi üçün idareyi-ruhaniyyə əzasından [ruhani idarə üzvlərindən] mürəkkəb [ibarət] bir komisyona bu məsələni həvalə etməlidir. Komisyonun vəzifəsi, islam aləmində işlənilən ərəb, fars və türk adlarından tarixi dəlillərlə bir sənəyə məxsus bir məcmuə yap maqdır ki, burada 366 günün hər birinə məxsus kişi və arvad adları dərc olunsun.

Doğrudur, islam aləmi xristianlar kimi minlərcə rahib və əzizlərə [müqəddəslərə] malik deyilsə də, amma bir çox ənbiya [nəbilər, peyğəmbərlər], övliya [vəlilər], xüləfa [xəlifələr] və əimməsi [imamları] vardır ki, bunların təvəllüdləri kitablarımızda mövcuddur. Bunlardan əlavə, islam aləminin bir çox dahiyələri [məşhurları], üləma [alimlər], ətibba [təbiblər], üdəba [ədiblər], hükəma [filosoflar], riyazziyun [riyaziyyatçılar], sufiyyun [təsəvvüfçülər], nəbatiyyun [botanika mütəxəssisi], lüğəviyyun [lüğət alimləri], cahangir və fatehləri vardır ki, onların da təvəllüd və ya vəfat günləri tariximizdə məşhurdur.

İştə tarixlərimiz aranılsın; bu müqəddəslərin, bu dahiyələrin təvəllüdləri tapılsın; göstərilən qayda üzrə tərtibə salınsın; ərbabi-fənnin [elm adamlarının] nəzər və tənqidindən keçirildikdən sonra

çapa verilsin. İdareyi-ruhaniyyə tərəfindən bu məsələyə əhəmiyyət göstərilərsə və hümmət edilərsə, az bir vaxtdan sonra mükəmməl bir "Adlar məcmuəsi"nə malik olacağıq. Zənni-acizanəmcə məcmuənin tərtibçiləri bir neçə şeyə artıq diqqət etməlidirlər:

1. İki, üç mərtəbəli adlardan ictinab etməlidir [qaçmaq lazımdır]. Məsələn, Məhəmmədəli, Məhəmmədhəsən, Məhəmmədhüseyn, Əliməhəmməd, Əlihəsən, Əlihüseyn, Həsənəli, Hüseynəli kimi mürəkkəb adlardansa, ali-əbanın mücərrəd [tək, ayrı] adlarına kifayət etməlidir, zənnindəyəm.

2. Ərəblərin "əbd" kəlməsindən qaçmaq mümkün olmasa, türklərin "qulu" (qulu) kəlməsindən ictinab etməlidir.

3. Farsların "Şəhnamə"dəki əsatir adlarındansa, bizim Tural, Turqut, Çingiz, Uluğ, Baydu kimi sırf türk adlarına təşxis verməlidir. (Rüstəm və Əfrasiyab kimi bəzi fars adlarından da qaçmaq mümkün olmayacaqdır.)

4. Cəhd etməlidir ki, hər günə üçdörd ad düşsün, ta ki, valideynə birisini seçmək və bəyənmək mümkün olsun. Məsələn, rəbiyyüləvvəlin 12-də Məhəmməd, Mahmud, Əhməd, Mustafa, Rəsul, Nəbi, Əmin kimi adlardan – ki hamısı peyğəmbərimizə aiddir – hər birisi qəbul oluna bilər.

Məcmuə başa gələn kimi prixod mollalarının hər birinə birər nüsxə göndərməlidir. Sahibsiz qalmış prixodların cümləsinə məvacibli mollalar təyin edərək, hamısından tələb etməlidir ki, metrik dəftərlərini baqaidə [qaydasında] saxlasınlar, bərəks surətdə [əks surətdə] səhlkar [səhlənkar] mollaları təhti-mühakiməyə [mühakimə altına] alsınlar. Əhaliyə də elan etməlidir ki, hər kəs uşağının anadan olmaq xəbərini prixod mollasına məlum etməsə, filan cəza ilə cəzalanacaqdır. Cəzanın da həddini idareyi-ruhaniyyə təyin və qərar versin.

Metrik dəftərləri bu qərarla saxlanarsa, ümidvaram, bugünkü bəlalar sabahkı övladımızın başına gəlməsin. Bəlkə ruhanilərimizin bu barədə sair təsəvvürləri vardır. Buyursunlar, mətbuat vasitəsilə bildirsinlər. Bu barədə nə qədər artıq yazılarsa, bir o qədər də həqiqətə artıq yaxın olarız. Ərbabi-qələmimiz [qələm əhlimiz, ziyalılarımız] təsəvvürlərini yazsınlar, bildirsinlər. Dərdlərimizə çarə tələb etsinlər. Bu günün işini sabaha qoyarlarsa, yenə həman bəlalara giriftar olacağız.

Fərhad Ağazadə

VÜKƏLA ŞURASINDA
[NAZİRLƏR KABİNETİNDƏ]

13 yanvar 1919-cu sənə

Maliyyə naziri həzrətlərinin 1918-ci ildəki istiqraz haqqındakı məruzəsini dinlədikdən sonra qət edilmişdir:

Maliyyə nazirinə tapşırılsın, 1918-ci sənədə buraxılmış istiqrazın vaxtı 1919-cu sənənin fevral ayı əvaxirinədək [axırlarınadək] təxir edilsin.

16 yanvar 1919-cu sənə

Səhhəti-Ümumiyyə [Səhiyyə] naziri həzrətlərinin Bakı Bələdiyyəsinə borc pul vermək üçün oxuduğu məruzəsini eşitdikdən sonra qət edilmişdir:

Bələdiyyə İdarəsinə şəhəri nizama

salmaq üçün Səhhəti-Ümumiyyə Nəzarəti vasitəsilə 300 min rubləlik bir istiqraz açılsın. İşbu pul, Bələdiyyə İdarəsinə faizsiz olaraq iki il müddətinə veriləcəkdir. Bələdiyyə İdarəsi 1919-cu sənədən başlayaraq öz illik smetasına işbu istiqrazı daxil etməlidir. Həmin pulun 150 min rubləsini işbu sənə, o biri yarısını isə gələn il verməlidir.

15 yanvar 1919-cu sənə

Daxiliyyə naziri həzrətlərinin Qarabağ haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir:

Daxiliyyə naziri həzrətləri tərəfindən pişnihad [təqdim] edilmiş məruzə qəbul edilsin. Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında müvəqqəti olaraq bir general-qubernatorluq təşkil etməlidir. Təyin ediləcək general-qubernatorun ixtiyaratı Daxiliyyə Nəzarəti məruzəsində göstərildiyi qədər olacaqdır.

15 yanvar 1919-cu sənə

Rəisi-Vükəla [Baş nazir] həzrətlərinin Səhhəti-Ümumiyyə naziri müavini təyini haqqındakı məruzəsini dinlədikdən sonra qət edilmişdir:

Doktor Gindesi Səhhəti-Ümumiyyə naziri müavinliyinə təyin etməli, böyləliklə müvəqqəti olaraq məzkur nəzarət işlərini müşarileyh [adı çəkilən] doktora həvalə etməklə, Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri müavinini həman vəzaifdən [vəzifələrdən] azad etməlidir.

Hökumət fəaliyyəti

Parlaman əzasından Şıxəlibəyov Rəisi-vükəla [Baş nazir] həzrətlərinə müraciətlə Şamaxı ilə post və teleqraf müxabiratının [əlaqəsinin] təcdid [bərpa] edilməsini istida [xahiş] etmişdir. Rəisi-vükəla həzrətləri bu barədə lazımi binagüzarlıqda bulunmuşdur [sərəncam vermişdir].

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Salyanda birinci qız məktəbi

Salyan Realnı məktəbinin milliləşməsi münasibətilə ali zükur [oğlan] məktəbi şagirdləri dəxi bu məktəbə daxil olmuşlardır. Binaileyh [ona görə], ali zükur məktəbi boş qalmış, Maarif Vəzarəti [Nazirliyi] əmri ilə həmin məktəb ünas [qızlar] məktəbinə təbdil edilmişdir [çevrilmişdir]. Bu məktəb də ünas darülmüəllimatı [qız seminariyası] olacaqdır.

Müəllimlərin əsgərliyə cəlbi

Məlum olduğu üzrə, müəllimlər də əsgərliyə cəlb edilirlər. Müəllimlərin dəvəti ilə maarif işlərinin müşkülata düçar olacağını və çox məktəblərin qapanmaq məcburiyyətində qalacağını hiss edən Maarif naziri, müəllimlərin azad edilməsi barəsində Hərbiyyə Nəzarəti ilə müzakirata girişmişdir. Bu xüsusda Parlamana da bir layihə təqdim eyləmişdir.

* Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] cənbində [nəzdində] mövcud olan Bakı dairəsindəki möhtac əhaliyə müavinət edən xüsusi komisyonun qərardadı mövcibincə [əsasında], İrandan 30 min arşın əlvan arşın malı gətirmək üçün Nəzarət tərəfindən Rəisi-vükəlaya müraciətən rica olunur ki, ingilis komandanlığı ilə müxaribatda bulu-

nub məzkur [deyilən] arşın malını Bakıdakı möhtac əhali üçün gətirmək mümkün olub-olmadığını bilsin və olarsa, gətirilməsi xüsusunda binagüzarlıqda bulunulsun [təşəbbüs göstərilsin].

* Ümuri-Xeyriyyə Nəzarəti tərəfindən Bakıda mövcud olan tamaşaxanalardan və digər bilet lazım olan müəssisələrdən dövlət markaları yapışdırıldığını təftiş etmək üçün Nəzarətin kargüzarı Q. Ştamm təyin edilmişdir. Bu barədə Sabunçu, Balaxanı və şəhər polismeysterlərinə sorğu verilmişdir. Bundan maəda [başqa], tamaşaxanaların düxuliyyə [giriş] qəbzi ilə kniçkanın (kart) əhali arasında intişarı [yayılması] haqqında Nəzarət tərəfindən bu günlərdə Parlamana bir qanun layihəsi təqdim ediləcəkdir.

ƏRZAQ NƏZARƏTİ CANİBİ-ALİLƏRİNƏ AÇIQ MƏKTUB

Rus lisanında müntəşir [nəşr olunan] "Azərbaycan" qəzetəsinin 11-inci nömrəsində Ərzaq Nəzarətinin idarə müdiri Makinski imzası ilə Zaqatalaya bez göndərilməsi xüsusunda dərc edilmiş məktubun üç maddəsi qismən həqiqətə xilafdır. Zira Zaqatala əhalisinə paylamaq üçün Ticarət və Sənaye Nəzarəti tərəfindən Qəbulova verilmiş 50 min bez guya Zaqatalaya çatmış və Zaqatala valisi tərəfindən 18 dekabr tarixli məzkur 50 min bezin tamamilə vüsulunu müşirrən [gəlib çatdığını] təbliğatın alınması dəxi bildirilmişdir. Halbuki, Zaqatalaya təxminən 20 min arşın bez çatmışdır. Zaqatala valisi tərəfindən böylə bir teleqrafın göndərilməsi məni heyrətə salır. Binaileyh bu haqda lütfən təhqiq və istintaqda bulunmanız məruzdur.

Parlaman əzası Kiçikxanov

RƏF'İ-İŞTİBAH [ŞÜBHƏNİN ARADAN QALDIRILMASI]

Möhtərəm müdir əfəndi həzrətləri!

"Azərbaycan" qəzetəsinin 16 kanunisani [yanvar] tarixli 89-cu nömrəsində "Yeni qəzetələr" ünvanlı məlumatı qismində əzcümlə:

Azərbaycan müsəlman İctimaiyyuni-inqilabiyyun firqəsi [Sosialist-İnqilabçılar partiyası] tərəfindən "Əkinçi və fəhlə" nam [adlı] qəzetə çıxarılacağı istixbar edilmişdi [xəbər verilmişdi]. Azərbaycan İctimaiyyun-inqilabiyyun firqəsinin Bakı komitəsi tərəfindən rəf'i-iştibah olmaq üzrə məlum edirəm ki, fövqəlzikr [yuxarıda adı keçən] "Əkinçi və fəhlə" qəzetəsi Azərbaycan deyil, müsəlman deyil və sosialist deyil, Qafqaz və Kaspiyski "hökumətinin" erməni millətçilərinin təşəbbüsü və sərmayəsi ilə nəşr edilir. Kəndisini həqiqi sosialist hiss edən Azərbaycan sosialistləri üçün erməni millətçiləri ilə bərabər işləmək kimi həqarət və rəzalət təsəvvürə gəlməz bir şeydir. Burasını ümum türkcə oxuyanlara və müsəlman füqərayi-kasibəsinə elam etməyi [bildirməyi] vəzifəm cümləsindən bilib, işbu bəyənatımın dərcini istirham [xahiş] edirəm, əfəndim.

Ehtiramati-faiqə ilə [böyük hörmətlə]
Azərbaycan İctimaiyyuni-inqilabiyyun firqəsinin müvəqqət komitəsi rəisi
Axundzadə Ruhulla
Bakı, 16 kanuni-sani 1334

İdarədən: Bizə bildirilir ki bu qəzetə, Azərbaycan Müsəlman İctimaiyyuni-inqilabiyyun firqəsi tərəfindən deyil, ümumi İctimaiyyuni-inqilabiyyun firqəsinin mərkəzi komitəsi tərəfindən verilir. Məzkur qəzetənin birinci nömrəsi çıxmışdır. Ancaq nədənsə ruzmərrə [aktual] bir məsələ təşkil edən Azərbaycan istiqlalı və buna yaxın məsələlər haqqında bir söz də yoxdur. Qəzetənin tərzi-hərəkət və fəaliyyəti barəsində mütaliatına [fikirlərinə; mövqeyinə] baxaraq yazmaq mümkün olacaqdır. Bu da gələcəkdə.

BAKI XƏBƏRLƏRİ

Bələdiyyə İdarəsində

17 kanuni-sanidə [yanvarda] Bələdiyyə rəisi evində, rəisin təhti-sədarətində [sədrliyi altında] müsri [yoluxucu] xəstəliklər ilə mübarizə edəcək komitənin müştərək iclası vaqe olmuşdur. Müşavirədə qət edilmişdir ki, bütün Bakı və ətrafındakı müəssisələrdən birər doktor dəvət edib, müsri xəstəliklərlə mübarizə edəcək komitələr təşkil olunsun. Böyləliklə, təşkil ediləcək komitə öz miyanından [arasından] üç nəfərdən ibarət bir icraiyyə komitəsi intixab edəcəkdir [seçəcəkdir] ki, komitənin qətnamələrini qövldən feilə [sözdən əmələ] gətirməyə çalışacaqdır. Bir də bir baştəbiblik təşkil ediləcəkdir. Qət edilmişdir ki, bu vaxtadək çağırılmışlar sırasına əlavə olaraq 15 müəssisədən də birər nümayəndə dəvət edilsin.

Müsri xəstəliklərlə mübarizə üçün müşavirə

Bu gün 19 kanuni-sani [yanvar], axşam saat 7 radələrində Bələdiyyə rəisi evində, rəisin təhti-sədarətində olaraq müsri xəstəliklərlə mübarizə edəcək komitənin müştərək iclası vaqe olacaqdır. Müşavirədə Səhhəti-Ümumiyyə [Səhiyyə], Ümuri-Xeyriyyə və Nafiə [Sosial Müdafiə] və Maarif nəzarətlərindən birər nümayəndə, İngiltərə qoşunları ərkani-hərbi [qərargahı] nümayəndəsi, Bakı Hakimləri cəmiyyəti nümayəndəsi, Mərkəzi Ev Komitəsi nümayəndəsi, erməni və müsəlman qaçqınları komitələrindən birər nümayəndə, iskələ [liman] idarəsi və dəmiryollar idarələrindən birər nümayəndə iştirak edəcəklərdir.

Məzənnə

Qafqaziya Ordusunun Baş müfəttişi, Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, hər ay ona Bakıdakı ərzaq və tənbəki və başqa əşyaya olan məzənnələr barəsində məlumat verilsin.

* Yanvar ayının 19-da, saat 11 tamamda Bakı türk mütəəllimlərinin rejissoru (?) Abbas Mirzə Şərifzadənin təhti- idarəsində [idarəsi altında] bulunan “Dram və musiqi” studiyası əzalarının [üzvlərinin] Üçüncü Ali-ibtidai məktəbində iclası təyin edilmişdir. Əzanın [üzvlərin] gəlmələri xahiş olunur.

* Üçüncü uçastok ev komitəsi, dördüncü dəfə olaraq adam başına iki girvənkə qərar ilə düyü paylamağa başladığını xəbər verir.

Aptekxana qulluqçularının tətili

İki həftədən çoxdur ki, aptekxanalardakı “farmasevt” və sair əmələlər [işçilər]

tətil ediblər. Şəhər əhalisinin azarlılarına dərman hazırlamaq üçün bütün şəhərdə dörd aptekxana qalmışdı ki, əhaliyə dərman hazırlasın. Tətilçilərin maddi tələblərini aptekxana sahibləri qəbul edib, tətilin qurtamasını istəmişlərsə də, lakin tətilçilər indi tələbnaməyə bəzi siyasi tələblər də əlavə edib, aptek sahiblərini məcbur etmək üçün şəhərdə işləyən dörd aptekin bağlanmasını elan etmişlər.

ƏRZAQ İŞLƏRİ

* Ərzaq naziri Gəncə müsəlman Cəmiyyəti-xeyriyyəsinə yazır ki, Gəncə Bələdiyyə İdarəsi mənə müraciətlə manufaktura malının Gəncə müsəlman Cəmiyyəti-xeyriyyəsi ixtiyarına verilməsinə protesto edir. Məndən əvvəlki nazirin verdiyi əmri ləğv etmək mümkün olmadığından, eyni zamanda zənnimə görə, manufaktura malının kartoçka ilə əhali arasında paylanması ədalətli olar. Cəmiyyəti-xeyriyyənin də kartoçkası yoxdur. Buna görə Gəncə Cəmiyyəti-xeyriyyəsinə təklif edirəm ki, manufakturanı payladığı zaman ancaq Gəncə Bələdiyyə İdarəsinin ixtiyarında olan kartoçkadan istifadə etsin.

* Ərzaq Nəzarəti vaqon təqsim [bölən] və təyin edən müvəqqət büroya xəbər vermişdir ki, Gəncə şəhər əhli ehtiyacından ötrü Gəncə Cəmiyyəti-xeyriyyəsi sədri Məşədi Əli Rəfiyev ixtyarına Tağıyev fabrikasından buraxılan 100 tay bezi Gəncəyə aparmaqdan ötrü Rəfiyevə bir vaqon verilməsi üçün büronun binagüzarlıqda bulunması [təşəbbüs göstərməsi] xahiş olunur. Həmin vaqon, yanvarın 22-də yüklənməkdən ötrü Tağıyevin fabrikasına göndərilməlidir.

KƏNDLƏRƏ DÜYÜ PAYLANMAQ BARƏSİNDƏ

Ərzaq Nəzarətinin kəndlərə zəruri şeylər paylayan şöbəsinin verdiyi məlumatından anlaşılır ki, kəndlərə düyü paylamaq barəsində olan elanın nəticəsində heç kəs müəyyən vaxtda düyü üçün gəlib çıxmamışdır. Məlum olur ki, kənd camaatı Nəzarət[in] payladığı düyünü almaq istəmir. Onların dediyinə görə əvvəla, paylanan "ucuz düyü" o qədər pis və alçaq, sınıq və əzilmiş düyüdür ki, kəndçilər bu düyünü almaq istəmirlər. Kəndçilərin hələlikdə bir az-maz taxıl ehtiyatları olduğundan çox bərk ehtiyac hiss etmir, ona görə də bu düyüyə bir o qədər də məhəl qoymayırlar.

Və saniyən [ikincisi] düyünün qiyməti çox bahadır. Nəzarət düyünü girvənkəsi 3 manat 30 qəpikdən kəndçi vəkillərinə buraxdığı halda, yol kirayəsi, vəkillərin məxarici və pul verənlərin pul prosentləri bu düyünün qiyməti[nə] artırılandan sonra düyü bir qiymətə gəlib tamam olacaq ki, hal-hazırda o düyünün əla dərəcəsi bazarda ondan da ucuz satılmaqdadır.

Və salisən [üçüncüsü] böylə ittifaqlarda [hadisələrdə] qabağa düşüb, camaat üçün ciblərindən pul qoyub zəhmət qəbul edən camaat vəkilləri bunu yaxşı görüb bilirlər ki, düyü işində onların ciblərinə bir o qədər mənfəət girməyəcəkdir. Bezin arşını[nı] 5 manat yarıma alıb 12

manata satmağa dadanan vəkillər, düyüdə bir o qədər mənfəət olmayacağını görüb onun dalınca gəlmirlər. Doğrudan da, öylə deyil ki, heç bir kənddə bu düyüyə möhtac olan kəndlilər tapılmasın. Bir çox kəndlər var ki, orada həqiqətdə də 3 manat 30 qəpiyə düyü satılsa, onu kəndçilər alarlar. Lakin çün heç bir cəhətlə 3 manat 30 qəpiyə düyü kəndə gedib çıxmayacaqdır. Ona görə də ingilislər komandanı kəndlərə paylatmaq üçün verdikləri 3750 put düyünü Nəzarətdən geri almağa labüd [məcbur] olmuşlardır.

Burada dübarə Ərzaq Nəzarətinin nəzərini bu işə cəlb edirik ki, şəhərdə və neft mədənləri dairəsində olan kimi, kəndlərdə də camaata ərzaq və ya qeyri əşya paylamaq işini öz əlinə götürsəydi, bir neçə cəhətdən həm camaata, həm də özünə külli mənfəətlər vermiş olardı. Camaata ona görə ki, ucuz və bilavasitə hər kəsin öz hissəsini öz əlinə verməklə hamını qane etmiş olardı. Özünə də ona görə ki, camaat adına cürbəcür mübaliğə siyahılarla Nəzarətdən alı[nı]b küçə və bazarlarda vəkillər tərəfindən satılan ərzaq və sair şeylər Nəzarətin özündə qalıb lazımlı yerində sərf edilər.

M. S.

İANƏ

Xəstə türk əsgərləri nəfinə [xeyrinə] idarəmizə zeyldəki [aşağıdakı] ianələr vüsul olmuşdur [çatmışdır]:

Şəfi bəy Rüstəmbəyovdan - 50 manat;

Məhəmmədhəsən Zeynalzadədən - 50 manat;

Abdulla bəy Əfəndizadədən - 25 manat;

Hidayət Nəsrullabəyzadədən - 25 manat;

Nurulla Axundzadədən - 25 manat;

Xeyrulla Axundzadədən - 25 manat;

Həbib Ələkbərzadədən - 25 manat;

Məhəmmədəli Əhmədpaşa oğlundan - 25 manat;

Yekun - 250 manat.

- - - - - - - -

Mirzə Muxtar Məhəmmədov üçün Mixail Sergeyeviç Poqosovdan - 5 manat.

Mehmanxaneyi-“Məhəmmədiyyə”

Qubernski küçədə “Azərbaycan” mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

Kamali-ehtiramla İbrahimov

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Azərbaycan Məclisi-Məbusanında

səh. 302. "…heç xələl vermədən məmur ola bilərlər…": "məmur" yerinə qəzetdə "məbus" getmişdir.

Teleqraf xəbərləri

səh. 304. Tayn [Tyne]: İngiltərənin şimal-şərqində çay. Şimal dənizinə tökülür.

Sülh Konfransı

səh. 305. "polkovnik Hauz": qəzetdə səhvən "polkovnik Xode" kimi getmişdir.

"Çinda": qəzetdə səhvən "Çuxida" kimi getmişdir.

Qəzetələrdən

səh. 305. "…Məclisi-Müəssisan üzvlərinin komitəsi düşmənanə hərəkatın...": qəzetdə "komitəsi" və "düşmənanə" sözləri arasında "tərəfindən" sözü var; cümlənin mənasını pozaraq onu anlaşılmaz etdiyi üçün, bu sözü çıxardıq.

səh. 306. "…Sultan həzrətlərinin hüzuruna…": söhbət 1918-1922-ci illərdə hakimiyyətdə olan VI Məhməddən gedir.

"Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

Adlarımız

səh. 309. "prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

səh. 311. "ali-əba": İslamiyyətdə Həzrəti-Peyğəmbəri və yaxın qohumlarını əhatə edən ifadə; hədislərə görə ali-əba Peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyndən ibarət olmuşdur.

“...türklərin «qulu» (qulu) kəlməsindən...”: “qulu” sözü köhnə əlifba ilə iki variantda (قلی , قو لی) yazılmışdır.

“...rəbiyyüləvvəlin 12-də...”: Həzrəti-Peyğəmbərin anadan olduğu gün.

Ərzaq Nəzarəti canibi-alilərinə açıq məktub

səh. 313. “...Ərzaq Nəzarətinin idarə müdiri Makinski imzası ilə Zaqatalaya bez göndərilməsi xüsusunda dərc edilmiş məktubun...”: söhbət, Abbasəli bəy Makinskinin rus dilində “Azerbaydjan” qəzetinin 18 yanvar 1919-cu il tarixli 11-ci nömrəsində dərc olunan məktubundan gedir.

“Qəbulov”: söhbət Mustafa bəy Qəbulovdan gedir.

Rəf’i-iştibah

səh. 313. “16 kanuni-sani 1334”: burada il, rumi təqvimlə verilmiş; “16” yerinə də “61” getmişdir; 16 yanvar 1919-cu il kimi başa düşülməlidir.

Bakı xəbərləri

səh. 314. “...Bakı türk mütəəllimlərinin rejissoru (?) Abbas Mirzə Şərifzadənin...”: sual işarəsi mətndə getmişdir.

Kəndlərə düyü paylanmaq barəsində

səh. 316. “Mim. Sad.”: bu imza Məhəmməd Sadiq Molla Ruhulla oğluna məxsusdur.

Bazar ertəsi, 20 yanvar 1919-cu il, nömrə 92

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 17 rəbiülaxir sənə 1337. 20 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

YENİ İNGİLİS KABİNƏSİ

Teleqraf, İngiltərədə Dünya müharibəsi əsnasında ilk dəfə olaraq, məmləkətin hali-hərbdə [müharibə şəraitində] olduğuna baxmayaraq, böyük bir müvəffəqiyyətlə seçkilərini təzələyən Britaniya Parlamanının toplandığını bildirdi. Bunun təbii nəticəsindən olmaq üzrə yeni İngiltərə Kabinəsinin təşəkkül eylədiyi də xəbər alındı.

İngilis ünsürünün Avropa ünsürləri arasında ən mütərəqqi, əzmkar və tutduğu işlərində müvəffəq olmayınca əl çəkməz, səbatkar bir ünsür olduğu məruf idi [bilinirdi].

İngilis qüdrəti-idarəsinin [idarə gücünün] aləmşümul [bütün dünyanı əhatə edən] bir şöhrətinə nümunə olmaq üzrə xalqımız arasında birisinin zəkavət və bacarığını bildirmək üçün söylənən "ingilisdir" kinayəsini zikr etmək [yada salmaq] kafidir.

İngilis politikası. Bunun nə olduğunu kim bilməzdi?!

Bir zaman Avropa mütəfəkkirləri ingilislərin müvəffəqiyyətinə heyran və bunun "əsbabi-faiqiyyətini" [üstün olmasının səbəblərini] aramaqla məşğul olurlardı. Bu məsələ, bilxassə [xüsusilə] Fransa mütəfəkkirlərini məşğul edirdi.

Avropanın mərkəzində Bismarkdan sonra yeni bir hökumət vücuda gəlirdi. Almaniya milləti gec qalmış olsa da "ingilislik"lə rəqabətə çıxırdı. Bu rəqabət öylə hesaba alınmaz, kitaba keçirilməz rəqabətlərdən deyildi. Bu rəqabət, doğrudan-doğruya İngiltərəni qorxuzurdu. Almaniya bəhriyyəsi [donanması] artır, ticarəti genişləyir, siyasəti dəxi bu nisbətdə mütəcaviz [təcavüzkar] bir şəkil alırdı.

Almaniya İngiltərədən ötrü daha əvvəlcə Hindistanı təhdid edən Rusiya kimi deyildi. Daha ziyadə müdhiş idi. Çünki yalnız əsgər qüvvəsi deyil, texnika, elm, fənn və təşkilat cihazları ilə də müsəlləh [silahlanmış] idi. Həqiqətən də, kəndisindən çəki[ni]lər bir hərif idi.

Hətta Almaniyanın az bir zaman içərisində çox tədarüklər gördüyünü, çox tərəqqilər göstərdiyini tədqiq edənlər, ingilis dövranının intəhaya [nəhayətə] uğramaq üzrə olduğuna zahib olmuş [inanmış, zənninə qapılmış], mövqeyini yeni bir qüvvət və düha ilə ortaya çıxan "almanlığa" tərk etmək sırası gəldiyinə hökm verməyə başlamışlardı.

Vəziyyət həqiqətən də ciddi idi. Qoca

İngiltərə ehtiyat tədbirləri görmək məcburiyyətində idi.

İngilis də ehtiyatsız olarmı?

“Robinzon Kruzo” hekayəsində yalnız bir adaya düşüb də tək başına bir aləm vücuda gətirən və hər şeyi yoxdan sazlayan insan tipi bir ingilis müxəyyiləsindən [təxəyyülündən] doğmamışmıdır?

Bir çox münəqqidlər [tənqidçilər] “Kruzo” tipinin qeyri-təbii olduğunu iddia eyləmişlərdi. Fəqət Hərbi-ümumidəki [Birinci Dünya müharibəsindəki] ingilis mətanət və tədbirləri “Kruzo” tipinin xəyal deyil, bir həqiqət olduğunu göstərdi.

Yoxdan ordular yapıldı. Ürf və adət düşkünü, ənənə və tarix əsiri olan ingilis, ömründə ilk dəfə olaraq mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] yükünü yükləndi.

Camaat bətnindən yetişmə bir xalq oğlu, qoca bir imperiyanın başına keçərək Britaniya cəzirələrini [adalarını] dünyanın çar ətrafında [dörd bir tərəfində] qaranın [dünyanın quru ərazilərinin] altıdan bir dərəcəsində genişləyən, müxtəlif məkanda, müxtəlif lisanda danışan insanları bir araya topladı və cızılmış məqsədə doğru sürükləyə bildi. Nəticədə dünyanın Rusiya, Almaniya kimi müəzzəm əsgəri dövlətləri ixtilal və inqilab atəşləri içində yaxılıb qıvrılmaqda ikən, İngiltərədə adi bir zamanda imiş kimi seçkilər icra olunur. Lloyd Corc kabinəsi təkrar bir qaya kimi möhkəm duraraq mövqeyini saxlayır.

Müharibəni müvəffəqiyyətlə bitirmək üçün ingilisləri əsgərlik altına çəkmiş olan Lloyd Corc, kəndisi Mühafizəkaran partisinə [Mühafizəkarlar partiyasına] mənsub olduğu halda, ingilis mühafizəkarlığının əsasını təşkil edən milli bir ənənəni qırmağa ingilis qövmünü vadar eyləmişdi. İngilis məcburi olaraq əsgərliyə alınmışdı. Bu, İngiltərəni bilənlər üçün Almaniyanın sülh istəməsi qədər nəzərə bəid gəlir [uzaq görünən] bir məsələ idi. Onun üçün də ingilis əsgərliyinin könüllü üsulundan üsuli-icbariyə keçməsi böyük bir inqilab idi. Fəqət İngiltərə tarixinin çoxca qeyd etmiş olduğu qansız inqilablardan.

Müharibəyə şiddətli surətdə davam etmək əzmində ikən, daxili bir inqilab yapmış olan İngiltərə, sülhi-ümumi ərəfəsindəki hazırlığında da digər bir inqilab yapmışdır.

Saqın İngiltərəyə “bolşevizm” girdi, sanmayınız.

Xayır, hangi bir vəq’ədən bəhs etmək istədiyimi duysanız, burada “inqilab” kəlməsi işlətdiyimə belə heyrət edərsiniz.

İngilislərin Hindistanla olan əlaqələrinin dərəcəsini kim bilməz? Kim bilməz ki, Hindistan İngiltərənin canı və yaxud təbiri-mərufla [məşhur bir ifadəylə] can şüşəsidir. İngiltərə siyasətinin məhvərisiyasəti [siyasətinin mərkəzi oxu] daima Hindistanın mühafizəsi üzərinə dönmüşdür. Dostluğunun da, düşmənliyinin də səbəbi daima Hindistan olmuşdur. Hindistana aşiq olanları, oraya doğru baxan-ları İngiltərə daima qısqanmışdır. Bunun- la bərabər ənənəpərəst ingilis “lordluğu” bir hindliyi heç bir zaman bir britaniyalı qədər müsavi, onun qədər həmhüquq və həmvəzifə görəmməmişdi. Dünyanın binnisbə [nisbətən, digərlərilə müqayisədə] ən demokratik bir məmləkəti və tarixcə ən qədim bir

məşrutə [konstitusiyalı] hökuməti ikən halən [hələ də] lordlara qarşı, xalqdan başqa bir şəkildə mərasim və təşrifat [təntənə] istəyən bu torpaqda ingilis olmayan millətlərə qarşı dəxi xüsusi surətdə müamilə yapılırdı [rəftar edilirdi]. Bunun üçün bir hindlinin gəlib də ingilis hökuməti əzasından [üzvlərindən] olması, bir ingilisin icbari surətdə əsgər getməsi qədər böyük bir vəq'ədir, bir inqilabdır.

Birinci vəq'ə müharibənin müzəffəriyyətlə bitirilməsinə səbəb oldu. İkinci vəq'ə də sülhün millətlərin müsavati-hüququ [hüquq bərabərliyi] ilə nəticələnəcəyi üçün bir fali-nik [uğurlu əlamət] təşkil etsəydi...

Həddi-zatında [əslinə baxanda], dünyanı istila edən bugünkü demokratik fikirlərin qalibiyyəti qarşısında bir hindlinin nəzarət [nazirlik] məqamını ehraz eyləməsi [əldə etməsi] əlbəttə ki, böyük bir şey təşkil eyləməz. Fəqət bu vəq'əni mücərrəd olaraq deyil, ingilis ənənatı [ənənələri] nöqteyi-nəzərindən görərək mühakimə etməlidir.

Fəqət ingilislər nə qədər mühafizəkar və ənənəçi olsalar da, dərəceyi-kamala gəlmiş [kamilləşmiş] millətlərin istədikləri haqlarını verməkdə digər cahangir [imperialist] dövlətlər qədər müənnid [inadkar] olmadıqları da bəllidir.

Dərəceyi-kamala ərib də, haqqını israrla istəyən millətə qarşı güzəşt etmək, bu da bir ingilis ənənəsidir. Bu nöqteyi-nəzərdən irland homrulu [muxtariyyəti] qanunən qəbul edildi. Hali-hərb keçincə, feilən də tətbiq olunacağına inanmalıdır.

Hindli Ser Sinhanın Britaniya nazirliyinə təyini dəxi hindli milliyyətpərvərlərin tələbatına qarşı hind muxtariyyət və imtiyazatı tövsisinə [imtiyazlarının genişləndirilməsinə] doğru atılmış bir güzəşt politikasının dəlili deyilmidir?

Zənn edəriz ki, odur.

Müqəddəratımızın surəti-həllini sülhi-ümumi məclisindən bəkləyib dururuz. Bu məclisdə nüfuzlu bir söz sahibi olan İngiltərə hökumətinin millətlərin haqlı tələbatını, bizim kimi dövlətlərin hürriyyət və istiqlal tələbindəki iddialarını qəbula mail bir hökumət olmasını əlbəttə ki, arzu edəriz. Kəndi arasına İngiltərə əfkari-ümumiyyəsindən [ictimai fikrindən] ötrü belə nagəhani [gözlənilməz] olaraq xilafi-ənənə bir hindlini dəxi almış olan Lloyd Corc kabinəsinin istədiyimiz böylə bir hökumət olmasını çin könüldən [ürəkdən, səmimi qəlbdən] dileriz.

M. Ə. Rəsulzadə

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

8-nci iclas

(keçən nömrədən mabəd)

Qanun layihələrinin müzakirəsindən sonra növbətdə Parlaman baş katibinə iki müavin seçmək məsələsidir.

Katib müavinləri

Sədr təklif edir baş katibə müavinlər seçilsin.

"Müsavat" nümayəndəsi təklif edir ki, müavinlərin biri "Əhrar" fraksiyasından, digəri də azlıqda qalan millətlər fraksiyonundan olsun.

Quxman azlıqda qalan millətlər fraksiyonu tərəfindən bəyan edir ki, onlar namizəd verməkdən imtina edirlər.

Vinoqradov bəyan edir ki, slav-rus nümayəndələri də müavini-katibliyə [katib müavinliyinə] namizəd göstərməyəcəklərdir.

Məhəmməd Əmin [Rəsulzadə] - O halda bitərəflərdən olsun.

Bitərəflər dəxi namizəd vermir.

Şəfi bəy [Rüstəmbəyli] - O biri firqələr namizəd göstərmək istəməzsələr, biz “Müsavat”dan göstərəriz.

Nəticədə "Əhrar" fraksiyonundan Bayram Niyazi Kiçikxanov və “Müsavat” dan Hacınski Mehdi bəy əfəndilərin namizədliyi qonularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə məzkur [deyilən] iki zat baş katibə müavin seçilirlər.

Komissiyaların təkmili [tərkibinin tamamlanması]

Bundan sonra Sədr bəyan edir ki, komisyon əzalarından [üzvlərindən] bəziləri nazir, digərləri heyəti-mürəxxəsəyə [nümayəndə heyətinə] təyin edildiklərindən, bəziləri məzuniyyətə getdiklərindən məzkur [deyilən] əzaların yerinə yeni adamlar göndərərək komisyonları təkmil etmək lazımdır. Binaənileyh [ona görə], xahiş olunur firqələr yeni namizədlər göstərsinlər.

(Sədr hangi komisyondan kimlərin getdiklərini elam [elan] edir. Məclis yeni namizədlər göstərir.)

Məclisi-Məbusan mühafizəsi

Növbədə Məclisi-Məbusan mühafizəsi üçün qvardiya təşkili məsələsidir.

Məhəmməd Əmin Rəsulzadə - Həzərat! Bilirsiniz ki, Məclisi-Məbusanın mühafizəsi məsələsinin həlli lazımdır. Bizə bir qüvvə lazımdır ki, iclas günləri, hətta sair vaxtlarda Məclisi-Məbusan binasını mühafizə etsin. Hazırda şəhərimizdə polis nəfəratı [nəfərləri] var, şəhərin asayişini gözləyir. Fəqət, bunlardan bir dəstə ayıraraq Məclisi-Məbusan qaraqolu təyin etmək mümkün deyildir. Zira böylə olsa, şəhərin mühafizəsi zəifləşər.

Binaənileyh [ona görə], biz başqa bir çarəyə təvəssül [müraciət] etməliyiz, bilxassə ki, ümumiyyətlə parlamanların ixtiyarı var kəndi mühafizələri üçün xüsusi dəstə təsis və təşkil etsinlər. Bizə də lazımdır böylə bir bölük təşkil edək. Bu surətlə təşkil olunan mühafizə bölüyü Məclisi-Məbusana tabe olur və həmişə Parlamanı mühafizə edir. Onun məxarici də Parlaman öhdəsinə olur. Bu bölük Məclisi-Məbusan mühafizəsi ilə bərabər, ümumi asayişi də düşünməlidir. Zikr olunan işlərə baxmaq üçün hər parlamanda bir müdafiə komisyonu təşkil olunur ki, mühafizə bölüyünü tənzim edir və bu məsələyə aid işlərə baxır. Bunun üçün ayrıca bir qanun layihəsi lazım görülməyərək, ancaq təklif ediriz 5 nəfərlik bir müdafiə komisyonu seçilsin.

Sədr namizədlər göstərilməsini təklif edir.

Bitərəflər namından Abuzər bəy Rzayev böylə bir siyahı göstərir:

Musa bəy Rəfiyev (“Müsavat”), Camo bəy Hacınski (sosialist), Qara bəy Qarabəyli (“İttihad”), Aslan bəy Qardaşov (“Əhrar”) və Xosrov bəy Sultanov (bitərəf).

Təklif və siyahı ittifaqi-ara [yekdillik]

ilə qəbul olunaraq Divani-Rəyasətə [Rəyasət Divanına] tapşırılır ki, mühafizə bölüyü təşkili üçün smeta hazırlayaraq Parlamana təqdim etsin.

Kredit

Ləvazim komissiyası sədri C[amo] Hacınski Parlaman binasında təmirat işləri üçün 50 min manat avans buraxılmasını təklif edir.

Təklif qəbul olunur.

Şəki yolları haqqında

"Əhrar" fraksiyası tərəfindən yollar naziri namına [adına] Şəki-Zaqatala ətrafındakı yollar haqqında verilmiş bir sorğunu katib oxuyur.

Abdulla bəy Əfəndiyev və **Kiçikxanov** sorğunu müdafiə edərək birər nitq söyləyir. Ümumiyyətlə, hər məmləkət üçün yolların əhəmiyyətini göstərərək məhsul nöqteyi-nəzərindən Azərbaycanın ikinci Bakısı hesab etdiyi Şəki və Zaqatala yollarının qayət fəna olduğunu qeydlə deyirlər ki, orada neçə ildir ki, yollar təmir edilmir, kəndlilər böyük xəsarətə düçar olurlar; milyonlarca put meyvə yolsuzluqdan xarab olub çürüyür, əhali isə bundan böyük zərərlər çəkir. Halbuki, məsələn, Zaqataladan Gəncəyə gedən qısa bir yol təmir edilərsə, meyvələr bazara gətirilərək satılar. Bu yolu təmir etmək hökumət xəzinəsinə də güc olmaz, çünki Gürcüstana göndərilən mallardan alınmış 200 min manat gömrük bu məqsəd[lə] sərf edilə bilər.

Məlikaslanov - Sorğuya hökumət tərəfindən Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Xudadad bəy Məlikaslanov həzrətləri cavab verərək bəyan edirlər ki:

Adətən yollara iki nöqteyi-nəzərdən baxılır: sövqülceyş [stratejik] və ticarət nəzərindən. Birinci yollar həmişə hökumət xərci ilə təmir edilir, ikinci isə zemski xərcdən [yerli büdcədən]. Azərbaycan yollarının həpsi bu vaxtadək (15 versti müstəsna olmaq üzrə) canişinlik vasitəsilə zemstvo [yerli özünüidarə orqanı] xərcinə təmir edilirdi və bu yollara əhəmiyyət verilməzdi. Şimdi məzkur [deyilən] yollar Azərbaycan Hökumətinə keçdikdə, işlər dəyişmişdir. Mən özüm bu xüsusda hökumətə bir qanun layihəsi vermişəm. Bu günlərdə hökumətdə qəbul və Parlamana idxal ediləcəkdir. Məzkur qanuna görə yolların həpsi Türüq və Məabir Nəzarəti idarəsinə keçəcək və xəzinə xərci ilə təmir ediləcəklərdir.

Ümuri-Xeyriyyə nazirinin məktubu

Bundan sonra katib, Ümuri-Xeyriyyə Nəzarətindən [Sosial Təminat Nazirliyindən] varid olmuş [gəlmiş] bir məktubu oxuyur. (Məktub ruscadır.)

M. Ə. Rəsulzadə - (yerindən) O nədir, mən anlamıram. Nə üçün yabançı dildədir?

Səslər - Qaytarın, öz dilimizdə yazsınlar.

Əsas etibarı ilə kağızın geri qaytarılması qərarlaşdırılmaqla bərabər, məktubun məzmununa əməl olunur və Zəngəzur qaçqınlarının əsəfəngiz [təəssüf doğuran] bir halda olduqları nəzərə alınaraq qərar verilir ki, məbus Klenevskinin qaçqın işlərinə baxmaq üçün göndərilməsinə etiraz edilməsin. Amma bu iş üçün bir də ayrı bir məbus göndərilməyərək Nəzarətə [Nazirliyə] tapşırılsın ki, lazım olsa oraya başqa bir təbib də göndərsin.

Bitərəflər deklarasiyası

Axırda **Yusif Əhmədov** növbədən xaric səs alaraq, bir müqəddimədən sonra Bitərəflər fraksiyonu tərəfindən zeyldəki [aşağıdakı] deklarasyonu oxuyur:

Keçirdiyimiz ağır tarixi bir zamanda bizim siyasi və ictimai həyatımızda Azərbaycanın istiqlaliyyəti və bu istiqlaliyyəti mühafizə etmək ən əsaslı bir məsələlərdən olsun gərək. Bu məsələni layiqincə ifa üçün məmləkətin daxilində və xaricində camaatın etibarını qazanan hökumət olacağı aşkardır. Bu hökumət kəndi fəaliyyətində istiqlaliyyətə və maarif-mədəniyyətə çıxmağa çalışan məmləkət parlamanındakı bitərəf nümayəndələri dəstəsinə dayaqlanmalıdır. Fikrimizcə bunlar cəmiyyətimizin ən səlahiyyətli və məmləkət əfkarını [ictimai rəyini] düzgün əksəndaz edici [əks etdirən] bir dəstədir. Bundan dolayı Parlamanda hazır olan bitərəf üzvlər xüsusi bir dəstə təşkil edərək, Azərbaycanın istiqlaliyyətini hər növ ilə müdafiə və istər daxildən və istər xaricdən üzərinə gələn qara qüvvələrdən mühafizə edəcəkdir. Bununla belə bitərəflər dəstəsi aşağıdakı məqsədləri təqib edəcəkdir:

1) Tez bir zamanda istiqlaliyyətimizi müdafiə edə biləcək qüvvətli ordu təşkil edilsin;

2) Dörd quyruqlu [üzvlü] üsul ilə seçilmiş qanunverici bir palata ilə təşkil ediləcək parlamentolu və demokratik cümhuriyyənin xalq hakimiyyəti əsası ilə möhkəmləşməsinə var qüvvəsi ilə çalışacaqdır;

3) Hər növ zəhmətin mühafizəsi və yaxşılaşması üçün bütün yerlərin, hətta xüsusi əmlakın dəxi kəndlilər arasında təqsim edilməsi [bölünməsi] üçün məmləkətimiz həyatında ictimai təğəyyüratın [dəyişikliklərin] geniş surətdə tətbiq edilməsini tələb edəcəkdir;

4) Məmləkətimizdə Rusiya inqilabikəbirinin [Böyük Rusiya inqilabının] qazancları (hürriyyəti-mətbuat, kəlam, ittifaq və qeyrə [mətbuat, söz, ittifaq azadlığı və digər azadlıqlar]) həyata tətbiq edilməlidir;

5) Vergilər füqəra sinfi öhdəsindən götürülüb sərvətdarlar [varlılar] boynuna at[ıl]malıdır;

6) Qonşu millətlərlə sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamalı;

7) Hökumət və ictimai həyatın hər bir dairələrində əqəliyyət [azlıq] təşkil edən millətlərin hüququ təmin edilməlidir;

8) Tez bir zamanda Məclisi-Müəssisan [Təsisçilər Məclisi] çağırmalı.

Həmin bitərəflər dəstəsi məzkur [deyilən] əsasları həyata tətbiq etdikdə, keçirdiyimiz zamanın şəraitini nəzərə alıb, əhalinin bir və ya digər dəstəsi və sinfi deyil, bəlkə ümum camaatın mənafeyini gözləyəcəkdir. Biz anlayırız ki, ümumi bəşəriyyət amalına yetmək üçün camaat nifaqla deyil, bəlkə bütün yaradıcı qüvvələri birləşib millətinin parlaq bir surətdə nəşvü-nüma tapmasına [tərəqqisinə] səbəb olmalıdır.

ADLARIMIZ HAQQINDA

“Azərbaycan” qəzetəsinin 91-ci nömrəsində “Adlarımız” ünvanlı məqaləni oxuyub Fərhad Ağazadə cənablarının təsəvvürlərini Məşixət [Şeyxülislamlıq] İdarəsi təhsin edir [bəyənir] və əlavə edir ki,

mollalara məvacib verilmək xüsusunda Məşixət İdarəsi mükəmməl layihə və büdcə tərtib verib, Ədyan və Məzahib Vəzarətinə [Dini Etiqad Nazirliyinə] təqdim və təsdiq olmağını rica edibdir. Metrik dəftərlərini qayda və nizam üzrə saxlamaq üçün tədbirdə olub və əks surətdə metrik dəftərinə uşaqların təvəllüdlərini səbt [qeyd] etdirməyən valideynə və səbt etməyən mollaya cəza və cərimə olmağın lüzumunu Məşixət İdarəsi nəzərə alıb, bu halda müzakirədə və layihə tərtib verməyə məşğuldur. Mahəza [bununla birgə], Məşixət İdarəsi ərbabi-kamal sahiblərindən rica edir ki, ruhani ümuratına [işlərinə] dair hər bir rəy və təsəvvürləri olsa, qəzetə ilə və baxüsus [xüsusilə] məktubla və bəlkə şifahən bəyanat verməklə Məşixət İdarəsini müttəle [xəbərdar] edələr ki, ta nəzərdə olan layihə mükəmməl bir surətdə yazılıb Vəzarətin [Nazirliyin] təsdiqinə verilsin.

Məşixət sədrləri:
Şeyxülislam Molla Ağa Ağaəlizadə
Müftü Mustafa əfəndi Əfəndizadə

TELEQRAF XƏBƏRLƏRİ

Almanyada

Amsterdam - Berlin əhvalı möhkəm deyildir. Hərçənd indiki əhvalı müəyyən etmək müşkülsə də, amma bununla bərabər anlaşılır ki, bolşeviklər hökuməti yıxmaq kimi əzmlərindən dönməmişlərdir. Hökumət ciddi iqdamatdan [tədbirlərdən] ehtiyat edib, fəqət qanlı hadisələrə yol vermişdir. Amma nəticədə isə külli hökumət qoşunları asilərin tərəfinə keçmişdir. Hal-hazırda Libknext Vilhelmin yatacaq otağını işğal eyləmişdir. Vilhelmin nahar otağında isə müsadimə [toqquşma] zamanında qətl edilən matrosların meyitləri qoyulmuşdur. Giranbəha [bahalı] xalılar qanla boyanmışdır. Hökumət, sarayı qarət edən bu cür ünsürlərə qarşı iqdamatdan acizdir.

* İsveçrədən yazılır: Feldmarşal Hindenburq, Müttəfiqlərin rizası ilə öz sadiq qoşunları ilə Berlin üzərinə hücum edir.

* "Forverts" qəzetəsi yazır: Berlin qoşunlarının əksəri, yeni cümhuriyyət qoşunları və külli müsəlləh [silahlı] vətəndaşlar matroslara qoşulmuşlardır. Bunlar sair Spartak tərəfdarları ilə Marstall imarətini kəndilərinə ərkani-hərb (ştab) qərar vermişlərdir. Hökumət qoşunları dəfəatla bu imarəti ələ keçirmək istəmişlərsə də, hər dəfə bolşeviklər tərəfindən püskürdülmüşlərdir.

Kopenhaq - Potsdamdan hökumət qoşunları gəldiyi üçün matrosların gücü əskilmişdir. Yeni qoşunlar matrosların ştabı qarşısında bir nümayiş qurmuşlardır. Matroslar atəş açdıqdan sonra hökumət qoşunları da eyni cavabı vermişlər. Bombardmandan Vilhelm sarayının balkonu tamamilə dağılmışdır. Ledebur orada bir nitq irad edərək [nitq söyləyərək] Potsdamdan gələn qoşunları məzəmmət edib bu qanlı müsadimələri [toqquşmaları] qardaş öldürücü müsadimə hesab eyləmişdir. O, saldatlarla matrosların arasını düzəldəcək bir komissiya təşkilini təklif eyləmişdir. Mumaileyhin [adı çəkilən şəxsin] bu təklifi qəbul edilmişdir. Matroslar qardaş qanına səbəbiyyət verən 20 nəfər öz afserlərini [zabitlərini] həbs etmişlərdir.

Amerikanın müavinəti [köməyi]

Amerika Vəkillər Palatası, Avropanı aclıqdan xilas etməkdən ötrü 100 milyon dollar buraxılması qanununu qəbul etmişdir. Bu qanunun bu yaxınlarda Məclisi-Əyan [Senat] tərəfindən təsdiq ediləcəyi gözlənir.

İngilis əsgərlərinin Vyanaya vürudu [gəlişi]

Tarixdə birinci dəfə olaraq İngiltərə əsgərləri Vyanadan keçib getmişlərdir. Bu əsgərlər Vyana şəhərinin arvad və uşaqlarını aclıqdan xilas etməkdən ötrü İtaliyada olan ingilis əsgərləri tərəfindən ianə edilən ərzaq şeylərini gətirmişlərdir.

SÜLH ƏTRAFINDA

Sülh Konfransının açılması

Bazar günü hamı nümayəndələrin iştirakı ilə Sülh Konfransının birinci dövr ictimasının [sessiyasının] cələsəsi [iclası] vaqe olacaqdır.

Almaniyadan ötrü təzə şərait

Almaniyadan ötrü təzə mütarikə şəraiti [atəşkəs şərtləri] təlqin [diktə] etməkdən ötrü general Foş Trevu şəhərinə azim olmuşdur [yola düşmüşdür]. Buna da səbəb, müharibə hərəkatı dayandırıldıqdan sonra Müttəfiq dövlət hərbi əsirləri ilə fəna müamilədə [pis rəftarda] bulunmaq və onları öldürmək olmuşdur. Bundan əlavə, Fransadan və Belçikadan aparılan əmvalın [malların] və makinaların tezliklə qaytarılmasını təkid etmək dəxi lazım görünmüşdür. Burasını qeyd etməlidir ki, Almaniya Hökuməti bir çox ittifaqlarda [hallarda] mütarikə şəraitinə əməl etməmişdir. Belə ki, indiyə qədər Almaniya hökuməti 4700 parovoz, 130 min vaqon, 5 min yük avtomobil[i], 900-ə qədər böyük top, 1000 ədəd səngər topu, 7 min pulemyot və 6 min aeroplanı verməmişdir.

Cəmiyyəti-Əqvam

Fransa qəzetələri Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] layihəsinin ümdə maddələrini dərc etməkdədirlər. O cümlədən deyilir ki, sazişdən əlavə [silah] saxlanmağın məhdud bir hala salınması və məcburi həkəm [arbitr] təyin edilməsi, bundan əlavə Sülh Konfransının millətlər arasında təzə münasibat [münasibətlər] düzəltməsi maddələri dəxi daxil edilmişdir. Bitərəf dövlətlər konfransa buraxılacaqlardır, fəqət heç bir millət, Cəmiyyəti-Əqvamın tələb etdiyi məmnuniyyətbəxş təminatı təqdim etməsə, Cəmiyyəti-Əqvam üzvü və ya başqa millətlərlə həmhüquq ola bilməyəcəkdir. Almaniya hökuməti öz borclarını əda etdikdən [qaytardıqdan] sonra başqa millətlərlə həmhüquq ediləcəkdir.

GÜRCÜ-ERMƏNİ KONQRESİ

Yanvarın 10-dan etibarən Tiflisdə Erməni-Gürcü Konqresi başlanmışdır.

Konqre heyəti: İngiltərə və Fransa tərəfindən polkovnik Stuart (sədr), konsul Dora, kapitan Dubar.

Gürcüstan tərəfindən Gegeçkori, N. V. Ramişvili, general Bedezanov, Sabaxtaraşvili.

Ermənistandan Artunyan, general

Korqanov, Mamikonyan, Xaçaturyan, Ter-Xaçaturyan və Xanskaryan.

Konfransın dörd iclası olmuşdur.

Bütün əsaslı məsələlərdə konfransda ermənilərlə gürcülər arasında ixtilafi-rəy [fikir ayrılığı] müşahidə olunurmuş. Hər bir kəskin məsələdə qəti söz Müttəfiqlərin imiş. Birinci mübahisə Gürcüstanla Ermənistan arasında olan xətti-hüdud [sərhəd xətti] barəsində imiş. Gürcü vəkilləri konqredə bəyan etmişlər ki, Gürcüstan qoşunları müharibə dayandırıldığı zaman tutduqları yerlərdə yenə durmalıdır. Erməni vəkilləri tələb eyləmişlər ki, gürcü qoşunları mütarikə əhdnaməsi [atəşkəs sazişi] bağlanan zaman durduğu yerə çəkilsinlər. Hər iki tərəfin nöqteyi-nəzərləri anlaşıldıqdan sonra, Müttəfiq dövlətlər nümayəndələri gürcü vəkillərinin nöqteyi-nəzərlərinə razı olduqlarını bildirmişlərdir. Deməli, bu məsələ Müttəfiqlərin və gürcülərin arzularına müvafiq bir surətdə həll edilmişdir. Bu qərar əleyhinə erməni nümayəndələri protesto etmişlərdir.

Bitərəf məntəqədə məmurlar təyini məsələsi dəxi böyük münaqişata [münaqişələrə] səbəb olmuşdur. Bu məsələdə erməni vəkilləri böylə bir layihə təqdim eyləmişlər: Bitərəf məntəqədə üç nəfərdən ibarət bir komissarlıq təyin edilsin. Birisi gürcü hökumətindən, ikincisi erməni hökumətindən, üçüncüsü isə yerli əhalidən və bunların hər üçü Müttəfiq komandanının kontrolu altında olmalı imiş. Gürcüstan nümayəndələri isə bu məsələ xüsusunda başqa təklifdə bulunmuşlardır. Bunlar demişlər ki, Ermənistan[l]a Gürcüstandan birər məmur, bitərəf məntəqədə yaşayan hər millətdən də bir məmur təyin edilməlidir. Nəhayət, gürcülər daha sadə bir təklifdə bulunmuşlardır. Gürcüstan və Ermənistandan birər nümayəndə təyin edilib də bunlar ixtilaflı məsələlərdə Müttəfiqlərin əmrinə müti olmalıdırlar [itaət etməlidirlər]. Bu təklif qəbul edilmişdir.

Üçüncü məsələ, bitərəf məntəqədə olan dəmiryol məsələsi imiş. Erməni nümayəndələri erməni və gürcülərdən ibarət olan qarışıq bir komitə tərəfindən yolların işə başladılmasını və ixtilaflı məsələdə, hakəza [eləcə, eynilə] Müttəfiqlərə müti olmalarını təklif etmişlərdir. Gürcü vəkilləri bitərəf məntəqədə olan dəmiryollarının Gürcüstan Dəmiryol naziri ixtiyarına verilməsini tələb edirlər. Bu təklifə erməni nümayəndələri etirazla əlavə etmişlər ki, məsələnin bu surətlə həlli bitərəflik əsasını xələldar edir [pozur]. Müttəfiqlər nümayəndələri gürcülərin təklifinə razı olmuşlardır. Bu məsələ də gürcülərin arzusuna müvafiq həll edilmişdir. Erməni nümayəndələri buna da etiraz etmişlərdir.

Konferensiya sədri polkovnik Stuart konferensiya qətnamələrinin mümkün qədəri tezliklə tətbiq olunmaları üçün tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] gürcü nümayəndələrindən xahiş etmişdir.

Sonra erməni nümayəndələri Axalkələk uyezdində idareyi-zəbtiyyə [asayişə nəzarət edən idarə] təşkil edilməsi məsələsinin konferensiyada mövqeyi-müzakirəyə qoyulmasına çalışmışlardır. Erməni nümayəndələrinin bu təklifinə gürcü nümayəndələri tərəfindən protesto edilmişdir. Gürcü nümayəndələri demişlər ki, Axalkələk uyezdinə dəxli olan məsələ-

lər Gürcüstanın daxili işlərinə nisbəti olan məsələlər cümləsindəndir. Buna görə də nə Ermənistan hökuməti və nə də konferensiya bu məsələlərə qarışa bilməz. Gürcü nümayəndələri qeyd etmişlər ki, Axalkələk uyezdində müştərək kontrol komissiyalarının vücuda gətirilməsi də Gürcüstan Hökuməti tərəfindən daxili işlər misalınca tətbiq ediləcəkdir.

Müttəfiq dövlət nümayəndələri gürcü nümayəndələrinin bu fikrinə razı olmuşlardır. Axalkələk uyezdi məsələsi də konferensiya müzakirəsindən qaldırılmışdır.

Hərbi əsirlər məsələsi müzakirə edildikdə, erməni nümayəndələri Gürcüstanla Ermənistan arasında müharibə başladığı gündən cinayətkarlıqda müttəhim olmayan həbs edilmiş ermənilərin azad edilməsi təklifində bulunmuşlardır. Gürcü nümayəndələri izhar etmişlər ki, konferensiyanın böylə bir təklifi qəbul etməsi yenə də Gürcüstan Hökumətinin daxili işlərinə qarışmaq deməkdir. Müttəfiq dövlət nümayəndələri gürcü nümayəndələrinin bu fikrinə şərik olub izhar etmişlər ki, Gürcüstanda həbs edilən ermənilərin azad edilmələri məsələsi konferensiya müzakirəsindən qaldırılmalıdır.

Nə miqdarda əsgər saxlamaq məsələsində hər iki tərəf arasında saziş hüsula gəlmişdir. Bu məsələ müzakirə edildiyi zaman gürcü nümayəndəsi polkovnik Stuartdan xəbər almışdır ki, Müttəfiq dövlət komandanlığı Gürcüstan Hökumətini Ermənistan Hökumətinin təkrar hücumundan təmin edirmi? Polkovnik Stuart cavab vermişdir ki, Müttəfiq dövlət komandanlığı tələb edilən təminatı Gürcüstan Hökumətinə verir. Hərgah, Ermənistan Hökuməti tərəfindən təzə hücum olarsa, Müttəfiq dövlət komandanlığı bu hücumu Ermənistanla Gürcüstan arasında deyil, bəlkə Ermənistanla Müttəfiq dövlətlər arasında müharibə səbəbi add [hesab] edəcəkdir.

Bura qədər olan əsgəri və siyasi məsələlər konferensiya tərəfindən həll edilmiş hesab olur.

Növbədə erməni nümayəndələri tərəfindən qaldırılmış olan “bon” [pul] məsələsinin müzakirəyə qoyulmasıdır. Müttəfiq dövlət nümayəndələri gürcü nümayəndələrinin etirazına baxmayaraq, bu məsələnin konferensiya tərəfindən müzakirəyə qoyulmasını etiraf [qəbul] etmişlərdir. Gürcü nümayəndələri bu məsələnin təhriri [yazılı] olaraq Gürcüstan Hökumətinə təqdim edilməsini polkovnik Stuarta təklif etmişlərdir. Polkovnik Stuart gürcü nümayəndələrinin bu təklifini qəbul etmişdir.

QƏZETƏLƏRDƏN

Gürcü-erməni mütarikəsi

Gürcü-erməni mütarikə [atəşkəs] müşavirəsinin axırıncı iclası vaqe olmuşdur. Müşavirə nəticələri bu günlərdə elan ediləcəkdir.

Gürcü nümayəndəsi Kubanda

Gürcüstan hökuməti qərara almışdır ki, bu yaxın günlərdə Kuban hökuməti nəzdinə siyasi bir nümayəndə təyin etsin. Gürcüstan siyasi nümayəndəsi Yekaterinodar şəhərində qalacaqdır.

Erməni əsirləri

Gürcü-erməni müharibəsi zamanın-

da həbs edilib Kutaisə göndərilən erməni əsirləri qayıtmaqdadırlar.

Bolşeviklər Litvada

Kopenhaqdan xəbər verirlər ki, Litvada Şura hökuməti təşkil edilmişdir. Mərkəz Riqa şəhəridir.

Bolşeviklər Pribaltikdə

"Tayms" qəzetəsinə Stokholmdan xəbər verirlər ki, Baltik səvahili [sahilləri] quberniyalarında vücuda gələn əhval xeyli ciddidir. Bolşeviklər və latışlar Estoniyanı işğal edib qarətə başlamışlardır. Bunlar Revel şəhərinin 65 verstliyindədirlər.

Bolşeviklər Polşada

Simsiz teleqrafla Rusiyadan xəbər verirlər ki, Lehistanda [Polşa] Tomaşuv dairəsində hökumət milissiyası bolşeviklər tərəfindən tərk-silah edilmişdir. Dombrov rayonunda bolşeviklərlə lehlər [polyaklar] arasında ciddi müharibə vaqe olmuşdur.

* Varşavadan "Tayms" qəzetəsinə xəbər verirlər ki, bolşeviklər Kovno və Vilnoya hücum etməyə hazırlaşırlar. 60 min Polşa əsgəri bolşeviklərə mümaniət [müqavimət] göstərməyə hazırdır. Lakin bunların kifayət qədəri mühimmati-hərbiyyələri [silah-sursatı] yoxdur.

Bolşeviklər sülh istəyirlər

Rusiya əhvalı haqqında "Royter" acentəliyinə teleqraf edirlər ki, bolşevik hökuməti yenə də sülh təklifi ilə Müttəfiq dövlətlərə müraciət etmişdir. Bolşeviklərin şəraiti [şərtləri] yenə də həman şəraitlərdir ki, noyabr ayında Norveç hökuməti vasitəsilə təklif etmişlərdi. Bolşeviklərin təklifi Müttəfiq dövlətlər tərəfindən cavabsız qalmışdır.

SEVİMLİ ÖLKƏM

Şiş ucları buludlarla dögüşən
Dağlarında buzları var ölkəmin.
Göy otlardan ipək paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.

Göylərində qaraquşlar süzərlər,
"İşmə"sində ceyranları gəzərlər,
Gözəllərin mahnılara düzərlər,
Maral gözlü qızları var ölkəmin.

"Quzğun" dəniz oynar ayaqlarında,
İşıq saçan nefti torpaqlarında.
Tarixlərin altun yarpaqlarında
Dadlı-dadlı sözləri var ölkəmin.

"Yanar dağ"larında yalav coşarmış,
Ona tapınmaya ellər qoşarmış,
Bir çağ varmış, ölkəm azad yaşarmış,
Bu yollarda izləri var ölkəmin.

İpəyindən qızlar çadra geyərlər,
Ölkələrin azad görmək dilərlər,
Bu yerləri bütün ellər sevərlər,
Yalnız bizdə gözləri var ölkəmin.

Cəfər Cabbarzadə
1 kanuni-sani [yanvar]

MƏTBUAT

"Yedinaya Rossiya" qəzetəsi Rusiyanın şərqində, şimalında və cənubunda rus camaatının "Vahid Rusiya" şüarı ilə

birləşərək mübarizəyə qalxışdıqlarında rus ruhu, rus mədəniyyəti və rus həyatının dirilməsi əlaməti görərərək, öz qandığı kimi “rus ruhu” ilə ruhlanır və sosializm bayrağı altında rus millətçiliyi siyasəti yürüdən firqələrin hərəkətində bir fali-nik [uğurlu əlamət], bir ayıqlıq [aydınlıq] görərək yazır ki:

“Biz rus milli həyatının ümumi cərəyanından ayrı düşdük. Lakin burada da birləşmiş rus millətinin təzədən həyata başlamasının yaxlaşdığını hiss ediriz. Həyatımızın bir çox məsailində [məsələlərində], xüsusən hadisati-cariyyəyə [cari hadisələrə] nəzəriyyəmizdə artıq birləşdik. Rusiyanı məhv edən bolşevizm məsələsinə, əcnəbilərin vüruduna [gəlişinə], özünü Rusiyadan ayırmış olan qonşularımızın hərəkətinə qarşı nöqteyi-nəzərimizdə, general Biçeraxov ətrafına toplaşmış olan rus qüvveyi-əsgəriyyəsinin [hərbi qüvvəsinin] saxlanmasına olan münasibət və rəftarımız bir olub bu məsələlərin həpsində biz bir dil ilə danışırız. Şimdi ancaq birliyimizi daha dərin və daha möhkəm anlayıb, ictimai təşkilatla daha da möhkəmləşdirmək və burada, Zaqafqaziyada, Rusiya tələbat və arzusu təmsili yaratmaq qalır. Şimdi biz var qüvvəmiz və bacarığımızla birləşməyə çalışmalıyız, rus hökuməti bizim əyalətə (yəni Zaqafqaziyaya) qayıtsın.”

Keçən il bu vaxt Zaqafqaziyanı rus hökuməti əlindən çıxarmamaq üçün “qənimə qalınca günü mənə qalsın” deyə, heç olmazsa rus sözü xatirəsi üçün anarxistlərlə ümumi dil tapmış olan “Vahid Rusiya”çılar bu il də Denikin ordusunun hərəkətindən ruhlanaraq monarxistlərlə birləşir və yenə demokratiya ilə “ümumi dil” tapırlar. Fəqət bu dəfə təəssüf etməlidirlər ki, demokratiya ilə onların arasında böyük bir uçurum var. Həm o qədər böyük ki, Podşibyakin bu gün ruh aldığı şimala bir nəzər atsa demokratiyanın (menşeviklər və sağ ictimaiyyuni-inqilabiyyun [sosialist-inqilabçılar] firqəsinin) artıq bolşeviklərlə birləşmək üzrə olduğunu, həm də həman “ümumi dil” tapanlar əleyhinə birləşdiklərini dəhşətlə görər.

Uzaq getmək nə lazım: Podşibyakin demokratiyanı öz tərəfinə çağırmaqda ikən Bakı demokratiyası ümum Zaqafqaziya füqərayi-kasibəsini [proletariatını] “Vahid Rusiya”çılar əleyhinə mübarizə üçün birləşməyə dəvət edir.

* * *

Ümum erməni ziyalıları bila-fərqi-məslək [əqidə fərqi olmadan] “Zəhmətkeş Ziyalılar İttifaqı” adı ilə bir cəmiyyət təşkil edərək bu bayraq altında birləşmişlərdir. Bu münasibətlə “Naşe Vremya” qəzetəsi baş məqaləsində ittifaqın məqsəd və vəzaifindən [vəzifələrindən] bəhslə deyir ki:

“Qafqaziya ermənilərinin düşmüş və düşməkdə olduqları milyonlarca müsibətə böylə ümum [bütün] milli-mədəni qüvvəni birləşdirmədən əlac etmək mümkün deyilsə, xarabazara dönmüş altı vilayətdən təcəddüd etmiş [yenilənmiş, bərpa edilmiş] Ermənistan yaratmaq əsla bunsuz caiz olammaz.”

Ona görə məzkur [adı çəkilən] qəzetənin zənnincə, ümum erməni mərkəzlərində milli-mədəni qüvvələr bu surətlə birləşməli, ittifaqlar təşkil etməlidirlər. Qəzetə inanır ki, böylə də olacaq və

dərdlərə dərman tapılacaqdır. Çünki vəzifə nə qədər ağır olsa da, *"ermənilərin milli əzmkarlığı, lazımi miqdarda mədəni qüvvənin mövcudluğu, ermənilərin xəlləqiyyət [yaradıcılıq, sənətkarlıq] hissi, doğma yurdlarına, vətənlərinə olan heyrətamiz meyil və məhəbbətləri, milli idrakın yüksəkliyi və Müttəfiqlərin köməyinə ümidvarlıq və iman kimi amillər qəzetənin etiqadını daha artırır və o inanır ki, ermənilər vəzifələrini daha qolaylıqla ifa edib naili-məram [məqsədlərinə nail] olacaqlardır."*

Böylə birləşməni hamı üçün xeyirli hesab edərək qəzetə sair qonşu millətlərin də ziyalılarının birləşməsini arzu edir və yazır ki:

"Biz arzu edərdik, qonşu millətlərin ziyalıları erməni ziyalıları kimi rəftar edəydilər. Böylə milli-mədəni dəstələr sırf mədəni və xəllaqiyyət məqsədləri təqib edərək, qonşu millətlər arasında lazım olan sədaqət və müvafiqətlə [uzlaşmayla] yaşamaq əsası qurulmasını asanlaşdırarlar. Bilxassə ki, böylə vifaq [həmrəylik] və sədaqət olmadıqca, ayrı-ayrı millətlərin ziyalılar ittifaqı lazım gələn məhsulu verməkdən aciz qalarlar. Qafqaziyanın ümum [bütün] ziyalı qüvvələrinin ittifaqı lazımdır."

ORDAN-BURDAN

"... Sonra, qubernatorun hökmünə görə «Həccinqəbul» stansiyası mühafiz qoşununun bütün zabitləri Qriqoryansın qabağında cərgə ilə durdular. Qriqoryans heç birisini tanımadı... Səhərdən bütün Azərbaycan əsgərləri Qriqoryansın qabağından dəstə-dəstə keçirdilər. Qriqoryans bunlardan heç birisini tanımadı."

Qəzetələrdən

- - - - - - - - -

Qriqoryans Bakıya gəlib nəql edir ki, on üç nəfər ermənini gözümün qabağında güllələdilər. Mən də onların içində idim.

Camaat təəccüb edir:

- Kim güllələdi?
- Azərbaycan əsgərləri!
- Harda?
- "Həccinqəbul" istansasında!
- Nə vaxt?
- Filan tarix, filan gündə!
- Nə çağı?
- Günün günorta çağı!
- Kim gördü?
- "Həccinqəbul" istansasının cəmi qulluqçuları!
- Bəs sən nə tövr diri qaldın?
- Möcüz əmələ gəldi!

* * *

Erməni qəzetələri dadü fəryad edirlər: Haçanadək bu vəhşilik?!

Tələb edirlər ki, bu iş təhqiq edilib müqqəsirlər cəzalansın.

* * *

Qubernator, Qriqoryans və Paronyan yavaş-yavaş, xəlvət-xəlvət, ahəstə-ahəstə "Həccinqəbul" istansasına yaxınlaşıb birdən hüzura çıxırlar.

- Qaçma, dayan!!!

Hamı təəccüblə baxır, qaçmaq fikri olan yoxdur.

- On üç nəfər ermənini güllələyən əsgərlər hansıdır? Tez cavab verin!

Camaatın təəccübü daha da artır:

- Hansı on üç nəfər erməni? Kim onları güllələyibdir? Haçan? Harda? Kim gördü?

Qriqoryans döşünə döyür:

- Belə mən gördüm, mən!!!

- Öldürənləri tanıyırsan?

- Tanıyıram!

- De görək kimdir?

- Zabitləri və əsgərləri göstərin deyim!

“...Sonra qubernatorun hökmünə görə “Həccinqəbul” istansiyası mühafiz qoşununun bütün zabitləri, Qriqoryansın qabağında cərgə ilə durdular. Qriqoryans heç birisini tanımadı. Səhərdən bütün Azərbaycan əsgərləri Qriqoryansın qabağından dəstə-dəstə keçirdilər. Qriqoryans bunardan heç kəsi tanımadı. Pəs məlum oldu ki, Qriqoryansın dediyi sözlər məhz yalan və iftiradır.”

- - - - - - - - -

Amma mənim əqlimə görə, gərək Qriqoryans yalnız bir zabitlərimizin və əsgərlərimizin “tamaşası” ilə kifayətlənməyəydi və tələb edəydi ki, qoşunun tüfənglərini də göstərsinlər. Bəlkə tüfənglərdən tanıyaydı. Sonra əmr verəydi ki, nə qədər pulemyotları var hamısını göstərsinlər, çünki mümkündür ki, pulemyotla “gülləbaran” edilirmiş. Ondan sonra buyuraydı ki, hər nə top var çıxartsınlar meydana. Ola bilər ki, ermənіləri top ağzına qoyubdurlar və Qriqoryans topla tüfəng arasında “şəkk” edibdir. Bunlardan sonra gərək patronları sayaydı. Top güllələrinin hesabını biləydi. Bədəhu [sonra] hər nə bomba, dinamit və barut anbarı var, hamısının yerini biləydi və axırdan-axıra tələb edəydi ki, “Həccinqəbul” istansası ətrafının planı çəkilib ona verilə ki, bəlkə ermənilər öldürülən yerin hara olduğunu planla tapa biləydi...

Lakin görünür ki, Qriqoryans üçün yalnız zabitlərimizi “görmək” və əsgərlərimizə “tamaşa” etmək kifayət imiş...

- - - - - - - - -

Üzümüzün “aləm” qabağında ağ olduğunu hiss edib də kamali-təfaxürlə [iftixarla] deyirik ki:

- Qriqoryans yalançı imiş!

Doğrudur, üzümüzün ağ olduğunu kamali-təfaxürlə hiss etməyə haqqımız vardır, lakin özümüzün də dedikcə [olduqca] safdərun [sadəlövh] olduğumuzu kamali-təəssüflə boynumuza almalıyıq!

Filankəs

BAKI XƏBƏRLƏRİ

Kanuni-saninin [yanvarın] 10-dan etibarən Gəncə, Tiflis və Bakı miyanında [arasında] xətti-müstəqimlə [birbaşa] telefon müxabiratı [əlaqəsi] təcdid [bərpa] edilmişdir. Telefonla danışıq haqqı işbu qərar üzrədir:

1) Bakıdan Tiflisə adi danışıq üçün 3 dəqiqə danışmaq 7 rublə 50 qəpik. Hər artıq dəqiqəyə 2 rublə 50 qəpik verməlidir. Təcili danışıq üçün 3 dəqiqə – 22

rublə 50 qəpik, hər artıq dəqiqəyə 7 rublə 50 qəpik; təcili və qeyri-təcili danışıq sifarişi üçün 2 rublə.

2) Gəncədən Tiflisə adi danışıq üçün 3 dəqiqəyə 3 rublə, hər əlavə bir dəqiqəyə 1 rublə. Təcili danışıq üçün 3 dəqiqəyə 9 rublə, əlavə bir dəqiqə üçün 3 rublə. Adi və təcili danışıq sifarişi üçün 2 rublə.

3) Bakıdan Gəncəyə adi danışıq üçün 3 dəqiqə – 4 rublə 50 qəpik. Əlavə bir dəqiqə üçün 1 rublə 50 qəpik. Təcili danışıq üçün 3 dəqiqə – 13 rublə 50 qəpik, əlavə bir dəqiqə – 4 rublə 50 qəpik, sifariş haqqı 2 rublə.

* Bakıdakı "Kooperatsiya" istehlak cəmiyyəti Lənkəran xalq təsərrüfatı şurasından bir müraciətnamə almışdır. Müraciətnamədə Lənkəran və qəzalarında müstəhlikin [istehlakçılar] dükanlarının güşadı [açılması] lüzumiyyəti göstərilir. Zira böylə dükanların yoxluğu o ətrafda bahalığın böyüməsinə səbəbiyyət verirmiş. Lənkəran xalq təsərrüfatı şurası bütün əhaliyə müraciətən müstəhlikin işlərinə müavinət [kömək] etməyi təklif və tövsiyə edir.

* Bakı Ovçular cəmiyyətini[n] heyətirüəsası [rəyasət heyəti] Daxiliyyə Nəzarətinə müraciətən cəmiyyətin əzasına [üzvlərinə] silah saxlamaq üçün vəsiqə verilməyi rica etmişdir. Daxiliyyə Nəzarəti cəmiyyətə xəbər vermişdir ki, 1919 sənəyədək yazılmış bütün cəmiyyət əzasının siyahısı qubernatora təqdim edilməlidir.

ƏRZAQ İŞLƏRİ

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi], Ərzaq Nəzarətinə müraciətlə Qarabağda qaçqınlar üçün çayxana və iaşə məntəqələri açmaqdan ötrü Parlaman üzvü Klenevski ixtiyarına Gəncə ərzaq anbarından 50 put qəndlə, 2 put çay buraxılmasını xahiş etmişdir. Ərzaq Nəzarəti Gəncə vilayətinin ərzaq nümayəndəsinə yazıb xəbər vermişdir ki, məzkur [adı çəkilən] Klenevski ixtiyarına Qarabağ qaçqınlarına sərf edilməkdən ötrü 50 put qənd buraxsın.

* Oqanesov nam [adlı] bir nəfər Ərzaq Nəzarətinə verdiyi ərizəsində yazır ki, keçən il taxıl cəm edildiyi zaman Cəfərli kəndində 21 kisədə 133 put özünə məxsus buğda həcz [müsadirə] edilib Qazax ərzaq anbarına aparılmışdır. Ərzaq Nəzarəti Gəncə vilayətinin Ərzaq vəkilinə xəbər vermişdir ki, həman buğda, kisələri ilə bərabər sahibinə qaytarılsın.

* Qarabağ qaçqınlarına müavinət etməkdən ötrü Klenevski ixtiyarında olan komissiyaya təyin edilmiş Ərzaq Nəzarətinin kargüzarı Çerdanova tapşırılmışdır ki, məhəllində [yerində] ərzaq işləri ilə aşina olub, müfəssəl məruzə təqdim etsin.

* Maarif Nəzarəti Ərzaq Nəzarətinə müraciət edib dəftərxana qulluqçuları üçün papiros buraxılması təklifini etmişdir. Ərzaq Nəzarəti Maarif Nəzarətinə xəbər vermişdir ki, Nəzarətin anbarlarında tənbəki və papiros olmadığına görə, Aksiz İdarəsinə müraciət etməlidir.

* Ərzaq Nəzarəti dəmiryollarda vaqon təyin edən büroya xəbər vermişdir ki, Dərbənd Ərzaq İdarəsinin istidasına [xahişinə] görə Dərbəndə ərzaq şeyləri aparmaqdan ötrü bir dənə örtülü vaqon verilsin.

* Ərzaq Nəzarəti Kruçkinə icazə vermişdir ki, Dağıstan hökumətində olan vəkil Levkin adına olaraq 5 min ədəd boş kisə aparsın.

AZƏRBAYCANDA

Gəncədən

(Xüsusi müxbirimizdən)

Türk qoşunları Azərbaycanın hissəsi olan İrəvan quberniyasının bəzi yerlərini istila etdiyi zamanda, həman quberniyanın bir neçə yerləri Azərbaycan idarəsində qalmışdı. Orada dəxi qubernatorluq olmadığı üçün fövqəlzikr [yuxarıda adı çəkilən] parçanı Gəncə quberniyasına mülhəq [birləşdirmişdilər] və bir pristav təyin edilmişdi. Bu parçaya Ordubad şəhəri dəxi daxil idi. Axır zamanda Türk qoşunu Azərbaycanı və qeyri yerləri təxliyə eyləyib getdikdə, bu yerlər sahibsiz qalmışdı. O biri tərəfdən Ermənistan (Ararat) hökuməti və Andranikin dəstələri bu yerlər əhalisinə böyük zülümlər etməkdə idilər. Oradan Azərbaycan hökumət və paytaxtına übur [keçid, yol] olmadığı üçün əhali çarəsiz qalmışlardı. O cəhətə, Ordubad əhalisi Gəncə valisinə neçə nəfərin dəst-xətti ilə imzalanmış bir ərizə vermişlərdir. Ərizələrində deyirlər ki:

“Biz sahibsiz qalmışıq. Gəncəyə übur yoxdur. Bir yandan da erməni hökuməti bizə əziyyət və azar verir. Halbuki, türk qoşunları burada olduğu zaman bizdən əsgər cəm eyləmişdi. Bizim mütəşəkkil idarələrimiz vardı və hazırlanmış əsgərlərimizi hər bir zamanda müdafiə eyləyirdi. Lakin, türklər gedəndən sonra bir yandan hökumət olmadığı, digər tərəfdən əsgərlərimizin zabitsiz qaldığı cəhətdən işlərimiz fəna bir halda qaldı. Bu cəhətə biz, siz cənablardan rica edirik ki, bizim bu ərzihalımızı Azərbaycan Hökumətinə yetirib, bizim barəmizdə lazım olan tədabirdə bulunaraq [tədbirlər görərək] tezliklə bizlərə zabitlər, hökumət məmurları göndərəsiniz. Vəilla [yoxsa] bizim canımız, malımız tarac olmaqdadır.”

Eşitdiyimizdə görə, Gəncə valisi bu ərizə ilə bərabər öz məruzatını Azərbaycan Hökumətinə təqdim edib, hökumətin bu barədə sərəncamını diləyir. Hökumət isə bu barədə ciddi tədabir ittixaz etməkdədir [tədbirlər görməkdədir].

Əlif. Sin.

BİZƏ YAZIRLAR

Lənkərandan

Lənkəran müsəlmanlarının halı günündən fənalaşır. Xaxolların etdiyi zülüm və sitəm müsəlman kəndlərində şiddətlənir! Hər gecə quldur dəstəsi kimi müsəlman kəndlərinə dağılıb qarət etməklə iktifa [kifayət] etməyib, biçarə kənd qadınlarının ismətinə təcavüz edirlər. Həftədə iki dəfə olan Masallı bazarının yolunu kəsib, gedən şəxslərin pulunu və mindiyi atı əllərindən alırlar. Müsəlmanların qoyun və qaramallarını ilxı sürüsü kimi özlərinin məxsus malları hesab edib evlərinə aparırlar.

Hər kənddə keşikçi təyin edilib, quldurlar gələn vaxtda “canavar gəldi, qaçınız” qışqırtısını eşidən arvad, uşaq və kişilər kəndi şeylərini evdə qoyub qaçırlar.

Qış zamanı səhraya dağılıb həman gecəni xəndəklər içində ömürlərini keçirdirlər. Yırtıcı canavar dəstəsi kəndə gəlib evləri qarət edib, gördüyü şəxsləri də öldürürlər.

Sahibsiz müsəlmanların çəkdiyi əziyyət və sitəmi qələm yazmaqdan acizdir. Hərgah, Lənkəran nahiyəsinin əhvalatı müfəssəl yazılsa, bir kitab cəm etmək olar.

Keçən həftə xaxollar Çaxırlı kəndinə hücum edib, ittifaqən [təsadüfən] "Müsavat"ın Lənkəran şöbəsinin sədri Yusif bəy Bayraməlibəyov həman kənddə özünü pünhan etmiş, bunların hücumunu eşidib, qaçıb gizlənib, biçarənin şeylərini və pulunu, 9 ayda bolşevikdən gizlənən halda başına gəldiyi qəzavü-qədəri təlif etdiyi [yazdığı] kitabını da məa [həmçinin] aparıblar. Tələfatı üç min manatdan ziyadədir. Oranı qarət edəndən sonra Məşhədi Şahpələngin evinə gedib, onu çox döyüb, zülüm edəndə, oğlu gimnaziya şagirdi Fətulla deyir:

- Tavariş! [Yoldaş!] Nə istəyirsiniz alınız, daha əziyyət nə üçündür?

Cavabında:

- Mən tavariş deyiləm. Düş qabağıma, səni öldürəcəyəm. Səndə nə ixtiyar var mənimlə danışasan?

Biçarəni ayaqyalın at qabağında aparıb qəbristana, öldürərkən beş min manata atası qanını alıb azad etdirdi.

Sabahı gecəsi gəlib Nəsrəddin Şahbaz oğlunun 60 qoyununu aparırlar. Bu əhvalatı camaat gedib Ərkivan komissarı Neparidzeyə şikayət edib, o da 7 nəfər saldat, ikisi rus, beşi Qızılağac müsəlman bolşeviklərindən, orada qalmalarını təyin edibdir. Bunların zülmü daha da pis keçdi. Hər evdən 100 manat alıb, gündə bir qoyun, 300 yumurta, 10 girvənkə yağ və 5 dənə toyuq alırlar.

Bunların quldur yoldaşları kəndə gəlmirlər. Gəlmirlərsə də, kövşəndən qoyun və mal aparırlar. Camaat isə bunların zülümlərindən və kifayətsizliyindən cəzana gəlib bunları da boşladılar.

Qarabucaqdan

Dekabrın 29-da gecə saat 7-də 4 nəfər xaxollardan Qarabucaq kəndinə gəlib orada Hacı Molla Əziz Musazadənin evinə girib, evindəki qiymətli şeylərini və min manat pulunu götürüb və onun qonaqları Mirzə Əhməd Əhmədovdan 800 manat pul və Xəlifədən 500 manat alır. Sonra hər evə girib, müsəlmanları qarət edib gedirlər.

Teymur bəy Bayraməlibəyov

İDARƏDƏN CAVABLAR

"Dan Ulduzu" əfəndiyə: "Qurd oğlu qurd olar" məqaləniz, siyasi bir məqalə olmaq üçün zəifdir.

Səməd Babaoğlu və öz imzasını öz dilində yaza bilməyən Rəzzaq Cəfərqulu əfəndilərə: Dəmiryol İdarəsində sizə qulluq verməyib də sizdən sonra ərizə verən gürcüyə qulluq verdilər deyə şikayət edirsiniz. Çox heyflər olsun! Ancaq nəyə? Dəmiryol İdarəsi müsəlmanı qoyub da əcnəbiyə qulluq verməsinəmi, yoxsa həman əcnəbinin siz müsəlmanlardan elm və təcrübəcədə daha layiqli olduğu keyfiyyətinəmi? Bunu biz də bilmirik... Dəmiryol məktəbinin hələ indiyə qədər

açılma[ma]sı haqqındakı şikayətiniz bir tərəfdən haqlıdır.

Qənbər oğlu əfəndiyə:

“Sənin coşğun ürəyindən bir afərin aldılar
Yazıq olmuş, haqqı tapdalanmış qadınlar”

Yeni üsulda şeir yazmaq qaydası bu deyildir. Bu olsa, dünya-aləm şair olar.

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Leonid Ter-Avanesov

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

2627

Pul

Həmin kanuni-saninin [yanvarın] 18-də gecə “M. S. Əliyev və X. B. Hacı Həsənqulu” ticarətxanasının üzvü Xudadad bəy Hacı Həsənqulu, Nikolayevski küçədən “Təbriz” mehmanxanası yanından keçərkən səki üstündə bir bağlı ümumi hökumət pulu tapmışdır. Pul sahibi Starı polis küçəsində Hacı Zeynalabdin Tağıyevin evində ticarətxanaya müraciət edə bilər. Telefon nömrələri: 48-46 və 49-03

2651

Elan

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi

Həmin yanvar ayının 24-də cümə günü gündüz saat 12-də Bakı Şəhər İdarəsi (Dumasının) zalında Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin ümumi iclası təyin olunmuşdur. Müsəlmanlardan rica olunur ki, vəqti-müəyyəndə [təyin edilmiş vaxtda] iclasa təşrif gətirib üzv yazılsınlar və intixabda [seçkidə] iştirak eyləsinlər.

Sədr: Mirzə Əsədullayev
T-12

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Yeni ingilis kabinəsi

səh. 320. "Robinzon Kruzo": İngilis yazıçısı Daniel Defonun məşhur romanı (Robinson Kruzo) nəzərdə tutulur.

Azərbaycan Məclisi-Məbusanında

səh. 324. "hürriyyəti-mətbuat, kəlam, ittifaq və qeyrə": qəzetdə "hürriyyət, mətbuat, kəlam, ittifaq və qeyrə" kimi getmişdir.

Teleqraf xəbərləri

səh. 325. "…Vilhelmin yatacaq otağını…": söhbət Almaniya imperatoru II Vilhelmdən gedir.

Marstal [Marstall]: Berlində tarixi bina, 1901-ci ildə sarayın at tövləsi kimi tikilmişdir. Burada imperiyanın atları və faytonları saxlanırdı.

Qəzetələrdən

səh. 329. "Tomaşuv": Polşada bu adda iki rayon var: Polşanın mərkəzi hissəsində, Lodz voyevodalığında və Polşanın cənub-şərqində, Lyublin voyevodalığında.

"Kovno": indiki Kaunas şəhəri.

"Vilno": indiki Vilnüs şəhəri.

Sevimli ölkəm

səh. 329. "Şiş ucları buludlarla dögüşən": qəzetdə "dögüşən" yerinə "dögümüş" getmişdir.

"Quzğun dəniz": Xəzər dənizi nəzərdə tutulur.

Mətbuat

səh. 330. "…altı vilayətdən…": Burada söhbət Osmanlı dövlətinin Ərzurum, Van, Mamürətüləziz, Diyarbəkir, Sivas və Bitlis vilayətlərindən gedir. Bu vilayətlər, Rusiya və Qərb dövlətləri tərəfindən, bölgədə erməni dövləti qurulması layihəsinin tətbiq sahəsinə çevrilmişdi. Bu vilayətlərə "Ermənistan" yaxud "Erməni vilayətləri" deyilməyə, San-Stefano və Berlin sülh müqavilələrindən sonra başlanmışdır. 1877-1878 Türkiyə-Rusiya müharibəsi nəticəsində 3 mart 1878-ci ildə imzalanan San-Stefano sülh müqaviləsinin XVI maddəsində bu bölgədən "Ermənistan" deyə söz edilmiş və Türkiyənin burada dərhal reformlara başlaması, həmçinin erməni əhalisinin təhlükəsizliyini təmin etməsi tələb edilmişdir. 13 iyul 1878-ci ildə imzalanan və San-Stefano müqaviləsinin Türkiyə üçün ağır şərtlərini müəyyən ölçüdə yüngülləşdirən Berlin müqaviləsində də bu bölgədən "ermənilərin yaşadıqları vilayətlər" deyə söz edilmiş və eyni tələblər təkrarlanmışdır.

Ordan-burdan

səh. 331. "Həccinqəbul": Hacıqabul nəzərdə tutulur; qəzetdə "Həccinqəbul" getmişdir.

"Qriqoryans": əvvəlki nömrələrdə bu şəxsin soyadı "Qriqoryan" kimi getmişdi.

səh. 332. "Filankəs": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Bizə yazırlar

səh. 334. "Masallı": qəzetdə "Masallar" getmişdir.



سه‌شنبه ۱۸ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۳۱ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۹۳

آذربایجان

گونده‌لیک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

تورك و اسلامله‌ه مفید مقاله‌لر صحیفه‌لرمزه آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقاله‌لرك مکافاتی اداره تعین ایدیور.

اعلان‌ات فیاتی: سطری ۳ روبله گراتله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ » ۳۲ »
۳ » ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ » ۳۵ »
۳ » ۵۰ »

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی اوده.

«آذربایجان» اداره‌سی.
تلفون نمره. ۶۰–۳۹

تك نسخه‌سی ۷۰ قپك

حساب گونی

– صلح عمومی قونغره‌سنك گوزلنمه‌سی مناسبتیله –

مذاهب و ادیانك اکثریتنده انسان دیناده‌کی ایشلرینی، صواب گوردیکی ایشلرله، ارتکاب ایله‌دیکی گناهلرینی، بر گون گله‌جك ده حساب ویره‌جك.

قامت قوایلجق، محشر اولاجق، حساب گونی کلمه‌جکدر.

احتمال که آیری آیری فردلرك الله نسبت ارتکاب ایله‌دیکلری قباحتلرك محاکمه سی و اجرا اولنیجکدر. سوابلرك مکافاتنی ویره‌جك یر « یوم‌الحساب»دها ایلریده‌در. کیم‌یلر بلکه بنه دجالله، مهدیلر، نهایت محشر، صراط گوبروسی، میزان گوره‌جك، «یوم‌الحساب»ه جکیلهجکلر.

احتمال که بو مرحله لرك هپسی کچمیشدر و گچه‌کمه‌ده فرداً منبه‌اولمیور، خصوصیله بوراده حطابی دویماییورز.

فقط انسانلر فرد جانلری یاشقه یرده جمعیت حیاتی ایله یاشایورلر. جمعیتلری بربرلرندن آیرانی و اوکا برجامعهٔ شخصیه ویرن الهٔ بویوك عامل، ملیت عاملیدر. ملتلر برر فردندرلر.

ایشته بو، ملیت اعتباریله برر فرد تشکیل‌ایدن بشریتك حساب گونی (یوم‌الحسابی)کلمه‌سیدر.

۱۹۱۴ نجی سنه‌سندن بری دنیایی آلت اوست ایدن، موجود شهرلری، معموره‌لری، باتاری‌خراب ایتمیکی کبی مادیاتی‌ده معنویاتی‌ده دخی برخه‌دار ایدن یو بویوك قتال (تولدووروش) و بویوزدن حصوله کلمن آجلق، کساد، قرغین عجبا قامت و محشردن باشقه برشی‌میدر؟

اوت، ملتلرك قیامتی‌در. محشر کبرایه بالکز حیات سیاسیه‌لری ایله موجود اولان ملتلر دکل، یوقدن بری مزاره کومولمش اولان ملتلرده گیلورلر.

۱۹۱۴ نجی یلده باطلیان طوب گوللهٔ‌سی خردجالك نعره‌سنه مماثل ایدی، ۱۹۱۸ سنه‌سنده بویوك آمریقا جمهوریتی رئیسنك جهانه اعلان ایله‌دیکی ۱۴ ماده‌لك صلح اساسی‌یله اسرافیل صوریه بکزه‌یوردی.

یوصور: «فالقگز، ای ذوالفی‌ملتلر، یوم‌القیام، یوم‌الحساب»ده دیه‌یوردی.

ملتلر قالقه‌دیلر، حساب آیاغه قوشه‌دیلر.

یوحساب(پاریس)ده واقع اولاجقدر. یاریسنده قوروللجاق اولان صلح عمومی مجلسی غزته‌لرك روایته گوره ۱۵۰۰ آدمدن عبارت اولاجاق. یو ۱۵۰۰ آدم دیناده‌کی نه قدر ملت وارسه هاموسنی تمثیل ایدهجکدر.

۱۵۰۰ مختلف ملتلره منسوب، مختلف دیللرده متکلم بر جمعیت اقوام محشری بر کره تصور اولونسون، بابل قله‌سی» اوراده‌کی تبلیل اصواتی، همان خاطره کلیر.

فقط شکلا بابله‌نك ونکلره مالك اولسه‌ده، پاریس قونغره‌سی معناً اوحالده یولونیاجقدر. بر کره معنای ظاهر اعتباریله‌ده اولسه دنیانك (شرق ادیاتده‌کی مشهور تقسیماته گوره) ۷۲ ملتندن اوتوری فرانسه لسانی آشاغی یوقاری آکلاشیلر بر دیلده، دیگر طرفدن ده ۱۵۰۰ك ایچینده نفوذ کلمه صاحبی حقیقی حاکملر واردر. یو ارباب نفوذ آرتق «تبلیله» امکان ویرمزلر. ظن ایدهورز.

دنیانك حسابنی گوره جك پاریس قونغره سی عالمی یکی باشدن دیزکه‌جك. یکی بر حیاتك اساسلرینی وضع ایده‌جك؛ جهان خریطه‌سنی یکی وکلره یوبویاجق ویوبله یاپدیرقدن صوکره:

– آی‌دنا، بویله یاشامالیسك!

دیه امر ایده‌جکدر.

یو امر، ملتلره سعادت گتیره بیله‌جکمی‌در؟

ایشته سؤال!...

خلقك مجله‌سنده مجسم اولان حساب گونك نتیجه‌سنده انسانلردن بعضیسی بهشته، بعضی جهنمه، بعضی‌ده برزخه محکوم اولاجق دیه، بر تصور واردر.

یوحساب گونك نتیجه‌سنده دخی یوتون دنیا ملتلرینك «بهشتلك» اولاجقلرینه حکم ویره بیلمك ایچون حقدن آرتق نیك یین اولدق لازمدر.

دوغرودر. حساب چکنلرك الهٔ قوتلیسی اولان (ویلسون) حضرتلری بویوك ملتله، کوچوك ملتده فرق اولمادیلرمی، دیه‌بیلمدر؟ دوغرودر، کیزلسی دیپلوماتیانك قالمیریله‌ماسی مطلوب کورولمه‌مش؛ دوغرودر، آچیق دیپلوماتیانك قالمیریله‌ماسی مطلوب کورولمه‌مش؛ ایدیلمش، تحدیده‌ی فائده‌لی اولاجق دنیلمشدر.

فقط یوتلر دهاحسابی کورولمش، موازنه‌سی تعین ایدلمش بر حقیقتلر دکلدر. حقیقت اولق آرزوسی‌ایله سویله‌نیلوب‌دورانیر یوبویوك‌شعارلر، اصطرابلی قلبلرك دوکونتسینی راحت ایدن بر (والهٔ‌ربان) دامیچسی‌در.

بوداممیجلردن سوگره بشریتك یوزلرینی معده‌سنی، اوزلرینی، صحتینی‌تکرار اعاده ایده‌جك حقیقی علاجلر ویریله‌جکمیدر. حساب عمومی محکمهٔ کبراسی حضوریه گیدن ملتلر دوچاری اولدقلری اذیتلی آزارلرینك علاجی ایله‌می فایدا جفلر، یوقسه الهرینه ویریلن نامه شفا رچتمی (نسخه‌سی) دکل، اعدام جزاسی اولاجقدر.

(ویلسون)، پرنسیلرینی ایضاح ایدرکن سویله‌دیکی نقطه‌لرندن برنده – پاکه‌بیورسه‌م – جمعیت اقوام اساسنك تامین ایله‌دیکی فیضدن هر ملت کندی لیاقتی ومدنیتك درجه‌سی نسبتنده استفاده ایده بیله‌جکدر، دیه‌مشدر.

کندی لیاقتی و مدنیتی نسبتنده!...

اوزی اوزلکندهه ایراد کوتورمز برده‌سنور.

فقط عینی زمانده گنیش تاویللر، اوزون تفسیرلره متحمل برقوروملو.

ملتلردن، بالخاصه بزم کبی «بعث بعدالموت» نتیجه‌سنده قیام‌ایدن ملتلردن اوتوری یو دستورك شو وباخود یو شکل ایله تفسیری درولو دورولو تجهار ویره بیلر. اولور که یو دستور بزی بهشتلك، اولور که بر زخملك، اولور که جهنملك ایتسین!

محکمه‌نك یواوچ حکمدن بریسنی ویرمه سنه اوراده کی نمایندهلرمزلك تعیین‌دیکرله‌ده‌دعوی و کیللرمزلك مهارتی، جدیتی، سعی و جالشقانلیغی تاثیرسز اولمیاجق. فقط یو کفایت ایتمز! لازمدر که بزده یوراده جالشاق، کندیمزی اداره‌یه بهشتلك بر دیپلوماتیا تشکیلاتی یاپمه‌لیز. یوقسه یالکز بر نظارت ایله اکتفا ایدرسه‌ك، یو بیوك ایشدن بکلدیکمز نتیجه‌لری الهٔ کتیرمه‌مز محققدر.

فقط، آخر وقتلر، رسمی و موثق متبعلردن بزه جانان‌خبرلردن آکلاشیلدی‌که، ایروان غوبرنیاسنده مسلمانلر ایله یان یانا یاشایانلر، انسان دکل، بر سوری جانوورلردن عبارت ایمشلر.

۱۹۱۹ سنه‌سی یانوار ۵ نده آذربایجان پارلمانی‌صالوتده، ایروان غوبرنیاسی مسلمانلار دینك عمومی بر یغنجاغی اولدی. اورادهٔ ایروان غوبرنیاسی مسلمانلارینك باشه گتیرلن مصیبتلر دانشیه قوبولدی.

ایروان غوبرنیاسی مسلمانلاری طرفندن تشکیل‌ایدن « آراس – تورك » حکومتی تامندن یاکوبه آذربایجان جمهوریتی نزدینه کلمش اولان نماینده پاشا یاپرامووف جنابلری، او طرف مسلمانلارینك ارمنیلر التدن کورمش اولدقلاری مصیبتلر، فلاکتلر یازمه‌سنده مجمله مفصل بیانات ویردی. بیانات او قدر سوزنلی و غم افزا ایدی که، هر جمله یاشدنه، جماعت طرفندن طلکدارلره فارشو نفرتی اظهار ایدیلیردی.

عدلیه نظری معاونی تیموریك ماکنسکی جنابلرینك صدارتیله آچیلان مذکور مجلسده مشار الیه پاشا یاپرام اوف جنابلرینك ایراد ایتدیکی بیانات، ارمنیلر وحشی‌لکنی اودرجه حزن آور و نفرت انکیز برصورتده تصویر ایدیور که، غزته اوخویانلرك چکرلرینی جریحه‌دار ایتمکی بعضا دوا کورمیوب آچیقق بعض یرلرنی مختصر یازدیق!

۱۹۱۷ سنه‌سی دیقبر آیندن یاشیلوب ۱۹۱۸ سنه‌سی ایون آینك آخرینه قدر (یعنی تورکلر ایروانله کتمه‌ك» ارمنیلر، مسلمانلاری قیرماقده دوام ایدیردیلر.

ارمنیلر یو عقوباتله هجوملاری ایله، ایروان غوبرنیاسنده، سورمه‌لی، ایجیواذین، ایروان، نوری یازیجر، گومری محالارینی تارمار ایتدیلر. شرور و تخچوان اوسته پوروش ایتدیکلری اثناده تورکلر ایروان غوبرنیاسی مسلمانلارینك امدادینه جانیلدیلر. ارمنیلرك مسلمان کندلرینی، مال قارالا رینی‌غارت ایتمه‌لری واسطه‌سیله، ارمنی‌قوللمور دسته یاشیجیلاری « دره» لار یوکون ملیونجی اولوبلار.

تورکلر، کلیه‌کمه‌نصکره، ارمنیلر برچوق برلردن قاچدیلار. و اوزلرینك « آدارات » آدلاندیردقلاری جمهوریتلری داخله کچدیلر. مسلمان قاچقیلاری‌ده اوز برلرینه قایمیوب کلمیلر. وبرباد اولان ایروانلی یوردلارینی یکیدن آبادلاندیرماغه باشلادیلار.

بر مسلمانلار، اویله کمان ایدیردیك که، یونان سکره ظلمدن خلاص اولوب راحت یاشایاجاقلر. فقط، ظنمز یاکش چیخدی. انسان قاندن دویماق ایسته‌مه‌دین و جانسز ظلمکارلقدن آل چکه‌مه‌دین ارمنی قوللموردلاری یکیدن ضربه‌لر ووررماغه باشلادیلار.

ارمنیلرك بودفعه‌کی ظلمکارلقی ایسه‌ه آدارات جمهوریتی نی قوردقدن صکره دوام ایتمکه بهشتلك درجه‌سه ادارهٔ استحقاق قازاندیغی اولدیغمزی اثبات ایدهدك.

بواسطه‌ایله ایشلك پاریسی کورولمش اولدهٔ محکمه حکمنك خرده ملتلر حقنده تمایله‌موافق چقارلماسی‌ایچون آوروپا و آمریقا دهٔ‌وقراتیاسنك بوحکملر اوزرینه حقیقی برغوغا اجرا ایلهه‌سنی آرزو ایتمه‌لی‌یز. یوغوغا واقع اولورسه، اوزمان یوتون جهانه قارشی اعلان اولونان برنسیپلر آز چوق صافیتی صافلار. اونلارك صافلقلرینك محفوظ قالماسی‌ایسه بزم کبی خرده ملتلری قورتارابر. دیه‌یلك یارلغی اللهمزه تاپشیرابر.

هرحالده یوتون دنیانك نظری، یوگون پاریسه متوجه‌در. پاریس دنیا ملتلرینه کندیلرینه مستولی اولان استبدادی قورتارمق درصتی ویرمش یوبویك ملتك معنویتجه قوتلی یوبویله‌بر‌ای‌تحتی‌در. حقوق بشر یاتانه‌مه‌سی نشر ایدیوب، یو منشوری ایله یوتون دنیا حریت پرورلرینه برتوغ «اصول‌دین» دفتری بختی ایتمش‌اولان یوبویوك شهر، یو دفعه یوتون دنیا ملتلرینه «حقوق ملل» قانونامه‌سی یازمقله مشغولدر. «حقوق‌ملل» یاتانه‌مه‌سی «حقوق بشر» یاتانه‌مه‌سی قدر مقدس وهر کسجه قابل‌تطبیق یوبویك دستورلره مالك اولورسه، اوزمان فرانسه، فرانسه‌نك کوزل پای‌تختی اولان (پاریس)، دنیا ملتلرینك معنوی‌بر پای تختی تشکیل ایده‌جك هروطنداشی کندی مرکزلرینه‌دن صوکره پاریسی طانیاجقدر.

خوشبخت شهر! بریل یوندن مقدم ازدهای حریق ضربه‌لری آلتنده خراب اولدق تهدیدنده ایکن یو کون یوتون دنیایی شلتله‌یرمك، یوتون ملتلری سه‌ویندیرمك ایشنه مرکز اولیورسك! نه‌یوبویك سعادت!

فقط صاقین! محتمل سالوتلر گدن بریسنده، احتمال که «موسای‌ملك تاریخی یاتسنده»، انعقاد ایده‌جك بشریت فارشیسنده کی مسئول رجاللره تلقین ایتکه مغرور اولمایسین، موقع و اقتدار لریتی سوء استعمال ایتمه‌سین، یالکز بشریتی و یالکز استقبال بشری دوشونه‌سنلر. حکملرینی ویررکن یوتون دهٔ‌وقراتیاتك طلبتی نظره آلسینلر؛ مزارلرندن قالقمش و دریلکه تشنه اولمش ملتلری تکرار مزارینه کومه‌مه‌سینلر!!

یلسینلر که اوزمان وجدان بشر راحت ایده‌مز!

تکرار مزارلرینه کومولمش ملتلر دائما بر خوتلاق کبی رفاه‌ایله یاشامق ایسته‌یانلرك حضور وراحتینی یوزارلر.

م. ا. رسول‌زاده

ایروان ارمنی – مسلمان مسئله‌سی

– ۳ –

ایروان غوبرنیاسنده، ارمنیلرك مسلمانلار حقنده توردیکلری فلاکتلر، یولارك یاغلی اولدقدن و غیرمانه‌لردن طولایی، اطرافلره یایلمیوردی.

بناء علیه، ارمنیلرك، حوختوارلق حالنه دوشوب، اوز مسلمانلارینك یاشادقلرینه نه مصیبتلر، نه فلاکتلر، گتیردیکلرینی آز معلوماتمز اولوردی.

“Azərbaycan” qəzetinin 93-cü nömrəsinin 1-ci səhifəsi

Çərşənbə axşamı, 21 yanvar 1919-cu il, nömrə 93

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 18 rəbiülaxir sənə 1337. 21 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

HESAB GÜNÜ

– Sülhi-Ümumi Konqresinin gözlən[il]məsi münasibətilə –

Məzahib və ədyanın [məzhəblər və dinlərin] əksərində, insan dünyadakı işlərindən, savab gördüyü işlərlə irtikab eylədiyi [işlədiyi] günahlarından, bir gün gələcək də hesab verəcək. Qiyamət qopacaq, məhşər olacaq, hesab günü gələcəkdir.

Ehtimal ki, ayrı-ayrı fərdlərin Allaha nisbət irtikab eylədikləri qəbahətlərin mühakiməsi və icra etdikləri savabların mükafatını verəcək bir "yövmülhesab" [hesab günü] daha irəlidədir. Kim bilir, bəlkə yenə dəccallar, mehdilər, nəhayət məhşər, sirat körpüsü, mizan [tərəzi] görəcək, "yövmülhesab"a çəkiləcəyiz.

Ehtimal ki, bu mərhələlərin həpsini keçmişiz və keçməkdəyiz də, fərdən [şəxsən, fərdi olaraq] mütənəbbeh olmur [oyanmır], hiss etmir, mətləbi duymuruz.

Fəqət insanlar fərd həyatından başqa, bir də cəmiyyət həyatı ilə yaşayırlar. Cəmiyyətləri biri-birindən ayıran və ona bir camieyi-şəxsiyyə verən [ona bir cəmiyyət kimi şəxsiyyət qazandıran] ən böyük amil, milliyyət amilidir. Millətlər birər fərddirlər.

İştə bu milliyyət etibarilə birər fərd təşkil edən bəşəriyyətin hesab günü (yövmülhesabı) gəlmişdir.

1914-üncü sənəsindən bəri dünyanı alt-üst edən, mövcud şəhərləri, məmurələri [abad yerləri], binaları xarab etdiyi kimi, maddiyyatımızda olduğu qədər mənəviyyatımızı dəxi rəxnədar edən [yaralayan] bu böyük qital (öldürüş) və bu üzdən hüsula [meydana] gələn aclıq, kəsad, qırğın əcəba qiyamət və məhşərdən başqa bir şeymidir?

Əvət, millətlərin qiyamətidir. Məhşəri-kübraya [böyük hesab gününə] yalnız həyati-siyasiyyələri [siyasi həyatları] ilə mövcud olan millətlər deyil, çoxdan bəri məzara gömülmüş olan millətlər də gəlirlər.

1914-üncü ildə patlayan top gülləsi, xəri-dəccalın [dəccalın eşşəyinin] nə'rəsinə mümasil idi [oxşayırdı]. 1918 sənəsində böyük Amerika Cümhuriyyəti rəisinin cahana elan eylədiyi 14 maddəlik sülh əsasları isə İsrafil suruna bənzəyirdi. Bu sur: "Qalxınız, ey zavallı millətlər, yövmülqiyam [qiyamət günü], yövmülhesabdır!" deyirdi.

Millətlər qalxdılar, hesab ayağına qoşdular.

Bu hesab Parisdə vaqe olacaqdır. Parisdə qurulacaq olan Sülhi-Ümumi məclisi, qəzetələrin rəvayətinə görə, 1500 adamdan ibarət olacaq. Bu 1500 adam dünyadakı nə qədər millət varsa, hamısını təmsil edəcəkdir.

1500 müxtəlif millətlərə mənsub, müxtəlif dillərdə mütəkəllim [danışan] bir “Cəmiyyəti-Əqvam” [Millətlər Cəmiyyəti] məhşəri bir kərə təsəvvür olunsun. Babil qülləsi, oradakı təbəlbüli-əsvat [səslərin qarışıqlığı] həman xatirə gələr.

Fəqət şəklən Babildəki rənglərə malik olsa da, Paris Konqresi mə’nən o halda bulunmayacaqdır. Bir kərə, mə’nayi-zahir [zahiri məna] etibarilə də olsa, dünyanın (Şərq ədəbiyyatındakı məşhur təqsimatına [bölgüsünə] görə) 72 millətindən ötrü Fransa lisanı aşağı-yuxarı anlaşılar bir dildir. Digər tərəfdən də 1500-ün içində nüfuzi-kəlmə sahibi [sözü nüfuzlu] həqiqi hakimlər vardır. Bu ərbabi-nüfuz [nüfuz sahibləri] artıq “təbəlbülə” [qarışıqlığa] imkan verməzlər, zənn edəriz.

Dünyanın hesabını görəcək Paris Konqresi aləmi yeni başdan tikəcək, yeni bir həyatın əsaslarını vəz edəcək [qoyacaq]; cahan xəritəsini yeni rənglərə boyayacaq və böylə yapdıqdan sonra:

– Ey dünya, böylə yaşamalısan! – deyə əmr edəcəkdir.

Bu əmr, millətlərə səadət gətirə biləcəkmidir?

İştə sual!..

Xalqın müxəyyiləsində [təxəyyülündə] mücəssəm olan [konkretləşən] hesab gününün nəticəsində insanlardan bəzisi behiştə, bəzi cəhənnəmə, bəzi də bərzəxə məhkum olacaq deyə, bir təsəvvür vardır. Bu hesab gününün nəticəsində dəxi bütün dünya millətlərinin “behiştlik” olacaqlarına hökm verə bilmək üçün həddindən artıq nikbin olmaq lazımdır.

Doğrudur, hesab çəkənlərin ən qüvvətlisi olan Vilson həzrətləri: “Böyük millətlə kiçik millətdə fərq olmamalıdır” - demişdir. Doğrudur, gizli diplomatiyanın qaldırılması mətlub [lazım] görülmüşdür. Doğrudur, silahlanmanın bihudə olduğu etiraf edilmiş, təhdidi [məhdudlaşdırılması] faydalı olacaq denilmişdir.

Fəqət bunlar daha hesabı görülmüş, müvazinəsi təyin edilmiş birər həqiqətlər deyildir. Həqiqət olmaq arzusu ilə söylənilib duran birər böyük şüarlar, iztirablı qəlblərin döyüntüsünü rahat edən birər “valerian” damcısıdır. Bu damcılardan sonra bəşəriyyətin pozulmuş mədəsini, üzülmüş səhhətini təkrar iadə edəcək [bərpa edəcək] həqiqi əlaclar veriləcəkmidir? Hesabi-ümumi məhkəmeyi-kübrası [böyük məhkəməsi] hüzuruna gedən millətlər, düçarı olduqları əziyyətli azarlarının əlacı iləmi qayıdacaqlar, yoxsa əllərinə verilən namə, şəfa reçetəsi (nüsxəsi) deyil, edam cəzası olacaqdır?

Vilson, prinsiplərini izah edərkən söylədiyi nitqlərindən birində – yanılmayırsam – “Cəmiyyəti-Əqvam əsasının təmin eylədiyi feyzdən hər millət kəndi ləyaqəti və mədəniyyətinin dərəcəsi nisbətində istifadə edə biləcəkdir” – demişdir.

Kəndi ləyaqəti və mədəniyyəti nisbətində!..

Özü-özlüyündə irad götürməz bir düstur.

Fəqət eyni zamanda geniş təvillər [izahlar], uzun təfsirlərə mütəhəmmil [əlverişli] bir formul.

Millətlərdən, bilxassə bizim kimi "bə'sü-bədəlmövt" [ölümdən sonrakı diriliş] nəticəsində qiyam edən [dirilən, ayağa qalxan] millətlərdən ötrü bu düsturun şu və yaxud bu şəkillə təfsiri dürlü-dürlü nəticələr verə bilər. Olar ki, bu düstur bizi behiştlik, olar ki, bərzəxlik, olar ki, cəhənnəmlik etsin!

Məhkəmənin bu üç hökmdən birisini verməsinə oradakı nümayəndələrimizin, təbiri-digərlə [başqa sözlə], dava [məhkəmə] vəkillərimizin məharəti, ciddiyyəti, səy və çalışqanlığı təsirsiz olmayacaq. Fəqət bu, kifayət etməz! Lazımdır ki, biz də burada çalışaq, kəndimizi idarəyə, behiştlik dərəcədə idarəyə istehqaq [haqq] qazanmış olduğumuzu isbat edək.

Bu vasitə ilə işin yarısı görülmüş olsa da, məhkəmə hökmünün xırda millətlər haqqında tamamilə müvafiq çıxarılması üçün Avropa və Amerika demokratiyasının [xalqının] bu hökmlər üzərinə həqiqi bir nüfuz icra eyləməsini arzu etməliyiz. Bu nüfuz vaqe olarsa, o zaman bütün cahana qarşı elan olunan prinsiplər az-çox safiyyətini [saflığını] saxlar. Onların saflıqlarının məhfuz qalması [qorunub saxlanması] isə bizim kimi xırda millətləri qurtarar [xilas edər], dirilik yarlığını [fərmanını] əllərimizə tapşırar.

Hər halda bütün dünyanın nəzəri bu gün Parisə mütəvəccehdir [çevrilmişdir]. Paris dünya millətlərinə kəndilərinə müstövli olan [onları əhatə edən] istibdadı qurtarmaq dərsini vermiş böyük millətin mənəviyyatca qüvvətli böyük bir paytaxtıdır. Hüquqi-bəşər bəyannaməsini nəşr edib [yayıb], bu mənşuru [yaymağı] ilə bütün dünya hürriyyətpərvərlərinə bir növ "üsuli-din" dəftəri bəxş etmiş olan bu böyük şəhər, bu dəfə bütün dünya millətlərinə "hüquqi-miləl" [millətlər hüququ] qanunnaməsi yazmaqla məşğuldur. "Hüquqi-miləl" bəyannaməsi, "hüqıqi-bəşər" bəyannaməsi qədər müqəddəs və hər kəscə qabili-tətbiq [hər kəsin tətbiq edə biləcəyi] böyük düsturlara malik olarsa, o zaman Fransa, Fransanın gözəl paytaxtı olan Paris, dünya millətlərinin mənəvi bir paytaxtını təşkil edəcək, hürr vətəndaş kəndi mərkəz vilayətindən sonra Parisi tanıyacaqdır.

Xoşbəxt şəhər! Bir il bundan müqəddəm [qabaq] əjdəhayi-hərbin [müharibə əjdahasının] zərbələri altında xarab olmaq təhdidində ikən, bu gün bütün dünyanı şənləndirmək, bütün millətləri sevindirmək işinə mərkəz olursan! Nə böyük səadət!

Fəqət saqın; möhtəşəm salonlarından birisində, ehtimal ki, Versalın tarixi binasında in'iqad edəcək [yığışacaq] bəşəriyyət qarşısındakı məsul ricallara [adamlara] təlqin et ki, məğrur olmasın, mövqe və iqtidarlarını sui-istemal [sui-istifadə] etməsin; yalnız bəşəriyyəti və yalnız istiqbali-bəşəri [bəşərin gələcəyini] düşünsünlər. Hökmlərini verərkən bütün demokratiyanın tələbini nəzərə alsınlar, məzarlarından qalxmış və diriliyə təşnə olmuş [susamış] millətləri təkrar məzarına gömməsinlər!

Bilsinlər ki, o zaman vicdani-bəşər rahat edəmməz! Təkrar məzarlarına gömülmüş millətlər daima bir xortlaq

kimi, rifahla yaşamaq istəyənlərin hüzur və rahatını pozarlar.

M. Ə. Rəsulzadə

İRƏVAN ERMƏNİ-MÜSƏLMAN MƏSƏLƏSİ

- 3 -

İrəvan quberniyasında, ermənilərin müsəlmanlar haqqında törətdikləri fəlakətlər, yolların bağlı olduğundan və qeyri maneələrdən dolayı ətraflarda bilinməyirdi. Binaənileyh [ona görə], ermənilərin xunxarlıq [qaniçənlik] halına düşüb öz müsəlmanlarının başlarına nə müsibətlər, nə fəlakətlər gətirdiklərindən az məlumatımız olurdu. Fəqət axır vaxtlar rəsmi və mövsuq [etibarlı] mənbələrdən bizə çatan xəbərlərdən anlaşıldı ki, İrəvan quberniyasında müsəlmanlarla yan-yana yaşayanlar insan deyil, bir sürü canavarlardan ibarət imişlər.

1919 sənəsi yanvarın 5-də Azərbaycan Parlamanı salonunda İrəvan quberniyası müsəlmanlarının ümumi bir yığıncağı oldu. Orada İrəvan quberniyası müsəlmanlarının başına gətirilən müsibətlər danışığa qoyuldu. İrəvan quberniyası müsəlmanları tərəfindən təşəkkül edən Araz Türk Hökuməti namından [adından] Bakıya Azərbaycan Cümhuriyyəti nəzdinə gəlmiş olan nümayəndə Paşa Bayramov cənabları o tərəf müsəlmanlarının ermənilər əlindən görmüş olduqları müsibətlər, fəlakətlər barəsində məclisə müfəssəl bəyanat verdi. Bəyanat o qədər suzişli [yanğılı] və qəməfza [qəmli] idi ki, hər cümlə başında camaat tərəfindən zülümkarlara qarşı nifrətlər izhar edilirdi.

Ədliyyə naziri müavini Teymur bəy Makinski cənablarının sədarəti [sədrliyi] ilə açılan məzkur [deyilən] məclisdə müşarünileyh [adı çəkilən] Paşa Bayramov cənablarının irad etdiyi [söylədiyi] bəyanat, ermənilər[in] vəhşiliyini o dərəcə hüznavər [hüzünlü] və nifrətəngiz [nifrət doğuran] bir surətdə təsvir edir ki, qəzetə oxuyanların ciyərlərini cərihədar etməyi [yaralamağı] bəhəqqən [həqiqətən] rəva görməyib, ancaq bəzi yerlərini müxtəsər yazdıq.

1917 sənəsi dekabr ayından başlayıb 1918 sənəsi iyun ayının axırına qədər (yəni türklər İrəvana gələnədək) ermənilər müsəlmanları qırmaqda davam edirdilər. Ermənilər bu əquranə [azğın, qudurmuşcasına] hücumları ilə İrəvan quberniyasında Sürməli, Eçmiyədzin, İrəvan, Novo-Bayəzid, Gümrü mahallarını tar-mar etdilər. Şərur və Naxçıvan üstünə yürüş etdikləri əsnada türklər İrəvan quberniyası müsəlmanlarının imdadına çatdılar. Ermənilərin müsəlman kəndlərini, mal-qaralarını qarət etmələri vasitəsi ilə erməni quldur dəstə başçıları drolar bu gün milyonçu olublar.

Türklər gəldikdən sonra ermənilər bir çox yerlərdən qaçdılar və özlərinin “Ararat” adlandırdıqları cümhuriyyətləri daxilinə köçdülər. Müsəlman qaçqınları da öz yerlərinə qayıdıb gəldilər və bərbad olan evlərini, yurdlarını yenidən abadlandırmağa başladılar.

Biz müsəlmanlar öylə güman edirdik ki, bundan sonra zülümdən xilas olub

rahat yaşayacağız. Fəqət zənnimiz yanlış çıxdı. İnsan qanından doymaq istəməyən və həyasız zülümkarlıqdan əl çəkməyən erməni quldurları yenidən zərbələr vurmağa başladılar. Ermənilərin bu dəfəki zülümkarlığı isə Ararat Cümhuriyyətini qurduqlarından sonra davam etməyə başladı. Belə ki, ermənilər cümhuriyyətləri daxilində yaşayan müsəlmanları top-tüfəng gücü ilə öz yerlərindən çıxarıb qovdular. Yerlərinə isə Türkiyədən gələn "qaxtaqan"ları (mühacir ermənilərı) sakin etdilər [yerləşdirdilər].

Ermənilər bu səyaqla gələcəkdə və lazımi yerlərdə "Ermənistan" deyə bilmək üçün İrəvan quberniyasında müsəlman kəndlilərinin ata-baba yurdlarında "ermənzəmin" binasını möhkəmləndirmək istədilər. Milli, Çığın mahallarında və Dərəçiçək (Novo-Bayəzid) hissələrindəki müsəlmanları toplara tutdular. Bu mahallarda müsəlman kəndçi və əkinçilərinin yurdlarını xaraba halına saldılar.

Ermənilərin bu təcavüzlərinə qarşı o zaman türk komandanları – nə vasitəylə isə – kar və kor kimi qalıb sükut etdilər və bizi də qoymadılar ki, gedib qardaşlarımıza imdad edək.

Erməni Cümhuriyyətinin qərarına görə, o vaxt 80 paraya qədər müsəlman kəndləri müsəlmanlardan boşa[l]dıldı və camaatlarının malları əllərindən alındı. Kəndləri də ermənilər tərəfindən işğal olundular. Ermənilərə nə öz vicdanları və nə də digər bir tərəfdən deyən olmadı ki, günahsız və haqsız yerə yerlərindən, yurdlarından qovulmuş bu qədər müsəlman kəndlilərinin halı və gələcəyi bəs necə olsun?

Sonra siyasət başqa bir şəkil aldı. Türklər Qafqaziyanı tərk etməyə başladılar. İrəvan quberniyası müsəlmanları pozğun bir halda qaldılar. Binaənileyh [ona görə] quberniyanın cənubunu təşkil edən və 600 min nüfusluq [əhalisi olan] sırf kəndçi və əkinçilərdən ibarət müsəlman camaatı öz yerlərində öz işlərini dolandırmaq məsləhəti üçün Qəmərli qəsəbəsində 1917-ci sənə noyabrın 16-dan 19-nadək camaat tərəfindən seçilmiş vəkillər yığıncağı qurdular və həman Milli Şurada özlərinin siyasi, mədəni, ictimai işlərini idarə etmək üçün Araz Türk Cümhuriyyəti namı ilə bir hökumət təşkil etdilər.

İndi aldığım məlumata görə, Erməni Cümhuriyyəti həman Araz Türk Cümhuriyyətinin hüquq və hüduduna [təcavüzə] başlamış.

Cümhuriyyətin Sürməli, İrəvan, Eçmiyədzin mahallarındakı hissələrini işğal etmiş, keçən sənə kimi buradakı müsəlmanları qətl-qarətə başlayıblar. Şərur və Naxçıvan üstünə dəxi qoşun göndərmişlər. Lakin burada yerli müsəlmanlar tərəfindən müqavimət olunub, mütəcavizlərin [təcavüzkarların] qabağı alınmışdır.

Fəqət ermənilər dalbadal təzə qoşunlar gətirməklə qüvvələrini artırmaqdadırlar. Genə burada erməni qoşunları tərəfindən bir çox müsəlman kəndləri dağıdılmışdır. Müsəlmanların isə qoşunları yox, topları yox, kənd camaatının da müntəzəm düşmən qabağında dayanmağa nə qədər qüvvəsi ola bilər? Hərgah tezliklə erməni hücumlarının qabağı alınmazsa, İrəvan quberniyası müsəlmanlarının imdadına çatılmazsa, ermə-

nilər Şərur, Naxçıvan mahallarını da alacaqlardır. O halda bu mahallara pənah gətirən müsəlman qaçqınlarının halı nasıl olacağını bilmirəm.

Halbuki ermənilər bu hərəkətlərində büsbütün haqsızdırlar. Zira Ararat Cümhuriyyəti daxilindəki müsəlmanların qalanı da sonra köçüb Araz Türk Cümhuriyyətinin daxilinə gəldilər və burada olan ermənilər də bir o miqdarda bizim içimizdən köçüb öz cümhuriyyətləri daxilinə getdilər. Böyləliklə, aralığımızda bir əvəz-bədəl müamiləsi [əməliyyatı] hasil oldu. Yalnız İrəvan şəhərindən 23 min miqdarında müsəlman əhalisi çıxarıldı. İştə, son dəfəki hücumlarla ermənilərin məqsədi bu yerləri tutmaqla İrəvan quberniyasında yaşayan 600 min müsəlmanları Azərbaycan Cümhuriyyətindən ayırmaqdır və buradakı müsəlmanların sayını da mümkün olduğu qədər azaldıb, yerlərinə öz “qaxtaqanlarını” doldurmaqdır. İrəvan quberniyasında erməni avantüristlərinin oynadığı rollar iştə bunlardan ibarətdir.

M[ir] A[bbas] Mirbağırzadə

DİRİL!

Ey elimin düzgün dilli, şirin sözlü, dərin düşüncəli bülbülləri! Ey anamın sağlam, doğru və igid balaları! Dan atdı, günəş çıxdı, mavi göy yaldızlandı, sevgili yurd işıqlandı. Xoş nəğmələrdən oxumalısınız! Qarınca [qarışqa] kimi çalışmalısınız ki, ölkəmizin daima bahar və məmur [abad] olacağını öz işlərinizlə baxanlara, dinləyənlərə bildirəsiniz.

Ey türklərin rəhbərləri, yazıçıları! Ey Azərbaycanın gəmiçiləri, kapitanları, tayfaları [gəmi mürəttəbatı]! Ey istibdadın zəncirləri altında çürüyüb məhv olan insanlar, dirilin! Artıq qiyamətdir. Amma ümidli, işıqlı qiyamət. Ey Abdullalar, “Sur”unuzu çalın! Ey Tələtlər, həqiqət nuru ilə afaqı [üfüqləri] parıldadın! Ey Səhhətlər, bu türklərə sağlıq verin! Ey Sabirlər, gülün-güldürün! Artıq yetər! Şu zalım bəşərin mənəvi buxovlarından qurtulun! İmdadımıza çatın ki, həmişəlik əsarətin odlu kötəkləri altında cəhənnəmin zəqqumlarını dadmağa bizə razı olmayınız!

Bu gün gözünüzü dörd açmalısınız! Yanğın ətrafımızı çulğamışdır. Qarabağımızın hər dürlü məhsulat [məhsulları] və məmurələri; Lənkəranın damları, abadanlıqları; Borçalı və civarlarının tayaları və qoruqları; insanları, heyvanları od tutub yanır. Ordubad və Naxçıvanlardan qalxan tüstülər nəfəs yollarını boğur. Şimalın yalav qızartıları, ildırım çınqıları üzlərimizi qovurur. Qab-qacaq tapın! Su gətirin! Bu yerlərə atın, səpin, söndürün! Ta ki, bu əziz bucaqlar məhv olub getməsin! Ta ki, onlarla bərabər şu möhtəşəm “saray”ımız külə dönməsin!

Rusiya, qolu çomaq zamanlarında çaldı, çapdı. Bütün xırda millətləri özünə məhkum etdi. Bu ölkələri öz donduraylarına qoşdu, istirahət etdi... Sözləşdi, vuruşdu, yoruldu, əzildi, döyüldü.

Zəncirlədiyi qollar açıldı, addımlar atıldı, qanlar hərəkətə gəldi. Hər kəs öz varlığını isbata çalışdı.

Qafqaziya ayrıldı, istiqlaliyyətlər elan edildi. Yoldaş şeytənəti [şeytanlığı] duyuldu, iplər çözüldü, hərə öz başına qaldı.

Azərbaycan dirildi, istiqlaliyyət elan etdi. Haqqı tanındı.

Özgə məmləkətlərin yemləri öz camaatından artmadı. Ədibanə [mədəni surətdə] üzrlər diləyərək əcnəbiləri içlərindən çıxardı. İdarələri, dəftərxanaları, zavodları, məktəbləri başsız və adamsız qalan Azərbaycanda əvvəlki "dostluq" xatirinə onlara ən ali məqamlar peşkəş edildi.

Rus Milli Komitəsi yeni-yeni mühacirlər dəvət edir, yeni-yeni müstəmləkələr yapır, yeni-yeni yerlər qapır, yeni-yeni mövqelər tutur.

Əlbəttə, həman rusların yerində mən də olsaydım, böylə yapardım.

Dan Ulduzu

İRANLILARIN HALI

Neçə illərdən bəri İranın firavan məmləkətində qəhtü-qəla [qıtlıq və bahalıq] olmaq səbəbincə İranın füqəra sinfi "əl-qəriq yətəşəbbəsü bikülli həşiş" müfadınca [mənasına uyğun olaraq] labüd və laəlac [əlacsız qalaraq] öz əyal [ailə, arvad] və övladlarının əllərindən tutub hər kəs bir səmtə və bir tərəfə pənahəndə olub [pənah aparıb, sığınıb], milyonlarla xanimanları bisahib və xanəvadələr [nəsillər; yurdlar] viran və əhaliyi-islam ünasən və zəkurən [qadınlı-kişili] xaki-xaricədə, küçələrdə, xarabalarda, tövlələrdə, dağlarda, cəngəllərdə baş xaki-məzəllətə qoyub [zəlillik torpağına baş qoyub], fövt [məhv, yox] olub getmələri məlumdur. Həmin keçən il İran məmləkətində məzruat [əkinlərin] və məhsulatın ziyadə əz-həddü əndazə [həddən artıq] olmağına əmin olub, bəzi öz rizaları ilə bir paraları Rusiya və Qafqazda şölələnmiş anarxiya yalavının [alovunun] vahiməsindən və getməyə qüdrətləri olmayanlar Bakıda vaqe İran konsulu cənablarının bəzli-hümmətləri ilə Bakıda yaşayan İran tüccar və əsnaflarının topladıqları ianələrlə öz vətəni-müqəddəslərinə mütəvəcceh oldular [üz tutdular]. Mütəvəcceh oldularsa da, "yağışdan qurtarıb yağmura düşdük" qəbilindən biinsaf və Allahutəalanın qəzəb və qəhhariyyətindən qafil kənd və əmlak sahibləri olan bimürvət və bihəmiyyətlərin insaniyyətsiz təəddilərinə [zülümlərinə] davam gətirə bilməyib laəlac [əlacsız] mükərrər [yenə, təkrar] ixtiyari-qürbət etməyə məcbur olublar və halonki [bir halda ki], keçən il İranın hər bir nöqtəsində iki il qabaq əkilib yağmur olmamaq səbəbincə torpaqlar altında qalmış ziraətlər – ki əkinçilər onlara "xeyri" deyirlər – yaxşı məhsula gəlibmiş, aya [görəsən] bu mülkədar ağalar və ərzağı özlərindən ötrü smeta ticarəti mal edən milyonçulardan külfətlər hansı bir bahanə ilə bu qədər biəndazə [bol] məhsulatı öz xaraba qalmış anbarlarında tövqif [həbs] edib, birə on qiymətlərə satmağa mükəlləf olub bu qədər nahaq qanlara bais olur və məmləkəti xarab və milləti-məzluməni məhv etməyə cürət edirlər? Məlum olan, bizim müqəddəs vətənimizdə hökumət yoxdur! Olmuş olsa, həman hökumətin zimami-ixtiyari [ixtiyarının cilovu] möhtəkirlərin yedi-qəddaranələrində [zalım əllərində] olub öz keyfəmayeşalarına [öz keflərinə, özbaşınalıqlarına] məşğul olmazlar!

Hərgah hökumət ədalət nöqteyi-nəzərincə bu qədər dadi-nabəca [yersiz fəryad] və insaniyyət qəbul etməyən zülüm və təəddilərin qabağına bir sədd çəkmiş olsa, nə məmləkət viran və nə də əhli-məmləkət bir qarın çörəkdən ötrü dilənçi olmazlar.

Hərgah İran məmləkətində dövləti-məşrutə [konstitusiyalı idarə] tərəfindən təyin olunmuş hakimlər rəfiqi-düzd [oğru dostu], rəisi-qafilə [dəstəbaşı] olmazlarsa və öz məmur olduqları hökumətin vəzifələrini layiqincə düşünərlərsə, bu qədər füqəra və züəfa [zəiflər, gücsüzlər] öz xanimanlarını qoyub bir qarın çörəkdən ötrü səhralara düşməzlər və düşərlərsə də bu qədər rəzalət və fəlakətlərə düçar olmazlar, zənnindəyəm.

On iki il bundan qabaq, ki millətiqədimi-İran [qədim İran milləti] xanların, bəylərin, mülkədarların, vüsuqülüləmaların, seyfüddövlələrin, hüsamüssadatların və nələrin-nələrin zülüm və işgəncələrindən təngə gəlib on minlərlə vətən övladlarını qurban verəndən sonra be-həsəbi-zahir [zahiri etibarla; görünüş etibarıyla] istibdadın rişeyi-xəbisələrinə [xəbis köklərinə] tişələr [külünglər] vurub hürr və azad millətlərin cərgələrinə daxil olub, dövlətimiz dövləti-məşrutə və milliyyətimiz milləti-məşrutə oldular. Hanı bəs indi o məşrutənin asarı [əlamətləri]? Bəs nə oldu həman hürriyyət?

Ey İranın qəyur [qeyrətli] övladları! Aya, bu iffət və ismətlər ilə pərvəriş tapıb [bəslənib], xariciyyə torpaqlarında bir parça çörəkdən ötrü ismətlərinə təcavüz olanlar sizin ana və bacılarınız deyilmi? Aya, bu səhra və biyabanlarda, meşələrdə, xarabalarda, küçələrdə məzlumanə acından ölənlər sizin ata və qardaşlarınız deyilmi? Kifayət etmədi bu iki il müddətində türkman çöllərində və Türküstan ölkələrində neçə yüz minlərlə qanları tökülüb, malları qarət olandan sonra, naz və nemətlərlə pərvəriş tapan əhlü əyalları əğyarların yedi-zalimanələrində əsir və dəstgir [naz-nemətlə bəslənən ailə və övladları düşmənlərin zalım əllərində əsir və əli-qolu bağlı] olub insaniyyətdən xaric işlərə düçar olmaları? Kifayət etmədimi genə qəm və ələm karvanı xaricə məmləkətinə təvəccöh edib [üz tutub] pənahəndə olurlar?

Vay, biz İraniyyan.

Gər müsəlmani həmin-əst ki maha darim
Vay əgər əz peyəm ruz şüd fərdayi.

Ey əziz vətəndaşlar:

İn qədər piş tu göftəm qəmi-dil tərsidəm
Ki dil azadə şəvi vərnə bisyar-əst!

Xaki-payi-həmvətənan
[həmvətənlərinin ayağının torpağı olan]
Mirzə Möhsün Əlizadə

TƏƏSSÜRAT

Parlaman üzvü olan bir şəxs eyni zamanda da dövlət məmuru ola bilərmi?

Bu suala “Müsavat” fraksiyasının cavabı böylə olmuşdu:

- Xeyr, ola bilməz, vəzirlərdən səva [nazirlərdən başqa].

“Müsavat”ın bu nəzəri məbuslarımızdan bir paralarını təşvişə saldı. O idi ki, Parlaman əzasından Vansoviç cənabları kürsiyi-xitabətə çıxıb dava [məhkəmə] vəkillərinə məxsus olan bir əda ilə şirin bir nitq söylədi. Amerika, ingilis və Fran-

sa "parlamentarizm"lərindən misallar gətirdi və axırda bunu dedi ki, hələ tərzi-idarəsi dürüst təyin edilməmiş olan Azərbaycanda bu növ məsələlərin həlli tezdir. Çünki bu halda Azərbaycan Parlamanı məbuslarına böylə bir təklif qoysan ki: ya məbusluq, ya məmurluq – nəticəsi yaxşı olmaz.

Vansoviçin bu şirin və ağlabatan nitqini digər məbuslarımızdan Vinoqradov və Abdulla bəy Əfəndiyev cənabları da təsdiq edib dedilər ki, hanı bizdə bir o qədər ziyalı və əhli-maarif ki, birisi məbus olarkən, biri də, məsələn, müəllim olsun; birisi məbus olarkən, biri də fərzən, bir idarə müdiri olsun.

Natiq əfəndilərin bu xüsusdakı nitqləri o qədər ağlabatan, o qədər qənaətpəzir [qənaətbəxş] və o qədər inandırıcı idi ki, məbuslardan bir parası "O olmasın, bu olsun"da Həsənqulu bəy kimi: "Daha nitq demək lazım deyildir" deyib, məsələnin xüsusi bir komisyona verilməsini istəyirdilər. Bunlara müqabil, "Müsavat" fraksiyası sədri Məhəmməd Əmin Rəsulzadə cənabları söz deməyə məcbur idi.

Mən güman edirdim ki, Rəsulzadə cənabları bu qədər dəlil və bürhanlardan [sübutlardan] sonra "Müsavat" fraksiyası nəzəriyyəsinin bu xüsusda yanlış olduğunu özü də etiraf edib, Parlamandan üzr istəyəcək və deyəcəkdir ki, bağışlayın biz səhv eyləmişik.

Lakin Məhəmməd Əmin cənabları nəzəriyyələrini müdafiəyə başladı və qabaqkı natiq əfəndilərin dəlillərini nəqz və cərh etməyə [pozmağa və etibarsızlaşdırmağa] qalxışdı.

Nitqi dinlədikcə gördüm ki, qabaqkı natiqlərin dəlil və bürhanları, Məhəmməd Əmin cənablarının meydani-müsadiməyə [münaqişə meydanına] sövq etməkdə olduğu sübut və rəddiyələrinin [etirazların] qələbəsi [çoxluğu] qarşısında tabavər ola [dözə] bilməyib, başımda işğal etmiş olduqları yerləri bir-bir boşaltmağa məcbur olurlar.

Dava vəkili olan Vansoviçin pürməzmun [məzmunlu, mənalı] nitqinin, dava vəkili olmayan Məhəmməd Əmin Rəsulzadə tərəfindən əsaslı bir surətdə cərh edilməsinin özü başqa bir xoş keyfiyyətdir.

Məsələnin özünə gəldikdə, Məclisi-Məbusan, dövlətin qüvveyi-təşriiyyəsidir [qanunverici gücüdür]. Yəni dövlət üçün şər' [hüquq normaları] və qanunlar düzəldir. Heyəti-məmurin [məmurlar] isə qüvveyi-icraiyyədir, yəni həmin şər' və qanunları yürüdür, icra edir. Əlavə, qüvveyi-icraiyyə, qüvveyi-təşriiyyə qarşısında məsuldur. Böylə olan surətdə bunları qat-qatışığa salmağın nə mənası var!

Bu, əsas etibarı ilə.

İşə gəldikdə, aya [görəsən] Azərbaycan dövləti ürfanca yəni o qədər kasıb oldu ki, yuxarı başı bir iyirmi nəfər "savad əhli" tapa bilmədi ki, məmurluqlarını tərk edəcək məbusların yerinə qoysun?

Doğrudur, biz özgələrə nisbətən ürfanca bir az kasıbıq. Lakin kasıblığımızı mübaliğə yolu ilə bir qədər daha kasıblatmağa heç bir lüzum yoxdur. Çünki bu cürə söhbətlərin axırı böylə olur ki, Azərbaycan dövlətinin Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi], Azərbaycan dövlətinin milli Parlamanını

bisavad hesab edib kağızlarını rusca yazır ki, Parlamanın rus məbusları oxuyub müsəlman məbuslarını başa salsınlar.

Amma bu da ola bilər ki, Ümuri-Xeyriyyə Nəzarətinin özündə savad əhli yoxmuş.

Üzeyir

TELEQRAF XƏBƏRLƏRİ

(Gürcü nümayəndəsinə və “Azərbaycan” qəzetəsinə)

Almanların çıxarılması

Tiflisdən xəbər verirlər ki, alman mətbuatının verdiyi məlumata görə, Belçika hökuməti Belçikada olan almanların çıxarılması haqqında bir əmrnamə nəşr etmişdir. Bu hesabla 8 min alman çıxarılmalıdır.

Cənubi Amerikada

Buenos-Ayresdə neçə gündür ki, iğtişaş başlanıb, hərbi diktator hökmfərma imiş [hökm sürürmüş]. Saldatlar asayişi bərpa etmişlərdir. Uruqvay paytaxtından xəbər verirlər ki, orada da suiniyyət [cinayət yaxud terror hazırlığı] kəşf edilmişdir. Bir çox adamlar həbs edilmişdir. Bunların arasında çoxlu rus var. Bu iğtişaşlarda ruslar da iştirak etmişlərdir. Rus əsirləri etiraf etmişlərdir ki, hər iki məmləkətdə hökuməti düşürüb şura hökuməti təşkil edilməsi niyyətində imişlər.

Hindenburqun namizədliyi

Hindenburqun Almaniya Milli Şurasına namizədliyi şayiələrinə Hindenburq cavab vermişdir ki, hələlik namizədlik qəbul edilməsi onun üçün mümaniət [maneçilik] törədir.

Bavariya çexlər əlində

Çexlər Bavariya sərhədini işğal etmişlərdir.

Lüksemburqda

“Deba” qəzetəsi xəbər verir ki, Lüksemburq Cümhuriyyəti[ni] elan edən firqə, Lüksemburqun Fransaya mülhəq edilməsi [birləşdirilməsi] təklifi ilə Parisə rəsmi bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərməyi təhti-qərara almışdır.

Batumda

Xüsusi müxbirimiz xəbər verir ki, Sülh Konfransına gedən heyəti-mürəxxəsə [nümayəndə heyəti] Batumdan əzimət etmişdir [yola düşmüşdür].

* Müttəfiq qoşunları Batuma varid olmaqdadırlar [gəlməkdədirlər].

* “Lord Nelson” paroxodu Batuma gəlib əsgər və mühimmati-hərbiyyə [hərbi sursat] gətirmişdir.

* Batum oblastını idarə etmək məsələsi həll edilib qurtarmamışdır. Batum milissiyası başında İngiltərə məmuru durur. Milissiya böyükləri məhəlli [yerli] əhalidən təyin edilmişlərdir. İngiltərə ərkani-hərbi [qərargahı] Batumdan Tiflisə nəql edilir.

* Potidən xəbər verirlər ki, Feodosiyadan alınan məlumata görə, halhazırda Ukraynada və Krımda frank kursu 1 manat 70 qəpiyə qalxmışdır.

Almaniyada

Alman bolşeviklərinin rəisi, Almaniya

sosializminin böyük bir sütunu olan Libknext ilə xanım Roza Lüksemburq qətl edilmişlərdir. Müstəqil sosialistlər rəisi Şeydeman bu münasibətlə Kasseldə bir nitq irad edərək demişdir ki: "Mən çox təəssüf edirəm ki, bunların hər ikisi cinayət qurbanı oldular. Amma bunlar özləri hər gün camaatı silahlanmağa dəvət edirdilər. Ona görə də bunlar özlərinin qanlı tərzi-hərəkətlərinin qurbanı olmuşdurlar."

* Yekşənbə [bazar] günü Milanda "Cəmiyyəti-Əqvam" nəfinə [xeyrinə] böyük bir nümayiş qurulmuşdur.

* Kurlanda [Kurlandiya; Latviya] bolşeviklər tərəfindən işğal edilmişdir. Almanlar külli top və ləvazimi-hərbiyyə buraxmalı imişlər. Almanlar getdikdən sonra başlanmış olan atəş, şəhərin mərkəzində 200 evi məhv eyləmişdir. Bolşeviklərin qabaq səfləri Myuravinə yaxınlaşırlar.

* Berlin qəzetələrinin məlumatına görə, Estoniyanın bolşeviklərdən təmizlənməsi müvəffəqiyyətlə gedir. Bolşeviklərin qüvvəsi şiddətli müqabilədə bulunmayırlar.

* Petroqrad şəhərində də irtica baş qalxızır. Şəhərin hər yerində iğtişaş zühur eyləmişdir. Ac əmələlər [fəhlələr] küçələrdə gəzərək tələb edirlər ki, əmələlərə çörək tapmaq işi özlərinə mühəvvəl edilsin [tapşırılsın]. Axrıncı ərzaq ehtiyatının xətti-hərbə [müharibə xəttinə, cəbhəyə] aparılması bu iğtişaşa səbəb olmuşdur. Külli əmələ dəstələri şəhərdə gəzərək bolşevik hökumətinə lə'n [lənət] və nifrət edirlər. Həyəcan yeni təşkil edilmiş çinlilər və koreyalılar qitəatı [dəstələri] tərəfindən yatırılmışdır.

"İzvestiya" qəzetəsi bu qitəatı təbrik edərək bunu şərqi beynəlmiləliyyətə bir işarə hesab edir. Bu iğtişaş münasibəti ilə əmələlər arasında ümumi və böyük bir tətil dəxi vaqe olmuşdur.

Teymurxanşurada

(Xüsusi müxbirimizdən)

Teymurxanşura - Yanvarın 20-sində Şimali Qafqaz İttifaqının Parlamanı açılır.

* Ağdaş - Ağır günlərdə böyük rollar oynamış olan Ərəş mahalı ilə Ağdaş şəhəri, Parlamanda nümayəndəlikdən məhrum edilmişlərdir. Buna da hökumətin bu barədə binagüzarlıq [sərəncam] verməməsi səbəbdir. Mahaldan və şəhərdən Parlamana vəkil seçmək üçün binagüzarlıq vermək zəruridir.

Ağdaş şəhər qlavası: Əfəndiyev

* Yanvarın 16-sında yığılmış Dağıstan Mahal Şurası böylə bir qərarnamə qəbul etmişdir: Dağıstan Mahal Şurası, Şimali Qafqazya Hökumətinin xarici siyasət barəsində olan bəyannaməsini istima edərək [dinləyərək] Rusiya inqilabı ilə əsaslanıb da Dağıstan camaatının arzusu üzərinə Dağıstan Cümhuriyyətinin təşkil edildiyini nəzərə alaraq və bu yolda çalışmaqda olan İttifaqı təbrik edərək, Şura bütün qüvvəsi ilə istiqlal yolunda fədakarlıqda bulunacağını bildirir.

(Royter acentəliyindən)

Sülh Konfransında qəzetə mühərrirləri

Sülh Konfransının ancaq rəsmi xəbərləri qəzetələrdə dərc ediləcəkdir. Sülh Konfransında min nəfər mühərrir [yazıçı,

jurnalist] iştirak edir. Bunlardan beş yüzü Amerika mühərrirləridir. Bunlar özləri üçün bir Mühərrirlər İttifaqı təşkil etmişlərdir.

Berlin iğtişaşı

Berlin[də] bir çox Spartak tərəfdarları həbs edilib, artıq miqdarda silah tutulmuşdur. Spartaklar tərəfindən zəif bir müqavimət göstərilmişdir. Şəhərdə sakitlikdir. Fəqət başqa yerlərdən alınan xəbərlərdə deyilir ki, Berlində böyük iğtişaşlar davam edir.

İtaliyada vüzəra [nazirlər] böhranı

1916-ncı sənəsi müahidənaməsinə [sazişinə] müvafiq İtaliyanın Dalmaçiyaya və yunan cəzirələrinə [adalarına] olan haqqi-hakimiyyət [hakimiyyət hüququ] məsələsi haqqında ixtilafi-rəy [fikir ayrılığı] çıxdığından, İtaliya Kabinəsi istefa vermişdir. Sonnino həman müahidənamənin ifa edilməsini təkid etmişdir. Sosialistlər isə cənubi slavlarla sazişə girmək istəyirlər.

Mütarikə müddətinin uzadılması

Mütarikə [atəşkəs] müddətinin uzadılması şəraiti [şərtləri] imza edilmişdir.

Cəmiyyəti-Əqvam

London – Qrey, Askvit, Brays və Kenterberskdən ibarət olan Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfdarları Amerika səfarətində Vilsonu ziyarət etmişdirlər. Qrey Vilsona demiş ki, İngiltərə və Amerika Cəmiyyəti-Əqvama böyük əhəmiyyət verirlər. Cəmiyyəti-Əqvam əsaslarına əhəmiyyət vermədən sülh əqd edilərsə [bağlanarsa], böyük bədbəxtliyə səbəb olacaqdır. Cavabında Vilson demiş: *“Mənə ünvan [salamlama məktubu] təqdim etmək üçün bizzat [şəxsən] yanıma gəldiyinizdən son dərəcə məmnunam. Cəmiyyəti-Əqvam əsaslarının üstün olmasından çox məhzuz [məmnun, razı] oluram. Onsuz da Cəmiyyəti-Əqvamın məramnaməsi getdikcə vüsətlənir. Əhdnamə əsaslarına mənəvi [cəhətdən] müstənidən [əsaslanaraq] özlərinə vəzifə bilib də müharibəni başlayan hökumət üzvlərinin şimdi mənə ünvan təqdim edənlər arasında olmalarından çox şadam. Zira dənizin o biri tərəfindən İngiltərənin iqdamatı [təşəbbüsü] ilə qoyulmuş əsaslara biz təzim edirik. Siz təhrikati-mənəviyyə sövqü ilə [mənəvi qüvvələrin təhriki ilə] isbat etdiniz ki, biz öylə bir qüvvəni saxlamalıyıq ki, onsuz bizim vücuda gətirdiyimiz şeylər uçulacaqdır. Mənim buna ümidim bərkamaldır [tamdır]. Bu amalın nə dərəcədə kök atdığını bilmək mənim üçün bəxtiyarlıqdır.”*

Askvit cavabında demiş: *“Vilson o mətləblərə tərəfdar olur ki, İngiltərənin bütün yaxşı adamları onu arzu edirdilər. Cəmiyyəti-Əqvam gələcək müharibələrin qarşısını almağa böyük vəsilə [səbəb, vasitə] olacaqdır.”*

Sonra beş milyon ingilis əmələlərinin [fəhlələrinin] nümayəndələri Vilsona bir ünvan təqdim etmişlər. Bu ünvanda əmələlər həmişə Vilson siyasətini saxladıqlarını və bundan sonra da saxlayacaqlarını bildirmişlərdir.

Vilson cavabında demiş: *“Siz və mən bir-birimizi anlayırız.”*

Almaniya ordusunun halı

Tiflis - İngilis mətbuatı yanvarın 16-dan xəbər verir.

Almaniya ordusunun halı qeyri-müəyyən bir surətdədir. Hərbi dairələrdə zənn edilir ki, 18-19-cu illərdə alınan alman əsakiri [əsgərləri] yenə silah altında saxlanacaqdırlar. Böyləliklə, yarım milyon nəfərdən ibarət bir ordu təşkil ediləcəkdir. O firqələr [diviziyalar] ki, şimdi silah altındadırlar, onların da yuxarıdakı tarixə aid olanları qoşun cərgəsində bulunmalıdırlar. Hal-hazırda bu qoşunların diqqəti Almaniyanın daxili işlərinə cəlb edilmişdir. Hərgah, indiki Ebert hökuməti faiq [üstün] gələrsə, bu qoşunlar müharibə istedadına dara [malik] olacaqlardır. Əks surətdə, yəni spartaklar faiq gəldikləri təqdirdə, bu qoşunların halı çox fəna olacaqdır.

Tiflis - (Almaniya mətbuatı) Fransa Xariciyyə Vəzarətinə yaxın olan "Exo de Pari" və "Tan" qəzetələri hər gün Fransa sərhədinə dair məqalələr yazırlar. Bu məqalələrin hamısı bir məzmunda olduğundan, bir mənbədən çıxdığı zənn olunur. Bu məqalələrdə deyilir ki, Fransa 1915-inci ildə Filipov ilə Marienburqu təxliyə etməyə məcbur olmuşdu. Halbuki, bunlar Avazı müdafiə edirlərdi. Bundan əlavə, Fransa Lüksemburqla Sen-Luidən çəkilmişdi. Paris sərhədə çox yaxındır. 1915-ci ildə sərhədimiz məğlub tərəfin sərhədi idi. Amma şimdi şübhəsiz sərhəd düzəlməlidir.

PROTESTO

Gəncədən Məclisi-Məbusana gələn bir teleqrafın surəti

Gəncədə Şah Abbas camesinin havlısında [həyətində] Müəllimlər İttifaqı sədri İdris əfəndi Axundzadənin sədarəti altında toplanan mitinqin qərarı:

Son qəzetələrin verdikləri məlumata görə, milli istiqlalımızın düşmənləri, bizim hökumətdə əhali nümayəndəliyi olmadığını iddia etməkdədirlər. Bundan başqa, kəndi mənfəətini bizi məhv etməkdə görən düşmənimiz, bizim torpağımıza tökülüb məsum qan axıtdığı kimi, içərisində bulunan əlsiz-ayaqsız müsəlman xalqını vəhşiyanə kəsməkdədir. Bunlarla iktifa [kifayət] etməyib sevgili Azərbaycanın bir parçası olan münbit Muğanı və Lənkəranı xəyali Rusiyanın ayrılmaz bir parçası hesab ilə yurdumuzdan ayırmaqdadırlar. Heysiyyəti-milliyyəmizi istehqar [milli heysiyyətimizi təhqir] edən alçaqlar bilmiş olmalıdırlar ki, Azərbaycan Hökuməti bizim Milli Şuramızın doğurduğu yeganə bir hökumətdir.

Vətənimizdən ayırmaq istədikləri torpaqları geri almaq üçün heç bir fədakarlıqdan çəkinməyəcəyiz. Qardaşlarımızın qanı ilə əllərini hənalayan andraniklər və daşnaklar bilməli olmalıdırlar ki, tökülən qanların hesabı onlardan sorulacaq. Bugünkü sülh və "müsaliməti" [asayişi] pozmaq istəməyən türk milləti onların etdiyi kimi tökülən qanına "hər zaman" soyuqqanlılıqla baxmayacaqdır. Yuxarıda göstərdiyimiz yolsuz hərəkətlərin təsiri ilə toplanan bugünkü mitinq bu hərəkətlərin mürəvvicləri [təhrikçiləri] bulunan "Yedinaya Rossiya", "Znamya Truda" və "Vperyod" nam [adlı] soqaq qəzetələrinin saxta yazılarına və milli hüququmuza toxunan qaragüruha etiraz etməklə, dost və düşmən millətlər qarşısında bu yolsuzlara bir daha şiddətlə protesto ediriz.

Mitinq rəisi: İdris Axundzadə

VÜKƏLA ŞURASINDA
[NAZİRLƏR KABİNETİNDƏ]

* 26 noyabr 1918-ci sənə Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri həzrətlərinin müvəqqəti heyəti-idarə və dəftərxana məmurini [məmurları] maaş təyin etmək haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir:

Bununla bərabər pişnihad [təqdim] edilən Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məmurini və məmurin maaşını və dəftərxana məxaricatını qəbul və təsdiq etməli, 1918-ci sənənin 1 kanuni-əvvəlindən [dekabrından] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə layihədə göstərildiyi miqdarda istiqraz verməli.

* Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri həzrətlərinin Azərbaycan dəmiryolları xidmətçilərinin məvaciblərinin artırılması haqqında məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir:

a) Fəhlə və xidmətçiləri 14 dəstəyə bölmək haqqındakı Bakı məlumat dəftərini qəbul etməli. İşbu məlumat, fəhlələr tərəfindən tərtib edilib, dekabrın 24-ü, 1918 sənədə pişnihad edilmişdir. İşbu 1 yanvar 1919-uncu sənədən qəbul olunur.

b) Bakı dekreti (dəyişmiş Moskva dekreti) 1 yanvar 1919-uncu sənədən bütün Azərbaycan dəmiryolları xidmətçilərinə şamil olmalıdır.

c) Bütün fəhlə və sənətçilərə 1 yanvar 1919-uncu sənədən bahalıq maaşı surəti ilə ayda 360 rublə verilsin. Dəstələrdən qeyri fəhlələrə maaş haqqında Türüq və Məabir nazirinə tapşırmalıdır ki, xüsusi məruzə pişnihad etsin.

ç) Dəmiryolları xidmətçilərinə girvənkəsi 2 rublədən ucuz çörək buraxılsın. Bundan varid olan [əmələ gələn] zərər, hökumətin 1918-inci sənədə qət etdiyi bir milyon rubləlik ərzaq fondundan örtülməlidir.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bütün teatro, sirk və sinema sahiblərini öz dəftərxanasında (Naberejni küçə, nömrə 33) təyin edilmiş müşavirəyə dəvət edir. Müşavirə yanvarın 24-ündə gündüz saat 11 radələrində iniqad edib [toplaşıb] xüsusi vergilər haqqında olacaqdır.

* Maarif Nəzarəti Azərbaycandakı bütün məkatib [məktəblər] müfəttişlərinə bir böylə teleqram göndərmişdir: *“Təhti-idarənizdə [idarəniz altında] olub fəaliyyətdə bulunmayan məkatib [məktəblər] haqqında və nədən naşi [nəyə görə] fəaliyyətdə bulunmadığı haqqında məlumat veriniz. Habelə, bundan sonra fəaliyyətdə bulunmayan məkatib müəlliminə [müəllimlərinə] maaş verməyi qət ediniz [kəsiniz].”*

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Maliyyə Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Kazyonnaya Palata [Xəzinə Palatası] markalardan gələn mədaxil barəsində Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə məlumat versin.

* Xariciyyə Nəzarəti İrəvana, Erməni Xariciyyə Nəzarəti naminə böylə bir teleqram göndərmişdir:

“İrəvan, Ermənistan Cümhuriyyəti Xariciyyə nazirinə

Aldığımız məlumata məbni [əsasən], Ermənistan hökuməti məmurini [məmurları] Qazax qəzasının Azərbaycana məx-

sus hissəsi əvəz [hesab] edilən Uzuntala nam [adlı] mahalda gömrükxana təsis etmişlər. İşbu, Azərbaycanın qanuni hüququna təcavüz deməkdir. Mənim hökumətim işbu iqdamata [təşəbbüsə] etiraz etməklə təklif edir ki, həman gömrükxana oradan götürülsün.

Xariciyyə naziri əvəzində:
Ziyadxanov"

BAKI XƏBƏRLƏRİ

Bələdiyyə İdarəsində

Bələdiyyə İdarəsinin Təmirat şöbəsinin baş texniki Bələdiyyə İdarəsinə bir kağız göndərib xəbər vermişdir ki, yanvarın 16-sında məlum olmuşdur [ki], konka mövqifindəki [stansiyasındakı] arxivi, Biçeraxov qoşunlarının yüngül topçu zabitanı tutub orada oturmuşlar. Bütün taxta divarları dağıdıb yandırmışlar. Əlavə olaraq başqa bələdiyyəyə məxsus böyük taxtaları da yandırmışlardır. Böylə taxtalardan gələn zərərin miqdarı 350 rubləyədəkdir.

* Dövlət Müfəttişi Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, Bələdiyyə Məclisi intixabatına [seçkilərinə] dair övraqı [sənədləri] Nəzarətə pişnihad [təqdim] etsinlər.

* Ticarət və Sənaye Nəzarəti, Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, şəhərdəki tramvay xəttinə məxsus verilən layihələr Nəzarətə təqdim edilməlidirlər.

Hərbi Məhkəməyə verilmiş qarətçilər

Ayın 15-ində beş-altı nəfər müsəlləh [silahlı] qarətçilər Qubernski küçədə Mirmehdi Mirməhəmmədovun evinə hücum edib hədə ilə onun 10 min manat pulunu oğurladığını yazmışdıq. 3-üncü uçastok pristavı Mollazadə tərəfindən ittixaz edilmiş [görülmüş] tədbirlər nəticəsində qarətçilərdən bir neçəsi tutulub hərbi məhkəməyə verilmişlər. Tutulan qarətçilər bunlardır: Məşhur oğrular Faytonçu İbrahim, Ağamalı Məhəmmədqulu oğlu, Balahüseyn, Ağabala Almas oğlu, Mirələkbər Miribrahim oğlu və bir də həman evdə baqqal dükanı sahibi olan Muradəli olmuşdur. Tutulan adamları, qarət olmuş Mirmehdi Mirməhəmmədova nişan verəndə, oğruların hamısını tanıyıbdır.

Müsri xəstəliklə mübarizə

Müsri [yoluxucu] "tif" xəstəliyi ilə mübarizə etmək üçün Bələdiyyə İdarəsinin Hifzüssihhə [sanitariya-gigiyena] şöbəsi tərəfindən hələlik bu aşağıdakı həkimlər təyin olunmuşlar: 2-inci uçastok dairəsində Levin (Başennaya, 48 nömrə evdə) və buna feldşer Osipov (Bakı Realnı məktəbi), 6-ıncı uçastokda Zurban (Bolşoy Morskoy küçədə 21 nömrə), ona feldşer Frolov (Qoqolevski küçədə 37), 4-üncü uçastokda Stepanov (Persidski küçədə 121 nömrədə).

Müsri xəstəliklər ittifaq düşdükdə [rast gəldikdə] əhali hər bir vaxtda bu yuxarıda yazılmış həkimlərə rücu [müraciət] edib tibbi köməklər istəyə bilərlər. Kömək pulsuzdur.

* 2-ci uçastok ev komitəsinin yanvarın 10-unda vaqe olan növbəti iclasında komitə üzvlərindən Babayev ilə Mustafayev səbəbsiz yerə 3 dəfə komi-

tənin növbəti iclaslarına gəlmədiklərindən, üzvlükdən kənar edilmişlərdir. Onların yerinə isə Timinski ilə Markoviç intixab olunmuşlardır [seçilmişlər].

* Yanvarın 16-sında Birinci Realnı məktəbinin valideynlər şurası üzvlərinin birinci növbəti iclası vaqe olmuşdur. Bu iclasda qərara alınmışdır ki, hər həftə pəncşənbə [cümə axşamı] günü axşam saat 6-nın yarısında valideynlər şurasının iclası dəvət olunsun. Saat 6-ya kimi hər nə qədər üzv gəlmiş olsa da, iclas qanuni hesab edilsin.

Dəmiryol nazirinin teleqrafı

Azərbaycan Dəmiryol naziri Gürcüstan Dəmiryol nazirinə böylə bir teleqraf göndərmişdir:

“Azərbaycan dəmiryollarında kifayət qədəri paravoz olmadığına və bizim paravozlarımızın Gürcüstan dəmiryollarında saxlanmasına görə, yük daşıması işləri təxirə uğrayır. Bizim paravozlarımızın Gürcüstan dəmiryollarından Gürcüstan paravozları ilə bərabər göndərilməsi üçün binagüzarlıqda bulunmanız [sərəncam verməyiniz] xahiş olunur. Paravozların yanacaqla təchiz edilməsi dəxi lazımdır. Məxariclərin hamısı Azərbaycan Dəmiryollar İdarəsi tərəfindən veriləcəkdir. Bu barədə sizin binagüzarlıqlarınızı ifa etməkdən ötrü mühəndis Bəylərbəyov ezam edilir.”

* Petropavlovkadan (Qalaqayından) xəbər verirlər ki, ərzaq şeyləri almaqdan ötrü göndərilmiş olan Sentrodom [Mərkəzi Ev Komitəsi] nümayəndəsi Liyabizunun meyiti tapılmışdır. Meyit paroxodla Bakıya göndəriləcəkdir.

Fransa sərvətdarları nümayəndəsinin Bakıya vürudu

Məlum olduğu üzrə, Fransa sərvətdarları “Şərq” adında bir cəmiyyət təşkil edib, məşriq-zəmində [məşriqdə, şərqdə] böyük işlər açıb, oradakı mədəniyyatı [mədənləri; faydalı qazıntıları] və məhsulatı istifadə etmək fikrinə düşmüşlər. Fransa dövlətliləri öz aralarında müsabiqət [rəqabət] olmamaq fikri ilə bir sendikat (Sərvətdarlar İttifaqı) təşkil edib Qafqaza, baxüsus [xüsusilə] Azərbaycan dairəsinə bir mükəmməl heyət göndərmək istəmişlər. Bu heyətin vəkili Manro bu günlərdə Bakıya varid olmuşdur [gəlmişdir]. Məzkur [deyilən] heyətin məhəlli-idarəsi [idarə mərkəzi] hələlik Odessa şəhəridir. Komitənin fikri Bakı neftini, Muğanda pambıq məhsulatını və sair çiyidləri sendikat üçün almaqdır.

Hadisat

Dünən Şamaxı əhlləri Mücü, Əşrəf Rəhimov, Zaxari Davidov, Natatel Marduxanov, İran əhli Mirzə Hüseyn İbrahim oğlu bəndər [liman] polisəsi idarəsinə gəlib məlum etmişlər ki, onlar Krasnavodskdan Bakıya gələn “Kaspi” paraxoduna minib gəldikdə, həman paraxodun matrosları Mixail Krivova və bir də David Suskova bir neçə bağlı manufaktur malı tapşırıblar ki, Bakıya gətirib burada onlara versinlər. Bakıya gələndən sonra onlar baxıb görüblər ki, malın üstündən 9360 manatlıq oğurlanıbdır.

Polis məmurları işi təhqiq edib, oğurlanan malların bir hissəsini paraxodda həman matrosların odalarında tapmışlardır. Matroslar həbsə alınmışlardır.

GÜRCÜSTANDA

Tiflis, 14 yanvar - Zaqafqaziyada olan yunan təbəələrinin [vətəndaşlarının] 3-üncü qurultayı quruldu və bu qurultayda yunanlıların Gürcüstanla olan əlaqələri bəlli olmuşdur. Qurultayda bir qaç natiqlərin nitqlərindən sonra zeyldəki [aşağıdakı] qərar qəbul edilmişdir:

"Ələddəvam [davamlı olaraq] millətlərin azad olmaları tərəfdarı olan yunan camaatı nümayəndələrinin 3-üncü iclası Böyük Rusiya inqilabının əhəmiyyətini, onun Zaqafqaziya millətlərinə muxtariyyət verdiyi əhəmiyyətini dərk edərək və bu gün azad Gürcüstan torpağında iclas qurarkən, Gürcüstan Demokratik Hökuməti şəxsində müstəqil Gürcüstan demokratiyasını təbrik edir. O demokratiyanı ki, müsavat [bərabərlik] və üxuvvət [qardaşlıq] əsaslarını qövldən feilə [sözdən işə] yetirir. Və bununla bərabər qurultay bəyan edir ki, var qüvvəsi ilə bu millətlə əlbir işləməyə və dostanə əlaqə saxlamağa hazırdır."

Tiflis - Yanvarın 17-də general Forester-Volker başda olmaq üzrə ingilis heyəti-fövqəladəsi [fövqəladə heyəti] Tiflisə varid olmuşdur [gəlmişdir]. Bunları istiqbal [qarşılamaq] üçün vağzala gəlmiş olan Gürcüstan nümayəndəsi generalı təbrik eyləmiş, general da əvəzində izhari-təşəkkür eyləmişdir.

TEATRO VƏ MUSİQİ

Keçən şənbə gecəsi Dövlət Teatrosunda Hacıbəyli Qardaşlarının müdiriyyəti tərəfindən Ü. və C. Hacıbəyli cənablarının "Leyli və Məcnun" operası mövqeyi-tamaşaya qoyuldu. Havanın yağınlığına baxmayaraq, teatro tamaşaçılarla məmlu [dolu] idi. Bu isə müsəlmanların nə dərəcədə musiqi həvəskarı olduqlarına böyük bir dəlil olsa gərəkdir.

Həmişəki kimi Məcnun rolunu Sarabski cənabları ifa edirdi. Həmin rolu oynamaqla opera dəstgahında şöhrət qazanmış olan Sarabski həqiqətən də sevdiyi bu rolunu qüsursuz yola verə bildi. Artistin hər bir hərəkətinə tamaşaçılar diqqət verib, Leylisindən ayrılan Məcnunun divanəvarı halı tamaşaçıları riqqətə gətirirdi.

Məcnundan əskik olmayan Leyli rolunu Ağdamlı cənabları ifa edirdi. Biz hər nə qədər arvad rolunun artiskaya verilməsi tərəfdarıyıqsa da, fəqət Leyli kimi mühüm rolun şimdilik artiska tərəfindən oynanılmasını operaya böyük bir zərbə sanırız. İştə müdiriyyət işin bu cəhətini düşündüyündən, başqa operettalarda olduğu kimi bu mühüm rolu artiskaya deyil, bu rolu daima oynamış olan Ağdamlı cənablarına vermiş idi. Ağdamlı həzin səsi ilə, nazlı bir qıza yaraşar hərəkəti ilə tamaşaçıları son dərəcə kəndisindən məmnun buraxdı.

Əbülqeys [Qeysin atası] rolunu qoca aktyorlarımızdan Mirzə Muxtar Məhəmmədov cənabları ifa edərkən, doğurdan da öz rolunu yaratdı. Bir də layiqi-etina [diqqətəlayiq] Nofəl rolu idi ki, bunu da Qayıbov cənabları ifa etməkdə idi. Həmişə bu rolu oynayan Tanrıqulovdan Qayıbov əskik oynamadı. Artistdə bir pəhlivanlıq ruhu müşahidə edilirdi. Ümmi-Leyli [Leyinin anası] rolunu Kazımovski cənabları miyanə [babat] bir surətdə yola

verə bildi. Qalan artistlər öhdələrinə aldıqları rolu layiqincə yola verə bildilər.

Böyük musiqi dəstəsi Müslüm bəy [Maqomayev] təhti-idarəsində [idarəsi altında] idi. Bu tamaşada təəsüf ediləcək bir şey varıydısa, o da bəzi tamaşaçıların özlərini məclisdə aparmaması idi. Təbii, bu da biz müsəlmanlarda öylə bir mərəzdir ki, sümüyümüzdən heç bir vaxt çıxmaz.

Vəlhasil, bu gecəki tamaşadan tamaşaçılar məmnun qaldılarsa da, fəqət teatrodan çıxdıqda əsgərlikdən fərar edənlərin axtarılması onların nəşəsini dağıtdırdı. Əlbəttə camaat əsgərlikdən fərar etməsəydi bu kimi iqdamata [tədbirə] məhəl [yer] qalmazdı.

H.

- 2 -

Bu axşam, seşənbə [çərşənbə axşamı] günü yanvar ayının 21-də Malakan bağının yanında mövcud “Mikado” teatrosunda bu mövsümdə ikinci dəfə olaraq şükuhlu [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Üzeyir bəy Hacıbəylinin yazmış olduğu məşhur “O olmasın bu olsun” operettası. Bu dəfə Məşədi İbadın rolunu ifa edəcəkdir məşhur komik Hacıağa Abbasov. Hammalın rolunu isə neçə sənələrdən bəri bu rolda məharət göstərən məşhur komik Ələkbər Hüseynzadə ifa edib, oyun təzə artistka və artistlərin iştirakı ilə başa gələcəkdir. Böyük musiqi dəstəsi Müslüm bəyin təhti-idarəsində, Məşədi İbadın toyunda qızlar və oğlanlar “baleti” oyunu olacaqdır. Biletlər teatronun kassasında satılmaqdadır. Tamaşa başlayacaq axşam saat 8-in yarısında.

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Mahmud Salmanzadənin müəllimlik şəhadətnaməsi ilə metriki [yaş kağızı] qeyb olduğundan, hər kimdə isə zəhmət çəkib Tağıyevin fabrika kantorasında müəllim Mahmud Salmanzadəyə göndərəsiniz.

2652

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir.

Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Hesab günü

səh. 340. "bərzəx": dini təsəvvürə görə cənnət ilə cəhənnəm arasında, yaxud dünya ilə axirət arasında olan və ölənlərin ruhlarının gözlədiyi yer.

səh. 341. "üsuli-din": dinin əsas prinsiplərini, bünövrəsini əhatə edən təlim; mətndə məcazi mənada işlədilmişdir.

İrəvan
erməni-müsəlman məsələsi

səh. 343. "qaxtaqan": ermənicə "qaçqın" deməkdir.

"...mütəcavizlərin qabağı alınmışdır.": Qəzetdə "mütəcavizlərinin qabağı alınmışdır" kimi getmişdir.

Diril!

səh. 344. "Ey Abdullalar, "Sur"unuzu çalın! Ey Tələtlər, həqiqət nuru ilə afaqı parıldadın! Ey Səhhətlər, bu türklərə sağlıq verin! Ey Sabirlər, gülün-güldürün!": müvafiq olaraq Abdulla Tofiq Sur (dini rəvayətlərə görə, sur həm də qiyamət günü ölüləri diriltmək üçün mələk İsrafilin çalacağı şeypurun adıdır), Abbas Səhhət, Mirzə Ələkbər Sabir yad edilmişdir. "Tələt" deyərkən kimin nəzərdə tutulduğunu qəti bir şəkildə söyləmək çətindir.

İranlıların halı

səh. 345. "əl-qəriq yətəşəbbəsü bikülli həşiş": suda boğulan hər quru otdan yapışar (ərəbcə).

səh. 346. “...vüsuqülüləmaların, seyfüddövlələrin, hüsamüssadatların...”: vüsuqülüləma (hərfən: alimlərin inamı), seyfüddövlə (hərfən: dövlətin qılıncı), hüsamüssadat (hərfən: seyidlərin qılıncı) İranda yüksək rütbəli dövlət məmurlarına verilən titullardır.

“Gər müsəlmani həmin-əst ki maha darim / Vay əgər əz peyəm ruz şüd fərdayi.”: Farsca. Mənası: “Əgər müsəlmanlıq bizdəki kimidirsə, / Bu günün ardınca gələn sabaha yazıq!”

“İn qədər piş tu göftəm qəmi-dil tərsidəm / Ki dil azadə şəvi vərnə bisyarəst!”: Farsca. Mənası: “Sənin yanında ürək qəmini o qədər demişəm ki, qorxuram / Ürəyin azad olsun, əgər artıq olmasa.”

Təəssürat

səh. 348. “Üzeyir”: bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

Teleqraf xəbərləri

səh. 348. “Deba”: “Jurnal de Deba” nəzərdə tutulur.

səh. 350. “Brays”: Millətlər Cəmiyyətinin yaradılmasının təşəbbüskarlarından, Britaniyanın dövlət xadimi Ceyms Brays nəzərdə tutulur; qəzetdə səhvən Vrays kimi getmişdir.

“Kenterberskdən”: Kenterberi yeparxiyasının [Diocese of Canterbury] arxiyepiskopu nəzərdə tutulur. O dövrdə bu vəzifəni Rendall Devidson tuturdu.

səh. 351. “Tan”: Parisdə nəşr edilən gündəlik qəzet “Le Temps” nəzərdə tutulur; tələffüzü əsas qəbul edən rusca yazılışı “Tan” olduğundan, “Azərbaycan” qəzetində də belə getmişdir.

Protesto

səh. 351. “Azərbaycan Hökuməti bizim Milli Şuramızın doğurduğu yeganə bir hökumətdir.”: qəzetdə “Şuramızın” yerinə “Şüarımızın” getmişdir.

Vükəla Şurasında

səh. 352. “Türüq və Məabir naziri həzrətlərinin...”: bu qərarın maddələri qəzetdə ərəb əlifbasının hərflərinə uyğun olaraq “əlif”, “bə”, “tə” kimi işarələnmişdir.

səh. 353. Uzuntala: Azərbaycanın Qazax qəzasının kəndi olmuşdur; hal-hazırda Ermənistanın İcəvan rayonunda Ayqeovit kəndi.

Çərşənbə, 22 yanvar 1919-cu il, nömrə 94

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 19 rəbiülaxir sənə 1337. 22 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əbdülhüseyn bəy Hacıyev və Fərhad Ağazadə kamali-hüzn və təəssürlə [böyük hüzn və kədərlə] öz dost və aşnalarına xəbər verirlər ki, birincinin qızı və ikincisinin namizədi [nişanlısı] **Bikəxanım Hacıyev** bu rəbiülaxir ayının 18-ində vəfat et-mişdir. Cənazəsi rəbiülaxirin 19-da ça-harşənbə günü (22 kanuni-sani) saat 10-da Pozenovski küçədə 9 nömrəli evdən qaldırılaraq Çəmbərəkənd məscidinə həvalə olunacaqdır [aparılacaqdır].

T-14

QİSMİ-RƏSMİ
[RƏSMİ HİSSƏ]

Azərbaycan Məclisi-Məbusan sədri cənablarının əmrnamələri

Əmrnamə nömrə 50

Azərbaycan Məclisi-Məbusan İdarəsi Təhrirat [məktub] xidmətçisi Rübabə xanım Tağızadə həmin 1919 sənəsi yanvarın 12-dən etibarən həman idarədə dəftərdar təyin edilir.

Əmrnamə nömrə 51

Azərbaycan Məclisi-Məbusan İdarəsi kvestor [təsərrüfat müdiri] Yusif bəy Ağabəyov həmin 1919 sənəsi yanvarın 21-dən etibarən 10 günlük məzuniyyətə buraxılır.

Əmrnamə nömrə 52

Azərbaycan Məclisi-Məbusan İdarəsi məzbətə mühərriri Hənəfi Zeynallı həmin 1919 sənəsi yanvarın 17-dən etibarən qulluqdan əzl [kənar] edilir.

Əmrnamə nömrə 53

Azərbaycan Məclisi-Məbusan İdarəsi məzbətə mühərriri [protokol katibi] Ələkbər Heydərzadə həmin 1919 sənəsi yanvarın 17-dən etibarən qulluqdan əzl [kənar] edilir.

Əmrnamə nömrə 54

Hacı İbrahim Qasımov həmin 1919 sənəsi yanvar ayının 19-dan etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsinə məzbətə mühərriri təyin edilir.

Əmrnamə nömrə 55

Azərbaycan Məclisi-Məbusan İdarəsi xidmətkarı Məhərrəm Qasımzadə həmin 1919 sənəsi yanvarın 20-dən etibarən bir həftəlik məzuniyyətə buraxılır.

Əmrnamə nömrə 56

Zəngan əhli Əli Salamzadə 1918 sənəsi dekabr ayının 1-dən Azərbaycan Məclisi-Məbusan İdarəsinə qapıçı təyin edilir.

Əmrnamə nömrə 57

Bakı əhli Hüseynqulu Yaqubzadə həmin 1919 sənəsi yanvarın 18-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsinə xidmətkar təyin edilir.

Əmrnamə nömrə 58

Daşdəmir Əlizadə həmin 1919 sənəsi yanvar ayının 17-dən etibarən Məclisi-Məbusan İdarəsində mülk nəzarətçisi müavinliyinə təyin edilir.

Məclisi-Məbusan rəisi naminə rəis müavini Həsən bəy Ağayev
Surəti ilə müsavidir.
Kargüzar C. Paşazadə

ƏMƏLƏ MƏSƏLƏSİ

Əmələ [fəhlə] məsələsi yenə, demək olar ki, bütün şiddəti ilə Bakı əfkari-ümumiyyəsini [ictimai fikrini] işğal etməkdədir.

Əmələlərin halı həqiqətən də müşkül bir dərəcədədir. Aldıqları maaşlar yedikləri çörəyə çatmayır. İşsizlik, əmələni arvad-uşağı ilə bərabər aclığa məhkum edir. Başqa bir tərəfdən də Bakının keçirmiş olduğu hallar, düçar olduğu fəlakətli günlər, mədənləri, ticarəti, mədənçiləri də müşkül bir hala qoymuşdur. Bu üzdən böyük bir böhran hasil olmuşdur.

Azərbaycan Hökumətinin, Parlamanının məqsədi əmələlərin halını yaxşılaşdırmaqdır. Bu xüsusda Azərbaycan Məsai [Əmək] naziri əmələlərlə sahibkarlar arasında vaqe olan şurada əmələlərin tərəfini iltizam eyləmişdir. Əmələlər əmin ola bilərlər ki, zamanın imkanı dərəcəsində Hökumət həmişə əmələlərin haqlı tələblərini müdafiə edəcək. Hökumət eyni zamanda əmələlərə ucuz ərzaq yetirmək üçün tədbirlər görmək fikrini dəxi bəsləməkdədir.

Məlum işdir ki, əmələlərə artırılacaq məvacib bu günün ehtiyacı olan bahalığı rəf etmək [aradan qaldırmaq] üçün olmalıdır. Bunun üçün də Nəzarət [Nazirlik] subaylara 120, evlilərə 360 manat bahalıq xərci almağı tövsiyə edir. Əmələlər istərlərsə ki, bu təqsimat [bölgü] başqa cür olsun, taparlarsa [hesab edərlərsə] ki, subay-evlilik fərqi qoyulmasın, Hökumət bunu da nəzərə alar.

Həpimiz bilməliyiz ki, bu kimi zamanlarda, məmləkətin çətin və müşkül dəmlərində hər kəs vətən və millət naminə bir az fədakarlıq etməlidir.

Hökumət də əmələlərin haqlı tələbləri tərəfində olduqdan sonra məsələnin qolaylıqla həll edilməsini gözləməlidir [gözləmək lazımdır; gözləmək olar]. Bu gün əmələlər konfransa gəlməli, deməlidir, görək vaqe olan təklifə nə cür baxırlar? Yalnız bu baxışlarını söylərkən düşüncəli olmalı, tədbirlə hərəkət etməli, həqiqi mənfəətlə yalançı mənfəəti sezməlidir.

Məsai naziri deyir ki, yalnız məvacibin artması ilə məişət ucuzlandırılmaz. Doğrudur. İstəməlidir ki, məişətin ucuzlandırılması üçün Hökumət ciddi tədbirlər görsün.

Əmələ vətəndaşlar, bilməliyiz məmləkətin düçar olduğu bu halından, bu

yoxsulluq və aclıq bəlasından öz siyasi faydaları üçün mənfəət aparmaq istəyən partiyalar, axıntılar [cərəyanlar] vardır. Əmələnin həqiqi ehtiyacını rəf etmək istəyən axıntı ilə siyasət çevirən, politika qayıranları ayırd etməlidir.

Azərbaycanın bu qədər müşkülat içində olduğu böylə bir zamanda həll olunacaq məsələ, müşkülatsız həll oluna bilərsə, onu öyləcə həll etməlidir. Zabastovka bir tədbirdir ki, əmələlər son dəqiqədə müraciət etməlidirlər. "Bizim itirəcəyimiz artıq heç bir şey qalmadı" deyirlər. Böylə deyənlər doğru söyləməyirlər. Biz heç bir hesab və mülahizələri nəzərə almadan gözümüzü yumub hərəkət edərsək, əziz tutduğumuz istiqlalımıza, yeni bərkişməkdə olan hökumətimizə zərbələr vura bilərik.

Bunun üçün, əmələ vətəndaşlar, sərvaxt [gözüaçıq] olalım. Biləlim ki, Hökumət əmələ mənafeyinə zidd bir hökumət deyildir. Haqlı və mötədil tələblərinizin qəbul edilməsi üçün Azərbaycan Parlamanı da, Hökuməti də var qüvvətlərini sərf edərlər.

Bu gün əmələ konfransı toplanacaq, bu məsələni həll edəcək. Gəliniz, nöqteyi-nəzərinizi söyləyiniz. Göstəriniz ki, siz maddi ehtiyacınızı müdafiə edərkən, sizin bu ehtiyacınızdan istifadə edərək "politikaçı"lara macərapərəstlik imkanı verməzsiniz.

M. Ə.

ŞƏMKİR ŞÜHƏDASINI XATIRLAYALIM

Yeni üsul ilə kanuni-saninin [yanvarın] 22-si, əski üsul ilə yanvarın 9-u!

Azərbaycan istiqlalı tarixinin ən birinci səhifələrini işıqladacaq, həm də günəş kimi parladacaq bir gün!

Azərbaycan türklərinin əsla unuda bilməyəcəkləri bir gün!

Bu gündə, ərsəyə gələcək azad və müstəqil Azərbaycanın qüvayi-əsgəriyyəsinin [hərbi qüvvələrinin] ləvazimati-hərbiyyəsi tədarükatına [hərbi ləvazimat tədarükünə] başlanıldı. Həm də qövlən [sözdə] deyil, feilən [işdə] başlanıldı. Qəhrəmanlıqlar göstərməklə, qanlar tökməklə və qurbanlar verməklə başlanıldı!

Həmin bu günlərdə idi ki, Kutaisdə, Tiflisdə, Qarsda, Gümrüdə, İrəvanda və başqa yerdəki cəbbəxanalarda mövcud olan ləvazimati-hərbiyyələri əllərinə aldıqdan sonra, cəbhədən ricət edən [qayıdan] qitəati-əsgəriyyənin [hərbi hissələrin] ən mülayimlərinin, ləvazimati-hərbiyyəni buraxaraq, sənələrcə didarına [üzünə] həsrət qaldıqları ailələrinə qovuşmaq arzu və iştiyaqında [istəyində] olanlarının ləvazimati-hərbiyyələrini təslim alan qonşularımız; həman qitəati-əsgəriyyənin pək sərt, ən cəngi [döyüşkən], əsla silahından ayrılmaq istəməyən bir neçə qafiləsinin ləvazimati-hərbiyyələrini bizim hissəmiz ədd [hesab] edərək təslim almağı Azərbaycanlılara mühəvvəl etmişdilər [tapşırmışdılar]!

Olsun... Hər vaxt hər bir işdə qonşuları ilə hüsn-müamilədə [yaxşı rəftarda] bulunmağa [çalışan], ixtilaf və nizaya [çəkişməyə] meyl və məhəbbəti olmayan Azərbaycan türkləri sadədilanə [sadəlövh] olaraq bu təqsimə [bölgüyə], bu əmri icraya dəxi razı oldular. Bunun üçün də Şəmkir istasyonu vasitəsilə Gəncəyə tərəf gəlməkdə olan qitəati-əsgəriyyə ilə

müxabirəyə girişdilər [əlaqə saxladılar]. Qitəati-əsgəriyyənin ən ciddi və qəti imtina cavabını alan gəncəlilər, knyaz Abxazinin zirehli qatarı ilə Şəmkir istasyonuna yola düşdü. Sonra adi trenlər ilə mücəhhəz [təchiz edilmiş], müntəzəm [nizami] qitəati-əsgəriyyə qarşısına fəqət [sadəcə] tüfəng və revolverdən başqa silaha malik olmayan mübarizlər peydərpey [dalbadal] göndərilməyə davam etməkdə idi. Gedənlərin arasında məşhur gəncəli insan və qeyrət müməyyizi bir şəxsin mehrinə layiq olanlar var isə də, həqiqi millət və vətən qəhrəmanları dəxi pək çox idi.

Həman qəhrəmanların başında miralay [polkovnik] həzrətləri ilə bərabər, onun təhti-komandasındakı [komandası altındakı] cavanlardan və “Yaşıl qvardiya” təsmiyə edilən [adlanan] qəhrəmanlar dəxi ilələbəd unudulammaz və unudulmayacaqlar.

Əski üsul ilə kanuni-saninin [yanvarın] 9-cu günü, saat 10 radələrində qitəati-əsgəriyyə ilə Şəmkir istasyonunun qərb tərəfində 100-150 çağırımlıq bir məsafədə pişəzvəqt [qabaqcadan] tədarük edilmiş sipərlər önündə qarşı-qarşıya gəlib vəziyyəti-hərb alınaraq sonuncu dəfə olmaq üçün bir daha müxabirəyə başlanıldı. Qitəati-əsgəriyyənin müqəddimətülceyşi [öncü qüvvələri] məqamında olan ön sıradakı trenlər, tərəfi-müqabili hərbə mühəyya [hazır] və hərb edəcəklərini qəti surətdə qərara almış gördükdə, ləvazimati-hərbiyyələrini təslimə qərar verdilər. Təslim başlanıldı. Silahları təslim alan knyaz Abxazinin zirehli qatarında və ən birinci sipərin önündə duran, başlarında komandanları olmaq üzrə məsum və özləri kimi gənc, yeniyetmə “Yaşıl qvardiya” idi.

Birinci, ikinci və üçüncü trenlərin əslihələri [silahları] təslim alınaraq zirehli qatara toplanıldı. Trenlər salamat ötürüldü.

Dördüncü, beşinci və altıncı trenlər yetişdilər. Bunlar əvvəlcə əslihələrini təslimə razı olmayaraq müharibə başladılar. Bir az tələfat verməməksizin müharibə etdikdən sonra tərəfi-müqabili əzmində sabit, qüvvətli və həm də zirehli qatarı görərək təslim işarəsi olan ağ bayraqlarını qaldırdılar. Həman saat bunlara aman və əslihələrini təslim üçün zirehli qatarın yanına gəlməyə yol verildi. Məgər bunların ağ bayraq qaldırışı bir müharibə hiyləsindən ibarət imiş. Zira zirehli qatarın bərabərində öz planları mövcibincə [planlarına əsasən] durduqda zirehli qatar lokomotivinin çarxını top qumbarası ilə hədəfə alan kimi topun dəhşətli partıldısı ilə bərabər lokomotivdən məhrum olan zirehli qatar iki parçaya təqsim edilərək [bölünərək] həm-digərindən aralandı. Tam bu sırada idi ki, yeddinci, səkkizinci, doqquz, on və on birinci trenlər dəxi arxadan yetişərək qəflətən şiddətli və dəhşətli müharibəyə başladılar. Topların, pulemyotların, əl bombalarının və tüfənglərin cəhənnəmnümun [cəhənnəmi andıran] atəşlərindən Şəmkir səhrası titrəməyə başladı. Azərbaycan-türk qəhrəmanları əsla etidallarını pozmayaraq və özlərini itirməyərək filfövr [dərhal] sipərlərdə saxlanaraq yalnız bir tüfənglə bu qədər top, pulemyot, əl bombaları və tüfənglə mücəhhəz 8 tren dolusu müntəzəm bir qüvveyi-əsgəriyyə ilə müharibəyə davam etdi.

Öylədən [günortadan] təxminən 5 saat keçmişdən gecənin yarısı keçənədək müharibə tam şiddət və dəhşətini artırmaqda idi. Gecə yarıdan sonra qələbə işarələri hər bir tərəfdən verilməyə başladı. Qalib gələn Azərbaycan-türk qəhrəmanları bütün qüvveyi-əsgəriyyənin ləvazimati-hərbiyyələrini [əsgərlərin hərbi sursatlarını] təslim deyil, iğtinam etdilər [qənimət aldılar]. Fəqət, eyni vaxtda kəndlərdən gələrək ətrafda saxlanıb fürsət bəkləyən bir para namussuzlar, tüfənglərdən və qeyri şeylərdən çoxunu qarğaşalıqdan istifadə edərək qaçırdılar. Ertəsi günü sübh tezdən miralay [polkovnik] bəy cənabları düşdükdə əzilən qolunu ağ məndil ilə döşündən asmış olduğu halda və doktorla bərabər, təşkil ediləcək müstəqil Azərbaycan qüvayi-əsgəriyyəsi [ordusu] üçün tədarük edilən topları, pulemyotları və sair qənimətləri toplamaqda və Gəncə istasyonundan şəhərə göndərməkdə idi. Tülu etməkdə [doğmaqda] olan günəş dəxi Şəmkir şühədası Gəncə Zükur edadisinin [Gəncə Oğlanlar gimnaziyasının] 8-ci sinif mütəəllimi [şagirdi] Məhəmməd Rəfiyev, 7-ci sinif mütəəllimi İsfəndiyar Quluzadə və Gəncə Ali-ibtidai məktəbinin son sinfi mütəəllimi Yaqub Mehdiyevin qəhrəmanlıq, fədakarlıq və şəhadətlərinə şəhadət [şəhid olmaqlarına şahidlik] etməkdə idi. Bəli, bu müharibədə məcruhlardan [yaralılardan] başqa mədəniyyət və maarif bağçasında yeni açılmaqda olan üç dənə çiçək şəhid verdik. Rəhmətullahi əleyhim rəhmətən vasia!

Şəmkir ordusu Gəncəyə övdət etdi [qayıtdı]. Qalib qəhrəmanlar vəsfə gəlməyən bir təntənə və şəşəə [dəbdəbə] ilə şəhərə girdilər. Şühədanın cənazələri cümləni [hamını] ağlatmaqda idi. O vaxtın hökuməti və bu müharibənin baş ərkani-hərbi [qərargahı] olan Gəncə Milli Komitəsi iğtinam edilən qənimətləri təhvil götürdü. Qəhrəmanları, fədakarları təqdir etdi, oxşadı, şühədanın ibkayinamları [adlarını əbədiləşdirmək] üçün vəsilələr aramağa iclaslar qurdu, şuralar etdi. Bir çox qərarlar məzbətələrə [protokollara] yazıldı. Lakin məəttəəssüf [təəssüf ki], başqa qərarlar kimi bu qərarlardan dəxi məzbətələrdə yazılan bir neçə quru sətirlə, bir də bəzi aid olan mövqelərə göndərilən bir neçə övraqi-rəsmiyyədən [rəsmi sənəddən] başqa meydana bir şey çıxarılmadı. Əgər həman hökumətin xələfi olan indiki müstəqil və azad Azərbaycan Hökuməti həmən övraqı, məzbətələri bir daha mütaliə edərək o qərarları qövldən feilə [sözdən işə] gətirərsə, heç şübhə yoxdur, vəzifələrindən birini, daha doğrusu ən birincisini, əmələ gətirmiş olar. Bizlər isə bu gün vətənin, millətin, istiqlalın ən birinci qurbanı olan şühədanı birinci səneyi-dövriyyələri [il dönümləri] münasibətilə xatırlayaraq ruhi-pürfütuhlarına [fateh, qalib ruhlarına] "Fatihə" oxuyalım. O[n]ların məsum və müqəddəs ruhlarına xitabən: "Ey istiqlalımızın birinci qurbanları, əmin olunuz! Sizi tarixin parlaq və münəvvər səhifələri ilələbəd [əbədiyyən] unutmadığı kimi, bizlər dəxi unuda bilməriz!" - deyə sözümüzü bitirəlim.

Səid

FAMİLİYALARIMIZ

Keçmiş məqalələrin birində adlarımızın pozğunluğu və bunun islahı barəsində bəzi mülahizatımı [mülahizələrimi] yaz-

mışdım. Bu dəfə familiyalar pozğunluğuna dair təsəvvüratımı oxuculara təqdim etmək istərdim.

Bizcə xanədan, sülalə, dudman [nəsil] kəlmələrinin mənasını ifadə edən familiya ləfzini Qafqaz müsəlmanları ruslardan öyrənmişlərdir. Ruslar babalarının adlarına “ov”, “yev”, “iski” kimi ədatların artırılması ilə özlərinə familiya yaparlar. Rus lisanına müxtəs [məxsus] olan bu ədatları Qafqaz müsəlmanları dəxi tamamilə qəbul edərək “rusvari” familiyalarla özlərini ruslara tanıtmaq istəmişlərdir. Tarix də bunu sübut edir ki, avam millətin xəvas [seçilmiş, üstün] millətə yaxınlaşmaq şəraiti [şərtləri] təqlidçilik və zahiri formaların qəbulu ilə başlanır. Lakin Qafqaz millətlərindən rus ədatları ilə familiya istemalına [işlətməyə] ancaq müsəlmanlar mürtəkib olmuşlardır [qurşanmışlar]. Bundan görünən budur ki, ruslar Qafqaza soxulduqları zamanlarda Azərbaycan türkləri hamıdan avam olduqları cəhətinə, hamıdan da qabaq rusvari familiya qullanışına məhəbbət göstərmişlərdir. Məsələnin bu cəhəti inkar olunammayacaq bir həqiqətdirsə də, bununla bərabər, burası da mühəqqəqdir [qətidir] ki, Qafqaz müsəlmanları, sairləri kimi dərin bir milli hiss və əfkara malik olmadıqları üçün hamıdan qabaq ruslaın qucaqlarına atılmaq istədilər. Bu vaxtlar qonşularımızın milli hiss və təəssübləri bir dərəcədə kəskin idi ki, rus qoşununu Qafqaza dəvət edən gürcülər, xanlıqları yıxmaq üçün casus və bələdlik edən ermənilər əsla rusvari familiya daşımağa razı olmadılar. Gürcülər gürcü lisanına məxsus “şvili” və “dze” kimi ədatları familiyalarına qoşaraq Ramişvili və Çxeidze kimi gürcü familiyaları daşıdıqları kimi, ermənilər də özlərinə məxsus ədatları olmadığı cəhətə rusların “ov”, “yev”ləri əvəzində qədim iranilərin “yan” ədatını qəbul etdilər. (Məlum olduğu üzrə, iranilər dudman və sülalələrini “yan” ədatı ilə bəyan edirdilər. Məsələn, Pişdadiyan, Sasaniyan, Keyanyan sülaləri kimi.)

Ermənilər ilk qədəmlərini həmin “yan” ədatının qəbulu, yaxud davamı ilə sübut etdilər. Krımov, Petrosov, Ovanesov kimi rusvari familiyalar əvəzinə Krımyan, Petrosyan, Ovanesyan kimi farsvari familiyalar qullandılar. Sairlərin təəssübimillisi [milli təəssübkeşliyi] bu dərəcədə şiddət edərkən, müsəlmanların nücəba [əsilzadələri] və ürəfası, bəlkə baş ruhaniləri, şeyxulislam və müftiləri dəxi Tahirov, Qayıbov kimi familiyalarını ruslaşdırmağa çalışmışlardır.

Bəzən bu ruslaşdırmaq yalnız ədatın qəbulu ilə olmayaraq, maddeyi-əsliyyələri [əsl maddəsi, kökü] bir dərəcəyə qədər pozulmuşdur. Hürufatı [hərfləri] öylə təğyir tapmışdır [dəyişmişdir] ki, bunların, bu ruslaşma familiyalarının müsəlman əhlinə təəllüqü [aidiyyatı] sair islam məmləkətlərində iqrar və bəlli olunmazdı. Məsələn, heç bir İstanbul türkü anlaya bilməz ki, bizim familyamız “Qadjinski” (yəni Hacızadə), ərəblərin Hacı kəlməsindən münhərif olmuşdur [təhrif edilmişdir]. Yaxud heç bir ərəb müvərrixi [tarixçisi] bunu sübut edə bilməz ki, bizim “Usmiyev” familiyamız Dağıstana göndərilmiş “İsmi” adlı ərəb sərkərdəsinin namından məxuzdur [adından əxz edilmişdir, alınmışdır].

Qafqazda birinci dəfə rusca familiya

daşımağa qurşananlarımız xanlar və bəylər olmuşlardır. Xanlığını və bəyliyini sübut etmək üçün bu ləfzləri, hətta familiyalarına da daxil etmişlərdir. Məsələn, Ziyadxanov, Bakıxanov, Şəkixanov, Fətəlibəyov, Rüstəmbəyov və sairləri kimi. Məəlməmnun[iyyə] [məmnuniyyət verici bir haldır ki], Qarabağ xanzadələri içində "ov" ədatından qaçaraq öz qaydamıza tabe olanlar da olubdur. Məsələn, Cavanşir. Xanlardan və bəylərdən sonra familiya daşımaq adəti tüccar və sair əsnaf əhlinə keçir. Lakin, bunların rəhbərləri familiyalar içində nəcabətlərini sübuta qalxmış xanlar və bəylər olduğu cəhətinə əsnafdan heç kəs sinfi, yaxud demokratik tərzində familiya daşımağa məəttəəssüf [təəssüf ki], nail olammayır. Bu gün ermənilərin Qundaqsazyan, Çaxmaqsazyan, Saatsazyan, Zərgəryan kimi sinfi familiyalarına rast gəldiyimiz halda, müsəlman əsnafının familiyalarında bu üsula həqarət nəzəri ilə baxmalarını müşahidə ediriz. Bunlar yalnız babalarının adları ilə familiya daşıyırlar. Doğrudur, aramızda Topçubaşov, Qatırçıbaşov kimi bəzi zahirən sinfi familiyalara rast gəliriz. Lakin bu familiyalar sinfi deyil, bəlkə köhnə islam hökumətlərindən qalma mənsəblərdir.

Xülasə, familiyalarımızda demokratlığa, kəsbkarlığa fəxr edici bir əlamət görünməyir. Hələ İran nüfuzu altında bulunduğumuz vaxtlar ürəfadan bəziləri "Qarabağı", "Gəncəvi", "Şirvani" kimi mahal familiyalarını qəbul etmişlərdir. Sonra, türklük hissi qələbə edir, yaxud bu İran formasına bir çox yerlərimizin adları uyğun olmadığı cəhətinə yayi-nisbi (y) atılıb, əvəzinə türk ədatı "li" qonulur. Böylə ki, Köçərli, Şahtaxtlı, Cuvarlı, Qaracalı, Sarıcalı kimi bir çox familiyalar zühur edir. Lakin, türkün "li" ədatı ilə kifayətlənməyən bir çox cavanlarımız bunun üzərinə bir də rus ədatı "nski" əlavə edirlər. Hər iki ədatın mənası bir yer və məkana aid olduğu üçün familiyalarımız da adlarımız kimi ikimərtəbəli və gülünc bir hala düşürlər. Bunun nəticəsi olaraq Ərəblinski, Şıxlinski kimi bir çox ikimərtəbəli, yaxud iki ədatlı familiyalarımız meydana gəlir.

İştə, rus ədatları "ov", "yev", "ski", "nski" familiyalarımızda möhkəmləşdiyi bir zamanda, bunun ziddinə olaraq bəzi ruhanilərin bu barədə cəsarəti, ciddü cəhdi müşahidə olunur. Böylə ki, bunlardan bir neçəsi rus ədatlarını rədd edib, əvəzinə farsın "zadə" kəlməsini işlətmişlərdir. Hüseynzadə, Axundzadə və Əfəndizadə cənabları bu təşəbbüsatın dəstəbaşılarıdır.

Getdikcə, müruri-zamanla [vaxt keçdikcə] "zadə" ilə qullanılan familiyalarımız artırdı. Lakin bu "zadə" ədatlı familiyalar yeniyetmələrin təvəllüdnamələrində yenə "ov", "yev" ədatlarına mübəddəl olunaraq [dəyişdirilərək] rus idarələrində köhnə qayda ilə, yalnız müsəlman mətbuatında təzə qayda ilə işlənirdi. Ruslar yanında "ov" və müsəlman xeyirşərində "zadə" ilə familiya daşıyanlar bu "ikiüzlülüyə" təvəllüdnamə cəhətindən məcbur olmuşdular. Qüsurumu boynuma alıram ki, mənim də familiyam təvəllüdnamə cəhətincə rus idarələrində Ağayev və müsəlman mətbuatında da Ağazadə qalıb getmişdir və mənim kimiləri də əlan [indi] çoxdur.

Bu gün təvəllüdnamə vermək ixtiyarı

öz əlimizdə olduğu üçün əminəm ki, daha bundan sonra idareyi-ruhaniyyələrimiz təvəllüdnamələrimizdə “ov”, “yev” quyruqlu familiyalar yazmasınlar. Bizim kimi köhnələrə gəldikdə, bizim də vəzifəmiz – rus idarələrinə ehtiyacımız qalmadığı cəhətinə familiyalarımızın ancaq müsəlman səpkisində olmasına riayə[t] edəriz. Lakin bununla məsələ həll olunub qurtarmayır.

Məktəblərin və sair idarələrin milliləşməyi barəsində tədbirlər ittixaz olunur [tədbirlər görülür]. Familiya islahı milliləşmənin ən asan bir tərəfidir ki, burada bir layihə tərtibindən başqa sair bir səy və kuşişə [çalışmağa] ehtiyacı yoxdur.

Familiya islahına gəldikdə, burada bəzi zəvatın [şəxslərin] Cavanşir kimi mücərrəd və ədatsız familiya qəbulu, bəzilərin də “li” ədatı ilə və bəzilərin də “zadə” kəlməsilə familiya daşımaqlarını tövsiyə ediriz. Əshabi-xibrənin [mütəxəssislərin] bu barədə daha sair məlumatı varsa buyursunlar, yazıb xəbər versinlər. Bəlkə familiya islahatı müntəzəm bir surətdə qəbul oluna.

Tarix bunu bizə sübut edir ki, hər bir millətin islahatı xırda və zahiri işlərdən başlanmışdır. İştə, Parlaman və Heyəti-Vüzəra [Nazirlər Kabineti] əzalarından [üzvlərindən] başlayaraq, axırıncı şagirdlərimizə qədər hamı familiyasını gərək islah etsin, milliləşdirsin. Bunu əncama gətirmək üçün bir layihəyə, bir qanuna ehtiyacımız vardır ki, bu da Ədyan [Dini Etiqad] və Maarif Nəzarətləri tərəfindən təşkil ediləcək bir komisyonun işidir.

Fərhad Ağazadə

TELEQRAF XƏBƏRLƏRİ

(Royter acentəliyindən)

Sülh Konfransının güşadı [açılışı]

Şənbə günü Parisdə tarixi Sülh Konfransı açılmışdır. Fransa Rəisi-cümhuru [Prezidenti] Puankare öz nitqi əsnasında demişdir ki, Sülh Konfransının ancaq Parisdə dəvət edilməsi, müharibədə hamıdan artıq xəsarətdidə olan [zərər çəkən] məmləkətimizə millətlərin göstərmiş olduqları hörmətdən ibarətdir.

Puankare İngiltərəni və İngiltərənin muxtariyyətli müstəmləkələrini hamı millətlərin müqəddaratına dəxli olan müharibədə iştirak etdiklərinə görə təqdir etmişdir. Amerikanın müharibəyə müdaxilə etməsi böyük bir siyasi, əsgəri [hərbi] hadisədən də yüksək olub, millətlər vicdanının hökmi-alisi və tarix məhkəməsində millətlər həkəmlərinin [arbitrlərinin] qərarından ibarət idi. Bu böyük müharibədə iştirak edib gələcək sülhün möhkəm və təminatlı olması üçün üsrət [əziyyət] çəkən millətlərin və adamların adı daimi bir şöhrət altında olacaqdır.

Sülh Konfransının təşkilatı məsələsinə gəldikdə, xəbər verirlər ki, ümumi mənafe üzrə müharibə edən Amerika, İngiltərə, Fransa, İtaliya və Yaponiya nümayəndələri Sülh Konfransının hamı müşavirələrində iştirak edəcəklərdir. Xüsusi mənafe üzərinə müharibə edən və bərbad bir halda olan dövlətlərdən Belçika, Braziliya və qeyrilər Sülh Konfransında onlara dəxli olan məsələlər müzakirə edildiyi zaman iştirak edəcəklərdir. Bitərəf dövlətlər çağırıldıqları zaman istima ediləcəklərdir [dinləniləcəklərdir].

(Royter acentəliyindən)

Berlində

Berlindən xəbərə verirlər ki, hökumət Berlində qüvvətli bir qarnizon təşkil etməkdədir. Bu qarnizon təzə hərbi ixtiraatlar [ixtiralar] ilə təchiz edilmişdir.

Donanmalar

Amerika Donanma Şurası izhar etmişdir ki, müharibə ehtiyacatı üçün həcz [müsadirə] edilən hamı Amerika gəmiləri təviz [kompensasiya, əvəz] edildikləri zaman azad ediləcəklərdir.

Bolşeviklərin məğlubiyyəti

London - Dekabrın 24-ündə rus qoşunları Perm şəhərini işğal etdilər. Bolşeviklərdən 8 min nəfər əsir və bir çox ləvazimi-hərbiyyə [hərbi sursat] qənimət alınmışdır. Perm ilə Kunqur arasında olan düşmən ordusu Permin 50 ağaclığında birbirindən əlaqələri kəsilmişdir.

* Kopenhaq - Teleqrafla xəbər verilir ki, bugünlərdə Paderevski başda olmaq üzrə Polyak Cümhuriyyəti təşkil ediləcəkdir. Paderevski Poznandan Dansiqə varid olmuşdur [getmişdir].

* Batumdan Bakıyadək olan dəmiryolları hal-hazırda qaydaya düşmüşdür.

* Sibirdə, Ural xəttində böyük bir müvəffəqiyyət hasil olmuşdur. Permdə bolşeviklərin mükəmməl bir alayı əsir düşüb düşmənin ərkani-hərbi [qərargahı] ilə briqadası dəxi əsirlər cümləsindədir. Kumanın cənub cəhətində bolşeviklərdən alınan əsirlərin yekunu 30 minədəkdir. 51 top, 1000 pulemyot, bir neçə zirehli gəmi və bir çox dəmiryol ləvazimatı qənimət alınmışdır.

Voronej - Xətti-hərbdə ciddi müharibələr başlandığı üçün Novoçerkasskda Səlibi-əhmər [Qırmızı xaç] dəstələri təşkil edilir.

Soçi - General Denikin zeyldəki [aşağıdakı] əmrnaməni sadir eyləmişdir [yaymışdır]: *"Don-Kuban atamanlarının rizası ilə dekabrın 26-dan etibarən mən cənub Rusiyada olan bərri və bəhri qüvvələrin [quru və dəniz qüvvələrinin] baş komandanlığını öhdəmə almışam."*

QƏZETƏLƏRDƏN

Helsinqfors - 8 yanvar. Petroqraddan qayıtmış olan Danimark[a] səfarət üzvləri xəbər verirlər ki, Moskvada olan ingilis hərbiyyə nəfəratı [əsgərləri] həbsxanada saxlanırlar və bunlarla bolşeviklər fəna müamilə [pis rəftar] edirlər. Əks-inqilabçılarla mübarizə edən heyət başçısı xanım Yakovlev bütün - bütünə Petroqrada hökmranlıq edir. Hər gün insanlar küçələrdə qırılırlar. Petroqrad əhalisi 800 minədək əskilmişdir. Mağazaların 4-dən 3 hissəsi qapanmışdır. Tramvaylar işləmir. Kömür yoxdur, elektrik həftədə fəqət 2 saat işləyir. Petroqradda Krasnı qvardiya nəfəratının [Qırmızı qvardiya əsgərlərinin] miqdarı 50 min nəfərdir.

Ermənilərin müharibəyə qarşı protestosu

Siqnax mahalında Kakabeti kəndində yaşayan ermənilər gürcü Daxiliyyə vəzirinə [nazirinə] teleqramla müraciət edərək erməni hökumətinin Sanain macəraculuğuna [avantürasına] qarşı protesto etmişlərdir. Bunlar Gürcüstan istiqlaliy-

yəti yolunda hər növ fədakarlığa hazırlandıqlarını bildirmiş və demişlər ki, bunu Ararat Hökuməti bilməlidir ki, Kakabeti ermənilərinin onlarla heç bir əlaqəsi yoxdur. Biz Gürcüstanda doğulduğumuzdan canımızla, ruhumuzla gürcüyüz.

İngilislər dəmiryollarında

Tiflis, Poti, Batum arasında olan tunellərin mühafizəsini ingilis heyəti kəndi öhdəsinə almışdır. Oraya mühafizədən ötrü hələlik bir tabor sipahi göndərilmişdir. Ondan əlavə, Supsa mövqifində [stansiyasında] bir bölük hind qoşunları qoyulmuşdur. Mühafizəyə məmur edilən saldatlar üçün general-qubernator qışlalar [kazarmalar] hazırlayıb oraya ərzaq şeyləri də göndərir.

Gürcüstanın ingilislərə cavabı

Tiflis - 18 yanvar. İstanbuldan, ingilis komandanlığından gəlmiş olan teleqramı Xariciyyə naziri Gegeçkori elan etdikdən sonra gürcü Parlaman sədri, Parlamanın vəkaləti ilə ingilis heyəti rəisinə və Zaqafqaziyada olan ingilis qoşunları baş komandanı general Forester-Volkerə zeyldəki [aşağıdakı] nitq ilə təşəkküratda bulunmuşdur:

"Gürcüstan Parlamanı sizin şəxsinizdə azadlıq sevən ingilis millətini ciddiyyən təbrik edir. Gürcü milləti həmişə inanırdı ki, bu azadlığın mehdi [beşiyi] olan İngiltərə bizim vətənimizə müqtədir dostumuz sifəti ilə gəlib çoxdan bəri müsibət çəkməkdə olan gürcü millətinin milli ordularının vücuda gəlməsinə müavinət [kömək] edəcəkdir. Bu sözümüzə sübutumuz da vardır. Bu gün bizə sizin hökumətiniz tərəfindən gələn məlumat, İngiltərə hökumətinin gürcü istiqlaliyyətinə mail olduğunu və Ümumi Sülh Konfransında bunun təsdiq edilməsinə çalışacağını bildirir. Biz, möhtərəm general, sizdən təvəqqe ediriz! Hökumətinizə bildiriniz ki, bu hərəkəti ilə bütün Gürcüstanı ingilislərdən minnətdar eyləmişdir. Hər bir gürcü vətəndaşının qəlbi bilir ki, istiqlal yolunda etdiyi mübarizədə ingilis kimi müqtədir bir dostu var ki, gürcü millətinin mədəni millətlər cərgəsinə girmək mübarizəsində ona kömək edir."

Rusiyada

* Kursk quberniyasındakı fövqəladə şura, ictimai qərar qoymuşdur ki, bütün Kursk xətti-hərbində Müttəfiqlər və Könüllü qoşunlara qarşı müharibə açılsın.

* Urazovodan qaçmış olanlar "Yujnı kray" qəzetəsinə xəbər verirlər ki, piyan [sərxoş] bolşevik saldatları Utkin nam [adlı] bir tacirin evinə od vurmuşlardır. Bu yanğın, sonra başqa yerlərə keçib tam 130 evi məhv eyləmişdir. Küçələrdə yığılmamış meyitlər qalmaqdadır.

VÜKƏLA ŞURASINDA
[NAZİRLƏR KABİNETİNDƏ]

* Maliyyə naziri həzrətlərinin Bələdiyyə İdarəsinə borc pul vermək haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir [qərara alınmışdır]:

Bələdiyyə İdarəsinə 5 faizlə bir il müddətinə 3 milyon rublə pul verilsin.

* Maliyyə naziri həzrətlərinin neft və neft məhsulatına aksiz təyin etmək haqqındakı məruzəsini eşitdikdən sonra qət

edilmişdir:

Maliyyə nazirinə tapşırılsın ki, Hökumətin 21 oktyabr 1918-ci sənə qanununun təcili surətdə qövldən feilə [sözdən işə] gətirilməsinə çalışsın. Neftə və neft məhsulatına aksiz təyini barəsində lazımi binagüzarlıqda bulunsun [addımları atsın].

* Maliyyə naziri həzrətlərinin neftə taksa təyin etmək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Hökumətin 9 oktyabrdakı qətnaməsinə əlavə olaraq, neftin putuna 5 rublə, cövhərin putuna 7 rublə taksa təyin edilsin. Neftə 3 rublə, cövhərə 5 rublə aksiz, benzin və başqa yüngül yağlara 7 rublə aksiz təyin edilsin.

* Hərbiyyə naziri həzrətləri[nin] külfətin yeganə müinini [köməkçisini; baxıçısını] və xalq məktəbləri müəllimlərini əsgərliyə alma[ma]q barəsindəki məruzəsini istima etdikdən sonra qət edilmişdir:

Külfətin yeganə müini və xalq müəllimlərini əsgərliyə almamaq barəsindəki məruzə təsvib [təsdiq] edilsin.

* Hərbiyyə naziri həzrətlərinin topçu üsuli-təliminin tərcüməsi haqqındakı məruzəsi istima və təsdiq edilmişdir.

* Hərbiyyə naziri həzrətlərinin məruzəsinə görə Azərbaycan qolordusu ərkani-hərbinin [qərargahının] ləğv edilməsi qərarlaşdırılmışdır.

* Daxiliyyə naziri həzrətlərinin Zəngəzur qəzasındakı səfərbərliyi təcil etmək [təxirə salmaq] barəsindəki məruzəsini istima etdikdən sonra qət edilmişdir:

Fövqəladə vaxtdan dolayı Zəngəzur qəzasındakı səfərbərliyi müvəqqəti olaraq təcil etmək [təxirə salmaq].

18 yanvar 1919 sənə

* Post ve Teleqraf naziri həzrətlərinin beynəlbilad [şəhərlər arası] telefondan istifadə etmək barəsindəki məruzəsi nəticəsində qət edilmişdir:

Nazir və nazir müavinləri beynəlbilad telefon xəttindən məccani [pulsuz] olaraq istifadə edəcəklər.

BAKI XƏBƏRLƏRİ

Bələdiyyə İdarəsinin qətnaməsi

Şəhərdə hökmfərma olan [hökm sürən] müsri [yoluxucu] xəstəliklər barəsində Bələdiyyə rəisinin məruzəsini dinlədikdən sonra bir İcraiyyə komisyonu intixab edilmişdir [seçilmişdir] ki, komitənin bütün qətnamələrinin qövldən feilə [sözdən işə] gətirilməsinə çalışsın. İşbu komisyona Bələdiyyə İdarəsi tərəfindən idarə üzvü doktor [Mustafa Ağa] Şərifov intixab edilmişdir. Doktor Şərifov bütün komisyona aid işləri idarə etməklə 600 yataqlıq bir xəstəxana açılmasına lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunacaq. Bütün iş Bələdiyyə rəisinə həvalə ediləcəkdir.

* Bələdiyyə İdarəsi üzvü doktor [Mustafa Ağa] Şərifov, Bələdiyyə İdarəsinin şəhər dərmanxanalarında saat 2-dən 8-ə qədər xidmətçilər təyin etmək barəsində məruzə oxuyur. Məruzədə denilir ki, işbu məsələni qövldən feilə [sözdən işə] gətirmək mümkün deyildir. Zira şəhərdə müsri xəstəliklərdən naşi [yoluxucu xəstəliklər səbəbindən] bütün həkimlər məşğuldurlar. Bir də şəhər dərmanxanaları xidmətçiləri Bələdiyyə İdarəsinə müraciətən rica etmişlər ki, yeni xidmətçilər qəbul edilməsin. Bunun əvəzində

onlar növbə ilə çalışacaqlar. Bunun əvəzində 30 faiz deyil, məvaciblərinin yarısını alacaqlar.

Bələdiyyə İdarəsi məruzədən sonra qət etmişlər ki, əsas etibarı ilə işbu məsələ qəbul ediləmməz. Fəqət, əhvali-fövqəladədən naşi [fövqəladə vəziyyətə görə] qət edilmişdir ki, şəhərin 8 dərmanxanalarına birər xidmətçi qəbul edilsin. Bunların cümləsinə aylıq olaraq 6 min 400 rublə təyin edilsin. Bunlar günortadan sonra çalışacaqlar. Bu şərtlə ki, nə vaxt işsiz xidmətçilər olarsa, onlar dəyişiləcəklər.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Maliyyə Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, ümumi tamaşaxanalar üçün xüsusi biletlər hazırlansın. Biletlər xüsusi kontrol [müfəttiş] təhti-nəzarətində [nəzarəti altında] hazırlanacaqdır.

* İkinci uçastok ev komitəsi hamı ev komitələrinə təklif edir ki, tif azarına mübtəla olan xəstələri uçastok komitəsinə xəbər versinlər. (Adres: Bolşoy Krepostnoy, nömrə 47, telefon 10-37.) Burada hər gün səhər saat 9-dan axşam saat 6-ya qədər növbəti həkim vardır. Həkim azarlılara pulsuz baxır. Biçiz [yoxsul] azarlılara dərmanlar müftə verilir.

ƏRZAQ İŞLƏRİ

“Müsavat” firqəsinin fəhlə şöbəsi, Ərzaq Nəzarətinin mədən və zavod şöbəsinə böylə bir məktub yazmışdır:

Mədən dairələrində Ərzaq Nəzarətinin anbarlarından buraxılan birinci zəruri şeylərin fəhlələrə paylanmasında fəhlələr nə qədər müşkülata düçar olduqlarını dəfələrlə sizə xəbər verdiklərinə görə, “Müsavat” firqəsinin fəhlə şöbəsi həqiqəti aşkar etməkdən ötrü işbu suallara cavab verilməsini sizdən xahiş edir:

1) Hansı rayonlarda ərzaq anbarları vardır və kimlər tərəfindən idarə olunur?

2) Ərzaq şeyləri fəhlələr arasında nə qayda ilə təqsim edilir [bölünür]?

3) Mallar nə qiymətlə satılır? Öz qiymətinə və ya xidmətçilər nəfinə [xeyrinə] müəyyən mənfəət ilə?

4) Nə səbəbə düyü yuxarı qiymətə satılır?

* Dərbənd Ərzaq idarəsinin sədri Soljenko, Ərzaq Nəzarətinə müraciət edib Dərbənd əhalisi üçün Dərbənd şəhərinə ərzaq şeyləri aparmaqdan ötrü bir vaqon verilməsini xahiş etmişdir. Ərzaq Nəzarəti, Dəmiryol Nəzarətinə məktub yazıb Dərbənd əhalisi ehtiyacatı üçün Ərzaq Nəzarəti tərəfindən buraxılan malların Dərbəndə aparılmasından ötrü məzkur [adı çəkilən] Soljenkoya bir vaqon verilməsini xahiş etmişdir.

FƏHLƏ KONFRANSI

Yanvarın 19-da Çurayevin sədarəti [sədrliyi] altında fəhlə konfransı vaqe olmuşdur. 336 nəfər mandatı olan nümayəndə iştirak etmişdir. Konfrans sədri Tiflis fəhlələrinin Bakı fəhlələrini təbrik etdiyi teleqrafı oxuyur, sonra Krasnovodskdan fəhlələrin göndərmiş olduqları mək- tub oxunur. Krasnovodsk fəhlələri hər gün düçar olduqları fəlakəti və həbs olunmaqlarını yazıb, Bakı fəhlələrindən

müavinət [yardım] diləyirlər. Konfrans qərar qoyur ki, müştərək müqavilə [kollektiv müqavilə] komisyonunun məruzəsindən sonra Krasnovodsk fəhlələrinin məktubu növbeyi-müzakirata [müzakirə növbəsinə] keçirilsin.

Sonra, Roxlin müştərək müqavilə komisyonu tərəfindən məruzədə bulunub deyir ki, saziş komisyonun[un] birinci iclasında ancaq böyük neft mədənləri nümayəndələri ilə fəhlə nümayəndələri gəlmişdilər. Bu iclasa nə bəhriyyə [donanma] nəqliyyatı, nə "Zafatema" və nə də Azərbaycan Hökuməti nümayəndəsi gəlməmişdilər. Buna görə fəhlə nümayəndələri izhar etmişlər ki, heç bir xüsusi müzakirat olmaz. Gələn iclasda hamı gəlməlidir. Neft mədənçiləri neft işlərinin qayət ağır bir halda olduğunu fəna bir surətdə təsvir etmiş, ixracat yoxluğunu və borca batdıqlarını qeydlə demişlər ki, neft işlərinin indiki halında Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] komissiyasının təyin etdiyi məvaciblər barəsində heç danışmağa da dəyməz. Çünki bu qərara görə, neftin putuna 4 manat fəhlə muzdu düşür. Halbuki mədənçilər neftin putunu 2 manata, hətta manat yarıma satmağa yalvararaq razıdırlar.

Fəhlə nümayəndələri mədənçilərin bu sözlərininin qismən doğru olduğunu təsdiqlə bərabər, şimdi ingilis komandanlığının neft almaq istədiyini və böylə olarsa nefti böyük mənfəətlə satacaqlarını bəyanla hər iki tərəfin güzəştə getməsini lazım görərək, məsələni qəti surətdə qoymuş və bildirmişlər ki, neft mədənçilərinin bəyanatına görə onlar[ın] fəhləyə təyin etdikləri maaş həddi-əqəll [minimum] 15 və əksər [maksimum] 25 manat qətidir. Ona görə bu barədə heç danışmaq lazım gəlməz.

Mədənçilər məsələni təzədən müzakirə etmək üçün üç gün möhlət istəmişlərdir. Fəhlələr yanvarın 15-inədək möhlət verib məsələnin təxirə düşməməsini tələb etmişlərdir.

İkinci iclasda (15 yanvar) məlum olmuşdur ki, mədənçilərin fövqəladə iclası qəti bir qərara gəlməmiş və bu məsələnin həlli üçün Hökumətə müraciət etməyi təhti-qərara almışlardır. Fəhlələr bəyan etmişlər ki, əgər həddi-əqəll olmaq üzrə 15 manatı da mədənçilər qəbul etməyirlər, o halda tətildən başqa çarə qalmayacaq və 1905-inci ildə vüqu bulmuş olan təcavüzlər kimi hərəkətlərin qabağını almaq mümkün olmayacaqdır.

Üçüncü iclas yanvarın 18-ində polkovnik Braun[un] iştirakı ilə vaqe olmuşdur. Braun bəhriyyə nəqliyyatı fəhlələri ilə sazişə girmək ümidini izharla demişdir ki, kooperatif açılması və fəhlələr halının təmin edilməsi üçün böyük məbləğ təxsis edilmişdir [ayrılmışdır]. Buna cavab olaraq fəhlə nümayəndələri demişlər ki, müzakirat davam edə bilər. Lakin şərait [şərtlər] burada bir yerdə imza edilməlidir.

Roxlin məruzəsini bitirdikdən sonra verilən suallara cavab olaraq demişdir ki, məvaciblərin artırılması müvəqqət olmayıb həmişəlikdir. Bu artırılan miqdarın nə vaxt qaldırılacağı tərəfeyn [iki tərəf] arasında aşkar edilməmişdir. 1914-1915-inci illərdə külfətli fəhlələr 25% idi. Lakin subay olan fəhlələr (İran fəhlələri) indi olmadığından, hal-hazırda ətraf kəndlilər işləyirlər. Odur ki, indi təqribən fəhlələrin 90%-i külfətdardırlar [külfət sahibi, ailə sahibidirlər].

Roxlin məruzəsinə əlavə olaraq deyir ki, fəhlələrin subay və külfətliyə ayrılmaları, əsası xələldar edir [pozur]. Bunun üçün də Bakı fəhlələri uzun müddət mübarizədə bulunmuşlardır. Məvaciblərə əlavə olunan məbləğin nə vaxta qədər olması məsələsi hələ həll edilməmişdir. Buna görə də konfransın bu barədə təsdiqi lazımdır. Komitə lazım bilir ki, fəhlələr məhəllində [yerində] müzakirat işlərindən aşina olsunlar. Ancaq bundan sonra məsuliyyətli qərar qəbul etmək olar. O müddətə qədər də komissiya neftin qiymətinin artırılacağını və qeyri məsələləri aşkar edər.

Məsai [əmək] nazirinin ərzaq işlərinin yüngülləşdirilməsi haqqındakı bəyanatına gəldikdə, əlbəttə bir şeyə nail olmaq olar. Sonra maryaklar [dənizçilər] və dəmiryol fəhlələri nümayəndələri birər məvacib rəqəmləri təqdim etmişlərdir. Frolov 8 oktyabr qanunu məsələsindən mübahisə [bəhs] edib deyir ki, sentyabr hadisələri vaxtlı-vaxtında iş başlamağa imkan verməmişdir. Buna görə konfrans komissiya tərəfindən hazırlanan bu aşağıdakı qətnaməni qəbul etməlidir:

1) Sentyabr hadisələri zamanında Bakıdan gedib dekabrın 8-inə qədər işə qayıtmayan əmələ və xidmətçilər və oktyabrın 8-indən Azərbaycan Hökumətinin qərarı ilə qəbul edilməyib işdən kənar edilənlər öz xidmətlərinə qəbul olunmalıdırlar.

Qeyd 1. İndiyə qədər hesab almayan əmələ və xidmətçilərə firmalar dekabrın 8-inə qədər işləmədikləri günlərin hesabını bütün verməlidirlər.

Qeyd 2. Oktyabrın 8-ində verilən qanuna görə, hesab alıb başqa firmalara daxil olanlar dekabrın 8-indən artıq olmamaq şərtilə boş olduqları günlərin hesabını almalıdırlar.

Qeyd 3. Firmada iş olmadığına görə xidmətə qəbul edilməyən əmələlər və firmadan hesab alanlar firma tərəfindən xidmətdən kənar edilmiş hesab olmalıdırlar.

Qeyd 4. Dekabrın 8-inə qədər işə qayıtmayan əmələlər, kənar edilmiş hesab olub, dekabrın 8-inə qədər hesab almalıdır.

Qeyd 5. Mart hadisatından [hadisələrindən] gedən fəhlələr getdikləri gündən kənar hesab edilməlidirlər. İyunun 1-ində qayıdanlar isə xidmətə qəbul edilib iyunun 1-inə qədər hesab almalıdırlar.

2) Bu maddələrdə göstərilən hamı əmələ və xidmətçilər kənar edildikləri zaman, müştərək müqavilə qərarınca hesab almalıdırlar.

3) Bakını türklərdən mühafizə etməkdən ötrü əsgərliyə dəvət edilmiş və könüllü getmiş olan əmələ və xidmətçilər xidmətə qəbul edilib və ya işə gəldikləri günə qədər qulluqdan kənar edilmiş hesab olunmalıdırlar. Bu qanun Türkiyə ordusu cərgəsində Bakı əleyhinə əsgərliyə dəvət edilmiş və ya könüllü getmiş olanlara da şamildir.

4) Avqust ayında verilmiş avansı məvaciblərdən çıxmamalıdırlar. Çıxılmış olsa da, qaytarmalı və indiyə qədər almayanlara verməlidir.

Sonra Roxlin fəhlələrin subay və külfiyətliyə təqsim edilməsindən bəhslə deyir ki, zavod komitələri məhəllində [yerində] bu barədə məlumat cəm edə bilərlər. İki təklif səsə qoyulur; biri məsələnin məhəllində və digəri burada həll

edilməsidir. Əksəriyyətlə birinci təklif qəbul olunur. Bu məsələ çaharşənbə [çərşənbə] günü səhər saat 10-da konfrans iclasında həll edilməlidir.

Roxlin komissiyaya iki müsəlman dəvət olunması təklifində bulunur. İbrahim Əbilov ilə Qarayev komisiyyaya intixab olunurlar [seçilirlər]. İclas axşam saat 9-da qapanır. Gələn iclas çaharşənbə günü səhər saat 10-a təyin edilir.

AZƏRBAYCANDA

Qarabulaq əhalisinin ricası

Qarabulaqdan (Qaryagindən) Parlaman sədri naminə bu məzmunda bir teleqraf göndərilmişdir:

"Dünən, yanvarın 16-sında Gəncə valisi bütün idarələri Qaryagindən Cəbrayıla köçürmək istəyirdi. Bu mahal mərkəzləri Qaryaginə köçməmişdən, yəni 1905-inci ildə qubernator Qaryagin əhalisini vadar eyləmişdi ki, gərək məmurlar və gərək idarələr üçün münasib mənzillər inşa edilsin. Bundan əlavə, xəzinə [tərəfindən] Qaryagində həbsxana və mahal idarəsi inşa edilmişdir ki, təbii buna da külli məbləğ sərf edilmişdir. Bütün idarələrin Cəbrayıla köçürülməsi ilə bu imarətlər boş qalacaq, bu isə əhalinin pərişanlığına səbəb olacaqdır.

Qaryagin kəndi sərhədin 20-25 verstliyindədir. Bunların qarşısında İranın ən dəhşətli quldurları olurlar ki, onlar da Şahsevən-Xocabəyli, Hacı Xocalı, Kənəkli qəbilələrindəndir. Bunların hücumunu ancaq Qaryagində olan idarələr saxlaya bilər.

Cəbrayıl qəsəbəsi isə bu yerlərin yüz verstliyindədir. Oradan əcələ ilə camaatı quldurlar bəlasından xilas etmək imkan xaricindədir. Şuşa şəhərindən sonra Qaryagin kəndi yalnız mahalda deyil, bütün İranla sərhəd boyunda birinci mədəni mərkəzdir.

Yuxarıda yazılan mətləblər və camaatın mənafeyi-ümumiyyəsinə görə rica edirəm ki, mərkəzin Qaryagindən Cəbrayıla köçürülməsi barəsində olan Gəncə qubernatorunun əmrini ləğv etdirəsiniz. Təvəqqe ediriz, əcalətən [təcili] əmr verəsiniz! Zira Gəncə valisi yanvarın 22-sinədək möhlət vermişdir.

İki uçastok nümayəndələri
Axundzadə, Nəcəf bəy Hacıyev və
Tağıyev"

Şuşada məişət

(Xüsusi müxbirimizdən)

Yanvarın 19-da Şuşadan gəlmiş olan bir nəfərin rəvayətinə görə, Yevlax-Şuşa şose yolu tamamilə xətrəsizdir. Yevlaxdan Şuşayadək fayton 1000 manat pul alır. Şuşada həyat tamamilə sakitdir. Əhali puldan ötrü böyük müşkülat çəkir. Bakı və Zaqafqaziya bonları ümumi pulu kimi işləyir və camaat kamali-meyl və həvəslə alır. Şuşada qar yağırsa da, fəqət havası Bakıdan istidir. Hər gün Şuşada 10-dan 12-yədək ölənlər olur. 7 min nəfər erməni fərarilərindən [qaçqınlarından] ancaq 3 mini salamat qalmışdır. Bazarda camaat ev əşyalarını satır, fəqət pul olmadığından xahanı [almaq istəyən] az olur. Arpa çörəyin[in] girvənkəsi 1 manat 40 qəpik, buğda 2 manat, ət 3 manat yarım, mal əti 2 manat yarım, çay və qənd Bakı qiymətinədir. Yağ 22 manat, cövhərin [kerosinin] girvənkəsi 2 manat

20 qəpik, əvvəl 5 manat, hətta bundan neçə vaxt əvvəl 10 manat idi. Poçta-teleqraf müxabirəsi [rabitəsi] olmadığından pul qıtlığı müşahidə edilir. Gərək Şuşada və gərək ətrafda olsun, ermənilərlə müsəlmanların arası düzəlir.

Andranikin əmri

Vərəndə, Dizaq, Xaçın və Cavanşir baş komandanlarına, ümum komissarlara və erməni əhalisinə:

“Bu əmrnamə sizə vüsul olan [çatan] kimi tatarlar və türklər müqabilinə dava hərəkatını bilatəxir [dərhal] yatırasınız. Müttəfiqlər bizdən tələb edirlər bilatəxir dava hərəkatını yatıraq. Müttəfiqlər nümayəndələri ingilis və fransız kapitanları mənim yanıma gələrək bəyan etmişlər, bundan böylə Qafqaziyada müharibəyə məhəl [yer, imkan] verməmək təhti-qərara alınmışdır. Türk qoşunları bilatəxir getməlidirlər. Bakı və Batum ingilislər əlindədir. İngilislər Tiflisə hərəkət edirlər ki, ümum məsələlər Sülh Konfransında həll edilməlidirlər. Müttəfiqlər nümayəndələrinin mənə verdikləri bir məktubda baş komandan ingilis generalı Tomson məni xəbərdar edir ki, bundan sonra hər dürlü düşmənanə hərəkat erməni məsələsinin həllinə zərər yetirər.”

İmza etdi:
general-mayor Andranik
Surətinin mətni ilə düz olduğunu təsdiq ediriz
(imzalar: Şuşa yeparxiya naçalniki yepiskop Vağan)
Şuşa bələdiyyə rəisi Gerasim Məlik-Şahnazaryan
Əmrnamə noyabrın 19-da göndərilmişdir.

Muğan barəsində

Xəbər verildiyinə görə, Muğan müqəddəratı, xüsusən onun şimal cəhəti Müttəfiqlər komandanlığını çox düşündürür. Komandanlıq Muğan əhvalının həqiqətini bilmək istəyirlər. Ona görə də bu günlərdə ingilis komandanlığı tərəfindən oraya bir heyət göndəriləcəkdir. Bu heyət Muğan əhvalına lazımınca bələd olduqdan sonra, rus kəndçilərinin oraya övdət etmək [qayıtmaq] məsələsini həll edəcəkdirlər.

GÜRCÜSTANDA

Gürcüstan Parlamanında

Gürcüstan Parlamanının yanvarın 17-də vaqe olan iclasında Xariciyyə naziri Gegeçkori İstanbul təriqi [yolu] ilə Londondan alınmış teleqrafı oxumuşdur:

“Sülh Konfransında gürcü heyəti-müraxxəsəsinə [nümayəndə heyətinə] yer verilməsi haqqında Gürcüstan Xariciyyə nazirinin teleqrafına cavab olaraq İstanbul təriqi ilə məzkur [adı çəkilən] heyətin əziməti [yola düşməsi] təmin ediləcəkdir. İngiltərə hökuməti arzu edir aşkar olsun ki, Gürcüstan nümayəndələri Fransa hökumətinə təqdim ediləcəklərdir. Heyəti-müraxxəsəyə yer verilməsi haqqında bir söz demək olmaz. Çünki təzə təşkil edilən hökumətlərdən kimin Sülh Konfransına buraxılması Sülh Konfransının qərarından asılıdır. İngiltərə hökuməti təzə Gürcüstan Cümhuriyyəti təşkil edilməsinə hüsn-təvəccöh göstərib Gürcüstan nümayəndələrinin Sülh Konfransında iştirak etmələrini ciddi surətdə müdafiə etməklə bərabər, məzkur nümayəndələrin

sözlərinə qulaq asılması istidasında [xahişində] bulunmağa dəxi hazırdır." (Ümumi alqış)

Bu telqraf oxunduqdan sonra Parlaman sədri Parlaman namindən İngiltərə heyətinə bəyani-təşəkkür edilməsi təklifində bulunur. Bu təklif qəbul olunur. Sonra Xalq Səhiyyə Komissiyası namindən Apakeliya dövlət darülfununu [universiteti] nəzdində 6 şöbədən ibarət Səhiyyə İnstitutu açılması qanun layihəsini oxuyur. Layihə, smetası ilə bərabər qəbul olunur.

Bundan sonra Nikidze Torpaq Komisiyyası namindən hökumət torpaqlarının camaat ixtiyarına verilməsi layihəsini oxuyur. İşbu layihənin ümdə maddələri budur:

Mühacirlər köçürməkdən və koloniya salmaqdan ötrü Ziraət [Kənd Təsərrüfatı] naziri ixtiyarında olan yerlərdən başqa qalan hökumət yerləri camaata verilir. Bu yerlər də ancaq tək bir dolanacağı yerə münhəsir [bağlı] olan torpağı az kəndlilərə veriləcəkdir. Otlaq yerləri kəndlərə ümumi mal olmaq üzrə verilir. Əkin yerləri kəndlilərin mali-məxsusu [xüsusi malı] olacaqdır. Böylə yerlərin miqdarı yerlər zəbt edildiyi zamandakı miqdardan artıq olmamalıdır. Mali-məxsus olmaq üzrə verilən yerlər əvəzində müəyyən qiymət alınacaqdır. Bu pullar da yerləri qurutmaq və suvarmaq üçün və torpaq qanunu tətbiq etməklə əlaqədar olan məxaricləra [xərclərə], həmçinin torpaq banklarının borcunu əda etməyə [ödəməyə] və torpaq fondu təşkilinə sərf ediləcəkdir. Yerlərin qiymətini də Ziraət naziri, uyezd zemstvoları [qəzalardakı yerli özünüidarə qurumları] ilə bərabər təyin edir. Şəhər yaxınlığında olan yerlər həmçinin məzənnəyə görə satılacaqdır.

Sonra məruzəçi deyir ki, gələcəkdə iqtisadi qüvvələrin artması bunu isbat etdi ki, yerlərin mali-məxsus olması əsasını qəbul etmək lazımdır. Hazırdakı şərait mövcibincə [şərtlərə əsasən] torpaqdan mənfəətbərdar olmaq üçün başqa formalar kənd fəllahət [kənd təsərrüfatı] işləri tərəqqisini mümaniətə [maneəyə] düçar edir. Bu təsəvvürata görə komissiya, yerlərin xüsusi mal olması əsasını təsvib [təsdiq] etmişdir. Fəqət bir para yerlər, o cümlədən məhsulatlı mülklər, meşələr, otlaqlar və torpaq fondu hökumətin mali-məxsusu olur. Yerlərin qiyməti alınması da müsbət surətdə həll edilmişdir.

İANƏ

İdarəmizə xəstə türk əsgərləri nəfinə [xeyrinə] ianə vüsul olmuşdur [çatmışdır]:

Üzeyir bəy Hacıbəylidən 50 manat;

Abidin Mirqasımzadədən 50 manat;

Əlihəsən Cabbarzadədən 200 manat;

Seyidəli Əzimzadə vasitəsilə 7 nəfər türk dərzilərindən cəm olmuş 516 manat;

Mehmanovdan 50 manat;

Cəmi 866 manat.

Sabiqdəki 250 manat;

Yekun 1116 manat.

1116 manat cənab Ağaməhəmməd İbrahimzadəyə idarəmiz tərəfindən təhvil verilmişdir.

Kovitskinin mənzilində cəm olan məzkur [adı çəkilən] Kovitskdən təbib Gindesin həvaləsinə 177 manat.

Doktor
Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Doktor
Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Olqinski küçədə Ekspress sineması altında yeni **Çanaqqala** qəhvəxanası açılmışdır.

2650

Elan

Azərbaycan Dəmiryolları müdiri T. Məlikaslanov əmri ilə bu kanuni-saninin [yanvarın] 17-sindən yerli əhalidən texnik kantorçusu, növbətçilik, mövqif [stansiya] müdiri və müavini, teleqrafçı hazırlamaq üçün xüsusi məktəb açılmışdır. Ərizə verib qəbul edilən əşxas [şəxslər] kanuni-saninin 17-sində, gündüz saat 12-də Romanov və Budaqov küçələri küncündə, Dadaşovun mülkündəki məktəbdə hazır olmalıdırlar.

T-15

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir.

Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

İnna lillahi və inna ileyhi raciun

səh. 359. "...rəbiülaxir ayının 18-ində...": miladi təqvimlə 21 yanvar 1919-cu ilə uyğundur.

Qismi-rəsmi

səh. 360. "...həmin 1919 sənəsi yanvarın 18-dən etibarən...": qəzetdə belə getmişdir: "...həmin yanvarın 18-dən etibarən 1919 sənəsi..."

Əmələ məsələsi

səh. 361. "M. Ə.": "Azərbaycan" qəzetində bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

Şəmkir şühədasını xatırlayalım

səh. 362. "knyaz Abxazinin": digər mənbələrdə "knyaz Abxazava" kimi qeyd edilir.

səh. 363. "Rəhmətullahi əleyhim rəhmətən vasia!": Allah onlara çoxlu-çoxlu rəhmət eləsin!

səh. 364. "Usmiyev": Bu familiya, rus əlifbasındakı "ц" hərfinin "ts" ilə ifadə edilməsi səbəbindən, qəzetdə "Utsmiyev" kimi getmişdir. Usmiyevlər kumık əsillidir. Usmiyevlərin ən tanınmışları rus ordusunun general-mayoru knyaz Musa Usmiyev (?-1843), onun oğlu, rus ordusunun general-mayoru, eyni zamanda Xurşidbanu Natəvanın əri olan Xasay xan Usmiyev (1808-1867) və Xasay xan Usmiyevlə Xurşidbanu Natəvanın oğlu olan Mehdiqulu xan Usmiyevdir (1855-1900).

səh. 365. "yayi-nisbi": mənsubiyyət ifadə edən "i" (məsələn: Lənkərani, yəni Lənkəranlı, Lənkərana mənsub olan) ərəb əlifbasında "ya" (y) hərfi ilə yazılır.

Qəzetələrdən

səh. 367. "xanım Yakovlev": burada söhbət, Petroqradda Ümumrusiya Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyasında rəhbər vəzifələr tutan Varvara Yakovlevadan gedir.

səh. 368. "sipahi": İngilislərin müstəmləkə Hindistanında yerli əhalidən yığdıqları muzdlu əsgər.

"Supsa mövqifində": qəzetdə səhvən "Supa mövqifində" getmişdir.

Fəhlə Konfransı

səh. 371. "Zafatema": "Zavod, fabrik və texniki emalatxana sahibləri ittifaqı" [Союз заводчиков, фабрикантов и владельцев технических мастерских].

"Braun bəhriyyə nəqliyyatı fəhlələri ilə sazişə girmək ümidini izharla demişdir ki...": qəzetdə belə getmişdir: "Braun demişdir ki, bəhriyyə nəqliyyatı fəhlələri ilə sazişə girmək ümidini izharla demişdir ki..."

İanə

səh. 375. "...təbib Gindesin...": qəzetdə səhvən "...təbib kəndisinin..." kimi getmişdir. Halbuki burada söhbət həkim və ictimai xadim, bir müddət Azərbaycan Cümhuriyyətinin Səhiyyə naziri vəzifəsini tutan Yevsey Gindesdən gedir.



پنجشنبه ۲۰ ربیع‌الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۲۳ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۹۵

آذربایجان

ترک و اسلامعله مفید مقالهلره صحیفه لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالهلرك مکافاتی اداره تعین ایدیور.

اعلان قیمتی:
سطری ۳ روبله کرالله کیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:
باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ « ۳۲ «
۳ « ۴۵ «
غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ « ۳۵ «
۳ « ۵۰ «

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی کوچهلرك کنجنده ۴ نومرولی ایوده
«آذربایجان» اداره‌سی،
تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

گونده‌لیك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

فتنه‌لر قارشوسنده

حکومتمزك و متفقلر اوردوسی قوماندانی گنرال طومسونك تدبیرلری سایه‌سنده آذربایجانك وحشی‌لکی دیانتدیریلدی. آ. ندرانیك، «یاروا نصارا» کمکتوبلر یازوب «محاربه» یه تدبیکی اعلان ایدیور..

توپ و تفنك صولری آدلیوردی. ظن ایدیلدی که برقدر قولاغمز دینیجکدر؛ باش یتمز راحت اولاجق. فلمیزك تشویشی ساکت اولوب یوروتق عصلرمزك سزیلیسی دیانار.

لکن هیهات! بو ظنی اوآدم ایله بیلر که داشناقلرلك خلقت خصوصیه‌لرینك تحلیلاتی و طبیعت علم‌لرینك ایجابانی اولان «نش» ورماق خاصیت لریندن بی‌خبر اولا!

آذربایجانلرلك توپ و تفنك هجوملرینك آراسی یکی‌چه کیلمشدی که، بوگون اوزمزی یاشته نوع هجوملره معروض قالمش گوریرسه‌ك بویکی هجوملر افترا و بهتان هجوملاری‌در که داشناق لرلك «وبریوه» غزته‌سنك دونکی نمره‌سی باشدن آیاغه قدر بوافترا و بهتانلر ایله دولیدر.

توپ و تفنك آغزندن جیقان گوللهلر، داشناق‌لرمزلی آغزیندن جیقان سوگوش و یالان سوزلرایله عوض ایدیلیوردی.

افترا، بهتان و اساسسز اتهاملردن عبارت اولان بو سوزلر، ذاتا گنرال طومسونه قارشی بر تمایش‌در. یعنی: ای گنرال طومسون! سکه یزم آذربایجانلرمزی دایانمیرسه مجبور ایتمك، ایندی‌گور: آذربایجان مسلمانلاری بزم یاشمزه نه اویونلار آچیورلار، نه ظلم لر ایدیرلر؛ حال بوکه بونك تقصیری سنك بونیگه‌کلور، چونکه بو ایشده اهمالی ایدن و آذربایجان تورکلرینه «هجرت» ویرن سن سن!

بوگونکی نمره‌مزده ترجمه ایدیلمش اولان خوشی ارمنی قومیته‌سی نماینده‌لرینك «شکایت نامه» ملاحظه ایدیلدیکی اوزره، آذربایجان‌لیلرلك «ظلمدن» و گنرال طومسونلك «قدسز لکندن» در.

لکن، بو ظن اتمریك که بو «شکایت نامه» متفقلر قوماندانی رئیسنه ارمنی‌لرك آرزو ایتدیگی تاثیری «بخش» ایدوب «مظلوملارك» حالنه جان یاندیرتسون. طومسونلر ارمنی «شکایت‌لری» نه لودنره محاقله‌سنه دیگله‌میورلر که، اینانمامه‌جی حکملری اولسون؛ طومسونلر قاقلزده دیرلر: ایشك ایچینه‌دیرلر، کیمك کیمدن شکایت ایتمك حقی اولدیغنی گوروبرلر! گورمه‌سه ایدیلر، آذربایجانلرلك حدتی اوزنه یلدیرمزدیلر..

آذربایجانلق آذربایجان حکومتنه تابشیریلما سنی تصدیق ایتمش اولان گنرال طومسون، آذربایجان توپراغنده همان حکومتلك حکم و قانونی اجرا ایدیه‌جگنی یلمیورمی که، ارمنی‌لرك: «آذربایجان حکومتی بزی ترك سلاحه مجبور ایدیور» کیمی ناحق شکایت‌لرینه محل گذار اولسون. البته، بر دولتده که بر عنصر اغتشاش و نظامسزلغه مایل اولا، و بو میانی حصوله گتورمك تشبثنه سلاح گوجیله گیرشه بو «مخدوش» عنصرلك مصدق حکومت طرفندن تادیه و ترك سلاحه مجبور ایدیله-جکی طبیعی و قانونی بر امردر.

آذربایجان تورپاغنده پاشایان عنصرلرلك آذربایجان حکومتی تابعیاسی و تابعیاق ایسته-مه‌دگنه بو امره مجبور ایدیلمه‌سی دخی موافق قانون و عدالت بر ایشدر که داشناق لرلك: آذربایجان حکومتی بزی اطاعته مجبور ایدیور دیه بو یولده‌کی شکایت‌لرینك نه قدر بوش و اساسسز اولدیغنی اوزی اوزندن آشکار سورتده یلدیرمکده‌در.

گویا آذربایجان قوشونی و مسلح تاغلرلر سبب‌سز اولارق ارمنی گنلری اوزرینه هجوم لار ایدوب اهالینی قتل و غارت ایدیرلر دیه شکایتك دخی اطرافلی بر صورتده تحقیقه بوبوك بر احتیاجی واردر؛ بو تحقیقك نتیجه‌سی میدانه چیقانجیه قدر، همان «شکایت‌لرلك بزم گوزمزده افترا و بهتان‌دن عبارت اولاجغی» ده دلیل واساس سز دکلدر.

داشناق‌لرلك: آذربایجانلر واسطه‌سیله اوزر مزه آتیلان توپ و تفنك گوللهلرینی دفع ایتمك، بو تلرلك افترا و بهتانلرینی رد ایتمك ایشتدن چوق آسانمز؛ چونکه ارمنی‌لر، جنك آورـ لکدن آرتق بهتان و افترا قوراماق استاد. لقبله مشهوردرلر. اودرکه بوگونه «دناوس‌لر» هجومنه و افترالر «نش» نه قارشو فلمزی بر اوقدرده صیقلیاوب؛ سعدی‌نك:

«نیش عقرب نه از ره کینست
اقتضای طبیعتش اینست»

بیتی ایله مثنای اولا بیله‌ریك؛ لکن بونلره بیله اوزمزی «عقرب» لردن قورومق هر بر جهتجه بورجمزدر؛ چونکه بونلرلك «نیشی» کین یوزی ایله اولسون، یا طبیعت‌لرینك اقتضا سی اولسون — انسانك جانتی آغریدیر و اذیته سبب اولور.

حاجی‌بکلی عزیز

فتحعلی خان خویسکی
حضرتلرینه

گنجه بیسقوینك مکتوبی

عالیشان فتحعلی‌خان!

دائمی محل اقامتم اولان تفلیسه گیدرکن اورتودوقس کلیسای واونك روحانیلرینه قارشی ابراز ایتمش اولدیغگز لطف والتفاتدن ناشی سزه واشنامه دوردینگز حکومته‌عن‌صمیم‌القلب تشکرات عمیقه‌می اظهار ایتمك جسارتنده بولنیورم.

چوق تاسف ایدیورمکه مجالم اولمادیغندن سزه قارشی صمیمی احترامیمی شخصاً تقدیم ایتمك شرفندن محروم اولیورم.

الله‌تعالی‌نك حمایه‌سنه اولماغگزی استرحامله ذات عالیلر گنرك عبد مطیعی وارم دولتلو سعادتلو افندم.

گنجه بیسقوپی **فیوفیلاقت**
۲۱ (۸) یانوار ۱۹۱۹.
متی‌ایله دوزدی.

شورای وکلاده

رئیس وکلا حضرتلرینك حکومت و پارلمانه قانون لایحه‌لری ادخال ایتمك حقنده کی معروضه‌سنی دیگه‌یرك قطع ایدیلمشدر: قانون تصدیق ایدیلسین.

— معارف ناظری حضرتلرینك رئیس و وکلاده اولان میلمدن یاکو ریالنی مکتبی تعمیراته پول بورافمق حقنده کی معروضه‌سندن سکره قطع ایدیلمشدر: کوچك شورانك ۱۳ دیقیار ۱۹۱۸ تاریخی سنه قطعنامه‌سی موجبنجه برنجی ریالنی مکتبی تعمیراتی ایچون ۸۸۵۰ روبله ۳۵ قپك بورافلمش پاره رئیس و وکلاده اولان میلمدن معارف ناظرینه ویریلسون.

— تجارت و صنایع ناظری حضرتلرینك خصوصی ذوات ایله یاغلانان مقاوله‌نامه‌لرك ضرردن ناشی پوچ ایدیلمسی یارمه‌سنده کی معروضه‌سی نتیجه‌سنده قرار ویریلمشدر: تجارت و صنایع نظارته تابشریلسون خصوصی ذوات ایله عقد ایدیلن مقاوله نامه‌لرك حقیقی طرفلریه دقت ایدیلسون. طرف مقابل مقاوله‌نامه ماده لرینی یوزاجق اولیرسه رهنی خزینه نفعنه داخل اولمه‌سی قطع ایدیلمشدر. او ذوات که حقیقتا ضرر چکمشلر اولادر یارمه‌سنده خصو صی معروضه‌لر یتشهاد ایدیلمیلدر.

— مالیه ناظری حضرتلرینك باکو ایران باقی‌شادی حقنده کی معروضه‌سنی استماع ایتمیکدن سکره‌اشبو علاوه‌ایله قبول ایدیلمه‌سی تحت قراره آلنمشدر:

۱) «باشقه شهرلر» سوزیندن سکره «آذر بایجان جمهوریتی» علاوه ایدیلسون.

۲) «محلر» سوزینی «آذربایجان شهر لری» سوزیله دکیشه‌لی.

۳) «مالیه ناظری» سوزیندن سوکره «آذربایجان جمهوریتی» سوزلری علاوه ایدیلسون.

۱۰) رسمی اورغان «سوزیندن سکره «آذربایجان جمهوریتی» سوزلری علاوه ایدیلمیلدر.

۱۴) ماده (آ) «روسلر» سوزینی «آذربایجانلیلر» سوزیله دکیشه‌لی.

۱۴) ماده (ب) «بای سهم» قیمتلی کاغذه سوزلریندن سکره «آذربایجان جمهوریتنده حقیقی حساب ایدیلنلر» سوزلرینی علاوه‌ایتملی.

۱۴) ماده ق.) «بول ویرملك» سوزیندن سکره «روسیه‌ده» سوزینی «آذربایجانده» سوزی ایله دکیشه‌لی.

۱۴) ماده ق.) «بورافلا یلر» سوزلریندن سکره اشبو سوزلری «فیدیه‌تام تامیناتسز، فقط موجود اداره اعضاسنك عمومیت صداسیله» سوزلری «اداره ایله و تام تامیناتسز، فقط یونون موجود اعضاسنك عمومیت صداسی شرطلریله» علاوه ایدیلمیلدر.

۱۴) ماده ی.) «منوع دگل «روسیه‌ده» سوزینی «آذربایجان ده» سوزی ایله دکیشه‌لی.

۱۴ ماده ا) «ایمپریا» سوزینی «آذربایجان جمهوریتی» سوزیله دکیشه‌لی.

« « « «مادمه.) «بای» سهم، متقللی کاغذ لر» سوزلرندن سکره «آذربایجان جمهوریتی» علاوه ایتملی.

۳۴) ماده یوقاریدا یازیلمیش «باقی اداره‌سی» کلوده اولوب اوچ ندن آز اولماماق شرطیله تشکیل ایدیلیور. یوقاری شورا طرفندن تقدیم ایدیلن ذوات جمله‌سندن انتخاب ایدیلمیلدر. اداره اعضاسنك حسابی «نفره‌دك آرتیرلمیلر. فقط سهمدارلر اجلاسنك عمومی قطعنامه‌سی اولمایدر.

— ادیان ناظری حضرتلرینك مشیخت خدمت جیلرینك سیاهی و معاشلری حقنده کی معروضه سی نتیجه‌سنده قطع ایدیلمشدر: معروضه‌ایله معاً یتشهاد ایدیلن مشیخت خدمتجیلری سیاهی و معاشلری تصدیق ایدیلسون. لایحه‌ده گوسترلین مقداره‌ده مشیخت ایچون ۱۵ یانوار ۱۹۱۹ تاریخندن استقراض یورافیلسون.

قانون لایحه‌سی

حکومه و پارلمانه قانون لایحه‌لری ادخال ایتمك قانونی:

۱) پارلمان اجلاسلرنده یاقیلماغه تعیین ایدیلمش هیچ برقانون لایحه‌سی شورای وکلاده یتشهاد ایدیلمدن هیچ برپارلمانه ادخال ایدیلمز.

۲) یاغ علیه برناظر طرفندن ترتیب‌وبریلن قانون لایحه‌سی رئیس وکلا واسطه‌سیله شورای وکلاده یتشهاد ایدیلمیلدر. یونکله برابر ایضاحات ورقه‌سی یتشهاد ایدیلمیلدر، ایضاحات ورقه سی قانون لایحه‌سنی تولید ایتمرن اساسلری حاوی اولمالیدر.

۳) قانون لایحه‌سی آلدیقدن سکره رئیس وکلا لازمی موسه‌لره مراجعتا یو خصوصده معلومات یغمق حقنه مالکدر.

۴) رئیس وکلا اونکا یتشهاد ایتدیگی قانون لایحه‌سنی شورای وکلا اجلاسنه تقدیم ایدیور. مذاکره وقتی یتشهاد ایتمش ناظر یاخود معاون ناظر اثبات وجود ایتمیلدر.

۵) شورای وکلا قانون لایحه‌سنده دکیشه سی لازم گوریلن مادهلر ویاخود حصه‌لر یارمه‌سنده معلوماتی رئیس وکلایه تسلیم ایدیور. رئیس وکلا لازمی یرلرك دکیشه‌سی حقنده ناظره معلومات ویریور که دکیشه‌لیکدن سکره یکیدن مذاکره اولونمق اوزره ادخال ایدیلیور.

۶) هرکاه یتشهاد ایدیلمش قانون لایحه‌سنده دکیشه‌لر لازم گوریلمه‌جك اولیرسه او وقت شورای وکلاهمان قانون لایحه‌سنك حصه‌لری دکیشیور فقط اونلر پارمه‌سنده اجلاس منظماتلرینه دوغری اولارلق ثبت ایدیلیور.

۷) هرکاه یتشهاد ایدیلمش قانون لایحه‌سنی شورای وکلا پارلمانه یتشهاد ایدیلمکه لایق بیلمه اووقت همان قانون لایحه‌سی تورگروس اعضالرندن ایکی نسخه اولمق اوزره ناظره قایتاریلیور، یونکله برابر شورانك قطعنامه‌سی ده علاوه ایدیلیور.

۸) قانون لایحه‌سی ویرن ناظر بدنجی ماده موجبنجه ایکی لسانده یازیلمش قانون لایحه‌سنی تعیینی سورتده پارلمانه ادخال و تصدیقا یاخود معاونی واسطه‌سیله اوز قانون لایحه‌سنی مدافعه ایتمیلدر.

“Azərbaycan” qəzetinin 95-ci nömrəsinin 1-ci səhifəsi

Cümə axşamı, 23 yanvar 1919-cu il, nömrə 95

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 20 rəbiülaxir sənə 1337. 23 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

FİTNƏLƏR QARŞISINDA

Hökumətimizin və Müttəfiqlər ordusu komandanı general Tomsonun tədbirləri sayəsində Andranikin vəhşiliyi dayandırıldı. Andranik "yar və ənsarına" [dostlarına və tərəfdarlarına] məktublar yazıb, "müharibə" bitdiyini elan edir...

Top və tüfəng hücumları ara verdi. Zənn edilirdi ki, bir qədər qulağımız dincələr, baş-beynimiz rahat olar, qəlbimizin təşvişi sakit olub, yorunuq əsəblərimizin sızıltısı dayanar.

Lakin heyhat! Bu zənni o adam edə bilər ki, daşnakların xilqəti-xüsusiyyələrinin [özünəməxsus xilqətlərinin] təqazası [tələbi] və təbiəti-milliyyələrinin [milli təbiətlərinin] icabatı [gərəyi] olan "niş" vurmaq [sancmaq] xasiyyətlərindən bixəbər ola!

Andraniklərin top və tüfəng hücumlarının arası yenicə kəsilmişdi ki, bu gün özümüzü başqa növ hücumlara məruz qalmış görürük. Bu yeni hücumlar iftira və böhtan hücumlarıdır ki, daşnakların "Vperyod" qəzetəsinin dünənki nömrəsi başdan-ayağa qədər bu iftira və böhtanlarla doludur.

Top və tüfəng ağzından çıxan güllələr, daşnak və əmsalı ağzından çıxan söyüş və yalan sözlərlə əvəz edilibdir. İftira, böhtan və əsassız ittihamlardan ibarət olan bu sözlər, zatən general Tomsona qarşı bir nümayişdir. Yəni, ey general Tomson! Sən ki, bizim andraniklərimizi dayandırmağa məcbur etdin, indi gör Azərbaycan müsəlmanları bizim başımıza nə oyunlar açırlar, nə zülümlər edirlər. Halbuki bunun təqsiri sənin boynuna gəlir, çünki bu işdə ehmallıq edən və Azərbaycan türklərinə "cürət" verən sənsən!

Bugünkü nömrəmizdə tərcümə edilmiş olan Şuşa Erməni Komitəsi nümayəndələrinin "şikayəti", mülahizə edildiyi üzrə, azərbaycanlıların "zülmündən" və general Tomsonun "qeydsizliyindən"dir.

Lakin zənn etmirik ki, bu "şikayətnamə" Müttəfiqlər komandası rəisinə ermənilərin arzu etdiyi təsiri "bəxş" edib də "məzlumların" halına can yandırtsın. Tomsonlar erməni "şikayətlərini" Londra məhafilində [dairələrində] dinləməyirlər ki, inanmağa haqları olsun. Tomsonlar Qafqazdadırlar, işin içindədirlər. Kimin kimdən şikayət etməyə haqqı olduğunu görürlər. Görməsəydilər, andraniklərin

həddini özünə bildirməzdilər.

Azərbaycanın Azərbaycan Hökumətinə tapşırılmasını təsdiq etmiş olan general Tomson, Azərbaycan torpağında həman hökumətin hökm və qanunu icra ediləcəyini bilmirmi ki, ermənilərin “Azərbaycan Hökuməti bizi tərk-silaha məcbur edir” kimi nahaq şikayətlərinə məhəlgüzar olsun [məhəl qoysun]. Əlbəttə, bir dövlətdə ki, bir ünsür iğtişaş və nizamsızlığa mail ola və bu meylini hüsula gətirmək təşəbbüslərinə silah gücü ilə girişə, bu “məğşuş” [hərc-mərclik yaradan] ünsürün müsəddəq [rəsmi, təsdiqlənmiş] hökumət tərəfindən tə’dibə [cəzalandırılmağa] və tərk-silaha məcbur ediləcəyi təbii və qanuni bir əmrdir [işdir].

Azərbaycan torpağında yaşayan ünsürlərin Azərbaycan Hökumətini tanıması və tanımaq istəmədikdə bu əmrə məcbur edilməsi dəxi müvafiqi-qanun və ədalət bir işdir ki, daşnakların: “Azərbaycan Hökuməti bizi itaətə məcbur edir” deyə bu yoldakı şikayətlərinin nə qədər boş və əsassız olduğunu özü-özündən aşkar surətdə bildirməkdədir.

Guya Azərbaycan qoşunu və “müsəlləh [silahlı] tatarlar” səbəbsiz olaraq erməni kəndləri üzərinə hücumlar edib, əhalini qətlü qarət edirlər, deyə şikayətin dəxi ətraflı bir surətdə təhqiqə böyük bir ehtiyacı vardır. Bu təhqiqin nəticəsi meydana çıxıncaya qədər həman “şikayət”lərin bizim gözümüzdə iftira və böhtandan ibarət olacağı da dəlil və əsassız deyildir.

Daşnakların, andraniklər vasitəsilə üzərimizə atılan top və tüfəng güllələrini dəf etmək, bunların iftira və böhtanlarını rədd etmək işindən çox asandır. Çünki ermənilər, cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustadlığı ilə məşhurdular. Odur ki, bu gunə [bu cür] “danoslar” hücumuna və iftiralar “niş”inə [neştərinə, iynəsinə] qarşı qəlbimizi bir o qədər də sıxmayıb Sədinin:

“Nişi-əqrəb nə əz rə kin-əst
İqtizayi-təbiətəş in-əst”

beyti ilə mütəsəlli ola [təsəlli tapa] bilərik. Lakin bununla belə özümüzü “əqrəb”lərdən qorumaq hər bir cəhətcə borcumuzdur. Çünki bunların “nişi” kin üzü ilə olsun, ya təbiətlərinin iqtizası olsun, insanın canını ağrıdır və əziyyətinə səbəb olur.

Hacıbəyli Üzeyir

FƏTƏLİ XAN XOYSKİ HƏZRƏTLƏRİNƏ

Gəncə yepiskopunun məktubu

Alişan [şanı uca] Fətəli xan!

Daimi məhəlli-iqamətim [yaşayış yerim] olan Tiflisə gedərkən, ortodoks kilsəsi və onun ruhanilərinə qarşı ibraz etmiş olduğunuz [göstərdiyiniz] lütf və iltifatdan naşi [ötrü] sizə və başında durduğunuz hökumətə ən-səmimülqəlb [səmimi-qəlbdən] təşəkküratı-əmiqəmi [dərin təşəkkürlərimi] izhar etmək cəsarətində bulunuram. Çox təəssüf edirəm ki, macalım olmadığından sizə qarşı səmimi ehtiramımı şəxsən təqdim etmək şərəfindən məhrum oluram.

Allah-taalanın himayəsində olmağınızı istirhamla [arzu etməklə] zati-ali-

lərinizin əbdi-mütisi [itaətkar bir qulu] varam dövlətli, səadətli əfəndim.

Gəncə yepiskopu Feofilakt
21 (8) yanvar 1919.
Mətni ilə düzdür.

ŞURAYİ-VÜKƏLADA
[NAZİRLƏR KABİNETİNDƏ]

* Rəisi-vükəla [Baş nazir] həzrətlərinin hökumət və Parlamana qanun layihələri idxal etmək haqqındakı məruzəsini dinləyərək qət edilmişdir: Qanun təsdiq edilsin.

* Maarif naziri həzrətlərinin Rəisi-vükəlada olan məbləğdən Bakı Realnı məktəbi təmiratına pul buraxmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir: Kiçik Şuranın 14 dekabr 1918-inci sənə qətnaməsi mövcibincə [əsasında] Birinci Realnı məktəbi təmiratı üçün 8850 rublə 35 qəpik buraxılmış para, Rəisi-vükəlada olan məbləğdən Maarif nazirinə verilsin.

* Ticarət və Sənaye naziri həzrətlərinin xüsusi zəvat [şəxslər] ilə bağlanan müqavilənamələrin zərərdən naşi [zərər etdiyinə görə] puç edilməsi barəsindəki məruzəsi nəticəsində qərar verilmişdir: Ticarət və Sənaye Nəzarətinə tapşırılsın, xüsusi zəvatla əqd edilən [bağlanan] müqavilənamələrin həqiqi tərəflərinə diqqət edilsin. Tərəfi-müqabil müqavilənamə maddələrini pozacaq olarsa, rəhni [təminatı] xəzinə nəfinə [xeyrinə] daxil olması qət edilmişdir. O zəvat ki, həqiqətən zərər çəkmişlər, onlar barəsində xüsusi məruzələr pişnihad [təqdim] edilməlidir.

* Maliyyə naziri həzrətlərinin Bakı-İran bankı güşadı [açılması] haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra işbu əlavə ilə qəbul edilməsi təhti-qərara alınmışdır:

1. "Başqa şəhərlər" sözündən sonra "Azərbaycan Cümhuriyyəti" əlavə edilsin.

2. "Məhəllər" sözünü "Azərbaycan şəhərləri" sözləri ilə dəyişməli.

3. "Maliyyə naziri" sözündən sonra "Azərbaycan Cümhuriyyəti" sözləri əlavə edilsin.

10. "Rəsmi orqan" sözündən sonra "Azərbaycan Cümhuriyyəti" sözləri əlavə edilməlidir.

14. Maddə A. "Ruslar" sözünü "Azərbaycanlılar" kəlməsinə dəyişməli.

14. Maddə B. "Payi-səhm, qiymətli kağız" sözlərindən sonra "Azərbaycan Cümhuriyyətində həqiqi hesab edilənlər" sözlərini əlavə etməli.

14. Maddə Q. "Pul vermək" sözündən sonra "Rusiyada" sözünü "Azərbaycanda" sözü ilə dəyişməli.

14. Maddə Q. "Buraxıla bilər" sözlərindən sonra işbu sözləri "qeyddə tam təminatsız fəqət mövcud idarə əzasının [üzvlərinin] ümumiyyəti-sədası ilə" sözləri "idarə ilə və tam təminatsız fəqət bütün mövcud əzanın ümumiyyəti-sədası [yekdilliyi] şərtdir" əlavə edilməlidir.

14. Maddə Y. Məmnu [yasaq] deyil "Rusiyada" sözünü "Azərbaycanda" sözü ilə dəyişməli.

14. Maddə İ. "İmperiya" sözünü "Azərbaycan Cümhuriyyəti" sözü ilə dəyişməli.

14. Maddə M. "Pay, səhm, mənfəətli

kağızlar” sözlərindən sonra “Azərbaycan Cümhuriyyəti” əlavə etməli.

34. Maddə böylə yazmalı: “Bank idarəsi Bakıda olub üç nəfərdən az olmamaq şərti ilə təşkil edilir. Bunlar Şura tərəfindən təqdim edilən zəvat cümləsindən intixab edilməlidir [seçilməlidir]. İdarə əzasının hesabı beş nəfərədək artırıla bilər. Fəqət səhmdarlar iclasının ümumi qətnaməsi olmalıdır.”

* Ədyan [Dini etiqad] naziri həzrətlərinin Məşixət [Şeyxülislamlıq İdarəsi] xidmətçilərinin siyahısı və maaşları haqqındakı məruzəsi nəticəsində qət edilmişdir: Məruzə ilə məən [birlikdə] pişnihad [təqdim] edilən Məşixət xidmətçiləri siyahısı və maaşları təsdiq edilsin. Layihədə göstərilən miqdarda Məşixət üçün 1 yanvar 1919 sənədən istiqraz buraxılsın.

Qanun layihəsi

Hökumətə və Parlamana qanun layihələri idxal etmək qanunu:

1) Parlaman iclaslarında baxılmağa təyin edilmiş heç bir qanun layihəsi Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] pişnihad edilmədən Parlamana idxal ediləmməz.

2) Binaənileyh [ona görə] bir nazir tərəfindən tərtib verilən qanun layihəsi Rəisi-vükəla [Baş nazir] vasitəsi ilə Şurayi-Vükəlaya pişnihad edilməlidir. Bununla bərabər, izahat vərəqəsi pişnihad edilməlidir. İzahat vərəqəsi qanun layihəsini tövlid etdirən [meydana gətirən] əsasları havi olmalıdır [əhatə etməlidir].

3) Qanun layihəsini aldıqdan sonra Rəisi-vükəla lazımi müəssisələrə müraciətən, bu xüsusda məlumat yığmaq haqqına malikdir.

4) Rəisi-vükəla, ona pişnihad edilən qanun layihəsini Şurayi-vükəla iclasına təqdim edir. Müzakirə vaxtı, pişnihad etmiş nazir və yaxud müavini-nazir isbati-vücud [iştirak] etməlidir.

5) Şurayi-vükəla qanun layihəsində dəyişməsi lazım görülən maddələr və yaxud hissələr barəsində məlumatı Rəisi-vükəlaya təqdim edir. Rəisi-vükəla lazımi yerlərin dəyişməsi haqqında nazirə məlumat verir ki, dəyişildikdən sonra yenidən müzakirə üçün idxal edilsin.

6) Hərgah məzkur [deyilən] qanun layihəsində xırda dəyişmələr lazım görüləcək olarsa, o vaxt Şurayi-vükəla həman dəyişiləcək hissələri dəyişir, fəqət onlar barəsində iclas məzbətələrinə [protokollarına] doğru olaraq səbt [qeyd] edilir.

7) Hərgah pişnihad edilmiş qanun layihəsini Şurayi-vükəla Parlamana pişnihad edilməyə layiq bilsə, o vaxt həman qanun layihəsi türk və rus lisanlarında iki nüsxə olmaq üzrə nazirə qaytarılır, bununla bərabər şuranın qətnaməsi də əlavə edilir.

8) Qanun layihəsi verən nazir yeddinci maddə mövcibincə iki lisanda yazılmış qanun layihəsini təcili surətdə Parlamana idxal və şəxsən, yaxud müavini vasitəsi ilə öz qanun layihəsini müdafiə etməlidir.

9) Parlaman, qanun layihəsini təsdiq etdikdən sonra rəsmi “Azərbaycan” qəzetəsinin qismi-rəsmisində [rəsmi hissəsində] elam [elan] ediləcəkdir. Elam işbu sərlövhə ilə olunacaqdır: “Azərbaycan Hökumətinin qanun və qərardadları.”

10) İşbu məsələlərə aid bütün məsələlər əksəriyyəti-səda [səs çoxluğu] ilə qət edilir. Hərgah səslər iki bərabər yerə təqsim edilərsə [bölünərsə], sədrin səsi olan tərəf qalib gələcəkdir.

11) Bu məsələyə aid bütün işlər və habelə həmin layihənin ruscadan türkcəyə tərcüməsi, Hökumət Dəftərxanası İdarəsində Rəisi-vükəlanın təhti-nəzarətində [nəzarəti altında] qövldən feilə [sözdən işə] gətiriləcəkdir.

TELEQRAF XƏBƏRLƏRİ

Bolşeviklərlə müharibə

London - Bolşeviklər Reveli [Tallini] təhdid etdiklərindən dolayı ingilis bəhriyyəsi [donanması] oraya qayıtmışdır. Eston hökuməti İsveç hökumətinə müraciətlə desant çıxarmasını xahiş eyləmişdir. İsveç hökuməti hərçənd qeyri-müəyyən cavab vermişsə də, fəqət bu təvəqqeni qəbul etməyə maildir. Estonlar bu əqidədədirlər ki, Finlanda köməyə gələcəkdir. Fəqət Finlanda, bolşeviklər təhdidi altında olduğundan, Finlandanın kömək edəcəyi şübhəlidir.

Moskva - Türklər tərəfindən mütarikə [atəşkəs] imzalandığından 11 həftə sonra Mədinəni saxlayan türk əsakiri [əsgərləri] Şeyx Səidi-ərəbi qoşunlarına və Müttəfiqlərə təslim olmuşdurlar.

SÜLH ƏTRAFINDA

London - Puankare "Deyli xronikl" qəzetəsi müxbiri ilə müsahibə edərkən demiş ki, Vilsonun 14 maddəli sülh şəraitinin [şərtlərinin] Şurada müvəffəqiyyətlə keçəcəyinə ümidi bərkamaldır. An-caq onlar, dənizlər məsələsinə aid olan maddə ilə əllərini bağlamaq istəməyə-cəkdirlər. Puankare ümid edir ki, Klemanso ilə Lloyd Corc bir-birlərini yaxşı anladıqlarından bütün maddələr barə-sində aralarında etilaf [uzlaşma] əmələ gələr.

Konfransda mətbuat nümayəndələri

Mətbuat nümayəndələri konfrans cələsələrinə [iclaslarına] buraxılacaqdırlar. Fəqət lüzumu təqdirində konfrans cələsələri qapalı olacaq. Yəni, gizlin tutulan cələsələrə mətbuat nümayəndələri buraxılmayacaqdırlar.

Almaniya nümayəndələrinin başçısı

Berlin və Münxen qəzetələrinin xəbərlərinə nəzərən, knyaz Lixnovski Sülh Konfransında iştirak edəcək alman heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] başında duracaqdır.

Sülh Konfransının təşkilatı

Sülh Konfransının təşkilatı məsələsi haqqında xəbər verirlər ki, mənafeyi bir olan müharib [savaşan] dövlətlər, yəni Amerika, Yaponiya, İtaliya, İngiltərə və Fransa müşavirələrin həpsində iştirak edəcəklərdir. Ümumi məsələlərdən başqa, xüsusi mənafeyi və bərbad bir halda olan müharib dövlətlər, məsələn Belçika, Braziliya və sairləri kəndilərinə aid məsail [məsələlər] müzakirə olunan iclaslarda iştirak edəcəklərdir. Amma bitərəf və yeni təşkil olan dövlətlərin ərizəsinə ayrıca baxılacaqdır.

QƏZETƏLƏRDƏN

Karl Libknext

Karl Libknext, Almaniya Sosial-Demokrat firqəsinin məşhur banilərindən Vilhelm Libknextin oğludur. Mumaileyh [adı çəkilən şəxs] 1871-ci sənədə Berlində doğ[ul]muşdur. Mətbuatla iclaslarda Karl ən sol cənahı tuturmuş. 1900-cü illərin ibtidasında [başlarında] əsgəriyyət (militarizm) əleyhinə ciddi təbliğatda bulunmuşdur. 1907-ci ildə Karl, əsgəriyyət əleyhinə yazmış olduğu bir kitabçasından dolayı il yarım həbsə məhkum edilmişdi.

1908-ci ildə Karl Libknext Prussiya Landtaqına [Parlamentinə] intixab edilmişdi [seçilmişdi]. O, müxtəlif cələsələrdə hökumət əleyhinə irad etdiyi [söylədiyi] nitqlərindən ötrü daima cəzalanırdı. 1912-ci sənədə isə Potsdamdan Reyxstaqa intixab edilmişdi. 1914-cü ilin ibtidasında Libknext kayzeri təhqir etdiyindən dolayı məhkəməyə verilmişdi. Almaniya müharibə elan etdiyi hində [əsnada] Libknext Parlamanın Sosial-demokrat fraksiyasında çalışırdı ki, Sosial-demokrat fraksiyası müharibə əleyhinə bulunsun. Firqələrin əksəri bu mətləbə razı deyildilər. Lakin Libknext yeganə olaraq hərbi istiqraz əleyhində bulunmuşdur. Bu isə bütün firqələrin narazılığına səbəb olmuşdur. Libknext inadında Rusiya bolşeviklərinin başçısı olan Leninə çox bənzəyirdi.

Roza Lüksemburq

Libknextlə bərabər fəcianə [faciəvi] bir surətdə qətl edilən Roza Lüksemburq xanım lehistanlıdır [polyakdır]. Mumaileyha [adı çəkilən qadın] Berlin Darülfünununda [Universitetində] həkimlik elmini ikmala yetirmişdir [başa vurmuşdur]. Lüksemburq daima Almaniya və Rusiyanın sosial-demokrat qəzetələrində iştirak edirmiş. Özünün bir neçə məşhur əsərləri də vardır. 1905-ci ildə Rusiya inqilabının birinci dövründə Roza Rusiyaya dəxi gəlib, bir qədər Rusiyada qaldıqdan sonra Almaniyaya qayıtmışdır. Saldatları əsgərliyə getməməyə dəvət etdiyi üçün Roza bir il həbsə məhkum edilmişdi. Müharibə başlandıqdan sonra Lüksemburq, ingilis mətbuatında alman sosial-demokratlarını öz şüarlarına xilaf getmələri ilə məzəmmət edirdi. Nəhayət, Almaniyada inqilab başlanması ilə Libknext kimi Roza Lüksemburq da inqilab qurbanı olmuşlardır.

Lenin həbs edilmişdir

Kuşkada mövcud telsiz teleqraf mövqifi [stansiyası] bugünlərdə Moskvadan çəkilən bir telsiz teleqraf xəbərini tutmuşdur. Bu teleqrafdan anlaşılır ki, Şura Hökuməti hal-hazırda hər bir tərəfdən mühasirə edilmişdir və bu ağır əhvaldan dolayı Şura Hökuməti başçıları arasında böyük ixtilaf vardır.

Camaat Komissarları Şurasının [Xalq Komissarları Sovetinin] son iclaslarından birisində Lenin təklif eyləmişdir ki, özü və komissarlar əhvalın ümidsiz olduğundan dolayı iş başından çəkilib hökuməti başqalarına güzəşt etsinlər. Leninin bu təklifinə Trotski çox ağır cavab verib, Leninə demişdir ki, onun etilafçı [uzlaşmaçı] siyasəti Şura Hökumətini məhv edir. Hərgah Lenin bu siyasəti vücuda gətirərsə, Trotski öz əli ilə Leninə iki güllə

vuracaqdır. Lenin ilə Trotski arasında olan bu mübahisə barəsindəki teleqram yanvarın 10-da tutulmuşdur. Yanvarın 13-də Moskvadan bildirilir ki, Trotskinin əmri üzərinə Lenin fövqəlzikr [yuxarıda deyilən] siyasətdən dolayı həbs edilmişdir. Kopenhaqdan Məşhədə göndərilmiş olan digər bir teleqram da bu xəbəri təyid [təsdiq] edir.

ERMƏNİ FİTNƏLƏRİ

Qarabağ Erməni Milli Şurasının Bakı Erməni Milli Şurasına müraciəti

Artıq təəssüf olsun ki, Qarabağda olan ermənilərin nümayəndələri bugünədək Bakıya gəlib də öz dərdlərini söyləməyə və öz ağır hallarını bildirməyə imkan bulmamışlardır. Buna səbəb Yevlax-Şuşa yolunun, xüsusən dəmiryolların bizim üçün xətrəli [təhlükəli] olmasıdır. Digər tərəfdən, teleqraf Azərbaycan Hökuməti əlində olduğundan, özümüzün böhranlı halımız barəsində məlumat verməkdən məhrum olmuşuz. Şuşadakı ingilis heyəti indi bileyn [öz gözü ilə görüb] inanmışdır ki, əvvəlkilərdən artıq biz fəna şərait altında yaşayırız. Hər bir dəfə biz Qarabağ ermənilərinin ağır halları barəsində ingilis komandanlığına ərzihal etdikdə, onlar teleqrafla bu halları Bakıya bildirib, Şuşaya ingilis qoşunlarının göndərilməsinin lazım olduğunu bildirmişlərdir.

Bizim bu haqlı olan tələbimizə bu vaxta qədər heç bir əhəmiyyət və etina verilməmişdir. Şuşada olan ingilis komandanlığı dəfəatla [dəfələrlə] bizə "tatar" dəstələri qarşısına çıxmaq üçün gücsüz olduğunu bildirmişdi və onun kömək barəsində Bakıdan, ingilis komandanlığından etdiyi tələbi daima nəticəsiz qalmışdır.

Azərbaycan qoşunları və türk əsgərlərinin biz ermənilərə etdikləri zülüm barəsində daklad [məruzə] edən biz erməni nümayəndələri, ingilis heyətinə etdiyimiz dakladın hər bir maddəsi barəsində sübutlu materiallar vermişik. İngilis heyətinə müraciətimizlə bizim halımız yaxşılaşmaq deyil, dəxi də fənalaşdı və mümkündür ki, az bir zamanda halımız dəxi də fəcianə olsun. Türklərin hökmranlığı zamanı biz öz vətənimizi, namusumuzu və millətimizi müdafiə edirdik. İngilis heyətinin vürudundan [gəlməsindən] sonra onlara böyük ümid bağlayıb adi yaşayışa başladıq və ümid edirdik ki, ingilislər gəldikdən sonra bu qətl-qitala [qırğına] bir intəha [nəhayət] verilər. Amma indi anlayırız ki, biz öz sadədilliyimizin qurbanı olmuşuq. Bizim böylə halımıza qarşı general Tomsonun sükutu nədən nəşət edir [irəli gəlir]? Burası inkar edilməyən bir həqiqətdir ki, hər gün Qarabağ ermənilərinə düşmənlər təcavüz edirlər. Bütün yollar üzərimizə bağlıdır. Hər gün bizi hər bir tərəfdən mühasirə edirlər. General Tomson hətta öz afserlərinin [zabitlərinin] teleqramını da bietina qoyur. Bu isə dəxi də bizim ağlar halımızı və 300 min nəfərdən ibarət olan Qarabağ ermənilərinin ağır vəziyyətini fənalaşdırır. "Azərbaycan" qəzetəsində hər gün yalan teleqramlar dərc edilərək Qarabağ ermənilərinin məzalimindən [zülmündən] bəhs edirlər. Bu yalan xəbərləri təkzib etməkdən məhrum olmuşuz. Protestomuz da yerinə çatmayır.

Çünki teleqrafxanalar azərbaycanlıların əlindədir. Bizim əl-ayağımız bağlı olduğundan, ədalətli səsimizi sizə yetirməkdən məhrum olmuşuq. Heç olmazsa, siz general Tomsonu inandırınız ki, Qarabağa qoşun göndərmək fərzdir.

Bunu da məlum ediriz. Qarabağda olan ermənilərin nümayəndələri ingilis heyətinə məlum etmişlər ki, gərək Türkiyə qoşunları və gərək “tatar” dəstələri əleyhinə olan mübarizə ancaq öz qüvvəmizlə olmuşdur. Kənardan kimsə bizə kömək etməmişdir. Bütün il müddətində biz hər növ müsibət və cəfalara dözmüşük və çox fədakarlıq etmişik. İndi biz arzu edirik ki, Sülh Konfransında müqəddəratımız həll edilənədək Qarabağın ümuri-idarəsini [idarəçiliyini] ingilislər əllərinə alsınlar və təvəqqe ediriz bu məalda [məzmunda] ingilis komandanlığı qarşısında təşəbbüsatda bulunasınız. Bunu da mümkün olduqca tez ediniz. Əks surətdə qayət müdhiş müsadimə [toqquşma] törəyə biləcəkdir.

Cəbrayıl uyezdində məhəlli [yerli] Azərbaycan hökumət məmurları silahları təslim və hökuməti etiraf etmək [tanımaq] üçün bizə ultimatum vermişdir. Hərgah siz yubansanız, biz öz dərdimizi sizə və ingilislərə xəbər verməkdən və müavinət istəməkdən qəti surətdə məhrum olacağız. Çünki teleqraf, poçta və yollar Azərbaycan məmurları əlindədir. Bizlər amansız bir surətdə tələf olacağız.

Bunu da lazım bilirik sizə xəbər verək ki, yanvarın 5-indən Azərbaycan qoşunları, Qarabağda qalan türk əsgərləri və türk zabitləri başda olmaq üzrə, Ağdamda olan quldur dəstələri ərkani-hərbi [qərargahı] təşkil etmişlərdir. Buraya bir çox mühimmati-hərbiyyə [hərbi sursat], top və pulemyot gətirilməkdədir. Neçə mindən ibarət bir dəstə Zabux dərəsinə göndərilib həmin uçastoku işğal etmişdir. Digər tərəfdən, Əsgəran yolu zəbt edilib, Xankəndinə təzə dəstələr göndərilmişdir. Bunlar hamısı aşkar surətdə göstərir ki, Azərbaycan məmurları tədriclə bizi cəbhədən və arxadan mühasirəyə salırlar. Bunların hamısı keçəndən sonra gözləməlidir ki, günlərin bir günündə onlar bizə ultimatum verib təslim olmağımızı tələb etsinlər.

İngiltərə heyətinin hər bir təklifinə dürüst əməl edib, biz başlanmış olan hərəkatın qabağını almaq üçün heç bir tədbir görməyirik. Bununla da biz öz ehtiyacımız üçün təhlükə vücuda gətirib, təbiri-digərlə [başqa sözlə] bütün Qarabağ ermənilərinə biz özümüz qəbir qazırıq. Bu dediklərimiz boş söhbət olmayıb acı bir həqiqətdir ki, sizin diqqətinizi buraya cəlb edirik.

Qoy sizə məlum olsun ki, il yarımdır bizim əlaqəmiz bütün dünya ilə kəsilmişdir. Camaatımız, xüsusən kənd əhalisi maddi cəhətdən xeyli üsrət [çətinlik] çəkməkdədir. Kəndlilər öz həyatlarını təmin etməkdən ötrü bütün ev şeylərini, palaz-paltarlarına qədər bazara çıxardıb satmışlardır. Maddi cəhətdən üsrət çəkməkdə olan əhalinin təmin edilməsi məsələsi də lazımi məsələlərdən biridir. Özümüzü idarə etməkdən ötrü xüsusən bütün mənası ilə aclıq çəkən əhalini doyurmaq üçün böyük bir məbləğ lazımdır.

Sədr İşxanyan.
Şura üzvləri:
Şahnazaryans və Astvaturov.
Katib Ter-Mikaelyans.

Yanvarın 12-də yazılmış olan Qarabağ Erməni Milli Şurasının məruzəsinə əlavə olaraq, şura Şuşa şəhərində olan İngiltərə heyətinə xəbər verir ki, Əsgəran cəbhəsində Azərbaycan əsgərləri 16 dəyirmanı dağıdıb, taxılları zəbt etməklə erməni əhalisini taxıl üyütmək imkanından məhrum etmişlərdir. Azərbaycan əsgərləri Əsgəran dairəsində olan kəndlərin yeməli şeylərini və qaramalını çıxarıb aparmaqdadırlar. Bir neçə birlikdən ibarət Azərbaycan və türk əsgərləri, türk zabitləri başda olmaq üzrə Zabux dərəsini işğal edib, Cəbrayıl (Qaryagin) uyezdində olan erməni kəndlərinə hücum etməyə başlamışlardır. Məhəlli Azərbaycan Hökuməti məmurları Cəbrayıl uyezdində olan erməni əhalisinə ultimatum verib, silahları təslim etməyi və tabe olmağı tələb etmişlərdir. Az bir miqdarda olan Azərbaycan əsgərləri Xankəndi ilə Əsgəran arasında olan Şuşa yolu boyunda əməliyyatdadırlar. Bu qərar üzrə Qarabağın ermənilərlə məskun hissəsi mühasirə halındadır. Heç bir tərəfdən düşmənanə hərəkət olmaması üçün Bakıda olan Müttəfiq qoşunları Baş komandanı general Tomsonun teleqrafla verdiyi əmrə və Şuşa şəhərində olan İngiltərə heyətinin elanına görə erməni əhalisi bu əmrlərə tabe olub, bu tövr başsızlıqların qabağı alınması üçün Müttəfiq komandanlığı tərəfindən tezliklə binagüzarlıq [sərəncam] veriləcəyini səbrsiz bir halda gözləməkdədir.

Şura üzvləri:
İşxanyan, Şahnazaryan, Şahnəzərov,
Ter-Astvatsaturov, Ter-Mikaelov.

ŞƏHƏR DUMASI ƏTRAFINDA

1919 səneyi-miladiyyəsi, yanvarın əvvəlində Bakı Bələdiyyə Məclisi vəkillərinin (qlasnıların) vəkaləti qurtarmışdır. Qanuna görə bugündən etibarən Bələdiyyə Məclisi təzələnməli idi. Fəqət bu vaxtadək təzələnməmişdir və yeni qlasnı seçkiləri uğrunda hələ bir tədbir görülməmişdir. Səbəbi də budur ki, seçki hazırlıqlarına şüru etmək [başlamaq] üçün müəyyən bir qanun lazımdır. Bakı Bələdiyyə Məclisi hangi qanun üzərinə yeni seçki hazırlasın?

Bu vaxtadək Bələdiyyə Məclisi haqqında olan sabiq rus hökuməti qanunları yaramaz, bundan sonra bələdiyyəyə dair qanunlar təbiidir ki, Azərbaycan dövlətinin qərar qoyduğu qanunlar olacaqdır. Odur ki, 13 kanuni-sani [yanvar] tarixli iclasında Bələdiyyə Məclisi dəxi Azərbaycan Hökumətinin qanun verməsini gözləməyi təhti-qərara almışdır. Fəqət bu əhval və Bələdiyyə Məclisinin bu qərardadı müxalif firqələrin xoşuna getməmişdir. Onlar öz qəzetələri vasitəsilə Bələdiyyə Məclisinə hücumlar edir, bələdiyyə vəkilləri başına od yağdırır, şimşək calayırlar. Tələb edirlər ki, bələdiyyə vəkilləri bu saat çıxsınlar, yerlərini kimə isə güzəşt etsinlər.

Nə üçün çıxsınlar? Yerlərini kimə güzəşt etsinlər? O qəzetəçilər deyirlər: Bunlar çıxsınlar çünki "türk süngüsü" zoru ilə təyin edilibdirlər. Yəni onları türklər çağırmışlardır. Yerlərini də "demokratik vəkillərə", yəni 1918-ci il əvaxirində [axırlarında] seçilmiş olan vəkillərə güzəşt qılsınlar. Çünki camaat nümayəndəsi ancaq bunlardır.

İştə, bu iki məsələdən bir qədər bəhs etmək istəriz. Ancaq qabaqca bitərəfanə yazdığımı isbat üçün ərz etməliyəm ki, bu sətirləri yazan özü də 12-ci siyahı ilə seçilmiş bələdiyyə vəkillərindən olub, bu vaxtadək də Dumada işləməyə bütün arzusuna rəğmən müvəffəq olmamışdır. Amma bununla bərabər, məsələyə bitərəfanə baxmağı daha faydalı görürəm. Söz burasındadır ki, bolşevik-daşnak-sentrokaspi-menşevik hökumətlərinin altı aylıq keyfəmayeşasından [özbaşınalığından] sonra paytaxtımız nəhayət həqiqi sahibinə vüsul olub [qovuşub], Azərbaycan Hökuməti əlinə keçdikdən sonra şəhərdə bu ya o surətlə qanuni xalq nümayəndələrini təcdid [bərpa] və şəhər ehtiyaclarının ödənməsinə şüru etmək [başlamaq] lazım gəlirdi. Əzcümlə [o cümlədən], Bələdiyyə Məclisinin fəaliyyətini təzələməli idi. Şüru edildi, bələdiyyə vəkilləri fəaliyyətə çağırıldı, fəqət lazım olan miqdarda “demokratiya nümayəndəsi” tapılmadı. Çünki bunlardan bir qismi (müsəlmanlar), bolşevik-daşnak hökmranlığının öldürücü dalğaları tərəfindən İran, Türküstan və Qafqaziyanın uzaq guşələrinə atılmış və hələ şəhərə qayıtmaq imkanı bulmamışlardı. Bir qismi də Bakı da Azərbaycan əlinə keçəndə elə bilmişdi ki, Azərbaycan Hökuməti də özləri kimi təhəmmülsüzlük [dözümsüzlük] ibraz edəcək, hamını özünə düşmən hesab edərək öldürəcəkdir. Ona görədir ki, şəhərin süqutu ilə çıxıb qaçmış və guya “təmsil” etdiyi demokratiyanı başına buraxıb, demokratiyanın tapşırmış olduğu vəzifə və hüququ öylə asanlıqla buraxmışdır.

Digər bir qismi də müsəlman hökuməti olan yerdə qalmağı öz şanına kəsir bilib getmişdi. Ona görədir ki, Bələdiyyə Məclisinin fəaliyyəti təcdid edilmək istənildikdə, “demokratiya nümayəndələri” tapılmamışlardı. Bunlar gələnədək də gözləmək, bələdiyyə işlərini onların keyfinə fəda etmək olmazdı. Digər tərəfdən, əlbəttə, o halda yeni seçki icrası da mümkün deyildi. Bundan dolayıdır ki, Bələdiyyə Məclisi təzədən açıldıqda heyətin təkmilinə lüzum görülərək, kooptasiya əsası ilə təkmil edilmişdi. Həman bu kooptasiya əsası ilə Bələdiyyə Məclisinə daxil olanlardır ki, bu gün bəzi qəzetələr tərəfindən üstlərinə türk “istavlenniki” [əlaltısı] adı qonularaq Dumadan çıxmaları tələb olunur. (Məxfi qalmasın ki, bunların həpsi müsəlman deyil.)

Bələdiyyə vəkillərinin müddəti-vəkaləti [vəkillik müddəti] bitmişdir. Bunu hamı etiraf edir. Bələdiyyə Məclisinə yeni vəkillər seçmək lazımdır. Bunu hamı qəbul edir. Bu məsələlərdə sağ, sol, demokrat və qeyri-demokratlıq ola bilməz.

Sairləri ilə bərabər Bələdiyyə Məclisinə yeni vəkillər seçkisini biz də tələb ediriz. İstəyiriz ki, Azərbaycanın qüvveyi-təşriiyyəsi [qanunverici hakimiyyəti] olan Parlamanımız təxir gözləməyən bələdiyyə qanununu verməyə bir an əvvəl təşəbbüs etsin. Tainki ən yaxın zamanda demokratik əsaslar üzərinə bələdiyyə vəkilləri seçkisinə şüru edilsin.

Əsas nöqteyi-nəzərimiz böylədir. Fəqət bəzi qəzetələrin bu məsələdə tutduğu mövqe, xüsusən “İskra” qəzetəsinin və onun baş mühərriri olan tovariş Roxlinin vəziyyəti-hərbcuyanəsi

[davakar mövqeyi] bizi heyrətdə buraxır. Bələdiyyə Məclisi məsələsində ən şiddətli lisanla "rəcəz" oxuyan Roxlin məsələyə iki tərəfdən yaxlaşır:

1) Bələdiyyə Məclisinin heyəti-şəxsiyyəsi [şəxsi heyəti];

2) Bələdiyyə Məclisinin hüququ.

Və məsələnin hər ikisində qəribə bir vəziyyət alır.

Qəribədir, çünki 1918-ci il Bələdiyyə Məclisini hamı demokratik adlandırsa da, tovariş Roxlin gərək demokratik adlandırmasın. Zira həman Roxlin idi ki, mərkəzi seçki komitəsində seçkilər haqqında məruzə verərkən dedi: *"Hərçənd, seçki ələlümum kafi nəticə vermişdir. Fəqət mən deməliyəm ki, intixabat [seçkilər] vaxtı çox saxtakarlıqlar olmuşdur. Həm də müxtəlif firqələr və təşkilat tərəfindən."* (Saxtakarlıq sənədlərini də təqdim etmişdi.) Bundan əlavə: *"Bir çox qanundan xaric olaraq seçilmiş adamları bizə güclə qəbul etdirirlər. Ümumiyyətlə, mənim rəyim böylədir ki, demokratik seçkilər demokratizmə müğayir [zidd] nəticələr verdi."* - sözlərini deyən yenə həman tovariş Roxlin özü idi.

Mərkəzi seçki komitəsinin bir üzvü olmaq üzrə məzkur [adı çəkilən] komitənin son iclasında seçki nəticələri haqqında verdiyi məruzəsində komitənin baş katibi tovariş Roxlinin dediyi bu sözləri, əgər unutmuşsa, yadına salmaq istərəm. Yəqin unutmamışdır da. Bu sözləri Roxlin nə üçün deyirdi? Çünki seçki zamanı bir çox firqələr tərəfindən çox saxtakarlıqlar edildiyi anlaşılmışdı. Hətta, o vaxt seçkini qeyri-qanuni hesab edərək Qafqaziya Komissarlığına şikayət vermək istənilirdi. Ancaq işi uzatmamaq və hər necə olsa da seçilmiş bir Duma yaratmaq istənildiyi üçün seçki qəbul olundu. Bu bir.

Digər tərəfdən təhriri-nüfus [əhalinin sayımı] vaxtı müsəlmanların yarısı bağlarda, yaylaqlarda olaraq siyahıya düşməmiş və qayıtdıqdan sonra da bütün təşəbbüslərinə rəğmən siyahıya daxil edilməmiş. (Hətta, mən özüm kəndi ailəmizdən, 6 adamdan ancaq birinin siyahıya düşdüyünü bildirərək, yerdə qalanlarının da yazılmasına nə qədər çalışdımsa "gecdir" dedilər.)

Minlərcə müsəlman səs haqqından məhrum edilmiş olduğu halda, cəbhədən gəlmiş neçə min əsgər qanundan kənar olaraq özbaşlarına qlasnılar seçdilər və mərkəzi komitənin son iclaslarından birisində Şaumyan bir dəstə əsgərlə iclasa gələrək saldat yaşiklərinin [qutularının] də açılmasını, müntəxəblərin [seçilmişlərin] bələdiyyə vəkilləri zümrəsinə daxil edilməsini tələb eylədi. Hətta, bir balaca hədələmək də oldu. O vaxt komitə əzası saldat gücü ilə tələb olunan bu məsələdə bir qədər tərəddüd göstərdikdə, daha doğrusu açıqdan-açığa rəy verməyə qorxduqda, yenə həman Roxlin idi ki: *"Yoldaşlar, mərd olun, açıq söyləyin. Böylə haqsızlıq və ədalətsizliyə biz razı ola bilərmiyiz?"* - deyə xalqı məzəmmət edirdi.

İndi nə olmuş ki, o saxtakarlıqlar, o demokratizmə müğayir [zidd] nəticələr və ədalətsizliklər bu gün unudulmuş, həpsi demokratizm olmuşdur? Əgər Bələdiyyə Məclisində indi oturanların bəziləri sağ "istavlenniklər" isə "İskra" müdirinə yaxşı məlumdur ki, keçən ilki heyət də sol "istavlennik" idi. Əgər

bugünkü heyət qismən qeyri-qanuni olaraq otururdu, Roxlinin görmək istədiyi demokratik heyət tamamilə qeyri-qanuni olaraq otururdu. Birincilər ümum müəssisələrdə qanuni bir tədbir kimi işlənən kooptasiya əsası ilə gəlmişsələr, ikincilər Roxlinin özü şahid olduğu “falş” və “paddelka” [saxtakarlıq] ilə keçmişlərdir.

Bu gün məsələyə demokratik nöqteyi-nəzərdən baxsaq, Bakı Bələdiyyə Məclisinin ömründə demokratik bir heyət görməmiş olduğunu hamı etiraf edər. Duma həman əski Duma idi. Yalnız bələdiyyə vəkilləri adi “qospoda” əvəzinə “tovariş” kəlməsi qullanmaqla kəndilərini demokrat görürlərdi.

Digər tərəfdən, məsələyə qanun nöqteyi-nəzərindən baxılsa, məncə o qədər saxtakarlıq və saldat gücündən sonra, indiki heyətin qalması sabiqkindən daha qanuni olsun gərək.

Roxlin Bələdiyyə Məclisinin hüququ məsələsində daha qəribə bir vəziyyət alır. *“Məhəllərdə [yerlərdə] bütün hökumət ümur [işləri] və ixtiyarları bələdiyyə məclisinə verilməlidir”* - deyir. Bu mühərririn və ruhlandırdığı qəzetənin istədiyi bu imiş ki, bir il əvvəl hamıdan ziyadə özü protesto etdiyi saxtalığını özü təsdiq etdiyi bir neçə adam Duma adı ilə gəlib hökumət olsun, “peredovaya demokratiya” [qabaqcıl demokratiya] təzədən Azərbaycan üzərinə hökmran kəsilsin və Mart hadisəsi olmasa da martdan sentyabradək davam edən “demokratizm” təzələnsin.

İştə Bələdiyyə Məclisi məsələsində “İskra” və kompaniyasının aldığı münqəlib [qılıq dəyişdirmiş] bir vəziyyət və demokratizm maskası altında mənsəb axtaranların xam xəyalı.

Biz isə Azərbaycan Hökumət və Parlamanından yeni bələdiyyə qanunu və Bələdiyyə Məclisindən yeni intixab [seçki] gözləyiriz.

Xəlil İbrahim

ZAMAN NƏYİ İCAB [LABÜD] EDİR?

Bir kərə gözümüzü açıb da dünyaya nəzər edəlim. Nəzərimizə çarpan bir çox bədaye və asarın [gözəlliklərin və əsərlərin] həpsi sarsılmaz bir səbatla, çalışmaqla vücuda gəlib son dərəcə fədakarlıqla hüsulpəzir olmuşdur [əmələ gəlmişdir].

İctimai bir iş görülmək istənildiyi vaxt, yalnız nəqliyyatla [nağılçılıqla] uğraşılıb da qəvi [güclü] və mətin bir əzmlə çalışılmazsa, o işin hüsulunun qeyri-mümkün olduğunu bəyan etməyə əlbəttə hacət yoxdur.

Biz Qafqaziya türkləri ta əskidən bəri şani-milli, şərəfi-dini və hakimiyyət zövqlərini dadmaq və düşünmək istəməyərək, xəyal və övhamatla [vəhmlərlə] yaşamışız.

Gördüyümüz işlərdə mövcudiyyətimizi izhar edərək millətimiz üçün qibtə olunacaq bir ləyaqət istehsal edəcəyimiz yerdə, daima miskin və məfkurəsiz yaşayaraq, bunun üçün də səadət və mövcudiyyəti-milliyyədən məhrum olub, ictimai bir fayda, gözəl bir nəticə əldə edəmməmişizdir.

Yaşadığımız iyirminci əsrin icabatına [ehtiyaclarına] baxaraq söylənilərsə, bun-

dan sonra mühitin və zamanın icabatını ifa etmək istəməyərək, hissi-millidən məhrumiyyət və dünyanı anlamamazlıqla iştiğalda [məşğul olmaqda] davam edərsək, bu halın bizi zərərdən zərərə soxacağı və istiqbalımıza [gələcəyimizə] qayət böyük bir cərihə [yara] açacağı acı bir həqiqət kimi nəzərə çarpır.

Hal-hazırda mənfəət üçün acizlərin, zəiflərin və qəflət dəryasına dalıb da cəhalət səhrası içində yaşayanların haqqında zülüm və zillətin yapıldığı və yapılacağı aşkardır. İçində bulunduğumuz və xitama yetmək üzrə bulunan Cahan müharibəsi, yaxıcı şərarələrinin [qığılcımlarının] işığı ilə bizə bu həqiqəti apaçıq bildirdi.

Bildirdi ki, dünyada mövcudiyyətlərini izhar etmək uğrunda ciddiyyəti-fövqəladə ilə [böyük bir ciddiyyətlə] fədakarlıqda bulunmayanlar, daima özgələrinin, zalımların boyunduruğu altında əzilərək məhkumi-zəval [yox olmağa məhkum] olacaqlardır. Bildirdi ki, icabat və təqazayi-dövran ilə [dövrün ehtiyac və tələbləri ilə] hərəkət edərək istiqbal üçün hallaşmayan millətlər, müqəddərati-milliyyələrini həll etmək şərəfindən məhrum olaraq mövcudiyyətlərini ifna [yox] edəcəklərdir.

Əcəba əskidə bulunan müqəddəratımızı əlimizə almaq və biz də artıq yaşamağa istehqaqımız [haqqımız] var deyəcək bir hazırlığımız varmıdır ki, böylə heyran-heyran baxıb dururuz? Milli qayə və məfkurəmizi başqalarının əlinə tapşırıb da təvəkkül ilə kənardan seyr edərsək, məmul etdiyimiz [qazandığımız] mənafeyi-ictimaiyyə və milliyyəmiz, nəticə etibarı ilə "sıfır" olacaqdır.

Hal-hazırda məfkurəmizin hüsula gəlməsi üçün artıq iyirminci əsrin oğlu olmaq icab edir.

Bu gün sevinə-sevinə bayrağını ucaltdığımız Azərbaycanın milli bayrağının əbədi olaraq cövvi-havada [səmada] cövlan etməsi üçün hər azəri türkünün fərdi, mövcudiyyətindən vaz keçəcək bir surətdə çalışmalıdır. Türklərin məşahiri-şüarasından [məşhur şairlərindən] olan Ziya paşa həzrətləri nə deyir:

Hər dərdin olar çarəsi, hər inləyən ölməz,
Hər möhnətə bir axır olar, hər qəmə payan.

Əvət, dərdimiz söylənir, fəqət çarəsinə baxmaq üçün heç bir təşəbbüs yoxdur. Əgər sarsılmaz bir mətanət, fövqəladə bir üxuvvət [qardaşlıq] ilə "mənəmliyi" və əğraz və mənafeyi-şəxsiyyəni [şəxsi qərəz və mənafeləri] tərk edərək əl-ələ verib milli məfkurəmizin hüsula gəlməsi üçün çalışmazsaq, istiqbalda vətənimizin ayaqlar altına alınaraq şunun-bunun cövlangahı olacağından qorxular. Əgər bu gün də əlimizə düşən fürsəti fövt [puç] edərsək, artıq ilayövmülqiyam [qiyamət gününə qədər] dirilməyəcəyimiz, gündən aşkardır.

Bu gün hökumətimizin rüknünü [əsasını] təşkil edən heyət və möhtərəm Parlament əzaları [üzvləri] bir gəmiçiyə, bir kapitana bənzəyirlər. Əgər millət bu kapitanlara icab edən müavinət və fədakarlığı yapmazsa, əlbəttə onlar da müqəddərati-milliyyə gəmisini böylə dərin, dalğalı, tufanlı girdabdan sahilinicata [xilas sahilinə] çıxarammazlar.

Millətimizin hər bir fərdi əl-ələ verərək müştərək və ümumi bir məfkurənin

hüsula gəlməsi və bu səbəblə səadətimilliyyəmizin təmin olunması üçün bir ciddiyyəti-xariqüladə ilə çalışaraq cahana elam etməliyiz [bildirməliyik] ki, əvət biz də bəni-bəşər [insan oğlu] olduğumuzdan, məhkumiyyət altında qalmağı istəməyiriz. Bunun üçün lazım gələn qüvvəni tədarük etmək ən birinci borcumuzdur.

Sevgili şairimiz Cavid əfəndinin buyurduğu kimi:

İnanma aciz üçün yox hüquq, inanma, xayır!
Cahanda həq də, həqiqət də, həpsi “qüvvət”dir!

Ağakişizadə Əbdürrəhim

BAKI XƏBƏRLƏRİ

Çay oğurlanmaq barəsində təzə əhvalat

Necə ki məlumdur, bir neçə həftə bundan qabaq Bələdiyyə İdarəsi Ərzaq şöbəsi Ərzaq Nəzarətinin ixtiyarına keçmədən bir neçə gün irəli şöbənin çay skladının müdiri polisəyə xəbər vermiş idi ki, gecə oğrular gəlib skladı yararaq altı yüz min manatlıq çay oğurlamışlar. Bu iş polis tərəfindən təftiş olunub, nəticədə təhərri [axtarış] polisi tərəfindən həman skladın bir neçə nəfər qulluqçuları həbsə alınıb və evləri axtarıldıqda birisinin evindən beş put həman oğurlanmış çaydan tapılmış idi.

Bir az sonra bəzi dairələrdə böylə danışıq qalxdı ki, guya təhərri polisəsi əfradı [nəfərləri] həmin oğurlanmış çayın 40 putunu Nikolayevski küçədə bir tacirin mağazasında tutub, sonra Ərzaq Nəzarətinə xəbər vermədən buraxmışlar. Bu iş barəsində təftişat yapıldıqdan sonra məlum olmuş ki, həqiqətən də 40 puta kimi çay tutulub. Çay sahibi məlumat vermiş ki, bu çay Batumdan gələn çaydır və təhərri polisi həman tacirin sözünə inanıb, çayı zəbt etməmişdir.

Hal-hazırda təhərri polisəsinin naçalnikliyinə təyin edilmiş Fətəlibəyov cənabları bu çay fəqərəsinə [hadisəsinə] fikir verib yəqin etmiş ki, bu işdə polis qulluqçuları xəyanət etmişlər. Buna görə də şəxsən bu iş barəsində olan bütün kağızları alıb yenidən təftişat başlamışdır.

Naçalnik cənablarının sözündən anlaşılır ki, həman tacirdə tutulmuş 40 put çay da həmin oğurlanmış çaydan imiş. Lakin necə olubsa polis agentləri səhlənkarlıq etmişlərdir.

* Bir çox varislər Bələdiyyə İdarəsinə müraciətən [müraciət edərək] qulluqdan əzl edilmiş [qovulmuş] adamları üçün maaş istəmişlərdir. Bələdiyyə İdarəsi qət etmişdir ki, böylə maaş fəqət qanuni varislər və yaxud varisliyi məhkəmə vasitəsi ilə isbat edilmiş əşxasa [şəxslərə] verilsin.

* Bir çoxları Bələdiyyə İdarəsinə müraciətən şəhər kənarındakı lazımsız quyuların doldurulmasını rica etmişlərdir. Zira bunlar əhali üçün xətrəlidirlər [təhlükəlidir].

Müsəlman mətbəə əmələlərinin yığıncağı

Bu gün yanvar ayının 23-ü, axşam saat 4 tamamda “Azərbaycan” qəzetəsi

idarəsində müsəlman mətbəə əmələlərinin [işçilərinin] ikinci ümumi iclası olacaqdır. Müzakirə ediləcək məsələlər:

1) Birinci iclasda müntəxəb [seçilmiş] komisyonun məruzəsi.

2) Fəhlə konfransına nümayəndə intixab etmək [seçmək] və Soyuza [İttifaqa] nümayəndə göndərmək məsələləri.

3) Məclisdə qalxacaq cari məsələlər.

Ümum müsəlman mətbəə əmələlərinin vaxtında iclasda hazır olmaları mətlubdur [tələb olunur].

Heyəti-mütəşəbbisə
[Təşəbbüs heyəti]

Pulsuz müalicə

4-cü uçastok ev komitəsi bununla özünə tabe ev komitələrinə elan edir ki, yanvar ayının 21-dən komitənin idarəsində əhaliyə məccani [pulsuz] olaraq baxmaqdan ötrü bir təbib və bir feldşer səhər saat 9-dan axşam saat 9-dək növbətdə dururlar. Uçastok komitəsi, ev komitələrinə təklif edir ki, hər kəsin rayonunda şübhəli naxoş olsa, idarəyə məlum etsinlər və axşamlar saat 4-dən 6-ya qədər 50-50 nömrəli telefonla təbibi evlərinə dəvət edə bilərlər.

Mərkəzi Komitənin iclası

Yanvarın 24-də, cümə günü saat 11-də Qafqaziya Müsəlman Mütəəllimlərinin [tələbələrinin] Mərkəzi Komitəsinin iclası Əli Yusifin evində (Persidski caddə 121) vüqu bulacaqdır.

* Yanvarın 23-də pəncşənbə [cümə axşamı] günü saat 5-də Birinci Realnı məktəbinin Bakı Birinci zükur [oğlanlar] gimnaziyasının müsəlman mütəəllimlərinin iclası vüqu bulacaqdır. Həp arxadaşların gəlməsi rica olunur.

FƏHLƏ KONFRANSI

22 yanvar 1919 sənə.

372 nəfər qəti səsə malik əza [üzv] iştirak edir.

Ruznameyi-müzakirat [müzakirə gündəliyi]:

1. Müştərək müqavilənamə.
2. Bələdiyyə Məclisi məsələsi.
3. Fəhlə nümayəndələri şurası.
4. Həbs edilən fəhlələr barəsində.

Ruznameyi-müzakirat dəyişərək, birinci növbəyə məhbus fəhlələr məsələsi keçirilərək aşağıdakı qərarnamə qəbul olunur:

Fəhlə konfransı həbs edilən yoldaşların tutulmasını protesto və bunların buraxılması barəsində təcili təşəbbüsatda bulunmağı təklif edir.

Sonra müştərək müqavilənamə məsələsinə keçərək, uzun-uzadı mübahisədə bir çox natiqlər fəhlələrin fəna halını təsvir edərək, məsələnin bir an əvvəl həllinə çalışmağı tövsiyə edirlər. Nəhayət dörd təklif varid [daxil] olur. Bunlardan əksəriyyəti-ara [səs çoxluğu] ilə zeyldəki [aşağıdakı] təklif qəbul olunur:

Fəhlə konfransının intixab etdiyi [seçdiyi] komisyon tərəfindən mədənçilər[ə] təklif edilən maaş (məvacib) rəqəmlərinin nə olur-olsun qəbulu barəsində israr edilsin. Bu xüsusda fəhlə konfransının gələn iclasınadək (bazar gününədək) mədənçilərlə müzakirata davam edilsin. Əgər bazar gününədək

müzakirat lazım gələn nəticəni verməsə, bazar günkü konfrans iclasında növbətə ümumi tətil məsələsi qonulsun.

Bədəhu [sonra] Parlaman əzasından Qarayev, Tağıyev fabrikası əmələsindən [işçilərindən] olub da konfransa gələn 30 fəhlənin müsəlman olan 10 nəfərinin xidmətindən çıxarılmasını, bu xüsusda Məsai [Əmək] nazirinə xitabən sorğu verilib cavabında onların geri qəbulu haqqında tədbir görüldüyünü öyrənmiş və buna baxmayaraq fəhlələr geri qəbul edilməmiş olduqlarını, bundan sonra Rəisi-vükəla [Baş nazir] həzrətlərinə müraciət edildikdə Tağıyevin qəbul etmək istəmədiyini bildirdiyini bəyan edir. Bu bəyanat nəticəsində konfrans böylə qərar alır: Müsəlman fəhlələrinin Tağıyev fabrikasından qovulmalarını protesto etməklə bərabər, Fəhlə Konfransı Azərbaycan Hökuməti ilə Tağıyevə təklif edir ki, bunların geri qəbulu haqqında təcili binagüzarlıq etsinlər [tədbirlər görsünlər]. Bikar [işsiz] qaldıqları günlərin maaşı verilsin. Əks surətdə bazar günü konfrans bu barədə şiddətli tədbirlər görəcəkdir.

AZƏRBAYCANDA

Qalabazar

(Lənkəran uyezdi)

Ərkivan mahalının komissarı Neparidze gürcü olduğuna binaən [görə] xaxollar və malakanlar onu müsəlman tərəfdarı hesab edib, müttəhim etmişlərdir. Dekabr ayının 20-sində gecə zamanı 10 nəfər saldat, zabit ilə Qalabazarına gəlib, komissarı orada görməyib Ərkivan kəndinə gedirlər. Komissar Neparidze, ərkivanlı Qulaməli Qədir oğlunun evində imiş. Orada Qulaməlinin oğlunun toy ziyafətinə dəvət olunmuş imiş. Komissar olduğu evi saldatlar gəlib əhatə edib tüfəng atmağa başlamışlar. Gecənin qaranlıq zamanında tüfəng səsini eşidən camaat, arvad-uşaq və kişilər vahiməyə düşüb, hamıları kənddən qaçıb səhralarda və xəndəklərdə gecəni səhər etmişlər. Komissar Neparidze bir tövrlə onlardan xilas olub Lənkərana qaçmış.

Lənkəran mahalında saldatlar tərəfindən zülüm və sitəm davam edilməkdədir.

Teymur bəy Bayraməlibəyli

GÜRCÜSTANDA

Batumda

Tiflisdə nəşr olunan gürcü qəzetələri Batum əhvalını böylə yazırlar:

Batum şəhərini və Batum oblastını 9 nəfərdən ibarət bir şura idarə etməkdədir. Həmin şura sədri, Batum əhalisinə məlum, dava [məhkəmə] vəkili Maslovdur. Məsləkcə bu şəxs sağ kadetlərdən olub, general Denikinin irticapərəstanə fikirinə şərikdir. Vaxtilə məzkur [adı çəkilən] Maslov, saxtakarlığına görə dava vəkilləri cərgəsindən kənar edilmişdi.

Bu şurada rusların iki nümayəndəsi vardır. Ümumiyyətlə, şura heyəti irticapərəstlərdən ibarətdir.

Batumda olan rus xalqı şurası ciddi fəaliyyətdə bulunub, Gürcüstanı dübarə geri almaqdan ötrü Batum şəhərini özlərinə bir üssülhərəkə [baza] qərar

vermək niyyətindədirlər. Bu məqsədlə də məzkur [adı çəkilən] şura, hamı müəssisələrdə öz nüfuzunu möhkəmləşdirməyə və Gürcüstanın hökumət müəssisələri milliləşdikdən sonra Gürcüstandan çıxıb gəlmiş olan rus qulluqçularını Batum müəssisələrində yerləşdirməyə çalışır. Hərçənd, şura əvvəlki qulluqçuları öz qulluqlarına qəbul etmək üçün müəyyən bir qətnamə çıxarmışdır, lakin yenə də rus qulluqçularına tərcih verilməkdədir.

Gürcü müsəlmanlarının maarif komitəsi tədriclə Batum oblastında müsəlman əhalisinin hüsn-təvəccöhünü qazanmaqdadır. Kobuletidə və Acarıstanın başqa yerlərində məzkur komitənin təşəbbüsatı ilə mitinqlər olmuşdur. Batum şəhərində də Bələdiyyə İdarəsi binasında izdihamlı mitinq qurulmuşdur. Hamı mitinqlərdə Batum şurasının fəaliyyəti əleyhinə protesto qətnamələri çıxarılıb, maarif komitəsinə hüsn-rəğbət izhar edilmişdir. Həmin komitə tərəfindən Batumda gürcü və türk dillərində "Musulmanskaya Qruziya" [Müsəlman Gürcüstanı] adında bir qəzetə nəşr edilir. Batumda olan gürcülər məhəlli [yerli] Gürcü Milli Şurası ətrafına cəm olmaqdadırlar. İngilislər daxili işlərə qarışmayırlar. Bu yaxınlarda ingilislər Məhəmməd bəy Abaşidzeyə müraciətlə, oblast idarəsini öhdəsinə almağı təklif etmişlərdir. Fəqət əvvəlcədən bütün oblastı onlarla bərabər gəzməyi lazım görmüşlərdir.

Bələdiyyə İdarəsi ixtiyarında olan şəhər milissiyası 9 nəfərdən ibarət şura əlinə keçmişdir. Təzə milissiya öz vəzifəsini layiqincə ifa edə bilmədiyinə görə, ingilislər küçələrdə öz patrullarını qoymağa məcbur olmuşlardır.

Demokratik dairələrinin səyinə görə keçmiş qlasnıların hüququ özlərinə qaytarılmışdır. Onlar Bələdiyyə İdarəsi işlərində iştirak etməyə başlamışlardır. Təzə seçki işləri hazırlanıb yanvarın 20-də şəhər əhalisinin siyahısı yazılmağa başlamışdır.

* Yanvarın 11-ində Batum klubunda məhəlli [yerli] gürcü Milli Şurası və gürcü müsəlmanlarını azad edici komissiya tərəfindən Parisə getməkdə olan gürcü heyəti-mürəxxəsəsinə [nümayəndə heyətinə] İngiltərə nümayəndələri şərəfinə bir ziyafət çəkilmişdir. Həmin ziyafətdə Çxeidze, Nikoladze, "Musulmanskaya Qruziya" qəzetəsi müdiri Tavuş bəy Xinaşvili, polkovnik Levesni və Qretten-Belev nitq söyləmişlərdir.

İANƏ

Xəstə türk əsgərləri nəfinə [xeyrinə] idarəmizə, zeyldə mündəric əşxasdan [aşağıda adları yazılan şəxslərdədən] ianə vüsul olmuşdur [çatmışdır]:

Hacı Əlisultan Sultanzadədən (zürufçu) 200 manat;

Məsum Xəlilzadədən (zürufçu) 100 manat.

Cəmi 300 manat.

Doktor Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Doktor
Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Doktor
Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Samuil İzrailoviç
Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Mama M. K. Şerman

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə. Telefon 24-62.

Elan
Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi

Həmin yanvar ayının 31-ində cümə günü gündüz saat 12-də Bakı Şəhər İdarəsi (Dumasının) zalında, Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin ümumi iclası təyin olun muşdur. Müsəlmanlardan rica olunur ki, vəqti-müəyyəndə [təyin olunmuş vaxtda] iclasa təşrif gətirib üzv yazılsınlar və intixabda [seçkidə] iştirak eyləsinlər.

Sədr: Mirzə Əsədullayev

T-12

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir.

Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Fitnələr qarşısında

səh. 379. "…inanmağa haqları olsun…": qəzetdə "…inanmamağa haqları olsun…" getmişdir.

səh. 380. "Nişi-əqrəb nə əz rə kin-əst / İqtizayi-təbiətəş in-əst.": Farsca. Mənası: "Əqrəbin sancması kindən deyil, / Onun təbiətinin ehtiyacı belədir."

Şurayi-Vükəlada

səh. 381. "Kiçik Şura": Azərbaycan Cümhuriyyəti hökumətində ikinci dərəcəli məsələlərə baxmaq üçün nazir müavinlərindən təşkil olunan şura.

Qəzetələrdən

səh. 384. "kayzer": 1988-1918-ci illərdə hakimiyyətdə olan Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

Erməni fitnələri

səh. 385. "Azərbaycan" qəzetinin bu müraciəti heç bir əlavə izaha ehtiyac hiss etmədən, sadəcə "Erməni fitnələri" adı ilə dərc etməsi, ermənilərin yalan və həyasızlıqlarının sərhəd tanımadığını göstərmək baxımından olduqca maraqlıdır.

Şəhər Duması ətrafında

səh. 388. "Kooptasiya": hər hansı bir seçkili orqana, bu orqanın öz qərarı əsasında yeni üzvlərin seçkisiz olaraq əlavə edilməsi.

səh. 389. "…rəcəz oxuyan…": döyüşdən yaxud güləşdən əvvəl pəhləvanların üz-üzə gələrək bir-birlərinə meydan oxumasına "rəcəz oxumaq" deyilirdi.

Zaman nəyi icab edir?

səh. 391. "payan": son, nəhayət (farsca).

İanə

səh. 395. "zürufçu": "qab-qacaq satan" deməkdir.



جمعه ۲۱ ربیع‌الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۲۴ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۹۶

آذربایجان

تورك و اسلامله‌ئد مفید مقاله‌لره صحیفه ارمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالەلرك مکافاتی اداره تعین ایدیور.

اعلان قیاتی: سطری ۳ روبله کرائه گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی: باکو ایچون: ۱ آیلغی ۱۸ روبله، ۲ » ۳۲ »، ۳ » ۴۵ »

غیر شهرلر ایچون: ۱ آیلغی ۲۰ روبله، ۲ » ۳۵ »، ۳ » ۵۰ »

محل اداره: باکو، وورونتسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۳ نومرولی ایوده «آذربایجان» اداره‌سی، تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

گوندەلگ سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

تصویب ایدیلمش قانون پارلامنه داخل ایدیلمشدر بو مشاوره‌ده هر ایکی طرفك تشکیلاتی نمایندەلری ایله برابر بهالیقه گوره زحمت حقك آدیتریلماسی مسئله‌سنك فعلەلر ایله ایش‌ساحیاری آراسنده سازشلەحای ایچون اشترالناپشمشدر.

بوندن بویله زحمت مسئله‌لری مذکور خصوصی مشاوره واسطه‌سیله حل ایدیلەجکدر. فعلەلرك حالتی وحقنی وبوتون قانونی دیموقراتیك وسیله لری‌ایله محافظه ومدافعه‌ایتمکله‌برابر من‌فعله‌لردن ایش گورمك طلب ایدەجکم جوتکه تحمل ایدیلمز بویله‌برحالدن جیقدقی آنجاق یارادیجی فعالیت‌ایله‌ممکندر.

بوکا گوره من جمهوری حکومتمز تامنین فعلەلری و ایش‌صاحیلرینی مملکتمزلك قیضی‌ایچون متحد ایشله‌مگه دعوت ایدیرم.

مساعی نظارتی ۱. صفی کوردسکی

انگلتره و آذربایجان استقلالی

جمعه آقشامی سحر ساعت ۱۱ده رئیس وکلا فتحعلی خان خویسکی حضرتلری بالتلفون و فاقتاسیاده عموم انگلتره قوشونلاری باش قوماندانی هم‌چنین اعلی حضرت انگلتره قرالی نماینده‌سی اولان سیر جورج میلن ایله گورو شمشدر. سیر میلن فتحعلی خانه بیان ایتمشدر که آذربایجان داثره‌سنده‌انگلتره حکومتی آذربایجان حکومت جمهوریه‌سنی تانیور و قبول ایدیور و بو حکومته متفقلر قوماندانلغی هر بابده کومك ایدەجکدر. آیری آیری‌مطالرك تعیین مقدارات‌حقوقی انگلتره حکومتی نقطهٔ نظرنجه مدافعه ایدیلمه‌لیدر. صلح قونفرانسنده‌ده‌انگلتره نماینه‌لری بونی مدافعه ایدەجکلردر. بوندن علاوه گنرال بیان ایتمشدر که متفقلر قوماندانلغی تازه تشکل ایتمش زاقافقاسیا حکومتلرینك داخلی ایشلرینه قاریشمیا جقدر و متفقلرك یگانه مقصدی بو دولتلرده آسایش و مسالمته کومك ایتمکدر.

تعطیل ایتمه‌لیمیدر؟

کچن گون فعله قونفرانسنده عملەلرك معاش مسئله‌سی باقیلیردی. سوسیال ـ دموکرات نماینه‌لرندن و صاحب کارلرله دانشیق آبارن قومیسیون اعضاسندن روحلین تکلیف ایله‌دی که تعطیل اولاسین عملەلر سوبای و ایولی قرقی قومپایوب هامسنه ۳۶۰ مناث آرتیرمه راضی اولسونلر.

اوزارینه متفق حساب ایدوب مملکتمزدن اوتری تاریخی برحادثه‌نار موجنجه اونلارك احتیاجلرینی نظره آلسینلار.

حکومت تامندن و اوز طرفمدن اظهار ایدیرم که معه‌نلره حیاتك منزل مسئله‌سنك صحیه ایشلرینك زحمت‌حقلرینك یاقشی‌لاشماسینی حیاته تطبیق ایتمگدن اوتری هرجور تدبیرلر اتخاذ ایتمشم.

فعلەلر ایله ایش صاحیاری آراسنده کی مناسباتی یاقشی‌لاشدیرمقدن اوتری فعله مسئله‌سینه داثر جه وسی مشاوره حقنده کی حکومت طرفمدن

ایشلرینك بویله‌برباد حاله دوشمه‌سی واموالك تلف اولماسی بر نجی ضروری شیلرك قیمتی زیاده‌سیله یوکسلدوب فعلەلری آجلیه و مشکلاته دوچار ایتمکله برابر زحمت کش صنفه استناد ایدن جوان جمهوریتمز مالیه بحرانی تهدیدی آلتنده‌در.

بوکا گوره فعلەلردن خواهش ایدیرم‌که حال حاضرده بوتون قوه‌لریمی معدن حیاتنده عادی شرائط وجوده گتیرمگه یعنی تقیات استحصالات ایشلرینك محکم‌لشمه‌سنه یاخشی‌لاشماسینه صرف ایتمیلر. ایش صاحیلرندن خواهش ایدیرم که تجارت وصناعت ایشلرینك گنیشلنمه‌سنده فعلەلری

اعلان

شنبه گونی ۱۹۱۹ سنه‌سی یانوار آینك ۲۵ نده گوندوز ساعت ۱۲ ده آذربایجان مجلس مبعوثان اجلاسی اولاجاغی اعلان ایدیلیر. T-17

ساتیلور

نقلانده ۱ نجی جرگه ده قرمزی کریچن تیکلمش نمره اوطاقلر. آدریس: (بورن) معدنده اسدالله‌یوف و یاخود محمد اوف. 2656

قسم رسمی

مساعی ناظرینك آذربایجان فعله‌لرینه مراجعتی

مساعی ناظری وظیفه‌سنی موقا ایفا ایتمگ عهده‌سنه آلدیغه‌دن اوزیمه بورج بیلوریم فعلەلره خبر ویریم که حال حاضرده آذربایجاندن اوتری یارادیجی ایش وقتی گلمشدر، و بو وقتدن‌ده‌لازمی قدر استفاده ایتملیدر. چونکه کیچمش دورلر مملکتمزك خوزیاستوا جاننده بر جوق خرابه تارلق نشانه‌لری بوراقوب گلی مقدارده قیتلی فعلەلرك تلف اولماسنه باعث اولمشدر. استحصالات

انا لله و انا الیه راجعون

صادق بك، احمد بك و علی بك حاجینسقی‌لر کمال یأس و تحسرله سوگیلی آتالاری

عیسی بك حاجینسقی

نك وفات ایتدیگنی قوم اقربالسنه و دوست آشنالرینه اعلان ایدییورلر. تشییع جنازه مرحومگ ایوندن تابریزلی کوچه‌ده بوگون ساعت ۱۰ ده قالدیریلوب شاه مسجدینه آپاریلاجقدر. 2657

انا لله و انا الیه راجعون

عزیز یولداشلاریمز صادق بك، احمد بك و علی بك حاجینسقی لرك سوگیلی آتالاری

عیسی بگ حاجینسقی نگ

یانوار آینگ ۲۲ سنده واقع اولان وفاتی مناسبتیله مشار الیه آرقاداشلاریمگ یاس و تاثرلرینه

قلبا اشتراك ایده‌رك اظهار تعزیت ایدییورم. احمد جودت به‌یی‌اوف T-19

انا لله و انا الیه راجعون

مهدی بك و جمو بك حاجینسکی‌لر کمال حزن و تاثرله اوز دوست وآشنالرینه خبر ویرییورلر که،

عزیز و مهربان دائیلری **عیسی بگ حاجینسقی** همین یانوار آینك ۲۲ سنده وفات ایتمشدر.

تشییع جنازه مرحومگ دریا کناریندەکی ایوبندن شاه مسجدینه یانوارك ۲۴ ساعت ۱۰ ده اولاجاقدر. T-18

Cümə, 24 yanvar 1919-cu il, nömrə 96

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Cümə, 21 rəbiülaxir sənə 1337. 24 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Sadiq bəy, Əhməd bəy və Əli bəy Hacınskilər kamali-yəs və təhəssürlə [böyük bir hüzün və kədərlə] sevgili ataları İsa bəy Hacınskinin vəfat etdiyini qövm-əqrabasına və dost-aşnalarına elan edirlər. Təşyeyi-cənazə [cənazənin yola salınması] mərhumun evindən Naberejnı küçədə bu gün saat 10-da qaldırılıb Şah məscidinə aparılacaqdır.

2657

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əziz yoldaşlarım Sadiq bəy, Əhməd bəy və Əli bəy Hacınskilərin sevgili ataları İsa bəy Hacınskinin yanvar ayının 22-də vaqe olan vəfatı münasibətilə muşarünileyh [adları çəkilən] arxadaşlarımın yə’s və təhəssürlərinə [matəm və kədərlərinə] qəlbən iştirak edərək izhari-təziyət edirəm [baş sağlığı verirəm].

Əhməd Cövdət Pepinov

T-19

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mehdi bəy və Camo bəy Hacınskilər kamali-hüzn və təəssürlə öz dost və aşnalarına xəbər verirlər ki, əziz və mehriban dayıları İsa bəy Hacınski həmin yanvar ayının 22-də vəfat etmişdir. Təşyeyi-cənazə mərhumun dərya kənarındakı evindən Şah məscidinə yanvarın 24-ü saat 10-da olacaqdır.

T-18

ELAN

Şənbə günü 1919 sənəsi yanvar ayının 25-də gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

T-17

Satılır

Naftalanda 1-ci cərgədə qırmızı kərpicdən tikilmiş nömrə otaqlar.

Adres: BORN mədənində Əsədullayev və yaxud Məhəmmədov.

2656

QİSMİ-RƏSMİ
[RƏSMİ HİSSƏ]

Məsai [Əmək] nazirinin Azərbaycan fəhlələrinə müraciəti

Məsai naziri vəzifəsini müvəqqətən ifa etməyi öhdəmə aldığımdan özümə borc bilirəm fəhlələrə xəbər verim ki,

hal-hazırda Azərbaycandan ötrü yaradıcı iş vaxtı gəlmişdir və bu vaxtdan da lazımi qədər istifadə etməlidir. Çünki keçmiş dövrlər məmləkətimizin xozyaystva [təsərrüfat] həyatında bir çox xarabazarlıq nişanələri buraxıb külli miqdarda qiymətli malların tələf olmasına bais olmuşdur. İstehsalat işlərinin böylə bərbad hala düşməsi və əmvalın [malların] tələf olması, birinci zəruri şeylərin qiymətini ziyadəsilə yüksəldib fəhlələri aclığa və müşkülata düçar etməklə bərabər, zəhmətkeş sinifə istinad edən cavan Cümhuriyyətimiz maliyyə böhranı təhdidi altındadır. Buna görə fəhlələrdən xahiş edirəm ki, hal-hazırda bütün qüvvələrini mədən həyatında adi şərait vücuda gətirməyə, yəni nəqliyyat, istehsalat işlərinin möhkəmləşməsinə, yaxşılaşmasına sərf etsinlər. İş sahiblərindən xahiş edirəm ki, ticarət və sənaət [sənaye] işlərinin genişlənməsində fəhlələri özlərinə müttəfiq hesab edib, məmləkətimizdən ötrü tarixi bir hadisələr mövcibincə [hadisələrə uyğun olaraq] onların ehtiyaclarını nəzərə alsınlar.

Hökumət namından [adından] və öz tərəfimdən izhar edirəm ki, mədənlərdə həyatın, mənzil məsələsinin, səhiyyə işlərinin, zəhmət haqlarının yaxşılaşmasını həyata tətbiq etməkdən ötrü hər cür tədbirlər ittixaz etmişəm [tədbirlər görmüşəm].

Fəhlələrlə iş sahibləri arasındakı münasibatı [münasibətləri] yaxşılaşdırmaqdan ötrü fəhlə məsələsinə dair xüsusi müşavirə haqqındakı hökumət tərəfindən təsvib [təsdiq] edilmiş qanun, Parlamentə daxil edilmişdir. Bu müşavirədə hər iki tərəfin təşkilatlı nümayəndələri iştirak edəcəklərdir.

Məsai Nəzarəti fəhlələrin maddi əhvalını nəzərə alıb, Azərbaycan Hökumətinin başqa müəssisə nümayəndələri ilə bərabər bahalığa görə zəhmət haqqının artırılması məsələsinin fəhlələrlə iş sahibləri arasında sazişlə həlli üçün iştirak etmişdir. Bundan böylə zəhmət məsələləri məzkur [deyilən] xüsusi müşavirə vasitəsilə həll ediləcəkdir. Fəhlələrin halını və haqqını bütün qanuni demokratik vəsilələri [vasitələri] ilə müdafiə və mühafizə etməklə bərabər, mən fəhlələrdən iş görməyi tələb edəcəyəm. Çünki təhəmmül edilməz [dözülməz] böylə bir haldan çıxmaq, ancaq yaradıcı fəaliyyətlə mümkündür.

Buna görə mən, cümhuri hökumətimiz namından fəhlələri və iş sahiblərini məmləkətimizin feyzi üçün müttəhid [birgə] işləməyə dəvət edirəm.

Məsai naziri A. Səfikürdski

İNGİLTƏRƏ VƏ AZƏRBAYCAN İSTİQLALI

Cümə axşamı, səhər saat 11-də Rəisivükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətləri Balkan və Qafqaziyada ümum İngiltərə qoşunları baş komandanı, həmçinin əlahəzrət İngiltərə kralı nümayəndəsi olan ser Corc Miln ilə görüşmüşdür. Ser Miln Fətəli xana bəyan etmişdir ki, Azərbaycan dairəsində İngiltərə hökuməti, Azərbaycan hökuməti-cümhuriyyəsini tanıyır və qəbul edir və bu hökumətə Müttəfiqlər komandalığı hər babda [hər məsələdə] kömək edəcəkdir. Ayrı-

ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh Konfransında da İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, Müttəfiqlər komandanlığı təzə təşəkkül etmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır və Müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və müsalimətə [əmin-amanlığa] kömək etməkdir.

TƏTİL ETMƏLİMİDİR?

Keçən gün fəhlə konfransında əmələlərin [fəhlələrin] maaşı məsələsi baxılırdı. Sosial-demokrat nümayəndələrindən və sahibkarlarla danışıq aparan komisyon əzasından [üzvlərindən] Roxlin təklif eylədi ki, tətil olmasın, əmələlər subay və evli fərqi qoymayıb hamıya 360 manat artırmağa razı olsunlar.

Əmələlər çoxluqla buna razı olmadılar. Dedilər ki, gərək biz öz istədiklərimiz üstündə bərk duraq və komisyona tapşırdılar ki, təkrar sahibkarlarla görüşsün, onların axırıncı cavablarını öyrənsin, tainki yekşənbə [bazar] günü təzədən qurulacaq konfransda fəhlələr təkrar bu məsələyə baxsınlar və tələblər qəbul edilmədiyi təqdirdə tətil başlansın.

Əmələ vətəndaşlar, imdi nəzərdə ən böyük bir məsələ vardır.

Tətil etməlimidir?

360 manat artıq məvacibi qəbul etməkmi, yoxsa tətil eləməkmi? Hansı yaxşıdır?

Bir raboçinin [fəhlənin] keçən dəfə konfransda hesab eylədiyinə görə, əmələlərin azı 26, çoxu 50 manat istəməkdən ibarət olan tələbi ilə ayda 360 manat təklifinin arasında böyük fərq yoxdur.

Arada böyük fərq görülürsə, böyük məvacib alan əmələlərin məvaciblərində görülür. Yoxsa qara əmələ və kiçik məvacibli əmələlərin bu müamilədən [əməliyyatdan] zərəri yoxdur.

Üç yüz altmış manat çörək bahalığını ödəmək üçündür. Madam ki, öylədir, o halda bütün əmələlərin ehtiyacı bir dərəcədədir, demək olar.

Hər halda vaxt o vaxt deyildir ki, tətil ilə onsuz da müşkül vəziyyət bir az da çətinləşsin. Tətil olarsa yollar bağlanar, məişət bir az da müşkül olar. Bundan da Azərbaycanın bu anda rahat və sükunətə, işləməyə, çalışmağa möhtac olan halı müşkülata uğrar. Düşmənlərimizə hər fitnə açmaq imkanı verər. Nəticə, nə qədər çox məvacib ala bilsək belə yenə də dükançıların, möhtəkirlərin cibinə girər. Halbuki hökumət[ə] qüvvət, nüfuz və etibar verməklə ona kömək eyləməlidir ki, ərzağın ucuzlaşması üçün tədbirlər görsün, möhtəkirlər, bahaçılarla mübarizə eyləsin. Bunun üçün daha faydalıdır ki, ayda 360 manat artırmaq təklifinə razı olub, tətil edilməsin.

Bunu da bilməlidir ki, iş sahibləri mədənlərin bugünkü halı ilə yolların bağlı olduğundan neftin tökülüb qalması üzündən böyük faydalar da görməyirlər.

Əmələlərə ağıl və tədbirlərlə iş görmək, hissiyyata tutulma[ma]q lazımdır.

Bugünkü halda tətil etmək, əmələlərə qətiyyən fayda verməz!

İşi tətilə qədər götürməməli, bu yekşənbə konfransa gəlib məsələnin sülhlə həllinə çalışmalıdır.

M. Ə.

ŞURAYİ-VÜKƏLADA
[NAZİRLƏR KABİNETİNDƏ]

14 dekabr 1918 sənə

Daxiliyyə naziri həzrətlərinin müavininin əlbisə emalatxana xidmətçilərinə vermək üçün 44964 rublə təxsisi [ayrılması] haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir [qərara alınmışdır]:

Daxiliyyə nazirinə 44964 rublәlik istiqraz açılsın.

14 dekabr 1918 sənə

Maliyyə Nəzarəti dəftərxanə müdiri dairə və quberniya gəlir vergisi idarələrinə 1918 və 1919-cu sənələr üçün əza intixabı [üzv seçkisi] haqqındakı məruzəsini istimadan sonra qət edilmişdir:

1) Dövləti gəlir vergisi 10-cu qanunun 4-cü fəslinin 3-cü maddəsinin vaxtı Azərbaycanda zemstvo [yerli özünüidarə qurumları] və quberniya müəssisələri təsisinədək imtidad edilsin [uzadılsın].

2) 1918 və 1919-cu sənələrdə gəlir vergisi müəssisələri təsis edildikdə 10-cu qanunun 3-cü və 4-cü maddələrinin tətbiq edilməsinə izin verilsin.

14 dekabr 1918 sənə

Maliyyə Nəzarətinin dəftərxanası müdirinin aksiz hesabı ləğv etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Aksiz qanununun 348, 349, 353, 379, 381-ci maddələri mövcibincə [maddələrinə əsasən] aksizsiz hesablar ləğv edilsin.

Maliyyə Nəzarətinə ixtiyar verilsin ki, vəqti-müəyyənə [müəyyən vaxt] təyin etsin ki, o vaxtdan sonra qayırılacaq aksizsiz spirto qayırılmasn.

21 dekabr 1918 sənə

Ərazi naziri həzrətləri müavininin Ərazi Nəzarəti cənbindəki [nəzdindəki] Su nəqliyyat[ı] idarəsinin müvəqqəti xidmətçiləri və maaşları təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Ərazi müavini tərəfindən məruzə ilə pişnihad [təqdim] edilən Su nəqliyyatı idarəsi xidmətçiləri və maaşları haqqındakı layihəni təsdiq etmək.

2) Su nəqliyyatı idarəsi xidmətçilərinin noyabr və dekabr ayları məvacibləri verməkvə dəftərxana məxaricatından [xərclərindən] ötrü 43826 rublə 30 qəpiklik istiqraz açılsın.

12 noyabr 1918 sənə

Kiçik Şura təşkili haqqında Rəisi-vükəlanın [Baş nazirin] məruzəsini dinlədikdən sonra qət edilmişdir:

Hökumət cənbində nazirlərin Kiçik Şurasını təşkil etməli. Məzkur [adı çəkilən] şuraya nazirlər Rəisi-vükəla vasitəsilə öz məruzələrini təqdim edəcəklər. Mamafih [bununla belə], hər nazir Kiçik və Böyük Şuraya məruzəsinin verilməsi haqqında təhrirən [yazılı olaraq] Rəisi-vükəlaya məlumat verməlidir. Kiçik Şura qətnamələrinə etiraz etmək ixtiyarına Rəisi-vükəla və məruzə sahibi nazir muxtardır [ixtiyar sahibidir]. Fəqət Rəisi-vükəla vasitəsi şərtdir. Kiçik Şura qətnaməsinə etirazı Böyük Şuraya etməlidir.

14 dekabr 1918 sənə

Maliyyə Nəzarəti müdirinin məmurin [məmurların] maaşından xəzinəyə verilən hissələri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) 5-ci qanun məcmusu cildinin 284-

316-cı maddələrinin gömrük haqqındakı maddələr[i] ləğv edilsin.

2) 284-316-cı maddələr mövcibincə alınmamış pullar xəzinə hesabından çıxarılsın.

TELEQRAF XƏBƏRLƏRİ

* Lizbondan [Lissabondan] alınan teleqrafda denilir ki, Portekizin [Portuqaliyanın] Oportu [Portu] və sair şəhərlərində monarş[i] [monarxiya] lehinə hərəkat başlanmışdır. Manueli kral elan etmişlərdir, amma özü meyil göstərmir.

* Almaniyada seçki vaxtı xırda atışmalar olmuşdur.

* Paris - Böylə rəvayət edilir ki, Avstriya flotu Korfuya gələcək və fransız admiralının təhti-idarəsinə [idarəsi altına] keçəcəkdir.

* Paris - Sülh Konfransının xüsusi qəzetəsi hüquqşünasların kayzer Vilhelm barəsində olan rəylərini elan edir. Hüquqşünasların rəyinə görə, Vilhelm Yevropa müharibəsinin bütün təxribatına məsuldur. Çünki, müharibə ibtidasında [başlanğıcında] Vilhelm nə kişiyə, nə arvada, nə uşaqlara rəhm edilməyəcəyinə əmr sadir eyləmişdir [əmr vermişdir].

* Tiflis - Berlin qəzetələrinin rəvayətinə görə, müstəqil sosial-demokrat başçıları Ledebur və Meyer həbs edilmişlərdir.

* Berlin - İnqilab qəhrəmanlarından Libknext ilə Roza Lüksemburqun qətli Berlində böyük həyəcana səbəb olmuşdur. Əhvalın böylə kəskin olduğu bir hində [vaxtda] yanvarın 19-da Məclisi-Müəssisan intixabatının [seçkilərinin] baş tutacağı şübhəlidir. Böylə məlum olur ki, hökumət qətl işini təhqiq və qatilləri təhti-məsuliyyətə [məsuliyyət altına] almaq fikrindədir. Məhbusları aparan dəstənin zabitlərini həbsə almışlardır. Bu hal, hökumətin vəziyyətini müşkülata düçar edir. Ən sol sosialistlər öz başçılarının qətlini bəhanə edərək öz məqsədlərinə nail olmağa çalışacaqdırlar. Yanvarın 14-də Kölndə Freyheyt əmələləri [fəhlələri] tətilə dəvət edir.

SÜLH ƏTRAFINDA

* Sülh Konfransı qərar vermişdir ki, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsini ancaq müharib [savaşan] dövlətlər müzakirə edəcək və əsas qanunlarını onlar qoyacaqlardır. Konfransın böylə qərarı bitərəf dövlətlərin son dərəcə narazılıqlarına bais olmuşdur. İngiltərə tərəfindən Cəmiyyəti-Əqvam haqqında edilmiş olan təklif təkmil olunmuşdur [təkmilləşdirilmişdir].

* Paris - Amerika rəisi-cümhuru Vilson, Fransa Baş vəziri Klemansonun Sülh Konfransına sədr intixab edilməsini [seçilməsini] təklif eyləmişdir.

* Paris - Bu gün Qar dö-Orsedə Puankare rəyasəti altında şura silsilələri [müzakirələr silsiləsi] başlanır. Bu cələsələr [iclaslar] Müttəfiqlərin rəsmi Sülh Konfransından başqa xüsusi şuralarıdır. Bu şuralara 24 nəfər nümayəndə dəvət edilmişdir. Hərgah ümum [bütün] nümayəndələr gəlib yetişmiş olsalar, onların sanı 64-ə varacaqdır. Qəti surətdə anlaşılır ki, Belçika ilə Serbiyaya iki nümayəndə yerinə konfransda üç yer veriləcəkdir. Böyük

dövlətlər nümayəndələrinin dünən Kar dö-Orsedə iki cələsələri olmuşdur. Konfrans mübahisatı [mübahisələri] məsələsi burada həll edilir. Şurada arzu edilmişdir ki, konfrans müzakiratı xüsusunda müfəssəl məlumat verilsin, amma konfransdan qabaqkı iclasların məlumatı məhdud olacaqdır. Bundan əlavə, qəbul edilmiş qərara görə, mətbuat nümayəndələri konfrans cələsələrinə buraxılacaqlar. Fəqət bəzi ittifaqlarda [hallarda] cələsələr qapalı olacaqdır.

TƏQDİR EDİLƏCƏK BİR TƏŞƏBBÜS

Bir dəstə ədib və mühərrirlər ədəbi, ictimai və siyasi bir məcmuə nəşr etmək məqsədilə Cümhuriyyətimizin Maarif Nəzarətinə işbu məruzəni vermişlərdir:

Cümhuriyyətimizin Maarif naziri canibi-alisinə bir dəstə ədib və mühərrirlər və ədəbiyyat həvəskarları gənclər tərəfindən məruzədir.

Həyati-ictimaiyyə və siyasiyyəmizi təcəlli [nümayiş] etdirən cümhuriyyətimizdə gözə çarpacaq nöqsanat bütün Azərbaycana aid olmaqla bərabər, hər azərbaycaninin [azərbaycanlının] də onda bir hissəsi vardır. Həqiqi vətəndaşların o nöqsanları islah etməyə çalışmaları bir vəzifeyi-müqəddəsələri olsa gərəkdir. Bu xüsusu nəzəri-etinaya alan biz ərbabi-qələm və ədəbiyyat maraqlıları bir ədəbi məcəllə nəşrini çoxdan bəri düşünməkdəyiz. Zira böylə məcəlləyə cümhuriyyətimizin ehtiyacı vardır.

Əski rus istibdadı idarəsi altında yaşadığımız zamanlar, fikirlərimiz və qələmlərimiz azad olmadığı halda, ədəbi məcmuələrə malik bulunurduq. İstiqlaliyyətimiz elan, fikirlərimiz və qələmlərimiz sərbəst olduğu bir mühitdə ədəbi, ictimai və siyasi məcəllələrimiz yoxluğu cümhuriyyətimiz daxilində bir boşluq, həm də gözə çarpacaq və nəzəri-diqqəti cəlb edəcək bir boşluq, dolayısı ilə bir nöqsan təşkil etməkdədir. Binaənileyh [ona görə], xah [istər] əskidən bəri mətbuatımızda tanınmış simalar, xah [istərsə də] bir çox yeni vücuda gəlmiş həvəskar və gənc qələmlər namından [adından] zati-maarifpərvəranələrinə bilmüraciətən [müraciət edərək], hökumətimiz yardımı ilə bir məcmuə nəşrini arzu eyləməkdə və ya bu xüsusda bizlərə maddi müavinət verilməsi və yol göstərilməsini istida [xahiş] etməkdəyiz. Ümid ediriz ki, müstəqil bir ölkənin ədəbi məcəlləsiz qalması nəzərə alınaraq hökumət xərci ilə bir məcmuə nəşr etməyə müvəffəq olarız.

Məcmuədə çalışacaq, onun mənəvi cəhətini təmin edəcək mühərrir və ədiblər hazırda mövcud və işləməyə mühəyyadırlar [hazırdırlar]. Bu xüsusda yalnız Maarif Nəzarətinin əmr və iradəsini gözləməkdəyiz.

İmzalar:

Məhəmmədəmin oğlu Salman Mümtaz

Kazım oğlu Seyid Hüseyn Sadiq

Qafarzadə Əbdülxaliq Cənnəti

Əbdülxaliq Yaqubzadə Yusif

Kazımzadə Səməd Mənsur

Məhəmmədəli Sidqi

Axund oğlu Mirzə Məhəmməd

Məhəmmədzadə Əli Nəzmi

Əli Yusif Yusifzadə

Bədrəddin Əlhüseyni

İşbu məruzəni Məhəmmədəmin oğlu Salman Mümtaz əfəndi keçən gün Maarif Nəzarətinə təqdim etmiş, naziri-maarifpərvərimiz həzrətləri məmnuniyyətlə Salman əfəndini qəbul etməklə bərabər, etdikləri təşəbbüslərindən dolayı bəyani-təşəkkür etmişlərdir.

Həman gün Hökumət mətbəəsi üçün Tiflisdən hürufat [mətbəə hərfləri] alıb gətirməyə gedən nümayəndəsinə telefonla əmr etmiş ki, alacaq hürufatı iki kərə artıq alsın. Həman gecə nümayəndə Tiflisə azim olmuşdur [yola düşmüşdür]. Məcmuə, nazir əfəndinin məsləhətinə görə hələlik 200 səhifədən ibarət olmaqla müsəvvər [rəsmli] olaraq ayda bir nüsxə nəşr ediləcəkdir.

Nazir əfəndi bu xüsusda ətraflıca smeta hazırlayıb təqdim etməyi Salman əfəndidən rica etmişdir. İşbu smetanı həm Hökumətdən, həm də Parlamandan keçirəcəyinə söz vermiş və təmin etmişdir. Zənn edildiyinə görə, gələn fevral ayının ortalarında məcmuənin birinci nömrəsi nəşr edilə biləcəkdir.

Maarif nazirimizin işbu həmiyyətimaarifpərvəranəsi şayani-təqdirdir [təqdirəlayiqdir]. Bu uğurda çalışacaq əfəndilərə müvəfəqiyyət diləriz.

TƏMİZLİK LAZIMDIR

Səpkili yatalaq zühur etməsi və onunla mübarizə xüsusunda Bakı Şəhər Bələdiyyə İdarəsinin Səhiyyə şöbəsi nəşr etdiyi məlumatı burada dərc etməyi mənfəətdən xali [mənfəətsiz] bilmədik. Səpkili yatalaq, böyük sirayət edici [yoluxucu] və köçəri bir naxoşluqdur. Bu naxoşluq atidəki [aşağıdakı] səbəblərdən ittifaq düşür:

Bir otaqda çox nəfər yaşayışı, otaq natəmizliyi, pis havası, asanlıqla təmizlənməməsi, sakinlərin təamının yaxşı olmaması və soyuqdəymə. Odur ki, bu naxoşluğa çoxusu evsiz, kasıb fəhlə qismi və köhnə libas satan adamlar düçar olurlar. Bu naxoşluq, məhsulat az olan illərdə, dava vaxtı, camaat arasında iğtişaş və hərc-mərclik olduğu zaman ittifaq düşür. Həman naxoşluq, salamat şəxsə naxoşdan və ya naxoşa qulluq edəndən köçür. Əlavə, naxoşa dəymiş şeylərdən, ələlxüsus taxtabiti, birə və bit münasibəti ilə mərəz salamat adama köçür. Bu naxoşluqla bir şəxs azarlandığı kimi, evin qeyri üzvlərinə də sirayət etməyə şüru edir [başlayır]. Odur ki, böylə ittifaq düşdükdə həman saat tədbiri-əlac etmək lazım gəlir. Səpkili yatalaq insanın bədəninə daxil olduqda iki həftə keçir, sonra aşkar olur. Naxoş gücdən düşüb yorğan-döşəyə girməyə məcbur olur.

Bu naxoşluqla necə mübarizə lazımdır? Gərəkdir ki, libas, yorğan-döşəkdə və evdə həşərat (bit, birə, taxtabiti) varsa rəf etmək [aradan qaldırmaq], bədəndə həmçinin var isə hamamda gərək sabunla yuyunmaq lazımdır. Alt libası qaynadıb, üst libası və yorğan-döşəyin isə şəhərin dezinfeksiyonnu kamerasında su buğu ilə təmizləmək.

Taxtlarda, mənzillərdə o həşəratı qaynar su ilə, neft cövhəri ilə qırmaq və mənzildə olan yırtıqları tutmaq, tez-tez hamamda çimmək, əlləri yumaq, yatacağı tez-tez günə və havaya vermək. Xalı və qeyri böylə şeyləri bilmərrə götürmək lazımdır.

Füqəralar və hammallar [hamballar] yaşayan mənzil və mehmanxanaların təmizliyinə xüsusi diqqət yetirilsin və evlərin tez-tez havası dəyişdirilsin. Bu naxoşluq çox xətalı olduğu üçün bir balaca şəkli ittifaqlarda [şübhəli hallarda] o saat həkim çağırmaq və onun sərəncamına qulaq asıb əməl etmək lazımdır və əgər mümkün var isə hamısından yaxşısı böylə naxoşları şəhər xəstəxanalarına göndərməli və naxoş olan otağı dərmanlayıb, təmizləyib, sonra o otaqda olmaq olar.

Naxoş ilə əlaqədə olan gərəkdir ki, şəhər kamerasında hamama gedib orada libasını dərmanlasın. Təmizliyi ilə məşhur olan Yevropa məmləkətlərində bu cürə pis naxoşluqlardan indi əsər də yoxdur.

C. Paşazadə

ŞUŞA ŞƏHƏRİ ƏHLİ SALMAN BƏY ƏLİBƏYOVUN BAKI HÖKUMƏTLƏRİNƏ VERDİYİ ƏRİZƏ*

Bütün Qarabağa məlumdur ki, Şuşa və Cavanşir mahalında olan 30-dan ziyadə [çox] müsəlman kəndlərinin mən nümayəndəsiyəm. Mənim vəkalətim əlimdən alınıb Şuşa mahal idarəsində saxlanır. Müsəlmanları xilas etmək üçün zatialilərinizə məlum edirəm ki, Qarabağdakı müsəlman milləti Müttəfiqlərin təhti-himayəsində [himayəsi altında] yaşamaq istəyirlər. Millətin səsi, hərbi heyətə çatmayır. Çünki türk qitəatından [hərbi hissələrindən] və məhəlli [yerli] quldurlardan ibarət olan və hökuməti əllərinə almış bəy-xanların təhti-himayəsində olan dəstələr, əhalini soyurlar və qoymayırlar ki, millətin səsi ingilislərə çatsın. Şimdi bu ağalar Müttəfiqlərin, Andranikin və bütün ermənilərin əleyhinə ciddi təbliğatda bulunurlar və guya, bunlar müsəlmanları hər tərəfdən əhatə edib qırmaq istəmişdirlər. Bu fitnəçilik Ağdamda ingilislərlə olan hadisə və türk afserləri [zabitləri] komandası altında erməni kəndlərinə hücum etməklə nəticələnmişdir. Müqəssirləri istədikdə bütün qəbahətlər heç bir şeydən xəbəri olmayan millət əfradı [fərdləri] üzərinə qoyulur.

Heç kəs bunu dana bilməz ki, türklərin dəvət edilməsi müsəlman əhalisindən bixəbər olmuşdur və gəlib çıxan türklər, bu millətin özünü qarət etməklə bərabər, pulsuz olaraq milyonlarca put taxıl almışlardır.

Məmləkətdə asayiş bərpa etmək, həmçinin müsəlmanlara öz həqiqi arzularını Müttəfiqlərə yetirməyə macal vermək üçün və millət namından [adından] özlərini yalançı hakim adlandıranlara protesto etməkdən ötrü xahiş edirəm öz məzərrəti [ziyankarlığı] və müfəttinanə [fitnəkarcasına] hərəkatı ilə özünü yalançı adlandıran şəxslərin məmləkətdən kənar edilmələri ilə, həmçinin Azərbaycan dairəsində və Şuşa uyezdində gizlənməkdə olan türk zabit və məmurlarının nəfy [sürgün] edilmələri üçün tədbirlər it-

*Həmin ərizəni erməni və rus qəzetələrindən tərcümə edib də qəzetəmizdə dərc ilə qarelərimizin [oxucularımızın] diqqətini öz içimizdə olan namussuz və xainlərin əməllərinə cəlb edirik. Mərqum [adı çəkilən] Salman bəy Əlibəyovun kim olub-olmadığı haqqında qəzetəmiz tərəfindən xüsusi olaraq məlumat veriləcəkdir. *İdarə*

tixaz edəsiniz [tədbirlər görəsiniz].

Bunu da əlavə edirəm ki, bu müfəttinlər müsəlmanları ümidvar edib türklərin gələcəkləri ilə onların ruhlarını yüksəltməyə çalışırlar. Guya Ənvər paşa 60 min ordu ilə varid olacaqdır [gələcəkdir]. Bu əhvalatı mən Şuşa şəhərində olan ingilis heyətinə də xəbər vermişəm. Hərgah, siz mənə imkan və ixtiyar versəniz, Müttəfiqlər və ruslar əleyhinə daima təşviqatda bulunan türk zabitlərinin və başqa məmurlarının olduqları yerləri kəşf edərəm.

Salman Əlibəyov

İkinci "ərizə"

Qarabağın ləyaqətsiz bəyləri, yalançı mahal naçalniki Xosrov bəy Fulatov, Əli bəy Behbudov, Mirzəli bəy Behbudov, Əbülfət bəy Həsənbəyov, İbrahim bəy Hüseynbəyov, İsmayıl xan Ziyadxanov, Hüseyn ağa Cavanşir, Hüseyn bəy Vəzirov, Bəylər bəy Saybalinski və sair bəylər türklərin müavinəti ilə və türklərin arzularına əməl edərək təqsirim olmaya-olmaya və bilamühakimə [məhkəməsiz] yeddi aydan ziyadə mənə hər növ əziyyət verərək, mənim hürriyyətimi əlimdən aldılar, məni həbsə salıb, yeddi ay müddətində mənə olmazın əziyyət və cəfanı verdilər.

Yayın isti günlərində mənə su vermə yirdilər. Susuzluqdan mən qəşş eyləyirdim. Gecələr hər kəs yatdığı halda mənim başımın tükünü yolub, üzümə tüküürdülər. Bu şərait altında protesto etməyim imkan xaricində idi. Zira mən onların ixtiyarında idim. Mövsuq [etibarlı] mənbədən anlamışdım ki, bu günlərdə həyatıma sui-qəsd ediləcəkdir. Necə ki, həbsxanada neçə ay bundan əvvəl Qəhrəman bəyə sui-qəsd edilmişdi.

Bu da məlumdur ki, məhbus Qəhrəman bəy, yuxarıda zikr edilən Fulatovun əqvamından [qohumlarından] Əli bəy və Mirzəli bəy Behbudovlar və Mirqafar ağa Ağamirov tərəfindən qətl edilmişdi. Bütün həbsxana məmurları bu ağaların adamları idi və onlar üçün bu kimi işlər yapmaq çox asan idi. Qatil Ağamirovu həbsxanaya həbsxana naziri buraxmış, açarçı məhbusun otağını açıb, qatil içəri girdikdən sonra tüfənglə Qəhrəman bəyi öldürmüş və sonra oradan çıxıb evinə qayıtmışdır. Nə qatil və nə həbsxana məmuru nə məsuliyyətə alınıb, nə də həbs edilmişlərdi.

Mənim canıma hazırlanan sui-qəsd barəsində mahal naçalnikinin kiçik müavini Nəzərova məlumat verdim. Amma o mənim tərəfdarım ola-ola mənim üçün heç bir iş görəmmədi və müstəntiqə məlumat verə bilmədi. Şuşa mahalı müstəntiqini dəvət etmək də müyəssər olmadı. Zira, mənə məlum olduğu üzrə, o qorxudan gələ bilməmişdir. Mən hər dəqiqə ölümümü gözləyirdim, fəqət Cənabi-haqq mənim altı uşağıma və qoca anama məni bağışlayıb xilas eylədi.

Şuşa uçastokunun müstəntiqi Raçkov, işlərinə görə məni şahid sifəti ilə öz otağına, erməni hissəsinə dəvət eylədi. Burada ermənilər mənim başıma gələn müsibətlərdən həyəcana gəlib məni gətirmiş olan mühafizə dəstəsini tərk-silah etdirib, mən o gündən etibarən gizlənib, yuxarıda zikr edilən cəlladların yanına getmədim. Buna da, əlbəttə mənim haqqım var idi. Ermənilərə və onların kəndçilərinə məlumdur ki, mən camaat xadi-

miyəm, 15 ildən ziyadədir ki, Qarabağ bəyləri və xanları ilə mübarizə edirəm. Məlumdur ki, o xanlar və bəylər alman və Türkiyə agentləridirlər.

1905-ci ildə erməni-müsəlman davasında mənim sayəmdə bir neçə erməni kəndləri xilas edildi. Mən bəylərin adamlarının birisi tərəfindən yaralanmışdım ki, indi də qolum şikəstdir. Bu sözlərimə “Russkiyi vedomosti” qəzetəsinin 173 nömrəli nüsxəsi şahiddir. O nüsxədə denilir ki, İstanbulda Almaniyanın əli ilə bir sui-qəsd hazırlanmışdır. O danışıqda fövqdə [yuxarıda] zikr edilən xanlarla bəylər iştirak etmişlərdi və bunların məqsədi də bu idi ki, Qafqaziyada bütün ermənіləri məhv edib, böyləliklə Qafqaziyaya türklərə yol açılıb, axirüləmr [axırda] Naxçıvan xanlığını təcdid [bərpa] etsinlər.

İştə bundan dolayı Qarabağ xan və bəyləri inqilab və hürriyyətdən istifadə edərək, öz planlarını icraya qoymaq istəmişlərdir. Heç kim inkar edə bilməz ki, bu xan və bəylər, müsəlman camaatını ermənilərin, ingilislərin və rusların əleyhinə qalxızırlar və müsəlmanlara deyirlər ki, ruslar guya Təbrizdə müctəhidi dara çəkmişlər və bizim müqəddəs yerlərimizi təhqir etmişlərdir. İngilislər isə Məkkə və Mədinəni bombardman etmişlərdir. Mən mitinqlərdə isbat edirdim ki, bunlar iftiradır, əsli yoxdur. Ona görə də bəylər bütün mühacirləri və orada olan rus qoşun qitəatını [hissələrini] qırmaq istəmişlərdir. Bu sözümün sübutu, indi 1917-ci ildə Qaryagin mahalından Araküldən polkovnik Ramaşevskinin Tiflisə Qafqaziya hərbi naçalniki namına göndərdiyi teleqramın surətini təqdim edirəm. İştə teleqrafın məalı [məzmunu]:

Qaryagin uyezdinin hər yerində üsyandır. Əsgəri qitəat üzərinə hücum edib saldatları, zabitləri öldürürlər. Bunların var-yoxlarını qarət edib bəzən diri-diri yerə basdırırlar. Tələfat artıqdır. Qaryagində olan Cəbb-Vəng zəif qarnizonları mühasirə edilmişlərdir. Yeməli şeylər olmadığından aclıq çəkirlər. Qaryagin əsgəri mühimmat və ləvazimat [hərbi silahsursat] anbarı, bundan əlavə Bakı-Culfa dəmiryolunun ərzaq anbarı qarət edilmişdir. Bu anbar qarət edildiyi zaman barut anbarı patlayıb, evlər dağılmışdır. Poçta-teleqraf işləmir. Teleqraf xətləri doğranmışdır. Əhval fəlakətlidir. Üçüncü alay gəlməmişdir. Qanun və asayişi bərpa etməkdən ötrü və Ağdamdan ərzaq şeyləri gətirmək üçün cəza dəstəsi göndərilməsini xahiş edirəm. Sizin yubanmağınız dinc əhalini və qoşunu dəhşətli təhlükələrlə təhdid edir.

Polkovnik Ramaşevski

Xanlar, bəylər sayəsində avam camaat eşalonlara hücum edib onları öldürməklə silahlarını əllərindən alırdı. Gəncə və Qazax uyezdlərində dəmiryolunun hər iki tərəfi minlərcə meyitlərlə örtülü idi. Rus mühacirlərinin kəndlərini xarab etmişlərdir. Erməni saldat və zabitləri dəmiryollara olan hücumlardan xəbərdar olub, Naxçıvan və Zəngəzur uyezdləri təriqi [yolu] ilə quru yoldan dağlar və meşələr arası evlərinə qayıtmağa məcbur olmuşdular. Lakin burada da Zabuxda onlar, yüzlərcə qırılmışlardır.

Qarabağın hər bir tərəfində həmin xanların və bəylərin sayəsində quldur dəstələri əmələ gəlmişdir. Türklərin Qarabağa dəvət edilmələri müsəlman əha-

lisindən bixəbər olmuşdur. Bunu da nümayəndəsi olduğum 32 müsəlman kənd əhalisi təsdiq edə bilər. Mənim səy və tələşıma görə, türklər gələnə qədər bu uyezdlərdə xristianlar əleyhinə heç bir çıxış və təcavüz olmamışdır. Mən həbs edildikdən sonra türklər Şuşa uyezdində Xanabad, Naxçıvanik, Pircamal, Aranzəmin, Ağbulaq, Dağraz, Hatsi və Qaladərəsi kəndlərini dağıtmışlar. Bu kəndlərin əhalisi digər kəndlərə qaçmışlardır.

Bu xanlar və bəylər məni azadlıqdan məhrum edib, ağalıq etməyə başlayıb, kəndlilərdən və burjuylardan bixəbər öz aralarında bir hökumət təşkil etməyə müvəffəq oldular. Yüzlərcə adamları həbs edib minlərcə pul aldıqdan sonra azad edirlər. Kasıblar, onlara tabe olmayanlar və xüsusi düşmənçilikləri olanlar aylarca sorğu-sualsız həbsxanada çürüməkdədirlər. O cümlədən deyə bilərəm ki, iki ay bundan əqdəm [qabaq] Şuşa şəhərində Çərkəz bəy Şəfibəyov günün günorta çağında bir nəfər Şuşa əhlini öldürdüyünə görə həbsə alınmışdı. Məhəlli hökumət 5 min manat rüşvət aldıqdan sonra onu həbsdən azad etdi. (Hələ o zaman şəhər idareyi-örfiyyə [hərbi rejim] altında elan edilmişdi. Bir nəfər bədbəxt çəkməçi ermənidən bir tüfəng tapıldığına görə asılmışdı.) O vaxt yenə də bir nəfər Şuşa əhli İsa Şəfibəyov öz arvadını öldürdüyündən həbsə alınıb, 3 min manat rüşvət verdikdən sonra azad edilmişdi. 3 ay bundan irəli Kərbəlayi Əbəş oğlu öz qardaşını öldürməyi boynuna alıb həbs edilmişdi. 6 min manat verdikdən sonra o da azad edilmişdi. Yenə də 3 ay əqdəm Xocalıda 4 nəfər rus öldürülmüşdü. 15 nəfər qatil həbs edilib 15 min manat verdikdən sonra azad edilmişlərdi. 4 ay əqdəm həbsxana müdiri Şəfiyev həbsxana anbarından 50 min manatlıq şey oğurlamışdı. Bu iş barəsində məni də şahid sifəti ilə danışdırdılar. Şəfiyev həbs edilmişdisə də, 10 min manat verdikdən sonra azad edilmişdi. 5 ay bundan irəli həbsxanada Qəhrəman bəy qətl edilmişdi. Qatil Xuduş Quliyev, əsgəri naçalnik Raçkovskinin külfətində olduğuna görə nəinki həbs edilmədi, hətta türklər gəldiyi zaman şəhər tərəfindən türkləri istiqbal etməkdə [qarşılamaqda] belə iştirak edirdi. Bu cinayətlərin heç birisi Şuşa uçastokunun müfəttişinə yazılıb verilməmişdir. Azərbaycan Cümhuriyyətinin bu tövr məmurlarının əmrinə görə, özümdə heç bir təqsir görmədiyim halda 7 ay həbsxanada qalıb ölümümü gözləyirdim.

Mən hər bir kəs kimi öz həyatımı əziz tutub, cəlladlar əlindən məni qurtaran ermənilərə razıçılıq izhar edirəm. Bunların hamısını sizə xəbər verməyi lazım görüb xahiş edirəm ki, məni öz himayəniz altına alasınız, tainki mən öz ac külfətimin yanına qayıda biləm.

Eyni zamanda təvəqqe edirəm ki, Cavanşir və Şuşa uyezdləri müsəlman əhalisinin nümayəndəliyi ixtiyarını mənə vagüzar edəsiniz [tapşırasınız].

Salman Əlibəyov
18 dekabr 1918, Şuşa şəhəri

BAKI XƏBƏRLƏRİ

Miln cənablarının vürudu [gəlişi]

Balkan yarımadası ilə Qafqaziyada Ümum Müttəfiqlər qoşunu Baş koman-

danı Miln, dün gecə paytaxtımıza varid olmuşlardır [gəlmişdir]. Mehman, təntənəli bir surətdə istiqbal edilmişdir [qarşılanmışdır]. Qatar gəlmədən əvvəl vağzala Azərbaycan milisləri və ingilis əsgərlərindən ibarət fəxri qaraqol qonulmuş, vağzal Azərbaycan bayraqları ilə təzyin edilmişdi [bəzədilmişdi]. Generalı Azərbaycan Hökuməti tərəfindən Türuq və Məabir [Nəqliyyat və Rabitə] naziri, Daxiliyyə və Xariciyyə nazirləri müavinləri istiqbal etmişlərdir [qarşılamışlar].

Hökumət namından Xariciyyə naziri müavini Ziyadxanov cənabları böylə bir nitq irad etmişlərdir [söyləmişlər]:

“Cənabi-ali! Azərbaycan Hökuməti sizi və sizin şəxsinizdə böyük ingilis milliyyətini səmimiyyətlə təbrik edir. Bizim siyasi və ictimai xadimlərimiz bilirlər ki, öz millətimizin rifah və səadəti üçün ancaq mədəni millətlərin yaxın dostluğu ilə qüvvə taparız. Biz qəviyyən [möhkəm] etiqad ediriz ki, hürriyyətpərvər İngiltərə oğulları bizdən çox şad olarlar ki, bu gün Azərbaycan türkləri onları zəncir və kündə ilə bağlanmış qul kimi deyil, aliheyi-hürriyyətə [hürriyyət pərisinə] mədh oxuyaraqdan istiqbal edirlər. “Habeas korpus” və “Maqna xarta libertatum” (İngiltərədə qüruni-vüstada [orta əsrlərdə] verilmiş olan hürriyyətlər) kimi böyük yadigarlar, əsrlərdən bəri Taymis çayı kənarından həyat verici nuru ilə bütün cahanı işıqlandırır. İki aydan bəri paytaxtımızda bulunan İngiltərə nümayəndələri və başda duran general Tomsonun zəka və siyasi taktikası və millətlərin hüququna ehtiramı bizim vifaq [həmrəy] və sədaqətlə işləyəcəyimizə yaxşı bir rəhn və Azərbaycan camaatı hüququnun Ümumi Sülh Konfransında müdafiəsinə möhkəm təminatdır. Zati-alilərinizin kəndi səlahiyyətinizlə dostluğumuzu daha da möhkəmləşdirəcəyi ümidi ilə sözlərimi müsaidənizlə şu kəlmələrlə bitirəyim: Xoş gəlmişsiniz!”

General səmimi ifadə ilə cavab vermişdir:

“Mən buraya böyük Müttəfiq dövlətlər nümayəndəsi sifəti ilə gəldim. Məqsədimiz bu məmləkətdə sülh və ədaləti paydar [bərqərar] etməkdir. Müttəfiqlərin qələbəsi hüquq, ədalət və millətlərin təyini-müqəddərat ixtiyarı təmininin rəhnidir. Sülh Konfransında burası bəyan ediləcəkdir. İbraz etdiyiniz hüsn-istiqbaldan naşi [göstərdiyiniz xoş qarşılama üçün] təşəkkürümü bəyanla sizi cəsarətlə inandırıram heyəti-müraxxəsəniz [nümayəndə heyətiniz] hazırda Fransa yolundadır. Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsn-qəbul və hər dürlü müzahirət [köməklik] görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət və sənaətinin [sənayesinin] tərəqqisinə var qüvvəmizlə çalışacağız. Onlarla bərabər, əminəm ki, siz həmişə çalışacaqsınız qonşularınızla sülh və ədalət pozulmayacaqdır. Azərbaycana mənə göstərdiyi hüsn-qəbuldan naşi bir daha təşəkkür edirəm.”

Mehman, Tağıyevin evində yerləşdirilmişdir. Bu yaxınlarda Tazəşəhərə gedəcək və bir neçə gün orada qaldıqdan sonra yenə Bakıya qayıdacaqdır.

Türk mütəəllimələrinə [tələbələrinə]

Bakı Türk Məktəblərinin İttifaqı bununla cümə günü yanvar ayının 24-də saat 4 tamamda Birinci Realnı məktəbin binasında Bakı orta məktəblərində ox-

uyan türk müttəllimə xanımlarını (4-cü sinifdən yuxarı) ümumi iclasa dəvət edir. Rica olunur vaxtında gəlib gecikməyəsiniz.

İttifaq idarəsi

"Müsavat" firqəsinin Dağıstan Cümhuriyyəti Parlamanına teleqrafı

Dağıstan Millətləri İttifaqının Parlamanı sədrinə

"Müsavat" firqəsinin mərkəzi komitəsi, Dağıstan Millətləri İttifaqının Məclisi-Məbusanını ən-səmimülqəlb [səmimi qəlbdən] təbrik və təhniyət [mübarəkbadlıq] edir. Azərbaycanla ayrılmaz əlaqəsi olan hürriyyətpərvər Qafqaziya dağları qartallarının arzu və amalına əməl olunmaqda müvəffəqiyyətlər dilər. Firqə ümidvar olur ki, Dağıstan millətləri ilə Azərbaycanın ümumi mənafeyi gənc, demokratik və qardaş cümhuriyyətlərin mütə- qabil [qarşılıqlı] dostluğu üçün möhkəm bir vəsilə olar.

Mərkəzi Komitəsi sədri Rəsulzadə

Səhvən verilmiş bir icazənamə

Xaçaturov ilə Françeski adına İngiltərə Baş komandanı tərəfindən verilmiş icazənamə ilə Tiflisə bir vaqon qəzetə kağızı aparılmağa izin verilmiş imiş. Ərzaq Nəzarəti bu işdən xəbər tutub bu günlərdə həman icazənaməni imza edən ingilis komandanlığında Təftişat şöbəsi naçalniki leytenant Kreçleyin tərəfindən bunun nədən ötrü verildiyi barəsində sual olunub, məlum olmuş ki, məzkur [adı çəkilən] Xaçaturova verilən icazənamə səhvən verilmişdir. Kağız vaqonu hələ yola salınmamışdır. Nəzarət hökm edib ki, kağızı zəbt etsinlər.

Hadisat

* Ermənikəndində olan Poqos Kazarov polisəyə məlum edib ki, iki gecə əvvəl 6 nəfər tapança ilə müsəlləh [silahlanmış] erməni onun evinə gəlib həddə ilə 16870 manat pulunu alıb qaçıblar.

* Bazarnı küçədə, 85 nömrəli evin qabağında bir rus övrətinin meyiti tapılıbdır.

* Balaxanski küçədə 70 nömrəli evdə olan İsay Belenki polisəyə məlum edib ki, srağagün sübh tezdən Çornı-qoroda gedərkən Budaqovski küçədə 3 nəfər müsəlləh cavan erməni, qabağını kəsib güclə 1500 manat pulunu, paltosunu və gümüş papiros qabını alıb qaçmışlardır.

AZƏRBAYCANDA

Qalabazardan

(Lənkəran uyezdi)

* Dekabr ayının 20-də, gecə saat 8-də, 4 nəfər saldat bir zabitlə Qalabazara gəlib şirvanlı Məlik Mahmudun dükanını sındırıb bəzzaz [parça, arşınmalı] və tənbəki malının hamısını Nikolayevka kəndinə aparıblar. Zərər həştad min manatdır. Ərkivan komissarının qoyduğu qarovul və mühafizə əsgərləri də onlara imdad [kömək] etmiş.

* Dekabr ayının 22-də, gecə saat 9-da, Qalabazarın mühafizə əsgərləri Yeddioymaq kəndinin əhli Molla İsgəndəri qətlə yetiriblər. Rus-müsəlman davası olarkən, o mərhumu güllə atmaqlıqla itham edirmişlər.

* Ərkivan komissarı Qalabazarda sakin olub, orada mühafizə əsgərləri təyin etmiş, lakin onlar artıq dərəcədə camaa-

ta əziyyət və zülüm edirlər. Bazara yağ, düyü, un və buğda gətirən şəxslərə mane olurlar. Camaatı alış-veriş etməyə qoymurlar. Ərkivan komissarı orada olmayan zamanı hərəsi bir Nikolay olub, məxluqu döyüb pul alırlar.

Bazar günləri bazardan çıxan şəxsləri quldur dəstəsi kimi biçarə müsəlmanların yolların kəsib evlərinə apardığı şeyləri və pulların alıb buraxırlar.

Dekabrın 28-də Yusif bəyin anasından 225 manat pul alırlar.

Teymur bəy
Bayraməlibəyli

GÜRCÜSTANDA

Müsadirə edilmiş erməni pulları

Məlum olduğu üzrə, Tiflis banklarında ermənilərin külli miqdarda pulları saxlanılmaqdadır. Erməni-gürcü davasında Gürcüstan Hökuməti bu pulları müsadirə etmişdi. Yanvarın 16-da əqd edilən [baş tutan] konqre iclasında erməni vəkilləri, ermənilərlə gürcülər arasında müharibə başlanıldığı zaman müsadirə edilmiş erməni pullarının qaytarılması məsələsini qalxızmışlardır. Erməni vəkilləri bu məsələyə çox artıq əhəmiyyət vermişlərdir. Gürcü vəkilləri biləks [əksinə] bu məsələni xüsusi bir məsələ hesab etmişlərdir. Zira, bu pullar müharibə qanunu üzərinə müsadirə və hərbi bir mükafat hesab edilmişdir. Müharibə ilə gürcülərə dəyən zərərləri ödəmək məsələsi ilə bu müsadirə məsələsinin böyük əlaqəsi vardır. Gürcü vəkilləri tələb etmişlər ki, bu pul məsələsi konfransda həll edilməsin. Erməni hökumətinin pula ehtiyacı olduğunu nəzərə alan gürcü vəkilləri, erməni hökumətinin Gürcüstan Maliyyə Nəzarətinə müraciət etməsini təklif eyləmişlərdir.

Bu xüsusda bir çox danışıqdan və hər iki tərəfin nöqteyi-nəzəri bəlli olduqdan sonra Müttəfiqlər nümayəndələri gürcülərin nöqteyi-nəzərlərinə şərik olduqlarını bildirmişlərdir.

Böyləliklə, bu pul məsələsi konfrans müzakirəsindən çıxarılmışdır. Yanvarın 16-da hər iki cümhuriyyət nümayəndələrinin maliyyə məsələsi xüsusunda şuraları vaqe olmuşdur.

Könüllü ordu ilə saziş

Potidən xəbər verirlər ki, general Denikinin Könüllü ordusu ilə gürcü dəstələri arasında saziş hüsula [əmələ] gəlmişdir. Gürcü dəstələri müəyyən sərhəd xətlərini devirirlər.

BİZƏ YAZIRLAR

Qars, Ərdahan və Batumda

Türkiyə ilə Etilaf [Antanta] dövlətləri arasında əqd edilən mütarikə şəraiti mövcibincə [imzalanan atəşkəs şərtlərinə əsasən], Qars, Ərdəhan və Batum həvalisi [ətrafları] təxliyə edilərək, ingilis quvayi-əsgəriyyəsinə [ordusuna] dövr edilməsi və idareyi-mülkiyyənin [mülki idarənin] dəxi Türkiyə dövlətində qalması göstərilmiş idi. Fəqət İstanbul ilə Etilaf dövlətlərinin müzakirəsi nəticəsində idareyi-mülkiyyənin dəxi Etilaf dövlətlərinə tərki qərarlaşdırılmış olmaqla, əxirən [son vaxtlarda] türk hökuməti-mülkiyyəsi möv-

qeyini təxliyə etmişdir. İngiltərə dövləti tərəfindən Batum oblastı general-qubernatorluğuna Kuk Koliss təyin edilmiş və müşarünileyh [adı çəkilən şəxs] də Batum Rus Şurayi-Milli rəisi Maslovun rəyasətində olmaq üzrə bir heyəti-idarə təşkil etmişdir. Məzkur [adı çəkilən] idarəyə hər millətdən ikişər zat daxil olduğu halda Batum oblastında islamların əksəriyyəti təşkil etmələrinə müxalif olaraq bir zat daxil ola bilmişdir. Məhəlli [yerli] islam məclisi-idarəsi [idarə məclisi] buna qarşı protesto edərək işbu heyəti-idarə ilə heç bir münasibətə girişməyəcəyini ingilis general-qubernatoruna bildirmişdir. 130000 nüfusu təcavüz edən [sayı 130000 nəfəri keçən] islam əhali, Batum həvalisində kəndinə məxsus hər uçastokda bir idareyi-mülkiyyə təşkil edərək hüquqi-milliyyələrini müdafiə və mühafizə etməkdədirlər.

Qarsda isə vəziyyət daha başqa bir haldadır. Dekabrın 16-da daha Qarsa gələn ingilis generalı, erməni camaat xadimlərindən Karqanovun rəyasəti altında bütün üzvləri ermənilərdən olmaq üzrə bir heyəti-idarə təşkil etmişdir. Feilən Qarsda bir erməni hökuməti təşəkkül etmişdir. İşbu erməni hökumətinə islamlar protesto etməkdədirlər. Qars oblastı islamlarının Qars şəhərində ümumi və mərkəzi parlamentoları vardır. İşbu parlamento Qars oblastının idarəsini tənzim etməkdədir.

Ərdahanda isə bütün idarə yerli islam əhalisinin əlindədir. Qars, Batum və Ərdahan islamlarının ingilis məhfillərinə [dairələrinə] xitabən göndərdikləri müxtirə [xəbərdarlıq] və protestolara son zamanlarda diqqət və əhəmiyyət verilməkdədir. Bir ingilis məhfilləri hal-hazırda təşkil edilən idarənin müvəqqəti olduğunu və yaxın bir zamanda əksəriyyətin hüququnu təmin etmək üzrə bir idarə təş- kil ediləcəyini bəyan etməkdədirlər.

Qars islamları Sülhi-Ümumi konfransına iştirak etmək üzrə iki mürəxxəs [nümayəndə] seçib İstanbula göndərmişlərdir. Batum oblastı islamları dəxi yaxında mürəxxəslərini göndərərək, Qars mürəxxəsləri ilə birlikdə hərəkət etməyi tərcih etməkdədirlər.

TEATRO VƏ MUSİQİ

* Bu gün cümə günü, yanvar ayının 24-də axşam Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Hökumət Teatrında (sabiq Mailov) "Qəzavat" faciəsi mövqeyi-tamaşaya qoyulacaqdır. Əhməd bəyin rolunu məşhur artist Hüseyn Ərəblinski ifa edəcəkdir. "Qəzavat" faciəsi dağıstanlıların hürriyyət uğrunda fədakarana bir surətdə mübarizə etdiklərini gözəlcə təsvir edən şükuhlu [təntənəli] və tarixi bir teatrodur.

* Eşitdiyimizə görə Maarif naziri həzrətləri teatro işində yeni bir tərəqqi qədəmi və əhalimizi Avropa operaları ilə aşina [tanış] etmək təşəbbüsü olmaq üzrə Avropa operalarından birinin türkcəyə tərcüməsini Üzeyir bəy Hacıbəyov cənablarına həvalə etmişdir.

Məlum olsun ki, Qafqaziyada olan cümhuriyyətlərdən Avropa operalarını öz dillərində mövqeyi-tamaşaya qoyanlardan birincisi gürcü qonşularımızdır ki, "Demon", "Karmen" kimi operaları neçə sənədir ki, tərcümə etmişlərdir.

İDARƏDƏN CAVABLAR

Mirzə Abbas Şahbazzadə əfəndiyə: Məqalənizi kağızın ancaq bir üzündə və mürəkkəblə yazmalısınız.

“Ağıldan qıvraq” əfəndiyə: Görünür ki, məqalinizi paketə qoyub adresini yazarkən “Şeypur” jurnalı əvəzinə səhvən “Azərbaycan” qəzetəsi yazıbsınız. Səhvinizi düzəltmək istəsəniz zəhmətini biz qəbul edib “Şeypur”a ötürərik.

Qaxlı Sədrəddin əfəndiyə: Elmin fəzilәti və müəllimlik vəzifəsi haqqında çox danışılıbdır. Bu gün bunu heç kəs inkar etməyir. Olduğunuz yerin ehtiyacati-zəruriyyəsindən və həvadisatından [zəruri ehtiyaclarından və hadisələrindən] bizə xəbər versəniz, mənfəətli iş görmüş olarsınız.

Mirhəsən Axundzadə əfəndiyə: Məktəbi-hərbiyyəmizdə təlim işləri rusca gedir, deyə dövran edən şayiat [gəzən şayiələr] məlumumuz olduğu üzrə əsassızdır.

“Bir şamaxılı” əfəndiyə: Yazdığınız azdır. Şayani-diqqət vəq’ələrdən [hadisələrdən] bir qədər də yazıb göndəriniz ki, hamını bir yerdə çap edək.

Mehmanxaneyi-“Məhəmmədiyyə”

Qubernski küçədə “Azərbaycan” mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

Kamali-ehtiramla İbrahimov

Doktor İ. Q. Sibiroviç

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

2658

Doktor Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

İnna lillahi...

səh. 399. "İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq". Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

Satılır

səh. 399. "BORN": "Bakı Rus Neft Cəmiyyəti" (Бакинское общество русской нефти - БОРН).

Tətil etməlimidir?

səh. 401. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

Teleqraf xəbərləri

səh. 403. "Manueli kral elan etmişlərdi... ": burada söhbət 1908-1910-cu illərdə hakimiyyətdə olan axırıncı Portuqaliya kralı II Manueldən gedir.

"...Avstriya flotu Korfuya...": qəzetdə "Korfu" yerinə səhvən "Korku" getmişdir.

"Ledebur və Meyer": qəzetdə "Ledeburq və Mebyer" kimi getmişdir; söhbət Alman sosial-demokratlarının liderləri olan Georq Ledebur və Ernst Meyerdən gedir.

"Freyheyt": güman ki, Almaniya Müstəqil Sosial-Demokrat Partiyasının orqanı olan "Freyheyt" [Freiheit - Azadlıq] qəzeti nəzərdə tutulur.

Sülh ətrafında

səh. 403. Qar dö-Orse [Gare d'Orsay]: Parisdə 1900-cü ildə dəmiryol vağzalı və mehmanxana kimi tikilən bina. 1986-cı ildən Orse muzeyi [Musée d'Orsay] kimi fəaliyyət göstərir.

Şuşa şəhəri əhli Salman bəy Əlibəyovun...

səh. 406. Əslində özünün dağıdıcı fəaliyyətini elə öz ərizələrində ifşa edən Salman Əlibəyov Qarabağda antimilli "inqilabi" fəaliyyətlə məşğul olmuş, bu fəaliyyətində əsasən erməni "inqilabçıları" ilə əlbir olmuşdur. "Lenin milli siyasətinin" Qarabağda "təntənəsindən" (!) bəhs edən mənbədə Salman Əlibəyov haqqında belə məlumat verilir: "Dağlıq Qarabağda bəylərə və xanlara, alman-türk müdaxiləçilərinə qarşı mübarizə aparan silahlı kəndli dəstələrinə o illərdə Salman Əlibəyov başçılıq edirdi. Hələ 1906-cı ildə o, Qarabağ bəylərinin tələbi ilə Şuşadan sürgün edilmişdi, ancaq qaçmağa müvəffəq olmuş və yenə gizli inqilabi fəaliyyətlə məşğul olmağa başlamışdı." (İ. S. Müslümov, İ. M. Mosesova, Y. Q. Sarkisyan, "Sovetskiy Naqornıy Karabax: torjestvo Leninskoy natsionalnoy politiki" [Sovet Dağlıq Qarabağı: Lenin milli siyasətinin təntənəsi], "Azərnəşr", Bakı, 1983.) Digər yandan, Salman Əlibəyovun öz ərizələrində milli hissləri qızışdırmaqda günahlandırdığı adamlar haqqında son illərdə aşkar edilən arxiv materialları, Əlibəyovun qərəzli mövqe tutduğunu və bu adamları qaralamaqla məşğul olduğunu sübut edir.

Bakı xəbərləri

səh. 409. "Miln cənablarının vürudu": burada söhbət Corc Milndən [George Milne] gedir; qəzetdə xəbər boyu "Miln" yerinə "Mil" yazılmışdır.

səh. 410. "Habeas korpus": İngiltərə Parlamentinin 1679-cu ildə qəbul etdiyi və Böyük Britaniya Konstitusiyasının tərkib hissəsi olan insan hüquqları aktı "Habeas korpus akt" [Habeas Corpus Act] nəzərdə tutulur.

"Maqna xarta libertatum": Böyük Azadlıqlar Xartiyası [Magna Carta Libertatum]: İngiltərədə 1215-ci ildə tərtib edilən

siyasi-hüquqi sənəd. İngiltərənin azad əhalisinin hüquqlarını qoruyan və kralın səlahiyyətlərini məhdudlaşdıran bu sənəd, insan hüquqları anlayışının inkişafında mühüm rol oynamışdır.

“Bakı Türk Məktəblərinin İttifaqı”: güman ki, “Bakı Türk Mütəəllimlərinin İttifaqı” olmalıdır.

Teatro və musiqi

səh. 413. “Qəzavat”: İslam dinini qorumaq və yaymaq məqsədi ilə müsəlman olmayanlarla aparılan müharibə mənasına gələn “qəza” sözünün cəm halı. Burada S. Lanskoyun “Qəzavat” pyesindən söhbət gedir. Pyesin tərcüməçisi Əbdürrəhim bəy Haqverdiyev idi.

Bazar, 26 yanvar 1919-cu il, nömrə 97

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 23 rəbiülaxir sənə 1337. 26 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əlisahib Ələkbərov öz sevgili qardaşı **Əlimuxtar Ələkbərovun** uzun müddət naxoş yatdıqdan sonra vaxtsız vəfat etdiyini kamali-təhəssür [böyük bir kədər] və hüznlə öz qövm-əqrəbalarına və dost-aşnalarına xəbər verir. Təşyeyi-cənazə [cənazənin yola salınması] bu gün yekşənbə [bazar] günü yanvar ayının 26-sında səhər saat 10-un yarısında öz xüsusi evlərindən (Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə 22-70 nömrəli ev) qaldırılıb Təzəpirə gətiriləcək.

2659

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağahüseyn Ələkbərov və Ələddin Mustafayev birincinin əmisi oğlu, ikincinin yoldaşı **Əlimuxtar Ələkbərovun** vaxtsız vəfat etdiyini öz qövm-əqrəbalarına və dost-aşnalarına kamali-hüzn və təhəssürlə xəbər verirlər. Təşyeyi-cənazə yekşənbə günü yanvar ayının 26-sında səhər saat 10-un yarısında öz evlərindən (Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə 22-70 nömrəli ev) qaldırılıb Təzəpir məscidinə gətiriləcək.

2660

QİSMİ-RƏSMİ
[RƏSMİ HİSSƏ]

Məsai (Zəhmət) nazirinin icbari qərardadı

Bakı rayonunda Fabrika Müfəttişliyinin qanunu şamil olan mədən sahiblərinə təklif edirəm ki, bu qərardad elan edilən gündən bir həftə müddətinə qədər öz mədənlərinin idarəsini tapşırdıqları zaman şəxslərin siyahısını və o şəxslərin mədənlər haqqındakı qanun qərardadının (1913-cü ildə nəşr edilmiş Rusiya qanunlarının 11-ci cildi, 2-nci maddəsi) və müəssisələrdə təhlükəsiz işi aparmaq üçün icbari qərardad qanunlara əməl etməkdən ötrü verdikləri məsuliyyət iltizamnamələrini Bakı quberniyasının fabrika baş müdirinə təqdim etməlidirlər. Gələcəkdə mədən sahibləri, mədən müdirləri haqqında verilən icbari qərardadların dürüst ifa edilməsinə nəzarət etməyə (mədənlər haqqında verilən qanunların 90-92 maddələri) və bundan əlavə, bu tarixdən bir ay müddətinə qədər fabrika, zavod müəssisələri haqqındakı qanun və tələbata müvafiq öz mədənlərini qaydaya salmağa məcbur edilirlər. Bakı quber-

niyasının fabrika müdirinə təklif edirəm ki, göstərilən müddətlər bitdiyi zaman həmin qərardada əməl etməməkdə müqəssir olanları qanuni surətdə məsuliyyətə cəlb etsin.

Məsai naziri A. Səfikürdski
Bakı quberniyasının fabrika baş müdiri vəzifəsini ifa edən V. Kultepin
Bakı, 21 yanvar 1919

TELEQRAF XƏBƏRLƏRİ

Sülh Konfransı Rusiya haqqında

Sülh Konfransının yanvarın 16-da vaqe olan iclasında Rusiya əhvalı müzakirə edilib, saziş hüsula gəlmişdir. Bu saziş üzrə Rusiya məsələsinin ümumiyyətlə müzakirə edilməsi üçün hökumətlər Rusiya haqqında əllərində olan məlumatdan bir-birlərini xəbərdar etməlidirlər.

Beynəlmiləl Sosialistlər Konfransı

Berndən xəbər verirlər ki, İsveçrə sosialistlərinin razılığına görə, Beynəlmiləl Sosialist Konqresi yanvarın 27-də Berndə təyin edilmişdir. Eyni zamanda, Beynəlmiləl Sendikaçılar Konqresi iclası açılacaqdır.

Axalkələk dairəsində

Axalkələkdən Tiflisə verilən xəbərlərə görə, bu axır həftə müddətində sərhəd yaxınlığında qarışıqlıq müşahidə edilir. Bir neçə gün bundan irəli Potsxov rayonunda müsəlləh [silahlı] bir dəstə sərhəd qaraqolxanamıza hücum edib, altı nəfər saldatı əsir etmişdir. Müsəlləh dəstə arasında əsgərlər olduğu haqqında məlumat vardır. Bu əhvalatdan sonra Axalkələk uyezdi sərhədində olan müsəlman kəndlərində də qarışıqlıq başlanmışdır. Müsəlləh dəstənin hücum etdiyi yerə Axalkələkdən müsəlləh qüvvə göndərilmişdir. Bizim qüvvəmiz ətraf dağlardan atəşə tutulub Mareli kəndinə çəkilməyə məcbur olmuşdur. Burada bizim əsgərlərimiz mühasirə edilib, atəşə tutulmuşdur. Əsgərlərimiz müsəlləh dəstəni yarıb geri çəkilməyə müvəffəq olmuşlardır.

Soçi əhvalı

Soçidən teleqrafla xəbər verirlər ki, burada sağ ünsürlər Rus Milli Şurası təşkil etməkdədirlər. Demokratlar bu işdə iştirak etməyirlər. Soçi nahiyəsinin Könüllü ordu tərəfindən zəbt edilən hissəsindən kəndlilər gürcü hökuməti ilə İngiltərə heyəti namına [adına] məktublar yazıb, əhalini Könüllü ordu əsgərlərinin təcavüzatından mühafizə etməyi xahiş edirlər. Soçi Fəhlələr İttifaqı hamı milli şuraların qapanması tərəfdarıdır.

Ukrayna hökumətinin bolşeviklərə ultimatumu

Yanvarın 21-də Potidən teleqrafla xəbər verirlər ki, Ukrayna Direktoriyası, Şura hökumətinə bir nota verib, 48 saat müddətində bu aşağıda yazılan suallara cavab verilməsini ultimatumvari tələb etmişdir:

1) Rusiya Şura hökuməti, Ukrayna hökuməti əleyhinə olan hərəkati-hərbiyyənin tezliklə dayandırılmasına razıdırmı?

2) Hərgah razı isə tezliklə öz əsgər-

lərini Ukrayna dairəsindən çıxarmalıdır. Ukrayna hökuməti, Şura hökuməti nümayəndələri ilə sülh müzakiratı açılmasına və Rusiya ilə mal dəyişməyə başlanmasına hazırdır.

Hərgah bu suallara təyin edilən müddətdə cavab verilməsə, Ukrayna hökuməti bu işi rəsmi surətdə müharibə elanı ədd [hesab] edəcəkdir.

Təzə müharibələr

Litva qəzetələri yazırlar ki, Ukrayna sərhədini keçib və Lvov şəhərinə gələnlərin rəvayətinə görə, Ternopol oblastında [vilayətində] Ukrayna sərhədini keçən qüvvətli polyak dəstələri ilə külli miqdarda cəm olmuş ukraynalılar arasında təzə və qızğın müharibə başlanmışdır.

Gürcü heyəti-mürəxxəsəsi

Gürcüstan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Londondan çıxıb Parisə əzimət etmişdir [yola düşmüşdür].

QƏZETƏLƏRDƏN

Ukraynada Azərbaycan Komissarlığı

Ukraynada yaşayan Azərbaycan və Dağıstan vətəndaşlarının mənafeyini rəsmi surətdə mühafizə etməkdən ötrü Kiyevdə Azərbaycan Komissarlığı təşkil edilmişdir. Komissarlıq rəisi Cəlil Sadiqov, müavini doktor Yusif Salehov, katib Mircəlal Mirtağıyevdir. Məzkur [adı çəkilən] Komissarlıq, Azərbaycan Cümhuriyyətinin rəsmi nümayəndəliyi sifətilə Ukrayna hökuməti tərəfindən təsdiq edilmişdir. (Bu Komissarlıq hələ Azərbaycan istiqlalı elan edilmədən "Müsavat"ın Kiyev şöbəsi sifətilə keçən ildən bəri azərbaycanlıları müdafiə edirdi.)

İngiltərə Baş komandanının Əhməd İzzət paşaya teleqrafı

Mondrosda [Mudrosda] olan İngiltərə qoşunlarının Baş komandanı, İstanbul bəhriyyə [donanma] zabiti Ceylton vasitəsilə Əhməd İzzət paşaya bu məzmunda bir teleqraf göndərmişdir:

"Hökumətimin mənə verdiyi vəkalətə görə Türkiyə hökumətinə xəbər verirəm ki, mütarikə şəraitinin [atəşkəs şərtlərinin] 16-cı maddəsinə əməl olunduqda İngiltərə hökuməti mümkün qədər Türkiyənin şərəf və heysiyyətini gözləməklə bərabər, indiki ağır vəziyyətdən xilas olmasına səy edəcəkdir. Ümidvaram ki, Türkiyə hökuməti İngiltərənin səmimanə hərəkatına şübhə etməz."

"Minbər" qəzetəsi bu teleqrafı dərc və mütarikə şəraitinin 16-cı maddəsini böylə şərh edir:

"Hicaz, Yəmən, Suriya və İraqda olan türk əsgərləri tezliklə oradakı Müttəfiq komandanlığına tabe olmalıdırlar. Kadıköydə olan əsgərlərə gəldikdə, mütarikə şəraitinin 5-ci maddəsinə görə asayiş mühafizəsinə lazım əsgərlərdən başqa qalanları geri getməlidir."

* Smolensk - Yanvarın 14-də Ukrayna şura qoşunları tərəfindən Çerniqov işğal edilmişdir.

Gürcüstan Hərbi vəzirinə [Müdafiə nazirinə] sui-qəsd

"Ertoba" qəzetəsinin xəbər qismində böylə xəbər dərc edilmişdir:

Telavidən mahal komissarından bu məzmunda teleqraf alınmışdır:

“Yanvarın 16-da axşam saat 9-da Gürcüstan Hərbiyyə vəziri Giorqadzeni mövqifə [stansiyaya] müşaiyət edərkən, Maxaradze nam [adlı] bir gürcünün əlində patlanğıç bomba kəşf eylədim. Bu barədə istintaq davam edir.”

Tiflis-London

Bu yaxın zamanlarda Tiflis ilə London arasında simsiz teleqraf müxabirəsi [əlaqəsi] başlanacaqdır.

Erməni qoşunlarının tərxisi

Erməni qəzetələrinin məlumatına nəzərən, Ermənistanda xüsusi surətdə erməni qoşunları silah altından çıxarılır amma eyni zamanda 43 yaşınadək olan ermənilərin həpsinin siyahısı tutulur və ermənilərə bəyan edilir ki, hər kəs siyahıya yazılmasa, tənbehə düçar olacaqdır.

Gürcüstanda general Milnin istiqbalı [qarşılanması]

İngiltərənin Şərq cəbhəsindəki Baş komandanı general Miln, Gürcüstan Baş vəzirini [nazirini] ziyarət eyləmişdir. Gürcüstan Baş vəziri ilə Milnin görüşməsi sədrin kabinəsində vaqe olmuşdur. Gürcüstan Baş vəziri general Milnə bu məzmunda bir nitq irad etmişdir [söyləmişdir]:

“Gürcüstan hökuməti namından, möhtərəm general, sizi təbrik edib deyirəm: Xoş gəlmişsiniz! Gürcüstan hökuməti bu etiqaddadır ki, siz Gürcüstanla olan əlaqənizi şayiata [şayiələrə] deyil, həqiqətə müstənidən [istinad edərək] təşxis edirsiniz [müəyyənləşdirirsiniz]. Bunun üçün ən başlıca sübut odur ki, böyük inqilab zamanında böyük gürcü milləti özünü böyük hərc-mərclikdən xilas eylədi. Biz gürcü milləti İngiltərənin Qafqaziyada olan Baş komandanı general Forester-Volkerdən son dərəcə məmnunuq. Çünki bu general birinci zatdır ki, Gürcüstan halına bələd olub, özümüz də İngiltərənin bizimlə olan əlaqəsini düşünə bilmişik. Hər iki millətin bu cür yekdigərini [bir-birini] düşünməsi bizi ümidvar edir ki, gələcəkdə bu millətlər yekdigəri ilə dostanə əlaqədə bulunacaqdırlar. Biz təkrar, möhtərəm general, sizə ərz ediriz ki, xoş gəlmişsiniz!”

Jordaniyanın nitqinə müqabil, general Miln böylə cavab vermişdir:

“Biz buraya sizin böyük dostunuz və müttəfiqiniz sifəti ilə gəldik. Bizim vəkilimiz general Orter hər bir iqdamatında [addımında] böyük etibara malikdir. Ümidvaram ki o, İngiltərənin sizin vətəninizdə bulunmaqdan nə məqsəddə olduğunu sizə andırar. Sizin və bizim düşmənimiz birdir. Onlar almanlar və bolşeviklərdən ibarətdir. Bu iki qüvvənin hər ikisi qanuna və nizama ziddir. Mən təkrar edirəm, biz dost sifətilə buraya gəlmişik. Bizim başqa bəhanəmiz yoxdur. Mən bunu da əlavə edirəm ki, biz qüvvəmiz gələn müavinəti [gücümüz çatan köməkliyi] edəcəyiz amma siz bu barədə öz müavinətinizi əsirgəməməlisiniz. Mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə almanlar Qafqaziyadan çıxmalıdırlar. Nə qədər onlar tez getsələr, bir o qədər İngiltərənin sizə meyil və məhəbbəti artıq olacaqdır. Bir dəfə də Müttəfiqlər namından sizi, yəni Gürcüs-

tan nümayəndəsi olmaq sifətilə zati-alilərinizi təbrik edirəm."

Gürcüstanın Xariciyyə vəziri Ərdəhan mahalı barəsində general Milnə vüsətli [geniş] məlumat vermişdir. Xariciyyə vəziri bəyan eyləmişdir ki, Ərdəhan mahalından Gürcüstan torpağına türk əsakiri [əsgərləri] hücum edirlər. Bunların başında general Xəlil bəy durur.

Bu sözlərə cavab olaraq general Miln demişdir ki, Türkiyə tərəfindən edilən təcavüzlərə yol verilə bilməz. Gürcüstan sərhədini mühafizə etmək üçün ən ciddi tədbirlər ittixaz ediləcəkdir [tədbirlər görüləcəkdir].

İngiltərə müstəmləkələri və Cəmiyyəti-Əqvam

Sülh Konfransında İngiltərənin muxtariyyətli müstəmləkələri Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] zümrəsinə daxil olaraq, bunlar müstəqil millətlər hüququna malik olacaqdırlar. İngiltərə hökuməti isə onların beynəlmiləl hüququnu təftiş edə biləcəkdirlər.

İspaniyada

İspaniyada gəldikcə hərəkat artmaqdadır. İspaniyada yaşayan ruslar şiddətli nəzarət altına alınmışlardır.

* "Tayms" qəzetəsinə xəbər verilir ki, sülhi-ümumi əqd edilənədək [imzalananadək] hər halda bir milyon ingilis əsgərləri silah altında olmalıdır.

* Sülh Konqresində Rusiya məsələsi müzakirə edilərkən, Ali Şura bu məsələdə Müttəfiqlər arasında etilaf [uzlaşma] [əmələ] gəlməsinə çox çalışmışdır.

ŞURAYİ-VÜKƏLADA
[NAZİRLƏR KABİNETİNDƏ]

22 yanvar 1919 sənə

Rəisi-vükəla [Baş nazir] həzrətləri Dağıstanlılar Cümhuriyyəti Hökumətinə 10 milyon rublə istiqraz vermək və Zaqafqaziya bonları buraxılmasında iştirak etməyə riza vermək barəsində məruzə oxuduqdan sonra qət edilmişdir:

Əsas etibarı ilə Dağıstanlılar Cümhuriyyəti Hökumətinə 10 milyon borc verməyi qəbul etmək, fəqət Maliyyə Nəzarətinə tapşırılsın ki, Türüq və Məabir [Rabitə və Nəqliyyat] Nəzarəti, Ticarət və Sənaye Nəzarəti nümayəndələri və Dövlət Müfəttişliyi nümayəndəsi ilə bərabər istiqraz vermək şəraiti tərtibi və hökumətə təqdimi barəsində iqdamatda bulunsunlar [addımlar atsınlar]. Müqavilənamə əqd edilənədək Dağıstanlılar Cümhuriyyəti hökumətinə 2 milyon pul verilsin. İşbu para barəsində Parlamanın Senoren Konventinə [Ağsaqqallar Şurasına] məlumat vermək. Sonra veriləcək para barəsində iki dövlət Parlamanları və hökumətləri tərəfindən müqavilənamə əqd ediləcəkdir.

Dağıstanlılar Cümhuriyyəti Hökumətin[in] Zaqafqaziya bonlarında iştirak etmək təşəbbüsatını rədd etmək.

22 yanvar 1919 sənə

Daxiliyyə naziri həzrətləri Bakı Bələdiyyə İdarəsinə 4 milyon borc vermək haqqında məruzə pişnihad [təqdim] etdikdən sonra qət edilmişdir:

Daxiliyyə naziri həzrətləri tərəfindən Bakı Bələdiyyə İdarəsinə 4 milyon borc pul vermək haqqında pişnihad edilən

məruzəni təsvib etmək [bəyənmək] və işbu qanun layihəsini Parlamana idxal etmək, o vaxtadək Parlaman Senoren Konventi etilafı [razılığı] ilə həman borc hesabına bir milyon rublə pul buraxmalı.

22 yanvar 1919 sənə

Daxiliyyə naziri həzrətlərinin 1918-ci sənəsinin traktor vergisi vaxtını 1919-cu sənəyədək uzatmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

1918-ci və 1919-cu sənələr traktor vergisi vaxtını işbu 1919-cu sənənin 15 fevralınadək uzatmalı.

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Ticarət və Sənaye Nəzarətində

Ticarət və Sənaye naziri həzrətləri əmri mövcibincə [əsasında] işbu kanunisaninin [yanvarın] 25-dən etibarən müvəqqəti olaraq mal mübadiləsinə dair müqavilənamələr əqdi [imzalanması] dayandırılmışdır.

Məsai Nəzarətində

* Maliyyə Nəzarəti, Məsai [Əmək] Nəzarətinə müraciətən rica etmişdir ki, Maliyyə Nəzarətinin Maliyyə və büdcə şöbəsinə Nəzarət tərəfindən pişnihad [təqdim] edilən məlumat təcili surətdə göndərilsin.

* Məsai Nəzarəti, Maliyyə və büdcə şöbəsinə nümayəndə göndərmək haqqında Maliyyə Nəzarətinə xəbər vermişdir ki, Şurayi-Vükəlanın [Nazirlər Kabinetinin] 15 yanvar qətnaməsinə baxmayaraq, bu vaxtadək Nəzarət dəftərxanası təşkili üçün para buraxılmadığından, nümayəndə göndərə bilməyəcəkdir.

* Məsai Nəzarəti müvəqqəti olaraq Mirbabayevin mülkündə, Post və Teleqraf Nəzarətində yerləşdirilmişdir.

SALMAN BƏY KİMDİR?

Keçən nömrəmizdə Salman bəy Əlibəyovun danosa bənzər “ərizə”sini dərc etmişdik. Bu ərizənin mahiyyətini anlamaq üçün əlbəttə ərizə sahibinin kim olduğunu tanımaq icab edir. Buna görədir ki, sərlövhə intixab etdiyimiz [seçdiyimiz] “Salman bəy kimdir?” sualına burada cavab vermək istəriz.

İlk dəfə mən mütəəssifanə [təəssüf ki], Salman bəylə tanış oldum Şuşa İcraiyyə Komitəsində. (Bu komitəni ermənilər, indi anlaşıldığı məqsədlə, Qarabağ Komitəsi təsmiyə etmişdilər [adlandırmışdılar]. Şuşalılar bu sözün mənasını indi anlasınlar gərək.)

Bir iclasda “Qarabağ” icra komitəsi əsas etibarı ilə 12 erməni və 12 müsəlmandan mütəşəkkil ikən, müəyyən bir kələklə ermənilər öylə etmişdilər ki, komitədə müsəlman nümayəndəsi 12, erməni nümayəndəsi 35 olmuşdu. Bu münasibətlə müsəlmanlar icra komitəsinə protesto ilə bərabər, nümayəndəlik miqdaratının bərabərləşdirilməsini tələb edirlərdi. Məzuniyyətə getmiş ikən, tələbələr nümayəndəsi olmaq üzrə həman iclasda mən dəxi var idim. Burada birinci dəfə olaraq Salman bəyi tanıdım.

O, dədə-babadan bəy, arvad tərəfi dəxi bəyzadələrdən olan əsl bir bəydir.

Fəqət zəmanəmizin bəyləri ilə Salman bəyin fərqi budur ki, birincilər düz-doğru müəyyən məslək sahibi, müəyyən sinif tərəfdarı ikən, Salman bəy "ümmülvəqt" denilən bir adamdır ki, yel hangi tərəfdən əsərsə o tərəfə əyilər. Məsələn 1917-ci il ibtidaları [əvvəlləri], fevral inqilabının elam [elan] etdiyi hürriyyətləri Zaqafqaziyanın qaranlıq guşələrinə təbşir edərkən [müjdələyərkən], Salman bəyi heç kəs, hətta yaxın dost və qövmləri [qohumları] tanımazdılar. Zira simayi-həqiqiyyəsini [əsl simasını] göstərməyə qorxurdu.

1917 sənəsinin yay fəsli gəldi. Artıq Salman bəy kimiləri Rusiya inqilabının möhkəmləşdiyini hiss etdilər. Bu və onun kimiləri mütləq "sosialist" kəsildilər. Salman bəy də bu cərəyana tabe olaraq sosialist çıxdı. Bu vaxtdan etibarən Salman bəy fəaliyyətə başladı. Birinci müvəffəqiyyətli qədəmi bundan ibarət oldu ki, Gövhər Ağanın "Yuxarı" məscidində (Şuşada), Mir Həsən Vəzirov kompaniyasında birər nitq söyləyərək, bir qədər bəylərdən, xanlardan, burjuylardan, möhtəkirlərdən bəhs etdi və həman gündən etibarən xalq içində təbliğata başladı. Nəticəsi də bu oldu ki, ertəsi gün şəhərin bazarında baqqallardan ibarət olan burjuylara qarşı bir para nagüvara [xoşagəlməz] işlər əmələ gəldi. Bu zəminə üzərinə Şuşada böyük müşkülat törənəcəyi gözlənirdi, fəqət bəzi şəxslərin əks təbliğat və fəaliyyəti iğtişaşın önünü aldı.

Salman bəy fəaliyyətinin ikinci dövrü Cavanşir qəzasında oldu. Ol vəqt bütün Şuşa uyezdində seçki icra edilirdi. Salman bəy mühüm bir məsələnin həllində iştirak etmək üçün Cavanşir uyezdindən Levon Atabekyanın seçilməsinə çalışdı və müvəffəq oldu. Çünki, müəyyən firqədən bunun üçün məvacib alan tutma agent idi.

Daha sonra oktyabr axırlarında bolşeviklər Petroqrad hökumətini əllərinə alaraq Şaumyanı Qafqaziya canişini elan etdikdə, meydan daha da genişləndi. Bu dəfə tavariş Şaumyan Salman bəyin binagüzarlığına [sərəncamına] türk dilində nəşr edilmiş olan "Müsəlman kəndli yoldaşlara" xitab edən intibahnamələrdən [vərəqələrdən] bir neçə yüz min göndərdi. Şübhəsiz ki, neçə dəstə intibahnamə ilə bərabər qospodin yepiskop Vağan ilə "sülhpərvər" Məlik-Şahnazarov vasitəsilə bir dəstə də Nikolay yüzlüyü göndərdi. Salman bəy yüzlükləri cibinə qoyub, intibahnamələri avtomobilə yığıb, Şuşa uyezdinin Üçüncü uçastokuna getdi.

Ağdamın 20-30 verstliyində, Azərbaycana hətta bütün Rusiya və bir çox sair məmləkətlərə deyil, Amerikanın Nyu-York, Vaşinqton həvalisində [tərəflərində] olmağa layiq bir yer var. Bu kəndin özünə məxsus post-teleqraf kantoru, biri Ağdama, digəri Şıx Qərbənd mövqifinə [stansiyasına] olmaq üzrə iki şose yolu, xəstəxanası, böyük məktəbi, pambıq və sairə zavodu, ziraətə məxsus fənnin son ixtiraatından olunan makina və sair ləvazimatı, elektrik işığı və mühərrikləri vardı. Bu kəndin adına "Hindarxı" deyərlərdi. Salman bəy Şaumyanın müraciətnamələrini götürüb həman bu kəndə və onun həvalisinə gəlmişdi.

Bir aydan sonra məzkur [adı keçən] məmur [abadan] və abad kənddən ancaq bir xarabazar qalmışdı.

Sarıcalıda bəyləri kənddən qovub on minlərcə put taxıl və pambıqları qarət edilmişdi. Mirzəhaqverdi kəndindən Əfşara (bu iki kəndin arası 5 verstdən artıq deyil) getmək qorxusuz deyildi. Qətl və qarət hər qədəmdə hökmfərma idi [hökm sürürdü]. Çünki hər kəsin libası təzə və nəğd pulu 100 manatdan artıq olsa, o adam “burjuy” idi. Bu da həman Salman bəy Əlibəyovun bir aylıq fəaliyyəti nəticəsi idi. Bir aydan sonra o ətrafda quldurdan və qaçaqdan başqa “tovariş” qalmamışdı.

1918 sənəsi yay fəsli gəldi. Azərbaycan müstəqillən elan edilərək Azərbaycan Hökuməti təşkil olundu. Hələ Azərbaycan Hökumətinin əmri hər yerdə cari deyildi. Lakin xalq yavaş-yavaş xeyir və şərini qanmağa, dostu ilə düşmənini tanımağa başlayırdı. O zamanlar idi ki, hələ bütün Qarabağ təhlükə altında və Şuşa şəhəri düşmən əlində ikən, camaatın tələbi ilə Salman bəy Əlibəyov asayişi-ümumiyyə [ictimai asayiş] düşməni sifətilə həbs edilmişdi. O vaxtdan bəri Salman bəy Şuşa həbsxanasında yatırdı.

Bir neçə ay keçdi. Qarabağın qara günləri, əsəfnak [təəssüflü] saatları idi. Şəhərdə aclıq, susuzluq; az qalmışdı dövlətli-kasıb qırğını düşsün. Digər tərəfdən, erməni quldurlarından Məlik-Sahnazaryan neçə min nəfərlik çete dəstəsilə şəhərin 14 verstliyində olub, bilavasitə şəhəri təhdid altında bulundururdu. Camaat gecə-gündüz qaraqol çəkirdi.

Bu əsnada zilhiccətülharamın 10-da, Qurban bayramı günü, bir gün əvvəl qəhrəman Azərbaycan ordusu tərəfindən paytaxtımızın düşməndən alınması xəbəri gəldi. Şuşa şəhəri, Şuşa əhalisi tarixdə görmədiyi bir təntənə və dəbdəbə ilə üç gün üç gecə bayram elan etdi. Daha bu bayramın vəsfi qeyri-qabildir.

Ancaq bunu ərz edəlim ki, Azərbaycan-türk millətinin tarixi milli bayramı münasibətilə safdil [sadəlövh] camaat siyasi məhbus olan Salman bəy Əlibəyovun həbsdən azad edilməsini istədi. Hökuməti-məhəlliyyə [yerli hökumət] dəxi bu rəydə olaraq Salman bəyi həbsxanadan azad etdi. Bu şərtlə ki, aralıq sakit olanadək siyasi və ictimai işlərdə iştirak etməsin. Sonra Azərbaycan Hökuməti möhkəmləşərək məmləkət daxilində hərc-mərcə və iğdişaşa yer verməməyə əzm etdikdə və Şuşaya əsgər gəldikdə, Salman bəy asayişi-ümuma müzirr [ümumi asayişə zərərli] bir şəxs olmaq üzrə dübarə həbs edilmişdi.

Nəhayət bir gün, ermənilər bir cinayət münasibətilə, bəhanə ilə Salman bəyi şahid göstərirlər. Müstəntiq, Salman bəyi təhtəlhifz [mühafizə altında] Ermənistana apartdırır. Bu əsnada ermənilər mühafizə əsgərlərinə hücum edərək Salman bəyi onların əlindən alırlar.

Salman bəy həbsdən xilas edildikdən sonra gedib Şuşanın Ermənistan hissəsində (orada iki hissə var: biri sırf ermənilərlə məskun Birinci uçastok, digər[i] sırf müsəlmanlarla məskun İkinci uçastok) sükunət etməyə [yaşamağa] başlamış və erməni təşkilatı həman

Salman bəyin nəfinə [xeyrinə] bir qədər ianə toplamışdır. İştə bu ianədən məst olaraq dünkü bolşevik Salman bəy bu gün Daşnak firqəsinin agenti və monarxistlərin, ümum Azərbaycan istiqlaliyyəti düşmənlərinin sağ əli olmaq üzrə "Ərizə" sərlövhəsi ilə bir danos yazaraq Azərbaycanın istiqlaliyyəti bünövrəsini Hind arxı məmurələri kimi xarabazara döndərmək qəsdilə qazır və müstəqil Azərbaycanın cüzi-layenfəki [ayrılmaz hissəsi] olan Qarabağı işğal etmək üçün Daşnak firqəsinin təhriki ilə əl altından işlər görür.

Dün özünə namuslu bolşevik deyən Salman bəy bu gün daşnakların ianəsinə aldanaraq, bütün Qarabağ mahalını özgələr əlinə vermək istəyir və danosbazlığa başlayır.

Əgər Salman bəydə bir zərrə qədər millət namusu qalmışsa, xəbər versin görək Cavanşir və Şuşa uyezdlərinin hangi 30 kəndinin vəkilidir? Bu kəndlərin adlarını yazsın, o vaxt kənd camaatı onun gözünə tüpürərək deyərlər: Yalan deyirsən, kompanyonun [şərikin] olan daşnaklar qədər həyasızcasına yalan deyirsən. Biz səni vəkil etmədik. Biz türklük, islamlıq və azərbaycanlılıq namusunu daşnak ianəsinə satan alçaqlardan deyiliz!

Qoy bildirki bolşevik, bu ilki daşnak qabı yalayan Salman bəy bilsin, qarabağlı başını, canını verər amma namusuna toxunmağa izn verməz. Qarabağlı ölər amma düşmənə baş əyməz. Ələlxüsus dünya cifəsindən [leşindən] ötrü düşmənə namusunu satmaz.

Son ilin təcrübəsi bunu gözəl isbat etdi. Əgər Salman bəy həman vəkili olduğunu iddia etdiyi 30 kəndin adını yazmazsa bilsin ki, bütün Cavanşir və Şuşa qəzalarının kəndlərini bir-bir soraraq Salman bəy hangi kənd tərəfindən vəkil edildiyini öyrənəriz. Əgər böylə kənd yoxsa, onda Şuşa və Cavanşir qəzalarının düşmən əlinə keçən 30 kəndi camaatına Salman bəy cavab verməli olacaqdır.

Qarabağlı Xəlil

FELYETON

Nəşriyyatımızın əsbabi-tərəqqi və tədənnisi [tərəqqi və tənəzzül səbəbləri]

-1-

Azərbaycanımızda mətbuat, bilxassə kitab nəşriyyatı pək çox zəif və pərişandır. Bu zəif və pərişanlıqdan dolayı oxucularca istifadə və istifazəsi [feyz alınması, bəhrələnilməsi] kafi dərəcədə olmadığı kimi, nəşriyyatı müəyyən bir şəklə qoymaq, ülum [elmlər] və maarifin intişarına [yayılmasına] xidmət edəcək idarələr vücuda gətirmək, müəssisələr təşkil etmək dəxi müşküldür. Zira mətbuat və nəşriyyatımız, ələləksər [çox vaxt] zəif və davamsız əllərlə füqərayi-kasibə tərəfindən nəşr olunmuşdur. Əhalinin avam və savadsızları çox olduğundan, o qədər alıcı olmamış, kitab və mətbuat nəşrinə iqdam [təşəbbüs] edən həvəskar yoxsul isə bir ayın zərfində elani-iflas etməyə məcbur olmuşdur. Ara bir zənginlərdən mətbuat, qəzetə, məcmuə nəşrinə rəğbət göstərən olmuşsa da, o

dəxi ticarət nöqteyi-nəzərindən irəli gəlmişdir. Beş para xəsarəti [ziyanı] görüncə, iqdam etdiyi işindən əl çəkmişdir. Millət və milliyyəti, ülum, ədəbiyyatı yalnız beş paraya fəda etmişlər, istiğnakaranə bir ətvarla [etinasız bir tövrlə] mətbuat və ülum-maarif intişarı [elm və maarifin yayılması] meydanından guşeyi-istirahətə çəkilmişlərdir. Bunların meydandan çəkilmələri, mətbuat və nəşriyyatı pərişan bir surətdə buraxmaları, acizlik və xəsarət qorxusundan deyildir. Zənni-acizanəmcə ülum və maarif ərbabı olmadıqlarıdır. Əgər nəşriyyat idarəsi başında ərbabi-elm və zəka olsaydı, ayda yüz minlərlə para qazanan zənginlər ildə min manat xəsarətdən qorxmaz və mətbuatı çoluq-çocuq əllərinə buraxmaz, dedi-qodudan mütəəssir olmaz, bir sifətlə meydandan çəkilməzlərdi. Millətdə milli və elmi intibah törədəcək müəssisati-elmiyyə [elmi müəssisələr] təsis və nəşri-maarif idarələri təşkil edərlərdi.

Qonşularımız daima can və mal qoymaqla dillərinin, elmlərinin islah və ikmal [təkmilləşməsi] və intişarına [yayılmasına] var qüvvələri ilə çalışdılar, müvəffəq də oldular. Ədiblər, feylesoflar, həkimlər, şairlər, mühərrirlər və sənətkarlar yetişdirdilər. Xaricdən və daxildən edilən mütəəssibanə hücumlara sinəsipər oldular. Zamanın icab etdiyi qüvvətlə müdafiəyə qalxışdılar. Ehrazi-zəfər dəxi eylədilər [zəfər də qazandılar], bizim kimi məğlub və mənkub [bədbəxt, zəlil] olaraq ayaqlar altında qalmadılar.

- Neyçün?

- İş başında milli duyğu, milli hiss, milli düşüncə ilə müsəlləh [silahlanmış] ağıl və zəka ərbabı otururdu.

Nəşriyyat işində yalnız zəngin olmaq kifayət etməz. Ülum və maarif sahibi olmaqla bərabər, nüfuzlu olmaq dəxi lazımdır. Nüfuz olmaz isə əlverişli əsərləri təb [çap] və nəşr etmək olmaz. Lazımınca əhali arasına paylamaz, əsərlər xəlayiq [xalq] arasında nəşr olunmazsa [yayılmazsa], camaat avam qalar. Kəndi tarix, kəndi ülum və ədəbiyyatından məhrum olar. Tarix və ədəbiyyatdan məhrum olan millətin isə səfalət dərəkəsinə [çuxuruna] yuvarlanması tarixən müsbit və mühəqqəqdir [tarix tərəfindən sübut edilmişdir].

Nəşriyyat və mətbuat mə’nən və maddətən sarsılmaz bir qüvvə ərbabı tərəfindən mövqeyi-intişara qonularsa, o əsərlər mütləq mənsub olduğu millətin intibahi-elmiyyəsinə [elmi intibahına], ülumi-ədəbiyyəsinə, fünun və maarifinin təkamül və tərəqqisinə qüvvət verər. Milli duyğu, milli düşüncəni ortalığa açar, saçar. O sayədə hər kəs kəndi tarixini, milli örf-adatını [adətlərini] və ənənati-milliyyəsini [milli ənənələrini] anlar.

Məmləkətdə məktəblər, mədrəsələr, darülfünunların [univeristetlərin] güşad edilməsi [açılması], şairlər və müəlliflər, mühərrirlər və mütərcimlər yetişdirəcək müəssisələr təsis olunar. Hər sinfə məişətini təmin edəcək qədər də maaş verilər ki, o sayədə hər sinif ixtiyar və kəndisinə ixtisas etdiyi sənətin tərəqqisinə çalışar. Nəticədə bu gün kəndimizə mənsub olmasalar da, hər birimizin təqdir və təqdisinə məzhər olub [hər birimiz tərəfindən təqdir edilən və ucaldılan], adları təkrar-təkrar mətbuatımızı “bəzəyən” alman, fransız, ingilis

və rus və sair millətlərin şüəra [şairləri], üdəbası [ədibləri] kimi millətlərinin mənbeyi-iftixarı olan ülum və ədəbiyyat ərbabı meydana çıxar. Bu kimi müəssisələr ələləksər bütün elini, yurdunu, millətini, bəzən hansı millət və dindən olursa-olsun, təbəəsini sevən, maarifpərvər dövlət və məmləkətlərdə bulunur. Bu feyzi-üzmadan [böyük feyzdən] yalnız Rusiya təbəəsi olan bilxassə [xüsusilə] Qafqaziya türk-islamları məhrumdurlar.

Bu məhrumiyyətimizin neçə-neçə səbəbləri vardır. Yeri gəldikcə, tərəfimizdən göstəriləcəkdir. Lakin ən ümdə səbəb, Rusiyada qeyri-rusların, bilxassə türk-islamların Rusiya hökuməti-müstəbidəsinin ruslaşdırmaq siyasəti altında əzilmələri və göz açmalarına imkan verilmədiyidir. Bu "inayəti"-müstəbidanənin [müstəbidlərə xas bu "yaxşılığın"] ən əlası yalnız islamlara aid idi. Lakin milləti-hakimə olan ruslar üçün dövləti xəzinə hesabına həddən ziyadə məktəblər, mədrəsələr, darülfünunlar, qiraətxanələr açılıb və nəşriyyat idarələri, ülum, maarif müəssisələri təsis olunurdu. Avropadan müqtədir müəllimlər, məşhur və mükəmməl məlumat sahibi filosoflar cəlb olunurdu. Təlim və tədris kitabları gətirilirdi. İntibahi-milliyyə və tərəqiyyati-elmiyyələrinə səbəb olacaq hər dürlü vasitələrə təvəssül olunurdu [müraciət edilirdi]. Hətta – Ş. Samiyə nəzərən – türklərin cəddi-ələləri [ulu ataları] olan yakutların çocuqlarını ruslaşdırmaq və onlara rus ülum və ədəbiyyatını öyrətmək üçün Sibiryada, buz səhralarında məktəblər təsisi, o çocuqları dərs vaxtı məktəbə, dərsdən sonra evlərinə aparmaq üçün məccani [pulsuz] arabalar təyin edildiyini bizzat müşahidə etmişəm.

Rusiya təbəəsi türk-islamlara isə böylə ədalətkaranə iltifat və nəvazişlər deyil, kəndi zəhmətləri sayəsində maarif bünövrəsinin vücuda gətiriləcəyi duyulunca dərhal "tatarlara elmi müsaidə yoxdur" deyə amansız cəlladlar əli ilə söndürülürdü. Bakıda "Nəşri-maarif" və "Səadət" məktəb, mədrəsələrinin vəqəsi, iddiamızı sübut edən müsbət [isbatlanmış] dəlillərdəndir. Rusiyadakı türk-islam təbəələrə ancaq və ancaq canilik, qatillik, oğruluq, yankəsiçilik [cibgirlik], çirkinlik və murdarlıqlar irtikab etmək [cinayət işləmək] "imtiyazatı" verilirdi. Casusluq, danosbazlıq məktəbləri güşad edilirdi. Yumruq, qamçı, həbs, sürgün, yeri düşdükdə qətliam "əta"ları ilə nəvazişlər olunurdu.

Varsın şimdi müstəqil yaşamağa layiq millətin ah və əninin [naləsinin] qılıncdan kəskin, topdan ötgün olduğunu vəhşət-pərvər Nikolay ricali-hökuməti [hökumət adamları] vüzuhuyla [aydınaşkar] anlasın.

Halbuki bir dövlətin hökmdarı və ricali-hökuməti ərbabi-elm və maarifdən təşəkkül edərsə, onların dövründə düha və zəka, ülum və fünun sahibləri çoxalar, sayələrində ülum və maarif şəşəədar olar [parlayar]. Çünki xalq, xüsusən hökumati-mütləqədə [mütləqiyyət hökumətlərində] padişahlarının əhval və hərəkatına tabe olarlar. Əfkar, hökmdarın xoşuna gedən yola yönələr. Daha əhalinin arasında ziddiyyət, cəhalət, səfalət və cinayət hökmfərma [hakim] olmaz. Bəlkə hökmdarlarının əfkar və amalına

təqviyyət etmək [dəstək vermək] üçün onun sevdiyi və təqdis etdiyi [ucaltdığı] ülum və maarif ərbabı olmağa çalışarlar ki, nəticədə müqtədir və məsud bir kütleyi-müəzzəmə [böyük kütlə] kimi yaşamaq səadətinə nail olarlar.

SAVADSIZLARA ÇARƏ VƏ SAVADLILARA İMDAD

Bu axırkı illərdə yazılmış təhriri-nüfusdan [əhalinin sayımından] böylə məlum olur ki, rus əhalisindən hər 100-ə 30 nəfəri savadlı, qalan 70 nəfəri isə bisavaddır. Yəni, 100 milyonluq bir taifənin 30 milyonu təlimli, 70 milyonu da avamdır.

Rusiyanın bu dərəcədə avamlığına yevropalılar arasında “Rusiya qaranlığı” demişlərdir. Filhəqiqə [doğrudan da] bu qaranlıqdan, bu avamlıq cəhalətindən nələr qaldı ki, rus millətinin başına gəlməmiş olsun. 70 milyon camaatı avam saxlayan hökumət, düvəli-müəzzəmədən [böyük dövlətlərdən] sayılmış rus dövlətinin rəzalətinə, bugünkü fəlakətinə bais olmuşdur.

Bəşəriyyətin ən müdhiş düşməni iştə həman avamlıqdır ki, bundan hamıdan artıq Azərbaycan Hökuməti qorxmalıdır. Zira Azərbaycandakı savadsızlıq rusların-kından daha şiddətlidir. Böylə olan surətdə, vətənin qorxusu andraniklər kimi təcavüzkarlardan daha artıq, vətənin doğma övladı olan cühəla [cahillər] güruhundandır. Zira bunların cahilanə zərbələri, avamlıq nəticəsi olaraq ən dəhşətli fəlakətlər doğurur. Avam millət taxıl taylarını odlar, meşələri qırıb çatar, dəmiryollarını tarmar edər. Molla Nəsrəddin kimi oturduğu budağı mişarlar da, amma bununla özünə hazırladığı fəlakəti anlamaz və bir gün gələr ki, vətəni baltalayıb cəhənnəm uçurumlarına atar. Hələ oğru və quldurluq kimi cinayətlərin də ara-bərəsi kəsilməz.

Millətin savadsızlığı hökumət kişilərini hər an, hər dəqiqə düşündürməlidir. Camaatın avamlığına çalışmış zəvat [şəxslər] bunun “ləzzətini” gördülər. Bu bizim üçün bir ibrət dərsi olsun da, avamlarımızın ədədini mürurla [zaman keçdikcə] əksiltməyə çalışacaq.

Vaxtilə vətənimizdə mütəəddid [çox sayda] seminariyalar, gimnaziyalar və bəlkə akademiyalar açılacaqdır. Lakin bu mədrəsələr, yeniyetmə övladımızın tərbiyə və təliminə olduğu cəhətə, yaşlı-saçlı savadsızlarımıza bunlardan bir fayda yoxdur. Bunlar üçün gərək xüsusi çarələr aranılsın. Mənə qalarsa, 20 yaşından 50 yaşına qədər tamam savadsızları hökmən savad öyrənməyə məcbur etsinlər. Vəqti-müəyyənədə [vaxtında] öyrənməyənləri, mümaniət [müqavimət] göstərənləri təhti-mühakiməyə [mühakimə altına] alıb cəzalandırsınlar. Nəzərə öylə gəlir ki, bu baş tutası məsələ deyil. Lakin hökumətin bu işə meyil və rəğbəti olarsa, buna dair bir qanun layihəsi tərtib verilərsə, aralıqda heç bir çətin iş də qalmaz.

Əvvəla, yüz minlərcə cavanlarımız əsgərliyə dəvət olunaraq hökumət qışlalarında [kazarmalarında] əyləşəcəklər. Zənnimcə bu cavanlara müharibə məşqləri təlimindən əlavə, hökumətin bir vəzifəsi də bunlara türkcə savad öyrətməkdir.

İkincisi, azadəliyi əlindən alınmış bir çox polis və məhkəmə dustaqları həbsxanalarda səhərdən axşamadək bikarcasına yeyib-yatırlar. Bunların da savad təlimi, hökumətin vəzifəsi gərək olsun.

Üçüncüsü, fəhlələrin rifah və asayişinə çalışan Məsai Vəzarəti [Əmək Nazirliyi] bunların savad təliminə dair xüsusi qanun layihəsi tərtib verməlidir ki, mədənlərdə fəhlələr işdən fariğ [asudə] olduqları vaxtlar savad öyrənməyə məcbur olsunlar.

Dördüncüsü, Maarif Vəzarətinin təklifi ilə məktəbləri mövcud olan kəndlərdə müəllimlər axşam kursu açıb kəndlilərə (ayrı məvaciblə) savad öyrətsinlər.

Beşincisi, şəhərlərdə və qəsəbələrdə əsnaf əhlinə savad öyrətmək üçün bunların da qeydinə Sənətkarlar İttifaqı qalaraq, hər sənətçi dəstəsinə məxsus birər savad kursu açmalıdır. Bundan görülür ki, hər sinfin, hər sənətkar dəstəsinin özünə məxsus ittifaqı gərək olsun, ta ki, hər ittifaq da üzvləri üçün birər savad kursu aça bilsin. İndi buyursunlar: baqqallarımız, allaflarımız, hətta hamballarımız belə birləşsinlər, savadsız həmkarlarının da qeydinə qalsınlar.

Məsələnin rəsmi cəhəti qurtardı. Bir qədər də maarif cəmiyyətlərinin fəaliyyətindən bəhs etməliyiz. Bir vaxt var idi şəhərlərimizdə "Nəşri-maarif", "Nicat", "Səfa" cəmiyyətləri maarif yolunda böyük fədakarlıqlar göstərmişlərdir, məktəblər açmışlardır, qəzetələr nəşr etmişlərdir. Bu gün nədənsə bunlardan heç bir əsər zahir olmayır. Səbəb nədir ki, istibdad dövründə çalışıb-çabalayan cəmiyyətlərimiz böylə bir müstəid [əlverişli] zamanda heç bir iş görə bilməyirlər? Millət və Azərbaycan namına [adına] tələb edirik ki, bu cəmiyyətlər axşam kurslarını, cümə məktəblərini, xanımlar kursunu və sair maarif vəsilələrini [vasitələrini] işə-başa salsınlar.

Əlhasil, savadsızlara çarə varsa, o da üç yerdən hasil olacaqdır:

1) Höku-mətdən,

2) Sənətkarlar ittifaqlarından və

3) Maarif cəmiyyətlərindən.

Baxalım, ilk qədəmi hangisi başlayacaqdır!

Bugünkü bahalıq, qəzetə və jurnal kimi maarif mayəhtacını [vasitələrini] öylə bir hala salmışdır ki, daha bir çox türk maraqlıları təkcə bir nüsxə qəzetə almaqdan məhrum qalmışlardır. Bu isə, savadsızlıq dərəcəsinə qədər tənəzzül etmiş olurlar. Bəzi şəhərlərdə qiraətxanalarımız var idi. Bu gün onlardan da bir əlamət qalmamışdır. Yövmiyyə [gündəlik] qəzetələrin maraqlıları indi ayda bir kərə də türk qəzetəsini ziyarət edə bilməyirlər. Buna da bir tədbir lazımdır. Yenə bu məsələdə də hökumətin kömək və imdadına ehtiyac görünür.

Hökumət idarələrinə və ələlxüsus öylə müəssisələrə ki, orada camaat yığıncağı vaqe olur, birər nüsxə türk qəzetəsi göndərmək vacibatdandır. İştə buraya yığılan camaat, sair yoldaşların gəlməsinə müntəzir [gəlməsini gözləyib] oturub qalarkən boş vaxtlardan istifadə edib, bu boş vaxtları qəzetə mütaliəsi ilə keçirə bilərlər. Bu müəssisələrdən nəzərimdə bulunanlar bunlardır:

1) Kənd yüzbaşıları idarələri,

2) İşqollar,

3) Əsgər qışlaları,

4) Həbsxanalar,

5) Şəhər bələdiyyələri,

6) Şəhər mərizxanaları [xəstəxanaları],

7) Müsafirlərə məxsus postaxanalar.

İştə həmin müəssisələrə hökumətin təklifi ilə birər nüsxə göndərilərsə, savadlılar oxur, savadsızlar da qulaq asıb hər iki tərəf faidəmənd olarlar [faydalanar]. Bundan əlavə, Ağstafa, Gəncə, Yevlax, Hacıqabul, Biləcəri, Sabunçu, Xaçmaz və Bakı mövqiflərində [stansiyalarında] nəşriyyat ticarəti ilə məşğul olan şəxsləri vadar etmək lazımdır ki, türk qəzetələrini də məcburən satsınlar.

Tək hökumətin müavinəti ilə iş tamam olmaz. Lazımdır ki, camaatda da bir hümmət əsəri görünsün. Məsələn, nə olar hərgah hamamlar, dəllakxanalar, çayxanalar, əczaxanalar, mehmanxanalar, mərizxanalar birər nüsxə qəzetə alıb müştəriləri üçün saxlayalar. Həm müştərilərin vaxtı xoş keçər, həm qəzetə məlumatından da istifadə alarlar. Əcnəbilər böylə rəftar etmişlərdir. Biz də onların yolu ilə getsək mənzili-məqsədə çatarıq!

Fərhad Ağazadə

MƏTBUAT

Fəhlə konfransının 23 yanvar iclasında, cərəyani-əfkarla qərardadı arasındakı təzadı sayaraq bu qərarları nagəhani [gözlənilməz] adlandırır və bunun səbəbini “Kimlərinsə, kimləri isə aldatması qorxusu” təsəvvüründə görərək, nəhayət əmələ [fəhlə] konfransına “İskra” böylə tövsiyə edir:

Ümum fəhlə hərəkatının təcrübəsi əsası ilə deyiriz ki: “Ən yaxşı siyasət Lassalın siyasətidir – hər nə varsa açıq demək siyasəti. Biz demişik və təkrar ediriz: hal-hazırda tətil etmək heç kəsə xeyir verməz. Ona görə açıqdan-açığa və doğrudan güzəştə getmək lazımdır. Ailə sahiblərinə də, təklərə də 360 manat artırmaq – bu maaşların nə vaxtdan verilməsinin fərqi gözlənmədən – Sentrokaspinin avqustda verdiyi fərqin o biri aylara da tətbiqindən aslı tutulmaq şərti ilə və müştərək müqavilənamənin təcdidi [bərpası] – iştə ağıllı güzəşt üçün əsaslar. Əmin oluruz ki, bazar günkü iclasında konfrans dəxi bu yol ilə gedər.”

Əmin oluruz ki, Fəhlə Konfransı məmləkətin və ticarət və sənaət işlərinin vəziyyətini nəzərə alaraq, Məsai naziri həzrətlərinin və firqə rəislərinin səsinə qulaq asar və bunu qəbul edər.

BAKI XƏBƏRLƏRİ

“Balaxanı mədən dairələrində “Müsavat” şöbəsi!”

21 kanuni-sani [yanvar] səşənbə [çərşənbə axşamı] günü saat 3-də bə’dəzzəval [günortadan sonra] Türk Ədəmi-Mərkəziyyət “Müsavat”ın Balaxanı mədən mərkəzi şöbəsinin sabiq heyəti-idarə əzası [idarə heyəti üzvü] Bünyadzadə Ağanın mənzilində iclas edərək:

1) mədən dairəsindəki şöbənin təcdidi [bərpası];

2) məhəlli-idarə [idarə yeri] təyini və

3) heyəti-idarə intixabı [seçilməsi] məsələləri müzakirə edilərək, şöbənin məhəlli-idarəsi Seyid Məhəmmədzadə Se-

yid Ağanın 59 nömrəli mülkündə olmağı qərara alındıqdan sonra, heyəti-idarə əzası intixabına şüru edildi [başlandı]. Nəticədə əsamisi zirdə mühərrər əşxas intixab edildilər [adları aşağıda yazılmış şəxslər seçildilər]:

Mirzəağa Kərimzadə cənabları sədr, Rəhim bəy Cahangirzadə müavin, Yusifzadə Əbdürrəhim katib, Məşhədi Kərim Məhəmmədzadə (mübəlliğ [təbliğatçı]), Haşim bəy Cahangirzadə, Cabbar Məhərrəmzadə, Məcid Sadiqzadə, Ağa Babazadə, Abdulla Zülfüqarzadə, Mirzə İbrahim Cahangirzadə və Əsgər bəy Məlikyeganzadə xəzinədar.

Sədr: Mirzəağa Kərimzadə.
Katib: Yusifzadə Əbdürrəhim.

* Yanvar ayının 26-da, gündüz saat 3-də Türk Mütəəllimlərinin [tələbələrinin] Abbas Şərifzadənin təhti-idarəsində [idarəsi altında] bulunan "Musiqi və dram" studiyasının ikinci dəfə olaraq iclası vaqe olacaqdır. Üçüncü ali-ibtidai [məktəbi] mülkündə.

* Sabiq Yemelyanov zükur [oğlanlar] gimnaziyası binasında, yanvar ayının 22-dən Bakı Ticarət məktəbinin dərsləri başlanmışdır.

BEZ FƏQƏRƏSİ
[BEZ ƏHVALATI]

Tağıyev fabrikasından çıxan manufaktur barəsində, yəni manufakturu alıb onunla şiddətli dərəcədə ehtikarçılıq [möhtəkirlik] edənlər barəsində əhali arasında cürbəcür danışıqlar və hətta mətbuatda da bəzi narazılıqlar eşidilməkdədir. Ərzaq naziri vəkili Yusifəli Əliyev cənabları tərəfindən bu barədə ciddi surətdə təhqiqat yapılıb, camaat adına alınıb ehtikarçılar əlinə keçən manufakturlar barəsində təftişat davam edir. Hələlik bir neçə nəfər xəyanətkarlardan ələ keçib həbsə alınıbsa da, lakin bəziləri barəsində məlumat yığılır.

Ələlümum [ümumiyyətlə] birdəfəlik kimin adına manufaktur alınıb və kimə çatmadığını bilməkdən ötrü Yusifəli əfəndi qərar qoymuş ki, bundan sonra fabrika kantorasından bütün şəhadətnamələrin surətini alıb, məhəlli mətbuatda dərc etdirsin. Bu səyaqla hər kəs ki, özünə mütəəlliq [aid] manufakturu tamamilə almamış olarsa, o vaxt lazımdır vəkil cənablarına təcili surətdə elan etsin ki, lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

Alınan məlumat noyabr ayının əvvəlindən başlanıbdır. Çünki ancaq bugündən etibarən fabrika məmulatı Nəzarətin təhti-təftişatına [təftişi altına] alınıbdır. Bugündən etibarən fabrikadan çıxan mallar, tamamən ya Ticarət və Sənaət Nəzarəti və ya ki Ərzaq Nəzarətinin şəhadətnamələri ilə buraxılmışlardır. İştə məlumat budur:

Fabrika kantoru öz ixtiyarı ilə buraxıb Şağan kəndi camaatı üçün 3500 arşın kənd vəkili M. B. Məhəmmədbəyova.

Ərzaq Nəzarəti vasitəsilə buraxılıb: Bakıda Maarif Nəzarətinə 600 arşın, Bakıda K. S. Qasımzadəyə manufaktur 1000 arşın və genə də həman şəxsə hamam üçün qətifə 200 ədəd; Qoraxda R. Musa oğluna manufaktur 12000 arşın; Kürkənddə Balakişi və sairlərinə camaat üçün manufaktur 1600 arşın; Qazax

camaatı üçün D. Amintayova manufaktur 8000 arşın; Fatmayı kəndi camaatı üçün Ruhüləmin və sairlərinə 4000 arşın; Zirə kənd camaatı üçün Muradova 10000 arşın; Hacı Pirverdi məscidi məhəlləsi camaatı üçün Eminova 1000 arşın; Hacıyev məscidi camaatı üçün Şeyx Musa cənablarına 1000 arşın və genə də Hacı Hüseyn məscidi camaatı üçün həman Şeyx Musaya genə də 1000 arşın, Bakıda aptekçi Qolberqə yara bağlayan tənzif buraxılıb 1000 arşın; Şuşa şəhəri camaatı üçün Ya. B. Miralayevə manufaktur 30000 arşın; Dərbənddə hərbi Axtı komitəsi üçün 10000 arşın, Bakıda R. Rüstəmova 1000 arşın; Bakıda vəzarət [nazirlik] qulluqçularının istehlak cəmiyyətinə vəkil Vəlibəyova 11000 arşın; Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] 20000 arşın; Dərbənd Bələdiyyə rəisinə 20000 arşın; Şuşada Malıbəyli camaatı üçün 10000 arşın; Nardaran kəndi camaatı üçün vəkil Balakişi və sairlərinə buraxılıb 8000 arşın.

Noyabr ayının 24-dən etibarən fabrikanın nəzarəti Ticarət və Sənaye Nəzarətinin ixtiyarına keçdiyi üçün, bugündən sonra verilən şəhadətnamələr tamamilə həman Nəzarətin idarəsindən verilmişdir:

Məhəmmədli məscidi camaatı üçün buraxılır 3000 arşın, Ramana kəndi camaatı üçün Ağasəf Babayevə buraxılır 6000 arşın. Bakıda mağaza sahibi olan Abdulla Dadaşova tənzif ağı 5000 arşın, Bakıda qaraj qulluqçuları üçün 2100 arşın, Bakıda Abbas Rəfiyevə qətifə 200 dyujin, Mərdəkan kəndi camaatı üçün Hacı Məhəmmədə verilib 6000 arşın, Bakıda aptek sahibi Ermansa verilib tənzif 10000 arşın, Bakıda B. X. Cavanşirə verilib manufaktur 500 arşın, Bakıda N. B. Hacınskiyə 200 arşın, Bakıda Nəcəfquluya corab sapı 6 put, Zaqatalda istehlak cəmiyyətinə camaat üçün 50000 arşın, Məlik Rəsulovun balıq vətəgəsi üçün 3000 arşın, Pirşağı kəndi camaatı üçün Gülməhəmməd Q. S. oğluna buraxılıb 6150 arşın, Lənkəran camaatı üçün Yusif Qəribova verilib 6000 arşın, Bakıda Zaydlerə verilib tənzif 15000 arşın, Maştağa kəndi camaatı üçün buraxılıb Muradəli və sairlərinə 20000 arşın, Bakıda İran konsulxanasına camaat üçün buraxılıb 3000 arşın, Balaxanı kəndi camaatı üçün buraxılıb P. Cəbiyevə 6000 arşın, Bakı qazısı üçün Ağa Qədirova buraxılıb 3000 arşın, “Kazbek” fabrikası üçün buraxılıb Tağıyevə 10000 arşın, 2-ci Bakı mövqifi [stansiyası] naçalnikinə buraxılıb 1800 arşın, türk zabitinə verilib 5000 arşın, Türkiyə qoşunu üçün buraxılıb 65000 arşın, poçta və teleqraf qulluqçuları üçün buraxılıb 45 parça, genə də həman qulluqçular üçün buraxılıb 8 dyujin yarım qətifə, Qala kəndi camaatı üçün buraxılıb Hacı Ağaya manufaktur 20000 arşın, K. B. Səlimxanova verilib 10000 arşın, genə həman şəxsə verilib qətifə 1000 ədəd, Nuxu şəhəri camaatı üçün verilib Salamzadəyə 3000 arşın, “Bank” balıq mədənləri [vətəgələri] üçün verilib Vəlibəyova 1750 arşın, Bakıda yəhudilərin ruhanilərinə verilib 2000 arşın, Tağıyev skladının qulluqçularına verilib 7 parça, genə də onlara verilib qətifə 8 dyujin yarım, Yu. Tislenkoya verilib qətifə bir dyujin, genə də həman şəxsə verilib manufaktur 144 arşın, Quba şəhəri ca-

maatı üçün buraxılıb M. R. Tutunova 15000 arşın, Əsədullayev kantorunun qulluqçularına buraxılıb 7 parça, Bakıda Z. V. Vəzirova verilib 2000 arşın, Quba şəhəri camaatı üçün buraxılıb Ağasəf Babayevə 3 kip (tay), general-mayor Xəlilova buraxılıb 700 arşın, Bakıda Yevdokimova buraxılıb 306 arşın, Tağıyevin qulluqçularına buraxılıb 1000 arşın, genə də onlara buraxılıb qətifə 5 dyujin, Bakıda Obşestvenni Sobraniye [Bakı İctimai Yığıncağı] klubunun damını təmir üçün H. Qasımova buraxılıb 3000 arşın, Bakıda Bedenkoya 90 arşın, Mərdəkan camaatı üçün buraxılıb Əlibaba Aslanova 7000 arşın, Bakıda A. Rəfiyevə 5000 arşın, Nuxu camaatı üçün M. B. Səlimzadəyə 3000 arşın, Bakıda bazar taciri Vəlibəyova 10000 arşın.

Bu məlumat, ancaq dekabr ayının 10-cu gününə kimi verilən bezlərin məlumatıdır. Bu günlərdən sonrakı məlumat gələcəkdə dərc ediləcəkdir.

İDARƏDƏN CAVABLAR

İkinci firqə əsgərlərimizdən imzasın[ı] oxuya bilmədiyimiz əfəndiyə: Yuxarıda Mirzə Abbas Şahbazzadəyə yazdığımızı oxuyarsınız.

Molla Haşım Ağaəlizadə əfəndiyə: Doğru deyirsiniz. Sizin haqqınızda səhv olubdur. Təsdiqinə yetişdik.

İANƏ

Xəstə türk əsgərləri nəfinə [xeyrinə] idarəmizə vüsul olub [çatıb]:

Paşa Qurbanov və Aydəmir Musaxanov vasitəsilə müsəlman zərgərləri arasında cəm etdikləri 800 manat;

Sabiqki ianədən idarədə qalmış idi 300 manat.

Yekun 1100 manat.

Min yüz manat Ağaməhəmməd İbrahimzadə cənablarının vasitəsilə lazım olan yerinə göndərilmişdir.

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Doktor İ. Q. Sibiroviç

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

2658

Doktor Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Mehmanxaneyi-“Məhəmmədiyyə”

Qubernski küçədə “Azərbaycan” mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

Kamali-ehtiramla İbrahimov

Odun

Bununla əhaliyə elan olunur ki, odun, Xəzər Müstəhlik Cəmiyyəti “Kooperatsiya”-nın Budaqovski və Merkuryevski küçələrin küncündəki (qapısı Budaqovskidən) bir putu 8 manat 65 qəpikdən satılacaqdır. Satış bu kanuni-saninin [yanvarın] 24-dən başlayıb səhər saat 9-dan gündüz saat 3-ə kimi davam edəcəkdir.

İngiltərə Ərzaq komissarı mayor İnvud

T-20

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Qəzetələrdən

səh. 421. "general Xəlil bəy": Xəlil paşa (Xəlil Qut) nəzərdə tutulur.

Salman bəy kimdir?

səh. 423. "ümmülvəqt": (öz zəmanəsinin anası) hər dövrdə o dövrün qayda-qanunlarına, nizamına görə yaşayan, prinsipləri olmayan. Qəzetdə "ibnülvəqt" yerinə "ümmülvəqt" (öz zəmanəsinin anası) yazılmışdır.

səh. 425. "Qarabağlı Xəlil": bu imza Xəlil İbrahimə (İbrahimov Xəlil) məxsusdur.

Felyeton

səh. 426. "...tarixən müsbit və mühəqqəqdir.": qəzetdə "tarixən" yerinə "tarixi" getmişdir.

səh. 427. "...Ş. Samiyə nəzərən...": Türk yazıçısı, publisisti və dil alimi Şəmsəddin Sami nəzərdə tutulur.

"Əfkar, hökmdarın xoşuna gedən yola yönələr.": qəzetdə "yönələr" yerinə "tökülər" getmişdir.

Savadsızlara çarə və savadlılara imdad

səh. 429. "allaf" (yaxud əllaf): taxıl, un, yem, ot kimi şeylərin alverçisi.

Mətbuat

səh. 430. "...ən yaxşı siyasət Lassalın siyasətidir.": Alman filosofu və siyasi xadimi, alman sosial-demokratiyasının əsasını qoyan Ferdinand Lassal nəzərdə tutulur.

Bakı xəbərləri

səh. 431. "Mirzəağa Kərimzadə cənabları sədr...": qəzetdə bu cümlənin əvvəlinə "1)" əlavə edilmişdir.

Bez fəqərəsi

səh. 432. "dyujin" (yaxud "dyujina"): 12 ədəd.

İdarədən cavablar

səh. 433. "Yuxarıda Mirzə Abbas Şahbazzadəyə yazdığımızı oxuyarsınız.": Qəzet idarəsinin M. A. Şahbazzadəyə cavabı 24 yanvar 1919-cu il tarixli 96-cı nömrədə çap edilmişdir.



دوشنبه ۲۴ ربیع الآخر سنه ۱۳۳۷ — اینکنجی سنه دوامیسی — ۲۷ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۹۸

آذربایجان

تورك و اسلاملغه مفید مقالهلرله صحیفه لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالهلرك مکافاتی اداره تعین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کرائه گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ » ۳۲ »
۳ » ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ » ۳۵ »
۳ » ۵۰ »

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی کوچهلرك کنجنده ۳ نومرولی اپوده

«آذربایجان» اداره سی.
تلفون نمره ۶۰-۳۹

تك نسخه سی ۷۰ قپك

گوندهلك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزتهسیدر.

وجدان سیزلیور

قفقاسیا ولایتلری کندی مقدراتلرینی حل ایتمکه قالقیشدیغنه آخسخه کندی باشنه مستقل بر خط حرکت دوتمشدی. گورجی سوسیال ـ دموقراتلرینك یرلی تورکلرك ملی احتیاجلری ایله، یرلی آرزولری علیهنده واقع اولان قباحه حرکتلری آخسخه ایله برابر قارص، آردهان و بالموم حوالیسی مسلمانلرنده قفقاسیا داخلنده دوردیغی برقاچ اولوغ و یاخود فهدوراسیون فکرینی دوغورمشدی.

گورجی ملت پرستاری بوفکر ایله مبارزه ایدیوردیلر. مبارزهلرینه وسیله لرك نوعنه ومشروع لغه جوقده اهمیت ویرمهیوردیلر. بوعمل ایسه عکس العملی موجب اولوب ژاقفقاسیا جنوب ـ غربی مسلمانلری آراسنده یحق ظهور ایلدن بوفکر سیاسیسی جلالته بیوردی.

بومست ـ لیتوفسك معاهدهسی نتیجه سنده تورکلر باطوم، قارص و آردهانی دوتدیلر.

بونك اوزرینه آخسخه تك قالدی. اوزمان کندی مقدراتنی دیگر اویغ ولایتله برلکده حل ایتمهیی حتمالغه موافق گوردی و گورجی حکومتنه بر نوع اهینالمان آخسخه دخی دیگر اویغ اویزدله برلکده تورکیه یه میل ایتدی.

بومیل اوستنده ووروشدی. الده سلاح اولارق مبارزه ایتدی. بالطبع بو عقد اولونان معاهده موجبنجه گورجستاندن آیرلدی. فقط آخسرکی حادثهلرده گوره تورکلر اورالرینی ترك ایدوب گیتدیلر. گورجی لرایسه آخسخه یی دوتدیلر.

آخسخه‌نك بو حرکتنی اداره ایدن، بو حرکته روح ویرن، اونی مفکوره‌وی برشکله قویان مشهور عمر فائق افندی نعمان زاده ایدی.

عمر فائق افندی‌یی کیم تانیمایور. اوحسان، اوآنشی محرری کیم تانیمایور. فارصده‌واعلان خانهلرك، آردهانده هتك اولنان ناموسلرك، یاطومده کسیلن قربانلرك او یانیقلی مرثیه نویسی، «بربارچه اتمك» ده‌قیلری یاقان اوجمیت مثملی هائکی آذربایجانلی اولمودا بیلر.

وقت واردی: فائق افندی جلیل محمد قلی زاده ایله برابر نشر ایلهدیگی «ملاناصرالدین» مجموعه‌سی واسطه‌سیله جهات بریده‌سی ایله اورتولو اولان قارا قابلری یاقیچی قلمی ایله یاقیوردی.

ادبی نظیر برچسارتیله مقدس وطن اولونان هرنامقدس‌وار قومه‌سیله چاریور، یونوجوجدانی ایله هر نوع وجدانسزلقلره قارشی بروتستو ایدیوردی.

اوزمان تفلیس ایمپیکی تفلیس دکلدی. بقالای استیلادیلك زمانلری ایدی. فائق افندی تفلیسك یونگی حاجیری ایله برلکده‌روس استبدادینه قارشی یلنجه‌لشیور، همه‌نوع جسینه اوتو ویاریردی.

استبداد ایدی.

فقط فائق افندی یئه تفلیسده، یئه جسیده‌دکل، فقط بوه یالگز حبس دکلدی. فائق افندی‌تحقیر اولونیور. فائق افندی جانیرله برابر اوتورمیوب اوغورلر، قاچقنلر طرفندن دوگدیلیور.

محترم اوقیوجی حیرت ایدیورسك.

اوهت، یرمده سنگله برابر حیرتدهیم.

بر آز اول، آخسخه گورجی‌لره تسلیم اولونديغی اثناده فائق افندینك آخسخه حرکتنك باشجیسی اولدیغی حسبیله دونلوب تغلیب گتیرلدیکنی ایشیتدیك. بعض تخمینلر ایدلدی، نتیجه ده فائق افندی‌یی حبسدن خارج ایتدیلر، فقط محترما تحت نظره بولوندیریلدیلر.

بو آرالق، گورجی‌لر، آخسخه ایله اتفنا ایتمهمش، آردهانه دوغرو سفر ایلهمك ایسته‌مشلردر. بوژمنده اهالی اسلامیه ایله گورجی عسکرلری آراسنده توقوشما اولمش. بونك اوزرینه فائق افندی‌یی تکرار دوتمشلر، حبسخانه‌یه صوقمشلر؛ فقط مجرمین سیاسیه شعبه‌سنه دکل، جانیلر قوتوشه صالمشلردر. جانیلره آگاللیمش اولمالیدر که کندیسنی «خائن وطن» دیه فنا صوقدیغی گونلر، توالوم حالته گلدیکدن صوکره کندیسندن ال چکمشلردر.

عجبا، کندیسنك حریتپرورلکنی هر مناسبت کلمیکچه یاریار یاغمان گورجستان حکومتی بویله شناعته نه جور پول ویرمش؟..

عادل بی آدم، بر جانی، بر قاتل، برادینی حقدنده روا گورولهمه‌سی الفاتی مستبد مملکت لرده یله جائز اولمایان بو جزائی یوتون قفقاسیا تورکلری آراسنده بویوك بر مجرور، خاطری سه‌ویلر بر جماعت خادمه‌سی اولان حیمقدیر ذات حقدنه‌فاصل اولمش‌دی (زوردانیا) حکومتی‌دوا گورمش‌در؟!..

گورجستان سلطه‌سنی تائیه‌امق، گورجی سیاسیلری کبی دگل، باشقه دورلو دوشونمك، نه بویوك بر جنایتدر که بویله‌لریله قرون وسطی‌یه یاقیشر جزالرله رفتار اولونیور. عجبا سیاسی قناعت و فکری ایچون بر انسان اشکنجه ایدیلمی؟ بویله بر اشکنجه ده‌موقراتیاسنك بر جمهوریته یاقیشیرمی؟

گورجستان حکومتی، یلمك ایسته‌مه‌سه‌ده گورجستان جماعتی، گورجستان مطبوعاتنه منسوب اولانلر، گورجستان جماعت خادملری بیلیورلر که عمر فائق افندینك اشکنجه ایدلدیگی، یالغز فنا مسلك، یوتون آذربایجان تورکلرینك قلبرینی جریحه‌دار ایلهمش‌در. آذربایجان تورك ده‌موقراتیاسنك وجدانسز میزلیور.

بو سیزیلار بوقدر محتاج اولدیغمز بین‌الملل الفتره سوء تاثیر ایدهر. بالخاصه گورجی ـ تورك یاقینلغه بویوك سکته‌لر، بویوك ضربه‌لر ووراز.

فائق افندینك جانیرله بر اوطاقده محبوس قالمالری، فائقك اشکنجه ایدلمه‌سی، همده گورجی‌لر الده اشکنجه ایدیلمه‌سی نه قدر وجدان ازیجی بر خبر. عجبا یوتون یونگر دوغرو میدر؟!..

معلومات موثقه مع التاسف یونگ دوغرو اولدیغنی بیلدیرمکده‌در.

بو خبر یوتون آذربایجان محافلنده بر بروتستو طوفانی قوپارمیا یلمز!

آذربایجان، یالگز آذربایجان دگل تورك حیات ادبیه و اجتماعیه‌سی ایله آتشا اولان هر کس، بومنفور خبری اوقودیقده ایسته‌کلی قلم آرقداشمزه قارشی واقع اولان یوتوهینه قارشی لعنت شراره‌سی یاغدیرمیا یلمز!..

فائق افندی جانی اولامز. سیاسی فکرندن اوتری بر شخصی جزالندیرمك یلمم که گورجستان جمهوریتنك شانه کارمی ؟!..

● قوی بو سؤالك جوابنی گورجستان سیاسی محفللری ویرسینلر.

آذربایجان محافلنك بو مسئله اوزرینده کی تاثیرینی خلاصه ایدرسك یالگز شونی سویله یلرز.

وجدان سیزلیور!..

م. ا.

آذربایجان مجلس مبعوثاننده

۹ نجی اجلاس

شنبه گونی کانون ثانینك ۲۵ ی ساعت ۱۲ ده مجلس مبعوثانك اجلاسی تعیین ایدیلمشدی. اجلاس برساعتدن زیاده تاخیرله آچیلدی؛ نوبه‌ده کی مسئله‌لر:

۱ ـ حکومت اختیاریه ۲۰ ملیون منات قرمه‌دیت براقیلماسی حقنده قانون لایحه‌سی.

۲ ـ گنجه بلدیه اداره‌سینه ٤٥٠ بیك منات فائض‌دن بورج ویرلمه‌سی.

۳ ـ باکو بلدیه‌اداره‌سنه ۲ ملیون ۳۰۰ بیك منات بورج ویرلمه‌سی.

۴ ـ عدم اجتماع قانون لایحه‌سی.

۵ ـ مساعی نظارتی تشکیلاتی.

۶ ـ تجارت وسایر مؤسسلر وکالتنامه‌لرینك تجدیدی مسئله‌سی.

۷ ـ اتحاد فرانسویتنك نفت بدّی وغیر شیلر احتکاری حقنده سوءغوسی.

۸ ـ یا گو وشکی فضاری ایله یهودی و اوقرانیالیلرك مبعوثانق پری ایسته‌مه‌لری حقنده

۹ ـ داخل اولمش کاغذلار.

۱۰ ـ مساعی نظارته استیضاح.

۱۱ ـ داغستان جمهوریتی پارلمانتك گشادی مناسبتیله تبریك تلغرافی گوندیرلمه‌سی.

۱۲ ـ مبعوث باقر رضایفك یرینه ابراهیم علیوفك نامزدلگی.

۲۰ ملیون تخصیص

روزنامهٔ مذاکرات قبول ایدیلدیکدن صکره حکومتنه ۲۰ ملیون منات قرمه‌دیت براقیلماسی حقنده کی مسئله‌یه کیچه‌مرك کاتب افندی احوال ایدیلمش اولان ذیلده کی قانون لایحه‌سینی اوقیور:

ایضاحنامه

حکومت بنا گذارلغنه ۲۰۰۰۰۰۰۰ روبله‌لق قرمه‌دیت آچیلماق خصوصنده قانون لایحه‌سی

کچیرمکده اولدیغمز احوال فوق‌العاده ذیلده محرر قانون لایحه‌سنك شاطق بولنمیغی فوندن تاسیسنی طلب ایلهیور. اساسا فوائده محصوبا ایدیلهجك مصارفك سه‌دن اوطالی ایجاب ایتدیکی حالده لزومی سره سیله یعنی مؤسسلر آچیلدقجه مصرحاً تعیین ایدیلهجکندن مبزبور مصارف بر دفعهلق متنظم ترتیب ایدیلمش مؤسسلر سه‌دن سونه دوشه‌مه‌جکله برابر هیچ بر وجهله کیچه‌کدیرلمیه جك بر ماهیتده‌در.

حال حاضره‌ده گرك مرکزی، گرك محلی مؤسسلرك برچوغنی یاپگیدن یاپلمق یاخود گوکیدن دکیشمك دوره‌سینده بولوندیغی ایچین مذکور مؤسسلرك سه‌دن تاایجه‌لریده هنوز قوة تاسیسیه لرینی اکمال ایتمه‌مش اولدقلری جهتله بونلرك بودجه‌لرینه ادخال اولنه‌جق مبالغ ده تخمینی اولدیغندن بو مصارفك بودجه‌یه ادخالی دوغری اولمیه‌جغندن بو مصارفك بر دفعهلق اولمق اوزره تخصیص ایدیلمسی لزوم کوستریلدی.

تشریحیه تصدیقنه مظهر اولنمادقدن صکره عائد بولندیغی دائره‌ی صلاحیتدیه تقدیم اولونمامشدر.

مع مافیه جوقدن تاخیری اصلا ممکن اولمایان مصارف متعاقباً ظهور ایتمکده ولایحل براقیلماسی‌ده غیر قابل بولونمقله‌برابر، علی‌الاکثر بو کبی دولت‌لرچین ضروری بولونان مصارف بر کون یله اولسون تاخیر ایدیلهمزلر. حال بوکه اولاکی قوة تشریعیه‌دن کچیرمك یك چوق زمانه متوقف اولدیغندن دولت منافعه صوق دوجه‌سه سوء تاثیر کوستره بیلر.

سره اولونان ملاحظه‌لره مبنی هیئت وکلا بروجه زیر قانون لایحه‌سنی آذربایجان مجلس مبعوثانی صوالیدیه‌یه تقدیم ایتمه‌یی تحت قراره آلدی.

۱ ـ ۱۹۱۹ سنه‌سنده واقع اولاجق وشمدیدن تعیینی غیر قابل اولمقله برابر مستعجل بولنسان و کلهجکمه سه‌تایه ادخال ایدیلهجك اولان مصارف ایچین آذربایجان حکومتنك بنا گذارلغنه یکرمی ملیون (۲۰۰۰۰۰۰۰) روبله‌لق قرمه‌دیت آچیلسین

۲ ـ فوق‌الذکر قرمه‌دیتدن اولوتاجق مصارف هر دفعه هیئت وکلا قرارلر ایله ایدلسین.

رئیس وکلا: **فتحعلی خان خویسکی**

مالیه ناظری:

لایحه ماده یمعاده مذا کره‌ایدیلمکه باشلیور.

برنجی ماده اوقونیور.

احمد جودت ـ سوز الارق اساس اعتبا ریله حکومت اختیاریه قرمه‌دیت آچیلماسنی حقلی گوریورم. هر دقیقه هرمخرج ایچون پارلمانتن پول ایستهمك ممکن اولمادیغندن بر دفعهلك حکومت اختیاریه برمبلغ براقیلماسینه راضی اولیور، فقط ۲۰ ملیون منتی چوق گورمك ایستیورم که:

حکومت ایچون بویله برقوته لازمدر. فقط بن وظنمجه بو لوازملرك برچوغی‌ده بوراده‌یك که بردن بره ۲۰ ملیونی صرفیله‌سین هلدك فرق‌العاده مصارف تخمین ایدیلن ۱۰ ملیون کفایت‌سز طلته‌میزه ایسه‌ی ۱۰ ملیون براقیلسین که چکده حکومتك فعالیتی کسه‌یلم. لازم اولورسه بینه مراجعت ایدر، بینه پول راحة یقه

محمد امین رسول‌زاده ـ قرمه‌دیت آچیلماسی مسئله‌سینه اساس اعتبا ریله احمد بك ده اعتراض ایتمیور فقط ایکی نقطه‌ی آرالغنده بحث ایدیلیور. یالگز و اسی وار که حکومتك احتیاجنی اونك فعالیتی ایله عدم تناسق ایسته بولور. اما بنجه حکومتك اعتباریتی بروجه ایله علاقه‌دار دوتوب مدیر اداره‌لرك تولیتمك و امار حکومته اعتماد و اعتبار یوق ایدیلمشسز بویله

“Azərbaycan” qəzetinin 98-ci nömrəsinin 1-ci səhifəsi

Bazar ertəsi, 27 yanvar 1919-cu il, nömrə 98

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 24 rəbiülaxir sənə 1337. 27 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

VİCDAN SIZLAYIR

Qafqaziya vilayətləri kəndi müqəddəratlarını həll etməyə qalxışdıqda, Axısxa kəndi başına müstəqil bir xətti-hərəkət tutmuşdu. Gürcü sosial-demokratlarının yerli türklərin milli ehtiyacları ilə yerli arzuları əleyhində vaqe olan qabaca hərəkətləri Axısxa ilə bərabər Qars, Ərdahan və Batum həvalisi [bölgəsi] müsəlmanlarında Qafqaziya daxilində dördüncü bir kanton və yaxud federasyon fikrini doğurmuşdu.

Gürcü millətpərəstləri bu fikirlə mübarizə edirdilər. Mübarizələrində vəsilələrin [vasitələrin] növünə və məşruluğuna [qanuniliyinə] çox da əhəmiyyət vermə-yirdilər. Bu əməl isə əksüləməli mövcib olub [bu əməl isə müqavimətə, reaksiyaya səbəb olaraq] Zaqafqaziya cənub-qərbi müsəlmanları arasında behəqq [haqlı olaraq] zühur edən bu fikri-siyasini [siyasi düşüncəni] canlandırırdı.

Brest-Litovsk müahidəsi [sazişi] nəticəsində türklər Batum, Qars və Ərdahanı tutdular. Bunun üzərinə Axısxa tək qaldı. O zaman kəndi müqəddəratını digər üç vilayətlə birlikdə həll etməyi halına müvafiq görən və gürcü hökumətinə bir növ isinəmməyən Axısxa dəxi digər üç uyezdlə birlikdə Türkiyəyə meyl etdi. Bu meyl üstündə vuruşdu. Əlində silah olaraq mübarizə etdi. Batumda əqd olunan müahidə mövcibincə [imzalanan sazişə əsasən] Gürcüstandan ayrıldı. Fəqət axırkı hadisələrə görə türklər oralarını tərk edib getdilər. Gürcülər isə Axısxanı tutdular. Axısxanın bu hərəkətini idarə edən, bu hərəkətə ruh verən, onu məfkurəvi bir şəklə qoyan məşhur Ömər Faiq əfəndi Nemanzadə idi.

Ömər Faiq əfəndini kim bilməyir? O həssas, o atəşli mühərriri kim tanımayır? Qarsda dağılan xanimanların, Ərdahanda hətk olunan [tapdalanan] namusların, Batumda kəsilən qurbanların o yanıqlı mərsiyənəvisini [mərsiyə oxuyanını], "bir parça ətmək" deyə qəlbləri yaxan o həmiyyət məşəlini hangi azərbaycanlı unuda bilər?

Vaxt vardı; Faiq əfəndi Cəlil Məmmədquluzadə ilə bərabər nəşr eylədiyi "Molla Nəsrəddin" məcmuəsi vasitəsilə cəhalət pərdəsi ilə örtülü olan qara qəlbləri yaxıcı qələmi ilə yaxırdı.

O, binəzir [görülməmiş] bir cəsarətlə müqəddəs zənn olunan hər namüqəddəsə var qüvvəsilə çarpır, bütün vicdanı

ilə hər növ vicdansızlıqlara qarşı protesto edirdi.

O zaman Tiflis, imdiki Tiflis deyildi. Nikolay istibdadının zamanları idi. Faiq əfəndi Tiflisin bugünkü sahibləri ilə birlikdə rus istibdadına qarşı pəncələşir, “Metex” həbsinə otu[r]dulurdu.

Bu istibdad idi.

Fəqət Faiq əfəndi yenə Tiflisdə, yenə həbsdədir. Fəqət bu, yalnız həbs deyildir. Faiq əfəndi təhqir olunur. Faiq əfəndi canilərlə bərabər oturdulub oğrular, qaçqınlar tərəfindən döydürülür.

Möhtərəm oxuyucu, heyrət edirsən.

Əvət, mən də sənlə bərabər heyrətdəyəm.

Bir az əvvəl, Axısxa gürcülərə təslim olunduğu əsnada Faiq əfəndinin Axısxa hərəkətinin başçısı olmaq həsəbilə [səbəbindən] tutulub Tiflisə gətirildiyini eşitdik. Bəzi təşəbbüslər edildi. Nəticədə Faiq əfəndini həbsdən xaric etdilər, fəqət möhtərəmən təhti-nəzərdə [nəzarət altında] bulundurdular.

Bu aralıq, gürcülər Axısxa ilə iktifa [kifayət] etməmiş, Ərdahana doğru səfər eyləmək istəmişlərdir. Bu zəmində əhaliyi-islamiyyə ilə gürcü əsgərləri arasında toqquşma olmuş. Bunun üzərinə Faiq əfəndini təkrar tutmuşlar, həbsxanaya soxmuşlar; fəqət mücrimini-siyasiyyə [siyasi məhbuslar] şöbəsinə deyil, canilər qoğuşuna [otağına] salmışlardır. Canilərə anlatılmış olmalıdır ki, kəndisini “xaini-vətən” [vətən xaini] deyə fəna surətdə döymüşlər, ölüm halına gəldikdən sonra kəndisindən əl çəkmişlərdir.

Əcəba, kəndisinin hürriyyətpərvərliyini hər münasibət gəldikcə bar-bar bağıran Gürcüstan Hökuməti böylə şənəətə [yamanlığa] nə cür yol vermiş?..

Adil bir adam; bir cani, bir qatil, bir ədna [alçaq] haqqında rəva görülməsi ən qatı müstəbid məmləkətlərdə belə caiz olmayan bu cəzanı bütün Qafqaziya türkləri arasında böyük bir mühərrir, xatiri sevilər bir camaat xadimi olan həmiyyətmənd [həmiyyəli, vətən və millət qeyrəti çəkən] bir zat haqqında nasıl olmuş da Jordaniya hökuməti rəva görmüşdür?!..

Gürcüstan sultasını tanımamaq, gürcü siyasiləri kimi deyil, başqa dürlü düşünmək nə böyük bir cinayətdir ki, böylələrilə qüruni-vüstaya [orta əsrlərə] yaxışır cəzalarla rəftar olunur? Əcəba, siyasi qənaət və fikri üçün bir insan işgəncə edilərmi? Böylə bir işgəncə demokratik bir cümhuriyyətə yaxışarmı?

Gürcüstan Hökuməti bilmək istəməsə də, Gürcüstan camaatı, Gürcüstan mətbuatına mənsub olanlar, Gürcüstan camaat xadimləri bilsinlər ki, Ömər Faiq əfəndinin işgəncə edildiyi, bila-fərqi-məslək [ideya fərqi olmadan] bütün Azərbaycan türklərinin qəlblərini cərihədar eyləmişdir [yaralamışdır]. Azərbaycan-türk demokratiyasının vicdanı sızlayır. Bu sızılar bu qədər möhtac olduğumuz beynəlmiləl ülfətlərə sui təsir [mənfi təsir] edər. Bilxassə gürcü-türk yaxınlığına böyük səktələr [ziyanlar], böyük zərbələr vurar.

Faiq əfəndinin canilərlə bir otaqda məhbus qalması, Faiqin işgəncə edilməsi, həm də gürcülər əlində işgəncə edilməsi nə qədər vicdan əzici bir xəbər. Əcəba, bütün bunlar doğrumudur?!

Məlumati-mövsuqə [etibarlı məlumat] məəttəəssüf [təəssüf ki], bunun doğru olduğunu bildirməkdədir.

Bu xəbər bütün Azərbaycan məhafilində [dairələrində] bir protesto tufanı qoparmaya bilməz!

Azərbaycan, yalnız Azərbaycan deyil, türk həyati-ədəbiyyə və ictimaiyyəsi [ədəbi və ictimai həyatı] ilə aşina olan hər kəs, bu mənfur xəbəri oxuduqda istəkli qələm arxadaşımıza qarşı vaqe olan bu töhinə [əziyyətə] qarşı lənət şərarəsi [qığılcımı] yağdırmaya bilməz!

Faiq əfəndi cani olammaz. Siyasi fikrindən ötrü bir şəxsi cəzalandırmaq bilməm ki, Gürcüstan Cümhuriyyətinin şanına karmı?!

Qoy bu sualın cavabını Gürcüstan siyasi məhfilləri versinlər.

Azərbaycan məhafilinin bu məsələ üzərindəki təsirini xülasə edərsək, yalnız şunu söyləyə biləriz:

Vicdan sızlayır!

M. Ə.

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

9-uncu iclas

Şənbə günü kanuni-saninin [yanvarın] 25-i saat 12-də Məclisi-Məbusanın iclası təyin edilmişdi. İclas bir saatdan ziyadə təxirlə açıldı. Növbədəki məsələlər:

1. Hökumət ixtiyarına 20 milyon manat kredit buraxılması haqqında qanun layihəsi;

2. Gəncə Bələdiyyə İdarəsinə 450 min manat faizsiz borc verilməsi;

3. Bakı Bələdiyyə İdarəsinə 2 milyon 300 min manat borc verilməsi;

4. Ədəmi-ictima [eynı zamanda bir neçə vəzifə daşımaq] qanun layihəsi;

5. Məsai Nəzarəti [Əmək Nazirliyi] təşkilatı;

6. Ticarət və sair müəssisələr vəkalətnamələrinin təcdidi [yenilənməsi] məsələsi;

7. "İttihad" fraksiyonunun neft, bez və qeyri şeylər ehtikarı [möhtəkirliyi] haqqında sorğusu;

8. Bakı və Şəki qəzaları ilə yəhudi və ukraynalıların məbusluq yeri istəmələri haqqında;

9. Daxil olmuş kağızlar;

10. Məsai Nəzarətinə istizah [sorğu];

11. Dağıstan Cümhuriyyəti Parlamanının güşadı [açılması] münasibətilə təbrik teleqrafi göndərilməsi;

12. Məbus Bağır Rzayevin yerinə İbrahim Əbilovun namizədliyi.

20 milyon təxsis [ayrılması]

Ruznameyi-müzakirat [müzakirə gündəliyi] qəbul edildikdən sonra Hökumətə 20 milyon manat kredit buraxılması haqqındakı məsələyə keçərək, katib əfəndi idxal edilmiş olan zeyldəki [aşağıdakı] qanun layihəsini oxuyur:

İzahnamə

Hökumətin binaqüzarlığına [sərəncamına] 20000000 rubləlik kredit açılmaq xüsusunda qanun layihəsi

Keçirməkdə olduğumuz əhvali-fövqəladə zeyldə mühərrər qanun layihəsinin natiq bulunduğu fondan [aşağıda yazılmış qanun layihəsində göstərilən fondan] təsisini tələb edir. Əsasən fonda məhsubən ediləcək məsarifin smetaya idxalı icab etdiyi [fondun hesabından ediləcək xərclərin büdcəyə daxil edilməsi lazım gəldiyi] halda lüzumu sırası ilə, yəni müəssisələr açıl-

dıqça müsərrəhən [açıq şəkildə] təyin edilməyindən məzbur [deyilən] məsarif bir dəfəlik müntəzəm tərtib edilmiş müəssisələr smetasına düşməməklə bərabər, heç bir vəchlə gecikdirilməyəcək bir mahiyyətdədir.

Hal-hazırda gərək mərkəzi, gərək məhəlli [regional] müəssisələrin bir çoxu ya yenidən yapılmaq, yaxud kökündən dəyişmək dövrəsində bulunduğu üçün məzkur [deyilən] müəssisələrin smeta layihələri də hənuz qüvveyi-təşriiyyə [qanunverici hakimiyyət] təsdiqinə məzhər [nail] olmadıqlarından, aid bulunduqları daireyi-səlahdidinə [aid olduqları quruma] təqdim olunmamışdır.

Məmafih [bununla belə], çox vaxt təxiri əsla mümkün olmayan məsarif mütəaqibən [sonradan] zühur etməkdə və layənhəll [həll edilməmiş] burax[ıl]maları da qeyri-qabil bulunmaqdadır. Ələləksər [əksər hallarda] bu kimi dövlət üçün zəruri bulunan məsarif, bir gün belə olsun təxir ediləmməzlər. Halbuki onları qüvveyi-təşriiyyədən keçirmək pək çox zamana mütəvəqqif [bağlı] olduğundan, dövlət mənafeyinə son dərəcə sui təsir göstərə bilər.

Sərd [qeyd] olunan mülahizələrə məbni [əsasən], Heyəti-Vükəla [Nazirlər Kabineti] bərvəchi-zir [aşağıdakı] qanun layihəsini Azərbaycan Məclisi-Məbusanı səvabdidinə [təsdiqinə] təqdim etməyi təhti-qərara aldı.

1) 1919-cu sənəsində vaqe olacaq və şimdidən təyini qeyri-qabil olmaqla bərabər, müstəcəl [təxirəsalınmaz] bulunan və gələcəkdə smetaya idxal ediləcək olan məsarif üçün Azərbaycan Hökumətinin binagüzarlığına [sərəncamına] iyirmi milyon (20.000.000) rubləlik kredit açılsın.

2) Fövqəlzikr [yuxarıda deyilən] kreditdən olunacaq məsarif hər dəfə Heyəti-Vükəla qərarı ilə ifa edilsin.

Rəisi-Vükəla [Baş nazir]:
Fətəli xan Xoyski
Maliyyə naziri.

Layihə maddəbəmaddə müzakirə edilməyə başlayır. Birinci maddə oxunur.

Əhməd Cövdət - söz alaraq əsas etibarı ilə hökumət ixtiyarına kredit açılmasını haqlı görür, hər dəqiqə hər məxaric üçün Parlamandan pul istəmək mümkün olmadığından, bir dəfəlik hökumət ixtiyarına bir məbləğ buraxılmasına razı olur. Fəqət, 20 milyon manatı çox görərək deyir ki:

“Hökumət üçün böylə bir fond lazımdır; fəqət mən və zənnimcə yoldaşlarımın bir çoxu da bu rəydəyik ki, birdənbirə 20 milyon verilməsin. Hələlik fövqəladə məsarif üçün 10 milyon kifayətdir, zənnindəyiz. İndi 10 milyon buraxılsın, gələcəkdə hökumətin fəaliyyətini görərik. Lazım olarsa, yenə müraciət edər, yenə pul buraxarıq.”

Məhəmməd Əmin Rəsulzadə - “Kredit açılması məsələsinə əsas etibarı ilə Əhməd bəy də etiraz etmir, fəqət onun çoxluq-azlığından bəhs edir. Yalnız burası var ki, hökumətin ehtiyacını onun fəaliyyəti ilə əlaqədar tutmaq istəyirlər. Amma məncə hökumətin etibarını büdcə ilə əlaqədar tutub milyonlarla ölçmək olmaz. Hökumətə etimad və etibar bəyan edilmişdir. Böylə isə təxsisat [pul ayrılma-

sı] məsələsini onun fəaliyyəti ilə əlaqədar tutmaq müvafiq deyildir. Biz anlayırız ki, Hökumətin bir aylıq fövqəladə məsarifi 10 milyondan fəzlə olmaz; fəqət milyonun mahiyyəti nədir? Əski qiymətlə götürülərsə 20 milyon manat 200 min manat hökmündədir. Bu isə hökumət üçün çox deyildir. Bilxassə bir ayadək hökumətin smetası hazır olacaqdır. O vaxt təxsisat dəxi smeta üzərinə olar. Amma indilik 20 milyon çox deyildir. Həm də bu məsələni hökumətin fəaliyyəti ilə əlaqədar tutmağı mən münasib görmürəm."

Sədr hər iki təklifi səsə qoyur. Əksəriyyəti-ara [səs çoxluğu] ilə 20 milyon buraxılması haqqındakı təklif qəbul olunur. Sonra qanun layihəsi maddəbəmaddə oxunaraq ittihadi-ara ilə [yekdilliklə] qəbula keçir.

Gəncə Bələdiyyə İdarəsinə 450 min rublə borc verilməsi

Bundan sonra Gəncə Bələdiyyə İdarəsinə sari [yoluxucu] xəstəliklərlə mübarizə üçün 450 min rublə borc verilməsi haqqındakı layiheyi-qanuniyyə [qanun layihəsi] müzakirə olunur.

Doktor [Musa bəy] Rəfiyev məruzəçi sifəti ilə çıxaraq bəyan edir ki, Daxiliyyə Nəzarəti vasitəsilə Parlamana bir layiheyi-qanuniyyə idxal edilmiş və Parlamanın Maliyyə komisyonunda baxılaraq, bu gün Məclisi-Məbusan iclasına təqdim olunur. Layihə budur:

"Azərbaycan Cümhuriyyətinin Daxiliyyə Nəzarəti

16 yanvar 1919

Azərbaycan Məclisi-Məbusanına

Gəncə Bələdiyyə İdarəsinə faizsiz olaraq 450 min manat verilməsi layiheyi-qanuniyyəsi

Bakıdan gəlmiş erməni mühacirləri vasitəsilə Gəncədə 1918 sənəsi dekabrın əvailində [əvvəllərində] səpmə yatalaq xəstəliyi zühur edib, həman ayın əvaxirində [axırlarında] o xəstəlik öylə bir dərəcədə şiddət kəsb etmiş [şiddətlənmiş] ki, şəhərin ermənilərlə məskun ikinci hissəsində xəstələrin miqdarı 500 nəfərə çatmış, şəhərdə xəstəxanalar olmadığından xəstələrin mənzillərində qalmaqla digərlərini də həman xəstəliyə salıb xəstəliyin intişarına [yayılmasına] səbəb olurlar.

Bələdiyyə İdarəsi 29 dekabr tarixli fövqəladə iclasında şəhər doktorlarının əksərinin iştirakı ilə xəstəliyə qarşı tədabir [tədbirlər] məsələsi müzakirəsi əsnasında böylə bir qərara gəlmişlər ki, şəhərin yalnız 25 xəstə üçün sari xəstəxanası hal-hazırın ehtiyacını heç bir vəchlə dəf etməyə kafi deyildir. Müsri xəstələr ehtiyacı üçün şəhərin digər xəstəxanasından istifadə ediləmməz. Çünki xəstəxanada yataqlar məhdud olduğundan savayı, bu xəstəxanaya yalnız məcruh [yaralı] ilə müsri olmayan xəstələr qəbul etməkdədir.

Bunları nəzərə alaraq və müsri xəstəliklərin önünü alıb əhaliyə tibbi müavinət [yardım] etmək üçün Bələdiyyə İdarəsi indilik olaraq əqəllən [ən az] 50 xəstə üçün yeni bir xəstəxana güşadına [açılmasına] qərar vermişdir. Bununla bərabər, xəstələrin mənzil və əşyalarını təthir [təmizləmək] üçün də ənvai tədabir [müxtəlif tədbirlər] görülüb, şəhəri səhiyyə nöqteyi-nəzərindən lazımi bir hala gətirmək fikrindədir.

Məzkur tədabiri [deyilən tədbirlər] qövldən feilə [sözdən əmələ] gətirib, üç ay

ərzində bu təşkilatı (xəstəxana, təthirat [təmizlik] dəstəsi və ilx.) saxlamaq üçün şəhərə təxminən 450 min manat pul lazımdır ki, əlyövm [hal-hazırda] şəhərin qüvvəsindən xaric olan bir məsarifdir.

Müsri xəstəliklər dəfi, xüsusən səpmə yatalaq dəfi məhəlli [yerli] idarələrə deyil, hökumətə aid bir vəzifə olduğundan, Gəncə Bələdiyyə İdarəsi imkanı olduğu qədər bu yolda çalışmaqla bərabər, əlyöm müsri xəstəliyin önünü almaq üçün fəqət [ancaq] 25 min manat buraxmaqla bərabər, hökumət xəzinəsindən eyni məqsəd və mətləb üçün 450 min manat pul verilməsini istida [xahiş] edir.

Gəncə şəhərində hökmfərma olan [hökm sürən] müsri səpmə yatalaq xəstəliyi ilə mübarizədə bulunmanın, xəstəliyi yalnız Gəncə şəhərində əsasından qaldırmanın deyil, fəqət Bakıya keçməsinin dəxi önünü almaq lazım olduğunu düşünərək, Zira xəstəliyin Bakıya sirayət etdiyi təqdirdə kəndisi ilə mübarizədə bulunmanın haman qeyri-mümkün və xəstəliyin o vaxt minlərcə insan tələfatına bais olacağından, Daxiliyyə Nəzarəti, Bələdiyyə İdarəsinin balada məzkur iqdamatının [yuxarıda deyilən təşəbbüsünün] şayani-qəbul [qəbula layiq] olduğunu etiraf edərək, aşağıda dərc olunan layiheyi-qanuniyyəni Məclisi-Məbusanın təsdiqinə təqdim eylər:

1) Gəncə İdareyi-Bələdiyyəsinə [Bələdiyyə İdarəsinə], əmrazı-sariyə [yoluxucu xəstəliklər] ilə mübarizədə bulunması üçün xəzineyi-dövlətdən [dövlət xəzinəsindən] bilafaiz [faizsiz] olaraq 450 min manatlıq bir borcun verilməsi.

2) Məzkur İdareyi-Bələdiyyənin, işbu borcu şəhərin varidat və məsarifat [mədaxil-məxaric] dəftərinə qeyd edilərəkdən, hər sənə müsavi [bərabər] hissələrlə, üç il zərfində xəzineyi-dövlətə verilməsi üçün kəndisini müvəzzəf [cavabdeh] qılmaq.

Daxiliyyə naziri (imza)
İdarə müdiri (imza)
Üçüncü şöbə müdiri (imza)

Maliyyə komisyonu bu məbləğin borc təriqi ilə [borc şəklində] buraxılmasını lazım bilərək, layiheyi-qanuniyyənin qəbul və təsdiqini təklif edir.

Sultan Məcid Qənizadə - Əlbəttə Gəncə şəhərinə bu borcu vermək lazımdır. Hal-hazırda müsri xəstəliklər o qədər şiddət etmişlər ki, hökumətlə bərabər camaatın da işləməsi icab edir. Hökumət əgər hökumət isə camaatın dərdinə qalmalı, onu mühafizə etməlidir. Bunun üçün də yalnız Gəncə deyil, qeyri şəhərlərə də pul buraxmalıdır ki, müsri xəstəliklə mübarizə etsinlər; ancaq bu məbləğin miqdarı barəsində bir qədər danışmaq istərdim. Mən bilmirəm nə üçün Bakı Şəhər İdarəsi 600 yataqlıq xəstəxana açmaq üçün 2 milyon 200 min manat istəyir, amma Gəncə 50 yataq üçün 450 min manat. Bu iki məbləğ müqayisə edilərsə, böyük fərq görülər. Böylə ki, yataq hesabı ilə Gəncəninki neçə dəfə artıq çıxar. Əgər məzkur məbləğ yalnız xəstəliklə mübarizə və xəstəxana təsisi üçün isə çoxdur; başqa işlər üçün isə əlahiddə məsələdir. Ona görə bu xüsusda tövzihat [açıqlama] verilməsini xahiş edirəm.

Bitmədi

YOL TƏƏSSÜRATIM

Tiflis

Gürcüstan Cümhuriyyəti paytaxtı olan Tiflis şəhərinə daxil olduqda, əvvəl Qafqazın əski paytaxtı və sabiq rus hökuməti Qafqaz canişininin məqərri [qərargahı] olan Tiflis hiss edilirsə də, lakin yavaş-yavaş həmin təəssürat yeni görünən lövhələr və şəkillər sayəsində rəf olub [aradan qalxıb] gedir. Artıq Rusiyadan burada bir əsər qalmadığı görünür. Əski rus jandarması əvəzində zahirən ondan bir qədər "xəfif" görünən camaati-xəvassə müfrəzi [xüsusi xalq dəstələri] "narodnoqvardeys", öz vətəninin xidmətində zəif şəkilli, lakin mətanəti-qəlbiyyəsi [qəlbən mətanətlə] ilə qəvi [güclü] olaraq gözə görünür.

Küçələrin hamısında xalq qvardiyası nəfərləri [əsgərləri] nizam və qaydanı mühafizə edirlər. Ara-sıra milli qoşun əfradı [əsgərləri] müşayiəti altında erməni əsirlərini ora-bura aparırlar.

Erməni-gürcü müharibəsi münasibətilə bura ermənilərinin başları aşağı sallanıbdır. Ermənilərin bu hallarına bərəks [əksinə] olaraq, müsəlman əhalisi kamalitəmkin və vüqarla "papaqları gözləri üstə" şəhərin küçələrində asudə gəzirlər. Bunların böylə bir şəkildə görünüşləri, islam əhalisinin mehriban və dost bir məmləkətdə yaşamalarına dəlalət edir.

Qolovinski prospektdə gəzərkən böylə bir mənzərəyə təsadüf etdim: gürcü qoşun dəstələri musiqi ilə arxadaşlarından birini darülbəqaya [əbədiyyət evinə, məzara] müşayiət edirlər. Bu dəstənin qarşısına küçənin sağ tərəfindən başqa bir dəstə gəlir. Burada acaralılar dəstəsi, xalq qvardiya nəfərləri, könüllü müsəlman dəstələri, hamısı müsəlləh [silahlı] olaraq kamali-qaidə və nizamla bir nəfər gürcü təbəəsi olan müsəlman cənazəsini təşyi edirlər [yola salırlar]. Orada musiqi Şopenin qəmli marşını çalır, burada isə cənazənin qarşısında gedən mollanın uca səslə oxuduğu "ləhəvləvəlaə"si bir əməllə [niyyətlə] birləşmiş və həmin əməl yolunda qurbanlar vermiş iki mədəniyyətin asarını [əsərlərini] samilərin [eşidənlərin] qulaqlarına eşitdirir.

***

Əvət, bu gün gürcü millətçiləri böylə söyləyirlər: Biz indiyə kimi böylə güman edirdik ki, Zaqafqaziyada üç qisim millət yaşayır. Lakin şimdi artıq düşündük ki, bunlar üç deyilmiş, yalnız iki imiş: şərqdə azəri türkləri, qərbdə gürcülər. Məvərayi-Qafqaz [Zaqafqaziya], yalnız bu iki milləti təşkil edir.

Qafqaz millətlərinin bir bu qədər bəla və müsibətdən sonra öz hüquqlarını qazanmaq üçün səy və kuşiş etdikləri [çalışdıqları] əsnada və böylə imtahan günlərində ölkədə ixtilaf çıxarıb da Rusiyadan ayrılmış Qafqaz məmləkətlərinin istiqlaliyyətə nail olmaq ümidlərini puç etmək fikri ilə bunlar arasında qanlı müharibə salan erməni "daşnak" məhafilinə [dairələrinə] qarşı filhəqiqə [həqiqətən də] gürcülər miyanında [arasında] qayət şiddətli bir nifrət vardır ki, həmin nifrət nəinki yalnız biz millətçilər, hətta gürcü sosialistləri tərəfindən dəxi ibraz olunur [nümayiş etdirilir]. Demək olar ki, "daşnaklar" əleyhinə mövcud olan nifrət, bütün erməni millətinə qarşı nifrətamiz bir

hissiyyata müncər olmuşdur [çevrilmişdir] və bu nifrət “daşnakların” hökumət başında durmağı davam etdiklərinədək yaşaya-caqdır.

Erməni nümayəndəsi Gürcüstan Parlamanında Gürcüstan ermənilərinin "sədaqətindən" dəm vurduqda, gürcülər tərəfindən "Bəs Şulaveri xəyanəti necə olsun?" kimi iradlar olunur. Ermənilərə inanan yoxdur.

Bu gün gürcülərin hər bir sinifləri arasında böylə iman vardır ki, ermənilərin bu fövqəladə və qayət namünasib bir zamanda Qafqazda müharibə salmalarından məqsəd, yalnız Qafqazda bir şuriş [qarışıqlıq] yapıb, burasını Müttəfiqlər nəzərində yaman qələmə vermək imiş. Başqa bir səbəb görməyirlər.

***

Müttəfiqlərin müdaxiləsi sayəsində qət olmuş [dayandırılmış] erməni-gürcü müharibəsində ümumən kim qazandı, kim qeyb etdi?

Bu məsələ hələ dürüst bəlli deyildir. Gürcü mətbuatına baxdıqda, qeyb edənlər ermənilər olmuşlar. Lakin "əhli-xibrə"lər [mütəxəssislər] böylə söyləyirlər ki, həmin müharibədə mütəzərrir olan [zərər çəkən] yenə də gürcülər olmuşlar. Artıq tələfatla bir çox əsir vermişlər və nəhayətdə mübahisəli yerlər ingilislər tərəfindən işğal edilmişdir. Bunlar[ın] sonra kimə veriləcəyi, yəqindir ki, başqa bir mübahisəyə səbəb olacaqdır. Hər halda bir çox tələfat verdikdən sonra üzərlərinə təmayül edən [paylarına düşən] müvəffəqiyyətdən bəhrəmənd olmayan [faydalanmayan] gürcülər, müharibənin böylə bir nəhayətə varmasından razı qalmamışlardır.

***

Burada rus ünsürü artıq görünməyir kimidir.

Hər halda gürcülərin paytaxtı “girdəpapaq” süvari həriflərdən məsundur [qurtulmuşdur]. Lakin ingilislər vardırlar və hər gün buradakı qüvvələrinin artırılması söylənir. Bununla belə, ingilislər buraya mehman sifətində gəlmələri gözə çarpır. İngilislərin mehman sifətində gəldikləri və Tiflisdə idarə tamamilə gürcülər əlində olmasına dair sübutlardan biri də onların böyükləri, heyətləri və generalları avtomobillə Gürcüstan Cümhuriyyəti ricali-hökumətinin [hökümət adamlarının] nəzdinə [yanına] gəldiklərıdir. Bunu gördükdə hər bir azərbaycanlının qəlbində müxtəlif hisslər oyanır.

***

Ömər Faiq əfəndi ilə görüşdüm. Tövqifdən [həbsdən] azad olub da xanənişinliyə [ev həbsinə] məhkum olduğunu bəyan etdilər. Mumaileyh [adı keçən şəxs], bu rəsmiyyət üstündən götürülərkən Bakıya gedəcəklərmiş. Ömər Faiq kimi qəyur [geyrətli] bir zatın Bakıya vürudu [gəlməsi] səmərəsiz qalmayıb, nadir olan fəal mücahidlərimizin qüvvəsi artmağa inanırız.

***

Bu gün siyasi nümayəndəmiz Məhəmməd Yusif Cəfərov tərəfindən müsa-

fir olduq. Burada iki gün qalıb lazımi material cəm etməyə və həm də dağıstanlı arxadaşlarımızı gözləməyə sərf edəcəkdik. Lakin eşitdik ki, gürcü heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] bizdən bir gün əvvəl Batuma getmişlər. Bunun üçün yarın Batuma tərəf getməli olduq.

Ceyhun Dağıstani

TELEQRAF XƏBƏRLƏRİ

* Parisdə müntəşir [nəşr olunan] "E." qezətəsinin məlumatına görə, ingilis hökuməti şimdiki polyak hökumətini, başda Pilsudski olmaq üzrə, təsdiq eyləmişdir.

* İstanbul - Türkiyə qəzetələri Türkiyə ilə Yunanıstan arasında ittifaq bağlamağı hökumətə tövsiyə edirlər.

* Hal-hazırda Sibiryada 80 min Yaponiya saldatı vardır. Bu yaxınlarda Qara dəniz ilə Əqsayi-Şərq [Uzaq Şərq] arasında gəmi hərəkatı başlanacaqdır.

* General Şkuronun dəstəsi yanvarın 15-də Həsəntuki [Yessentuki] şəhərini işğal etmişlərdir.

* Don qoşunları Sarepta deyilən yeri alıb bolşeviklərdən külli qənimət almışlardır.

* Soçiyə zeyldəki [aşağıdakı] məlumat verilir: Yekaterinodarda baş komandan Kubanda olan qeyri millətlərin də silah altına alınmalarına əmr vermişdir. Yanvarın 15-də səfərbərliyin 1-ci günü təyin edilmişdir.

* Almaniya Müttəfiqlərə 25 milyard ingilis lirəsi dava xərci verməlidir. Bu qədər pulu verməkdən Almaniya aciz olduğu üçün pul əvəzinə Almaniyanın müstəmləkələrini almaq istəyirlər. Elzas-Loren Fransaya mülhəq olmalıdır [birləşməlidir]. 1915-ci ildə malik olduğu kömür mədənləri də Fransa ixtiyarına keçə bilər. Bu da bu qədər dava xərcinə kifayət etmədiyi üçün əcnəbi banklarında olan qızıl pulları da Müttəfiqlər əlinə keçəcəkdir. Harold Koks[un] hesabına görə, banklarda 650 milyon ingilis lirəsi qiymətində məbləğ var. Bu da aşkardır ki, Belçika ilə Fransadan aparılmış olan bütün makinalar da qaytarılmalıdır. Hərgah bunlar da ümum xərci ödəməsə, o zaman Almaniya ticarətini borcları ödəməyə vadar edəcəklərmiş.

* Berlin - Yanvarın 19-da Almaniya Məclisi-Müəssisanı[nı]n intixabı [seçkisi] icra edilmişdir. Çox arvadlar da intixabatda iştirak etmişlərdir. Seçkilərdə hərbi məmurlar da iştirak etmişlərdir.

SÜLH ƏTRAFINDA

* Parisdə iniqad etmiş [baş tutmuş] Sülh Konfransı Rusiyaya müavinət etmək məqsədi ilə Rusiyanın hökumətlərindən, yaxud qüvvələrindən üçər nümayəndə dəvət eyləmişdir. Bunlar, adı hələlik məlum olmayan bir cəzirəyə [adaya] nümayəndələrini göndərəcəklər. Cəzirə Mərmərə dənizindədir. Müttəfiq dövlətlər nümayəndələri orada onları istiqbal edəcəklərdir [qarşılayacaqlar]. Bundan məqsəd odur ki, rusiyalılar özləri öz müqəddəratını həll etsinlər.

* Almaniya 8 cümhuriyyətdən ibarət bir ölkə olacaqdır. Başda isə 10 milyon əhalisi olan böyük Berlin Cümhuriyyəti olacaqdır.

* (Fransız mətbuatı) Müttəfiq dövlətlər başçıları, Vilsonun təklifi üzərinə zeyldəki [aşağıdakı] qərarı qəbul etmişlərdir. Müttəfiq dövlətlərin Rusiya barəsində olan yeganə məqsədləri budur ki, Rusiya əhalisinə öz mülahizələri ilə müqəddəratını həll etməyə müsaidə verilsin. Müttəfiqlər nümayəndələri Rusiya millətini özlərinə düşmən deyil, dost sanırlar. Rusiya əhalisinin arzusuna görə, Rusiyaya müavinət etmək istənilir. Hərgah, Müttəfiqlər Rusiyada əmin-amanlıq bərpa və nəqliyyat işlərini islah etməsələr, Rusiya əhalisi indiki aclıq və qıtlıqdan xilas olmayıb, daima Rusiyada iğtişaş artacaqdır. Ona görə də Müttəfiqlər Rusiyada asayiş bərpa etmək üçün Rusiya əhalisinə kömək vasitələri axtarırlar. Kənardan təzyiq olmadan Rusiya əhalisinin özləri öz işlərini idarə etməyə haqlı olduqlarını Müttəfiqlər qəbul edirlər. Heç halda Müttəfiqlər Rusiyadan sui-istifadə etmək istəməyirlər. Müttəfiqlər Rusiya inqilabının mahiyyətini anlayırlar. Əks-inqilabçılara heç bir vəchlə müavinət etməyəcəklər və Rusiyada hökumət üstündə yekdigəri ilə boğazlaşan dəstələrin heç birinə, bir-birini yıxmağa müavinət etməyəcəkdirlər. Mütəffiqlərin yeganə amalları Rusiyaya sülh verərək mümkün olduqca tez, Rusiyanı indiki haldan xilas etməkdir. Müttəfiq dövlətlər bütün Avropada və bütün cahanda sülh və müsalimət [asayiş] bərpa edəcəklərinə söz vermişlər və bunu da inkar etməyirlər ki, nə qədər Rusiyada dinclik yoxdur, bütün Avropada sülh ola bilməz. Ona görə də Müttəfiqlər Rusiyada sülh və müsalimət bərpasına və Rusiya əhalisinin arzusuna müvafiq bir surətdə Rusiyanı sahili-nicata [xilas sahilinə] çıxarmağa var qüvvələri ilə çalışacaqdırlar.

Türkiyə dəmiryolları

İngilislərlə fransızlar, Bağdad dəmiryolu başda olmaq üzrə, bütün Türkiyə dəmiryolları ümuri-idarəsini [idarə işlərini] əllərinə almışlardır.

* Fransa mətbuatı xəbər verir ki, gələn şənbə günü Xariciyyə Vəzarətində Sülh Konfransının yeni fövqəladə iclası olmalıdır. Bu cələsədə [yığıncaqda] Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsi də müzakirə ediləcəkdir. Lloyd Corcun Cəmiyyəti-Əqvam məsələsi maddələri barəsində olan təklifi mübahisələrə səbəb olmuşdur. Təklif qəbul olunduqdan sonra, Burjua, Sesil və general Amet tərəfindən hazırlanmış layihəni Vilson məclisə təqdim edəcək və bu axırıncılar bu məsələ xüsusunda ətraflıca danışıqda bulunacaqdırlar. Sonra bu qanun layihəsi xüsusi komissiyaya veriləcəkdir. Almaniya tərəfindən müharib [savaşan] və qeyri-müharib dövlətlərə vurulan xəsarət miqdarının təxmini də bu komissiyaya mühəvvəl ediləcəkdir [tapşırılacaqdır].

DAĞISTAN CÜMHURİYYƏTİNDƏ

(Xüsusi müxbirimizdən)

Cəbhədə təbədüllat [dəyişiklik] yoxdur. Tereçnaya-Arqun xətti cəbhədir. Arqun bizim əlimizdədir. Müvəffəqiyyətli bir surətdə ordu təşkil edilir. Orduya həvəslə daxil olurlar. Əsgərlikdən qaçan yoxdur.

* Yanvarın 15-də Teymurxanşurada oblast şurası açılmışdır. Camaat intixab etmədiyi [seçmədiyi] və sabiq komissar Qabiyev tərəfindən təyin edilmiş köhnə şura üzvlərinin dəvət edilmələri əleyhinə Qazıqumuq əhalisi protesto etmişdir. Qazıqumuqlular təzədən seçki olmasını xahiş edirlər.

* Qabardadan gələn nümayəndənin dediyinə görə, bolşeviklər görünməmiş vəhşiliklər törədirlər. Bir çox adamlar qətl edilmişdir. Qabarda nümayəndəsi gözləri yaşlı nəql edir ki, bolşeviklər nəinki onların əleyhinə olanları, bəlkə qeyrilərini də tələf edirlər. Ancaq vaxtlı-vaxtında meşələrə və dağlara qaçanlar xilas oldular ki, onların da bir çoxu soyuqdan və aclıqdan həlak olmuşdur. Qabardada bolşeviklərin sayəsində əhalinin hər bir şeyi əlindən çıxmışdır. Hürriyyətprəvər Qabarda nümayəndəsi Qabardaya qonaq gələn bolşeviklərin bu hərəkətlərini ağlaya-ağlaya nəql edirdi.

* Teymurxanşurada ehtikar [möhtəkirlik] şiddət etməkdədir [artmaqdadır]. Bir tək xüsusi adamlar deyil, ictimai və hökumət müəssisələrində o[la]nlar da ehtikar ilə məşğuldurlar. Şeylərin qiyməti hər gün artmaqdadır. Kəndlilərin nalələrinə qulaq asan yoxdur. Ərzaq naziri ehtikarla mübarizə ediləcəyini izhar eyləmişdir [bildirmişdir]. Bu barədə xüsusi qanunlar veriləcəkdir. Mühəndis Saleh Hacıyev Dağıstanda ərzaq naziri vəkili təyin edilmişdir.

MÜƏLLİMLƏR İCLASI

İşbu kanuni-saninin [yanvarın] 24-də, saat 11 radələrində, Bələdiyyə İdarəsi salonunda şəhər məktəb müəllimlərinin ümumi iclası vaqe olmuşdu. İclas, Bakı Bələdiyyə Məkatib [məktəblər] şöbəsi sədri Əlicabbar əfəndi [Orucəliyev] təşəbbüsatı ilə dəvət edilərək, müsəlman müəllimlərinə məxsus türk lisanı kursları güşadına [açılmasına] münhəsir [həsr] edilmişdi. İclasda 30-dan ziyadə müsəlman müəllimləri iştirak edirdi. Şayani-təəssüf [təəssüf ediləcək] bir cəhət var idisə, o da türk xanım müəllimələrinin isbati-vücud [iştirak] etməmələri idi. Halbuki, iclas barəsində bütün şəhər məktəblərinə birər dəvətnamə göndərilmişdi. Xanımlardan, fəqət [sadəcə] Hənifə xanım Məlikzadə xanım öz ixtiyarlığına [yaşlılığına] baxmayaraq iclasda hazır olmaqla, ruhən nə qədər gənc olduğunu və nə qədər milli məsailə [məsələlərə] əhəmiyyət verdiyini göstərirdi.

Əlicabbar əfəndi məclisi açmadan əvvəl, şamaxılı müəllimlərə müraciətən ora qaçqınlarının fəna halını təsvir ilə, Şamaxılılar Həmtorpaqlıları Cəmiyyətində çalışmağı onlara təklif etdi. Şamaxı qaçqınlarının əhvalı olduqca müdhiş bir surət kəsb etmişdir [surət almışdır].

Sonra əsl mətləbə keçərək, türk lisanı kursları barəsində məlumat verir:

- Bizim buraya yığışmamızın səbəbi türk lisanı kursları güşadı məsələsidir. Hamınıza məlumdur ki, bir çox təcrübəli müəllimlər həyatın ağırlığından naşi [ötrü] öz vəzifələrini buraxıb başqa-başqa işlərlə məşğuldurlar. Məktəblərdə olanlar şimdi yeni müəllimlərdirlər. Yeni, əski, əsl mətləb buradadır ki, hamımız türk lisanında zəifik. Hamı şəhər məktəbləri, hətta ali-ibtadi məktəblər də millileşmişlərdir. Bunlara müəllim lazımdır. Bu

sənə bir növ keçiniriz. Fəqət, gələcək sənə üçün bizə türk lisanını mükəmməl surətdə bilən müəllimlər lazım olacaqdır ki, milliləşmiş siniflərdə tədrisatı ana lisanımızda apara bilsinlər. Keçən sənə kurslar güşad edilmişdi. Fəqət, bir çox səbəblərdən dolayı müntəzəm deyildi. Şimdi öylə etməlidir ki, müntəzəm surətdə aparılsın.

Sonra müəllimələrin və bir çox müəllimlərin bu gün gəlməməsindən şikayətlə, kursların lüzumiyyəti barəsində ifadeyi-məram edərək [danışaraq], kurslar üçün 30 min rubləlik bir məbləğ Bələdiyyə Məclisindən istənilməsini dərmiyan etdi [meydana atdı]. İşbu məbləğin 15 min rubləsi erməni lisanındakı kurslara (?), 15 min rubləsi türk lisanı kurslarına məxsus olacağını söylədi:

- Bu para Bələdiyyə Məclisinə idxal edilməyibsə də, yenə mən itminan [inam] bəsləyirəm ki, Maliyyə şöbəsi bunu rədd etməyəcəkdir. Şimdi işbu para ilə işi özünüz aparmalısız.

Axundzadə əfəndi təşəbbüsatın şayani-təhsin [alqışlanmağa layiq] olmasını söyləyir, fəqət işi müntəzəm surətdə aparmaq üçün layihə tərtibini lazım bilir.

Bədəl bəy əfəndi əski müəllimlərin aclıqdan naşi qəza qaimməqamı, polis müfəttişi olmalarını söyləməklə, müəllimlərin maddi cəhətlərinin təmin edilməsi lüzumiyyətini göstərir. “Madam ki, Maarif Nəzarəti və Bələdiyyə İdarəsi müəllimləri təmin etməyir, iki yüz kurs açılsa da bir şey çıxammaz. Zira müəllim, çocuqlarının aclığı dərdini çəksin, yaxud kursda təhsil etsin?” - sözləri ilə nitqinə xitam verir.

Əlicabbar əfəndi, Bədəl bəy əfəndinin sözlərinə şərik olaraq əlavə edirlər ki, şimdi təminat məsələsi ziyadəsincə müşkül bir haldadır. Bələdiyyə İdarəsi kassasında pul yoxdur. Azərbaycan Hökuməti hər ay şəhərə borc pul verir. Şimdi eşitdiyimizə görə hökumət, müəllimləri təmin etmək istəyir. Böylə olduqda bizə də şamil etmək mümkün olacaqdır; fəqət acıq deyə iş görməyək demək də səhvdir, deyir. Gələcəkdə Bakıda Müəllimlər İnstitutu açılacağı barəsində bir məruzə hazırlayıb Bələdiyyəyə verəcəyini bəyan edir. Fəqət, şimdilikdə “baş açıq qalmamaq” üçün işbu kurslardan istifadə etməyi təklif edir.

Axundzadə əfəndi də müəllimlərin üsrət [əziyyət] çəkdiklərini söyləyir. Hacıəlizadə Səməd bəy əfəndi türk lisanını bilən müəllimlərin lüzumiyyətindən bəhslə, müəllimlərə məxsus bir neçə “stipendiya” [təqaüd] açılmasının mütəmənna olduğunu [arzuedilən olduğunu] söyləyir. Hacıəlizadə Səməd bəy kursda təhsil edəcək müəlliminə [müəllimlərə] stipendiya verilməsinin işə kömək edəcəyini də zənn edirlər.

İsrafilbəyzadə Ağababa bəy əfəndi, iclasa müraciətən keçən sənədəki kimi kurslarda müəllimsiz və kitabsız qalacaqlarından əndişə edib, müəllimimiz olmadığı kimi tədrisat kitablarımız da yoxdur, deyir. Lakin məlum olur ki, Kazımzadənin kitab mağazasında bir çox kitab vardır ki, istifadə etmək mümkün ola biləcəkdir.

Əbdülzadə təklif edir ki, kurs işlərini müntəzəm surətdə aparmaq üçün müəllimlər miyanından [arasından] bir komisyon təşkil edilərək, kurs idarəsi ona tapşırılsın. Məsələni səsə qoymağı təklif edirlər. Sədr komisyon intixabına [seçki-

sinə] keçməyi təklif edir. Hənifə xanım məktəblərimizin, xüsusən ünas [qız] məktəblərinin türk lisanı bilən müəllimlər yoxluğundan əmələ gələn halını təsvirlə *"Məlumatlı və müqtədir müəllimimiz ola bilsin çoxdur, fəqət dil, dil yoxdur, dilsiz məktəb milli nəşvü-nüma tapammaz [tərəqqi edə bilməz]"* deyir.

Təklif edilir ki, komisyon dörd nəfərdən ibarət olsun. Komisyon seçilib, intixab edilənlər bunlardır:

1) Hacıəlizadə Səməd bəy;
2) Axundzadə;
3) Əliməhəmməd əfəndi;
4) Əbdülzadə Əbdül.

Təcrübəli müəllimlərdən Mahmudbəyov Mahmud bəy komisyon[un] ricasına görə müavinətdə bulunacaqdır. Komisyon lazım biləcək müəllimləri cəlb etmək ixtiyarına malikdir. Komisyon həman gündən fəaliyyətə başlayaraq layihə tərtib etməyə başlamışdır.

Məclis saat bir radələrində qapanır.

T.

FƏHLƏLƏRİMİZƏ DAİR

Bizim sadiq demokratlarımız, rus demokratları ilə bərabər işləməyə başladılar və rus demokratları həmişə bunu deyirdilər:

Yoldaşlar, bunu bilin və agah olun! Keçmiş istibdad zamanında sərvətdarlar, bəylər, xanlar bizim başımıza nələr gətiriblər və bunu da bilməlisiz ki, dünya daima həyat mübarizəsidir. Biz də bunu nəzərə alıb mübarizə etməli, bəylərin, xanların əlindən qurtarmalıyız.

Yoldaşlar! Xanların, bəylərin əlindən nə tövr qurtarmalı? Bir millət qardaşlıq edib bir yerdə işləməklə və bu istədiyimizə yetdikdə hər millət dünyada müstəqil yaşaya bilər.

Bu vədələrə inanıb yaxşı da "müstəqil" yaşadıq.

Həmin "müstəqil yaşarsınız" deyən demokratlar bizi öylə vəhşiyanə bir surətdə qırdılar ki, beşikdə olan uşağımıza da rəhm etmədilər.

Yaşasın belə "demokratlıq"! Böylə bir tarixi günləri yaddan çıxartmamalı ki, bizə verdiyi vədələrin nəticəsi nə oldu? Əvət, bizləri yalançı vədələrlə aldadıb hökuməti ələ keçirtdilər və hökuməti əlinə keçirdikdə, qeyri yerlərdə yaşayan müsəlmanları bir-bir qırmağa başladılar. Nə etməli? Bu qırılma bizi ayıltdı, çünki bizlərdə öylə bir istedad yoxdu ki, döyülməmiş, qırılmamış ayılaq. Səhv etməmiş olaram desəm ki, biz döyüldükcə cürbəcür fikirlərə düşdük. Deməli, bu bəlalar başımıza gəldikdə, o cürə "demokratlardan" ayrıldıq və bu ayrılmağımıza da səbəb özləri oldular. Əgər türklər Qafqaza gəlməsəydilər, bizləri tamamən qırıb məhv edərdilər. Deməli, bizlərin sağ qalmasına səbəb türklər oldular və türklər Bakıya gəldikdən sonra öz arzularımıza yetişdik. Deməli, biz də özümüzü azadə bir millət bilib və cəmi dünyada yaşayan millətlərə biz azərbaycanlıların müstəqil bir dövlət olmağını bildirdik.

Azərbaycan adında bir dövlət təşkil etdikdən sonra, genə oxumuşlarımız hərə öz partiyasında var qüvvələri ilə işləməyə başladılar. Fəqət bizim firqələrdə işləyən oxumuşlarımız genədəmi qeyri millətlərlə bərabər işləyirlər? Haşa və

kəlla [əsla yox, qətiyyən yox]! İndi buna əminəm ki, cavan oxumuşlarımız əlbir olub var qüvvələri ilə ancaq Azərbaycanın müstəqil bir dövlət olmaq qabiliyyətini cəmi cahanın həqiqi demokratlarına məlum edəcəklər. Qafqaziyada yaşayan yalançı “demokratlara” deyirik:

“Gedin, gedin də bizdən əl çəkin! Hanı sizin bizə verdiyiniz vədələrin nəticəsi! Siz demokratlar deyirdiniz: Cümlə cahan füqəraları bir yerə toplaşın! Biz füqəra da bir yerə toplandıq, fəqət sizin o daş ürəyiniz rəhmə gəlməyib, həya etmədiniz və biz füqəraları birəhmanə bir surətdə qırdınız!”

Ah, harda idi o vaxtda indiki ağlımız bunları dərk edəydik və dərk etdikdə, o zalımların iti çəngalindən [caynağından] qurtaraydıq? Amma nə etməli? Keçmiş keçdi. İndi var qüvvə ilə işə başlamalıyıq. İşə başladıqda, ən əvvəl bizə lazımdır öz fəhlələrimizi bir yerə toplayıb onları bu işdən agah etmək və onların vəzifələrini onlara bildirmək ki, məbada fürsəti fövtə verələr. Necə ki verdilər. Necə ki, keçənki zabastovkada məlum oldu ki, onlar iqtisadi zabastovka ilə siyasi zabastovkanı bilmədilər. Çünki onları başa salan hərflər öylə başa salmışdılar. Hərgah onlar öz vəzifələrini biləydilər, böylə işlərə iqdam [təşəbbüs] etməzdilər. Çünki böylə bir siyasi zabastovka bizim Azərbaycan Hökumətinin əleyhinədir. Zatən, fəhlələri də töhmətləndirmək olmaz, çünki elm yox, bu zamanəyə dair bilik yox. Təkrar edirəm ki, bu barədə fəhlələri heç bir vaxt təqsirkarlandırmaq olmaz. Demokrat firqələrimiz həftədə bir dəfə də olsun fəhlələri bir yerə toplayıb onlara böylə məsələləri qandırmalıdır və onlar üçün kitabxanalar, teatrolar və klublar düzəldib, onları böylə işlərə ruhlandırmalıdırlar. Hərgah fəhlələr böylə işlərə ruhlanarlarsa, deyə bilərəm ki, bir daha bundan sonra böylə məsələlərin əlində aciz qalmazlar.

İndi baxalım şəhərdə işləyən müsəlman fəhlələrinin halına. Ələlxüsus, hökumət mətbəəsində işləyən fəhlələr bu məsələyə nə tövr baxırlar? Bunu deyə bilərəm ki, mətbəədə işləyən mürəttiblər bunu çox yaxşı başa düşdülər ki, bu zabastovka nədir və zabastovka səbəbləri olan adamlar biz müsəlmanların başına nələr gətirdilər. O idi ki, bu zabastovka qurtardıqda biz hökumət mətbəəsində işləyən fəhlələrin halı nə tövr keçdi. Çünki üstümüzdə ağa olan qeyri millətdir. Heç bir vaxt bizlərə məhəbbət yetirməyir. Çox da aşkar etmək istəmirəm, bizlərə nələr edirlər. Qoy hələ üstü örtülü qalsın.

Keçən dəfə Xəlil İbrahimzadə əfəndi ilə Kazımzadə cənabları bir məclis düzəldib, biz hökumət fəhlələrini oraya dəvət etdi. Biz də yığıldıqdan sonra bizə atəşin nitqlər söylədilər. Əvvəl dəfə məclisdə nitqə başlayan Xəlil əfəndi oldu. Doğrudan da biz fəhlələrin halına dair çox gözəl nitqlər söylədi və bu nitqdən çox mənfəətlər hasil etdik. İkinci natiq daha qeyri bir mənfəətli sözlər danışdı. Bizim üçün böyük qapılar açdı. Lakin, nədəndir ki, sair sosialist firqələrimiz bir dəfə də olsun gəlib biz fəhlələri bir yerə yığıb, dərdimizə çarə aramadı. Hərçənd bizim də, sosialistlərin də zəhmətləri çoxdur. Amma nə etməli? Gərək bir az da zəhmətlərini artırıb, biz fəhlələrin halına yansınlar və bundan əlavə biz fəhlələr

üçün bir klub açsınlar ki, orada hər dəm məclislər qurub hər bir yerdən məlumatımız olsun. Sosialistlərin ən əvvəl danışdığı sözlər fəhlə barəsində olur, amma işə baxıldıqda hələ heç bir şey görməyirəm. Halbuki hər gün, hər saat və hər dəqiqə fəhlələrin başına zamanəyə dair məsələləri geydirmək və onların hüququnu onlara anlatmaq və sonra onlardan hər bir köməklik gözləmək olar. Necə qeyri millətlər öz fəhlələrini hazırlayırlar və pis günlərində onlardan kömək gözləyirlər. Mənim əqidəmcə, siz sosialistlər və hökumətimiz biz fəhlələri qeyri millət fəhlələri kimi hazırlasaydılar, o vaxt heç bir düşməndən də qorxumuz olmazdı.

Bir nəfər fəhlə mürəttib

BAKI XƏBƏRLƏRİ

Ərizə

Lənkəran müsəlmanlarının vəkili Teymur bəy Bayraməlibəyli tərəfindən Rəisi-vükəla [Baş nazir] Xan Xoyski həzrətlərinə zeyldəki [aşağıdakı] ünvanlı ərizə verilibdir:

"Yanvar ayının 20-də Lənkəran hökuməti 600-dən ibarət qoşun, iki top, üç pulemyotla mücəhhəz olan məşhur qaçaq Yunislə məa [birgə] Zuvand mahalında olaraq Lerik müsəlmanlarını qarət edib, evlərini yandırıb, özlərini öldürmək qəsdilə cəbrən [zorla] təslim etməyə gediblər. Onlar öz vətənlərini saxlayıb "Muğan idarəsi" adlanmış hökumətə tabe olmaq istəməyirlər. Bu barədə hüzuri-alilərinizə yazıb, zalımların sitəmkaranə hərəkatının qabağını alıb biçarə müsəlmanları zülüm və sitəmdən xilas etmənizi rica edirəm."

Biçeraxovun getməsi haqqında

General Biçeraxov "K." qəzetəsinin mühərriri ilə etdiyi müsahibə əsnasında öz mənsəbindən qəti surətdə əl çəkəcəyini bildirmişdir. Biçeraxov İranda olduğu zamandan Bakıya gələnə qədər öz tarixindən nəql edib axırda demişdir ki, naxoş olduğuma görə Batumda özümə müalicə etdirmək niyyətindəyəm. Beş həftə bundan əvvəl öz mənsəbimdən əl çəkməyi qərara alıb general Prjevalskinin mənim yerimə gəlməsi üçün müzakiratda bulunmuşdur. Biçeraxovun getməsinin təxirə düşməsi ancaq ətrafla münasibatda bulunmağı müşkül olmasından irəli gəlmişdir.

* "Müsavat" firqəsinin Balaxanı şöbəsi tərəfindən ümum yoldaşlara elan olunur ki, yanvarın 31-də, cümə günü saat 10 tamamda Sultanəli Novruzəli oğlunun mülkündə vaqe "Müsavat" idarəsində ümumi iclas vaqe olacaqdır. Məsələ lazımlı olduğuna binaən [görə] yoldaşların gəlmələrini rica edəriz.

İdarə

Saxta pul fabrikası

Vera Moiseyevna Nesambaum adında bir nəfər arvad, Quba meydanında olan köhnə paltar satanlardan libas alıb əvəzində saxta pul verirmiş. Bu əhvalatı polis acentələri xəbər tutub həman arvadı həbsə alandan sonra cibində bir çox miqdarda saxta pul tapıldığı üçün evində də təftiş etmişlər. Təftiş zamanı Nesam-

baumun otağında, Çadrovı küçədə, 199 nömrə evdə mükəmməl surətdə hazırlanmış saxta pul makinası kəşf edilmişdir. Makinadan başqa otaqda 76.450 manat qəlp pul tapılmışdır. Bu pullar Bakı bonunun 25 manatlıq kağızları imiş. Bu miqdarın 37 min manatlığı hazır qayrılmış və bazara buraxılmağa hazır imiş. Pul kəsməkdə məşğul olan Abram Nesambaum və Lazar Krimberq öz arvadı Raxil Krimberq və bir də İmran Məhərrəmoviç Əmirov polis nəfəratı [nəfərləri] tərəfindən həbsə alınıbdır. Bu barədə ciddi tədabir ittixaz olunubdur [tədbirlər görülübdür].

Təhərri polisə acentinin yaralanması

Bakı təhərri polisəsinin acenti [axtarış polisi agenti] İbrahim Quliyev Krasnovodsk və Qanlıtəpə küçələrinin küncündə yol ilə keçərkən bir nəfər naməlum şəxs bir güllə ilə mərqumu [adı çəkilən şəxsi] yaralayıbdır. Bu barədə təftişat davam edir.

* Bakı əhli Məhəmmədəli Abbas oğlu polisəyə məlum edir ki, ayın 23-də gündüz saat birdə şəhərdən Bayıl yolu ilə gedərkən iki nəfər naməlum əşxas [şəxslər] bunu tutub güclə 350 manat pullarını qarət ediblər. Təftişat polis tərəfindən aparılır.

Fəhlə Konfransında

Yanvarın 26-da Fəhlə Konfransının iclası vaqe olaraq müştərək müqavilənamə məsələsi müzakirə edilmişdir.

Roxlin sülh komissiyasının fəaliyyəti və müzakiratın gedişi haqqında məruzə vermişdir. Məlum olmuşdur ki, mədənçilər evli, subay, ümum fəhlələr bilafərq [fərq qoyulmadan] 360 manat artırmağa, hətta bolşeviklərin də qərarı ilə əlavə edilmiş qismdən başqa, əski müştərək müqavilənaməni də qəbul edirlər.

Danışıqlar nəticəsində, konfrans müzakiratın[ın] tez qurtarmasını tələb edici bir qərarnamə qəbul edilmişdir.

TEATRO VƏ MUSİQİ

“Qəzavat”

Fəzilət və qiyməti-ədəbiyyədən ari [üstünlüyü və ədəbi dəyəri olmayan], Qafqaz və Dağıstan həyatına heç də uymayan, bir erməni qızının “Dağıstan hürriyyəti” uğrunda can verdiyini iraə ilə [göstərməklə] Qafqaz millətləri həyat və münasibatından [münasibətlərindən] bilkülliyyə [tamamilə] bixəbər olan, Dağıstan mücahidlərinin ağzına “kommunist”lərə məxsus sözlər söylətməklə bu mücahidlərin amal və əfkarını yanlış bir surətdə göstərən, uzun-uzun, boş-boş monoloqlarla tamaşaçıların qulaqlarını yoran, canını sıxan, səbrini tükətən, son dərəcə boş və biməzmun bir drama! Təəccüb edirəm ki, zövqi-ədəbisi [ədəbi zövqü] “Dağılan tifaq” kimi qiymətdar bir əsər ilə müsbət [sübut edilmiş] olan, səhnə işlərini gözəl bir surətdə bilən Əbdürrəhim bəy Haqverdili cənabları nasıl oldu da bu biməzmun əsəri rusdan tərcümə etməyə həvəs etdi?!

Əgər cümə günü Hökumət Teatrında oynanılan bu pyesənin baş rolu olan “Əhməd bəy”i oynamaq əzabını Hüseyn Ərəblinski kimi mahir və müqtədir bir drama artisti üzərinə götürməmiş olsaydı, əminəm ki, camaat durub teatrodan qaçardı. Onları yerlərində saxlayan,

məhz Hüseyn Ərəblinskinin oyunu idi. Amma yazıq Ərəblinski, ki hər bir cəhətcə nagüvara [düzgün olmayan], dəyərsiz və qiymətsiz olan bu rolun naşükür yolunda öz artistlik məharəti xəzinəsinin dəyərli və qiymətli əmək və səylərini sərfə məcbur idi.

Bu ruhsuz oyunda artistlik şərəfi qazanan oldusa da, o da erməni qızı "Aşxen" rolunu oynayan xanım Tanailidi [idi] ki, xəyanətini duymuş olan aşnasını məzəmmət edərkən, rolunu gözəl bir surətdə ifa etdi. Zatən pyesənin qiymətli yeri də elə bu idi ki, vardı. Dağıstan həyatından bixəbər olan müsənnif [müəllif], aşnasının xəyanətini duymuş bir arvadın əhvali-ruhiyyəsinə yaxşı bələd imiş.

Müdiriyyətə tövsiyyəmiz budur ki, drama oynatmaq istərkən oynanılacaq əsərlərin seçkisinə böyük bir diqqət yetirsin. Camaatı ancaq bu yol ilə drama tamaşasına həvəsləndirmək olar, vəilla [yoxsa] camaat drama oyunlarına baxmaq şövqündən düşməklə, gözəl dram pyesələrinin mənfəətindən məhrum qalar.

Bir də, tamaşaçıların teatrda özlərini fəna apardıqları, zalda papiros çəkmək, meyvə yemək və sairə barəsində nə qədər yazılmışsa, nə camaat diqqət vermişdir, nə müdiriyyət. Şimdi biz müdiriyyətə böylə qəti və şiddətli tədbir təklif ediriz: Bundan sonra tamaşa vaxtı müdiriyyət tərəfindən zalda bir adam qonulsun, hər kəs teatro ədəbinə riayət etməsə, dərhal kassaya aparıb biletini qaytarsın və özünü dışarı çıxarsın.

Əlavə, "Mikado" teatrını bir təmizlətsin.

Mizrab

İDARƏDƏN CAVABLAR

Əbdüləhəd Mirzəzadə əfəndiyə: "Millətlər imtahanı" sərlövhəsi ilə yazmış olduğunuz məqalənin məzmunu Məhəmməd Əmin Rəsulzadə cənablarının "Hesab günü" adlı məqaləsində daha gözəl bir surətdə təsvir edilmişdi. Onunla iktifa [kifayət] edəlim.

Hüseyn İsrafilbəyov əfəndiyə: Yazmış olduğunuz mətləb xüsusunda cənabınızla görüşüb, danışmaq istərdik. Mümkünüz olsa, idarəmizə təşrif gətirmək zəhmətini müzayiqə etməyəsiniz [əsirgəməyiniz].

Səid əfəndiyə: Daşnakların əf'al və əqvallarındakı təbayünlərini [işləri ilə sözləri arasındakı ziddiyyəti] zikr edirsiniz. Onların şüarı bir kərə bu olubdur: Məqsəd yolunda hər bir əməl və vəsilə caizdir; istər yaxşı olsun, istər yaman.

Hacıağa Nurizadə əfəndiyə: Camaatımızın ziyalı bir qismini təşkil edən tələbələrimizin "məchul" bir halda qalmalarına səbəb nə camaatdır, nə də hökumət. Qaranlıq yerlərimizə işıq saçanlar ziyalılarımızdan başqa kim ola bilər? Təhsili-üluma [elm öyrənməyə] davam etmək həvəsi şayani-təqdirdir [təqdirəlayiqdir]. Lakin Amerikaya getmək xəyalını buraxıb da Yevropa yolu açılmasına müntəzir olmaq və intizardan sıxılmamaq üçün o vaxta qədər millət və camaat yolunda iş görməklə vaxt keçirmək səlahdır [xoşagələndir]. Yevropa təhsili yolu açıldıqdan sonra hökumətimizin tələbələrimizə kömək edəcəyi şübhəsiz bir əmrdir [işdir].

Mama
M. K. Şerman

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə. Telefon 24-62.

Doktor
Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor
Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Doktor İ. Q. Sibiroviç

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

2658

Doktor Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Vicdan sızlayır

səh. 437. "bir parça ətmək": Ömər Faiqin 1915-ci ilin yanvar ayında "İqbal" qəzetində nəşr edilən təsirli məqaləsinə işarə vurulur; məqalə "Bir loğma ətmək" adlanır.

səh. 438. "Metex": Tiflisdəki tarixi Metex qalası nəzərdə tutulur. XIX əsrin əvvəllərindən etibarən bu qaladan həbsxana kimi istifadə edilmişdir.

səh. 439. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

Azərbaycan Məclisi-Məbusanında

səh. 439. "...İbrahim Əbilovun namizədliyi": qəzetdə "Əbilovun" yerinə səhvən "Əliyevin" getmişdir.

səh. 442. "...eyni məqsəd və mətləb üçün 450 min manat pul verilməsini istida edir.": qəzetdə "450 min" yerinə "340 min" getmişdir.

"Zira xəstəliyin Bakıya sirayət etdiyi...": qəzetdə "Bakıya" yerinə "köyə" getmişdir.

Yol təəssüratım

səh. 443. "ləhəvləvələ": "Bütün gücqüvvətin mənbəyi ancaq Allahdır" mənasına gələn "Lə həvlə və lə qüvvətə illa billah" sözünün qısaldılmış forması.

səh. 444. "..müvəffəqiyyətdən bəhrəmənd olmayan...": qəzetdə "müvəffəqiyyətdən" yerinə "müvəffəqiyyətə ki" getmişdir.

Teleqraf xəbərləri

səh. 445. "Parisdə müntəşir «E.» qəzetəsinin...": "Ekselsior" qəzeti nəzərdə tutulur.

Müəllimlər iclası

səh. 448. "...erməni lisanındakı kurslara (?)": sual işarəsi qəzetdə getmişdir.

"Axundzadə əfəndi": güman ki, Gəncə Türk Müəllimləri İttifaqının sədri İdris Axundzadə nəzərdə tutulmuşdur.

"Bədəl bəy əfəndi...": güman ki, uzun müddət Bakıda məktəb müdiri olan Bədəl bəy Bədəlbəyli nəzərdə tutulmuşdur.

"İsrafilzadə Ağababa bəy": qəzetdə "İsrafilzadə Ağa bəy" kimi getmişdir.

"...Kazımzadənin kitab mağazasında...": söhbət Abbasqulu Kazımzadədən gedir.

Fəhlələrimizə dair

səh. 449. "...genə oxumuşlarımız hərə öz partiyasında...": "oxumuşlarımız" yerinə qəzetdə "oxucularımız" getmişdir.

səh. 450. "...Kazımzadə cənabları bir məclis düzəldib...": güman ki, Abbasqulu Kazımzadə nəzərdə tutulur.

Teatro və musiqi

səh. 453. "Mizrab": bu imza Üzeyir bəy Hacıbəyliyə məxsusdur.



سه‌شنبه ۲۵ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۲۸ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۹۹

آذربایجان

حکومت و اسلامیه مفید مقاله‌لر، صحیفه لرمز آچیقدر، درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالهلرك مکافاتی اداره تعین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله گرکله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی: باکو ایچون: ۱ آیلغی ۱۸ روبله، ۲ » ۳۲ »، ۳ » ۴۵ »؛ غیر شهرلر ایچون: ۱ آیلغی ۲۰ روبله، ۲ » ۳۵ »، ۳ » ۵۰ »

محل اداره: باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجه‌لر ۳ نومرولی ایوده «آذربایجان» اداره‌سی، تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

حکومت، سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزه‌سیدر.

انا لله وانا الیه راجعون

نجفقلی، محمدجواد، عبدالمؤمن وعلی عسکر صادقوفلر کمال یأس وتحسرله اورسوکلی دایلرلری **عبدالحمید سلیمانوفلك** وتسیز وقت ایتدیکی قوم اقربا ودوست آشنالرینه خبر ویریرلر. تشییع جنازه یوگون یانوارلك ۲۸ ده ساعت ۱۰ ده قراستو قره‌ستوفسکی کوچه‌ده اوز منزلندن شاه مسجدینه آپارلاجقدر.

2661

انا لله وانا الیه راجعون

محمدجعفر، عبدالعظیم ومطلب سلیمانوفلر کمال یأس وتحسرله سوکلی قرداشلری

عبدالحمید سلیمانوفلك

وتسیز وقت ایتدیکنی قوم اقربا و دوست آشنالرینه خبر ویریرلر. تشییع جنازه یوگون یانوارلك ۲۸ ده ساعت ۱۰ ده قراستو قره‌ستوفسکی کوچه‌ده اوز منزلندن شاه مسجدینه آپارلاجقدر.

2662

اعلان

سه‌شنبه گونی ۱۹۱۹ سنه‌سی یانوار آینك ۲۸ ناه گوندوز ساعت ۱۲ ده آذربایجان مجلس مبعوثان اجلاسی اولاجاغی اعلان ایدیلیر.

T-17

سیاسی وضعیتمز

گنجه‌لیلرك انگلیزلرك قفقازیا جمهوریتلری حقنده‌کی سیاستی آشکار ایلیور.

گنرال (طوموسون)ك ایکنجی یاناتامه‌سینی ارجنجیلیس آذربایجان حکومتنك آذربایجانی ارامیسی اوزرینه یگانه مشروع بر حکومت اولدیغی حقنده‌کی یاناتامه‌سی تعقیب ایله‌دی.

بوگره‌ده متفقلرك شرق اوردولری قوماندانی اعلیحضرت انگلتره قرالی حکومتنك تمثیلسی جنرال (بیلن) وسنی سوردکه آذربایجان حکومتی طاریدیغی بیلدیرمشدر.

جنرال (بیلن)ك حکومت رئیسی فتحعلی خان حضرتلریله واقع اولان یاناتقده آذربایجان حکومتی وحکومت محلیه تعبیری ایله دگل عالی الاطلاق تلقظ اولونمشدر.

جنرال، فتحعلی خان خویسکی حضرتلریله دیگرلری تقلیسده دخی گورشمشلر رئیس حکومتی (اوردوانی) حضرتلریله سویله‌مشدیر.

بوگره‌ده قفقازیاده‌کی جمهوریتلرك صلح عمومی قونفرانسنه دعوتله گلکلری بیلدیرلمشدر.

صلاحیتدار انگلیز جرائدینك متفقلر حرکتی ایدن صاحب کلمه سیاست رجالی قفقازیا مسائلی حقنده سویله‌مکده‌در. بو سیر سیاسی، هیچ شبه‌سز که قفقازیا ایله‌سنك قدری باشلرینه تعین مقدراتی ایتمه‌سی ایله‌سنده قرقین فعالی سیاست کرداننه موفقیتلی سویله‌مکده‌در.

فتحعلی خان حضرتلری جنرال (بیلن) ایله واقع اولان مصاحبه‌سنی مجلس مبعوثان تبلیغ ایدرکن مبعوثان یوزی یوکوه بر معنونیتله تلقی ایله‌دی. دیوان ریاسته تاپشیردی که جنرال تکرار شهرمزه دوزگن قرصتدن استفاده ایدرك مبعوثان نامنه کندیسنه تشکر و معنونیت اظهار ایله‌سین.

مبعوثانك بو تشکری آذربایجانك تشکریدر. بو تشکره استقلالی گوز بیکی کبی صافلادی عزمنده اولان ملته‌ده اشتراك ایلر.

متفق دولت نماینه‌لرینك بو صورتله رفتاری شهرمزکه جماعتمزده، جماعت خلقم. ارزمنده روح ویرمکده، عزم و جسارتلرینك یره اون آرتماسنه سبب اولاجقدر.

انگلیز قوماندك طرفدن حرکتده‌کی بو صراحت، پای‌تختمزده بولنوبده باشقه هوالر ترتم ایدن بر یاده روسیه‌چی پارتیالرله، معلوماتك دخی خط حرکتلرینی دگیشدیره‌یه سبب اولدی.

سوسیال-دمه‌وقراتلر وسوسیال ـ رمولیونر فرقه‌لرینه منسوب اولان غزته‌لر تغییر لسان ایله‌مدکچه آذربایجان استقلالنه تحمللرندن، آذربایجان پارلمانته گیرمك ایسته دکارندن بحث ایتمکه باشلادیلر. حتی هس-ر-لر پارلمانه گیرمك آرزو سنده اولدقلرینی دیوان ریاسته یازدقلری بر مراجعتنامه ایله دخی بیلدیردیلر.

سوسیال ـ دمه‌وقراتلرك «ایسقرا» آدلی غزته‌سی ملتلرك کندی مقدراتلرینی کندیلری تعین ایلمك حقی اولدیغلری اساسنه دهرزمان اشتراکله کندیسندن اول کلن بوتون مجموعه‌جیلره فائق کلن فائق افندی بولماقین زمانده سیاست ساقه‌سیله گودجی جیکومتی طرفدن حیس ایدیلمشدی.

دیمك فائق افندی سیاسی بر محبوس ایدی. او جنایتکار دکلدی، قاتل، اوغری و سائره دکلدی. فاقفازیه‌دن روس حاکمیتی فالقدیغی گودجی‌حا کمیتده دوغمدیغی بر زمانده آخسچه نورکارینك عرفا فردراسی و حال حاضرده قومسوسی بولنان تورکیه حکومتنه عموم آخسچه‌لرك بالخاصه فائق افندینك حسن توجهاری وارمش. فائق افندینك سیاست عالمنده اولان گناهیده یو وحسن توجه‌دن عبارتدر. یو حسن توجه؟ بوتون آذربایجانلرك تورکلره، بوتون گورجیلرك آلمانیایه طرف جویریدیکری حسن توجه‌دن فرقلی دکلمیر.

مادامکه وقتك اقتضاسی ایله وجوده کلن یو حسن توجه، هر نسبته مقبول ایمش، ایله یالکز عمر فائق افندینك حسن توجهی غیر مقبول عد ایدیلمه‌زدی، اوکا بناءده برچوق پروتستولرله اعتراضلره معروض قلان گورجی حکومتی فائق افندیی ترخیص ایتمشدی.

شمدی آلیه‌مز جنرال، کوره گورجی حکومتی مدکور سیاست طولایسیله یکدن فائق افندیی یاقلامش محبوس ایتمشدر.

محبوس ایتمکله قناعت ایتمه‌یوب وحشیانه بر صورتده اوضعیف، اونحیف وجوده مالك اولان بر ذاتی هرگون محبوس خانه‌ده حکومت مامورلری دوگوردمش. دیمك فائق افندیی‌یه دلیلی، تبوتلی بر گناه‌اسناد و ثبوت ایتمکلن عاجز قلان گورجی حکومتی یو صورتله اونی محبوس خانه‌ده اولدیرمك ایسته‌یور.

بناء علیه بن یوجا سنه‌لر گورجی حکومتنه دیورمکه سز فائق افندیی تحقیر ایتمیور، یوتون قفقازیا اسلامارینی دوگیور و تحقیر ایدیورسکز! سزك قفقازیه اسلامارینی تحقیر ایتمه گزه قارشو وارقوتمله اعتراض ایدیورم، و یو کیی‌مستبدانه حرکتلرکزده بالاخره پنه گنه‌یگز پشیمان اولاجغکزی اخطار ایدیورم.

مختار افندی زاده.

فائق افندینك حبسی

قفقازیه تورکاری‌میانده معارفك انتشارینه هر کسدن اول جالشان، نوخده، شماخیده بر چوق زحمات و مشاقه کوگوس گره‌رك زمانك او مظلم صحیفه‌لرینده یگی بر ایشیق چقارمغه موفق اولان، آخسچه کبی قفقازمزك الك هجرا گوشه‌سنده ملی روح اویاندقده سبب اولان، الك نهایت ملا نصرالدین ژورنالی کبی خرافات‌له افتخارایدنلرکی جمعیت بشریه‌دن چیقارمغه سبب اولان یو مجموعه‌یی میدانه گتیرمکله طرفدار اولا گلمیکدن» بحث ایلمه‌دی. اساس اعتباریله آذربایجانك روسیه ایله برلکده قالمالـ سنی آذربایجان دمه‌وقراتیسنك مناقصه‌نه دها ذشملی گوریورسه‌ده حال حاضرده آذربایجان حکومتنك (اولمش پرایش)برامروواقع اولدیغنی ده نظره آلمیغنی سویله‌دی. آذربایجان‌روسیه‌ایله اوزمیلی و آرزوسی ایله پرلشسین. بولوتك فاسه سیدر» دیدی. یوقسه آذربایجان یوگا اجنار ایدیلمه‌سون اجنار ایدیلرسه بویویوك برحضرای اولور! یو حقسزلغه ایسه هر کسدن زیاده سوسیالیست‌دمه‌وقراتلر قارشی قویارار؟ دیه بیاننامه بولوندی.

«ایسقرا»ده دها ایاری گیدیور. دیور که آذربایجان استقلالنی یوگون اولارمدن اوتری بر شامه‌در. چونکه متفقلر آذربایجانلك یافین بر استقبالده اوز میلی و اوز رضاسی ایله تکرار روسیه‌ده‌مه‌وقراتیسی‌ایله برمحتاریت ویاخه‌ده‌رامیسون اساسی اوزرینه برلشمه‌سی احتمالی داخله‌مدر. حالبوکه مستقل دکل، خارجی براوروپاده‌دولته مربوط اولورسه، اوزمان آذربایجان ایدیاً روسیه‌دن آیری گالاجقدر.

دیمك که یوگوندن اعتبارا آذربایجان استقلالنك مدافعلری زمره‌سنه یرده سوسیالیست پارتیاری داخل اولیورلر.

بسم‌الله داخل اولسونلر. حقیقی سوسیالیست اولمدقلری یوندان باشقه رفتار ایده‌مزلر. یورقارده اولانر ایسه‌ده دکل. چونکه‌دن سلوك ایتمه‌لیدیلر.

ـ هیچ‌دن‌سه گیچ!...

م. ا.

آذربایجان مجلس مبعوثانندە

۹ نجی اجلاس

(کیچن تورمودن مابعد)

عبدالله بك افندی زاده ـ گنجه و باکو شهر اداره‌لرینه قفرای کامیه‌نك معالجه‌سی‌ایچون یارا بورافلماق مسئله‌سنه فراقیه‌مز ضد دکلدر و اولادا بیلمز. دوغریدان‌ده شیمدیکی معالجه احتیاجی هر یرده اولدیغی کبی یو شهرلرده ده یوبوك برمقیاسده حکومتمز و پارلامانمز طرفدن قارشولانمالی‌در. یزیم رأیمزجه بویله‌یر لازملی تدبیره برآن اول گیریشملی ایدی.

هر حالده تشبث‌حکومت طرفندن دکل‌اهالی طرفندن اولماسی‌نزی خیلی تعجبله‌یریدی. احتیاج مگر پالکز یو اینکی شهره‌ده‌میدر؟ وطنمزك هر یری خسته‌لك قالکنه گرفتار اولمیویمی؟ بوز یگرمیچو اولاد وطن کندلرده باشقه شهر لرده معالجه‌سز معاوتسز، قیرباوب برباد اولمیورمی؟ ملت یو حال ایله محو اولوب گیدرسه حکومت و پارلامان کیمار ایچین باشلمایه‌جاقلر؟ نه ایچون حکومت هر یرلك حالنمن خبردار اولمیور؟ اگر بز پالکز یو اینکی شهره گومك ویرمکله کفایه‌لنیرسکز! بوتون بر خسته وجودك پالکز بر اینکی عضوینه معالجه ایدوب الك زیاده معالجه یه محتاج عضو لرینی بوراقه‌جق اولورز. وطنك جانی گندستانلمی احتیاجنده اولارده جوقدر. هیچ بر گندیلیك اولگوخسته‌سی ایچون اوراق شهر اردن حکیم درمان گتیرمکه امکانی یوقدر؟ بوتون وار یوقومی ناثارسه یه مطابقه نائل اولامز. مدکور شهر لرده حکم درمان، هم ده فقرایه معالجه معاونتی آز حق واردر. باشقه برار ده اوده یوقدر. سابق استبداد دورندده بیله حکومت

“Azərbaycan” qəzetinin 99-cu nömrəsinin 1-ci səhifəsi

Çərşənbə axşamı, 28 yanvar 1919-cu il, nömrə 99

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 25 rəbiülaxir sənə 1337. 28 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Nəcəfqulu, Məhəmmcavad, Əbdülmümin və Ələsgər Sadıqovlar kamaliyə’s və təhəssürlə [böyük bir matəm və kədərlə] öz sevgili dayıları Əbdülhəmid Süleymanovun vaxtsız vəfat etdiyini qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər. Təşyeyi-cənazə [cənazənin yola salınması] bu gün yanvarın 28-ində saat 10-da Krasnokrestovski küçədə öz mənzilindən Şah məscidinə aparılacaqdır.

2661

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məhəmmədcəfər, Əbdüləzim və Mətləb Süleymanovlar kamali-yə’s və təhəssürlə sevgili qardaşları Əbdülhəmid Süleymanovun vaxtsız vəfat etdiyini qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər. Təşyeyi-cənazə bu gün yanvarın 28-ində saat 10-da Krasnokrestovski küçədə öz mənzilindən Şah məscidinə aparılacaqdır.

2662

ELAN

Seşənbə [çərşənbə axşamı] günü 1919 sənəsi yanvar ayının 28-ində gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

T-17

SİYASİ VƏZİYYƏTİMİZ

Getdikcə ingilislərin Qafqaziya cümhuriyyətləri haqqındakı siyasətləri aşkar olur.

General Tomsonun ikinci bəyannaməsini üçüncüsü – Azərbaycan Hökumətinin Azərbaycan ərazisi üzərində yeganə məşru [qanuni] bir hökumət olduğu haqqındakı bəyannanməsi təqib eylədi. Bu kərə də Müttəfiqlərin Şərq orduları komandanı əlahəzrət İngiltərə kralı hökumətinin nümayəndəsi general Miln rəsmi surətdə Azərbaycan Hökumətini tanıdığını bildirmişdir.

General Milnin hökumət rəisi Fətəli xan Xoyski həzrətlərinə vaqe olan bəyanatında Azərbaycan Hökuməti “hökuməti-məhəlliyyə” [yerli hökumət] təbiri ilə deyil, ələlitlaq [ümumiyyətlə] tələffüz olunmuşdur.

General, Fətəli xan Xoyski həzrətlərinə dediyini Tiflisdə dəxi Gürcüstan rəisi-hökuməti Jordaniya həzrətlərinə söyləmişdir. Demək ki, Qafqaziyadakı cümhuriyyətlərin Sülhi-Ümumi Konqresincə qəbuluna İngiltərə Hökuməti səy edəcəkdir.

Səlahiyyətdar ingilis generallarının,

Müttəfiqlər naminə hərəkət edən sahibi-kəlmə [söz sahibi] siyasət ricalının [adamlarının] Qafqaziya məsaili [məsələləri] haqqında söyləmiş olduqları bu sərih bəyanları, heç şübhəsiz ki, Qafqaziya millətlərinin kəndi başlarına təyini-müqəddərat etmələrini istəməyən qızğın qafalı siyasətgərdanlara [siyasətbazlara] soyuq su vəzifəsini görmüşdür.

Fətəli Xan həzrətləri general Miln ilə vaqe olan müsahibəsini Məclisi-Məbusana təbliğ edərkən, məbusan [deputatlar] bunu böyük bir məmnuniyyətlə tələqqi eylədi. Divani-rəyasətə tapşırdı ki, general təkrar şəhərimizə dönərkən fürsətdən istifadə edərək məbusan naminə kəndisinə təşəkkür və məmnuniyyət izhar eyləsin. Məbusanın bu təşəkkürü Azərbaycanın təşəkkürüdür. Bu təşəkkürə istiqlalını göz bəbəyi kimi saxlamaq əzmində olan millət də iştirak eylər.

Müttəfiq dövlət nümayəndələrinin bu surətlə rəftarı, şübhəsiz ki, camaatımıza, camaat xadimlərimizə ruh verəcək, əzm və cəsarətlərinin birə on artmasına səbəb olacaqdır.

İngilis qüvvəsinin tərzi-hərəkətindəki bu sərahət [açıqlıq], paytaxtımızda bulunub da başqa havalar tərənnüm edən bir para rusiyaçı partiyalarla mətbuatın dəxi xətti-hərəkətlərini dəyişməyə səbəb oldu. Sosial-demokrat və sosial-revolyusioner [sosialist-inqilabçı] firqələrinə mənsub olan qəzetələr təğyiri-lisan edərək [ağız dəyişdirərək] Azərbaycan istiqlalına təhəmmüllərindən [dözümlülük nümayiş etdirdiklərindən], Azərbaycan Parlamanına girmək istədiklərindən bəhs etməyə başladılar. Hətta “eser”lər [sosialist-inqilabçılar] Parlamana girmək arzusunda olduqlarını Divani-rəyasətə yazdıqları bir müraciətnamə ilə dəxi bildirdilər.

Sosial-demokratların “İskra” adlı qəzetəsi millətlərin kəndi müqəddəratlarını kəndiləri təyin eyləməyə haqlı olduqları əsasına “hər zaman tərəfdar ola gəldiyindən” bəhs eylədi. Əsas etibarilə Azərbaycanın Rusiya ilə birlikdə qalmasını Azərbaycan demokratiyasının mənafeyinə daha faydalı görürsə də, halhazırda Azərbaycan Hökumətinin bir əmri-vaqe (olmuş bir iş) olduğunu da nəzərə aldığını söylədi. Azərbaycan Rusiya ilə öz meyli və arzusu ilə birləşsin, bu onun faydasıdır – dedi. Yoxsa Azərbaycan buna icbar edilməsin. İcbar edilərsə, bu böyük bir haqsızlıq olar! Bu haqsızlığa isə hər kəsdən ziyadə sosial-demokratlar qarşı qoyarlar – deyə bəyanatda bulundu.

“İskra” daha iləri gedir. Deyir ki, Azərbaycan istiqlalı bu gün onlardan ötrü bir şüardır. Çünki müstəqil Azərbaycanın yaxın bir istiqbalda [gələcəkdə] öz meyli və öz rizası ilə təkrar Rusiya demokratiyası ilə bir muxtariyyət və ya federasyon əsası üzərinə birləşməsi ehtimal daxilindədir. Halbuki müstəqil deyil, xarici bir Avropa dövlətinə mərbut [bağlı] olarsa, o zaman Azərbaycan əbədiyyən Rusiyadan ayrı qalacaqdır.

Demək ki, bu gündən etibarən Azərbaycan istiqlalının müdafeləri [müdafiəçiləri] zümrəsinə bir də sosialist partiləri [partiyaları] daxil olurlar.

Bismillah, daxil olsunlar. Həqiqi sosialist olsalar, bundan başqa rəftar edəmməzlər. Bu rəftara onlar imdi deyil, çoxdan süluk etməliydilər [çoxdan bu yola

gəlməliydilər].

– Heçdənsə gec!..

M. Ə.

FAİQ ƏFƏNDİNİN HƏBSİ

Qafqaziya türkləri miyanında [arasında] maarifin intişarına [yayılmasına] hər kəsdən əvvəl çalışan, Nuxuda, Şamaxıda bir çox zəhəmat və məşaqqa [zəhmətlərə və məşəqqətlərə] köks gərərək zamanın o müzlim [qaranlıq] səhifələrində yeni bir işıq çıxarmağa müvəffəq olan, Axısxa kimi Qafqaziyamızın ən hücra [uzaq] guşəsində milli ruh oyanıqlığına səbəb olan, ən nəhayət "Molla Nəsrəddin" jurnalı kimi xürafatla iftixar edənləri cəmiyyəti-bəşəriyyədən çıxarmağa səbəb olan bir məcmuəni meydana gətirməkdə iştirakla kəndisindən əvvəl gələn bütün məcmuəçilərə faiq [üstün] gələn Faiq əfəndi bu yaxın zamanda siyasət saiqəsi [səbəbi] ilə gürcü hökuməti tərəfindən həbs edilmişdi. Demək, Faiq əfəndi siyasi bir məhbus idi. O, cinayətkar deyildi. Qatil, oğru və sairə deyildi. Qafqaziyadan rus hakimiyyəti qalxdığı, gürcü hakimiyyəti də doğmadığı bir zamanda Axısxa türklərinin irqən qardaşı və hal-hazırda qonşusu bulunan Türkiyə Hökumətinə ümum axısxalıların, bilxassə Faiq əfəndinin hüsn-təvəccöhləri [xoş münasibətləri, rəğbətləri] varmış. Faiq əfəndinin siyasət aləmində olan günahı da bu "hüsn-təvəccöhdən" ibarətdir. Bu hüsn-təvəccöh bütün azərbaycanlıların türklərə, bütün gürcülərin Almaniyaya tərəf çevirdikləri hüsn-təvəccöhdən fərqli deyildir.

Madam ki, vaxtın iqtizası [tələbi] ilə vücuda gələn bu hüsn-təvəccöh hər kəscə məqbul imiş, əlbəttə, yalnız Ömər Faiq əfəndinin hüsn-təvəccöhü qeyri-məqbul ədd [hesab] ediləmməzdi. Ona binaən [əsasən] də bir çox protestolara, etirazlara məruz qalan gürcü hökuməti Faiq əfəndini tərxis etmişdi. Şimdi aldığımız xəbərlərə görə, gürcü hökuməti məzkur [deyilən] siyasət dolayısı ilə yenidən Faiq əfəndini yaxalamış, məhbus etmişdir. Məhbus etməklə qənaət etməyib, vəhşiyanə bir surətdə o zəif, o nəhif [incə] vücuda malik olan bir zatı hər gün məhbusxanada hökumət məmurları döyürmüş. Demək, Faiq əfəndiyə dəlilli, sübutlu bir günah isnad və sübut etməkdən aciz qalan gürcü hökuməti bu surətlə onu məhbusxanada öldürmək istəyir. Binaənileyh [ona görə] mən uca səslə gürcü hökumətinə deyirəm ki, siz Faiq əfəndini təhqir etməyir, bütün Qafqaziya islamlarını döyür və təhqir edirsiniz! Sizin Qafqaziya islamlarını təhqir etmənizə qarşı var qüvvətimlə etiraz edir və bu kimi müstəbidanə hərəkətlərinizdə bilaxirə [sonda] yenə kəndiniz peşman olacağınızı ixtar [xəbərdarlıq] edirəm.

Muxtar Əfəndizadə

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

9-uncu iclas

(keçən nömrədən mabəd)

Abdulla bəy Əfəndizadə - Gəncə və Bakı şəhər idarələrinə füqərayi-kasibənin müalicəsi üçün para buraxılmaq

məsələsinə fraksiyamız zidd deyildir və ola da bilməz. Doğrudan da, şimdiki müalicə ehtiyacı hər yerdə olduğu kimi bu şəhərlərdə də böyük bir miqyasda Hökumətimiz və Parlamanımız tərəfindən qarşılanmalıdır. Bizim rəyimizcə böylə bir lazımlı tədbirə bir an əvvəl girişməli idi.

Hər halda təşəbbüs hökumət tərəfindən deyil, əhali tərəfindən olması bizi xeyli təəccübləndirdi. Ehtiyac məgər yalnız bu iki şəhərdəmidir? Vətənimizin hər yeri xəstəlik fəlakətinə giriftar olmayıbmı? Yüz minlərcə övladi-vətən kəndlərdə, başqa şəhərlərdə müalicəsiz, müavinətsiz [köməksiz] qırılıb bərbad olmayırmı? Millət bu hal ilə məhv olub gedərsə, Hökumət və Parlaman kimilər üçün yaşamalıdır? Nə üçün hökumət hər yerin halından xəbərdar olmur? Əgər biz yalnız bu iki şəhərə kömək verməklə kifayə[t]ləniriksə, bütün bir xəstə vücudun yalnız bir-iki üzvünə müalicə edib, ən ziyadə müalicəyə möhtac üzvlərini buraxmış oluruz. Vətənin canı kəndistandadır. Ehtiyac da orada çoxdur. Heç bir kəndlinin bu gün xəstəsi üçün uzaq şəhərlərdən həkim, dərman gətirməyə imkanı yoxdur; bütün var-yoxunu satarsa, yenə mətləbinə nail olammaz. Məzkur [adı çəkilən] şəhərlərdə həkim, dərman, həm də füqəraya müalicə müavinəti az-çox vardır. Başqa yerlərdə o da yoxdur. Sabiq istibdad dövründə belə hökumət müsri [yoluxucu] xəstəliyin qabağını böyük bir fəaliyyətlə almağa çalışırdı, həm də güclü məsariflər [xərclər] edirdi. Bizim doğma hökumətimiz nə üçün bu anacan bir təşəbbüs etmir?

Bu mülahizələrlə fraksiyamız Gəncə və Bakı şəhərləri istədiyi qərzi [borcu] qəbul etməklə bərabər, hökumətə təklif edir ki, təcili surətdə Parlamana bir layihə təqdim etsin: vətənin hər yerinə müavinət lazımdır; gərək böyük məsariflər olunub məhəllələrə səyyar həkimlər heyəti və müalicə ləvazimatı göndərilsin, lazımi məqamlarda məccani [pulsuz] aşxanalar və müalicəxanalar açılsın. Bu işin təxirə buraxılmağı əsla qəbul edilməyəcəkdir. Millətin parası millətin özünə məsrəf olunmalıdır.

Ağa Aşurov - layihənin nə üçün Səhiyyə Nəzarəti vasitəsilə deyil, Daxiliyyə Nəzarəti vasitəsilə daxil olduğuna təəccüblənərək, istənilən pulu buraxmağa razı olmaqla bərabər, qeyd edir ki, şəhərlərə buraxılan pulların istənilən mənfəəti olammayacaqdır. Zira xəstəliyi kökündən qazmaq, geniş miqyasda böyük çarələr görmək lazımdır.

Yusifbəyli Nəsib bəy - Hökumət namından [adından] izahat verərək bəyan edir ki:

Natiqlərin dediklərindən böylə anlaşılır ki, guya Hökumət kəndləri unudaraq ancaq şəhərlərə kömək edirmiş. Əlbəttə, bu barədə də Səhiyyə Nəzarəti özü izahat verər, amma şimdi mən bunu demək istəyirəm ki, Hökumət köyləri unutmamışdır və bu gün kəndlər ehtiyacı üçün təxsisat [pul ayrılmasını] istəməyirsə, səbəbi budur ki, hələ Parlaman açılmadan bu məqsəd üçün hökumət ixtiyarında pul vardı. Səhiyyə Nəzarəti köylərdə müsiri xəstəliklərlə mübarizə ehtiyacına öz binagüzarlığında [sərəncamında] bulunan 3-4 milyondan sərf edir və bu yolda ciddi tədbirlər görür və işləyir. Mənə məlumdur ki,

Səhiyyə Nəzarəti köylərdə xəstəliklə mübarizə üçün ciddi tədbirlər görmüşdür. Əzcümlə [o cümlədən] bu xüsusda bir layihə də hazırlamışdır. Nazir kəndlərə göndərmək üçün təbib, feldşer və sairlərindən mütəşəkkil səyyar dəstələr təşkil edir. Bunlar yaxın zamanda köylərə hətta göndəriləcəklərdir. Nəinki yalnız kəndlərə, şəhərlərə də Səhiyyə Nəzarəti tərəfindən ayrıca olaraq pullar sərf edilir və ediləcəkdir. Ancaq şimdi hökumət şəhərlərə yardım üçün məbləğ istəyir. Səbəbi də budur ki, şəhərlər sari [yoluxucu] xəstəliklərlə mübarizə işlərində Nəzarətə kömək edirlər, fəqət pula möhtacdırlar. Ona görə də bizdən borc pul istəyirlər. Buna görədir ki, Hökumət Parlamana müraciətlə para təxsisinə [ayrılmasına] izin istəyir.

Əhməd Cövdət - uzun bir nitqində əsas etibarı ilə paranın buraxılması lazım olmaqla bərabər, sari xəstəliklə mübarizə işlərində Hökumətlə bir yerdə camaatın da ciddi çalışmasını lazım görərək, bunun üçün də bu xəstəliklərin qaçqınlardan sirayət etdiyini [yoluxduğunu] göstərir. Hökumətin qaçqınların əhvali-sihhiyyə və sairələrinə [səhiyyə və digər vəziyyətlərinə] diqqət edilmədiyi üçün hökuməti tənqidlə lazımi və ciddi tədbirlər görməsini tövsiyə edir və bildirir ki, bununla böylə, əlbəttə hökumətlə bərabər camaat dəxi çalışmalıdır və əgər bu gün bələdiyyə idarələri çalışır və kəndlər çarəsiz qalırlarsa, bunun da səbəbini kəndlərdə idareyi-məhəlliyyə [yerli idarə] yoxluğunda görərək tələb edir ki, hökumət tezliklə kəndlərdə zemstvo idarələri [yerli özünüidarə qurumları] təşkilinə çalışsın, tainki kəndlilər dəxi öz dərdlərini bilib çarələrini araya bilsinlər. Bir də natiq əfəndi səyyar dəstələrin təşkilini gec hesab edərək "Bunlar indi kəndlərdə olmalı idilər" - deyir.

Doktor Rəfiyev məruzəsini müdafiə edir və izahat verir.

Layihə səsə qonularaq eynilə qəbul olunur.

Bakı Bələdiyyə İdarəsinə 2 200 min rublə təxsisi

Bundan sonra doktor **Musa bəy Rəfiyev** eyni məqsəd üçün Bakı Bələdiyyə İdarəsinə 2 milyon 200 min rublə təxsisi [ayrılması] haqqında aşağıdakı layiheyi-qanuniyyəni [qanun layihəsini] oxuyur:

Azərbaycan Cümhuriyyəsi Daxiliyyə Nəzarəti

1919 sənə, yanvar 15

Azərbaycan Parlamanına

Bakı Bələdiyyə İdarəsinə faizsiz borc olaraq iki milyon iki yüz min manat verilməsi qanun layihəsi

Əvaxir [son] vaxtlar ənvayi [müxtəlif] xəstəliklər, xüsusən yatalaq xəstəliyi Bakı şəhərində şiddətli bir hal kəsb etmiş, bunun səbəbi mühacirlər cərəyanı olmuşdur. Gərək şəhərin mövcud xəstəxanaları xəstələrin həpsini qəbul etməyə kafi olmadığından onlardan bəziləri ləbaləb dolmuş. Böylə ki, 19-cu xəstəxanada hal-hazırda 600 xəstə üçün yer olduğu halda 700-dən ziyadə xəstə yatmaqdadır. Mixaylovski xəstəxananın halı daha betərdir. Bu vəziyyətdən doğan qələbəlik nəticəsi olaraq xəstəxana doktorları və başqa məmurları kəndisini mühafizə edə bilməyirlər və müsri xəstəliklərə düçar olurlar. Genə həman

qələbəlik nəticəsi olaraq yüzlərcə xəstə xəstəxanaya düşməyib, mənzillərdə tədavisiz [müalicəsiz] qalıb, digərlərini xəstəliyə salırlar və tələf olurlar. Şəhərdə mövcud əsgəri [hərbi] xəstəxanalar da yerlər artırmaqla bir nəticə hasil edəmməmişdir. Zira əsgəri xəstəxanalarda yerlər az olduğundan, bir az müddətdə dolmuş. Şəhər İdarəsinin zənnincə bu ağır vəziyyətin çarəsi müsri xəstələr üçün 600 yataqlıq yeni bir xəstəxana açmaqdır. Şəhər İdarəsinin mülahizəsi ilə bu xəstəxananın təşkili üçün 600 min manat lazım olduğu kimi, xəstələrin xərci ilə başqa məsarifə də dörd ay ərzində dörd yüz min manat lazım olacaq. (Nəzərə 19-cu xəstəxananın məsarifi alınır.) May, yaxud iyul aylarında xəstəliyin tamam olmasa da, azalması məlhuz [güman] olunarsa, bu dörd ay ərzində idarənin təsəvvüründə xəstəxananın bütün məxarici 2 milyon 200 min manata varacaq. Şəhər İdarəsinin təsəvvüründə öylə böyük xərc, idarənin imkanı xaricindədir. Ələlxüsus Mixaylovski xəstəxanadan başqa 19-cu xəstəxana da şəhərin öhdəsindədir. Bundan qət’i-nəzər edərək [buna baxmayaraq] bilməlidir ki, hal-hazırda yatalaq xəstəliyi öylə xariqüladə bir hal kəsb edib ki, onunla mübarizədə bulunub dəf etmək dövlətə aid olmalıdır. Buna binaən [buna görə] Bələdiyyə İdarəsi 2 yanvar tarixli qərarına istinad edərək, Daxiliyyə Nəzarətindən məzkur məqsəd üçün təcili surətdə iki milyon iki yüz min manat verilməsi rica olunur. Şəhər İdarəsinin rədd etdiyi mülahizatı tamamilə mühiqq [haqlı] və binaənileyh bu xüsusdakı iqdamat [təşəbbüs] şayani-qəbul [qəbul edilməyə layiq] bulunduğundan, Daxiliyyə Nəzarəti aşağıdakı məzkur layiheyi-qanuniyyəni Məclisi-Məbusanın təsdiqinə təqdim eylər:

1) Bakı Şəhər İdarəsinə əmrazi-sariyyə ilə [yoluxucu xəstəliklərlə] mübarizədə bulunması üçün iki milyon iki yüz min rubləlik bir borcun verilməsi.

2) Məzkur şəhər idarəsinin işbu borcu şəhər varidat və məsarifat [gəlir-xərc] dəftərinə qeyd edilərək, hər sənə müsavi [bərabər] hissələrlə üç sənə zərfində Xəzineyi-dövlətə verilməsi üçün kəndisini müvəzzəf qılmaq [məsul tutmaq].

Daxiliyyə naziri
İdarə müdiri
3-cü şöbə müdiri

Bir qədər müzakirədən sonra bu layihə dəxi qəbul olunur.

Ədəmi-ictima

Bundan sonra "Müsavat" fraksiyonu tərəfindən idxal edilib də, Parlaman komisyonunda baxılmış olan aşağıdakı ədəmi-ictima [eyni vaxta bir neçə vəzifə daşımamaq] qanun layihəsi təqdim olunur. Məruzəçi Məhəmməd Əmin Rəsulzadə idi.

Məbusluqla məmurluq ictiması haqqında layiheyi-qanuniyyə

Qüvveyi-qanuniyyə [qanunverici hakimiyyət] ilə qüvveyi-icraiyyə [icraedici hakimiyyət] və ədliyyənin [məhkəmə hakimiyyətinin] biri-birindən kamilən ayrı və müstəqil olması cumhuriyyət idarə əsaslarından olmaq həsəbi [səbəbi] ilə məbusluq vəzifəsi ilə məmuriyyət vəzifələrinin bir şəxsdə ictiması [cəmləşməsi] qabil olmadığından, Azərbaycan Məclisi-

Məbusanı aşağıdakı məvaddı [maddələri] qəbul eyləmişdir:

1) Məclisi-Məbusan əzalığı [üzvlüyü] ilə hökumət məmurluğu bir zat öhdəsində ictima edəmməz. Fəqət, nazirlərdən intixab olunanların [seçilənlərin] əzalığı caizdir. Sair məmurlardan biri məbusluğa intixab olunmuşsa və ya intixab olunarsa, qəbul edib-etməmək öz ixtiyarındadır. Fəqət qəbul etdiyi halda, məmurluğundan ayrılır.

Qeyd:

A) İdarə xidmətini ifa etməyən məktəb müəllimləri ilə professorlar, öylə də ixtisas iqtiza edən [lazım gələn] məsələlərdə əhli-xibrəlik sifəti ilə [məsləhətçi mütəxəssis kimi] dövlət müəssisələri nəzdində bulunan şəxslər yuxarıdakı məmnuiyyətdən [qadağandan] istisna təşkil edirlər.

B) Bu istisna yalnız Məclisi-Məbusanın bulunduğu məhəldə [yerdə] ifayi-vəzifə edən şəxslərə aiddir.

2) Məclisi-Məbusan əzası nazir mövqeyində bulunduqları müddətcə maaşlarını yalnız nazirlər heyəti təxsisatından alarlar.

3) Bu qanun nəşr edilən gündən etibarən məriyyülicradır [qüvvədədir].

4) Bu qanunun nəşrindən etibarən dövlət xidmətində bulunan məbuslar Bakıda isə üç gün, xaricdə isələr on gündən sonra bulunduqları xidmətdən istefaları haqqında Məclisi-Məbusan Divani-riyasətinə ərzi-bəyanda bulunmasalar, məmuriyyəti tərcih eyləmiş kimi tələqqi [qəbul] və məbusluqdan ayrılmış ədd [hesab] olunurlar.

Layihə bir qədər mübahisəyə bais olur. Rəsulzadə cənabları müdafiə edirlər. Nəhayət, maddəbəmaddə bir yerdə səsə qonularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

Məsai Nəzarəti təşkilatı

Növbədə Məsai Nəzarəti [Əmək Nazirliyi] təşkilatı haqqındakı qanun layihəsidir. Məruzəçi sifəti ilə Musa bəy Rəfiyev çıxır və aşağıdakı layiheyi-qanuniyyəni[n] Maliyyə komisyonu tərəfindən təqdim və təsdiqini təklif edir:

Məsai Nəzarəti təşkili haqqında layiheyi-qanuniyyə

Məsai Nəzarətinin dəftərxanasında bulunacaq xidmətçilərin müvəqqəti layihəsinə aid sənət və zəhmət qanunnaməsinin şərtlərinə görə (Rusiya qanunnaməsinin 11-inci cildi ikinci hissə 1913 sənənin mətbusu [çapı]) bütün fəhlə və sənət işlərinin idarələnməsi və saxlanılması, həm də iş verənlərlə fəhlələr arasındakı münasibatın üzərindəki nəzarət işləri büsbütün Rusiya Hökumətinin Ticarət və Sənaət Nəzarətinin Fəhlə və sənət şöbəsində toplanmışdı.

Bundan əlavə, məzkur [adı çəkilən] Vüzəratın [Nazirliyin] mərkəzi denilən müəssisələri – ki fəhlə məsələlərinə dair işlərlə məşğul idilər – bunlar idi:

1) Birinci və Baş idarə fabrika və mə'dəniyyat [mədənçilik] işləri müəssisəsi idi, ki həmin bu müəssisənin öhdəsinə fabrikalarda və mə'dəniyyat dairələrində qullanılacaq qanunnamələrin vəz'ini [qanunların qoyulmasını] və qaydalı surətdə icra edilməsini buraxmışdılar.

2) Fəhlələrin sığortası üçün qurulmuş şura idi ki, 1913 sənədə təsis edilib, fəhlələri xəstə[lik] vəqəsindən, yaxud bədbəxtanə hadisələrdən sığorta və tə-

min edirdi. Ticarət və Sənaət Nəzarətinin məhəlli [yerli] təşkilatı isə Fabriçni İnspeksiyadan [Fabrik Müfəttişliyi] və məhəlli fabrik və mə’dəniyyat işlərinə baxan, həm də fəhlələri sığorta edən quberniya müəssisəsindən ibarət bir idarə idi.

Burada gərək diqqətə alınsın ki, yuxarıda adlandırdığımız fəhlə və zəhmət mühafizəsinə qurulmuş müəssisələr birbirindən bu halda asılı idilər ki, hərgah mərkəzi müəssisə bir səbəbdən dolayı işdən qalsaydı, eyni zamanda hamı kiçik müəssisənin də işdən qalmasına bais olurdu. Həmçinin fəhlə sığortasına təsis edilmiş şura, fəaliyyətindən qalsaydı, dərhal adi sığorta müəssisəsinin işləməyi qeyri-mümkün idi.

Hal-hazırda Azərbaycan Cümhuriyyəti daxilində təsis edilməkdə olan Məsai Nəzarətində bütün fəhlə və sənət mühafizəsinə lüzum görülən mühafizə və nəzarət işləri həmin Nəzarətdə [Nazirlikdə] toplansın və get-gedə fəaliyyət və nəzarətini böyüdüb, axırda bütün fəhlə və zəhmətkeş dairələrini bittamam [tamamilə] əhatə edəcəkdir.

Şübhəsiz ki, fəhlə və zəhmət mühafizəsinə təsis olunan Məsai Nəzarətində sabiq Ticarət və Sənaət Nəzarətinin də həman mərkəzi və məhəlli müəssisələri daxil olmalıdır. Fəqət məzkur müəssisələrin əski qanunnamələri bu halda buranın iqtisadi və məmləkəti əhvalına, həm də hüquqları tanınmış kütlə arasında təshih və baxılmamış icra etmək imkan xaricindədir.

Bə-əlavə [əlavə olaraq] sabiqki fəhlə və zəhmət mühafizəsinin müəssisələri qanunnamələrinin baxılmasına, daha bundan aşkardır ki, bu müəssisələrin qanunnamələri 1917-inci sənənin fevral hadisəsindən sonra dəyişməmiş, öz qanuni gücündə baqi qalmışdır. Bu cəhətdən naşi [ötrü], bu müəssisələrin mövcud təlimatları, konstruksiyaları hazırkı məişət və zindəganlıq [yaşayış] şəraitinə müğayir [zidd], həm də hüququnu düşünənlərə qeyri-müvafiqdir. Həmçinin o qanunnamələrin çoxu fəhlə iqtisadi təşkilatı tərəfindən baxılmaz qalmışdır.

Yuxarıdakı əhvallardan naşi, Məsai Nəzarətinin qanunnaməsi həm də onun sair müəssisə və təşkilatlarının qanunnamələri ki orada daxil olacaqlardır; bə-əlavə idarəsinin ştat siyahısı ancaq fəhlə məsələləri üzərində veriləcək əhəmiyyət və diqqətdən sonra hazırlanar. Məsai Nəzarətinin hazırdakı davamı isə hələlik yalnız mövcud olan Fabriçni İnspeksiya ilədir və fəhlə məsələsinə ətraflıca baxılmağa xüsusi şuranın təsisinə başlanmışdır və yeni müəssisənin isə layihəsi qanun qoyan məclisin baxılmasına verilib ki, təsdiqindən sonra dərhal fəhlə və zəhmətkeşlərin mühafizəsinə lüzum görüləcəyi tədbirləri və materialları hazırlansın.

Bilaxərə [sonra], Məsai Nəzarətinin öz iradəsidir ki, kəndi tərəfindən gərək sair müəssisə və idarələrlə əlaqədə bulunsun və bunun üçün də dəftərxanası təsis edilib də işə salınsın. Bu səbəbdən layihəsi (ştat siyahısı) bununla bərabər təqdim edilir.

Müvəqqəti dəftərxana ştatı (Məsai Nəzarəti üçün əlahiddə qanunnamə buraxılana qədər) sair Nəzarətlərin ştatına müvaifq təşkil edilir. Bunlara verilən

aylıq maaş yenə başqa Nəzarətlərdə verilən maaşa bərabərdir. Bə-əlavə sair nəzarətlərin dəftərxana xərcləri və təchizat xərcləri kimi, bu Nəzarətin də olacağı mühəqqəqdir [şübhəsizdir]. Bu xərclərdən savayı xüsusi fəhlə məsələsi şurasının üzvlərinə veriləcək 60000 manatlıq mükafatdır ki, hər dəfə şurada iştirak etmiş üzvə 50 manatdan olaraq veriləcək və bu məbləği də Məsai naziri özü qət edəcəkdir.

Məsai naziri: Aslan Səfikürdlü

Layihə bir qədər müzakirata bais olur. Xüsusən Nəzarət nəzdində şura təsisi şiddətli mübahisəni mövcib olur [mübahisəyə səbəb olur]. Nəhayət şura haqqındakı qismə ayrıca baxılmaq şərti ilə layihənin yerdə qalan maddələri qəbul olunur.

Rəisi-vükəlanın bəyanatı

Bundan sonra Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətləri söz alaraq Balkan yarımadası və Qafqaziyada Müttəfiqlər qoşunları baş komandanı və İngiltərə kralının nümayəndəsi olan ser Corc Miln ilə mülaqatı [danışığı] haqqında məlumat verərək bəyan edirlər ki:

Görüşdüyümüz zaman general Miln Azərbaycan tərəfindən gördüyü hüsn-istiqbal [xoş qarşılanma] və ehtiramdan pək razı qalmış və təşəkkür etdi. Azərbaycanın hal və övzasından [vəziyyətindən] çox razı qaldığını bildirərək, hətta Azərbaycandan heç böylə şey gözləmədiyini bildirdi.

Müsahibənin ibtidasında [əvvəlində], şübhəsiz ki, birinci məsələ olaraq Azərbaycanın istiqlaliyyətindən danışdıq. General bəyan etdi ki, İngiltərə Hökuməti Azərbaycan Cümhuriyyəti Hökumətini tanıyır və bundan başqa bir hökumət tanımayacaqdır. (Şiddətli alqış) Onların rəyincə Azərbaycan Hökumətindən başqa hökumət ola bilməz, olmayacaqdır da. Biz həmişə bu hökumətə kömək edəcəyiz. Müttəfiqlər qoşunu komandanı general Tomsona və sair idarələrə də bu məzmunda əmrlər verilmişdir.

İkinci məsələ, İngiltərənin ümumiyyətlə xırda millətlərin hüquq və arzularına nə nöqteyi-nəzərdə olmalarına aid idi. Bu xüsusdakı sualıma cavabən general bəyan etdi ki, İngiltərə Hökuməti bu rəydədir ki, kiçik millətlərin özlərini müstəqillən idarə etməyə, xırda millətlərə təyini-müqəddarat ixtiyarı verilməsini müdafiə edəcəkdir. (Alqış) Ona görə inanıram ki, bu məsələdə siz dəxi öz amal və arzunuza nail olacaqsınız.

Üçüncü məsələ, İngiltərə və Müttəfiq qoşunlarının Qafqaziyaya nə məqsədlə gəldiklərinə aid idi. Bu barədə general böylə bəyanat verdi: Mən sizi qəti surətdə inandırıram ki, biz sizin daxili işlərinizə əsla qarışmaq fikrində deyiliz. Əgər bəzi vaxt bir adam müdaxilə edirsə, bu da yek-digərini [bir-birini] anlamamaqdan, yaxud bu və ya o məmurun kəndi vəzifəsini bilməməsindən nəşət edir [irəli gəlir]. Böylə təsadüflər barəsində məlumat olsa, bu kimi hərəkətlər kökündən kəsilər. Bizim Qafqaziyaya gəlməkdən məqsədimiz asayiş və müsaliməti [əmin-amanlığı] paydar [bərqərar] etməkdir. Yenə təkrar deyirəm, sizin daxili işlərinizə əsla qarışmayacağız.

Bundan əlavə, sair məsələlər haqqında da müsahibəmiz oldu; fəqət, hə-

ləlik bu barədə məlumat verməyi lazım görmürəm. Ancaq bunu deyirəm ki, generalın bizə qarşı bir xeyirxahlıq, razılıq və gələcəyimizə, tərəqqimizə ümid bəslədiyi görülməkdə idi. General Tazə-şəhərə gedəcəyini bəyanla, qayıtdıqdan sonra yenə görüşəcəyimizi bəyan etdi.

"Müsavat" fraksiyonunun təklifi

Rəisi-vükəla Fətəli xan Xoyski həzrətlərinin bəyanatından sonra Məclisi-Məbusanın "Müsavat" fraksiyonu tərəfindən böylə bir təklif varid olur:

"Hökumət rəisinin ingilis orduları komandanı və Britaniya Hökumətinin nümayəndəsi olan general Milnin Azərbaycan Hökumətini tanıması və İngiltərə Hökumətinin Qafqaziya millətlərinin kəndi başlarına yaşamaq haqlarını müdafiə edəcəyi və'dini bildirən bəyanını böyük bir məmnuniyyətlə dinləyərək məbusan rəyasətinə təklif edir ki, generalın övdətində [qayıdışında] Məclisin təşəkkürünü bizzat kəndilərinə bildirsin."

Təklif bütün Məclisi-Məbusan tərəfindən alqışlarla qarşılanır.

Növbədən xaric bəyanat

Məhəmməd Əmin Rəsulzadə - növbətdən xaric söz alaraq çox qızğın və səmimi bir nitqlə deyir ki:

Şimdi Hökumət rəisinin ağzından İngiltərə komandanlığının Qafqaziyada əmniyyət və asayiş bərpası məqsədi təqib etdiyini sevinclə eşitdik. Bu sözlərin səmimi və doğru olduğuna inanırız. Bunu bizə Gürcüstanla Ermənistan arasındakı dava dəxi isbat etdi. Bir dərəcə Qarabağ məsələsi də bunu göstərdi. Fəqət, şimdi məni bu kürsiyi-xitabətdən danışmağa vadar edən bir fəqərədir [məsələdir] ki, o əmn [təhlükəsizlik] və asayiş istəyənlərin xəbərsizliyindən irəli gəlir. O da tökülən yeni qanlardır.

Vətəndaşlar! Naxçıvan və Şərur uyezdlərində və İrəvan quberniyasının sair yerlərində müsəlmanlar, türklər başında yenə təzədən top qumbaraları patlayır, müsəlmanlar min dürlü əzab və cəfalara düçar olurlar. Hələ erməni-gürcü konfransında əsgər tərxisi müzakirə edildikdə, ermənilər demişlər ki, bizim daxili düşmənlərimiz var, asilərimiz var, onları tabe və tədib [cəzalandırmaq] üçün əsgər lazımdır. Ona görə, qoşunumuzu buraxa bilməyəcəyiz. Məgər bu düşmənlər yazıq, torpaqlarından əl çəkmək istəməyən zavallı naxçıvanlılar imiş, məgər bu düşmənlər istiqlaliyyət istəyən, heç kəsə qul olmaq istəməyib müstəqil yaşamaq arzusunda olan müsəlmanlar imiş!

Əlbəttə, Hökumət bu xüsusda tədbirlər görməli, nahaq tökülən qanların önünü almağa çalışmalıdır.

Dağıstan Parlamanını təbrik

Vaxt gec olduğundan, növbədəki məsələlər təxir edilib iclasın qapanması haqqında bir təklif varid olur. Dağıstan Cümhuriyyəti Məclisi-Məbusanına təbrik teleqrafı həman gün çəkilmək şərti ilə təklif qəbula keçir. Dağıstan Parlamanına bu məzmunda bir teleqraf çəkilməsi təhti-qərara alınır:

"Dağıstanlı qardaşlarımız cümhuriyyətinin parlamanının güşadı [açılışı] münasibəti ilə Azərbaycan Parlamanı 25 yanvar tarixli iclasında böylə qərar almışdır: Səmimi-qəlbdən və məsruriyyəti-tammə [böyük bir sevinc] ilə qardaşlarımızı, Parlamanlarının güşadı münasibətilə təbrik edir, yeni dövlət üsulu-

nun paydar və qəvi [güclü] olmasında yalnız kəndilərinin deyil, bəlkə həmsayə [qonşu] tayfalarının da hüquqlarını daima müdafiədə bulunan qeyrətli dağıstanlıların səadətini görərək, Azərbaycan Parlamanı qardaşlarının bu qüvvə və ehtişamında kəndi ehtişamını dəxi mülahizə edir və binaənileyh [buna görə] var qüvvəsi ilə Şeyx Şamilin qeyrətli və layiq övladlarının qayələrinin əncama yetməyinə yardımçı olacaq, iki müttəhid qonşu cümhuriyyətlər əl-ələ verərək kəndi istiqlaliyyətlərini hər bir ədudan [düşməndən] müdafiəyə qadir olub, bütün ədədən kiçik, mənən böyük millətlər təqib etdikləri amal və qayəyə nail olmaları dəxi şübhədən xaricdir."

TELEQRAF XƏBƏRLƏRİ

Almaniyada

"Berliner çaytunq" qəzetəsinin yazdığına nəzərən, Berlin Hökuməti kömür qıtlığından dolayı bütün teatroları qapamaq fikrindədir. Sinematoqraflar əmələ [fəhlə] sinfinə məxsus olduğundan, onlar bağlanmayacaqdır. Gecə saat 10-un yarısından sonra qəhvəxana, restoran və küçə işıqları hakəza [habelə] söndürüləcəkdir.

İngiltərə flotunun tələfatı

"Eskinc teleqraf" qəzetəsinin məlumatına nəzərən, bu Avropa müharibəsində İngiltərənin qərq olmuş hərbi paraxodlarının miqdarı bu günlərdə elan ediləcəkdir. Sualtı qayıqlarının ədədi isə 69-dur. Bunlardan 39-u düşmən tərəfindən qərq edilmiş, 3 ədədi minaya toxunub qərq olmuşdur. Yeddisi Baltik dənizində patlamışdır. 4-ü bədbəxt hadisədən tələf olmuş, bir ədədi saya əyləşmişdir, 5-i də qəzaya uğrayıb qərq olmuşdur. Bütün müharibə zamanında Almaniyanın 203 sualtı qayığı qərq olmuşdur. Almaniya sülh şəraitinə [şərtlərinə] görə Müttəfiqlərə 185 sualtı qayığı təslim etməlidir. Bu vaxta qədər 135-i təslim edilib, yerdə qalan 50 ədədi də veriləcəkdir.

Rusların həbsi

Berlində general Lyunik əmri üzərinə Berlində yaşayan hamı ruslar tövqif [saxlanmış] və həbs edilmişlər.

* Şeydemanın rəvayətinə görə, Almaniya Məclisi-Məbusanı fevralın 6-da açılacaqdır.

* London - Kloyd tərsanəsində olan mühəndis və əmələlər yanvarın 23-dən etibarən tətil edərək gündə 6 saat işləməyi tələb edirlər.

Almaniyada aclıq

Tiflis - Ən mötəbər rəvayətə görə, Almaniyada acından ölənlərin miqdarı yarım milyona varırmış və bu miqdar gündən-günə artmaqda imiş.

SÜLH ƏTRAFINDA

Cəmiyyəti-Əqvam

Lloyd Corc Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsini müzakirə etmək üçün bu günlərdə məclisi açır. "Exo de Pari" qəzetəsinin pişguluğuna [qabaqcadan xəbər verməsinə] nəzərən məclisə

Vilson sədr intixab ediləcəkmiş [seçiləcəkmiş].

Rusiya və Sülh Konfransı

Məlum olduğu üzrə Müttəfiqlər Rusiyanın müxtəlif firqələrinə Sülh Konfransında iştirak üçün vəkillərini Mərmərə dənizində olan cəzirəyə [adaya] göndərmələrini təklif eyləmişdi. Rusiyadan bu barədə heç bir cavab yoxdur. "Peti Parizyen" qəzetəsi yazır ki, bu günlərdə Petroqrad Müttəfiqlər əlinə keçəcəkdir və böyləliklə bolşeviklər büsbütün məğlub olacaqlar. Qəzetə əlavə edir ki, hərgah danışıqlardan müvəffəqiyyət hasil olmasa, Vilson ciddi iqdamatda [təşəbbüsdə] bulunacaqdır.

* Fevralın 10-da ingilis kralı tərəfindən İngiltərə Parlamanı açılacaqdır.

* Əsl sülh şəraiti [şərtləri] imza edilənədək, bütün cəbhələrdə müəyyən miqdarda qoşun saxlanacaqdır.

QƏZETƏLƏRDƏN

Yeni Cümhuriyyətlər və Müttəfiqlər

"V." qəzetəsinin yazdığına görə, general Rokker bəyan etmişdir ki, Müttəfiq dövlətlər Zaqafqaziyada əmələ gəlmiş olan yeni cümhuriyyətləri (Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistanı) qəbul və təsdiq edirlər və Müttəfiqlər Zaqafqaziyanın heç bir nöqtəsini işğal etmək niyyətində deyildirlər.

İngiltərə və Fransada Gürcüstan nəfinə [xeyrinə] təbliğat

Londondan Tiflisə göndərilmiş bir məktubdan Tiflisdə müntəşir [nəşr olunan] "Borba" qəzetəsi zeyldəki [aşağıdakı] fəqərəni [bölümü] iqtibas eyləyir:

"Gürcüstan istiqlaliyyətinin düşməni olan daşnaklarla sağ ruslar, Müttəfiq dövlətlər paytaxtlarında Gürcüstan əleyhinə qayət şiddətli təbliğatda bulunurlar. Məlum olduğu üzrə “Daşnaksutyun” firqəsinin Avropa mərkəzlərində xüsusi şöbələri vardır və onların agentləri yorulmaqsızın Avropa əfkari-ümumiyyəsini [ictimai fikrini] daşnakvari hazırlayırlar. Daşnaklar Qafqaziyada vaqe olan halları gizlədib özləri nəfinə əfkarı hazırlayırlar. Daşnaklar Avropaya qandırırlar ki, hərgah gürcülər xəyanət etməsəydilər, o zaman ermənilər nəinki türk-alman qoşunlarını dayandırardılar, hətta Kiçik Asiyanı belə işğal edərdilər. Gürcüstan düşmənlərinin bu cidd-cəhdlərinə rəğmən İngiltərə və Fransanın siyasi dairələrində Gürcüstan istiqlaliyyətinə hüsnnəzərlə baxırlar. Londonda İngilis-Gürcüstan cəmiyyəti təşkil edilmiş və lord Brays həmin cəmiyyətə sədr intixab edilmişdir [seçilmişdir].

Parisdə Gürcüstan İstiqlaliyyəti Komitəsi təşkil edilmişdir. Sair gürcü xeyirxahı olan fransızlardan başqa, məşhur fransız demokratı Albert Tomas bu komitəyə artıq müavinət edir. Bunlardan əlavə, Londonda gürcülər bir "İstixbarat [Xəbər] Bürosu" təşkil etmişdirlər və bu büro Qafqaziya barəsində Londona düzgün xəbərlər verməkdədir.

İngiltərə və Qafqaziya

Sevastopolda nəşr olunan "Utro yuqa" qəzetəsinin müxbiri ingilis komandanlığı nümayəndəsi ilə müsahibədə

bulunmuşdur. Müxbirin, "Nə üçün Krımda asudəliyi bərpa etməyə ingilis komandanlığı iqdamatda bulunmayır [təşəbbüs göstərmir]?" sualına nümayəndə böylə cavab vermişdir:

"Biz Krımda müvəqqəti surətdə dayanmışıq. Tez bir zamanda Krım ilə Ukrayna fransız qitəatı [hərbi hissələri] tərəfindən işğal ediləcəkdir. Krımı işğal etmək üçün Müttəfiqlər komandanlığı 50 min, ukraynanı işğal üçün 200 min qoşun göndərəcəkdirlər.

Fransızlar Krıma gəldikdən sonra İngiltərə qitəatı Qafqaziyaya keçəcəklər. İngilislər Qafqaziyanı özlərinə işğal edilmiş yerlərin bir hissəsi hesab edirlər. Ona görə də biz buraya müvəqqəti surətdə gəldiyimizdən, burada ciddi iqdamatda olmayıb, onu fransızlara məhəvvəl edəcəyik [təhvil verəcəyik]."

Vladiqafqazda

Vladiqafqazdan Tiflisə gəlmiş olanların rəvayətini eşidənlər heyrətə düşürlər. Bolşeviklərin əhaliyə etdikləri cövr-cəfadan sərf-nəzər [başqa], Vladiqafqaz bu saat bir mərəz ocağı olmuşdur. Şəhərdə hər cür xəstəlik davam edir. Bu xəstəliyin dərəcəsini gündə yüz nəfərin dəfn edildiyi ilə bilmək olar. Ölənlərin çoxu Qırmızı qoşun nəfəratındandır [əsgərlərindəndir]. Buralarda bolşeviklərə, qələbə çalmaq çox bahaya mal olmuşdur. Yalnız Vladiqafqaz işğalında bolşeviklərdən 15 min nəfər yaralı, ölən və xəstələnən olmuşdur. Bütün xəstəxanalar bolşeviklərlə doldurulmuşdur. Bolşeviklər şəhərin müəzzəm [böyük] binalarını zəbt edib xəstəxanaya çevirmişlər. Xəstəxanalardan naxoşluq küçələrə keçmiş, şəhərdə yatalağa qarşı əlac etmək mümkün deyil. Zira şəhərdə dərman yoxdur. Bolşeviklər şəhərdə olan bir çox xanımanları şəfqət bacılığına təyin eyləmişlərdir. Qəbir qazmaq üçün bütün sərvətdarları [varlıları] cəlb etmişlərdir.

Bolşeviklərin məğlubiyyəti

Alınmış olan doğru məlumata nəzərən general Lyaxovun Könüllü dəstələri tərəfindən Qafqaziyada vaqe bütün Mədən Suları işğal edilmişdir. Digər cəbhədə isə Şimali Qafqazda iş görən bolşeviklərin ən mühüm istinadgahı olan Svyatoy Krest denilən məhəl [yer] işğal edilmişdir.

BAKI XƏBƏRLƏRİ

Qəzavət [Qazılıq] tərəfindən

Bakı şəhərində və qəryələrində [kəndlərində] olan müsəddəq [rəsmi] prixod mollalarına elam edirəm [bildirirəm] ki, təvəllüd barəsində, vəfat xüsusunda şəhadətnamələr verdikdə metrikdən [yaş kağızından] verməlidirlər. Təvəllüd və vəfat hansı ayda və hansı gündə vaqe olduğunu qeyd etməlidirlər. Siyahıyi-ümumiyyədən verilmiş şəhadətnamə sahibləri metrikdə mövcud olmamışsalar, həman ruhani saxtakar və müqəssir hesab olunacaqdır və amma metrikdə səbt [qeyd] olmayan şəxsləri siyahiyi-ümumiyyədən vermək olar. Bu şərtlə şəhadətnamədə qeyd etsinlər ki, əgər bu şəxs metrikdə səbt olmuş olsa, cavabdəhəndəliyi [cavabdehliyi] öhdəmə götürürəm.

Bakı qazısı:
Axund Əbdürrəhim Hadizadə

İrəvan müsəlmanları və Ermənistan

Bakıda mövcud İrəvan Quberniyası Müsəlmanları Həmvilayətləri Cəmiyyəti Balkan və Qafqaziya İngiltərə qoşunları baş komandanı general Milnə bir ərzihal verib rica etmişlər ki, İrəvan quberniyasının müsəlmanlarla məskun hissələrinə erməni qoşunlarının soxulması önü alınsın və bu vaxtadək zorla tutulan hissələr həman qoşunlar tərəfindən təxliyə edilib Azərbaycana mülhəq edilsin [birləşdirilsin]. Zira ora müsəlmanları özlərini azərbaycanlı və vətənlərini isə Azərbaycanın ayrılmaz bir hissəsi ədd [hesab] edirlər.

Bələdiyyə İdarəsində

Fabriçni inspektor [Fabrik müfəttişi] Bələdiyyə rəisinə müraciətən məlum etmişdir ki, Binəqədi dairəsi fəhlələri ona müraciətən Binəqədi su yolunun bağlanmasını xəbər vermişlər. Bu isə fəhlələri çənlərdən su işlətməyə məcbur edir. Hal-hazırda Binəqədi dairəsində 600-dək fəhlə yaşamaqdadır. Rica edilir ki, Binəqədi mədən dairəsinin su yolu bağlanması barəsində lazımi məlumatı verəsiz və təcdiddən [bərpadan] ötrü nə lazım olduğunu bildirəsiz.

“Müsavat” firqəsində

Aldığımız məlumata görə, Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin təbliğat-təşkilat şöbəsi papaqçı, çəkməçi, daşkəsən və qeyri bu kimi sənətçiləri ayrı-ayrı toplayıb mütəşəkkil etmək üçün bir layihə hazırlayır. Bu günlərdə işə şüru ediləcəkdir [başlanacaqdır].

* Yanvarın 21-də gecə saat 11 radələrində Baba Aydəmir oğlu Bağırov Sabunçu mövqifində [stansiyasında] qatardan düşən zaman dəmiryol qatarı altına düşmüşdür. Bağırov iki ayağından yaralanıb Sovet Syezd xəstəxanasına göndərilmişdir.

* Balaxanı Realnı məktəbində türk əlifba şöbəsinə şagirdlər qəbul olunmaqdadır.

ƏRZAQ İŞLƏRİ

* Ərzaq nazirinin baş vəkili Nikolay Nikolayeviç Şuljenko Ərzaq Nəzarətinin hamı vəkillərinin işlərini təftiş etməkdən ötrü göndərilir.

* Şəki ilə Beyləqamı arasındakı şose yolunda poçta saxlayan Kərim Əsgərov Ərzaq Nəzarətinə bir ərizə verib Zaqatal nahiyəsindən poçta atları üçün arpa və saman almağa icazə verilməsini xahiş etmişdir. Ərzaq Nəzarəti məzkur [adı çəkilən] Əsgərova Zaqatal nahiyəsində min put arpa və 50 araba saman alıb Şəki şəhərinə gətirməyə icazə vermişdir.

* İvan Osipoviç Kotovski Ərzaq Nəzarəti tərəfindən Şimali Qafqaziya, Stavropol, Qara dəniz sahili quberniyalarına və Kuban oblastına göndərilir ki, orada olan ərzaq təşkilatları, kooperativlər və xüsusi adamlarla Bakı ehtiyacatından [ehtiyaclarından] ötrü ərzaq şeyləri almaq və dəyişdirmək işləri haqqında müzakiratda bulunsun. Ərzaq Nəzarəti Kotovskinin məzkur yerlərə göndərilməsini Gürcüstan Hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsinə və İngiltərə Baş ərkanına [Baş qərargahına] xəbər verib, bu barədə ona müavinət

[kömək] göstərilməsi xahişində bulunmuşdur.

* Ərzaq Nəzarəti, Dəmiryol Nəzarətinə müraciət edib, Bakı Mərkəzi Ev Komitəsinin iaşə məntəqələri ilə bir para xəstəxanalar ehtiyacatı üçün ət verən İsa bəy Sadiqbəyova Gəncədən Bakıya ət və qaramal gətirmək üçün hər ay 6 vaqon verilməsini xahiş etmişdir.

* M. H. Rafayeviç nam [adlı] bir şəxs Ərzaq Nəzarəti ilə əqd etdiyi [imzaladığı] müqavilənaməyə görə borclu olmuşdur ki, Odessa, Xarkov və Yekaterinoslav şəhərlərindən Bakıya Ərzaq Nəzarəti adına ayaqqabı, dəri və qeyri-dəri emalatı gətirsin. Buna görə Ərzaq Nəzarəti məzkur [adı çəkilən] Rafayeviçə bir vəsiqə verib Gürcüstan və Ukrayna cümhuriyyətlərindən məzkura müavinət göstərilməsini xahiş etmişdir.

* Ərzaq Nəzarəti yazıb Dəmiryol Nəzarətinə xəbər vermişdir ki, tərifə qiymətlərinə baxmaqdan ötrü vaqe olacaq müşavirəyə Ərzaq Nəzarəti tərəfindən nazir vəkili Vladimir Vasilyeviç Smirnov göndərilir.

FƏHLƏ KONQRESİ

İşbu kanuni-saninin [yanvarın] 26-da Fəhlə Klubu salonunda Fəhlə Konqresi iniqad etmişdi [baş tutmuşdu]. İclas saat 11 radələrində başlanır. Mandatlar təhqiqatı ixtilaf törədir. Mandatları təhqiq etmək məsələsi barəsində heyəti-rüəsa [rəyasət heyəti] tərəfindən təyin edilmiş zat [şəxs] məlumat verərək müntəxəb [seçilmiş] təşkilatın möhrü, səbti [qeydi] mandatlarda vacib və lazımdır, deyir. Mandatların bir çoxu, xüsusən müsəlman nümayəndələri mandatları möhürdən xali [möhürsüz] olduğu üçün nümayəndələr miyanında [arasında] səs-küy qalxır. Orada-burada mübahisələr davam edir. Bir çoxları qəbul edilməsələr, konqreni bərhəm edəcəklərini [pozacaqlarını] çığıra-bağıra öyləyirlər. Bir çoxları da möhürün vücubu [vacibliyi] barəsində heyəti-rüəsanın türk qəzetələrində elan verməməsini dəstaviz [bəhanə] edərək bir "İskra" qəzetəsində bu barədə yazılmasını kafi ədd [hesab] etməməyə, özlərinin konqredə qanunən iştirak etməyə ixtiyarları olduğunu sübut edirlər.

Mandatlardan 12 ədədi ev komitələri möhürləri ilə səbt və təsdiq edilmişdir. Bu barədə danışıq və mübahisə olduqca uzun çəkir. Axirüləmr [nəhayət] qət edilir ki, bu dəfəlik bunlar konqreyə buraxılsınlar. Gələcək dəfə isə buraxılmayacaqları elam edilir [bildirilir].

Konqre sədri Çurayev mandatlar təhqiqindən sonra konqrede 523 nəfər qət edici səsə malik əza [üzv] iştirakını elamla, qanuni olaraq məclisi güşad edir [açır]. Ruznameyi-müzakirat [müzakirə gündəliyi] bu qərarla elam [elan] edilir:

1) Məvaciblər haqqında;

2) Dərmanxanalar xidmətçiləri haqqında;

3) Tağıyev fabrikası əhvalı haqqında.

Çurayev elam edir ki, fəhlələr şurası və duma məsələsi gələcək iclaslarda müzakirə ediləcəkdir. Konqre komisyonu tərəfindən Roxlin məruzə oxuyur. Özlərinin neftçilər və mədən sahibləri ilə etdikləri müşavirələri haqqında məlumat verir.

Bu sırada İngiltərə komandanlığı nümayəndəsi ilə Məsai Nəzarəti [Əmək Nazirliyi] nümayəndəsi içəri daxil olurlar. Roxlin izin alır ki, məruzəyə davam etmək üçün məsələ barəsində hökumət nümayəndələrindən bir neçə suala cavab almalıdır. Binaənileyh [ona görə] bir neçə dəqiqə onlarla danışmalıdır. Roxlin və komisyon əzası [üzvləri], hökumət nümayəndələri ilə başqa odaya gedirlər.

Vaxtı bica keçirməmək üçün ruznameyi-müzakiratın 2-ci maddəsi – dərmanxana xidmətçiləri tətilinə – keçirlər. Bu barədə Lyaxovski məlumat verir. Uzun-uzadı mübahisə olur. Tənəffüs elan edilir. Tənəffüsdən sonra Roxlin öz məruzəsinə davam edərək, Məsai Nəzarəti tərəfindən verilən təklifi maddəbəmaddə şərh edir. Sabiq müştərək müqavilənamə [kollektiv müqavilə] bir ayadək öz qüvvəsində qalacaqdır. Fəqət bir maddəsi, – fəhlələri əzl etmək [qovmaq] məsələsi – dəyişməlidir. Mədənçilərə, evli və evsizlərə ayda 360 rublə artıq zəhmət haqqı verməlidirlər. Bir ayadək yeni müştərək müqavilənamə tərtib edilməlidir. Roxlin fəhlələrin qələbə çalmasını bəyan edir.

Roxlin nitqinin axırında bəyan edir ki, Məsai Nəzarəti işbu məsələdə fəhlələr tərəfdarı olduğunu elam edir.

Komisyon tərəfindən təklif edilir ki, təkliflər qəbul edilsin. Məruzəni Əbilov tərcümə ilə bərabər gözəl surətdə şərh də edir.

Bundan sonra məruzəçiyə suallar verilir. Roxlin suallara cavab verir. Müzakirat qət edilərək [kəsilərək] təkliflər elam edilir. Komisyonun qətnaməsi:

1) Qüvvə müqayisəsi, Bakı füqarayi-kasibəsi və mədənçiləri əhvalından dolayı komisyon təklif edir ki, təklif qəbul edilsin.

2) Komisyon müzakiratda davam edəcəkdir.

3) Müştərək müqavilənamə təcdidində [yenilənməsində] komisyon lazımi tədabir ittixazıyla [tədbirlər görməklə] müzakiratında davam edəcəkdir.

4) Port dairəsi fəhlələri və bəhriyyun [matroslar] öz işlərini qələbəyədək aparmalıdırlar.

Saqo [Saakyan] təklif edir ki, İngiltərə komandanlığına yaddaşt [müraciət] etməlidir ki, buraya qoşun gətirmək əvəzində, ərzaq gətirilsə bir az da yaxşı olacaqdır.

Brunin təklif edir ki, ictimai təşkilata və istehlak cəmiyyətlərinə Mərkəzi Ev Komitəsi və qeyrəyə mal mübadiləsi üçün mal və izin verilsin. Halbuki, böylə təşkilata verilməyib, möhtəkirlər bundan istifadə edərək Tiflis və qeyri yerərdə cövhər və neft satırlar.

Sako təklif edir ki, fəhlələrin etirazı və başqa işlərinə baxmaq üçün başqa mədəni məmləkətlərdə olduğu kimi mə’dən məhkəmələri təşkil edilsin.

Slepçenko məlumat verir ki, Məsai Nəzarəti cənbində [nəzdində] 5 nəfər fəhlələrdən, 5 nəfər mədənçilərdən, 1 nəfər də Məsai Nəzarəti nümayəndəsindən mürəkkəb [ibarət] bir komisyon təşkilinə Məsai Nəzarəti öz təklifində müsaidə vermişdir. İşbu komisyon Sako deyən mə’dən məhkəməsidir.

Tağıyev fabrikası haqqında Çurayev bəyanat verir. Orada törəyən başsızlıqları təsvir edir.

Abbasqulu Kazımzadə təklif edir ki,

əhvalı məhəllində [yerində] təhqiq etmək üçün Təhqiqat Komisyonu intixab edilsin [seçilsin].

Çurayev təklif edir ki, İngiltərə komandanlığına təklif edilsin ki, üç günədək böylə fəlakətlərin qarşısı alınmaqla bərabər, qulluqdan çıxarılanlar geri qəbul olunsunlar. Üç günədək oradakı polis adlanan banda oradan çıxarılsın. (?)

İclas saat 7-də qapanır.

AZƏRBAYCANDA

Şərəfə, Lənkəran uyezdi

Xüsusi müxbirimizdən:

Dekabr ayının 8-də Aslan Məstan oğlu Şərəfə kəndindən bazara gedərkən yolda xaxollara rast gəlib. At döşündə Xırmandalı kəndinə aparıb onu öldürmək istəyirlərmiş. Aslan isə Xırmandalı camaatından 2 min manat pul alıb onlara verib özünü xilas etdirir.

DAĞISTAN CÜMHURİYYƏTİNDƏ

Gürcüstan Hökuməti nəzdində olan Dağıstan Hökumətinin siyasi nümayəndəsi gürcü Xariciyyə naziri Gegeçkoriyə xəbər vermişdir ki, Dağıstan Hökumətinin Müttəfiq şurası axırıncı dövri-ictimada [sessiyada] Çermoyev hökumətinin istefasını qəbul edib, təzə kabinə təşkilini Kotsevə həvalə etmişdir. Kabinə bu zeyldəki [aşağıdakı] şəxslərdən intixab edilmişdir [seçilmişdir]: Nazirlər Şurası sədri Pişemaxo Kotsev, Hərbiyyə naziri N[uh]-B[əy] Tarkovski, Xariciyyə naziri Heydər Bammatov, Daxiliyyə naziri R[əşid] Z[abit oğlu] Qaplanov, Maliyyə naziri Vassan-G[əray] Cabaqiyev, Ticarət və Sənaət naziri B[ahadır bəy] Mallaçı-xan, Dəmiryol naziri İ[brahim] b[əy] Heydərov, Maarif naziri A[dilxan bəy oğlu] M[əmməd] Şahsuvarov, Ziraət və Dövləti Əmlak naziri Butayev, Dövlət Kontrolu, Ədliyyə, Məsai və Ümuri-Xeyriyyə [Sosial Təminat] nazirlərinin yeri Tersk oblast kazakları ilə hasil olan sazişə görə kazaklara verilmişdirsə də, hələliyə boşdur.

Petroqraddan gəlmiş doktor
İshaq Avetisoviç Atayans
(professor Mixaylovun müavini)

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bəvl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bəvl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

2663

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Doktor
Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor
Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Doktor
İ. Q. Sibiroviç

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

2658

Doktor
Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Doktor
Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Siyasi vəziyyətimiz

səh. 459. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

Faiq əfəndinin həbsi

səh. 459. "...meydana gətirməkdə iştirakla...": qəzetdə "meydana gətirməklə iştirakla" kimi getmişdir.

Azərbaycan Məclisi-Məbusanında

səh. 462. "...xəstəliyin tamam olmasa da, azalması...": qəzetdə "xəstəliyin tamam olmasından azalması..." kimi getmişdir.

səh. 463. "...qanunnamələrin vəz'ini...": qəzetdə "vəz'ini" yerinə "vəziyyətini" getmişdir.

Teleqraf xəbərləri

səh. 467. "Yeddisi Baltk dənizində...": qəzetdə "yeddisi" yerinə "yeddinci" getmişdir.

Qəzetələrdən

səh. 469. "...bir çox xanımları...": qəzetdə "xanımları" yerinə "xanımanları" getmişdir. Burada söhbət varlı ailələrin qadınlarından gedir.

"Svyatoy Krest": Rusiyanın Stavropol diyarında Budyonnovsk şəhəri.

Bakı xəbərləri

səh. 469. "prixod": camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma.

"...metrikdə mövcud olmamışsalar...": qəzetdə "olmamışsalar" yerinə "olmuşsalar" getmişdir.

Fəhlə Konqresi

səh. 472. "Qüvvə müqayisəsi, Bakı füqarayi-kasibəsi və mədənçiləri əhvalından dolayı komisyon təklif edir ki, təklif qəbul edilsin.": Bu maddə belə başa düşülməlidir: "Komissiya, Bakı proletariatı ilə sənayeçilər arasındakı real güc nisbətini nəzərə alaraq, təklifin qəbul edilməsini qərara alır."



چهارشنبه ۲۶ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۲۹ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۱۰۰

آذربایجان

تورك و اسلاملغه مفید مقاله‌لره صحیفه ارمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالهٔ‌نك مکافاتی اداره تعین ایدیور.

اعلان‌ات‌فیاتی:
سطری ۳ روبله کرالله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
» ۳۲ » ۲
» ۴۵ » ۳

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
» ۳۵ » ۲
» ۵۰ » ۳

محل اداره:
باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ایوده

«آذربایجان»اداره‌سی،
تلفون نمره. ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

گونده‌لك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

اعلاننامه

اشبو یانوار آیتك ۱۸ نده آذربایجان دمیر یولنك (آلمت) موقفنده ترکه گیدن برنجیه سر خوش اشخاص طرفندن بش نفر ارمنیلره دهشتلو بر ظلم ایراز ایدیلمشدر.

مقصد‌لر مبین اولونماسیچون مامورلر طرفندن بلاتاخیر اجرا اولونمش تدابیر نتیجه‌سنده درست اولونان معلوماتدن مقصرلرك مسلمان اولدیغری بیان اولونیور.

بو جنایته مقصر یولدن شخصلرك ایشاری حربی محکمه‌یه حواله ایدیلمکدر.

آذربایجان جمهوریه‌سی داخلنده مای عداوتدن ناشی قتل، غارت، آزواجلره ظلم اولونمق و بشقه بو کبی جرائمده مقصر بولونانلرك ایشاری حربی‌محکمه‌یه ویریلمك مجرملر الك شدید جزالره حتی‌اعدام جزاسنده محکوم ایدیلمه‌جکلرینك بیان اولونماسی‌حکومت کندی طرفندن لازم گورییور.

بو اعلاننامه آذربایجان جمهوریه‌سی دمیر یول موقفلرینك جمله‌سنده آصیلوب هرشهر وقریه‌لرنده اعلان اولونمالیدر.

هیئت وکلا صدری ف. خویسکی — داخلیه ناظری نائبی کنرال مایور آغایئکوف

تدبیر گوندکدر

عقل وتدبیرك حکمی اوستون‌کلدی. عمله‌لر حسیاته گل، عقلیانه گورمه‌فرار ایتدیلر. حکومت‌ایله معدنچیلرك ممکن ایدیلمه‌کلری گذشته راضی اولوب تعطیل اینه‌میلر.

معدنچیلرك معدنك دوچار اولدیغی مشکلاتله رغما بو گذشتلره گیتمکه بر طرفدن عمله ارك طلبی، بر طرفدن‌ده آذربایجان حکومتنك معتدلانه وعاقلانه تأثیری سبب اولدی.

حکومت بوایشده گوسترمدی که عمله‌لرك منافعی، حقوقی اونك ایچون یاپانچی بر شیئی دکلدر. «قوللکتیفنی دوقووروب‌ده معدنچیلر قبول اینه‌یوردیلر. حکومت یونی موقتاً اوله‌ده گوریدیگی امر ایله اجرا ایتدیردی. ایولی، سوء‌ای مسئله‌نك آزادن قالدیریلوب‌ده یوتون عمله‌لره ۳۶۰ منات ماجاق آترتیلماسی ایچون حکومت نماینده وپارلمان وکیللری‌سمی ایتدیلر، تأثیرلری اولدی.

فقط عمله‌لرك آلمش اولدقلری ۳۶۰ منات علاوه ایله احتیاجاری رفع اولوناجغنی دوشونمك دوغرو اولماز.

دها عمله قونفرانسنده عمله‌لرك اوزاری دیور اردی که «بوعلاوه یزه دگل، دکانجیلره‌در.

دوغرودر. مواجب آلتنجیه دکانجیلره متاعك، بالخاصه ارزاقك قیمتی آرتیروبلر. حیات داده بهالاشیر، صو یه‌نده کوبرونك اوتاینده قالیر.

یوگی قارشی تدبیر ایله‌ملیدر. بو تدبیری حکومت گورملیدر. حکومت یوتون اهتمامی اولماسه‌ده هیچ اولماسه ارزاق ایچون بر تدبیر گورمه‌لی عمله رایونلرینده اوجوز قیمتله چورك ساتدیرمه‌سی ایله‌ملیدر.

بوخصوصده حکومت تجارت وصنایع نظارتنده کی اصولسز حرکتلره برنهایت ویرمرك یاشقه مملکتلره مال دگیشدیرمه‌سی ایشی یولنه قویاه یاخود‌ایله بلکه‌ده اوقرایاندن «جوهره‌مقابلنده یوغدا گتیره‌بیلر.

یوبول ایله شکر گتیرمك دخی ممکندر. عین زمانده حکومت‌سمی اینه‌ایدر که انگلتره قدر یوز یگی مالگلسین، یازدوغه متاعجوقاشسین. فقط بلاتیرسه اوزمان قیمتلر طبیعتله آشاغی دوشر.

حکومت یوکسی تدبیرلره قطعیاً توسل اینه‌میه‌جکلر. افکار عمومیه یله ایمش که گویا پارلمان‌توفیق‌پاشا قابینه‌سنه‌عدم اعتماد گوسترمك اونلاری ایش یاشندن دوشوره‌جکمش. فقط ایش عکسنی گوسترمشدر، اجلاس خلیل بگك تحت صدارتنده آچیلارق یاش وزیر طرفندن اوضاعه دایر داخلیه ناظری رشید پاشا بر نطق سویله‌مش و اولکی قابینه‌نك یوتون سهو لرینی قبیله دیمکله تورکیه‌نی آوروپا محاربه سنه سوق ایدن همان قابینه‌در دیویوندن صکره همان قابینه‌نك ایش یاشنده دومه‌سی تورکیه ایچون بویوك بر فلاکت اولاجغنی‌دی. ناظر علاوه ایدیور که حکومت شرفلی صلح عقدی ایچون جدی تدبیرلر اتخاذ ایدیور. هیچ کیم ظن‌ایتمه‌سونکه حکومت تورکیه‌نی شرفلی صلحه یترمکه چالشمایور تورکیه‌نك بوحالنه سبب اولانلرلارك مسئوله جلب ایدیلمه‌لرینه هکذا تدبیر اتخاذ ایدیلمشدر. حال حاضرده (۲۵) میلیقر روم، ارمنی ومسلمانلار نفی‌دن قایتاریلدقی اولانلره مادی معاونت ایدیلور. ارزاق مسئله‌سی اصلاح ایچون جدا سعی ایدیلور. سابق قابینه طرفندن ارزاق ادارەسنه پراقیلمش اولان مبلغ‌برینه صرف ایدیلمیوبمش ناظرلرك‌نظدن صکره پارلمان‌عضولری دائما‌غه مساعده ایسته‌مشلردر. فقط گوزلنمه‌یکی حالده دیگر بر ناظر کورسی‌ء خطابته چیقارق مجلس مبعوثانك پراقیلماسی‌یارەسنده سلطان حضرتلرینك اراده‌سنی‌اوقومشدر، تورکیه مشروطه‌سنه گوره سلطانك بالذات پارلمانی یافلاماغه اختیاری یوقدر. مده اولچه مشروطه قانونلرنی یو مادەسنی لغو ایلمشدر.

نظارتلره

ارمنستان حکومتنك پروتستوسی

ارمنستان خارجیه ناظری تیقرانیان آذربایجان جمهوریتی خارجیه ناظریته یوقله بر تلغراف چکمشدر:

بزه یتشن خصوصی خبرلره نظرا آذربایجان شورای و ئلاسی جوانلرینی و شوشه محللارینده گنرال غوبرناطورلق تاسیس ایتمکی تحت قراره آلمشدر. حکومتمزك وکالتی ایله ارمنستانك اراضی حقوقیه تجاوز اولان بو قرارداد مقابله پروتستو ایدیبورم.

ارمنستان جمهوریتی خارجیه ناظری

تیقرانیان

مساعی نظارتنده

باکو غوبرناتسی فابریچنی اینسپکتوری مساعی نظارتنه معلوم ایتمشدر که نوبل قرداشلری ماکینه اعمالاتخانه‌سی قعله‌لری یاناروك ۲۴ ساعت ۲ دن ایشه باشلامشلاردر. اونلره معلوم ایدیلمشدی یانوار آیی یارم مراجعی هر برده یانوارك ۲۵ ندن اعتبارا ویریلمکه باشلایه جقدر.

☼ حکومت اداره‌سی دفترخانه‌سی مدیریتی مساعی نظارته خبر ویرمشدر که نظارت دفتر خانه‌سی و خدمتجیاری معاش ایچون استقراض دن اوتری بلا واسطه مالیه نظارته مراجعت ایتمه‌لیدر.

اردهر. قوروسوفته موفقنده بولشه‌ویکلردن اوچ‌عدد زرهلی قطار آلتندهدر آلکساندروفسکی موقفنده شدتلی محاربه اولمشدر. اون آلای قرمزی قوشون مغلوب ویریشان ایدیلمشدر. بعض‌آلای اردە آنجاق ۲۰ — ۳۰ آدم قالمشدر. قالانلاری یاقریلمش یا قاچمشلردر. دشمن اوردوسنده مدهشی آجلق واردر. کوتلهی اوردو طرفنه کیچمش اولان قرمزی قوشون نظراتی یانوارك ۱۹ ینسه ایولرینه طرف قاجاراق بولده راست کلدیکاری آدملری غارت ایتمکده‌ایمشلر. اولکرك آرامنده یاتاقلق خستهلغی دهشتلی صورتده حکمفرمادر. کوتله برنجیه‌یوز آدم هلاك اولیورمش.

گنجه‌ده حربی محکمه کشادی

جنرال شیخلینسکی‌دن بر بویله تلغراف آلنمشدر:

« معلوم ایدیورم که بو گوندن اعتبارا گنجه شهریئده آذربایجان حربی محکمه‌سی کشاد ایدیلمشدر.

شیخلینسکی

تقلیبلدن اداره‌مزه دمیریولی، ایله بویله تلغراف گلمشدر

عمر فایق افندی اوچ یولداشیله ۱۳ دقیقه‌یه آخسخه‌ده‌دوتولوب‌حبس ایدیلمشدی. قانونا مقصر اولدقلاریندن — ۳۱ — دقیقه‌یه تقلیبدن خارجه کیتمه‌مك شرطیله آزاد ایدیلمشلردی • لاکن صوك کونلرده آخسخه اهالیسنك: «دوتولان یاش چاپارمق آزاد ایدیلمینجه مجلس موسسان وزمستوا سه‌جکلرینه اشتراك ایتمیه‌جکلرینی» بیان ایله‌مله‌ری اوزرینه — ۱۹ — یانواردە اونلاری یکیدن حبس ایدوب قانلو وقوللوراق اولان حبس‌خانه قاپه‌سنه لاهیته قویه بلادر.

صلح اطرافنده

پاریسده ۱۵۰۰ قادسته‌اولان سیمیز تلغراف موقفی روسیه‌ده اولان الك نفوذلی فرقه‌لره مرمره دگیزنده کی (زیرینجه‌ف) جزیره‌سنه اوچر نمایندە گوندرمه‌لرینی تکلیف ایلمشدر.

ویلسون و بلشه‌ویکلر

روسیه مسئله‌سنه دایراولان عالی شورا قطع نامه‌سنی فرانسوز مطبوعاتی جدی صورتده تنقید ایدییور بعض‌غزتهلر بوراییه‌دەرلر که کویاویلسون ایستیور که بولشه‌ویکلری اقدامه‌ته وادار ایدوب و یونجه‌ایله یوتون جهانی بولشه‌ویکلر علیهنه حاضرلاسون بوطریق‌ایله‌ده ویلسون آمریقانی آلمانیا علیهنه جووریشدی.

لهذا منسوب اولان دیر اوداء غزته‌سنك معلومه‌تنه کوره شورا حکومتی پاریسه صلح قونفرانسنه هیئت مرخصه گوندرمك ایسته‌یور و بوهیئت یوتون روسیه طرفندن نماینده‌لق ایده‌جکمش.

تورکیه‌ده

تورکیه مجلس‌مبعوثانك یراقیلماسنه دایر

دیقایر ۲۱ نجی بده تورکیه مجلس مبعوثانك صوك اجلاسی عقد ایدیلمش ایمش. او گون استانبولده بویوك بر جدیت مشاهده اولونمش، دیوره‌مشترکه « اتحاد ترقی » فرقه‌سنك مشهور عضولری یگی قابینه‌یی مدهش صورتده تنقید ایلدیلر. یوقسه بو گون نوبه‌دن کوتولمش تعطیل مسئله‌سی تکرار یوتون تهدیدی ایله میدانه چقار. اوزمان عقل ومصلحتك گوسترديگی یولدر گل. حرکت حسیات واحتیاجك جوق‌دەمتغلی، تائیماتی رهبرلگی حاکم اولار.

آذربایجان صناعت وتجارت حیاتنی هر نوع اتظار اولونمایان حادثه‌لره قارشی محافظه ایتمك حکومتك بورجیدر.

بو بورجنی حکومت ارزاقی یولالتمه‌یرمق یولنده دوتاجغی حرکت وگورمه‌جکی تدبیرلرله ایفا ایدیلر.

اوبانیق اولملی، تدبیر گورملیدر.

م. ا

تلغراف خبرلری

برلیندن ویرلین معلومات رسمیه‌یه نظرا آلمانیاده مجلس موسسان انتخابلرینده شیه‌ده مانو فلار (مه‌نه‌ویکلردن) غالب کلمشلردر. هامبورغده بولشه‌ویکلر اقدامات حربه‌ده بولوندقلاری ایچون هامبورغ ادارهٔ عسکریه آتنده اعلان ایدیلمشدر.

برلینده تعطیل

برلینده کی ایلکتریك موسسه‌لرینده اولان تعطیل برنجیه کون شهرده یوتون حیاتی دایاندیر مشدر. آخشام‌لار شهرلك چوق‌حصه‌سی قارانلقده قالیورمش نهایت عمله‌لرك طاینه عمل ایدیله‌مه‌رك تعطیل یاتیرلمشدر.

هامبورغده یگی‌دن سیاره‌قالار (بولشه‌ویکلر) ایشه باشلامشلاردر. یانوارك ۲۳ ندە آخشام زمانی ایشسز بولشه‌ویکلر دوریوپوس اوجاقلرنده حمله ایدوب تفنك وبومبه‌یوتا آلمشلردر. عملوسالمات شورا سی درحال نظامی بر بالیتمك ایچون تعجیلی تدبیرلر اتخاذ ایلمشدر. باش واقرال حکومت قوشونلاری طرفندن محافظه ایدیلمه‌ده اوراده یوتون حرکات کسلمشدر. شورا امرویرمشدر که یوتون سلاحلر تسلیم ایدیلسین ویرمیلر دیوان حربه تسلیم ایدیلمه‌جکلردر.

خصوصی مخبیرمزدن

تیموخان‌شورا — معدن سولرینده: پاتیغو رسق، کیسلووودسك، حسن‌توکسی و زماز نووه‌دسك‌دن آلنان رسمی خبرلره نظرا بو یرلر جنرال دەنیکین قوشونلاری طرفندن اشغال ایدلمش.

“Azərbaycan” qəzetinin 100-cü nömrəsinin 1-ci səhifəsi

Çərşənbə, 29 yanvar 1919-cu il, nömrə 100

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 26 rəbiülaxir sənə 1337. 29 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

ELANNAMƏ

İşbu yanvar ayının 18-ində Azərbaycan dəmiryolunun Ələt mövqifində [stansiyasında] trenlə [qatarla] gedən bir neçə sərxoş əşxas [şəxslər] tərəfindən beş nəfər ermənilərə dəhşətli bir zülüm ibraz edilibdir [göstərilib]. Müqəssirlər müəyyən olunmasıyçün məmurlar tərəfindən bilatəxir [təcili] icra olunmuş tədabir [tədbirlər] nəticəsində dərdəst olunan [əldə edilən] məlumatdan müqəssirlərin müsəlman olduqları bəyan olur. Bu cinayətdə müqəssir bulunan şəxslərin işləri hərbi məhkəməyə həvalə ediləcəkdir.

Azərbaycan Cümhuriyyəsi daxilində milli ədavətdən naşi [milli ədavət səbəbindən] qətl, qarət, arvadlara zülüm olunmaq və başqa bu kimi cəraimdə [cinayətlərdə] müqəssir bulunanların işləri hərbi məhkəməyə verilərək, mücrimlər [cinayətkarlar] ən şədid [şiddətli, ağır] cəzalara, hətta edam cəzasına da məhkum ediləcəklərinin bəyan olunmasını hökumət kəndi tərəfindən lazım görür.

Bu elannamə Azərbaycan Cümhuriyyəsi dəmiryol mövqiflərinin cümləsində asılıb, hər şəhər və qəryələrində [kəndlərində] elan olunmalıdır.

Heyəti-vükəla sədri F. Xoyski
Daxiliyyə naziri naminə
general-mayor Ağabəyov

TƏDBİR GƏRƏKDİR

Əql və tədbirin hökmü üstün gəldi. Əmələlər [fəhlələr] hissiyyata deyil, əqliyyata [ağıla] görə rəftar etdilər. Hökumətlə mədənçilərin mümkün edə bildikləri güzəştə razı olub tətil etmədilər. Mədənçiləri mədənin düçar olduğu müşkülatına rəğmən bu güzəştlərə getməyə bir tərəfdən əmələlərin tələbi, bir tərəfdən də Azərbaycan Hökumətinin mötədilanə və aqilanə təsiri səbəb oldu. Hökumət bu işdə göstərdi ki, əmələlərin mənafeyi, hüququ onun üçün yabançı bir şey deyildir. "Kollektivnı doqovor"u [kollektiv müqaviləni] mədənçilər qəbul etməyirdilər. Hökumət bunu müvəqqətən olsa da verdiyi əmrlə icra etdirdi. Evli, subay məsələsinin aradan qaldırılıb da, bütün əmələlərə 360 manat məvacibin artırılması üçün hökumət nümayəndə[si] və Parlaman vəkilləri səy etdilər, təsirləri oldu. Fəqət əmələlərin almış olduqları 360 manat əlavə ilə ehtiyacları rəf olunacağını [aradan qaldırılacağını] düşünmək doğru olammaz.

Daha Əmələ Konfransında əmələlər özləri deyirlərdi ki, "bu əlavə bizə deyil, dükançılaradır". Doğrudur. Məvacib ar-

tınca, dükançılar da mətahın, bilxassə ərzağın qiymətini artırırlar. Həyat yenə də bahalaşır, su yenə də körpünün o tayında qalır. Buna qarşı tədbir eyləməlidir. Bu tədbiri hökumət görməlidir. Hökumət bütün əmtəəni olmasa da, heç olmasa ərzaq üçün bir tədbir görməli, əmələ rayonlarında ucuz qiymətlə çörək satdırmağa səy eyləməlidir. Bu xüsusda hökumət, Ticarət və Sənaye Nəzarətindəki üsulsuz hərəkətlərə bir nəhayət verərək, başqa məmləkətlərlə mal dəyişdirməsi işini yoluna qoya bilməklə, bəlkə də Ukraynadan “cövhər” [kerosin] müqabilində buğda gətirə bilər. Bu yolla şəkər gətirmək dəxi mümkündür.

Eyni zamanda hökumət səy etməlidir ki, İngiltərədən bizə yeni mallar gəlsin, bazarda mətah çoxlaşsın. Mətah çoxlaşarsa, o zaman qiymətlər təbiətilə aşağı düşər.

Hökumət bu kimi tədbirlərə qətiyyən təvəssül [müraciət] etməlidir. Yoxsa bu gün növbədən götürülmüş tətil məsələsi təkrar bütün təhdidi ilə meydana çıxar. O zaman ağıl və məsləhətin göstərdiyi yollar deyil, hərəkəti-hissiyyat və ehtiyacın çox da məntiq tanımayan rəhbərliyi hakim olar.

Azərbaycan sənaət [sənaye] və ticarət həyatını hər növ intizar olunmayan [gözlənilməyən] hadisələrə qarşı mühafizə etmək hökumətin borcudur. Bu borcunu hökumət, ərzağı bollaşdırmaq yolunda tutacağı hərəkət və görəcəyi tədbirlərlə ifa edə bilər.

Oyanıq olmalı, tədbir görməlidir.

M. Ə.

TELEQRAF XƏBƏRLƏRİ

* Berlindən verilən məlumati-rəsmiyyəyə [rəsmi məlumata] nəzərən, Almaniyada Məclisi-Müəssisan intixablarında [seçkilərində] şeydemanovlar (menşeviklərdir) qalib gəlmişlərdir. Hamburqda bolşeviklər iqdamati-hərbiyyədə [hərbi təşəbbüsdə] bulunduqları üçün Hamburq idareyi-əsgəriyyə [hərbi rejim] altında elan edilmişdir.

Berlində tətil

Berlindəki elektrik müəssisələrində olan tətil bir neçə gün şəhərdə bütün həyatı dayandırmışdır. Axşamlar şəhərin çox hissəsi qaranlıqda qalırmış. Nəhayət əmələlərin [fəhlələrin] tələbinə əməl edilərək tətil yatırılmışdır.

* Hamburqda yenidən spartaklar (bolşeviklər) işə başlamışlardır. Yanvarın 23-də axşam zamanı işsiz bolşeviklər dörd polis uçastokuna [sahəsinə] həmlə edib tüfəng və pulemyot almışlardır. Əmələ və Saldat Şurası dərhal nizamı bərpa etmək üçün təcili tədbirlər ittixaz eyləmişdir [tədbirlər görmüşdür]. Baş vağzal, hökumət qoşunları tərəfindən mühafizə edilsə də, orada bütün hərəkat kəsilmişdir. Şura əmr vermişdir ki, bütün silahlar təslim edilsin. Verməyənlər divani-hərbə [hərbi məhkəməyə] təslim ediləcəklərdir.

Xüsusi müxbirimizdən

Teymurxanşura - Mədən Sularından: Pyatiqorsk, Kislovodsk, Həsəntuki və Jeleznovodskdan alınan rəsmi xəbərlərə nəzərən, bu yerlər general Denikin qoşunları tərəfindən işğal edilmişlərdir.

Kursovka mövqifində [stansiyasında] bolşeviklərdən üç ədəd zirehli qatar alınmışdır. Aleksandrovski mövqifdə şiddətli müharibə olmuşdur. On alay qırmızı qoşun məğlub və pərişan edilmişdir. Bəzi alaylarda ancaq 20-30 adam qalmışdır. Qalanları ya qırılmış, ya qaçmışlardır. Düşmən ordusunda müdhiş aclıq vardır. Könüllü ordu tərəfinə keçmiş olan qırmızı qoşun nəfəratı [əsgərləri] yanvarın 19-da evlərinə tərəf qaçaraq yolda rast gəldikləri adamları qarət etməkdə imişlər. Onların arasında yatalaq xəstəliyi dəhşətli surətdə hökmfərmadır [hökm sürməkdədir]. Gündə bir neçə yüz adam həlak olurmuş.

Gəncədə hərbi məhkəmə güşadı

General Şıxlinskidən bir böylə teleqraf alınmışdır:

"Məlum edirəm ki, bu gündən etibarən Gəncə şəhərində Azərbaycan hərbi məhkəməsi güşad edilmişdir [açılmışdır].
Şıxlinski"

Tiflisdən idarəmizə dəmiryolu ilə böylə teleqraf gəlmişdir

Ömər Faiq əfəndi üç yoldaşı ilə 13 dekabrda Axısxada tutulub həbs edilmişdi. Qanunən müqəssir olmadıqlarından, 31 dekabrda Tiflisdən xaricə getməmək şərti ilə azad edilmişlərdi. Lakin son günlərdə Axısxa əhalisinin "tutulan başçılarımız azad edilməyincə Məclisi-Müəssisan və zemstvo [yerli özünüidarə qurumları] seçkilərinə iştirak etməyəcəklərini" bəyan eyləmələri üzərinə 19 yanvarda onları yenidən həbs edib, qatil və quldurlar olan həbsxana kameralarına qoyublar.

SÜLH ƏTRAFINDA

* Parisdə Eyfel qülləsində olan simsiz teleqraf mövqifi [stansiyası] Rusyada olan ən nüfuzlu firqələrə Mərmərə dənizindəki Prinsev cəzirəsinə [adasına] üçər nümayəndə göndərmələrini təklif eyləmişdir.

Vilson və bolşeviklər

Rusiya məsələsinə dair olan Ali Şura qətnaməsini fransız mətbuatı ciddi surətdə tənqid edir. Bəzi qəzetələr bu rəydədirlər ki, guya Vilson istəyir ki, bolşevikləri iqdamata [addımlar atmağa] vadar edib və bu nəhv [üsul] ilə bütün cahanı bolşeviklər əleyhinə hazırlasın. Bu təriqlə də [yolla da] Vilson Amerikanı Almaniya əleyhinə çevirmişdi.

* Leninə mənsub olan "Pravda" qəzetəsinin məlumatına görə, Şura Hökuməti Parisə Sülh Konfransına heyəti-müəxxəsə [nümayəndə heyəti] göndərmək istəyir və bu heyət bütün Rusiya tərəfindən nümayəndəlik edəcəkmiş.

TÜRKİYƏDƏ

Türkiyə Məclisi-Məbusanının buraxılmasına dair

Dekabrın 21-də Türkiyə Məclisi-Məbusanının son iclası əqd edilmiş [baş tutmuş] imiş. O gün İstanbulda böyük bir ciddiyyət müşahidə olunurmuş. Deyirmişlər ki, "İttihad-Tərəqqi" firqəsinin məşhur üzvləri yeni kabinəni müdhiş surətdə tənqid edəcəklər. Əfkari-ümumiy-

yə [ictimai rəy] belə imiş ki, guya Parlaman [Əhməd] Tofiq paşa Kabinəsinə ədəmi-etimad [etimadsızlıq] göstərərək, onları iş başından düşürəcəkdir. Fəqət iş əksini göstərmişdir. İclas Xəlil bəyin təhti-sədarətində [sədrliyi altında] açılaraq, Baş vəzir tərəfindən övzaya [vəziyyətə] dair Daxiliyyə naziri [Əhməd] Rəşid [Rey] paşa bir nitq söyləmiş və əvvəlki kabinənin bütün səhvlərini qeydlə demiş ki, Türkiyəni Avropa müharibəsinə sövq edən həman kabinədir və bundan sonra da həman kabinənin iş başında durması Türkiyə üçün böyük bir fəlakət olacaqdı. Nazir əlavə edir ki, hökumət şərəfli sülh əqdi üçün ciddi tədbirlər ittixaz edir [tədbirlər görür]. Heç kim zənn etməsin ki, hökumət Türkiyəni şərəfli sülhə yetirməyə çalışmayır. Türkiyənin bu halına səbəb olanların məsuliyyətə cəlb edilmələrinə hakəza [habelə] tədbir ittixaz edilmişdir. Hal-hazırda 25 min nəfər rum, erməni və müsəlmanlar nəfiydən [sürgündən] qaytarılmış, onlara maddi müavinət edilir. Ərzaq məsələsini islah üçün ciddən səy edilir. Sabiq kabinə tərəfindən Ərzaq İdarəsinə buraxılmış olan məbləğ yerinə sərf edilməyibmiş.

Nazirin nitqindən sonra Parlaman üzvləri danışmağa müsaidə istəmişlərdir. Fəqət gözlənmədiyi halda digər bir nazir kürsiyi-xitabətə çıxaraq Məclisi-Məbusanın buraxılması barəsində Sultan həzrətlərinin iradəsini [fərmanını] oxumuşdur. Türkiyə məşrutəsinə [konstitusiyasına] görə Sultanın bizzat [şəxsən] Parlamanı bağlamağa ixtiyarı yoxdursa da, əvvəlcə məşrutə qanununun bu maddəsini ləğv eyləmişdir.

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Ermənistan Hökumətinin protestosu

Ermənistan Xariciyyə naziri Tiqranyan Azərbaycan Cümhuriyyəti Xariciyyə nazirinə böylə bir teleqram çəkmişdir:

“Bizə yetişən xüsusi xəbərlərə nəzərən, Azərbaycan Şurayi-vükələsı [Nazirlər Kabineti] Cavanşir və Şuşa mahallarında general-qubernatorluq təsis etməyi təhti-qərara almışdır. Hökumətimin vəkaləti ilə Ermənistanın ərazi hüququna təcavüz olan bu qərardad müqabilinə protesto edirəm.

Ermənistan Cümhuriyyəti Xariciyyə naziri Tiqranyan”

Məsai Nəzarətində

Bakı quberniyası Fabriçni İnspektoru [Fabrik Müfəttişi] Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdir ki, Nobel Qardaşları makina emalatxanası fəhlələri yanvarın 24-ü saat 2-dən işə başlamışlardır. Onlara məlum edilmişdi yanvar ayı bayram məvacibi hər yerdə yanvarın 25-dən etibarən verilməyə başlayacaqdır.

* Hökumət İdarəsi dəftərxanası müdiriyyəti Məsai Nəzarətinə xəbər vermişdir ki, Nəzarət dəftərxanası və xidmətçiləri maaş[ı] üçün istiqrazdan ötrü bilavasitə Maliyyə Nəzarətinə müraciət etməlidir.

TƏLƏBƏLƏRİMİZ HAQQINDA

Bir neçə gündür ki, şəhərimizdə tələbələr Amerikaya getməyə yazılırlar. Bu

münasibətlə bizim türk tələbələri arasında dəxi danışıq vardır. Hətta yazılanlarını da gördüm. Təbii, heç kəs deməz ki, ikmali-təhsil [təhsili davam etdirmək] üçün daha mədəni olan məmləkətlərə getməyiniz. İndi üçüncü sənəyə girir ki, tələbələrimiz məktəbsiz, darülfünunsuz [univeristetsiz] qalmışdır. Və halonki [halbuki] bu üç sənə içində bir çox tələbələrimiz məktəbi bitirərdi. Bir çoxu da onların yerinə girərdi. İndi Yevropa yolları bağlı olduğundan, əgər mümkün və münasib isə Amerikaya getmək vacibi bir şeydir. Fəqət bizi daha əhəmiyyətli və mühüm bir məsələ düşündürür. Əgər əhval, zaman, vaxt köhnə olsaydı ola bilər bu barədə danışmaq dəxi lazım gəlməyəydi. Fəqət "hal" [indiki zaman] ilə üç sənə bundan ilərki "mazi" [keçmiş] arasında böyük fərq vardır.

Üç sənə ilərı Avropaya əsir bir ölkənin məhkum bir oğlu gedirdi. İndi isə müstəqil bir hökumət halında bulunuruz. Həyatımız dəyişmiş, cərəyan və tələbatı da başqa hal almışdır. Bu gün istiqlaliyyətimizi təmin etmək və onun içərisində yeni bir həyat, mədəni bir dünya yaratmaq projesi cızılmışdır.

Bu gün "Odlar diyarı" deyə böyük bir "Türk evi", ali bir "Türk ocağı", möhtəşəm bir "Türk yurdu" yapma planı çəkilmişdir. Fəqət bu bina materialları, daşları, taxtaları, dəmirləri, bütün texniki və mədəni ləvazimatı Avropada bulunur.

Yurdunu sevənlər, parlaq və mədəni istiqbal [gələcək] məfkurəsi ilə yaşayanlar qərbə qoşmalı, hərə bir "maddə" alıb geri dönməli və böyük yurd evini bəzəməlidirlər. Bu gün qərbə təhsili-elmə gedənlər müəyyən bir fikirlə, aydın bir diləklə, yüksək bir ideal ilə getməlidirlər. Bu gün Avropaya, Amerikaya gedənlər bilməlidir ki, onlar yarın üçün gedirlər. Zira "bugünkü addımlar hazırlıyor yarını" demişlər. Bunun üçün də xüsusi hazırlıq lazımdır. Avropaya getmədən mükəmməl ana dilini bilmək, milli tarix, milli ədəbiyyat, milli mədəniyyət və həyat haqqında məlumata malik olmaq lazımdır. Yoxsa alınacaq məlumatlar sonra həyatımıza tətbiq olunammazlar. Xalqımız onu anlayammaz. Qərbə gedərkən bu vaxta kimi gedənləri çağırmalı, göz önünə almalı və onlardan bir haqq-hesab istəməlidir. Bu vaxta kimi tələbələrimizin Avropadan gətirdiklərini xalqımızın və yurdumuzun "ehtiyac" ölçüsünə qoyub ölçməli, əksik və artıqlığının çarələrini bilməlidir və düşünməlidir. Vəilla [yoxsa] gözü bağlı olammaz.

İstiqlaliyyətə kimi qayıdan tələbələrimizdə çox şeylər, nöqsanlar və bəlkə həyatımız üçün "zəhərlər" gördük. İlyaslar "Alyoşa" oldular, Məhəmmədlər "Mişa" qayıtdılar, Vəlilər "Vladimir" döndülər, tələbələr evlənib gəldilər. Milli həyatla yaşamadılar. Bununla da xalqımızı "avropalılıqdan" ürkütdülər. Camaatımız maarifi yanlış anladı, tərəqqidən qaldı. Bu, daha yapılmamalıdır və yapılmamaq üçün də ilərıcə ehtiyatlı olmalıdır. Xüsusən bu barədə hökumət çalışmalıdır ki, Avropaya və ya Amerikaya yollanılacaq türk tələbələri əvvəla ana dilincə xüsusi hazırlıq görməlidir və ikinci, səfərləri rəsmi olmalıdır. Yoxsa yeddi sənə Amerikada qalmağa gedənləri bir də vətəndə gözləməməli, ya gələrlərsə türk xalqının həyatına bir şey tətbiq edə bilməyəcəklər, bunu nəzərdə tutmalı.

Məhəmmədzadə Mirzəbala

ŞƏKI ŞƏHƏRİ VƏ QƏZASININ

Füqərayi-kasibəsi Məclis-i Məbusanımızın istimdadını [yardımını] və hökumətimizin binagüzarlığını [sərəncamını] çar çeşmlə [dörd gözlə] gözləməkdədir!

İstədikləri nədir?

Ərzaq müşkülatının həlli, müalicə, yol, neft, geyməyə paltar və qəbirdə yatmağa kəfən!

Keçən sənələrdə Nuxa və qəzasında taxıl məhsulatı olmadığından, təbii bir aclıq hökmfərma idi [hökm sürürdü]. Bunun qarşısında bütün şəhər otuz rayona bölünüb icraiyyə komitəsinin binagüzarlığı ilə otuz ərzaq komitəsi əmələ gətirmişdi. Bu komitələr aşkar, gizlin, o yandan, bu yandan dartıb arpa, darı və buğda toplamaqla ümumi aclığın qabağını saxlamağa bir növ müvəffəq olmuşdular. Kəndlərdə də həman tədbirlər sayəsində aclıq fəlakətinin önü alınmışdı. Bu keçən 1918-ci sənə baharının ibtidasında [əvvəlində] iş, surətini dəyişib başqa bir hala düşdü. Komitələr pozuldu, Nuxa qəzası ömrü uzunu görmədiyi məhsulatı yerdən götürdü. Fəqət məhsulat həddən ziyadə olduğu bir halda, əhali acından qırılmağa başladı. Yoxsulluğun ən şiddətli günlərini yıxıla-dura keçirən Şəki əcəba nəyin səbəbinə bolluqda acından ölür? Nə üçün komitələr yenidən işə düşmədilər? Aşkar bir şeydir ki, qəyyumsuz Şəkidə komitələr məcburiyyət təhtində [altında] təşəkkül etmişdilər. İndiki Şəkidə bu məcburiyyət yoxdur. O zaman 13 min fəhlə sinfinin yaxşı-yaman təşkilatı var idi. Şimdi o təşkilat yoxdur. O zaman möhtəkirlər nəfəslərini belə çəkəmməyirdilər. Şimdi isə qılınclarının dalları da kəsir, qabaqları da. Müsri [yoluxucu] xəstəliklər dəhşətəngiz bir surətdə ac və çılpaq əhalini qırıb tökür. Füqərayi-kasibə sinfinin yeməkdə payı olmadığı kimi həkimə, dərmana da əli yetişməyir.

Nuxa böyük bir fabrik şəhəridir. Ona görə həyat və məkanca ayrıca xüsusiyyətlərə malik olduğundan, heç bir yerə bənzəməz. Bazarlarında böyük sərgilər açılıb, tam il yarımdan bəri ev əşyası, ev müxəlləfatı [ev avadanlıqları] satılmaqdadır. Küçələrdə və evlərdə satışa çıxarılmış zənanə əlbisələr [qadın paltarları] əldənələ keçir. Bir çox evlər, bağ-bağçalar və başqa cürə mülklər bir sənə bundan əqdəm [qabaq] füqəra əlindən çıxıbdır. Qalanları da hissə-hissə satılmaqdadır. Əvvəl görürsən pəncərə şüşələri, sonra çərçivələr, daldan qapılar, tirlər, döşəmələr çıxarılıb bazarlarda hərrac olunur. Gecənin yarısı görürsən qapını döyüb 7-8 baş ailənin yeganə hamisi Allah yoluna səndən imdad diləyir. Bu həman adamdır ki, keçmişdə əhvallı sayılırdı deyə bu gün açıqdan-açığa dilənməyi namusuna yerləşdirəmməyir. Gündüzlər diləncı, yolçu əlindən küçələrdən keçib getmək imkanı yoxdur. Hətta evinin içərisində rahat yaşamazsan.

Bir müdhiş mənzərə daha: Görürsən üzünün dərisi sümüklərinə yapışmış, gözləri çuxura düşmüş, lüt-üryan bir insan “iskeleti” küçə divarına söykənib öskürəklə mübarizə edir. Duyursan ki, bu binəva sill [vərəm] xəstəliyinin axırıncı dəqiqələrini keçirməkdədir. Sual-cavabdan anlaşılır ki, zavallı tamam 6 aydan bəri işsiz qalan 10-12 min şəhər fəhləsi güruhundan biridir. İpək satılmadığından bütün fabrikalar yatmış, iş yoxdur. Bu

adam namuslu bir zəhmətkeş olduğundan, yay fəsli biçinə gedib ki, bəlkə ailəsi üçün çörək tədarükü edə bilsin. Fəqət taxıl əvəzində "qaraso"dan qara qızdırma gətiribdir. Fabrikin rütubətli havası və 35-40 dərəcə istiliklə zəhərlənib bişmiş bədən, söz yoxdur ki, ömründə görmədiyi biçin həyatından bundan artıq qazanc gətirəmməzdi.

Vəlhasil, bu müsibətin bu fəlakətin qabağı bir an əvvəl alınmalıdır. Əski rayon komitələri hökumət zoru ilə yenidən təşkil edilməlidir. Bu komitələrə hökumət sandığından böyük bir məbləğ müavinət təriqi ilə [yoluyla] təcili olaraq buraxılmalıdır. Şəhərin bir çox yerlərində işsizlər, əlsiz-ayaqsızlar üçün məccani [pulsuz] aşxanalar açdırmalıdır. Müalicə üçün lazım olan tədbirləri bir an əvvəl etməlidir. İki-üç ay bundan əqdəm Şəkiyə bez, ağ vədi verib də, ta indiyə kimi vədinə əməl etməyən idarə təcili surətdə borcunu əda etməlidir [qaytarmalıdır]. Cavan Parlamanımız və hökumətimiz fürsəti fövtə verməyib, milli borclarını tez bir zaman içərisində əda edəcəklərinə əminiz.

Parlaman üzvlərindən
Abdulla Əfəndizadə

QAFQAZ FİTNƏÇİLƏRİ

Günü-gündən, peydərpey [bir-birinin ardınca], bica yerə tökülüb Qafqazın bərbad edilmiş köylərini, ucsuz-bucaqsız düzlərini, yüksək dağ və təpələrini, enilməz dərələrini əlvan edən islam qanları və kənd məskənlərində sükunətə imkan bula bilməyib vəhşi surətdə biyabanlarda yaşamağa məcbur olan islam balaları haqqında vürud edən [gəlib çatan] xəbərlərin biri o birisindən əsəfanə [kədərli] olduğunu görürüz. Bunu gördükdə, buna əlac nə ola biləcəyini düşünməyən içimizdə bir fərd bulunammaz. Fəqət hər kəs kəndi düşüncəsini kəndi məlumat və əqidəsinə müvafiq etdiyindən, bizim tədbirimiz haqqında biri o birinə müvafiq olmayır. Hətta ki, hər bir əllərindən gələni rəva görən qonşularımız öz işlərinin rəvacı xatirinə bizi işdən qafil buraxmaq yolunda heç bir hiləbazlıq və yalandan belə çəkinməyirlər.

Ermənilərin kəndilərinə bir padişahlıq təşkili üçün müəyyən bir planları olub, hər hərəkətləri işbu planı başa gətirmək üçün yapıldığı cümləmizə aşkar olsa gərək. 35 sənə bundan müqəddəm [əvvəl] məzkur [deyilən] məram üzrə Türkiyə iğtişaşına şüru edib [başlayıb] "türklər erməni millətinə olmazın əziyyətlər yapır və bu əziyyətlərə artıq davam gətirə bilmədiklərindən iğtişaş zühur edir" deyə Avropa millət və dövlətlərinin hüsn-təvəccöhlərinə nail olmaq arzusu ilə yapdıkları iğtişaşa davam etdilər. Həqiqətihal isə ermənilər Türkiyədə sahib olduqları ixtiyaratı Avropanın ən mədəni məmləkətlərində görməmişlərdir. Rusiya dövlətinin Balkan-slavyan millətləri təvəssütü [vasitəçiliyi] ilə İstanbulu qazanmaq ümidindən məyus qaldıqları halda erməni məsələsinə rücu etməsindən [üz tutmasından] istifadə etmək üzrə ermənilər Türkiyə hüdudunda bacardıqları hərəkətdən bir gün belə fariğ olmadılar [əl çəkmədilər]. Bu arzu sayəsində "Daşnaksutyun" firqəsi meydana çıxdı. İşbu firqənin ə'malı [fəaliyyəti] vəsilənin iyi-kötü-

lüyünü nəzərə almayaraq, erməni qayəsinə xidmətdə bulunub erməni sultası təşkili üçündür.

Son aləmşümul [bütün dünyanı əhatə edən] Avropa müharibəsi bidayətində [başlanğıcında] Rusiya dövlətinə yardım vəd edib müharibə bitdikdə Türkiyə Ermənistanında erməni dövləti təşkil ediləcəyinə dair Vorontsov vasitəsilə Rusiya dövləti nümayəndələrinin vədələrini dərdəst [əldə] etdilər. Vədələr verildi, fəqət Türkiyə Ermənistanında əksər əhali türk və islam olduğu halda, iki cift bir tək ermənіyə padişahlıq verilə bilməz deyəcəklərini mülahizə ilə islam əhalisinə nələr yapıldısa, bunların cümləsinə səbəb ermənilər oldular. Qars, Ərdahandan başlayaraq Həsənqala, Ərzurum, Məməxatun, daha o yanına varınca olmazın iftiraları islam əhali əleyhinə yapıb, rus əsgəri türkləri tələf etmələrinə səbəb olmaqla iktifa [kifayət] etməyib, rus əsgərləri ricəti [geri qayıtması] əsnasında qırğından dala qalan türkləri, kəndiləri zalimanə, vəhşiyanə bir surətdə tələf etdikləri də məlum. Bundan başqa, Batum və Trabzon vilayətlərində islama etdikləri zülümlər də aşkardır.

Avropa məmləkətlərində məxsus[i] şəxslərdən heyət təşkil olunub, bunların hüququ müdafiə edilməyinə bir deyəcəyimiz yox. Yaşamaq və istiqlaliyyət qazanmaq amalında bulunan bir millət üçün burası ən vacib bir əməldir. Fəqət burasında da yapdıqları iftiralar, rəzil hərəkətlərin cümləsi qəbih [nalayiq] bir üsulda yürüdülməsini yalnız bir Daşnak partiyası kəndinə rəva görə bilər. Bu anadək gözümüzün önündə ermənilərdən gördüyümüz rəzalətlər sonunda heç bir şeyə təəccüb edəmməz isək, bunların yapdıqlarına aldanmağımız eyi bir nəticə hasil edə bilməz. Qafqazda iğtişaş salmaq arzularına qarşı durmaz isək, sonunda peşman oluruz. Şu yolda var qüvvəmizlə cidd-cəhd etməliyiz və gözü açıq bulunmaq bizlərə ən vacib bir işdir.

Erməni-gürcü müharibəsinin səbəbi Qafqaz məmləkətinə bir qarışıqlıq salıb rusların Qafqazı yenidən istilasına bais olmaq məramıdır. Ermənilərin böylə bir xahişlərindən məram ruslar üçün eyilik deyil, kəndi işləri rəvacına yardım etməkdir. Onlar ruslara eyilik istəsələrdi, Qars, Ərdahan və Novo-Bayəzid nahiyələrində tamam rus köylərini pamal edib [tapdalayıb] məzlum əhalini sərgərdan buraxmazdılar. Ruslar təkrar Qafqazı zəbt edərlərsə, bütün məmləkəti hərc-mərclik tutar və erməni işləri kəndilərinin istədikləri kimi yürür. Azca da olsa diqqət edər və ətrafımızda icra edilən hərəkətləri cümləsinə eyicə nəzər eylərsək, görəriz ki, məmləkətimiz dərununda [içində] yapılan iğtişaşın cümləsinə bais ermənilərdir. Şaumyanlar, Andraniklər və Saakyanların islam məmləkətində yapdıkları iğtişaş islam əhalini tələf etmək məqsədilə yapılır. Yoxsa bolşevizim və ya sosializm nə üçün erməni burjuylarını da başqaları kimi nə öldürür və nə də onlara toxunur?

Məhəmməd

BATUM OBLASTI VƏ GÜRCÜLƏR HAQQINDA

Son zamanlarda makina kimi işləyən gürcü propaqandası nəhayət Batum ob-

lastında tərəfdarlar buldu. Başda məlum Sancaqbəyzadə Abaşidze hafiz Məhəmmədtağı bəy olduğu halda, bu propaqanda makinası Acar sularının qüvveyitəzyiqiyyə və təcyiriyyəsi [təzyiq və axışının gücü] ilə gözəl dönməkdə, gurultusu və patırtısı ilə Tiflisdəki sosialist emalatxana və fabrikalarının hirsi və rəqabətlərini artdırıb iqaz [xəbərdarlıq] etməkdədir.

"Qurani-Kərim"i su kimi əzbər bilən hafiz Məhəmmədtağı bəyin keçənlərdə qan qardaşı Noy Jordanyaya mütəvəccihən [üz tutaraq] sol gözünü yalnız bir qıpırdatmaqla bir şeyə daha müvəffəq oldu. Noy Jordanya imzası ilə bütün Acara və gürcü islamlarına bir "dekret" yazıb uzatdı. Gürcüstandan axın-axın gələn paralar alış-verişi qızdırmaqda, bu təzə cümhuriyyətin Batumdakı müştəriləri çoxalmaqdadır. Biz bu qeyrətli mücahidlər arasında bir də kəndisinə Xəmşizadə Həsən Təhsin deyə adlandıran bir qəzetəçini də gördük. Bu qəzetəçinin bir tərəfi türkcə, digər tərəfi gürcücə "İslam Gürcüstanı" ünvanı ilə bir qəzetəsi vardır. Qəzetənin məsləki əsasını Məhəmməd bəy birinci nömrəsində göstərdikdən sonra, Həsən Təhsin əfəndi digər nömrələrdə Məhəmməd bəy ahəngini nəğmələri ilə çalır. Cənabi-haqq qeyrət və fəaliyyətlərini artırsın.

Tühaf [qəribə] və həqiqətən pək qərib bir keyfiyyətdir ki, bu Məhəmməd bəy deyə, gərək gürcülər və gərəksə islamlar arasında bəllənmiş olan zat bizzat kəndi milləti arasında kəndi nüfuz və səlahiyyətini ölçə bilmişmidir? Əgər bunu ölçmüş və bilmişsə, bu qədər macəraculuq [macərapərəstlik] etməsi və şəxsiyyətini göstərmək üçün bu dərəcə xülyapərvər olmasını nə ilə təfsir və ya təvil etməli [izah etməli]? Məhəmməd bəy kimlərə istinad edir və ya kimlər onun tərəfdarlığını mühafizə edir? İştə, anlayammadığım cəhət budur. Bu adam bütün əməl və fikirləri ilə kəndi mənsub olduğu milləti arasında rəğbət bulmadı. O, xəyalatı ilə uçarkən məslək və fikri ilə keçən illərdə məğlub oldu. Məhəmməd bəy üçün firqəçi olaraq məhdud bir dairədə çalışmaqdan başqa bir şey qalmamışdır. Heç olmazsa bunu bilməlidir. Fəqət nə edərsən ki, cahilliyi bunu anlamağa müsaidə etməyir və qardaşı Arslan bəyi Gürcüstanın müxəyyəl [xəyali] bir miralaylığına təfvizi [təyin etməsi] və əmisinin oğlunu da islam Gürcüstanının xəfiyyə məmurluğuna təyin edərək gurultusu ilə hər kəsi təciz edir [rahatsız edir, qıcıqlandırır]. Məsələn Arslan bəy Azərbaycan Hökumətinin Batum konsulu və çox illərdən bəri Batumda camaat xadimliyi ilə tanılmış və həlim bir zat olan doktor Mahmud bəy Əfəndiyevə gürcü qəzetəsi ilə o qədər adi təhdidnamələr yazır ki, bir adamın qələmindən nasıl çıxdığına heyrət edərsiniz.

Sonra bizzat məni Məhəmməd bəyin əmisinin oğlu olan Süleyman bəy Rioni ilə Tiflis arasında vaqonda tövqif [həbs] etdirir. Səbəbi-tövqif isə Gürcüstan üçün guya müzirr [zərərli] bir adam olmaqlığım imiş.

Bütün bu əhval, şübhə yox ki, gürcülərin təhrikat və təşviqatı ilə olur. Batum oblastına gürcülər sahib olmaq üçün naməşru vəsaitə [qeyri-qanuni vasitələrə] dəxi müraciət etdilər və edirlər. Fəqət təəssüflər olsun ki, Məhəmməd bəy və Aba-

şidzelərin yayqara və təsirat[ıy]la olan bu əhvala qarşı acaralılar kamilən kar və kordurlar. Bir az şəxsi olmaqla bərabər şunu da zikr edəyim ki, son zamanlarda xalq Batum oblastı naminə Sülhi-Ümumi Konfransına məni intixab etmək [seçmək] istəyərək Məhəmməd bəyə bir rəy [səs] belə verməmişlərdi. Bütün intixabatla bərabər, hər günkü əhval da böylədir. Amma gürcülər macəracu [macrəpərəst] bir adam vasitəsilə girişdikləri işlərdən bizzat acarlıların qonşuluq hörmət və məhəbbəti[ni] də itirəcəklərini mən düşündükcə, mütəfəkkir və şayani-hörmət gürcülərə qarşı qorxmaqda və sonraki sərzənişləri boş bir mahiyyətdə qalacağını şimdidən təyəqqün etməkdəyəm [şübhəsiz bilməkdəyəm].

Əhməd Həmdi Qaraağazadə

BAKI XƏBƏRLƏRİ

Şimali Qafqazya Hökuməti üzvlərindən Pşemaxo Kotsev, Hərbiyyə naziri Nuhbəy Tarkovski, Ticarət və Sənaye vəziri Bahadır Mallaçıxan təcili qatarla Teymurxanşuradan Bakıya varid olmuşlardır [gəlmişlər].

Əhalinin nəzəri-diqqətinə

Üçüncü uçastok komitəsi, Səhiyyə şöbəsi naziri [müfəttişi] üçüncü uçastok əhalisinə elan edir ki, uçastokun füqəra ünsürünə məccani [pulsuz] surətdə tibbi müavinətdə [yardımda] bulunmaq üçün arvad həkimi Ter-Qriqoryan təyin edilmişdir. Məzkurə [adı çəkilən qadın] Kolyubakinski küçədə, 39 nömrəli evdə yaşayır. Telefon nömrəsi 5-80-dir. Bu həkimdən istifadə etmək istəyənlər Suraxanı küçəsində vaqe 78 nömrəli evdə komitəyə müraciət etməlidirlər.

* Bu gün saat birdə, Azərbaycan Məclisi-Məbusanı imarətində “Müsavat”ın Məclisi-Məbusan fraksiyasının iclası olacaqdır. Bütün üzvlərin gəlmələri rica olunur.

Binəqədidə leksiya

Şənbə günü fevral ayının birində Binəqədidə, “Narodnı dom”da [Xalq evində] axşam saat üçdə Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat” tərəfindən əhvali-hazirəyə [mövcud vəziyyət] dair leksiya (mühazirə) oxunacaqdır. Ümum fəhlə və kəndli yoldaşların mühazirədə hazır olmaları rica və arzu olunur.

Tağıyev fabrikasında

Pəncşənbə [cümə axşamı] günü yanvar ayının 30-unda Tağıyev fabrikasında, məktəb binasında axşam saat üçdə Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat” tərəfindən əhvali-hazirəyə dair leksiya (mühazirə) oxunacaqdır. Ümum fəhlə və kəndli yoldaşların mühazirədə hazır olmaları rica və arzu olunur.

* Cümə günü, kanuni-saninin [yanvarın] 31-ində saat 4 radələrində Birinci Realnı məktəbində İttifaqi-mütəəllimi-nin [Tələbələr İttifaqının] təftiş heyəti tərəfindən təcili ümumi iclası təyin olunur. Baxılacaq məsələlər:

1) Təftiş heyətinin izahatı;
2) İcraiyyə komitəsinə intixab [seçki];
3) və qeyri cari məsələlər.

* Cümə günü saat 11 radələrində, "Səadət" mədrəsəsində Qafqaziya müsəlman mütəəllimlərinin mərkəzi komitə və fondunun iclası vüqu bulacağından, arxadaşlardan rica olunur vəqti-məzkurədə [deyilən vaxtda] fövqəlzikr [yuxarıda adı çəkilən] məktəbə təşrif gətirsinlər.

Bələdiyyə İdarəsində

Bələdiyyə İdarəsi Bakı quberniyası qubernatorunun müraciətinə cavab olaraq bir kağız göndərib məlum etmişdir ki, şəhər və qəza əxzi-əsgər [hərbi çağırış] şöbələri güşad etmək [açmaq] sabit qanun maddələri mövcibincə [əsasında] məhəlli [yerli] qəza qaimməqamı və bəylər idarələri rəisi sədarəti ilə fəaliyyətdə bulunur. Yeni qanun layihəsi sadir olmayınca [çıxmamış] əxzi-əsgər şöbəsi güşad etmək vəzifəsini üzərimizə götürə bilməriz. Əlavə şöbə dəftərxanası və xidmətçiləri barəsində də heç bir şey məlum deyildir.

Dərmanxana xidmətçiləri tətilinə dair

Kəsbkarlar İttifaqı, Bələdiyyə İdarəsinin müsri [yoluxucu] xəstəliklərlə mübarizə edən komisyonuna bir kağız göndərib məlum etmişdir ki, şəhərdə müsri xəstəliklər gündən-günə kəsbi-şiddət etməkdədir [artmaqdadır]. Dərmanxana xidmətçilərinin tətili isə əhalidən ötrü ziyadəsinə fəna təsirlər bəxş edir. Binaənileyh [ona görə], hökumətə müraciətən təklif ediriz ki, üç günədək xüsusi dərmanxanalar həcz [müsadirə] edilərək fəaliyyətə başlasınlar və bütün fəhlələrin təkliflərinə əməl edilməlidir. Əks surətdə ümumi və yaxud xüsusi tətil elan ediləcəkdir. Bunu da əlavə ediriz ki, "Ermans" dərmanxanası müdiriyyəti bütün təklifləri qəbul etdiyindən, ora xidmətçiləri işə başlamışlardır.

"Nasosnı" mövqifi ilə telefon müxabiratı

Daxiliyyə Nəzarəti Bakı Telefon Cəmiyyəti "Bierinq"ə müraciətən "Nasosnı" mövqifi [stansiyası] ilə telefon müxabiratı [əlaqəsi] kəsilməsinə dair məlumat istəmişdi. Telefon cəmiyyəti xəbər veribdir ki, telefon xətti sentyabr hadisatında qət edilmişdi [kəsilmişdi]. Hal-hazırda isə müxabirat təcdid [bərpa] edilmişdir.

Hökumətin bəyannaməsi

Fəhlə Konfransının son iclasında mədənçilərlə fəhlələr arasında saziş əmələ gətirmək üçün Azərbaycan Hökuməti Məsai Nəzarəti [Əmək Nazirliyi] nümayəndəsi hökumət namından [adından] böylə bir dekret oxumuşdur:

1) 1917 sənəsi oktyabrın ikisində Əmələ, saldat və matros şurasının icraiyyə komitəsi tərəfindən verilən müştərək müqavilənin (Kollektivni doqovor) fəhlələrin və xidmətçilərin iqtisadi əhvalına dəxli olan hissəsi bir ay müddətinə bütün-bütünə qəbul olunur.

2) Müştərək müqavilənamənin hüquqi qismi işə qəbul edilmək və kənar olunmaq maddəsindən başqa böyləcə qalır. Zaqafqaziya oblast komitəsinin 1917 sənəsi oktyabrın 13-ündə verdiyi qətnamə ləğv edilir. Fəhlələrin və qulluqçuların işə qəbul edilib kənar olunmaları ancaq iş sahibinin ixtiyarında qalır. Hökumət iş sahibinin bu ixtiyara malik olmasını aşağıdakı maddələri təmin etməyi la-

zım gördüyündən etiraf edir:

a) İşə qəbul edilən zaman müsavi şərait [bərabər şərtlər] üzrə Professionalnı (Həmkarlar) İttifaqı üzvünə tərcih verilir.

b) Fabrika-zavod üzvlərinin ələlümum fəhlə müəssisələri nümayəndələri tərəfindən konfransa intixab olunanların [seçilənlərin] qeyri ittifaqlarda kənar edilmələri hər iki tərəfin bərabər nümayəndəsi əsası ilə ancaq Məsai Nəzarəti nəzdində olan xüsusi müşavirə məclisi ilə olmalıdır.

c) Bir çox adamların işdən kənar edilmələri və ştatın azalması (eyni zamanda 10 nəfərdən yuxarı) yenə də ancaq Məsai Nəzarətinin nəzdində olan xüsusi müşavirə qərarı ilə olmalıdır.

d) Hökumət tərəfindən təsvib [təsdiq] edilmiş siyasi bir firqəyə və ya bir təşkilata mənsub olan şəxsi işdən kənar etmək olmaz.

3) Fəhlə müəssisələrinin komitələri fəhlələrin hüququnu mühafizə etmək ixtiyarına malik, qanuni təşkilat hesab olunurlar. Lakin bu komitələr müəssisələrin xozyastvenni və administrasiya [təsərrüfat və inzibati] işlərinə qarışmamalıdır.

4) 1917 sənəsi oktyabrın 20-sində baxılan təzə müştərək müqavilənamə bir ayın müddətinə icraya qoyulmalıdır. Hərgah bu müddət ərzində tərəfeyn [hər iki tərəf] arasında saziş hüsula gəlməsə, ixtilaflı maddələr qəti surətdə baxılmaq üçün həkəm [arbitr] orqanına veriləcəkdir. Bu orqan da Məsai Nəzarətinin binagüzarlığı [sərəncamı] ilə təşkil edilib və bunun qərarı hər iki tərəf üçün məcburi olacaqdır.

5) Mart və sentyabr hadisələri hesabları məsələsinə gəldikdə, hökumət lazım bilir göstərsin ki, bu hadisələr bilaşübhə [şübhəsiz] təbii bir sifəti haiz idi [təbii hadisə xüsusiyyəti daşıyırdı]. Buna görə heç bir kəs bu hadisələrdən ötrü məsuliyyətli hesab olunmaz. Bununla bərabər, neft mədənçilərinin ümumi şurası tərəfindən mart və sentyabr ayındakı qaçqınlara məvacib vermək şəraitinin [şərtlərinin] qəbul olunması müəssisə sahiblərinin öz xahişləri ilə olduğundan, müəssisə sahibləri üçün məcburidir.

6) Avqust ayı ibtidasında [əvvəlində] verilən avans, məvacibdən çıxılmamalıdır. Bu avans[ı] çıxan hər bir müəssisə, həman müəssisədə işləyən əmələ və xidmətçilərə həman avansı qaytarmağa və vaxtlı-vaxtında avans almayanlara da həman avansı verməyə məcburdur. Qəti surətdə hesab alıb müəssisələrdən çıxan əmələ və xidmətçilər bu avansı 1919 sənəsi martın 1-inə qədər iddia etsələr ala biləcəklərdir.

7) Sentrokaspi və icraiyyə komitəsinin müvəqqət diktatoriyasının qətnaməsinə müvafiq məvacib tərifəsi hesabına verilən avans 1918 sənəsi sentyabrın 15-inə qədər diktatura tərifələrinə görə verilməlidir.

8) 6-cı və 7-ci maddələr üzrə avansların və müvəqqət diktatura tərifələrinin verilməsi maliyyə əhvalı yaxşı olmadığına görə, bu il fevralın 15-indən başlamış, üç ayın müddətinə müsavi [bərabər] hissələr[lə] verilməlidir.

9) Bakıda olan hökumətlər binagüzarlığı ilə yerlərini tərk etmiş əmələ və xidmətçilərlə, müəssisə idarəsi tərəfindən kənar edilən əmələ və xidmətçilər

misalı qəti hesab görülməlidir. Bu adamlar öz yerlərinə dübarə qəbul olmağı tələb edə bilməzlər. Lakin müsavi şərait üzrə işə qəbul olan zaman bunlara tərcih verməlidir.

10) Məvaciblərin artması əsası ilə neft mədənçilərinin 1919 sənəsi yanvarın 24-də vaqe olan ümumi iclasının qərardadı qəbul olunub, bu il yanvarın 1-ində evli-subay təfavütü olmayaraq əmələ və xidmətçilərə 360 manat verilir. Şagirdlər üçün və 17-sindən az olanlara ayda 180 manat verilir.

11) Müştərək müqavilənamənin baxılması və əqd olunması [imzalanması] müddətinə qədər hökumət burada göstərilən əsaslar üzərinə fəhlələrin hüququnu və mənafeyini möhkəm bir surətdə gözləyəcəkdir.

Hökumətin bu dekreti konfransın işinə hüsn-təsir etmişdir [müsbət təsir göstərmişdir].

TAĞIYEV FABRİKASINDA

Pəncşənbə [cümə axşamı] günü yanvarın 23-də Tağıyev fabrikasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən əhvali-hazirəyə dair və Azərbaycanın bugünkü vəziyyəti haqqında Piri Mürsəlzadə mühazirə (leksiya) oxudu. Mühaziräçi əvvəlcə axırkı bir sənə müddətində Qafqaziya müsəlmanlarının və ələlxüsus Azərbaycan türklərinin keçirtdikləri dəhşətli günləri və olduqca ağır və həyəcanlı siyasi vəziyyətindən məlumat verərək Azərbaycan istiqlaliyyətinin elan edilməsi və onun tarixindən bəhs etdi.

Bədəhu [sonra] Mürsəlzadə cənabları Avropa müharibəsi və onun nəticələri barəsində danışıb sülh məclisinin bu günlərdə açıldığını və Azərbaycan Cümhuriyyətinin dəxi oraya vəkillər göndərdiyini bəyan edib, ümum Azərbaycan türklərini sinif, silk və firqə ayırmadan, vahid bir qüvvə ilə onun müdafiə və mühafizəsinə dəvət etti. İslamiyyətin əsası ədalət və füqərayi-kasibə tərəfdarı olub, istibdadla daima çarpışmasını bir çox dəlillərlə isbat edərək mühaziräçi Azərbaycan Cümhuriyyətində bu əsasın paydar [olmasının] və möhkəmləşməsinin lüzumundan bəhslə, indiki Azərbaycan Hökumətini və əhalisini buna dəvət etdi və "Yaşasın haqq tərəfdarı və ədalət bayrağı qaldıran Azərbaycan!" dedi və böyük alqışlara nail oldu.

Mühazirəsinin axırında Piri əfəndi Azərbaycan-türk əmələləri ilə qeyri millət əmələləri münasibatı xüsusunda məlumat verib bu vaxtadək ümum müsəlman fəhlələri tərəfindən qeyri-müsəlman fəhlə yoldaşlara heç bir cəhətdən təcavüz və mümaniət [maneçilik] müşahidə edilmədiyini və biləks [əksinə] müsəlman fəhlələrinin nə qədər əziyyət və zəhmətlərə düçar olduqlarını dərmiyan etdi [meydana qoydu]. Hər millətin hüquq və ixtiyaratı təmin edildiyi və istiqlaliyyəti uğrunda səy olunduğu halda, müsəlmanların hüquqdan məhrum edilməsinə və onların istiqlaliyyətinə hər tərəfdən hücum və təcavüz edildiyi hərəkat və təşəbbüslərə öz təəccübünü izharla [bildirməklə], axırda mühaziräçi Azərbaycan istiqlalının bu son zamanlar böyük və olduqca haqsız təcavüzlərə hədəf olduğu-

nu məlum edərək, əmələləri böyük tələfat və qurbanlarla nail olduqları azadəlik töhfəsinin yenidən qaib olma[ma]sına və bununla bir taqım əxlaqsız ədnalara [alçaqlara] qul olmamağa dəvət etdi. Azərbaycan türklərinin heç kəsi özünə qul etməz və qeyriləri dəxi özünə qul etmək xəyalında olmadığını və fəqət azadə və müstəqil olaraq ancaq yaşamaq istədiklərini bəyanla “Var olsun azadəlik!” dedi.

Mühazirədən sonra əmələlərdən bir neçə natiqlər Azərbaycan istiqlaliyyəti haqqında söyləyib, onun müdafiəsi uğrunda hər bir fədakarlığa hazır olduqlarını bildirdilər və mühaziräçi əfəndiyə müraciətən, bundan sonra dəxi onları yada salıb mühazirə oxumasını rica etdilər.

Axırda Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın fabrikada qapanmış olduğu şöbəsinin yenidən açılması təklifi üzrə əksəriyyəti-ara [səs çoxluğu] ilə şöbə açılması qəbul və heyəti-rəyasətə [rəyasət heyətinə] zeyldəki [aşağıdakı] şəxslər intixab edildilər [seçildilər]: Səfər - sədr, Salman müavini-sədr, katib Mahmud Şövkət, üzvlər Əli Lənkəranlı, Hacıbaba, Sadiq Nəcəfov, Məhəmmədhüseyn Axundov, Abbasəli və Rüstəm Qalalı.

Məclisin axırında əmələlər tərəfindən Ümumi Sülh Konfransına və cahan demokratiyasına teleqraf çəkilməsi təklifini qəbul edib və bu yaxınlarda Bakı müsəlman fəhlələri konfransı dəvət edilməsini mərkəzi komitədən rica etdiklərini şöbə üzvlərinə bildirdilər və məclis xitam buldu.

P[iri] M[ürsəlzadə]

BEZ FƏQƏRƏSİ

Ərzaq naziri vəkili Yusifəli Əliyev cənabları tərəfindən bez fəqərəsi [məsələsi] barəsində ciddi surətdə təhqiqat yapılması haqqında o cənaba izhari-təşəkkür etməklə bərabər, ehtikarçı [möhtəkir] ilə ehtikarçılar şəriki olan rüşvətxorlara lənət oxuyuram. Çünki bu qədər bezlərin və başqa ərzağın əksəri ehtikarçılara rüşvətxorlar vasitəsilə buraxılır. Bu fəqərəni zənnimcə bir kimsə inkar edəmməz. Ən birinci əlac rüşvətxorları iş başından kənar etməli. Vəkil cənabları “Azərbaycan” qəzetəsinin 97-ci nömrəsində dərcən adlarına manufaktur alınan əşxasın [şəxslərin] sırasında bir də “Bakı qazısı üçün Ağaqədirova buraxılıb üç min arşın” cümləsini qeyd etmişdilər. Bu barədə istəyirəm vəkil cənablarına müxtəsər bir tövzihat [açıqlama] verim.

Məlumunuzdur ki, keçən aylarda istər şəhərdə, istər kəndlərdə naxoşluqdan vəfat edənlərin ədədi həddən ziyadə idi. Füqəranın əksəri kəfənsiz, bəziləri öz libasları ilə, bəziləri meşok və kisələr parçaları ilə təkfin edilirdi [kəfənlənirdi]. Böylə bir vaxtlarda kəndlərdən və ya şəhərdən müttəsil [davamlı] ah-nalə ilə gəlib qəzavətxanada [Qazilik idarəsində] əhvalatı zikr edirdilər. Bunun üçün bir əlac aramaqda qazıdan köməklik istəyirdilər. Bir neçə dəfə mən bunların halına diqqət edib, şəhadətnamələrini də bez almaq xüsusunda təsdiq etmişəm. O cümlədən birisi də Ağaqədirov gəlib deyib ki, Bakıda məşhur İran taciri Hacı Müseyib Həsənov cənabları füqəra əmvatına [ölülərinə] məccani [pulsız] paylamaq üçün mən Ağaqədirova filan qədər pul bura-

xıb ki, bez alsın, onun şəhadətnaməsini təsdiq edəsiniz. Mən dəxi füqəraya məccani paylamaq fəqərəsini eşitdikdə, kamali-məmnuniyyət ilə Ağaqədirov gətirdiyi şəhadətnaməni təsdiq edib, fabrika vəkilindən təvəqqe etmişəm ki, bu işə əncam versin. Sonra ancaq bunu eşitmişəm ki, Hacı Müseyib və Ağaqədirov füqəra meyitləri üçün bez verirlər vəssalam. Amma Bakı qazısının nə ölüsünə və nə dirisinə belə bir arşın da olsa bez verilməyibdir. Ərzaq naziri vəkili cənablarından təvəqqe edirəm ki, ciddi təhqiqat yapdıqdan sonra "Bakı qazısı üçün Ağaqədirova buraxılıb üç min arşın" cümləsini təshih etdirsin.

Bakı qazısı
Axund Əbdürrəhim Hadizadə

AZƏRBAYCANDA

Üçdaş dəyirmanı

Qarabucaq kəndinin əhli, Əziz Lətif oğlu, dəyirmanda dən çəkərkən dekabrın 22-də gecə saat 11-də xaxollar gəlib onu öldürürlər.

Lənkəran

Kanuni-saninin [yanvarın] 22-də Hüseynəli Rzaəli oğlu bazara gəlib Şahab Molla İsgəndər oğlunun dükanında əyləşərkən, erməni saldatları bunu əhatə edib güllə atmağa başlamışlar. Bazarda olan güllə səsini eşidən ürəyi vahiməli müsəlman camaatı dükanlarını açıq qoyub qaçmağa üz qoyurlar. Hüseynəli bir tövr ilə bunlardan xilas olub qaçmışdır. Erməni saldatlarının bu tövr fəcianə [faciəli] işləri və gecələr müsəlman məhəlləsində oğurluq etmələri hələ davam etməkdədir.

Teymur bəy Bayraməlibəyli

Zaqataladan

Xüsusi müxbirimizdən:

Ta avqust ayının ibtidalarında [əvvəllərində] zühur edib də hələ bütün mənası ilə hökmfərma olan [hökm sürən] əmrazi-sariyyənin [yoluxucu xəstəliklərin] ən dəhşətlilərindən ədd [hesab] olunan tif və ispanka xəstəlikləri Zaqatala kəndlilərinə böyük ziyanlar vurmaqdadır.

İndiyə qədər Zaqatala əhalisinə bir arşın da olsun manufaktura malı verilməmişdir. Doğrudur, Ticarət və Sənaye Nəzarətindən 50 min arşın bez verilmişsə də, bundan ancaq 23 mini kooperativ dükanlarına çatıb, mütəbaqisi [qalanı] isə vəkillər tərəfindən satılmışdır. Kooperativ dükanlarına verilən manufaktura isə yazıq kəndlilərə deyil, cibində pulu, ağzında sözü olanlara veriləcəkdir. Çünki bu cür dükanlara yazılanlar əksəriyyətlə böylələridir.

* Yolsuzluq üzündən milyonlara baliğ [çatan] yay meyvələri çürüdü batdı. Yazlıq meyvələri və satacaq məhsulatlarını heç bir yerə apara bilməyirlər. Çünki Zaqataladan Bakıya gətiriləcək əmtəənin putuna 40-50 manat yol kirayəsindən başqa, bir də yolsuzluqdan gətirmək belə imkan xaricindədir.

* Doktorsuz, dərmansız, kəndi-kəndilərinə xəstəlikdən bir növ şəfayab olmaqda olan və manufaktura əvəzinə heyvan dəriləri geyib özlərini bir tövr idarə etmək məcburiyyətində qalan yazıq və binəva kəndlilər böylə ağır və mə-

şəqqətli illərə qarşı bilməyirlər canlarınımı mühafizə etsinlər, yaxud mallarını? Ümumiyyətlə maldarlıq, bağçaçılıq və əkinçiliklə təəyyüş etməkdə [həyat sürməkdə] olan Zaqatala vilayəti əhalisi oğurluq, soyğunçuluq bəlalarına məruz qalmışlardır. Hətta ailəsinin səadəti, varyoxu bir cift öküzünə bağlı olan yazıq kəndlilərin bu gün arabasının boyunduruğu yerdə qalmışdır.

Əlhasil oğurluq, soyğun, cana suiqəsd, cinayətlər adət sırasına keçməkdədir. Əgər bunların önü təcili surətdə alınmazsa, məqsudumuza xilaf hadisatın baş vermək ehtimalı vardır. Gənc Azərbaycan Cümhuriyyətimizin təşəkküründən bu ana qədər və bundan sonra da din və millət yolunda malları, canları ilə fədakarlıqda bulunan və bulunacaq zaqatalalılara beqədrül-imkan [imkan olduğu qədər] etina edilməsi siyasət müqtəzəyatındandır [ehtiyacındandır] zənn ediriz.

Həqşünas

GÜRCÜSTANDA

Gürcüstan Dəmiryol naziri müavini ilə Xariciyyə naziri naminə və Allahverdidə olan İngiltərə kapitanı Duqlas [Vitseyn] ilə İngiltərə heyəti nəzdində olan Gürcüstan siyasi nümayəndəsi [Mixail Georgiyeviç] Sereteli və General Karalov adına Sanaindən böylə bir teleqraf gəlmişdir:

"Erməni nümayəndələri erməni hökuməti naziri mühəndis Qolibev başda olmaq üzrə bitərəf məntəqədə olan əmvalın [malların] Gürcüstan Hökumətinin dəmiryollar nümayəndələrinə verilməsinə yenə də mümaniət [maneçilik] göstərirlər. Bu gün Sanain mövqeyini təhvil aldıqda, 9 vaqonun dəmiryol mövqif [stansiya] əmvalı [malları] ilə yüklü olduğunu gördüm. Ermənilər vaqonlara yığılmış əmvalı verirlərsə də, lakin boş vaqonları aparmaq istəyirlər. Bu barədə protesto etmişəm. Çünki gürcü-erməni konfransının qərarına görə, əvvəlcədən Gürcüstan Hökumətinə mütəəlliq [aid] və hal-hazırda bitərəf məntəqədə olan vaqonlar Gürcüstan dəmiryollarının malı hesab olunur. Dəmiryol mövqiflərində Gürcüstan dəmiryol acentələri xidmət edirlər. Mövqif əmvalı təhvil alınmışdır."

Bu teleqraf Gürcüstan dəmiryolları vəkili Qvamiçava tərəfindən imza edilmişdir.

* Gürcüstan Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Türkiyə əsgərləri tərəfindən Azərbaycandan çıxarılan vaqonların hal-hazırda harada olduklarını və neft, cövhər və benzinlə dolu olan vaqonların kimə mütəəlliq [aid] olduğunu aşkar etməkdən ötrü bir komissiya təşəkkül etmişdir.

Suxum Rus Milli Şurası sədrinin həbsi

Suxumda olan Gürcüstan Hökumətinin xüsusi vəkili Çxikvişvilinin binagüzarlığına [sərəncamına] görə Suxum Rus Milli Şurası sədri Lukyanov həbs edilib, iki saatdan sonra Novorossiysk şəhərinə göndərilmişdir. Məlum olduğu üzrə əvvəlcə Lukyanov Tiflis Əmələ və saldat vəkilləri şurasının üzvi idi. Sonradan sosial-demokrat menşevik məsləyi ilə fövqəladə istintaq komissiyasının katibi olmuşdu. İkinci

dəfədir ki, Lukyanov cümhuriyyət məmurları tərəfindən həbsə alınır. Birinci dəfə Lukyanov bir neçə həftə bundan əvvəl Suxumdan Tiflisə gətirilib, üç həftəyə qədər Tiflis həbsxanasında saxlanmışdı. Lukyanov azad edildikdən sonra yenə də Suxuma getmişdi. Bu dəfə Lukyanovun Suxumdan Novorossiyskə nəfy [sürgün] edilməsi səbəbi məlum deyildir.

Professor Qolovinin həbsi

Tiflisdə nəşr olunan "Naşe znamya" qəzetəsi xəbər verir ki, Batumdakı İngiltərə məmurlarının əmrinə görə professor Qolovin həbs edilmişdir. Məlum olduğu üzrə Qolovin Ufadan Bakıya gəlib, oradan da Tiflis təriqi [yolu] ilə Batuma getmişdi. Müşarileyh [adı çəkilən şəxs] her yerdə özünü Ufa Hökumətinin nümayəndəsi elan edirdi. Professorun həbs olunması səbəbi heç kəsə məlum deyildir.

* Müttəfiq qoşunların Qafqaz komandanı general Miln Gürcüstan Hökumətinə təklif eyləmişdir ki, gürcülərdən bir qolordusu [korpus] qoşun verib general Denikinin təhti-komandasında bolşeviklərlə müharibə etsinlər. Libas və ləvazimi-hərbiyyə [hərbi sursat] isə Müttəfiqlər tərəfindən veriləcəkdir. Gürcüstan Hökuməti sədri Noy Jordaniya bu təklifə əsasən razı olduğunu bildirmiş, bu şərtlə ki, gürcü qoşunları general Denikinə deyil, İngiltərə komandanlığına tabe olsunlar. Rəisi-vükəla [Baş nazir] buna general Denikinin monarxist olduğunu səbəb göstərmişdir. Gürcüstan demokratik bir cümhuriyyət olduğundan, qoşunlarını monarxist bir generalın ixtiyarına verə bilməz. Bu barədə Gürcüstan Hökuməti ilə Müttəfiqlər komandanlığı arasında danışıq davam edir.

İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir! Xahiş olunur ki, xəstə əsgərlərə müavinət və mərhəmət göstərən doktor Kazımov, Baş həkim Xlif, Okinşeviç, B. K. Finkelşteyn, Ter-Ovanesov, Akopyan, Kuşke, Nepurent, Delyanov, Perfilov, V. K. Finkelşteyn-Varşavski, Ledenberq və Xetax Zinovyev cənablarına bizim təşəkküratımızı yetirəsiniz.

Mülazimi-sani [leytenant]
Məhəmməd Rüfət
Ağaməhəmməd İbrahimov

Doktor
Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor
Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Doktor İ. Q. Sibiroviç

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

2658

Doktor Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Elan

Azərbaycan Cümhuriyyəti Ərzaq Nəzarəti İdarəsi Azərbaycan daxilində yaşayan əhalinin və ətrafdan gələn bisavad adamların icazə və başqa işlər üçün Nəzarətə verəcəkləri ərizələri yazdırmaq üzündən çəkdikləri çətinliyi nəzərə alaraq, nazir həzrətlərinin əmri ilə idarənin aşağı qatında pilləkanlardan çıxan yerdə ərizə yazdırmağa xüsusi bir oda təxsis edilmişdir [ayrılmışdır]. Buna görə, bundan sonra nazir həzrətləri naminə və Ərzaq İdarəsinə ərizə verəcək kimsə həman odada ərizələrini pulsuz olaraq yazdıra bilərlər.

Ərzaq Nəzarəti İdarəsi

Hökumət mətbəəsi

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

T-13

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Tədbir gərəkdir

səh. 478. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

Teleqraf xəbərləri

səh. 478. "şeydemanovlar": Alman sosial-demokrat Filipp Şeydeman tərəfdarları nəzərdə tutulur.

Sülh ətrafında

səh. 479. "Prinsev cəzirəsi": Mərmərə dənizində, İstanbul sahilinə yaxın 9 adadan ibarət Prins adaları arxipelaqı nəzərdə tutulur.

Türkiyədə

səh. 480. "Sultan həzrətlərinin iradəsini… ": Osmanlı imperiyasının sonuncu sultanı VI Məhməd nəzərdə tutulur.

Tələbələrimiz haqqında

səh. 481. "Bu gün Odlar diyarı deyə...": Qəzetdə "Odlar diyarı deyə" yerinə "Odilardiye" getmişdir. Bu sözə məna vermək mümkün olmadığı üçün yuxarıdakı kimi oxuduq.

"bugünkü addımlar hazırlıyor yarını": Türk şairi Tofiq Fikrətin "Rücu" adlı şeirindən götürülmüşdür.

Şəki şəhəri və qəzasının

səh. 482. "…ev əşyası…": qəzetdə "ev əcnası" getmişdir.

səh. 483. "qaraso": Azərbaycanın bəzi rayonlarında əkin yerlərinə (əsasən suvarılan torpaqlara) və ümumiyyətlə düzəngah ərazilərə verilən ad.

Bakı xəbərləri

səh. 488. "İşə qəbul edilən zaman…": qanun bəndləri qəzetdə ərəb əlifbasının hərf sırasına görə "əlif", "bə", "tə" və sair kimi işarələnmişdir.

Tağıyev fabrikasında

səh. 490. "…nail olduqları azadəlik töhfəsinin…": qəzetdə "nail" yerinə "mail" getmişdir.



پنجشنبه ۲۷ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۳۰ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۱۰۱

آذربایجان

تورك و اسلامله مفید مقاله‌لر صحیفه لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالەلرك مکافاتی اداره تعین ایدیور.

اعلان‌ڭ فیاتی: سطری ۳ روبله ترتاله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ » ۳۲ »
۳ » ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ » ۳۵ »
۳ » ۵۰ »

محل اداره:
باکو، وورونسوفسکی وغوریتسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ایوده

«آذربایجان»اداره‌سی، تلفون نمره ۶۰–۳۹

تك نسخه‌سی ۷۰ قپك

گوندەلك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

قره‌باغ حقنده

تقریباً بر آی دن بری بوندن اول ایدی که قره‌باغدن کلن آه و فریادلر هم‌حکومتمزی، هم‌ده جماعتمزی تهیج ایتمکده. آذربایجان تورکلرینه وحشیانه سوء قصد یاپیلمقده. بو حادثه‌لر خصوصی برنظر دقت یتورمکده‌سنی طلب ایدیردی.

بو حادثه‌لرك نه‌لرده اولدیغنی آکلامق ایچون قره‌باغ ارمنیلرینك نه‌لر ایسته‌دکلرینی بیلمك لازمدر. بو ایسته‌دکلرینی بیلمك ایچون ده ارمنیلرك تاریخلرینه، سیاستلرینه، حرکتلرینه بر نظر دقت ایله باقمق لازمدر.

ارمنی حکومتك آذربایجان دن بوزدونه‌رك ایچیمیزه اولاشه‌رق و بونك ده‌اولحکومتدن کوسه‌رك صاف‌دونه‌رك ویا ایتی یلن‌لرك نه‌نظرله باخدقلری باشقه مسئله‌در. هر حالده، بز ارمنی حکومتك سوز لرینه اینانه‌رق قرار قویوب و آذربایجك ارمنی حکومتنه دخلی اولمیان خودسر برقولدورا ولدیغی نقطهٔ نظره‌دیانوب اوزتورا غمزی و اوزاقلاشمزی بوقولدورق اللدن خلاصی ایتمکه چالشدیغی وبالاخره بوایشده موفقیت حاصل ایتدیك؛ بعده، آذربایکان طرفندن وورولمش ضربه‌لرك یارالرینی ساغ‌لمق ایچون، اوضربه‌لره اوغرامش اولان برلرمزی اوز مصلحتمزه گوره خصوصی براداره آلتنه آلوب گنرال غوریتاطورافق تشکیل ایتمك ایسته‌دیك.

حال بوکه بزم بوتدبیرمز آرا وات حکومتنه خوش گلمیوبدر؛ بو خصوصده پروتست ایدیوب «ارمنستان اراضی سی حقوقنه تجاوز» اولدیغنی دیبور:

بو احوالی ایشیتمش اولان «ناشه ورمیا» آدلو ارمنی غزته‌سی — که یاکو ارمنی ملی قومیته‌سنك ناشری افکارلریدر — یردن برە فورحوبه دوشوب، الله ایلەمسین که بو ایشك آخری محاربه‌یه منجر اولا، دیبوب نه‌دنه «محاربه» سوزنی تز میدانه آتدو و، گوزله‌مدیگمز بر حالده، ارمنی جمهوریتنك حالنی فنا و مشکل بر دها فنا بر شکله گیره‌جکندن بحث ایدیبور و بحثه «حیثیت شکلی» ویرمك ایچون عموم آذربایجان «مسلمانلرینه» مراجعت ایدیرك «بروواقتیایه اویه‌یلون» دیه خبردارلق اینکله، حکومتمزلك تدبیرینی فنه و بروواقتیایا آدلاندیریور.

قولدوو آذربایکك وحشیلکلرینه قارشو مدافعت یولیه بز سوز یله آغزینه آلمایان، و بالعکس آذربایکك، براز منی «قهرمانلق» صفتیله تاتخوانی اولان و اونك بتون وحشیلکلرینی تصویه جالشان بوغزته، حکومتمزلك بوتدبیرینی گوزی یومه‌مدن فنه آدلاندیروب مسئله‌نك نه‌دن نشئت ایتدیکی حقنده بر سوز یله سویله‌میور و نیز «محاربه» سوزینی میدان مطویاتنه چیخارتمیور، دوپه‌یوسوزله ذربایجان ده‌موقراتیاسنی قووقوتمای می ایستیور، که بلکه بوقووخو یوزندن قره‌باغك گنرال غوریتاطورلق تشکیلنه خلل یتورلسون و یا حقیقتاً می بوایشك محاربه‌یه منجر اولاجغندن و محاربه‌یه اولورسه ارمنی جمهوریتنك حالی فنا بر صورته دوشه‌جکندن تشویشه دوشور — بورا سی بر دولو آکلاشیلمیور؛ بلکه، طرف مقابلك «ضعیف اولدیغنی» یزه اشاره ایدیوده بزی داوایله قزیشدیریور که محاربه‌نی بز یاشلاق ویاس‌اقه‌میا ما قصه‌سنه تقصیر یزم اوزرمزه دوشسون! هر حالده یو غزته‌نك تز «محاربه» سوزنی اورتایه سالماسی و ارمنی حکومتنی ضعیف بر حالده تصویر ایتمه‌سی شیان دقت‌در.

یزه قالورسه، امینك که حکومتمز قره‌باغده گنرال غوریتاطورلق تشکیل ایتمك ایستر کن ارمنی حکومتی ایله محاربه‌یه گیرمك احتمالنی هیچ خیاله یله گتورمه‌مشدر؛ چونکه قره‌باغ یزم — بز یزم؛ اوز یرمزده اوز تورا غمزده نه سیاق « آدمینیستراتیف » شکلر یاپاجاغمز یزم

اوز ایشمزده ؛ ارمنی حکومتك ویا ارمنی ملی قومیته‌سنك یو جوره ایشلرمزه قاتشماغه هیچ بر حقلری اولامادیغنی اوزارق یلیبورلرسه و حالده سیاسیاتك ابتدائی قاعده‌لرندن بی‌خبر وجاهلدرلر، اوز کندلرینی اوزه‌رلرنده تورکلر، و علاوه دونالم که قره‌باغده گنرال غوریتاطورلق تشکیلی «ارمنی اراضی‌سی منافعنه توخونورمی؟ همان ساعت محاربه ایتمك لازم کلورمی؟ و یرده ارمنی گورجی محاربه سندن صگره» هر طرفك ومنفعتلر قوماندا سیتك ده رأیی یو جوره حدود مسئله‌لرینی قونفرانس‌لرله، دانشقله صلح و سازشله حل ایتمك قراری اتخاذ اولدقدن صگره، حدود مسئله‌سنه عائد اولان یو ایشده دخی سازش و دانشق لزومندن بحث ایتمك عوضنه، تز محاربه سوزنی آرایه سالمق‌ده هانکه ورەمیاه نك مقصدی اوزقنه کارلق خاصیتی یلدیرمك‌در سه ، زحمت چکمه‌مون؛ اوزمز اونلرده باخشی بیلورلر، یوخ یزی قزیشدیرمای وبا سیناماق ایسه، اولی‌ده آکلایلجقدر دیرا که وفرانسه‌وارد.

آرامزده محاربه اولارسه، ارمنی جمهوریتنك حالی فنا اولاجغنه شبهه‌مز یوخدر؛ لکن هرحالده بز محاربه خیالنده دگلك؛ بز اوز داخلی اصلاحات ایشلرمز ایله مشغول ایك؛ محاربه ایتمك ایسته‌مه‌ایدیك الزده یوق یه‌ایسه‌ده‌مز دخی وارديه، حال بوکه ایندی محاربه‌یه هیچ بر طرفك هیچ بر بهانه‌سی یوخدر؛ آرارات حکومتی شکر ایله‌سون که بز اونك — « آذربایکنك بزه‌دخلی یوخدر» سوزینه ایمانوبه‌ده آذربایکی خودسر بر قولبور صفتیله توبرا غمزدن رد ایتدیك؛ ایندی‌ده اوقولدورلك حرکات وحشیانه سندن دولایی اهالیمزه وارد اولان ضرر وزیانلری رفع ایتمك ایشیله مشغول ایك؛ اگر بزم یوایشمزدن ارمنی جمهوریتنه وارمنی دوا راحتی سنه بر خلل یتورسه یو خصوصده دلیل‌لریمی میدانه قویوب مذا کره‌یه گیرسونلر. بوخه گوزی یومه‌مدن برونست ایتمك ویا محاربه‌دن سوزلنمك، فتنه و براواقتور لقدن باشقه برشی دگلدر.

حاجی بکلی عزیز

آذربایجان مجلس مبعوثانده

(۹نجی اجلاسك مابعدی)

یواجلاس کانون ثانینك ۲۷سی ساعت ۱۲یه تعیین ایدیلمشدر. ساعت ۲نك یاریسنه‌دك ۳۲عضا گلمش اولدیغندن اجلاس قانونی حساب ایدیلەرك تاخیره مالنمشدی. نهایت آیك ۲۸ی ساعت برتمامده بتون اسقامه‌لر دولی اولمیغی حالده دوقتور آغایف جنابلری اجلاسی آچیور.

باقیلان مسئله‌لر:

۱ – داخل اولان کاغذلر.

۲ – تجارت و خصوصی ایشلر اداره‌سنه دائر وکالتنامه وعدم‌لرینك تمدیدی حقنده قانون لایحه‌سی (ایضاحات نامه‌سیله).

۳ – اعتماد نامه قومیسیونك معروضه‌سی.

۴ – «اتحاده فراقیونی رئیسی طرفندن تلفن یه‌ی، بوغدا وسایره احتکاری حقنده حکومته خطابا ویریلمش اولان سورو.

۵ – تلفن یوف فابریقاسندن خدمتدن قوغولمش اولان قملار حقنده سوسیالیستلر فراقیه‌سی طرفندن ویریلمش اولان سورو.

۶ – اجتماعیون انقلابیون فرقه‌سی یاکو قومیته‌سنك آذربایجان پارلمانتده اشتراك حقنده دیوان ریاسته مکتوبی.

صدر – واردا ولان کاغذلری اجلاسه تقدیمله بیان ایدیبور که:

برنجیی بودر که قازاخ ملی قومیته‌سی اعضاسندن برنجیه‌سنك امضاسیله برتلغراف آلنمش دوکه حاجی کریم ثانی‌یف پارلمانه قانونی‌بر سورتده سچیله‌مشدر و اگر گوره خواهش اولنور حاجی کریم ثانی‌یف پارلمان مبعوثلغندن خارج وقازاخ قضاسندن یکی مبعوث سچیله‌سی تکلیف ایدیلسین.

بن تکلیف ایدیورم، یومسلهیی اعتبار نامه قومیسیونه ویرمدن تکلیف یلا اعتراض قبول اولونور.

بوندن علاوه گنجه قضاسی مبعوثی حاجی‌بیکلی عزیزك اعتبار نامه‌سی دخی قومیسیونه ویریلمشدر.

Cümə axşamı, 30 yanvar 1919-cu il, nömrə 101

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 27 rəbiülaxir sənə 1337. 30 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

QARABAĞ HAQQINDA

Təqribən bir ay bundan əvvəl idi ki, Qarabağdan gələn ahü fəryadlar həm hökumətimizi, həm də camaatımızı təciz [narahat] etməklə, Azərbaycan torpağının bu hissəsinə xüsusi bir nəzər yetirilməsini tələb edirdi.

Nə olmuşdu orada? Ermənilərin generalı ədd [hesab] olunan Andranik, öz xunxar [qaniçən] dəstəsilə Qarabağın Zəngəzur adlanan uyezdi üzərinə tökülüb müsəlman əhalisini qətl və qarət kimi quldurlara məxsus əməlləri ilə tədhiş edib [dəhşətə salıb], buraları "müsəlmanlardan təmizləmək" istəyirdi.

Şübhəsizdir ki, hökumətimiz Azərbaycan türklərinə qarşı icra edilən və rəva görülən bu vəhşiliklərə göz yuma və istimdad [yardım] fəryadlarına qulaq asmaya bilməzdi. Hökumətimiz ingilis komandasının nəzərini dəxi bu gunə [bu cür] vəhşi əməllərə cəlb edib, Andranikin ə'mali-vəhşiyanəsinə [vəhşi əməllərinə] nəhayət çəkdirdi. Andranik fitnəsi nəticəsi olaraq, Qarabağın hal və övzası [vəziyyəti] öylə bir fövqəladə surət kəsb etdi [aldı] ki, hökumətin bu cəhət haqqında xüsusi qeydkeşliyinə böyük bir ehtiyac görünüb, ciddi tədbirlər ittixazı [tədbirlər görülməsi] lazım gəldi.

Bu tədbir nə ola bilərdi? Qarabağı işlər düzəlincəyə qədər müvəqqəti olaraq ümumi idarə təhtindən [altından] ayırıb, xüsusi bir idarə altına almaq ki, əvvəla, Qarabağın fövqəladə haləti, mərkəzi hökumətin ümum məmləkət qeydkeşliyi işinə xələl yetirməsin, yəni hökumət bütün diqqətini yalnız bir Qarabağa münhəsir etmək məcburiyyətində qalmasın və saniyən [ikincisi] Qarabağ dəxi fövqəladə halətinə görə lazım olan xüsusi tədbirlər ittixazından məhrum edilməsin.

O idi ki, hökumət Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir uyezdlərindən ibarət olan Qarabağı xüsusi bir general-qubernatorluq şəklinə salmaq əmrini lazım və vacib bildi. Mərkəzi hökumətin vəkili yerində olan general-qubernatora hökumətdən bir para fövqəladə ixtiyarat veriləcəkdir ki, Qarabağın fövqəladə halətini adi bir surətə salmaq yolunda o ixtiyaratdan istifadələr etsin.

Təkrar edirik ki, aclıq, azar, yolsuzluq, əmniyyətsizlik, şuriş [qarışıqlıq], narazılıq və sair bu kimi hadisələrdən əmələ gələn bu fövqəladə halət, Andranik avant-

yurasının nəticəsindən nəşət edən [qaynaqlanan] bir vəq’ədir [hadisədir]. Binaənileyh [ona görə], hökumətimizin Qarabağda general-qubernatorluq təşkil etmək tədbirinə dəxi Andranik hərəkəti səbəb olmuşdur.

Andranik, Azərbaycan hüduduna soxulub da vəhşiliklər icra edəkən, hökumətimiz Ararat Hökumətinə müraciət edib Andranikin oraya qarşı münasibatı [əlaqələri] nə olduğunu istifsar etdi [soruşdu]. Ararat Hökuməti iki əllə Andraniki rədd edib “Onun bizə heç bir dəxli yoxdur, xudsər [özbaşına] bir adamdır”, - deyə cavab verdi. Andranik dəxi öz tərəfindən Erməni Hökumətindən “küsdüyünü” təkrar-təkrar söyləməyi mövqeyi gələn yerlərdə müzayiqə etməyirdi [əsirgəmirdi].

Erməni Hökumətinin Andranikdən üz döndərib də incimiş olduğuna və bunun da o hökumətdən küsməyinə safdərunların [sadəlövhlərin] və ya iş bilənlərin nə nəzərlə baxdıqları başqa məsələdir. Hər halda biz Erməni Hökumətinin sözlərinə inanmağı qərar qoyub və Andranikin erməni hökumətinə dəxli olmayan xudsər bir quldur olduğu nöqteyi-nəzər-[in]də dayanıb, öz torpağımızı və öz əhalimizi bu quldurun əlindən xilas etməyə çalışdıq və bilaxirə [axırda] bu işdə müvəffəqiyyət hasil etdik. Bədəhu [sonra] andraniklər tərəfindən vurulmuş zərbələrin yaralarını sağaltmaq üçün, o zərbələrə uğramış olan yerlərimizi öz məsləhətimizə görə xüsusi bir idarə altına alıb, general-qubernatorluq təşkil etmək istədik.

Halbuki bizim bu tədbirimiz Ararat Hökumətinə xoş gəlməyibdir. Bu xüsusda protest edib “Ermənistan ərazisi hüququna təcavüz olunur”, - deyir.

Bu əhvalı eşitmiş olan “Naşe vremya” adlı erməni qəzetəsi, ki Bakı Erməni Milli Komitəsinin naşiri-əfkarıdır [yayın orqanıdır], birdən-birə qorxuya düşüb “Allah eyləməsin ki, bu işin axırı müharibəyə müncər ola [müharibəylə nəticələnə]” - deyib nədənsə “müharibə” sözünü tez meydana atır və gözləmədiyimiz bir halda Erməni Cümhuriyyətinin halını fəna və müşkül bir surətdə təsvir edib, “Müharibə olarsa bu hal daha fəna bir şəklə girəcəyindən” bəhs edir və bəhsinə “ciddiyyət şəkli” vermək üçün ümum Azərbaycan demokratiyasına [xalqına] müraciət edərək “provokasiyaya uymayın”, - deyə xəbərdarlıq etməklə hökumətimizin tədbirini fitnə və provokasiya adlandırır.

Quldur Andranikin vəhşiliklərinə qarşı məzəmmət yolu ilə bir söz belə ağzına almayan və biləks [əksinə] Andranikin bir erməni “qəhrəmanı” sifətilə sənaxanı olan [onu tərifləyən] və onun bütün vəhşiliklərini təsvibə [bəyənməyə] çalışan bu qəzetə, hökumətimizin bu tədbirini göz yummadan fitnə adlandırıb məsələnin nədən nəşət etdiyi haqqında bir söz belə söyləməyir və tez “müharibə” sözünü meydani-mətbuata çıxardıb, bu sözlə Azərbaycan demokratiyasını qorxutmaqmı istəyir ki, bəlkə bu qorxu üzündən Qarabağın general-qubernatorluq təşkilinə xələl yetirilsin və ya həqiqətənmi bu işin müharibəyə müncər olacağından və müharibə olarsa Erməni Cümhuriyyətinin halı fəna bir surətə düşəcəyindən təşvişə düşür – burası bir dürlü anlaşılmayır. Bəlkə tərəfi-müqabilin “zəif

olduğunu" bizə işarə edib də bizi davaya qızışdırır ki, müharibəni biz başlayaq və bassaq da, basmasaq da təqsir bizim üzərimizə düşsün! Hər halda bu qəzetənin tez "müharibə" sözünü ortaya salması və Erməni Hökumətini zəif bir halda təsvir etməsi şayani-diqqətdir [diqqətəlayiqdir].

Bizə qalarsa, əminik ki, hökumətimiz Qarabağda general-qubernatorluq təşkil etmək istərkən Erməni Hökuməti ilə müharibəyə girmək ehtimalını heç xəyalına belə gətirməmişdir. Çünki Qarabağ bizim, biz bizim; öz yerimizdə, öz torpağımızda nə siyaq "administrativ" şəkillər yapacağımız bizim öz işimizdir. Erməni Hökumətinin və ya Erməni Milli Komitəsinin bu cürə işlərimizə qatışmağa heç bir haqları olmadığını özləri bilməyirlərsə, o halda siyasiyyatın ibtidai qaydalarından bixəbər və cahildirlər, özgələrdən öyrənsinlər. Və əlavə, tutalım ki, Qarabağda general-qubernatorluq təşkili "erməni ərazisi mənafeyinə toxunur". Həman saat müharibə etmək lazım gəlirmi? Və bir də erməni-gürcü müharibəsindən sonra hər tərəfin və Müttəfiqlər komandasının də rəyi bu cürə hüdud məsələlərini konfranslarla, danışıqla, sülh və sazişlə həll etmək qərarı ittixaz olduqdan sonra, hüdud məsələsinə aid olan bu işdə dəxi saziş və danışıq lüzumundan bəhs etmək əvəzinə, tez müharibə sözünü araya salmaqda "Naşe vremya"nın məqsədi öz fitnəkarlıq xasiyyətini bildirməkdirsə, zəhmət çəkməsin, özümüz ondan da yaxşı bilirik, yox bizi qızışdırmaq və ya sınamaqsa, onu da anlayacaq qədər dərrakə və fərasətimiz vardır.

Aramızda müharibə olarsa, Erməni Cümhuriyyətinin halı fəna olacağına şübhəmiz yoxdur, lakin hər halda biz müharibə xəyalında deyilik. Biz öz daxili islahat işlərimizlə məşğuluq. Müharibə etmək istəsəydik, əlimizdə böyük bəhanəmiz dəxi vardı. Halbuki indi müharibəyə heç bir tərəfin, heç bir bəhanəsi yoxdur. Ararat Hökuməti şükür eyləsin ki, biz onun "Andranikin bizə dəxli yoxdur" sözünə inanıb da Andraniki xudsər bir quldur sifətilə torpağımızdan rədd etdik. İndi də o quldurun hərəkativəhşiyanəsindən dolayı əhalimizə varid olan [toxunan] zərər və ziyanları rəf etmək [aradan qaldırmaq] işi ilə məşğuluq. Əgər bizim bu işimizdən Erməni Cümhuriyyətinə və erməni "ərazisinə" bir xələl yetirsə, bu xüsusda dəlillərini meydana qoyub müzakirəyə girsinlər. Yoxsa gözü yummadan protest etmək və ya müharibədən söz salmaq, fitnə və provakatorluqdan başqa bir şey deyildir.

Hacıbəyli Üzeyir

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

(9-uncu iclasın məbə'di)

Bu iclas kanuni-saninin [yanvarın] 27-si saat 12-yə təyin edilmişsə də, saat 2-nin yarısınadək ancaq 32 əza [üzv] gəlmiş olduğundan, iclas qanuni hesab edilməyərək, təxirə salınmışdı. Nəhayət ayın 28-i saat bir tamamda bütün iskamlələr [stullar] dolu olduğu halda, doktor Ağayev cənabları iclası açır.

Baxılan məsələlər:

1. Daxil olan kağızlar;

2. Ticarət və xüsusi işlər idarəsinə dair vəkalətnamə və’dələrinin təmdidi [uzadılması] haqqında qanun layihəsi (izahatnaməsi ilə);

3. Etimadnamə komisyonunun məruzəsi;

4. "İttihad" fraksiyonu rəisi tərəfindən neft, bez, buğda və sairə ehtikarı [möhtəkirliyi] haqqında hökumətə xitabən verilmiş olan sorğu;

5. Tağıyev fabrikasından xidmət-dən qovulmuş olan fəhlələr haqqında Sosialistlər fraksiyası tərəfindən verilmiş olan sorğu;

6. İctimaiyyuni-inqilabiyyun [Sosialist-inqilabçılar] firqəsi Bakı komitəsinin Azərbaycan Parlamanında iştirak haqqında Divani-rəyasətə məktubu.

Sədr - varid [daxil] olan kağızları iclasa təqdimlə bəyan edir ki:

Birinci budur ki, Qazax Milli Komitəsi əzasından [üzvlərindən] bir neçəsinin imzası ilə bir teleqraf alınmışdır ki, Hacı Kərim Sanıyev Parlamana qanuni bir surətdə seçilməmişdir. Ona görə xahiş olunur Hacı Kərim Sanıyev parlaman məbusluğundan xaric və Qazax qəzasından yeni məbus seçilməsi təklif edilsin. Mən təklif edirəm bu məsələni Etibarnamə komisyonuna verək.

Təklif bilaetiraz [etirazsız] qəbul olunur.

Bundan əlavə Gəncə qəzası məbusu Hacı Molla Əhməd Nuruzadə və Hacı Əli Qasımoğlu və Cavanşir qəzası məbusu doktor Cəmil bəy Lənbəranski Divani-rəyasətə ərizə verərək 15 gün məzuniyyət istəyirlər.

Ərizələr qəbul olunur.

Bir də Parlaman məbuslarından Sultan Məcid Qənizadə Parlamanın qanununa görə Maarif Nəzarətində məmurluqdan istefa verib, məbusluğu qəbul etdiyini bildirir.

Sosialistlər fraksiyasından Bağır Rzayev Məclisi-Məbusan əzası haqqını qeyb etdiyindən, onun yerinə İbrahim Əbilovun namizədliyi göstərilir.

Nəhayət, Divani-rəyasətə təklif edilmişdir ki, Məclisi-Məbusan nəzdində torpaq və sorğu məsələlərinə birər komissiya intixab olunsun [seçilsin]. Təvəqqe edirəm, iclasın axırında bu komissiyaların neçə nəfərdən ibarət olacağını qərarlaşdıraraq namizədlər göstərəsiniz.

Bir də, Parlamanın qanununa görə, Bakı qubernatoru dəxi özünün məmurluqda qalacağını, ya istefa verdiyini bildirməli idi, fəqət xəstə olduğundan xəbər verə bilməmişdir. Mən təklif edərdim qubernatora bir neçə gün (3-4 gün) möhlət verilsin sağalanadək. Ancaq şifahən xəbər vermişdir ki, o məbusluqla qalmağı tərcih edir.

Axırda sədr hər fraksiyaya öz əzaları və hər əzaya hangi fraksiyaya mənsub olduğu haqqında məlumat vermələrini təvəqqe edərək ikinci məsələyə keçir:

Vəkalətnamə vədələrinin təmdidi

Növbətdə ticarət və xüsusi işlər idarəsinə dair vəkalətnamə vədələrinin təmdidi [müddətlərinin uzadılması] haqqındakı qanun layihəsidir. Layihə ilə bərabər izahatnaməsi dəxi təqdim olunur.

Katib izahatnamə və layihəni oxuyur:

Bakı neft tacirlərinin ictimai vəkili, hakəza [habelə] bir çox firmalar və mü-

təəddid [çox sayda] əşxas vəkilləri tərəfindən Ticarət-Sənaət və Daxiliyyə nazirləri hüzurunda məzkur [deyilən] vəkillərə səhmdarlar cəmiyyətləri və başqa ticarət və sənaət təşkilatı idarə və təməllükat [mülk] sahibləri tərəfindən əta olunmuş [verilmiş] vəkalətnamələrin vədələrinin təmdidi məsələləri haqqında təşəbbüsatda bulunub, müvəkkillərinin uzaq bir məmləkətdə bulunduqlarını, bu məmləkətlərlə hal-hazır hadisatından dolayı əlaqə və mürasilat [gediş-gəliş] qət olunduğunu [kəsildiyini] və fövqdə tədad olunan [yuxarıda sayılan] vəkalətnamələrin vədələri 1918 sənəsi dekabrının 31-ində bulunduğunu bəyan etmişlərdir. İşbu məsələnin müzakirəsi əsnasında mülahizə ediləcək xüsusiyyat [xüsuslar]:

1. Hüquq elmi nəzəriyyatı mövcibincə [əsasında], vəkalətnamə bir müqavilənamə dərəcəsində olduqda onun vədəsi tərəfeyn [iki tərəfin] iradəsi üzrə vəkalətnamə dərununda [içində] göstərilmiş tarix ilə bəyan edilir, fəqət ticarətə məxsus vəkalətnamələrdə tarix göstərilmədiyi halda, qanun qüvvəsi ilə vəkalətnamənin kəndi tarixindən hesab edilmək[lə] vədə üç sənə təkmilinə [dolana] qədərdir. (1903 sənəsində nəşr edilmiş Ticarət qanunun 41-ci maddəsi və Senatın Mülki istinaf [apellyasiya] dairəsinin 1916 sənəsindəki 30 nömrəli qətnaməsi).

2. Müqavilənamələrdə, xüsusən vəkalətnamələrdə, vədə bunların mühüm bir hissəsi ədd [hesab] olunduğundan, vədə xitamında məzkur övraqın [sənədlərin] kəndiləri də qüvvədən saqit olurlarsa da, məmafih hüquq elmi nəzəriyyatı və qanun, tərəfeynin rizası olmaqsızın da müqavilə və vəkalətnamələrin vədələrinin təmdidini müvafiq görürlər. Məsələn, Ticarət qanununun qərarnamələrində ticarət işləri müdiriyyəti və deyn [borc] tədiyəsinin tə'cili [təxirə salınması] (1905, 1906, 1915 və bundan sonrakı sənələrin) hərbi vüquatdan dolayı basənəd olan borc tədiyəsinin tə'cili haqqında xüsusi qanunnamə (moratori) və hakəza Moqilyov şəhərinin yanğından mükəmmələn [tamamən] məhv olması və başqaları kimi fövqəladə vüquata dair (1910 sənədə hökumət qanunnamə və tədabiri [tədbirləri] cümləsinin nömrə 101, maddə 1097).

3. Azərbaycanla səhmdarlar cəmiyyətləri və başqa ticarət və sənaət idarələri və təməllükat sahiblərinin bulunduqları mövqe ilə Azərbaycanın əlaqəsi qət olunduğundan, hal-hazırda fövqəladə keyfiyyət Azərbaycanda da mövcuddur.

4. Binaənileyh ticarət və xüsusi işlər idarəsinə məxsus və vədələri qurtarmış, yaxud yaxın zamanda qurtaracaq vəkalətnamələrin təmdidi-vəd [vədəsinin uzadılması] edilməsinə həm mühüm bir əsas, həm də zəruri ehtiyac vardır.

5. Fəqət, vədənin bu surətlə təmdidi müəyyən bir vaxtla təhdid edilməlidir [məhdudlaşdırılmalıdır]. Bunun üçün də altı ay vədə kafidir.

6. İşbu təmdidi-vədə mövcud ikən müvəkkil və vəkil xahiş etdikləri halda, verdikləri və qəbul etdikləri vəkalətnamələri vədədən əqdəm [əvvəl] də qüvvədən saqit etmək haqqına malikdirlər.

7. İşbu üsul üzrə vəkalətnamə vədələrinin təmdidi başqa bir surətlə olmayıb da, fəqət qanun üzrə olmalıdır. Yuxarıda

yazılmış izahata məbni [əsasən], bunun zimnində [əsasında, daxilində] mövcud qanunnamə inşa edilmiş olduğu surətdə, nəşr edilməsi müvafiq görülür.

Ədliyyə Nəzarəti müdürü: Teymur bəy Makinski tərəfindən imza edilmişdir.

Ticarət və xüsusi işlər idarəsi üçün olan vəkalətnamələrin vədələrinin təmdidi haqqında qanun layihəsi:

1. Ticarət və xüsusi işlər idarəsi üçün verilən vəkalətnamələrdən vədeyi-vəkalətləri əski qayda 1917 sənəsi 25 oktyabr, 1918 sənəsi 31 dekabr və yeni qayda 1919 sənəsi 13 yanvar tarixləri aralarında xitam bulmuş olanları və yaxud təzə qayda ilə 1919 sənəsi 14 yanvar – 14 iyul arasında qurtaracaq olan vəkalətnamələr 1919 sənəsi iyul ayının 14-nədək öz qüvvələrində baqi qalırlar.

2. Vəkalətnaməni verən və vəkilliyi qəbul edən əşxas xahiş etdikləri halda 1919 sənəsi iyulunun 14-dən müqəddəm də olsa vəkalətnamələrini kəndi qüvvəsindən saqit etmək ixtiyarına malikdirlər.

Qanunnamə maddəbəmaddə müzakirəyə qoyulduqda təklif olunur əvvəlcə Parlaman komissiyasına verilsin.

Şəfi bəy Rüstəmbəyli - məsələyə fraksiyalarda baxılmış olduğunu qeydlə bəyan edir ki, komissiyaya verilməyə ehtiyac yoxdur.

Qardaşov – komissiyaya verilməsində israr edir.

Yusif Əhmədov - göstərir ki, bu qanun ələlümdə səhmdaran [səhmdarlar] cəmiyyətlərinə və bir çox sair müəssisə firmalara aiddir ki, bunların mərkəzi-idarəsi [idarə mərkəzi] Petroqradda, Moskvada və qeyri yerlədədir ki, şimdi ora ilə əlaqə olmadığından, vəkalətnaməni təzələmək qeyri-mümkündür; təzələnməsə də bunların fəaliyyəti yatar. Ona görə Məclisi-Məbusan onların vədələrinin təmdidi haqqındakı qanunu qəbula məcburdur. Bu mülahizə ilə natiq təklif edir ki, layihəni komissiyaya vermədən bu gün Parlaman qəbul etsin.

Makinski Teymur bəy (Ədliyyə naziri müavini) - qanun layihəsinin həman bu iclasda qəbulunu təklif edərək deyir ki, əgər bu qanun qəbul edilməsə övza və şəraiti-hazirədən dolayı [indiki vəziyyətə görə] bir çox cəmiyyət və firmalar vəkalətlərini təzələyə bilməzlər; o halda fəhlələrə də muzd verməyə ixtiyarları olmaz. Bunun da ağır nəticələr, hətta tətil ilə təhdid etdiyi aşkardır.

Nəhayət, maddəbəmaddə səsə qonularaq, qanun qəbul olunur.

Etibarnamə komissiyasından

Bundan sonra Etibarnamə komissiyası tərəfindən **Rüstəmbəyli Şəfi bəy** məruzə təqdim edir. İrəlicə Ukrayna konsulu Parlamana ərzihal verərək, ukraynalılar üçün iki yer istəmişdi. Rəsmiyyət cəhətindən Parlaman məsələni açıq buraxmışdı. Şimdi Bakı Ukraynalılar Radası [Milli Şurası] eyni məqsədlə ərzihal vermişdir. Etibarnamə komisyonu lazım bilir, onlara yer verilsin. Çünki Bakıda və Muğan kəndliləri miyanında [arasında] çox ukraynalı var. Şurayi-Milli ruslara 10 yer verərkən, ukraynalıları velikoruslardan ayırmamışdı. Şimdi özləri ayırırsalar, əqəliyyət [azlıq] təşkil edən bir millət olmaq üzrə yer istəməyə haqları var. Fəqət, iki yer vermək olmaz, çünki o qədər nüfusları [əhalisi] yoxdur. Bina-

ənileyh komissiya təklif edir ki, azlıqda qalan bir millət olmaq həsəbilə [səbəbilə] ukraynalılara bir yer verilsin və bu yer Rus Milli Komitəsinə ayrılmış olan yerlər hesabına çıxılsın.

Bakı və Şəki qəzalarına və yəhudilərə gəldikdə, bunların haqqında komisyonun rəyi qabaqca xəbər verilmişdir.

Abdulla bəy Əfəndizadə ("Əhrar") - Metr haqqındakı maddənin əhəmiyyətindən bəhslə, onun Şəki şəhər və qəzası haqqında bu maddənin tətbiq edilmədiyini aşağıdakı rəqəmlərlə göstərərək deyir ki: Şəhərlərimizin islam əhalisini götürdükdə, nüfusca Bakı birinci, Nuxa ikinci, Gəncə üçüncü yer qazanacaqdır. Deməli, Bakı şəhəri paytaxt olduğu üçün istisna edilirsə, birinci yer Nuxa şəhərinindir. Bu şəhərdə 52 min 243 candan 43 635-i islamdır. Gəncədə - 38 331 "-" Şamaxıda - 21 172 "-" Şişədə – 19 136 "-" Lənkəranda - 15 329 "-" Qubada - 11 465 "-"

Yerdə qalan şəhərlərin əhalisi beş-altı mindən ibarətdir. Əgər şəhərlər üçün yalnız şəhərdirlər deyə birər nümayəndə ixtiyarı verilibsə, böyük bir ədalətsizlik icra edilmiş olar. Çünki o surətdə 5 min əhali də 1 nümayəndə vermiş olar, 50 min də. Həm də 5 min əhalidən 1 nümayəndə dəvəti heç bir məmləkətin qanunnaməsində olmasa gərəkdir. Olarsa belə, Şəki tək başına 10-12 islam nümayəldələri göndərməli idi. Qəzası isə 100 mindən ziyadə islam əhalisinə malik olduğundan, tək başına 57 min miqyas üzrə 2 nümayəndə göndərməli idi. İş böylə olmadığı aşkardır. Həm də eşitdiyimizə görə, qanunnamədə şəhərlərə məxsus ayrıca maddə yoxdur. Həqiqət böylə isə yəqindir ki, şəhər və qəza əhalisini bir yerə qatıblar və ümum əhaliyə miqyas tətbiq ediblər, ancaq nümayəndələrin birini şəhərə məxsus ediblər.

Bu nöqteyi-nəzərə gəldikdə məsələni bir az daha aydın etmək üçün 2 nəfər nümayəndə verən qəzaları yekdigəri [bir-biri] ilə müqayisə etməlidir. Nuxa şəhəri qəzası ilə bərabərlikdə 145,209 (43635+101574) can islam əhalisinə malikdir. Göyçay şəhəri 117732, Şişə 85661, Ərəş 79090, Qazax 68181 islam əhalisinə malikdir. Görürük ki, Şəki bunların ən böyüyündən 30 minə və ən kiçiyindən həştad minə qədər artıqdır. Yalnız Şəkinin kətm olunmuş haqqı özünə qaytarılmaqla, ədaləti bərpa etmək təklifini ediriz. Əks surətdə dəfəat ilə rəva görülmüş ədalətsizliyi bir dəxi Parlaman təsdiq etmiş olacaqdır. Hələ firqə seçkisi prinsipinə gəldikdə, Şəkinin 12 min fəhlə sinfinə ayrıca bir yer vermək təklifi də qəbul edilə gərəkdir. Əgər Mandat komisyonu "Parlaman üzvləri 120-dən ziyadə olmamalıdır" iddiasını bir daha edərsə, mən onun cavabında təkrar edirəm ki, seçki maddəsinin tək bir məhəl [yer] üçün tətbiq olunmaması böyük ədalətsizlikdir. Fəqət, 120 ədədi 121 ilə əvəz etməyə ədalətsizliyin dəxli yoxdur.

TELEQRAF XƏBƏRLƏRİ

* Bu son vaxtlarda Petroqraddan gələn məlumatdan anlaşılır ki, bolşeviklər şəhərdən çıxmağa və şəhərdə olan lazımlı şeyləri çıxararaq Moskvaya aparmağa hazırlaşırlar. Bolşeviklər zənn edir-

lər ki, Petroqradın müqəddəratı həll edilmişdir. Petroqrad yeni təşkil edilmiş əşqiya [quldur] dəstələrinin qurbanı olacaqdır. Bu əşqiya dəstələri qaçan saldatlardan və həbsxanadan buraxılmış canilərdən ibarətdir. Bunlar şəhəri bir neçə yerə təqsim edərək [bölərək] bugünlərdə qarət etmək istəyirlər.

* Bu vaxta qədər inşası bitməyən hərbi ingilis gəmiləri qurtarmadıqca İngiltərənin dəniz məramnaməsi barəsində heç bir qətnamə elan edilməyəcəkdir.

Portəgizin [Portuqaliyanın] vəziyyəti

Yanvarın 23-də Lizbondan [Lissabondan] göndərilmiş olan teleqrafdan anlaşılır ki, Lizbon qalası və sair istehkamları cümhuriyyətə tərəfdardırlar. Digər bir teleqrafdan anlaşılır ki, Lizbonda cümhuriyyətçilər monarxistlərə qalib gəlmişlərdir.

* Böyük dövlətlər nazirləri düşənbə [bazar ertəsi] günü, səhər vaxtı Qar dö-Orsedə yığışıb Almaniya müstəmləkəsi məsələlərini və sair hərbə aid ümumi məsələləri müzakirə edəcəkdirlər.

QƏZETƏLƏRDƏN

* “Utro Yuqa” qəzetəsinə Batumdan xəbər verilir: Bugünlərdə İstanbuldan bir neçə erməni qoşun dəstəsi eşalonları gələcək və Anadolunu işğal edəcəklərmiş. 12 min nəfərdən ibarət olan erməni qoşunları isə qərb cəbhəsindən və Sələnikdən gəlirlərmiş.

* İrəvandan Təbrizə erməni-müsəlman heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] gəlmişdir. İran Hökuməti onları təntənəli bir surətdə istiqbal eyləmişdir [qarşılaşmışdır]. Erməni heyəti Şaxmazyan və Ter-Quqasyan namində zabitlərdir. Bunların buraya nə məqsədlə gəldikləri hənüz bəlli deyildir.

* Fransızlar Ərdəhanı işğal etmişlərdir. Qars isə ermənilər tərəfindən işğal edilmişdir. Hələlik İrəvan-Culfa dəmiryolu açıqdır. Əhali aclıqdan və yatalaq (tif) xəstəliyindən məhv olurlar.

* Batumdan xəbər verilir ki, Türkiyənin indiki Parlamanı buraxılmalı və indiki Kabinə iş başından düşürülməliymiş. Türkiyə federasyon üsulu ilə yenidən təsis ediləcək və Türkiyənin yeni Kabinəsi başına prens Səbahəddin keçəcəkmiş.

* İstanbuldan xəbər verilir: Türkiyənin məhafili-siyasiyyəsində [siyasi dairələrində] Sülh Konfransında zeyldəki [aşağıdakı] şeyləri tələb eyləməyə məramnamə hazırlanmışdır:

1) İstanbul ilə Boğazlar türklərin əlində qalacaq;

2) Adalar dənizi bitərəf elan ediləcək, Rumeli ilə Kiçik Asiyada Türkiyə inzibat idarələri qalacaq;

3) Dədəağac və Kutluca dairələri Türkiyəyə veriləcək;

4) İngilizlər Beynənəhreyndən çıxmalıdırlar.

* Könüllü ordusu bürosunun xəbərinə nəzərən, bolşeviklər hal-hazırda ciddi surətdə Petroqradı təxliyyə edirlər.

Erməni ictiması [yığıncağı]

Ağməscid şəhərində erməni başçılarından A. Artsruninin təhti-sədarətində [sədrliyi altında] erməni qurultayı açılmışdır.

* Yaponiya Hökuməti axırıncı beş ilin qoşunlarını silah altına çağırır. Yaponiya əsakiri [əsgərləri] Ural keçidinin beş günlük məsafəsindədirlər.

İngilislərin əziməti [gedişi]

Krım və Ukrayna fransızların təhti-nüfuzuna [nüfuzu altına] keçməli olduğundan, ingilis komandanı amiral Kelton, "Super" drednotu ilə Sevastopoldan əzimət eyləmişdir [yola düşmüşdür]. Amiral nazir Vinaderov ilə vəda eylərkən demiş: Petroqradda görüşəriz!

* Sevastopol - Sələnikdə müqim [yerləşən] 175-ci fransız alayı buraya gəldikdən sonra bütün mövqeləri və qaravulxanaları işğal eyləmişdir. Alay komandanı Strun hökumət üzvlərini ziyarət edərək, onlarla məa [bərabər] işləyəcəyini bildirmişdir.

* Sazonov Kuban tərəfindən Sülh Konfransına nümayəndə intixab edilmişdir [seçilmişdir]. Bu qərar üzrə Sazonovun Don, Kuban və Könüllü tərəfindən vəkaləti vardır.

* "Deyli mail" qəzetəsi xəbər verir ki Lloyd Corc və Vilson Rusiya məsələsinin həllindən ötrü Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] təşkilini lazım görürlər.

* Müttəfiq dövlətlər ehtiyat edirlər ki, bolşevik hökuməti ilə mübarizə uzandığı təqdirdə, rus bolşevik ordusu qüvvətlənib Avropa sülhünü təhdid edər.

* Qəzetələr yazırlar ki, Eser firqəsinin mərkəzi komitə üzvü və Məclisi-Müəssisan sədri Çernov amiral Kolçakın əmri ilə həbs edilmişdir. Eser firqəsinin mərkəzi komitəsi Petroqraddan Moskvaya keçdikdən sonra, Çernov gizlicə Moskvada yaşayırdı. Çernovun həbs edilməsi üçün hər cür tədbirlər ittixaz edilirdi. Çernov, Saratov quberniyasına gedib, sentyabrın 14-də Samarada Məclisi-Müəssisan komitəsi üzvləri ilə görüşmüşdür. Təcili bolşevik əsgərləri Samaraya hücum edəndə Çernov fəhlələrə və kəndlilərə müraciətlə Samaranın müdafiəsinə dəvət etmişdi. Samara işğal edilməndən sonra Çernov Ufaya getmişdi. O vaxtdan ondan bir xəbər yox idi.

ŞURAYİ-VÜKƏLADA
[NAZİRLƏR KABİNETİNDƏ]

1) Bütün hökumət əvamiri [əmrləri] və qərardadları xüsusi bir rəsmi nəşriyyatda təb' [çap] və nəşr olunacaqdır ki, "Azərbaycan Cümhuriyyəti Hökuməti əxbarı [xəbərləri]" namı [adı] ilə təsmiyə ediləcəkdir [adlandırılacaqdır].

2) Hökumətin bütün əvamir və qərardadları və başqa-başqa nazirlərin qərardadları və Parlaman kağızları da Şurayi-Vükəlaya verilir, bundan sonra elam edilirlər [bildirilir].

3) İşbu məsailə [məsələlərə] dair, bütün məktubat [yazışmalar], Parlamana gedəcək və Parlamandan qayıdacaq bütün kağızların tərcümə və məktubat işləri Rəisi-vükəla təhti-nəzarətində [nəzarəti altında] olaraq Hökumət İşləri dəftərxanasında aparılır.

4) Vaxtlı-vaxtında təb' və nəşr etmək işləri və təb' ediləcəklərin rəsmi "Azərbaycan Cümhuriyyəti Hökuməti əxbarı"nda doğru dərc edilməsi və təshihinə də Hökumət İşləri dəftərxanası baxacaqdır.

5) Təb’ və nəşr edilənlər bir qədər cəm olduqdan sonra ümumi surətdə tərtib edilib hökumət müəssisələrinə göndəriləcəklərdir.

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Ticarət və Sənaye Nəzarətində

Gürcüstan Hökuməti siyasi nümayəndəsi Ticarət və Sənaye Nəzarətinə müraciətən rica etmişdir ki, Gürcüstanla Azərbaycan miyanındakı [arasındakı] mal mübadiləsi müqavilənaməsi mövcibincə [əsasında] hökumət üçün 300 min put neft buraxılsın, Ticarət və Sənaye Nəzarəti həman miqdar neftin buraxılması barəsində əmr vermişdir.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində

* Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] müavinət bürosu Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Müdafiə Nazirliyinə] müraciətən rica etmişdir ki, Ticarət və Sənaye Nəzarəti indində [nəzdindəki] büroya darüleytam [yetimxana] çocuqlarına paylanmaq üçün 30 min arşın bez verilməyi barəsində lazımi iqdamatda [təşəbbüsdə] bulunsun.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti[nin] təsəvvüründə, Şamaxıda bir uşaq koloniyası açılacaqmış. İşbu müəssisədən ötrü Kələntərovun bağı layiq görülmüşdür. Nəzarət, Ərazi Nəzarətinə müraciətən bu bağı həcz [müsadirə] etməyə mümaniət [maneçilik] olub-olmaması barəsində isticvabda [sorğuda] bulunmuşdur.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şamaxıda 50 nəfərlik bir darüləcəzə [qocalar evi] açmaq istəyir. Bundan dolayı, Daxiliyyə Nəzarətinə müraciətən layiqli görülmüş Lalayevin evini həcz etməyə mümaniət olub-olmamasını isticvabda bulunmuşdur.

* İrəvan Həmvilayətlər Cəmiyyəti sədri İrəvan qaçqınlarına müavinətdə bulunmaq üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti indində təşəbbüsatda bulunmuşdur. Nəzarət qaçqınların əhvalı barəsində məlumat istəmişdir.

* Əhali üçün əlvan bəzzaziyyə malı gətirmək qəsdi ilə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti, Ticarət və Sənaye Nəzarətindən İranla mübadilə etmək üçün 10 min put cövhər istəmişdir.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən açılan müavinət müəssisələri qüvveyi-maliyyəsini [maliyyə gücünü] artırmaq qəsdi ilə imtahan edilir ki, neftin putundan 3 qəpik vergi alsın. Nəzarət, Neftçilər İttifaqından bu barədə məlumat istəmişdir.

DİLİMİZƏ HÖRMƏT EDİLSİN

Bizə pək də eyi nəzərlə baxmayan bəzi Avropa mütəfəkkirləri türk millətinin istedad və qabiliyyəti-mədəniyyədən məhrum olduğunu irəli sürürlər! Halbuki bunlar qüruni-vüstada [Orta əsrlərdə] möhtəşəm bir islam mədəniyyəti mövcud olduğuna qaildirlər [inanırlar]. Mədəniyyəti-islamiyyənin amilləri araşdırılsa, ərəblər və farslar qədər, türklərin, türk alimlərinin dəxi təsiri olduğu aşkardır. Ərəbcə yazılan asari-müxəllədənin [öl-

məz əsərlərin] ən nəfisi, türk alimləri tərəfindən yazılmış olduğu, inkarı qabil olmayan bir həqiqətdir. Türklərdən farsca asari-ədəbiyyə [ədəbi əsərlər] təlif edənləri [qələmə alanları] yazmaq üçün böyük tərcümeyi-hallar kitabı təlif etmək icab edər. İddia edildiyi kimi, türklər təb'ən istedad və qabiliyyətsiz olarlarsa, hər vaxt eyni qabiliyyətsizlik təsiri altında heç bir mövcudiyyəti-elmiyyə göstərəmməzlərdi. Halbuki, ən qiymətdar əsərlər meydana gətirən türk müəllifləri idi. Qüruni-vüstada müəssisati-elmiyyəsi [elmi qurumları] ilə məşhur olan və Əndəlüs üləmasından [alimlərindən] heç də geri qalmayan alimlər yetişdirən Səmərqənd, Buxara, Xarəzm şəhərləri türk vətəni və orda yetişən ən məşhur müsəlman alimləri yenə türk övladı idilər. Şu halda türk irqinə istinad edilən "istedadsızlıq" iftiradan başqa bir şey olammaz.

Yalnız, bizim də etirafına məcbur qaldığımız bir şey varsa, o da türklərin şimdiyə qədər kəndi milliyyətlərinə qarşı irtikab etdikləri [törətdikləri] qeyri-qabili-əfv [bağışlanmaz] cinayətləridir. Türklər qədər kəndi milliyyətinə biganə qalan heç bir millət təsəvvür ediləmməz. Türklər daima başqaların[ın] hesabına çalışmış, daima başqasına şərəf qazandırmış və bu xidmətlərinə qarşı olmaq üzrə eyni millətdən təhqir və təzyif [həqarət] eşitmişdir. Bu iddianı isbat etmək üçün bir az tarix səhifələrini qarışdıracaq olarsaq görəriz ki, zühuru-islamı mütəaqib [İslamiyyətin meydana çıxmasından sonra] ərəblərlə münasibət peyda edən türklər, dərhal ərəb əbasına büründülər. Milli ənənələrini, adətlərini, tarixlərini, vəlhasil hər şeylərini unudaraq, var qüvvəti ilə ərəbləşməyə çalışdılar. Adları ərəbcə, libasları ərəb libası, evlər ərəb evi, xülasə türklüyə aid şeylərin qalması qəbahət imiş kimi tamamilə çıxardılar, atdılar. Müəlliflər, şairlər, ədiblər daima ərəb ruhunda, ərəb lisanında yazdılar. Bundan sonra farslarla münasibət peyda edən türk mühiti var qüvvəti ilə farslaşmağa çalışırdı. Artıq, bütün ənənə, adat [adətlər], tərzi-məişət farslaşırdı. Artıq, isimlər Abdulla, Əbdürrəhman, Seyfəddin, Hüsaməddin şəkillərindən çıxıb, Keykavus, Cəmşid, Firidun, Təhmasib şəkillərini alırdı. Artıq, şairlər bəzmi-Cəmşid, zülfi-səmənbu, saqiyi-xoşrəv, meyi-düsalə, məhbubi-çahardəh-salədən bol-bol bəhs edirlərdi. İş bununla da qalmayırdı. Bunlara qarşı kəndilərinə türk denilincə, ən böyük həqarətə məruz qalmış kimi qızırlardı.

Ruslarla münasibət başlar-başlamaz, bir qismimiz həman rus boyasına boyandıq. Əski adətimiz mövcibincə ruslaşmağa çalışdıq. Bizim mənsub bulunduğumuz bir millətin mövcudü ədəmindən [varlığından-yoxluğundan] xəbərimiz belə olmadı. Bizim də bir mövcudiyyəti-milliyyəmiz, bizim də bir şərəfi-millimiz, bizim də bir namusi-millimiz ola biləcəyini xatirimizə belə gətirmədik. Əvvəla kəndi ixtiyarımızla düşdüyümüz girdaba, sonra nim-məcburi [yarı-məcburi] bir surətdə atılırdıq.

Milli təlim və tərbiyə, sərbəstlik nemətindən məhrum edilmişdi. Bizim üçün açılan hökumət məktəbi bizə rus ülum və fünununu öyrətməkdən ziyadə bizi Nikolayı təqdis edən [müqəddəsləşdirən] mütəəssib bir mujik yapmağa çalışırdı.

Binaənlieyh, surəti-xüsusiyyədə yetişdirilən missionerlər müəllimlik namı ilə bu məktəblərə göndərilirdi. Artıq işimiz təhlükə yolunu tutmuşdu. Qabiliyyətitəmsiliyyəmizə bir də mahir missionerlərin dəssas tədbirləri inzimam edincə [əlavə edildikdə] bir qaç sənə içində milliyyətimiz, türklüyümüz və buna aid bütün hissiyyatımız aramızdan uzaqlaşıb gedəcəkdi. İşin vəxamətini anlayan münəvvərlərimiz [ziyalılarımız] millətin qulağına intibah əzanını oxumağa başladılar, fəqət nə çarə ki, insaniyyətlə əlaqəsi olmayan və bütün səadətini təbəəsinin cəhalətində arayan Nikolay hökuməti bunları vətənlərindən tərd etdi [qovdu].

Nəhayət, bu gün əsərləri ancaq tarix səhifələrində qalan bütün zalım hökumətlər kimi, Nikolay hökuməti də yıxıldı, parçalandı. Əsarət altında əzilib inləyən bütün məhkum millətlər kəndilərini idarə etmək haqqını bilfeil qazandılar. Uzun zamanlar istiqlal eşqi ilə yanan qəlblərə sərin ümidlər sərildi. Nəhayət, bu gün Lehistan, o biri gün Ukrayna... Arxa sıra böyük sürur [sevinc] dalğaları arasında istiqlallarını elan etdilər. Ən ziyadə əzilən biz olduğumuzdan dolayı, ən əvvəl istiqlalını elan edən də biz olmamız icab edirdi. Lakin səciyyeyi-milliyyəmiz arasında kökləşən “xatirnəvazlıq” xəsisəsi [xüsusiyyəti] bizi ən sonra elani-istiqlal etməyə məcbur etdi. Nəhayət, ümumi cərəyanlara qarışdıq, biz də istiqlalımızı elan etdik. Etdik, amma bizim istiqlalımız Rusiyada olan gürcü, erməni və sair millətlərin istiqlalından pək fərqli qaldı. Onlarda ümuru [işləri] əllərinə alar-almaz əvvəl-əvvəl hər şeylərini milliləşdirməyə başladıqları kimi, müamilati-rəsmiyyələrini dəxi milli lisanlarında icra etmək üçün də heç bir dəqiqələrini fövt etmədilər.

Millətlərə saheyi-siyasət və mədəniyyətdə bir mövqeyi-məxsus təyin etdirən, ancaq milli lisanlarıdır. Bir millətin dərəceyi-tərəqqi və təkamülü ancaq lisanları ilə ölçülür. İştə, bunu fərq edən millətlər kəndilərini səhneyi-siyasət və mədəniyyətdə bariz bir surətdə göstərmək üçün birinci işləri rəsmi müamilələrini milli lisanlarında yapmaq oldu. Halbuki, bizim rəsmi dairələrimizdə işlər hələ rus dili ilə görülür.

Əcəba nədən?!

Bu suala cavab vermək üçün üç ehtimal xatirə gəlir:

1. Bəzi kimsələrin və bilxassə ümumiyyətlə avam təbəqəmizin düşündükləri kimi məmləkətimizdə bulunan bir qaç rus vətəndaşlarımızın xatirlərini saydıqda, ondan dolayı rəsmi müamilələrimizi rusca görürüz. Dimağlarımızda yerləşən əski xatirnəvazlıq səciyyəsi dolayısı ilə bu ehtimal xatirə gəlir. Fəqət mənafeyi-milliyyəmizlə qeyri-qabili-təlif [uzlaşması mümkün olmayan] və arzuyi-ümumiyə müxalif olan bu ehtimalı pək uzaq görürəm. İş başında bulunan zəvatın, böylə bir qaç kimsənin xatiri üçün mənafeyi-milliyyəni fəda edəcək adamlar olmadığına qaniyəm. Fərzi-muhal [uzaq, demək olar ki, imkansız bir ehtimal] olaraq işbu səbəbdən dolayı ruscanı qullanırsaq, bu dəfə də ən böyük xətanı irtikab etmiş olacağız. Çünki, yarın bizə qarşı “Siz istiqlala müstəhəqq bir millət olsa idiniz, əlbəttə sizin də bir diliniz olacaqdı, halbuki, qullandığınız dil bizim dildir”, - deyə bağıran yenə bizim xa-

tirlərini saydığımız rus vətəndaşlarımızın bir qismi olacaqdır. Nitəkim, böylələri bizi təkrar əsarət və məhkumiyyət altına soxmaq üçün əllərindən gələni əsirgəməyirlər. Kəndi dilimizdə qonuşmağa başladığımızı görüncə, "Xeyr, olmaz! Rusca danışmalı", - deyə bağırırlar.

2. Dilimizin təkamülati-hazirəsi [hazırki inkişaf səviyyəsi] məmləkət idarəsinə kafi olmadığından, rəsmi müamilələrimizi türkcə yapmadıq və yaxud yapammadıq. İştə, qəlbimizə rəşeyi-xüsran verən [qəlbimizi kədərlə sarsıdan] və gözlərimizi məğmum-məğmum yaşartan əlim bir hadisə!

Əsrimizin əqlə heyrətlər verən tərəqiyyatı arasında dilimizin hələ müamilatımıza kifayət edəcək dərəcədə bulunmaması nə dərəcədə şayani-əsəf [təəssüf ediləcək] bir hal! Lakin bu ehtimal da doğru olammaz. Çünki dilimiz müamilati-rəsmiyyəmizi əcnəbi bir lisanla icraya məcbur edəcək dərəkəni çoxdan keçmişdir.

Vaqeən, fransız, alman, rus lisanları dərəcəsində olmadığını etiraf etməyə məcburuz. Fəqət, olduqca oxulur, yazılır bir lisan olduğunu da kimsə inkar edəmməz, bilxassə milli intibahın az-çox runüma olduğu [özünü göstərdiyi] zamandan bəri dilimiz də olduqca ilərilәmiş bir halda bulunur. Kəndi ehtiyacımızın mübhəm bir qismini ifa edə biləcəyində şübhə yoxdur. Bu gün qırıq-dökük bir halda olsa belə, ehtiyacımızı təmin edən dilimiz, bir az hörmət və etina edildiyi təqdirdə, yarın bütün ehtiyacımıza kafi gələcək bir hal kəsb edəcəyinə [bir vəziyyət alacağına] əmin olalım. Qaba, əski-püskü olub da bizim malımız olan bir şey, nazik və nəfis olub da "əcnəbi" olan şeylərdən daha eyi deyilmi?

3. Dilimizi oxuyub yazanlarımızın kafi dərəcədə olmayıb, az bulunması, ki ən qəvi [güclü] ehtimal da budur. İştə, minlərcə illər milli hislərə biganə olaraq yaşamamızın bizə yadigar buraxdığı müdhiş bir fəlakət! Məmləkət idarəsi üçün kifayə edəcək miqdarda rusca bilənlərimiz bulunduğu halda, kəndi dilimizi bilənlər bulunmaması bizi nə qədər düşündürsə, nə qədər məhzun edərsə, yenə azdır. Halbuki, yanı başımızda bulunan, daha dünə qədər eyni məhkumiyyət, eyni şəraiti-həyat altında yaşayan gürcü və erməni qonşularımız böyləmidir? Onlar nə qədər rusca öyrənmişlərsə, o qədər də kəndi dillərini öyrənmişlərdir. Çünki onlarda milli hiss, milli duyğu vardı.

Artıq namusi-millimizi təmizləmək istərsək, tam mənası ilə hürr və müstəqil olaraq yaşamaq arzu edərsək, milli dilimizi təqdis edəlim və onu öyrənmək üçün ən qısa yollar arayalım, vəssəlam.

Daşkəndli Xalid Səid

YANIQLI BİR XƏBƏR

Bu gün 27 kanuni-sanidə [yanvarda] 98 nömrəli "Azərbaycan" qəzetəsində yanıqlı bir xəbər oxudum. Bu xəbər yalnız məni deyil, Ömər Faiq Nemanzadə cənablarını tanıyır [tanıyan] hər kəsi, hər fəhlə və kəndçi qardaşını düşündürdü, ürəklərini qana döndərdi. Azərbaycan türkləri arasında kəndi qələmi ilə ən məşhur və möhtərəm bir ad qazanmış

Ömər Faiq əfəndinin həbsdə olmasını eşidən azəri və ümum qafqazlılar bu işə atəşli protestolar etməzmi? Azərbaycan türkləri kəndilərinə ən doğru bir dost, azadlığa ən çox meyli olan bir camaat, azadlıq, doğruluq və bərabərcə yaşamağı hər vaxt cünbüşlə istər bir məmləkətdə çox heyflər olsun ki, böyük bir yazıçı və diqqətli bir ədibi, zəkavətli bir millət qəhrəmanını həbsxanada görür. Bu acı hal onlara fövqəladə bir təsir bağışladı. Fəqət fikri açıq, ürəyi saf, duyğusu ən parlaq bir millət, gözəl gürcü milləti, bunu, bu ədalət və insafdan uzaq halı qəbul etməsə gərək. Ona görədir ki, bu gün, yarın möhtərəm və sevgili ədibimiz Ömər Faiq Nemanzadə cənablarını gürcü milləti, gürcü demokratiyası azad edəcəyini Azərbaycan kəndçi və fəhlələri dörd gözlə bəkləyir və ümidvardır ki, Azərbaycan və Qafqaziya türkləri ədəb bağçalarının ən qiymətdar bir qönçəsi sayılan Faiq əfəndi həbsdən əlbəttə azad olar. Fəqət acınacaq bir hal varsa, o da gürcü milləti, gürcü demokrat və hökuməti şu mükərrəm [möhtərəm] şəxsi qatil və quldurlarla bir yerdə həbsxana kameralarına soxmağı öz şan və şövkətinə rəva görməyidir.

Səmədəli İsgəndərzadə
(Kəmərli)

BAKI XƏBƏRLƏRİ

Bələdiyyə İdarəsində

Bələdiyyə İdarəsi Bakı polismeystrinə müraciətən xəbər vermişdir ki, axır vaxtlarda polis müfəttişləri Bələdiyyə İdarəsinə müraciət edərək, işıq və odun istəmişlərdir. Bələdiyyə İdarəsinin xəzinəsinin halını nəzəri-etibara alaraq rica edilir ki, Bələdiyyə İdarəsini işbu məxaricdən azad edəsiz.

* Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat” Sabunçu şöbəsinin müdiri Sabunçu kəndində və mədən dairəsində olan arxadaşlardan xahiş edir ki, necə ki, sabiqdə -1917-ci ildə, yanvar ayının 12-ci günündə - Sabunçu kəndində “Müsavat” şöbəsi güşad olmuşdu [açılmışdı], həman idarə genə öz yerində bərpa olduğu üçün öz xadimlərinə ixbar edir [xəbər verir] ki, tezliklə öz vəzifələrinin ifasına başlasınlar. Neçə mühüm məsələ var ki, həll olunacaqdır. İdarə Maskovski küçədə 172-ci nömrəli Mir Əbutalib Seyid Əkbərzadənin mənzilindədir.

İclas

Bu gün, pəncşənbə [cümə axşamı] saat 6-da, Azərbaycan Məclisi-Məbusanı “Müsavat” fraksiyasının iclası təyin edilmişdir.

Kooperatif dükanının qarət edilməsi

Bayıl “Delo” kooperatif dükanının müdiri Şişkin Birinci uçastok pristavına məlum etmiş ki, keçən gecə naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən dükanın qıfılı sındırılıb dükandan 13984 manatlıq əşya qarət edilmişdir. Oğrular tapılmamışdır.

İkinci Realnı məktəbində

İkinci Realnı məktəbində “Əbəveyn [valideyn] şurasının təşkilatı” və həman məktəbin müdiri, möhtərəm əbəveyn-

dən və məktəbdə olan mütəəllimlərin qəyyumlarından təvəqqe edirlər ki, cümə günü, yanvar ayının 31-də, səhər saat 10-da ümumi iclasa təşrif gətirsinlər. Siniflərdən nümayəndə müəllimlər şurasına və Əbəveyn şurasının təşkilatına namizədlər intixab etmək barəsində iclasda müşavirə olunacaq. İclas İkinci Realnı məktəbinin təzə binasında, Şamaxı küçəsində, sabiq Lalayev[in] evindədir.

* Cümə günü, yanvar ayının 31-də, gündüz saat 1-ə Bakıda yaşayan şamaxılıların iclası təyin olunubdur. Xahiş olunur, müəyyən [təyin edilmiş] vaxtda Azərbaycan Parlamanının zalına gəlsinlər.

İctimaiyyun füqərası

Qarabağa Ərzaq Nəzarəti tərəfindən vəkil göndərilməsi

Ərzaq Nəzarəti Qarabağ mahalında, yəni Cavanşir, Şuşa, Zəngəzur və Qaryagin uyezdlərində ərzaq işlərini qaydaya salmaq üçün öz tərəfindən bir nəfər vəkil göndərməyi təhti-qərara almışdır. Bu vəkil özü ilə həman mahalların əhalisinə paylamaq üçün külli miqdarda ərzaq və sair zəruri mal aparacaqdır.

MÜSRİ XƏSTƏLİK

Müsri [yoluxucu] xəstəliklərlə mübarizə edən komitə tərəfindən səpmə yatalaqdan mühafizə çarəsi

Hal-hazırda şəhərdə səpmə yatalaq azarı hökmfərmadır [hökm sürməkdədir]. Bu xəstəliklə mübarizə etməkdən ötrü xəstəxanalar və qeyri çarələr görülməkdən başqa, hər kəs özünü bu xəstəlikdən qorumalıdır. Bunu nəzərə almalıdır ki, bədəndə olan bitlər bu azarı bir adamdan başqasına keçirirlər. Azarlının bədənində olan bit, azarlının qanını sorduqdan sonra salamat adamın bədəninə keçdikdə, onu da azarladır. Azarlı adam özü-özlüyündə o qədər qorxulu deyildir. Qorxu ancaq həmin azarlının bitlərindədir. Buna görə səpmə yatalaqdan xilas olmaq üçün bitlərin və bədəndə olan çirkin rəf olunmasına [aradan qaldırılmasına] artıq diqqət etməlidir. Bitləri təmizləməkdən ötrü bu aşağıdakı məsləhətlərə əməl etməlidir:

1. Tüklər arasına bit düşdüyü zaman tükləri təmiz qırxdırıb, bütün bədəni isti su və sabunla yumalıdır. Hərgah, bədəndə həşərat çox olsa, o zaman bədəni "sabadilovıy uksus" və ya "nasekomoyad" [həşərat zəhəri] suyu ilə yumalıdır (gözləri bu sudan qorumalıdır).

2. Yatacaq paltarını isti suda qaynatmaq və ya "nasekomoyad" suyunda islatmalıdır.

3. Paltar və yorğan-döşəyin tikiş yerlərini "nasekomoyad" ilə sürtməlidir. Bunların hamısından yaxşı paltarları və yorğan-döşəyi sihhiyyə kamerasına (Persidski və 5-ci paralelni küçələrin küncündə, telefon 6-34) göndərməli. Göndəriləcək şeyləri diqqətlə bir kisəyə doldurub, kisəni "nasekomoyad" suyu ilə islatmalıdır.

4. Bitləri evdən təmizləməkdən ötrü evin divarlarını, fərşi [döşəməni], çarpayıları sabun, neft, karbolovi kislota [karbalol turşusu, fenol], daha yaxşısı "nasekomoyad" ilə yumalıdır.

“Nasekomoyad” hazırlama üsulu

1. Bədəni yumaqdan ötrü iki faizli “nasekomoyad”, yəni həşəratı məhv edən zəhərli su lazımdır. İki faizli su hazırlamaq üçün bir vedrə suya ¾ “nasekomoyad” qatmalıdır.

2. Paltarları yumaqdan ötrü 10 fa-izli “nasekomoyad” hazırlamaq üçün bir vedrə suya üç girvənkə “nasekomoyad” qarışdırmalıdır.

3. Evdə divarları, çarpayıları və fər-şi yumaqdan ötrü beş faizli “nasekomoyad” üçün bir vedrə suya girvənkə yarım “nasekomoyad” qarışdırmaq lazımdır.

FƏHLƏ HƏYATINDAN

Təşəkkür və etiraz

Müdir əfəndi! Zeyldə [aşağıda] yazılmış təşəkkür və etiraza dair cümlələrin dərcinə lütfən müsaidə buyurmağınız mərcudur [rica olunur].

29 kanuni-sani [yanvar] caharşənbə günü saat 2-də bə’dəzzəval [günortadan sonra] “Müsavat”ın Balaxanı mədən mərkəzi şöbə idarəsində heyəti-idarə əzasının və ətraf mədənlərdə işləyən müsəlman fəhlələri nümayəndələrinin iştirakı ilə iclas tərtib edilərək əlahəzrət İngiltərə kralı nümayəndəsi general Miln cənabları hökumətimiz rəisi həzrətləri ilə müsahibə əsnasında Azərbaycan Hökumətini rəsmi tanıdığını bildirməsi, sosialist adını daşıyan Gürcü Hökuməti hürriyyəti-vicdanı tapdalayaraq bütün Azərbaycan türklərinin möhtərəm saydıqları mühərrirlərinin cümləsindən olan Faiq əfəndini həbs və təhqir etmək məsələləri müzakirə edildi. Nəticədə hüquqi-milliyyəmizə ehtiram edən general Miln cənablarına başda azərbaycanlı türk qardaşlarımız olduğu işçilər nümayəndələri iclası namindən təşəkkürati-səmimanələrini təqdim etmək və Faiq əfəndinin həbs və təhqiri münasibətilə bütün Azərbaycan türklərinə qarşı hətki-hörmət [hörm] etmiş olduğundan dolayı Gürcüstan Hökumətinə şiddətli etiraz edilib də, bir an əvvəl Faiq əfəndinin azad edilməsini tələb etmək qərara alındı.

Sədr: Mirzəağa Kərimzadə
Katib: Yusifzadə Əbdürrəhim

BEZ FƏQƏRƏSİ
[BEZ MƏSƏLƏSİ]

Tağıyev fabrikasından alınan bez barəsində Ərzaq naziri vəkili Yusif Əliyev cənabları məlumat cəm edərək, dekabr ayından bəri yanvarın 23-ünə kimi buraxılan manufaktur xüsusunda zeyldəki [aşağıdakı] məlumatı almışdır:

Musiqi dəstəsi üçün verilib bez bir tay.

Parlamanda “Hümmət” fraksiyası naminə buraxılıb kətan 9 top, qətifə 12 ədəd.

Kərbəlayi Əliisgəndər Aşurov naminə buraxılıb bez 150 arşın, qətifə 3 ədəd.

“Fantaziya” hamamı üçün buraxılıb Kərbəlayi Salar Qafarova bez 4 min arşın.

Parlaman üçün buraxılıb bez 1000 arşın, kətan 93 arşın, qətifə 279 ədəd.

Hacıbaba Ağababa oğluna buraxılıb bez 1 tay.

Bakı mahal məhkəməsi sədri Perçi-

xinə verilib bez 2 top, kətan 2 top, bomazı 2 top, bayka 2 top və qətifə 24 ədəd.

Şuşa upravası üzvü Məhəmməd Tağıyevə Şuşa ərzaq idarəsi üçün buraxılıb bez 25 min arşın.

Küknə kəndi camaatı üçün Hacı Zeynalabdin Tağıyevə verilib bez 5 min arşın.

Abbasqulu Kazımzadəyə buraxılıb bez, kətan, bomazı, madapolam, hərəsindən bir top və qətifə 6 ədəd.

Qulam Musayevə buraxılıb bez 500 arşın.

"Təbriz" mehmanxanası sahibi Hüseyn Ağayevə verilib bez 1000 arşın, kətan 500 arşın, bomazı 60 arşın, qətifə 50 ədəd.

Nəzarət dava vəkili Zaydlerə verilib bez 1 top, kətan 2 top, bomazı 2 top.

9-cu rus-türk məktəbi müəllimi Rəsul bəy Tahirova buraxılıb madapolam 2 top, bez 2 top, kətan 1 top, qətifə 12 ədəd.

Qəbristan naziri S. İ. Konikova buraxılıb bez 1000 arşın, tənzif 10 min arşın.

Narodnı Xozyaystvo [Xalq Təsərrüfatı] Xalq maliyyəsi şurası naminə buraxılıb bez və kətan hərəsindən 16 top.

Tağıyevin baş kantoru qulluqçuları üçün buraxılıb plis, kətan hərəsindən 7 top, süfrə və əl dəsmalı hərəsindən 14 ədəd.

Ticarət və Sənaye Nəzarəti vəkili Gerasimova buraxılıb bayka 15 top.

Aptekxana sahibi Ermansa buraxılıb tənzif 5 min arşın.

Ərzaq Vəzarəti xidmətçiləri üçün buraxılıb bez, bomazı, kətan hərəsindən 25 top və qətifə 12 dujin yarım.

Birinci Ünas məktəbi nazirəsi üçün verilib bez, bomazı, kətan hərəsindən 6 top və qətifə 1 dujin yarım.

Tağıyevin "Leyla" adlı barkazı qulluqçuları üçün buraxlıb bez, bomazı, kətan hərəsindən 7 top və qətifə 3 dujin yarım.

GÜRCÜSTANDA

Lazistan

Batumda nəşr olunan "İslam Gürcüstan" qəzetəsi zeyldəki məlumatı verir:

Məlum olduğu üzrə İstanbulda yunanlar tərəfindən bir komitə təşkil edildiyi və bu komitənin məqsədi Pontus padşahlığı təsis etmək olduğu şaye olmaqda [deyilməkdə] idi. Lazistan şimdi hazırlaşır ki, öz doğma yurdunu təcavüzlərdən xilas eyləsin və yunanlıların bu planlarına müsaidə verməsin.

* Gürcüstan dəmiryol nazirinin əmri ilə dəmiryollarında idareyi-əsgəriyyə ləğv edilmişdir.

TEATRO VƏ MUSİQİ

Cümə günü, yanvarın 31-də Hacıbəyov Qardaşları Müdiriyyəti tərəfindən Hökumət Teatrosunda (sabiq Mailov) bu mövsümdə ikinci dəfə olaraq Zülfiqar bəy Hacıbəylinin yazmış olduğu məşhur "Aşıq Qərib" operası təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır. Bu operada qız və oğlan xor dəstələri (balet) dəxi olacaqdır. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır. Biletlər indidən teatrın kassasında satılmaqdadır.

Arvad diş həkimi Platonova

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi. Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

2664

Arvad diş həkimi
M. S. İdaşkina

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

2629

Petroqraddan gəlmiş diş həkimi
M. B. Şternin

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

2642

Doktor
Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

2603

Doktor
Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Doktor İ. Q. Sibiroviç

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

2658

Doktor Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Doktor Larionovun

Qadın və cərrahiyyə azarxanası (Bazarnı və Qubernski küçələrin küncündə) naxoşlar qəbulunu təzələmiş. Azarxanada yatmaq istəyən naxoşları həməvəqt [həmişə] və gələn naxoşları səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Qadın naxoşluqlarına doktor V. Q. Mitrofanov.

Cərrahi xəstələrindən:

Doktor A. İ. Akinşeviç;

Doktor Mir Əsədulla Mir Qasımov.

2666

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri

səh. 504. "Qar dö-Orsedə": qəzetdə "Den Orsedə" kimi getmişdir.

Qəzetələrdən

səh. 504. "...məramnamə hazırlanmışdır:": məramnamənün maddələri qəzetdə "1, 2, 4, 5" kimi nömrələnmişdir.

"Kutluca": qəzetdə "Kutulca" kimi getmişdir. Digər adı Kuturca. Hal-hazırda Yunanıstanın sərhədləri daxilində qalan Kotronia nəzərdə tutulur.

Müsri xəstəlik

səh. 511. "sabadilovıy uksus": əsasən Mərkəzi və Cənubi Amerikada yetişən sabadilla [Schoenocaulon officinale] bitkisindən əldə edilən məhlul parazitlər əleyhində istifadə edilmişdir.

Fəhlə həyatından

səh. 512. "...başda azərbaycanlı türk qardaşlarımız...": qəzetdə "başda" yerinə "başqa" getmişdir.

Bez fəqərəsi

səh. 513. "bayka": yumuşak pambıq parça

"madapolam": yüngül çit parça.

"plis": məxmərə bənzər parça növü.



جمعه ۲۸ ربیع‌الاخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۳۱ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۱۰۲

آذربایجان

تورك و اسلامله مفید مقالهلره صحیفه ارمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالهلك مکافاتی اداره تعین ایدیور.

اعلان قیمتی: سطری ۳ روبله گرائه گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ » ۳۲ »
۳ » ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ » ۳۵ »
۳ » ۵۰ »

محل اداره:
باکو، وورونسوفسکی وغوربانسکی کوچهلرك کنجینده ۴ نومرولی ایوده

«آذربایجان» اداره‌سی،
تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

گونده‌لك سیاسی، اجتماعی، ادبی، اقتصادی تورك غزته‌سیدر.

انا لله و انا الیه راجعون

حاجی غنی حسین اوف کمال یاس و تحسرایله اوز سوکیلی قرداشی

حاجی خالق حسین اوف

مقتول اولدوغنی اوز قوم اقربا و دوست آشنالرینه خبر ویرور.

جنازه بو گون یانوار آیدك ۳۱نده ساعت ۹ده مرحومك تسیرقوونی کوچه‌ده ۶۵ نومرولی ایویدن قاسم‌بك مسجدینه آپاریلاجاقدر.

2667

مسلمان خانمی

فرانسیزجه، آلمانجه موسیقی و غیری درسلر ویریور. سوراخانسقی کوچه‌ده ایسو نمرو ۱۷۶ رجوع‌فك ۲ نمرولو منزلینده. 2665

گیدورم

بویافین گونلرده وعکتوب ایله باشقه وثیقه و پیش کاغذلرینی برینه بتورمك ایچون قبول ایدیورم: اودسایه، کیفه، لهستانه، بالطیق برلرینه جواریه موسقوایه، پترابرغه. مراجعت ایچون: آرمیان- سقایا سوقاقده ۴۵ نومرهلی ایوده ۱نجی منزلده تلفون ۵۱-۳۳. 2668

دوقتور علی‌حیدر الله‌وردی‌اوف

داخلی ناخوشلاری قبول ایدیر:
سحر ساعت ۸ دن ۱۰ دك
آخشام ساعت ٤ دن ٦یه دك
ایچری شهره مالی‌قرنیوسقایوی کوچه‌ده ۸نمرولو ایوده تلفون نمروسی ۹۱-۳۶
Малая-Крѣпостная ул. д. № 8.
Телефонъ № 36-91

جدیت گرك!

هر بر حکومت، بالخاصه یکی تا دونمق اوزره اولان حکومتلر ایچون هر شیدن اول حیات و فعالیت ایزی گوسترمکدر. بو حیات و فعالیت ایزی گوسترمکدن عبارتدر که حقوق ملیه، اختیارات عامه بولانار معنویات در. بو معنویات هر بانسه اولدیغی کبی بزده‌ده جماعتدن بالکز بر قسمنك، ادراکی برقسمنك روحنی، ذهنی اشغال ایده بیلر. اهالیدن فعالکار بر قسمی کچردیکمز مشکلاتك بر حالدن دیکر حاله کچمك زمانه عائد موقتی بر حال اولدیغنی درك ایله. اوقدر تاراحتلیق کوسترمه‌دن هر نوع مشقتلره تحمل ایده بیلر. فقط خلقك اکثریتی طبیعدر که بو حالده اولامازلر.

خلقی هر شیدن اول حکومتی، اونك حر کتلری، فعالیتلری ایله طانیه بیلر. بوحرکتلر آراسنده آسایش ایله امنیت برنجی درجه‌ده مهمدر.

خلقی امنیت و آسایش اعتباریله راضی اولدیغی زمان بر حکومت هیچ شبهه‌سز که باری یاری‌یه بقاء سنی تامین ایله‌مش، دیمکدر.

حکومتمز مجلس مبعوثان کورسیسندن ایراد ایله‌دیکی بیاناتمه‌ده بو نکته‌یی ایی درك ایلمه دیکنی اظهار ایله‌مشدی. فقط بوراده بز قید ایتمك مجبوریتنده بز که بو خصوصده حکومت لزومی درجه‌ده اثر فعالیت کوسترمه‌مشدر.

دمیر بولدرمه حادث اولان وقعه‌لرك تکرار وجوده کلمه‌سی ایچون حکومت تدبیرلر کوربور. بز بو تدبیرلرك بر آن اول ثمره‌دار اولماسنی ایستهرز. فقط بونکله برابر شهرمزك دخلی امنیت و آسایشه باغلانیر. بیلیورز که شهرمزده بر چوق اولان بر شهری یکی یکیدر دسه‌لری ایله دولدورمازدی.

فقط بو کبی سیار حکومتی طبیعدر که دها جدی تدبیرلر کورمکه وادار ایتمه‌لیدر.

شهرده اوغوراق جوغالمش، دون، حیرت انکیز برحادثه شاهد اولدق. جانلق یواش یواش آرتماغه باشلادی. پولیس وظیفه‌سی ایله متناسب بر درجه‌ده دکادر.

دیمك ایسته‌یورز که پولیس اداره‌منده بر نوع ضعف اداره کوروله‌مکده‌در.

بو ضعفك بر سببی شهرده اولان بر چوق نادنج عنصرلرك وجودی ایسه ده، دیکر جهتدن پولیس نفراتنك، ملیس‌لرك کیفیت‌اولدیغنه دخی دقت واعتنا ایدلمه‌لیدر.

پولیس‌ك باشنده آذربایجان منافعی ایله معناً علاقه دار آدملر اولمالی، اخلاقی دوزکون مأمورلر بولونديرلمالیدر. بونکله برابر حکومت مقامات عالیه‌سی أی آلتنده کی مأمورلرك اوستنده دائمی کوزتجی اولدیغنی تأیریله کوستر ملیدر.

خلقك امنیت و آسایشی کندیلرینه تأمین ایلمش اولان آدملر هر ساعت و هر دقیقه‌ده عهده‌لرینه کوتورد کاری مسئولیتی خاطرلامالیدرلر. اوظری صورغو و سؤاله چکه‌جك قوتی دائما باشاری اوستنده کوزه‌لیدرلر.

بونکله برابر برشیئ‌ده، حکومتك نظر دقتی جلب ایتمك ایسته‌یورز. پولیس ضابطه‌سنك آسایشی مواجب کندیسندن طلب اولونان وظیفه‌ایله متناسب دکادر. عادی بر عمله‌لك ۱۰۰۰ مناتدن زیاده مواجب آلدیغنی بر شهرده ۷۰۰ منات مواجب آلان بر محله بریستاوندن وظیفه شناسلق طلب ایتمك پك‌ده منطقه کلیر برشیئ دکادر.

حکومت، هرشیده قناعت ایدیرسه، ایشین، فقط مملکتك امنیت و آسایشه عائد خصوصلرده خیسلك کوسترمه‌سین. چونکه بو خست، قوت لایموتندن قناعت ایدن آدملك حالی‌در که وقتیله آت و أکمکسز اسیر کده‌یکنی، صوکره طبیب‌ایله درمانه ویرمك مجبوریتنده قالار.

بز داخلیه نظارتندن جدی تدبیرلر کیکین حرکتلر، تردددز عزمار ایسته‌رز. یونی یونون مملکت، یونون اهالی ایسته‌یور.

یو خصوصده آدم لازمه‌در، آدام، یارم آدمه‌ر یارم ویرمك ملتك بورجیدر. بو بورجی ملت اسیر کمز! عزم و فعالیت ایسته‌رز. همتمز آرتسین، جدیتمز جوغالسین!..

۴ ۰ ۱

آذربایجان مجلس مبعوثانده

(کچن نومرونك مابعدی)

سلطان مجید غنی زاده — (اتحاد) افندی‌یف جنابلرینك نظقینك صولك قسمنه اشتراك ایدمورك دیورکه:

البته پارلمان قصدا عدالتسزلك براقیلمز، لکن بونکله برابر سهوهیچك ممکندر، اوکا کوره بن تکلیف ایدردیم پارلمان شکی قضاسینه برویرسین. علاوه باکو قضاسینك پارلمانده اصلا نمایندکی یوقدر. هر چند ناطقلردن بریسی دیور که بز عمومی اهالی و عموم قضاری تمثیل ایدیورز، اما قضالرك پارلمانه نماینده سچمه‌لرینك‌ده بویوك اهمیتی وار.

محمد امین رسول زاده — (مساوات) بن بربارلمان عضوی و پارلمانك تشکیل ایدن سابق ملی شورا صدری صفتیله اعتبارنامه قومیسیونك نقطهٔ نظرینك دوغری اولدیغنی بارەسنده بر قدر ایضاحات ویرملیم. دیرلر باکو قضاسنده ۷ بیك نفوس وار. اگر باکو غرادوتاچالسنوسی چیقیلیه باکو قضاسنده ۱۵ یکدن زیاده نفوس یوقدر. مبعوثلق حقینی ۵۸ بیك سس کوتوردیکده البته که ۱۵ بیك نفوسه بروبریلمه‌دیکده بویوك خطا ایشلنمه‌مش اولور. دیکر طرفدن باکو همیشه قضا ایله جوق یاقین علاقه‌دمدر. بناء علیه باکو ملی نفوسه قضاییه‌دن تمثیل ایده بیلر؛ بالخاصه که دقت ایدیلرسه کوریلرکه بوراده اکثتن مبعوثلرك بر چوغی اوکوبدن بو کوبدن‌در. مثلا حاضرکی مبعوثلاردن برچسی مشقطعلی، دیکری شاغانلی، او برسی نوخالی‌در. بوتقطهٔ نظردن قضا نمایندهسزدکادر. البته بن‌دیمیورم پارلمانك قانونی نقصانسزدر. بو قانونی ویرلر مطلق صریح‌قانون ویردیکلرینی‌ادعا ایتمیورلر. پارلمان عمومی سیجکی آسایله سچیلمه‌مشدر؛ اونك بر چوق نقصانی اولا بیلر. آنجاق نظره آلمالیدر که بو پارلمان اصل مجلس مبعوثان اولمیوب اونك یدلی و موقت بر مؤسسه‌در، فقط مجلس مؤسسان دعوتنه دك موقت اولماقله برابر بو پارلمان مملکتك الك سلاحتدار بر مؤسسه‌سی‌در؛ اوکا کوره‌در که بز پارلمان قانونی تنقید ایدرکن عدالتمز یا عدالتسزلکدن دکل بو نقطهٔ نظردن باقمالیدر که قالدیرلان مسئله مقصده موافق میدر، دکلمیدر. بو کون پارلمان مسئله‌سی بالکز باکو یا شکی قضالیه حل اولونسیدی بلکه‌ده موافق کورلردی، فقط بزه معلومدر، که کنجه قضاسی‌ده نامنوندر، آغداش دخی نمایندهلکینك آرتیرلماسنی طلب ایدیور. بو کون بز باکو، باشکی قضالرینك ایسته‌دیکنه عمل ایتمه‌ك ایله سایرلرینك‌ده طلبی مقوله مجبور اولارز. هیچ که دیمك اولمازکه باکولك شکی‌نك طلبه‌عمل ایدیورز. سز کیمه بوق، اکر دیه‌کزکه بو ایکی قضا مستثنا دوتولسون. او وقت‌سایر قضالرده طلب‌ایدرلر، دیه بیلمزسکز که باکو و شکی‌یه استثنا اولار، استثنا‌اولا بیلمز. بو صورتله هامینك طلبه عمل ایتمك لازم کلر، اوحالده قانون هفته‌دن هفته‌یه دکشمرك قانونقدن چیقار. مجلس مبعوثانده بر مشیع شکلی آلار. بوکا کوره‌در که بز مجلس مبعوثانك کوکینی لافلاتماغه هیچ وقت راضی اولمامالی‌یز، بلکه شکی حقنده عدالتسزلك اولمشدره‌ده لکن بشون مملکته نسبته شکی بر جزودر، جزوك منافعی نامنه کاك منافعینی بوزمامق اولمازز. هیچ جزو کله فدا ایدیلمز. بناء علیه شکی حقنده بر عدالتسزلك اولمشدره‌ده لکن بشون خیری ایچون قانونه تابع اولمالیدر. که پارلمانك نفوذ و حیثیتی رخنه‌لنمه‌سین (آلقش).

عبدالله بك تکلیف ایدیور که مسئله قومیسیونه ویریلسین، او حالده ثبوت ایدرکه باکو ایله شکی‌دن باشقه هیچ قضا حقنده عدالتسزلك اولمامشدر.

سلطان مجید غنی زاده — بن ظن ایدیورم که پارلمان قانونی دکشمه نفوذی آزالماز. بالعکس قضانی دوزلتمه‌لیدر.

رستم بکلی شفیع بك — اعتبارنامه

“Azərbaycan” qəzetinin 102-ci nömrəsinin 1-ci səhifəsi

Cümə, 31 yanvar 1919-cu il, nömrə 102

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Cümə, 28 rəbiülaxir sənə 1337. 31 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İNNA LİLLAHİ VƏ İNNA İLAHİ RACİUN

Hacı Qəni Hüseynov kamali-yə’s və təhəssürlə [böyük bir matəm və kədərlə] öz sevgili qardaşı **Hacı Xaliq Hüseynovun** məqtul olduğunu öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir. Cənazə bu gün yanvar ayının 31-ində saat 9-da mərhumun Tserkovnı küçədə 65 nömrəli evindən Qasım bəy məscidinə aparılacaqdır.

2667

Müsəlman xanımı

Fransızca, almanca, musiqi və qeyri dərslər verir. Suraxanski küçədə ev nömrə 176. Rəcəbovun 2 nömrəli mənzilində.

2665

Gedirəm

Bu yaxın günlərdə və məktub ilə başqa vəsiqə və iş kağızlarını yerinə yetirmək üçün qəbul edirəm: Odessaya, Kiyevə, Lehistana [Polşaya], Baltik dəryası civarına, Moskvaya, Petroqrada. Müraciət üçün: Armyanskaya soqaqda [küçədə] 45 nömrəli evdə 1-inci mənzildə. Telefon: 33-51.

2668

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

CİDDİYYƏT GƏRƏK!

Hər bir hökumət, bilxassə yeni bina tutmaq üzrə olan hökumətlər üçün hər şeydən əvvəl həyat və fəaliyyət əsəri göstərəcək bir meydan vardır – asayiş və əmniyyət meydanı.

Hüquqi-milliyyə, ixtiyariyyati-ammə – bunlar mənəviyyatdır. Bu mənəviyyat hər yanda olduğu kimi, bizdə də camaatdan yalnız bir qisminin, idraklı bir qisminin ruhunu, zehnini işğal edə bilər. Əhalidən fədakar bir qismi keçirdiyimiz müşkülatın bir haldan digər hala keçmək zamanına aid müvəqqəti bir hal olduğunu dərk ilə, o qədər narazılıq göstərmədən, hər növ məşəqqətlərə təhəmmül edə bilər. Fəqət xalqın əksəriyyəti, təbiidir ki, bu halda olammaz.

Xalqı hər şeydən əvvəl hökuməti, onun hərəkətləri, fəaliyyətləri ilə tanıya bilər. Bu hərəkətlər arasında asayiş ilə əmniyyət birinci dərəcədə mühümdür. Xalqı əmniyyət və asayiş etibarilə razı salan bir hökumət, heç şübhəsiz ki, yarı-yarıya bəqasını təmin eyləmiş deməkdir.

Hökumətimiz Məclisi-Məbusan kürsüsündən irad eylədiyi bəyannaməsində bu nöqtəni eyi dərk eylədiyini izhar eylə-

mişdi. Fəqət burada biz qeyd etmək məcburiyyətindəyiz ki, bu xüsusda hökumət lüzumu dərəcədə əsəri-fəaliyyət göstərməmişdir.

Dəmiryollarında hadis olan [baş verən] vəq’ələrin təkrar vücuda gəlməməsi üçün hökumət tədbirlər görür. Biz bu tədbirlərin bir an əvvəl səmərədar olmasını istəriz. Fəqət bununla bərabər şəhərimizin dəxi əmniyyət və asayişinə baxmalıdır. Biliriz ki, şəhərimizdə bir çox fasid ünsürlər var. Bu ünsürlər bizə xaricdən gətirilmiş, istəmədiyimiz halda bizimlə həmşəhrilik haqqını qazanmışlardır. Hökumət başqa bir vəziyyətdə, başqa bir imkanda olsaydı, onsuz da bikarı [işsiz-gücsüzü] çox olan bir şəhəri yeni-yeni bikar dəstələri ilə doldurmazdı. Fəqət bu kimi səbəblər hökuməti, təbiidir ki, daha ciddi tədbirlər görməyə vadar etməlidir.

Şəhərdə oğurluq çoxalmış. Dün heyrətəngiz bir cinayətə şahid olduq. Canilik yavaş-yavaş artmağa başladı. Polis, vəzifəsi ilə mütənasib bir dərəcədə deyildir.

Demək istəyiriz ki, polis idarəsində bir növ zə’fi-idarə [idarə zəifliyi] görülməkdədir. Bu zə’fin bir səbəbi şəhərdə olan bir çox nadinc ünsürlərin vücudu isə də, digər cəhətdən polis nəfəratının, milislərin kimlərdən ibarət olduğuna dəxi diqqət və etina edilməlidir.

Polisin başında Azərbaycan mənafeyi ilə mə’nən əlaqədar adamlar olmalı, əxlaqı düzgün məmurlar bulundurulmalıdır. Bununla bərabər, hökumət məqamati-aliyyəsi əli altındakı məmurların üstündə daimi gözətçi olduğunu asarı [işi] ilə göstərməlidir. Xalqın əmniyyət və asayişi kəndilərinə tapşırılmış olan adamlar hər saat və hər dəqiqədə öhdələrinə götürdükləri məsuliyyəti xatırlamalıdırlar. Onları sorğu və suala çəkəcək qüvvəti daima başları üstündə görməlidirlər.

Bununla bərabər, bir şeyə də hökumətin nəzəri-diqqətini cəlb etmək istəyiriz. Polis zabitəsinin aldığı məvacib kəndisindən tələb olunan vəzifə ilə mütənasib deyildir. Adi bir əmələnin 1000 manatdan ziyadə məvacib aldığı bir şəhərdə 700 manat məvacib alan bir məhəllə pristavından vəzifəşünaslıq tələb etmək pək də məntiqə gəlir bir şey deyildir.

Hökumət hər şeydə qənaət edirsə etsin, fəqət məmləkətin əmniyyət və asayişinə aid xüsuslarda xəsislik göstərməsin. Çünki bu xissət, qüvvəti-layəmutundan qənaət edən adamın halıdır ki, vaxtilə ət və əkməyə əsirgədiyini sonra tə-bib ilə dərmana vermək məcburiyyətində qalar.

Biz Daxiliyyə Nəzarətindən ciddi tədbirlər, kəskin hərəkətlər, tərəddüdsüz əzmlər istəriz. Bunu bütün məmləkət, bütün əhali istəyir. Bu xüsusda adam lazımsa adam, para lazımsa para vermək millətin borcudur. Bu borcunu millət əsirgəməz! Əzm və fəaliyyət istəriz. Hümmətimiz artsın, ciddiyyətimiz çoxalsın!..

M. Ə.

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

(keçən nömrənin mabə’di)

Sultanməcid Qənizadə (İttihad) - Əfəndiyev cənablarının nitqinin son qismində iştirak edərək deyir ki:

Əlbəttə Parlaman qəsdən ədalətsizlik buraxa bilməz, lakin bununla belə səhv həmişə mümkündür. Ona görə mən təklif edərdim, Parlaman Şəki qəzasına yer versin. Əlavə Bakı qəzasının Parlamanda əsla nümayəndəliyi yoxdur. Hərçənd, natiqlərdən birisi deyir ki, biz ümum əhali və ümum qəzaları təmsil ediriz. Amma qəzaların Parlamana nümayəndə seçmələrinin də böyük əhəmiyyəti var.

Məhəmməd Əmin Rəsulzadə (Müsavat) - Mən bir Parlaman üzvü və Parlamanı təşkil edən sabiq Milli Şura sədri sifətilə Etibarnamə komisyonunun nöqteyi-nəzərinin doğru olduğu barəsində bir qədər izahat verməliyəm. Deyirlər Bakı qəzasında 70 min nüfus [əhali] var. Əgər Bakı qrodonaçalstvası çıxılsa, Bakı qəzasında 15 mindən ziyadə nüfus yoxdur. Məbusluq haqqını 58 min səs götürdükdə, əlbəttə ki, 15 min nüfusa yer verilmədikdə böyük xəta işlənməmiş olur. Digər tərəfdən Bakı həmişə qəza ilə çox yaxın əlaqədədir. Binaənileyh, Bakı Milli Komitəsi qəzanı da təmsil edə bilər. Bilxassə ki, diqqət edilərsə görülər ki, burada əyləşən məbusların bir çoxu o köydən, bu köydəndir. Məsələn, hazırkı məbsulardan birisi Məşqətli, digəri Şağanlı, o birisi Novxan[ı]lıdır. Bu nöqteyi-nəzərdən qəza, nümayəndəsiz deyildir. Əlbəttə, mən demirəm Parlamanın qanunu nöqsansızdır. Bu qanunu verənlər mütləq sərih qanun verdiklərini iddia etməyirlər. Parlaman ümumi seçki əsası ilə seçilməmişdir; onun bir çox nöqsanı ola bilər. Ancaq nəzərə almalıdır ki, bu Parlaman əsl Məclisi-Məbusan olmayıb, onun bədəli və müvəqqət bir müəssisəsidir. Fəqət, Məclisi-Müəssisan dəvətinədək müvəqqət olmaqla bərabər, bu Parlaman məmləkətin ən səlahiyyətdar bir müəssisəsidir. Ona görədir ki, biz Parlaman qanununu tənqid edərkən ədalətdən ya ədalətsizlikdən deyil, bu nöqteyinəzərdən baxmalıdır ki, qaldırılan məsələ məqsədə müvafiqmidir, deyilmidir.

Bu gün Parlaman məsələsi yalnız Bakı ya Şəki qəzası ilə həll olunsaydı, bəlkə də müvafiq görülərdi. Fəqət, bizə məlumdur ki, Gəncə qəzası da naməmnundur. Ağdaş dəxi nümayəndəliyinin artırılmasını tələb edir. Bu gün biz Bakı, ya Şəki qəzasının istədiyinə əməl edərsək, əlbəttə sairlərinin də tələbini qəbula məcbur olarız. Heç kəsə demək olmaz ki, Bakının, Şəkinin tələbinə əməl ediriz, sizinkinə yox. Əgər desəniz ki, bu iki qəza müstəsna tutulsun, o vaxt sair qəzalar da tələb edərlər. Deyə bilməzsiniz ki, Bakıya, Şəkiyə istisna olar amma sizə ola bilməz. Bu surətlə hamının tələbinə əməl etmək lazım gələr. O halda qanun həftədən-həftəyə dəyişərək qanunluqdan çıxar, Məclisi-Məbusan da bir mitinq şəkli alar. Buna görədir ki, biz Məclisi-Məbusanın kökünü laxlatmağa heç vaxt razı olmamalıyız. Bəlkə Şəki haqqında ədalətsizlik olmuşdur da, lakin bütün məmləkətə nisbətlə Şəki bir cüzdür. Cüzün mənafeyi naminə küllün mənafeyini pozmaq olmaz. Həmişə cüz küllə fəda edilir. Binaənileyh, Şəki haqqında bir ədalətsizlik olmuşsa belə, bütün məmləkət xeyri üçün qanuna tabe olmalıdır ki, Parlamanın nüfuz və heysiyyəti rəxnələnməsin. (Alqış)

Abdulla bəy - təklif edir ki, məsələ komissiyaya verilsin, o halda sübut edər ki, Bakı ilə Şəkidən başqa heç qəza haqqında ədalətsizlik olmamışdır.

Sultanməcid Qənizadə - Mən zənn edirəm ki, Parlaman qanunu dəyişsə, nü-

fuzu azalmaz. Biləks [əksinə], nöqsanı düzəltməlidir.

Rüstəmbəyli Şəfi bəy - Etibarnamə komisyonu bu məsələni müzakirə edərkən bu ya o qəzanın haqqı nöqteyi-nəzərindən deyil, ancaq əsasi nöqteyi-nəzərindən yaxlaşmışdır. Komisyonun zənnincə məbusun miqdarını təyin edən qanunu pozmaq olmaz. Bu qanun, rəqəmləri deyil, idareyi-mülkiyyə vahidlərini nəzərə almışdır. İştə bu nöqteyi-nəzərdəndir ki, etibarnamə komisyonu qəza ya cəmiyyətlərin qərarını rədd edir.

Sədr məsələni iki qismə ayırır. Əvvəla ukraynalılara yer vermək məsələsini səsə qoyur. Əksəriyyəti-ara [səs çoxluğu] ilə bir yer verilməsi qəbul olunur. İkinci, Parlaman məbuslarının miqdarını artırmaq məsələsini səsə qoyur. İttifaqi-ara ilə [yekdilliklə] təklif rədd olunur.

(axırı var)

Ermənilər Azərbaycan Hökumət və Parlamanında

Bakı Erməni Milli Komitəsi Rəisi-vükəla həzrətlərinə bir məktub yazaraq, ermənilərin Azərbaycan Hökumət və Parlamanına daxil olmaq istədiklərini bildirmişdir.

TELEQRAF XƏBƏRLƏRİ

(Royter acentəliyindən)

Almaniyada Məclisi-Müəssisan seçkiləri

Almaniyada Məclisi-Müəssisan seçkiləri nəticəsində 165 nəfər sosial-demokrat, 91 mərkəzi firqə, 75 demokrat, 38 mühafizəkar, 22 milli hürriyyətpərvər və 8 nəfər başqa firqə nümayəndələri intixab edilmişlərdir. Veymarda olan milli teatro binası Məclisi-Müəssisan üçün hazırlanır.

Fəhlələr Sülh Konfransında

İngiltərə Hökuməti beynəlmiləl nöqteyi-nəzərindən zəhmət işləri ilə əlaqədar məsələlərə baxmaqdan ötrü fəhlə nümayəndələrindən 5 nəfərini Paris müşavirələrində iştirak etmək üçün dəvət etmişdir.

Amerika ordusunun tərxisi

Vaşinqtonda verilən binagüzarlığa görə hər ay 300 min Amerika əsgəri Amerikaya övdət edə [qayıda] bilər. Amerikanın nə miqdarda əsgər saxlamasını Vilson özü həll etməlidir. General Març daimi surətdə yarım milyon əsgər saxlanılması tərəfdarıdır.

(Bolşevik acentəliyindən)

Kornafondan xəbər verirlər ki, gələcək Almaniya 8 cümhuriyyətdən ibarət olacaqdır. Avstriyanın almanlarla məskun olan hissəsi də buraya daxil ediləcəkdir.

Ərəbistan

Berlindən teleqraf edirlər ki, Hicaz şeyxi nümayəndəsi Bəhri-Əhmərdən [Qırmızı dənizdən] Xəlici-Farsa [İran körfəzinə] qədər Ərəbistan hökumətlərinin bir hökumətə birləşdirilməsini və Türkiyə Hökuməti ixtiyarında deyil, Amerika təhti-hakimiyyətində olmasını Sülh Konfransına təklif edir.

Lloyd Corc bolşeviklər haqqında

Berlindən teleqraf edirlər ki, "Forverts" qəzetəsinin yazdığına görə, Lloyd Corc Sülh Konfransında Rusiya işlərindən bəhs edib demişdir ki, Müttəfiq dövlətlərin geniş bir dairədə Rusiyaya hücumları imkan xaricindədir. Kiçik bir dairədə hücum etməklə iqtisadi təzyiqatın da heç bir əhəmiyyəti yoxdur. Lloyd Corc Bolşevik Hökuməti nümayəndələrinin Sülh Konfransına dəvət edilmələri ilə onların dediklərinə qulaq asmağı təklif etmişdir.

İngiltərənin hərbi məqsədləri

İtaliyada olan İngiltərə mümtaz qoşunlarının bir hissəsi Avstriyadakı Müttəfiqlərin istila qoşunları cərgəsinə daxil olacaqdır. Zaqafqaziyada olan ingilis qoşunları əğləb ehtimala görə bir neçə ay orada qalacaqlardır. Fələstində olan qoşunlar yarıyadək əksiləcəkdir. Hərgah, nəqliyyat vasitələri olarsa, Misirdəki qoşunlardan 4 firqəsi vətənlərinə qayıdacaqdırlar. Beynənnəhreyndə bir neçə vaxtadək bir qədər ingilis qoşunu saxlanacaqdır. Fəqət bu qoşunların həpsi hindular olacaq. İstilər düşənədək ingilis qoşunlarının əksərini İngiltərəyə qaytarmaq istəyirlər. Əlbəttə bunun üçün də nəqliyyat vasitələri şərtdir.

Fransız ordusu

Rəsmi surətdə elan edilir ki, Fransa istila ordusunu saxlamaq üçün Rəisi-vükəla Parisdə bir konfrans dəvət eyləmişdir. Bu konfransda ricali-hökumətdən [hökumət adamlarından] bir çoxları iştirak etmişlərdir. İclasda qayət mühüm məsələlər barəsində bəzi qərarlar verilmişdir və bu qərarlar bu həftə şurayi-vüzərada müzakirə ediləcəkdir. Hökumət istəyir ki, bilatəxir istila ordusunun məvacibini artırsın və onlara məzuniyyət versin. Böyləliklə 1919-cu sənə üçün istila ordusu saxlanacaq və sabiq cəbhələrin hamısında kafi qədər qoşun saxlanacaqdır.

Vilson Reymsdə

Tiflis - Amerika Rəisi-cümhuru Vilson öz əyalı ilə Reyms şəhərinə əzimət etmişlərdir [getmişlərdir]. Reymsin xarabalıqları qayət faciənak [faciəvi] mənzərə təşkil edir. Bunlar Reymsdə olan xəndəklərə baxmışlar. Orada 1917-ci sənə aprel ayında düşmüş 370 millimetrəlik qumbara varmış. Əgər patlasaymış, təmiri qeyri-qabil fəlakət törədəcəkmiş.

SÜLH ƏTRAFINDA

Tiflis (28 yanvar) - Sülh Konfransı cələsəsində [iclasında] Vilson Cəmiyyəti-Əqvam məsələsi haqqında irad etdiyi nitqini işbu sözlərlə xitama yetirmişdir: Biz buraya müharibəni udmaq üçün gəlməmişik. Biz ali məqsədimizə nail olmaq üçün gəlib də bu yolda çalışırız.

Amerikada

Paris - Vaşinqtondan xəbər verilir: Amerikada işsizlik olmamaq niyyəti ilə Amerikanın hərbi departamenti əmr vermişdir ki, saldatlar özlərinə iş bulmayanadək qoşun cərgəsindən çıxarılmasınlar.

Kortafon - Rusiya məsələsi diplomatların zehnini şaşırmışdır. Zənn edirlər ki, hərgah Rusiya nümayəndələri müəyyən vaxtadək yığışmasalar, o zaman onların

yığışması mart ayınadək təxirə salınacaqdır.

BATUM TƏƏSSÜRATI

Batuma varid olduqda bir çox türk əsgəri və qitəatı [birlikləri] görürsən ki, arasıra ora-bura müsəlləh [silahlı] və qeyri-müsəlləh gedirlər. Lakin şəhərin və ətrafının əhəmm [mühüm] nöqtələrində İngiltərə qarovulunun görülməsi şəhadət edir ki, türklər bu gün Batumda müsafir olaraq yaşayırlar.

Zavallı türk nəfərlərinin [əsgərlərinin] halı artıq dərəcə müdhişdir. Bir tərəfdən vətənə getməyə yol yoxdur, məhəlli İngiltərə müəssisələri vapor [gəmi] vermirlər, İstanbuldan dəxi vapor gəlməyir. Digər tərəfdən isə ərzaq işləri ən fəci bir haldadır. Müntəzəm surətdə nəfərlərə iaşə verilməyir. Binəvalar buna görə aclıq və soyuğa giriftar olub əksəri xəstələnir, gündə 20-30 nəfəri tələf olur. Nə yerli müəssisələrdən və nə də Türkiyə Hökumətindən bunların halına bir diqqət yetirilməyir. Azərbaycan islamlarını erməni və bolşevik afətindən xilas edən türk nəfərini bu halda gördükdə insanın ürəyi od tutub yanır. Fənalıq burasındadır ki, burada olan türk komandanları dəxi nəfərlərin böylə halına qismən bietina qalırlar, qismən də heç bir çarə araya bilməyirlər. Bu hal arasında zavallı, başı bəlalı türk balaları tələf olub gedirlər. Allahtaala bu zülmü götürəcəkmi, ya hu?!

– Biz çəkdiyimizi yalnız Allah bilir –

Yavan əkməklə qarnını bir tövr doyuran türk nəfəri bir həmdərd gördükdə bu sözləri söyləyib ürək yandırıcı ahlar çəkir...

***

Burada hökumət türklər əlindən alınıb “9 nəfərin müşavirəsi” deyilən bir müəssisəyə verilmişdir. Həmin müəssisə Batumda yaşayan millətlər nümayəndələrindən ibarətdir. Rus, gürcü və ermənilərdən ikişər, islam, leh və yəhudilərdən isə birər nümayəndə vardır. Lakin bu hökumət, əhali arasında heç bir nüfuza malik deyildir. Burası təbiidir. 130 min nüfusu havi islamların səsləri, bütünü 10 mindən fəzlə olmayan əcnəbilər əlinə verildikdə əlbəttə ki, böylə yabançı hökumətin heç bir nüfuzu ola bilməz. Budur ki, şəhərdə və ətrafında türklər vaxtı əmnü asayiş hökmfərma olduğu halda, indi isə Batumda axşam saat 8-dən sonra küçələrə çıxmaq mümkün deyildir. Qətl və qarət hökmfərmadır. İnzibat, ingilislərin təhti-idarəsində məhəlli ənasirdən [yerli ünsürlərdən] mütəşəkkildir. Lakin milislərin əksəri nədənsə ermənilərdəndir.

Fövqdə [yuxarıda] zikr olunan “9 nəfərin müşavirəsi”nin rəisi rus olduğuna binaən [görə], burada yavaş-yavaş Nikolay zamanı iadə edilir. Şəhərdə və vilayətdə əski rus çinovnikləri məmuriyyət alırlar. Bu isə məhəlli əhalinin xoşuna getməyir və bu barədə ingilis komandası nəzdində məhəlli islam ənasiri tərəfindən mütəəddidən [dəfələrlə] etirazlar ittixaz olunur. Eşitdiyimizə görə, ingilis komandanı islam əhalisinin xahişlərinə tezliklə sərəncam olacaq deyə bəyan etmişdir.

Bunu demək icab edir ki, buradakı rus ənasiri kadetlərdən də sağ firqələrə mənsubdurlar. Burada rus və ingilis lisanında nəşr etdikləri “Naş kray” qəzetəsində məşhur “Novoye vremya” mühər-

rirlərindən Stolıpin (məşhur Stolıpinin bəradəri [qardaşı]) və Rennikov iştirak edirlər və "Vahid Rusiya" şüarına ən ciddi surətdə rövnəq verməkdədirlər. Bundan məlum olur ki, məhəlli rus ənasiri nə gunə [nə cür] məslək daşımaqdadırlar.

***

Digər tərəfdən, məhəlli islam əhalisi beynində [arasında] "İslam Gürcüstanı" şüarı atılmışdır. Bu şüar acaralılarla xristian gürcülərinin ittifaqından ibarət olub Acarıstan[ın] Gürcüstanla birləşməsi (lakin muxtariyyət şəraiti [şərti] ilə) fikri təqib olunur. Həmin şüarı aralığa atan və onun intişarına [yayılmasına] dair ciddi fəaliyyətdə bulunan zəvat [şəxslər] məşhur Abaşidze ailəsindən ibarətdir (Məhəmməd bəy, Aslan bəy və sairə). Bir qaç [bir neçə] gün bundan əqdəm [qabaq] bunların "İslam Gürcüstanı" nam [adlı] bir vasiteyi-nəşriyyatları mövqeyi-intişara qoyulmuşdur. Həmin qəzetədə təqib olunduğu əfkar [fikirlər], açığına meydana atılmışdır.

***

Şimdi məhəlli islam əhalisinin arasında cərəyan edən rəydən bir qədər bəhs edəlim. Burada əhalinin ən geniş sinif və təbəqələri arasında hökmfərma olan əfkar, təxlis edilmiş vilayatın [xilas edilmiş vilayətlərin] (yəni Batum, Qars və Ərdəhan) birlikdə bir siyasi vahid təşkil edilməsi lehindədir. Zatən Qarsda məhəlli hökumət hal-hazırda mövcuddur. Qars islamlarının xahişləri budur ki, onların daxili işlərinə müdaxilə edilməsin və təşkil etdikləri hökumət və məmuriyyətlər müntəzəm bir halda olduqlarına binaən, onların arasına yabançılardan məmur filan göndərilməsin. Bu fikrin intişarı üçün buradan dəxi Parisə, Sülh Konfransına islam əhalisindən xüsusi heyət gedir. Cərəyan edən əfkarın hangi birisi qalib gələr, bunu gələcək göstərər.

***

Azərbaycan və Gürcüstan heyətləri kanuni-saninin [yanvarın] 11-də buraya varid olub dün böyük ingilis paraxodu ilə İstanbula azim olası idilər.

Batum, 17 kanuni-sani.

Azərbaycanlı heyəti-mürəxxəsəmizin Batumdan İstanbula əziməti

Əxirən Batuma əzimət edən Azərbaycan heyəti-mürəxxəsəsi Batum məhəlli islamları tərəfindən mütəntən [təntənəli] bir surətdə istiqbal edilərək [qarşılanaraq] doktor Mahmud bəy Əfəndiyev cənablarının xanələrində şərəflərinə ziyafət verilmişdir. Ziyafətdə Acara ümərа və vəkilləri iştirak etmişlərdir. Bədəhu, Acara vəkilləri ilə birlikdə heyəti-mürəxxəsə xüsusi bir məclis əqd edərək müdavileyi-əfkar [fikir alış-verişi, müzakirə] etmişlərdir. Azərbaycan heyəti-mürəxxəsəsi yanvarın 18-ində ingilis paraxodu ilə Batumdan İstanbula mütəvəccihən [doğru] yola çıxmışlardır. Heyəti-mürəxxəsəmiz Batumda gürcü heyəti-mürəxxəsəsi ilə birlikdə bəzi mühüm məsələlər haqqında məclislər edərək müdavileyi-əfkar etmişlər və birlikdə paraxoda girmişlərdir.

Cənub-qərbi Mavərayi-Qafqaziya islamları haqqında

Cənub-Qərbi Mavərayi-Qafqaziyanın bir milyona yaxın bulunan islamları halhazırda siyasi mövcudiyyətləri etibarı ilə bütün Qafqaziya hökumətlərinin nəzəridiqqətlərini cəlb etməkdə və əfkari-ümu-

miyyəni işğal etməkdədir.

Türkiyə Hökuməti ilə Etilaf dövlətləri arasında əqd edilən mütarikə mövcibincə cənub-qərbi Mavərayi-Qafqazyanın böyük bir hissəsini təşkil edən Qars, Batum, Ərdəhan əyalətlərinin idareyi-mülkiyyəsi Türkiyənin öhdəsində qaldığı göstərilmişsə də, bilaxirə təbdil edilərək İngiltərə qüvayi-əsgəriyyəsinin təhti-səlahiyyətində bir idareyi-mülkiyyə təşkili əsası qaim olmuşdur. Bu səbəblə də ingilis general və komandanları Batumda Rus Şurayi-Millisi, Qarsda Erməni Komitəsi vasitəsilə biri rus, digəri də erməni olmaq üzrə müvəqqəti hökumətlər təşkil etmişlər və böyük bir islam əksəriyyətinin hüquq və miqdarına məbsutən mütənasib bir hesab verməmişlərdir.

Hal-hazırda bu şəraitdən başqa Axalsıx və Axalkələk uyezdləri kimi Batum və həvalisini [ətrafını] Gürcüstan əczasından [Gürcüstanın bir hissəsi] olaraq elan etmək və bir əmri-vaqe halına gətirmək istəyən gürcülər, digər tərəfdən Qars və həvalisini erməni məmalikinə bağlamaq istəyən ermənilər vardır. Fəqət gürcülərdən bütün cənub-qərbi Mavərayi-Qafqaziyanı tarixi Gürcüstan və Mesxet nami-məşhuru [məşhur adı] ilə iltihaqi-məmalik fikrini güdən bir sinif bulunduğu kimi, ermənilərdən də təzminat və tə’vizat və məlum siyasi ehtikari-hirs və iştəhası ilə buna bənzər müqabil bir əməl təqib edənlər də çoxdur. İştə bu əhval və şərait altında bulunan cənub-qərbi Mavərayi-Qafqaziya islamları üçün ciddi və düşüncəli bir vəziyyət və xətti-hərəkət təqib etmək icab edir.

Daha dün qəzetələrdə Gürcüstan Xariciyyə naziri Gegeçkorinin general Milnə, Ərdahanda general Xəlil bəy namində birinin Gürcüstan sərhədini təcavüz etdiyini söyləyərək şikayət etdiyini hər kəs oxudu. Bu xəbərin dərəceyi-səhhətini bilmədiyimiz kimi, bu şəkildə bir təcavüzün olduğundan da xəbərdar deyiliz. Deyəlim ki, bir az başqa dürlü bu xəbər doğrudur. Fəqət digər tərəfdən, məsələn vaxtilə türklərin çete komandanlıqlarında bulunmuş olan Abaşidze Sancaqbəyzadə Aslan bəyin Gürcüstanda topladığı bir taqım xristian gürcüləri və sairə ilə Gürcüstan sərhədindən Uzurketdən yuxarı, Acaraya doğru salqınlara başladığını inkarmı etməli? Hətta, o qədər də deyil. Miqdarı bir qaça çıxan abaşidzelər cənub-qərbi Mavərayi-Qafqaziya islamlarına qarşı gürcülərlə bərabər hərəkət etməkdə olduqları və heç bir məşru və qeyri-məşru hallardan geri durmadıqları bu gün ora həvalisi ilə az-çox əlaqədar olan kimsələr üçün aşkar bir keyfiyyətdir.

Süni və qeyri-təbii bir surətdə cənub-qərbi Mavərayi-Qafqaziya islamlarının müqəddərati-siyasiyyələrini həll etməyə çalışmaq, mövcudiyyəti-milliyyə və siyasiyyələrinə [siyasi və milli varlıqlarına] xatimə çəkmək deməkdir. Bu dürlü bir cərəyan isə gürcülərdən əsla mə’mul deyil ikən, məəttəəssüf [təəssüf ki], mümkün görünür.

Batum oblastı gürcülərcə Gürcüstanın əczasından olması şərtdir. Bunlar bu əsası hər zaman təkrar etmişlər. Fəqət heç bir zaman nə Batum oblastında bir əksəriyyət, nə də müdafiə etdikləri əsasda bir mətanət ibraz edəmməmişlərdir [göstərə bilməmişlər].

1914-cü ildən sonra acaralılar ilə gürcülər tarixi və coğrafi münasibət etibarı

ilə bir-birləri ilə anlaşıb eyi geçinirlər ikən, bundan istifadə edən – və demokrat sayılan – bəzi politikan gürcülər acaralılara təhəkküm etmək xəyal və xülyasını təqib edərək, bir çox xaric işlər yapdılar. Hətta o qədər ki, Məclisi-Müəssisan intixabatı [seçkiləri] əsnasında minlərcə insanın rəylərini süngü qüvvəti ilə almışlar və istədikləri siyahıya cəbrən [zorla] rəy verdirmək işlərini icra etmişlərdir. Bundan sonra bu münasibət, gürcülərlə acaralılar arasında elani-hərb etməyə qədər getmiş və iki qonşu və tarixən yekdigərlərinə bağlı millətlər arasında etilaf və dostluq çətinləşmiş idi. Şimdi isə yenidən qərib [yaxın] bir maziyə aid xəta təkərrür edir.

Siyasətən kəndi müqəddəratını cənub-qərbi Mavərayi-Qafqaziya islamları ilə ittihad və ittifaq etməkdə görən və bu cəhəti tərcih edən Batum oblastı islamlarını gürcülər nə üçün düşmənanə bir surətdə dinləyib tələqqi etməkdə olduqlarını biz bir dürlü anlayammayırız. Əgər gürcülər milli bir təhlükəni məlhuz görürlərsə, fəqət heyrət ki, bu təhlükə bir dürlü salim bir düşüncə ilə görünüb söylənməyir. Yalnız hissiyyat və çox etidalsızlıq[la] bərabər ortaya fırladılır.

Məsələn, gürcülər iddia edirlər ki, Batum oblastı Axalsıx, Qars və Ərdəhanla Gürcüstanın əczasındandır. Halbuki, bütün gürcü tarixlərini oxuyunuz, hətta iştə gürcücə yazılmış tarixlərdə belə bu saydığımız oblastların ayrı bir istiqlaliyyəti təmsil edərək idameyi-mövcudiyyət etdikləri və "Mesxet" nami-məşhuru ilə təarüf etdikləri görülür. Halbuki, hal-hazırda Qars, Ərdəhanla Axalsıx və Axalxələk islamları milliyyətcə gürcülərlə münasibətləri yoxdur və əsasən Batum oblastı bu gün də, yarın da kəndi xüsusiyyətləri daxilində Cənub-Qərbi Mavərayi-Qafqaziya ilə birləşmək fikrini müdafiə və mühafizədə israr edəcəkdir.

Bizə qalırsa bu məsələni, əgər gürcülər səmimi düşünürlərsə Azərbaycan və Gürcüstan arasında həll edib Cənub-Qərbi Mavərayi-Qafqaziyada siyasi bir islam mövcudiyyətini təminə daha ziyadə əhəmiyyət verməli və hər iki mücavir [qonşu] hökumət üçün bu ümumi və müştərək vəzifə olmalıdır. Yoxsa, əhalinin arzuyi-ümumisinə müğayir [ümumi arzusuna zidd] bir surətdə bir tərzi-həll və təsviyə bulub bu həvalini udmaq daimi bir asayişsizlik və ümum Qafqaziya hökumətləri üçün də həm bir qailə açılmış olar. Bu etibarla da biz Gürcüstanın mötəbər mətbuatından çıxacaq müsbət və ciddi bir mütaliəni oxumaq və bilmək istərdik. Ta ki, sui-təfəhhümlər izalə edilmiş olsun.

Qaraağazadə Əhməd Həmdi

BAKI XƏBƏRLƏRİ

"Türk gecəsi"

Fevral ayının axırlarında "Müsavat" firqəsi tərəfindən böyük bir müsamirə tərtib ediləcəkdir. Bu müsamirədən hasil olan məbləğin yarısı zalımlar əli ilə yandırılıb xarabazara döndərilmiş olan "Cəmiyyəti-xeyriyyə" binasının təzədən təmir edilməsinə təxsis ediləcəkdir.

Müsəlman fəhlələrinin konfransı

Cümə günü yanvarın 31-ə təyin edilən müsəlman fəhlələri konfransı bəzi səbəblərə görə olmayacaqdır.

İclas

Cümə günü saat 4-də Keşlə kəndində “Müsavat” şöbəsinin ümumi iclası köhnə idarədə olacaqdır.

İkinci uçastok ev komitəsində

İkinci uçastok ev komitəsi xəbər verir ki, yanvarın 30-dan başlamış komitə tərəfindən Bolşoy Krepostnoy 47 nömrə, Voennıy 5 nömrə və Sadovıy küçədə 34 nömrəli bürolarda bu aşağıdakı qiymətlərlə əhaliyə azuqə şeyləri buraxılacaqdır:

Təmiz ağ buğda çörəyi- girvənkəsi 4 manat;

Qara çörək-2 manat 75 qəpik;

Düyü- 3 manat 30 qəpik;

Lobya-2 manat 90 qəpik;

Qeysi (ərik) - 6 manat;

Səbzə - 5 manat;

Soğan - 1 manat;

Çuğundur - 80 qəpik;

Paltar sabunu - 6 manat 25 qəpik.

Bunlardan əlavə ucuz qiymətlə cürbəcür birinci sort papiroslar satılacaqdır. O cümlədən:

“Simpatiya” - 4 manat 60 qəpik;

“Sudebnıy” - 4 manat 60 qəpik;

“Lora” - 3 manat 70 qəpik;

“İdeal” - 3 manat 15 qəpik.

Aşağı dərəcə papiroslardan:

“Yeqipetski”, “Simpatiya”, “Sudebnıy” - 3 manat 45 qəpik;

“Voennıy” - 2 manat 90 qəpik.

Bələdiyyə İdarəsində

* Bələdiyyə İdarəsi qət etmişdir ki, Şollar su yolu qulluqçuları və fəhlələrinə verilən çörəyin miqdarı artırılsın. Hər adam başına gündə 3 girvənkə çörək veriləcəkdir. Fəhlələrin hər külfət adamı başına 2 girvənkə çörək buraxılacaqdır.

* Bələdiyyə İdarəsi qət etmişdir ki, qulluqdan çıxan Bələdiyyə İdarəsi xidmətçilərinə maaş verilsin. İşbu maaş müvəqqəti surətdə Bələdiyyə İdarəsi xidmətində olub xəstəlik və başqa bu kimi səbəblərdən naşi xidmətdən çıxanlara da şamil olacaqdır.

* Bələdiyyə İdarəsi qətnaməsi mövcibincə Bakıda su budkaları xidmətçiləri yeni qayda üzrə fevralın 1-dən etibarən həftədə bir gün tətil etməlidirlər. Müsəlman xidmətçilər cümə günləri, başqaları isə bazar günləri tətil etməlidirlər.

ƏRZAQ İŞLƏRİ

Ərzaq Nəzarəti Şuşa uyezdni naçalnikinə yazır ki:

“Malıbəyli kənd vəkilləri Mirmehdi Ağamirzadə və Əli Məşədi Əşrəf oğluna Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdi ki, Tağıyev fabrikasından 7 min arşın bez və 3 tay ağ alıb, məzkur kənd əhalisi arasında bezi 6 manat 10 qəpikdən, ağı 6 manat 60 qəpikdən təqsim etsinlər. Ərzaq Nəzarətinə verilən xəbərlərə görə, məzkur vəkillər aldıqları bezin və ağın hamısını kəndə gətirməmişlərdir. Buna görə, xahiş olunur bu işi təftiş edib Ərzaq Nəzarətinə xəbər verəsiniz.”

Şuşa uyezdinin Birinci Uçastok pristavı Malıbəyli kəndxudasına yazmışdır ki, Şuşa uyezdni naçalnikinin yazdığına görə, Malıbəyli sakinləri Mirmehdi Ağamirzadə ilə Əli Məşədi Əşrəf oğlunu və 3 nəfər kəndin mötəbəranından 24 saat müddətində Şuşa uyezdni upravleniyası-

na göndəriniz. Şuşa uyezdni naçalniki bu işi təftiş etdikdən sonra, Ərzaq Nəzarətinə yazır ki, cəm etdiyim məlumata görə, Malıbəyli kəndi vəkilləri Mirmehdi Ağamirzadə və Əli Məşədi Əşrəf oğlu Tağıyev fabrikasından aldıqları bezin və ağın ancaq 1450 arşınını Malıbəyli kəndinə gətirmişlər. Qalanını isə aldıqları yerdə satmışlardır. Malıbəyli kəndinə gətirdikləri 1450 arşın bezin və ağın arşınını camaata 11 manatdan satmışlardır. Lakin təqdim edilən mirski priqovordan görünür ki, bütün ağ və bezin satışından hasil olan para Malıbəyli kəndi əhalisinə vüsul edilmişdir.

BEZ FƏQƏRƏSİ

Petr Vasilyeviç Xovrostova verilib piltə qumaşı 4 put.

Hacıbala bəy Nağıbəyova verilib bez, bomazı, kətan; hərəsindən bir top və qətifə.

Hacı Zeynalabdin Tağıyevə verilib bez 5 400 arşın.

Oleşkeviçə verilib lankort, kətan və bez hərəsindən bir put.

Ticarət və Sənaye Vəzarəti qulluqçusu Kroşınskiyə verilib bez, bomazı, plis, lankort; hərəsindən bir top.

P. L. Barskiyə verilib bez və kətan; hərəsindən 2 top.

Bakı mahal məhkəməsi qulluqçularından ötrü buraxılıb kətan, bez; hərəsindən 9 top və qətifə 114 ədəd.

Həbibulla Nemət oğlu üçün verilib bez 2 500 arşın və qətifə 2 dujin.

Avstro-Venqriya əsirləri üçün buraxılıb bez 5 min arşın.

Aptek mağazası olan Abdulla Dadaşova buraxılıb tənzif 5 min arşın.

Ədliyyə Vəzarəti üçün buraxılıb kətan 11 top.

Məhəmməd Səid Qasımzadəyə hamam üçün buraxılıb bez 1 tay və qətifə 200 ədəd.

Nazirin xüsusi katibi Mehdi bəy Hacınskiyə buraxılıb kətan, bomazı, batist, madepulam, bez; hərəsindən 2 top və bir dujin qətifə.

Hacıbala Cəfərqulu oğlu üçün verilib bez 7 min 928 arşın, kətan 2 min arşın.

Məşədi Səttar Zeynalova buraxılıb bez bir top, bomazı, madepulam; hərəsindən bir top, qətifə bir dujin.

Ticarət və Sənaye Nəzarəti qulluqçusu Jubitskiyə verilib bez 140 arşın, kətan və bayka; hərəsindən 140 arşın.

Sentrodoma buraxılıb 20 tay.

Dağıstan mahalı üçün Məşədi Məhəmməd Qədirova buraxılıb 50 min arşın.

Doktor Larionovun xəstəxanasına buraxılıb bez bir tay.

Ərzaq Nəzarətinin quberniya vəkilinə buraxılıb bez, kətan, bomazı; hərəsindən 27 top və qətifə 13 dujin yarım.

İsa Məhəmmədova buraxılıb bez 2 min arşın.

Novxanı kəndi camaatı üçün buraxılıb kənd vəkili Kərbəlayi Əşrəf Baba oğluna bez 3 min arşın.

Dağıstan mahalı üçün Molla Baba Hacı Zəkəriyya oğluna bez 3 min arşın.

Corat kəndi camaatı üçün kənd camaatı vəkilləri Abbasəli Hacı Nəcəfəli oğlu və Həsən Hacı Xaliq oğluna buraxılıb bez 2 min 500 arşın.

Digah kəndi camaatı üçün camaat vəkili Məzahir Əbdüləzim oğluna buraxılıb 2 min 500 arşın.

BƏYANİ-HƏQİQƏT

Möhtərəm “Azərbaycan” qəzetəsinin 91[-ci] nömrəsində Parlaman əzası Kiçikxanov imzası ilə “Ərzaq Nəzarəti canibialilərinə açıq məktub” sərlövhəsi ilə yazılmış məktubda: “Qəbulova verilmiş 50 min arşın bezin Zaqatalaya təxminən 20 mini çatmışdır” deyir və yenə həman qəzetənin 100-cü nömrəsində “Həqşünas” imzası ilə Ticarət və Sənaye Nəzarətindən Zaqatala İstehlak Cəmiyyətinə 50 min arşın bezin 23 mini Zaqatalaya vasil olub, mabaqisi [geri qalanı] isə vəkillər tərəfindən satılmışdır, deyə yazılmışdır.

Həqiqəti-hal bundan ibarətdir: Keçən 1918-ci sənənin oktyabr ayının axırlarında Zaqatala İstehlak Cəmiyyəti tərəfindən 3 nəfər müsəlman Molla Məhəmməd Abbasov, Maho Mavasi Nurməhəmməd oğlu, Ramazan Abdulla oğlu və bir nəfər rus Smilt namində, Bakıya vəkil göndərmişdilər və kəndiləri ilə bərabər bir çox ərzaq gətirmişdilər ki, burada başqa mallarla mübadilə etsinlər. Bu vəkillər Bakıya gəlib heç bir iş bacarmayacaqlarını düşünüb Zaqataladan kömək istəyirlər. Mən bu vaxt xüsusi işim üçün Bakıya gəlmiş idim. Zaqatala valisi müavini Musa bəy Şabanbəyov bu istehlak cəmiyyətinin vəkillərinə müavinətdə bulunmağımı xahiş etdiyinə görə, mən də həman vəkillər[in] gətirdikləri əşyaları Bakıda mövcud Prikaspiyski İstehlak Cəmiyyəti ilə başqa mallara mübadilə edib və həm də vəkillərə Ticarət və Sənaye Nəzarəti tərəfindən 50 min arşın bez almaqda müavinətdə bulunub, sonra vəkillərdən 15-16 gün qabaq çıxıb Zaqatalaya getmişəm. Bu yanvar ayının 12-ci yövmündə [günü] Zaqatala Parlaman məbuslarından Arslan bəy Qardaşov cənabları teleqrafla Zaqatala vilayət valisinə xəbər verir ki, istehlak cəmiyyətinə məxsus olan malları Smilt nam [adlı] rus satıb qaçıbdır. Bu teleqrafa binaən yanvar ayının 14-də Zaqatala camaatının xahişi ilə və valinin əmri ilə bu işin həqiqətini kəşf etmək üçün dübarə Bakıya yollandım. Buraya gələndən sonra, əldə etdiyim məlumata görə, yuxarıda əsamiləri [adları] zikr olunan vəkillər xəstə olduqlarından, 23 min arşın bez və 15 min arşın çit[i] Zaqatalaya göndərib, kəndiləri çıxıb gedirlər və yerdə qalan bezi, sabunu, şəkəri, çayı, qəhvəni və başqa xırda füruş [satılacaq] əşyaları, cəmisi 500 min manatlıq malı vəkilin birisi hesab olunan rus Smilt nama tapşırıb rica edirlər ki, Smilt nam həman mallarla bərabər Zaqatalaya gəlsin. Smilt nam da fürsətdən istifadə edərək əşyaların həpsini Bakıda satıb qaçır. Mərqumu [adı keçən şəxsi] və satılmış malları tapmaqdan ötrü təhərri [axtarış] polisəsi ilə bir yerdə lazımi tədbirlərdə bulunmuşam və bulunuram. İştə həqiqət bundan ibarətdir.

Mustafa bəy Qəbulov

AZƏRBAYCANDA

Xüsusi müxbirimizdən

Astara mahalını nizama salmaq və rus əsakirinin [əsgərlərinin] zülm və sitəmkaranə hərəkatından müsəlman camaatını xilas etmək qəsdi ilə ingilis əsakiri Astaraya varid oldular. Onların vürudundan müsəlman camaatı çox şad oldular. Rus əsakirinin etdiyi zülm və sitəmi daha bunlar görməyəcəklər. Lənkə-

ran-Astara arasında olan kəndlər xarabazar mənzələsindədir [dərəcəsindədir]. Çox kəndləri yandırıb, qalanını qarət və talan etmişlər. Saldatın vahiməsindən Lənkərandan Astaraya gəlmək mümkün olmayırdı. Hər kəs[i] yolda görüb özünü soyub öldürürdülər. Quru ilə Lənkəran-Astara yolları kəsilmiş, bilmərrə gediş-gəliş yox idi.

Sülhi-ümuminin Parisdə olmağını və Müttəfiqlərin Rusiyaya gəlib iğtişaşı yatırdırmağını eşidib daha da zülm etməyə davam edirlər. Hürriyyət və azadlığı alan müsəlmanlara qarşı milli təəssüblərindən əl çəkməyib, Nikolaya canü dillə xidmət edən cahil xaxollar hürriyyətdən sonra özlərini bolşevik adlandırıb, az müddətdən sonra menşevik olub, müsəlmanların qanını sorurlar. Lənkəran və onun nahiyəsinin çəkdiyi qəzavü-qədər və görülməyən müsibətdən müsəlmanlar xilas olacaqlarmı?

Zaqatalada

Xüsusi müxbirimizdən:

Eməni-gürcü müharibəsi əsnasında Gürcüstanın Tilav və Siqnax qəzalarından bir xeyli erməni ailəsi qaçıb Zaqatala şəhərinə gəlmişlərdir. Hər nə qədər insaniyyət nöqteyi-nəzərindən qaçqınlara hörmət və müavinətdə bulunmaq lazım gəlirsə də, Zaqatalaya çağırılmayıb gələn bu kimi qonaqlardan ehtiraz etməmək [çəkinməmək, qorxmamaq] də mümkün deyildir. Zira Zaqatala şəhərində olan üç cift bir tək erməninin hilə və fitnələri qarşısında bütün Zaqatala vilayətinin islamları aciz qalmaqdadır. İnqilabın ilk aylarında "müsəlmanlar silahlanırlar, qalaya hücum edərək sizi və bizi qırmaq fik-rindədirlər" kimi rus saldatlarına yalan xəbərlər verməklə, az qaldı ki, əhali ilə saldatlar arasında qırğın əmələ gəlsin. Atışmada yaralanan da belə oldu.

Hətta, bu yayda Zaqatala ermənilərinin Tiflis ermənilərinə göndərdikləri xeyli məktublar tutulmuş idi. Məktubların cümləsi nəmmamçılıq [sözgəzdirənlik], fitnəçilik və daxili işlərimizi xəbər verməkdən ibarət idi. Təəccüb burasıdır ki, ermənilərin qaçqınlarını biz insaniyyət nöqteyi-nəzər[in]dən qəbul etdiyimiz bir vaxtda, bizim böylə mehmannəvazlığımız [qonaqpərvərliyimiz] müqabilində yenə xəyanətdə bulunmuşlardır. Bugünlərdə Zaqatala ermənləri gizlin bir məclis yaparaq Azərbaycanı tanımamaq, Bakıdakı Rus Milli Komitəsi ilə əlaqədə bulunmaq kimi qətnamə çıxarmaq istəmişlərdir. Şəhər polismeystri bu gizlin məclisi kəşf etmişsə də, vali cənabları böylə böyük bir işi qulaq ardı etmişdir.

İrəvan, Qarabağ kimi bir neçə əsrlərdən bəri öz yurdlarında dinc oturan islam əhalisi, daşnaklar tərəfindən qətliam, qadın-qızlarının irz və namusları hətk, malları talan edilən bir zamanda erməni qaçqınlarını açıq üzlə gətirib evlərində rahatlandırmaq Zaqatala islamlarının alicənablığına, daşnakların insaniyyətsizliyinə dəlil olmaqla bərabər, həm hifzi-sihhət [gigiyena], həm siyasət nöqteyi-nəzərlərindən bu qaçqınları gəldikləri yerlərinə qaytarmaq məhəlli [yerli] məmurların vəzifələri olsun gərək. Məncə, içlərində daşnaklar olmayan heç bir erməni camaatı təsəvvür olunmadığından, bu qaçqınların Zaqatalada qalması gələcəkdə böyük fitnələr törədəcəyini məhəlli məmurlarımız xatirlərindən çıxarmamalıdırlar.

Həqşünas

GÜRCÜSTANDA

Vəzirin intiharı

Gürcüstan Dəmiryol naziri İvan Lordkipianidze üç gün bundan əvvəl zəhər içərək özünü öldürmüşdür. Bu intiharın səbəbi böylədir:

Gürcüstanın Dəmiryol Nəzarətində böyük xəyanət kəşf edilmişdir. Rəsmən xəyanətkar nazir özü imiş. Halbuki nazirin doğru bir şəxs olduğuna kimsə şübhə etməyirmiş. Nazir öz ətrafındakılara çox etibar etdiyindən, qulluqçular işi bir hala gətirmişlər ki, bütün təqsirlər mütəvəffa nazir üzərinə gəlirmiş. Bu iş təhqiq edilir. Bunlar arasında nazirin öz katibi də vardır. Mütəvəffa nazirin 39 sinni [yaşı] var imiş. Onun bu surət[d]ə ölməsi gərək hökumət əzalarına və gərək camaata çox artıq təsir eyləmişdir.

ERMƏNİSTANDA

“Naşe vremya” qəzetəsindən: “Mişak” qəzetəsinin məlumatına görə, ingilis dəstəsi mayor və bir dəstə afiserlərlə Aleksandropola varid olmuşlardır. Həman qatarla Qarsa yeni təyin edilmiş olan ingilis general-qubernatoru da varid olmuşdur. Mövqifdə erməni nazirlərindən Xatisyan və şəhər qlavası Sarkisyan tərəfindən istiqbal edilmişdir. Bunların hər ikisi ingilisləri təbrik etmişlərdir. İngilislər özlərinə edilən ehtirama qarşı çox təşəkkür etmişlərdir. Sonra qonaqların şərəfinə ziyafət verilmişdir. Ziyafət zamanında ingilislər nitq irad edərək Zaqafqaziyada millətlərin qəhrəman bir surətdə yaşamalarının və vətəndə əmin və amanlıq bərpa etməyin lüzumunu göstərmişlərdir. O gündə qonaqlar Qarsa tərəf əzimət etmişlərdir.

* “Mişak” yazır: Qars mahalında olan türk və tatarlar ermənilərə silah və sairə verməyirlər. Yurduna qayıdan qaçqın hətta ermənilərə yerlərini vermək istəməyirlər.

* Son məlumata nəzərən, dəmiryolu Culfayadək Ermənistana verilmişdir. Culfa və Naxçıvan dairəsində olan müsəlmanlara gəldikdə, bunlar erməni təbəəliyini qəbul etmək istəyirlərmiş. (?)

Ermənilər və Şəhər İttifaqı

Dekabrın 20-si tarixi ilə Xatisov Gürcüstandakı Şəhərlər İttifaqı Səhiyyə şöbəsi rəisi Yaxşıyan nama [adına] göndərdiyi teleqramında deyir ki, öz yerlərinə qayıtmış olan erməni kəndçilərinin ehtiyacı çox böyükdür. Türklər əllərinə keçən şeyləri aparmışlardır. Şəhərlər İttifaqının malik olduğu əşyalarda ermənilərin də haqları olduğundan, Xatisov təvəqqe edir ki, bilatəxir İrəvana erməni qaçqınları nəfinə lazım gələn şeylər göndərilsin.

* Ermənistandan göndərilən erməni sülh nümayəndələrinin Parisə varid olduqları teleqrafən Tiflisə xəbər verilir.

Ermənistan Hökuməti rəisi Kaçaznuninin nitqi

Ermənistan Hökuməti rəisi Kaçaznuni dekabrın 31-də vaqe olan Nazirlər Şurasında böylə bir nitq söyləmişdir:

Bugündən bizim cavan cümhuriyyətimizin tarixində təzə bir səhifə başlanır.

Türk əsgərləri məmləkətimizdən çəkilib getdilər. Mən sizi təbrik edirəm. Bugündən bizim torpağımızda bir nəfər də türk əsgəri yoxdur.

Türklər boşaltdıqları yerlərin bilatəxir erməni əsgərləri tərəfindən zəbt edilməsi üçün hökumət vaxtlı-vaxtında təşəbbüsatda bulunmuşdur. Böylə ki, dekabrın 3-də bizim əsgərlərimiz Eçmiadzin, Sərdarabad mövqiflərini [stansiyalarını] və Marqarain körpüsünü zəbt etmişlərdir. Sabahı günü Uluxanlı mövqifini və saat 3-də Gümrünü zəbt etmişlərdir. Dekabrın 5-də Gümrü mövqifi zəbt olunub bu gün də bir dəstəmiz Qəmərlini keçdikdən sonra Yuva kəndini və digər dəstəmiz İğdırı zəbt etmişdir. Bu qərar üzrə dəmiryol xətti Kələgərandan Qəmərliyə qədər bizim əlimizdədir. Biz Gümrüdə türklərdən külli miqdarda mühimmatihərbiyyə [hərbi sursat] almışıq. Hər bir hərəkat ixtilafsız və bir güllə atılmadan icra edilmişdir. İslam əhalisi hər yerdə bizim əsgərlərimizi təbriklə istiqbal etmişdir. O cümlədən erməni əsgərlərini dəvət etməkdən ötrü İğdırdan Marqaraya heyət göndərilmişdir. Heyət demişdir ki, İğdırda erməni əsgərlərinin vürudunu aramsız bir surətdə gözləyirlər.

İZHARİ-TƏŞƏKKÜR

Qəzetəmizin yazıçılarından olan parlaman məbusu Əhməd Həmdi əfəndi Nuri paşa həzrətlərindən kəndilərinə bağışlanmış olan xəritələrdən böyük əndazəli [ölçülü] türkcə Zaqafqaziya xəritəsini idarəmizə hədiyyə etdilər. Bundan dolayı Əhməd Həmdi əfəndiyə idarə tərəfindən səmimanə təşəkkürlər izhar edilir.

İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm! Xahiş olunur ki, mənim bu qaç [neçə] kəlməmi möhtərəm qəzetənizdə dərc edəsiniz:

"Leyli və Məcnun" teatrosunda camaat teatrodan çıxıb evlərinə getdiyi zaman, teatronun qapısında polismeystr tərəfindən durdurulub təftiş olunurlar. Camaat bu işdən vahimələnib də bizim o biri oyunlarımıza kəm-etina olub zənn edirlər ki, bu təftiş hər dəfə olasıdır. Halbuki həman təftiş barəsində mən polis böyükləri ilə danışıb bildim ki, polis müfəttişləri həman gecə məhz Azərbaycan qoşunundan qaçan əsgərləri təftiş etmək qəsdi ilə bu işi icra edibdirlər. Yoxsa camaatla polisin işi yoxdur və bir də bu iş bir kərə oldu da, qurtardı. Ona görə camaatın bu barədə təşvişi bicadır [yersizdir].

Bu da əlavə olunur ki, müdiriyyət qərardadına görə, bundan sonra cümələr hökumət teatrosunda və seşənbə gecələri "Mikado" teatrosunda teatro tamaşalarımız göstərilib kəmali-qaidə [öz qaydası] ilə davam edəcəkdir.

Müdir: Zülfüqar bəy Hacıbəyli

TEATRO VƏ MUSİQİ

Bu gün cümə günü axşam saat 8-in yarısında Hökumət Teatrosunda (sabiq Mailov) Hacıbəyli Qardaşları Müdiriyyətinin artistləri tərəfindən əvvəlcədən elan edilən "Aşıq Qərib" operası əvəzinə "Arşın mal alan" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. "Aşıq Qərib" ope-

rasında “Sənəm” rolunu ifa edən Əhməd Ağdamlı xəstə olduğuna görə, müdiriyyət “Aşıq Qərib” operası əvəzinə “Arşın mal alan” operettasını mövqeyi-tamaşaya qoyacaqdır. Oyun şükuhlu [təntənəli] bir surətdə keçəcəkdir. Biletlər teatro kassasında satılmaqdadır. “Aşıq Qərib” operasına alınan biletlərlə bu teatroya gəlmək olar.

Doktor
Samuil İzrailoviç Kopelioviç

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

282

Doktor İ. Q. Sibiroviç

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

2658

Doktor Ağahüseyn Kazımov

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

2655

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Elan

Azərbaycan Cümhuriyyəti Ərzaq Nəzarəti idarəsi Azərbaycan daxilində yaşayan əhalinin və ətrafdan gələn bisavad adamların icazə və başqa işlər üçün Nəzarətə verəcəkləri ərizələri yazdırmaq üzündən çəkdikləri çətinliyi nəzərə alaraq, nazir həzrətlərinin əmri ilə idarənin aşağı qatında, pilləkənlərdən çıxan yerdə ərizə yazdırmağa xüsusi bir oda [otaq] təsis edilmişdir. Buna görə, bundan sonra nazir həzrətləri naminə və Ərzaq İdarəsinə ərizə verəcək kimsə həman odada ərizələrini pulsuz olaraq yazdıra bilərlər.

Ərzaq Nəzarəti İdarəsi

Elan

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi həmin yanvar ayının 31-də cümə günü gündüz saat 12-də Bakı Şəhər İdarəsi (Dumasının) zalında Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin ümumi iclası təyin olunmuşdur. Müsəlmanlardan rica olunur ki, vəqti-müəyyəndə [təyin edilmiş vaxtda] iclasa təşrif gətirib üzv yazılsınlar və intixabda [seçkidə] iştirak eyləsinlər.

Sədr: Mirzə Əsədullayev
T-12

Elan
Hökumət mətbəəsi

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə “Azərbaycan” qəzetəsi idarəsinə müraciət edə bilərlər.

T-24

Müvəqqəti müdür:
Hacıbəyli Üzeyir bəy

QEYD VƏ ŞƏRHLƏR

Ciddiyyət gərək!

səh. 518. “M. Ə.”: Bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

Azərbaycan Məclisi-Məbusanında

səh. 519. “…70 min nüfus…”: qəzetdə “7 min nüfus” getmişdir.

Bez fəqərəsi

səh. 527. “lankort”: pambıq parça növü.

ADLAR GÖSTƏRİCİSİ

Abbas Aslan oğlu: Gəncə qəzasının Dəllər kəndinin sakini. 58

Abbas Cəfər oğlu: Gədəbəyin Miskinli kəndinin sakini. 58

Abbas Səhhət: bax. Səhhət, Abbas

Abbaszadə, Mirzə Abbas: Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 136

Abşeron 30, 32, 108

"Açıq söz": Bakıda, 1915-1918-ci illərdə nəşr edilən gündəlik qəzet. Əsası Məhəmməd Əmin Rəsulzadə tərəfindən qoyulmuşdur. 175, 195, 216

Adıgözəlov məktəbi: Gəncədə məktəb. 96

Ağakişibəyov, Fərrux bəy Əlikişi bəy oğlu (1879-1956): Azərbaycanlı həkim. İrəvan Müəllimlər Seminariyasını, Odessada Novorossiya Universitetinin Tibb fakültəsini bitirmişdir. 229

Ağaoğlu, Əhməd bəy (1869-1939): Azərbaycanın və Türkiyənin gökəmli ictimai-siyasi xadimi; hüquqşünas, şərqşünas, yazıçı-publisist. Türkçülük hərəkatının ideoloqlarından biri olmuşdur. 7, 9, 14, 161, 299

Ağarı: Cəbrayıl qəzasının kəndi. 17

Ağayev, Fərhad bəy Məşhədi Rəhim oğlu: bax. Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu.

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 7, 160, 164, 199, 299, 360, 499

Ağazadə, Əmir: Azərbaycan Səhiyyə Nazirliyinin və Parlamentinin katibi olmuşdur. 160

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün "İkinci il" dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin "Azərbaycan" qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 6, 33, 54, 69, 109, 147, 194, 207, 227, 290, 311, 325, 359, 366, 430

Ağdam 165, 229, 230, 255, 256, 295

Ağdamlı, Əhməd (yaxud Əhməd Ağdamski; 1884-1954): Azərbaycanın opera müğənnisi, teatr və kino aktyoru. Teatr səhnəsində qadın rollarının mahir ifaçısı kimi tanınmışdır. 57, 76, 355, 356, 532

Ağdamski, Əhməd: bax. Ağdamlı, Əhməd.

Ağdaş 58, 60, 349, 520

Ağməscid: Krımın Simferopol şəhərinin əvvəlki adı. Bax. Simferopol.

Ağstafa 33

Axalkalaki (yaxud Axalkalak; Axalkələk): Gürcüstanın cənubunda şəhər. 75, 328, 418, 524

Axalsıx (yaxud Axıska; Axaltsixe): Gürcüstanın cənubunda şəhər. 63, 189

Axmetelaşvili, Svimon (1879-1937): Gürcüstanın siyasi xadimi; həkim. Gürcüstan Demokratik Respublikası Müəssislər Məclisinin üzvü olmuşdur. 173, 178

Axnazarov, Pirqulu: Binəqədi müsəlman fəhlələri yığıncağının sədri olmuşdur. 95, 96

Axundov, Hacı bəy: Bakı sakini. 97

Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azər-

baycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 25, 170, 202, 204

Axundzadə, Xeyrulla. 316

Axundzadə, İdris: Gəncə Türk Müəllimləri İttifaqının sədri olmuşdur. 136, 351, 455

Axundzadə, Mirhəsən: “Azərbaycan” qəzetinə məktub yazmışdır. 414

Axundzadə, Molla Abidin: Zabrat kənd sakini. 256

Axundzadə, Nurulla. 316

Axundzadə, Rəşid bəy Hacı Əbdüssalam oğlu (1880-1940): Azərbaycanın ictimai-siyasi xadimi. 1895-1907-ci illərdə Qafqaz müsəlmanlarının Şeyxülislamı olan Axund Hacı Əbdüssalamın oğlu olmuşdur. Kiyevdə hüquq təhsili almışdır. Salyandan Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 1919-cu ilin fevralından avqustunadək Bakının valisi (qubernatoru) vəzifəsini tutmuşdur. Sovet hakimiyyəti dövründə Sibirə sürgün edilmiş və sürgündə ölmüşdür. 165

Axundzadə, Ruhulla Əli oğlu (1897-1938): Azərbaycan alimi və publisisti, eyni zamanda dövlət xadimi. Sovet dövründə bir sıra partiya və dövlət vəzifələrində işləmiş, 1938-ci ildə güllələnmişdir. 192, 313

Axundzadə, Sürəyya xanım: Gəncədə müəllimə olmuşdur. 100, 136

“Al bayraq”: “Hümmət” partiyasının Bakıda nəşr etdiyi qəzet. 190, 234, 275

Aldərə (yaxud Əldərə): Zəngəzur qəzasının kəndi; indiki Meğri rayonundadır. 83

Aleksandro-Nevski kilsəsi (yaxud Qızıllı kilsə): Bakıda 1898-ci ildə tikilmiş kilsə. Qafqazın ən böyük kilsəsi olmuşdur. 1936-cı ildə sökülmüşdür. 60

Aleksandropol: Qərbi Azərbaycanın (indiki Ermənistan) Gümrü şəhəri. Rus çarı I Nikolayın arvadı Aleksandra Fyodorovnanın şərəfinə 1837-ci ildə Aleksandropol adlandırılmış və 1924-cü ilə qədər bu adı daşımışdır. 105, 225

Allahverdiyev, Əliheydər (1888-1972): Bakıda fəaliyyət göstərmiş həkim. 78, 98, 117, 137, 157, 176, 195, 216, 235, 256, 275, 296, 317, 336, 357, 376, 396, 414, 434, 454, 474, 494, 514, 518

Alman, almanlar 62, 67, 128, 172, 210, 247, 248, 257, 259, 305, 348, 349, 421

Almaniya 2, 6, 22, 47, 48, 86, 88, 128, 129, 130, 133, 139, 144, 148, 149, 158, 172, 178, 180, 185, 188, 225, 247, 248, 285, 290, 303, 304, 305, 308, 319, 320, 326, 337, 348, 349, 351, 384, 397, 415, 445, 446, 447, 467, 468, 504, 521

Amerika, Amerika Birləşmiş Ştatları 2, 7, 21, 23, 39, 42, 47, 51, 63, 84, 86, 95, 99, 109, 111, 112, 113, 115, 130, 131, 147, 148, 149, 172, 179, 180, 183, 186, 187, 188, 232, 260, 291, 302, 305, 326, 340, 341, 347, 350, 367, 384, 404, 482, 521, 522

Amet, Jan-Fransua-Şarl [Jean-François-Charles Amet; 1861-1940]: Fransız vitse-admiralı. Mudros sazişindən sonra Fransanın İstanbulda Ali komissarı olmuşdur. 65, 447

Amsterdam 22, 48, 188, 303, 325

Anaplı, Əbülhəsən: bax. Anaplinski, Əbülhəsən.

Anaplinski (Anaplı), Əbülhəsən (1894-1921): Teatr aktyoru. Bir sıra teatr truppalarında, o cümlədən Hacıbəyov qardaşlarının teatr dəstəsində çıxış etmişdir. Əsasən komik rollar oynamışdır. Qarabağda qastrol səfərində olarkən ermənilər tərəfindən xaincəsinə qətl edilmişdir. 76

Andranik: bax. Ozanyan, Andranik.

Andreyevski: Tiflisdə küçə; indiki Georgi Çubinaşvili küçəsi. 107

Andriyevski, Afanasi Mixayloviç (1878-1955): Ukraynanın siyasi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının üzvü olmuşdur. Mühacirətə getmişdir. 132

Ankavir: Qarabağın kəndi. 58

Antanta: bax. Etilaf Dövlətləri.

Arakelyan, A.: daşnak, Sentrokaspi Diktaturasının rəhbərlərindən biri. 114

Aram paşa: bax. Manukyan, Aram.

Araz 75, 99, 103, 106, 143, 171, 194, 342, 343, 344

Areşev, Mixail Vasilyeviç (1876 - ?): Rus ordusunda xidmət etmiş, general-mayor rütbəsi almışdır. Daha sonra Ermənistan ordusunda xidmət etmiş, 1921-ci ildə bolşeviklər tərəfindən həbs edilmişdir. 75

Arqun: Şimali Qafqazda çay. 46, 447

Armyanski küçəsi: Bakıda küçə. Sovet dövründə "Qorki küçəsi", daha sonra "Mirzə İbrahimov küçəsi" adlanmışdır. 18, 38, 58, 78, 98, 115, 117, 137, 158, 176, 195, 216, 235, 256, 275, 296, 317, 336, 357, 396, 434, 454, 474, 494, 515, 533

Artunyans 87

Arzumanov, Mişa: 1918-1920-ci illərdə Qərbi Azərbaycanda və Qarabağda dinc Azərbaycanlı əhaliyə divan tutan daşnak ordularının komandirlərindən olmuşdur. 74

Asiya (qitə) 12, 38, 97, 197, 236

"Aşıq Qərib": Zülfüqar Hacıbəylinin 1916-cı ildə yazdığı opera. 57, 75, 76, 514, 532

Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçisi. Bakı Şəhər Dumasının və "Nicat" cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda "Həqqi" təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 12

Atamalıbəyov, Abbas bəy Seyfulla bəy oğlu (1896-1971): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Milli Şuranın və Parlamentin üzvü olmuşdur. Mühacirətdə yaşamışdır. 204

Atamalıyev, Abbas: bax. Atamalıbəyov, Abbas.

Atayev, Məhəmmədrza: Gəncə sakini; "Azərbaycan" qəzetinə məktub göndərmişdir. 76

Avalişvili, Zurab (1876-1944): Gürcüstanın ictimai-siyasi xadimi və diplomatı; hüquqşünas. Gürcüstan Respublikasının Xarici İşlər nazirinin müavini olmuş, Paris Sülh Konfransında iştirak edən Gürcüstan heyətində yer almışdır. 107, 173

Avropa (yaxud Yevropa; qitə) 5, 6, 12, 26, 37, 38, 41, 42, 48, 51, 53, 73, 84, 90, 91, 97, 113, 123, 126, 129, 130, 131, 142, 145, 151, 157, 161, 162, 163, 193, 212, 304, 305, 319, 406, 341, 414, 454, 459, 467, 469, 480, 481, 484, 489, 505, 507

Avstriya 128, 130, 133, 180, 185, 186, 197, 286, 305, 415

Ayn: "Azərbaycan" qəzetindəki imzalardan biri; Üzeyir Hacıbəyliyə məxsusdur. 13, 20, 287, 298

Ayn. Əlif-zadə: "Azərbaycan" qəzetindəki imzalardan. 72

Ayvazov, Həsən Səbri (1858-1938): Krım tatarlarının ictimai-siyasi xadimi; yazıçı və tənqidçi. İstanbulda təhsil almış, İstanbul və Bakı mətbuatında məqalələrlə çıxış etmişdir. 1938-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 66

Ayzeks, Rufus; I Redinq markizi [Rufus Isaacs; 1st Marquess dof Reading; 1869-1935]: Britaniyanın dövlət xadimi, hüquqşünas. Ədliyyə sistemində yüksək vəzifələr tutmuş, Birinci Dünya müharibəsi illərində həmçinin diplomat kimi də fəaliyyət göstərmişdir. Daha sonrakı dövrdə Hindistanın general-qubernatoru və Britaniya Xarici İşlər naziri olmuşdur. 99

"Azərbaycan": 15 sentyabr 1918 – 28 aprel 1920-ci il tarixləri arasında, əvvəlcə Gəncədə və sonra Bakıda nəşr olunan qəzet. 1, 18, 21, 24, 25, 39, 41, 42, 58, 59, 61, 78, 80, 81, 98, 101, 117, 119, 120, 121, 137, 140, 141, 158, 159, 176, 177, 179, 196, 197, 198, 199, 216, 219, 228, 238, 239, 258, 259, 277, 278, 279, 298, 299, 313, 319, 325, 338, 339, 358, 359, 377, 378, 379, 397, 398, 399, 417, 436, 437, 456, 457, 476, 477, 491, 496, 497, 516, 517, 528

Azərbaycan türkləri 2, 242, 362, 410, 510

Azərbaycanlı, azərbaycanlılar 2, 4, 7, 8, 41, 42, 44, 126, 143, 146, 287, 380, 386, 450

Azğur: Gürcüstanın cənubunda Axıska türklərinin yaşadığı kəndlərdən olmuşdur. 53

Aziatski: Bakıda küçə. İndiki Əlövsət Quliyev küçəsi. Aziatski 18, 57, 77, 116, 158, 195, 235, 275, 317

Babayev, Məhəmmədhüseyn: Suraxanı fəhlələrinin fəallarından olmuşdur. 116

Babazadə, Ələkbər (1893-1943): Azərbaycanlı pedaqoq, alim. İlk təhsilini Gəncədə almışdır. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. Dilçilik sahəsində elmi əsərlərin müəllifidir. 158

Babazadə, Həbib (1892 - ?): Ukraynada təhsil alan azərbaycanlı tələbələrdən. Azərbaycan Cümhuriyyəti Parlamentinin kargüzarı olmuşdur. 152

Bağdad Dəmiryolu: Anadoluda (Kiçik Asiyada) Konya şəhərindən başlayaraq Bağdada çatan dəmiryolu xətti. Berlindən başlayaraq İstanbuldan keçməklə Küveytə gedən dəmiryolu xəttinin tərkib hissəsi idi. XX əsrin əvvəllərində beynəlxalq siyasətdə mühüm rol oynamışdır. 207

Bağırqan meşələri: Qarabağda yer. 144

Bakayevski (Bakayevo): Rusiyanın Orenburq vilayətində kənd.

Bakı (şəhər) 1, 2, 3, 11, 12, 13, 14, 15, 19, 30, 31, 32, 33, 36, 37, 39, 40, 43, 46, 50, 53, 54, 55, 56, 58, 61, 70, 72, 74, 78, 82, 85, 93, 94, 95, 100, 101, 108, 112, 113, 114, 115, 118, 125, 126, 127, 137, 138, 144, 147, 156, 161, 166, 173, 174, 176, 178, 184, 191, 192, 195, 196, 197, 199, 213, 214, 215, 216, 217, 224, 228, 234, 235, 236, 237, 252, 253, 254, 255, 256, 260, 268, 270, 271, 273, 274, 275, 276, 277, 292, 293, 294, 296, 298, 312, 313, 314, 317, 318, 330, 333, 336, 352, 354, 356, 357, 360, 371, 372, 373, 374, 376, 381, 385, 387, 388, 390, 393, 396, 397, 405, 408, 411, 415, 416, 418, 422, 430, 431, 433, 434, 435, 439, 440, 443, 447, 452, 455, 460, 462, 470, 471, 472, 474, 475

Bakı Bələdiyyə İdarəsi 4, 34, 35, 58, 93, 100, 133, 135, 165, 228, 252, 269, 270, 294, 295, 296, 312, 370, 392, 393, 395, 442, 447, 448, 462, 487, 510, 526, 527

Bakı Birinci realnı məktəbi: bax. Birinci Realnı məktəbi (Bakı).

Bakı İctimai Yığıncağı (Klub) [Бакинское общественное собрание (клуб)]: Bakıda fəaliyyət göstərmiş xeyriyyə cəmiyyəti. Sədri neft sənayeçisi Qriqori Tsovyanov (Tsovianyan) idi. Cəmiyyətin rəhbərliyində əsasən ermənilər təmsil olunurdular. 196, 216

“Bakı Neft Cəmiyyəti” (Бакинское нефтяное общество): Bakıda 1874-cü ildə Vasili Kokorev və Pyotr Qubonin tərəfindən qurulan neft istehsalı şirkəti. 108

Balaxanı (Bakı) 15, 108, 118, 175, 176, 268, 270, 313, 431, 452, 470, 512

Balfur, Artur [Arthur Balfour; 1848-1930]: Britaniyanın dövlət xadimi. 1902-1905-ci illərdə Baş Nazir, 1916-1919-cu illərdə Xarici İşlər naziri olmuşdur. 86, 148, 246, 305

Baloğlan Daşdəmir oğlu: Gəncədə əsgər olmuşdur. 155

Balyand: Azərbaycanın Cəbrayıl rayonu ərazisində kənd. 17

Bammatov, Heydər (yaxud Heydər Bammat; 1889-1965): Dağıstanın siyasi xadimi. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsində oxumuşdur. Dağlılar Respublikasının Xarici İşlər naziri olmuş, 1921-ci ildə mühacirətə getmişdir. 28, 46, 50, 473

Baratzadə, Hacı Yaqub: Gəncə ruhanilərindən; Gəncə oğlanlar gimnaziyasının şəriət müəllimi olmuşdur. 16

Basarkeçər: Qərbi Azərbaycanda (halhazırda Ermənistan Respublikası ərazisində) yer. Bu ərazidə 1930-cu ildə Basarkeçər rayonu yaradılmış, 1969-cu ildə rayonun adı dəyişdirilərək Vardeniş olmuşdur. 105

Başenni (Başennaya): Bakıda, İçəri

şəhərdə küçə; bax. Qala küçəsi.

Batum (yaxud Batumi) 13, 66, 74, 77, 107, 173, 187, 206, 211, 224, 349, 367, 392, 445, 504, 505, 522, 524

Bayrambəyov, Paşa bəy: Araz Türk Cümhuriyyəti hökumətinin və İrəvan Azərbaycanlılarının nümayəndəsi olmuşdur. 85, 167

Bayraməlibəyov, Teymur bəy [1862-1937]: Azərbaycanın ictimai-siyasi xadimi, maarifçisi və tarihçisi. Qori müəllimlər seminariyasını bitirmiş, Lənkəranda müəllim işləmişdir. "Müsavat" partiyasının Lənkəran şöbəsinin səri olmuşdur. 50, 52, 394, 412, 451, 491

Bayraməlibəyov, Yusif bəy: "Müsavat" partiyasının Lənkəran şöbəsinin sədri olmuşdur. 202, 335

Belçika 49, 223, 260, 305, 308, 384, 446

"Benkendorf və Kompaniya": XIX əsrin axırlarında – XX əsrin əvvəllərində Abşeronda neft hasilatı ilə məşğul olan şirkət. 107

Berlin 46, 47, 59, 88, 110, 119, 129, 139, 185, 223, 224, 247, 248, 261, 262, 276, 290, 303, 325, 337, 349, 350, 367, 384, 403, 446, 467, 468, 479

Bern: İsveçrənin paytaxtı. 48, 88, 148, 418

Bertlo, Hanri [Henri Berthelot; 1861-1931]: Fransanın hərbi xadimi; general. 1916-cı ildən Rumıniyadakı fransız hərbi missiyasına başçılıq etmiş, 1918-ci ilin noyabrından Dunay ordusunun komandiri, 1919-cu ilin martından Balkan yarımadasında və Cənubi Rusiyadakı Müttəfiq qoşunlarının baş komandanı olmuşdur. 149

"Bəradərani-Nobel": bax. "Nobel Qardaşları".

Bərgüşad: Zəngəzurda çay.

"Bəsirət": 1914-1920-ci illərdə Bakıda Azərbaycan dilində nəşr edilən qəzet. 234

Bıç, Luka Lavrentyeviç (1870-1945): Kuban kazaklarının siyasi və ictimai xadimi. Hüquq təhsili almışdır. Bakıda işləyərkən Bakı Şəhər Dumasına üzv seçilmiş, 1912-1917-ci illər arasında Bakı Şəhər İdarəsinin rəisi olmuşdur. 1917-ci ilin Fevral inqilabından sonra Kubana qayıtmış, Kuban Hökumətinin sədri seçilmişdir. Kuban heyətinin başçısı olaraq Paris Sülh Konfransında iştirak etmiş, Kuban Xalq Respublikası süqut etdikdən sonra mühacirətdə qalmışdır. 87, 132

Bibiheybət 15

Biçeraxov, Lazar Fyodoroviç (1882-1952): Rusiyanın hərbi xadimi. İran-dakı Rusiya korpusunda xidmət edərkən, təxminən 1000 nəfərlik bir dəstə yaratmış, ingilislərlə əməkdaşlıq etmişdir. Bakı Komissarları da Qafqaz İslam Ordusuna qarşı Biçeraxovun yardımına müraciət etmişdilər, ancaq daha sonra bolşeviklərlə Biçeraxov arasında ixtilaf meydana gəldi və Biçeraxov öz dəstəsi ilə birgə Dağıstana çəkildi. Sentrokaspi Diktaturası Xəzər dənizindəki hərbi donanmanı Biçeraxovun əmrinə vermişdi. 93, 102, 249, 294, 451, 452

Bierinq 33, 488

Biləcər (yaxud Biləcəri): Abşeronda kənd; hal-hazırda Binəqədi rayonu ərazisində şəhərtipli qəsəbə. 15, 216, 430

Bilgəh 15, 216

Biləcəri: bax. Biləcər.

Binə 15, 216

Binəqədi; Binəqədi dairəsi: Bakının rayonu (Cümhuriyyət dövrü). Binəqədi 15, 78, 95, 108, 118, 176, 216, 271, 470, 487

Birinci Realnı məktəbi (Bakı) 15, 271, 354, 381, 393, 411, 487

Birja küçəsi (yaxud Birjevaya; Birjevoy): Bakıda küçə; indiki Üzeyir bəy Hacıbəyli küçəsi. 18, 39, 58, 78, 98, 117, 137, 158, 176, 196, 216

Blok, Adam: İngiltərənin Türkiyədəki diplomatik nümayəndəsi olmuşdur. 65

Boğaziçi: İstanbul boğazı (Bosfor) və bu boğazın hər iki tərəfində ter alan ərazilər. 165

Boldırev, Vasili Georgiyeviç (1875-1933): Rusiyanın hərbi xadimi. Rusiyanın Dirçəlişi İttifaqının rəhbər heyətinə daxil olmuşdur. Ümumrusiya Müvəqqəti Hökuməti qoşunlarının baş komandanı idi. 147

Bolqarıstan 128, 139, 306

Bolşaya Krepostnaya: bax. Böyük Qala.

Bolşevik, bolşeviklər 29, 49, 50, 51, 52, 62, 63, 66, 67, 87, 111, 125, 129, 149, 170, 172, 173, 190, 201, 204, 210, 223, 225, 250, 261, 290, 306, 329, 349, 369, 388, 425, 505, 506, 521, 522, 529

Bolşoy Krepostnoy: bax. Böyük Qala.

Bolşoy Minaretski: Bakıda küçə; indiki Asəf Zeynallı küçəsi. 36

Bolşoy Morskoy: Bakıda küçə; indiki Bülbül küçəsi. 18, 57, 77, 117, 158, 195, 235, 275, 317

“Bolşoy Moskovski”: bax. “Böyük Moskva” mehmanxanası.

“Borba”: 1917-1921-ci illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet. Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının orqanı idi. 133, 224, 225, 261

Bölükbaşı, Rza Tofiq: bax. Rza Tofiq.

Böyük Qala: Bakıda, İçərişəhər ərazisində küçə. 94, 271, 370, 526

“Böyük Moskva” mehmanxanası: Bakıda mövcud olmuş mehmanxana, Qoqol küçəsində yerləşmişdir. 18, 38, 57, 78, 98, 117, 137, 158

Brauninq, Monteqyu Edvard [Montague Edward Browning; 1863-1947]: Britaniya donanmasının admiralı. Birinci Dünya müharibəsindən sonra atəşkəs sazişinin şərtlərinə nəzarət edən Antanta Hərbi Dəniz Komissiyasının sədri olmuşdur. 130

Braziliya 22, 367, 384

Bron: Bakıda fəaliyyət göstərmiş doktor; eyni zamanda Mərkəzi Ev Komitəsində işləmişdir. 93

“Bruno” (“Debur Bruno”): XX əsrin əvvəllərində Abşeronda neft hasilatıyla məşğul olan şirkət. 108

Bukinqem Sarayı [Buckingham Palace]: Londonda Britaniya monarxlarının rəsmi iqamətgahı. 46

Bukovina: Şərqi Avropada tarixi vilayət; indiki dövrdə Ukrayna ilə Rumıniya arasında bölünmüşdür. 66

Burunlu: Zəngəzur mahalının kəndi olmuşdur. 83

Butayev, Aslambek (1880-1939): Dağlılar Respublikasının Əkinçilik və Dövlət Əmlakı naziri olmuşdur. 28, 474

Buzovna: Bakının kəndlərindən biridir. 15, 216

“C. P.”: “Azərbaycan” qəzetindəki imzalardan. 228

Cabaqır: bax. Cabaqiyev, Vassan-Gəray.

Cabaqiyev, Vassan-Gəray (1882-1961): Şimali Qafqazın siyasi və dövlət xadimi; milliyyətcə inquşdur. Almaniyada təhsil almışdır. İnquş Milli Şurasının sədri olmuş, Şimali Qafqaz Dağlılar İttifaqının (Dağlılar Respublikasının) qurulmasında yaxından iştirak etmiş, İttifaqın Mərkəzi Komitəsinin üzvü və Maliyyə naziri olmuşdur. Dağlılar Respublikasının Müstəqillik Aktının müəllifi və Dağlılar Respublikası Konstitusiyasının müəlliflərindən biri idi. Şimali Qafqazın sovetləşməsindən sonra mühacirətə getmişdir. İstanbulda ölmüşdür. 28, 473

Cabbarzadə, Cəfər: Qafqaz Tələbələri Mərkəzi Komitəsinin üzvü, Azərbaycan Cümhuriyyəti Parlamentinin türkcə stenoqrafı olmuşdur. 115

Camalyan, Arşak (1882-1940): Erməni siyasi xadimi. Almaniyada təhsil almışdır. Qafqaza qayıtdıqdan sonra jurnalistlik və müəllimliklə məşğul olmuşdur. Ermənistanın Gürcüstandakı səfiri olmuşdur. Daşnak-sutyun partiyasının üzvü idi. Ermənistanın sovetləşməsindən sonra mühacirətə getmişdir. 12, 37, 38, 189

Cancanbəyzadə, Məhəmməd ağa 72

Cardam: Ağdaş qəzasının kəndi. 58

Cavad Cavanşir: bax. Cavanşir, Cavad.

Cavad qəzası (uyezdi) 58, 174

Cavanşir, Cavad: Zəngəzur müsəlmanları Milli Məclisi sədrinin müavini olmuşdur. 85

Cavanşir qəzası 165

Cəbrayıl (yaxud Qaryagin) 17, 56, 256, 272, 312, 373, 386, 387, 498

Cəbrayıl sülh məhkəməsi

Cəfər Ələkbər oğlu: Balyand kənd sakini. 17

Cəfərov, Əliyusif (1901-1938): Azər-baycan Cümhuriyyəti Parlamentinin qərarı ilə ali təhsil almaq üçün xarici ölkələrə göndərilən tələbələrdən biri. 213

Cəfərzadə, Əliyusif: bax. Cəfərov, Əliyusif.

Cəfərzadə, Gövhər xanım: Gəncə gimnaziyasının müəlliməsi olmuşdur. 214

Cəmiyyəti-Əqvam: bax. Millətlər İttifaqı.

Cəzair: bax. Əlcəzair.

Cəziri: bax. İbnül-Əsir Cəziri.

Corat: Abşeronda kənd; hal-hazırda şəhərtipli qəsəbə. 118, 137, 528

"Corc Vaşinqton": gəmi. 12

Cuvarlinski, Cavad bəy: Gəncədə maarif müfəttişi olmuşdur. 96

Çadrovı: Bakıda küçə, indiki Mirzəağa Əliyev küçəsi. 135, 452

Çanaqqala 186, 283, 285

Çatalca: İstanbulun qərb rayonlarından biri. 128, 139

Çex, çexlər 128, 305

Çelyayev küçəsi: Bakıda küçə; indiki Mir-varid Dilbazi küçəsi. 18

Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində "Vəhşi diviziya"nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 28, 29, 46, 59, 473

Çxeidze, Nikolay Semyonoviç (1864-1926): Rusiyanın və Gürcüstanın siyasi xadimi. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Zaqafqaziya Seyminin və Gürcüs-tan Müəssislər Məclisinin sədri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra müha-cirətə getmişdir. 12, 94

Çığın dərəsi: Qərbi Azərbaycanda, Ved-ibasar mahalında, Çiqin kəndi yaxınlığına yer. 105

Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 47

Daqet-Xaçın: Gürcüstan Respublikasının Aşağı Kartli (Kvemo-Kartli) diyarında Tetrit-skaro (Ağbulaq) bələdiyyəsi ərazisində kənd. 12

Dağıstan, dağıstanlı 26, 29, 46, 114, 164, 191, 212, 213, 214, 254, 295, 334, 350, 411, 419, 440, 453, 467, 468, 473, 528

Dağıstan Hökuməti: bax. Dağlılar Respublikası Hökuməti.

Dağıstani, C.: bax. Hacıbəyli, Ceyhun bəy.

Dalmatiya: Balkan yarımadasının şimal-qərbində, Adriatik dənizi sahilində tarixi vilayət. 1815-ci ildə Avstriya imperiyasının, 1918-ci ildə Yuqoslaviya krallığının tərkibinə daxil edilmişdir. Müasir dövrdə Xorvatiya və Monteneqro arasında paylaşılmışdır. 186

Daniels, Cazefus [Josephus Daniels; 1862-1948]: Amerikanın ictimai-siyasi xa-dimi və diplomatı. 1913-1921-ci illərdə Hərbi-Dəniz Donanması naziri vəzifəsini tutmuşdur. 1933-1941-ci illərdə ABŞ-ın Meksikadakı səfiri olmuşdur. 21, 63, 172

Danimarka 49, 130, 149, 188

Darablı, Rza (yaxud Rza Darablinski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. "Nicat", "Səfa", "Hacıbəyov qardaşları müdi-riyyəti" truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 76, 98

Darablinski: bax. Darablı.

"Dardanel": Bakıda, Vorontsovski (indiki İslam Səfərli) küçəsində yeməkxana olmuşdur. 38, 97

Daşnak, daşnaksaqan 2, 3, 23, 75, 113,

114, 126, 212, 250, 379, 380, 388, 425, 444, 454, 484, 530

“Daşnaksutyun” partiyası 35, 81, 469

Daştəpə: Zəngəzurda dağ.

Davud Ziya: Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 136

Delitsın, Aleksey Petroviç: Cümhuriyyətdən əvvəl Bakı Nəzarət Palatasının sədri və Bakı şəhər Bələdiyyə Şurasının üzvü olmuşdur. Cümhuriyyət dövründə Bakı Bələdiyyəsinin Maliyyə şöbəsinin sədri və Dövlət Nəzarəti Nazirliyinin Dövlət nəzarəti idarəsinin rəisi olmuşdur. Sovet dövründə SSRİ Maliyyə Xalq Komissarlığının Azərbaycandakı səlahiyyətli nümayəndəsinin müavini olmuşdur. 35

Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbər-lərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 64, 67, 79, 147, 330, 367, 479

D’Esperi, Franşe [Franchet d’Espèrey; 1856-1942]: Fransanın siyasi və hərbi xadimi, marşal. Cənubi Rusiyada Fransanın Ali komissarı olmuşdur. 65, 172

Dəliməmmədli stansiyası: Azərbaycanda dəmiryolu stansiyası; hal-hazırda Goranboy rayonu ərazisində şəhər. 134

Dəllər: Gəncə qəzasının kəndi. 58

Dərbənd 15, 28, 334, 370, 371, 432

Digah: Abşeronda kənd 15, 216, 528

Dikaya Diviziya 144

Dildarovun evi: Bakıda, Kolyubakin (indiki Nigar Rəfibəyli) küçəsində mülk. 39, 57, 176, 216, 396, 454

Dobritz 248

“Döyçland über alles” [Deutschland über alles; “Almaniya hər şeydən üstündür”]: Bəstəkar Frans Yozef Haydnın 1797-ci ildə bəstələdiyi musiqiyə Avqust Henrix Hofmanın 1841-ci ildə yazdığı sözlərlə meydana gələn marş. 1922-ci ildə Veymar Respublikasının dövlət himni elan edilmişdir. 1945-ci ildən sonra bir müddət bu marşın ifası qadağan edilmişdir. Almaniyanın birləşməsindən sonra marşın üçüncü bəndi dövlət himni kimi təsdiqlənmişdir. 48

Draqomirov, Abram Mixayloviç (1868-1955): Rusiyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsində iştirak etmiş, 1917-ci ilin aprelində Şimal cəbhəsindəki Rusiya ordularının Baş komandanı təyin edilmişdi. Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü orduda və Xüsusi Şurada (Cənub) ali vəzifələr tutmuş, 1918-ci ilin oktyabrından 1919-cu ilin sentyabrına qədər Xüsusi Şuranın sədri (Xüsusi Şura Hökumətinin Baş naziri) olmuşdur. Ağqvardiyaçıların Vətəndaş müharibəsində məğlubiyyətindən sonra mühacirətə getmişdir. 67

Dro: bax. Kanayan, Drastamat.

Dzeqvin körpüsü: Gürcüstan ərazisində, Kür çayının üstündən keçən körpü. 107

Ebert, Fridrix [Friedrich Ebert; 1871-1925]: Almaniyanın siyasi xadimi; sosial demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin fevralına qədər Almaniyanın Baş naziri, 1919-cu ilin fevralından 1925-ci ilin fevralına qədər Almaniya Prezidenti olmuşdur. 48, 110, 128, 259, 290, 303, 351

Eçmiyədzin uyezdi 75, 105, 106, 166, 167, 343

“Exo de Pari” [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet. 186, 351

Elzas-Lotaringiya (Alsace-Lorraine): Günümüzdə Şimali Fransada tarixi ərazi. 1871-ci ildə Almaniyaya birləş-dirilən bu torpaqlar, 1918-ci ildə Fransaya qaytarılmışdır. II Dünya mühari-bəsində yenə Almaniya tərəfindən ələ keçirilmiş və müharibədən

sonra Fransaya qaytarılmışdır. 130

Eminbəyli, İbrahim (1894-1937): Azərbaycanın müxtəlif şəhərlərində müəllimlik etmiş, Sovet dövründə mətbuat və nəşriyyat sahəsində işləmişdir. 1937-ci ildə güllələnmişdir. 136

Enez: Türkiyənin Ədirnə vilayətində qəsəbə. 128, 139

Erməni, ermənilər 3, 5, 12, 13, 14, 17, 22, 24, 26, 33, 37, 38, 56, 57, 61, 63, 64, 75, 81, 82, 83, 84, 85, 86, 87, 101, 102, 103, 104, 105, 106, 108, 123, 125, 126, 127, 133, 134, 141, 142, 143, 144, 145, 146, 164, 166, 167, 168, 173, 175, 182, 187, 189, 190, 202, 203, 204, 205, 212, 222, 228, 229, 230, 251, 255, 260, 263, 270, 273, 274, 281, 286, 287, 292, 293, 294, 307, 313, 314, 327, 328, 329, 330, 331, 332, 334, 342, 343, 344, 353, 368, 374, 380, 385, 387, 407, 408, 409, 411, 412, 413, 420, 423, 425, 444, 467, 469, 484, 493, 505, 520, 524, 531

Ermənistan; Erməni Cümhuriyyəti 12, 14, 26, 37, 38, 64, 74, 81, 82, 87, 99, 143, 164, 179, 182, 189, 251, 307, 327, 328, 331, 334, 343, 353, 425, 466, 470, 480, 481, 498, 531

Erzberqer, Mattias [Matthias Erzberger; 1875-1921]: Alman yazıçısı və siyasətçisi. Birinci Dünya müharibəsi sonunda atşkəs müqaviləsinin imzalanması üçün Almaniya tərəfindən yaradılan komissiyanın başçısı təyin olunmuşdu. Daha sonra Veymar Təsisçilər Məclisinin üzvü olmuş və Maliyyə naziri vəzifəsini tutmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 22

Etilaf dövlətləri: I Dünya müharibəsinin tərəflərindən biri olan Antanta bloku. Bu blokun aparıcı dövlətləri Böyük Britaniya, Fransa və Rusiya idi. 2, 22, 41, 88, 111, 149, 413

"Etilaf və Hürriyyət" partiyası: Osmanlı dövlətində siyasi partiya. 1911-1913-cü və 1918-1919-cu illərdə ölkənin siyasi həyatında əhəmiyyətli rol oynamışdır. 128, 129

Əbdülzadə, Əbdül: Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusan İdarəsində stenoqrafist işləmişdir. 1, 159, 449

Ədirnə 128, 139

Əfəndilər: Azərbaycanın Cəbrayıl rayonu ərazisində kənd. 7, 8, 9, 17, 113, 136, 154, 156

Əfəndiyev, Abdullah bəy: bax. Əfəndizadə, Abdulla bəy.

Əfəndizadə, Abdulla bəy İsmayıl əfəndi oğlu (yaxud Əfəndiyev; 1875-1928): Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra şəhərlərində müəllimlik etmiş, Şəkidə müəllim kursları və məktəblər açdırmışdır. Şəki Şəhər Bankının və Şəki Şəhər Dumasının sədri olmuşdur. Şəkidən Azərbaycan Parlamentinə üzv seçilmişdir. 25, 183, 241, 302, 316, 459, 483, 503

Əfəndizadə, Bəhlul: Zəngəzur nümayəndəsi. 229

Əfəndizadə, Ələddin: Azərbaycan ziyalısı, müəllim və dərslik müəllifi. 53

Əfəndizadə, Xalid: Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 136

Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. 459

Əfəndizadə, Mustafa: Qafqazın müftüsü. 282, 325

Əhməd Rəfiq (Altınay; 1881-1937): Türk tarixçisi, yazıçısı və şairi. Soyadı qanunundan sonra "Altınay" soyadını qəbul etmişdir. 208, 209

Əhməd Rza bəy: Türk Ordusunun Bakıdakı Mərkəz Komandanı. 65

Əhməd Tofiq paşa (Okday; 1845-1936): Osmanlı dövlət xadimi. 1909-cu ildə, 1918-1919-cu illərdə və 1920-1922-ci illərdə Baş nazir olmuşdur. Eyni zamanda Osmanlı dövlətinin axırıncı Baş naziri idi. Soyadı qanunu çıxdıqdan sonra "Okday" soyadını qəbul etmişdir. 65, 133, 480

Əhmədli 15, 216

"Əhrar" partiyası 7, 10, 25, 95, 241, 246,

301, 303, 322, 323, 503

Əlcəzair (yaxud Cəzair) 132

Əli Oxçu: Zəngəzur qəzasında, hal-hazırda Ermənistanın Qafan rayonunda kənd. 83

Əli Yusif: bax. Yusifzadə, Əli.

Əlif. Əlif.: “Azərbaycan” qəzetindəki imzalardan. 96

Əlinski, Məhəmmədbağır: Azərbaycan aktyoru. Müxtəlif teatr truppalarında çıxış etmişdir. 79

Əliverdibəyov, Bahadur bəy Ələkbər bəy oğlu (1883-1954): Azərbaycanlı həkim. Xarkov Universitetinin Tibb fakültəsini bitirmişdir. 229

Əliyev, Mirzəağa: bax. Əlizadə, Mirzəağa.

Əlizadə, Mirzəağa (1883-1954): Azərbaycanlı aktyor. “Həmiyyət”, “Nicat” truppalarında çıxış etmişdir. 1924-cü ildən etibarən Azərbaycan Dövlət Dram Teatrında çalışmış, 1949-cu ildə Xalq artisti adına layiq görülmüşdür. 98, 272

Ənvər paşa (1881-1922): Osmanlı dövlətinin hərbi və siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən idi. 1914-1918-ci illərdə Osmanlı dövlətinin Hərbi naziri, Baş Qərargah rəisi olmuşdur. Türk xalq-larını birləşdirmək uğrunda mübarizə aparmışdır. 65, 407

Ənzəli: İranın şimalında, Xəzər dənizi sahilində liman şəhəri. 7, 8, 11, 36, 114

Ərəbli, Hüseyn (yaxud Hüseyn Ərəblinski; 1881-1919): Azərbaycanın teatr aktyoru və rejissoru. “Nicat”, “Səfa”, Hacıbəyli Qar-daşları müdiriyyəti truppalarında çıxış etmişdir. 76, 453

Ərəblinski, Hüseyn: bax. Ərəbli, Hüseyn.

Ərəgit: bax. Ərəkit.

Ərəkit (yaxud Ərəgit): Azərbaycanın İsmayıllı rayonunda kənd. 71, 234

Ərkivan: Azərbaycanın Masallı rayonu ərazisində kənd. 203, 335, 394, 412

Əsgərlər: Zəngəzur mahalının kəndi olmuşdur. 83

Əsgərzadə, Mirzə Cəfər: Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 136

“F.”: qəzet; bax. “Forverts”.

Fastov: Ukraynanın Kiyev vilayətində şəhər. 132

Fatmayı: Bakının kəndi 15, 216, 432

Fayn: ada. 148

Feodosiya: Krım yarımadasının cənub-şərqində, Qara dəniz sahilində şəhər. 12

Fələstin 64, 521

Fəramuş xanım: Gəncədə Adıgözəlov məktəbinin müəlliməsi olmuşdur. 96

Fəttahov, Həsən bəy: Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. 134

Filankəs: “Azərbaycan” qəzetindəki im-zalardan biri; Hacıbəyli, Üzeyir. 114, 119, 150, 158, 249, 257, 333, 339

Filimonov, Aleksandr Petroviç (1866-1948): Rusiyanın hərbi xadimi; general-ley-tenant. Kuban Xalq Respublikasının atamanı olmuşdur. 87, 88

Finlandiya: (yaxud Finlanda). Şimali Avropada dövlət. 42, 66, 124, 308

Fişer: Berlin şəhərinin komendantı Velsin adyutantı olmuşdur. 110

Fiume [Fiume] (yaxud Riyeka [Rijeka]): Xorvatiyada liman şəhəri. 187

“Forverts” [Vorwärts] (“İrəli”): Almaniya Sosial-Demokrat Partiyasının orqanı olan qəzet. Əsası 1876-cı ildə qoyulmuşdur. Təqiblərə görə müxtəlif dövrlərdə Leypsiq, Berlin, Praqa və Parisdə nəşr edilmişdir. 110, 185, 186, 325

Fransa 2, 7, 22, 46, 65, 67, 86, 95, 112, 115, 130, 131, 148, 149, 162, 171, 172, 177, 180, 183, 187, 189, 210, 212, 284, 285, 290, 298, 302, 305, 306, 308, 319, 326, 327, 340, 341, 351, 354, 366, 367, 375, 384, 404, 411, 445, 447, 521

Fransız, fransızlar 13, 48, 62, 67, 88, 131, 132, 162, 177, 224, 284, 374, 403, 427, 446, 469, 480, 505, 509, 521

Gegeçkori, Yevgeni Petroviç (1881-1954): Gürcüstanın dövlət xadimi. Menşevik.

Hüquq təhsili almışdır. Zaqafqaziya Komissarlığının sədri seçilmişdi. Gürcüstan müstəqilliyini elan etdikdən sonra Xarici İşlər naziri, 1921-ci ildə isə Ədliyyə naziri oldu. Gürcüstanın sovetləşməsinin ardından mühacirət etdi. 81, 189, 327, 368, 375

Gəncə (şəhər) 16, 20, 34, 52, 58, 72, 84, 85, 94, 96, 134, 135, 136, 144, 146, 212, 214, 215, 220, 253, 256, 268, 271, 291, 292, 294, 295, 296, 315, 333, 334, 363, 373, 381, 409, 430, 439, 441, 442, 443, 460, 479, 503, 520

Gəncə Türk Müəllimləri İttifaqı: Gəncədə fəaliyyət göstərmiş müəllimlər ittifaqı. 37

Giltori: ingilis admiralı. 65

Gimnaziçeski: Bakıda küçə, indiki Tolstoy küçəsi. 17, 57, 77, 117, 195, 235, 275, 417

Giorqadze, Qriqol (1879-1937): Gürcüstanın ictimai-siyasi xadimi, hüquqşünas. Xarkov Universitetini bitirmişdir. 26 may 1918 – 13 fevral 1919 tarixləri arasında Gürcüstan Respublikasının Müdafiə naziri olmuşdur. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 63, 118

Gireyev: Terek kazaklarının rəhbərlərindən olmuşdur. 29

Goradil 15, 216

Goran: Azərbaycanda dəmiryolu stansiyası; hal-hazırda Goranboy rayonu ərazisində qəsəbə. 134

Gorazıllı: Azərbaycanın Füzuli rayonu ərazisində kənd. 17

Göyçay 3, 96, 100, 504

Gözəlzadə, Zeynalabdin: Azərbaycan Parlamenti İdarəsində məktub xidmətçisi işləmişdir. 160

Gürcü, gürcülər 12, 26, 39, 63, 64, 83, 86, 93, 104, 107, 108, 112, 144, 145, 146, 173, 189, 210, 211, 219, 221, 224, 225, 230, 251, 260, 261, 262, 263, 264, 270, 281, 287, 307, 327, 328, 329, 348, 364, 368, 375, 394, 395, 412, 413, 414, 419, 420, 437, 438, 439, 443, 444, 445, 459, 460, 467, 469, 473, 485, 486, 493, 499, 508, 510, 512, 523, 524, 525, 526, 529

Gürcüstan 7, 10, 12, 26, 38, 39, 42, 63, 64, 67, 73, 74, 81, 87, 94, 107, 118, 124, 133, 173, 181, 182, 187, 189, 211, 219, 220, 221, 224, 225, 236, 253, 262, 263, 264, 268, 287, 307, 327, 328, 329, 354, 355, 368, 374, 375, 412, 419, 420, 421, 438, 439, 443, 444, 445, 458, 468, 469, 471, 473, 486, 492, 493, 506, 513, 514, 524, 525, 526, 530

Güzdək: Abşeronda kənd. 15, 138

H. R.: "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 77

Haaze, Hüqo [Hugo Haaze; 1863-1919]: Almaniyanın siyasi xadimi, sosial-demokrat. 110, 128, 139, 304

Hacı Pirus: İranda kənd. 88

Hacıbəyli, Ceyhun bəy (yaxud C. Dağıstani; 1891-1962): Azərbaycanlı filoloq, tarixçi, jurnalist və ictimai xadim. Peterburq və Sorbonna universitetlərində təhsil almışdır. "Azərbaycan" qəzetinin redaktorlarından olmuşdur. Qəzetdəki yazılarını "C. Dağıstani" imzası ilə nəşr etdirmişdir. Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. 18, 39, 58, 78, 98, 118, 139, 158, 176, 196, 217, 236, 256

Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycanlı bəstəkar, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və jurnallarında, o cümlədən "Azərbaycan" qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 5, 20, 24, 46, 79, 103, 119, 123, 156, 158, 171, 175, 197, 241, 257, 276, 277, 297, 298, 317, 337, 339, 348, 356, 357, 358, 376, 380, 397, 414, 415, 435, 455, 457, 475, 495, 500, 515, 533

Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycanlı bəstəkar. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 75

Hacıqabul: Azərbaycanda şəhər; Hacıqabul rayonunun inzibati mərkəzi. Böyük dəmiryolu və avtomobil yolları qovşağıdır. 32, 40, 164, 204, 205, 292, 293, 298, 337, 430

Hadi, Məhəmməd (Əbdülsəlimzadə; 1879-1920): Azərbaycanlı şair və jurnalist. 17, 97, 157, 195, 235, 275

Hamid, Əbdülhaq (Tarhan, 1852-1937): Türk şairi və dramaturqu; eyni zamanda diplomatik fəaliyyəti də olmuşdur. 177

Hatəmzadə, Əbdülhəmid: “Azərbaycan” qəzetindəki imzalardan. 75

“Havas”: Fransız xəbər agentliyi. 1835-ci ildə təsis edilmişdir. Frans-press agentliyi [Agence France-Presse] daha sonra “Havas”ın bazasında yaradılmışdır. 22, 65, 290

Helqoland [Helgoland]: Şimal dənizində yerləşən kiçik arxipelaq; Almaniyaya məxsusdur. 130

Helsinki: Finlandiyanın paytaxtı və ən böyük şəhəri. Finlandiya 1809-1917-ci illərdə Rusiya İmperiyasının tərkibində olmuşdur. Rus dilində Hel-sinki şəhərinin adı 1926-cı ilə qədər Helsinqfors kimi işlənmişdir. 66, 367

Helsinqfors: bax. Helsinki.

Henderson, Artur [Arthur Henderson; 1863-1935]: Britaniyalı siyasətçi; Leyboristlər Partiyasının lideri olmuşdur. 47

Henrix IV [Henri IV; 1553-1610]: Fransa kralı; 1589-1610-cu illərdə hakimiyyətdə olmuşdur. 177

Həsənov, Əliağa (1871-1933): Azərbaycanın ictimai-siyasi xadimi; Cümhuriyyət dövründə Maliyyə naziri, Azərbaycan Parlamentinin üzvü olmuşdur. “Nəşri-maarif” cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmiş, Bakı Şəhər Dumasının üzvü olduğu dövrdə Şollar su kəmərinin çəkilişi və şəhərdəki digər quruculuq-abadlıq işlərində xüsusilə böyük xidməti olmuşdur. 212

Həsəntuki: bax. Yessentuki.

Himans, Pol [Paul Hymans; 1865-1941]: Belçikanın dövlət xadimi və diplomatı. 1918-1935-ci illər arasında beş dəfə (o cümlədən 1918-1920-ci illərdə) Xarici İşlər naziri olmuşdur. 49

Hindistan 27, 88, 109, 118, 125, 174, 225, 246, 320, 321

Hindli; hindu 113, 290

Hobhaus, Çarlz [Charles Hobhouse; 1862-1941]: Britaniyanın hərbi və siyasi xadimi. 47

Hollandiya 49, 62, 133

Hökməli: Abşeronda kənd. 15, 216

Hökumət teatrı (Azərbaycan) 57, 75, 98, 156, 273, 414, 453, 514, 532

Hövsan 15, 216

Huqenin, Eduard [Edouard Huguenin; 1856-1926]: Bağdad Dəmiryolunun İstanbuldakı direktoru olmuşdur. 207

“Hümmət” partiyası 161, 270, 513

“Hürriyyət və Etilaf” partiyası: bax. “Etilaf və Hürriyyət” partiyası.

“Hürriyyətpərvər Avam Firqəsi”: Osmanlı dövlətində siyasi partiya. 129

“Hürriyyətpərvəran Firqəsi”: bax. “Hürriyyətpərvər Avam Firqəsi”.

Hüseyn Abbas oğlu: Bakıda cinayət üstündə tutulmuşdur. 36

Hüseyn Adinəqulu oğlu 136

Hüseynzadə, Paşa: Gəncədə məktəb müdiri olmuşdur. 97

“X. İ.”: bax. İbrahimov, Xəlil.

Xaçın (Qarabağın mahalı) 374

Xanbudaqzadə, Zəhra xanım: Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 136

Xarçenko: polkovnik. 173

Xarkov 66, 87, 109, 111, 471

Xasməmmədov, Xəlil bəy (yaxud Xasməhəmmədov; 1873-1947): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət

Dumasının, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Ədliyyə naziri, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Azərbaycanın Türkiyədə səfiri təyin edilmiş, Cümhuriyyətin süqutundan sonra Azərbaycana qayıtmamışdır. Siyasi fəaliyyətini mühacirətdə də davam etdirmişdir. 16, 58

Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş Naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 81

Xerson quberniyası: Rusiya imperiyasının quberniyası; indiki Ukraynanın Mikolayev vilayətini, Odessa, Xerson, Dneprepetrovsk və Kirovoqrad vilayətlərinin, eləcə də Dnestryanının bəzi hissələrini əhatə edirdi. 27, 39

Xəlilbəyli, Balabəy: Bakıda, Vorontsovski (indiki İslam Səfərli) küçəsində yerləşən "Dardanel" yeməkxanasının müdiri olmuşdur. 38, 97

Xınalı: Bakı quberniyasının kəndi. 58

Xırdalan: Abşeron yarımadasında kənd; 2006-cı ildə şəhər statusu almışdır. 15, 108, 216, 288, 298

Xocahəsən 15, 216

Xorvatiya krallığı: XIX əsrin axırlarından Birinci Dünya müharibəsinin sonuna qədər Slavoniya krallığı ilə birgə Avstriya-Macarıstan İmperiyasının tərkibində Xorvatiya və Slavoniya krallığının bir hissəsini təşkil edirdi. 186

Xoştariya, Akaki (1873-1932): Gürcü sahibkar və xeyriyyəçi. Gürcüstanın elm və mədəniyyət qurumlarına, həmçinin Gürcüstan Demokratik Respublikasının hökumətinə maddi yardım etmişdir. 1921-ci ildən Fransada mühacirətdə yaşamışdır. 173

Xoyski, Fətəli xan (1875-1920): Azərbaycan Cümhuriyyətinin qurucularından biri, görkəmli dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının sədri (1917-1918), Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının Xalq Maarifi naziri (1918) olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin sədri seçilmiş, Cümhuriyyət dövründə bir neçə dəfə Baş Nazir, eləcə də Daxili İşlər naziri, Ədliyyə naziri, Xarici İşlər naziri vəzifələrini icra etmişdir. Bolşevik işğalından sonra Tiflisə mühacirət etmiş və orada erməni daşnakları tərəfindən şəhid edilmişdir. 5, 14, 22, 161, 164, 171, 202, 204, 365, 381, 401, 440, 458, 465, 466

Xristianiya [Christiania]: bax. Oslo.

Xudat: Azərbaycanın Xaçmaz rayonu ərazisində şəhər. 114

Xuraman xanım: Gəncədə Adıgözəlov məktəbinin müəlliməsi olmuşdur. 96, 136

İbrahim Cavad oğlu: Bakı quberniyasının Kərədən kəndinin sakini. 58

İbrahim xan (yaxud İbrahim Xəlil xan; 1732-1806): Qarabağ xanı. 249

İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 139, 177, 435

İçəri şəhər 78, 98, 117, 137, 157, 176, 195, 216, 235, 256, 275, 296, 317, 336, 357, 376, 396, 414

İdaşkina 117, 157, 196, 235, 275, 316, 356, 396, 434, 474, 514

İql Oyl ənd Şippinq Kompani [Eagle Oil and Shipping Company]: Meksika körfəzindən tankerlərlə neft daşıyan gəmiçilik şirkəti. Əsası 1912-ci ildə Uitman Pirson tərəfindən qoyulmuşdu. 40

İqnatius: Finlandiyanın Amerika Bir-

ləşmiş Ştatlarında səfiri olmuşdur. 18

İlyuşkin, Pyotr Fyodoroviç: Bakı Şəhər İdarəsinin və Bakı Şəhər Dumasının üzvü olmuşdur. 1917-ci ildə Bakı Şəhər İdarəsinin rəisi və Bakı qubernatoru vəzifələrini müvəqqəti olaraq icra etmişdir. Cümhuriyyət dövründə Bakı Şəhər İdarəsinin rəisi olmuş, sovet dövründə isə Bakı Şəhər Sovetində müxtəlif vəzifələrdə işləmişdir. 34, 296

İngilis, ingilislər 4, 6, 8, 9, 13, 22, 23, 27, 28, 51, 52, 83, 84, 88, 91, 99, 112, 114, 126, 148, 187, 188, 189, 211, 223, 224, 225, 260, 287, 290, 304, 319, 320, 321, 326, 337, 347, 351, 355, 367, 368, 371, 374, 383, 384, 385, 386, 407, 410, 411, 413, 421, 427, 445, 446, 458, 466, 468, 469, 497, 504, 505, 521, 523, 524, 529, 530

İngiltərə 7, 9, 10, 13, 21, 22, 27, 47, 48, 50, 51, 52, 62, 63, 64, 65, 66, 85, 86, 95, 107, 112, 115, 135, 149, 162, 172, 173, 180, 183, 187, 188, 189, 210, 211, 212, 224, 231, 246, 247, 253, 255, 257, 260, 272, 291, 302, 305, 307, 319, 320, 321, 326, 327, 349, 350, 367, 368, 375, 384, 386, 387, 395, 401, 410, 413, 419, 421, 434, 458, 465, 466, 467, 468, 469, 470, 471, 472, 473, 492, 493, 521

İran 13, 14, 49, 50, 83, 88, 113, 134, 138, 139, 143, 144, 146, 163, 173, 188, 202, 217, 225, 230, 236, 237, 268, 271, 345, 346, 355, 365, 372, 381, 388, 433, 491, 504, 521

İrəvan 2, 56, 74, 75, 81, 82, 83, 85, 86, 103, 104, 105, 106, 134, 141, 142, 143, 144, 145, 146, 147, 164, 166, 167, 168, 169, 171, 182, 183, 194, 222, 228, 251, 252, 334, 342, 343, 344, 353, 466, 470, 505, 507, 530

İrəvan quberniyası 56, 85, 86, 143, 251

İrlandiya 59, 197

“İrşad”: 17 dekabr 1905 – 25 iyun 1908 tarixləri arasında Bakıda Azərbaycan dilində nəşr edilən qəzet. Redaktoru Əhməd bəy Ağaoğlu idi. 52, 92, 215

İsa Əhməd oğlu: Zaqatala nahiyəsi Muxax kəndinin sakini. 58

İskəndər, Bəyəli oğlu: Gəncə vilayətinin Şirvan kəndinin sakini. 58

İskəndərzadə: Salyan sakini; “Azərbaycan” qəzetinə yazı göndərmişdir. 77

“İskra”: menşeviklərin 1918-1920-ci illərdə Bakıda nəşr etdikləri qəzet. 22, 35, 61, 88, 125, 389, 390, 430, 458, 459

“İslamiyyə”: Bakıda karvansara tipli mehmanxana. Bazar (indiki Azərbaycan prospekti), Qubernski (indiki Nizami küçəsi) və Poçt (indiki Süleyman Tağızadə) küçələrinə çıxışı olan bina 1918-ci ilin Mart soyqırımında yandırılmış, sonradan bərpa edilmişdir. 18, 57, 77, 117, 157, 195

İsmayılov, Rəşid bəy (1877-1942): Azərbaycanın ictimai-siyasi xadimi, pedaqoq və publisisti. İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. Qafqazın müxtəlif yerlərində pedaqoji və publisistik fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan və tarixi və ədəbiyyatına dair əsərlər yazmışdır. Araz Türk Cümhuriyyəti hökumətinin nümayəndəsi olmuşdur. Sovet dövründə repressiyaya məruz qalmışdır. 85, 167

İstanbul 65, 77, 86, 88, 89, 90, 107, 133, 146, 172, 179, 186, 207, 210, 218, 282, 284, 298, 365, 375, 413, 419, 445, 495, 505

İstanbul Universiteti 77

İsveç 27, 39, 66, 208, 209, 218, 383

İsveçrə 48, 59, 148

İtaliya 65, 95, 172, 186, 187, 210, 224, 298, 304, 305, 350, 367, 384

“İttihad” partiyası: Azərbaycanda siyasi partiya. 1917-ci ildə qurulmuş, 1920-ci ildə dağılmışdır. Lideri Qarabəy Qarabəyli idi. 138, 169

İttihad və Tərəqqi Partiyası 89, 128, 129, 186

Jordaniya, Noy Nikolayeviç (1868-1953): Gürcüstanın dövlət xadimi. Menşevik. Varşavada veterinarlıq təhsili almışdır. Tiflisdən Dövlət Dumasına üzv seçilmişdi. 1918-1921-ci illərdə Gürcüstan Demokratik Respublikasının Baş Naziri olmuşdur. Gürcüstanın sovetləşməsindən sonra mühacirət

etmişdir. 107

Kadıköy: İstanbulun Anadolu (Asiya) hissəsində yer alan rayonlarından biri. 186, 197, 282, 283, 284, 286, 298

Kalandadze (yaxud Kalantadze): Bakı Bələdiyyə İdarəsi adından, Lənkərandan ərzaq tədarükü üçün müvəkkil edilmişdir. 174

Kalantadze: bax. Kalandadze.

Kamenisti: Bakıda küçə; indiki Bəşir Səfəroğlu küçəsi. 115, 152

Kanayan, Drastamat (Dro; 1883-1956): Erməni terrorçu və hərbi cinayətkar; Daşnaksutyun üzvü. Şərqi Anadolu və Qafqazda dinc müsəlman-türk əhaliyə divan tutulmasında xüsusi rolu olmuşdur. 74, 81, 105, 343

Kantemirov, Əlixan Qadoyeviç (1889-1963): Dağlılar Respublikasının siyasi xadimi və diplomatı. Milliyyətcə osetindir. Peterburq və Kiyev Universitetlərində təhsil almışdır. Zaqafqaziya Seyminin üzvü, Dağlılar Respublikasının Azərbaycandakı diplomatik nümayəndəsi olmuşdur. 27, 28, 29, 214

Karantinni küçəsi: Bakıda küçə. Sovet dövründə "Pioner küçəsi", daha sonra "Həzi Aslanov küçəsi" adlanmışdır. 175

Karqanov, Qavriil Qriqoryeviç 87

"Kaspi": 1881-1919-cu illərdə Bakıda rus dilində nəşr edilən qəzet. 23, 61, 76, 355

Kazantseva, Tatyana: Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusan İdarəsində stenoqrafist işləmişdir. 1

"Kazbek" (fabrik) 108, 433

Kazımbəyov, Qulamhüseyn bəy (1889-1972): Peterburq Universitetində hüquq təhsili almış, Azərbaycanda ədliyyə sistemində işləmişdir. Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. Cümhuriyyətin süqutundan sonra da ədliyyə sistemində müxtəlif vəzifələrdə işləmişdir. 19

Kazımzadə, Abbasqulu (1882-1947): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 199, 513

Keçəllər: Pirəkəşkül kəndinin bir hissəsi belə adlanmışdır. 138

Kəndəbil: Zərdab rayonunun kəndi. 96

Kerenski, Aleksandr Fyodoroviç (1881-1970): Rusiya Müvəqqəti Hökumətinin (1917) başçısı. 64, 91, 124, 146

Keşlə: Bakının kəndi olmuşdur; halhazırda şəhərtipli qəsəbədir. 15, 92, 199, 216, 526

"Kette": gəmi. 36

Kiçik Qala: Bakıda küçə. 78, 98, 117, 137, 157, 176, 195, 216, 235, 256, 275, 296, 317, 336, 357, 376, 396, 414, 434, 454, 474, 494, 514, 518

Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. "Əhrar" partiyasının üzvü idi. 194, 200, 264, 300, 301, 313, 322

Kil [Kiel]: Almaniyanın şimalında şəhər. 130

Kislovodsk 87, 174, 479

Kiyev 66, 67, 88, 111, 148, 419

Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş Nazir olmuşdur. 22, 62, 86, 147, 187, 305, 383

Kolyubakin küçəsi: Bakıda küçə. Köhnə adı "Qəssabbazar" idi. Çar Rusiyası dövründə "Kolyubakin küçəsi" adını almış, daha sonra bolşeviklər tərəfindən "Yefim Saratovets küçəsi" adlandırılmışdır. İndiki adı "Nigar Rəfibəyli küçəsi"dir. 39, 57, 176, 216, 396, 454, 514, 533

"Konkum": gəmi 88

Konstansa (yaxud Köstəncə): Qara dəniz sahilində Rumıniyaya məxsus liman şəhəri. 65

"Kooperasiya" Xəzəryanı İstehlak Cəmiyyətləri İttifaqı: Cümhuriyyət dövründə

mövcud olmuş istehlak cəmiyyətləri ittifaqı. 93, 269, 333

Kopelioviç, Samuil İzrailoviç: Bakıda fəaliyyət göstərmiş həkim. 18, 38, 57, 77, 97, 376, 396, 415, 434, 454, 474, 494, 514, 532

Kopenhagen: Danimarkanın paytaxtı və ən böyük şəhəri. 11, 47, 48, 185, 329, 385

Kopenhaq: bax. Kopenhagen.

Korgöz: Qaradağ rayonunda qəsəbə. 138

Koroçkin, A. T.: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin kassiri olmuşdur. 214

Kotsev, Pşemaxo Tamaşeviç (1884-1962): Şimali Qafqazın siyasi xadimi; Dağlılar Respublikasının Baş naziri olmuşdur. 26, 28, 29, 473, 486

Kozlovskaya, İosifovna Lidiya: Azərbaycan Parlamenti İdarəsində protokol katibi işləmişdir. 159

Köln [Köln]: Almaniyanın qərbində şəhər. 48

Könüllü ordu: Rusiyada Vətəndaş müharibəsi əsnasında, ağqvardiyaçı zabitlərin Rusiyanın cənub bölgələrində təşkil etdikləri ordu. 21, 64, 66, 67, 79, 87, 132, 225, 226, 261, 413, 419, 479

Krakov [Kraków]: Polşanın cənubunda, Visla çayı sahilində şəhər. 21

Krasnovodsk: indiki Türkmənistanın Türkmənbaşı şəhərinin 1993-cü ilə qədərki rəsmi adı. 18, 57, 77, 117, 158, 195, 235, 275, 317

Krım 66, 67, 260, 292, 364, 469, 505

Kronştadt: Rusiyanın şimal-qərbində, Fin körfəzində liman şəhəri. 87, 111, 225

Kuban 21, 87, 88, 132, 186, 329, 367, 471, 505

Kuçnayev, Mixail 95

Kuins-holl [Queen’s Hall]: Londonun mərkəzi hissəsində yerləşmiş konsert zalı. 1893-cü ildə tikilmiş, 1941-ci ildə alman təyyarələrinin bombardmanı nəticəsində dağılmışdır. 49

Kutaisi 145

Kürdəxanı 15, 216

Kürdəmir 58, 295

Kürdəmiş: Göyçayın kəndi. 96

Kürkənd: Bakının kəndlərindən; halhazırda mövcud deyil. 15, 216

Qafqaz, Qafqaziya 2, 10, 17, 20, 30, 43, 44, 53, 54, 99, 106, 126, 139, 143, 144, 145, 206, 215, 219, 227, 236, 245, 262, 263, 309, 313, 349, 364, 443, 444, 453, 469, 483, 485, 493

Qala küçəsi: Bakıda, İçəri şəhərdə küçə. 18, 38, 57, 77, 97, 117, 137, 157

Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İStanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad (aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 28, 473

Qara dəniz 12, 187, 224, 225

Qara Məşhədi Hüseyn oğlu: Gəncə sakini. 97

Qarabağ 34, 73, 81, 82, 83, 146, 169, 194, 207, 228, 229, 230, 237, 253, 255, 274, 291, 292, 312, 333, 365, 385, 386, 387, 406, 408, 416, 423, 424, 425, 466, 497, 498, 499, 511, 530

Qarabaqqal: Göyçayın kəndi. 96

Qarabəyli, Qara bəy (1873-1953): Azərbaycanın ictimai-siyasi xadimi, eyni zamanda həkim və jurnalist; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. “Difai” partiyasının rəhbərlərindən, “İttihad” partiyasının sədri olmuşdur. “Həyat”, “İrşad”, “Kaspi” kimi bir sıra nəşrlərlə əməkdaşlıq etmişdir. 166, 301, 303

Qaradağ: Bakının rayonu. 11

Qaragöl: Zəngəzur mahalının kəndi; hal-

hazırda Ermənistan ərazisində Keren kəndi. 83

Qarağan: Ərəş uyezdində (Ağdaş rayonunda) kənd. 58, 60

Qaralar: Cavad qəzasının kəndi. 58

Qaramadyan: Göyçayın kəndi. 96

Qarayev, Əliheydər (1896-1938): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonar Bakı Sovetinin sədri, Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz İşləri xalq komissarı, Əmək xalq komissarı və Ədliyyə xalq komissarı olmuş, bir sıra digər vəzifələrdə işləmişdir. 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir. 165, 183, 299

Qars 75, 172, 413, 437, 484, 485, 505, 523, 524, 525, 531

Qasıməli: Abşeronda yer. 138

Qayıbova, Ziba xanım (1889-1964): Azərbaycan generalı Əmir Kazım Mirzə Qacarın qızı, Azərbaycan Hökumətinin İstanbuldakı maliyyə müşaviri Canagir bəy Qayıbovun həyat yoldaşı olmuşdur. İctimai işlərdə fəal iştirak etmişdir. 229

Qayıbzadə, İsmayıl bəy: Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 136

Qazax: Azərbaycanın qərb rayonlarından. 33, 103, 134, 220, 353, 358, 409, 432, 500, 504

Qazıqumuq: Dağıstanda, Lak rayonu ərazisində kənd; indiki Qumuq kəndi. 15, 447

Qəmərli: Qərbi Azərbaycanda, Gərnibasar mahalında yaşayış məntəqəsi; halhazırda Ermənistan Respublikası ərazisində Artaşat şəhəri. 99, 106, 343

"Qənaət" cəmiyyəti. 18, 138

Qlazqo [Glasgow]: Şotlandiyanın ən böyük şəhəri və Böyük Britaniyanın ən böyük şəhərlərindən biri. 211

Qobu: Abşeronun kəndlərindən biridir. 15, 216

Qoqol küçəsi: Bakıda küçə 18, 38, 57, 78, 98, 117, 137, 158, 354

"Qolos naroda": qəzet 88

Qolubyatnikov, Dmitri Vasilyeviç (1866-1933): neftçi-geoloq. Don kazaklarından olan Qolubyatnikov Peterburq Dağ-Mədən İnstitutunu bitirmişdir. Azərbaycanın neft yataqlarında da tədqiqatlar aparılmaqdadır. 30

Qomel: Belarusun cənub-şərqində şəhər. 173

Qori 145

Qroznı 94

Qruşevski, Mixail Sergeyeviç (1866-1934): Ukraynanın ictimai-siyasi xadimi; tarixçi. Lvov Universitetinin professoru, Ukrayna Mərkəzi Radasının sədri olmuşdur. SSRİ Elmlər Akademiyasının üzvü olmuşdur. 132

"Qruziya": 1918-1921-ci illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet. Heç bir partiyanın orqanı olmadığını elan etsə də, bu qəzet əslində gürcü millətçilərinin görüşlərini əks etdirirdi. 11, 219, 220, 221, 263, 264, 287, 395

Quba 3, 15, 29, 32, 174, 212, 214, 233, 256, 273, 433, 452

Qubernski: Bakıda küçə; indiki Nizami küçəsi. 1, 18, 21, 41, 57, 61, 77, 81, 101, 117, 121, 141, 157, 159, 175, 179, 195, 199, 219, 239, 259, 271, 279, 296, 299, 316, 319, 339, 353, 359, 379, 399, 414, 417, 434, 437, 457, 477, 497, 515, 517

"Quran" 59, 297, 415

Lafonten, Jan de [Jean de La Fontaine; 1621-1695]: Fransız yazıçısı və şairi. Ədəbiyyatın demək olar ki, bütün janrlarında yazmaqla birgə, xüsusilə təmsilləri sayəsində məşhur olmuşdur. 53

Lahey: bax. Haaqa. 66, 133

Lahıc 71

Latviya (yaxud Kurlandiya) 39

Ledebur, Georq [Georg Ledebour; 1850-1947]: Almaniyanın siyasi xadimi; sosial-

demokrat. Fəhlə hərəkatının fəal iştirakçısı olmuşdur. 47, 110, 129, 326, 403, 415

Lehistan: Polşanın tarixi adı. (bax. Polşa) 21, 42, 88, 99, 148, 259, 304, 508

Lehvaz: Zəngəzur qəzasında (indiki Meğri rayonunda) kənd. 83

Lermontov 53

Ləmbəranski, Cəmil bəy: bax. Lənbəranski, Cəmil bəy.

Lənbəranski, Cəmil bəy (1884-1959): Azərbaycanın ictimai-siyasi xadimi; həkim. Kiyevdə tibb təhsili almış, Azərbaycanın müxtəlif yerlərində həkim kimi işləmişdir. Cavad qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üvz seçilmişdir. 165

Lənkəran 3, 4, 5, 24, 25, 50, 51, 52, 102, 136, 147, 164, 168, 169, 170, 182, 194, 202, 203, 231, 333, 335, 394, 412, 432, 451, 473, 491, 529

Lətifbəyov, Rza (Rza Zaki): Azərbaycanlı pedaqoq və yazıçı. Bakı, Gəncə, Şəki, Göyçay və Batumda müxtəlif təhsil ocaqlarında ana dili və şəriətdən dərs demişdir. Bədii yaradıcılıqla da məşğul olmuş, xüsusilə tarixi mövzularda əsərlər yazmışdır. 98

Ləzgi Süvari Alayı 58

Libava: bax. Liepaya. 27, 39

Libknext, Karl [Karl Liebknecht; 1871-1919]: Almaniya və beynəlxalq fəhlə hərəkatının fəal iştirakçısı, Almaniya Kommunist Partiyasının banilərindən biri. 47, 129, 223, 225, 325, 349, 384, 403

Liepaya: Latviyanın cənub-qərbində, Baltik dənizi sahilində şəhər. 1920-ci ilə qədər “Libava” adlanmışdır. 39

Liflandiya (yaxud Livoniya): Müasir Latviya və Estoniya ərazilərindən bir qismini əhatə edən tarixi bölgə. 1721-ci ildə Rusiya imperiyasına birləşdirilmiş, imperiyanın süqutundan sonra bölgənin cənubu Latviyanın, şimalı isə Estoniyanın tərkibinə daxil olmuşdur. 87

Limburq [Limburg]: Niderlandın cənub-şərqində əyalət. Mərkəzi Maastrixt şəhəridir. 49

Lissabon [Lisbon]: Portuqaliyanın paytaxtı. 188

Lizqar, Konstantin Nikolayeviç: Slavyan-Rus Cəmiyyətinin üzvü; Azərbaycan Cümhuriyyətinin Ərzaq naziri olmuşdur. 24, 60, 191, 205, 217, 233, 252

Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş Naziri vəzifəsini tutmuşdur. 48, 49, 86, 147, 246, 305, 320, 321, 383, 447, 468, 505, 521

“Loms”: qəzet. 65

London: Böyük Britaniyanın paytaxtı. 23, 86, 111, 130, 207, 305, 350, 367, 383, 420, 468

Lori 86

Lou, Bonar [Bonar Law; 1858-1923]: Britaniyanın siyasi xadimi. 1916-1921-ci illərdə Mühafizəkarlar Partiyasının lideri olmuş, 1922-1923-cü illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 148

Lublin: Polşanın şərqində şəhər. 88, 99

Lui XIV (yaxud XIV Lüdovik) [Louis XIV; 1638-1715]: Fransa kralı; 1643-1715-ci illərdə hakimiyyətdə olmuşdur. 177

Lutsenko, İvan Mitrofanoviç (1863-1919): Ukraynanın siyasi və hərbi xadimi; hərbi həkim. 1917-ci ildə Odessada Ukrayna Hərbi Radasının sədri, daha sonra Ukrayna Ümumi Hərbi Komitəsinin üzvü seçilmişdir. 1918-ci ildən etibarən Ukrayna Milli İttifaqının Odessa şöbəsinin rəhbəri olmuşdur. 1918-ci ilin dekabrında Ukrayna Xalq Respublikası Direktoriyasının hərbi qüvvələrinin komandiri seçilmişdir. Qırmızı orduyla döyüşdə həlak olmuşdur. 27, 39

Lüdendorf, Erix (Erich Ludendorf, 1865-1937): Almaniyanın hərbi xadimi, general. Birinci Dünya müharibəsinində, 1916-cı ilin avqust ayından etibarən alman ordularını

faktiki olaraq Lüdendorf idarə etmişdir. 130

Lüis [Lewis]: Şotlandiyanın şimal qərbində yerləşən Lüis və Harris [Lewis and Harris] adasının şimal hissəsi. 148

Lüksemburq 49, 308, 348, 349, 384

Lvov 21, 223

"M. Ə.": "Azərbaycan" qəzetində imza; Rəsulzadə, Məhəmməd Əmin. 125, 182, 221, 286, 300, 321, 323, 342, 361, 402, 439, 459, 478, 519

"M. H.": "Azərbaycan" qəzetində imza; Zeynallı, Hənəfi. 92, 471

Macarıstan 148

Mahmudbəyov, Həbib bəy (1864-1928): Azərbaycan maarifçisi. Şamaxıda anadan olmuş, Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Bakıda pedaqoji fəaliyyətlə məşğul olmuş, bir müddət Sosial Təminat Nazirliyində işləmişdir. 118, 137

Makinski, Abbasəli bəy (1888-1938): Azərbaycanlı hüquqşünas. Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Cümhuriyyət dövründə müxtəlif dövlət qurumlarında hüquq məsləhətçisi və xüsusi tapşırıqlar üzrə məmur kimi fəaliyyət göstərmişdir. 1938-ci ildə güllələnmişdir. 167

Makinski, Teymur bəy (1874-?): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Bir müddət Ədliyyə naziri vəzifəsini tutmuş, daha sonra Ermənistan Hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 167, 342, 502

Malı Krepostnovı: bax. Kiçik Qala.

Mallaçı-xan, Bahadır bəy: Azərbaycanın və Dağıstanın ictimai-siyasi xadimi. 1913-cü ildə Bakıda Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri olmuşdur. Dağlılar Respublikası Hökumətində Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 28, 473

Mançuriya 144

Manukyan, Aram (yaxud Sərkis Ovanesyan; Serj Ovanesyan; 1879-1919): Ermənistanın siyasi xadimi, Daşnaksutyun partiyasının üzvü. Türkiyə ərazisindəki erməni üsyanlarının rəhbərlərindən biri olmuşdur. Ermənistan Respublikasının ilk Daxili İşlər naziri, sonrakı dövrdə Əmək naziri və Müdafiə naziri olmuşdur. 74, 79

Mariinski: Bakıda küçə; indiki Rəsul Rza küçəsi. 18, 38, 138, 152

Martirosov 87

Masazır: Abşeronda kənd. 118, 137

Maştağa: Bakı ətrafında kənd; hal-hazırda şəhər tipli qəsəbə. 15, 216, 433

Mehdizadə, Mirzə Abbas: bax. Səhhət, Abbas.

Merkuryevski küçəsi: Bakı şəhərinin mərkəzində, indiki Zərifə Əliyeva küçəsinin köhnə adı. Keçmişdə Merkuryevski – Zubovski – Şaumyan kü-çəsi adlarını daşımışdır. 78, 98, 117, 137, 157, 176, 195, 216, 235, 256, 275, 296, 317, 336, 434

Mets [Metz]: Fransanın şimal-şərqində, tarixi Lotaringiya rayonunda şəhər. 48

Mədinə 197

Mədrəseyi-Ruhaniyyə: Gəncədə mövcud olmuş məktəb. 16

Məğfurə xanım (yaxud Mariya Frolovna Yermakova; 1901-1982): Azərbaycan teatr səhnəsinin ilk aktri-salarından biri olmuşdur. Əsl adı "Mariya" olsa da, səhnədə "Məğfurə" adıyla çıxış etmişdir. 76

Məhəmmədhənifə Hacıağa oğlu: Bakıda cinayət üstündə tutulmuşdur. 36

Məhəmmədi: Bakı ətrafında kənd. 15, 98, 216

"Məhəmmədiyyə": Bakıda mehmanxana; Qubernski (indiki Nizami) küçəsində yerləşmişdir. 57, 175, 195, 296, 316, 414, 434

Məhəmmədov 1, 16, 97, 235, 279, 316, 400

Məhəmmədzadə, Həmid: Müsəlman Tələbələri İttifaqı Mərkəzi Komitəsinin sədri

olmuşdur. 213

Məhəmmədzadə, Mirdaməd: Ramana fəhlələrinin fəallarından olmuşdur. 115, 116

Məhərrəmov, Məhəmməd (1895-1982): Azərbaycanın ictimai-siyasi xadimi. Moskva Universitetində təhsil almışdır. Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü, Paris Sülh Konfransına göndərilən nümayəndə heyətinin müşaviri olmuşdur. Aprel işğalından sonra mühacirətdə qalmışdır. 86

Məkkə 197

Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 74, 155, 206, 323

Məlikaslanov, Teymur bəy: Azərbaycan Dəmiryolu İdarəsinin rəisi idi. 376

Mərdəkan 15, 58, 216, 432, 433

Mərəzə: Şamaxı yaxınlığında qəsəbə; indiki Qobustan şəhəri. 94

Mərkəzi Ev Komitəsi: Bakının ehtiyaclarının təmin edilməsi məqsədi ilə şəhər əhalisini polis dairələrinin (sahələrinin) sərhədləri daxilində qurulan ev komitələrində təşkilatlandıran və bu komitələrin vahid rəhbər orqanı olan qurum. Quruluş yığıncağı 1917-ci ilin dekabr ayının axırlarında keçirilmişdi. 72, 73, 93, 94, 115, 314, 473, 506

Mərzigit: Zəngəzur mahalının kəndi olmuşdur. 83

Midya: Türkiyənin Qırxlareli vilayətində yerləşən Qıyıköy qəsəbəsinin bolqar mənbələrindəki adı. 128, 139

Midya-Enez xətti: Biricni Balkan müharibəsinin sonunda Osmanlı dövləti ilə Bolqarıstan arasında sərhə xətti. 128, 139

Mixaelis, Georq [Georg Michaelis; 1857-1936]: Almaniyanın siyasi xadimi. 1917-ci ilin iyul-noyabr aylarında Almaniyanın Reyxkansleri (Hökumət başçısı) olmuşdur. 128, 139

Milan 187

Millətlər Cəmiyyəti: bax. Millətlər İttifaqı.

Millətlər İttifaqı [yaxud Millətlər Cəmiyyəti; Cəmiyyəti-Əqvam; League of Nations]: Birinci Dünya müharibəsinin başa çatmasını rəsmiləşdirən Versal Sülh Müqaviləsi əsasında yaradılan beynəlxalq qurum. 1920-ci ildə yaradılmış, 1946-cı ilə qədər mövcud olmuşdur. 47, 49, 63, 163, 172, 210, 326, 340, 341, 349, 350, 351, 404, 447, 468, 505, 522

Milli: Qərbi Azərbaycanın Vedibasar mahalında yer. 105

Milyukov, Pavel Nikolayeviç (1859-1943): Rusiya siyasi xadimi, eyni zamanda tarixçi və publisist. Konstitusion-Demokratik Partiyanın (Kadetlər partiyası) liderlərindən biri idi. Müvəqqəti Hökumətdə (Rusiya) Xarici İşlər naziri olmuşdur. 64, 107, 179, 187, 197, 264, 304

Minarə: bax. Bolşoy Minaretski.

Mirbağırzadə, Mirabbas: Azərbaycanın publisisti və ictimai xadimi; eyni zamanda İrəvanda və Bakıda kitab ticarəti ilə məşğul olmuşdur. Dövrünün mətbuatında çoxsaylı yazılarla çıxış etmişdir. Əsasən tarix mövzusunda olmaqla bir neçə kitabın müəllifidir. Başçılıq etdiyi heyət Azərbaycan Cümhuriyyəti Hökumətinin Naxçıvanın problemləri ilə tanış olması və bu problemləri aradan qaldırmaq istiqamətində adımlar atılması baxımından çox önəmli rol oynamışdır. 107, 143, 222, 344

Mirəhədzadə, Mirfəttah: Ramana fəhlələrinin fəallarından olmuşdur. 115, 116

“Mizrab”: Üzeyir Hacıbəylinin “Azərbaycan” qəzetində teatr tənqidi mövzulu məqalələrində işlətdiyi imza olmuşdur. 76,

79, 194, 197, 273, 277, 453, 457

Moraçevski, Encey [Jędrzej Moraczewski; 1870-1944]: Polşanın hərbi və siyasi xadimi. Polşa Sosialist Partiyasının liderlərindən biri olmuş, 1918-ci ilin noyabrından 1919-cu ilin yanvarına qədər Baş nazir vəzifəsini tutmuşdur. 148, 158

Moskva 66, 109, 111, 186, 210, 261, 305, 367, 385, 505

Mosul: İraqın şimalında şəhər. 207, 217

Muğan 52, 102, 136, 149, 150, 164, 168, 202, 203, 239, 374, 503

Muxax: Zaqatala nahiyəsinin kəndi. 58

Mustafa Əsgər oğlu: Gəncənin Rəhimli Rza oğlanlarından. 58

Mutki: kürd tayfalarından birinin adı. 49

"Münsif": bax. Yusifzadə, Mirhəsən Seyid.

Mürsəl paşa (Mürsəl Bakü; 1881-1945): Türkiyənin hərbi və siyasi xadimi. Qafqaz İslam Ordusu ilə birlikdə Bakının azad edilməsi hərəkatında iştirak etmişdir. Türk Qurtuluş Savaşında iştirak etmiş, İzmirə daxil olan ilk türk generalı olmuşdur. Müharibədən sonra Türkiyə Böyük Millət Məclisinin üzvü seçilmişdir. Soyadı qanunu çıxdıqdan sonra "Bakü" soyadını qəbul etmişdir. 16, 20

"Müsavat" partiyası 52, 115, 156, 161, 162, 164, 169, 170, 176, 183, 184, 185, 200, 201, 202, 234, 246, 299, 300, 302, 303, 322, 323, 335, 347, 355, 370, 411, 419, 431, 452, 463, 466, 470, 487, 489, 490, 511, 512, 519, 526

Müskürlü: Göyçay rayonunun kəndi. 96

Mütəllibzadə, Əliabbas: bax. Müznib, Əliabbas.

Müzəffərəddin şah (1853-1907): Qacarlar sülaləsindən İran şahı; 1896-1907-ci illərdə hakimiyyətdə olmuşdur. 138

Müznib, Əliabbas (Mütəllibzadə; 1883-1938): Azərbaycan yazıçısı və jurnalisti. Eyni zamanda ədəbiyyatşünas və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. 251

Naxçıvan 56, 75, 84, 99, 105, 106, 142, 166, 167, 230, 343, 344, 409, 466, 531

Nardaran: Bakı ətrafında kənd. 15, 216

Nasoslu: Xəzər dənizi sahilində dəmiryolu stansiyası və qəsəbə. Hal-hazırda Sumqayıt şəhərinin inzibati ərazisinə daxil olan şəhərtipli qəsəbədir. 1991-ci ildən Hacı Zeynalabdin qəsəbəsi adlanır. 33, 40

"Naşe vremya": Bakıda nəşr edilən qəzet. 22

"Natsional" mehmanxanası: Bakıda, Olqinski (indiki Məhəmməd Əmin Rəsulzadə) küçəsində yerləşən mehmanxana. 15, 217

Neklyudov: Rus admiralı; Könüllü ordunun Odessa nümayəndəsi olmuşdur. 67

Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 437, 438, 444, 459, 479, 509, 510

Neratov, Anatoli Anatolyeviç (1863-1938): Rusiyanın diplomatı. 1910-1916-cı illərdə Xarici İşlər nazirinin müavini olmuş, daha sonra Xarici İşlər naziri vəzifəsini müvəqqəti icra etmişdir. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Fransada mühacirətdə ölmüşdür. 64

Nəcimi əfəndi: "Azərbaycan" qəzetinə məktub göndərmişdir. 194

Nərəgən kəndi. 58

Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə haki-miyyətdə olmuşdur. 118

"Nortern Pasifik" [Northern Pacific]: gəmi. 148

Norveç 49, 188, 329

Novxanı 15, 216, 253, 528

Novo-Bayəzid: bax. Yeni Bayəzid.

Novorossiysk: Rusiya Federasiyasının Krasnodar diyarında, Qara dəniz sahilindəki Tsemesk buxtasında liman şəhəri. Qara dənizin ən böyük limanlarından biridir. 185

"Novruz" mətbəəsi: XX əsrin əvvəl-

lərində Bakıda fəaliyyət göstərən mətbəə. 58, 78, 117, 138, 158, 176

Novruzbəyov, Abdulla bəy: Azərbaycan Parlamenti İdarəsində kuryer işləmişdir. 159

Novruzzadə, Nəsrulla: Bakı Politexnik məktəbinin tələbəsi olmuşdur. 56

Nüvədi: Zəngəzur mahalının Meğri rayonunda kənd. 83

Nyu-York: Amerika Birləşmiş Ştatlarının ən böyük şəhərlərindən biri. 130, 187, 424

“Observer” [The Observer]: Londonda, ingilis dilində nəşr olunan həftəlik qəzet. Bazar günləri çıxır. Əsası 1791-ci ildə qoyulmuşdur. Dünyanın ilk bazar qəzetidir. 111, 119

Odessa: Ukraynanın cənubunda, Qara dəniz sahilində liman şəhəri. 67, 111, 354, 471

“Odesskiye novosti”: 1884-1920-ci illərdə Odessada rus dilində nəşr olunan gündəlik qəzet. 39

Okday, Əhməd Tofiq: bax. Əhməd Tofiq paşa.

Olenskaya, Yeva Nikitiçna (1900-1959): Azərbaycan aktrisası. Qubada doğulmuş, kiçik yaşda ailəsiylə birgə Bakıya köçmüşdür. “Nicat” və “Səfa” truppalarının, “Hacıbəyov qardaşları müdiriyyəti” truppasının üzvü olmuşdur. Uzun müddət Milli Dram Teatrının səhnəsində çıxış etmişdir. 1949-cu ildə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür. 76

Ordubad 82, 83, 84, 99, 230, 334, 345

“Oryol”: sərnişin gəmisi. 36

Oslo [Oslo] (yaxud Xristianiya; Kristianiya): Norveçin paytaxtı və ən böyük şəhəri. XVII əsrin ortalarından 1925-ci ilə qədər Xristianiya (yaxud Kristianiya) adlanmışdır. 49

Osmanlı, Osmanlı türkləri 2, 76, 81, 82, 84, 98, 99, 113, 139, 143, 144, 166, 167, 177, 180, 209, 218, 285, 286, 298, 318, 337, 495

Ostromenski, İzmail Dmitriyeviç: Azərbaycan Cümhuriyyətinin Məclisi-Məbusan İdarəsində rusca yazışmalar müdiri işləmişdir. 2

Ozanyan, Andranik (1865-1927): Erməni hərbçi. Daşnaksutyun partiya-sının üzvü idi. Başçılıq etdiyi silahlı dəstələr Qarabağda, Zəngəzurdə və Türkiyənin şərqində dinc əhaliyə qarşı törədilən qırğınlarda xüsusilə fəal iştirak etmişdir. 37, 38, 82, 113, 127, 143, 146, 212, 251, 252, 255, 256, 272, 334, 374, 379, 406, 497, 498, 499, 500

Ömər Faiq: bax. Nemanzadə, Ömər Faiq.

“P. N.”: qəzet. 67

Paderevski, İqnatsi Yan [Ignacy Jan Paderewski; 1860-1941]: Polşanın ictimai-siyasi xadimi və diplomatı; bəstəkar və pianoçu. 1919-cu ilin yanvar-noyabr aylarında Baş nazir olmuşdur. 158, 367

Parapet (Bakı) 18, 39, 58, 78, 98, 117, 137, 158, 176, 196, 216

Paris: Fransanın paytaxtı. 17, 57, 59, 65, 77, 117, 119, 130, 131, 172, 188, 195, 235, 275, 290, 340, 341, 351, 403, 404, 521, 522

Parsadanovun müalicəxanası (yaxud Parsadanovun azarxanası): Bakıda fəaliyyət göstərmiş tibb müəssisəsi. 78, 98

Pavel, I (1754-1801): Rusiya imperatoru; 1796-1801-ci illərdə hakimiyyətdə olmuşdur. 118

Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir. 7, 9, 161, 164, 166, 171, 183, 204, 270, 299, 303, 399, 441, 461

Perçixin, Lev Veniaminoviç (1858 - ?): Bakı nahiyə məhkəməsinin üzvü və sədri olmuşdur. 34

Perm: Rusiyanın Avropa hissəsində şəhər. 50, 187, 367

Persidski: Bakıda küçə; indiki Murtuza Muxtarov küçəsi 17, 35, 57, 74, 77, 117, 195, 213, 235, 275, 354, 393, 512

Petlyura, Simon Vasilyeviç (1879-1926):

Ukraynanın siyasi və hərbi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 111, 119, 132

Petroqrad (yaxud Peterburq) 11, 49, 188, 195, 235, 261, 275, 308, 317, 356, 367, 396, 434, 474, 504, 505, 514

Pilsudski, Yuzef [Józef Piłsudski; 1867-1935]: Polşanın hərbi və siyasi xadimi; marşal. 14 noyabr 1918 – 9 dekabr 1922-ci il tarixlərində Polşa Respublikasının Sədri olmuşdur. 21, 88, 445

Pirəkəşkül: Abşeron kəndlərindən. 118, 137, 138

Pirşağı: Bakının kəndlərindən biridir. 15, 216, 432

Pirumov: 1918-ci ildə ermənilərin gürcü yaşayış məntəqələrinə hücumlarına rəhbərlik etmiş zabitlərdən olmuşdur. 105

Pişnamazzadə, Axund Məhəmməd (1853-1937): din xadimi. Təhsilini Gəncə və Təbrizdə almış, Rusiya əleyhində təbliğatda günahlandırılaraq çar rejimi tərəfindən Türküstana sürgün edilmişdir. 1909-cu ildə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuş (bu vəzifəyə rəsmi olaraq 1915-ci ildə təsdiq edilmişdir) və 10 dekabr 1918-ci ildə səhhətinə görə öz xahişi ilə azad edilənə qədər vəzifədə qalmışdır. Maarifçilik və xeyriyyəçilik sahəsində də xidmətləri olan Pişnamazzadə 1937-ci ildə Gəncədə vəfat etmişdir. 16, 17

Pişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 186

Polşa (yaxud Lehistan) 21, 88, 99, 148, 158, 223, 236, 305, 329

Polşa Təsviyyə Komitəsi [Polska Komisja Likwidacyjna]: Birinci Dünya müharibəsindən sonra Polşanın müstəqilliyinin bərpa edilməsi prosesində keçmiş Avstriya imperiyasından qopan Polşa torpaqlarında asayişin təmin edilməsi məqsədi ilə qurulan müvəqqəi hökumət orqanı. Mərkəzi Krakov şəhəri idi. 1918-ci ilin oktyabrında qurulmuş, 1919-cu ilin martında öz səlahiyyətlərini Varşavadakı mərkəzi hökumətə təhvil vermişdir. 21

Polyak, polyaklar 8, 128, 223, 308, 367, 419, 445

Portəgiz: bax. Portuqaliya.

Portuqaliya 162, 415

Poti 16, 224, 368

Poznan [Poznan]: Polşanın mərkəzi hissəsində şəhər. 62, 172

Pyotr I (1672-1725): Rusiya hökmdarı; 1682-1725-ci illərdə hakimiyyətdə olmuşdur. 110

"R. J.": qəzet. 132

Ramana: Bakı ətrafında kənd. 115, 119, 176, 432

Raykroft, Uilyam Henri [William Henry Rycroft; 1861-1925]: Britaniyanın hərbi xadimi; general-mayor . 189

Revel: İndiki Estoniyanın paytaxtı Tallin şəhərinin köhnə adı. 66, 276, 329

Rəcəbov, Cəfər 94

Rəhimov, Hüseyn: Hacıbəyov Qardaşları teatr truppasında səhnə tərtibatçısı olmuşdur. 98

Rəhimzadə, Həsən: Ərəkit ibtidai məktəbinin müdiri olmuşdur. 234

Rəsulzadə, Məhəmməd Əmin (1884-1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və "Müsavat" partiyasının sədri; eyni zamanda jurnalist və publisist. 8, 123, 124, 161, 169, 175, 182, 185, 202, 221, 246, 254, 286, 300, 301, 302, 303, 321, 322, 323, 342, 347, 411, 441, 453, 463, 466, 519

Riqa: Latviyanın paytaxtı. 111, 329

Roxlin, Abram Veniaminoviç (1881-1941): Menşeviklərin Bakı komitəsinin üzvü, Sentrokaspi Diktaturasının Ərzaq komissarı, Bakı Şəhər Bələdiyyə Şurasının üzvü. Sovet

dövründə Bakıda kommunal təsərrüfatı sahəsində işləmişdir. Casusluqda təqsirləndirilərək 1939-cu ildə həbs edilmiş, 1941-ci ildə güllələnmişdir. 35, 371, 372, 373, 389, 390, 401, 452, 472

“Royter” [Reuters]: Dünyanın ən böyük xəbər agentliklərindən biri. 46, 47, 62, 172, 187, 223, 259, 329, 350, 366, 367, 520

Rumıniya 65, 66, 148, 149, 225, 260

Rus, ruslar 2, 5, 13, 17, 22, 24, 28, 43, 44, 45, 46, 50, 51, 53, 58, 60, 61, 62, 70, 74, 75, 78, 82, 91, 96, 101, 102, 105, 108, 112, 113, 117, 118, 121, 123, 124, 125, 126, 137, 138, 143, 144, 145, 146, 147, 149, 150, 153, 156, 158, 159, 165, 168, 170, 172, 173, 176, 179, 180, 181, 182, 194, 203, 206, 207, 211, 215, 228, 232, 236, 239, 248, 270, 285, 286, 290, 303, 306, 309, 310, 313, 318, 322, 330, 335, 345, 348, 357, 364, 365, 366, 367, 374, 376, 377, 383, 387, 395, 397, 404, 408, 409, 411, 412, 413, 415, 419, 427, 428, 434, 438, 443, 444, 449, 455, 459, 475, 484

Rusiya 2, 5, 12, 24, 33, 35, 45, 47, 49, 61, 64, 66, 67, 73, 87, 91, 92, 101, 102, 107, 111, 118, 119, 121, 124, 127, 128, 132, 135, 139, 144, 149, 179, 180, 181, 186, 187, 188, 190, 203, 219, 224, 261, 262, 264, 285, 298, 304, 319, 320, 324, 329, 330, 337, 345, 350, 355, 384, 418, 419, 421, 423, 424, 427, 428, 446, 459, 464, 468, 480, 484, 505, 521, 522, 523

Rüstəmbəyli, Şəfi bəy (1893-1960): Azərbaycanın ictimai-siyasi xadimi. Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, “Azərbaycan” qəzetinin redaktorlarından biri olmuşdur. 35, 165, 166, 299, 502, 503, 520

Rüstəmbəyov, Baxış bəy Əsəd bəy oğlu (1870-1942): Petroqrad Texnologiya İnstitutunu bitirmişdir. Abşeronda neft mədənlərində müdir və mühəndis kimi işləmiş, Azərbaycan Balıq Vətəgələri İdarəsinin müdiri olmuşdur. Cavad qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Sovet dövründə xalq təsərrüfatının müxtəlif sahələrində çalışmışdır. 165

Rzazadə, Əliabbas: Bakı sakini 97

Sabir, Mirzə Ələkbər (1862-1911): Azərbaycanlı şair, məşhur satira ustası. 78

Sabunçu: Bakının rayonu. 15, 108, 175, 176, 313, 430, 470, 511

Sadaxlı: Gürcüstanda indiki Marneuli bələdiyyəsinin kəndi. 1918-ci ildə Borçalı qəzasının tərkibində idi. 26, 63, 87

Salyan: Azərbaycanda şəhər; Salyan rayonunun inzibati mərkəzi. Kür çayı sahilində yerləşir. 3, 77, 165, 174, 203, 312

Samtredi (Samtredia): Gürcüstanın qərbində, İmereti bölgəsində şəhər. 173

Samuel, Herbert Luis [Herbert Louis Samuel; 1870-1963]: Britaniyanın siyasi xadimi. Daxili İşlər naziri və Fələstin Ali Komissarı olmuşdur. 47

Sarablı, Hüseynqulu (yaxud Hüseynqulu Sarabski; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 76, 193

Satton, Con Edvard [John Edward Sutton; 1862-1945]: Britaniyanın siyasi xadimi, Leyboristlər Partiyasına mənsub olmuşdur. 47

Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 64, 132, 285, 305, 505

Sevastopol: Krım yarımadasının cənub-qərbində, Qara dəniz sahilində liman şəhəri. 21, 48, 88, 172, 505

Seyidzadə, Ağa Mirkazım (? - 1918): Keşlə sakini. 92

Seyidzadə, Bədrəddin (yaxud Mir Bədrəddin Seyidzadə; 1882-1945): Azərbaycan

şairi. 199

Seyidzadə, Mir Bədrəddin: bax. Seyidzadə, Bədrəddin.

Səfikürdski, Aslan bəy (1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 68, 133, 168, 169, 183, 200, 401, 418, 465

Səhhət, Abbas (Abbas Əliabbas oğlu Mehdizadə; 1874-1918): Azərbaycan şairi, dramaturqu, tərcüməçisi və dərslik müəllifi. 54

Səidzadə, Molla Haşim: Zəngəzur müsəlmanları Milli məclisinin üzvü olmuşdur. 85

Sinn Feyn (yaxud Şinn Feyn; Sinn Féin): İrlandiyanın müstəqilliyi uğrunda mübarizə aparmaq məqsədi ilə 1905-ci ildə yaradılan təşkilat. 59

Sisyanovski: Bakıda küçə; indiki Təbriz Xəlilbəyli küçəsi. 135, 175

Skobelev, Mixail Dmitriyeviç (1843-1882): Rusiyanın hərbi xadimi, general. Türküstanı işğal edən Rusiya ordularının komandiri, Fərqanə vilayətinin hərbi qubernatoru olmuşdur. 18, 39, 58, 78, 98, 117, 137, 158, 176, 196, 216, 533

Skobtsov, Daniil Yermolayeviç (1884-1969): Rusiyada Vətəndaş müharibəsi dövrünün siyasi xadimi. Kuban Radasının üzvü və Kuban Hökumətndə Kənd Təsərrüfatı naziri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 132

Slovak, slovaklar 128, 305

Spartak İttifaqı [Spartakusbund]: 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat. Ümumdünya proletar inqilabı tərəfdarı idi. Təsisçiləri arasında Roza Lüksemburq, Karl Libknext və başqaları yer alırdı. 47, 129, 149, 185, 223, 224, 325, 350

Spasski: Bakıda küçə; indiki Zərgər-palan küçəsi. 18

Staro-Tereçni (Staro-Tereçnoye): Dağıstanın Qızılyar rayonunda kənd. 62

Stokholm: İsveçin paytaxtı. 27, 148, 305, 329

Sur, Abdulla Tofiq [1882-1912]: müəllim, publisist, tənqidçi və ədəbiyyatşünas. 52

Suraxanı; Suraxanı dairəsi: Bakının rayonu (Cümhuriyyət dövrü). 116, 119, 176, 486

Sülh Konfransı, Ümumdünya Sülh Konfransı 3, 8, 9, 13, 14, 41, 49, 64, 79, 112, 125, 132, 133, 148, 172, 187, 199, 212, 225, 290, 305, 350, 368, 374, 375, 384, 386, 401, 410, 421, 505, 521

Sürməli qəzası (uyezdi) 75, 105, 106, 142, 167, 343, 344

Şabadin: Zəngəzur mahalının kəndi; halhazırda Ermənistan ərazisində Yeğek kəndi. 83

Şağan 15, 216, 432

Şamaxı (şəhər) 1, 2, 3, 40, 53, 54, 70, 94, 165, 214, 215, 266, 312, 355, 448, 511

Şerbaşev 107

Şerman, M. Q.: Bakıda fəaliyyət göstərmiş tibb işçisi, mama. 38, 57, 176, 216, 396, 454

Şeydeman, Filipp [Philipp Heinrich Scheidemann] (1865-1939): alman sosial-demokrat, 1919-cu ilin fevral-iyun aylarında Veymar Respublikasının Baş naziri olmuşdur. 149, 224, 248, 290, 349, 495

Şeyxülislamov, Əkbər ağa (1891-1961): Azərbaycan Cümhuriyyətinin Əkinçilik və Əmək naziri, "Hümmət" partiyasının üzvü, Parlamentdə Sosialistlər Fraksiyasının üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmışdır. 14, 161, 167

Şəki 10, 77, 165, 166, 199, 262, 323, 440, 471, 482, 503, 504, 519, 520

Şərifov, Məhəmməd 94

Şərin (Cənubi Azərbaycan) 75

Şəril: bax. Şərur.

Şərur 56, 84, 99, 105, 106, 142, 166, 167,

343, 344, 466

“Şimal”: XX əsrin əvvəllərində Abşeronda neft hasilatı ilə məşğul olan şirkət. 108

Şişə: bax. Şuşa.

Şiştəpə: Zəngəzurda dağ.

Şmaqaylov, Georgi Leonidoviç (1886 - ?): Nikolayev Mühəndislik Akademiyasını bitirmişdir. 1918-ci ildə polkovnik rütbəsi almışdır. Rusiyada Vətəndaş müharibəsi illərində Gürcsütanda xidmət etmiş, Kür çayının üstündən keçən Dzeqvin köprüsünün partladılmasında iştirak etmişdir. Gürcüstan hökuməti tərəfindən güllələnmə cəzasına məhkum edilmiş, ancaq Qafqazdakı Antanta nümayəndələrinin işə qarışmasıyla azad edilmişdir. Mühacirətə getmişdir. 107

Şollar su kəməri, Şollar suyu 40, 526

Şternin, Boris Moiseyeviç: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 195, 235, 275, 317, 356, 396, 434, 474, 514

Şubanı: Bakı ətrafında kənd. 108, 268

Şumski, Leonid İvanoviç: Azərbaycan Parlamenti İdarəsində protokol katibi işləmişdir. 159

Şuşa (şəhər) 1, 83, 85, 127, 229, 230, 255, 295, 300, 312, 373, 374, 380, 385, 387, 406, 407, 408, 409, 410, 415, 423, 424, 425, 432, 481, 498, 511, 513, 527

Şüləver (yaxud Şulaverı): Gürcüstanın cənubunda, Kvemo-Kartli diyarında kənd. 1925-ci ildə adı dəyişdirilərək Şaumyani olmuşdur. 12, 26, 63, 87

Şüvəlan 15

Şvets, Fyodor Petroviç (1882-1940): Rusiyanın və Ukraynanın ictimai-siyasi xadimi; geoloq. Kiyev Universitetinin professoru, Ukrayna Xalq Respublikası Direktoriyasının üzvü olmuşdur. Mühavirətdə elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 132

Tağıyev fabriki (toxuculuq fabriki) 73, 487, 489, 497

Tahirov, Yusif bəy: Hərbi təhsil almış və çar ordusunda xidmət etmişdir. Araz Türk Cümhuriyyəti hökumətinin nümayəndəsi olmuşdur. 86, 167

Taqanroq: Rusiyanın Rostov vilayətində şəhər. 188

Tarkovski, Nuh-bəy (1878-1951): Dağlılar Respublikasının hərbi xadimi. Kumık əsilli Tarkovski Rusiya ordusunda xidmət etmiş, Dağlılar Respublikası dövründə isə Hərbi nazir vəzifəsini tutmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 28, 473, 486

Tazəşəhər: Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı. Bax. Krasnovodsk. 88, 411

Tehran 53

Ter-Avanesov, Leonid: həkim. 78, 98, 117, 137, 157, 176, 195, 216, 235, 256, 275, 296, 317, 336

Teymurxanşura: İndiki Buynaksk şəhəri. Rusiya Federasiyasının tərkibində Dağıstan Respublikası Buynaksk rayonunun inzibati mərkəzi. Əsası XIX əsrdə qoyulan şəhərin adı 1922-ci ildə dəyişdirilərək Buynaksk olmuşdur. 28, 46, 50

Təcəddüd firqəsi: Osmanlı Dövlətində mövcud olmuş siyasi partiya. 5 noyabr 1918-ci ildə qurulmuşdur. İttihad və Tərəqqi partiyasının davamçısı olduğu üçün 1919-cu ilin may ayında bağlanmışdır. 89

Tələt paşa (1874-1921): Osmanlı dövlət xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən biri idi. Daxili İşlər naziri, Poçt və Teleqraf naziri, Baş Nazir vəzifələrini tutmuşdur. Berlində erməni terrorçusu Teyliryan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 84, 127, 128, 129, 208, 285, 336, 513

“Tərcüman”: İstanbulda nəşr edilən qəzet. 65

Tiflis (şəhər) 16, 26, 53, 66, 74, 84, 95, 99, 107, 146, 173, 189, 211, 215, 225, 232, 236, 237, 261, 262, 263, 333, 351, 355, 368, 403, 412, 420, 438, 443, 468, 473, 486, 493, 522, 530

Tomson, Vilyam Montqomeri [William Montgomerie Thomson; 1877-1963]: Bri-

taniya generalı. Bakının general-qubernatoru olmuşdur. 5, 7, 9, 14, 22, 23, 24, 35, 50, 52, 72, 85, 90, 93, 205, 249, 253, 374, 379, 380, 386

Topçubaşov, Əlimərdan bəy (1863-1934): Azərbaycanın siyasi xadimi; Azərbaycan Cümhuriyyətinin banilərindən biri. Tiflisdə anadan olmuş, Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya müsəlmanlarının təşkilatlanmasında və siyasi həyatında müstəsna xidmətləri olmuşdur. Rusyia Dövlət Dumasının üzvü, Dumada Müsəlman fraksiyasının sədri, "Kaspi" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Hökumətində portfelsiz nazir və Xarici İşlər naziri vəzifələrini tutmuş, Azərbaycan Cümhuriyyətinin Fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilmişdir. Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri idi. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmış, siyasi fəaliyyətini davam etdirmişdir. Parisdə vəfat etmişdir. 14, 161, 365

"Trudavaya qazeta" 88

"Trudovoye znamya": 1918-ci ildə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet. Sosialist İnqilabçılar Partiya-sının Tiflis komitəsinin orqanı idi.

"Tunerb": hərbi gəmi. 65

Türkiyə 21, 50, 65, 75, 85, 127, 128, 129, 130, 133, 168, 172, 179, 180, 181, 186, 188, 210, 247, 256, 282, 283, 284, 285, 286, 291, 306, 373, 408, 413, 420, 421, 433, 445, 446, 459, 480, 484, 493, 505, 521, 522, 524

Türküstan 88, 89, 90, 91, 92, 99, 159, 346, 388

Ufa: Rusiyada şəhər; müasir dövrdə Başqırdıstan Respublikasının paytaxtı. 147, 203, 306, 493

Ukrayna 27, 66, 67, 88, 99, 119, 124, 132, 225, 236, 306, 419, 420, 469, 471, 503, 505, 508

Ural 147

Uralski: Rusiyada şəhərtipli qəsəbə; Sverdlovsk vilayəti ərazisindədir. 371

Üçkilsə: Qərbi Azərbaycan torpaqlarında rayon və bu rayonun inzibati mərkəzi olan şəhər; bir müddət Eçmiyədzin adını daşımışdır. Hal-hazırda Ermənistan Respublikasında qalan rayonun ərazisi Armavir vilayətinin bir hissəsini təşkil edir, şəhər isə Vağarşapat adlandırılmışdır. 75, 145

Varşava: Polşanın paytaxtı. 21, 88, 223, 308, 329

Vartanəzir: Zəngəzur mahalının kəndi olmuşdur. 83

Vaşinqton: Amerika Birləşmiş Ştatlarının paytaxtı. 95

Vels, Otto [Otto Wels; 1873-1939]: Almaniyanın ictimai-siyasi xadimi, sosial-demokrat. Almaniya İmperiyası və Veymar Respublikası reyxstaqının (parlamentinin) deputatı olmuşdur. Berlin şəhərinin komendantı vəzifəsini tutarkən, Spartak hərəkatı iştirakçılarına atəş açılmasını əmr etmişdir. 110

Vestermark: Almaniyada yer. 248

Veşapeli, Qriqori Georgiyeviç (1892-1926): Gürcüstanın siyasi xadimi. Moskva Universitetinin Tarix-Filologiya fakültəsini bitirmişdir. Gürcüstan Təsisçilər Məclisinin üzvü olmuşdur. Sovetləşmədən sonra mühacirətə getmiş, Parisdə sui-qəsd nəticəsində öldürülmüşdür. 12

Veysov, Məhəmmədəli: Azərbaycan Cümhuriyyətinin Sosial Müdafiə Nazirliyində işləmişdir. 118, 137

Vıborq: Baltik dənizində Rusiyaya məxsus liman şəhəri. Fin körfəzinin şimal-şərq hissəsində yerləşən Vıborq körfəzinin sahilindədir. 66

Vilhelm II (Wilhelm II, 1859-1941): Almaniya imperatoru, 1888-1918-ci illərdə hakimiyyətdə olmuşdur. 119, 178, 397

Vilson, Vudro (Woodrow Wilson; 1856-

1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). I Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 12, 46, 47, 63, 64, 86, 88, 130, 131, 147, 148, 172, 180, 186, 187, 188, 197, 212, 224, 285, 291, 305, 340, 341, 350, 351, 404, 447, 468, 480, 505, 521, 522

Vinniçenko, Vladimir Kirilloviç (1880-1951): Ukraynanın ictimai-siyasi xadimi. Ukrayna Xalq Respublikası Direktoriyasının rəhbərlərindən olmuşdur. 66, 132

Vitseyn, Duqlas: Zaqafqaziyadakı Antanta heyətinə daxil olan Britaniya hərbçisi; kapitan. 190

Vorovski, Vatslav Vatslavoviç (1871-1923): Rus inqilabçı və diplomatı. 1917-1919-cu illərdə Stokholmda Rusiyanın Skandinaviya ölkələrindəki diplomatik nümayəndəsi vəzifəsini tutmuşdur. 1, 21, 38, 41, 61, 81, 97, 101, 121, 141, 156, 159, 179, 195, 199, 219, 235, 239, 259, 275, 279, 299, 317, 319, 339, 356, 359, 379, 396, 399, 417, 434, 437, 457, 474, 477, 497, 514, 517

“Voskresnaya gazeta”: bax. “Observer”.

“Vperyod”: “Daşnaksutyun” partiyasının Bakı şöbəsinin orqanı olan, rus dilində nəşr edilən qəzet. 23, 35, 61, 95, 115, 125, 352, 379

Yalama (dəmiryol stansiyası) 29, 174

Yalman: Göyçayın kəndi. 96

Yaponiya 48, 49, 144, 187, 188, 305, 367, 384, 505

“Yedinaya Rossiya”: Bakı Rus Milli Şurasının gündəlik qəzeti. 1918-1919-cu illərdə Bakıda nəşr olunmuşdur. 22, 24, 43, 46, 49, 61, 102, 125, 136, 330

Yekaterinenfeld: Gürcüstanda indiki Bolnisi şəhəri. 1918-ci ildə Borçalı qəzasının kəndi olmuşdur. 63

Yekaterinodar: Rusiyanın cənub-qərbində, Kuban çayının sahilində şəhər; indiki Krasnodar şəhəri 1920-ci ilə qədər Yekaterinodar adlanmışdır. 66, 67, 87, 305

Yekaterinoslav 64, 111

Yeni Bayəzid: Müasir dövrdə Ermənistan ərazisində, Göyçə gölünün qərbində şəhər. XIX əsrin ortalarına qədər Kəvər adlanan yaşayış məntəqəsi daha sonra Novo-Bayəzid və Nor-Bayəzid adlanmış, 1959-cu ildə Kamo, 1995-ci ildə isə Qavar adını almışdır. 75, 105, 343, 485

Yessentuki: Rusiyanın Stavropol diyarında kurort şəhəri. 87, 445, 479

Yeva xanım: bax. Olenskaya, Yeva.

Yevanqulov 35

Yevlax 33, 230, 253, 292, 374, 385

Yuxarı Ayıblı: Gəncə qəzasının kəndi. 58

Yunanıstan 67, 172, 305, 445

Yurdsevər, Əbdülvahab Məmmədzadə (yaxud Məhəmmədzadə; 1898-1976): publisist və siyasi xadim; Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçısı. Siyasi və ədəbi fəaliyyətini mühacirətdə davam etdirmişdir. 213

Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş Nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 59, 460.

Yusifzadə, Ağababa. 93

Yusifzadə, Əli (1900-1937): Azərbaycanlı şair, publisist və mütəfəkkir. Şuşada doğulmuşdur. Cümhuriyyət Hökuməti tərəfindən xaricə təhsilə göndərilmişdir. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 163, 405

Yusifzadə, Mirhəsən Seyid: Azərbaycanlı

publisist. Xüsusilə "Tuti" adlı məzhəkə jurnalında "Sırtıx", "Seyid Sırtıx", "Çayçı", "Münsif" kimi imzalarla çıxış etmişdir. 158

Zaqafqaziya 35, 219, 330, 355, 368, 444, 468, 521

Zaqatala 58, 74, 107, 146, 207, 219, 220, 221, 236, 471

"Zarya-Şəfəq" teatrı: Gəncədə teatr. 96

Zeynalov, Cahangir (1865-1918): Azərbaycanın ilk peşəkar aktyorların-dan. Azərbaycanda teatr sənətinin inkişafında misilsiz xidmətləri olmuşdur. 2, 26, 74, 90, 127, 128, 129, 130, 181, 391

Zəngəzur 34, 56, 82, 84, 127, 229, 253, 255, 256, 272, 369, 409, 497, 498, 511

Zərdab: bugünkü Zərdab şəhəri; Cümhuriyyət dövründə Göyçay qəzasının kəndi idi. 96

Zəyəm: Gəncə qəzasının nahiyəsi. 58

Zığ 15, 216

Zirə: Abşeronun kəndlərindən. 15, 216, 432

Ziya paşa (Əbdülhəmid Ziyaəddin; 1829-1880): Osmanlı imperiyasının dövlət xadimi, mütəfəkkir, şair və yazıçı. 52, 391

Ziyadxanov, Adil xan (1877-1957): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 103

"Znamya truda" 22, 26, 61, 72, 125, 352

Korrektor: Azad Ağaoğlu
Kitab üzlüyü və tərtib: Fikrət Məlikov

Nəşriyyat direktoru: Rəhilə Soltanqızı
Mətbəənin direktoru: Zöhrab Vəlibəyli
Texniki redaktor: Ruslan Mahmudov

Çapa imzalanmışdır: 19.08.2022
Formatı 70x100 1/16 . F.ç.v 35
Ofset kağızı, Ofset çapı. Səhifə sayı: 576
Tiraj: 300, Bakı-2022

Hazır materiallar əsasında
Çaşıoğlu Eİ-MMC
mətbəəsində çap edilmişdir.

ÇAŞIOĞLU

Bakı ş,. Mikayıl Müşfiq küç. 2A

ISBN 978-9952-8425-2-4

AZƏRBAYCAN

QƏZETİ

1918-1920

Müasir Azərbaycan dövlətçiliyinin bünövrəsinin qoyulduğu Cümhuriyyət illərində (1918-1920) nəşr edilən "Azərbaycan" qəzeti mətbuat tariximizdə müstəsna rol oynamışdır. Qəzetin səhifələrində dərc olunan rəsmi məlumatlar, yerli və xarici xəbərlər, dövrün qabaqcıl ziyalılarının məqalələri tariximizin bu zəngin səhifəsini əks etdirmək baxımından əvəzsizdir.

"Azərbaycan" qəzetinin ilk sayı 15 sentyabr 1918-ci ildə Gəncədə işıq üzü görmüş, 5-ci nömrədən etibarən qəzet Bakıda nəşr edilmişdir. Qəzetin sonuncu – 443-cü nömrəsi 28 aprel 1920-ci ildə çıxmışdır. "Azərbaycan"ın redaktorları Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim olmuşlar.

Cümhuriyyət dövrünün canlı şahidi olan "Azərbaycan" qəzetinin tam külliyyatının ilk dəfə olaraq ərəb əlifbasından latın qrafikalı müasir Azərbaycan əlifbasına çevrilməsini və çoxcildlik nəşrini ADA Universiteti həyata keçirir.

IV cild

(Yanvar 1919)

UNİVERSİTET ° UNIVERSITY

ADA